Həsən Mirzəyev

# Dərələyəz folkloru

# QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏY




Bu xəritə tarixi mənbə və xəritələrin əsasında

# ƏZ MAHALI (1828-ci il və sonraki dövrlər)




tərtib edilmişdir. Tərtibçi: Prof.H. Mirzəyev

# AVTOBİOQRAFİYA



**Mirzəyev Həsən İbrahim oğlu (Həsən Mirzə)** *1927-ci il noyabr ayının 26-da Qərbi Azərbaycanda, Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur.*

*1948-ci ildə orta məktəbi, 1950-ci ildə Naxçıvan Dövlət Müəllimlər İnstitutunu, 1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini, 1977-ci ildə Marksizm-Leninizm Universitetini fərqlənmə diplomları ilə bitirmiş, 1965-ci ildə namizədlik, 1987-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Filologiya elmləri doktoru, dilçi-türkoloq, professor, kafedra müdiridir. 200-dən çox elmi əsərin, o cümlədən 11 kitabın (10-u monoqrafiyadır), 8 tədris proqramının müəllifidir. Siyasətlə bağlı xeyli (60-dan artıq) publisist məqalələri vardır. O, 42 ədəd monoqrafiya, dərs vəsaiti, metodik göstəriş və tədris proqramının elmi redaktoru, 6 bədii əsərin redaktoru, 9 dərslik və dərs vəsaitinin, bir çox digər əsərlərin rəyçisi, 14 elmlər namizədi və elmlər doktorunun opponenti olmuş, xeyli elmi kadrlar (elmlər doktoru və elmlər namizədi) yetişdirmişdir. Hal-hazırda onun həyat, fəaliyyət və yaradıcılığı ilə bağlı 12 cilddən ibarət külliyyatı nəşr olunur.*

*Onun ictimai fəaliyyəti ilə bağlı mətbuatda 160-dan artıq mənbədə xoşməramlı fikir və rəy vardır. Yazdığı kitablar haqqında ixtisasçıların 40-dan artıq müsbət rəyi çap olunmuşdur. Respublikanın 70-dən çox şair və şair təbiətli adamları onun şəxsiyyətinə və yaradıcılığına 100-dən artıq şer və 2 poema həsr etmişdir. Bunların ümumi həcmi 3300 misradan çoxdur.*

*Uzun illər Azərbaycan Dövlət Pedaqoji Universitetində, Azərbaycan Milli EA-nın Dilçilik İnstitutunda, Bakı Dövlət Universitetində dilçilik üzrə ixtisaslaşdırılmış müdafiə şurasının üzvü olmuşdur. Ömrünün 45 ilini ali məktəb auditoriyalarında mühazirə oxuyan Həsən müəllim 55 ildən artıq əmək fəaliyyəti dövründə bir çox vəzifələrdə çalışmışdır. O, çoxlu qurultay və konfranslara nümayəndə seçilmiş, simpozium və konfransların iştirakçısı olmuşdur.*

*Respublika ali məktəb əlaçısı, Əmək veteranı, YAP Siyasi Şurasının, Yazıçılar və Jurnalistlər Birliyinin üzvüdür. "91-lər"in ağsaqqallarından biri, "Şöhrət orden"lidir. Xeyli müddət Respublika Ağsaqqallar Şurasında sədr müavini kimi fəaliyyət göstərmişdir. 1959-cu ildə kənd sovetinə, 1990-cı ildə Bakı Şəhər Sovetinə, 1998-ci ildə birinci çağırış, 2000-ci ildə ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmiş, Milli Məclisdə təhsil, etika və toponimika komissiyalarının üzvü olmuşdur. O, İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk sessiyasının (Milli Məclisdə sədr seçilən iclasın) sədri olmuşdur. Təcrübəli siyasətçi, nüfuzlu ictimai və dövlət xadimi olan Həsən Mirzəyev (Həsən Mirzə) 1998-ci ildə Məşhəd, 2000-ci ildə Həcc ziyarətində olmuşdur. Ailəlidir, 4 övladı, 10 nəvəsi vardır.*

81.2 Az
M 67

HƏSƏN MİRZƏYEV

*Səkkizinci cild*

# DƏRƏLƏYƏZ FOLKLORU

M.S. Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

Naxçıvan Mu... Respublikası
Elm ...
KİTABXANASI

114406

Bakı – «Elm» – 2006

*Azərbaycan folklorunun, Şərq ədəbiyyatının, şəriətin gözəl bilicisi, saz-söz sənətinin xiridarı, Füzulini, Sədi Şirazini, Firdovsini, Qumrini, Abbas Tufarqanlını, Xəstə Qasımı, Qurbanini, Valehi, Ələsgəri, Alını, Nizamini, Nəsimini, Şərqin hikmətlərini sinəsində gəzdirən, daim vətən dərdi ilə yaşayan, ensiklopedik məlumata, geniş dünyagörüşə malik olan, hazırcavab, məğrur, sinədəftər, əyilməz, qorxmaz, el ağsaqqalı olmuş atam İbrahim Mirzəlioğlunun əziz xatirəsinə ithaf edirəm.*

*TOPLAYANI VƏ TƏRTİB EDƏNİ:*
***Həsən İbrahim oğlu MİRZƏYEV***
*filologiya elmləri doktoru, professor.*

*ELMİ REDAKTORU:*
***Hüseyn İSMAYILOV,***
*filologiya elmləri doktoru, professor.*

*RƏYÇİLƏR:*
***Buludxan XƏLİLOV***
*filologiya elmləri doktoru, professor;*
***Qara MƏŞƏDİYEV***
*filologiya elmləri doktoru, professor.*

**Həsən Mirzəyev. 8-ci cild. Dərələyəz folkloru,** Bakı, «Elm», 2006, 768 səh.

**İSBN 5-8066-1712-2**

*Bu cilddə professor Həsən Mirzəyevin Qərbi Azərbaycanın Dərələyəz mahalından toplayıb tərtib etdiyi folklor nümunələri verilmişdir. Həmin folklor materialları bir sıra regional özünəməxsusluqlara malik olmaqla yanaşı, bu qədim Azərbaycan mahalının tarixən türk-oğuz yurdu olduğunu bir daha təsdiq edir.*

**4602000000**
**M ----------------- Qrifli nəşr**
**655(07)-2006**

**© Həsən Mirzəyev, 2006.**

# *MÜƏLLIFDƏN*

*Məlum olduğu kimi, folklor hər bir xalqın güzgüsü, onun möhürü rolunu oynayır. O, xalqın keçdiyi tarixi inkişaf yolunu, onun dünənini, bugününü, adətini, ənənəsini, mənəvi sərvətlərini yaxşı mühafizə edib saxlayır. Hər bir ziyalının, hər bir ixtisasçı alimin borcu odur ki, o xalqın bu mənəvi sərvətini gələcək nəslə çatdırsın.*

*Bütün dünya xalqları bilməlidir ki, Qərbi Azərbaycan, indiki Ermənistan adlanan yer, o cümlədən Dərələyəz mahalı sırf oğuz torpağıdır və bu yerlərdə hələ bizim eradan çox-çox əvvəllər də azərbaycanlılar yaşamışlar. Bu fikri yalnız mən demirəm, bunu onlarla tədqiqatçılar və tarixi faktlar deyir. Lakin birinci Pyotrun nəsihətini yerinə yetirən rus şovinistləri 1828-ci il Türkmənçay müqaviləsindən sonra bu yerlərə, o cümlədən Dərələyəzə Türkiyədən, İrandan, Suriyadan və başqa yerlərdən çoxlu erməni ailələri köçürüb məskunlaşdırdılar, azərbaycanlıların ən münbit torpaqlarını, strateji cəhətdən əhəmiyyətli kəndlərini onlara verdilər. Azərbaycanlıları tədricən bu yerlərdən sıxışdırıb çıxartdılar. 1905-1907, 1918-1919-cu illərdə ermənilər qanlı cinayətlər törətdilər, azərbaycanlıları doğma yurdlarından qovdular, 1948-1953-cü illərdə azərbaycanlıları, əsasən, vətənlərindən Azərbaycanın isti rayonlarına deportasiya etdilər, 1988-ci ildə isə Ermənistan adlanan respublikada olan bütün azərbaycanlılar əsrlər boyu yaşadıqları yerdən zorla qovuldular. Sovet hökuməti isə bilə-bilə buna göz yumdu.*

*Təəssüf hissi ilə qeyd olunmalıdır ki, 70 il müddətində - sovet hökumətinin hakimiyyəti dövründə Qərbi Azərbaycanın heç bir bölgəsinin folkloru lazımi səviyyədə tədqiq olunmamış və onun tədqiq olunmasına qələmə alınmasına şərait yaradılmamışdır.*

*Bütün bunları nəzərə alıb mən tarixi həqiqətləri, xalqımızın mənəvi sərvətlərini gələcək nəslə çatdırmaq üçün bu missiyanı öz üzərimə götürdüm. Düzdür, əvvəlcə bu işi yerinə yetirməkdə çətinlik çəkirdim, çünki ürəyimdə cərrahiyyə əməliyyatı aparılmışdı. Lakin heç kim bu ağırlığı üzərinə götürmədi. Dedilər ki, hal-hazırda Dərələyəz camaatının hərəsi bir yana dağılıbdır. Onlardan məlumat toplamaq çox çətindir. Yenə sən özün yaxşısan. Sən həm folkloru sevirsən, həm ona yaxşı tanışsan, həm də sən yazdığın "Dərələyəzin toponimləri və şivə sözləri" (2003) və "Qərbi Azərbaycanın Dərələyəz mahalı" (2004) adlı kitablarında bu məsələyə dair çoxlu faktlar vardır. Bundan başqa, səni bütün Dərələyəz camaatı tanıyır. Hansına desən o dərhal faktları yazıb verəcəkdir. Odur ki, bu işi sən yerinə yetir. Mən də bu təklifi qəbul etdim.*

*Təbiidir ki, bu birinci nəşrdə müəyyən çatışmamazlıqlar olacaqdır. Gələcək tədqiqatçılardan xahişim budur ki, onlar diqqətdən qaçan məsələləri düzəltsinlər.*

# DƏRƏLƏYƏZ MAHALI HAQQINDA QISA MƏLUMAT

Qədim türk-oğuz məskəni olan Dərələyəz mahalı hal-hazırda iki rayonu – Yeğeqnadzor (Keşkənd) və Əzizbəyov (Vayk) rayonlarını əhatə edir. Lakin Dərələyəz mahalı tarixən, Naxçıvan xanlığına tabe olduğu vaxt bundan da geniş ərazini əhatə etmişdir. Belə ki, Azərbaycanın hal-hazırkı Şərur rayonuna daxil olan Axura, Həmzəli, Həmzəli-Dizə, Yaycı, Cağazir, Danzik, Havuş, Günnüt kəndləri, həmçinin Ermənistanın Vedi rayonunun Çanaxçı, Hortun, Bağçacıq, Cəfərli, Qaşqa, Keşiş viranı və bəzi digər kəndləri də həmin vaxt Dərələyəz mahalına daxil idi.[1] Şərur-Dərələyəz qəzası İrəvan Quberniyasına daxil edildikdən sonra isə bu kəndlər, Şərur və Vedi rayonu ərazisinə qatıldı.

Əlavə edək ki, uzun müddət Dərələyəz mahalı ilə Şərur bir inzibati bölgüyə aid edilmiş və bu gah Naxçıvan əyalətinin, gah da İrəvan quberniyasının "Şərur-Dərələyəz" qəzası adlandırılmışdır. Qəzanın mərkəzi isə Şərurun Baş-Noraşen (Cəlilkənd) kəndi olmuşdur.

Türk-oğuz yurdu olan Dərələyəz 1920-ci ilə qədər Azərbaycanın tərkibində idi. 1920-ci il noyabrın 29-da Ermənistan Sovet Respublikası yarananda rus şovinistləri və erməni daşnaklarının, xüsusən, türk düşməni olan Stalin, Mikoyan və Şaumyanın köməyi və təkidi ilə Azərbaycanın Zəngəzur, Göyçə, Qaraqoyunlu mahalları ilə birlikdə Dərələyəz də Azərbaycandan alınıb Ermənistana verildi.

1931-ci il oktyabrın 15-də Dərələyəz Ermənistan hökuməti tərəfindən 2 rayona – Keşişkənd (Keşkənd, Yeğeqnadzor) və Paşalı (Əzizbəyov) rayonlarına bölündü.

Dərələyəzin indiki sahəsi 2308 kv. km-dir. Bu sahədən 1134 kv. km Yeğeqnadzor (Keşkənd//Keşişkənd) rayonunun, 1174 kv. km isə Əzizbəyov (Paşalı, Vayk) rayonunun payına düşür.

Keşkənd rayonu 1931-ci ildən 1935-ci ilə qədər Keşişkənd, 1935-ci ildən 1956-cı ilə qədər Mikoyan, 1956-cı il oktyabrın 12-dən Əzizbəyov, 1957-ci ildən sonra isə Yeğeqnadzor (Qamışlı dərə) adlandırılmışdır. Əzizbəyov rayonu isə 1931-ci ildən Paşalı, 1956-cı ildən Əzizbəyov, 1988-ci ildən Vayk adlandırılmışdır.

1957-ci ildə rayonlar yenidən ayrıldı. Konfransda ermənilər Yeğeqnadzor rayonuna yenidən Mikoyanın adının verilməsini təklif etdilər. Lakin bu adı Moskva təsdiq etmədi. Bir müddətdən sonra bu adı dəyişdirib rayona Yeğeqnadzor (Qa-

-----------------

1. Bax: Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, стр.160-176; Əziz Ələkbərli. Qərbi Azərbaycan, Vedibasar mahalı, I cild, Bakı, 2000, səh.589.

mışlı dərə) adı verdilər. Paşalı rayonuna isə yenidən Əzizbəyovun adı verildi. Əzizbəyovun adının əvvəlcə hər iki birləşmiş rayona, sonra isə təkcə Paşalı rayonuna verilməsi bu iki rayonda olan şovinist ermənilləri çox narahat edirdi. Bu adı dəyişməyə çalışırdılar. Hətta iki rayon birləşəndə də bu haqda çox mübahisələr oldu.

Nəhayət, 1991-ci ildə Əzizbəyovun adını götürüb rayona Vayk adı verdilər.

Dərələyəz mahalı 9 rayonun – Şərur, Sədərək, Babək, Şahbuz, Kəlbəcər, Vedi (Ararat), Qaranlıq (Martuni), Basarkeçər (Vardenis), Qarakilsə (Sisyan) rayonunun əhatəsində yerləşir, çox böyük bir ərazini əhatə edir.

Dərələyəz mahalı yüksək dağ silsilələri ilə əhatə olunmuşdur. Onun ətraf və sərhədlərində Ağmanqan, Əyricə, Selimin gədiyi, Şahabbas//Səlimin karvansarası, Yanığın düzü, Xartdığın yalı, Dəmirtəpə, Qaraçı yurdu, Təzəkli, Murtuza yurdu, Soğanlı, Qaçaq qayası, Xalaclar yurdu, Versin dağı, Dikpilləkən, Bərkdərə, Əyri yol, Soyuqbulaq, Sarı yer, Muradtəpə, Keçəldağ, Qırxbulaq, Qısır dağ, Quşçubilək, Biçənək aşırımı, Batabat və s. yüzlərlə oğuz türklərinə məxsus dağlar, yaylaqlar, aşırımlar, yollar vardır.

Arpa çayının iki böyük qolu mənbəyini Dərələyəzin sərhədlərindən götürüb Şərur ərazisində Araz çayına tökülür.

Dərələyəz yeraltı və yerüstü sərvətləri ilə də zəngindir. Burada böyük ehtiyatlara malik olan qızıl, gümüş, molibden, zəy yataqları, böyük meşəliklər, bütün növ meyvə bağları vardır. Maldarlıq-qoyunçuluq, taxılçılıq, arıçılıq, tütünçülük, xalçaçılıq, quşçuluq geniş şəkildə inkişaf etmişdir. İnşaat materialı üçün ağacı və daşı boldur. Dərələyəz yabanı meyvələrlə və dərman bitkiləri ilə də zəngindir. Zəngin flora və faunası olan Dərələyəzin meşələrində, dağlarında vəhşi heyvanlar, quşlar çoxdur. Dərələyəzin qızılala (farel) balığı, dağ keçisi və arğalısı, xınalı və qu kəkliyi, sərin bulaqları, müalicə suları (Səfolar və Gədikvəng isti suyu) dillərdə əzbərdir.

Qafqazı qarış-qarış gəzən, Qafqazın tarixi, coğrafiyası, toponimləri... haqqında sanballı kitab yazan, Dərələyəzə yaxından bələd olan İ.Şopen yazır ki, Dərələyəz Qafqazın Şvesariyasıdır.[1]

* * *

Ən qədim insan məskənlərindən biri də Dərələyəz mahalıdır. Tarixçilərin rəyinə görə bu yerlərdə "ən qədim insanların müşahidə edilməsi e. ə. 2-ci minilliyə təsadüf edir".[2]

---------------------

1. И.Шопен. Исторические памятники состояние армянской областе в эпоху ее присоединения к Российской империи, (Эреванской губерний) СПб, 1852, стр. 350.

2. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu – "Ermənistan", Bakı, 1994, səh.17.

Tarixdən məlumdur ki, indi Ermənistan adlanan yer, o cümlədən Dərələyəz qədim türk-oğuz məskəni olmuş və burada türk tayfaları yaşamışlar. Tarix boyu bu yerlərdə türk dövlətləri (...Səlcuq, Elxani, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi və s.) hakim olmuşdur.[1] Təkzibedilməz faktdır ki, hələ bizim eradan çox-çox əvvəl bura, xüsusən Dərələyəz Albaniyanın tərkibində olmuşdur. Bir sözlə, bu yerlər qədimdən türk-oğuz məskənidir. "...ermənilər Qafqaza və Ön Asiyaya çox-çox sonralar gəlmişlər. Əslində onlar heç vaxt özlərini erməni adlandırmamış, milliyyətlərinə "hay", "vətənlərinə" "hayrenik" demişlər. İndiki "Ermənistan" ərazisində isə vaxtilə "ərmən" adlı türk tayfaları yaşayıb və bu ərazilər həmin tayfaların adı ilə "Ərməniyyə" adlandırılıb. "Ərmən" etnoniminin sırf türk sözü olması da deyilənləri təsdiq edir. Sonralar bu ərazilərə köçüb gələn haylar tədricən yerli ərmən tayfalarının torpaqlarında özlərinə yer edərək həmin ərazilərin adı ilə "ərməni", yəni "Ərmənli", "ərməniyyəli" adlanmağa başlayıblar.[2] Hayların bu yerlərdəki etnik-siyasi nüfuzu o qədər zəif olub ki, sonralar bütün dünya onları öz adları ilə yox, məhz "ərmənli, ərməni" kimi tanıyıb. Bununla belə, son dərəcə hiyləgər olan haylar (ermənilər) zaman-zaman öz məkirli niyyətlərini həyata keçirmişlər. Belə ki, vaxtilə ancaq Azərbaycan türkləri yaşayan "Ermənistan" torpaqlarında bu gün ancaq haylar yaşayırlar".[3]

Məlum olduğu kimi, hələ bizim eradan çox-çox əvvəl dünyanın ən böyük bir ərazisində məskunlaşan türk xalqları tarix boyu öz doğma torpaqlarını qorumaq üçün qanlı müharibələrlə üzləşmişlər. Atilla, Çingizxan, Teymurləng, İldırım Bəyazid, Şah İsmayıl kimi fatehlər bu torpaqları qorumaq üçün çox iş görmüşlər. Macarıstandan Çıxota, Ob-Yeniseydən Dəclə və Fərat çaylarına, Qafqazdan İran körfəzinə qədər uzanan türk torpaqlarını göz bəbəyi kimi qorumuşlar. Şumer mədəniyyəti, incəsənəti qədər qədim olan, onunla bir mənbədən qidalanan türk mədəniyyətini, incəsənətini, bir sözlə, ulu türk xalqını və onun ana torpaqlarını dünyaya tanıtmaq üçün əllərindən gələni əsirgəməmişlər.

Lakin türk tayfaları və dövlətləri arasında gedən çəkişmələr, müharibələr onların zəifənməsinə səbəb olurdu. Teymurləng və İldırım Bəyazid kimi fatehlərin üz-üzə gəlməsi türk dünyasının sarsılmasına, get-gedə parçalanmasına, düşmənlərin baş qaldırmasına şərait yaradırdı. Belə vəziyyətdə

-------------------

1. Azərbaycan tarixi, Bakı, 1994.

2. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu – "Ermənistan", Bakı, 1994, səh.17; Azərbaycan tarixi xəritələri, "Azərbaycan Ensiklopediyası" nəşriyyat, Poliqrafiya birliyi, Bakı, 1994.

3. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu – "Ermənistan", Bakı, 1994, səh. 18-19.

Azərbaycan torpaqlarını qoruyub saxlamaq işi də çətinləşirdi. Bu cəhətdən xalqımızın yenilməz oğlu Azərbaycan Səfəvilər dövlətinin banisi Şah İsmayılın xidmətləri daha böyükdür. O, Azərbaycan torpaqlarına göz dikənlərə layiqli cavab verir, onlarla qanlı döyüşlər aparırdı. Bu zaman o, bir sıra çətinliklərlə də qarşılaşırdı. Bunun bir səbəbi də Azərbaycanın geniş əraziyə malik olması idi. Onu demək kifayətdir ki, Şah İsmayılın hakimiyyəti dövründə Səfəvilər dövləti Şərqdə öz bək, Qərbdə isə Osmanlı İmperiyası ilə həmsərhəd idi. Ümumən, Səfəvilər dövləti Amur-Dəryadan Fəratadək uzanıb gedən böyük bir ərazini əhatə edirdi.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Şah İsmayılın yaratdığı və ümumi sahəsi 420 min kv. km-dən çox olan Azərbaycan dövləti get-gedə öz mövqeyini itirdi, xalqımızın əzəli torpaqları yadların əlinə keçdi: "Şimala və Cənuba, Kərkükə və Dərbəndə, Borçalıya və Ermənistana" parçalandı.[1]

Məlum olduğu kimi, Azərbaycan torpaqlarının parçalanması, əsasən, I Pyotrun vəsiyyətindən sonrakı dövrə təsadüf edir. I Pyotrun Qafqaz, Anadolu və İran haqqındakı vəsiyyətinin əsas məğzi budur: Rusiyadan Ağ dənizə qədər olan yerləri tutmaq. Ağ dənizə çıxmaq üçün isə mütləq Osmanlını, İranı, Azərbaycanı, bütün Qafqazı istila etmək; həmin dövlətlərin daxilində çaxnaşma salmaq, bu məsələdə ermənilərdən istifadə etmək, İran dövlətini Osmanlı Türkiyəsi və Azərbaycan ilə üz-üzə qoymaq. İstila edilmiş yerlərdə vahimə yaratmaq, müsəlmanları, xüsusən türkləri sıxışdırıb qaçmağa məcbur etmək, bunların yerində xristianları-erməniləri, xaxolları (malakanları), almanları məskunlaşdırmaq və s.

Rusiya hökmdarları bu vəsiyyəti əsas götürüb 1804-1813, 1826-1828-ci illərdə İranla, 1806-1812, 1828-1829-cu illərdə isə Osmanlı Türkiyəsi ilə qanlı döyüşlərə başladı, bu ölkələrin bir çox yerlərini tutdu, Qafqazı, o cümlədən, Azərbaycanın şimal hissəsini özünə tabe etdi. Azərbaycanın cənub hissəsi isə Türkmənçay müqaviləsinə görə İranın tabeliyində qaldı. Azərbaycan torpaqlarının sinəsindən şırımlar açıldı. Bu şırımlar sonrakı dövrlərdə daha da çoxaldı. İki əsrə yaxın bir dövrdə Azərbaycan xalqının sinəsinə sağalmaz dağlar çəkildi. Araz çayının şimalında olan Azərbaycan torpaqları 4 yerə parçalandı. Rusiya Dərbəndi və bunun ətrafını özünə götürdü, Borçalını, Qarayazını, Başkeçidi... Gürcüstana verdi. Çuxursəd, Kümrü, İrəvan, Zəngibasar, Gərnibasar, Vedibasar kimi yerlərimiz, Dərələyəz, Zəngəzur, Göyçə, Pəmbək, Ağbaba, Loru, Şurayel kimi mahallarımız əlimizdən alındı. Rusiya türk-oğuz torpaqlarımızın üzərində ermənilər üçün dövlət yaratdı. Azərbaycanın əlində qalan az

---

1. Əziz Ələkbərli. Qədim türk-oğuz yurdu – "Ermənistan", Bakı, 1994, səh.9.

bir qisim torpaq da sonrakı dövrlərdə hissə-hissə, kəsilib ermənilərə verildi. Bu proses indi də davam etməkdədir. Bir sözlə, rus, erməni, gürcü, fars şovinistlərinin xəyanəti, məkirli siyasəti nəticəsində Azərbaycan torpaqları, türk-oğuz yurdları talan edildi.

Azərbaycanın bu qədim torpaqlarında yaşayan azərbaycanlıların çoxu sıxışdırılıb öz yurdlarından qovuldu, məhrumiyyətlərə düçar olundular. Bunlar yurd-yuvalarını itirdilər. Bu yerlərə xristianlar yerləşdirildi. Azərbaycanlılar ermənilər tərəfindən dəfələrlə deportasiyaya və soyqırımına məruz qaldılar.

Azərbaycan alimləri, şairləri, yazıçıları, el ağsaqqalları, generalları, Hüseyn Cavid, Əlibəy Hüseynzadə, Əhməd Ağayev, Əhməd Cavad kimi yüzlərlə görkəmli adamlar vətənindən sürgün edildi, yurd-yuvasından didərgin düşdü, zindanlara salındı, öldürüldü. Bir sözlə, Azərbaycanın düşünən beyinləri, vuran əlləri məhv edildi.

Əlifbası 3 dəfə dəyişdirildi. Ərəb əlifbasından latın əlifbasına, latından kirilə keçildi. İndiki nəsillə keçmiş nəslin arasında, həmçinin digər türk və müsəlman dövlətləri arasında əsirlər boyu yaranmış əlaqələr kəsildi. Gələcək nəslin soykökümüzü, tariximizi, qədim ədəbiyyat və incəsənətimizi, mədəniyyətimizi, bir sözlə, tarixi keçmişimizi öyrənmək yolları kəsildi. Türk xalqının qədimliyi inkar edildi.

1918-1920-ci illərdə Şimali Azərbaycan öz müstəqil dövlətini yaratdısa da bunun ömrü çox az oldu, 23 ay ömür sürdü. Rus imperiyası bu müstəqilliyi zorla onun əlindən aldı. Azərbaycanın müstəqil dövlət kimi yaşamasına imkan vermədi, onu öz müstəmləkəsinə çevirdi.

Azərbaycanın İranın tabeliyinə keçən cənub hissəsində də vəziyyət acınacaqlı oldu. Azərbaycanın buradakı torpaqları əyalətlərə, ostanlara bölündü – Azərbaycan sözü İran, azərbaycanlı sözü müsəlman sözü ilə əvəz edildi. 30 milyondan artıq azərbaycanlıya ana dilində oxumaq, orta və ali təhsil almaq yasaq olundu. 1943-cü ildə burada S.C.Pişəvərinin başçılığı ilə müstəqil Azərbaycan dövləti yaransa da bunun ömrü qısa oldu. Rus, erməni, gürcü və fars şovinistlərin xəyanəti nəticəsində bu dövlət yaşamadı. Burada müstəqil Azərbaycan dövlətini yaradanlar təqib olundu, dar ağaclarından asıldı, zindanlara salındı, vətənindən qaçmağa məcbur oldu, planetin bir çox bölgələrinə səpələndilər.

Azərbaycanlıların faciəli günləri qədim türk-oğuz yurdu olan Ermənistan ərazisində daha yüksək vüsət aldı. "XIX yüzilliyin axırı və XX yüzillik Ermənistan azərbaycanlılarının həyatında ən dəhşətli işgəncələr, qırğınlar, qaçqınlar, soyqırımı, mənəvi genosid dövrü olmuşdur".[1]

---

1. İ.Məmmədov və S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi, Bakı, 1992.

Fikrimizcə, bir cümlədə deyilən bu fikir göstərilən dövrü yaxşı əks etdirir. Əlavə edək ki, XIX və XX yüzilliklərdə azərbaycanlılar daha çox müsibətlər görmüşlər. Bu dövrdə azərbaycanlıların köçürülməsi, sıxışdırılması, doğma yurdlarında ermənilərin məskunlaşdırılması daha böyük vüsət almışdı.

Tarixçi tədqiqatçılarımız, qədim türk-o uz yurdu olan Ermənistanda yaşayan azərbaycanlıların öz torpağından qaçqın düşməsini, soyqırımına məruz qalmasını, əsasən, dörd mərhələyə (1905-1907, 1918-1920, 1948-1953, 1988) bölürlər.

Tarixi faktlara əsasən demək olar ki, indiki Ermənistan ərazisində yaşamış azərbaycanlıların faciəli günləri iki əsr davam etmişdir ki, bunu da iki yerə ayırmaq lazımdır.

1. Azərbaycanlılara qarşı törədilən cinayətlərin gizli şəkildə həyata keçirildiyi dövr.

2. Azərbaycanlılara qarşı törədilən cinayətlərin açıq-aşkar şəkildə həyata keçirilməsi dövrü.

Azərbaycanlılara qarşı törədilən bu cinayətlər 5 mərhələdə özünün kulminasiya nöqtəsinə çatmışdır. Bunu aşağıdakı kimi ümumiləşdirmək olar: 1828-1832, 1905-1907, 1918-1920, 1948-1953, 1987-1988-ci illər. Yerdə qalan illərdə isə (1804-1828, 1833-1904, 1908-1917, 1921-1940, 1945-1947, 1954-1987) rus, erməni və gürcü şovinistləri azərbaycanlıları, əsasən, gizli yolla, fitnə-fəsad yolu ilə soyqırımına, kütləvi şəkildə köçürmələrə məruz qoymaq üçün hazırlıq işləri aparmışlar...

Dünyanın böyük, təkrarolunmaz siyasətçisi, ümumilli liderimiz cənab Heydər Əliyev deyir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir."[1]

---

1. Heydər Əliyev. "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 18 dekabr, 1997.

# DƏRƏLƏYƏZ BAŞQA BÖLGƏ ŞAİRLƏRİNİN GÖZÜNDƏ

***SƏADƏT BUTA***

## *DƏRƏLƏYƏZDƏ*

*(«Dərələyəz» poemasından bir parça)*

*Həsən Mirzə, hər kəlmənin başında,*
*Oba dedin, oymaq dedin, el dedin.*
*Vətənsizin heç vaxt olmaz qiyməti,*
*Dərələzin torpağına ləl dedin.*

*Vətənini hər bir eldə tanıtdın,*
*Tərif yazıb saldın onu dastana.*
*Qəvvas oldun el ümmanı içində,*
*Səda saldın anam Azərbaycana.*

*Mən də düşdüm sorağına, izinə,*
*O dağları qarış-qarış dolaşdım.*
*Gördüm sənin dediklərin doğrudur,*
*Nəğmə olub torpağına qarışdım.*
*Tanrı Dərələzə veribdi qüdrət,*
*Torpağı möcüzə, havası nemət*
*İnsanlar elə bil şair doğulub.*
*Təpədən dırnağa hikmət, şeriyyət,*
*Torpağa gül-çiçək min bəzək vurub,*
*Elə bil xalçadı, xalı sərilib.*
*Qonşu qonşusuynan çox mehribandı,*
*Bu elin istəyi haqdan verilib.*
*Qonşunun bağına bir daş atanı,*
*Dərhal daşa basar, daşa çəkərlər,*
*Yaxşı tanıyırlar aqil adamı,*
*Məclisdə yer verib başa çəkərlər.*
*Burda ad qazanıb hər kəsin özü,*
*Yaltağın, alçağın ötməyib sözü.*
*Burda yalan sözə düz deyilməyib,*
*İsmətsiz gözələ qız deyilməyib.*
*Yananı, qananı el özü seçib,*
*Çör-çöpün qoruna köz deyilməyib.*

*Burda hörməti var şerin, sənətin,*
*Tarixi uyuyur bir məmləkətin.*
*Baba yadigarı hər qaya, hər daş,*
*Dərələzi heç vaxt unutmaq olmaz.*

*Göyü hikmətlidir, yeri sərvətli,*
*Nəğmədir, şeirdir el, Dərələzdə.*
*Tarixi qiymətli, sirri qiymətli,*
*Hələ açılmayıb bil, Dərələzdə.*

*Yağışı leysandı, dumanı qatı,*
*Burda hər igidin köhləndi atı,*
*Dərmandı havası, bal, qaymaq qatı,*
*Çiçək Dərələzdə, gül Dərələzdə.*

*Salsalın qalası, uca Vers dağı,*
*Qəndbölən çalası, Nəbi sorağı.*
*Cənnət misallıdı bağçası, bağı,*
*Sonalar məskəni göl, Dərələzdə.*

*"Cəlili" üstündə Cəlil havası,*
*Məclisi məst edib şirin laylası,*
*Aşıq Qəhrəmanın nitqi, nidası,*
*Ötüb pərdə-pərdə tel, Dərələzdə.*

*Vətənin sevgisi cana hopubdu,*
*İliyə işdiyib, qana hopubdu,*
*Qəlbimizə yana-yana hopubdu,*
*Möcüzədi çəmən-çöl, Dərələzdə.*

*Yerli-yerindədi elin adəti,*
*Qonağın hörməti, mərdin qiyməti,*
*Sözünün ağası, qərarı qəti,*
*Doğrunu danışan dil, Dərələzdə.*

*Qız, gəlinlər bala qatar qaymağı,*
*Qalaylı tavada çalar quymağı,*
*Çılğıda pendiri, sərnicdə yağı,*
*Qalmaq istəyirsən qal, Dərələzdə.*

*Gözəl bir xalıdı toxuyub fələk,*
*Yamanı tapılmaz et ələk-vələk,*
*Səhər sərin-sərin əsəndə külək,*
*Könül istər qala il, Dərələzdə.*

*Tanrının payıdır dövləti-varı,*
*Hər gül yarpağına qonur bir arı,*
*Yaz başı əriyər dağların qarı,*
*Sığmaz dərələrə sel, Dərələzdə.*

*Seçər bir-birindən yaxını, yadı,*
*Müqəddəs saxlayır el təmiz adı,*
*Buğdanın çörəyi, lavaşın dadı,*
*Bal olar dostunla böl, Dərələzdə.*

*Qara naxır Soğanlıda dolanmır,*
*Axan sular ağ sürüdən bulanmır,*
*Yurd yerinin od-ocağı qalanmır,*
*Pərən-pərən olub el, Dərələzdə.*
*Buta istər qala il, Dərələzdə.*

## *DƏRƏLƏYƏZDƏDİ**
*(Dərələzdədi)*
*(poema)*

*Bu millətin Allah kəsib payın da,*
*Köməyə gedən yox el harayında,*
*Sel-suya qovuşan Arpa çayında,*
*Çobanın Sarası Dərələzdədi.*

*Yüz dərdə dərmandı Səfo bulağı,*
*Axtarma pendiri, nehrənin yağı,*
*Kababla yeməyə quzu qulağı,*
*Çaşır şorabası Dərələzdədi.*

*Terpdəydi Nəcibə, Muzəyyəm, Püstə,*
*Lavaşı bişirib yığır üst-üstə,*
*Kababı təndirdə, ocağın üstə,*
*Qovurma tavası Dərələzdədi.*

*Otun mədənidir Qısırın yalı,*
*Alaçıx yerləri qalıbdı xalı,*
*Səhər göy xiyarla, beçənin balı,*
*Qaymağı, xaması Dərələzdədi.*

*Gicirtkan, kəkotu, əvəlik, nanə,*
*Qantəpər, qulançar bilməz divanə,*
*Yarpızla baldırğan kimi dərmanə,*
*Xalqın iştahası Dərələzdədi.*

*Cincilim, unnuca, örtübdü bağı,*
*Xəlyar baş qaldırır ilk bahar çağı,*
*Çiyələk çətənə, pişik çaynağı,*
*Şomu, yer alması Dərələzdədi.*

*Göbələkdi bir çox dərdin dərmanı,*
*O daş göbələyin ləzzəti hanı?*
*Ələyəz, qırxbuğum göylər sultanı,*
*Yeməli balvası Dərələzdədi.*

*Zirincə, fısdığa biganə qalma,*
*Qarağat, qarellə, həmərsin, alma,*
*Payız qar örtdüyü başına çalma,*
*Qarağat anası Dərələzdədi.*

---------------------------

* *Vəznin pozulmaması üçün «Dərələyəzdədi» sözü «Dərələzdədi» şəklində işlənmişdir*

*Çay tikanı, əzgil, zoğal , gavalı,*
*Moruğun dadından kim deyil halı?*
*Armud, alça, qəysi-ərik, albalı,*
*Meşəlik zonası Dərələzdədi.*

*Xınalı kəkliyi, sürüdü çili,*
*Qırqovulun donu əlvan biçili,*
*Dağda fır kəkliyi, bülbülün dili,*
*Əliyin buğası Dərələzdədi.*

*Məni valeh edən Arınc bağıdır,*
*Sərvətin biri də gəvən yağıdır,*
*Musiqi sədası fikir dağıdır,*
*Bil xəyal dünyası Dərələzdədi.*

*Mehriban qarşılar el qonaqları,*
*Vallah öyünməyə vardı haqqları,*
*Çiçəkli dağları, büz bulaqları,*
*Əmliyi, çolpası Dərələzdədi.*

*İlahi yaradıb bu dağ dərəni,*
*Özü bəzəyibdi bu mənzərəni,*
*Ora valeh edir gedib görəni,*
*Cənnətin forması Dərələzdədi.*

*Göy dağa çıxardı Bulaqlar, Arınc,*
*Gəzdim o, yerləri hey qarış-qarış,*
*Vaxtsız baharımı aldı boran, qış,*
*Cənnətin havası Dərələzdədi.*

*Arıncda sürüdü qaya keçisi,*
*Qayadan sallanır arı beçəsi,*
*Qalmayıb bir nəfər orda köçəsi,*
*Elin matəm yası Dərələzdədi.*

*Hər daşın dibindən kəklik uçurdu,*
*Ot örtüb itirib yaylaqda yurdu,*
*Qız gəlinlər yığıb ələ qoyurdu,*
*Daşların xınası Dərələzdədi.*

*Gözü yox dağılan xanımanında,*
*Övladına fəda edir canın da,*
*Yuxusuz gecələr beşik yanında,*
*Gəlinlər laylası Dərələzdədi.*

*Nəcəfqulu bəyin adı gələndə,*
*Qorxudan erməni girmirdi kəndə,*
*El ağladı, Hürü xanım öləndə,*
*Dağılan obası Dərələzdədi.*

*Qarabağ tanıyır Firuddin adın,*
*Nəcəfqulu bəyin bu bəy övladın,*
*Aslan oğlu Müseyibin, Azadın,*
*Xan Təhməz babası Dərələzdədi.*

*Gedən yox millətin xeyir, şərinə,*
*Həsrət qaldı uşağına, ərinə,*
*Sulara qərq olan muzey yerinə,*
*Babalar çuxası Dərələzdədi.*

*Naləsi kəsilmir tuti dillərin,*
*Qurbanı oldular ağır illərin,*
*Həyalı, ismətli qız, gəlinlərin,*
*Örtülü yaxası Dərələzdədi.*

*Papaq alıb toy, bayramda ötüşən,*
*Getdi ərlər, yoxdu dada yetişən,*
*Fəryadı dağlara, daşlara düşən,*
*Analar naləsi Dərələzdədi.*

*Dözülən dərd deyil dərdi, bunların,*
*Qurbanı oldular coşğun suların,*
*Xalqını yaşadan sənətkarların,*
*Yarımçıq hanası Dərələzdədi.*

*Şahin, Sabir, Nadir bəy nəslidilər,*
*Nəcəfqulu bəyin öz əslidilər,*
*Yurdların görməyə həvəslidilər,*
*Baba nişanəsi Dərələzdədi.*

*Orda ağsaqqalı elin, obanın,*
*Cəmilin atası Fətdah babanın,*
*O, torpaq çürütdü baharın canın,*
*Anaxanım anası Dərələzdədi.*

*Dəyirman işlədən qara bulağı,*
*Qışa hazırlıqdı kərmə qalağı,*
*Yük daşıyan, odun çəkən ulağı,*
*Lordunun yarası Dərələzdədi.*

*Dağılıb mağarı, susubdu toyu,*
*Əzabla yaşayıb o ömrü boyu,*
*Gözündən qan tökür Arıncın suyu,*
*Təhməzin sonası Dərələzdədi.*

*Qaldı ziyarətgah, ocaq da, pir də,*
*Getdi, o, yerləri görmərəm bir də,*
*Düşmən tapdağında qalan qəbirdə,*
*Elin gül balası Dərələzdədi.*

*İtkilər versək də biz qalaq, qalaq,*
*Qoyma intizardan vaxtsız qocalax,*
*Famil, Çərkəz yurdumuzu qaytaraq!*
*Bünövrə bənnası Dərələzdədi.*

*Dedi: - Fazil at döşünə qat məni!*
*Erməni çatıbdı tez ol at məni!*
*Baharam qoy görsün camaat məni,*
*Qan dolan çalası Dərələzdədi.*

*Ürəyimin sağalarmı yarası,*
*Qaldı şah Abbasın Karvansarası,*
*Sarı yerdi gözlərimin qarası,*
*Al yaşıl libası Dərələzdədi.*

*Heyran idim ora sözün açığı,*
*Yaylaxda qurardı el alaçığı,*
*Mərdləri, igidi, əli açığı,*
*Xalqımın səxası Dərələzdədi.*

*Ata babadandı orda bu adət,*
*Ağsaqqala hörmət, dosta sədaqət,*
*Gəzdim o yerləri gördüm kəndbəkənd,*
*İnsanların xası Dərələzdədi.*

*Ağsaqqal sən, oxumuş sən, pir də sən,*
*Oyan, qalx ayağa, ay axund Həsən,*
*Bu xalqına təsəlli ver bir də sən,*
*Min ciyər parası Dərələzdədi.*

*Mahalda görmədim Cəmilin tayın,*
*İlahi sənətdən vermişdi payın,*
*Zurnaçı Əhmədin, aşıq Azayın,*
*Sazı, təzyanası Dərələzdədi.*

*Dığalar millətə tutduğu divan,*
*Yenə unudulur keçdikcə zaman,*
*Əlpənah çaldığı şirin balaman,*
*Qafarın zurnası Dərələzdədi.*

*El, mahal tanıyır orda Surxayı,*
*Səxada kim olar Surxayın tayı?*
*Qarışdı torpağa Qüdrətin payı,*
*Cavan cənazəsi Dərələzdədi.*

*Həyatdan yarımçıq üzüldü əli,*
*Terpdə qoyulmuşdu mərmər heykəli,*
*Babasının adın daşıyır Vəli,*
*Vəlinin sədası Dərələzdədi.*

*Arpa çayı kimi axırdı qanı,*
*Qurudu torpaqda günahsız canı,*
*Yetim qoydu yurdu o, Məmərzanı,*
*Talan Məmərzası Dərələzdədi.*

*Axtadakı qay arısı dağında,*
*Təhnəli bulağın matəm çağında,*
*Əbədi qaralmış hər ocağında,*
*Qəriblik mənası Dərələzdədi.*

*Bayatı ustası Cırrannı Əli,*
*Nərə çəkdi ordan çıxanda Əli,*
*İdrisə dayaq ol ya Həzrət Əli,*
*Fəryad zənguləsi Dərələzdədi.*

*Əhməd oğlu Səməd ceyranlıdandı,*
*Sözləri kəsərli, gözləri qanlı,*
*Erməni qırmağa kişi bir candı,*
*İgidlər yuvası Dərələzdədi.*

*Kurortdu, cənnətdi Culun torpağı,*
*Hacı Cəbrayılın yelli yaylağı,*
*Meşəsi, buzluğu, Oruc bulağı,*
*Həm kömürxanası Dərələzdədi.*

*Tubulqadan şiş düzəldib, yaylaxda,*
*Gedib kabab bişirərdik ocaxda,*
*Hacı Fərhad yurdundakı bulaqda,*
*Dərdlərin çarəsi Dərələzdədi.*

*Bir də görəm qızıl balıq xalını,*
*Meh daraya ilxıların yalını,*
*Kaş aşa biləydim Köşbəy yalını,*
*Gözümün qarası Dərələzdədi.*

*Koroğlu qayasın alıbdı yağı,*
*Baba bulağını, Damcı bulağı,*
*Düşmənlərə qalan Hopurlu dağı,*
*Həm gümüşxanası Dərələzdədi.*

*Qan göz İsmixanım qalxa ayağa,*
*Dura qaçaq Yunus Mehtioğlu Ağa,*
*El bir də qayıda Alma bulağa,*
*Qurbana danası Dərələzdədi.*

*İgiddi, cəlladdı, qorxmazdı Ağa,*
*Onun qarşısında əsərdi dığa,*
*Baxmışam qaralan, sönən ocağa,*
*Kül olan sobası Dərələzdədi.*

*Ağa erməniyə olmuşdu yağı,*
*O, kəsən başların yoxdu sorağı,*
*Silaha sarındı, arvad, uşağı,*
*Gəlinlər davası Dərələzdədi.*

*Erməni qıranda turşutmur qaşın,*
*Camaat içində ucadır başın,*
*Daldasına sığındığın hər daşın,*
*O, cəbhəxanası Dərələzdədi.*

*Hacı Cəbrailə verib ruzigar,*
*Üç yüzdən çox nəvə, nəticəsi var,*
*Səxadan yaranıb, bax bu uşaqlar,*
*Dağılan parəsi Dərələzdədi.*

*Vidadi unutmur doğma yurdunu,*
*Yazdığı kitablar göstərir bunu,*
*[illegible] yaşadığı ömrü uzunu,*
*Gənclik züm-züməsi Dərələzdədi.*

*Eyvaz, Xalıqverdi, Vasif, Hidayət,*
*Azadla, Hüseyndə vardı dəyanət,*
*İsayev Şamilə, deyil ki, xəlvət,*
*Ellərin dühası Dərələzdədi.*

*Uçub Hüseyinin, Bağırın qəbri,*
*Bəşirov Mamedin tükənib səbri,*
*Bütün mahallarda dillər əzbəri,*
*İdris şikəstəsi Dərələzdədi.*

*Kim vurğun deyil ki, bahar çağına,*
*Nəcəfqulu bəyin o, Göy dağına,*
*Təbiət çəkdiyi gül yanağına,*
*Dağların laləsi Dərələzdədi.*

*Çiçəkli yaylaqlar, keybir bulaqlar,*
*Yalvarsaq ilahi əmanət saxlar,*
*Haqsızlığı görür, dünyada xalqlar,*
*Kavır məhəlləsi Dərələzdədi.*

*Bənövşə yuxarı qaldırmır başın,*
*Çay çiçəyi, nərgiz axıdır yaşın,*
*Qaymaq çiçəyinə Hüseyn qardaşın,*
*Qəlbən vurulması Dərələzdədi.*

*Nə güllə atan var, nə qılınc çalan,*
*Dığalar mülkümü eylədi talan,*
*Uçub dağıdılan, viranə qalan,*
*Elin xarabası Dərələzdədi.*

*Küllü kainatı yaradan kişi,*
*Özün asan eylə bu müşkül işi,*
*Geri qaytarasan, çərxi gərdişi,*
*Bu xalqın nəfəsi Dərələzdədi.*

*Orda əsir düşüb yüzlərlə insan,*
*Ümidsiz zindanda axıdırlar qan,*
*Oyan, qalx ayağa ay Azərbaycan,*
*Xalqın təmənnası Dərələzdədi.*

*Şahbaz oğlu Calal, nə yatmısan, qalx!*
*Bayquşlar ulayan yurduna bir bax,*
*İldırım tək gurla, şimşək kimi çax,*
*Kafirin dığası Dərələzdədi.*

*Vaxtında daşnağa çox ağladıb qan.*
*Sükuta dalıbdır ovçu Qəhrəman,*
*Əjdaha önündə can veribdir, can,*
*Əjdaha balası Dərələzdədi.*

*Təhməz oğlu Aslan çəkdi bayatı,*
*Sal buzlar içində ömrü, həyatı,*
*Kişnəmir dağlarda Calalın atı,*
*Ruhlarının yası Dərələzdədi.*

*Suyundan doymadı o, Qırxbulağın,*
*Ətrindən məst olduq bağçanın, bağın,*
*Dədəsi naməlum o tayqulağın,*
*Hay adlı tulası Dərələzdədi.*

*Min cür işvə nazlı, billur biləkli,*
*Min cür arzu dolu, min cür diləkli,*
*Çiyələrə bənzər narıncı rəngli,*
*Eşqinə yanası Dərələzdədi.*

*Onları görəndə günəş utanır,*
*Ay özün gizlədir, çox çirkin sanır,*
*Gözləri vulkandan dəhşətli yanır,*
*Şimşək tək çaxası Dərələzdədi.*

*Yayın günəşindən betər yandırır,*
*Odunsuz, ocaqsız alovlandırır,*
*Baxışlar, könüllər, işıqlandırır,*
*Ölüncə baxası Dərələzdədi.*

*Ümidim sənədir ya Şahi Mərdan,*
*Özün xilas eylə milləti dardan,*
*Qaytarsın yurdunu qoy dığalardan,*
*Xaracın davası Dərələzdədi.*

***Xarac Salahov***
***(Qarabağ, Yevlax rayonu,***
***Malbinəsi kəndi)***
***Ömrün duyğu yelkəni***
***Bakı – 1998***

# DƏRƏLƏYƏZ

*Görmədim hüsnünü bir dəfə heyif,*
*Vurğunam mən sənə, ay Dərələyəz.*
*Deyirlər gözəlsən bu yer üzündə,*
*Sənsən Kəlbəcərə tay, Dərələyəz.*

*Unuda bilmirəm ağır elləri,*
*Şır-şır bulaqları, ala gölləri,*
*Min növ çiçəkləri, min növ gülləri,*
*Mən deyim dərdimi say, Dərələyəz.*

*Hanı Arpa çayın, südlü bulağın,*
*Təkədonduranın, gül Səfoların?*
*Görünmür ellərin, ağır yığnağın,*
*Bu dərdi dünyaya yay, Dərələyəz.*

*Güllüdüzün bir bəzəkli gəlindi,*
*Zorbulaq, Qavışıq, Gədikvəng indi,*
*Kimə qalıb, gəl bu dərdə döz indi,*
*Bu qədər olmazdı pay, Dərələyəz.*

*Həsən kənd, Zeytə kənd uludan ulu,*
*Her-her; Kotanlının kəsildi yolu.*
*İmanlı bulağın gözləri dolu,*
*Çox sərin olaydı yay Dərələyəz.*

*Mehdinin ruhunu saçın darıyır,*
*Qaraqaya elsiz qalıb zarıyır.*
*Həsən Mirzə vətən deyib lalıyır,*
*Dərdlər olub lay-lay, ay Dərələyəz.*

*Qəmli Ələmdaram, üzüm gülməyir.*
*Vətənsiz qalmışam, ürək göynəyir.*
*Sızıltımın səsi sənə gəlməyir?*
*Axır gözlərimdən çay, Dərələyəz.*

***Ələmdar Keştəkli***
***(Kəlbəcər)***
***Bakı – 2005***

# HOLAVARLAR

Majgal hodağın hanı?
Daşın, torpağın hanı?
İşdiyif yorulufsan,
Balın, qaymağın hanı?!

Əkinçi əkin eylər,
Şum eylər, səpin eylər.
Öküzü arığ olan
Hər işi çətin eylər.

Öküzüm, ay öküzüm,
Qaşları yay öküzüm.
Sənə güldən-çiçəkdən
Saxlaram pay öküzüm.

Yaz gəlif bulud olsun,
Zəmilər sulu olsun.
Cüt düzəldən ustanın,
Təhnəsi dolu olsun.

Zəhmət olsa, bal olar,
Haqq qapısı yol olar.
Cütcü allah adamı,
Hər nə əksə, bol olar.

Rəhmət atana, hodax,
Macı tutana, hodax.
Öküzün tənbəlini,
Qoşma kotana, hodax.

Dağların enişi var,
Diki var, enişi var.
Cütə gedən öküzün
Özünün yerişi var.

Kotanın hodaqları,
Partlayıb dodaqları.
Qarğayın kotan sınsın,
Dincəlsin hodaqları.

Öküz, öküz, xan öküz,
Boynu qızıl qan öküz,
Çək çayır-çəməndən,
Sənə can qurban, öküz.

Öküzün hodaqları,
Sallanıb dodaqları,
Tez çəkin yer qurtarsın,
Qayıtsın hodaqları.

Öküzün hodaxları,
Sallanıf dodaxları.
Tez əkin yer qutarsın,
Dincəlsin hodaxları.

Gün düşdü qar üsdünə,
Bağçada bağ üsdünə
Tənbəl yatan öküzün
Quşdar qonar üsdünə.

* * *

Majgal:
Majgal macdan yapışar,
Hodaq kolluqda çaşar..
Hodaq, ho de.

Majgal:
Öküz tər tökər gedər,
Torpağı əkər gedər.
Hodaq, ho de.

* * *

Majgal:
Oğlan tez ol yana bax,
Bax, bu gələn cana bax.
Hodaq, ho de

Majgal:
Huşun başında olsun,
Əlin işində olsun.
Hodaq, ho de.

* * *

Majgal:
Qırmızı don bəri gəl,
Hasan qızı, Pəri gəl.
Hodaq, ho de.

in, 8700 144406
... adına Naxçıvan Muxtar Respublika KİTABXANASI
Naxçıvan Muxtar Respublikası Ali Məclisi KİTABXANASI

Majgal:
Uzaq getmə yaxın dur,
Qəlbim sənə yaxındır.
Hodaq, ho de.

* * *

Majgal:
Majın qılıncı var,
Yaxşı iti ucu var.
Hodax, ho de.

## EV HEYVANLARININ DEYİŞMƏSİ

**Öküz dedi**: Mən ağama nökərəm,
Üç ay qışda tövləsində bekaram.
Yaz olanda cayır-çəmən çəkərəm,
Taxıl dolu quyularım var mənim.

**İnək dedi**: mənim ağzım oxludu,
Qışda ölən çəpiş ilə toxludu,
Mənim yağım hamısından çoxludu,
Qaröz-qaröz cöngələrim var mənim.

**Camış dedi**: samanlığı doldurun,
Yaz olanda boyunduruq yondurun.
Əkinə getməsəm, vurun öldürün,
İşləməyə çox qeyrətim var mənim.

**At dedi**: gətirin ipək-şalımı,
Üç gözələ toxutdurun çulumu.
Qovum, tutum qabaqdakı zalımı,
Necə arzum, həm muradım var mənim.

**Dəvə dedi**:
Heç heyvan götürməz mənim yükümü,
İgid oğlan gərək çəkə ipimi.
Ərəbistan içər mənim südümü,
Uzaq-uzaq mənzillərim var mənim,
Dizləri bərk nəsillərim var mənim!

**Keçi deyir**: adım Adılkərimdi,
Qavala çəkilən mənim dərimdi.
Üç ay qışdı, o da Allah kərimdi,
Qayalarda sehrəngahım var mənim.

* * *

Üç ay qışı say, ötür;
Qarmala, quzu götür.

## SAYAÇI SÖZLƏR
### (nəğmələr)

Sayaçıyam say bəylər,
Bir-birindən yey bəylər.
Bu saya kimdən qaldı,
Adəm atadan qaldı.
Adəm ata olanda,
Dünya binnət olanda,
Qızıl öküz qalxanda,
Qızıl buğda bitəndə,
Alnı təpəl qoç quzu,
Sayaçıya verəndə.
Buynuzu burma-burma,
Yunu var yernən sürmə,
Qoyunsuz yerdə durma.

Salaməleyk, say bəylər,
Bir-birindən yey bəylər!
Saya gəldi gördünüz,
Salam verdi aldınız,
Alnı təpəl quzunu,
Sayaçıya verdiniz.

Qoyunnu evlər gördüm,
Qurulu yaya bənzər.

Naxçıvan Muxtar Respublika
KİTABXANASI

Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər.

Qoyun var kərə gəzər,
Qoyun var kürə gəzər.
Gedər dağları gəzər,
Gələr evləri bəzər.

Anam qoyunun ağı,
Dolanar gələr dağı.
Yeyər qara qiyağı,
Qızlara cehiz ağı,
Çobana çarıx bağı,
Qarılar tutar yağı,
Gəlin yeyər quymağı.

Anam, a qızıl qoyun,
Gəl yola düzül, qoyun.
Sənin sahibin olsa,
Gedərsən yüz il qoyun.

Anam qumral tat qoyun,
İldən-ilə art, qoyun.
Balan mələməkdədir,
Ölməyəsən namərd qoyun.

Qoyun var, kərə gəzər,
Qoyun var, bərə gəzər.
Gedib dağları gəzər,
Gəlib övləri bəzər.

Ala keçi, boz keçi,
Gəl eləmə naz, keçi,
Məmən ovşarlananda
Çapalama döz, keçi.

Nənəm, ay ala keçi,
Çıxıbsan yala, keçi,
Qoyun-quzu azalıb,
Doğ iki bala, keçi.

Nənəm, a xallı keçi,
Məməsi ballı keçi,
Uca qaya başında,
Tutubdu yallı keçi.

Nənəm , ay əmlik quzu,
Gəl, yemə yemlik, quzu,
Kökəlsən olacaqsan,
Qonağa yemlik, quzu.

Nənəm, ay əbrəs qoyun,
Dağlara dırmaş, qoyun.
Aran örən olubdur,
Yaylağa dırmaş, qoyun.

Nənəm, qoyunun ağı,
Dolanıb gəzir dağı,
Çobana çarığ bağı,
Gəlinlərə ip ağı.

Qoyunun üçü gəldi,
Dolandı köçü gəldi,
Sürünün qabağında,
Bir yekə keçi gəldi.

Qoyuna bax, qoyuna,
Saldı məni oyuna.
Oğlum haçan böyüyər?
Kəsəm onun toyuna.

Nənəm, ay kəlin qoyun,
Bəzəkli gəlin qoyun.
Cəhd elə, ekiz olsun,
Qızarıb yelin, qoyun.

Nənəm, ay qızıl qoyun,
Gəl yola düzül , qoyun.
Sənin kimi heyvanı,
Saxlaram yüz il, qoyun.

Çoban, itin qudursun,
Arxacıda su dursun.
Cavansan, qarğamıram,
Təhcə gözün tutulsun.

Canım, a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban sənnən küsübdü,
Südü ver, barış, qoyun.

Nənəm, a şişək qoyun,
Yunu bir döşək qoyun.
Bulamanı bol elə,
Qırıldı uşaq qoyun!

Anam, qoyunun ağı,
Dolan gəl, düzü dağı.
Qızdara cehiz ağı,
Çobana çarığ bağı.

Anam, ağ əbrəş qoyun,
Qarlı dağlar aş qoyun.
Ay qaranlıq gecədə,
Çobana yoldaş qoyun.

Qoyun, qoyun, ay qoyun,
Hanı sənə tay qoyun.
Bir az pendir, bir az yağ,
Göndər bizə pay, qoyun.

Bu sürünün qoçu var,
Belə qoçdan üçü var.
Sürü qoçsuz qalıfsa,
Xan çovanın suçu var.

Ağ quzu gərə gərək,
Göy quzu kürə gərək,
Hər bir qoyun döl üstə,
Bir quzu verə gərək.

Nənəm, a qumral qoyun,
Qulağı xal-xal qoyun.
Yunu yoxsul köynəyi,
Bulaması bal qoyun.

Anam, a nazlı qoyun,
Qırqovul gözdü qoyun.
Pendirin kəsmə-kəsmə,
Qatığın üzdü qoyun.

Anam, a qızıl qoyun,
Gəl yola düzül qoyun.
Yiyən sənə kəm baxsa,
Qaç onnan üzül, qoyun.

Canım a qəmər qoyun,
Balası əmər qoyun,
Yiyən sənin sayəndə
Qurşuyub kəmər qoyun.

Saya, saya, sayadan,
Qoyun gəlir tayadan,
Sayaçıya pay verin
Damazlığı mayadan.

Nənəm, a ağbaş qoyun,
Qarlı dağlar aş, qoyun.
Yağından plov olar,
Quyruğundan aş, qoyun.

Nənəm qara qaş qoyun,
Qarlı dağlar aş, qoyun.
Qaranlıq gecələrdə,
Çobana yoldaş qoyun.

Qoyunlu evlər gördüm,
Qurulu yaya bənzər,
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər.

Qoyun var kərə gəzər,
Qoyun var kürə gözər,
Gedər dağları gəzər,
Gələr evləri bəzər.

Nənəm a qızıl qoyun,
Arxaca düzül qoyun,
Əgər sənə kəm baxsam,
Qaç məndən üzül qoyun.

Göyə gələn buluddar,
Yorğanıdı çovanın.

Yumru-yumru qayalar,
Gülləsidi çovanın.

Çiynindəki xurcunu
Xaltasıdı çovanın.

Əlindəki ağaşdar,
Hasasıdı çovanın.

Yanındakı boz köpək,
Qardaşıdı çovanın.

Göydəki göy buludlar
Yorğanıdı çobanın,

Yastı-yastı təpələr
Yastığıdı çobanın.

Yumru-yumru qayalar
Yumruğudu çobanın.

Əlindəki dəyənək
Qalxanıdı çobanın.

Yanındakı boz köpək
Yoldaşıdı çobanın.

Ağzı qara canavar
Düşmənidi çobanın.

## QOYUNLARIN CÜTLƏNİB YOXLANMASI

Ala kərə*, tayın gördüm,
Ala kürə**, tayın hanı?
Qara kərə, tayın gördüm,
Qumral şişək, tayın hanı?

Qara kürə, tayın gördüm,
Qara əbrəş tayın hanı?
Xallı şişək, tayın gördüm,
Qumral kərə, tayın hanı?

## EYDİRMƏLƏR

Enər, gələr inəyim,
Gələr, mələr inəyim.
Bəsdiyər balasını,
Öpər, yalar inəyim.

İnək otdar çəməndə,
Məliyər gələr kəndə.
Balası da sevinər
Köpüklü süd əməndə.

## ALA DANA

Mənim danam aladı,
Vallah, başa bəladı.

Buynuz atır buğuya,
Oxşar harın ağaya.

---

* Qulaqsız.
** Qulaqlı.

# MÖVSÜM VƏ MƏRASİM NƏĞMƏLƏRİ

## QODU-QODU NƏĞMƏSİ

Qodu-qodunu gördünmü,
Qoduya salam verdinmi?
Qodu burdan ötəndə
Qırmızı gün gördünmü?
* * *
Godu-godunu gördüyünüzmü?
Goduya salam verdiyinizmi?
Godu gedənnən bəri
Gün üzü gördüyünüzmü?
* * *
Qoduya quymax gərəh,
Qablara yaymax gərəh.
Qodu gün çıxarmasa,
Gözdərin oymax gərəh.

Qodu-qodu dursana,
Çömçəni doldursana,
Qodunu yola salsana,
Qoduya pay versənə.
Yağ verin yağlamağa,
Bal verin ballamağa,
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.
* * *
Qodu, qodu, dursana!
Çömçəni doldursana!
Qodunu yola salsana!
Verənin oğlu olsun!
Verməyənlər kor olsun!

*Söyləyənlər:*

*1) **Məmmədova Balaxanım Əmir qızı**, 96 yaşlı, Dərələyəzli, Heşin kənd sakini, 1968-ci ildə söyləyib;*

*2) **Talıbov Rəhim Xudaverdi oğlu**, Dərələyəzli, Çaykənd sakini, 86 yaşlı, 1968-ci ildə söyləyib;*

*3) **Hacsamova Zabıma Ağa qızı**, Dərələyəzin Qovuşuq kənd sakini, yaşlı, 1976-cı ildə söyləyib;*

*4) **Həziyev İman**, Dərələyəzin Sallı kənd sakini, 62 yaşında, 1968-ci ildə söyləyib.*

## KOS-KOSA NƏĞMƏSİ

Ay kos-kosa gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Bizləri güldürsənə.

Kosam bir oyun eylər,
Quzunu qoyun eylər,
Yığar bayram düyüsün
Payızda toyun eylər.

Ay kos-kosa, kos- kosa,
Saqqalı yoldurma gəl.
Xurcunu doldurma gəl,
Xonça-nabatın bizdə,
Novruz oldu durma, gəl.
* * *
Ay Kosa-kosa, gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana.

Ay uyruğu-uyruğu,
Saqqalı it quyruğu.
Kosam bir oyun eylər,
Quzunu qoyun eylər.

Yığar bayram xonçası,
Hər yerdə toyun eylər.

Novruz-novruz bahara,
Güllər çıxıb nübara,
Bağçanızda gül olsun,
Gül olsun, bülbül olsun.

* * *

A Kos-Kosa, gəlmisən?
Gəlmisən meydana sən?
Almıyınca payını
Çəkilmə bir yana sən.

Mənim kosam oynayır.
Dur kosama pay ayır.
Gör necə dingildəyir,
Qulaq asanların da
Qulağı cingildəyir.
Şiş papağı başında,
Qələm oynar qaşında,
Yüz əlli beş yaşında,
Lap cavan öldü kosa.
Gəlmədi kimsə yasa.
Kosam iki cannıdı,
Keçim onnan qannıdı.
Kosam bir oyun eylər.
Öz özün toyun eylər.

Mənim kosam canlıdı,
Qolları mərcanlıdı.
Kosama əl vurmayın,
Kosam iki canlıdır.

* * *

Ay boyu gödək kosa,
Ay yekə ətək kosa.
Arada nə gəzirsən?
Yalannarı düzürsən.
İşin fitnə-feldi ki,
Yığdığın pay boldu ki...
Gözün doymur de nədən?
Nədi səni göynədən?
Guya bilməzsən nədi,
Gəzməyin bəhanədi.
Əməlli saqqalın yox,
Söz deməyə halın yox.
Cin oynaşır gözündə,
Zəhər çoxdu sözündə.

## HAMAM HAMAM İÇİNDƏ

Hamam hamam içində,
Xəlbir saman içində,
Dəvə dəlləklik elər,
Köhnə hamam içində.
Qarışqa şıllaq atdı,
Dəvənin budu batdı.
Hamamçının tası yox,
Baltaçının baltası yox.
Orda bir tazı gördüm,
Onun da xaltası yox.
Günlərin bir günündə,
Məmmədnəsir tinində,
Göytəpənin belində,
Şah Abbas cənnətməkan,
Tərəziyə verdi təkan,
İki qoz, bir girdəkan.
Milçək mindik, çay keçdik,
Yabaynan dovğa içdik.

## YEL BABA MƏRASİMİ
(Xırman vaxtı)

A Yel baba, Yel Baba,
Tez gəl, baba, gəl, baba.
Sovur bizim xırmanı,
Atına ver samanı.
Dən yığılıb dağ olsun.
Yel Babamız sağ olsun.
A yel baba, yel baba,
Qurban sənə, gəl, baba.

Taxıllar yerdə qaldı,
Yaxamız əldə qaldı.

A yel baba, yel baba,
Qurban sənə, gəl, baba.

*Söyləyənlər:*

*1)* ***Həziyev İman.*** *Dərələyəzin Sallı kənd sakini, 62 yaşında, şairtəbiətli, sinədəftər el ağsaqqalı, 1968-ci ildə söyləyib;*

*2)* ***Cəfərov Əhməd.*** *Dərələyəzin Ələyəz kənd sakini (əsli Alxanpəyəsindəndir), 102 yaşlı, folklorun gözəl bilicisi, 1968-ci ildə demişdir.*

## ÇİLLƏLƏRİN BƏHSİ

Böyük Çilə ilə Kiçik Çilə yolda rastlaşıllar. Kiçik Çilə Böyükdən soruşur:

- Getdin nə qayırdın?

Böyük Çilə deyir:

- Təndirləri yandırdım, kürsüləri qurdurdum; küplərin, xaralların ağzını aşdırdım.

Kiçik Çilə deyir:

- Qoy mən gedim, gör neyniyəjiyəm? Qarıları təndirdən basıb küflədən çıxarıjam, küpələri, xaralları boşaldıjam, üzüquylu qoyub gəlijam.

Böyük Çilə deyir:

- Bacarmassan…

Qabağın yazdı,
Ömrün azdı…

*Söyləyəni:* ***Əhməd Cəfərov.*** *Dərələyəzin Ələyəz kənd sakini, 102 yaşlı, 1968-ci ildə demişdir.*

* * *

Üç çilə var. Böyük Çilə, Kiçik Çilə, bir də Boz Çilə. Bunlar bir-biriylə iraslaşırlar. Böyük Çilədən soruşurlar ki, getdin neylədin? Deyir ki, getdim silib-süpürdüm, küpələri, xumları boşaltdım, gəldim.

Kiçik Çilədən soruşurlar ki, bə sən neynədin? Deyir ki, qarıları təndirdən soxuf küflədən çıxartdım, əhətdərin kəsif gəldim.

Boz Çiləyə ağlar-gülər ay da deyillər. Bınnan soruşullar ki, bə sən neynədin? Dedi ki, mən getdim bayramı apardım, gül-çiçəyi aşdım, əkini cücərtdim.

*Söyləyəni:* ***Namazov Baxış İmamalı oğlu,*** *Dərələyəzin Gülüdüz kəndi, 79 yaşlı, 1970-ci ildə söyləmişdir.*

* * *

Böyük Çiləynən Kiçik Çilə bacıdılar. Kiçik Çilə Böyüh Çilədən soruşur ki, getdin neynədin?

Böyük Çilə də deyir ki, getdim camahatın dənnərini üyütdüm, qavırmalarını elədim, qalaxlarını yardım, çörəklərini bişirib gəldim.

Kiçik Çilə deyir ki, kül başına. Mən gedıjam qocaları təndirdən basıp küflədən çıxarıjam. Hayıf ki, ömrüm azdı. Kaş sənin ömrün məndə olaydı...

*Söyləyəni: **Quliyev Şəyildi Kərbəlayı Cəfər oğlu**, Dərələyəzin Ağkənd sakini, 75 yaşında, 1968-ci ildə söyləmişdir.*

## ÇİLLƏ

Üç çillə var. Böyük Çillə, Kiçik Çillə, bir də Boz Çillə. Bıllar bir-biriynən irasdaşıllar. Böyük Çillədən soruşullar ki, getdin neynədin? Deyir ki, getdim silip süpürdüm, küpələri, xumları boşatdım gəldim.

Kiçik Çillədən soruşullar ki, bə sən neynədin? Deyir ki, qarıları təndirdən soxup küflədən çıxartdım, əhədlərini kəsip gəldim.

Boz Çilləyə Ağlar-gülər ay da deyillər. Bınnan soruşdular ki, bə sən neynədin? O da deyir ki, mən getdim bayramı apardım, gül-çiçəyi aşdırdım, əkini cücərtdim. Məni görəndə pişik çıxdı yükün üsdünə. Bığın burdu, əl-üzün yuyup dedi:

Kürsü altı aranım
Yük üstü yaylağım.

*Söyləyəni: **Novruzova Məlahət** Şahbuz rayonu, Kolanı kəndi (Dərələyəzin sərhəddi), 22 yaşında, tələbə. Bax: Azərbaycan Mifoloji mətnləri, Bakı, 1988, səh., 57, 192.*

## BOZ AY

Qədim zamannarda aylar yoxuymuş. Bir vaxdı insannar görür ki, ilin günnərin qatışdırıllar. Duruf ilin günnərin aylara bölüllər. Hər aya otuz iki gün verillər, boz aya on dörd gün qalır. Görürlər ki, boz ay inciyir, durub qalan ayların hərəsinnən bir gün alıb verillər boz aya. Onlar olur otuz bir gün, boz ay olur iyirmi beş gün. Görüllər ki, boz ay genə irazılaşmır. Qayıdıf aylardan genə bir gün isdiyillər. Ayların yarısı deyir ki, ta otuz bir günümüz var, verəmmərik.

O biri yarısı isə bir gün verir, hərə bir iki-üç gün verir. Boz ay olur otuz bir gün. Qalannarının da bəziləri otuz bir gün, bəzisi otuz gün, bəzisi isə iyirmi doqquz-iyirmi səkkiz gün olur. Boz ay günlərinin çoxunu o biri aylardan aldığı üçün qatışıxdı. Çünki boz ay soyux günnəri qış aylarından alıp, isdi günnəri yaydan alıp, yağışdı günnəri yazdan, payızdan alıf...

*Söyləyəni: **Nağıyeva Nazlı İbrahim qızı**, Dərələyəzin Qovuşuq kəndində boya-başa çatıb, 75 yaşlı, söylədi 2005-ci ildə.*

## XIDIR NƏBİ

Xanım, ayağa dursana,
Yüh divinə varsana.
Boşqabı doldursana,
Xıdırı yola salsana.
Xıdır Nəbi, Xıdır İlyas,
Bitdi çiçək, oldu yaz.
Mən Xıdırın quluyam,
Boz atının çuluyam
Xıdır getdi hayınan,
Bir qulança dayınan.
Dayı palçığa batdı,
Xıdır yanında yatdı.
Xıdır, Xıdır, Xıdır İlyas,
Bitdi çiçək, oldu yaz.

## XIDIR NƏBİ

Xıdır Nəbi bayramında uşaqlar hansı evə torba atsalar xorla oxuyarmışlar:

Xıdır Nəbi, Xıdır Ellaz,
Bitdi çiçək, oldu yaz.
Mən Xıdırın quluyam,
Boz atının çuluyam.
Xıdır gəldi hayınnan,
Bir qaraca dayınan.
Dayı palçığa batdı,
Xıdır yanında yatdı.

## XIDIR NƏBİ

Xıdır Nəbidə ocağın başına toplaşırlar. Qış yarı olanda Xıdır Nəbi olur. Xıdır Nəbidə deyərlər:

Xıdır Nəbi, Xıdır İlyas,
Bitdi çiçəh, oldu yaz.
Xıdır gəlir haynan,
Altı qara daynan.
Dayı batdı palçığa,
Çıxardın hay-hayınan.
Yağ gətirin yağlıyax.
Dəsmal gətirin bağlıyax.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün birin üzəydim,
Saşdarıma düzəydim.
Qardaşımın toyunda,
Sındıra-sındıra süzəydim.

*Söyləyəni: Mən özüm (Həsən Mirzəyev). Dərələyəzli, 80 yaş, Bakı, 2006-cı il.*

## NOVRUZ BAYRAMINDA OXUYARDILAR:

Səməni, saxla məni,
Hər il göyərdim səni.
Atıl-batıl, səməni,
Vedrə-satıl, səməni,

* * *

Səməni, can səməni,
Sənə qurban, səməni,
Əhvalımız çağ olsun,
Yediyimiz yağ olsun,
Azar-bezar çəkənlər,
Şəfa tapsın, sağ olsun.

* * *

Yerdən təndir çapılsın,
Çırppa, lavaş yapılsın.
İtən şeylər tapılsın,
Qovuşsun ayrılanlar,
Həsrətdən qovrulanlar,
Səməni, can səməni,
Sənə qurban, səməni.

*Söyləyəni: Nağıyeva Nazlı İbrahim qızı, Dərələyəzin Qovuşuq kəndində boya-başa çatıb, 75 yaşlı, söylədi Novxanı kəndində, 2006-cı ildə.*

## *YAZ MÖVSÜMÜ*

## *NOVRUZ BAYRAMI*

### BƏNÖVŞƏ

Bənövşəyəm, bənövşə,
Yaza qonaq həmişə.
Dağda, çöldə itmişəm,
Novruzda yetişmişəm.
Qızılgüldən utanıb
Boynu əyri bitmişəm.

## *MÖVSÜM-MƏRASİM NƏĞMƏLƏRİ VƏ ONLARLA BAĞLI İNAMLAR*

### ÜZƏRLİK YANDIRMA

Mərasimdə istifadə olunan üzərrik yalnız insan nəfəsi toxunmayan, yəni xoruz səsi eşitməyən yerdən yığılıb qurudulmalıdır. Üzərliklə birlikdə çox zaman soğan, sarımsaq qabığı da yandırılır. Həmin tüstünü nəzər toxunmuş adama iylədib oxuyurlar:

- Üzərliksən, havasan,
Hər dərdlərə davasan,
Pis gözlərə yabasan,
Üzərliyim çırtlasın,
Yaman gözlər pırtdasın.

Bu nəğmədən sonra üzərrik çırtlayarsa, bəd ruhlar, bədnəzərin nəfəsi evdən qovulur. Göz dəyən adamı üç dəfə yanan üzərriyin üstündən keçirdikdən sonra mərasim sona çatır.

## YAĞIŞI KƏSMƏK

Yağış həddindən çox yağıb kəsilmək bilməyəndə insanlar qorxuya düşür. Onda anasının ilki olan uşaq mis qazan götürüb onu daşla döyəcləyir, özü də belə oxuyur:

- Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm,
Mən kəsirəm,
Sən də kəs!

## DÜZGÜLƏR

İynə, iynə, ucu düymə,
Şam ağacı, şatır keçi,
Qoz ağacı, qotur keçi.
Vur nağara, çıx qırağa.

Əkil, bəkil quş idi,
Divara qonmuş idi,
Getdim onu tutmağa,
O məni tutmuş idi,
Meydana salmış idi,
Meydanın ağacları,
Bar gətirib ucları.
Çəpər çəkdim, yol açdım,
Qızıl gülə dolaşdım.
Bir dəstə gül dərməmiş,
Nənəsi gəldi, mən qaçdım.

Yağış gəlir yağa-yağa,
Dolu düşür bizim bağa,
Əmim oğlu, Soltan ağa,
Dur gəl gedək oynamağa,
Oynamağın vaxtı gəlib,
Qızıl gülün taxtı gəlib.

A teşti, teşti, teşti,
Vurdum, çəpəri keçdi.
İki xoruz savaşdı,
Biri qana bulaşdı.
Qan getdi çaya düşdü,
Çaydan göyərçin uçdu.
Qan dedi, başım üstə,
Qəmərim, qaşım üstə.
Qəmər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı deyil, qamışdır,
Beş barmağım gümüşdür.
Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa.
Qapıçı qapı toxur,
İçində bülbül oxur,
Məndən kiçik qardaşım,
Həqqin kəlamın oxur.
Ay Allah, bundan üç dənə ver,
Üç dənə vermə, beş dənə ver,
Göydə gedən quşdara ver,
Çaladakı gomuşdara ver,
Həsrətin çəkmişlərə ver,
Dərdindən ölmüşlərə ver,
Çörəyin bölmişdərə ver,
Tamarzı qalmışlara ver.

İynə, iynə, ucu düymə,
Səhər səkkiz, durna doqquz.
Durna gəldi, durul çıx,
Tüstü gəldi, burul çıx.
Bəli, bəli, bal ağacı,
Qotur keçi, şam ağacı.
Əmim oğlu həllə dedi,
Əmim qızı hüllə dedi.
Əmim gəldi eşitdi,
Vuraram güllə, dedi.

## DƏNBƏLƏN GÖZ

Bajadan baxan dənbələn göz
Birisi kəhər, birisi boz.
Mindim bozun boynuna,
Düşdüm divan yoluna,
Divan yolu dərbədər,
İçində meymun gəzər.
Meymuncuğu ürkütdüm,
Qulaxcığın qırpıtdım.
Göydə gəzən xocalar,
Vurdu qolumu qırdı,
Qolum qazanda qaynar,
Oxlax yanında oynar.
Oxlağı yerə vurdum,
Yer mana yemlik verdi.
Yemliyi tata verdim,
Tat mana darı verdi.
Darını quşa verdim,
Quş mana qanad verdi.
Qanaddandım uşmağa,
Hax qapısın aşmağa.
Qapıçı qapı toxur,
İçində bülbül oxur.
Mənnən kiçik qardaşım,
Haqqın kəlamın oxur.

## ÜŞÜDÜM, HA ÜŞÜDÜM

Üşüdüm, ha üşüdüm,
Dağdan alma daşıdım.
Almaları aldılar,
Məni zulma saldılar,
Mən zulumdan bezaram,
Dərin quyu qazaram.
Dərin quyu beş keçi,
Hanı bunun erkəci?
Erkəc qaya başında,
Qayanın ağ daşında,
Hay elədim gəlmədi,
Çiriş verdim yemədi,
Çiriş qazanda qaynar,
Qənbər bucaxda oynar.
Qənbər getdi oduna,
Qarğı batdı buduna,
Qarğı demə, qamışdı,
Baş barmağı gümüşdü.
Gümüşü verdim tata,
İstədi ucuz sata,
Tat mənə darı verdi,
Rəngini sarı verdi,
Darını səpdim daşa,
Qurutdum, atdım quşa,
Quş mənə qanad verdi.
Elə bildim at verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa.

*Söyləyəni: **Həsən Mirzəyev**. Dərələyəzin Qovuşuq kəndində doğulub boya-başa çatmış, 79 yaşlı.*

* * *

Üşüdüm, ay, üşüdüm,
Dağdan alma düşürdüm.
Almaları yedilər,
Mənə zülüm etdilər.
Dərd əlindən bezaram,
Dərin quyu qazaram.
Dərin quyu, beş keçi,
Hanı onun örkeci?
Örkec qaya başında,
«Hay» eylədim, gəlmədi,
Çiyid verdim, yemədi.
Çiyid qazanda qaynar,
Qəmbər bucaxda oynar.
Qəmbər getdi oduna,

Qarğı batdı buduna.
Qarğı dəyil, qamışdı,
Beş barmağı gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını verdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haq qapısın açmağa.
Qapıçı qapı toxur,
İçində bülbül oxur.
Məndən kiçik qardaşım
Allah kəlamın oxur.

*Söyləyəni: **Həsən Mirzəyev** (mən özüm). Dərələyəzli, 79 yaşlı.*

* * *

Üşüdüm, ha üşüdüm,
Dağdan alma daşıdım.
Almalarım aldılar,
Məni yola saldılar.
Mən bu yoldan bezaram,
Dərin quyu qazaram.
Quyu divi beş keçi,
Hanı bunun erkəçi?
Ağ qayanın qaşında,
Erkəc qaya başında.
Harayladım gəlmədi,
Çiyid verdim yemədi.
Çiyid qazanda qaynar,
Qənbər bucaxda oynar,
Qənbər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı deyil qamışdı,
Beş barmağı gümüşdü.
Gümüşü verdim tata,
Tat mana darı verdi.
Darını verdim quşa,
Quş mənə qanad verdi.
Qanatdandım uşmağa,
Hax qapısın aşmağa.
Qapıçı qapı toxur,
İçində bülbül oxur.
Mənnən kiçik qardaşım,
Allah kəlamın oxur.

*Söyləyəni: **Züleyxa Zülfüqarova**, Dərələyəzin Qovuşuq kəndində doğulub boya-başa çatıb, 1935-ci il təvəllüdlü, hal-hazırda Abşeron rayonunun Novxanı kəndində yaşayır.*

# DƏRƏLƏYƏZDƏ ƏN ÇOX SÖYLƏNİLƏN MİFLƏR, RƏVAYƏTLƏR, ƏFSANƏLƏR VƏ İNAMLAR

Deyirlər, Ay Günəşin oğludur. O, uşaxlıxdan çox dəcəl olub. Bir dəfə Günəş görür ki, təknədə çörək qurtarıb. Tez əl-ayağa düşür, başlayır un qatıb xəmir yuğurmağa. Ay gəlib anasının yanında dəcəllik eləyir. Günəş çox deyir ki,əl çək, qoy işimi görüm. Ay daha da qızışır. Axır-axırda Günəş bərk hirslənir. Xəmirli əli ilə Ayın üzünə bir şillə çəkir. Xamırın izi qalır Ayın üzündə. Ay nə qədər çalışır üzündəki ləkəni yusun, amma bu ləkə heç cür yuyulmur. Ay üzündəki bu ləkədən çox utanır. Ona görə də ay gecələr çıxır ki, heç kim bu ləkəni onun üzündə görməsin.

*Söyləyəni: **İbrahimov Hüseyn Kərəm oğlu**, 45 yaşında. Şərur rayonu Yaycı kəndi.(Bu kənd əvvəllər Dərələyəzə aid olmuşdur.)Bax: Azərbaycan Mifoloji mətnləri,Bakı, 1988, səh. 36, 190.*

## GÖZƏ GÖRÜNMƏZ

Axır çərşəmbə günü bir kişi deyir ki, nə bayram mən bayram- zad tanımıram.

Gecə yarısı bı kişini eşiyə çağırıllar. Kişi çıxır eşiyə. Arvad-uşağı ha gözdüyür, kişi qəyitmir. Durup başdıyıllar axdarmağa, əncəx səhərə kimin hara gedillərsə, «gördüm» deyən olmur.

Bir-iki günnən sora arvat-uşax evdə ağladığı yerdə eşikdən genə bınnarı çağırıllar. Bınnar çıxır kin, eşikdə heş kim yoxdu. Bir də baxıllar kin, kişinin papağı göydən düşdü. Demiyəsən bı kişi bayramı bəyəmmədiyi üçün onu çəkiplər göyə. Papağı da göydən düşüp kin, cəməhətə bildirsin kin, bayramı bəyəmməsə axırı belə olacax.

*Söyləyəni: **Murtuzayev Nəriman Əbdüləzim oğlu**. Dərələyəzin Axta kəndi, 28 yaşında, tələbə. Bax:Azərbaycan Mifoloji mətnləri, Bakı, 1988, səh.60, 192.*

## ƏJDAHA

Yaylax vaxdıymış. Bir oba köçür dağda yurt tutur, çadırların qurur. Elə bı vaxt güjdü yel əsir, yağış yağır, boran olur. Camahat bir də baxır ki, göydən boynu zincirli bir əjdaha endi. Tez gətirip bına bir öküz qurban kəsillər.

Əjdaha heş kimə dəymir, ancax bir cavan iyidə deyir ki, mən hara getsəm, sən də dalımca gəl.

Bınnar yola düzəlif gedillər. Xeyləh gedəndən sora Ağrı dağına çatıllar. Ağrı dağında bı əjdaha üzün tutur Ağrı dağına sarı, bir üşkürəh atır. Ağrı dağınnan bir əjdaha yenir ki, bınnan da yekə. Demiyəsən, bı əjdahalar düşmandılar. Neçə dəfə vırışmışlar. Hər dəfə də Ağrı dağındakı güjdüyüpmüş. İndi bı əjdaha oğlanı özünə arxa gətiripmiş.

Əjdahalar başdıyır vırışmağa. Ağrı dağının əjdahası bı birini az qala basırmış. Bı əjdaha oğlana işarə eliyir. Oğlan qılıncını sivirip Ağrı dağının əjdahasını öldürür.

Sora əjdaha oğlana deyir ki, dalımca gəl. Bınnar gəlip bir zağıya girillər. Oğlan görür ki, bırda üş xum var, qızılınan doludu. Əjdaha oğlana deyir ki, nəqqədər başarırsan götür. Ancax elə götür ki, bir də peşman oluf bıra qayıtmıyasan. Yoxsa zərəl çəkərsən.

Oğlan pütün ciblərini, qol-qoltuğunu doldurur qızılınan, sora çıxıp gedir. Bir müddət keçir. Oğlan bu qızılları sağa-sola xəşdiyip qutarır. Təzədənnən durup qayıdır həmin zağıya. Görür ki, əjdaha başını qoyup qızıl xumnarının üsdünə yatıp.

Oğlan yavaşca yaxınnaşır, xumun ağzın açıp gizdincə qızıllardan götürməh isdiyir. Bı dəmdə əjdaha oyanır. Baxır ki, oğlan qızıl götürür. Tüpürür bının üzünə ki, adam oğurrux eləməz. Ta oğlan heş zad göturmüyüp dala qəyidir. Ancax əjdahanın tüpürdüyü sifəti qap-qara qaralıp çürüyür.

*Söyləyəni: **Abdullayeva Zəroş.** Şərur rayonu, Qarahəsənli kəndi, (Şərur ilə Dərələyəz əvvəllər bir qəzada olmuşlar) 83 yaşında, təqaüdçü.Bax: Azərbaycan mifoloji mətnləri. Bakı, 1988, səh.128-129,189.*

* * *

Bir kişi atınan gedirmiş. Bir ocağın yanından keçəndə görür ki, bir uşax yolda dayanıf ağlayır. Soruşur kin, niyə ağlıyırsan? Deyir ki, filan yerə gedəcəm, ancax yorulmuşam, gedəmmirəm.

Kişi bını atın tərkinə mindirir. Xeyləh gedənnən sora baxır ki, bı uşağın ayaxları başdadı uzanmağa. Kişi qorxur, ancax heş nə deyəmmir. Birəz də gedənnən sora kişi hiss eliyir ki, uşax atın üsdünnən düşüp.

Bı dəmdə kişini daldan çağırıllar. Kişi qorxusunnan çönüp baxmır. Birəz gedənnən sora bını öz adıynan çağırıllar. Kişi bı dəfə çönüp baxır. Görür ki, dalda yekə əjdaha durup. Əjdaha kişiyə deyir ki, anan namaz üstündəymiş, əyər birinci dəfə çağıranda çönsəydin, səni parça - parça eliyəjiydim. Onnan qabax da məni bıra gətirməsəydin, gənə öldürəcəydim. İndi get.

*Söyləyəni: **Murtuzayev Nəriman Əbdüləzim oğlu** Dərələyəzin Axta kəndi, 28 yaşında, tələbə. Bax: Azərbaycan Mifoloji mətnləri, Bakı, 1988, səh.131-132, 192.*

## CİNNİ DƏRƏ

Dərələyəzin Qavışıx kəndində «Cinni dərə» adlanan bir yer var. Bu dərə Qavışıx kəndi ilə Ələyəz kəndi arasındadır. Qavışıx kəndinin lap yaxınındadır. Bir vers olar. Bı dərənin hər iki tərəfində uca qayalar var. Hər birinin boyu 4-5 vers olar. Bu qayaların üzündə çoxlu taxçalar var. Hələ divlərində balaca-balaca zağalar da var. Gejə vaxtı bura çox qorxulu olur. Adam

bırdan keçəndə adamı qara basır. Adamın qulağına səslər gəlir. Çox adamlar deyir ki, mən gejə ordan keçəndə daldan məni çağırırdılar.

Hamı öz uşağına deyir ki, gecə vaxtı bura getməyin. Axşam düşəndə evə tez gəlin, burdan keçməyin. Keçəndə də qaça–qaça keçin. Bunu qonşu kəndlərin adamları da bilir.

Bı dərə ilə çayın qavışdığı yerdə, çayın qırağında bir ottuq da var. Yayda bırdan ot biçirlər. Bı biçənək Tahar kişinin babası Alhüsenin yeridir. O yazda və yayda hər vaxt atını bırda çıdarlıyar ki, otdasın. Alhüsen kişi bir gün səhər-səhər gəlif atının çidarını dəyişəndə görür ki, atı qan tərin içindədir. Bir neçə gejə pusquda durur ki, atını minən adamı tutsun. Bu pusquda olan vaxtlar at tərləmir. Əvdə yatan günnər at qan tərin içində olur. O bını camaata danışır. Ona deyirlər ki, yəqin sənin atını cinnər minir. Sən axşamlar atın belinə yapışqan sürt. Cin ata minəndə yapışıb qalacaq. O belə də edir.

Səhəri gedib görür ki, atın üstündə bir əcayib əcinnə oturub. Boyu çox balaca olan bu əcayib adama baxanda dişdərini ağardır. O bının üstünə tez bir iynə sancır ki, qaçmasın. Sonra da onu gətirir mal damının bir tərəfində bağlıyır dirəyə. Kənd bının tamaşasına gəlir. Uşaxları qoymurmuşdar. Bir uşax gizlincə ona baxmağa gələndə cin ona deyir ki, bu iynəni üstümdən çək sənə şirin halva verijam. Uşax iynəni çəkən kimi cin yox olur.

*Söyləyəni: **Ballı qarı(nənəm)**, 109 yaşında. Qələmə aldı: **Həsən Mirzəyev**. Dərələyəz, Qovuşuq kəndi.*

## CIN TOYU

«1947-ci ildə Qavışıx kəndində kolxozun subay malını otarırdım. Malı gecələr Catmın dərəsindəki kahada saxlayırdım. Hər üç gündən bir kəndə gedib özümə çörək-yavanlıq gətirirdim. Payız ayı idi, çiskin yağış yağırdı. Malları arxaca qatıb, çəpəri qapısına qoydum. Toran düşmüşdü, çörək çantamı çiynimə salıb Catmın dərəsi yenişə züm-zümə eliyə-eliyə gəlirdim. Zagan qayasının üstünə çatanda qulağıma bir səs gəldi.

İmran kişi, ay İmran kişi, hara gedirsən? Dönüb dala baxdım, bir şey görmədim. Eymənən kimi oldum, tüklərim biz-biz oldu. Bir neçə addım getmişdim ki, həmin səs bir də məni çağırdı: «İmran kişi, ay İmran kişi, hara gedirsən, görmürsən toydu». Dala baxdım. Gördüm ki, bayaq gəldiyim yolla arvad-kişi, olar 10-12 nəfər, oynaya-oynaya mənə tərəf gəlir. Qabaqda gələn mənə əl elədi. Ona tərəf getdim. Mən də onlara qoşulub oynuya-oynuya gəldiyim yolla arxaca getdim. Bissimillah, bissimillah dedim. Gördüm ki, dayanmışam yatdığım kahada, tərin içindəyəm. Başa düşdüm ki, cin yığıncağına düşmüşəm. Lanpanı yandırdım. Ocaq qalayıb səhərə qədər yatmadım. Səhər tezdən malları kəvşənə buraxanda qapıya qoyduğum çəpər öz yerindəydi. Haradan, özü də malların içindən kahaya gəldiyimi bilmədim».

Babam İmran kişi bunları danışanda mənim tüklərim ürpəşirdi. Babamdan soruşdum: Sonralar belə hadisə yenə oldumu? Yox. Ancaq evə gələndə başqa yolla gəlirdim. Papağıma da iynə sancırdım. Cinnər iynə olan yerə gəlmir. Babam o vaxt bunu gəlib danışanda kənd qocaları dedilər ki, sən nəzir ver ki, səni aparıb daşdan-qayadan salmayıblar.

*Süyləyəni: **İmiran Həsən oğlu** (1890-1963), Qovuşuq kənd sakini. Qələmə alan: nəvəsi **Əsədov Nazir Nəbi oğlu**. Qovuşuq kəndi 1962-ci il.*

## CIN TOYU

Bizim kəntdə bir kişi varıymış. Gedirmiş səfərə. Görür dərədə toydu. Bir vurhavurdu gəl görəsən. Kişi deyir düşüm görüm bu nə toydu. Gedif baxıf görür ki, qız-gəlinin hamısı burda. Şıppıltıdan qulax tutulur. Baxıb görür birinin əynində gəlinnərinin paltarıdı. Əlini yağa bılıyıf paltarın belinə vırır. Deyir qoy görüm. Genışdığa çıxanda baxaram bı üzdü, ya yox. Bizim gəlinindi, yoxsa gözümə belə görünür?

Toyda gətirif kişiyə çörək qoyullar. Deyillər: «toydu ye». Axı bizdə adətdi. Çörək yeyəndə pismillah deyəllər. Kişi də pismillah deyir. Çörəyi götürəndə görür heç kim yoxdu. Nə çal-çağır var, nə toy. Oturuf yerdə, qabağında da at təsi.

Kişi geri dönür. Gəlir əvinə. Arvadına deyir. Gəlinnərin paltarını gətir görüm. Arvad paltarı gətirəndə kişi paltarı o yana çevirir, bu yana çevirir. Görür Əlinin nişanası buradadı. Deyir: «Hə cin yığıncağına, cin toyuna getdim düşdüm». İncəvara çörəyi yemiyib. Yesə dəli olarmış. Dəli oluf düşərdi çöllərə.

*Söyləyəni: **Bülbül Cəfər qızı Kərimova** 1936-cı ildə Dərələyəz mahalının Qaraqaya kəndində doğulub. Xanlar rayonun Əbləh kəndində yaşayır. O bu məlumatı 14 avqust 2001-ci ildə vermişdir.*

*Məlumat folklor institutunun arxivindən götürülmüşdür.*

## CİNİN MAMAÇASI

Məşhur bir mamaçı olur. Bir gün cinnərdən birinin arvadı yatmalıymış, əmə cinnərdə mamaçı yoxuymuş ki, cin arvadı yatızdıra bilsin. Cinnər bir yerə yığışıf məsləhətdəşillər kin, bəs filan mamaçını gətirməh lazımdı.

Çox götür-qoydan sora bir cin kişisi gedip bir at oğurruyur, minif gəlir bı mamaçının yanına. Mamaçının evin tapıf, mamaçıya deyir kin, a bacı, mən filan kətdənəm yoldaşım uşax gətirir, ancax yata bilmir, gəlmişəm səni aparım.

Mamaçı minir atın tərkinə, düşüllər yola. Gəlif bir xarabalığa çatıllar. Cin kişisi deyir kin ,düş, çatdıx.

Mamaçı deyir kin,axı bura kət deyil. Cin deyir kin, elə buradı, düş.

Mamaçı qorxusunnan başdıyır titrəməyə. Cinnər yığışır bının başına, ürəhdirəh verif, gətirillər doğan cinın yanına. Mamaçı bu cin arvadı yatızdırır, uşağı tutur. Cinnər bınnan irazı qalıllar.Gətirif mamaçıya bir şəvə, bir göz muncuğu, bir kisə də qızıl verillər. Deyillər kin, bu göz muncuğu hansı uşağın üsdündə olsa biz ona yaxın düşmərik. Bu şəvə neçə heyçəldən güjlüdü. Gərəh uşağı gətirəsən bunun üsdünə, bunu uşağın üsdünə aparsan uşax ölər. Şəvənin üsdünə tihsən, biz ona zəfər toxundurmarıx. Sora, genə cin kişisi mamaçanı ata mindirif gətirir evinə.

*Söyləyəni: **İmanquliyev Şükür Məmməd oğlu**. Dərələyəzin Gomur kəndi, tələbə. Bax : Azərbaycan Mifoloji mətnləri, Bakı, 1988, səh.102-103,190.*

## CİNİN QARAVAŞLIXDAN QAŞMASI

Bir yol mənim qaynım xəstəydi. Onda mən yoxuydum oralarda. Qaynanam danışıf eşitmişəm. Gejə görüllər atı minif çapıllar. Şarfaşar, şarfaşar, şarfaşar. Arvat deyir: «Ay bala durun görün bı nə tappıltıdı tövlədə». Gedillər ki, bir cinbaş arvad atı minif çapır, o başa, bu başa. At da qan tər içində. Arvad bını görüf qorxusundan deyir: «pismillah, pismillah». Baxıllar heşdad yoxdu tövlədə.

Bilillər atı minən cindi. Yekə bir bezin hər iki üzünə qır əridif tököllər, onu da qoyullar atın belinə. Gecə cin gəlif atı minif çapanda qıra yapışıf qalır. Səhər gəlillər tövlüyə. Görüllər cin atın belində. Cinin üstünə iynə sancıf onu qırdan qoparıllar. Paltardan zaddan geyindirif işlədillər əvdə.

Bir gün cin suya gedəndə ordakı qızdardan birini dilə tutuf iynəsini üstündən çıxartdırır. İynə üstündən götürülən kimi cin yoxa çıxır. Cini saxlıyannar iynəni cinin üstündən çıxaran qızla dalaşır. Deyir ki, bizim cini sən qaçırtdın.

*Söyləyəni: **Kərimova Bülbül Cəfər qızı**. 1936-cı ildə Dərələyəz mahalının Qaraqaya kəndində doğulmuşdur. Xanlar rayonunun Əbələh kəndində yaşayır. 14 avqust 2001-ci il. Folklor institutunun arxivindən götürülmüşdür.*

## HAL ARVAD

Bir var cin, bir də var hal arvad. Qadınlar zahı yatanda hal gəlif aparırdı. Ciyarını aparıf suya verirdi. Onnan da doğan arvat ölürdü. Zahı arvatdar uşağa yatanda onu gözdüyürdülər. Qaravul çəkənnər əllərində qılınç, balta durur. Doğanın ətrafına cızıq çəkirdilər. Onu haldan qoruyurdular. Arvat zahı yatan günü xörək, çörək bişirmirdilər. Bajadan tüstü çıxarmırdılar. Deyirdilər qoy uzax olsun. Hal arvadı görənnər çox oluf. Deyir döşünün birini atırdı bu dala (çiyninə), o birini atırdı o biri dala.

*Söyləyəni: **Kərimova Bülbül Cəfər qızı**. 1936-cı ildə Dərələyəz mahalının Qaraqaya kəndində anadan olub. Xanlar rayonunun Əbləh kəndində yaşayır. O bu məlumatı 14 avqust 2001-ci ildə vermişdir.*

*Məlumat folklor institutunun arxivindən götürülmüşdür.*

* * *

Hal adamı aparanda dəmir qavları döyüllər, tüvəy atıllar, xançalnan suyu doğruyullar. Gərəh hal ciyarı aparıf suya çəhməmiş suyu doğruyasan. Onda ciyar geri qaydır. Zahı ölmür.

*Söyləyəni: **A.Rəhimov.** Bax: Azərbaycan Mifoloji mətnləri. Bakı, 1988, səh., 148, 188*

* * *

Hal anası uzun əmcəhli bir arvatdı. Əmcəhlərini atır çiyninə, gəlir zahı arvadın ciyarını çıxarır. Gərəh zahının başı altına bir dəmir parçası, birəz çörəh, bir də quran qoyasan. Onda hal anası zahıya yaxın düşəmməz.

*Söyləyəni: **A. Rəhimov** Bax: Azərbaycan Mifoloji mətnləri. Bakı, 1988, səh.148,188*

## HAL ANASI

Bir zahı evdə uşağıynan təkimiş. Uzun təndir şişini yanına qoyuf otumuşdu. Bir də baxır kin, bunu çağırıllar, əmə tanış səs dəyil. Qorxur, soruşur kin, kimdi?

Bir də görür kün, bacadan bir arvat başı sallandı, boynunda da uzun bir muncux var. Bilir kin, bu hal anasıdı. Tez şişin qarmağın ilişdirir muncuğa, dartır qırır. Muncux səpələnir əvə. Zahı arvat bu muncuxları yığır bir əsgiyə qoyur uşağın başı altına.

Hal anası başdıyır arvadı qorxuzmağa kin, tez ol, muncuğu ver, yoxsa səni də, uşağı da öldürrəm.

Arvat deyir kin, heş zad eliyəmməsən, muncuğun bizdədi. Hal anası onu hədəliyir, yalvarır, əmə arvat muncuğu vermir. Şişinən hal anasın qovur. Sora muncuxlardan paylıyır camahata. Deyillər kin, o muncuxdan kimdə varsa, ta hal anası ona yaxın düşəmməz.

*Söyləyəni: **İmanquliyev Şükür Məmməd oğlu.** Dərələyəzin Gomur kəndi, tələbə. Bax: Azərbaycan Mifoloji mətnləri, Bakı, 1988, səh. 95, 190.*

## HAL VAHIMƏSI
### *(olmuş bir hadisənin canlı şahidiyəm)*

1935-ci ildə mənim 9 yaşım var idi. Anam Nahad (Nahidə) bacım Züleyxaya hamilə idi. O zaman doğan qadınlar kənddə ev şəraitində uşağa yatırdı.

Anam bacımı doğan zaman çoxlu qan itirdi. Kəndin mamaçası olan Qaratel və Nabat arvad təlaş içindəydilər. Hər ikisi qohum idi. Anam tez-tez huşunu itirir, halsız olurdu. Hay-küyə xeyli qadın toplaşmışdı. Onlardan ağlayanlar da var idi.

Anam birdən huşunu tam itirdi. Qaratel arvad qışqıra-qışqıra bunu şillələyirdi. Birdən Qaratel arvad qışqıra-qışqıra dedi: tez olun kişiləri çağırın güllə atsınlar.

Kişilər gəlib anamın qulağının dibində bir neçə güllə atdılar. Anam yavaş-yavaş özünə gəlirdi. Bu zaman Nabat arvad bıçağı əlinə götürüb evin yanından axan arxa tərəf qaçdı və suyu bıçaqlamağa başladı. Bundan sonra çaya tərəf qaçdı. Bu zaman Qaratel arvad babamın qara papağını anamın başına qoydu. Kürkünü əyninə geyindirib belinə də bir qayış bağladı. Sonra da zorla ona bal şərbəti içirtdi.

Sonra anam yavaş-yavaş özünə gəldi. Bu hadisə bugünki kimi mənim yadımdadır. Deməli, hal vahiməsi son dövrlərə kimi yaşamışdır.

*Söyləyəni: **Mən özüm, Həsən Mirzəyev.** Bakı, 4 aprel 2006-cı il.*

## ŞƏFA AĞACI

Belə bir rəvayət var. Qədim vaxtlarda uca bir dağın ətəyində, gur suyu olan bir bulağın üstündə böyük bir ağac var imiş. Bu ağacın doqquz yekə budağı olub və hər budağın yarpaqları bir rəngə çalırmış. Çox hündür və böyük olan bu ağacın kölgəsində qoyun sürüləri yatar və yol ilə keçən karvanlar dincələrmiş.

Çox zaman karvan sahibləri gecələr bu ağacın altında gecələyirmiş.

Günlərin birində yoldan keçən karvan burada gecələməyi qərar verir. Bu karvandakı adamlardan biri bərk naxoş imiş. Bu naxoş adamın altına palaz atıb yerə uzadır və bunun ölümünü gözdüyürmüşlər. Xəstə bu ağacın altında bərk yuxuya gedir və səhərə qədər yatır. Səhər tezdən ayılır və birdən ayağa qalxır. Deyir ki, yaxşıyam. Heç haram ağrımır. Karvanda olan adamlar vahiməyə düşür. Pıçhapıç düşür. Bunlar naxoş adama baxıf gözdərinə inanmır. Növbəti gejəni də burda qalmaq qərarına gəlirlər.

Gejənin bir vaxtında zəif meh əsməyə başdıyır. Görüllər ki, bu ağacın hər budağından bir səs gəlir. Amma budaxdakı səslər bir-birinə oxşamır. Hər budaxdan bir musiqi səsi gəlir. Hər budaxda olan yarpaqlar da ayrı-ayrı rəngdədir. Səhər açılanda görüllər ki, bu musiqiyə oxşayan səslər kəsildi və ağacdakı yarpaqların irəngi də bir oldu.

Bu hadisəni bir yaşlı kişidən soruşurlar. O deyir ki, ay bala bu ağac Şəfa ağacıdır. Hansı xəstə bu ağacın altında yatsa o şəfa tapmalıdır. Ağacın yarpaqlarındakı qoxu şəfa ətridir. O hamını sağaldır. Əgər yarpaqların ətri xəstəyə kömək etməyəndə o xəstəni bu ağacda olan doqquz budağın altında yatırtmax lazımdır.

Bu budaqlarda olan yarpaqlar musiqi səsi çıxarır. Budağın biri kömək etmiyəndə o birisi edir. Bu yolla xəstələr şəfa tapır. Bu ağac Allah vergisidir. Allah onu insanlara şəfa vermək üçün yaradıfdı.

Onun budaxları quruyanda onnarı atmırlar. Həmin ağacdan saz düzəldirlər. O da doqquz hava çalır.

*Süyləyəni: **İbrahim Mirzəlioğlu** (1889-1982). Qələmə aldı: Həsən Mirzəyev. Dərələyəzin Qovuşuq kəndi, 1966, avqust ayı.*

## NUHUN GƏMİSİ

Nuh peyğəmbər baxır görürkü dünyanın üzünü su alcəjehdi. Bir gəmi qayırtdırır böyüh. Gəmiyə hər heyvanatdan göturür, dişili-erkəkli. Bı zaman şeytan da gəmiyə minir.

Bir neçə vaxtdan sorğa Nuh peyğəmbər Ağ quzğunu göndərdi ki, get gör su çəkilib yoxsa-yox. Ağ quzğun yenir yerə gördükü insan-heyvan cəsətləri yerdədi. Quzğun cəsətdəri yemağa başdayır.

Nuh gördükü Ak quzğun gəlmədi, göyərçini çağırır ki, get gör canı yanmış niyə gəlmədi.

Göyərçin yenir yerə görürkü quzğun leş yeyir. Göyərçin deyir: quzğun səni işə göndiriflər yoxsa cəsət yemağa. Quzğun deyir ki, bir ağzını aç dilinnən öpüm. Göyərçin ağzını açanda quzğun göyərçinin dilini dişdəyir, sonra da qoparır atır yerə. Göyərçin baxıf görürkin dili yoxdu, dimdiyinə bir çöp alıf qalxır Nuhun yanına. Nuh görür kin su quruyuf. Əgər qurumasaydı çöp olmazdı. O, yenir Naxçıvana. Nuh gəlif bir əvin qapısını açır. Görürkin bir qarı cəhrə əyirir. Nuh deyir qarı nənə nə gördün. Qarı deyir qarı nənən ölsün Nuh, təndirimnən bir azca su çıxdı. Bı zaman şeytan gəlif Nuha deyirkin sən mana yaxşılıq elədin indi sana 3-nəsiyyət eliyejem. Birinci təkəbbür olma, ikinci dünya malına tamahlanma, üçüncü deməynən dünya malı qalajeh.

*Söyləyəni:* ***Cəfərqulu oğlu Əhməd*** *102 il yaşamışdır. Dərələyəzin Ələyəz kəndi, savadsız. Əsli Alxanpəyəndəndir. Qələmə aldı Kərəm Baxış oğlu İmamalıyev. Ələyəz kəndi. 1968-ci il.*

## ALAGÖLLƏR ƏFSANƏSI

«Alagöllər» Dərələyəz, Kəlbəcər, Göyçə yaylaqlarının arasında yerləşir. Gölün biri böyük, biri isə xırdadır. Çox yüksəklikdə olan bu gölün bir tərəfi çəmənlik, bir tərəfi isə çınqıllıxdı. Çınqıllıx olan tərəf Göyçənin Subatan adlı kəndinin sərhəddidir. Bu gölün suyu ətrafdakı bulaqlardan gəlir. Suyu dumduru, göz yaşı kimidir. Şirin, içməli suyu var.

Deyilənə görə bu göldə iki su atı var imiş. Rəngləri göy, boyları, qulaqları balaca, atlar imiş. Bu atlar heç kimin gözünə görünmürmüş. Yalnız gecələr başlarını sudan çıxarar və ətrafa baxarmışlar.

Rəvayətə görə bu atlar gölün qırağındakı yollarda yatıb qalan, yorulan, xəstə adamları yuxuda olarkən götürüb öz mənzillərinə çatdırar, gözə görünmədən geri qayıdıb gölə girərlərmiş. Uzun illərdən sonra camaat bu sirri öyrənməyə başlayır. Bu arada camaat gölün qırağında pusqu qurur. Bir də görürlər ki, iki at göldən çıxıf yola tərəf gəldi. Atlar burada ayıq adam olduğunu hiss edib ildırım sürətilə özlərini gölə atarlar. Bu hadisədən sonra illər keçsə də atları gördüm deyən olmur. Deyilənə görə olar qeybə çəkilib.

Bundan sonra el-oba «Alagölləri» müqəddəs yer hesab edir və o gölə mundar şey atmağı, mundar şey axıtmağı günah sayırlar.

*Söyləyəni: **İbrahim Mirzəlioğlu** (1889-1982). Qələmə alanı Həsən Mirzəyev, Bakı, 1975-ci il yanvar ayı.*

## ZÜLMƏT DAŞI

Belə rəvayət edirlər ki, İsgəndər dünyanı fəth edəndən sonra belə qərara gəlir ki, o yerin alt qatlarında olan zülmət dünyasına da getsin, oradan da badi-xərac alsın. O, dünyada nə qədər rəmmallar, alimlər, bilicilər varsa hamısını yanına çağırır və onlardan zülmət dünyası haqqında məlumat almaq istəyir. Bu məclisdə İsgəndərə deyirlər ki, zülmət dünyasının bircə yolu var. Yalnız o yolla ora getmək olar. Alimlərdən biri İsgəndərə deyir ki, zülmət dünyasında bir bulaq var. Ona dirilik suyu deyillər. Hər kim o sudan içsə, dünya durduqca o yaşıyacaxdı.

Bu məlumatdan sonra İsgəndər deyir ki, mən mütləq zülmət dünyasına səfər etməliyəm. Həm zülmət dünyasından xərac alaram, həm də ordakı dirilik suyunu içib dünya durduqca yaşıyaram.

Bundan sonra zülmət dünyasına hansı yolla, necə getmək məsələsi ortaya çıxır? Bura yığışanların heç biri zülmət dünyasının qapısının yerini bilmir. Rəmmallardan biri rəm atıb deyir ki, zülmət dünyasının qapısını yalnız Xızır peyğəmbər bilir. İsgəndər Xızır peyğəmbəri tapdırır. Xızır peyğəmbər o qədər qocalmışdı ki, ayaq üstə dura bilmirdi. İsgəndər adam göndərir ki, Xızırı gətirsinlər onun hüzuruna. Xızır peyğəmbər onun hüzuruna gəlir. İsgəndər fikrini Xızır peyğəmbərə deyir. Xızır peyğəmbər deyir ki, bu çətin yoldur. Mən qocalmışam, at üstə otura bilmirəm, mən gedə bilmərəm.

Alimlər İsgəndərə deyir ki, Xızır peyğəmbəri özünlə aparmasan heç nəyə nail ola bilməzsən. Zülmət dünyası haqqında yalnız o bilir. İsgəndər qoşunun böyüyünə deyir ki, Xızır üçün bir yumşaq əşyalardan kravat düzəldin. Xızırı həmin kravatın üstündə aparmalıyıq. Xızır İsgəndərə deyir ki, zülmət dünyasına nə ilə gedirik? İsgəndər cavab verir ki, sən narahat olma. Dünyada nə qədər köhlən at varsa, hamısını yığmışam bura. Xızır peyğəmbər cavab verib deyir: «Onlar zülmət dünyasına gedib çıxar, amma geri qayıda bilməz. Ora gedəndə azuqələri götürmək üçün yalnız qatır lazımdır. Çünki bu cins yorulmaq bilmir. Ordu üçün isə qulunnu at lazımdır. Çünki qulunnu atdar hər atdımda geri baxacaq, fəhm ilə gəldiyi yolu bələdliyajax. Çünki balaları qalıbdır. Onlar qayıdanda fəhm ilə yolu tapajaxlar. Belə olmasa ordunun azuqəsi qurtarar və mənzil başına çata bilməz. Amma qayıdanda onların cilovunu buraxmaq lazımdır. Onlar yolu yaxşı tanıyırlar. Balaları üçün sürətlə gedəcəklər». İsgəndər Xızır peyğəmbərin dediyi kimi hərəkət edib yola düşür. Zülmət dünyasının qapısını açıb yol gedirlər. Xızır peyğəmbəri pambığın, yunun içində kravata qo-

yub qabaqda aparırlar. Zülmət dünyasında İsgəndərin dəstəsi Xızırı itirir. Xızır gedib dirilik suyundan içir. O həm cavanlaşır, həm də gözü açılır. Lakin Xızırı aparanların heç biri bu sudan içmir.

Xızır peyğəmbər deyir ki, indi biz geri qayıdırıq. Bu zülmət daşlardan nə qədər bacarsanız götürün. Bəziləri gülüb deyir ki, heç özümü apara bilmirəm, daşları necə aparım. Bunlar nəyimə gərəkdir? Lakin bəziləri bu daşdan az, bəziləri çox götürür. Qulunları işıqlı dünyada qalan atlar fəhm ilə gəldiyi yerlərlə qaydır, işıqlı dünyaya çıxır. Bir müddətdən sonra İsgəndər də gəlib çıxır işıqlı dünyaya. Bu vaxt zülmət daşlarını götürən adamlar baxıb görür ki, bu daşlar hamısı qiyməti olmayan ləl-cəvahiratdır. Daş götürənlər deyir ki, kaş bu daşdan çox götürərdik. Götürməyənlər isə deyir ki, niyə götürmədik. Odur ki, deyirlər zülmət daşını götürən də peşmandır, götürməyən də.

Heç də təsadüfi deyildir ki, bu hekayətə, bu əfsanəyə, həmin dirilik suyuna aşıqlar qoşmalar da deyiblər.

İsgəndər zülmətdə tapıb içmədi
Xızır içdi oldu cavan əlləzin.

*Söyləyəni: İbrahim Mirzəlioğlu (1889-1982). Qələmə aldı Həsən Mirzəyev, 1966, avqust. Dərələyəz, Qovuşuq kəndi.*

## GƏLİN ATILAN QAYA

El-obaya yayılır ki, Nadir şahın qoşunu gəlir. Adamlar evlərini atıb dağlara, meşələrə qaçışırlar.

Adamlardan bir bölüyü uca bir qayanın belindən keçəndə Nadirin əsgərləri onları yaxalayır.

Əsgərlərin böyüyü soruşur:

-Dağlara qaçmağı sizin yadınıza kim saldı?

Bir gəlin cürətlə qabağa çıxır:

- Dağlara qaçmağı bu adamların yadına mən salmışam.

Biz nə özgə evindən qaçırıq, nə də özgə torpağına qaçırıq.

-Sən bundakı cəsarətə bax,- deyib Nadirin adamları gəlinin qolundan tutub qayadan atırlar.

Gəlin üst-üstə altı-yeddi tuman geyibmiş. Tumanlar havada çətir kimi açılır və gəlin sağ-salamat qayanın ayağındakı çəmənliyə düşür.

*Söyləyəni: **Allahverdiyeva Səlminaz Mirzə qızı,** Göyçənin Əmirxeyir kənd sakini, 92 yaşlı. Bax: Azərbaycan Xalq Əfsanələri.Bakı, 1985,səh.16, 270*

***Mənim əlavəm**: bu əfsanəni söyləyən Allahverdiyeva Səlminaz deyir ki, «Gəlin atılan qaya» Dərələyəz elinin ərazisindədir (Bax: həmin əsər, səh.270). Mən bu qayanı yaxşı tanıyıram. Bu qaya Arpa Çayının üstündə yerləşən Arpa kəndinin gün doğan tərəfindədir. Çox uca, sıldırım bir qayadır. Qayanın altından Arpa çayı axır və qayanın dibi çəmənlikdir. Bu əfsanə Dərələyəzdə dillərdə əzbərdir. Əfsanəni danışan düz deyir. Bu hadisə həqiqətən olmuş bir hadisədir. Qadının tumanları çox olduğu vəgöydə çətir kimi açıldığı üçün o sağ qalmışdır.**(Həsən Mirzəyev)***

## GƏLİN QAYA

Yazın gül gülü, çiçək çiçəyi, bulaqlar, çaylar, göllər sonaları çağıran vaxtı imiş. Bir gün gəlin körpəsini qucağına alıb gəzməyə çıxır. Görür ki, sonalar göllərdə üzür. Çox xoşuna gəlir. O da soyunub göldə çimir. Gəlinin ağ, mərmər bədəni ətrafa işıq saçır.

Çiçəkli dağdan gəlinə tamaşa edən qoca, elə bilir ki, suda çimən mələkədir, heyran qalır. Gəlin də qocanı görür. Onlar bir-birini tanıyırlar: sən demə, həmin qoca gəlinin qayınatası imiş. Gəlin körpəsini də qucağına alıb evə yollanmaq istəyir, ancaq yerindən tərpənə bilmir. Gəlin həyalanıb üzünü göylərə tutub yalvarır: ya məni quş elə, ya daş elə! Gəlin elə oradaca daşa dönür.

Söyləyəni: 100 yaşlı **Göyüşova Dursun Sadıq qızı**, Xanlar r-nu, Bax: Azərbaycan Xalq Əfsanələri, Bakı, 1985, səh. 16, 270

*Mənim əlavəm: «Gəlin qaya» adlı toponim Dərələyəzin əvvəlki ərazisində Havuş kəndinin yaxınlığında da vardır. Hal-hazırda bura Şərur rayonu ərazisidir. Yaşlı adamlar söyləyirlər ki, bu qaya da əvvəlcə insan (gəlin) olmuş, lakin sonradan daşa dönmüşdür.* ***(Həsən Mirzəyev)***

## GƏLİN QAYASI

Burada bir qaya var, qıza bənzəyir. Bu haqda belə bir əfsanə var. Kasıb və mərd gəncin həyat yoldaşına varlı bir bəyin gözü düşür. O, gəlini ələ keçirmək istəyir. Ancaq gəncin mərdliyindən, onun xalq arasındakı hörmətindən qorxan bəy bu işi açıq-aşkar etməyin mümkün olmadığını görür. Fürsət gözləyir. Taxıl biçini yaxınlaşdığını görən camaat çölə-zəmiyə gedir. Bu fürsətdən istifadə edən bəy gəlini ələ keçirmək istəyir. Bəyin hiyləsini başa düşən gənc və gözəl gəlin allaha yalvarır ki, daşa dönmək daha yaxşıdır. Elə o vaxtdan gəlin daşa dönür.

Bu əfsanə ilə əlaqədar olaraq xalq arasında bir bayatı da yaranıb, «Gəlin qaya» əfsanəsi yada düşən kimi sinəsi sözlü, dili bayatılı nənələrimiz şirin zümzüməylə yanıqlı-yanıqlı bayatı çəkillər:

Əzizim gəlin yaşa,
Dolmamış gəlin yaşa;
Əğyara əl verməyib
Dönübdü gəlin daşa.

Həmin daşa xalq arasında «Gəlin qayası» deyirlər.

*Söyləyəni: Gədəvəyin Söyüdlü kənd sakini, 85 yaşlı* ***Talıbov Tapdıq Qasım oğlu****. Bax: Azərbaycan Xalq Əfsanələri. Bakı, 1985, səh.21, 271*

***Mənim əlavəm****: Əfsanəni söyləyən bunun hansı ərazidə, eləcə də Gədəbəydə baş verdiyini demir. Onu deməliyəm ki, Dərələyəzdən çox-çox adamlar köçüb Gədəbəydə yaşayıblar. Bundan başqa Dərələyəzlə bağlı iki Gəlin qayası vardır. Biri indiki Şərur rayonun Havuş kəndi yanında, biri də Dərələyəz ilə Zəngəzur arasındakı ərazidə.(Bax: Dərələyəzə aid xəritə). Dərələyəzdə söyləyən əfsanə ilə bu əfsanə demək olar ki, eynidir. Müşahidələrim göstərir ki, bu əfsanə Dərələyəz ərazisində olan Gəlin qaya ilə bağlıdır.* ***(Həsən Mirzəyev)***

## LƏLVAR DAĞI

Belə rəvayət var ki, qədimdə bir dağ varmış. Bir gün bir kişi yuxusunda görür ki, həmin dağda bir oyuq var. O, oyuqda ləl, qızıl, cavahirat var. Kişi səhər durur, yol tədarükü görüb dağa tərəf gedir. Gedib həmin oyuğa rast cəlir. Görür ki, mağaranın qabağında bir əjdaha yatır. Əjdaha kişinin fikrini başa düşür ki, onun ləllərini aparmağa gəlir. Əjdaha dilə gəlib deyir:

-Ey insan, sən burda ləl olduğunu heç kimə demə, hər gün gəl sənə bir ləl verəcəyəm-deyir və birini ona verir.

Tamah kişiyə güc gəlir. O, evə qayıdıb əhvalatı qardaşına danışır. Kişi ilə qardaşı silah götürüb mağaraya gedirlər. Əjdaha bunları görüb fikirlərini başa düşür və hər ikisini udur.

Həmin vaxtdan dağın adı Ləlvar adlanır. Çünki kişi o dağda «ləlvar» deyə o dağa getmiş və əjdaha onu udduğu üçün gətirə bilməmişdi. Ləl yenə də o dağda qalmışdır.

*Əfsanəni söyləyən:* ***Bəxtiyarova Gülnisə Şahsuvar qızı****, Dərələyəzin Gülüdüz kənd sakini, 80 yaşlı. Bax: Azərbaycan Xalq Əfsanələri. Bakı, 1985, səh. 42, 272*

## QISIR DAĞ

Bir bəy öz qoyunlarını müftə saxlamaq üçün adam axtarır. Bir çoban onunla razılaşır. O, çobanla belə bir şərt kəsir ki, qoyunlarımı on il müddətində saxla, on il tamam olduqda mən sənə qoyunlarımın bir illik balasını verim. Çoban bəyin bu şərti ilə də razılaşır. O gündən çoban bəyin qoyun sürüsünü otarmağa başlayır.

Nəhayət, doqquz il tamam olur. Həmin il çoban bəyə bildirir ki, artıq bu il vədə tamam olur. Bunu eşidən bəy o ili bütün qoçları burdurur.Çobanın isə bu işdən xəbəri olmur. O, qoyunları böyük bir dağın ətəyində otarırdı. Beləliklə, həmin il qoyunların heç biri qoça gəlmir və heç bir quzu olmur. Qoyunlar dağdan arana qayıdır. Çoban elə bilir ki, qoyunların bala verməməsi, qısır qalması o dağın otundandır, o dağ günahkardır.Çobanın sözünə görə o vaxtdan indiyə kimi dağın adı «Qısır dağ» qalır.

*Bu əfsanə Dərələyəzin Gülüdüz kənd sakini 80 yaşlı* ***Gülnisə Şahsuvar qızı Bəxtiyarovadan*** *yazılmışdır. Bax: Azərbaycan Xalq Əfsanələri, Bakı,1985, səh.43, 272.*

***Mənim qeydim****: Qısırdağ Dərələyəz ərazisindədir. Arınc, Göyabbas, Qısırxaraba, Köçbək kəndlərinin əhatəsində yerləşir, hündürlüyü 2988 metrdir. Bax: Dərələyəzə aid xəritəyə.*

## ABDULƏSƏR DAĞI

Bu dağ Martuni rayonunun Mədinə kəndində yerləşir. Dağın başında gözəl bir göl vardır. Rəvayətə görə Mədinə kəndində Abdul adında bir çoban yaşayırmış. O, kəndin yeganə gözəli Şəmsinura vurulubmuş, qız da onu sevirmiş. Günlərin bir günündə kəndə bədbəxtlik üz verir. Düşmənlər kəndə qəflətən basqın edib onun varidatını talayırlar. Onlar kəndin yeganə gözəli Şəmsinuru axtarırlarmış. Bu zaman qız qaçıb özünü hündür bir qayadan atmaq istərkən uzun saçları düşmənin əlinə keçir. Onu çıxarmağa başlayırlar. Qız saçlarının qırılmasını allahdan arzulayır. Qızın saçları qırılır, qız yerə düşüb ölür. Saçları isə ilana çevrilib düşməni çalır. Bu hadisədən Abdulun xəbəri yox idi.O bu xəbəri eşidib sarsılır və başına hava gəlir, yəni bu hadisə ona

əsər edir. O zamandan etibarən dağın adı Abdulsevər qalır. Deyilənlərə görə dağın başında göl də Abdulun göz yaşlarından əmələ gəlmişdir.

*Bu əfsanə Qax rayonundakı İlisu kənd.sakini, 86 yaşlı **Vəli Balay oğlu Qocayevdən** yazılmışdır. Bax: Azərbaycan Xalq Əfsanələri, Bakı, 1985,səh. 43-44, 272.*

***Mənim qeydim:*** *Bu əfsanəni Dərələyəz mahalında da bu şəkildə söyləyirlər. Ona görə də mən ikinci bir adamın danışmasına ehtiyac hiss etmədim. Bundan başqa, haqqında söhbət gedən Abduləsər dağı Dərələyəzin lap yaxın rayonunda yerləşir.Qax rayonunda olan adamın bu əfsanəni danışmasına gəldikdə deməliyəm ki, Dərələyəzdən Qax rayonuna köçüb orada yaşayanlar olduqca çoxdur. Bəlkə də elə həmin bu adam ya Dərələyizlidir, ya da ki, onlardan eşidibdir.*

## SƏHƏNGUÇAN TƏPƏ

Belə rəvayət edirlər ki, guya keçmiş zamanlarda varlı bir kişi yaşayırmış. Onun varı-yoxu bir qızı var imiş. Zaman keçdikcə qız böyüyür, atası onu özü kimi varlı, dövlətli bir kişinin oğluna ərə vermək fikrinə düşür.Ancaq qız buna razılıq vermir. Atası nə qədər ètsə də qızını razı sala bilmir. Bir müddət keçdikdən sonra kişi qızının kəndli oğlunu sevdiyini bilir və onu evdən qovur.

Qız yaylağa, nənəsinin yanına gəlir. O, burada atasından qorxub heç yana çıxmazmış, ancaq axşamlar qonşu qızları ilə təpənin üstündəki bulaqdan su gətirməyə gedərmiş. Nənəsinin razılığı ilə o kəndli oğluna nişanlanır. Bundan sonra kişi qızına dağ çəkmək fikrinə düşür.

Kişi kəndli oğlunun üzərinə hücum çəkir, amma məğlub olur. Bir neçə gün keçdikdən sonra kişi kəndli oğlunu gecə yatarkən tutdurur, başını kəsdirir və təpənin üstünə qoydurur.

Axşam qız səhəngini götürüb suya gedərkən, nişanlısının halına dözə bilmir, yıxılır və səhəngi təpədən düşərək sınır. Ona görə də bu təpə «Səhənguçan» təpə adlanır.

## ƏRGƏZ PIRI

Ərgəz piri Dərələyəzin Ərgəz kəndində yerləşir. Bura Dərələyəzin ən qədim kəndlərindən və ocaqlarındandır. Bu pir indi də qalmaqdadır. Tarix boyu azərbaycanlılar bu pirə getmiş, orada qoyun qurbanı kəsmiş və ona nəzir qoyurmuşlar. İndi də bu belədir.

Rəvayətə görə həmin pir olan yerdən gecələr işıq gələrmiş. Sanki burada ocaq yanarmış. Camaat buranı pir hesab edib bura ziyarətə gələrmiş. Sonralar Oğuz tayfa başçılarından biri burada məskən salmışdır. Ola bilsin ki, bu Dədə Qorquddakı Qazan xandır. Hətta erməni mənbələrində bura «Arqazan» da deyirlər. Bəlkə də bu Ər Qazan deməkdir. Çünki erməni əlifbasında «ə» hərfi yoxdur. Ə hərfinin yerinə «A» hərfi yazılır.

Onu da əlavə edim ki, bu yerlər Qazan xanın oylağı olmuşdur. Bu pir Göyçədən Əlincə qalasına gedən yolun üstündə, çox yaxınlığında yerləşir.

Ərgəz kəndinin adı isə Əroğuz sözündəndir.

*Söyləyəni: Qabaxlı kənd sakini* ***Nəsir Əsədov*** *(1904-1994). Qələmə aldı Həsən Mirzəyev.*

## ERTIŞ PİRİ

Ertiş piri Dərələyəzdədir. Arpa çayının üstündədir. Ertiş kəndi indi xaraba qalıfdı. Bizimkilər ən çox Ertiş pirinə gedərdi. Qurban aparardıx. Qoyun, quzu, xoruz aparıf kəsərdik. Niyət eliyif gedirdıx. Kəsirdıx, yeyirdıx, qalanını da gətirif kəttə paylıyırdıx. Çox kəramətdi piriydi. Yağış yağa-yağa şamı yandırıf pirin divarına qoyurdux. Yağış şamı keçirmirdi. Orda yanırdı o şam.

Ertiş piri bir kahaydı. Kahanın içərisinə girirdin, su varıydı. Ortasında bir dirək varıydı. O dirəyin başına hərrənirdin. Mənim özüm içəri girəndə bir ağ ilan da suyun içində gördüm. Aparıf orya yaylıx bağlıyırdın, pul qoyurdun, deyirdin kin niyyətin qəbul olsun. Pirdə suya girirdin. Çıxanda qupquru çıxırdın.

*Söyləyəni:* ***Bülbül Cəfər qızı Kərimova.*** *1936-cı ildə Dərələyəz mahalının Qaraqaya kəndində doğulub, natamam orta təhsilli. Xanlar rayonunun Əbləh kəndi, 14 avqust 2001-ci il. Folklor institutunun arxivindən götürülmüşdür.*

## SAL-SAL QALASI

Salsal qalası Dərələyəzdə Ələyəz, Hosdun, Erdərin və Horbadıq kəndlərinin arasında olan çox uca bir qayanın başında yerləşir. Bu qalanın sahəsi çox böyükdür və iki qapısı var. Qapının biri daşla hörülmüş gizli qapıdır. Qala divarlarının enniliyi çox yerdə 3 metrdir. Bu qalaya Qoşavəng adlı yerdən tüng ilə su çəkilmişdir.

Dərələyəzdəki neçə-neçə kəndlərə gedən yolları bu qaladan görmək olur. Bu qaladan Dərələyəzin əksər kəndlərini nəzarətdə saxlamaq mümkündür.

Rəvayətə görə Salsal qalasını Salsal adlı bir pəhlivan tikdirmişdir. O, bu yerlərə hücum edən orduları bu qalanın köməyi ilə məğlub etmişdir.

Bir gün Cənab Əliyə xəbər çatır ki, ərəb qoşunları Salsalı məğlub edə bilmədi. Salsal ərəb qoşunlarının çoxunu qayadan tökdü.

Cənab Əmir Salsal qalasına gəlir və Salsalı döyüşə çağırır. Salsal əmr edir ki, Əlini buraxın gəlsin qalaya. Salsal Əliyə deyir ki, ikimiz də pəhlivanıq. Gəl biz vuruşmayaq. Güclərimizi sınayaq. Kim qüvvətli olsa o qalib hesab olunsun. Belə də edirlər. Qalanın içində də böyük bir daş olur. Əli deyir ki, bu daşı qalanın içindən niyə çıxarmamısınız. Salsal cavab verir ki, ağır olduğu üçün çıxara bilməmişik. Əli sağ əlini atıb daşdan yapışanda Əlinin əli, barмaqları daşın içinə girir. Ya allah deyib daşı qaldırıb qaladan aşağı yumalayır. Daş

gəlib aşağada yolun qırağında dayanır. Salsal deyir ki, qalib sənsən. Mən müsəlmanlığı qəbul edirəm. İndi həmin daşa camaat «Əli daşı», «Əli atan daş» deyir. Mən də o daşı çox görmüşəm. Çox böyük bir daşdır. Daşın üstünə sanki insan əli basmısan. Çox əfsanəvi bir daşdır. Hətta o daşı Dərələyəzin Qovuşuq kənd sakini, indi didərgin düşən Narıngül öz şerində belə tərənnüm edir.

Salsalın qalası, Əlinin daşı,
Sinəmə tökülür gözümün yaşı,
Anamın, atamın o məzar daşı,
Yadıma düşəndə vətən, ağlasın!

*Söyləyəni: **İbrahim Mirzəlioğlu.** Qələmə aldı Həsən Mirzəyev.*

## ŞAH ABBAS

Üş dənə lotu olur, yığışıllar dama mastahat töküllər ki, gedax oğurluğa. Biri deyir gedax keçidən zatdan gətirax. O biri deyir qoyundan zatdan gətirax. Üçüncüsü deyir ki, keçidən, qoyunnan bir zat çıxmaz, gedax şah Abbasın xəzinəsini oğuruyuf gətirax. Bı vaxt şah Abbas da başqa donda qapıda dururmuş. Şah Abbas qapını açıb girir lotuların yanına. Deyir ki, bı gecə məni də yoldaş eyləyin özünüzə. Bınnar danışır biyən-oyan, hə yaxşı üçux olax dört. Şah Abbas deyir lotular hə indi xəsiyyətinizi deyin görək. Lotulardan biri deyir: Mən gecə it hürüyəndə bilirəm nədən ötürü hürüyür.

O birisi də deyir nə qədər qıfıl olsa əl atsam açılır.

O biri də deyir mən gecə gördüyüm adamı gündüz tanıyıram. Lotular deyir hə təzə gələn qonax sən də xəsiyyətini de sonra gedək.

Şah Abbas deyir ki, sağ buğumu tərpətsəm dünya abad olar, sol buğumu tərpətsəm dünya bərbad olar, durun gedax. Hə duruf gedillər. Bunnar xəznənin qabağına çatanda it hürür. İtin dilini bilən lotu qıçın saxlayıf getmir. Şah Abbas lotuya deyir itin ürüməsinə baxma gedax. Gedib xəznəni dağıdıllar. Hərəsi bir mişov qızıl götürür. Gedənnən sorğa səhər Şah Abbas qırmızı geyinib taxta oturur.

Lotuları çağırır. Lotulardan gecə görüb gündüz tanıyan deyir: Əyə bı Şah Abbasdı. Şah Abbas sorğu-sualdan sora deyir sizin bı işinizi mən necə cəzalandırım. Gecə görüb gündüz tanıyan deyir: Şah sağ olsun xayiş eliyirıx üçümüzə də sağ bığını tərpət. Şah Abbas üç lotunu da azat etir.

*Söyləyəni: **Qənbərov Museyib,** 70 yaşlı, işsiz, savadsız. Dərələyəzin kəndi. 1970-ci il. Qələmə aldı Kərəm Baxış oğlu İmamalıyev. 1935-ci təvəllüd.*

## BƏHLÜLÜ DANƏNDƏ

Bəhlülü danəndə səfil-səfil gəzərdi.

Qardaşı Canətmakən rayətdə pədşəxlıx eliyərdi. Ancax bilirdi ki, Bəhlülü danəndənin heç bir zaman üzü gülməz..

Günlərin bir günündə Bəhlül danəndə qamişi minif bazarda o başa-bı başa çapırdı. O gedif bir qasəbxananın qabağında duruf şaqqa çəkif gülür və qayıdıf uzaxlaşır. Qardəşi Canətimakana söz çatırki qardaşı qasəbxanada şaqqa çəkif gülüfdü.

Tez canətimakən əmir eləyirki Bəhlülü çağırın mənim yanıma. Bəhlülü danəndə gəlir padşahın yanına. Padşah deyirkin Bəhlül bı gün sən bazarda gülüfsən. Bəhlül danəndə deyir gülmüşəm. Onnan ötərikin sən o qədər zülümkarsankin, ta deyiləsi dəyil. Qorxdum ki sənin çün o, dünyada məni də yandıralar. Ammaki qasabxana da gördümki qoyunu-qoyun əyağınnan asiflar, keçini keçi əyağınnan asıflar. Onçun güldüm ta sənin çin məni yandırmazlar.

*Söyləyəni: **İman kişi,** yaşlı, Dərələyəzin Sallı kəndi. Qələmə aldı: İmamalıyev Kərəm Baxış oğlu, ali təhsilli dil-ədəbiyyat müəllimi, Gülüdüz kənd sakini, 1969-cu il.*

## DAHA YAZA NƏ QALDI

Qədim zamanlarda ucsuz-bucaqsız qoyun sürüsü olan varlı bir kişi varmış. Vaxt olur, qış çox sərt gəlir kişinin qoyunları otlaq sarıdan qıtlıq çəkir, qırılmaq təhlükəsi qarşısında qalır.

Qonşu kənddə geniş torpaqları, otlaqları ilə məşhur olan xaçpərəst yaşayırmış. Varlı kişi naəlac qalıb xaçpərəstə müraciət etməli olur. Ondan xahiş edir ki, qış qurtarana qədər qoyun sürüsünü otarmaq üçün ona otlaq sahəsi versin, əvəzində nə istəsə verməyə hazırdı.

Xaçpərəst bilirdi ki, onun gözəlliyi ilə aləmdə məşhur olan ərkən bir qızı var. Buna görə də varlı kişiyə deyir ki, qızını ona versə xahişini yerinə yetirər.

Xeyli müddət dərin xəyala qərq olan varlı kişi çar-naçar bu sevdaya razılıq verməyə məcbur olur. Qız isə başqa bir cavanı, öz elinin-obasının igidlərindən birini sevirdi. Bu yaxın günlərdə oğlan elçi göndərib qızın atasının razılığını almalı idi.

Atasının bu sevdaya razılaşdığını görən qız Allaha yalvarıb onu bu bəladan qurtarmağı diləyir. Bu yalvarışın heç bir xeyri olmadığını görən qız atasının yanına gəlib, göz yaşları tökərək etiraz dolu ürəyini boşaldır:

-Ata, bir qədər səbr elə, yaza nə qalıb ki, hər yan göyərər, sürülərimiz otlayar.

-Nə danışırsan qızım! Gör hələ yaza nə qədər var?

Əli hər yerdən üzülən qız son dəfə bir bayatı çəkir :

Aşıq yaza nə qaldı,
Xalın yazanə qaldı.
Ülkər yana sallandı,
Daha yaza nə qaldı.

Bundan sonra kişinin ürəyi yumşalır, sürülər qırılsa da qızı xaçpərəstə verməyəcəyinə söz verir.

# ƏHVALATLAR VƏ RƏVAYƏTLƏR

## MƏMMƏDÖLƏN YURD

Dərələyəz mahalının Göydağ yaylağında elatın düşdüyü bir yurd var. Həmin yurdun adı Məmmədöləndir. Belə söyləyirlər ki, Kəngərli tayfasından olan tərəkəmələr ora dağa çıxıbmış. Məmməd adlı bir cavan həmin tayfanın bəylərindən olan Həsən bəyə çoban imiş. Çoban Məmməd Həsən bəyin qızı Narını sevirmiş. Narın da Məmmədi sevirmiş. Deyilənə görə Məmməd bir neçə dəfə Həsən bəyə elçi düşsə də, o, qızını çoban Məmmədə vermiyif. Narınla Məmmədin görüşməsini də qadağan edibmiş. Narın atasından gizlin Məmmədin otardığı sürüdən bir erkəci öz alaçığına dadandırır. Hər gün sürü obaya sağına enəndə erkəc sürüdən ayılıb Narının çadrının qabağına gələr, Narın isə təhnədəki çörəkləri və ovcundakı kişmişi erkəcə yedizdirərdi. Erkəc alaçıqdan o yana getməz, Narının alaçıqdan çıxmağını gözləyərdi. Məmməd də bunu bəhanə edib alaçığın qabağına gələr, erkəci çəkə-çəkə aparar-kən Narınla əlüstü söhbətləşib görüşərdi. Bunu Narının anası duyur və erkəci tutub öz alaçıqlarının qabağındakı mıxda bağladır.

Bir gün Məmməd eşidir ki, Narını öz əmisi oğluna nişanlamaq istəyirlər. Narınla sözləşir ki, sübh tezdən bir ata minib obadan çıxsınlar. Elə də edirlər. Məmmədin atına tərkləşib Murad təpə yaylağına üz tuturlar. Obadan bir az aralanmışdılar ki, şimşək çaxır, göy guruldayır, güclü yağış başlayır. Çaxan ildırım atı da, Narını da vurur, Narın ölür. Bu vaxt Məmməd ah-nalə edib belə bir bayatı deyir:

Dağlar qarını ağlar,  
Bağlar barını ağlar.  
Şimşək Narını vurdu,  
Məmməd yarını ağlar.

Bu vaxt sən demə Məmmədin də çuxası od tutubmuş. Cibindəki barıt qutusu da od tutub, partlayır. Məmməd də yanıb Narının yanına yıxılır.

Bütün oba yığışıb hadisə yerinə gəlir. Bu zaman Məmmədin anası nakam oğlunun və sevdiyi qızın birlikdə yanıb öldüklərini görüb, yanıqlı bir bayatı çəkir:

Göy dağın bulaqları,  
Göy bitib qıraqları.  
Köçüb getdi majgalı,  
Dağıldı hodaxları.

Elə o vaxtdan bu yurdun adı Məmmədölən yurdu adlanır.

Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının «Sazlı-sözlü Dərələyəz» kitabı, Bakı, 2004, səh., 71.

## ƏSƏDULLANIN ƏHVALATI

Məmərza kəndində Məşədi Abbas adlı ağsaqqal bir kişi varmış. Çox ağıllı və tədbirli kişiymiş. Bir çoxları ondan məsləhət alarmış. Əsədulla payızda 30 erkəyi qabağına qatıb Naxçıvana aparır ki, satıb bazarlıq eləsin, qışa tədarük alsın.

Əsədulla erkəklərin hamsını satır, almalısını alır, xeyli pul da cibində geri dönür. Buzqovla İtqıran arasında sərt bir dərə var. Buna Çalxan dərəsi deyirlər. Çox qorxulu və vahiməli dərədi. Qaçaq-quldurlar bu dərədə çox karvanlar soymuşlar. Karvanlar bu dərədən keçəndə çalışardılar ki, gündüz keçsinlər. Şərə-xataya rücah olmasınlar.

Xülasə, Əsədulla at belində bu dərədən keçəndə görür ki, daşın dalından ona bir tüfəng tuşlanıb. Daşın dalından səs gəlir ki, atdan düş, nəyin varsa at yolun üstünə, paltarını da soyun. Əsədulla qayıdır ki, soyundurmaq ədəbdən deyil. Day məni niyə öldürürsünüz, otuz erkək satmışam, yaxşı bazarlıq etmişəm, pulum da bax budur, çoxdu. Al hamısını verim, məni öldürmə, bir çətən külfətim var.

Səs gəlir ki, yaxşı, çəkil kənara, geri baxmadan yoluna davam et, geri baxsan səni güllələyəcəm. Əsədulla bir neçə addım atır və gözaltı ətrafa nəzər salıb görür ki, deyəsən bu quldur təkdir, qeyrisi yoxdu. Qayıdır ki, eloğlu, bəs kimsən, hara adamısan. Həmin adam qayıdır ki, ə, nə qanmaz adamsan, heç oğru da adını, yerini deyərmi? Əsədulla qayıdır ki, eloğlu, mən də sən deyən qədər aciz deyiləm, özüm də elə az-çox vurub-tutanam, dedim ki, bəlkə tanıdıqlarımdan oldu.

Oğru qayıdır ki, di yaxşı atını da verirəm, min get, qoy arvad səni danlamasın. Oğru Əsədullaya belə bir bayatı söyləyir:

Əzizim Təhlədənəm,
Tək evli Təhlədənəm
Tərlanın yaxşısıyam
Sonanı təklədənəm.

Əsədulla atı minir və suyu süzülə-süzülə gəlir kəndə və məcbur qalıb bu əhvalatı Məşədi Abbasa danışır. Məşədi Abbas deyir ki, bəs bilmədin hara oğrusudur, hara adamıdır. Biz hara, kimə xəbər yollayaq? Çox güman ki, bu tərəflərin adamı olmaz. Birdən Əsədulla qayıdır ki, atımı özümə qaytaranda bir bayatı söylədi. Məşədi Abbas bayatını eşidib fikrə gedir və söyləyir ki, tapdım səni soyanı. Əsədulla deyir ki, məşədi, necə tapdın, o kimdi elə. Məşədi Abbas qayıdır ki, sabaha tədarük gör, birlikdə gedək, səni soyanı tapacağam.

Səhəri hər ikisi yol tədarükü görüb yol alırlar aran Qarabağa, tərəkəmə camaatının içinə. Soraqlaşa-soraqlaşa Təhlə camaatının obasına gəlib çıxırlar. Məşədi Abbas obaya nəzər salarkən görür ki, kənarda bir təkevli alaçıq qurulub. Əsədullaya deyir ki, bəs səni soyan o çadırın sahibi olmalıdı. Atı düz alaçağın qapısına sürürlər. İtlərin səsinə ev yiyəsi alaçıqdan bayıra çıxan kimi Əsədullanı tanıyır, amma özünü ora-bura vermir. Məşədi Abbas salam verir və deyir ki, qonaq istəmirsənmi? Həmin adam cavab verəndə Əsədulla səsindən tanıyır və başı ilə işarə edir ki, bu adamdı. Məşədi Abbas qayıdır ki:

Əzizim tutaram mən,
Ləbdə mey tutaram mən.
Səyyadın yaxşısıyam.
Tərlanı tutaram mən.

Daha başqa söz-söhbət olmur.

Həmin adam atların başını tutur, qonaqları içəri dəvət edir. Söhbət əsnasında özü söz açıb deyir ki, bu yoldaşın sualı məni açdı və mən öz kimliyimi sözdə açdım, fikirləşdim ki, arifdirsə, gəlib məni tapar. Gətirdiyim nə varsa, hamısı xurcunda yükdədir. Arvadı çağırır ki, o xurcunu bura gətir. Əsədulla baxır ki, heç xurcun açılmayıb, öz bağladığı düyündür. O vaxtdan həmin adamla Əsədulla dost olurlar.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının «Sazlı-sözlü Dərələyəz» kitabı, Bakı, 2004, səh., 71-73.*

## OĞRU VƏLİNİN KƏLƏYİ

Dərələyəzdə oğru Vəli adında bir kişi varıymış. Oğru deyəndə, kasıbkusubun malına əl vurmazdı. Tacir, sövdəgər, ağa, bəy, xanların malından oğurlardı. Özü də insaflı oğru imiş. Oğurladığı malı xırıd eləməmiş oğruluğa getməzmiş. Vəli artıq qocalır. Əvvəlki kimi çəpik ola bilmir. Özünə bir köməkçi götürür. Bir gün evdən hər şey qurtarır. Vəli şəyirdini götürüb «ova» çıxır. Görür ki, Naxçıvan tərəfdən böyük bir karvan gəlir. Karvanın ətrafı ilə də beş-on atlı mühafizəçi. Ha fikirləşir nə etsin, neyləsin, axırda oğlana deyir ki, sən çəkil gizlən. Mən özümü xəstəliyə vurub yolun altına uzanacağam. Sən də arxadan qarabaqara gələrsən. Harda fürsət olsa, yükdən salaram götürüb aradan çıxarsan, mən də gələrəm.

Elə də edirlər. Vəli yolun altındakı otluğa uzanıb zırıldamağa başlayır. Karvan gəlib çatır. Soruşurlar ki, kimsən, hara gedirsən nə olub sənə? Vəli deyir ki, bəs qonşu kənddən gəlirəm, o qabaqkı kəndə gedirəm. Sancılanmışam, yol gedə bilmirəm. Karvanbaşı deyir ki, yazıqdı, qocadı, axşam da düşür, qoymayın qalıb qurd-quşa yem olsun. Axırıncı dəvənin yükü qiymətli olsa da yüngüldür, qoyun dəvənin üstünə ta ki kəndə çatırıq.

Vəlini lap axırıncı dəvənin yükünün üstünə qoyub yerini iraxlayırlar. Vəli kələyinin baş tutmasından için-için sevinir. Karvan yavaş-yavaş gedir. Oğlan da karvanın dalınca qarabaqara gözləyir ki, Vəli nə vaxt, nə salacaq.

Axşam düşür, qaranlıq çökür. Qabağdakı kəndə çataçatda karvan enli bir arxdan keçməli olur. Vəli tez cibindəki qəmə ilə mərfəşlərin kəndirini kəsir və mərfəşlərin biri düşür arxın bir tərəfinə, o biri isə digər tərəfə. Vəli oğru yoldaşa başa salmaq üçün belə bir bayatı söyləyir:

Əzizim arxa tayı,
Yar geyibdi xətayi.
Dərələyəz qocasıyam,
Salıram arxa tayı.

Oğru yoldaşı bunu eşidib tez özünü arxa yetirir və görür ki, tayların ikisi də arxın içindədir. Bir az gedəndən sonra Vəli də sirvilib dəvədən düşür və yoldaşının yanına gəlir. Kənddə aydın olur ki, həmin adam karvançılara kələk gəlib. Artıq iş işdən keçmişdi.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının «Sazlı-sözlu Dərələyəz» kitabı, Bakı, 2004, səh.,73-74.*

## AŞIQ VƏ GƏLİN

Bir aşıq yolla gedirmiş. Payız vaxtıymış. Kəndin cavanlarından biri arvadı ilə taxıl sahəsini biçib, yolun kənarındakı bulağın üstündə, ağacın altında çörək yeyirdilər. İsti olduğundan həm ərinin, həm də qadının üst-başı açıq imiş. Qadın yolla keçən adamı görüb çarşovunu üstlərinə atır. Bu aşıq isə çox dərin aşıq imiş, dilini də dinc qoymazmış. İstəyir ki, onlara sataşsın. Belə bir söz atır:

Əzizim nərgizlər,
Bənövşələr, nərgizlər.
Əsrəmiş maya gördüm,
Qoltuğunda nər gizlər.

Arvad ha gözləyir ki, kişisi bu aşığın cavabını versin, görür ki, kişidən səs çıxmır. Qayıdır ki, a kişi, icazə ver o aşığın cavabını verim, sonra gedib başqa kənddə bizi pislər, dəyər ki, söz qanan deyirlər. Kişi arvada qayıdır ki, əgər cavabını versən, halaldı sənə. Arvad qayıdır ki:

Aşıq, getmə, dayan, dur,
Sirrim sənə bəyandır.
«Quran» gətir and içim
Öz nərim, öz mayamdır.

Aşıq gülür, üzr istəyir. Aşığı da süfrəyə dəvət edirlər.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının «Sazlı-sözlü Dərələyəz» kitabı, Bakı, 2004, səh.,74-75.*

## AŞIQ NƏBİNİN AĞAVERDİYƏ SATAŞMASI

Cırrannı kəndində Ağaverdi adlı bir baməzə kişi varıymış. Payız vaxtı kəndin kişiləri hərə bir yük tutub Göyçə mahalına aşarmışlar. Apardıqları matahları kartofa dəyişib kəndə qayıdarmışlar. Avradı Telli Ağaverdiyə deyir ki, sən də get Məmərza kəndinə, bacından bir səbət ərik al, apar Göyçəyə. Heç olmasa qışda bizim də kartofumuz bol olsun. Ağaverdi iki səbət ərik götürüb kəndin digər kişiləri ilə gəlirlər Göyçənin Çaxırrı kəndinə. Hərə bir evə qonaq düşür. Ağaverdi isə bir dul arvadın evinə qalmalı olur. Bir neçə gündən sonra hamı öz yükünü tutub geri dönəndə görürlər ki, Ağaverdi boş səbətlə gəlir. Kəndin cavanları işin nə yerdə olduğunu bilib gülüşürlər.

Aşıq Nəbi də onların içindəymiş. Göyçə ilə İstisu kəndinin arasında bir bulaq var. Adına Göy bulaq deyirlər. Orda oturub süfrələrini açıb nahar edirlər. Hər kəsə qonaqçısı yol çörəyi qoyubmuş. Ağaverdiyə isə yol çörəyi də qoyan olmamışdı. Yazıq dulun nəyi varıydı ki, nə qoya. Bir çətən külfətin güclə dolandırırmış. Aşıq Nəbi orda Ağaverdiyə belə sataşır:

Çünki sən cəhrəyə oldun daha tay,
Ayın çıxdı, günü say, Ağaverdi.
Əriyi satıban qazanc eylədin,
Tellini elədin bay, Ağaverdi.

Kartofun necoldu, dağları aşdın,
Yoldaşı tərgitdin, baş götdün qaçdın
Birnəfəsə getdin dağları aşdın.
Quyruğu qırxılmış day, Ağaverdi.

Hamı gülür, Ağaverdi isə başını aşağı salır.

Aşıq Nəbi deyir ki, ay uşaqlar, Ağaverdi evə getsə, Telli bir qiyamət qoparacaq ki, gəl görəsən. Bir çətən külfəti tökəcək bunun üstünə, çıxıb gedəcəy dədəsi evinə. Biz də kənddə biabır olarıq. Gəlin hərəmiz aldığımız kartofdan bir az verək ona, heç olmasa evə əliboş getməsin. Elə də edirlər. Ağaverdi də səhvini başa düşüb, ağsaqqallardan üzr istəyir.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının «Sazlı-sözlü Dərələyəz» kitabı, Bakı, 2004, səh.,74-75.*

## HEYVANLARLA BAĞLI OLAN ƏHVALATLAR

### DƏVƏ UŞAQDI?

Bir gün aj və susuz olan dəvə, qurd və tülkü səhrada gəzib əldən düşürlər. Bir də görürlər ki, çoban qoyun otarır və sürüdən bir az uzaqda ojax tüstüləyir. Bir az yaxına gedəndə görürlər ki, ojaxdan çörək qoxusu gəlir. Tülkü deyir ki, çoban yəqin çalveridə (ocaxda) fətir basdırıb. Belə də olur. Bunlar ojağa yaxınlaşıb fətiri çıxarmaq istəyirlər. Qurd qabaq ayağı (əli) ilə ocağı dağıtmaq istəyəndə ayağı yanır. Dəvə bunu görüb kənara çəkilir.

Tülkü deyir ki, fətirin yarısını mənə versəniz mən onu ojaxdan çıxararam. Qurd ilə dəvə bu şərtə razı olan kimi tülkü başlayır çalverini kənardan eşməyə. O ocağı yandan eşib torpağı ocağın üstünə atər. Ocağı söndürəndən sonra tülkü fətiri çıxarır və sevinə-sevinə onu yarı bölmək istəyir. Qurd tülküyə hücum edib deyir: biz səhf eləmişik. Yeni şərt qəbul etməliyik. Bir çox şərtlər olur və ümumi razılığa gələ bilmirlər. Axırda qurd deyir: «Kimin yaşı çoxdursa fətirin hamısını o yesin». Birinci qurd deyir: Mən dünya binnət olanda anadan olmuşam. Tülkü deyir: Dünya binnət olanda mənim Binnətalı adlı oğlum var idi. Növbə dəvəyə yetişir. Dəvə deyir ki, mənim bu qədər yaşım yoxdur. Onda heç olmasa qoy ölüm qabağı çörəyi qoxlayım. Dəvə çörəyi ağzı ilə götürüb boynunu yuxarı qaldırıb udur və deyir: Sizin deməyinizlə dəvə uşaqdı?

*Söyləyəni: **İbrahim Mirzəlioğlu** (1889-1982). Qələmə aldı Həsən Mirzəyev. Dərələyəzin Qovuşuq kəndi, 1956-cı il avqust ayı.*

## PƏLƏNGİN AYAĞINI TÜLKÜ BAĞLAYIR, SİÇAN AÇIR

Bir gün bütün meşə heyvanları bir yerə yığışıb deyir: Bu pələng meşədə bizə imkan vermir ki, biz sərbəst şəkildə yaşayax. Necə edək ki, onu aradan görürək. Bu zaman hamı qorxub kənara çəkilir. Xeyli sükutdan sonra tülkü qabağa çıxıb deyir: Siz söz verin ki, meşədə mənə dəyməyəcəksiniz. Mənə imkan verəcəksiniz ki, meşədə mən öz bildiyim kimi yaşayam onda mən pələngi sıradan çıxarajam. Tülküdən qüvvətli heyvanlar buna gülür. Tülkü deyir ki, siz söz verin, gülməyin. Hamı bu şərtə razılaşır.

Tülkü deyir ki, mənə bir neçə arşın yay kirişi gətirin. Tapıb gətirirlər. Tülkü yay kirişini götürüb pələngə tərəf yollanır. Pələngə xeyli qalmış tülkü yerə yıxılıb sürünə-sürünə, yaltaqlana-yaltaqlana pələngə yaxınlaşıb deyir: Bütün meşə heyvanları ilə mübahisə etmişəm. Onlar deyir ki: pələng bu yay kirişini qıra bilməz. Mən deyirəm ki, əşi kiriş nədir ki, pələng onu qıra bilməsin... Tülkü pələngin qoltuğuna çox verdikdən sonra pələng deyir: ə gətir bura. Tülkü dərhal pələngə deyir uzan yerə. O bu yolla pələngin əl-ayağını möhkəm bağlayır. Pələng nə qədər güj verirsə yay kirişini qıra bilmir və ayaqlarından qan tökülməyə başlayır.

Tülkü xa-xa çəkib gülür və pələngə səninki bura kimidir, deyib heyvanlara xəbərə qaçır. Bu zaman siçan özünü pələngə yetirir və deyir: Bu saat gəlib səni öldürəcəklər. Sən qohumun pişiyə de ki, mənim nəslimə dəyməsin, mən sənin ayağını açım. Pələng gülüb siçana deyir: mən pələng bunu qıra bilmirəm. Sən necə qıracaqsan. Siçan deyir: Tez ol söz ver. Pələng söz verir. Siçan bir anda dişləri ilə kirişi kəsib aslanın ayaqlarını açır. Pələng ayağa durub deyir: Bir yerdəki pələngin ayağını tülkülər bağlayıb, siçanlar açır, mən bu yerdə qalmaram. Pələng meşəni tərk edir.

*Söyləyəni: **İbrahim Mirzəlioğlu** (1889-1982). Qələmə aldı Həsən Mirzəyev. Dərələyəzin Qovuşuq kəndi. 1955-ci il, sentyabr.*

❖ İlin axır çərçənbəsində su dolusu kasa götürüf onun ucuna pambıx dolanmış iki iynə atırlar. Əgər iynələr bir-birlərinə yaxınlaşırsa, görüşürlərsə onda ürəyinizdə tutduğunuz niyyətə çatajaqsınız.

❖ Axır çərşənbə gejəsinin səhəri sübh tezdən duruf axar su üstünə getmək, suya salam verif üstünnən üç dəfə atdanmaq, sonra də həmən sudan bir qab gətirif həyət-bacaya, evin dörd bucağına səpmək gərəkdi. Deirlər kin, belə edəndə ilin xoş gələr, ağrı-acı görməzsən.

❖ Axır çərşənbə gejəsinin səhəri evin damına buğda atarlar kın, bərəkətin artıx olsun.

❖ Axır çərşənbə gejəsində un çuvalın ağzını açıx qoyarlar kın, bərəkət paylananda bağlı qalmasın.

❖ Axır çərşənbə axşamının səhərisi evdə uşaqdan böyüyə nə qədər adam varsa, gedif hamısı axar su üstündən üç dəfə atılar, sonra da sındırıf deyəllər: «Nə ki, ağrı-ajımız, qada-balamız varsa hamısı bax bu suynan getsin».

❖ Axır çərşənbə axşamında yandırılan tonqalın üstünnən adamlar atdanıf qurtarannan sonra mal-qaranı, qoyun-quzunu da addadırlar ki, çillədə qalmasınnar. Çillə köhnə ilin ağrı-acısı, qada-balasıdı, ojaxdan addayanda hamısı tökülüf odla yanır. Addıyıf keçəndə olur anadan gəlmə.

❖ Axır çərşənbə axşamında yandırılan tonqalın üstünnən atdanıf deyəllər:

-Ağırrığım, uğurruğum, ağrım, ajım, qadam, balam hamısı tökülsün, bu odda yansın.

❖ Bir heyvan itəndə qurd ağzını bağlayallar kın, ona canavar dəyməsin. Amma heyvan tapılanda gərəh qurd ağzını açasan. Yoxsa günahdı, qurd aj qalar.

❖ Ölü basdırılanda üç gün keşik çəkmək lazımdı, həm də şam yandırıllar kın, ölünün ruhunu şər qüvvələr apara bilməsin.

❖ Qəbir üsdünə gedəndə bir daş götürüf baş daşına taqqıldadallar kın, ölü adamın gəldiyini bilsin, həm də bu zaman adını deməlisən.

❖ Qırxlı uşağın üsdünə qızıl üzük, sırğa, bilərzik taxan adam gəlsə, uşağı sarılıq tutar. Belə adam gələndə uşağı qaldırıf baş üsdünə tutallar. Həmin adam uşağın altınnan keçər. Belə edəndə uşağa heç zad olmaz.

❖ Uşağın başının altına pıçax, çaxmax daşı qoyallar, onda uşax böyüyəndə qoçax olar.

❖ Gejə vaxdı ağac altında durmazdar, xarabalıq yerdən keçməzdər. Yoxsa adama şətəl toxunar.

❖ Çörəyi ayax altına atmazdar, yoxsa çörək çəkilər göyə, insannar ajınnan qırılar.

❖ At nalını ağzı yuxarı öyün qapısına vurallar kın, xoşbaxtlıx gətirsin. Əyər ağzı aşağı vurularsa, bədbəxtlik gətirər.

❖ İlan yatan yerdə xəzinə olur.

❖ Qırxlı uşağı öydə tək qoymaq olmaz, onda cinnər gəlif uşağı dəyişə bilər. Belə olanda uşax gümrah böyümür, çəlimsiz olur, onda belə uşağa cin balası deyillər. Belə hadisənin baş verməməsi üçün uşağın paltarına və qundağına sancax sancarlar, belə edəndə cinnər ona yaxınnaşa bilməzdər.

❖ Körpə uşağın dişi çıxanda, yəni yeni diş gətirəndə ona hədik pişirər və onu qonşulara paylayardılar, pay verdiyi adamlar da onun qabını boş qaytarmaz. Belə olanda uşağın dişi bərkiyər, xoşbəxt olar.

❖ Sağsağan gəlif qapıda səslənirsə, deməli öyə qonax gələjək.

❖ Ayaqqabı bir-birinin üstə çıxanda qonaq gələr.

❖ Səfərə çıxan qarşısına bədüğür adam çıxarsa işi düz gəlməz.

❖ Şər vaxtı ev süpürüb zibil atmazlar, deyərlər-evin xeyir-bərəkəti gedər.

❖ Gecə vaxtı dırnaq tutub, saç kəsməzlər, onda evdə ölüm olar.

❖ Toyuq banlayanda kəsməsən evdə pis hadisə olar, insan ölər.

❖ Şər vaxtı arxın başına otursan səni vurğun vurar.

❖ Yuxuda dişin düşməyi kiminsə ölməyi deməkdi.

❖ Ayaqqabılar sıra ilə düzülübsə, çoxlu qonaq gələr.

❖ Şər vaxtı it ulaması bədbəxtlik gətirər.

❖ Şər vaxtı qoz ağacının altına getməzlər, vurğun onu vurar.

❖ Yerə isti su tökməzdən qabaq «bismillah» demək lazımdı. Yoxsa cinnər ziyanlıq gətirər.

❖ Üstünə qurd yağı çəkilən adamın ağlı-huşu başında cəm olmaz.

❖ Gecə başqasına pul verməh olmaz, çünki evin bar-bərəkəti azalar.

❖ Duz günü, bazar ertəsi qoyun qırxılmaz. Deyirlər ki, qoyun doğmaz.

❖ Üzərliyi dəstə bağlayıb evin ön divarından asarlar ki, ev-eşiyə bəd nəzərlər toxunmasın.

❖ Yad adam qırxlı uşaq olan evə gələndə, əvvəlcə uşağı çölə çıxararlar.

❖ Qırxlı uşağın yatanda başının altına çörək, qayçı və ya bıçaq qoyarlar.

❖ Axşam çağı adam əli qoynunda durmaz. Bu vəziyyət bəd xəbərə səbəb ola bilər.

❖ Yuxuda at görmək – belə deyirlər ki, yaxşı əlamətdir. Yəni muraddır. Muradına çatacaqsan.

❖ Yuxuda pul görmək – hansısa bir xəbər eşitmək, səda almaqdır.

❖ Yuxuda ağlamaq – gülmək əlamətidir.

❖ Yuxuda su görmək – aydınlıq əlamətidir.

❖ Evdən səfərə çıxan adamın arxasınca su atmaq – salamatlıq əlamətidir.

❖ Süfrədə duzun dağılması – dava, dalaş əlamətidir.

❖ Evin girəcəyindən at nalının asılması, evə bərəkət gətirəcək əlaməti deməkdir.

❖ Süpürgəni başı yuxarı qoymaq pis əlamətdir. Düşmənə aman verməkdir, deyərlər.

❖ Qaynar suyu yerə atmazlar, mələkələrin balaları yanar, deyiblər.

❖ At nalı alıb saxlayanın işləri uğurlu olar.

❖ Atı yəhər və yüyənlə birgə satmazlar.

❖ Heyvanı itmiş şəxs qurd ağzını bağlatdırır ki, yırtıcıların əlinə kecib parçalamasın.

❖ Qaranquş yuva quran həyətdə həmişə şadlıq olar.

❖ Qulağın səslənəndə, geyişəndə kim isə səni yada salır.

❖ Nişan üzüyünü girov qoymazlar.

❖ Ocağı su ilə söndürməzlər.

❖ Ölənin dalınca danışmazlar.

❖ Pərdəni qara rəngdə boyamaq olmaz.

❖ Səfərə çıxan adamın arxasınca su atarlar.

❖ Su ehsandır.

❖ Üstündə üzərlik gəzdirənə göz dəyməz – deyirlər.

❖ Yolunnan qara pişik keçibsə, geri qayıtmalısan, yoxsa şərə düşərsən.

❖ Gəlin köçəndə tüfəng atar, mis qaşığı mis qaba döyərlər ki, şər rühlar gəlinə toxunmasın.

❖ Toy günü gəlinin başına qırmızı rəngli şirni, alma atarlar ki, güngüzəranı xoş keçsin.

❖ Ana uşağına çox baxmaz. Deyərlər, çox baxsa nəzəri uşağa düşər.

❖ Gəlin gələnnən sora onun duvağın qapanda qucağına oğlan uşağı qoyullar ki, oğlu olsun. Duvağın da qapıb barlı ağaca atırlar ki, övladı çox olsun.

❖ Bağı bədnəzərdən qorumax üçün ya at, ya da it kəlləsin ağaca keçirip qoyallar bağa.

❖ İlaxır Çərşənbədə qızlar əllərində güzgü tutarlar. Ayın şəkli düşər güzgüyə. Şəklin içində oğlan əksi görünsə, sevdiyi oğlana gedər.

❖ Şər vaxtı ağac altına getmək olmaz. Deyərlər ki, adama sədəmə toxunar.

❖ Paltarı sandığa yığanda üstünə iynə sancarlar. Deyirlər cinlər gecə aparıb geyər.

❖ Deyərlər ki, İlaxır Çərşənbə gecəsi obaşa yaxın çayın suyu dayanar, söyüdlər başını əyib torpağa dəyər. Bu vaxt hər niyyət yerinə yetər.

❖ Körpə uşağın üstünə dağdağan tikərlər. Deyərlər ki, qoy bədnəzərdən qorunsun.

❖ Toy gecəsi bəy gəlinin sağ ayağını ayaqlarsa söz kişinin, gəlin ayaqlarsa söz arvadın olar.

❖ Hansı həyətdə bayquş ulasa ev yiyəsi qorxar. Tez duz-çörək gətirip quşun qabağına qoyup deyər: «Səni and verirəm bu duz-çörəyə, çıx bırdan get, bizdən uzax ol». Deyərlər, quş həmin yerə bir də gəlməz.

❖ İt ulayanda bəla gələr, bayquş ulayanda ev dağılar, toyux bannıyanda ev sahibinə zərər dəyər.

❖ Şər vaxtı yatsan, deyərlər, zərər çəkərsən.

❖ Yuxuda üzüm görən səhər ağlayar.

❖ Əyər bilmiyip çörəyi ayaxlasan, gərəh üş dəfə öpüp gözüvün üsdünə qoyasan, yoxsa çörəh sənə qənim olar.

❖ Göy birinci dəfə gurulduyanda yerdən torpax götürüp əvin puşqağına, tavlıya atallar ki, bərəkətli olsun.

❖ Gecə dırnax kəsməzlər, ziyannıx olar.

❖ Gün düşən yer mındar olmaz.

❖ Qabaxdan qara pişih keçəndə tüpürüb keçəllər ki, adama sədəmə toxunmasın.

❖ Göydən durna qatarı köçəndə daşa toxunmazlar, səfərləri pozular.

❖ Yuxuda saç görməh yoldu, qonax gələcəh.

❖ Yuxuda qoyun, buğda, un görsən urzan artacax.

❖ Yuxuda papax görən ucalar.

❖ Yazağzı göy guruldamasa, per-pencər yeməh olmaz.

❖ Qıza nişan taxanda qucağına bir oğlan uşağı oturdullar ki, övladı olsun.

❖ Qırxlı uşaq olan evə ət gətirilsə fənalıq olmasın deyə yerə qoyarlarmış, ana uşaqla ətin üstündən adlayarmış.

❖ Qırxı çıxmamış uşağın anasının südünü uşağı olmayan qadının başına tökəndə uşağı olacağına inanırlar.

❖ Evdə qurban kəsilərsə barmağın ucunda azca qan götürüb uşağın ağzına qoyurlar. Bununla uşağın üstündə olan ağırlığın götürüləcəyinə inanırlar.

❖ Yola çıxanın dalınca su atanda onun yolu aydın olar.

❖ Gün və ay tutulanda deyirlər fəlakət olacaq, müharibə baş verəcəy, bahalıq və aclıq olacaq. Belə vaxtda adamlar güllə atır, baraban çalır, səs-küy salırlar ki, bunlar olmasın.

❖ Pişik əl-üzünü yalayanda evə qonaq gələr.

❖ Uşağa göz dəyməsin deyə boğazına gözmuncuğu asarlar.

❖ Axır çərşənbə gecəsində kasaya bir az su töküb içərisinə bir ucuna pambıq dolanmış iki iynə salırlar. Əyər iynələr yaxınlaşsa, ürəyində niyyət tutan adam tezliklə öz sevgilisinə qovuşacaqdır.

❖ Axır çərşənbə gecəsində ürəyində niyyət tutub qapı dinləyirlər. Yaxşı söz eşitsən, istəyinə çatırsan.

❖ Axşam gün batanda buludlar qızarsa sabah yağış yağar.

❖ Birinin dilindən pay çıxanda özündən kiçik olana deyər:

- Dilimə pay çıxıb.

O da gərək cavabına desin:

Tüpür yerə düşsün!

Bu hərəkət üç dəfə təkrar olunmalıdır. Onda dildəki pay düşər.

❖ Bıçaq yerə düşərsə, deyərlər ki, kişi qonağı gələcək.

❖ Duz töküləndə dava düşər.

❖ Gəlinin qabağına güzgü, çıraq tutarlar.

❖ Gəlin toy günü oğlan evinin astanasında əvvəlcədən evindən götürdüyü boşqabı sındırmalıdır.

❖ Gəlin ilk dəfə evinə gələndə bəyin ayağını basmalıdı. Onda gəlinin sözü keçərli olar.

❖ Gəlin gedəndə qabağında yanan çıraq sönərsə bu pis əlamətdi.

❖ Xəmir yoğuranda xəmirdən bir tikə sıçrayıb yerə düşərsə, deməli qonaq gələcək.

❖ Qaşıq yerə düşəndə, arvad qonağı gələr.

❖ Qabağından qara pişik keçərsə, uğurun xeyir olmayacaq.

❖ Pişiklərin ağlaşması pis əlamət sayılır.

❖ Sağ qulağın cingildəsə, kimsə xeyirliyə, sol qulağın cingildəsə bədinə danışır.

❖ Yatan adam qorxmasın deyə başının altına bir tikə çörək qoyarlar.

❖ Yerə düşən çörəyi kim görsə, öpüb gözünün üstünə qoymalıdı.

❖ Cuma günü paltar yumazdar.

❖ Qazan ağzıüstə dursa, arvat ilə kişi arasında dava olar.

❖ Qırxı çıxmamış uşax evdə tək qalsa, cin gəlib onu öz uşağıynan dəgişər.

❖ Bar üstə ağacı kəsməh günahdı.

❖ Göy otu yandıranda yağış yağar.

❖ Gecə kim dırnax tutsa, ömrü qısalar.

❖ İlin axır çərşənbəsində eşidilən söz düz çıxar.

## YASAQLAR

❖ Dağdağan, cəviz, zoğal, çinar, əncir ağacları müqəddəs sayılır. Onları kəsən, yandıran sağ can görməz.

❖ Əncir ağacının dibində yatan xəstələnər, ya da onu vurğun vurar, - deyərlər.

❖ Arı ailəsinin pətəklərinə haram əl toxunmamalıdı, bu zaman arılar məhv olar.

❖ Gejə vaxdı dırnaxları tutmazdar, onda ruhlar adamnan inciyər.

❖ Qırxı çıxmamış uşağın üsdünə çiy ət aparmax olmaz, belə eliyəndə uşağın bədəni ət kimi olar.

❖ Günəş batannan sonra evdən başqasına heş nə verməк olmaz. Yoxsa öyün bərəkəti qaçar.

❖ Gejə vaxdı ələyi, aşsüzəni, xəlviri öydən kənara verməzdər.

❖ Yerə qaynar su tökmək olmaz, ona görə ki, yerin altında cinnərin balaları olur, qaynar su onnarı yandırar. Belə olanda cinnər su tökənə qarğıyar.

❖ Çinar və əncir ağacını kəsmək olmaz, bunnar sınaxlıdır, kəssəniz sizə xata toxunar. Badam, badamça, cəviz, qarağac, tut ağacını kəsməzlər. Bunnar müqəddəs ağaclardır.

❖ Adamı süpürgə ilə döymək olmaz, şərə düşər.

❖ Pay verilən qavı boş qaytarmax olmaz, gərək həmin qava ya şəkər, ya duz qoyasan.

❖ Şər vaxdı yatmax olmaz, çünki bu vaxtı öyün qara-qurası yatanın üstünə tökülər.

- Adamın əlinin içi qaşınırsa, onda deyəllər kin, pul gələcək.
- Axşamüstü bulut qızarırsa, deməli, yağış yağacax. Göyün üzü açıqsa, gün olacax.
- Boş beşiyi yırğalamax olmaz, bu, öydə bədbəxt hadisəyə səvəb olar.
- Duz günü səfərə çıxmazdar.
- Əyər Günəşin üzündə qara halğa əmələ gəlirsə, deməli, bu il yağmurlu keçəcək.
- Əyər kəndin itdəri, pişikləri kənddən çıxıf qaçıllarsa, həmən yerdə zəlzələ olajağı gözlənilir, ehtiyatlı olmaq lazımdı.
- İt axşam vaxdı uluyanda vay gətirər, buna qarşı hazır olmaq lazımdı.
- İki qadının arasınnan keşmək olmaz, deyəllərkin, şərə düşəcəksən.
- Ova gedən zaman qavağınıza tülkü çıxarsa uğurunuz xeyirri, dovşan çıxarsa uğurunuz uğursuz olacax.
- Pişik əlini yalayırsa, demək, evə qonaq gələcək.
- Sarımsağı ələ verməzdər, yerə tullayıllar, gələn onu yerdən alıf aparar.
- Yemək vaxdı duz tökülsə, ehtiyatlı olmaq lazımdı, evdə dava düşə bilər, bu zaman duzun üzərinə şəkər qoymaq lazımdı.

*İNAMLAR*

## QURD AĞZI BAĞLAMAQ

Heyvan-zad çöldə qalanda gərəh qurdun ağzın bağlıyasan, yoxsa heyvanı yeyər.Qurdun ağzını qara pıçaxnan bağlayıllar. Qara pıçağı götürüp tutursan ağzıva sarı, yavaşca üç dəfə piləyib dua oxuyursan, hər dəfəm oxuyanda da pıçağı birəz qatdıyırsan. Üçüncü dəfəm oxuyannan sora pıçağı təmiz qatdıyırsan, nəfəs almadan itən heyvanın dört tərəfin nəzərdə tutup pülüyürsən. Pülüyə-pülüyə belə deyirsən:

Yağladım,
Zağladım,
Qurdun ağzın
Bağladım.

Bınnan da qurdun ağzı bağlanır, o heyvana yaxın düşəmmir.

Bir də görürsən ki, dua oxuyub pütün çölü bağlayıllar, qurt aj qalır, heş nə yeyəmmir. Bı günahdı, qurt qarğış tökər, bı qarğışın altınnan çıxmaq olmaz. Gərəh ancax itən heyvan harda olursa onun dörd tərəfin nəzərdə tutup bağlıyasan. Qurt bı heyvana yaxın düşəmmiyəcəh, bının yanındakı başqa heyvannarı isə yeyəcəh.

# YUXUYOZMALAR

A

At – muraddır.
Ağ gül – uzaqlaşmaq.
At – ucalıxdı.

B

Bayquş – kimsə sənin paxıllığını çəkir.
Buğda – ruzi.

Ç

Çimməh – xəstəlihdi.

D

Dağ – ucalıqdır. Dağın başına çıxıbsansa, vəzifədə yüksələcəksən, sorağın ürəkaçan işlərdən gələcək.
Daş – ağırlıqdır.
Don, ayaqqabı, köynək, şalvar – darlıq əlamətidir.
Daraq – qayğı.
Duz – göz yaşıdı.

İ

İt tutsa – düşmandı.

Q

Qazan – bolluqdur.
Qızıl – səsdir, xəbərdir.

S

Soğan – göz yaşıdır, ağlayacaqsan.
Sağsağan – müjdədir.
Su – aydınlıq.

Ü

Üzüm – göz yaşıdır. Dərd-qəm əlamətidir.

Y

Yapıncı – arxadır.
Yuxuda ağlamaq – gülməkdir, gülmək isə ağlamaqdır.
Yol – ayrılıqdır.
Yuxuda pul – səsdi.
Yuxuda at – muratdı.
Yuxuda vırmax – qüvvəddi.
Yuxuda güzgü – baxtdı.
Yuxuda su – aydınlıxdı.
Yuxuda dişin düşməyi – pisdi.

Z

Zəncir – güc, qüvvət deməkdir.

# ANDLAR

A

Atamın canına and olsun!
And olsun bizi yaradan Allahın birri-birriyinə!
Allah haqqı!
And olsun Yeri, Göyü Yaradana!
And olsun bizi yoxdan xəlq Eləyənə.
And olsun gecəni-gündüzü Yaradana!
And olsun kəsdiyimiz duz-çörəyə!
And olsun dədəm oxuduğu Qurana!
Allaha and olsun!
Atamın goru haqqı!
And olsun 124 min peyğəmbərə.

B

Bərəkət haqqı!

Bu yol haqqı!
Bizi yaradana and olsun!
Bu çıraq haqqı!
Bu qıvla haqqı!
Bu halal süfrən haqqı!
Bu halal çörəyin haqqı!
Bu çırax haqqı!
Bu ocaq mənə qənim olsun, yalan desəm!
Bu işığa kor baxım yalan deyirəmsə!
Bu əziz gün haqqı!
Bu Əli yolu haqqı!
Başın haqqı!
Başıma and olsun!
Balalarımın canı üçün!
Bərəkətə and olsun!

C

Canım üçün!

Ç

Çörək haqqı!

D

Duz-çörək haqqı!

G

Göy haqqı!

H

Həzrət Abbas haqqı!

İ

İmam Əlinin Zülfüqarına and olsun!

İşıx haqqı!
İmam Hüseyn haqqı!
İşığa kor baxım!

K

Kəsdiyimiz duz-çörək haqqı!
Kəsdiyimiz o duz-çörəyə and olsun.

O

Ocağa and olsun!
O gün haqqı!
Ojaq haqqı!
On iki imam haqqı!
On iki imama and olsun!
O Əlinin qəzəb oğlu qolsuz ağam Həzrət Abbas haqqı.

Ö

Özüm ölüm!

S

Sənin əziz canına and olsun!

Q

Qurana and olsun! Qiblə haqqı!
Quran haqqı!
Qiblə haqqı.

Y

Yediyim çörək haqqı!

V

Vicdan haqqı!

## ALQIŞLAR

A

Allah canını sağ eləsin!
Allah süfrəni açıq eləsin!
Allah şəfa versin!
Allah toy qismət eləsin!
Allah amanında!
Allah səni sevindirsin!
Allah qəbul eləsin!
Allah özü xeyirə calasın!
Allah səni Tur dağına döndərsin!

Allah ziyarətini qəbul eləsin!
Allah günaha yazmasın!
Allah cəmi darda qalanları dardan qurtarsın içində də biz!
Allah haqqı nahaqqa möhtac eləməsin!
Allah adamın ağlını əlindən almasın!
Allah adamın ağlını alınca, canını alsın!
Allah günahımızdan keçsin!
Allah hərənin qəlbinə görə versin!
Allah balalarını saxlasın.
Allah başınnan töksün.
Allah bərəkət versin.
Allah min-bərəkət versin.
Allah birini min eləsin.
Allah var eləsin.
Allah qismət eləsin.
Allah qüvvət versin.
Allah gözdən saxlasın.
Allah yolunu açıx eləsin.
Allah köməyin olsun.
Allah səni işıxlığa çıxarsın.
Allah ürəyincə versin.
Allah başınnan töksün, əyağınnan çıxsın.
Allah verən əlini kəsməsin.
Allah ürəyinə görə versin.
Allah mübarək eləsin.
Allah ömrümnən kəssin ömrünə calasın.
Allah peşmançılıx verməsin.
Allah pis gün qismət eləməsin.
Allah uruzunu versin.
Allah sənə yar olsun.
Allah sənə oğul versin.
Allah imdadına çatsın.
Allah amanında olsun.
Allah ata-ananı saxlasın.
Allah sənə kömək olsun.
Allah qardaşı qardaşa möhtac eləməsin.
Allah səni bizə çox görməsin.
Allah səni yarıyannardan eləsin.
Allah səni güldürsün.
Allah səni şərdən uzağ eləsin.
Allah səni min putax eləsin.
Allah səni pis gözdən saxlasın; qanqaltikan oluf onnarın gözünə batasan.
Allah səni pənahında saxlasın.
Allah səni çörək sınağına çəkməsin.
Allah sənnən razı olsun.
Allah ulduzlarını barışdırsın.
Allah xatadan saxlasın.
Allah səni bizdən əskik eləməsin.
Allah bərəkət versin, heç yığıb-yığışdıra bilmiyəsən.
Allah işini həkimə və hakimə salmasın.
Allah səni darda qoymasın.
Allah dadına yetsin.
Allah süfrəni həmişə açıq eləsin.
Allah balalarını gözünə çıraq eləsin.
Allah xeyir versin.
Alnın açıq, üzün ağ olsun.
Adınnan yaşasın!
Adı ilə yaşasın.
Atın yüyrək olsun.
Atan behiştdih olsun.
Atalı-analı böyüyəsən.
Atalı, analı toy eliyəsən.
Atan behiştlik!
Ananın südü sənə halal olsun.
Azardan-bezardan uzax ol.
Azardan-bezardan uzaq olasan.
Axırın gəlsin.
Axırın xeyir olsun.
Axır qəmin olsun!
Axşamın xeyir!
Ağız şirinliyi, könül xoşluğnan!
Ağzın xeyirriyə açılsın!
Ağzın şirin olsun!
Ağ günlü olasan.
Ağ günə çıxasan.
Arğı, acı görmüyəsən.
Aydınnığa çıxasan.
Ayağın yüngül olsun!
Ayağının altında ölüm.

B

Başın uca olsun!
Balanı Allah saxlasın.
Balalarıyın xeyrini görəsən.
Balaların xeyrin-barın yeyəsən.
Bala dağı görmüyəsən.
Baxtın açılsın.
Başın var olsun.
Başın, dişin ağrımasın.
Başına dönüm.
Başınnan bir tük əksik olmasın.
Bala dağı görməyəsən!
Balalarından yarıyasan!
Balan sağ olsun!
Balaların sağ olsun.
Balalarının toyunu görəsən.
Bayramın mübarək!
Bir-birinizə can deyif, can eşidəsiniz.
Bir olsun, pir osun.
Bircə balan sağ olsun.
Bir yastıqda qocalasız.
Birin min olsun!
Bərəkətli olsun!
Belinə cənabi Əmir qurşansın.
Böyük oğlan (qız) olasan.
Boyuna qurban.

C

Canın sağ olsun!
Canım sənə sadağa olsun.
Canın azar görməsin.
Cəddinə qurban olum!
Cənabi Əmir sənə dayaq olsun.
Cibin dolu olsun!
Civinə Allah bərəkət versin.
Cigərinyanmasın!- *Övlad dağı görməyəsən!*

Ç

Çörəknən imtahana çəkilməyəsən.

D

Dadına İmam Hüseyn yetişsin.
Dalında qardaşların dursun.
Dağlar dayağın olsun.
Dərdin mana gəlsin.
Dərdin alım.
Dərd-bəladan uzağ olasan!
Dərdin ürəyimə.
Dilinə quzu kəsim.
Dilin dost-düşmən yanında həmişə uzun olsun.
Dırnağı bərk olsun!
Dırnağına daş dəyməsin.
Dostun var olsun, düşmənin xar!
Dostun şad olsun, düşmənin kor.
Dost-düşmən yanında başın uca olsun.
Dost deyən olsun, düşmən deyən olmasın.
Dövlətin başınnan aşsın.
Dünya duruncax durasan.
Düşmənə möhtac olmayasan.
Düşmənin zəlil olsun.
Dünya durduqca yaşayasan!
Duan müstəcəb olsun!
Duz dağı olasan.

E

Evinizə şadlıq aparın!
Evin şən olsun.
Eviniz abad olsun.
Evli-eşikli olasan.
Evinizə həmişə şaddığa gələk.
Evin ruzulu olsun.
Evin tikilsin.
Eldən əysik olma.

Ə

Əlin-qolun ağrımasın!
Əlin xeyirli olsun!
Əli belini qurşasın.
Əli qolunnan tutsun.
Əli köməyinə dursun.

Əlin, qolun ağrımasın.
Əlin, qolun var olsun.
Əlin-qolun yorulmasın.
Əllərin var olsun.
Əziz olasan.

G

Görüm səni heç neylim-necə eliyim deməyəsən!
Gözü dolu görəsən!
Gözün aydın olsun.
Gözə görünməz qanadının altda saxlasın.
Gözlərinə qurban.
Gözün dolusu görəsən.
Günün ağ olsun.
Güllən boşa çıxmasın.
Getdiyin yerdən xeyir görəsən.
Getsin o günlər bir də gəlməsin!
Gejən xeyrə qalsın.
Gəlin gətirə, qız köçürəsən.
Gələn qədəmlərinə qurban olum!

H

Halalın olsun!
Halal süd əmmişə urcah olasan!
Halal süd əmmişə ras gələsən.
Halal xoşun olsun.
Halal olsun səni doğan anaya!
Həzrət Abbas köməyin olsun.
Həmişə toylarda!
Həmişə evində-eşiyində!
Həmməşə öz öyündə, öz eşiyində.
Həmişə təmizlikdə!
Həmişə xoş sədanı eşidək.
Həmişə şadlıqda olasan.
Həzrət Əli dayağın olsun.
Hörmətin artıq olsun!
Hörmət-izzət sahibi olasan.

X

Xata sənnən uzaq olsun.
Xata-bala səndən uzaq olsun.
Xata-bala görmüyəsən.
Xalan sənə qurban.
Xeyir xəbər olasan.
Xeyrini görəsən!- *Təzə şey alanda deyirlər.*
Xoş xəbər sahibi ol.
Xoşbəxt ol.
Xoşbəxt olasan.
Xoşbəxt olasınız.
Xətrin xoş olsun.

İ

İman yiyəsi olasan!
İmanın kamil olsun.
İtə-qurda möhtac olmuyasan.
İtə-qurda möhtac olma!
İşin avand olsun.
İşin irəli.
İrağ olsun!
İxtiyar sahibi olasan.

K

Kefdə-damaxda olasan.
Kəmərini əl qurşasın.

Q

Qapınnan qara yel əsməsin.
Qardaş dağı görmüyəsən.
Qazancınnan xeyir görəsən.
Qadan alım, başına dönüm.
Qayım-qədim olsun!
Qada görmə.
Qara gün görməyəsəm.
Qapın həmişə xeyirliyə açılsın!
Qavağında ölüm.
Qadan canıma.
Qadan alım.
Qadan mana gəlsin.
Qazancın artıx, payın çox olsun.
Qapına həmişə toya-düyünə gələk.
Qardaşın sağ olsun.
Qapına toylara gələk!

Qazancın artıq olsun.
Qapın həmişə açıq olsun.
Qurbanın qoyun olsun!
Qurbanın qəbul olsun!
Qul sahibi olasan.
Qucağın dolu olsun.
Qədəmin mübarək!
Qəbri nurla dolsun!
Qədəmin qayım olsun.
Qəddin əyilməsin.
Qəfil qadıya gəlmiyəsən.
Qoşa qarısınlar.
Qonşuluqdan əskik olmayasan!
Qoşa qarısınlar!
Qoşa qarıyasınız.
Qonaq-qaralı olasan!
Qonaqlı-qaralı olasan.
Qollu-putaxlı olasan.
Qoşa yarıyıb, qoşa qarıyasız.

M

Mübarək olsun!
Murazını Allah versin.
Min budaq olasan.
Min yaşa.

N

Nəvə-nəticə sahibi olasan.
Nəzirin qəbul olsun.
Nəvə-nəticələrin toyunu görəsən!
Neynim, necə eyləyim deməyəsən!

O

Oğlu sağ olsun.
Oğullu-qızdı olasan.
Oğullu, uşaqlı olasınız.
Oğlannarın sağ olsun.
O dünyada yerin cənnət olsun.
Oxun daşa dəyməsin.

Ö

Ömrün uzun olsun.
Ömrünə nur çilənsin.
Ömründən doyasan.
Ömrüm-günüm sənə qurban.
Ölənlərinə rəhmət.
Oğul dağı görməyəsən.
Övladının barını dərəsən.

P

Payın çox olsun.
Payın artıq olsun.
Pis gözdən iraq olasan!
Pir olasan.
Pis nəfəsdən, bəd nəzərdən uzaq olasan.

S

Sabahın xeyirliklə açılsın!
Sağlığına qismət!
Sağlıqla geyəsən!
Sağ get, salamat qayıt.
Saqqalın ağarsın.
Saqqalını nəvən yolsun.
Sağ olasan!
Sağlıqnan işlədəsən!
Saqqalın ağarsın!
Sağ əlin başıma!
Sənə gələn qada-bala düşmənə gəlsin.
Sənə gələn dərd-bəla mənə gəlsin.
Sənə quzu kəsim!
Sənə qurban olum!
Səni istəmiyən kor olsun.
Səni min yaşa.
Səni görüm dizində ağ tüklər bitsin.
Səni Tur dağına dönəsən!
Səni görüm Tur dağına dönəsən.
Səni istəmiyənnərin gözü kor olsun.
Səni istəmiyənnərin gözü çıxsın.
Səni görüm yüz yaşıyasan.
Səni görüm min putax olasan.
Səni görüm heç «ax» çəkməyəsən!
Səni Allah qorusun!
Süfrəniz açıx olsun.

Süfrənə Allah bərəkət versin.
Südüm sənə halal olsun!
Sözün ötgün, qılıncın kəsgin olsun.
Sözün ötgəm olsun!
Səsin uca olsun.
Subaylarından görəsən.

Ş

Şərdən-xətadan uzaq olasan.
Şərdən uzaq olasan!
Şadlıqlarda görüşək!
Şad xəbər olasan.
Şadlıq aparasan.

T

Tanrı dadına çatsın.
Toylara geyəsən!
Toyunda oynuyum.
Toyunuz mübarək olsun.
Toyunu görüm.
Tur dağı olasan.
Təzə-təzə bayramlara çıxasan.
Təhnədən çörəyin tükənməsin.

U

Urvan bol olsun.
Urvatdı olasan.
Uğur olsun!
Ulduzlarınız barışsın.
Umud evi olasan.

Ü

Üzüm ayağınızın altına.
Üzün ağ olsun.
Üzün gülsün.
Üzünə gül doğsun.
Üzünə xeyirri savahlar açılsın.
Üzünnən gülüş əysik olmasın.
Üstünə gün doğsun.
Üstünə xeyir xəbər gəlsin.
Üstündən qara yel əsməsin.
Ürəyin yağda olsun, kürəyin dağda.

V

Varın-dövlətin başınnan aşsın.
Varın başından aşsın.
Verən əlin var olsun.

Y

Yalandısa, gerçək olsun!
Yarıyanlardan olasan!
Yaman yeyənin olsun, yaman deyənin olmasın.
Yaman gözdən uzaq olasan.
Yaman gün görmüyəsən.
Yaman günnən uzağ olasan.
Yaman deyənin olmasın.
Yastığın yüngül olsun.
Yaxşı gün görəsən.
Yarı yolda qalmayasan.
Yeyənin olsun, deyənin olmasın.
Yerin cənnət olsun.
Yekə qız olsun!
Yekə oğlan olsun!
Yekə kişi olasan.
Yeddi oğulla bir süfrəyə əl uzat.
Yeyib-içdiyin halalın olsun.
Yetirib-bitirdiyinin bəhrini yeyəsən.
Yerində qalanların canı sağ olsun.
Yolun açıx olsun.
Yolun uğurru olsun.
Yorulmayasan.
Yolun açıq olsun.
Yuxun şirin olsun!
Yüz yaşıyasan.

Z

Ziyarətin qəbul olunsun.

R

Ruzulu olasan.
Rəhmət düzənə, nəhlət pozana.

# QARĞIŞLAR

A

Ağzın qulağının dibinə getsin.
Ağzında dilin yansın!
Ağlını Allah alsın!
Ağlar günə qalasan!
Ağ gün görmüyəsən.
Ağ günün qara boyansın.
Ağrım ürəyinə.
Ağ günə çıxmayasan.
Ağzına qara daşlar.
Ağ günə həsrət qalasan.
Allah səni verincə bir qara daş verəydi!
Allah sənə qənim olsun!
Allah səni zəlil eləsin!
Allah bəlanı versin!
Allah sənə nəhlət eləsin!
Allah sənə qotur versin, dırnaq verməsin!
Allah başına daş salsın, altınnan çıxa bilmiyəsən.
Allah belini qırsın.
Allah verən əlini kəssin.
Allah qismət eləməsin.
Allah damazdığını kəssin.
Allah evini yıxsın.
Allah yeddi arxa dönəninə lənət eləsin.
Allah yurdunu tar-mar eləsin.
Allah səni vursun.
Allah səni öldürsün.
Allah balanı öldürsün.
Allah vayısın öyünü yıxsın.
Allah sənə lənət eləsin!
Allah başına daş salsın.
Allah səni yetim qoysun.
Allah kökünüzü kəssin.
Al qana batasan!
Alnına gün doğmasın!
Axır gedişin olsun!
Andıra qalasan!
Adı batmış!
Adın qalsın!
Adın batsın.
Avrın tökülsün.
Anan ağlar qalsın.
Ananın südü burnundan gəlsin.
Ana üzünə həsrət qalasan.
Ananın südü sənə haram olsun.
Anan mələr qalsın.
Anan vayına otusun.
Atan ölsün, yetim qalsın.
Atana lənət.
Axır günün olsun.
Ayvını qara yer örtsün.
Ayaxların sınsın!

B

Baxtın qara gəlsin.
Başına daş düşsün.
Balaların ağlar qalsın.
Başın batsın!
Barmaxların çürüsün!
Balıq kimi gözün ağarsın.
Başına kül əliyim.
Bayramın qara gəlsin.
Bayramın qara geysin.
Balan mələr qalsın.
Bala üzünə həsrət qalasan.
Başına kül olsun.
Balaların yetim qalsın!
Başına ildırım düşsün!
Barmağın qurusun!
Belin sınsın.
Belin qırılsın!
Boynun altında qalsın.
Boğazın tutulsun.
Boyaa xam ip ölçüm.

Boyuna qamış ölçüm!
Boynun qırılsın!
Boğazın şişsin!
Boğazına qara yara çıxsın!
Boyu yerə girsin!
Boğazından gəlsin.
Boğazında qalsın.
Boyuna ip ölçüm.
Boynuna boz ip ölçüm.
Boyuna boz qatma tutum.
Boynuna ip tutum.
Boynunu yerə soxum.
Boyunu yerə soxum!
Boynun qırılsın!
Boğazına şiş batsın!
Boynun buruq qalsın.
Böyüməyəsən.
Böyrü üstə qalasan!
Burnunnan gəlsin.
Bir əlin olsun, bir dizin.
Binəsi batsın.
Bəlıya tuş gələsən.
Bədəninə qotur düşsün!

C

Canın çıxsın.
Cavan öləsən.
Cibində siçanlar oynasın
Cigəri yanmış!
Ciyərin yansın.
Ciyərinə güllə dəysin.

Ç

Çarxın çönsün.
Çatdıyıb öləsən.
Çatdıyasan səni!
Çörək səni tutsun.
Çörəyim gözündən gəlsin.
Çörəyim burnundan gəlsin.
Çırağın sönsün.
Çırağın keçsin!

D

Damazlığın kəsilsin!
Damın başına uçsun.
Deyən dilin qurusun!
Dilin ağzında yansın!
Dilin qurusun!
Dilinə düyün düşsün!
Dilinə qara yara çıxsın!
Dilin ağzında titrəsin.
Dilin yansın.
Dilinə düyün düşsün.
Dilinə qara yara yamansın.
Dilin lal olsun, qulağın kar.
Dilin lal olsun.
Dilindən qara yara çıxsın.
Dilin-ağzın qurusun.
Dilin tutulsun.
Dəhnəni sel aparsın.
Dədən ölsün, dədəsiz qalasız.
Dərdim ürəyinə düşsün.

E

Evin başına uçsun.
Evinə od düşsün.
Evinin çırağı sönsün!
Evi yıxılsın!
Evi dağılsın!
Evinə vay düşsün.
Evin yıxılsın.
Evin dağılsın!
Elə gedəsən ki, arxanca da bir qara daş!
Elin ağlar qalsın.
El içində xar olasan!
Ehsanın yeyilməsin.

Ə

Əndamın yerdə qalsın.
Əndamına piltələr döşənsin!
Əndamında qurdlar yerisin!
Əndamın çürüsün.

Əlin qurusun.
Əlinin barını yemiyəsən.
Əsir-yesir ol!
Ətin tökülsün.

G

Gözünə qara su ensin.
Gözünə güllə dəysin.
Gözünə şiş batsın!
Gözün kor olsun!
Gözün çıxsın!
Gözünə tikan batsın.
Gözün bozarsın.
Gözün kor olsun, qulağın kar.
Gözün tutulsun.
Gözün pırtlasın.
Görüm səni ağlar qalasan.
Gözün tökülsün.
Gözünə güllə dəysin.
Gözdən olasan!
Görüm səni əldə, ayaxda qalasan.
Goorun çatdasın!
Gorbagor olasan!
Gorun çatlasın.
Gorun çatdasın!
Günün qara olsun!
Günün göy əskiyə dönsün.
Günün göy əskiyə bükülsün.
Günün qara gəlsin!
Gecə-gündüz it kimi uluyasan!
Gedəsən gəlmiyəsən.
Gedər-gəlməzə gedəsən.
Gedişin olsun, gəlişin olmasın.
Gedişin olsun, qayıdışın olmasın.
Gəlin öləsən!
Gərdəyin qara boyansın.

H

Haram olsun o boy-buxunun sənə!
Havayı gülləyə gələsən.
Haramın olsun!

Heç xeyrini görməyəsən!
Heç bəy libası geyməyəsən.
Həmişə ağlar qal.

X

Xoş gün görməyəsən.
Xoşbəxt olmayasan.
Xeyir görməyəsən.
Xudavəndi aləm belini qırsın.

İ

İt kimi ulayasan!
İti görüm, qurdu görüm, səni görmüyüm.
İki gözü kor olasan!
İki əlin olsun bir başın.
İşıq üzünə həsrət qalasan.
İyid öləsən!
İldırım səni vursun.

K

Kökünüz kəsilsin.
Kül başına!
Külün göyə sovrulsun!
Kitavın bağlansın.
Kor olasan!
Kəndirin kəsilsin!

Q

Qarnın cırılsın.
Qazandığın yemiyəsən.
Qapın bağlı qalsın.
Qapında it ulasın.
Qardaşın ölsün.
Qan qusasan!
Qara yerə girəsən!
Qanına boyanasan!
Qara qan qusasan!
Qanına bələnəsən.
Qanına bələn!
Qarayara xirtdəyinə çıxsın.

Qadam ürəyinə.
Qadam sana gəlsin.
Qadam sənə dəysin.
Qadamı alasan.
Qazandığın qana dönsün.
Qazancını itlər yesin.
Qanına bulanasan.
Qara yer səni yesin.
Qarnına şiş batsın.
Qanına qaltan olasan.
Qarnına qara yara çıxsın!
Qara yara!
Qanaa bələnəsən!
Qapın bağlı qalsın.
Qara yellər aparsın.
Qolun qırılsın.
Qolun qurusun.
Qolun yanına düşsün.
Qulaqların tutulsun.
Quran sənə qənim olsun!
Qulaxlarına qurğuşun.
Quran gözünü tutsun.
Qudurasan səni!
Qurda-quşa yem olasan!
Quru yerdə qalasan!
Qucağın uşaq görməsin.
Qulağın Quran səsi eşitməsin.
Qəfil qadaya gələsən.
Qəfil gülləyə gələsən.
Qələmin sınsın.
Qələmin əlindən düşsün.
Qıçın qırılsın.
Qırmızı gülləyə tuş gələsən.
Qismətin qara torpaq olsun.

## L

Leşin qarğa-quzğuna yem olsun.
Lənətə gələsən kor şeytan.

## M

Matın-mutun qurusun.
Mərdimazarın evi yansın.
Merət qal.
Meyidini görüm!
Murazın gözündə qalsın.
Mürdəşir üzünü yusun.

## O

Ojağın sönsün.
Ocaq sənə qənim olsun.
Oxlanasan.

## Ö

Öz başını ye!
Övlad üzünə həsrət qalasan.

## P

Parça-parça olasan!
Papağın boş qalsın.
Pis gözə bıçaq batsın!
Pis günə qalasan

## S

Salamat günün olmasın.
Savaha sağ çıxmıyasan.
Sağ get, salamat gəlmə.
Sağ gedib salamat qayıtmayasan!
Sağ başı gora salamat aparmayasan!
Sağ gedif, salamat gəlmiyəsən!
Səsin tutulsun.
Səni görüm zəlil ol.
Səni ilan vursun.
Sənin gözün çıxsın.
Səni görüm oğul toyu görmüyəsən.
Səni lal olasan!
Səni zəlil olasan!
Səni yetim qalasan.
Səni çay aşağı itirim, çay yuxarı axtarım.
Səni sonsuz öləsən.
Səni qız qarıyasan.

Səni ildırım vursun.
Sənin yerinə bir qara daş doğaydım.
Səni görüm yekəlməyəsən, elə o boyda qalasan.
Səni ilan çalsın.
Səni yeyilmə yesin.
Səni görüm ilim-ilim itəsən.
Səni görüm əqrəb dişləsin.
Səni görüm balasız qalasan.
Səni görüm səhərə sağ çıxmayasan.
Səni salamat olmayasan.
Səni görüm qanına bulanasan.
Sənə görüm yaylım gülləsi dəysin.
Səni böyüməyəsən.
Səni görüm anan mələsin.
Səni zəlil olasan.
Səni gorbagor olasan.
Səni qanına qəltan olasan.
Səni görüm qan qusasan.
Səni görüm qanına qəltan olasan.
Səni görüm partdamıya düşəsən.
Səsin batsın.
Səni cavan gedəsən!
Səni yarımıyasan!
Səni qəfil gülləyə tuş gələsən!
Səni görüm qudurub çiyninin ətini yeyəsən!
Səni topal olasan!
Səni doğunca daş doğaydım!
Səni qara yer qucaqlasın!
Səni yanasan!
Səsin batsın!
Səni heç yarımayasan!
Səni heç sağ olma.
Səni şikəst olasan!
Südünə lənət.

Ş

Şil olasan!
Şil qalasan!
Şikəst qalasan.

T

Tanrı başına daş salsın.
Taxtın tarac olsun, yəhərin qannan dolsun.
Təpənə daş düşsün.
Təhnən boş qalsın!
Təhnən qurusun!
Toxumun yer üzünnən kəsilsin!
Toy günün vaya çevrilsin.
Toyun yasa dönsün.
Toyun vaya dönsün!
Topal qalasan!
Toxumun kəsilsin!
Tufananan dağılsın.
Tufanın dağılsın.
Tikə-tikə olasan!

U

Ulaya-ulaya qalasan!
Uşaq üzünə həsrət qalasan.

Ü

Üzün ağ olmasın.
Üzün qara olsun.
Üzünü Azreyil görsün.
Üzünə səhər açılmasın.
Üzünü mürdəşir yusun.
Üzün gülməsin.
Üzün üzdər görsün.
Üzünü gor görsün!
Üzünün suyu tökülsün!
Üzün heç ağ olmasın!
Üzün ağ olmasın.
Ürəyinə güllə dəysin.
Ürəyinin başına güllə dəysin.

V

Vayaa oturum!
Vayına qalasan.

Vayısın evi yıxılsın.
Vayında oturum.
Vayna oturum.
Vurğun vursun.
Vurulmuş.
Vurğun səni vursun.

Y

Yaman dərdə düşəsən.
Yalançıya Allah qənim olsun.
Yaxşı günün olmasın.
Yarımayasan.
Yaxşı gün görmə.
Yaman gözə bıçaq batsın!
Yarımayasan!
Yetim qalasan.
Yediyin gözünü tutsun.
Yediyin it qanı olsun.
Yediyini laxta-laxta qusasan.
Yetim qalasız.

Yeddi arxa dönəninə Allah nəhlət eləsin!
Yəhərin qanla dolsun!
Yerə girəsən.
Yəhərin qannan dolsun.
Yurdun tarmar olsun.
Yuvan dağılsın.
Yurdunda bayquşlar ulasın.
Yurdun dağılsın.
Yuvası dağılsın!
Yoğurduğun küt getsin.
Yüz iyirmi dörd min peyğəmbər sənə qənim olsun.

Z

Zəlil qalasan.
Zəlil olasan!
Zəhərə dönsün!

R

Rahat günün olmasın.
Ruzun kəsilsin.

## HƏDƏ-QORXULAR

A

Atanı yandıracam!
Adam kişi olar!
Açıl başımdan!

B

Baxarsan işinə!
Başına oyun açacam!
Bir özündən deyəndə, beş də bizdən de!

C

Canını alacam!

D

Dana kimi böyürdəcəm səni!

G

Gözünü deşəcəm!
Gözünü çıxardaram!
Get tullan, bala!

İ

İtil başımdan!

S

Sən sən ol, mən də mən!

U

Ulğumunu üzərəm!

Y

Ya sənə verən Allah, ya da mənə!

## YALVARIŞLAR

A
Allaha qurvan olum.
Ayağıyın altında ölüm.
Ağzına qurban olum?
Ayağının altında ölüm!
Atam-anam sənə qurban!
Azarın mənə.

B
Başına dönüm.
Boyuna qurban!
Balalarıyın başına dönüm.

D
Dədəm sənə qurban!

Ə
Əlimi əldən üzmə.
Əl mənim, ətək sənin.

G
Gözdərini yeyim.
Gözünü yeyim!
Gözünə dönüm!

Q
Qurban olum!
Qavağında ölüm.
Qadovu alım!

M
Məni balalarıyın başına hərrə.
Malım-mülküm sənə qurvan olsun.

Ö
Ömrüm-günüm, sənə qurvan olsun.

S
Sənin başına dönüm.
Sənin başına dolanım.
Sənə qurvan olum.
Sənə canım qurban olsun!

## SÖYÜŞLƏR

K
Köpək oğlu!

Y
Yetimçə!

## LAĞLAR, ATMACALAR

A
Ağzından süd iyi gəlir.
Arım var, arım var, eşşək arısı!
Acından günorta durur!

A keçəl, başını yudunmu?
Yudum da, daradım da.

A keçəl, haran yaxşıdı,
Dağdan aran yaxşıdı,
Başın keçəl, gözün kor,
Sənin haran yaxşıdı?

B

Başı girməyən yerə burnunu soxur.
Bir ayağı burda, bir ayağı gorda.
Bir həsirdir, bir Məmmədnəsir.
Bu da adını kişi qoyub!

Balağı batdaq,
Dabanı çatdaq.

Bəzənmisən bu gündəsən,
Bəzənməsən nə gündəsən?

Birə bitdən aşağı,
Bit birədən aşağı.
Gedərəm, qayıdıb gəlləm,
Ollam itdən aşağı.

C

Cəhənnəmə gedən özünə yoldaş axtarır.

D

Dadanıbdı dolmaya,
O da bir gün olmaya!

E

Evində yel vurub, yengələr oynayır!
Elə bil yeddi eşşəyi sağına gəlir!
Eşşək nə bilir zəfəran nədir!
Evində yoxdur urvalıq,
Könlündən keçir dargalıq.

Ə

Əlimin içindən gəlir,
İçinin içindən gəlir,
İçində bir noxud var,
Onun da içindən gəlir.

G

Gözəlağa çox gözəldi, vurdu çiçək çıxartdı.

H

Hamı gedir quş gətirir,
Şaqqulu bayquş gətirir.
Harda aş,
Orda baş.

K

Kor atın, kor da nalbəndi olar.
Kor kora kor deməsə, bağrı çatlayar.

Keçəlin dərdi, başı,
Bir qazan ayran aşı.

Q

Qudurasan qurbağa!...

Ö

Ölmə eşşəyim, ölmə,
Yaz gələr, yanan bilər.

# VƏSFLƏR, BƏNZƏTMƏLƏR, DEYIMLƏR

A

Ağzına atmaq – Bir sözü, sirr saxlamayan bir nəfərə söyləmək.

Ayağına qara su enmək – Çox yeriməkdən yorulmaq.

Ayağını çəkmək – Aldatmaq.

Aralıq atı, kor fatı – Arapozan, söz gətirib-götürən adam.

Arı yuvasına torpaq səpmək – Acıqlı kimsəni hirsləndirmək.

Ağzını Allah yoluna qoymaq – Ağzına nə gəldi danışmaq.

Alımını vermək – Dişinin dibindən çıxanı demək.

Ala qarğa bala çıxartmaz – Qalmaqallı, dedi-qodulu ailə, el adətinə dönük çıxmış oba, kənd və s. haqqındadır.

Abrını ətəyinə bükmək – Kimə isə dişinin dibindən çıxanı deyib, biabır etmək.

Ağlına soğan doğramaq – Yalnış məsləhət vermək, məqsəddən yayındırmaq.

B

Baldırı çılpaq – İşsiz-gücsüz gəzən, səfil.

Başına soğan doğramaq – Aldatmaq.

Beli boş uşaq – Yatağını isladan uşaq.

Bir çeynəm saqqız olmaq – Yoxa çıxmaq.

Bir əli yağda, bir əli balda – Bolluq içində yaşayan.

Bir gözü ayda, bir gözü çayda – Çaş adama deyirlər.

Bir gözlə mənə bax, iki gözlə sənə baxım – Bir qat istəyənə, iki qat cavab.

Boynunu qırmaq – Zərərə salmaq.

Bu pambuğu qulağından çıxar – Qulaqlarını aş və eşit, söylədiyin və düşündüyün olmayacaq.

Boyun əti olmaq – Başqasına yük olmaq.

Beşdə alacağı yox, üçdə verəcəyi – Heç bir dərd-səri olmayan, oğul-uşaq qəhrinə qatlanmayan, arsız, yüngül həyat keçirən adamlar barəsindədir.

Başını bəzəmək – Kiminsə adını hallandırmaq, haqsız böhtanlar demək.

İ

İt sümüyünə calanmaq – Pis adamla qohum olmaq.

İynəynən gor eşmək – Əzab-əziyyətli, başa gəlməsi mümkün olmayan iş görmək.

İtdən alıb itə vermək – Danlayıb abrını tökmək.

İtdən peşman olmaq – Həddindən artıq peşman olmaq, xəcalət çəkmək.

İfliyi üzülmək – Arıqlayıb çöpə dönmək.

İlan dili çıxarmaq – Yalvarıb-yaxarmaq.

Q

Qanına girmək – Öldürmək.

Qaşına-qaşına, çıxdı sədir başına – Özünə layiq olmayan yüksək bir mövqe tutmaq.

Qırım-qıtlıqda yaşamaq – Az məsrəflə dolanmaq.

Qaşıq-qaşıq yığıb, çömçə-çömçə dağıtmaq – Gəlir çıxarını bilməyən bədxərc adamlara aiddir.

«Quran»dan don geymək – Suçlu bir adam min cür and-amanla özünü təmizə çıxarmağa cəhd edirsə, deyərlər: «Qurandan don geysən də inanmaram».

Qılı qıldan seçmək – Tədbirli, dünyagörmüş adamlar barəsində deyərlər: «Qılı qıldan seçən adamdır».

Qaşıq çömçədən böyük oluf – Yəni böyük sözünə baxan yoxdu, oğul-uşaq özbaşına olub, zamana dəyişib.

Qara qızın dərdi varıymış – Ürəyinin altında sözü varmış, başqa niyyəti, umacağı varmış.

Qanının arasına girmək – Kimi isə bədbəxt hadisədən xilas etmək, ölümdən qurtarmaq.

Qarnımnan qara qannar axır – Dərd-qəm içindəyəm, fikir çəkirəm.

D

Dal-budaq etmək – Parçalamaq.

Daşlamaq – 1. Mərcimək, düyü və s. daşlarını arıtlamaq. 2. Söz atmaq.

Dəm vurmaq – Özünü öymək.

Dəni çöllərdən, suyu göllərdəndi – İçində ədava və s. olmayan dadsız yeməklərə lağ etmək üçün deyilir.

Dizdən düşmək – Yorulub əldən düşmək.

Daş daşdan ayrıldı – Xəsis, simic adamlardan bir şey qopara bildikdə, tərs, inadkar adamları nəyə isə güc-bəla razı saldıqda bu ifadəni işlədirlər.

Dəvəni xəlbirnən suvarmaq – Cüssəli, yeyimcil şəxslərə yeməyi az verdikdə işlədilir.

E

Ev basmaq – Təhlükəsizlik orqanlarının qəflətən bir evə girib axtarış aparması.

Evdən-eşikdən çıxmaq – Çətin vəziyyətə düşərək, olub-qalanı satmaq.

En gedib-uzun gəlmək – Boş-boşuna ora-bura hərlənmək.

Ə

Əl-ayağı bağlanmaq – Bir işi görərkən bütün imkanların kimsənin əlindən alınması.

Əl-ayaq atmaq, çalmaq – Can vermək, ölüm ayağında olmaq.

Əli qısa – Yoxsul.

Əl uzatmaq – Tamah etmək.
Ətək öpmək – Yaltaqlanmaq.
Əldən-ağıza qalmaq – İmkansızlıq üzündən başqalarına möhtac olmaq.
Ətin tökülsün – Zarafata salıb biabırçı, nalayiq söz deyənlərə aiddir.
Ələyi ələnmək – Xəstəlikdən, qocalıqdan, pis vəziyyətdən dolayı işi bitmək.
Əli ağzına çatmır – Tənbəl, aciz adamları belə deyərək yamanlayarlar.
Əngə vermək – Qulaq ardına vurmaq, bu gün-sabaha saxlayıb hər hansı işi yerinə yetirməmək.

Z

Zağ-zağ baxmaq – Gözlərini bərəldərək acıqla baxmaq.
Zarıncı olmaq – Ömürlük xəstə olub yatağa düşmək, əldən-ağıza qalıb başqalarına möhtac olmaq.

Y

Yan vermək – 1. Yoldan ayrılıb harasa çatmaq, 2. Yan keçmək.
Yel əsib, qoz tökülüb – Asan qazanca, müftə yeməyə qaçanlar barəsində deyilir.

K

Kəs-biç etmək – Qəddarlıqla vurub öldürmək.
Kor iti xeyir görməz – Həmişə özünü düşünən, başqalarına faydası dəyməyən adamlar barəsində deyilir.
Kor kor, gör gör – Hər hansı bir şeyin sübuta, isbata ehtiyacı olmadığını nəzərə çatdırmaq üçün işlədilir.
Köhnə palan içi tökmək – Köhnə inciklikləri yada salmaq, keçmiş işləri qurdalamaq.
Kirpiyinnən od götürmək – Ağır əzab-əziyyətə, çətinliklərə qatlanmaq.
Kütünü kəsmək – Gözdən - nəzərdən salmaq.

G

Göbəkdən düşmək (getmək) – Çox qorxmaq, ürək-göbəyi düşmək.
Gecə quşu – Gecələr bayırda çox gəzən kimsəyə deyirlər.
Gözünü qırmaq – Birini hürküdüb qorxutmaq.
Gözəmək – Paltarın yırtıq yerini yamamaq.
Gözüynən görmüş – Namusuna toxunulduğunu yaxşıca bilən kişi.
Gördüyünnən göz kirəsi istiyir – Hər şeyə tamah salıb ələ keçirmək istəyir.

N

Nəfisini kor etmək – İştahını korlamaq, tamahı çəkmək.

O

Ocağı yanmaq – Uzun illərədən sonra övladı olmaq.

S

Saqqal-saqqala bağışlamaq – Bacarmadıqları bir işi bir-birinə həvalə etmək.

Sağ-səlim olmaq – Sağ-salamat olmaq.

Saç yolma oynamaq – Qadınların davası.

Suya girmək – Parçanı ilk dəfə yuyanda qısalmasına rəğmən deyirlər.

Suyu qaçmaq – Meyvə quruyub, suyu qalmayanda deyirlər.

Saman altdan su yeritmək – Üzdən sakit görsənib, gizlincə təsəvvürə gəlməz işlərlə məşğul olmaq.

Səbət dalınnan gilas tökülür? – Qeyz ilə danışan bir şəxsin sözlərinə gülərlərsə, qulaq asmırlarsa bu ifadə işlədilir.

T

Tazıya dönmək – Çox arıqlamaq, yöndəmsiz olmaq.

Tərəzisi əyilmək – İşi yaxşı getməmək, taleyi üzünə gülməmək.

Toy toğlusudu – Tənbəl və kök uşaq haqqında söylənir.

Ü

Üz alan –Ənlik-kirşan vuran usta qadın.

Üzünü yerə salmaq – Başını sallayıb susmaq.

X

Xoruzu banlamaq – Evlənmək istəmək.

H

Havada bulut var – Dünya qarışıqdır.

Havarına gəlmək – Köməyinə gəlmək.

Həm yeyərəm, həm də deyərəm – Nankor, yaxşılığa qarşı yamanlıq edən kimsə haqqında söylənir.

## DEYİMLƏR

A

Ağıl dəryasıdı.

Ağzınnan quş tutur.

Ağzının kəsəri yoxdu.

Aşını bişiriflər.

Avrını ətəyinə püküf.

Adama oxşamıyan.

Adamın adamıdı.

Ağzına su alıf.

Ayağı yalındı.

Ağzına çullu dovşan sığmır.

Ağzınnan qan iysi gəlir.

Ala itdən manşırdı.

B

Başı qoltux görmüyüf.

Bir daş altda, bir daş üstə.

Baş qoşma.

D

Dilə-dişə düşüf.

Daşı ətəyinnə tök.

Dil pəhləvanıdı.

Dəvəsi ölmüş ərəbdi.
Dar günün dayağıdı.
Dəlidən doğru xavar.
Dilotu yemək.

Q

Quş qoyma.
Quşum qonuf.
Qulağı darı dəlir.
Qarğa, məndə qoz var.
Quş qanadnan uçar.
Qulağımnan qut oldum.
Quşqunu boşdu.

E

El gözü tərəzidi.
El içində, öl içində.

Ə

Əli daş altdadı.
Əngini əzmək.
Əl tutmax.

İ

İpi mənim əlimdədi.
İçi boşdu.

O

Od parçasıdı.

K

Keçəl suya getməz.
Kələyini kəsmişəm.

G

Gül axıtdı.

S

Su gələn arxdı.

Y

Yıxılı öyün dirəyidi.
Yaş odun satıf.

Ö

Ödünü qusmaq.

Ü

Ürəyimə dammışdı.
Ürəyim üzüldü.

N

Nuhu taxtda görüf.
Nuhdan qalmadı.

Ş

Şeytana papış tikir.
Şeytanın dal ayağıdı.

X

Xamır çox su aparajax.
Xamır yəənin fağırı olmaz.
Xatakun adamdı.

## ÖYÜD-NƏSİHƏTLƏR, MƏSLƏHƏTLƏR

A

Ağzını təmiz saxla.
Ağzına gələni danışma, ağzına çəpər çək.

B

Bacarmadığın işə qol qoyma.
Başqasının işinə qarışma.

## VƏSFİ HALLAR

Əzizim aydın olsun,
Ay doğsun aydın olsun.
Yardan xəbər gələcəh,
Gözdərin aydın olsun.

Tanrı məni quş elə,
Qanadı gümüş elə.
Dar yolda, dar küçədə,
Yarı mənə tuş elə.

## İMAMLARIN VƏSFİ

***Dərəyələz ağsaqqallarının və Dərəyələz camaatının dilində bu qoşma əzbər idi . Bilməyənlər gedib Qovuşuxlu Mirzəlioğlu İbrahimdən öyrənərdi.***

### XƏBƏR AL DEYİM

Ərəb atdar qoç iyidə meydandı,
Məhəmməd sərindən tökülən qandı,
Birinci imamım Şahi-mərdandı,
İkincisin məndən xəbər al deyim.

Atını minəndə yel kimi əsən,
Yetircək kafirin başını kəsən.
İkinci imamım ya imam Həsən,
Üçüncüsün məndən xəbər al deyim.

Kərbəla dəştində qaldı Hüseynim,
Oxudum quranı açıldı Zehnim ,
Üçüncü imamım imam Hüseynim,
Dördüncüsün məndən xəbər al deyim.

Bahar olcaq dağlar deyər abidin,
Din içində bəsləmişik hamı din,
Dördüncü imamım Zeynalabidin,
Beşincisin məndən xəbər al deyim.

Məclisə girəndə ağır ol, ağır,
Müşkülə düşəndə movlanı çağır,
Beşinci imamım Məhəmmədbağır,
Altıncısın məndən xəbər al deyim.

Gedirdim qarşıma çıxdı bir hadiq,
Yedik-içdik dünya malın budadıq.
Altıncı imamım Cəfəri-Sadiq,
Yeddincisin məndən xəbər al deyim.

Allahın bir adı əzimdir, əzim,
Qələm-dəftər gətir mən onu yazım.
Yeddici imamım Museyi-Kazım,
Səkkizincisin məndən xəbər al deyim.

Tutginən orucun qalmasın qəza,
Məhşər günü sənə verərlər cəza,
Səkkizinci imamım qərib İmam Rza,
Doqquzuncusun məndən xəbər al deyim.

Behişt bağçasında onlardır saqi,
Mömin görən işlər qalmayıb baqi,
Doqquzuncu imamım Məhəmməd tağı,
Onuncusun məndən xəbər al deyim.

Hamını yandırır Kərbəla dağı,
Onların yeridir cənnətin bağı,
Onuncu imamım Əliyyən Nağı,
On birincisin məndən xəbər al deyim.

Onlardır Allahın əlvan gülləri,
Behişt körpüsünün gövhəri, zəri,
Onbirinci imamım Həsən əsgəri,
Onikincisin məndən xəbər al deyim.

Ömür bostanını tutmasın duman,
Hamıya kömək ol qadiri sübhan,
Onikinci imamım Sahibdən zaman,
Bundan yaxşı daha sizə nə deyim.

*Söyləyəni: **Nazlı İbrahim qızı Nağıyeva** 1931-ci ildə Dərələyəzdə Qovuşuq kəndində doğulmuş, hal-hazırda Abşeronun Novxanı kəndində yaşayır.*
*Qələmə aldı Həsən Mirzəyev.*

# OYUNLAR

## DIRƏDÖYMƏ

*(Dizə döymə)*

Dirədöymə oyununu uşaqlar çox sevir. Bu oyunda uşaqlar iki dəstəyə bölünür. Hər dəstədə ən azı üç adam olmalıdır. Dəstənin sayını istənilən qədər çoxaltmaq olur.

Əvvəlcə iki dəstə başçısını seçirlər. Dəstə başçıları qoşa dayanıb öz tərəfdarlarını seçməlidir. Uşaqlar buna razı olmadıqda püşk atma keçirilir. Uşaqlar iki-iki bu başçıların yanına gəlir və püşkə görə hərəsi bir başçının yanında durur. Hamı gəlib qurtarandan sonra iki dəstə arasında püşk atılır. Bundan sonra dəstədəki uşaqların sayına uyğun dairəvi cız çəkilir. Dəstənin biri cızığın içində, biri də çölündə olmalıdır.

Cızığın içindəki uşaqlar bellərindəki qayışı açıb yerə sərməlidir. Qayışın baş tərəfi cızığa çatmalı, ucu isə düz istiqamətdə cızığın mərkəzinə tərəf olmalıdır. Bu uşaqlar həmin qayışı qorumalıdır ki, bayırdakı uşaq onu ələ keçirməsin. O qayışı yalnız ayaqları ilə qorumalıdır.

Cızığın çölündəki uşaqlar isə öz qayışlarını əllərinə alıb içəridəkinin ayaqlarına döyə-döyə yerdəki qayışı cızıqdan çölə çıxarmağa çalışmalıdır. Bu zaman içəridəki adam çöldən hücüm edəni təpiklə vura bilsə çöldəki dərhal oyundan çıxmalıdır.

İçəridəki uşaqlar qayışlarını qoruya bilməyəndə, çöldəki uşaqlar da təpiklə vurulanda uduzmuş hesab olunurlar.

*Söyləyəni və yazanı: dirədöymə oyununda məşhurlaşan **Həsən Mirzəyev.***

*Qeyd: Dərələyəzdə bu oyunu cavanlar və kişilər də çox oynayır.*

## AŞIX-AŞIX

Aşıx-aşıx oyununu uşaxlar çox sevər və ilin hər fəslində oynayardılar. Bu oyun payız fəslində daha da qızışardı. Dərələyəzdə payız fəsli bütün evlərdə qavırmalıx kəsəllər. Elə bir əv olmaz ki, o əvdə qavırmalıx üçün kök qoyunlar kəsilməsin. Qoyunnar kəsilən zaman uşaqlar aşığı götürmək üçün qəssabın yanını kəsdirərdi. Qavırmalıx üçün kök və böyük erkəklər kəsilərdi. Bunnarın da aşığı böyük olardı. Belə böyük və ağır aşıxlara sakka deyərdilər. Belə sakka aşıx kimdə olsa o həmişə oyunda udardı. Balaca aşığı olannar isə uduzardı. Bəzən də yüngül aşıxların içini oyuf ora qurğuşun tökərdilər ki, aşıx ağır olsun.

Aşıx-aşıx oyununun bir neçə forması var. Ən çox qala qurmax forması oynanılardı. Burada çox aşığı birdən udmax olur. Həm də bu formada aşığı çox

uzaqdan atıb üst-üstə qoyulub qala qurulan aşıxları vurub dağıtmaq lazımdır. Aşıx-aşıx oyununda aşığın alçı-toxan, cik-bök durmasından da çox şey asılıdır.

Alçıda – aşıx dik durur, həm də qıraxları dik-dik olan yer üstə düşür.

Toxanda – aşıx dik durur, ancaq çıxıntısı olan hissə üstə düşmür.

Cikdə – aşıx yan üstə yerə düşür, amma çala yeri olan üz üstə düşür.

Bökdə – aşıx yan üstə yerə düşür, amma çala yeri üstdə olmur

*Söyləyəni: **Zülfüqarov Kazım** (1933). Ali təhsilli coğrafiya müəllimi, pensiyaçı, Qovuşuq kənd sakini.*

*Qələmə aldı: Həsən Mirzəyev. Dərələyəzin Qovuşuq kəndi, 1970-ci il, avqust.*

## GİZLƏNPAÇ

Gizlənpaç oyununda xeyli uşaq iştirak edir. Oyunun qaydası belədir: Oyunda bir nəfərin gözlərini dəsmalla bağlayırlar, qalan yoldaşları tez bir vaxtda gizlənirlər.

Gözü bağlı uşaq deyir : - Gizlən paç, gizlən paç! sonra bir az gözləyir. Heç bir cavab almadıqda gözlərini açır və gizlənmiş yoldaşlarından birini tapıb tutmağa çalışır. Yoldaşlarından birini tutan kimi tutulan oyunçu gözlərini yummalı olur. Yox, əgər heç bir oyunçunu tuta bilmirsə, həmin oyunçu yenidən gözlərini bağlamalı, yummalı olur. Gizlənmiş oyunçular xilas olmaq üçün cəld qaçıb əlini gözü bağlanmış yoldaşının dayandığı yerdəki ağaca, dirəyə, daşa, divara vurmalıdır. Əgər əlini ağaca vura bilməsə onun oyunu düzgün sayılmır.

Oyunda hansı oyunçunun gözünü yumması məsələsi ya püşk atma, ya da sanamalarla müəyyənləşdirilir. Razılaşdıqları rəqəm kimin üstünə düşürsə o gözünü yummalıdır.

*Söyləyəni: **Zülfüqarova Züleyxa İbrahim qızı**, 72 yaşlı, Dərələyəzin Qovuşuq kəndində doğulub boya-başa çatmış, hal-hazırda Abşeron rayonunun Novxanı kəndində yaşayır. Qələmə aldı: Həsən Mirzəyev.*

## GİZLƏNPAÇ

Əvvəlcə püşk atırlar, püşk kimə düşsə o gözünü yumur. Qalan uşaqlar gizlənir. Gözünü yuman açmamışdan əvvəl xəbərdarlıq eləyir:

Gizlən paç.
Gizlənməyən
Yekəbaş.
Gözlərimi açdım qaç.
Gizlənənlər deyir:
-Alma desəm açarsan,
Armud desəm, açmazsan.

*Söyləyəni: **Həmzəyeva Sabirə Məmməd qızı**, 50 yaşlı, Dərələyəzin Qovuşuq kənd sakini olub, ali təhsilli müəllim, hal-hazırda Abşeron rayonunun Novxanı kəndində yaşayır. Qələmə aldı: Zülfüqar Hadi Məmməd oğlu.*

## EŞŞƏK BELİ

Eşşək beli oyununda 10 nəfərə qədər bəzən də biraz artıq adam iştirak edir. Oyuna başlamazdan əvvəl püşk atma vasitəsilə axıra qalan adam müəyyən edilir. Axıra qalan adam əllərini dizlərinə qoyub belini əyir o birilər də kənardan qaça-qaça gəlib belindən tullanır. Oyun belə başlayır:

Oyunçular 8-10 metr aralı növbədə dayanır, oyunu idarə edənin işarəsini gözləyirlər. Hakim işarə verən kimi birinci oyunçu qaçaraq əyilmiş oyunçuya çatır və əllərinin ikisini də onun belinə vuraraq «Əzəl dəyməz» deyib, ayaqlarını ona toxundurmadan o biri tərəfə atlanır.

İkinci oyuncu «ikincidə heç dəyməz»- deyib birincinin hərəkətini təkrar edir.

Üçüncü yumuruqlarını «eşşəyin» belinə dirəyərək «üçdə qulunc qırarlar»-deyib atlanır.

Dördüncü : «Dörddə bir dal vurarlar» -deyib dalı gün görməzi ilə «eşşəy»i vurub atlanır.

Beşinci : Vurdum beli qırıldı.

Altıncı: Apardılar həkimə.

Yeddinci : Həkim dedi kim-kimə.

Səkkizinci: Nəyin dədən börkünə.

Doqquzuncu: Börkünə yox tərkinə.

*Söyləyəni və qələmə alanı: müəllif (Həsən Mirzəyev).*

## ÇİLİNG-AĞAC

Bu oyunda istənilən qədər adam iştirak edir və uşaqlar iki yerə bölünür. əvvəlcə püşk atılır, sonra da oyun başlayır.

Bir metr uzunluğunda hamar ağac bir qarış uzunluğunda da nazik çubuq düzəldilir. Çubuq çox zaman tubulğa ağacından düzəldilir ki, vuranda uzaq getsin. Bir metrlik ağac(ona «dəstə» deyilir) çubuğu (ona isə çəling deyilir) vurmaq üçün hazırlanır.

Dəstələr bir-birindən aralı dayanır. Çilingi buran dəstə çilingi o biri dəstənin başı üstündən uzağa, yana vurmağa çalışır. Dayanan dəstə vurulmuş çilingi göydə vursa, yaxud tutsa çiling vuran uduzmuş hesab edilir. Bu vaxt dəstənin ikinci oyunçusu ağac ilə çilingi vurur. Dəstə əgər çilingi göydə vura bilsə, çiling yerə düşəndə onu götürüb çiling düşdüyü yerdən vurmaq üçün atır. Əgər çilinglə ağacı vura bilsə, yenə həmin adam uduzur. Oyuna digər yoldaş başlayır.

Oyuna başlayanın ixtiyarı var ki, uduzmuş yoldaşını oyuna qaytarsın. O deyir ki, filan yoldaşımı dirildərəm. Bundan sonra əgər uduzmuş ikinci, üçüncü yoldaş varsa, onları da «dirildə» bilər.

Bu qayda ilə oyun davam edir. Oyun zamanı kim çilingi uzağa bura bilir, kim müxtəlif formalarda oynaya bilirsə o da oyunu udmuş hesab olunur.

*Söyləyəni və qələmə alanı: müəllif – **Həsən Mirzəyev**.*

## ÇİLİNG-AĞAC

Uşaqlar bir uzun, bir kiçik ağac götürürlər. Gödək ağacın adı çiling olur. Sonra iki dairə çəkirlər.

Oyunda iki nəfər iştirak edir. Uşaqlardan biri dairənin içində durub əlindəki ağacla çilingi vurur. Bacardıqca uzağa atır. O biri uşaq yüyürüb çilingi gətirir. Dairənin içinə atmağa çalışır. Çilingi atan əlindəki ağacla çilingi geri qaytarır. Çiling atan dairənin içərisinə düşərsə, oyunçuların yeri dəyişir.

## ÜZÜK-ÜZÜK

Bu oyunu Dərələyəzdə qış ayları oynayardılar. Oyun taxt, yaxud kürsü üstündə keçirilərdi. Əvvəllər təndir üzərində qurulmuş ayaqlı taxta kürsü deyərdilər. Hazırda kürsü unudulmuş, məişətdən silinib getmişdir.

Oyunda azı 6-7, ən çoxu 8 nəfər uşaq iştirak edir.

Hər oyunçu üçün ortaya bir corab və ya dəsmal qoyulur. Bir nəfər üzüyü əlinin içində saxlayıb əlini dəsmalların altına, corabların içinə aparır. Üzüyü ya dəsmalın birinin altına, və ya corabın içinə qoyur. Oyunçulardan biri üzüyü axtarıb tapmalıdır. Üzük axtaran oyunçu istədiyi hər hansı dəsmala və ya coraba ya «puç» deyir, ya da burdadır deyir. Əgər üzük dediyi dəsmaldan və ya corabdan çıxmasa uduzmuş hesab olunur. Və yaxud da o dəsmala və corablara baxa-baxa deyir: ya bındadı, ya bında, keçəlin qızı kabında. Əlini həmin dəsmalın və ya corabın üstünə qoyur. Üzük «puç» dediyi yerdən çıxsa, yenə uduzur. Uduzan oyunun şərtlərinə görə «cəzalandırılır». Yaxud oyun qonaqlıqdan oynanılır. Kim daha çox uduzsa, o məğlub hesab olunur.

Uduzan ikinci oyunda üzüyü gizlətməli olur. Tapılsa o, tapılmasa isə axtaran uduzur. İştirak edənlər növbə ilə oyuna cəlb olunur.

*Söyləyəni və qələmə alanı: müəllif – **Həsən Mirzəyev**.*

## BEŞDAŞ

Beş-daş oyununu Dərələyəzdə çox sevirlər. Bu oyun xüsusi məharət tələb edir. Oğlanlara nisbətən qızlar bu oyuna daha çox meyl göstərirlər. Oyun oturaq şəkildə həyata keçirilir. Yerə paltar salınır. Uşaqlar paltarın üstündə dairəvi oturub oynayırlar. Oyunda beş dənə xırda yumru daş götürülür. Əvvəlcə qərçimək olur. Daşları qərçiləyirlər. Yəni bir daşı atırlar göyə. O yerə enənə qədər gərək yerdəki daşların hamısını qarmalayıb götürəsən və göydən

gələn daşı da tutasan. Bundan sonra dənnəmə gəlir. Dənnəmədə daşları yerə atıb bir-bir dənləyirlər. Buna dənnəmə deyirlər. Daşın dördü yerdə qalır, birini göyə atırlar. O göydən düşüncə yerdəki daşları da ovucla götürürlər.

Dənnəmədən sonra ikiləmə gəlir. İkiləmədə daşı həmin qaydada göyə atıb yerdəkinin ikisi ilə birlikdə götürürlər. İkiləmədən sonra üçləmə gəlir. Üç daşı bir, bir daşı ayrıca götürürlər. Sonra dörddmə gəlir. Dörddəmə nisbətən çətindir. Bura çatanda rəqib oyunçu deyir:

- Dörddə.
- Yerdən qapma.

Qapmadan daşın beşini də ovucun içində tuturlar. Daşın birini göyə atıb, dördünü yerə qoyurlar. Sonra həmin daşları təzədən yerdən götürürlər. Oyunun axırıncı mərhələsi itələmədi. İtələmədə daşları dağınıq atırlar. Bir-birinə bitişərsə, oyunu davam etdirmək olmaz.

Beşdaşın xüsusi cəza qaydaları var: bal çıxartma, quşunu göstər, çimdikləmə, cırmaylama, yağlama. Daşların hamısını əlin üstünə düzür, atıb tuturlar. Bu işi uduzan tərəf icra edir. Daşlardan hansı yerə düşübsə, həmin daş rəqibin cəzası olur. Bal çıxartmada daşı barmaqların arasına qoyub sıxırlar. Barmaq bərk ağrıyır.

Çimdikləmə belədir: - daşı göyə atıb tutma məqamında uduzanın əlini çimdikləyirlər. Daş yerə düşənə qədər cəza davam edir. Yağlamada daşı atıb tutana qədər rəqibin əllərini sığallayırlar. Bir zaman bu oyunu təkcə uşaqlar yox, böyüklər də oynamışlar.

*Söyləyəni və qələmə alanı: müəllif – **Həsən Mirzəyev**.*

# BAYATILAR

Əzizinəm, çəməndə,
Çiçək dərir çəməndə.
Yar bircə baxışıyla,
Məni saldı kəməndə.

Əzizinəm, oyan gül,
O yan bağça, bu yan gül.
Tez aşdın, tez saraldın,
Məni zülmə qoyan gül.

Əzizinəm bu dağa,
Quş qonubdu bu dağa.
Oğullar qurban getdi,
Dözəmmərəm bu dağa.

Əzizinəm, dur burdan,
İnci burdan, dürr burdan.
Məclisdə yerin tanı,
Deməsinnər dur burdan.

Əzizinəm gözədə,
Kəklik otda gözədə
Sənə də qurban olum,
Sənə baxan gözə də.

Əzizinəm qırov düşdü,
Qar ələndi, qırov düşdü.
Altı körpəm itkin getdi,
Ya düşmənə girov düşdü?!

Əzizinəm dağ eylədi,
Yağı gəldi, dağ eylədi.
Dərələyəzin dərdləri,
Qəlbimi dağ-dağ eylədi.

Əzizinəm vay dərdim,
Vay dərmanım, vay dərdim,
Dərya mürəkkəb olsa,
Yaza bilməz vay dərdim.

Əzizinəm Qarabağ,
Şəki, Şirvan,Qarabağ,
Tülək tərlanın itiv,
Ayağında qara bağ.

Əzizinəm gəl bəri,
Uzaq durma, gəl bəri.
Küsmüsən, könlün allam,
Gendə durma, gəl bəri.

Əzizinəm gül bağa,
Bülbül bağa, gül bağa,
Mən küsmüşəm, gəlmirəm,
Barı özün gəl bağa.

Əzizinəm sənə dağlar,
Yol gedər sənə, dağlar,
Tutaydım yar əlinnən,
Çıxaydım sənə, dağlar.

Əzizinəm buda məni,
Xənjər al, buda məni.
Gör nəgünə qalmışam,
Bəyənmir bu da məni.

Əzizinəm dağ-dağ oldu,
Yağ yandı, dağ-dağ oldu,
Sən yadıma düşəndə,
Ürəyim dağ-dağ oldu.

Əzizinəm sənə dağlar,
Göy geymiş sənə dağlar,
Tutaydım yar dəstindən,
Çıxaydım sənə, dağlar!

Əzzinəm örən dağlar,
Gülü yox, dərəm dağlar.
Günün belə keçərsə,
Ürəyim vərəm bağlar.

Əzizinəm gözə də,
Kəklik otdar gözə də,
Yarıma qurban olum,
Onu görən gözə də.

Əziziyəm, bu dağa,
Ellər köçüf bu dağa.
Elə ki, mən dözürəm,
Kimsə dözməz bu dağa!

Əziziyəm, gülə sən,
Ağlayasan, güləsən.
Bağban getdi, bağ soldu,
Həsrət qaldın gülə sən.

Əziziyəm bu da məni,
Döy məni, buda məni,
Gör nə günə qalmışam,
Bəyənmir bu da məni.

Əziziyəm bu dağda,
Maral gəzər bu dağda,
Yarımı itirmişəm,
Axtarıram bu dağda.

Əziziyəm gül açar,
Çiçək açar, gül açar,
Yarım qayıdıb gəlsə,
Arzularım gül açar.

Əziziyəm saraldı,
Heyva bağda saraldı,
Yolunu gözləməkdən,
Gözümün kökü saraldı.

Əziziyəm yaz gəlsin,
Payız gəlsin, yaz gəlsin,
Əgər dəftərin yoxsa,
Bir yarpağa yaz gəlsin.

Əziziyəm, oyan gül,
Oyan bülbül, oyan gül
Bu yan zülmətxanadı,
Bəs necədi o yan, gül?

Əziziyəm Sarı yar,
Sarı köynək, sarı yar,
Aç belindən qurşağın,
Cənazəmi sarı, yar.

Əziziyəm ay ağa,
Salma məni ayağa.
Dost baxsa, başa baxar,
Düşmən baxar ayağa.

Əziziyəm qalasız,
Qumunan qayırdılar.
Mən sənnən ayrılmazdım,
Zülümnən ayırdılar.

Əziziyəm, Qannı göl,
Qannı dərə, Qannı göl.
Namərd elə etdi ki,
Qan ağladı Qannı göl.

Əziziyəm, üzərsən,
Gülü düzdən üzərsən.
Həsrətini çox çəkdim,
Nolar, gəlsən bizə sən.

Əziziyəm mərdana,
Sözü danış mərdana.
Qorxaxdan igit olmaz
İgit gərək mərdana.

Əziziyəm belə yaz,
Qələm götü belə yaz,
Nakam könül şad olmaz,
Yüz il gəlsə belə yaz.

Əzizim, Vətən ağlar,
Halıma bilən ağlar.
Yad elində ölənin,
Halına kəfən ağlar.

Əzizim, çapar məni,
Dərd talar, çapar məni.
Yadıma vətən düşüf,
Vətənə apar məni.

Əzizim qoşa dağlar,
Verib baş-başa dağlar,
Sevdiyim səndə gəzib,
Səni yüz yaşa dağlar.

Əzizim buda məni,
Xəncər ol buda məni.
Fələk bir iş işlədi
Sevmədi bu da məni.

Əzizim ağlayandı,
Gözlərin ağlayandı,
Gedək təbib yanına,
Görək kim ağlayandı.

Əzizim daşdı dağlar,
Cınqıllı, daşdı dağlar.
Bəyin qızı çobana
Qoşuldu qaşdı dağlar.

Əzizim qoşa dağlar,
Yaram var qıyma mənə.
Məni bir namərd vurub,
Sən mərdsən qıyma mənə.

Əzizim dağda nə var,
El köçmüş dağda nə var.
Qəmgin olma ey könül
Leylisiz dağda nə var?

Əzizim keçdi məndən,
Ox dəydi keçdi məndən,
Mərdlərə körpü oldum,
Namərdlər keçdi məndən.

Əzizim üzüm qaldı,
Üzümlər düzüm qaldı,
Sevgilimə deməmiş,
Gör neçə sözüm qaldı.

Əzizim arxa haray,
Su gəlib arxa, haray,
Dəhnəmiz çürük çıxıb,
El, qohum, arxa, haray.

Əzizim aydın olsun,
Ay doğsun, aydın olsun,
Eşitdim yarın gəlir,
Gözlərin aydın olsun.

Əzizim ala gözlər,
Süzülər qara gözlər,
Baxdıqca xumarlanıb,
Könlümü alan gözlər.

Əzizim qıyma mənə,
Yaram var qıyma mənə,
Məni bir namərd vurub,
Sən mərdsən qıyma mənə.

Əzizim sərin eylər,
Şeh düşər sərin eylər,
İki dost arasını,
Bir namərd sərin eylər.

Əzizim dağda lala,
Oxşar gül üzdə xala,
Dərdi, qəmi azalar
Kim yetişsə vüsala.

Əzizim ağ da yandı,
Şamama bağda yandı,
Dalım dağa söykədim,
Alışdı dağ da yandı.

Əzizim yana dağlar,
Od tutub yana dağlar,
O gözələ deyin ki,
Baxsın bu yana dağlar.

Əzizim gözdə qara,
Qaş qara, gözdə qara.
Yollarına baxmaqdan
Qalmadı gözdə qara.

Əzizim yaralıyam,
Əl vurma yaralıyam,
Yar dərdi xəstə saldı,
Vətəndən aralıyam.

Əzizim ağlamazdım,
Gülərdim, ağlamazdım,
Kaş biləydim dərdini,
Sənə bel bağlamazdım.

Əzizim bu dağnan,
El getməz bu dağnan,
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağnan.

Əzizim, xalxa nə var,
Xal düşmüş, xalxa nə var,
Sən mənimsən, mən sənin,
Bilmirəm xalxa nə var.

Əzizim günə gəlləm,
Kölgədən günə gəlləm.
Zərrəcə üzün görsəm,
İmana, dinə gəlləm.

Əzizim dalda gəzər,
Gün gedər, dalda gəzər.
Mərdlər qabağı gözlər,
Namərdlər dalda gəzər.

Əzizim özüm sənə,
Düşübdü gözüm sənə,
Sənə qurban demərəm,
Qurbanam özüm sənə.

Əzizim neynim sənə,
Düşübdü meylim sənə,
Mən səndən ayrılmaram,
Ayrılsam neylim sənə.

Əzizim odu keçdi,
Qəlyanın odu keçdi,
Yatmısan oyan ovçu,
Ceyranın odu keçdi.

Əzizim üzə düşdü,
Qara tel üzə düşdü,
Aləmə püşk atdılar,
Ayrılıq bizə düşdü.

Əzizim simi gözdər,
Tar çalan simi gözdər.
Qaşın kimi göz olmaz,
Gözdərin kimi gözdər?

Əzizim nərdivana,
Ayax qoy nərdivana.
Zər qədrin zərgər bilər,
Nə bilər hər divana?

Əzizim oda gəldi,
Pərvanə oda gəldi.
Qorxurdum bircə dərddən,
Başıma o da gəldi.

Əzizim yana canım,
Od tuta, yana canım.
Özüm nə gündəyəm ki,
Sənə də yana canım.

Əzizim, oyan, dağlar,
Al-qana boyan dağlar.
Bu yan zülmətxanadı,
Necədi o yan, dağlar?

Əzizim gedər qalmaz,
Axar su gedər qalmaz.
Vəfalı əlin üzməz,
Vəfasız gedər qalmaz.

Əzizim, aylar məni,
Həftələr, aylar məni.
Yüküm qurğuşun yükü,
Yordu bu taylar məni.

Əzizim dalan dağlar,
Gülləri solan dağlar.
Səndə cavan itirdim,
Olasan viran, dağlar.

Əzizim, dolu gözdər,
Yağışı dolu gözdər.
Mənə deyir ağlama,
Durarmı dolu gözdər?!

Əzizim, hey ağlaram,
Dərdimə dərd bağlaram.
Qürbət cənnət olsa da,
Vətən deyib ağlaram.

Əzizim dağda nə var,
El köçdü, dağda nə var,
Məcnun xəyallı könlüm,
Leylisiz dağda nə var.

Əzizim vətən yaxşı,
Köynəyi kətan yaxşı
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı.

Əzizim, qazan ağlar,
Od yanar, qazan ağlar.
Qəriblihdə ölənin,
Qəbrini qazan ağlar.

Əzizim dağda nə var?
El köşdü dağda nə var?!
Leylisiz Məcnun köylüm,
Məcnunsuz dağda nə var?!

Əzizim Arxaşana,
Yol gedir Arxaşana.
Qoçaq elə tullandı,
Əhsən arxı aşana.

Əzizim Qısır dağı,
Qız, məmən qısır dağı.

Hərcayı gəzmə, maral,
Ovçular pusar dağı.

Əzizim üzüm qaldı,
Dərmədim, gözüm qaldı.
Sən mənimsən, mən sənin
Ürəkdə sözüm qaldı.

Əzizim ağlar, gəzər,
Dərələr, dağlar gəzər.
Yar yardan ayrı düşsə
Qəlbini dağlar gəzər.

Əzizim arğaçına,
İlməsi nə, arğaçı nə?
Mələr quzum bir də gəlməz,
Ağılına, arxaçına.

Əzizim dağı getməz,
Əlimin dağı getməz,
Düşmən getdiyi zülmün
Sinəmdən dağı getməz.

Əzizim yurddan qallam,
Ölərəm yurddan qallam.
Qürbətdə əlim catmaz,
Xiffətdə, dərddə qallam.

Əzizim dağı neynim,
Bağçanı, bağı neynim.
Vətənə gedən yolu,
Keçibdi yağı neynim.

Əzizim ipək yolu,
Çin yolu, ipək yolu.
Bu yol Vətənə gedir,
Döşənib ipək yolu.

Əzizim Vətən sarı,
Geyinib kətan sarı.
Bir köçəri quşa dönüb,
Uçaydım Vətənə sarı.

Əzizim yaşa baxmaz,
Əyinə, başa baxmaz.
Düşmən yaman zalımdı,
Gözümdə yaşa baxmaz.

Əzizim Vətən daşı,
Səngər olar Vətən daşı.
Bu qisası almalıdır,
Vətənin hər vətəndaşı.

Əzizim buda məni,
Yaxın gəl buda məni,
Amandı, bu nə işdi,
Saymayır bu da məni.

Əzizim olmayaydı,
Gün batıb solmayaydı.
Vəfasızlar dünyada,
Əzəldən olmayaydı.

Əzizim buda məni,
Yaxma gəl oda məni,
Bilmirəm nə etmişəm,
Salmısan oda məni.

Əzizim ağlamaqdan,
Bağa su bağlamaqdan.
Bağda xəzəl qalmadı,
Yarama bağlamaqdan.

Əzizim yaza qaldı,
Dağlar üz-üzə qaldı.
Sevgilim yenə küsdü,
Dərdimiz təzə qaldı.

Əzizim, qaranı yaz,
Ağ üstən qaranı yaz,
Hər dəftərin başına,
Mən baxtı qaranı yaz.

Əzizim binə qaldı,
El köçdü, binə qaldı,
Bir də görüşməyimiz,
Qiyamət günə qaldı.

Əzizim qazan ağlar,
Od vurar, qazan ağlar,
Bel batmaz, külüng kəsməz,
Qəbrini qazan ağlar.

Əzizim sinə-sinə,
Gir bağa sinə-sinə,
Mən həsrətdən ölərəm,
Sən baxsan özgəsinə.

Əzizim dəstə-dəstə,
Qızıl gül dəstə-dəstə.
Gül istədim, vermədin,
Gətir qoy sinəm üstə.

Əzizim güllü bağlar,
Meyvəli, güllü bağlar,
Gül bülbülün itirib,
Ağlayır güllü bağlar.

Əzizim, yanar oda,
Pərvanə yanar oda.
Dərdimi dağa desəm,
Od tutuf yanar o da.

Əzizim yar içərdən,
Kəs bağrım, yar içərdən.
Gözüm yollarda qaldı,
Girmədi yar içərdən.

Əzizim o güneylər,
O quzey, o güneylər.
Yar yarını görəndə,
Bayramı o gün eylər.

Əzizim qara gəlsin,
Zülfülərin dara gəlsin,
Məni yardan edənin,
Bayramı qara gəlsin.

Əzizim bu dağınan,
Yol gedər bu dağınan,
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağınan.

Əzizim kimə gedim?
Kimim var, kimə gedim?
Canım bir dərdə düşüb,
Dərmana kimə gedim?

Əzizim dağda nə var?
El köçüb, dağda nə var?
Dərirsən dər şamama,
Qurumuş tağda nə var?

Əzizim birdənəsən,
Təkcəsən, bir dənəsən.
Ölsəm də qoy mən ölüm,
Sən ölmə, bir dənəsən.

Əzizim sarı qaldı,
Gün getdi, sarı qaldı,
Qardaş, yol gözləməkdən,
Gözümdə sarı qaldı.

Eləmi, yenə gəlləm,
Gedərəm, yenə gəlləm.
Vətənə yolum düşsə,
İmana, dinə gəlləm.

Eləmi, keçən ağlar,
Bu yoldan keçən ağlar,
Vətəndən ayrı düşən,
Elinə köçən ağlar.

Eləmi, inci mənnən,
Dürr mənnən, inci mənnən.
Sən deyəni deməsəm
Sonra gəl inci mənnən.

Eləmi keçdi məndən,
Ox dəydi keçdi məndən,
Mərdlərə körpü oldum,
Namərdlər keçdi məndən.

Eləmi gedər qalmaz,
Axar ey gedər, qalmaz.
Vəfalıya can qurban,
Bivəfa gedər qalmaz.

Eləmi qəlbi yerdə,
Su durmaz qəlbi yerdə,
Gedirsən gəl bir gedək,
Getmirsən qal bu yerdə.

Eləmi düşmən yeri,
Atlanıb düşmən yeri.
Göz yaşım oda dönüb,
Yandırır düşmən yeri.

Eləmi, baxdı keşdi,
Su gəlib axdı keşdi.
Gizdincə yarı gördüm,
Yandırıb yaxdı keşdi.

Eləmi, bu dağınan,
El gedər bu dağınan.
Kim sana yaxşı deyər?
Mən ölsəm bu dağınan.

Eləmi, lalam qaldı,
Dərmədim, lalam qaldı.
Veran qalmış yurdumda,
Bircə cüt balam qaldı.

Eləmi düşən yeri,
Atdanıb düşən yeri.
Göz yaşım oda dönüb,
Yandırır düşən yeri.

Eləmi, tağ da yandı,
Şamamam tağda yandı.
Dalımı dağa verdim,
Od tutdu dağ da yandı.

Eləmi, daşdı dağlar,
Qayalı, daşdı dağlar.
Ayrılığa dözürsən?
Ürəyin daşdı, dağlar.

Eləmi, kimə gedim?
Kimim var, kimə gedim?
Dərddərim həddən aşıf,
Dərmana kimə gedim?!

Eləmi, qara bağlar,
Dərdlilər qara bağlar.
Eldən ayrı düşəni,
Ürəyim yara bağlar.

Eləmi bülbül düşər,
Atdanar, bülbül düşər.
Sənnən keçən günlərim,
Yadıma bir-bir düşər.

Eləmi qoşa dağlar,
Durub baş-başa dağlar.
Gəldik xəstə görməyə,
Xəstə köçüb, yurd ağlar.

Eləmi var gül bağda,
Gül bağda, bülbül bağda,
Sənsiz dözə bilmirəm,
Xəzan olsa gül bağda.

Eləmi, gözüm ağlar,
Ocağım, gözüm ağlar.
Hər dağlara baxanda,
Çəkilmir gözüm ağlar.

Eləmi düşən yeri,
Atdanıb düşən yeri.
Göz yaşım ataş oldu,
Yandırdı düşən yeri.

Eləmi, lala yalqız,
Gül qoşa, lala yalqız.
Qürvətdə can vermərəm,
Cinazım qalar yalqız.

Eləmi, gülü yansın,
Köynəyin gülü yansın.
Səni mənnən edənin,
Ağzında dili yansın.

Eləmi üzüm yandı,
Tənəkdə üzüm yandı.
Sərt baxışa tuş oldum,
Alışdı üzüm yandı.

Eləmi o gün eylər,
Qar yağar, o gün eylər.
Ana balasın görsə,
Bayramın o gün eylər.

Eləmi, ilin yansın,
Saralsın, gülün yansın.
Yara yaman qandıran,
Ağzından dilin yansın.

Mən aşiqəm, dal dala,
Sirin yaddan dal dala.
Düşmən yanıf yaxılar,
Qardaş versə dal dala.

Mən aşıq sana dağlar,
Qar yağar sana dağlar.
Tutaydım yar əlinnən,
Çıxardım sana dağlar.

Mən aşiq, üzəngini,
İtirmə üzəngini.
Tanrı canım alaydı,
Səndən əl üzən günü.

Mən aşiq dərdi məndə,
Dərmanın dərdi məndə
Mən dərd əhli deyildim
Sən qoydun dərdi məndə.

Mən aşiq qan a dağlar,
Boyandı qana dağlar.
Kəklik qonmur qayaya
Quş uçmaz, qanad ağlar.

Mən aşiq dərdi məndə,
Dərmanın dərdi məndə
Mən dərd əhli deyildim
Sən qoydun dərdi məndə.

Mən aşiqəm belə yaz,
Belə bahar, belə yaz,
Al əlinə qələmi,
Gözəli-gözələ yaz.

Mən aşıq şirin dilə,
Şirin yar, şirin dilə,
Bilmirəm necə oldu,
Bənd oldum şirin dilə.

Mən aşiqəm, yaz eylər,
Payız eylər, yaz eylər,
Gözəlin qaydasıdı,
Sevdiyinə naz eylər.

Mən aşıq Ordubada,
Yol gedir Ordubada.
Sərkərdə qoçaq olsa,
Heç verməz ordu bada.

Mən aşıq özgəsinə,
Gözüm yox özgəsində.
Yarım ağaca dönə,
Uzanam kölgəsinə.

Mən aşıq nərdivana,
Ayaq qoy nərdivana.
Yar qədrini yar bilər,
Nə bilər hər divana?

Mən aşıq, aşdı dağlar,
Çınqıllı, daşdı dağlar.
Düşməni niyə qoydun
Sərhədi aşdı, dağlar?

Mən aşıx belə bağlar,
Həsrəti gülə bağlar.
Yağış yağmaz, su düşməz,
Neynəsin belə bağlar.

Mən aşıx daşa dağlar,
Durub baş-başa dağlar.
Tərlan könlüm qonubdu,
Bir yaşılbaşa, dağlar.

Mən aşıx, keşdi mənnən,
Ox dəydi, keşdi mənnən.
Yaxcıya körpü oldum,
Yamannar keşdi mənnən.

Mən aşığam hər aylar,
Hər ulduzdar, hər aylar.
Özümüz qürbətdəyik,
Dilimiz yurd haraylar.

Mən aşıx gül üsdünə,
Şeh düşüb gül üsdünə.
Qızdarda insaf hanı?
Dərd qoyur dərd üstünə.

Mən aşıx, bir ay var,
Bir ulduz var, bir ay var.
Gündə gördüyüm yarı,
Görmədiyim bir ay var.

Mən aşıqəm buz bağlar,
Buz bağçalar, buz bağlar,
Qızmar günəş altında,
O nədir ki, buz bağlar?

Mən aşıx, dalda sına,
Qonşunu dalda sına.
Müxənnətə güvənif,
Sığınma daldasına.

Mən aşıx suda yanar,
Sel axar, su dayanar.
Dərdimdən halı olsa,
Alışar su sa yanar.

Mən aşığam dal-dala,
Qaç özünü daldala.
Cüt igid ordu basar,
Əyər dursa dal-dala.

Mən aşıx, ulu dağlar,
Bulaxlı, sulu dağlar.
Eli köçmüş divinnən,
Başında bulud ağlar.

Mən aşıx, vətən sarı,
Köynəyi kətan sarı.
Gəzməyə qürbət ölkə,
Ölməyə vətən sarı.

Mən aşıx, günü günə,
Gün verməz günü günə.
Keçən günə gün çatmaz,
Bağlasan günü günə.

Mən aşıqəm, vay dərdim,
Vay dərmanım, vay dərdim.
Xalx gül əhdi, gül bişdi,
Mən gül əhdim, vay dərdim.

Mən aşıx, oyan gül,
Dərdə, qəmə boyan, gül.
Tez açıldın, tez soldun,
Məni yalqız qoyan gül.

Mən aşığam o xannan,
O sultannan, o xannan.
Bir dəstə gül oleydım,
Asıleydim yaxannan.

Mən aşıx meylim sənə,
Düşübdü meylim sənə.
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən, neynim sənə?

Mən aşığam, yaz bağda,
Bülbül bağda, yaz bağda.
Yara mehman oleydim,
Qış otaxda, yaz bağda.

Mən aşıx dərdə Kərəm,
Düşübdü dərdə Kərəm.
Qoşaram qəm cütünü,
Özümçün dərd əkərəm.

Mən aşığam gülən az,
Bülbül eylər gülə naz.
Fələh bir iş işdətdi,
Ağlayan çox, gülən az.

Mən aşıx qoşa dağlar,
Verib baş-başa dağlar.
Səni də mənim kimi,
Dönəsən daşa, dağlar.

Mən aşıx qarğamışa,
Qar yağıb qarğamışa.
Yüz min duaçı neynəsin?
Bir fələh qarğamışa.

Mən aşiq göy dəhanı,
Qaraxaç, Göydağ hanı?
Lələ bir bostan əkib,
İçində göy tağ hanı?

Mən aşıq ağa dostum,
Sallan gəl bağa, dostum.
Göydə bulud oyandı,
Qorxuram yağa, dostum.

Mən aşiqəm Sallıya,
Yarım zülfün sallıyı.
Anama qurban olum,
Nişan taxdı Ballıya.

Mən aşiqəm daş-daşı,
Çaxçax döyər ha daşı.
Namərdlə plov yemə,
Get mərdlə daş daşı.

Mən aşıq ağam, gəl,
Ölməmişəm, sağam gəl.
Qolumda qəm zəncirim,
Yolunda dustağam, gəl.

Mən aşiq, Arxaşana,
Yol gedir Arxaşana.
Yüküm yolda töküldü,
Çatmadım arx aşana.

Mən aşiqəm sarısın,
Yar yaramı sarısın.
Yaddar yara sarımaz,
Anama di, sarısın.

Mən aşıq qoşa dağlar,
Yaxın, baş-başa dağlar,
Sizlərdə yar itirdim,
Dönəsiz daşa, dağlar.

Mən aşiqəm qalasız,
Şəhər olmaz qalasız.
Mənki gedərgi oldum,
Sağlıq ilə qalasız.

Mən aşiq yana canım,
Od tutub yana canım,
Özümə nə idim ki,
Sənə də yana canım.

Mən aşiq yerdə məni,
Salmayın dərdə məni,
Namərdə qul olmaram,
Qurban kəs, mərdə məni.

Mən aşiqəm hər aylar,
Keçdi illər, hər aylar,
Namərddə aman olmaz,
Dilim mərdi haraylar.

Mən aşiq yasdı dağlar
Çən gəldi basdı dağlar,
Doqquz ay kef-damaxdı,
Üç ayı yasdı dağlar.

Mən aşiq bağda dara,
Aç zülfün bağda dara,
Ay insafsız, üstündə,
Çəkilləm, bağda dara.

Mən aşiq gülə-gülə,
Gül əkdim gülə-gülə,
Namərdə bel bağladım,
Ağlatdı gülə-gülə.

Mən aşiqəm haraylar,
Var çeşmələr, saraylar,
Başım cəllad əlində,
Dilim səni haraylar.

Mən aşiq qalam qaldı,
Biçmədim, talam qaldı,
Sizdə mənim, a dağlar,
Alagöz balam qaldı.

Mən aşiq yasəməni,
Açıfdır ya səməni.
Fələyə neyləmişdim,
Batırdı yasa məni.

Mən aşiq, qəm çiləndi,
Səməndim qəmçiləndi.
Mənim viran könlümə,
Dərd yağdı, qəm çiləndi.

Mən aşıq dalda yeri,
Dalda dur, dalda yeri.
İki könül bir olsa,
Tez tapar dalda yeri.

Mən aşiq gülə-gülə,
Gül əkdim gülə-gülə.
Canımı elə al ki,
Üzümə gülə-gülə.

Mən aşiqəm qalasız,
Şəhər olmaz qalasız.
Qürbətə teylənirəm.
Siz salamat qalasız.

Mən aşiq nərdivana,
Ayaq qoy nərdivana.
Qədrimi hardan bilər?
Hər nadan, hər divana.

Mən aşıq yay işin gör,
Qış gəldi, yay işin gör,
Özü kamil ustanın,
Ya özün, ya işin gör.

Mən aşıq oda yandı,
Yar yarsız oda yandı,
Ayrıldı qəm dalınca
Mən getdim, o oyandı.

Mən aşıq tikan gülə,
Sarmaşıb tikan gülə,
Gör neçə göz dikilib,
Mən gözüm dikən gülə.

Mən aşıq dolu gözlər,
Yaxdıqca dolu gözlər,
Yıxıb dədəm evini,
Səndəki dolu gözlər.

Mən aşiq dalda yeri,
Yer tutmaz dalda yeri.
İki könül bir olsa
Tez tapar dalda yeri.

Bu dağlara yol gedər,
Yağış yağar, sel gedər.
El-elə söykənməsə,
Yurd dağılar, el gedər.

Bu yol karvansız olmaz,
Dəvə sarvansız olmaz.
Gedək həkim yanına
Həkim dərmansız olmaz.

Bu yerrərin üzümü,
Yolda qoydun gözümü.
Ya rəbb, mana Aman ver,
Yara deyim sözümü.

Bu gəlin saşdı gəlin,
Divardan aşdı gəlin.
Bu gəlinə nə gəldi,
Evindən qaşdı gəlin?

Bu dağlar ulu dağlar,
Çeşməsi sulu dağlar,
Burda bir qərib ölüb,
Göy kişnər bulud ağlar.

Bu dağlar, yasdı dağlar,
El gəldi basdı dağlar.
Üç ay toylu-bayramlı,
Doqquz ay yasdı dağlar.

Bu qaya qəlbi qaya,
Kölgəsi düşər çaya.
Özünü yetir, a qardaş,
Adda çayı bu taya.

Bu yol gedir Çalxana,
Çalxan yolu qəmxana.
Erməni hücüm etdi,
Dağıldı Gümüşxana.

Bu dağdan asmaq olmaz,
Qızıldan başmaq olmaz.
Fələk elə fələkdi
Əlindən qaçmaq olmaz.

Bu dağların başı qar,
Torpağı qar, daşı qar.
Bu odlanan könlümü,
Söndürməyə daşı qar.

Bu dağlar, Kərəm dağlar,
Gülün yox dərəm, dağlar.
Gözlərəm, sən gəlməsən,
Ürəyim verəm bağlar.

Arpaçayı axır hey,
Göydə şimşək caxır hey.
Gözdədim yar gəlmədi,
Gözüm yola baxır hey.

Dağ başında qar idim,
İgid idim, ər idim.
Sənə rast gələn günnən
Paralandım, əridim.

Dağdan gələn sudumu?
Daş-torpağı yudumu?
Vədə verdim gəlmədin,
Etibarın budurmu?

Ay qız, sənə vuruldum,
Sular kimi duruldum.
Yollar üstə durmaxdan,
Yorğun düşüb yoruldum.

Saçın ucun hörməzdər,
Səni mənə verməzdər.
Qoy öpüm ağ üzünnən,
Qarannıxdı görməzlər.

Qızılgülün qoxusu,
Qoy tikanın qorxusu.
Yarım yaman bərk yatıf,
Şirin olsun yuxusu.

Göydə ulduz əllidi,
Əllisi də bəllidi.
Bizim elin qızdarı,
İsmətinnən bəllidi.

Dağa gələn sürüdü,
Dağı duman bürüdü.
Sənnən mana yar olmaz,
Cavan canım çürüdü

Kəmər belə yaxşıdı,
Darax telə yaxşıdı.
Çox yalvardım fələyə,
Dedi, belə yaxşıdı.

Göydə bulud oynadı,
Göz dünyadan doymadı,
Çox murazın varıydı,
Qannı fələk qoymadı.

Araza gəmi gəldi,
Gəmiynən şamı gəldi.
Ağla, gözdərim, ağla,
Ayrılıq dəmi gəldi.

Arxalığın şaldı, yar,
Dərdin məni aldı yar.
İkimizin görüşü,
Qiyamata qaldı, yar.

Kəklik gördüm qayada,
Yumurtası tayada.
İgid ona demişəm,
Öpə, yarın oyada.

Gedirsən, yolun olum,
Yolda qurbanın olum.
Altdan zərri köynəyin,
Üstünnən donun olum.

Dağ başını qar aldı,
Güllər soldu, saraldı.
Köc etdi el karvanı,
Vətən qürbətdə qaldı.

Aşıx, yaza nə qaldı?
Söhbət-sözə nə qaldı?
Taxsır qələmdə deyil,
Mürvət yazana qaldı.

Qızıl gülsən, təzəsən,
Əçəf, şirin məzəsən.
O günə qurban olum,
Bizim evə gələsən.

Ay doğdu, üzə düşdü,
Qara zülf üzə düşdü.
Fələyin carxı döndü,
Ayrılıx bizə düşdü.

Aşıx gəlir sazı var,
Qəmzəsi var, nazı var.
Hər payızın bir qışı,
Hər qışın bir yazı var.

Sən məni ağlar qoydun,
Yoxdu əlacı, dərdi.
Getdi şirin söhbəti,
Qaldı bir ajı dərdi.

Ox ayrı, kaman ayrı,
Dağ ayrı, duman ayrı.
Düşüf qürvət ellərə,
Qalmışam yaman ayrı.

Qızılgül heşəm oldu,
Dərmədim, heşan oldu.
Mən ağlamaq bilməzdim,
Ağlamax peşəm oldu.

Bulaxbaşı buz bağlar,
Dörd yanı yarpız bağlar.
Köhnə yaram qövr elər,
Təzə yaram göz bağlar.

Qış gəlsə gün olarmı,
Qışda çiskin olarmı,
Ağla gözlərim, ağla,
Bundan pis gün olarmı.

Gedirəm ölkə sənnən
Qorxuram yol kəsənnən.
Nə gördüm, nə götürdüm,
Viranə ölkə sənnən.

Arazı keçəndə var,
Suyundan içəndə var.
O qədər qardaş deyib
Ürəyi keçən də var.

Bülbül ucar bağ üstə,
Şamamalar tağ üstə.
Nə qaydadı fələkdə?
Dağı cəkər dağ üstə.

Aşıq yaza nə qaldı,
Sındı saza nə qaldı,
Ülkər yana sallanıb,
Çıx gör yaza nə qaldı.

Xırmanda sarı taya,
Kölgəsi keçdi çaya,
Cəfa cəkdim can üzdüm,
Əməyim getdi zaya,

Dağ başında ala qar,
Ala çiçək, ala qar.
Hər yana qar yağmışdı,
Yağmamışdı belə qar.

Cənnətin küçələri,
Bannaşır beçələri.
Mən necə yalqız yatım
Bu uzun gecələri.

Qayanın qaşı mənəm,
Cınqılı, daşı mənəm.
Qəriblikdə qalanın,
Gözünün yaşı mənəm.

Qaşının qarasına,
Xal düşüb arasına,
Məni dəstə gül eylə,
Qoy sinən arasına.

Dağlarda qar olaydı,
Don vurub xar olaydı,
Dil bilən söz anlayan,
Bir nazlı yar olaydı.

Qoy məni el ağlasın,
El yusun, el ağlasın,
Qəbrimi qardaş qazsın
Çiynində bel ağlasın.

Aman fələk, dad fələk,
Olma səni şad fələk,
Verdiyin o şərbətdən,
Özün də bir dad fələk.

Analar yanar ağlar,
Günləri sanar ağlar,
Dönər göy göyərçinə,
Yollara qonar ağlar.

Könlüm ana istəyir,
Yana-yana istəyir,
Ürəyim boşaltmağa
Xəlvət xana istəyir.

Bağça məndə, bar məndə,
Heyva məndə, nar məndə,
Sinəm əttar dükanı,
Hər nə desən, var məndə.

Araza gəmi gəldi,
Gün aşdı, gəmi gəldi,
Kor olsun qoy gözlərim,
Ayrılıq dəmi gəldi.

İki quyu yan-yana,
Əlimə yaxdım həna,
Sənə süd verən ana,
Mənə olsun qaynana.

Qəribəm yoxdu arxam,
Qanadım yoxdu qalxam,
Çıxam qəlbi dağlara,
Vətənə doğru baxam.

Xırmanda qurdum taya,
Kölgəsi düşdü çaya,
Cəfa cəkdim, can üzdüm,
Əməyim getdi zaya.

Məktubun gəl apar,
İtirmə düşmən tapar,
Məndən yaxşısını tapsan,
Məni ona qul apar.

Qərənfil qutudadı,
Xumar göz yuxudadı,
Qəm yemə dəli könlüm,
Mətləb verən xudadı.

Su axar lilləndirər,
Baxçanı gülləndirər,
Dərdliyə söz deməyin,
Dərd özü dilləndirər.

Yetiməm atam yoxdu,
Qəribəm butam yoxdu,
Düşdüm qəm dəryasına,
Qolumdan tutan yoxdu.

Qızıl gül dən-dən oldu,
Dərmədim dən-dən oldu,
Mən səndən ayrılmazdım,
Ayrılıq səndən oldu.

Teşt altında dələmə,
Qaşın bənzər qələmə,
Mən səni gizli sevdim,
Neyçin dedin aləmə.

Qızıl gülü dərərlər,
Pünhan yerə sərərlər,
Xeyri olsun o qızın,
Sevdiyinə verərlər.

Gülüm, gülə neyləyim,
Gül xidmət eylərəm,
Öz gülümü versələr,
Özgə gülü neylərəm.

Belə ağlamaq olmaz,
Sinə dağlamaq olmaz,
Əhdə vəfasız yara
Ürək bağlamaq olmaz.

Araz axar lilinən,
Dörd bir yanır gülünən,
Qismət ola danışam,
Uzaq düşən elinən.

Ay qız məni bəndə vur,
Zülfündə kəməndə vur,
Yaxşı olsam qul eylə,
Yaman olsam bəndə vur.

Ulduz gəlin ay gəlin,
Olmaz sənə tay gəlin,
Qardaşımın toyudu,
Nazik yuxa yay, gəlin.

Gecə uzun ay batmaz,
Dərdlilər gecə yatmaz,
Sənin kimi gözəli,
Xudam bir də yaratmaz.

Bənövşəyəm tutaram,
Kol dibində bitərəm,
Gözləyərəm gəlməzsən,
Boynu əyri bitərəm.

Dağlar dağladı məni,
Zülfün bağladı məni,
Mərd yolunda can qoydum,
Ellər ağladı məni.

Bağa girdim bağbansız,
Dəvə gördüm sərvansız,
Aləmə dərman oldum,
Mən ölürəm dərmansız.

Ceyran çölə bir də gəl,
Ördək gölə bir də gəl,
And verirəm allaha,
Qayıd elə bir də gəl.

Bu yoldan aşmaq olmaz,
Qızıldan başmaq olmaz,
Küsdürmüsən küsmüşəm,
Daha barışmaq olmaz.

Dağların başı sənsən,
Dibinin daşı sənsən,
Dünya cənnətə dönsə,
Hamının başı sənsən.

Araz axar çöllərə,
Səsi düşər göllərə,
Dərdimi gizli dedim,
Hardan düşdü dillərə.

Dağlar, a xanı dağlar,
Gördüm vəfanı dağlar,
Bir tərlan itirmişəm ,
Gəzirəm onu dağlar.

Aşıq başına bağlar,
Şalın başına bağlar,
Öldü bülbül, soldu gül,
Qaldı başına dağlar.

Başı bəlalı canım,
Gölü qaralı canım,
Bostanım dolu döymüş,
Tağı yaralı canım.

İstəkanın yarısı,
İçdim qaldı yarısı,
Ay qız insafdan çıxma,
İnsaf dinin yarısı.

Dağların döşünə bax,
Qar yağdı başına bax,
Sevdim özgə apardı,
Fələyin işinə bax.

Sözü sözdən alan var,
Zülfün üzə salan var,
Gedən oğlan tez qayıt,
Gözü yolda qalan var.

Dağların qarı mənəm,
Gün düşsə ərimərəm,
Qəbrim quzeydə olsa,
Cavanam çürümərəm.

Dünyada şirin nə var,
Yeməyə şirin nə var.
Gəzdim dünyanı gəldim,
Baladan şirin nə var.

Xırmanda şana qaldı,
Sancıldı şana qaldı,
Yarımın al dəsmalı,
Məndə nişana qaldı.

Arxalığın dizdən yar,
Gəl qapıdan gizdən, yar.
Kimlər sənə nə dedi,
Bizdən ayaq kəsdin, yar?

Arazam, lilə bəndəm,
Bülbüləm, gülə bəndəm,
Mən burda bənd olmazdım,
Bir şirin dilə bəndəm.

Dam üstə yatan oğlan,
Qan-tərə batan oğlan.
Nişanlın apardılar,
Bixəbər yatan oğlan.

Ələyəzin ucundan,
Bir nar aldım xurcundan
Doğma oğul yad olub,
Yad qızının ucundan.

Ay batdı, qaş qaraldı,
Didəmdə yaş qaraldı,
Dərdimi deyə-deyə,
Dağ yandı, daş qaraldı.

Bulaqda daş olaydım,
Daşla sirdaş olaydım,
Suya gedən qızlara
Hər gün yoldaş olaydım.

Xırmanda Sarı taya,
Yel tökdü saldı çaya,
Cəfa çəkdim yar sevdim,
Əməyim getdi zaya.

Arazı ayırdılar,
Qumundan ayırdılar,
Mənim nə vədəm idi,
Anamdan ayırdılar.

Araz, Araz, xan Araz
Kükrəyib qalxan Araz.
Yarım səndən keçəcək.
Astaca çalxan, Araz.

Dağları gəzib gəldim,
Daşları düzüb gəldim,
Çox axtardım, tapmadım,
Əlimi üzüb gəldim.

Apardı çaylar məni,
Həftələr, aylar məni.
Yüküm ayrılıq yükü,
Yordu bu taylar məni.

Arazım ağlar qaldı,
Yerində dağlar qaldı,
Burda bir qərib öldü,
Anası ağlar qaldı.

Əlimdə saza yanım,
Etdiyin naza yanım.
Baş qoyum dizin üstə
Qış yatım, yaz oyanım.

Qızılgül oyum-oyum,
Yara bərabər boyum.
Yağış yağar yer doymaz
Mən yardan necə doyum.

Dağlar dağımdı mənim,
Qəm ortağımdı mənim.
Dindirsən qan ağlaram
Yaman çağımdı mənim.

Əkini əkən bilər,
Belini bükən bilər.
Ayrılıq yaman şeydi
Göz yaşı tökən bilər.

Sona göldə bir üzdü,
Bir çalxandı, bir üzdü.
Üzün qoy üzüm üstə,
Görən desin bir üzdü.

Araz aşanda bilər,
Qumu qarışanda bilər.
Yar yarının qədrini
Ayrı düşəndə bilər.

Köynəyin gülü yansın,
Od tutsun, gülü yansın.
Səni mənnən edənin
Ağzında dili yansın.

Çayda balıx yan gedər,
Aşma yaram, qan gedər.
Həsrət çəkən gözdərim,
Səni gözdər, can gedər.

O yana, hay bu yana,
Gül yasdığı dayana.
Oxu bülbülüm, oxu,
Bəlkə balam oyana.

Gedirəm ölkə sənnən,
Qorxuram yol kəsənnən.
Gedirəm gəl danışax,
Ayrıldım bəlkə sənnən.

Qızılgül dən-dən oldu,
Dəymədi dən-dən oldu.
Elimnən ayrılmazdım,
Ayrılıx sənnən oldu.

Bağa girdim bağbansız,
Dəvə gördüm karvansız.
Aləmə dərman verdim,
Balam keşdi dərmansız.

Dağları gəzdim gəldim,
Daşdarı düzdüm gəldim.
Getmişdim yar yanına,
Umudum üzdüm gəldim.

Ay doğdu, bəyaz oldu,
Su axdı, dayaz oldu.
Yolunu gözdəməkdən
Saşdarım bəyaz oldu.

Dağlar, necə dağlarsan?
Məni görcəh ağlarsan.
Sinəmdə yer qalmadı,
Sən haramı dağlarsan?

Su gələr, axar gedər,
Yar gələr, baxar gedər.
Oğlan elçi göndərər,
Nişanı taxar gedər.

Arazı ayırdılar,
Qan ilə doyurdular.
Biz yurddan ayrılmazdıq,
Zorunan ayırdılar.

Ürəyimdə yara var,
Üzdə xal-xal qara var.
Aç ürəyim başını,
Gör yanmamış hara var?

Ələmiş aylar məni,
Həftələr, aylar məni.
Yüküm qurğuşun yükü,
Yordu bu taylar məni.

Qərənfiləm, dəstəyəm,
Bülbüləm, qəfəsdəyəm.
Deyillər ki, ölübdü,
Ölməmişəm, xəstəyəm.

Bənövşəyəm itərəm,
Kol dibində bitərəm.
Bilsəm gəldiyin yolu,
Gözüm ora dikərəm.

Qızılgülü seçəllər,
Budağınnan biçəllər.
Vəfalı yar yolunda
Cannan-başdan keçəllər.

Kəklih başda nə gəzir?
Qələm qaşda nə gəzir?
Yurdu əldən gedənin,
Ağlı başda nə gəzir?

Dağlar başı dumandı,
Mənim halım yamandı.
Qardaşım duyux düşüb,
Oğlan, gəlmə, amandı.

Ələyəz ələmidi,
Dörd yanı qələmlidi.
Əlyəzə qız verənin,
Ürəyi verəmlidi.

Yağaram yağış kimi,
Əsərəm qamış kimi.
Könlüm səni isdiyir,
Təzəcə yemiş kimi.

Göydə bulud yan gedir,
Aşma yaram, qan gedir.
Al yorğanı üstümnən,
Əcəl gəlib, can gedir.

Mən aşıx gözdə qara,
Sürmə çəh gözdə qara.
Yollarına baxmaqdan,
Qalmadı gözdə qara.

Selimin gədihləri,
Heyvandır yedihləri.
Əğyar, sən deyən olmaz,
Düzdü yar dedihləri.

Araz üstə milçəyəm,
Yel, əsmə, köynəhçəyəm,
Aləmə çirkin olsam,
Öz yarıma göyçəyəm.

Akuşkada boyağam,
Yatmamışam, oyağam.
Nə qaş-qabaq tökürsən?
Mən gedərgi qonağam.

Ağ almanı dişlədim,
Dişlədim, gümüşlədim.
Qardaş gəldi, qıymadım,
Yar gəldi bağışladım.

Su atdım yara dəydi,
Əlim divara dəydi.
Dilim-ağzım qurusun,
Nə dedim yara dəydi?

Gözlərin, sini gözlər,
Tar çalan simi gözlər.
Qaşın kimi qaş olmaz,
Gözlərin kimi gözlər?

Ay lilparlı bulaxlar,
Üstü qarrı bulaxlar.
Yarım sizdən su içif,
Etibarrı bulaxlar.

Kəkliyim səkər gedər,
Tükünü tökər gedər.
İki könül bir olsa,
Dağları sökər gedər.

Qaya başında çaşır,
Qolun boynumnan aşır.
Qolundakı bilərzik,
Kəkilimə dolaşır.

Əzzinəm kimə yazım,
Kimim var, kimə yazım.
Dərdbilməzin əlindən,
Dərmənı kimə yazım.

Dağlara dolu düşdü,
Qar yağdı, dolu düşdü.
Fələk bir balta vurdu,
Qəribin qolu düşdü.

Qoy gedim yurda məni,
Tapşırma qurda məni.
Yuvasız bir bəndəyəm,
Öldürmə burda məni.

Dağ başı qala yeri,
Gəz, dolan qala yeri.
Yüz candan yanan olsa,
Heç verməz ana yeri.

Aşıx deyər o yar da,
Bayqu oldu o yar da.
Çox yar gördüm, ötürdüm,
Gözüm qaldı o yarda.

Dərdə düşüm, bilən yox,
Göz yaşımı silən yox.
Hamı təskinlik verir,
Çarəsini bilən yox.

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz,
Qəriblikdə qalanın
Ürəyində yağ olmaz.

Kəhlik daşda nə gəzər?
Səkər, daşda nə gəzər?
Gəlin bajısı ölənin,
Ağlı başda nə gəzər?

Ölürəm, üstümə gəl,
Yanıram. Tüstümə gəl.
Dərdinnən xəstəyəm mən,
Loğmansan üstümə gəl.

Obada xəstə mənəm,
Dərdi dərd üstə mənəm.
Gözdəri yol yorğunu,
Qulağı səstə mənəm.

Ay doğdu, düzə düşdü,
Qıvrım tel üzə düşdü.
Fələh bir iş eylədi,
Ayrılıq bizə düşdü.

Baxçada xəzələ bax,
O duran gözələ bax.
Öz yarını itirib,
Divanə gəzənə bax.

Dağlarda lalə yalqız,
Gül qoşa, lalə yalqız.
Qorxuram qərib öləm,
Qəbrim də qala yalqız.

Nərgizdər, ay nərgizdər,
Kolda bitər nərgizdər.
Sənin kimi balanı,
Torpax örtər, yer gizdər.

Gəl gedəh, daş. Bulağa,
Suyu sərxoş bulağa.
Birin sən de, birini mən,
Tökər qan-yaş bulağa.

Aşıx yazana qaldı,
Xalın yazana qaldı.
Ülkər yana sallandı,
Görən yaza nə qaldı?

Dağlar dağımdı mənim,
Gül yarpağımdı mənim.
Dindirmə qan ağlaram,
Yaman çağımdı mənim.

Dağlara göz ələnsin,
Qar yağsın, köz ələnsin.
Nə gözüm səni görsün,
Nə dərdim təzələnsin.

Qardaşım gəl, qalam gəl,
Ərşə çıxıf nalam gəl.
Uçufdu baş kərpicim,
Dağılıfdı qalam, gəl.

Dağlar, mənə qar göndər,
Əsirgəmə, var göndər.
Əl dəyməmiş dəsmalda,
Gün görməmiş qar göndər.

Dağların qarı mənəm,
Gün vursa əriмənəm.
Qəbrimi yolüstə qaz.
Cavanam, çürümənəm.

Dağlarda maral azdı,
Ovçu çox, maral azdı.
Ağlama, maral gözdü,
Ölmərəm, yaram azdı.

Apardı tatar məni,
Qul eylər satar məni.
Vəfalı yarım olsa,
Axtarar, tapar məni.

Dağları keçdim gəldim,
Daşdarı düzdüm gəldim.
Səni vəfasız gördüm,
Əlimi üzdüm gəldim.

Qarabağda talan var,
Zülfün üzə salan var.
Sən getdin, çox əylədin,
Gözü yolda qalan var.

Tut ağacı dəyiləm.
Hər gələnə əyiləm.
Əyil üzünnən öpüm,
Mən özgəsi dəyiləm.

Gecələr gecə keşdi,
Bilmirəm necə keşdi.
Mənimki ah- vayınan,
Səninki necə keşdi?

Dağlar marala qaldı.
Otu sarala qaldı.
Soyux bulax, göy çəmən,
O da marala qaldı.

El getdi, binə qaldı,
Binə nə günə qaldı?
Sənnən mənim görüşüm,
Qiyamat günə qaldı.

Kababım közə düşdü,
El köçdü, düzə düşdü.
Vətən dərdi yuxumuz,
Ayrılıq bizə düşdü.

Ay bulaq, Xırrı bulaq,
Ətrafı nurru bulaq.
Sənin suyun içənnər,
Söyləyir dürrü bulaq.

Dərə yurdun alçası,
Çırannının taxçası,
Kotan yurddan gün çıxdı.
İşıqlandı novçası.

Kotannının yoluyam,
"Dəli tərə" qumuyam.
Məni pirə yetirin,
Qolu bağlı quluyam.

Arpa axar Araza,
Araz yanı yar aza.
Xudadan arzum budu,
Qızlar çatsın muraza.

Düyümüz Çindən gəlir,
Çinü-Maçindən gəlir.
Kəndimizə şoş yolu
Terpin içindən gəlir.

Yazda axar bol bulaq,
Axdıqca ha bol, bulaq.
Bulaqların tacıdı,
Soyuq bulaq, Bol bulaq.

Tarpın yolu döngədi,
Yoxuşdu, həm döngədi.
Sənə qurban dediyim,
Üçilik bir cöngədi.

Çay kənd üstü Marağa,
Balıq gələr mağağa.
Allah elə qarğadı,
Telim gəlmir darağa.

Terpin yolu hamardı,
Suyu dammar-damardı.
Məni bu dərdə salan
Terpli qızı Qəmərdi.

Sən getdin, yazın qaldı,
Yadda avazın qaldı.
Bir «xrom» çəkmələrin,
Bir Telli sazın qaldı.

Fələk döydü daş ilə,
Gözüm doldu yaş ilə
Tanrı da bir demədi,
Yavaş vur, yavaş elə.

Bağında üzüm qara,
Yeməyə üzüm qara.
İstərəm dosta varam,
Əlim boş üzüm qara.

Əlimdə nar bəzərəm,
Narı hamar bəzərəm,
Ağır elin qızıyam,
Qəriblikdə gəzərəm.

Araz meşəli yerdə,
Gül bənövşəli yerdə.
Ovçu, qolun qurusun.
Qaldım döşəli yerdə.

Qocaların piriyəm,
Arğalının biriyəm.
Quruyub qalıb ganım,
Görən deyər diriyəm.

Köynəyi ağ saxlaram,
Yuduqca ağ saxlaram.
Bir də qonağım olsan,
Yüz il qonaq saxlaram.

Göydə ulduz üç keçdi,
Cavan ömrüm puç keçdi.
Fələk, gəl isbat eylə,
Hansı günüm xoş keşdi?

Bazara gəmi gəldi,
Gəmilər hamı gəldi.
Gəl bir də halallaşaq,
Ayrılıq dəmi gəldi.

Aşıq qara düşübdü,
Xalın qara düşübdü,
Yayın orta ayında
Gözüm qara düşübdü.

Dan yeri söküləndə,
Zülf üzə tökülәndə,
Şeh düşmüş gülə bənzər,
Ağ üzdən öpüləndə.

Payım gəldi Zirəkdən,
Zirəkdən, həm Biləkdən.
Allah səni saxlasın.
Qızılca və çiçəkdən.

Göy dağın bulaqları,
Göy bitib qıraqları.
Köçübdü majğalları
Tək qalıb hodaxları.

Qardaş, yolun pusaram,
Gec gələrsən, küsərəm,
Qardaş bir soyuq bulaq,
Yandı bağrım susaram.

Göy dağın qarı var,
Dərəsinin darı var.
Mənə bivəfa demə,
Kimin belə yarı var?

Yar gəldi bu diyara,
Könlümə etdi çara.
Gözəl bir qız görmüşəm
Ay camallı, göz qara.

Sənək suyu sərindi,
Dəniz dibi dərindi.
Sevmədiyin qızların
Hər biri bir gəlindi.

Göydə bulud olaydım,
Boşalaydım, dolaydım.
Yarım qonax gələndə
Yanında mən qalaydım.

Vedinin yanı dağlar,
Ürəyi, canı dağlar.
Burda bir el var idi,
Siz deyin, hanı dağlar?

Bənövşəyəm bitərəm,
Kol dibində itərəm,
Gözlərəm gəlməyirsən,
Boynum əyri tutaram.

Qaladan endirdilər,
Endirib dindirdilər,
Ölməyə könlüm yoxdu,
Zülm ilə öldürdülər.

Dağ ayrı ,duman ayrı,
Qaş ayrı, kaman ayrı.
Tez ayrıldıq, tez solduq,
Düşdük bir zaman ayrı.

Dağlarda gəzən mənəm,
Əhdim var, bəzənmənəm,
Ürəyim yaralıdır,
Bu dərdə dözəmmənəm.

Gözlərin şuxdu sənin,
Kipriyin oxdu sənin.
Dərdin məni öldürür,
Xəbərin yoxdu sənin.

Aşıq sinədən gələr,
Xalın sinədən gələr,
Kimin dərdi çox olsa,
Ahı sinədən gələr.

Dəryada zəmin qaldı,
Biçmədim zəmin qaldı.
Arzun gözündə qalsın,
Elə ki mənim qaldı.

Araza gəmi gəldi,
Sanadım hamı gəldi,
Evin yıxılsın, fələk,
Ayrılıq dəmi gəldi.

Dağları gəzdim gəldim
Güllərin əzdim, gəldim,
Yarı beyvəfa gördüm,
Əlimi üzdüm, gəldim.

Dağları dələrəm mən.
Torpağı ələrəm mən,
Belə ki dərd vermisəm,
İnanma gülərəm mən.

Sözün demə aşkara,
Dərdə tapılmaz çara,
Dindirmə, qan ağlaram,
Ürəyimdə var yara.

Qalmadı azan yerdə,
Qəbrimi qazan yerdə,
Görüm qələmin sınsın,
Yazımı yazan yerdə.

Arxalığı bir üzdü,
Bir astardı, bir üzdü,
Üzün qoy üzüm üstə,
Görən desin bir üzdü.

Bulaq başı buz bağlar,
Dörd yanı yarpız bağlar.
Güllə dəyən oğlanın,
Yarasını qız bağlar.

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qürbət eldə qalanın,
Ürəyində yağ olmaz.

Bu dağdan aşmaq olmaz,
Qızıldan başmaq olmaz,
Fələk elə fələkdi.
Əlindən qaçmaq olmaz.

Canımı aldı fələk,
Dərdlərə saldı fələk,
Bağda bir nar yetirdim
Onu da saldı fələk.

Bağçada barın qala,
Heyva yox, narın qala,
Qiyamət o gün qopar,
Öləsən, yarın qala.

Keçməyir sözüm neylim?
Bu dərdə dözüm neylim?
Ah çəksəm, aləm yanar,
Çəkməsəm, özüm neylim?

Dağları gəzdim gəldim,
Daşını düzdüm gəldim,
Baxdım viranə kəndə,
Əlimi üzdüm gəldim.

Ahular mələr gələr,
Dağları dələr gələr,
Yar yarını istəsə,
Gejəni dələr gələr.

Araza gəmi gəldi,
Gəmilər hamı gəldi.
Daldada ağla gözüm,
Ayrılıq dəmi gəldi

Gecələr gecə keçdi,
Bilmədim necə keçdi.
Mənimki ah-vay oldu,
Səninki necə keçdi?!

Qarşımızda vay dərdim,
Vay dərmanım, vay dərdim.
Dərya mürəkkəb olsa,
Yaza bilməz vay dərdim.

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Göy yaylaq, sərin bulaq,
Yanmış marala qaldı.

Allah məni quş eylə,
Budağa qonmuş eylə,
Dar yerdə, dar küçədə,
Yarı mənə tuş eylə.

Gülü əkdim ləyəndə,
Gül boynunu əyəndə,
Qoşa qurban kəsərəm,
Yarım bizə dəyəndə.

Arazın qırağıynan,
Yol gedir qırağıynan.
İtirmişəm yarımı,
Gəzmirəm sorağıynan.

Qızıl gül həşəm oldu,
Dərmədim həşəm oldu,
Mən səndən ayrılanı,
Ağlamaq peşəm oldu.

# MÜXTƏLİF BAYATILAR

## *Dərələyəzlə bağlı şair Zəlimxan Yaqubun bayatıları*

Tapıb bir bəla göllər,
Qəmginmi Alagöllər?
Üstə çən-duman çöküb
Bürünüb şala göllər.

Xeyrimizə şər dəydi,
Qəddimizi dərd əydi.
Əyilməzdi Əyricə,
Əyricəni dərd əydi.

Dağ üstündə dağ idi,
Soğanlı yaylaq idi.
Gülləri balla, qaymaq,
Çiçəkləri yağ idi.

Dağ kimi duran ola,
Toy-büsat quran ola.
Yayda arxam, həmdəmin
Təkədonduran ola.

Arpaçay aşıb-daşar,
Bulaqlar sızıldaşar.
Dərələyəz deyəndə
Huş gedər, ağlım çaşar.

Hanı Başgözəldərə,
Gözə qaş Gözəldərə.
Vers dağı kirpikdə nəm,
Gözdə yaş Gözəldərə.

Bu qaya Qaraqaya,
Baş əydi sara qaya.
Xocalı kül olandan
Bağrımda yara qaya.

İş gəlib işdən keçib,
Şisqaya şişdən keçib.
Mənə dəyən yaranın,
Fəndi keşişdən keçib.

Yas yası baxta düzdü,
Zamana, vaxta düzdü.
Göz yaşlarım Kəlbəcər,
Nisgilim Taxta düzü.

Safolu ah-zardadı,
Canım Barxudardadı.
Bağanis-Ayrım yanıb,
Əksipara dardadı.

Salvartı mənim idi,
Sünbülüm, dənim idi.
Bərk Dərənin bərkliyi,
Düşmənə qənim idi.

Dikrilləkən, Mıxtökən
Oldu yada diz çökən.
Sarıyerin dərdidi
Bağrımı didib sökən.

# AĞILAR

Gələn bulağa gəlsin,
Çaya, bulağa gəlsin,
Gəlsin anam ağlasın,
Səsi qulağa gəlsin.

Burdan bir maya getdi,
Sallandı çaya getdi,
Can çəkdim, cəfa çəkdim,
Əməyim zaya getdi.

Dağların lalasından,
Gülündən lalasından,
Adam da ayrılarmı,
Gül üzlü balasından.

Getdi külüm ağlaram,
Oldu zülüm ağlaram,
Bir vədəsiz yel əsdi,
Tökdü külüm ağlaram.

Qardaş mənim külümdü,
Gülümdü, bülbülümdü,
Ölsə bacılar ölsün,
Qardaş ölmək zülümdü.

Mən aşığam bu taya,
Bu xırmandı, bu taya,
Yüklənib qəm karvanı,
Sən də yapış bu taya.

Anam məni az ağla,
Çox bilirsən az ağla,
Mən dərdimi deyirəm,
Sən kağıza yaz ağla.

Nərgizlər, a nərgizlər,
Topa bitər nərgizlər,
Heyf ölənin canı,
Torpaq örtər, yer gizlər.

Əzizim yoxla məni,
Ox götü oxla məni,
Nə anam var, nə atam,
Qardaş gəl yoxla məni.

Can qardaş canım qardaş,
Ağrıyır canım qardaş,
Baş qoyum dizin üstə,
Qoy çıxsın canım qardaş.

Əzizim yaman olur,
Ayrılıq yaman olur,
Cavan oğul ölümü,
Siz bilin yaman olur.

Əzizim belin bükər,
Kaman tək belin bükər.
Cavan oğul ölümü,
Ananın belin bükər.

Ana, gerçəkdən ağlar,
Yad ağlar, yalan ağlar.
Oğul dağı görənin,
Sinəsin fələk dağlar.

Yetiməm atam yoxdu,
Dadıma çatan yoxdu,
Bacımı da itirdim,
Allahdan kömək yoxdu.

Yaşım gözümdə qaldı,
Axdı üzümdə qaldı.
Fələk bir iş işlədi.
Arzum gözümdə qaldı.

Dərdə düşdüm dərmansız,
Dəvə gördüm sarvansız,
Getdim həkim yanına,
Yenə öldüm dərmansız.

Qoy məni el ağlasın,
El gəlsin, el ağlasın,
Qəbrim qardaşım qazsın.
Əlində bel ağlasın.

Bu dağda maral azdı,
Ovçu çox maral azdı,
Əziz balam, ağlama,
Ölmərəm yaram azdı.

Bu dağlar ərən dağlar,
Gülü yox, dərəm dağlar,
Sənsiz bir gün keçirsəm,
Ürəyim vərəm bağlar.

Dağda duman yeri var,
Qaşda kaman, yeri var,
Ümüdimi kəsmərəm,
Səndə güman yeri var.

Dağları qar alıbdı,
Yağıbdı qar alıbdı,
Heç kimdə günah yoxdu,
Öz bəxtim qaralıbdı.

Dağlarda xəstə mənəm,
Dərdi dərd üstə mənəm.
Gözüm yol kənarında,
Qulağı səsdə mənəm.

Dağlar başı ala qar,
Ala çiskin ala qar,
Həmişə qar yağmışdı,
Yağmamışdı belə qar.

Mən aşiq gülü yansın,
Yaylığın gülü yansın,
Mən fələyə neylədim,
Ağzında dili yansın.

Əziziyəm qazan ağlar,
Od vurar, qazan ağlar,
Bu yerdə qərib ölsəm,
Qəbrimi qazan ağlar.

Apardı çaylar məni,
Ulduzlar, aylar məni,
Yüküm dərd-qəm yüküdü,
Yordu bu taylar məni.

Aman fələk, dad fələk,
Heç olma sən şad fələk,
İçirtdiyin badədən,
Bir özün də dad fələk.

Mən aşiq, yüz il yanar,
Hər həftə yüz il yanar,
Sənin də oğlun ölsə,
Ürəyin yüz il yanar.

Çiçəklər hala gəldi,
Arılar bala gəldi,
Nə günah elədim ki,
Başıma bəla gəldi.

Əzizinəm ağlamazlar,
Gülərlər, ağlamazlar,
Qəriblikdə ölənin,
Gözlərin bağlamazlar.

Qalanın yastı yolu,
Sel gəldi basdı yolu,
İstədim toy eyləyim,
Əzrayıl kəsdi yolu.

Əzizinəm gül ağlar,
Bülbül ağlar, gül ağlar,
Oğlu ölən analar,
Başa tökər kül, ağlar.

Mən aşiq yüz il yanar,
Hər həftə, yüz il yanar,
Sənin də oğlun ölsə,
Ürəyin yüz il yanar.

Mən aşiqəm bu dağa,
Quşlar qonar budağa.
Cavan yarım ölübdü,
Necə dözüm bu dağa.

Arazdan keçən də var,
Suyundan içən də var,
Qardaş adı çəkəndə,
Ürəyi keçən də var.

Mən aşıq qazan ağlar,
Od yanar, qazan ağlar.
Burda bir cavan ölüb,
Qəbrini qazan ağlar.

Mən aşıq qar qamışa,
Tikilmiş qar qamışa,
Yüz min təbib neyləsin,
Bir fələk qarğamışa.

Yağış yağdı çöllərə,
Damcı damdı göllərə,
Burda bir cavan ölüb,
Xəbər verin ellərə.

Buxarı qurum bağlar,
Od yanar qurum bağlar,
Oğlu ölən analar,
O başdan durub ağlar.

Eləmi lala dağı,
Bürüyüb lala dağı,
Hər yara sağalsa da.
Sağalmaz bala dağı.

Əziziyəm yara var,
Yaram üstə yara var,
Parçalanmış sinəmdə,
Əl dəyməmiş hara var?

Toyunda belim yandı,
Əl atdım əlim yandı,
Qardaş, qardaş deməkdən,
Ağzımda dilim yandı.

Bacılar bacısıyam,
Şirinlər acısıyam,
Kimin qardaşı yoxsa,
Mən onun bacısıyam.

Əzizim nələr keçər,
Ahular mələr keçər,
Oğulsuz anaların,
Qəlbindən nələr keçər?

Nərgizlər, ay nərgizlər,
Top-top bitər nərgizlər,
Hayıf cavan canından,
Torpaq örtər, yer gizlər.

Dağ döşündə bənövşə,
Qoymaram bağrı bişə,
El yolunda ağlamaq,
Mənə olubdu peşə.

Mən aşiq duman yerdə,
Dağ yerdə, duman yerdə,
Düşmən felinə duşdüm,
Qalmışam yaman yerdə.

Ana məni az ağla,
Qış sızılda, yaz ağla,
Nə vaxt yadına düşsəm,
Ağ kağıza yaz ağla.

Bağa girdim bağbansız,
Dəvə gördüm sarbansız,
Hamıya dərman verdin,
Özün getdin dərmansız.

Əziziyəm bu dağa,
Ellər keçər bu dağa,
Elə ki, mən dözürəm,
Kimsə dözməz bu dağa.

Əzizim qaranı yaz,
Ag üstən qaranı yaz,
Hər dəftərin başında,
Mən baxtı qaranı yaz.

Dağlara dolu düşər,
Qar düşər, dolu düşər,
Qəbrimi yol üstə qaz,
Anamın yolu düşər.

Mən aşiq yüz il yanar,
Hər həftə yüz il yanar,
Sənin də oğlun ölsə,
Ürəyin yüz il yanar.

Mən aşıq qoşa dağlar,
Yatıb baş-başa dağlar.
Sizdə oğul itirdim,
Dönəsiz daşa dağlar.

Bacılar bacısıyam,
Şirinlər acısıyam,
Kimin bacısı ölüb,
Mən onun bacısıyam.

Bağa girdim bağbansız,
Dəvə gördüm sarbansız.
Aləmə dərman dedim,
Balam öldü dərmansız.

Ölürəm, üstünə gəl,
Yanıram, tüstünə gəl.
Sağlığımda gəlmədin,
Qəbrimin üstünə gəl.

Dam üstə yığdım taya,
Yel vurdu, tökdü çaya.
Çəkdiyim zəhmətlərin,
Hamısı getdi zaya.

Enişdən enənə bax,
Dolaydan dönənə bax.
Murazına çatmayıb,
Çırağı sönənə bax!

Nərgizlər, ay nərgizlər,
Döşdə bitər nərgizlər.
Cavanda nə qaydadı,
Torpaq örtər, yer gizlər.

Əzizim daşa dəydi,
Üzündə qaşa dəydi.
Qolun qırılsın, ovçu,
Ox yenə daşa dəydi.

Bir bağ saldım bağbansız,
Dəvə gördüm sarvansız.
Fələk bir yara vurdu,
Həkim gördüm dərmansız.

Mən aşıq sinə-sinə,
Qar yağır sinə-sinə.
Oğlu ölən analar,
Daş döyər sinəsinə.

Bacım gəl, qardaşım gəl,
Qana döndü yaşım gəl.
Yad ağlar yaman ağlar,
Öz bacım, qardaşım gəl.

Bu dağlar kərəm dağlar,
Gülü yox dərəm dağlar.
Bacı qardaş deməkdən,
Ürəyi vərəm bağlar.

Dedim sənə, az ağla,
Gedən oldun,az ağla.
Mənnən keçən günlərin,
Bir kağıza yaz ağla.

Dərdli-dərdli ağlama,
Ürəyimi dağlama.
Dərdim onsuz da çoxdu,
Dərdi dərdə bağlama.

Mən aşıq, gəzdim, gəldim,
Otunu əzdim, gəldim.
Sənin qəbrini görüb,
Əlimi üzdüm, gəldim.

Sən məni ağlar qoydun,
Sinəmə dağlar qoydun.
Bükdün mənim boynumu,
Gözümü ağlar qoydun.

Görünən qara dağlar,
Ətəyi duman dağlar,
Mən dərdimi söyləsəm,
Eşidənlər qan ağlar.

Ölürəm, üsdümə gəl,
Yanıram, tüsdümə gəl.
Bəlkə görə bilmədim,
Qəbrimin üsdünə gəl.

Mən aşiq yasəməni,
Açıfdır ya səməni.
Fələyə neyləmişdim,
Batırdı yasa məni.

Dəryada zəmin qaldı,
Biçmədim zəmin qaldı.
Arzun gözündə qalsın,
Elə ki mənim qaldı.

Eləmi, gözüm ağlar,
Ocağım, gözüm ağlar.
Hər dağlara baxanda,
Çəkilmir gözüm ağlar.

Gözləri ağlar qoydun,
Qolları bağlar qoydun.
Evin dağılsın, düşmən,
Sinəmi dağlar qoydun.

Bu dağlara çən düşdü,
Yel əsdi duman düşdü,
Balamı öldürdülər,
Canıma talan düşdü.

Ana, məni az ağla,
Bu dərdimə döz, ağla.
Qışda sənə qıymaram,
Gül açanda yaz ağla.

Əzizim, yanar oda,
Pərvanə yanar oda.
Dərdimi dağa desəm,
Od tutuf yanar o da.

Mən aşiq, qəm çiləndi,
Səməndim qəmçiləndi.
Mənim viran könlümə,
Dərd yağdı, qəm çiləndi.

Canımı aldı fələk,
Dərdlərə saldı fələk,
Bağda bir nar yetirdim
Onu da saldı fələk.

Bağçada barın qala,
Heyva yox, narın qala,
Qiyamət o gün qopar,
Öləsən, yarın qala.

Keçməyir sözüm neylim?
Bu dərdə dözüm neylim?
Ah çəksəm, aləm yanar,
Çəkməsəm, özüm neylim?

Eləmi, lala yalqız,
Gül qoşa, lala yalqız.
Qürvətdə can verərəm,
Cinazım qala yalqız.

Eləmi, gülü yansın,
Köynəyin gülü yansın.
Səni mənnən edənin,
Ağzında dili yansın.

Əzzinəm dağ-dağ oldu,
Yağ yandı, dağ-dağ oldu.
Sən yadıma düşəndə,
Ürəyim dağ-dağ oldu.

Mən öldüm ağlamaqdan,
Bağa su bağlamaqdan,
Bağda yarpaq qalmadı,
Yarama bağlamaqdan.

Aşiq, naçar ağlama,
Gündü, keçər ağlama,
Fələk bağlayan qapnı,
Bir gün açar ağlama.

Bağa girdim bağbansız,
Dəvə gördüm sarvansız,
Aləmə dərman verdim,
Özüm qaldım dərmansız.

Əzizim, tikə-tikə,
Kəs bağrım tikə-tikə,
Qoy mənə yar ağlasın,
Kəfənim tikə-tikə.

Mən aşiq, qoşa dağlar,
Çatıb baş-başa dağlar,
Sizdə oğul itirdim,
Dönəsiz daşa dağlar.

Mən aşiq, bala dağı,
Dolan gəl bala, dağlar,
Sağalsa hər yaralar,
Sağalmaz bala dağı.

## SIZLAMALAR

Ağlaram ağlar kimin
Dərdim var dağlar kimin,
Xəzəl ollam tökülləm
Viranə bağlar kimin.

Əzzinəm bala dərdi,
Bal dərdi, bala dərdi.
Bütün dərdlər sağalar
Sağalmaz bala dərdi.

Bu dağlar, ulu dağlar,
Ətrafı sulu dağlar.
Mən öz dərdimi açsam
Göy kişnər, bulud ağlar.

Bu dağın qarı mənəm,
Gün vursa ərimənəm,
Yüz il torpaqda qalsam,
Cavanam çürümənəm.

Dağ üstündə dağ olmaz
Tək ağacdan bağ olmaz,
Hər kimin oğlu ölsə
Ürəyində yağ olmaz.

Mən aşiq bala dərdi,
Mən əkdim bala dərdi,
Ananı dərd öldürdü
Sinədə bəla dərdi.

Əzizim bağda dara,
Bağda yu, bağda dara,
Burda dərman olmadı,
Dərmançı, Bağdad ara.

Gözləri ağlar qoydun,
Qolları bağlar qoydun.
Evin dağılsın, düşmən,
Sinəmi dağlar qoydun.

Bu dağlara çən düşdü,
Yel əsdi duman düşdü,
Balamı öldürdülər,
Canıma talan düşdü.

Ana, məni az ağla,
Bu dərdimə döz, ağla.
Qışda sənə qıymaram,
Gül açanda yaz ağla.

Araza gəmi gəldi,
Sanadım hamı gəldi.
Evin yıxılsın, fələk,
Ayrılıq dəmi gəldi.

# XALQ MAHNILARI, TOY MƏRASİMLƏRİNDƏ OXUNAN MAHNILAR

## ARPAÇAY GÖZƏLİ

Arpa çayı aşdı-daşdı,
Sel Saranı aldı qaşdı.
Sara gözəl qələm qaşdı,
Apardı sellər Saranı.
Bir ala gözlü balanı.

Arpa çayı onu aldı,
Aparıb dəryaya saldı.
Cilovdarı dalda qaldı,
Apardı sellər Saranı.
Bir ala gözlü balanı.

O yan qumdu, bu yan qumdu,
Sara atdan düşcək cumdu,
Cilovdar gözünü yumdu,
Apardı sellər Saranı.
Bir ala gözlü balanı.

Qırx atlıyla çıxdıq düzə,
Pıçaq batsın yaman gözə,
Sarğı başmaq suda üzə.
Apardı sellər Saranı.
Bir ala gözlü balanı.

## SARANI

Sel Saraya oldu yağı,
Su bürüdü solu-sağı.
Yasa batdı toy otağı,
Apardı sellər Saranı,
Neylədi baxtı qaranı?

Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğana.
Muğan batıb nahaq qana,
Apardı sellər Saranı,
Neylədi baxtı qaranı?

* * *

Quşum qondu daldan-dala,
Yarın yanaxları lala.
Ağ üzündə qara xala,
Qaldım yalvara-yalvara.

* * *

Quşum gəlir obasınnan,
Alım dərdi balasınnan.
Yarım çıxdı xanasınnan,
Qaldım yalvara-yalvara.

* * *

Quşumu atdım dərinə,
Gəlir ərinə-ərinə.
İki qıza, bir gəlinə,
Qaldım yalvara-yalvara.

Bu gələn yar olaydı,
Qoynunda nar olaydı,
İkimiz bir köynəkdə,
Yaxası dar olaydı.

* * *

Evləri su başında,
Gözüm qaldı qaşında,
Sevdim bir peçə tərsa,
On üç, on dörd yaşında.

* * *

Ay çıxdı batan yerə,
Gün getdi yatan yerə,
Sinəmi nişan qoydum,
Yar oxun atan yerə.

* * *

Pəncərədən daş gələr,
Xumar gözdən yaş gələr.
Səni mənə versələr,
Allaha da xoş gələr.

* * *

Naz-qəmzən çoxdu sənin,
Kipriyin oxdu sənin,
Mən ki, səni sevirəm,
Xəbərin yoxdu sənin.

* * *

Bu gələn yara bənzər,
Boyu çinara bənzər,
Qoynundakı şamama,
Soyulmuş nara bənzər.

* * *

Qaşların qarasına,
Xal bitib arasına,
Bir qutu məlhəm eylə,
Sürt bağrım yarasına.

## AY BƏRİ BAX, BƏRİ BAX

Pəncərədən daş gəlir,
Xumar gözdən yaş gəlir,
Səni mənə versələr,
Allaha da xoş gəlir.
Ay bəri bax, bəri bax,
Can bəri bax, bəri bax.

Pəncərənin milləri,
Açılıb qızıl gülləri,
Oğlanı yoldan eylər
Qızın şirin dilləri.
Ay bəri bax, bəri bax,
Can bəri bax, bəri bax.

Pəncərədə quş mənəm,
Uç desələr uçmanam,
Yar mənə qaş-göz eylər,
Mən heç başa düşmənəm.
Ay bəri bax, bəri bax,
Can bəri bax, bəri bax.

*1. Oğlan:*
Araqçını yana qoy,
Tellərinə xına qoy.
Ölürəm səndən ötrü,
Bu işə bir bina qoy.
* * *
Kələğayın butası,
Ahım kimi tutası.
Qızın könlü məndədi,
Razı deyil atası.
* * *
Əzizim, yarı yandı,
Dağların qarı yandı.
Hamı sevdi yar aldı,
Əslinin yarı yandı.
* * *
Mən ojax, sən buz, ay qız,
Bu ərzimi yaz, ay qız.
Baş götürüf gedərəm,
Qalarsan yalqız, ay qız.
* * *
Araqçının məndədi,
Sərmişəm, çəməndədi,
Dünya gözələ dönsə,
Mənim gözüm səndədi.
* * *
Yeri, dam üstə yeri,
Qızıl cam üstə yeri,
Ayaqların incisə,
Çıx sinəm üstə yeri.
* * *
Dağ başında quzu var,
Ahu kimi gözü var,
Bir qəlb bir qəlbi tutsa,
Kimin ona sözü var.
* * *
Arazın qıraxları,
Dolu gəlir arxları,
Şeh düşmüş gülə bənzər,
Yarımın yanaxları.

*2. Qız:*
Araqçını qoymuşam,
Tellərini saymışam,
Atam vermir, götür qaç,
Dərd əlindən doymuşam.
* * *
Gəlinə bax, gəlinə,
Şana vurub telinə,
Gəlinə qurban olum,
Qənd əzilib dilinə.
* * *
Araz üstə, buz üstə,
Kabab yanar köz üstə,
Qoy məni öldürsünlər,
Bir alagöz qız üstə.
* * *
Dağları aşmaq olmaz,
Narıncı başmaq olmaz,
Bir cüt öpüşdən ötrü,
Yarnan savaşmaq olmaz.
* * *
Bu dərə, uzun dərə,
Getdikcə uzun dərə,
İstərəm bir bağ salam,
Yar gələ, üzüm dərə
* * *
Samovar yana-yana,
Od düşüb şirin cana,
Danışıram kağıznan
Dil qalır yana-yana.
* * *
Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı,
Oğlanı dərd apardı,
Dərmanı qızda qaldı.

## MAHNI

Mən gələndə yaz idi,
Çəmən dolu qaz idi.
İstədim məktub yazam,
Mürəkkəbim az idi.

Alma-almaya bənzər,
Alma səndə nə gəzər?
Bu diyarın qızları
Dəli ceyrana bənzər.

Köynəyi yaşıl oğlan,
Geyin, yaraşır, oğlan.
Gəlmə bizim məhləyə,
Anam savaşır, oğlan.

Evləri köndələn yar,
Bizə gül göndərən yar.
Gülün yarpıza dönsün,
Bizdən üz döndərən yar.

## TOY MƏRASİMİ

Verdim bir dana,
Aldım bir sona,
Ay qız anası,
Qal yana-yana.

## GƏLİNƏ XİTABƏN

Anam, bacım, qız, gəlin,
Əl-ayağı düz gəlin.
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin.

## QIZ SEÇİLMƏSİ

Mən aşiq gözəl alma,
Tutubdu gözəl alma,
Əsil al, çirkin olsun,
Bədəsil gözəl alma.

## BƏYİN TƏRIFİ

Əlimə almışam sədəfli sazı,
Mən kimə eylərəm ərkinən nazı.
Bu toyda olmuşuq hamıdan razı.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdişin, soldişin, elin var olsun!

Qismətinmiş sənin güllər butası,
Sən olasan doqquz oğul atası,
Dursun xələt versin bəyin atası.
Görüm a bəy, toyun mübarək olsun,
Sağdişin, soldişin, elin var olsun!

Bir hava çal, bəyin girsin oyuna,
Mən qurbanam qamətinə, boyuna,
Biz də gələk subayların toyuna.
Görüm, a bəy, toyun mübarək olsun,
Gələnin, gedənin sənə borc olsun!

Obaşdan gəlmişəm sənin toyuna,
Anan qurban olsun uca boyuna,
Bir də gələk yoldaşının toyuna.
Görüm, a bəy toyun mübarək olsun,
Sağdişin, soldişin, elin var olsun!

Əlvandır əlində bəyin xınası,
Bu toyun ellərə düşüb sədası,
Bizə xələt versin bəyin anası.
Görüm a bəy, toyun mübarək olsun,
Sağdişin, soldişin, elin var olsun!

Qızıl gülü dəstə-dəstə tutası,
Həvəslənib yar yarına atası,
Dursun xələt versin bəyin dayısı.
Görüm a bəy, toyun mübarək olsun,
Sağdişin, soldişin, elin var olsun!

## TOY MƏRASİMİNDƏ OXUNAN MAHNI

### ARAZ GƏLİR

* * *

Araz gəlir, lil gəlir,
Dəstə-dəstə gül gəlir.
O gülün birin üzəydim.
Saçlarıma düzəydim.
Qardaşımın toyunda,
Sındıra-sındıra süzəydim.

* * *

Çıxdım çinar başına,
Baxdım üzük qaşına.
Üzük qaşı laxladı,
Verdim anam saxladı.
Anama qurban olum,
Yarı qonaq saxladı.

# ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

A

Ağzında bir tay çarıx beləsinə getdi.
Ağıl ağıldan üstündü.
Aza qane olmuyan çoxu tapammaz.
Ayağıma yer eliyim, gör sənə neyniyim?
Al qapıda, sat qapıda.
Ala qarğa bildiyinnən duzduğa düşər.
Ala itdən manşırdı.

Alısı dəli, Vəlisi dəli,
Bu qırılmışın hamısı dəli.

Allah qotur versin, dırnax verməsin.
Allah dağına baxar, qar verər.
Arvatsız kişi, urvatsız kişi.
Ac qılıca çapar.
Ağacı qurd yeyər, insanı-dərd.
Ağa Nəzərəm, belə gəzərəm, bir vuranda qırxını əzərəm.
Acı danışan şirin söz eşitməz.
Annıyana qul ol, annamıyana ağa olma.
At görəndə axsıyır, su görəndə susuyur!
Ağız deyəni qulaq eşitməlidi.
Azacıq aşım, ağrımaz başım.
Allah bilən yaxşıdı.
Ara sözü ev yıxar.
Arvadın ağılı topuğunda olar.
Arvad evin dirəyidi.
Arvadı əri saxlar, pendiri-dəri.
At mıxı qoparar, bir yerə, beş özünə dəyər.
Axar su murdar götürməz.
Aş daşannan sonra çömçə gətirir.
Adamı söz, kababı göz yandırar.
Atan soğan, anan sarımsaq, sən hardan olmusan gülməşəkər.
Ağac nə qədər bar gətirsə, başını əyər.
At iyidin qardaşıdı.
Ağıl bazarda satılmır ki, ağılsız da ala.
Az yeyənin azarı da az olar.
Arsız hara, namus hara?
Axsaq atın kor nalbəndi olar.

Adın nədi Rəşid, birin de, birin eşit.
Aranda tutdan oldum, dağda quruddan.
Az olur küsür, çox olur qusur.
Azacıq aşım qovqasız başım.
Ağanın malı gedər, muzdurun canı.
Araz axır, gözün baxır.
Armudun yaxşısını meşədə ayı yeyər.
Ağası gülüm olanın, başına külüm olar.

Ayağını isti saxla, başını sərin,
Hər deyilən sözdəri düşünmə dərin.

Aza qəni olmuyan çoxdan qəni olmaz.
Acın nəyi var ki, yalavaca nə versin.
Aralıq atı, kor fatı.
Ağzınnan süd iyi gəlir.
Adını çıxart, dəyirmanda otu.
Aşı bişirən yağ olar, gəlinin üzü ağ olar.
Arım var, arım var it arısı.
Ağac nazikliyindən qırılar, insan yoğunluğundan.
Ac elə bilir hamı acdı, tox elə bilir hamı toxdu.
Ata olmuyuncan ata qədrini bilməzsən.
Amanata xəyanət etməzlər.

Abır istəsən, çox demə,
Sağlıq istəsən, çox yemə.

Ağac səmtinə yıxılar.

Alçaxda yatma – sel aparar,
Ucada yatma – yel aparar.

At olanda ot olmur,
Ot olanda at.

Ata-baba qədrini
Baba olsan bilərsən.
Bacı-qardaş qədrini
Yalqız qalsan bilərsən.

Araz aşağından, Kür topuğundan.
Asta çal, usta çal.

Azacıq aşım, ağrımaz başım.
Ağıl ağıldan üskəkdi.
Artıx tikə göz çıxartmaz.
Axar su mundarrıx götürməz.
Allahın da yanında bir adamın olsun.
Arpaya qatsan at yeməz, kəpəyə qatsan it.
Aclıq bir il gedər, töhmət min il.
Ağladan yanında otur, güldürən yanında oturma.
Ağanın malı gedər, nökərin canı.
Ağıllı olub dərd çəkincə, dəli ol, qoy dərdini çəksinlər.
Aşına ha aşına, çıxdı ocaq başına.
Allah dəvəyə qanad versə, uçurmamış dam-daş qoymaz.

Almanı say ye,
Armudu soy ye.

Allah sağ əli sol ələ möhtac eləməsin.
Allahdan qorxmayan kafirdi.
Axacaq qan damarda durmaz.
Adama sözü bir dəfə deyəllər.
Allahdan buyrux, ağzıma quyrux.
Ağacı qurd yeyər, insanı dərd.
Ağacın qurdu özünnən olmasaydı, min il yaşardı.
Ağacdan maşa olmaz, cingənədən paşa.
Adam olana tək bir söz kifayətdi.
Adam çiy süd əmibdi.
Adam iş başında bəlli olar.
Addım-addım yol olı, damla-damla göl olı.
Adam işləmiyincə dişləməz.
Azacıq aşım, ağrısız başım.
Azı bilməyən, çoxu da bilməz.
Aləmə adət, bizə bedat (bəd adət).
Allah dağına görə qar yağdırar.
Allah dəvəyə qanat versəydi, dam-divarı yıxardı.
Allah kərimdi, quyusu dərindi.
Amanat ata minən tez enər.
Arvad var, ev yapar, arvad var, ev yıxar.
Astarı üzündən bahadı.
At almadan axur yapır.
Attan endi, eşşəgə mindi.
Acın imanı olmaz.

Acın toxdan xəbəri olmaz.
Ağa dedi, sür dəriyə, sür dəriyə.
Axsaq eşşəyin kor nalbəndi.
Ananın ərköyün oğlu hambal olar.
Axtaran tapar, yoğurar yapar.
At təpiyinə at dözər.
Ayın üzündə ləkə var.
Ata dost kimi bax, düşmən kimi min.
Axmağa söz, günbəzə qoz yapışmaz.
Aş vermişəm-aşımı ver, daş vermişəm-daşımı ver.
At ölüncə otlar.
Ana bala ucundan özünü oda atar.
Artıq tamah daş yarar,
Daş qayıdıb baş yarar.

Ata evin şahıdırsa, ana onun tacıdır.
Arxalı köpək qurd basar.

Adam var ki, adamların naxşıdır,
Adam var ki, dindirməsən yaxşıdır.

Arvadı başına buraxsan, axırda başına çıxar.
Adımı an bir çürük qozla.
At murad, oğul baratdı.
At getdi-örkən apardı.
At tapıldı-yəhər tapılmadı.
Ata olmayan atanın qədrini bilməz.
Atı atın yanına bağlarsan xasiyətindən götürər.
Atın ölümü itin bayramıdır.
At təpiyinə at dözər.
At ölər nalı qalar, adam ölər namı qalar.
Atlı ilə atsız bir deyildir.
Ac toyuq yuxusunda darı görər.
Acın imanı olmaz.
Ac, yalavac qudurğan olar.
Acıqlı başda ağıl olmaz.
Axtaran tapar.
Axırkı peşmanlıq fayda verməz.
Axşamın işini sabaha qoyma.
Axşamın xeyrindənsə sabahın şəri.
Axşam oduna gedən çox olar.

Adama sözü bir kərə deyərlər.
Adam sözünü adama deyər.
Artıq tikə baş yarar.
Arığa batman da yükdür.
Arı şirəyə dolanar.
Az işdən çox iş çıxar.
Aza qane olmayan çoxa yetişməz.
Ağac səmtinə yıxılar.
Ağac bar verəndə başın aşağı tikər.
Ağalamayan uşağa süd verməzlər.
Ağacı içindən qurd yeyər.
Ağır otur, batman gəl.
Allah saxlayanı qurd da yeməz.
Allahsız yerdə otur, böyüksüz yerdə oturma.
Allah sağ gözü sol gözə möhtac eyləməsin.
Anlayana qul ol, anlamayana ağa da olma.
Ayaq-ayaq nərdivana çıxarlar.
Ayı meşədən küsüb, meşənin xəbəri yox.
Ağıl yaşda olmaz, başda olur.

**B**

Bal da yesən dirilməz.
Baxdın yatdı, sən də yat.

Başarana can qurvan,
Başarmıyana daş qurvan.
Başını itirən tük üçün ağlamaz.
Başımda qoz qırma.

Belə deyirəm dədəm ölür,
Elə deyirəm anam.

Beş barmağın beşi də bir döyül.
Bəy nədi, bəyənmədiyin nədi.
Bir ağacın kölgəsində min qoyun yatar.
Bir adamın payı iki adamı aj qoyar.
Bir deyənin oluncax, min yeyənin olsun.
Bir əlin od olsa da,biri su olsun.
Biri palçığa batdı, qalannarı yanında yatdı.
Birənin qannı aldın, cannı aldın.
Biri bilməyən, mini də bilməz.

Birrik harda, dirrik orda.
Bığdan götürüf saqqala qoyur.
Boğaz başdan aşağıdı.
Boş çanax dolu çanağı tökər.
Böyük sözünə baxmayan böyürə-böyürə gedər.
Buyrux sənnən, qullux mənnən.
Burda dəli azıydı, biri də o taydan keşdi.
Bir ağacın altında yüz qoyun yerrəşər.
Bağ çəpərsiz olmaz.
Bayquş xarava sevər.
Bayquş kimi ulama.
Bal yedim, balıya düşdüm.
Başın çıxmayan yerə bədənini soxma.
Başın bədəninə ağırlıq edir.
Bir de, bir eşit.
Bir yandan bağlayan bir yandan açar.
Bir dəli gölə daş atdı, yüz ağıllı çıxara bilmədi.
Bir tikəni bilməyən, yüz tikəni bilməz.
Balığı hər vaxt tutsan təzədi.
Bildirçinin bəyliyi darı sovuluncadı.
Bir gözü aya baxır, bir gözü çaya.
Bazara pulsuz gedən, gora imansız gedər.
Bazara girdin gözü qıpıq, sən də ol gözü qıpıq.
Borclu borclunun sağlığını istər.
Başına vur, çörəyini əlindən al.
Başarana baş qurban.
Bal yemədik, balıya düşdük.
Bir ölümə çara yoxdu.
Bar verməyən ağacı kəsəllər.
Boğaz boydan aşağıdı.
Bulax gözünnən durulur.
Büyünkü bağır-ökə sabaxkı quyruxdan yaxşıdı.
Bağça bağa qıyır, bağbançı bir giləyə qıymır.
Boğaz başdan aşağıdı.
Borc alan bicdir, borc verən gicdir.
Bostançının kar vaxtıdı.
Birənin ya qanını aldın, ya canını.
Bala baldan şirindi.
Bar gətirən ağaca balta çalmazlar.
Buğda çörəyin yoxdu, buğda dilin olsun.
Bu da dağarcığını sürüyüb çuvallar cərgəsinə qoyur.

Bəhməz aldım bal çıxdı.
Bal-bal deməklə ağız şirin olmaz.
Bal tutan, barmaq yalar.
Balıq başdan qoxar.
Başqası üçün quyu qazan özü düşər.
Başına gələn başmaqçı olar.
Bir daşla iki quş vurur.
Bir dinsizin haqqından, bir imansız gələr.
Bir gül ilə bahar olmaz.
Bir qoltuğa iki qarpız sıxılmaz.
Bir yemirəm-yemirəmnən qorx, bir də gedirəm-gedirəmnən.
Bu xəmir çox su götürəcək.
Bəy dediyin nədi, bəyənmədiyin nədi.
Bir iş var, iki əməl.
Bağa bax üzüm olsun, yeməyə üzün olsun.
Bəylə dalaşmaq olmaz, dirəklə güləşmək.
Buğdanı sütül yeyən xırmanda ac qalar.
Borc alan gülə-gülə gedər, ağlaya-ağlaya gələr.
Bu evin işığı o biri evə düşməz.
Bağdan ərik qurtardı, salam əleyk qurtardı.
Bir naxırın adını bir dana xarablar.
Bir ac qudurğan olar, bir tox.
Bir əldə iki qarpız tutmaq olmaz.
Biri ölməsə biri dirilməz.
Bağa baxarsan bağ olar, baxmazsan dağ olar.
Bəy verən atın dişinə baxmazlar.
Bəy ilə bostan əkənin tağı çiynində bitər.
Bəy dediyin hansı, bəyənmədiyin hansı.
Bu günkü öpgə sabahkı quyruqdan yeydir.
Borclu borclunun sağlığını istər.
Bu ilki sərçə bildirki sərçəyə civ-civ öyrədir.
Buğda çörəyinin buynuzu olar.
Bu daş, bu tərəzi, yükün ağırdı gəti çəkək.

## C

Canavarın qulağını kəsməknən it olmaz.
Can de, can eşit.
Culfa kəfənsiz ölər.
Cavannıx sultanlıxdı.
Can deməknən cannan can əskik olmaz.
Cin atına minmə.

Cəhənnəmdə də adamın olsun.
Cəhənnəmə gedən yoldaşını çox istər.
Camala baxma, kamala bax.
Can sənin, cəhənnəm Tanrının.
Can cahana bir dəfə gələr.

## Ç

Çaqqal var, gödən yırtır, qurdun adı bədnamdı.
Çaqqal tülküdən betərdi.
Çağırılan yerə ərinmə,
Çağırılmayan yerə görünmə.
Çənədən saz, ağıldan az.
Çıxan can geri qayıtmaz.
Çobanın könlü olsa, təkədən pendir tutar.
Çox yemək adamı az yeməkdən qoyar.
Çörəyi çörəkçiyə ver, birini də üstəlik.
Çuluna bürün, elnən sürün.
Çayın daşı, çölün quşu.
Çırağ dibinə işıq salmaz.
Çox bilirsən, az danış.
Çaş biri iki görər.
Çatana çatır, çatmayana da daş atır.
Çəkişməsən, bərkişməzsən.
Çomağın iki başı var.
Çox yaşayan çox bilər.
Çör-çöplə yanan ocağın istisi olmaz.
Çörəyi ayaqlamazdar.
Çılpağa yayda borandı.
Çox danışmaq gümüşdüsə, az danışmaq qızıldı.
Çox yemək adamı az yeməkdən qoyar.
Çıraq dibinə işıq saçmaz.
Çağrılmamış qonaq süpürülməmiş yerdə oturar.
Çürük taxta mıx götürməz.
Çağrılan yerə ar eləmə, çağrılmayan yeri dar eləmə.
Çay hər axanda qızıl alma gətirməz.

Çolaq dedi: durun qaçaq,
Çətini öyrənənə qədərdir.

Çeynənən saqqız çürüyər.
Çörəyi dizinin üstündə olannan uzax ol.

Çaqqal var baş qoparar, qurdun adı yamandı.
Çıraq dibinə şölə verməz.
Çaqqal var, gödən dağıdır, canavarın adı bednamdı.
Çörək quru, ayran duru.
Çörəyi tək yeyən adam yükünü özü düşürər.

**D**

Dabbaqxanada gönnü tanıyıram
Dağdan ağır kişidi.
Dağın dərdi dağ boyda olar.
Dam dirək üstə durar.

Dama-dama göl olar,
Dada-dada heç olar.

Danalı dalda qalmaz.
Daş atıf başını tutar.
Daş qayaya rast gəlif.
Daş yerində ağardı.
Dəyirmanım hər cür dən üyüdür.
Dəliyə toy da birdi, vay da.
Dəm dəmi gətirər, qəm qəmi.
Dəmiri döydükcə uzanar.
Dəmiri isti-isti döyəllər.
Dənini özün üyüt.
Dilənçidən pay umur.
Dolu çanağı tökmə.
Dost başa baxar, düşmən ayağa.
Dövlət əl kiridi, yusan gedər, yumasan getməz.
Döyər, söyər, ərim yox.
Döymə qapımı, döyəllər qapını.
Duz-çörək, düz-çörək.
Düyə göz eləməsə, buğa sıçramaz.
Dünya yiyənə quyruxdu.
Daldan atılan daş topuğa dəgər.
Dana böyür, çulu böyüməz.
Dadanıbsan dolmaya, bəlkə bir gün olmaya.
Damara görə qan alınır.
Danışıq dananı qurda verər.
Daş düşdüyü yerdə ağır olar.
Dağ dağa qovuşmaz, adam adama qovuşar.

Dəlidən doğru xəbər.
Dünya malı dünyada qalır.
Dəli quyuya bir daş salar, yüz ağıllı fikirləşib çıxarda bilməz.
Dəliyə hər gün bayramdır.
Dərə xəlvət, tülkü bəy.
Dəlini apardılar toya, dedi bura bizim evdən yaxşıdır.
Dəvəçi ilə dost olanın darvazası gen gərək.
Döymə qapımı, döyərlər qapını.
Dəvə ölsə, dərisi bir eşşəyə yükdür.
Dəvə oynayan gün qar yağar.
Dost məni ansın bir çürük ceviz ilə.
Dost başa baxar, düşmən ayağa.
Dinsizin öhdəsindən imansız gəlir.
Dəvəni xəlbir ilə suvarır.
Dilənçinin üzü qara olur, torbası dolu.
Dilini saxlayan salamat olur.
Dağ başına qar yağar.
Deyirəm, xədiməm, deyir, neçə oğlun var?
Dəmiri isti-isti döyəllər.
Dəliyə gündə bayram.
Dəlinin dilini dəli bilər.
Dəliyə zaval yoxdu.
Dərdi dağa verdilər, götürmədi, ancaq insan götürdü.
Dərdi çəkənə verəllər.
Dilini dinməzinə qoy.
Deyəsən dilotu yeyif.
Dilbilməz əlinə düşmüşəm.
Dil başa bəladı.
Dil ağılın açarıdı.
Dil yarası qılınc yarasından dərindi.
Dost adamı bir qozla alsın, o da çürük çıxsın?!
Dəymə mənə, dəymiyim sənə.
Dünya gör-götür dünyasıdı.
Dava dağarcıq üstədi.
Dadananla, qudurani saxlamaq olmaz.
Dama-dama göl olar, dada-dada heç.
Daş daşa söykənər divar olar.
Düz əyrini kəsər.
Dərziyə dedilər ki, köç, iynəsin sancdı yaxasına.
Dünya malı əl çirkidi, yuyarsan gedər.
Döyülən ara yerdə gedər.

Dəli ağıl tapsa, öz başına qoyar.
Dünya bir pəncərədi hər gələn baxıb gedər.
Dama-dama göl olar, axa-axa sel.

Dedilər: Əzrayıl bala paylayır.
Dedim: Balama dəyməsin, balasını istəmirəm.

Doğruya zaval yoxdu, çəksələr min divana.
Dünyanın quyruğu uzundu.
Daldan atılan daş topuğa dəyər.
Daş qayaya rast gəldi.
Dadanıbdı dolmaya, o da ola, olmaya.
Dərzi yaxası cırıq olar, başmaqçı ayağı yalın.
Döymə qapımı, döymüyüm qapını.
Dəm dəmi gətirər, qəm qəmi.
Dəlinin başında palıd ağacı bitmir ha.
Dəmiri döydükcə uzanar.
Dil qarıxar düzünü deyər.
Dəliyə bel ver, altınnan yeli.
Diriyə də rəhmət var, ölüyə də.
Dost adamı ansın, bir çürük qoznan.
Dedilər: Əzrayıl oğul paylayır. Dedi: Özününkü özünün olsun, mənimkinə dəyməsin.
Düz söz daşdan keçər.
Damla-damla göl olı.
Daş yerində ağırdı.
Dəvədən böyük fil var.
Dəmir qapının ağac qapıya işi düşər.
Dənizə düşən, ilana sarılar.
Dəliyə yel ver, əlinə bel ver.
Dərya dalğasız, qapı halqasız olmaz.
Divarı nəm yıxar, insanı qəm.
Dil əqil xəzinəsinin açarıdı.
Dişin ağrıyırsa çək qurtul, qonşun xarabsa köç qurtul.
Doğru söz acı olur.
Donuzdan bir tük qoparsan, gənə kardı.
Dost ağladar, düşmən güldürər.
Dünya tükənər, düşmən tükənməz.
Danışıx dananı qurda verər.
Düz həmişə əyrini kəsər.
Dəvə yaxını otlar, uzağı gözlər.
Dəvəçi ilə qonaq olanın darvazası gen gərək.

E

Ev evə sığmaz, el elə sığar.
El atan daş uzax düşər.
El içində, öl içində.
Elə ağız əyənin ağzı əyilər.
Eldən üzülən, əldən üzülər.
Elnən gələn qara gün toy-bayramdı.
Eşşək anqırar, tayını tapar.
Eşşəyə dedilər: mərifətini göstər. Yıxılıf küllükdə ağnadı.
Eşşəyə minmək bir ayıf, düşmək iki.
Eşşəyə min, ata çatınca.
El içində, ol içində, öl içində.
Elin atdığı daş uzax gedər.
El üçün ağlıyan gözdən olar, yar üçün ağlıyan gözəl olar.
Eşşək qazanar, at yeyər.
El ilə qara gün bayramdır.
El gözü tərəzi olar.
Ev buzovu öküz olmaz.
El el üstə sığışar, ev ev üstə sığışmaz.
Elçisi gülüm olanın başına külüm olar.
Elə ye ki, həmişə yeyəsən.
Eşşəyə gücü çatmır palanı taptayır.
El elə sığar, öy öyə sığmaz.
El ağzı fal ağzı.
El sevəni aləm sevər.
El qədrini el bilər.
Elm əqlin çırağıdı.
Evdə danışılan çöldə keçməz.
Evin dar olsa da, ürəyin geniş olsun.
Ev bizim sirr bizim, heç kimə demə qızım.
Evində yox urfalıq, könlündən keçir dargalıq.
El içində, ev içində.
Elə döyüş, barışmağa üzün olsun.
Ev oğrusu tutulmaz.
Evin kiçiyi oluncax, qapının iti ol.
Elini hürküt, axsağından yapış.
Eşşək palçığa bir dəfə batar.
Ev davasız, gor əzabsız olmaz
Elindən ayrılanı qurd yeyər.
Eşşəyə dedilər mərifətini göstər, getdi samanlıqda ağnadı.
El üçün ağlayanın gözü kor qalmaz.

El yıxanı heç kəs tikə bilməz.
Evi ev edən arvaddır.
Evin küçüğü ol, kiçigi olma.
Etibar insanın sərvətidi.
Ev buzovu cüttə olmaz.
Elə hava çaldır oynaya biləsən.
Ermənidən dost olmaz.
Evdəki söz bazarda keçmir.

Ə

Əkməsən, biçməzsən.
Ələməyə unu yoxdu, pişirməyə xamırı.
Əlini başına yığ.
Əlinin üstə əl yoxdu.
Əməkçi ol, dilənçi olma.
Ət yeyən quşun dimdiyi əyri olar.
Ətin çiyi ət gətirər, xamırın çiyi dərd gətirər.
Ər eldən gələr, oğul beldən.
Əvvəl meçidin içi, sonra çölü.
Əvvəl fikirləş, sonra danış.
Əyri ol əyriynən, düz ol düzüynən.
Əli qızıldı.
Əli boş, üzü qara.
Əli daş altındadı.
Əl yananda ağıza soxallar.
Ən yaxşı yol – düzlükdü.
Əjəl qapını döyməmiş gəlir.
Əslini danan haramzadadı.
Ətinnən kabab olmaz, qanınnan kasa dolmaz.
Ətnən dırnaq arasına girən iylənib çıxar.
Ət yiyən quş dimdiyindən bəllidi.
Ərlə arvadın suyu bir yerdən götürülür.
Əl tutmaq Əlidən qalıb.
Əlindən gələni beş qaba çək.
Ər eldəndi, oğul beldən, qardaşa canım qurban.
Ərə getmək gələndə böyük bacı olursan, ev süpürmək gələndə kiçik bacı.
Əzəlin gəlincək axırın gəlsin.
Əslində olan nəslində olar.
Ərnən arvadın torpağı bir yerdəndi.
Əsl dost dar gündə sınanar.
Əql harda, dövlət orda.

Əkmək eldən, su göldən.
Əl uşağı adama övlad olmaz.
Əmanət ata minən tez düşər.
Ən böyük varlıq sağlıqdır.
Ədəb bazarda satılmaz.
Ərsiz arvad cilovsuz at kimidi.

F

Fələyə fələk.
Fağır-fağır oturma.
Fikir min yerə gedər, güman bir yerə.
Fələk yıxmıyanı kələk yıxar.
Fəqirin parası kimi dostu da az olar.
Fürsət quşdu, buraxmaq olmaz.

G

Gədədən bəy olmaz.
Gəzdi İranı, Turanı, cənnət tapdı buranı.
Göz nə istər iki göz, biri əyri, biri düz.
Gör-götür dünyasıdı.
Genəşikli don gen olar.
Gəzən ayağa daş dəyər.
Gül xarsız, gözəl nazsız olmaz.
Gedər bostan qırası, qalar üzün qarası.
Gədadan ağa, küllükdən təpə olmaz.
Gözəl ağa çox gözəl idi, vurdu çiçək çıxartdı.
Göz görməsə, könül sevməz.
Gözdən iraq olan könüldən də qıraq olar.
Gənclik sultanlıqdı.
Günü günə satan iş görə bilməz.
Göz görmək üçündür.
Göz gördüyünü sevər.
Gödək adamın beynindən üç dəfə koxalıq keçər.
Gözəl eyibsiz olmaz.
Gündüz gəzər obanı, gecə sancar dabanı.
Geyişməyən yerdən qan çıxarma.
Gəlinin ayağı, çobanın dayağı.
Gəzəyən gəzə bilməz, gəzməsə dözə bilməz.
Getmə gözümnən, gedərəm özümnən.
Gəlini gərdəkdə, küçüyü deməkdə
Görünməyən oğru, xannan , bəydən doğru.

Görənnən, götürən yarıdı.
Getmişdim gəlin görməyə, gəlin gedib təzək dərməyə.
Gəlin ocağa gələr.
Gəlin gəlin olmaz, gəlin düşən yer gəlin olar.
Get naxıra, gəl axıra.
Gücün çatan işdən yapış.
Gen qaz, dərin qaz. Özün düşərsən.
Gec olar, güc olar.
Görməmişdən al, dadamala ver.
Gündə-gündə, bir gün səndə, bir gün məndə.
Gəmidə oturuf gəmiçiynən vuruşmax olmaz.
Gedən bağdan gedər, bağbannan nə gedər.
Gedən gün geri dönməz, günü-günə calasan da.
Gəmidə oturub, gəmiçinin gözünü çıxarır.
Gənclik bir quşdu, uçdu tuta bilməzsən.
Gözəllik ondu, doqquzu dondu.
Gözdən iraq olan, könüldən iraq olar.
Gül tikansız olmaz.
Gülün qədrini bülbül bilər.
Gülmə qonşuva, gələr başuva.
Görülmüş işdən gül iyi gələr.
Gəlini gərdəkdə, uşağı bələkdə tərbiyə edən peşman olmaz.

H

Haynan gələn, vaynan gedər.
Hər iti üstünə hürütmə.
Hər sözün öz yeri var.
Hər hürən itə daş atmazdar.
Hərcayı sözün hərcayı da cavabı olar.
Hər şey nazikliyindən sınar, insan yoğunluğunnan.
Hərə gözü öz qabağına çəkər.
Hər işin öz yeri, hər meyvənin öz dadı var.
Həyasızdan həyanı saxla.
Hələ burnu daşa dəymiyif.
Hənək, hənək, dalı dəyənək.
Hər ağızdan bir avaz gəlir.
Haynan gələn huynan gedər, selnən gələn suynan gedər.
Hər daş baş yarmaz.
Həccə gedən gəldi, saca gedən gəlmədi.
Haqq söz acı olar.
Hirsin dövlətə ziyanı var.

Hər nə əkərsən, onu biçərsən.
Hər yarağımız bitdi, qaldı saqqal darağımız.
Hər saatın bir hökmü var.
Hər oxuyan Molla Pənah olmaz.
Hər gözəlin bir eybi var.
Hər saqqaldan bir tük çəksən kosaya da saqqal olar.
Hər sözün yeri var.
Hər şey öz vaxtında bitər.
Hər meyvənin bir dadı var.
Heç kəs ayranına turş deməz.
Haynan gələn huynan gedər.
Həyasıza salam ver, yanınnan öt.
Həyasıza salam ver keç.
Hər şeyin təzəsi, dostun köhnəsi.
Halva, halva deməknən ağız şirin olmaz
Hər yetənə ürək açma.
Hər quşa öz yuvası istidi.
Hər kəs özünə cavabdehdi.
Hər meyvənin bir dadı var.
Hər ürəkdə bir aslan yatır.
Hərə öz ölüsünü ağlıyır.
Hər yağan qar olmaz.
Hər deyilənə qulax verməzlər.
Hər şeyin təzəsi, dostun köhnəsi.
Hər kəs öz arşınıyla ölçür.
Hərəkət varsa, bərəkət də var.
Hələ başı qoltux altı görmüyüf.
Hərə bir tük versə, kosada da saqqal olar.
Haray bəri başdan.

Həvəsdi-bəsdi,
Gilasdı-bəsdi.

Haynan gələn, vaynan gedər.
Hənək-hənək, dalı dəyənək.
Hər kəs öz evinin nökəridi.
Hörməti pulnan ölçməzdər.
Həm nala vurur, həm mıxa.
Hərəkətdə bərəkət var.
Hər aşiqin bir dövranı var.
Hər gecənin gündüzü var.

Hər kəs əkdiyini biçər.
Hərəkət olmazsa, bərəkət olmaz.
Haqdan qaçan ucalmaz.

## X

Xamır yeyənin fağırı olmaz.
Xeyirin gələn yerə papağını tıxama.
Xəstə yatan ölməz, əcəli yetən ölər.
Xırman döyən öküzün ağzını bağlamazdar.
Xalqın ağzını bağlamaq olmaz.
Xəmir suyu çox götürər.
Xalam bildi – aləm bildi.
Xalq gedir quş gətirir, Şaqqulu bayquş gətirir.
Xeyir söyləməzə dedilər, xeyir söylə. Dedi, bəlkə getdik gəlmədik.
Xain xoflu olar.
Xeyir söyləməsən, şər gəlməz.
Xalq atan daş uzağa düşər.
Xain qorxaq olar.
Xoruz bannamasa da sabah olur.
Xeyir Allahdan şər şeytandan.

## İ

İki qancıx bir qavda yal yeməz.
İki yana baxan çaş olar.
İnsanın qudurmuşu, itin qudurmuşunnan betərdi.
İmam üçün də ağla, yezid üçün də.
İt azıydı, biri də gəmiynən keşdi.
İt harava gölgəsində yatır, elə bilir öz kölgəsidi.
İt quduranda sahibini tutar.
İt əl çəkdi, motal əl çəkmədi.
İt kimi iy bilir.
İti öldürənə sürüdəllər.
İtik itiyi tapar.
İt otu, bağa yarpağı.

İş ki, qaldı arvada,
Ölən günü sal yada.

İnsaf dinin yarısıdır.
İt itin dişindən qorxar.
İtin dişi, donuzun dərisi.

İt kəlləsini xonçaya qoyarsan, sürüşüb düşər.
İt hürər, karvan keçər, yel qayadan nə aparır.
İt itlə boğuşar, yolçunun işi rast gələr.
İt qursağı yağ götürməz.
İlan vuran ala çatıdan qorxar.
İlan hara əyri getsə öz yuvasına düz gedər.
İlana balası qənim olar.
İlanın ağına da lənət, qarasına da.
İslanmışın yağışdan nə bakı?
İstəyənin bir üzü qara, verməyənin iki üzü.
İki baş bir qazanda qaynamaz.
İki güləşənin biri yıxılar.
İt qorxduğu yerə hürür.
İt ola - ət ola.
İt itnən boğuşdu, qurdun işi rast düşdü.
İştah diş dibindədi.
İlan ulduz görməsə ölməz.
İyidin sözü bir olar.
İki əl ilə bir başı saxlaya bilmir.
İl ildən pis gəlir.
İl qulun saldı.
İt itin ayağını basmaz.
İtə daş atmazlar sahibinə görə.
İşin düşdü arvada ölən gününü sal yada.
İt itnən boğuşdu, yolçuya girəvə düşdü.
İt əppəyə, uşaq məhəbbətə.
İştah diş altındadı.
İlanın balası özünə qənimdi.
İynəynən gor qazır.
İş tərs gələndə, xəşil də diş sındırır.
İlanı görənə də lənət, öldürüb basdırmayana da lənət.
İki yana baxan çaş olar.
İt itnən boğuşar, yolçunun işi rast gələr.
İstəyənin bir üzü qara, verməyənin iki üzü.
İtdən olan küçük olar.
İt itin ayağını basmaz.
İki su bir çörəyin yerindədi.
İş ki qaldı səbirə, tut yönünü qəbirə.
İsmarışnan hac qəbul olmaz.
İsdanmışın yağışdan nə pəki?
İlan vuran ala çatıdan qorxar.

İyid hünərdə, at minərdə.
İti öldürənə sürüdəllər.
İşdənən dəmir pasdanmaz.
İgidi dərd əyməz, arvad əyər.
İki qarpız bir əldə tutulmaz.
İki qılınc bir qına girməz.
İki əl qırılsın, bir başı yola aparmazsa.
İgidlik ondu, doqquzu qaçmaqdı.
İgidin əyisi dayısına çəkər.
İlan çalan ip sürüntüsündən də qorxar.
İlanı basmasan, çalmaz.
İlanı Seyid Əhməd əliynən tutar.
İnsanın gözü, yerin qulağı var.
İt hürür, karvan yüyürür.
İlanın quyruğunu yox, başını bas.
İnək su içər süd olar, ilan su içər zəhər olar.
İş çətinə düşəndə öküz öküzdən görər.
İnsana dil ilə heyvana ağac ilə.
İnsan dilləşə-dilləşə, heyvan heləşə-helləşə mehriban olar.
İki qoçun başı bir qazanda qaynamaz.
İgid oğul düşmənə əyilməz.

K

Kasıf deyər: mübarək, döylətdi deyər: hardan almısan?
Kasıvın bir atı var, o da ayğır.
Keçi öldü, qoturu kəsildi.
Keçəl baxar güzgüyə, adın qoyar özgüyə.
Keçəl yağ tafsa, başına yaxar.
Keçəl suya getməz.
Keçəlin dərdi, başı, bir qazan ayran aşı.
Keçinin ölümü gələndə çovanın çomağına sürtünər.
Keçinin ölümü palıddan olsun.
Kim ayranına turş deyər?
Koyxanı gör, kəndi yıx.
Kor atı minif köndələn çapar.
Kor atın da kor nalvəndi olar.
Kor kora lağ eləməsə, bağrı yarılar.
Kotan nə bilir, qayış nə çəkir?
Könlü balıx əti istiyən suda gərək.
Köçən azan qarıya bu da azdı.
Küldən təpə olmaz.

Küləyi tutmax olmaz.
Külək qayadan nə aparar.
Kürd qızınnan belə oğul.
Kar könlündəkini anlar.
Kasıb pul tapdı yer tapmadı.
Keçəl dəva bilsə, öz başına eylər.
Kəsik baş söyləməz olar.
Keçinin qoturu bulağın gözündən su içər.
Keçi can qayğısındadır, qəssab piyin axtarır.
Keçən günə gün çatmaz, calasan günü-günə.
Kor kora necə baxar, Allah ikisinə də öylə baxar.
Kor atın kor da nalbəndi olar.
Köçən yurdun qədrini qonan yurdda bilərlər.
Könül sevən göyçək olar.
Köpək qaya kölgəsində yatar, elə bilər öz kölgəsidir.
Kor tutduğun bərk tutar.
Kotan nə bilir ki, qayış nə çəkir?
Kora gecə-gündüz birdir.
Keçmə namərd körpüsündən, qoy aparsın sel səni.
Kişi sər verər, sirr verməz.
Keçi keçidi yatdığı yeri dürtmələyir.
Köhnə bazara təzə nırx qoyub.
Kələyinən gələn, küləyinən gedər.
Külü küllükdən götür.
Keçən sözü çəkmə üzə.
Kor koru tapar, su axuru.
Keçinin qoturu başa çıxar.
Kasıvın halın soruşan az olar.
Küləklə gələn küləklə gedər.
Kimini asır, kimini kəsir.
Kişinin sözü bir olar.
Köksüz ağac tez yıxılar.
Köhnə qar ancaq uca dağlarda qalar.
Keçi öldü, qoturu kəsildi.
Kasıb təzə geyəndə deyərlər: Hardan almısan? Varlı təzə geyəndə deyərlər: Sağlıqnan.
Kar dedi: səs gəlir, kor dedi: odur bax, oğru gəlir. Lüt dedi: tərpənməyin , gələrlər soyarlar.
Kəsik baş söyləməz olar.
Keçəl baxar güzgüyə,adını oyar özgəyə.
Kabab köz etdiyimdi, hamısı öz etdiyimdi.

Keçəl halva yeyər, parasına minnət.
Kərgi öz sapını kəsməz.
Kəskin sirkə öz qabına zərər verər.
Köpəkdən olan köpək olar.
Keçi can vayında, qəssab piy vayında.
Keçinin qoturu, gedər bulaq başınnan su içər.
Kor koru tapar, su da çuxuru.
Kələk ilə gələn külək ilə gedər.

## Q

Qazancın azı-çoxu olmaz.
Qazaş qudurar, mayyı yeyər.
Qanana da qurvan, qanmıyana da, dad alayarımçıx əlinnən.
Qara kişmişi cibə tökəllər, ağ ayranı itə.
Qaradan artıx rəng olmaz.
Qəbristana gedən ölü qayıtmaz.
Qız ağacı qoz ağacı, hər yetən bir daş atar.
Qızıldan taxtım olunca, bir quruja baxtım olsun.
Qıraxdan baxana döyüş asan gələr.
Qonşu-qonşuya baxar, canını oda yaxar.
Qonşu paxıl olmasa, kor qız ərə gedər.
Qorxulu baş salamat olar.
Qulağımnan qut oldum.
Qurdalama şorunu çıxardajaxsan.
Qüsul suyunu üstümə tökmə.
Quş qanadnan uçar, insan kamalnan.
Qurd balası qurd olar.
Qərib dərdin təh ağlar!
Qaçan da Allah çağırır, qovan da...
Qaz vur qazan doldursun.
Qaşıq çömçədən irəli olub.
Qanı qan ilə yumuyublar.
Qaradan artıq boyaq olmaz.
Qaşını aldığı olmuşdu, vurdu gözün çıxartdı.
Qarınınkı Qurandan keçibdir.
Qazanc qudurub mayanı yedi.
Qılınc yarası gedər, dil yarası getməz.
Qisas qiyamətə qalmaz!
Qurd nə bilir qatır bahadır?
Qul xətasız, ağa kərəmsiz olmaz.
Qurda qoyun tapşırmaq olmaz.

Qurddan olan qurd olar.
Qonşun pisdir, qaç qurtul.
Qılıç qınını kəsməz.
Qorunan gözə çöp düşər.
Quş var ətini yeyərlər, quş var ət yedirərlər.
Qonaq qonağı istəməz, ev sahibi heç birini.
Quduran qırx gündən artıq yaşamaz.
Qonşu qonşuya baxar, canını oda yaxar.
Qoyunu qoyun ayağından, keçini keçi ayağından.
Qurd dumanlı gün axtarar.
Qonaqdan saldıran yağıdan saldırıb.
Qonşuya ümid olan şamsız yatar.
Qurd yuvasından sümük əskik olmaz.
Qızınamadıq istisinə, kor olduq tüstüsünə.
Qoca at da arpa yeyər.
Qocanın biliyi, cavanın biləyi.
Qeyrətsiz dostun olunca, qeyrətli düşmənin olsun.
Qarın başdan aşağıdı-deyiblər.
Qarnı doyur, gözü doymur.
Qarı düşmən dost olmaz keçsə də yüz il belə.
Qonağa yat deyəllər, get deməzlər.
Qızıl taxtım olunca, qızıl baxtım olsun.
Quşu quşunan tutallar.
Qurddan qorxan qoyun saxlamaz.
Qarın sürfə deyil hamıya açasan.
Qatırçının qatırını hürkütmə.
Qarnım üçün döyüləm, qədrim üçünəm.
Qonşu qonşuya tən gərək, tən olmasa gen gərək.
Qırx qazanın damazlığıdı.
Qonşuya umud olan şamsız, oynaşa umud olan ərsiz qalar.
Qonşum-qonşu olsa, kor qızım ərə gedər.
Qohumun kimdi, yaxın qonşum.
Qulaq gündəbir söz eşitməsə kar olar.
Qızım sənə deyirəm, gəlnim sən eşit.
Qəzadan qaçmaq olmaz.
Qarğa leşə qonar.
Qatal zirvədə, qarğa zibillikdə gəzər.
Qarnıyın qurdu var.
Qara gün adamı qaraldar.
Qaradan artıq rəng olmaz.
Qara baxtım oyanmadı.

Qarın qardaşdan irəlidi.
Qız gərək, tez gərək.
Qəmiş qoyma.
Qəm qəm gətirər, dəm də dəm.
Qızıl hər yerdə qızıldı.
Qızıl pas tutmaz.
Qojalıb uşax uşax həddinə düşüf.
Qorxulu baş bəla görməz.
Qurd ürəyi yeyif.
Qurtdu-qurtdu danışma.
Qurt dedin, qulağı çıxdı.
Qılınc qında paslanar.
Qılınc qınını kəsməz.
Quşqunu boşdu.
Qohum qohumun ətini yesə də, sümüyünü çölə atmaz.
Qar yağıb ayaq üşüməyə.
Qurban olum o qana, üstündən bir gün keçə.
Qılınc kəsməyəni söz kəsər.
Quş dənə gələr, milçək qana.
Qonağın ruzusu özündən qabaq gəlir.
Quru süfrəyə dua olmaz.
Quyruğu qapı arasında qalıb.
Qara gün adamı tez qocaldar
Qarğa çoxbilmişliyindən tuzağa düşər.
Qalan işə qar yağar.
Quru quyudan su çıxmaz.
Qoy məni tanış qurd yesin.
Qonşuyu bir inəkli istə ki, özün iki inəkli olasan.
Qoyun ürkdü, axsax qabağa düşdü.
Qar-qar üstə yağar.
Qazana nə qoysan, çömçəyə o gələr.
Qaldır samanı, gələr zamanı.
Qız öz başına qalsa ya davulçuya varar, ya zurnaçıya.
Qızını vurmayan, dizini vurar.
Qoyun keçi ayağından asılmaz.
Qonşu baxar, gorun atəşə yaxar.
Qonşuya umudlu olanın əkməgi doğraqlı qalar.
Qudurmuş köpəgin ömrü qırx gündü.
Quyunu qazan düşər.
Qoyun, quzusunun ayağını basmaz.
Qara günün ağ günü də var.

Qız uşağı evin yaraşığıdı.
Qızı anasına, bezi eninə baxıb alarlar.
Qələm yazanı qılınc da poza bilməz.
Qanan qanmaza borcludu.
Qəribin boyu uzun olar, dili qısa.
Quru süfrəyə də bismillah.
Qismətdən artıq yemək olmaz.
Qoyunu qurda tapşırma.

L

Lalın dilini anası bilər.
Lalın dilini yiyəsi bilər.
Lax yumurta suda batmaz.
Lağ eləmə atama, lağ edəllər atana.
Lələ köçüf, yurd ağlar.
Lələ şələni basıf.
Lənət şeytana.
Lalın dilini nənəsi bilər.

M

Manqal maşasız olmaz.
Martda mərək, yarı görək...
Mənə dəymiyən qurd min il yaşasın.
Mərdi qova-qova namərd edəllər.
Mərdimazarı axtarmaxnan döyül, özü axtarıf tapır.
Mərddik üzdən, məhəbbət gözdən oxunar.
Malını yaxşı saxla, qonşunu oğru tutma.
Mal yeməzin malını yeyərlər.
Malın şərikli olunca, arvadın şərikli olsun.
Mal sahibinə oxşamasa haramdır.
Mənzil yaxın, kira çox, bunda bir əlamət var.
Molla halvanı gördü, Quran yadından çıxdı.
Mal gedər bir yerə, iman gedər min yerə.
Məscidin qapısı açıqdır, itin də həyası gərək.
Məndən sənə öyüt, dəni özün üyüt.
Mərd özünnən görər, namərd yoldaşından.
Milçək murdar deyil, amma könül bulandırır.
Meşə çaqqalsız olmaz.
Müftə sirkə baldan şirindir.
Meymunun boğazına su çıxanda balasını ayağı altına alar.
Malı alanda sat.

Mələk donuna girmiş şeytandı.
Malın mal oluncan, bazarın bazar olsun.
Mıs-mıs eliyincə, elə Mustafa de.
Meşə çaqqalsız olmaz.
Mənnən oluf mənə oxşamıyan.
Mərd düşmən namərd dostdan yaxşıdı.
Məsləhətli don gen olar.
Məhəbbətin yaşı yoxdu.
Məclisin dalı-qabağı olmaz.
Milçək şirəyə qonar.
Milçəkdən fil düzəldir.
Mərd ilə daş daşı, namərd ilə bal yemə.
Mərd özünnən görər, namərd özgəsindən.
Mal sahibinə oxşuyar.
Mərdin qulu ol, namərdin ağası.
Min daş-qaşın olunca, bir ağıllı başın olsun.
Mənə dəyməyən ilan yüz il yaşasın.
Meymun baxar güzgüyə, adını qoyar özgəyə.
Mərdin ölüsü namərdin diisindən hörmətli olar.
Məndən sənə öyüd, ununu özün üyüd.
Mıxı mismar eyləyən Allah var.
Malı cinsiynən aldığın kimi, gəlini də nəsliynən al.

N

Nala, mıxa vurur.
Namusu it də yemir.
Namussuz yaşamaxdansa, namusnan ölmək yaxşıdı.
Nə ağına baxır, nə bozuna.
Nə dostduğu bilinir, nə düşmannığı.
Nə işim işdi, nə əlim boş.
Nə yatıf, nə yuxu görsün?
Nə yatdım, nə vəyğa görəm.
Nə yuğurdum, nə yafdın, hazırca kökə tapdım.
Nə otu var, nə suyu.
Nəhlət pozana, rəhmət düzənə.
Nisyə yeyən iki dəfə keflənər.
Nökər kimi qazan, ağa kimi ye.
Nuhu taxtda görüf.
Nə balını istəyirəm, nə bəlasını.
Nə tökərsən aşına, o çıxar qaşığına.
Nəhəng dəryada olar.

Nisyə çaxır içən iki dəfə keflənər.
Niyyət hara, mənzil ora.
Neyniyəsən, düz əyrini kəsəcək.
Namərdə bel bağlama.
Namərdin körpüsünnən keçmə.
Nə hır qanır, nə zır.
Nə ətdir, nə sümük.
Nə aza qane olur, nə çoxa.
Nə işim işdi, nə əlim boşdu.
Nağdı olsun, soğan olsun.
Nisyə girməz kisəyə.
Nə çağırana hay verir, nə Allaha pay.
Nə əkərsən, onu biçərsən.
Nə beşdə alaçağım var, nə onda verəcəyim.
Nə şiş yansın, nə kabab.
Nə olacağa, nə öləcəyə çarı var.
Naxırçı qızı naxır əppəyi istər.

## O

O dağa qar yağdı, bu dağa xavardı.
Oğru elə bilər hamı oğrudu, doğru elə bilər hamı doğrudu.
Oğrudan oğruya halaldı.
Odu qoyuf, külü ayaxlıyır.
Olacağa çarə yoxdur.
Ot kökü üstə bitər.
Oğul şüurlu olsa neylər ata malını, bişüur olsa neylər ata malını.
Oddan kül törər, küldən od.
Od yanmasa tüstüsü çıxmaz.
Od düşdüyü yeri yandırar.
Od ilə oynamaq olmaz.
Oba köçüb, yurt ağlayır.
Oxunu atıb, yayını gizlədir.
Orağı kürk vaxtı, kürkü orax vaxtı alarlar.
Odu pambığa bükmək olmaz.
Oğru elə dindi ki, doğrunun bağrı yarıldı.
Oğul-düşmən çəpəridi.
Olan oldu, torva doldu.
Oxunu atıb yayını gizlətməzdər.
Oğluna sünnət edir, qonşuya minnət edir.
Oğlan dayıya, qız xalaya oxşar.
Ot öz kökü üstə bitər.

Oyunçu deyil, odunçudu.
Oğul düşmən toxmağıdı.

Ö

Öz gözündə tiri görmür, özgə gözündə qılı seçir.
Özgə atına minən tez düşər.
Özü əyirif, özü də toxuyur.
Özünə dost qazan, düşman ojax başındadı.
Özünə rəva bilməyəni, yoldaşına da bilmə.
Özünə umac ovammır, başqasına əriştə kəsir.
Özünü bir inəkli bil, qonşunu iki.
Özünü yorulmuş biləndə, yoldaşını ölmüş bil.
Özünü öyən dizinə döyər.
Öy qalıf əyriyə, həm yeyə, həm səyriyə.
Ölülər elə bilir, dirilər halva yeyir.
Ölümə çarə yoxdu.
Ölünün böyüyü-kiçiyi olmaz.
Ölüsünü ağlamır, öz gününü ağlayır.
Örtülü bazar, dostduğu pozar.
Öskürənin yanında asqırmasan, deyər ağzı yoxdu.
Ölmə eşşəgim, yaz gələr yonca bitər.
Ölmüş eşşək axtarır nalını çəksin.
Ölü ilə ölmək olmaz.
Özgə atına minən tez düşər.
Özünə umac ova bilmir, özgəsinə əriştə kəsir.
Özü özünə eədiyini el yığılsa eyləyə bilməz.
Ölüsü ölən qırx gün ağlar, dəlisi olan hər gün.
Özüm dedim, özüm eşitdim.
Öküz əyməsə daş qəribliyə düşməz.
Örkən ha uzun olsa, gəlib doğanaqdan keçəcək.
Özü deyir, özü eşidir.
Özgə malına göz tikmə.
Özü yıxılan ağlamaz.
Öz qədrini bilməyən, özgənin qədrini bilməz.
Ölünü özbaşına qoysan, kəfəni cırıf qaçar.
Ölünün atı yüyrək olar.
Öküzü soyuf quncuğunda bıçağı sındırmazdar.
Öz əliylə özünə quyu qazır.
Öz daşımız, öz divarımız.
Ölüm var ölüm kimi, ölüm var zulum kimi.
Ölənnən ölməzdər.

Örgənmişə nə toba?
Öz çulunu sudan çıxarır.
Ölmə eşşəyim ölmə, yaz gələr, yonca bitər.
Örkən nə qədər uzun olsa, yenə doğanaqdan keçəcək.

## P

Papax altda oğlan yatır.
Piyadanın peşəsi atdıya gülməkdi.
Pirinə təpik atma.
Pis qohumnan yaxşı qonşu yaxşıdı.
Pis qohum baş qaxıncı; atdın nədi, tutdun nədi?
Pişiyin əli ətə yetişməyəndə adını iylənmiş qoyar.
Pişik balasını çox istədiyindən yeyər.
Pişiyin əli ətə çatmaz deyər qoxubdur.
Pişiyi dara qısnayanda dönər üzünü cırmaqlar.
Piyadanın qaydasıdır, atlıya gülər.
Payın azı, çoxu olmaz.
Pul saxla, savaşanda barışmağa üz saxla.
Padşahın da dəmirçiyə işi düşür.
Paxıl xoflu olar.
Palaza bürün, elnən sürün.
Pazı paz çıxardar.
Pələng qəfəsdə də pələngdir.
Polad sınar, əyilməz.
Pay bölən ya payınnandı, ya imanınnan.

## R

Rəhmət verənə, nəhlət pozana.

## S

Saqqalım yoxdu, sözüm keşmir.
Saqqalı hələ ələ verməmişəm.
Saqqalıma soğan doğrama.
Saqqızı zivilə düşüf.
Saqqızını oğurruyuf.
Salavat qüvvətə bağlıdı.
Saman sənin deyil, samannıx ki, sənindi.
Sən tülküsənsə, mən də quyruğuyam.
Sənnən karvan vuran olmaz.
Səsi savax çıxacaq.
Sizə ədatdı, bizə bedat.

Söz var el içində, söz var ev içində.
Söz kimindi, götürənin, sufra kimindi, oturanın.
Söz sözün söykəyidi.
Söhbətin şirin yerində vartazar gəldi: Allah saxlasın.
Su gəlmiş arxa, bir də gələjək.
Su səmtinə axar.
Süddü qoyun süddən çıxmaz.
Saxla samanı, gəlir zamanı.
Sərçədən qorxan gərək darı əkməsin.
Saman altından su yeridir.
Söz qılıncdan kəskindir.
Söz sözü gətirər, arşın bezi.
Südlü qoyun sürüdən ayrılmaz.
Söz bir olsa, zərbi kərən sındırar.
Suyun lal axanından, adamın yerə baxanından.
Saman altdan su yeridir.
Su qaba girdi oldu içməli.
Saqqalım yoxdu, sözüm ötmür.
Sac əppəyi kim ikiüzlüdü.
Soğan olsun, nağd olsun.
Səksən, doxsan bir gün yoxsan.
Söz eşidənindi, yer oturanın.
Sonrakı peşmançılıq fayda verməz
Sonsuzun malı ilan sümüyüdü.
Subaylıq soltanlıqdı.
Səni suya aparıf, susuz qaytararam.
Su murdar götürməz.
Su aydınnıxdı.
Suya tüpürməzdər.
Su başından bulanar.
Südünə görə mələ.
Sonulayan ya kora, ya keçələ.
Söz dünyanın bəzəyidir.
Sözü çox desən, qiymətdən düşər.
Sözü söz qanana deyəllər.
Sözün atası –ağıl, anası-dildi.
Söz ver ki, kəsdirir başı, söz var ki, kəsər savaşı.
Söz sözün söykəyidi.
Sözü ağzında bişir, sonra danış.
Salam Allah salımıdı.
Söz vaxtına çəkər.

Siçanın zili də dənizə xeyirdi.
Suyun lal axanı, insanın yerə baxanı.
Sağ gözün sol gözə xeyri yoxdu.
Saman sənin döyül, samannıx ki sənindi.
Söymə nökər atama, söymüyüm bəy atana.
Su bulnmasa durulmaz.
Söz sözü çəkər.
Sən məni atının tərkinə almırsan, mən səni itimin tərkinə almaram.
Söhbət yolun körpüsü.
Saxla gönü,gələr günü.
Saqqalım yox ki, mənə inansınlar
Sağ əlin sol ələ xeyri yoxdu.
Sən ağa, mən ağa, sığırları kim sağa?
Sərçə nədi, şorbası nə olsun?
Son peşmanlıq əl verməz.
Söz var xalq içində, söz var xülq içində.
Söymə qul babamı, söyməyim bəg babavu.
Su başına aparıb, susuz döndərir.
Söz götürənin, ev oturanın.
Sözün yalanı yox, yanlışı var.
Su-suyu tapar, su da çuxuru.
Süfrənin başı ayağı olmaz.
Sən haqnan ol, haq sənnəndi.

Ş

Şər söyləməsən, xeyir gəlməz.
Şərti şumda kəsək ki, xırmanda toz olmasın.
Şüş qızıl ola, tamahım yoxdu.
Şapalaq ilə üz qızardır.
Şərti şumda kəs, xırmanda şana-kürək sınmasın.
Şeytana papış tikir.
Şeytannan əvvəl yaranıf.
Şeytan şeytannığında qalır.
Şələ lələni basdı.
Şirin dil dəmir qapını da açar.
Şirin yuxuma haram qatma.
Şirin dil ilanı yuvasınnan çıxardar.
Şahın da işi qaraçıya düşər.

T

Toxun ajdan xəvəri olmaz.
Tuturam durmur, buraxıram vurmur.

Tülkü quyruğunu gəzdirə bilmir, dalına da bir şax bağlıyır.
Tülkü tülküyü buyurdu, tülkü də quyruğunu.
Toyux toyuxdu, su içəndə Allaha baxır.
Tazə kuzə suyu sərin saxlar.
Tapan tapanın olsa, naxırçı bir bəy olur.
Tamarzıdan al, dadamala ver.
Tərlan yerini sar tutmaz.
Tək əlin səsi çıxmaz.
Tülkü var ki, baş kəsər, qurdun adı bədnamdır.
Tülkü çox bildiyindən tələyə düşər.
Toyuq bir su içər, bir Allaha bxar.
Tosbağa qınından çıxdı, qınını bəyənmədi.
Torpaq deyir: döy məni, doyurum səni.
Tülkü donuna girmiş canavardı.
Tökülən dolmaz.
Tapan tapanın olsa, çöldə çoban bəy olar.
Tənbəl çörəksiz qalar.
Tənbəl bir işi iki dəfə görər.
Tək Allahın adıdı.
Torpaqdan pay olmaz.
Toxun ajdan xəvəri olmaz.
Toyda donunu tanıdı.
Tamarzıdan al, dadmala ver.
Təqsir həmişə öləndə olur.
Təzə bardağın suyu sərin olar.
Toyux da su içəndə Allaha baxar.
Toydan sonra nağara, xoş gəldin Bayram ağa.
Toya girmək bir ayıb, toydan çıxmaq iki ayıb.
Tülküyə dedilər: şahidin kimdi?- Quyruğunu göstərdi.

U

Utan utanmazdan, qorx qorxmazdan.
Utananın oğlu olmaz.
Uşax atadan yetim olmaz, ancax anadan olar.
Uşax məhəbbətə, it təknəyə.
Ucuz ətin şorbası olmaz.
Uzun adamın ağlı topuğunda olar.
Uşağa iş buyur, dalınca yüyür.
Uşaq yıxıla-yıxıla böyür.
Uşaq gördüyün götürər.
Ustadına kəç baxanın gözlərinə qan damar.

Uşaqsız ev susuz dəyirman kimidir.
Uman yerdən küsəllər.
Uzun dil ömrü gödəldər.
Ucuz-ucuz danışma.
Uca dağ başına qar yağar.
Urvan mənnən olmasa, çörəyin küt gedər.
Utanırsan, üzünə ələk tut.
Uşaq anadan yetim qalar.
Uşaq dədəsini hamıdan güclü bilər.
Uşağı buyur, dalıncax yüyür.
Utananın oğlu olmaz, olsa da xeyrin görməz.
Ucuz ət qazan dibi dələr.
Uşaqsız arvad, meyvəsiz ağaca bənzər.
Uzun-uzun meşələr, sizdən qalmış peşələr.

## Ü

Üz üzdən utanar.
Üzü üzümə, gözü gözümə.
Üstü bəzək, altı təzək.
Üz verdin, astar da istəyir.
Ürək yanmasa, gözdən yaş çıxmaz.
Ürək sırfa deyil, açasan.
Ürək süfrə deyil, hər yetənə açasan.
Üzə gülənnən dost çıxmaz.

## V

Vara-yoxa baxmaz.
Vaxtsız bannıyan xoruz bədbəxtlik gətirər.
Ver getsin, it aparan olsun.
Vuran oğul ataya baxmaz.
Varrığa tələsən yoxsulluğa tez düşər.
Vaxsız bannıyan beçəni kəsəllər.
Var evi – kərəm evi, yox evi – vərəm evi.
Vaxtsız qonaq öz kisəsindən yeyər.
Vay o adamın halına ki, arvadı ölə, baldızı olmaya.
Varını verən utanmaz.
Varlı yoxsula gülər.
Varlıya mal, kasıva uşax əzizdi.
Verənin üzü ağ olar, verməyəninki qara.
Var əli kəəm əli, yox əli vərəm əli.
Vaxtsız bannıyan xoruzun başını kəsəllər.
Ver yeyim, ört yatım, bəlkə canım çıxmasın.

## Y

Yavaş eşşəyi cüt-cüt minəllər.
Yavaş gedən yorulmaz.
Yağlı çörəyin yoxdu, yağlı dilinə nə oluf?
Yaz var, qış var, nə tələsik iş var?
Yaz inəksizin, qış inəklinin halına.
Yazda əkinçi, qışda dilənçi canım.
Yayda yatan qışda dilənçilik eliyər.
Yanlış da bir naxışdı.
Yan mənim üçün, yanım sənin üçün.
Yanan da mən, yaman da mən.
Yaman yeyənin olsun, yaman deyənin olmasın.
Yatanın payını yeyəllər.
Yaxşı at igidin yoldaşıdı.
Yaxşı qonşudan adama ziyan gəlməz.
Yaxşılığa yamannıx, kor eşşəyə samannıx.
Yaxşılıx da, yamannıx da yaddan çıxmaz.
Yeyin at özünə qamçı vurdurmaz.
Yeyən də özü, deyən də özü.
Yeməkdənsə, umuddu olmax yaxşıdı.
Yeməknən dost olan illərnən düşman olar.
Yetimə umud verən çox olar, çörək verən az.
Yıxılana baltalı da vurar, baltasız da.
Yıxılana gülməzdər.
Yovşan bəsdəməknən çəmənzar olmaz.
Yolnan gedən yorulmaz.
Yoxun üzü qaradı.
Yumrux çəkənə çomax çəkəllər.
Yüz peyğəmbərə yalvaranatan, bir Allaha yalvar.
Yüz fikir bir borcu ödəməz.
Yüzə dözən, yüz birə də dözər.
Yüngül saqqal olma.
Yaxşılıq eylə at dəryaya, balıq bilməsə xaliq bilər.
Yarı gör özün danış, ev yıxar ara sözü.
Yaxşı igid dalı gözlər, yaxşı at qabağı.
Yatan öküzün başına durn öküz sıçar.
Yerin qulağı var.
Yalançının evi yandı, heç kim inanmadı.
Yanan yerdən tüstü çıxar.
Yağlı əlin var, sürt öz başına.
Yaxşı igidin adını eşit, özünü görmə.

Yaz əkinçi, qış dilənçi.
Yavaş gedən çox gedər.
Yalançını mənzilinə kimi...
Yalvarmaq ilə donuz darıdan çıxmaz.
Yatan iti oyatma.
Yaşın oduna quru da yanar.
Yatan ilanın quyruğunu basma.
Yağışdan qurtuldum, yağmura düşdüm.
Yolçu yolda gərək.
Yüz qayğı bir borcu ödəməz.
Yoxsulluğu yox olsun.
Yüz mamaça yığılsa, güc doğana düşər.
Yüz ölç, bir biç.
Yorğanına görə ayağını uzat.
Yük əyməsə, daş qəribliyə düşməz.
Yaxşı at qamçı yeməz.
Yoxun üzü qaradı.
Yayda ayransız, qışda yorğansız.
Yetimin əli çörəyə çatanda, başı daşa dəyər.
Yolnan gedən yorulmaz.
Yalançının evi yandı heç kəs inanmadı.
Yeməynən doymayan, yalamağnan doymaz.
Yoğurmadı, yapmadı hazırca kökə tapdı.
Yatan öküzün başına duran öküz çıxar.
Yad gələ-gələ qohum olur, qohum gəlməyə-gəlməyə yad olur.
Yumurtası tərs gələn toyuq kimi hərlənir.
Yalançı tamahkarı aldatdı.
Yer bərk olanda öküz öküzdən görər.
Yaman günün ömrü az olar.
Yan mənə, yanım sənə. Qurbandı canım sənə.
Yağar yağış, bitər qamış.
Yağmadı yağış, bitmədi qamış.
Yaşına baxma, başına bax.
Yaxşı qonşu qardaşdan irəlidi.
Yaxşı arvad üz ağardar.
Yayını atıb, oxunu gizlətmə.
Yaman gözdən özünü qoru.
Yaxşı yoldaş, yaxşı at, yaxşı arvad igidin başını ucaldar.
Yaralı yatar, ac yatmaz.
Yersiz gəldi, yerri qaç.
Yetənə yetir, yetməyənə də daş atır.

Yumulu ağıza milçək düşməz.
Yüyürən yıxılana baxmaz.
Ya üz, ya düz.
Yüz iyirmi dörd min peyğəmbərə yalvarınca, bir Allaha yalvar.
Yağmasa da guruldayır.
Yoxdan Allah da bezardı, bəndə də.
Yayın yaxantısı-qışın yavanlığı.
Yetişən meyvə ağacda qalmaz.
Yersiz söz dostu düşman eləyər.
Yoldaşı öydən götür, əppəyi təhnədən.
Yağışdan qaçdı, doluya tutuldu.
Yaş da quru ayağına yanar.
Yorğan getdi, qovğa bitdi.
Yuxarı tüpürsəm bığdı, aşağı tüpürsəm saqqal.
Yuxu ölümün qardaşıdı.
Yazana baxma, yazdığına bax.
Yüz gün yaraq bir gün gərək.
Yer oturanın, söz götürənin.

## Z

Zarafat yorğan altda olar.
Zarafat dostluğun qayçısıdı.
Zər qədrini zərgər bilər.
Zarafat məhəbbətin qayçısıdı.
Zarafatın da sərhəddi var.
Zorla iş görmək olmaz.
Ziyanın yarısınnan qayıtmax da xeyirdi.
Zor zəyrəkdən bəzir çıxardar.

Altı daşdı daş deyil,
Üstü daşdı daş deyil.
Mal kimi ot otlayır,
Mallara yoldaş deyil.
*(Tısbağa )*

O nədi ki sayı bir,
Həftəsi bir, ayı bir.
Hamıdan hündürdədi,
İşığı bir, boyu bir.
*(Günəş)*

Hay gedər,
Huy gedər,
Bir qarış
Yol gedər.
*(Beşik, yüyürük)*

Hacılar haca gedər,
Cəhd edər, gecə gedər.
Bir yumurta içində
Qırx-əlli cücə gedər.
*(Nar)*

Kələm kökü,
Kərki sapı,
Dörd budağı,
Beş yarpağı.
*(Bədən, qol-qıç və barmaqlar)*

Odu getdi, izi yox,
Budu gəldi, izi yox.
Dərisi var, tükü yox,
Qanadı var,uçuşu yox.
*(Balıq)*

Əkil, məkil əkildi,
Kol divinə çəkildi,
Gözəlliyi can alır,
Boynu nədən büküldü.
*(Bənövşə)*

Mənnən gedər, mənnən gələr,
Yataram yatar, qalxaram qalxar.
İşıxda hamıya görünər,
Qarannıxda yoxam deyər.
*(Gölgə)*

Həşəli , ay həşəli!
Gərməşovlu, meşəli.
Kişinin min oğlu var,
Mini də bir peşəli.
*(Arı)*

Bir quşum var alaca,
Gedir qonur ağaca.
Özünə bir dam tikir,
Nə qapı qoyur, nə baca.
*(İpəkqurdu)*

Heç bir yerdə əkilməz,
Tərəzidə çəkilməz,
Baldan şirin dadı var,
Dörd hərflik adı var.
*(Yuxu)*

Ay ana mənə yağ göndər,
Əsirgəmə bar göndər.
Sağılmamış düyədən,
Çalxanmamış yağ göndər.
*(Bal)*

Bu meşə gül meşəli,
Altı tər bənövşəli,
Bir kişinin min oğlu,
Hamısı bir peşəli.
*(Bal arısı)*

Atdım atana dəydi.
Getdi kotana dəydi.
Dəryadakı balığa
Düzdə ceyrana dəydi .
*(İldırım)*

Ay baba, dur gedək,
Karvanını sür gedək,
Səksən səkkiz qapıya,
Bir qıfılı vur gedək.
*(Orucluq)*

Babadan əziz,
Nənədən əziz,
Qızıldan ağır,
Baldan şirin.
*(Nəvə)*

Mən aşiq yüz iyirmi,
Qaş gözə düz iyirmi,
Vədə başı istərlər,
Altı min yüz iyirmi.
*(Namaz)*

O kimdi saçları zər.
Cahanı gülə bəzər,
Gecə yatar dincələr,
Səhər dünyanı gəzər.
*(Günəş)*

Nar da var, nar da var,
Nardan şirin de nə var?!
Əl tutmaz,bıçaq kəsməz,
Ondan şirin harda var.
*(Yuxu)*

Əzizim daşdan olsun,
Qolu qumaşdan olsun,
Məñə bir silah verin,
Külləsi daşdan olsun.
*(Sapand)*

Mənim gülüm, gül açar,
Gülümü müşkül açar.
Sənədə bir, ayda bir,
Həftədə üç gün açar.
***( İl, ay, həftə günlərində işlənən nöqtələr)***

Sarıdı saman deyil,
Dərədlərə dərman deyil.
Qanadı var quş deyil,
Buynuzu var qoç deyil.
*(Çəyirtgə)*

Biz, biz idik, biz idik,
Otuz iki qız idik,
İpək kimin süzüldük,
İnci kimin düzüldük.
*(Dişlər)*

Bu gün çərşənbədi,
Könlünə düşən nədi?
Odu yox, ocağı yox,
Kölgədə bişən nədi?
*(Dələmə)*

Bir quş gördü,
Canı var, qanı yox.
Yerə əlin uzadıb,
Gögə qıçın uzadıb.
*(Minarə)*

Çağırdım bərktdən,
Səs gəldi kənddən.
Ağzı sümükdən,
Saqqalı ətdən.
*(Xoruz)*

Altı haça,
Üstü haça.
İki üzük,
İki qılça.
*(Qayçı)*

Tap tapmaca,
Gül yapmaca,
Məməli xatın,
Dişləri yox.

*(Xalça)*

Anam, atam var mənim,
Suda xatam var mənim.
Dörd anadan olmuşam,
On iki atam var mənim.

*(4 fəsil 12 ay)*

Başa kələm bağlıyar,
İçi vərəm bağlıyar.
Oğul-uşağı yığıb,
Zülüm-zülüm ağlıyar.

*(Samovar)*

Atdım atana,
Dəydi kotana,
Çayda balığa
Düzdə ceyrana.

*(İldırım)*

Namaz bilmir,
Əzan çəkir.
Arvad alır,
Kəbin bilmir.

*(Xoruz)*

Qanadı var uçmağa ,
İynəsi var sancmağa.
Sevir işi, zəhməti,
Odur kun, var hörməti.

*(Arı)*

Göy üzündə düzülür,
Baxdıqca göz süzülür.
Gün çıxanda yox olur,
Gün batanda çox olur.

*(Ulduz)*

Nar da var, nar da var,
Nardan şirin narda var?
Əl tutmaz, pıçax kəsməz,
Onnan şirin harda var?

*(Yuxu)*

Əziziyəm, nədəndi,
Külfəsi kül bədəndi.
Kötüyünə od düşüf,
Onun odu nədəndi?

*(Qəlyan)*

Əzizim saçdan olsun,
Donu qumaşdan olsun.
Mənə bir silah verin,
Gülləsi daşdan olsun.

*(Sapan)*

Bal sapı,
Balta sapı,
Bir budağı,
Beş yarpağı.

*(Qol, əl, barmaqlar)*

Aban, abanı,
Dəvə dabanı,
Altı qıçı var,
İki dabanı.

*(Tərəzi)*

Əriməz küpə,
Çürüməz küpə,
Min il qalsa,
Çürüməz küpə.

*(Qızıl)*

Bağda sürünər, gəzər,
Az-az görünər, gəzər.
Oxşayır bir yumağa
Qorxuram əl vurmağa.

*(Kirpi)*

Göydən düşər sınmaz,
Oda düşər yanmaz,
Suya düşər batmaz.
*(Kölgə)*

O yanı çəpər,
Bu yanı çəpər,
İçində atlı çapar.
*(Göz)*

Ay ana mənə un göndər,
Toxunmamış çuvalda,
Üyünməmiş un göndər.
*(İydə)*

İki tatar,
Biri qalxar,
Biri yatar.
*(Tərəzi)*

O yanı çəpər,
Bu yanı çəpər,
İçində atlı çapar.
*(Nehrə)*

Bir qazanım var,
Ağzı aşağı qoyanda dolur,
Ağzı yuxarı qoyanda boşalır.
*(Papax)*

Balaca quyu,
Buğlanar suyu,
*(Qəlyan)*

Qar kimi ağdı,
Su kimi axdı.
*(Süd)*

Bir güzgüm var qapaxlı,
Dörd qırağı saçaxlı.
*(Göz)*

Xırmanda bir kişi var,
Qırx-əlli dişi var.
*(Vəl)*

Canı var, qanı yox,
Südü var, əti yox.
*(Arı)*

Çin otaq, çin-çin otaq,
Qırx pilləkən, min otaq.
*(Kələm)*

Bir təhnə almaz,
Savaha qalmaz.
*(Ulduz)*

Ayax haça, baş haça,
İki üzük, iki qılça.
*(Qayçı)*

Bizdə bir kişi var,
Üççə dənə dişi var.
*(Sac ayağı)*

Suya düşər isdanmaz,
Torpağa düşər pasdanmaz.
*(İşıq)*

Bizdə bir kişi var,
Köndələn yatışı var.
*(Farmaş)*

Gecə işığı çoxdu,
Gündüz işığı yoxdu.
*(Ay)*

Ayağı yoxdu, qaçır,
Qanadı yoxdu uçur.
*(Külək)*

On iki davanı,
Gəzir eli, ovanı.
*(Tərəzi)*

O yanı çəpər, bu yanı çəpər,
İçində atdar qaçar.
*(Nehrə)*

Bədəni var, canı yox,
Qanadı var, qanı yox.
*(Arı)*

Bir öküzüm var,
Quyruğunnan tutmasan
otdamaz.
*(Ülgüc)*

Çıxdım təpiyə,
Düşdüm küpüyə
*(Çəkmə)*

Axşam baxdım çox idi,
Səhər baxdım yox idi.
*(Ulduz)*

Bazarda olmaz, tərəzidə durmaz,
Ondan şirin şey olmaz..
*(Yuxu)*

Başını kəsdim qanı yox,
Yumurtasının sanı yox.
*(Qarışqa)*

Başı daraq,
Quyruğu oraq.
*(Xoruz)*

Çıxdım təpəyə,
Düşdüm küpəyə.
*(Ayaqqabı)*

Dam üstündə
Dana dingildər.
*(Dolu)*

Bizdə bir kişi var.
Qırx dənə dişi var.
*(Daraq)*

Bizdə bir kişi var.
İki ədəd dişi var.
*(Qayçı)*

Tez-tez sağ-sola qaçar,
İçində bir at çapar.
*(Nehrə)*

Axşam səpdim noxudu,
Səhər baxdım yoxudu.
*(Ulduz)*

Bədəni yerdə
Saqqalı göydə.
*(Turp)*

Bir sapım var hörülməz,
İlmələri sökülməz,
*(Kiprik)*

Heyvan deyil otlayır,
Quş deyil yumurtlayır.
*(Tısbağa)*

Min bir oğul , bir ata,
Hamısı minib bir ata.
*(Qarğıdalı)*

Axşam oldu saralır,
Sübhü tezdən qaralır.
*(Lampa)*

Baldan şirindir
Zəhərdən acı
*(Dil)*

Gəl deyirəm, gəlmir,
Gəlmə deyirəm, gəlir
*(Dodaq)*

Ələk olar, vələk olar,
Xırmanlarda gərək ola.
*(Külək)*

Atamın bir qurşağı var,
Dəstəklədikcə qurtarmır.
*(Yol)*

Saqqalı uzun sallanır,
Dağa-daşa dırmanır.
*(Keçi)*

Ayaqları su içər,
Üstündən ellər keçər.
*(Körpü)*

Bu yanı qaya, o yanı qaya,
İçində sarı maya.
*(Yumurta)*

Səsi var, canı yox,
Sümüyü var, qanı yox.
*(Saat)*

Sıra-sıra pətəklər,
Bir-birini kötəklər.
*(Dişlər)*

Uzun-uzun uzanır,
Hər ildə bir bəzənir.
*(İlan)*

Üstü otdu, biçilir.
Altı çaydı içilir
*(Qoyun)*

Halalar, ha halalar,
Çöldə dovşan balalar.
*(Buğda)*

Həmişə insana quldur,
Getdiyi, gəldiyi eyni yoldur.
*(Qapı)*

Altında qazan qaynar,
Üstündə ocaq yanar
*(Qəlyan)*

Altı bulax içərlər,
Üstü zəmi biçərlər.
*(Qoyun)*

Sıra-sıra pətəhlər,
Bir-birini kötəhlər.
*(Dişlər)*

Aşağı əyərəm tökülməz,
Qırağı çəpərdi, sökülməz.
*(Göz)*

İçi qırmızı,bayrı yaşıl,
Özünə şahlıq yaraşır.
*(Qarpız)*

Bel sapı, balta sapı,
Bir budağı, beş yarpağı
*(Əl)*

Uzun boy, əyri ayaq,
Gəzər yastı-yapalaq.
*(Dəvə)*

Gedər, gələr,
Evə girməz.
*(Qapı)*

Bir balaca adacıq,
İçi dolu ağ muncuq.
*(Ağız, dişlər)*

Qanadı var, quş deyil,
Buynuzu var, qoç deyil.
*(Kəpənək)*

Qanadı yoxdur,uçur,
Ayağı yoxdur, qaçır.
*(Bulud)*

Bir güzgüm var,
Altı-üstü saçaqlı.
*(Göz)*

Az gedir,çox gedir,
Birgə qarış yol gedir.
*(Qapı)*

O nədir ki, kötüyü göydədir,
Budağı yerdə?
*(Günəş)*

Bazarda olmaz, tərəzidə durmaz,
Ondan şirin şey olmaz.
*(Yuxu)*

Yolda duruf bir qoca,
Qızı özünnən uca.
*(Çəyirtkə)*

Yerdən çıxar ağappax,
Başında yumru papax.
*(Göbələk)*

Bostanda var bir arvad,
Paltarı qalaq-qalaq.
*(Kələm)*

İynəsi çox,tikəni yox,
Əti dərman, özü heyvan.
*(Kirpi)*

Alçaq dağdan qar yağar,
Qırağı taxta divar.
*(Ələk)*

Cəsədi var,canı yox,
Başın kəsdim, qanı yox.
*(Gəbə)*

Bu tayı çəpər, o tayı çəpər,
İçində atdı çapar.
*(Nehrə)*

Tezdən durar,
Nənəmi minər
*(Səhəng)*

Bir tabax almaz,
Səhərə qalmaz.
*(Ulduz)*

Vur böyrünə şapalaq,
Qar yağsın qalaq-qalaq.
*(Ələk,un)*

Axşam gedər,
Sabah gələr
*(Günəş)*

Başı daraq,
Quyruğu oraq.
*(Xoruz)*

Paltarı çox,
Düyməsi yox.
*(Kələm)*

Atdan hündür, itdən alçax.
*(Yəhər)*

Gödək kişi dağdan ilxı endirər .
*(Ülgüc)*

Qara toyuğ, qarnı yarıx.
*(Buxarı)*

Bir öküzüm var; quyruxlamasan dama girməz.
*(Qaşıq)*

Yol altında qaynar qazan.
*(Qarışqa yuvası)*

Bir budaxda beş yarpaq.
*(Əl)*

Bir damım var, bir dirəyi var.
*(Göbələk)*

Səhər durar ananı minər.
*(Səhəng)*

Mən gedirəm, o da gedir.
*(Kölgə)*

O nədi ki, itdən hündür,atdan alçaq.
*(Üzəngi)*

Bir inəyim var, quyruqlamasam
pəyəyə girmir.
*(Qaşıq)*

Alçaq damdan qar yağır.
*(Ələk)*

Ağac başında sarı yumaq.
*(Heyva)*

Duzsuz bişmiş aş gördüm.
*(Halva)*

Yol üstə qazan qaynar.
*(Qarışqa)*

Bir özü var, min gözü.
*(Xəlbir)*

Kiçicik məzar, dünyanı gəzər.
*(Ayaqqabı)*

Dolu gedər, boş gələr.
*(Qaşıq)*

Göydən düşdü, yerə yapışdı.
*(Günəş)*

Mən gedərəm o qalar.
*(Ayaq izləri)*

Su qaçar, daş dolanar.
*(Su dəyirmanı)*

Mən gedirəm, o qalır.
*(Ləpir)*

Qara köpək qapıda yatar.
*(Qıfıl)*

Saqqalı iki qarış, boyu bir qarış.
*(Yun darağı)*

Yük üstə para fətir.
*(Ay)*

## ORANIN YİYƏSİ VAR

Baməzə adamların vətəni olan Dərələyəz mahalında dünyaya gələn Usub kişi ömrü boyu dərziliklə məşğul olmuşdur. Gülmalı oğlu Usub (1904-1974) məşhur dərzi olmuşdur. Həm kişi, həm də qadın üçün lazım olan geyimləri tikərmiş. Bir gün kəntdən bir xanım Usub kişinin yanına gəlib deyir:

Usta, mənə bir dəst paltar tik!

Usub kişi metrəni qadının çiynindən yendirib əlini xanımın göbəyinin üstünə qoyub deyir:

– Burdan qoyum?

Xanım deyir:

– Usta, bir az aşağı yen.

Usta deyir:

– Bəs burdan necə?

Xanım deyir:

– Usta, oranın yiyəsi var, bir az aşağı düş.

*Söyləyəni: **Alim Dərələyəzli**, el şairi, dərzinin qardaşı oğlu. Qələmə aldı: Həsən Mirzəyev. Bakı, 2005-ci il.*

## SƏNİN NƏYİNƏ GƏRƏKDİR ONUN KÜÇÜYÜ VAR, YA YOXDUR

Bir gün Gülmalı oğlu Usub Hacı Kərim adlı bir kişi ilə Soyuq Bulaq yaylağında bir tərəkəmə evində qonaq olurlar. Ev yiyəsi əl-ayağa düşüb qonaqlara böyük süfrə açmaq üçün hazırlıq görməyə başlayır. Hacı Kərim ev yiyəsinə sual verir.

– Qardaş, bəs uşaqlarınız niyə evdə yoxdur?

Ev yiyəsi deyir:

– Qardaş, bizim uşağımız olmur.

Hacı Kərim:

– Ayə, evin yıxılsın bu mahalda arvad tapılmır, niyə bu qısıra evində çörək verirsən?

Qonşu otaqdan bu sözləri eşidən ev yiyəsinin xanımı qəzəblə evə girib qonaqların qabağından süfrəni yığışdırıb deyir: Rədd olun burdan!

Qonaqlar suyu süzülə-süzülə evi tərk edirlər.

Gülmalı oğlu Usub qəzəblə Hacı Kərimə deyir:

– A kişi, sənin nəyinə gərəkdir onun küçüyü var ya yoxdur? Niyə qoymadın isti yerdə oturub bir tikə çörəyimizi yeyək.

*Söyləyəni: **Alim Dərələyəzli**, dərzinin qardaşı oğlu. Dərələyəzin Qabaxlı kəndində doğulub boya-başa çatıb. Qələmə aldı Həsən Mirzəyev. Bakı, 2005-ci il.*

## EŞQ OLSUN SƏNƏ BÜLBÜL, DOĞDUĞUN BÜLBÜL KİMİ OXUYACAQ

Dərələyəz mahalında yaşamış baməzə kişilərdən biri də, Surxay kişi olub. Qabaxlı kəndində yaşayan Surxay kişi çox hazırcavab adam olmuşdur.

Surxay kişinin xanımı uşağa yatır və bir oğlu olur. Surxay kişi tövləyə girib görür ki, bəs uzunqulaq da doğub. Surxay kişi tez evə qayıdıb bir mələfə götürüb, yenidən tövləyə qayıdır, qoduğu mələfəyə büküb Bülbül yatan otağa gətirib deyir:

– Eşq olsun sənə Bülbül, doğduğun uşağa bax, o da bülbül kimi oxuyacaq.

*Söyləyəni: **Alim Dərələyəzli**. Qələmə aldı: Həsən Mirzəyev. Bakı, 2005-ci il.*

## MOLLA DA KEÇMƏZ

Dərələyəz mahalının baməzə kişilərindən biri də Xanmalı kişi olmuşdur. Gendərəlidi. Ömrü boyu çobanlıq edib. Çox hazırcavab kişi olub.

Xanmalı kişinin iki ərgən qızı varmış. Birinin adı Humay, o birinin adı Telli olub. Humayın üzündə kiçik bir qüsur varmış. Gələn elçilərin hamısı Telliyə elçi düşərmiş. Bunu görən Xanmalı kişi elçilərə deyir:

– Oğul istəyirəm oğlunuz Humayı alsın, onsuz da Tellidən molla da keçməz.

*Söyləyəni: **Alim Dərələyəzli**. Qələmə aldı: Həsən Mirzəyev. Bakı, 2005-ci il.*

## KOKAZ NƏ QANIR

Haykaz adlı bir erməni Qabaxlı kəndində Xanmalıya qonaq gəlir. Məlişgə kəndindən olan ermənin arvadı bir gün xəlvətdə Xanmalıya ərindən gileylənir:

– Xanmalıcan, Kokaz mənə naz eləyir.

Xanmalı deyir:

– Qələt eləyir, Kokaz nə qanır mal nədir, əndam nədir.

*Söyləyəni: **Alim Dərələyəzli**. Qələmə aldı: Həsən Mirzəyev. Bakı, 2005-ci il.*

## NƏ DEDİMKİ ?!

Bir gün Xanmalı kişi mağazaya girib satıcı qıza deyir:

– Canını yeyim mənə bir kilo şəkər ver.

Satıcı qız qəzəblə deyir:

– Əmi ədəbli danış.

Xanmalı deyir:

– Boyy məməni yeyim mən nə dedim ki, incidin.

*Söyləyəni: **Alim Dərələyəzli**. Qabaxlı kənd sakini. Qələmə aldı Həsən Mirzəyev. Bakı, 2005-ci il.*

# TƏMSİLLƏR

## XORUZLARIN HAMISI SƏNİN TAYINDIR ƏMİ!

Bir gəlinin evinə,
Qonaq gəlir bir qoca.
Şam yeməyi yeyirlər,
İkisi bir qavdaca.
Ordan-burdan danışıb,
Bir az başı qatırlar.
Gəlin durub yer salır,
Bir yataqda yatırlar.
Yatağa girən qoca
Kəlləni yerə atır,
Ürəyi yanan gəlin,
Nə dincəlir, nə yatır.
Biri yuxu dəmində,
Biri dərdi-qəmində.
Səhər açılır bu cür,
Hərə öz aləmində
Evdən dışarı çıxan
Qoca həyətə baxır.
Gəlin tezdən quşlara
Dən səpirmiş bu vaxtı.
Qonaq görür xoruz çox,
Toyuq durub könlü tox.
Sorğu-suala çəkir:
Xoruzların içində
Bircə dənə toyuq var.
Bu toyuğun üstündə
Dava salmır ki onlar?
Qaralmışdı nədənsə
Bütün gecəni qanı.
Gəlin süzdü qocanı
Heç bir bəndə çəkməsin
Mən çəkdiyim sitəmi.
Xoruzların hamısı
Sənin tayındır əmi.

*Söyləyəni: **Alim Dərələyəzli**. Qələmə alanı: Həsən Mirzəyev, Bakı, 2005-ci il.*

## VALI DƏYİŞ

Bir xanımın yoldaşı
Ora-bura gedirdi.
Özgə xanımlar ilə
Aşinalıq edirdi.
Bir gün evin xanımı
Məsələni anladı.
Tutub evdə ərini
O ki var da danladı.
Xanımın tənəsindən
Yaman qanı qaraldı.
Patefonun valını
Kişi əlinə aldı:
Bax bu valın hər üzü,
Mahnılardı a ceyran.
Hər gün eyni mahnını,
Dinləsə bezməz insan?
Yeni mahnı dinlərkən,
Mən cənnətə düşürəm.
Ona görə də tez-tez,
Valları dəyişirəm.
Xanım alıcı quş tək,
Onun sözünü aldı.
Qollarını ərinin
Durub boynuna saldı:
Oynun olsun əzizim,
Yaman ayıltdın məni.
Sən tez-tez valı dəyiş,
Mən hərdən bir iynəni.

*Söyləyəni: **Alim Dərələyəzli**. Qələmə alanı Həsən Mirzəyev, Bakı, 2005-ci il.*

## XORUZ İLHAMI

Şəhərdən bir ailə
Kəndə qonaq gəlirlər.
İstirahət eyləyib
Yaxşıca dincəlirlər.
Həyətdə süfrə salır
Onlara ev yiyəsi.
Bürümüşdü həyəti
Ev quşlarının səsi.
Tez-tez şəhərli qadın
Toyuqları süzürdü
Gah çiynini çəkirdi
Gah dodağın büzürdü.
Xanım baxdı toyuq çox
Nədənsə xoruz birdi
İstədiyi fərəni
Xoruz tutub minirdi.
Yorulmadan bu xoruz
Kef edirdi dalbadal
Xanım ev yiyəsinə
Oradaca verdi sual
Baxıram bu xoruza
Xoruz deyil şirdi-şir
Hər gün o neçə kərə
Toyuqlarla sevişir

Xanım, bütün xoruzlar
Vaxtı sərf edir kefə.
Gün ərzində mən bilən
Ən azı on beş dəfə.
Bu sözləri eşidib,
Xanım boynunu burdu.
Kişisinin böyrünə
Ərkilə bir dürtmə vurdu.
Gördün xanım nə dedi?
Gözünü döymə kişi
Görənlər xoruz kimi
Gərək görsünlər işi
Ehtiyatla soruşdu
Kişi ev yiyəsindən:
Bacı, göstər xoruzun
Bizə fərəsini sən
Toyuqların hamısı
Sayılır onun yarı
Xoruz nə vaxt istəsə
Dəyişdirir onları.
Kişi gülümsəyərək
Arvada nəzər salır.
Bildin ceyran bu xoruz,
İlhamı haradan alır?

*Söyləyəni: **Alim Dərələyəzli**. Qələmə alanı Həsən Mirzəyev, Bakı, 2005-ci il.*

## BƏRƏKALLAH FƏRƏCULLA

Dərələyəzin Qavışıx kəndində Fərəculla adlı bir kişi var idi. O, həddindən artıq kasıb yaşayırdı. 9 uşağı olan Fərəculla ilin on iki ayı evdə tapılmazmış. Onun-bunun qulluğunda durarmış. Ələyəz dərəsi adlanan yerdəki 12 kəndin bütün xeyir-şərlərinə Fərəcullanı çağırar, gələn qonaqların atına baxmağı, odun doğramağı, qoyun kəsib ətini doğramağı və sairi ona tapşırır, o da canla-başla bu işi yerinə yetirərmiş. Səhərdən axşama kimi qan-tərin içində işləyən Fərəcullahın heç nədə gözü olmazmış. Ta ki, ona hər işin axırında desinlər ki, bərəkalla Fərəculla. Bu sözü deyəndə sanki ona dünyanı bağışlayarmışlar.

Payızın son aylarının birində Ələyəz kəndindəki toyda olarkən Fərəcullahın arvadı ona tapşırıq göndərir ki, Fərəcullaya deyin ki, qış qapını alıf,

amma təndir yandırmağa odun yoxdur. Hər yerə qar yağır. Uşaqlar qışda soyuqda qalacaqlar. İndi də dəyirmanların suyu donur. Heç olmasa gəlif qış dənini üyütsün, uşaqlar ac qalmasın. Fərəcullah xəbər göndərir ki, toy qurtaran kimi gəlib qış dənini üyüdəjəm.

Bu vaxt Gülüdüz kəndindən ona xəbər göndərirlər ki, Fərəcullah toy edirik. Sabah başını orada isdat, burda qırx. Sənsiz işimiz getmir.

Ələyəzdə toy qurtaran kimi Fərəcullah dabanına tüpürüb Gülüdüzə yol alır. O toy olan kəndə getmək üçün öz kəndlərində evinə 30 metr olan yoldan keçməlidir. Öz evinin yanından bir başa keçir və yoldan qışqıra-qışqıra deyir ki, arvada deyin mən getdim Gülüdüzə. Dəni özü dəyirmana aparıb üyütsün.

*Söyləyəni: **İbrahim Mirzəlioğlu** (1889-1982). Qələmə alan Həsən Mirzəyev. Dərələyəz, 1956-cı il, avqust. Qovuşuq kəndi.*

## AĞA PRİSTAV, BİZ DAĞ ADAMIYIX

Nikalay dövründə Dərələyəzin Ələyəz kəndinə bir pristav gəlir. Bu xəbər kəndə yayılan kimi hamı yolun qırağına çıxıb pristavın gəlişinə tamaşa edir. Bu zaman evi yolun qırağında olan bir kasıb kişi 12 çılın-çılpaq uşağı ilə damın üstünə çıxıb pristava tamaşa edirmiş. Birdən pristavın gözü damın üstündə ayaq üstə duran bu kişiyə sataşıb deyir: – Bu uşaqların hamısı sənindir? – Bəli, ağa pristav, hamısı mənimdir. – Malades, malades deyə-deyə pristav kişini ələ salmaq istəyir. Kişi pristava deyir ki, ağa pristav, biz dağ adamıyıq... uşağımız çox olur. –Malades, malades! Amma daha aranı kəs. Kişi cavab verir: – Ağa pristav, kənddə nəfit olmur, nəfiti tez-tez göndərin, aranı kəsməyin. Bunu pristava tərcümə edəndə pristav hirslənir. Bunun neftə nə dəxli var? Kişi cavab verir. Ağa pristav, nefit olmayanda işıq olmur. Onda da bu uşaqlardan ildə biri yorğanın altından pırtdıyıb çıxır. Gülüşmə.

*Söyləyəni: **İbrahim Mirzəlioğlu** (1889-1982). Qələmə alanı Həsən Mirzəyev, Dərələyəzin Qovuşuq kəndi, 1963, avqust.*

## YA HƏZRƏT ABBAS QAÇ, ÖKÜZ GƏLDİ!

Dərələyəzin Qavışıq kəndində bir kişi yayda öküz ilə buğda dərzi darayırmış. Buğda əkilən və biçilən yer kəndin qırağındakı böyük təpənin üstündə idi. Oradan kəndə gələn yol çox sıldırım, eniş-yoxuş, əyri-üyrü yerlərdən keçir. Həmin yolun altından da Arpa çayının bir qolu olan Canı çayı gedir.

Öküz yüklü gələn zaman birdən onun yükünün dərəyə tərəf olan hissəsi əyir. Kişi çiynini öküzün yükünə söyküyür ki, yük aşmasın. O ya həzrətabbas

kömək elə deyə qışqırır. Birdən öküz yüklə bərabər üzü aşağı aşır. O zaman kişi qışqırır: « Ya həzrətabbas qaç, öküz gəldi ».

*Söyləyəni: **İbrahim Mirzəlioğlu** (1889-1982). Qələmə alanı Həsən Mirzəyev, Dərələyəz, Qovuşuq kəndi, 1963, avqust.*

## QONAXSAN QONAX YERİNDƏ OTUR!

Dərələyəzin Qabaxlı kəndində Ramazan adlı bir hazırcavab adam 30-cu illərdə kəndin kolxoz sədri işləyirmiş. Rayonda maliyə müdiri işləyən bir erməni yayda bu kəndə gəlir. Ramazan kişi evdə olmadığı üçün onu evdə gözləməli olur. Ramazan kişi bir çoxları kimi böyük əv damında yaşayırmış. Həmin əv damlarının ortasında həmişə təndir olurdu. Yay olanda təndiri yandırmır və onun içinə çox zaman küpəyə bal, pendir yığıb saxlayırmışlar ki, qışa qalsın.

Sən demə Ramazan kişi arılarını süzüb balını dolduruf küpüyə, onu da qoyuf təndirə, təndirin ağzına da bir sal qoyub örtüfdür.

Ramazan əvə gej gəldiyi üçün qonax darıxır və əvin içində vargəl etməyə başlayır. Birdən ayağı təndirin ağzındakı sala ilişir, salın qırağı qırıx olduğu üçün sal təndirə düşür. 30 kq bal doldurulmuş küpə qırılır və bal təndirdəki külə qarışır. Bu zaman Ramazan kişi gəlib çatır əvə. Erməni deyir ki, ay Ramazan kirvə əvəzində sənə 2 yeşik arı verəcəyəm. Ramazan ona cavab verir: «Qonaxsan qonax yerində otur. Tovlanmağın nə lazım».

*Söyləyəni: **Ələsgər Ramazan oğlu**. Qabaxlı kənd sakini, bu gülməcəni deyənin oğlu (kolxoz sədri) (1901-198 ). Qələmə alanı Həsən Mirzəyev, Qovuşuq kəndi, 1957 iyun.*

## QULEYBANI ƏHVALATI

Dərələyəzin Cul kəndində Həşin adında çox qoçaq, vuran-tutan bir aşıq var idi. O, döyüşdə həmişə erməniləri məğlub etdiyi üçün türk paşası ona orden də vermiş imiş. 1918-ci ilin ağır günlərində səngərdə olarkən bir də görür ki, bir erməni yüklü qatırın noxtasından tutub yuxuluya-yuxuluya gedir. Həsən kişi hiss edir ki, qatırın yükü çörəkdir və onu erməni döyüşçülərinə aparır. Günün-günorta çağı olur. Bura ermənilərin səngərinə çox yaxın imiş. Burda güllə atmaq olmazdı. Həşin yanındakı yoldaşına deyir. Qatırı çəkən erməni yuxuluyur. Mən yavaş-yavaş gedib noxtanı açıb öz başıma salıb onun dalınca gedajam, sən qatırı uzaqlaşdır. Həşin kişi üzünə yolun qırağındakı palçıqdan sürtüb özünü quleybanıya oxşadır və noxtanı öz başına salıb erməninin dalınca gedir. Bir az gedəndən sonra Həşin kişi birdən ayağını yerə diriyif dayanır. Erməni qayıdıf dala baxanda ya, ya deyif özünü itirir. Həşin kəkələyə-kəkələyə deyir ki, quleybanı, qu-

leybanı. Erməni quleybanı, quleybanı deyif yerə yıxılır. Həşin kişi ermənini tutub ağzına dəsmal basır, sonra da qollarını bağlayıb öz səngərinə gətirir.

*Söyləyəni: **İbrahim Mirzəli oğlu**, Həşin kişinin uzaq qohumu (1889-1982). Qələmə alanı Həsən Mirzəyev, Dərələyəzin Qovuşuq kəndi, 1954, iyul ayı.*

## MOLLA GƏLMİŞKƏN ÖLƏN ÖLSÜN, QALAN QALSIN

Qədim vaxtlarda Dərələyəzin kəndlərinin birində ölü düşür. Həmin kənddə molla olmadığı üçün mollanı qonşu kənddən gətirirlər. Gecə məclis qurtarana yaxın molla evinə getmək istərkən mollanı əvinə aparan türkəsayaq adam deyir: «Ay camaat molla gedir. Molla gəlmişkən ölən ölsün, qalan qalsın».

*Söyləyəni: **Usub oğlu Həsən** (1902-19..). Dərələyəzin Ayısəsi kənd sakini. Qələmə aldı Həsən Mirzəyev. Ayısəsi kəndi, 1958, mart ayı.*

## MOLLANIN DUVASI YAĞI ÇOXALTDI

Dərələyəzin Qalaser kəndində Xanmağı adlı bir arvad olur. Bu Qavışıx kəndində Molla Mirzəlinin yanına gəlib ona deyir. Ay Mirzəli kişi! Kənddə hamının yağı çox olur. Amma mənim nehrələrimdən yağ çıxmır. Xahiş edirəm ki, bir duva yaz, mənim də yağım çox olsun.

Yaxın kəndlərdə olan adamların çoxu bilirmiş ki, yekəbədənli bu Xanmağa arvat səhər-səhər südün-qatığın üzünü yığıb yeyər, yerdə qalanı tuluğa tökürmüş.

Bunu Mirzəli kişi də bildiyi üçün duvanı yazıb arvada verəndə deyir. Sən qavların birinə əl vur. Əgər qavların hamısına əl vursan, onların bərəkəti qaçıjax və yağın olmuyujax.

Bir xeyli keçənnən sonra Xanmağı arvad bir bayda yağı da götürüf Mirzəli kişinin yanına gəlir və deyir: Ay Mirzəli kişi, çox sağ ol. Mənim yağım hamının yağından çox oldu. Bu bayda yağı da sənə pay gətirmişəm. Mirzəli kişi deyir: O duvanı ver mənə açıb sənə oxuyam. O deyir ki, yox olmaz. Mirzəli kişi duvanı açıb oxuyur «Anam-bacım Xanmağa, sən fikir ver sağmağa, üzün-başın yalama, yağın düşsün, qalama» gülüşmə düşür.

*Söyləyəni: **Molla Mirzəlinin oğlu İbrahim Mirzəlioğlu** (1889-1982), qələmə aldı Həsən Mirzəyev, Dərələyəz, Qovuşuq kəndi, 1963-cü il, avqust ayı.*

## GÖRMÜRSƏN ALLAH VERİBDİR?!

Dərələyəzin Qabaxlı kəndində bir nəfər (Xanmalı) toylarda toybəyilik edirmiş. O, toyda ən çox kök arvad və kişiləri oynadarmış ki, camaatın əhvalı

yaxşılaşsın. Bunun öz arvadı da həddindən artıx arıx olduğundan əri bunu oynamağa çağırmazdı.

Bir toy zamanı Xanmalının arvadı əri toya gedəndən sonra əvdə nə qədər tumanı, koftası varsa hamısını geyir və bədənini altdan şalla bağlayır. O istəyir ki, kök arvadlar şəklinə düşsün. O belə də edir. Üzünə də ənlik-girşan vurur və baş şalı ilə başını yaxşıca bürüyür. Bircə gözləri görünür. Bundan sonra duruf toy məclisinə gəlir. O, bir qənşər yerdə oturur ki, toy babası bunu da oynamağa çağırsın. Belə də olur. Arvadın bacılığı toy babasına deyir ki, bu arvad qonşu kənddən Ayısəsi kəndindən gəlifdi, bunu da oynat. Arvad özünə oxşamayan bir tərzdə, qaş-göz ata-ata oynamağa başlayır. Toy babası bununla oynamağa başlayır. Bir xeyli oynuyandan sonra arvad buna deyir ki, Xanmalı.? Məni tanımısan? Kişi təəccüblənir. Arvadı deyir ki, Allah vergisidir də. Kişi tez arvada deyir ki, gedək evdə danışaq görüm bu nə əhvalatdır. Əvə gəlirlər və arvad başlayır paltarlarını bir-bir soyunmağa. Kişi arvada deyir: bəs sən deyirdin allah verdi bir gündə kökəldim. Arvad cavab verir: görmürsən bu vücudu mənə allah belə veribdi? Kişi gülə-gülə bir vulqar söz deyib toya gedir.

*Söyləyəni: **Dərələyəzli Qafar Gülmalıyev** (1924). Qabaxlı kənd sakini. Qələmə aldı Həsən Mirzəyev. Qovuşuq kəndi, 1963-cü il, avqust ayı.*

## YANDI BİZİM ÇIRAĞIMIZ, SÖNDÜ SİZİN ÇIRAĞINIZ

Dərələyəzin Ayısəsi kəndində bir kişi qızını ərə verirmiş. Gəlin gedən zaman qızın anası lampanı əlində oynada-oynada deyir: «Yandı bizim çırağımız, söndü sizin çırağınız». Oğlan evi uzaq yerdən olduğu üçün qızın eyblərini bilmirlərmiş. Gəlin ər evinə gedəndən sonra aydın olur ki, bu gəlinnən çırax yandıran olmaz.

*Söyləyəni: **Zabita Hacsamova** (1914-1997). Dərələyəzin Qovuşuq kənd sakini. Qələmə alanı Həsən Mirzəyev. Dərələyəz, Qovuşuq kəndi, 1962-ci il avqust ayı.*

## ƏLİM DƏYİB...

Dərələyəzin Qabaxlı kəndində Şiraslan adında bir kişi var idi. Çoxlu arı saxlayan Şiraslan cavan çağında da baməzə, zarafatcıl imiş.

O kənddə bir gəlinnən xoşu gəldiyi üçün onu almaq istəyirmiş. Yayda günlərin birində o, al dil ilə gəlini böyük əv damına qatıb qapını bağlıyır. Gəlin qaçır bu qaçır. Yorulana yaxın qəfildən dala qayıdıf buna toxunur və gəlinə deyir: «Əlim dəyib mənə gələcəksən».

*Söyləyəni: **Mehdi Əsədov** (1925- 1991). Qabaxlı kənd sakini. Qələmə aldı Həsən Mirzəyev, 1955-ci il iyun ayı.*

## TARP VƏ TERP HADİSƏSİ

Dərələyəzdə Arpa çayının üstündə Tarp və Terp kəndləri var, çayın bir üzündə Tarp, bir üzündə isə Terp kəndi yerləşir. Qədim dövrlərdə Tarp kəndindən olan bir qızı Terp kəndindən olan bir oğlana nişanlayırlar.

Yazda qar əriyən, çaylar daşan vaxtı oğlan deyir ki, gedirəm nişanlımgilə 2-3 gündən sonra qayıdacağam. Çay çox gur gəlirmiş. Oğlan çaydan keçəndə sel bunu yıxır və çaydan çıxa bilmir...

3 gündən sonra hər iki tərəf həyəcan keçirir. Məlum olur ki, oğlanı sel aparıfdı. Bunun meyidini gətirəndə anası ağlaya-ağlaya ağı deyir:

Tarpdakı elə bilir Terpdədir
Terpdəki elə bilir Tarpdadır.
Da sən deməyinən çayda şarapda-şurupdadır.

*Söyləyəni: **İbrahim Mirzəlioğlu** (1889-1982). Qələmə alanı Həsən Mirzəyev. Dərələyəzin Qovuşuq kəndi, 1965-ci il avqust ayı.*

## NƏ VECİNƏ

Dərələyəzin Qavışıx kəndində belə bir əhvalat olur. Yazda əkin vaxtı bir kasıf taxılın əkə bilmir. Çünki cütə qoşmaq üçün öküzü yox imiş. O çox fikirləşəndən sonra gedir Qavışıx kəndində çoxlu var-dövləti olan Əmir kişinin yanına, çətin vəziyyətə düşdüyünü ona deyif kömək istiyir. Əmir kişi Mahmud paşa adlı varlı bir adama deyir ki, bu kişiyə kömək etsin. O buna iki cüt öküz verir və deyir öküzləri sabah gəl apar. Yerini əkib toxumunu yerə səpib tapdalayandan sonra öküzləri gətir. Ancaq öküzləri bir şərtlə verirəm. Öküzləri aj qoyma, vaxdı-vaxtında qoy dincəlsin.

O, öküzləri gətirif gecə-gündüz yerini əkir. Amma öküzlərə yaxşı baxmır. Öküzlər çox arıxlayıf əldən düşür. Öküzləri aparıb Mahmud paşaya verəndə Mahmud paşa deyir, oğlum sən həmişə ac olarsan, çünki sənə çörək verənin qədirini bilmirsən. Qara meşənin gərməşov çubuğu ilə öküzləri o qədər döymüsən ki, bellərində zoğ əmələ gəlib. Öküz də, çubuq da sənin deyil. Öküz Mahmud paşanın, çubux Qara meşənin. Nə vecinə?

*Söyləyəni: **İbrahim Mirzəlioğlu**. Qələmə alanı Həsən Mirzəyev, Qovuşuq 1966.*

## QARA ILƏ AĞ QARIŞANDA SORTU YAXŞI OLUR

Aşıx Ələsgərin qardaşı oğlu İman Dərələyəzdə Qovuşuq kəndində Mirzəlioğlu İbrahimin yanına qonaq gəlir. 28 gün İbrahimin qonağı olur. İbrahim kişinin arvadı Nahadın (Nahidin) ata (Əmir Ağa) və anasının (Nigarın) toyunda Ələsgər də iştirak etmiş və toyun əsas hissəsini o aparmışdı.

Bir gün İman deyir ki, əmimin toyunu elədiyi adamlar bizə niyə qonaqlıq vermir? Əmir kişi İmanı qonaq çağırır. İman görür ki, Əmir kişi ağbəniz, gözəl bir kişidir, amma arvadı Nigar isə qarabəniz, arıq bir qadındır. Qonaq qaldığı evdə isə İbrahimin atası Mirzəli kişi qarabəniz, arvadı Ballı isə dümağ qar kimi, lalə yanaq bir arvaddır.

Məclisdə İman zarafata salıb deyir: Əmim yaxşı toy eləməyib. Deyirlər, ay İman, niyə yaxşı toy eləməyib. O deyir: bu iki qohumun arvadları ilə kişiləri dəyişik düşübdür. Gərək ağ arvadı ağ kişiyə, qara arvadı qara kişiyə verəydilər. Evdə xeyli gülüşmə düşür və ağsaqqalların biri deyir: «Allahın bölgüsü daha yaxşıdır. Qara ilə ağ qarışanda sortu daha yaxşı olur».

*Söyləyəni: **İbrahim Mirzəli oğlu** (1889-1982) Qələmə aldı Həsən Mirzəyev, Dərələyəz, Qovuşuq kəndi, 1963-cü il avqust.*

## ÇAPBAĞA NƏ VAR

Dərələyəzin Ərgəz kəndində bir varlı adamın yaxşı bir atı var imiş. Toylarda həmişə bu atı minən papağı birinci gətirər və xələt alarmış. Bir gün kişinin bacısı oğlu gəlif dayısına deyir ki, ay dayı, toylarda həmişə atı verirsən kasıblara. Onlar da sənin atınla papağı birinci gətirir və xələti də onnar alır. Nə olar bir dəfə də atı ver mənə. İndi Gülüdüz kəndində toydur. Atı ver bu dəfə də nəməri mən alım. Dayısı atı verir və tapşırır ki, ata yaxşı bax, vaxtlı vaxtında yemlə, yu, qaşovla. Yəhərin alandan sonra çulla və s.

Bacıoğlu 3-4 gün toylarda olur, nəmərləri alır, amma ata yaxşı baxmır. Atı gətirən zaman kişi görür ki, atı çox pis gündədir. Bacısıoğlunun əlində qamçı əvəzinə gərməşov çubuğudur. Dayısı bacısı oğluna deyir:

- At özgənin, göt özgənin minif çapbağa nə var.

*Söyləyəni: **İbrahim Mirzəli oğlu** (1889-1982) Qələmə aldı Həsən Mirzəyev. Dərələyəzin Qovuşuq kəndi, 1966-cı il avqust ayı.*

## YOX BALAM, O BOYDA OLMAZDI...

Paşalı (Əzizbəyov) rayonunun Ağkənd kəndindən olan Kəblə Oruc İstisuya bacısı oğlu Aşıq Əhmədgilə qonaq gəlir. Axşam qohum-əqraba yığışır onun başına. Xeyli söhbət edirlər. Söhbət əsnasında Kəblə Oruc deyir ki, ay uşaqlar, gələndə yolda bir çöl keçisi vurdum. Təkənin uzun buynuzları varıydı, ölçdüm uzunluğu düz üç arşin yarım oldu. Əhməd qayıdır ki, dayı, axı onun buynuzu o boyda olsa meşədə gəzə bilməz. Oruc sözündə israrlı olur ki, başınız haqqı elə bir heyləydi.

Bacısı oğlu durub ev damının tirini ölçür, üç arşın olur. Deyir ki, dayı, bu tir üç arşındı. Sənin dediyindən belə çıxır ki, keçinin buynuzu bundan yarım arşın da uzun imiş hə. Kəblə Oruc gah tirə baxır, gah yerə baxır, başlayır gülməyə:

- Yox balam, o boyda omazdı, bir az gödək olardı.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 116.*

## BUĞA ƏHVALATI

Ağkənddi Kəblə Oruc el arasında ovçu kimi də tanınırdı. Bir gün kənd arasında axşamüstü xeyli adam varıymış. Kəblə Oruc da ordaymış. Başlayır ki, uşaqlar, bəs o günü Məmərza kəndinə bacımgilə gedirdim. Cəvizdiyin yanında qabağıma bir buğa çıxdı. Tez tüfəngimi çevirib buğanı vurmaq istəyəndə, gördüm buğa üstümə cumur. Macal tapıb nişan aldım. Güllə buğaya dəydisə də yenə irəli cumdu. Üstümə atılmaq istəyəndə kənara çəkildim, tullanıb mindim buğanın belinə. Buynuzlarından bərk-bərk yapışdım. Meşəni keçəndə tullanıb ağacın budağından sallandım, sonra dartınıb ağacda yerimi iraxladım. Yaralı buğa geri dönüb ağaca bir kəllə vurdu ki, məni yerə salsın. Zərbənin gücündən özü böyrü üstə yerə yıxılıb qaldı, qoltuğundan qan axmağa başladı. Tez yerə atılıb buğanın başını kəsdim. Bir budunu kəsib əlimdə bacımgilə pay apardım. Kənd camaatına da xəbər verdim ki, bəs Cəvizdiydə bir buğa vurmuşam, cəmdəyi qoşa palıdın altındadı, gedib özlərinə ət gətirsinlər. Bütün kənd əli bıçaqlı, baltalı ora cumdu. Hər evə bir dağarcıq ət pay düşdü.

Yenə gülüşmə düşür. Kəblə Oruc acıqlı-acıqlı deyir:

- Nə gülüşürsünüz ə! Buğa bax, o Hacı Məmişin damı boyda olardı.

Uşaqlar daha ucadan başlayır gülüşməyə.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 116-117.*

## CƏVİZI SOYUQ APARACAQ

Cermuk şəhəri (İstisu kəndi) qışda çox soyuq olan yaşayış məskənidir. Bir qış axşamı ailə üzvləri rahat yatıbmış. Gecənin bir vaxtı Sədiqə balkona çıxır, görür ki, şaxtalı gecədir. Fikirləşir ki, qış üçün aldıqları alma-armudu soyuq apara bilər, şaxta vurar. Tez içəri keçib əri Qadiri yuxudan oyadır ki, dur alma-armud yeşiklərini köməkləşib içəri gətirək, şaxtadır, soyuq meyvələri aparmasın. Qadir durur, köməkləşib yeşikləri içəri gətirirlər. Bir qədər yatdıqdan sonra yadına düşür ki, bəs cəviz dolu kisə yaddan çıxıb. Tələsik Qadiri bir də oyadır ki, bəs deməzsən, qoz kisəsi bayaq yaddan çıxıb qalıb balkonda dur

onu da gətirək, yoxsa şaxta cəvizdəri vuracaq. Əvvəlcə çaşbaş qalan Qadir oyanır və bir də soruşur ki, hansı meyvə qalıb, deyirsən?

- Cəviz.

- Az, nə danışırsan, heç cəvizi də soyuq aparar?

- Bıy, başıma xeyir, düz deyirsən ey mən də bayaqdan fikirləşirəm ki, cəvizləri indi soyuq apardı, heç ağlıma gəlmir ki, heç cəvizi də soyuq aparar?

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 118.*

## "QLAZOK" GÖSTƏRMIR

Bir gün Sədiqənin oğlu "qlazok" alıb gətirir və qapıya bərkidir ki, qapını döyənin kim olduğunu bilsinlər. Oğlu gedəndən sonra Sədiqə qapıya yaxınlaşır ki, baxsın görsün "qlazok" necə göstərir.

Qapını açıb bayıra çıxır, bayır tərəfdən ha baxır, ha baxır, içəridə heç nə görmür. Tez qapını açıb evdəki qızını çağırır ki, a bala, bu "qlazok" göstərmir axı. Qız da anası ilə qapıya yaxınlaşanda Sədiqə yenə qapını açıb bayıra çıxır və "qlazok" dan içəri baxır, yenə heç nə görmür.

Bu vaxt qız başlayır gülməyə. Ay ana bayırdan yox ey, içəridən baxmaq lazımdır ki bayır görünsün. Sədiqə içəridən baxanda bayırı görür və deyir:

- Bıy, başıma xeyir, mən də deyirəm bəs uşağı aldadıb göstərmiyən "qlazok" veriblər, sən demə tərsinə baxmışam.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 119.*

## MƏNƏ AYIBOĞAN ORUC DEYƏRLƏR

Bir gün də Kəblə Oruc kənd arasında olarkən söyləyir ki, cavan vaxtlarımıydı. Nobata getmişdim. Sürünü Tozduğun dərəsinə aparmışdım. Heç kəs ora sürünü aparmırdı, qorxurdular. Örüş üçün ora münasib olsa da qorxulu idi. Bir ayı dadanmışdı sürüyə. Hər dəfə sürü geri qayıdanda heyvandan biri əskik olurdu. Axtaranda baratasını ayının özünə məskən seçdiyi kahanın qabağında tapardıq.

Sürünü yayılma verdim, özüm də yapıncımı altıma sərib çomağımı bir böyrümə, tüfəngimi də hazır vəziyyətdə o biri böyrümə qoyub uzandım ki, bir az rahatlanım. Nətərsə yuxu məni tutar. Bir vaxt hiss etdim ki, kimsə məni qucağına alıb aparır. Elə bildim yoldaşlarımdandı, zarafat eliyirlər. Əlimi atdım ki, tüfəng elə qucağımdadı. Yapıncının arasından əlimi çıxarıb məni aparanı yoxlayanda hiss elədim ki, tüklüdü. Adam tüklü olmaz axı. Bildim ki, ayıdır. Tərpənəndə ayı da hiss elədi ki, apardığı keçi, zad deyil mənəm. Məni

yerə atdı və başdadı mənimlə güləşməyə. Bel-buxunumu sındırmaq istəyirdi o kafir. Xeyli əlbəyaxa güləşdiy. Tüfəngi yerdən götürməyə macal tapmırdım. Bir əlim onun qulağına, o biri əlim isə gözünə ilişdi. Gücümü toplayıb o biri qulağından necə dişlədimsə ayı bağırıb yerə yıxıldı. Tez tüfəngi qapıb qundağıyla ayının başına-başına döyəclədim, boğazından da tutub boğdum. Ayı gicəllənib yerə sərildi. Tez qayışımı belimdən açıb onun başına keçirdim, arxamca darta-darta kəndə tərəf üz qoydum. Ayı səyəllənə-səyəllənə arxamca gəlirdi. Ayını düz kəndin ortasına gətirib bir ağaca bağladım. Bütün arvad-uşaq onun tamaşasına yığılmışdı. O vaxtdan həm camaatın canı keçi-qoyun oğurlayan ayıdan qurtuldu, həm də mənə ayıboğan Oruc dedilər.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 117.*

## ALININ BÖYÜK TOYUNA GƏLƏK

Sədiqənin xalası qızı Şəfiqənin həyat yoldaşı Alının əlli illik yubileyinə dəvət olunur. Məclis qurtaran vaxt Sədiqə getmək istəyərkən xalası qızı Şəfiqəyə yaxınlaşıb:

- Şəfiqə, çox mübarək, gün o gün olsun Alı müəllimin böyük toyuna gələk. Bu vaxt qız-gəlin gülüşəndə qayıdır:

- Bıy, başıma xeyir, ağlıma bax ey, ağlım kəsmir ki, kiçik toy deyil, yubileydir.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 119.*

## İMOŞ MƏNİ YEYƏCƏK

Bir gün qonşu Kotanlı kəndində hüzr düşür. Əza yerinə xeyli adam gəlir. Sadiqə də anası Başxanımla orada iştirak edir. Axşamüstü geri döncək kəndin mal-qarası örüşdən geri qayıdırmış. Mal-qaranın içində camış da varmış. Camışı görən Sədiqə anasına tərəf qısılıb deyir:

- Ana, qoyma imoş məni yeyəcək.

Anası qayıdır ki:

- Ay qız, imoş nədi, camışdı, heç camış da adamı yeyər?

- Bıy, başıma xeyir, mən də camışa imoş deyirəm.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 118.*

## BU PAPAQ MƏNƏ HARAM OLSUN

AŞIQ ƏHMƏD İstisuda qış sərt olduğu üçün payızda balabançısı Aşıq Behbudla Şərura gedərdi. Bütün payızı, qışı Şərur mahalında toy şənliklərində olar, yaxud da gecələr aşıq məclisi qurar, qazanc əldə edərdilər. Yazda yenidən kəndə qayıdardılar. Aşıq Əhmədin bir çətən külfəti varıymış. Bu aşıqlığıynan külfətin dolandırarmış.

Bir payız da Behbudla Şərura gedirlər. Bir müddətdən sonra həmkəndlilərindən kimsə İstisuya gedirmiş. Aşıq Əhməd Behbuda deyir ki, xeyli vaxtdı gəlmişik, indi arvad-uşaq bizdən nigarandır. Gətir mənim adımdan uşaqların anasına – Fatmaya bir məktub yaz. Aşıq Əhməd qayıdır ki:

- Yaz ki, Fatı, bizim vəziyyət yaxşıdı, gör neçə toy eləmişik, qabaqda xeyli toylarımız da var. Sən uşaqları saxla, yaza sağ-salamat çıxar, mən başımı saxlaya bilməsəm, bu papaq mənə haram olsun.

Aşıq Behbud da deyildiyi kimi məktubu yazıb həmkəndlisinə verir. Məktubu gətirib kənddə oxuyanda hamı Aşıq Əhmədin bu zarafatına xeyli gülüşür.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 78.*

## İMAN ÇAYI KEÇSƏYDİ

İstisulu Ahızarın əri İman yazda çayın qijhaqıj vaxtında Püsyan kəndinə iş dalıyca gedir. İman geri qayıdarkən görür ki, körpünü sel aparıb, oradan çayı keçmək mümkün deyil. Çay aşağı, çay yuxarı gedir, amma çayın o biri tayına yol tapıb keçə bilmir. Addamacdan keçərkən birdən ayağı düşür çaya. Daşqın çay onu üzüaşağı aparıb daşdan-daşa çırpır. İman həlak olur.

Kəndə hay düşür. Səhəri qonşu kəndin naxırçıları çay yatanda İmanın meydini tapıb kəndə gətirirlər. Qohum-qonşu yığışır, hərə bir tərəfdən Ahizara ürək-dirək verir, səbrli olmağı arzulayırlar. Ahızar ağlaya-ağlaya deyir: məni yandıran odur ki, dünən İman çayı keçsəydi, evə gələrdi.

İndi də hər hansı bir iş müəyyən səbəbdən baş tutmayanda atalar sözü kimi deyərlər: «İman çayı keçsəydi...»

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 78-79.*

## ARAZI KEÇƏNNƏN GÜNÜM BUDU

İrandan Arazın bu tayına keçən bir qalayçı şəyirdi ilə kəndbəkənd gəzə-gəzə gəlib çıxır Dərələyəzin İstisu kəndinə. Bəşir kişigildə qalan qalayçı həyətdəki çardağın altında qabqacağı qalaylar, axşamlar da dincələrdi. Həmin qalayçı öz

şeyirdini çox incidər, onu tez-tez maşa ilə döyərdi. Şəyird isə kənara qaçar, ustanın hirsi soyuyandan sonra gəlib işinə davam edərdi. Bir dəfə də usta şəyirdi döyəndə şəyird ağlaya-ağlaya həyətin o biri başına qaçır. Bunu görən Bəşir kişi başlayır ustanı danlamağa ki, uşaqdı qanmır, özünlə qərib elə gətirmisən. Onu ata-anası sənə tapşırıb, niyə döyürsən, yazıqdı, bilmədiyini başa sal, öyrət.

Şəyird o yandan ağlaya-ağlaya qayıdır ki, Bəşir baba, deməyin, danışmağın xeyri yoxdu, başınızı ağrıtmayın. Arazı keçəndən elə günüm budu.

Bu söz də atalar sözü kimi bu gün də işlənməkdədir.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər - Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" adlı kitabı, Bakı, 2004, səh.,82-83.*

## QATIRÇIYNAN NALBƏND

Bir qatırçı qatırının əlindən cana doymuşdu. Hara aparırdı, bu qatır imkan vermirdi ki, onu nallasınlar. Çox nalbəndləri vurub səqqət eləmişdi. Qatırçı eşidir ki, Göyçə mahalında Solaxay bir yaxşı nalbənd var. Soraqlaşa-soraqlaşa gəlib həmin nalbəndi tapır, dərdini ona söyləyir.

Solaxay deyir ki, narahat olma, mən onu nallıyaram. Qatırçı söyləyir ki, başına dönüm, ay nalbənd qardaş birdən vurub səni səqqət eliyər, mən bayis olaram, çox nalbəndləri şil-küt eliyif bu qatır. Solaxay deyir ki, sən narahat olma, mən onu istəyirsən lap tərsinə nallayım, elə sakit duracaq ki.

Nalbənd qatırı çəkib iri bir mıxa bağlayır, keçib tövlədən bir zırpı erkək eşşəyi gətirib onun qənşərində digər mıxa bağlayıb, yaxınlaşır qatıra. Əyilib onun qulağına nəsə pıçıldayır. Qatırçıya qayıdır ki, a kişi, tut qatırın ayağını nallıyım. Qatırçı qorxa-qorxa qatıra yaxınlaşıb əvvəlcə onun qabaq ayaqlarını, sonra da dal ayaqlarını qaldırır, nalbənd rahatca qatırı nallıyıb qurtarır. Əlayağını yuyur, həcət-hücəti yığışdırır, eşşəyi aparıb yenə tövlədə bağlayıb gəlir və deyir: qatırçı qardaş, haqqımı ver, sənə yaxşı yol.

Qatırçı bu işə mat qalıb deyir ki, məni bu işdən agah eləməsən haqqını verən deyiləm. De görüm, sən qatırın qulağına nə dedin? Nalbənd deyir ki, a başına dönüm, sənin nə işinə mən ona nə dedim, qatırını nallamışam, ver haqqımı. Qatırçı deyir ki, allaha and olsun, deməsən sənə bir qəpik də vermiyəcəm. Bu sirri mənə aç, sonra nə qədər desən pul verəcəm. Axı mən bu qatırı çox yerlərə, çox adlı-sanlı nalbəndlərin yanına aparmışam, nallıya bilməyiblər. Qatır göyə qalxırdı, sən nə dedin ki, o quzu kimi sakitcə dayandı?

Nalbənd gördü ki, qatırçı əl çəkmir, dedi ki, elə bir söz demədim. Dedim ki, nə şıllaq-mıllaq atırsan, atana bax, sonra təpiy at, həmin eşşəyin balası deyilsənmi? Sən nə Qırat, nə də Düratın balasısan. O da sağ olsun, atasına baxıb, qəbahətini qandı, tərpənmədi.

Qatırçı sus-pus nalbəndin haqqını verib, sevinə-sevinə geri döndü.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 87.*

## ÇALIN, ZURNAÇILARIM, ÇALIN

Bir neçə nəfər uzaq səfərdən qayıdırmışlar. Axşam bir kəndin kənarından keçərkən bir evdə qonaq olurlar. Ev yiyəsi qonaqların atını irahladıqdan sonra içəri dəvət edir. Xeyli söhbətdən sonra süfrəyə yemək gəlir. Ev yiyəsi:

- Yeyin, aslanlarım, yeyin, deyir.

Süfrə yığışılır, qonaqlara yer salınır ki, yatıb dincəlsinlər.

Ev yiyəsi:

- Yatın, quzularım, yatın, deyir.

Səhər üzünüzə xeyirliyə açılsın, səhər açılır, qonaqlar yuynub səhər yeməyini yeyib yola duşən zaman ev yiyəsi qayidır ki:

- Çalın, zurnaçılarım, çalın.

Qonaqlardan yaşca ağsaqqal olanı qayıdır ki, qardaş, çox sağ ol, dünəndən bizə xeyli hörmət göstərdiniz, əziyyətimizi çəkdiniz, çox razıyıq, Allah da sizdən razı olsun. Amma dünəndən üç kəlmə söz işlətmisən, onun açmasını deməsən, əl çəkən deyiləm.

Ev yiyəsi buyurur ki, sözdü də demişəm.

Ağsaqqal çox dirəşir ki, olmaz ki, olmaz, mənalarını söyləməlisən.

Ev yiyəsi qayıdır ki:

- Qonaq oldu, kim oldu süfrəyə qoyulan yeməyi aslan kimi iştahla yeməlidi, ev yiyəsi də dil-ağız eləməməlidi ki, yaxşı olmadı, bevaxt oldu, nə bilim nə, nə...

İkincisi, qonağa harda yer saldın nə cür yataq olursa-olsun quzu kimi yatacaq, çünki yorğundu, yol gəlib.

Üçüncüsü, qonaq gedəndən sonra gördüyünü hər yerdə söyləyəcək, yəni aşıq kimi çala-çala gedəcək. Ona görə də deyirəm çalın, zurnaçılarım.

Ağsaqqal söyləyir ki, hər üç ifadənin böyük mənası var, çox dəyərli sözlərdi. Həqiqətən də elədi.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 90-91.*

## MÜLKÜ BƏY

Mülkü bəy adlı bir bəy varmış. Hər yay ailəsi ilə birlikdə gəlib, Dərələyəz mahalında Bəşir kişiyə qonaq olar, üç ay yayı burada yaylayarmış. Bu müddət ərzində Bəşir kişi və ailəsi ona yaxşıca hörmət edərmiş.

Mülkü bəy ha deyərmiş ki, Bəşir qardaş, bir dəfə də sən uşaqları götür, bizlərə tərəf gəl, bağ belə , bostan belə.

Bir payız dərələyəzlilər arana bazarlığa gedirlər. Bəşir kişi də motaldan, yağdan, erkəy cəmdəyindən götürüb karvana qoşulur. Gəlib çıxır şəhərə. Soraqlaşa-soraqlaşa Mülkü bəyin evini tapır. Uzaqdan görür ki, Mülkü bəy həyətdədi.

Bəşiri görən Mülkü bəy içəri girib, kürkü başına çəkir, arvada deyir ki, Bəşir kişi məni soruşsa de ki, yaman ağır xəstədi, heç halı yoxdu durmağa.

Bəşir kişini həyətdə qarşılayan arvad necə ki, Mülkü bəy demişdi, eləcə də qayıdır ki, hal-qəziyyə belə, belə…

Bəşir kişi deyir: - Heç eybi yoxdu, mənim başqa qonağçım var, Mülkü bəyə deyiləsi bir kəlmə sözüm var, onu deyim, gedirəm. İçəri keçir ki, Mülkü bəy kürkü başına çəkib zarıldayır.

Bəşir kişi qamçı ilə Mülkü bəyin kürkünü qaldırıb deyir:

### AY MÜLKÜ BƏY, MÜLKÜ BƏY,

Geyinibsən kürkü, bəy.
Başqa evin aslanı,
Öz evində tülkü bəy.

*Mənbə: Elmi redaktoru və informatoru olduğum əsər, Alı Səfolu və Afiqə Alı qızının "Sazlı-sözlü Dərələyəz" kitabı, Bakı, 2004, səh., 95.*

*Qurudulmuş itburnu meyvələrinnən çay dəmləyib sidikqovuculuğuna görə içillər.*

*Yemişan meyvələrindən istifadə edən körpəli anaların südü artar və durulaşar.*

*Baş ağrısını kəsmək üçün yemişan meyvəsinnən çay dəmləyib içmək xeyirlidi.*

*Kəklikotunun dəmlənmiş çayı tər gətirir, təzyiqi endirir, bədəni yüngülləşdirir.*

*Mədə yarasını dəvədabanı bitgisinnən bişirilən bişmişi 40 gün hər səhər ac qarına yeməklə tamam qurtarmaq olur.*

*Xəstədə olan qurddarı tökmək üçün hər səhər tezdən ac qarnına qabaq tumlarını yemək faydalıdır.*

*Öd qovucu, böyrəklərdəki daşları əritmək üçün qan kəsici xüsusiyyətə malik olan qarğıdalı saçaqlarınnan hazırlanmış duru məhluldan istifadə etmək lazımdır.*

*Öskürəy və sinə ağrıları zamanı gülxətimi yarpaqlarından, çiçəklərindən və köklərindən dəmlənmiş çayı içmək faydalıdır.*

*Saçlarda əmələ gələn kəpəkləri, qovu yox etmək üçün gicitkan kollarını göy yarpaqları ilə suda qaynadıb onun suyu ilə başı təmiz-təmiz, bir neçə dəfə yumaq ən əlverişli müalicədi.*

*Çivan yarasını soğanla müalicə etmək olur. Yenicə çıxmış çivana soğan bölümünü ocaqda bir qədər isidib yaranın üstünə qoyub sarımaq lazımdı. Soğan yaranı yetişdirir, irinlədir. Bu zaman irini çıxarır və yaranı yenidən sarıyırlar, yara tez sağalır.*

*Baldırğanı çiy yemək bağırsaqların təmizlənməsinə kömək edir.*

*Sidiyini saxlaya bilməyən uşaqlara qoyunda olan qızıl özən adlı (yem gedən bağırsaq) bağırsağı bişirib yedirtmək xeyirlidir.*

*Ödqovucu xassəyə malik olan zirnic yarpaqlarını qurudub çay dəmləmək və istifadə etmək ürəkbulanmanın qarşısını alır.*

*Səhlabın kökünnən və çiçəyinnən hazırlanmış çaydan istifadə etmək adamı sakitləşdirir.*

*Böyrək və sidik yollarındakı xəstəlikləri gicirtkan yarpaqları, kökləri və çiçəklərinnən dəmlənmiş çayla müalicə etmək olur.*

*Qıc olmanın qarşısını almaq üçün baldırğan yarpaqlarının qurudulmasınnan hazırlanan çay xeyirlidi.*

*Zirnic qurusundan və mürəbbəsinnən istifadə etmək ciyər zəifliyinin möhkəmlənməsinə kömək edir.*

*Uşaqlarda tez-tez baş verən mədə xəstəliklərində gülxətminin qurudulmuş çiçəklərinnən hazırlanmış çayla müalicə etmək olur.*

*Yemişin tumlarınnan istifadə etmək bədəndə olan qurdların tökülməsində çox xeyir verir.*

*Zirnicin spirtli cövhərinnən istifadə etmək sidik kisəsinin və qaraciyərin iltihabının sağalmasına çox xeyir verir.*

*Çöl bənövşəsinin qurudulmuş köklərinnən və otunnan hazırlanmış çayla dizenteriyanı qurtarmaq olur.*

*Zirnicin təzə dərilmiş meyvələrinnən sinqa, raxit, isitmə xəstəliklərində istifadə etmək faydalıdı.*

*Ürək ağrısı zamanı yarpız bitgisinin qurudulmuşunnan çay dəmləyib 10 gün müddətində hər gün nahardan əvvəl yarım stakan içmək lazımdı.*

*Dalağın şişməsinin qurtarması üçün qatırquyruğu kökündən dəmlənmiş məhluldan gündə üç dəfə içmək lazımdı.*

*Baş ağrısı zamanı gülxətmi ilə kəkotunu qaynadıb başı onun buğuna vermək məsləhət görülür.*

*Ağız və diş yarasını qurtarmaq üçün ağ zəyi əzib, suya qatıb, ağızı qarqara edirlər.*

*Gicirtkanın çiçəyindən dəmlənmiş çayı içmək soyuqdəymənin qarşısını alır.*

*Qarın ağrısından qurtarmaq üçün gülxətmi ilə sarı çiçəkdən hazırlanmış məlhəmi içmək xeyirlidi.*

*Təzə yaranı zəhərri mikroblardan qorumax üçün həmin yaranı sidiklə yumaq lazımdı.*

*Qızılca tutan uşağı qırmızı rəngli parça ilə sarımaq və ona müntəzəm olaraq şirin şey yedirtmək xəstəliyi qurtarır.*

*Dəvədabanı bitgisinin zoğlarını 40 gün müddətində hər səhər nahardan qabaq yeməklə mədə yarasını qurtarmaq olar.*

*Bağırsaqları yumşaltmaq üçün nehrə yağını südlə içmək çox xeyirlidir.*

*Bərk sətəlcəmə tutulan adamı təzə heyvan dərisinə büküf hər tərəfini möhkəmcə örtmək lazımdı. Bir sutkadan sonra dərini çıxarıf xəstəni otların qaynadılmış suyu ilə çımizdirif yenə də örtükdə yatırtmaq lazımdı.*

*İlan çalan adama təcili yardım etmək lazımdı. Əgər ilan qıçları və ya qolları çalıfsa tezcə oranı möhkəmcə sıxmaq-bağlamaq, ilan çalan yeri isə neştərləyif zəhərri qanı axıtmaq lazımdı.*

*İlan çalan hissəni iti öldürüb bədəninə salmaq çox xeyirlidir. İtin cəmdəyi zəhəri yaxşı sorur.*

*Yel xəstəliyində ayı yağı, eləcə də porsuq yağınnan geniş istifadə edilir. Bu tədbiri fasiləsiz olaraq aparmaq lazımdı.*

*Yel xəstəliyində xəstəni təzə soyulmuş ayı dərisinə salmaq çox xeyirlidir. Xəstəliyi birdəfəlik qurtarır.*

*Ağ ciyər xəstəliyi zamanı bal ilə limon turşusunu qarışdırıb qəbul etmək yaxşı effekt verir.*

*Ağızdan pis qoxu gələndə bir müddət keşniş və ya onun tumunu çeynəməklə yox olur.*

*Böyrək ağrısı zamanı yarpızı dəmləyib içmək faydalıdır.*

*Böyrək ağrıları zamanı nanəni çay kimi dəmləyib içmək xeyirlidir.*

*Baş ağrısı zamanı kəklik otunun dəmlənib içilməsi çox səmərə verir.*

*Qara ciyər ağrısı zamanı tut doşabı faydalı olur. Belə ki, doşabdan hər gün ac qarına bir xörək qaşığı qəbul etmək faydalıdır.*

*Qarında olan yel və qazların çıxması, azalmasında şüyüd və ya şüyüd suyu faydalıdır.*

*Kələm yemək və ya kələm şirəsini qəbul etmək mədə-bağırsaq üçün faydalıdır.*

*Mədədə yara olanda pöhrə gicitikanını ovuşdurub yemək yaranın sağalmasına kömək edir.*

*Nanəni dəmləyib içmək ürək döyüntülərini nizama sala bilir.*

*Öskürək zamanı inək və ya keçi südü içmək çox xeyirlidir.*

*Soyuqdəymə zamanı turşulu əriştə yemək çox faydalıdır.*

*Sarılıq xəstəliyi zamanı xəstəyə gündə 3 dəfə özündən xəbərsiz (çayın tərkibində) 3-5 damcı uşaq sidiyi içirtmək yaxşı nəticə verir.*

*Sətəlcəm zamanı tut bəhməzi içmək çox faydalıdır.*

*Təzə qaymarit olan adamın alnına, üzünə qovrulmuş duzu isti-isti qoymaq çox xeyirlidir. O qaymariti birdəfəlik qurtarır.*

*Təzyiqi yuxarı olanlar nar, innab, turşəng yesələr xeyirli olar.*

*Turp qan təzyiqini aşağı salır, bədəndən zəhərin çıxmasına kömək edir.*

*Narın qabığı qarınağrısına xeyirdir*

*Heyvanın tumu boğaz ağrısına, öskürəyə xeyirdir.*

*Uşaqlarda dizenteriya olduqda palıd qabığı həliminə nişasta qatılıb içilir.*

*Sarımsaq iştah artırır, qurd qovur.*

*Baş ağrısına kömək edir.*

*Böyrək ağrıyanda sarımsaq yeyilməlidir.*

*Ağ turpun şirəsinə qənd, ya da bal qarışdırıb öskürək zamanı gündə 3-4 dəfə, 1-2 xörək qaşığı içmək lazımdı.*

*Üzərriksən, hovasan,*
*Minbir dərdə davasan!*

## ŞƏFALI BİTKİLƏR VƏ ONLARDAN HAZIRLANAN MƏHSULLAR

### Kəkotu

Dağlıq yerlərdə. Yamaclarda bitir. Kəkotunu yığıb kölgədə qurudurlar. Çay kimi dəmləyib içirlər.

Kəkotu çayı xəstəni tərlədir, qan dövranın qaydaya salır.

### Qantəpər

Buna sarı çiçək də deyirlər. Dağlıq yerlərdə, çəmənliklərdə bitir.

Qantəpər çayı qan təzyiqini aşağı salır. Soyuqdəymə hallarında yaxşı təsir göstərir.

### Gülxətmi

Gülxətminin çiçəklərini yığıb kölgədə qurudurlar.

Çay kimi dəmləyib içərlər. Sinə ağrılarını və öskürəyi kəsir.

### Əmənkömənci

Yarpaqlarını və zoğlarını yığıb sıyıq bişirirlər. Quru öskürək və sinə tutulması hallarında çox təsirlidir.

### Gicitkan

Gicitkana söyüd çubuğu, yarpız, kəkotu, qantəpər, cökə çiçəyi, nanə qatıb bir yerdə qaynadırlar. Qarın ağrısı və bədən səpən zaman bunun suyundan istifadə edilir.

### Bağayarpağı

Bağayarpağı irinləmiş yaralarda, çibanda, sızaqlarda istifadə olunur. Təzə dərilmiş bağayarpağını həmin yaraların üstünə bağlayırlar. O yaranı təmizləyir.

Bağayarpağı özəyini dəmləyib içəndə sancını kəsir.

### Bişmiş soğan

Baş soğan qabıqlı halda közdə bişirilir. Qat-qat soyub isti-isti yaraya döşəyirlər. Bişmiş soğan hoylamış yaralarda, çibanda, dolamada çox xeyirlidir.

### Əvəlik

Qara əvəlik həm dağ, həm də aran yerlərdə bitir. Ağ əvəlik təkcə dağda olur. Əvəliyin dəmləməsi qarın ağrısını, sancını kəsir.

### Armud

Armudun müalicəvi əhəmiyyəti çoxdur. Mədəni qaydaya salır. Həzm prosesini yaxşılaşdırır, işləmə-qusmanı dayandırır.

### Bəhməz

Tutu yığıb, pörtlədib süzürlər. Tut şirəsini mis tiyanlarda qaynadırlar. Bəhməz hazır olana yaxın üzündə sarı köpük olur. Buna sarıköynək deyirlər. Sarı köynəyi tökməzlər. Ayrıca yığıb, qatıq bəhməz düzəldərlər.

Bəhməz sinə ağrılarında, öd, qara ciyər xəstəliklərində təsirli dərmanlardan sayılır. Suya, yaxud inək südünə qatıb içərlər.

### Tut qurusu

Tutu çırpıb təmizləyir və səpib qurudurlar. Çalışırlar ki, su dəyməsin. Su dəyəndə tut qaralır, öz keyfiyyətini itirir. Bir çox dərdlərin dərmanıdır.

### Göy öskürəyin dərmanı

Ağ soğanı dilimləyib bir qab südün içərisinə töküb qaynadırlar, sonra xəstəyə verilir, göy öskürək aradan qalxır.

## OVSUNLAR

### Ziyili yox etmə

Təzə ay doğanda aya baxa-baxa ziyilə köhnə süpürgə çəkmək, yaxud öpmək, bu sözləri təkrar etməklə ziyil yoxa çıxır:

Ay, səni xoş gördük,<br>
Ziyil yerin boş gördük.

### Duzyandırma

Duzyandırma üzərlik yandırma kimi icra olunur. Göz dəyən adamın başına bir çimidik duz hərləyib gözü dəyməcəli adamların adlarını çəkə-çəkə ocağa atıb, oxuyarlar:

Bir ovuc duz,<br>
Ocaqda qız.<br>
Parta-partla çıx,<br>
Balama dəyən göz.

## DƏRƏLƏYƏZDƏ XALQ TƏBABƏTİNİ YAŞADANLARDAN BƏZİ NÜMUNƏLƏR

*a) Sınıqçılar (cərrahlar)*

Burada mən cərrahların sağalda bilmədiyi sınıq və çıxıqları sağaldanların bəzilərini verirəm.

1. Hacməhəmməd oğlu Məşədağa - Gülüdüz kəndi. Ovulmuş, çilik-çilik olmuş sümükləri bir yerə yığıb sarıyır və bitişdirirdi. Əllərində rentgen həssaslığı var idi. Çıxıqları isə dərhal yerinə salırdı. Son illər Şərur və Dərələyəz eli həmişə axışıb onun yanına gələrdi. 90 yaşında Dərələyəzdə dünyasını dəyişdi.

2. Məmmədova Qismət Məşədağa qızı - Gülüdüz kəndi. Bu da atası kimi məşhur idi. 1988-ci il departasiyasından sonra Abşeron rayonunun Mehdiabad qəsəbəsində məskunlaşmışdı. Dəfələrlə AzTV-də onun bacarığı haqqında veriliş getdi. 2003-cü ildə dünyasını dəyişdi.

3. Məmmədov Əli Məşədağa oğlu - Gülüdüz kəndi. Bu da atası və bacısı kimi məşhur idi. 2001-ci ildə Bakıda dünyasını dəyişdi.

4. Hüseynov Hüseyn Ağamirzə oğlu - Terp kəndi. Həddindən artıq məşhur sınıqçı olub. Qapısında növbədən yer olmurmuş. 1988-ci ildə dünyasını dəyişdi.

5. Terpli İdris - Terp kəndi. Hal-hazırda Abşeron rayonunun Mehdiabad kəndində yaşayır. Yalnız qırıq-sınıqları deyil, fəqərə sütunundakı qırıq və bitişmələri, əyriləri də düzəldir. Yüzlərlə xəstə onun əlindən şəfa tapmış və 100% sağalmışdır. Bəzi xirurqlar lazım gəldikdə onunköməyindən istifadə edirlər.

6. Sınıqçı Həsi - Qozulca kəndi. Çox məşhur sınıqçı və çıxıqçı olub. 110 il ömür sürdükdən sonra dünyasını dəyişmişdir. 1949-cu ildə yurdundan deportasiya olunmuş və Şərur rayonunun Daşarx kəndində məskunlaşmış və orada dünyasını dəyişmişdir.

7. Sınıqçı Hacı Fətulla - Məmərza kəndi. Dövrünün çox məşhur sınıqçısı olmuşdur.

8. Sınıqçı Qayıb - Sallı kəndi. Eldə məşhur sınıqçı kimi tanınmışdır.

9. Məmmədova Süsən - Qovuşuq kəndi. 100-dən çox yaşı var idi. Bu sınıq-çıxıqla yanaşı dərman bitkilərini də yaxşı tanıyırdı.

10. Zülfüqarova Nabat - Qovuşuq kəndi. Sınıqdan və çıxıqdan yaxşı başı çıxırdı. 80-ildən artıq ömür sürdü. Neçə-neçə adamlara şəfa verdi. O həm də dərman bitkilərini yaxşı tanıyırdı.

11. Zülfüqarov Kazım - Qovuşuq kəndi. Ali təhsilli müəllimdir. 1988-ci ildə qovulduqdan sonra Sumqayıt şəhərində məskunlaşmışdır. O sınığı və çıxığı çox yaxşı bilir. Çoxlarına şəfa veribdir.

***b) Hər dərdə, hər xəstəliyə çarə tapan professional həkimlər***

1. Seyid Əsəd - Almalı kəndi. Bunun sagaltmadığı xəstə yox idi. Ermənilər onu sürgün etmək istəyirdilər. O da qaçıb Bərdə rayonunun Xəsili

kəndində yaşayırdı. Mənim sağ əlimi çoban iti ağzına salıb əzim-əzim eləmişdi. O, 10 gün müddətində onu tam sağaltdı.

2. Seyid Rza - Almalı kəndi. Bircə fakt: Dərələyəzin Qovuşuq kəndində Əsgərov Mamed adında bir müəllim var idi. Bunun üzündən sasiska şəklində özək ət çıxardı. Bakıda, İrəvanda, Naxçıvanda getmədiyi həkim qalmadı. Çarə tapa bilmədilər. Seyid Rza yayda bir həftə müddətində ot məlhəmlərlə onu çıxartdı və xəstə tam sağaldı. Mən bunun canlı şahidiyəm.

3. Seyid Tahir - Almalı kəndi. Bu da məşhur həkim olmuşdur.

*c) Xalq təbabətini bilən və dərman bitkilərini yaxşı tanıyanlar*

1. Horslu Şeşe arvad - 10-15 il doğmayan qadınları müalicə edib doğuzdururdu. O, Dərələyəzdə 10-larla belə qadınları müalicə edib övlad sahibi etmişdir.

2. Şahbazov Calal - Gülüdüz kəndi

3. Mamedov Kətən - Gülüdüz kəndi

4. Mamedov Mürvət - Qaraqaya kəndi

5. Xanım arvad - Qaraqaya kəndi

6. Dağdələnli Pəri qarı - Qovuşuq kəndi

7. Samavar arvad - Kotanlı kəndi

Yuxarıda adları qeyd olunan adamlar onlarla xəstələri müalicə edib onlara şəfa vermişdir.

# UŞAQ FOLKLORU

## LAYLALAR

Laylay dedim, yat dedim,
Qızılgülə bat dedim.
Qızılgül tacın olsun,
Kölgəsində yat dedim.
Balam Laylay, a Laylay.
Gülüm Laylay, a Laylay.

Nərgizi üzüm Laylay,
Yaxana düzüm Laylay.
Sən böyü, mən qocalım,
Toyunda süzüm Lay-lay.

* * *

Laylay quzum ağlama,
Ürəyimi dağlama,
Yat yuxun şirin olsun,
Yuxuma daş bağlama.

Laylay balam, gül balam
Gül balam, bülbül balam
Mən sevindim səninlə
Sən də sevin, gül balam.

Lay-lay çalım yatınca,
Qızıl gülə batınca.
Canım zinhara gəldi,
Sən hasilə çatınca.
Balam lay-lay, a lay-lay,
Körpəm lay-lay, a lay-lay.

Laylay güllü beşiyim,
Layla evim-eşiyim.
Sən yat şirin yuxu tap.
Mən də çəkim keşiyin.

Balama quzu qurban,
Əllisi, yüzü qurban.
Maldan nə var qurbana,
Nənəsi özü qurban.

Laylay çalım həmişə,
Karvan gedər yenişə,
Yorğanında gül bitsin
Yastığında bənövşə.

Laylay beşiyim laylay,
Evim-eşiyim laylay,
Sən yuxula tez ol yat,
Çəkim keşiyin laylay.
Çəməndə güllər,
Süsən sünbüllər.
Göycək gəlinlər,
Bu balama qurban.

Dağın çiçəyi,
Gülün ləçəyi.
Elin göyçəyi
Bu balama qurban.

Dəryalar dərin,
Bulaqlar sərin.
Tez böyü oğul,
Toyunu görüm.

## OXŞAMALAR

Atım, tutum mən səni,
Şəkərə qatım mən səni.
Baban evə gələndə,
Qucuna atım mən səni.

Əzzinəm bala dadı,
Bal dadı bala dadı.
Nə balda, nə şəkərdə
Bulunmaz bala dadı.
Gögərçin havadadı,
Əlyetməz yuvadadı,
Bir əlim başın altda,
Bir əlim duadadı.

## NAZLAMALAR, ƏZİZLƏMƏLƏR

Ay allah bunnan üç dənə ver.
Üçdənə verme, beşdənə ver.
Həsrətin çəkmişdərə ver.
Gej ərə getmişlərə ver.

Lay-lay çallam yatasan,
Gül yastığa batasan.
Gül yastığın içində,
Şirin yuxu tapasan.
Lay-lay, beşiyim, lay-lay,
Evim, eşiyim, lay-lay.

Dağ başında qarımsan,
Namus, qeyrət, arımsan.
Heş bir şeydə gözüm yox.
Dövlətimsən, varımsan.
Balam ay-lay, a lay-lay,
Gülüm, ay-lay, a lay-lay.

Lay-lay dedim, yat dedim,
Qızılgülə bat dedim.
Böyü, yekə oğlan ol,
Boya-başa çat, dedim.
Balam ay-lay, a lay-lay,
Gülüm, ay-lay, a lay-lay.

Bağçamızda miyana,
Gül sünbülə dayana,
Oxu, bülbülüm, oxu,
Bəlkə balam oyana.
Balam ay-lay, a lay-lay,
Gülüm, ay-lay, a lay-lay.

Lay-lay, çiçəyim, lay-lay,
Gözəl-göyçəyim, lay-lay.
Bala dərdi çəkməkdən
Soldu birçəyim, lay-lay.
Balam ay-lay, a lay-lay,
Gülüm, ay-lay, a lay-lay.

Baharım, yazım lay-lay,
Söhbətim, sazım, lay-lay
Sən yat çəkim keşiyin,
Körpəcə quzum, lay-lay.
Balam ay-lay, a lay-lay,
Gülüm, ay-lay, a lay-lay.

Lay-lay dedim, yat dedim,
Yuxuna bal qat dedim.
Atan getdi, gəlmədi,
Sən atana çat dedim.
Balam ay-lay, a lay-lay,
Gülüm, ay-lay, a lay-lay.

Balam yaraşıqlıdı,
Qəndə bulaşıqlıdı.
Ay qara milçək,
Balamdan əl çək!

Laylay dedim yatasan,
Dərdi-qəmi atasan.
Qızıl gül bağın olsun,
Gül-çiçəyə batasan.
Balam ay-lay, a lay-lay,
Gülüm, ay-lay, a lay-lay.

Lay-lay beşiyim lay-lay
Evim-eşiyim laylay
Tez ol, sən get yuxuya,
Evim eşiyim lay-lay

Pişiyim, pişiyim, bağda-sər,
Eşiyə çıxma, yel əsər.
Bu gejə mənə qonaxsan,
Gələn səhər sərhasər.

Laylay beşiyim laylay,
Evim, eşiyim laylay.
Sən get şirin yuxuya,
Çəkim keşiyin laylay.
Balam ay-lay, a lay-lay,
Gülüm, ay-lay, a lay-lay.

Lay-lay dedim yatasan,
Qızıl gülə batasan,
Qızıl gülün içində
Şirin yuxu tapasan.

Qoxusu güldən gəlir,
Güldən, bülbüldən gəlir.
Balamın gül beşikdə
Yuxusu birdən gəlir.
Balam ay-lay, a lay-lay,
Gülüm, ay-lay, a lay-lay.

## OXŞAMALAR

Balama qurban inəklər,
Balam nə vaxt iməklər?

Balama qurban kalçalar.
Balam haçan dil açar?
Balama qurban xalçalar,
Balam nə vaxt əl çalar?

## BƏNZƏTMƏLƏR

Dağ başına qar yağar,
Bulud keçər, ay doğar,
Sənin tək ay parçasın
Analar tək-tək doğar.

Bağda bülbül oxuyur,
Saça sünbül toxuyur.
Balamı iyləyirəm,
Elə bil gül qoxuyur.

## ALQIŞ-LAYLALAR

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə.

Tanrıdan əhdim budu,
Dəyməsin nəzər sənə.

## QURBANLAR

Lay-lay balam, can balam,
Mən sənə qurban balam.
Ağlayıban könlümü
Gəl eyləmə qan balam.

## OXŞAMA

Bir quş vurdum uçanda,
Ov ovladım qaçanda.
Bir cüt qurban demişəm,
Nəvəm ayağ açanda.

Atım-tutum mən səni,
Şəkərə qatım mən səni,
Şəkər şirin olmasa,
Şəkərə qatım mən səni.

Qızıl gülü əkərəm,
Cəfasını çəkərəm.
Nəvəm nənə deyəndə,
Quzu qurban kəsərəm.

Qızım-qızım, nazana,
Qızımın saçı uzana.
Qızıma pis baxannar,
Görüm düşsün qazana.

Dağın lalası,
Gölün sonası,
Qız qaynanası
Bu balama qurban.

Bağcada güllər,
Laldı çöllər,
Sarı bülbüllər,
Bu balama qurban.

Bağında üzüm,
İzin ver, üzüm.
Hər iki gözüm,
Bu balama qurban.

Dağdakı atlar,
Quyruğun qatlar,
Göyçək arvatdar
Bu balama qurban.

Çaydakı qazdar,
Tükünü tozdar.
Nişanını qızdar
Bu balama qurban.

Qoxusu güldən gəlir,
Çiçəkdən, güldən gəlir.
Balamın gül beşikdə,
Yuxusu birdən gəlir.

Başına mən dolanım,
Mən dönüm, mən dolanım,
Səni allah saxlasın,
Sayəndə mən dolanım.

Qoxusu güldən gəlir,
Güldən, bülbüldən gəlir,
Balamın gül beşikdə,
Yuxusu birdən gəlir.

Bala dadı, bal dadı,
Bala adam aldadı,
Şirini şirin olu,
Acısı da bal dadı.

* * *

Anan sənə yat dedi,
Qızıl gülə bat dedi.
Bədnəzərdən uzaq ol,
Dərdi-qəmi at dedi.
Yat, yuxun şirin olsun!
Yat, cənnət yerin olsun!
Bağçamızın gülüsən,
Evin şirin dilisən.

Ata, ana istəyi,
Uşaxların gülüsən.
Balam lay-lay, a lay-lay,
Gülüm lay-lay, a lay-lay.

Ay dağların lalası,
Ay suların sonası,
Mənim bu gül balama,
Qurvan olsun xalası.
Dinim, imanım,
Yaxşı, yamanım,
Bu şirin canım,
Balama qurvan.

Arzum, diləyim,
Göydə mələyim,
Duzum, çörəyim
Balama qurvan.

Ay fil-fili, fil-fili
Gəl oxu bizim dili.
Bizim dilin gülü var,
Gül üstə bülbülü var.

## CIRNATMALAR

- Adın nədi?
- Bala.
- Yat, qal dala.

- Adın nədi?
- Rəşid.
- Birin de, birin eşit.

## OYUN-NƏĞMƏLƏR

### O QARA QAZAN DOLDUMU?

O qara qazan doldumu?
- Doldu da, boşaldı da!
Anan saçın yudumu?
- Yudu da, daradı da.
Oğlan evi gəldimi?
- Gəldi də, apardı da.

### BİR-İKİ

Bir-iki,
Bizimki,
Üç-dörd
Qapını ört,
Beş-altı
Daş altı,
Yeddi-səkkiz
Firəngiz,
Doqquz-on
Qırmızı don.

### ƏKİL-BƏKİL

Əkil-bəkil quş idim,
Divara qonmuş idim,
Divarın ağacları,
Dən götürüb ucları.
Çəpər çəkdim yol açdım,
Qızıl gülə dolaşdım.
Bir dəstə gül dərməmiş,
Nənəm gəldi mən qaçdım.

* * *

Əkil-bəkil quş idi,
Ağaca qonmuş idi,
Getdim onu tutmağa,
O məni tutmuş idi,
Meydana salmış idi.
Meydanın ağacları,
Dən gətirir quşları,
Çəpər çəkdim, yol açdım,
Qızılgülə dolaşdım,
Bir dəstə gül dərməmiş,
Nənəm gəldi, mən qaçdım.

## SANAMALAR

### İYNƏ, İYNƏ

İynə, iynə,
Ucu düymə,
Bal ballıca,
Ballı keçi,
Şam ağacı,
Şatır keçi,
Qoz ağacı,
Qotur keçi.
Hoppan, hoppan,
Yırtıl, yırtıl,
Su iç, qurtul.

### BARMAQLAR

Baş barmaq,
Başa barmaq.
Uzun Hacı,
Qıl turacı,
Balaca bacı.
Bu vurdu,
Bu tutdu,
Bu bişirdi,
Bu yedi.
Vay, bəbəyə qalmadı.

## DOLAMALAR

\- Deynən yorğan!
\- Yorğan!
\- Tikə-tikə doğran.

\- Deynən xala!
\- Xala!
\- Qazan dibi yala.
\- Deynən tülkü!
\- Tülkü !
\- Geynən kürkü.
\- Deynən ağır!
\- Ağır!
\- Belin olsun yağır.

\- Deynən bə nə?
\- Bə nə?
\- Ağzına qıllı gənə.

\- Deynən ayı!
\- Ayı!
\- Sən də onun bir tayı.
\- Deynən balıq!

- Balıq!
- Saxlasın səni xalıq.

- Deynən ara!
- Ara!
- Canına düşsün yara.

- Deynən bir!
- Bir!
- Birə qəbrinə gir.

- Deynən dörd!
- Dörd!
- Get qapını ört.

- Deynən tat!
- Tat!
- Tabaq altda yat.

- Deynən üç!
- Üç!
- İt qabından su iç.

- Deynən Qulu!
- Deynən sarımsaq!
- Sarımsaq!
- Kəs səsini qurumsaq!

- Qulu!
- Ver bizim pulu.

- Deynən yeddi!
- Yeddi!
- Papağın əldən getdi.

- Deynən beş!
- Beş!
- Burnundan fırtılıx eş.

- Deynən səkkiz!
- Səkkiz!
- Ağzına saqqız.

- Deynən on!
- On!
- Get divara qon.

- Deynən doqquz!
- Doqquz!
- Başına toppuz.

## YANILTMACLAR

*Təndirə girdim, sildim, süpürdüm, silkindin çıxdım.*

## BƏNÖVŞƏ

Bu oyunda da iştirakçılar iki dəstəyə bölünür. Oyun 6-14 uşaq arasında aparılır. Dəstələr bir-birindən 25-30 metrlik məsafədə üzbəüz dayanırlar. Hər dəstəyə başçı seçilir. Dəstədəki oyunçular düz xətt boyunca əl-ələ tuturlar. Birinci dəstənin başçısı deyir:

- Bənövşə!

O biri dəstənin başçısı deyir:

- Bəndə düşə.

Birinci dəstənin başçısı:

- Bizdən sizə kim düşə?

O, biri dəstənin başçısı qarşıdakı dəstədəki uşaqlardan birinin adını deyir:

- Adı gözəl, özü gözəl, filankəs.

Adı çəkilən uşaq əks dəstəyə, qarşıdakı tərəfə sürətlə qaçır.

Əgər o qarşıdakı dəstədə əl-ələ tutmuş iki oyunçunun əllərini qoparıb keçərsə, həmin oyunçulardan birini öz dəstəsinə gətirir. Bu oyun bir dəstənin o biri dəstənin bütün oyunçularını axıradək özününkülərə qatdıqdan sonra başa çatır.

Bundan sonra oyuna yenidən başlanılır.

*Söyləyəni: **Zülfüqarova Züleyxa İbrahim qızı**, Dərələyəzin qovuşuq kəndində doğulub boya-başa çatıb, 52 il orada yaşayıb, hal-hazırda Abşeronun Novxanı kəndində yaşayır. Qələmə aldı Həsən Mirzəyev. Novxanı, 2005-ci il.*

## LAYLALAR

Dağların lalasına,
Gözlərin alasına.
Bibilər qurban olsun,
Qardaşın balasına.

Laylay dedin gözünə,
Su ələnsin üzünə,
Heç vədə göz dəyməsin,
Sənin qara gözünə.
Laylay balam, a laylay,
Laylay gülüm, a laylay.

Laylay dedim yatasan,
Yastığa baş atasan.
Bala, çəkim nazını,
Boya–başa çatasan.
Laylay balam, a laylay,
Laylay gülüm , a laylay.

Layla dedim yatasan,
Qönçə gülə batasan.
Qönçə gül payın olsun,
Kölgəsində yatasan.

## HEYVANLARA VƏ QUŞLARA DAİR

### TÜLKÜ, TÜLKÜ

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Aslan ala ağamız,
Qaplan qara qağamız,
Xoruz bizim mollamız,
Çaqqal bizim çavşımız.
Ala qarğa carçımız,
Sağsağan xəbərçimiz,
Toyuq bizim çərçimiz,
İlan bizim qəmçimiz.
Sarıbabada gəzərsən,
Sarı bığların burarsan,
Bir çomaq vurram ölərsən,
Tülkü, tülkü, tülkü səni,
Öldürərlər bil ki səni.
Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş
Çaqqal çavuş,
İlan qamçı,
Tısbağa çanaq,
Biz ona qonaq.

# DƏRƏLƏYƏZLƏ BAĞLI BƏZİ HADİSƏ VƏ ƏHVALATLAR

## QAÇAQ NƏBİNİN DƏRƏLƏYƏZDƏ GOBURNATLA DÖYÜŞÜ

Məlum olduğu kimi, toponimlərin yaranmasında tarixi hadisələrin də rolu vardır. Biz burada Qaçaq Nəbinin yalnız Dərələyəz mahalındakı bir döyüşünü və bununla bağlı yaranan "Nəbi qənd bölən", "Qəndbölən" toponiminin tarixi haqqında qısa şəkildə məlumat verməklə kifayətlənəcəyik.

"Nəbi qənd bölən" – "Qəndbölən" adlı yer Dərələyəz mahalında, indiki Ermənistanın Yeğeqnadzor rayonunun tarixi abidələrlə dolu olan Ələyəz kəndi ərazisində yerləşir. Bu toponim Qaçaq Nəbinin Dərələyəz mahalından keçib Araza doğru gedərkən olmuş bir hadisə ilə bağlı əmələ gəlmişdir. Lakin indiyədək Qaçaq Nəbinin bu səfəri haqqında məlumat verilmədiyini, dildən-dilə gəzdiyini nəzərə alıb biz həmin hadisəni yazıya köçürməyi faydalı hesab etdik.

Şərur-Dərələyəz mahalında çox məlumatlı bir şəxs kimi tanınan, klassik və şifahi xalq ədəbiyyatına dərindən bələd olan, 93 il ömür sürən İbrahim Mirzəli oğlunun (atamın) bu hadisə haqqında şəxsən mənə söylədikləri qısaca olaraq aşağıdakı şəkildədir.

Yay ayının axırları və ya payızın əvvəllərində Qaçaq Nəbi öz dəstəsi ilə Sarı yer yaylağı tərəfindən kazaklar və yerli məmurlarla vuruşa-vuruşa axşam çağına yaxın Dərələyəz mahalındakı Gülüdüz kəndindən keçib Nəbilər kəndinə çatır. Burada yolların pis olması, Nəbinin bu yerlərə bələd olmaması və axşamın yaxınlaşması bunların işini çətinləşdirir. Kazaklar isə bunların qabağını kəsməyə çalışırlar. Bu zaman Nəbilər kəndində Qaçaq Nəbi ucadan qışqırır: Ay camahat mən Qaçaq Nəbiyəm. Görürsünüz ki, kazaklar yaxınlaşır. Qoy bir nəfər yolları tanıyan adam bizə bələdçilik eləsin.

Nəbilər kəndində Hüseynqulu oğlu Əli adlı bir nəfər irəli çıxıb bunların qabağına düşür. (Hüseynqulu oğlu Əli 1936-cı ilə qədər yaşayıb və təxminən 120 il ömür sürmüşdür. Uca boylu, qarabəniz, çox çevik bir adam idi. Həmişə çuxa geyər və çuxasının ətəyini bir əlinə dolayırdı.)

Nəbinin dəstəsi Arpa çayının ikinci qolu ilə üzüaşağı irəliləyib qaranlıq düşəndə Qovuşuq kəndinə çatır. Bu zaman arxadan kazaklar çatır və atışma güclənir. Nəbi səs-küyə toplaşan Qovuşuq kənd camaatına müraciət edib deyir: "Ay camaat mən kazakların qabağını kəsərəm. Bir nəfər qeyrətli və ölümdən qorxmayan adam lazımdır ki, Həcərə kömək etsin. Buradakı sərt və uçurum yerlərdə onun atının yüyənindən yapışsın". Kənd camaatının məsləhəti ilə vuruş və döyüşdə məşhur olan, kişi xasiyyətli Hacsamoğlu Abduləsəd və çox yaxşı gülləatan, cəld ovçu İsmayıl adlı şəxs Nəbiyə yaxınlaşır. Abduləsəd Həcərin atının cilovundan tutur və bu anda çoxlu adam irəli çıxıb köməyə gəlir.

Karvan Ələyəz kəndinə doğru irəliləyir. Lakin şiddətli atışma getdiyindən Nəbinin yüklü atlarından biri kənd sakini Hacınamazalı oğlu Əmirin mal tövləsinə girib orada qalır...

Qovuşuqla Ələyəz kəndinin arasında Güneyvəng adlanan kənddə karvan əsas yoldan çıxıb dağın döşü ilə, qoz (cəviz) ağaclarının içərisi, sıldırım qayaların dibi ilə Ələyəz kəndinin ərazisinə çatır və burada bir yastanada dayanıb Nəbigili gözləyirlər. Nəbi kazakları geri qayıtmağa məcbur edir və ovçu İsmayıl Nəbinin döyüşən dəstəsini Abduləsədlə vədələşdiyi yerə, Həcərin dayandığı yerə gətirir.

Nəbi burada ovçu İsmayıla bir tüfəng bağışlayır və Həcərlə birlikdə bir böyük xurcun qəndi bölüb bunları müşayiət edən adamlara paylayır. "Nəbi qənd bölən", "Qəndbölən" toponimi belə yaranır. Bu toponim və bunun əhatə etdiyi ərazi Dərələyəz mahalında yaşamış uşaqların da dilində əzbərdir:

*Qənd bölən Nəbidən qalıb yadigar,*
*Dədəli körpüsün söküb ruzigar.*
*Xalaclar yurdunda lalə füsünkar,*
*Əl uzat, birin üz Dərələyəzdə.*

Nəbinin dəstəsi burada bir qədər dincəldikdən sonra Qovuşuq, Nəbilər və Güneyvəng kəndindən gələn adamların hamısını Nəbi geri qaytarır. Abduləsəd isə Nəbinin dəstəsi ilə birlikdə irəliləməyə başlayır. Ələyəz kəndinin və Salsal qalasının üstündən keçən Güney yolu ilə gedib Abduləsədin bibisi (Qızxanım) yaşayan Horbadıq kəndinə yaxınlaşırlar. Bələdçilik edən Abduləsəd kişi deyir ki, gedək kənddə bibimgildə (mamam gildə) daldalanaq. Lakin Nəbi bu fikirlə razılaşmır və deyir ki, orada bizi tuta bilərlər. Kənd kənarındakı qayalıq və meşəlikdə qalsaq yaxşıdır. Gündüz həmin qayalıq və meşəlikdə qalıb, axşam düşən kimi yola düşürlər.

Abdüləsəd bunları dağ yolları ilə Arazın kənarındakı "Arazdəyən" adlı yerə qədər müşayiət edir. Nəbi Araz çayını görən kimi Abduləsədə deyir: daha sən qayıt, Araza çatdıq qorxma. Bundan sonra bir ordu da gəlsə məni tuta bilməz. Araz çoxlarını xilas edibdir. Məni də xilas edər.Nəbi, Həcər və bunların yoldaşları Abduləsədlə görüşüb ona öz razılıqlarını bildirir və ayrılırlar. Abduləsəd kişi Nəbigildən ayrılanda bir bayatı çəkir.

*Araz, Araz xan Araz,*
*Nəbiyə yol ver Araz.*
*Nəbi kimi igidlər*
*Bil ki, tapılır az-az.*

**Əlavəm:** Yeri gəlmişkən burada bir təzadlı məsələni də demək istəyirəm. Abdulәsəd mənim atam İbrahim Mirzəli oğlunun doğma əmisidir. Abdulәsəd Nəbiyə kömək etdiyi halda, anamın doğma əmisi Hacıələkbər kişi isə çar kazakları tərəfində Nəbiyə qarşı vuruşurmuş. Çar hökuməti bu dövrdə varlı adamları Nəbiyə qarşı vuruşmağa məcbur edirdi. Maraqlı odur ki, bu döyüşdə Hacıələkbər kişinin dabanına güllə dəyir və həmin güllədən o şikəst

vəziyyətinə düşür. Hacıələkbər kişi mənim yadıma gəlir. Boyca balaca olan bu kişi həmişə ayağını çəkər və axsıyardı.

Deməli, atamın əmisi Nəbiyə kömək etmiş, anamın əmisi isə ona qarşı vuruşmuşdur. Gör çar Rusiyası xalqı necə parçalayırdı.

Qaçaq Nəbinin Goburnatla döyüşünə xalq mahnılar da qoşmuşdu. Onlardan biri yadımdadı:

*Qaçaq Nəbi Dərələyəzdən keçəndə,*
*El töküldü, ona kömək eylədi.*
*Goburnatla qabaq-qarşı gələndə,*
*Nəbi vurdu, yerlə yeksan elədi.*

## CANILI CƏLAL BƏYLƏ QAÇAQ NƏBİNİN DÖYÜŞÜ

Bu hadisəni mənə Dərələyəzin ağsaqqalı, 93 il yaşamış, mahalda canlı ensiklopediya kimi tanınan İbrahim Mirzəli oğlu danışmışdır.

Calalbəy Dərələyəzin Canı kəndindəndir. Calalbəy ucaboylu, ucasəsli, qorxmaz, sərrast güllə atan, varlı bir adam olmuşdur. Çar hökuməti Qaçaq Nəbini tutmaq üçün o zaman Calal bəydən də istifadə etmək istəyirdi.

Yay günlərinin birində çar məmurları Dərələyəzin varlı adamlarını Gendərə adlı kəndə yığıb deyir ki, siz Qaçaq Nəbini tutmağa kömək etməlisiniz. Bura yığılanlar kəndin kənarındakı çəmənlikdə oturub çörək yeyirlərmiş. Elə bu anda Calal bəy gəlir. Ona oturmağı təklif edirlər. O oturmur və əl atıb soyutma bişirilmiş quzunun budunu ayaq üstə yeməyə başlıyır. Koburnat bunun uca boyuna və yeməyinə baxıb deyir ki, Nəbini sən tuta bilərsən. Cəlal bəy cavab verir ki, Nəbini tutmaq asan deyil. Əgər asandırsa, bəs nə üçün indiyə qədər onu tuta bilmirsiniz.

Nəhayət, koburnatla pristav bölgü aparır və Calalbəyi Bazarçayla Sarıyer arasında Nəbinin köçəcəyi güman edilən yerə göndərirlər. Bir qədər keçəndən sonra koburnat Calalbəyə xəbər göndərir ki, Nəbi sən olan tərəfə doğru hərəkət edir. Bir az sonra Calalbəy görür ki, Nəbinin dəstəsi gəlir.

Calal bəy öz dəstəsinə deyir ki, mənim göstərişim olmadan heç kim güllə atmasın. Nəbi kimi qeyrətli adama güllə atmaq olmaz. Calalbəy səngərdə qışqırıb Nəbiyə deyir ki, qabağa gəlmə, qabağa gəlsən səni vuracağam. Sən başqa yolla get. Əgər mən səni bu yoldan buraxsam koburnat məni tutacaq. Onlar məni tutmaq üçün bəhanə axtarırlar.

Bu zaman Nəbinin dəstəsindən kimsə atəş açır. Calalbəy atəşə atəşlə cavab verir. Hər iki tərəfin adamları səngərə sığınır. Nəbi bunları çaşdırmaq üçün iki boş papağı ağaca taxıb müxtəlif yerlərdən yuxarı qaldırır. Calal bəy sərrast atəşlə bunların hər ikisini vurur. Nəbi uca səslə deyir ki, ə, sən kimsən belə sərrast güllə atırsan? Boş papağa güllə atmazlar, oğlan! Calal bəy deyir ki, sən Nəbisənsə, mən də Calal bəyəm. Nəbi səngərdən cavab verir ki, mən sənin adını eşitmişəm. Deyirlər ki, sən çox cəsur və mərd adamsan. Lakin

mən bunu səndə görmürəm. Məgər igid də eyni məqsəd uğrunda vuruşan igidə güllə atar? Onu tutub rus kazaklarına vermək istəyər? Sən görmürsən ki, Həcər yanımdadır? Türk oğlu da qadına güllə atar?

Calal bəy səngərdən cavab verir ki, mən bu dar keçiddən səni buraxsam koburnat mənə inanmaz. Onlar çoxdandır ki, məndən şübhələniblər, bəlkə məni yoxlamaq və ya sıradan çıxarmaq istəyirlər?

Bir neçə dəqiqədən sonra Nəbi ona deyir ki, sən düz deyirsən. Onda mən yük atlarından ikisini qoyuram burada. Sən de ki, onlar çox idi, qaçıb aradan çıxdılar. Mən onları gülləboran edəndə bu iki yük atını apara bilmədilər. Siz güllə atmayın, qoyun biz uzaqlaşaq, ondan sonra gülləni yağış kimi yağdırın, hay-küy salın ki, kazaklar sizə inansınlar. Dost kimi görüşümüz qalsın sonraya. Cəlal bəylə Nəbi belə də edirlər.

Bu zaman koburnatla pristavın dəstəsi gəlib çıxır. Calal bəy onları qabaqlayıb qışqırır ki, nə üçün mənim köməyimə gəlmədiniz. Onlar bizdən çox idilər, göz açmağa imkan vermirdilər. Mən onları xeyli qovdum, yüklü atları çəkib aparmağa imkan vermədim, deyəsən yaralıları da oldu. Ancaq nə edim, gücüm çatmadı.

Lakin kazaklar Calal bəydən şübhələnərək deyirlər ki, sən möhkəm dursaydın onlar bu dar keçiddən keçə bilməzdilər. Bundan sonra Calal bəy xeyli müddət koburnatın, pristavın gözünə görünmür və camaata deyir: mən Nəbi kimi ər oğlu ərə, Həcər kimi qeyrət qalasına güllə atsa idim, gərək bu çal buxara papağı başımda gəzdirməyəydim.

Qaçaq Nəbi ilə Dərələyəzli Calal bəyin qəhrəmanlığı dillərdə əzbərdir. Bunun hər ikisinin şəninə çoxlu qoşmalar deyilib.

*Qayalardan gəlir Nəbinin səsi,*
*Calal bəylə gedən cəngi, nərəsi.*
*Aşıq qəhrəmanın xoş zəngulısi,*
*Söylənir payız, yaz Dərələyəzdə.*

Calal bəyi 1905-ci ildə Dərələyəzin Hors kəndində, erməni-müsəlman davasında xəyanət yolu ilə öldürürlər. Ermənilər qalağın içinə girib onu güllə ilə arxadan vururlar.

Canılı, 69 yaşlı Qafar Gülmalıyevin dediyinə görə Calal bəyin nəvəsi (Şirin) hal-hazırda Şərurun Məmmədsabır kəndində yaşayır. O biri iki nəvəsi isə (Camal və Heydər) rəhmətə getmişdir.

## QANLI DƏRƏNİN QİSASI BƏRK DƏRƏDƏ ALINDI

1918-ci il erməni-müsəlman davasında ermənilər, Göyçədə bir neçə kəndin camaatını yığıb Laçın tərəfə aparır və orada "Sümüklü Dərə", "Qanlı dərə" adı ilə məşhur olan bir yerdə qırırlar. Bu xəbər hər yerə, o cümlədən Dərələyəzə də yayılır. Gülüdüzlü Şabaz oğlu Calal öz dəstəsini yığıb deyir: "Biz bu qanı yerdə qoymamalıyıq. O, öz cəngavər dəstəsi ilə Göyçə tərəfə

aşır və al (aldatma) yolu ilə ermənilərin böyük bir dəstəsini (82 nəfərini) arxasınca Dərələyəz tərəfə gətirir. Dikpilləkənin Dərələyəz üzündə, "Bərkdərə" deyilən yerdə onları mühasirəyə salır, "qırır" və Göyçə və Laçın camaatına xəbər göndərir ki, "Qanlıdərə"nin qisasını "Bərkdərə"də aldım. 72 nəfər azərbaycanlının qisasını 82 nəfər ermənidən aldım". Ermənilərin başqa dəstələri bu xəbəri və Calalın adını eşidən kimi həmin yerlərdən uzaqlaşırlar. İndi bu hadisə Dərələyəzdə yavaş-yavaş əfsanəyə çevrilir.

*Qanlı dərə qan ağlar,*
*Başına qara bağlar.*
*Yetmiş iki adama,*
*Gecə-günüz yas saxlar.*

*Cəlal hay-haray saldı,*
*Düşməni tora saldı.*
*Səksən iki düşməndən*
*Bir dənə də qalmadı.*

*Qəm yemə Qanını dərə,*
*Şəhidə həmdəm dərə,*
*Düşməndən qisas aldı*
*Sənə qardaş Bərk dərə.*

*Laçın ayağa qalxdı,*
*Sultanbəy qılınc taxdı.*
*Yüzlərlə düşmənlərin*
*Başına güllə çaxdı.*

## AŞIQ BƏHMANIN MARŞAL İ.X. BAĞRAMYANA CAVABI

Milliyyətcə erməni olan, Azərbaycanın Şəmkir rayonunda doğulub boya-başa çatan marşal İvan Xristoforoviç Bağramyan 1977-ci ildə Dərələyəzin Yeğeqnadzor rayonuna gedir. Rayonun erməni başçıları bunu böyük bir təmtəraqla qarşılayır və Selim magistral yolunun üstünə yerləşən, tarixən azərbaycanlılara məxsus olub ermənilər tərəfindən xarabalığa çevrilən Aşağı Sallı kəndində Bəhman Mustafayevin saldırdığı alma bağında marşalın şərəfinə böyük bir məclis düzəldirlər. Bu məclisə Sallı kənd sakini, el ağsaqqalı, böyük nüfuz sahibi 50 il kommunist partiyasının üzvü olan, 1926-cı ildən başlayaraq 1949-cu ilə qədər uzun müddət Sallı kəndində sovet və kolxoz sədri işləyən Bəhman Mustafayevi (Aşıq Bəhmanı) də çağırırlar.

Məclisin şirin yerində marşal Bağramyan ermənicə məclisdəkilərə deyir ki, "Darıxmayın, yaxın vaxtda bu yerlərdə bir türk də qalmayacaq. Biz onları buradan qovacağıq".

Bu zaman rayon partiya komitəsinin birinci katibi Samvel Tarverdiyev Bəhmanı göstərib deyir: "İvan Xristoforoviç, Bəhman kişi azərbaycanlıdır, köhnə bolşevikdir. Bu yerlərdə sovet hakimiyyətinin qurulmasında fəal iştirak edib". Baqramyan özünü itirmədən əlini Bəhmanın çiyninə qoyub azərbaycanca deyir: "Qoca, mən zarafat edirəm. Biz qardaşıq. Mən özüm Şəmkir rayonunun Çardaxlı kəndindənəm. Dostluğumuz möhkəmdir".

Erməni dilini mükəmməl bilən Bəhman Mustafayev ayağa qalxır, üzünü rəhbərlərə tutub deyir ki, biz azərbaycanlılar saxta dostluğun yox, həqiqi dostluğun tərəfdarıyıq. Ermənninin özü də saxtadır, sözü də. Bu sözlərdən sonra o rayon rəhbərliyinin təkidinə baxmayaraq məclisi tərk edir.

Bu hadisədən bir müddət sonra o Azərbaycanın Quba rayonunda polis rəisi işləyən oğlu Rəhman Mustafayevin yanına gəlib bu əhvalatı ona danışır və axırda belə deyir: "Oğul, bizi xilas elə. Bizi qıracaqlar. Bu xına o xınadan deyil. Ermənilər bu dəfə başlasalar çətin ki, Dərələyəzdən bir adam salamat çıxa" (Bax: Rəhman Mustafayev. Düz yaşadım, yaşadım, Bakı, 2001, səh.22-23).

## HÜRÜ QARININ HİKMƏTİ, AŞIQ PAŞANIN ZİLLƏTİ

Bu hadisəni mənə 1889-cu ildə Dərələyəzdə dünyaya gələn, saz-söz sənətini dərindən bilən, aşıqla qarının əhvalatının şahidi olan atam İbrahim Mirzəli oğlu danışmış və mən onu 1975-ci ildə qeyd dəftərçəmə yazmışam. Hadisə aşağıdakı kimidir:

Dərələyəzin Hors kəndindən olan Aşıq Qəhrəmanın ("Qəhrəmanı" havasının müəllifi) Aşıq Paşa adlı bir oğlu olur. Aşıq Paşa Dərələyəz mahalında və buna yaxın bölgələrdə yaxşı oxuması və yaxşı saz çalması ilə məşhur imiş.

Günlərin bir günü Aşıq Paşa Qabaxlı adlı kənddə toy məclisində olur. Bir qədər oxuduqdan sonra qəlyan çəkmək istəyir və baxır ki, tütünü (tənbəkisi) qurtarıbdır. O, məclisdəki papiros çəkənlərə müraciət edir. Hamısı bir ağızdan üzlərini Hürü qarıya tutub zarafat tərzi ilə deyirlər ki, yaxşı tənbəki (tütün) ondadır. Bu zaman məclisdə canlanma yaranır və altdan-altdan gülənlər də olur. Bu eyhamlar səbəbsiz deyilmiş. Hürü qarı öz nəvəsi Tellini Aşıq Paşaya vermək istəyirmiş, Aşıq Paşa isə başqasını sevirmiş. Bu səbəbə görə Hürü qarı Aşıq Paşadan incik imiş.

Məclisdəkilər dilli-dilavər, hazırcavab, şairtəbiətli, tütün əkib-becərməkdə məşhur olan zarafatcıl Hürü qarını danışdırmaq və onun Aşıq Paşaya münasibətini bilmək istəyirlərmiş. Hürü qarı isə incikliyini üzə vurmadan yaxşı tənbəkini aşığa verməyib bəs kimə verəcəyəm deyib ona bir kisə tənbəki gətirir.

Aşıq Paşa qəlyanı doldurub çəkəndən sonra Hürü ona deyir ki, indi bu məclisdə sənə bir tapmaca deyəcəyəm. Əgər bu tapmacanı açsan sənə üç kirvəngə yaxşı tənbəki verəcəyəm, əgər tapmasan bu məclisdə yığılan pulu mənə verəcəksən. Yerdən də biri replika atır ki, yox əgər tapmacanı aça bilməsən Hürü qarı ilə qohum olarsan.

Nəhayət, xeyli gülüşlərdən sonra Hürü qarı aşağıdakı tapmacanı deyir:

*Əzizim müşkül açar,*
*Müşkülü müşkül açar,*
*İldə bir, ayda iki,*
*Həftədə üç gül açar.*

Aşıq Paşa nə qədər cəhd edirsə tapmacanı aça bilmir. Hürü qarı zarafatla Aşıq Paşaya sataşmağa başlayır və gülə-gülə deyir ki, indi məclisi apar, sonra cavab verərsən.

Aşıq Paşa günlərin bir günü, yay ayında Qarabağ elatına, Soyuq bulağa toya gedir. Orada buna çoxlu qoyun-quzu bağışlayırlar. Qayıdıb gələndə yolu Qa-

baxlı kəndindən düşür. Kəndə çatmamış yalın üstündə bu kənddəki dostu Tarverdi adlı kişinin uşaqlarına rast gəlir. Bu arada bir yemiş satana da rast gəlir və yemiş də alıb kəsirlər. Sonra dostları Aşıq Paşaya deyir ki, Hürü səni kənddə biabır edibdir. Tapmacanı açmamısansa bu kənddən getmə. Aşıq Paşa cavab verir ki, sazımı mənə verin. Mən onun cavabını bu saat sazla açmalıyam. Aşıq Paşa ona elə buradaca cavab yazır və kəndə gəlib yolunu Hürü qarının evinin qabağından salır. Hürü arvad bunu görüb deyir: Hə deyəsən tapmacanı açmısan? Cavab verir ki, bəli, açmışam. Hürü qarı deyir ki, vədə verdiyin vaxtdan çox keçibdir. Yəqin bu qoyunları da cərimə gətirmisən. Aşıq Paşa cavab verir ki, bu qoyunların hamısı sənə qurbandır, təki tənbəkini verəsən.

Bundan sonra Aşıq Paşa tapmacanın açmasını deyir:

*Bir yemişi alıb kəsdim bu yalda,*
*İnsaf deyil Paşa qalsın xəyalda,*
*Dediyin ammanı tapdım bu yolda,*
*Sən də bil ki, məndə hünər var Hürü!*

*Telli haqda sən öyrətdin elini,*
*Mənə çox işlətdin fəndi-felini*
*Canına qıymaram şirin dilini,*
*Ya əqrəb dişləsin, ya da mar Hürü!*

*Yazıq Paşa cavanların mərdidir,*
*Məni öldürən sən Hürünün dərdidir,*
*Sən dediyin baramanın qurdudur,*
*Üç girvəngə tənbəkimi ver, Hürü!*

Qoşmanı deyib qurtardıqdan sonra Hürü qarı Aşıq Paşanı evə dəvət edir və kənd camaatına xəbər verir ki, Aşıq Paşa qonağımdır, gəlin bizə. Camaat yığışır, məclis qurulur. Aşıq Paşa Hürü arvadın dediyi qoşmanı saz üstündə oxuyur. Bu zaman Hürü arvad durub Aşıq Paşanın üzündən öpür və deyir ki, cavabın düzdür. Barama qurdu ildə bir dəfə qoyulur, ayda iki dəfə oyadılır, həftədə üç dəfə yarpaq verilir.

Hürü qarı ayağa durub Aşıq Paşaya tənbəki verir və deyir: Ay Paşa oxumağına, saz çalmağına söz ola bilməz. Amma şerin çox zəifdir. Aşıq Paşa cavab verir ki, ay Hürü, varın verən utanmaz. Biz nəsildə söz yox, saz havası, səs zəngulə güclüdür. Yəqin ki, qoşmanın zəif olmasını da bağışlayarsan.

## *DƏRƏLƏYƏZ AĞSAQQALLARININ NƏRİMAN NƏRİMANOVLA GÖRÜŞÜ*

## QABAR ONUN ƏLİNDƏ YOX DİLİNDƏDİR

1918-1921-ci illər arasında Gəncə, Şəmkir, Goranboy, Tovuz, Ağstafa, Qazax, Tərtər, Yevlaxda olan Dərələyəz qaçqınları özlərinə 9 ağsaqqal seçir ki, qarşıya çıxan problemləri bunlar həll etsin.

1920-ci ildə Nəriman Nərimanov bir neçə hökumət nümayəndəsi ilə Şəmkirə gəlir. Alabaşlı stansiyasında yerli camaat, o cümlədən, bu 9 nəfər Dərələyəz ağsaqqalları da onu qarşılayır. Dərələyəz qaçqınları adından bu 9 nəfər Nəriman Nərimanova deyir ki, bizə kömək edin vətənimizə qayıdaq. N.Nərimanov onlara cavab verir ki, ora indi qayıtsanız bir çox çətinliklərlə qarşılaşacaqsınız. Ermənilər çox hiyləgərdir, daşnaklar da hələ bildiyini eləyir. Onlar sizin öz yerinizə qayıtmağınızı istəmirlər. Bu zaman həmin ağsaqqalın ən cavanı olan İbrahim Mirzəlioğlu bir qədər qabağa çıxıb N.Nərimanova deyir ki, hörmətli Nəriman Nərimanov! Dərələyəz camaatı buradakı istiyə dözə bilmir.Hamısı qızdırır, əlləri qabar, qarınları da acdır. N.Nərimanov buna diqqətlə baxıb deyir ki, cavan oğlan heç sənin əllərində qabar yoxdur axı! İbrahim Mirzəlioğlu utanıb başını aşağı salır və bu zaman ağsaqqallardan biri deyir: Nəriman müəllim, o qaçqınlar üçün işləyir, ona görə də qabar onun əlində yox, dilindədir. N.Nərimanov gülümsəyə-gülümsəyə həmin ağsaqqala deyir ki, görürəm çox dilavərdir, ermənilərlə bacara bilər. Gedin, amma ehtiyatınızı əldən verməyin və onlara inanmayın. Bundan sonra Dərələyəz camaatı Nəriman Nərimanova duva oxuya-oxuya vətənə qayıdır.

*Nəriman bəy rüsxət verdi.*
*Siz Vətənə gedin dedi.*
*Erməniyə heç bir zaman*
*Arxa çevirməyin dedi.*

## İMANIN SAZI, AXUNDUN SÖZÜ

Aşıq İman Göyçənin Ağkilsə kəndindəndir. Aşıq Ələsgərin qardaşı oğludur. Çoxlu qoşmaları, qıfılbəndləri, ustadnamələri və s. vardır. Aşıqların heç biri onunla deyişməyə cəsarət etməzmişlər. Hamı deyərmiş ki, İmana Allah tərəfindən vergi verilmişdir. O, ərşdən-kürşdən, yerdən-göydən, tarixdən, Qurandan, dindən elə söhbət açarmış ki, hamı onun qarşısında aciz qalarmış. İman cavan çağlarında xəstələnmiş, itkin düşmüş, bir daha geri qayıtmamışdır.

Axund Əli Dərələyəzin Qovuşuq kəndindəndir, Hacı Namazalının oğludur (anamın əmisidir). O, İran və Nəcəfdə 20 il ruhani təhsili almış, sonra öz doğma kəndinə qayıdıb burada axundluq etmişdir. Dövrünün çox savadlı ruhanisi olmuşdur. Şərur-Dərələyəz qəzasına rəhbərlik edən qazinin müavinlərindən biridir.

Aşıq İmanla Axund Əlinin qarşılaşmasını mənə həmin söhbətin iştirakçısı olan atam İbrahim Mirzəli oğlu danışmışdır.

Atam deyirdi: Mən Aşıq İmanla ilk dəfə Kəvər qalasında (Göyçədə) tanış olmuşam. Yaxın qohumum və kəndlim Cabbar Baxşalı oğlunu bir erməni ölümü ilə bağlı tutub Kəvər qalasında saxlayırdılar. Onun yanına gedəndə gördüm ki, qohumumu Aşıq Ələsgərin oğlu Bəşirlə bir kamerada saxlayırlar. Aşıq İman da orada idi. Orada qaldığım üç gün müddətində Bəşirlə və Aşıq İmanla yaxından tanış oldum. Çox söhbətlər etdik. Qaçaqaç dövrlərində,

1920-1921-ci illərdə Xaçbulaq yaylağında Aşıq Ələsgərlə Atam Mirzəli kişinin çadırlarının yanaşı olmasından, burada Aşıq Ələsgərin ağacdan araba təkəri, atamın (Mirzəli kişinin) isə çömçə-qaşıq düzəltməsindən, yaxşı qonşuluq etmələrindən, Təbrizdə uzun müddət ruhani təhsili almış atam Mirzəli kişinin Ələsgərlə şəriətdən apardığı söhbətlərdənsöz açdıq... Burada Bəşirlə, İmanla, əhd-peyman etdik ki, bir-birimizin evinə, Dərələyəzə və Göyçəyə gedək. Əhdimizə qismən əməl etdik. Mən Gülüdüzlü Şahbaz oğlu Firudunla Göyçəyə, Ələsgər ocağına gedərdim.Aşıq Ələsgərin şagirdi Qaraqoyunlu Aşıq Əsədlə də elə burada tanış olmuşdum...

Günlərin bir günü, təxminən yayın axırları mənə dedilər ki, evinizə qonaq gəlib səni axtarır. Evə gələndə gördüm ki, Aşıq İmandır. Qucaqlaşıb öpüşdük. Hər ikimizin gözləri doldu... Sazını da özü ilə gətirmişdi. Bir qədər yornuq və süst görünürdü. Əvvəlki şuxluğu sanki yox idi. Bir qədər söhbətdən sonra sazını istədi və dedi ki, sinəmə bir neçə söz gəlibdi. Onu sənə demək istəyirəm. Evdə yalnız yaxın qohumlarım idi. Əvvəlcə atam Molla Mirzəlidən icazə istədi, sonra sazı sinəsinə basdı. "Qaraçı" və "Qaytarma" havaları üstündə oxudu. Çox yanıqlı oxuyurdu. Oxuduğu sözlərində dindən, şəriətdən, Qurandan söhbət açırdı. Atam Mirzəli kişi dedi ki, ay oğul şəriət sazı qadağan eləyib, amma sənə heç kim qadağa qoya bilməz. Mirzəli kişi Axund Əlinin yanına gedib Aşıq İman haqqında ona da danışır.

Atam İbrahim deyirdi ki, İman bizdə qalırdı. Bir qədər xəstə olduğu üçün mən onu başqa kəndlərə tək getməyə qoymurdum. Hara gedirdimsə onu da özümlə aparırdım.

Kimsə gedib Axund Əliyə deyir ki, bəs İman hər gün İbrahimgildə saz çalıb oxuyur. Molla Mirzəli də ona icazə verir. Səhəri gün Axund Əli bir erkək kəsdirir, İmanı evinə qonaq çağırır. Ona darçınlı, zəncəfilli samovar çayı verir. Şəriətdən söhbət açır, Nə deyirsə İman ona dərhal düzgün cavab verir. İman Ələsgərin, Alının, Qurbaninin, Xəstə Qasımın və başqalarının Allah, peyğəmbər, İmam, din, şəriət və müqəddəs kitablar haqqında söylədikləri kəlamları, qoşmaları, qıfılbəndlərini Axunda sadalayır. Bundan sonra da öz sinəsindən gələnləri deyir.

Söhbət belə keçdi:

Axund Əlinin bir böyük damı var idi. O, həmişə o damda oturar və yanına gələn adamları orada qəbul edərdi. İmanı qonaq çağıranda o, kənd ağsaqqallarını və kəndin mollası Mirzəli kişini də bu məclisə çağırmışdı.

3 gün söhbət oldu. Hamısı yadımda qalmayıb, yadımdı qalannar azdı.

İman bilirdi ki, o Axundun yanına gedir. Hər bir suala hazır olmalıdı.

İman mənnən içəri girəndə Axund Əli ayağa qalxdı və ona yer göstərdi. İman oturan kimi dedi: Axund! Mən Dərələyəzə qonaq gəlmişəm. Amma deyəsən qaydanı pozmuşam. Dərələyəzin qazisindən rüsxət almamış saz çalmışam. Ay Axund qul xətasız, ağa kərəmsiz olmaz. Keç günahımdan. Bunu deyib qurtaran kimi bir qoşma dedi. Qoşma belədir:

*Yerin, Göyün, Ərşin, Kürşün nizamı*
*Əvvəl bu cahana bağışla məni.*
*Alimlər dilində, mömin əlində,*
*Oxunan Qurana bağışla məni.*

*Dəşti-Kərbəlaya, Nəcəf şahına,*
*On səkkiz min aləm mehri-mahına,*
*İbrahim Xəlilin qibləgahına,*
*Verdiyi Qurana bağışla məni.*

Bu zaman Axund Əli İmana maddım-maddım baxdı və əlini onun çiyninə qoyub dedi: Oğul, sən heç bir günah iş tutmamısan. Xahiş edirəm çayını iç. Mənim çayımdan heç harda olmaz.

İman çay içən zaman Axund Əli dindən, şəriətdən söhbət açdı. Əvvəlcə Quranın əvvəlində olan isuliddin və firidundan başladı, bir xeyli danışdı. Ara verib çay içmək istərkən İman bu məsələyə aid çoxlu qoşma dedi. Amma onnardan ikisi-üçü yadımdadır.

*Siluddin, Firuddin dinin yarpağı,*
*Oruc tut, namaz qıl, ibadət eylə.*
*Beşdən birin xüms ver, ondan bir zəkat,*
*Zəlilə, müztərə inayət eylə.*

Axund Əli gülə-gülə dedi: Sağ ol oğlum, sağ ol oğlum, bərəkallah. Sənki bizdən yaxşı bilirsən. İman Axunda baxıb dedi: Axund, ustad aşıqlar məndən də yaxşı deyib:

*İsuliddin beşdir, əvvəli tohid,*
*Dövrüm ədalətdir, seyyim nübuvvət.*
*Caharım imamət, pəncimdi miad.*
*Sinin situnnudur, şərafəti var.*

Axund Əli məclisə baxıb dedi. Ay camaat dini, şəriəti belə bilən aşığa günah eləmisən demək olmaz. Oğul qətiyyən sıxılma! Bildiklərinin hamısını danış. Səni bura çağırmışam ki, danışasan. İman cavabı belə verdi:

*İbtida dilimdə olub «bismillah»,*
*Sığınmışam ol xudaya gəlmişəm.*
*Mənim əzbərimdi «la-fəta-illah»*
*Əxz eləyib yüz min ayə, gəlmişəm.*

İmanın belə hazırcavab olması hamını heyrətə salmışdı. Heç kim danışmırdı. Axund Əli sükutu pozaraq dedi: Sizin hamınız sabah da mənim qonağımsınız. Sabah o biri kəntdərdə olan molları da çağıracam gəlsin. Məclis dağıldı. Mən sevindiyimdən bilmirdim nə edim. İman qan eliyirdi.

Səhəri gün Axundun əvinə çox adam yığılmışdı. Hətta quran oxuyan yaşlı qadınlar da gəlif çarşav başında kişilərin arxasında oturmuşdular.

Axund Əli İmana belə sual verdi. Oğlum, İman! Elinizdə, obanızda nə var, nə yox? İman həsrət çəkə-çəkə dedi:

*Tərk edən Vətəni, əl üzən eldən,*
*Qürbət eldə bir avarə mənəm, mən.*
*Taleyi kür gələn ruzi əzəldən,*
*Sinəsi səd-həzar para mənəm, mən.*

Bu vaxt ortaya çörək-xörək gəldi. Axund Əli oturannara dedi, bismillah! İman dərhal əlavə etdi:

*Dərs alanda mən dil açdım,*
*Ol Qurana bismillah.*
*Şəriətdən şərtdi bizə,*
*Müsəlmana bismillah.*

Hamı bir-birinin üzünə baxıb mat qalmışdı.

Süfrə yığışandan sonra Axund Əli İmana sual verdi: Oğlum Göyçədə necədir. Quran oxuyannar, şəriyəti bilənnər çoxdumu? İman dərhal bu cavabı verdi:

*Çarx hərlənir qərar ilən,*
*Gərdişi-dövran durur.*
*Məhəmmədə nazil olan,*
*Ayeyi-Quran durur...*

Bundan sonra hamı bir ağızdan deyirdi. Bərəkallah səni doğan anaya. Sən ki, qareyi-quransan.

Bu söhbət düz üç gün çəkir. Axund Əli deyir ki, oğul indiyədək başım dini kitablara o qədər qarışıb ki, mən aşıqlar və saz haqqında yanlış fikirdə olmuşam. Sizin sazla dediyiniz sözlər bizim söhbətlərimizdən daha qüvvətlidir. Camaatı bu yolla daha tez, daha yaxşı başa salmaq, inandırmaq olar. Mən mahalın bir Axundu kimi bundan sonra saz çalmağa qadağa qoymayacağam.

Nahaq yerə saz çalmağı günah hesab etmişik. Şərurda oturan baş qazı mənə cəza versə də fikrimdən dönən deyiləm. Gedin çalın da, oxuyun da. Bunu Göyçənin, Dərələyəzin başqa aşıqlarına da deyin.

Axund Əli İmanı yola salanda deyir: "Oğul Ələsgəri, aşıq sənətini ucaltdın, sən qareyi-quranlar qədər bilirsən, səni doğan anaya halal olsun. Axundun da dilini bağladın, daha nə istəyirsən. Hər gün sənə darçınlı, zəncəfilli çay verə bilərəm. Tez-tez gəl söhbət edək".

Axırda babam Mirzəli kişiyə və atam İbrahimə deyir ki, yaxşı oldu İmanı mənimlə görüşdürdünüz. Biz indiyədək aşıqlar haqqında, saz haqqında çox günaha batmışıq.

Bu minvalla İman düz 28 gün Qovuşuqda bizim evdə qalır. Bu zaman atam 3 günlüyə İrəvana gedir. Oradan qayıdanda görür ki, İman harasa çıxıb gedibdir. Deyirmiş ki, Selimin gədiyindən aşıb Göyçəyə gedəcəyəm.

Aşıq İman haqqında anam iki xatirə danışırdı.

a) Anam deyirdi ki, hər gün səhər-səhər süfrəyə yemək (çay içmək) üçün sərmə qaymaqla bal qoyardım. Hamımız İmana qarşı diqqətli olmağa çalışırdıq. Bir gün nədənsə səhər-səhər qaymaq olmadı. Mən qaymaq əvəzinə

süfrəyə qaymağı üstündə olan bərk qoyun qatığı qoydum. İman üzünü İbrahimə tutub dedi: Ə, İbrahim, bizi səhər-səhər ilan vurmayıb ki, bu Əmir Ağanın qızı bizə qatıq verir. Nə bunu nəzmə çəkmək olar. Amma bu dəfə keçirəm...

b) Anam deyirdi ki, İmanın əynində göy (bənövşəyi) rəngdə qalın parçadan ətəkləri gödək palto (yarım palto) var idi. O İbrahimlə harasa gedirdi. Mənə dedi ki, Nahad bacı mənə qara sapla bir iynə ver. Gördüm ki, paltosunun düyməsinin sapı qırılıbdır. Dərhal paltonu əlindən alıb düyməni tikdim. İbrahim Aşıq İmana dedi ki, hə deyəsən Əmir kişinin qızı səndən yaman qorxur. Heç o mənim paltomun düyməsini belə tez tikmir. İman cavab verir ki, həcvdən kafir də qorxur.

Atam İbrahim axırda mənə dedi: Dərələyəzdə Axund Əli ilə İmanın söhbəti dillərdə əzbər oldu. Aşıqlarımız bunlar haqqında çox sözlər dedilər. Amma heç biri yadımda yoxdu.

Qeyd edim ki, mən də bu haqda söz demişəm:

*Gözləri oxşayır gülü, nərgizi,*
*Həcərtək at çapır gəlini, qızı.*
*Axundun Quranı, İmanın sazı,*
*Hərəsi bir ulduz Dərələyəzdə.*

## MOLLA ŞAHVERDİNİN PAŞA BƏYƏ ƏRZİ-HALI

1918-ci il erməni-müsəlman davasında Dərələyəzin Nəbilər kəndindən olan Molla Şahverdi adlı bir din xadimi Laçına qaçır. Sultan və Xosrov bəyin atası Paşa bəy savadlı, şairtəbiətli bu mollaya çox yaxşı baxmış, hörmət eləmiş və onu yanında saxlayaraq başqa yerə getməyə qoymamışdır.

1921-1922-ci illərdə camaat qaçqın düşdüyü yerdən Dərələyəzə qayıdan vaxt Paşa bəy Molla Şahverdiyə təklif edir ki, sən qal mənim yanımda, Dərələyəzə getmə, həm mollalıq edərsən, həm də mənim yanıma gələn qonaqlarımla söhbət edərsən. Sədidən, Qumridən onlara məlumat verərsən, sənin şirin söhbətlərin hamıya xoş gəlir. Molla cavab verir ki, Paşa bəy, Dərələyəz üçün yaman darıxıram, vətənə getməsəm vərəmlərəm. Paşa bəyin təkidinə baxmayaraq Molla Şahverdi də Dərələyəzə qayıdır. Azərbaycanın müxtəlif yerlərinə dağılan camaat yazın axırlarına yaxın gəlib Dərələyəzə çıxırlar. Qaçqınçılıqdan vətənə yeni gələn camaatın taxıl əkməsinə erməni daşnakları əvvəlcə müxtəlif yollarla maneçilik törədirlər. Bir qədər sonra mane olmasalar da buğdanın vaxtı keçdiyi üçün bunlar əkin sahələrinə yalnız arpa, pərçik və darı əkə bilirlər. Mal-heyvan üçün lazımı qədər ot-alaf da yığa bilmirlər. Qaçqınlıqdan qayıdan camaat qış aylarında çox çətinlik çəkirlər. Molla Şahverdinin də günləri ağır keçir və 1922-ci ildə (1284-cü ildə) Molla Şahverdi Paşa bəyə aşağıdakı "Dərdim" və "A bəyim" rədifli şerlərini yazıb göndərir.

## DƏRDİM

Salam olsun Paşa bəyə
Ərz edirəm sizə dərdim.
Əlim tutmur özüm yazam
Molla yoxdu yaza dərdim.

Təəccüb qalmışam qışa,
Arıq asmaq olub peşə,
Qorxuram göbəyim düşə,
İpliyimi üzə dərdim.

Qiyamət əzabın gördüm,
İlan kimi qabıq verdim,
İnəkləri yazda qırdım,
Tablaş belə yaza dərdim.

Dəxi kəsilib amanım,
Sabaha yoxdur gümanım,
Görmüyübdür yazıq canım,
Belə cəbrə dözə dərdim.

Arpa, pərinc yemək olmur,
Belə dərdi demək olmur,
Heç bir kəsdən kömək olmur,
Axır düşdü üzə dərdim.

Qarnıma salır vəlvələ,
Bağırsağım gəlir dilə,
Az qalır ki, zırna çala,
Məni sala sözə dərdim.

Düşmüşəm ahilən vaya,
Cigərlərim dönüb suya,
Pul yox verəm qəndə-çaya,
İçəm bəlkə üzə dərdim.
Qara gəldi bizim yazlar,
Yazmam sizə yalan sözlər,
İpək geyib gəzən qızlar,
Bükülübdür bezə dərdim.

Ölüm olsun belə sağlıq,
Qara günlə yaşamaqlıq,
Bu çətinlik, bu yoxsulluq,
Yetiribdi yüzə dərdim.

Paşa bəy bəylərin xası,
Fəqir-füqarə atası,
İnşallah buğda bahası,
Göndərəcək bizə dərdim.

## A BƏYİM

Əhvalım soruşsan dərdim çox-çoxdu,
Xəlvəti yazıram sana, a bəyim.
Yoxsulluq dağ çəkib sağ yerim yoxdu,
Pünhanı yazıram sana, a bəyim.

Bədbəxt arvad küçə-baca tanımır,
Teylənib içəri, yalvarram çıxmır,
Kəsərim azalıb, da məndən qorxmur,
Çoxunu demirəm sana, a bəyim.

Arvaddan qorxuram deyə bilmirəm,
Arpa horrasını yeyə bilmirəm.

Utanıram çoxun deyə bilmirəm,
Ərk edib yazıram sana, a bəyim.

Pərinc yarmasıdı mənim xörəyim,
Çölün pəncəridi lavaş çörəyim,
Bu dərdlərə davam etmir ürəyim,
Yazıram dərdimi sana, a bəyim.

Məktubu yazmağa arvadım qoymur,
Arpa horrasından heç qarnım doymur,
Arvad hey qarğıyır, yaxşı ki döymür,
Hamısın demirəm sana, a bəyim.

Çiriş çox yeyirəm kəkliyim azır,
Canım polad imiş bu dərdə dözür.
Qız gəlinlər çöldə yolotu gəzir,
Xörək qayırsınlar mana, a bəyim.

Kətə çox yeyirəm, ürək bulanır,
Otururam dam başıma dolanır.
Gəzmirəm deyərlər molla sülənir,
Yazıram dərdimi sana, a bəyim.

Cəhd edirəm gələm, yoxdu hərəkət,
Yer üzündən götürülüb bərəkət,
Tamam mümkünsüzdür, tamam vilayət,
El dərdin yazıram sana, a bəyim.

İl uzunu yazam dərdim qurtarmaz,
Qırğın oldu, çoban qoyun otarmaz.
Bir az belə getsə nəfər qurtarmaz,
Doğrusun yazaram sana, a bəyim.

Yazıq canım alovlanır, közlənir,
Əlimin çatında darı gizlənir,
Ümid qalıb sana yolun gözlənir,
Sən haçan çatasan mana, a bəyim.

Qələmi gəzdirmək əlimi yordu,
Boz atım yollarda mağallaq vurdu,
Qızlar eşitcəyin ağlaşma qurdu,
Bunu da deyirəm sana, a bəyim.

Qohum-əqrabaya söyləyin salam,
Canım od tutubdu qoymayın yanam,
Təfsiri yazmıram, müxtəsər kəlam
Kəfən vacib olub mana, a bəyim.

Məktub Paşa bəyə çatan kimi Paşa bəy böyük oğlu Sultan bəyə deyir ki, Dərələyəz camaatı çətin vəziyyətdədir, sabaha bir karvan düzəlt. Molla Şahverdiyə 2 inək, 10 sağmal qoyun, taxıl əkmək üçün bir cüt öküz, minmək üçün bir at göndər.

Sultan bəy atasının tapşırığını artıqlaması ilə yerinə yetirir. Karvan Dərələyəzə çatır və Dərələyəz camaatı Paşa bəyə, Sultan bəyə öz minnətdarlığını edir.

Molla Şahverdi karvanla gələnlərə deyir ki, bəyə göndərməyə elə bir ərmağanım yoxdur. Ancaq xan qızı (Natəvan) haqqında yazdığım bu 24 bənd qoşmanı ona göndərirəm. Xahiş edirəm ki, bunu Paşa və Sultan bəyə çatdırasınız.

Həmin o şerləri atam (İbrahim Mirzəli oğlu) əzbər bilirdi. Mən də onu yazmışdım. Lakin şer və ondan başqa yazılar Dərələyəzdəki evimizdə (atamın şəxsi arxivində) idi. Atamı Bakıya gətirəndən sonra həmin yazıları çamadana yığıb evin zirzəmisinə qoyurlar. Bundan sonra it-bata düşdü. Hələlik tapa bilməmişik.

# DƏRƏLƏYƏZ AYAMALARI

*(Kişilər)*

Qlava Alı (Alı dayı)
Qlava Əhməd
Qlava Allahverən
Qalalı Süleyman
Qara Allahverən
Tapança Məhəmməd (hər sözə cavabı tez verən)
Xorxor Məhəmməd
Mələyoğlu Məhəmməd
Dana Məhəmməd
Poçt Məhəmməd
Plen Vəli
Qaqa Hüseyn
Qannı Abbas
Mirovoy Əli
Sarı Yaqub
Çapıx (Azad)
Çılpaq Əli (sözü üzə deyən)
Lal Məşədi Hüseyn
Ları Hüseyn (kök, yoğun)
Danqa Zahid (yekə-yekə danışan)
Zil Telman (Zil-13.0-un sürücüsü)
Zil İdris (müğənni, zildən oxuyan)
Dəllək Çərkəz
Baftalı Cəfər
Dəyirmançı Səfo
Letnı Əsgər
Qara Usub
Klarnet Yusif (klarnet çalan)
Paçtalyon Oruc
Mirzəlioğlu (İbrahim)
Kəblə Qurban
Təlxəy Abbas
Yetim Ağa
Dəmirçi Məmməd
Ballı Əsəd
Montyor Həsən
Forsdu Bəyiş
Balıqçı Əli

*(Qadınlar)*

Xorxor Səlbi
Yastı Gözəl
Alaboğaz (Mina)
Alagöz (Məleykə)
Gödək Ballı
Çopur Məstan
Qotur Gülzar
Key Balaxanım
Qoç Nazəni (ermənilərə Qarabağı «göstərdi»)
Xallı Çimnaz
Çoxbilmiş Gülzar
Aşpaz Xatirə
Toppuş Adilə
Saçlı Sənəm (hörükləri uzun)

# DƏRƏLƏYƏZİN ŞİVƏ SÖZLƏRİ

## 1. ARXAİKLƏŞƏN VƏ ARXAİKLƏŞMƏ ƏRƏFƏSİNDƏ OLAN SÖZLƏR

Yaşmax – qadınların ağzını, burnunun və üzünün bir tərəfini gözlətmək üçün başlarına saldıqları yaylıq, örtüyün bir hissəsi, örtük...

Ələm (Tuğ) – dini təbliğ edərkən istifadə olunan bayraq.

Ün – Bu söz Dərələyəz mahalında "səs" mənasında işlənir.

Küz – quzu salınan yer.

Küzdək – Payızda göyərən ot.

Güzdük – Payız fəslində əkilən taxıl.

Güzəm – Payız fəsli girən vaxt qırxılan qoyun yunu.

Tuş – yuxu.

Qırım – meyl, fikir, istək, arzu.

Gədik – dağ arasından, dikindən keçən yol.

Təpəl – Heyvanın alnında olan "ağ tük". Qaşqa heyvanlar təpəl adlanır.

Səpəng – Səpəng ipdən toxunur və daş atmaq üçün istifadə edilir. Daş qoyulan hissəsi bir az enli və uzunsov olur. Bunun bağlarının uzunluğu 1 və ya 1,5 metrdən artıq olur.

## 2. QOHUMLUQ BİLDİRƏN SÖZLƏR

Tirə – Nəsil mənasındadır.

Uşağı – Ailə, nəsil mənasında işlənir. Məsələn, Məşədi uşağı, Kərim uşağı və s.

Nənə – Ana mənasındadır.

Ava-aba-əpə – Ana mənasındadır. Ələyəz kəndində işlənir.

Kəv – Kürəkən.

Yengə – Dərələyəzin Horbadıq kəndində qardaş arvadı, dayı arvadı, əmi arvadı mənasındadır. Yengə Dərələyəz mahalının hər yerində həm də toy günü gəlini oğlan evinə aparan qadın mənasında işlənir.

Qağa – ata, böyük qardaş.

Dadaş – ata.

Mama//bibi – atanın bacısı.

## 3. ÇƏKİ, ÖLÇÜ VƏ PUL VAHİDLƏRİNİN ADLARINI BİLDİRƏN SÖZLƏR

Çanax - ölçü vahidi 16 kq taxıl tutan və ağacdan düzəldilmiş qab.

Girvənkə - 400 qr.

Batman - 14 girvənkə

Çetver - 100 qr.

Çod - içi 13 girvənkə yarım taxıl tutan qab.

Türə - içi 8 kq. taxıl tutan qab.

Yarım put - ağacdan hazırlanan ölçü vahidi.

Yük - 10 pudduq çəki.

Xəlvər – 30 put.
Əriş – 10 metr
Qulac – iki qolun arasındakı məsafə.
Səjin – çin-çin hörülən ot, taxıl (Gülüdüz, Qovuşuq, Qaraqaya, Ələyəz, Horbadıq və s.).
Çərək – 16 kq. Ağacdan hazırlanır.
Çüyəcə – içi 1 girvənkə, 400 qr tutan qab. Ağacdan qayrılır.
Axça – pul (Qovuşuq, Ələyəz, Qabaxlı), Axcə (Zeytə, Köşbək, Çaykənd).

**4. VƏZİFƏ, RÜTBƏ BİLDİRƏN SÖZLƏR**

Xan, bəy, pristav, yüzbaşı, qlava, katda, rəşbər, hampa, naçalnik, goburnat, strajnik, moğrof, silicçi, dilmanc, vəkil, mirovoy sud, aqrojnoy sud. Bu sözlər əksər kəndlərdə işlənir.

**5. KÖHNƏ VERGİ ADLARI BİLDİRƏN SÖZLƏR**

Töycü – vergi növü.
Odun pulu - vergi növü.
Dimməver – vergi növü.
Tüstü pulu – hər evə, hər ailəyə qoyulan vergi.
Saldat pulu – vergi növu. Əsgərliyə, hərbi xidmətə getməmək üçün verilən naloq.
Torpax xərci

**6. BİTKİ ADLARI BİLDİRƏN SÖZLƏR**

Ağ ot, qara ot, "qərə ot", qırxbizik, əvəlik, "əvəlix", şıppır, həməköməci, kijirtkan, kicirkan, yarpız, çiriş, çaşır, "çaşur", ayı çaşırı, sırmaşıx, şüddüyan, baldırğan, çaçıx, çajux, cacik, yemlik, yemilih, yemilix, quzuqulağı, xatınbarmağı, yolotu, qırxbuğum, üçqulax, sümürtkan, nərgiz, bənövşə, qəntəpər, səhlab, gülxətm, kəkotu, dəliximi, keçi baldırğanı, topalot, cırtdanquş, mollabaşı, molla mindi, qatırquyruğu, pişik cırmağı, xincilov, çildirim, kəvər, süsənsünbül, dəvədabanı, qıyax//qiyəğot, xanımcajquğu, qəvli, kaldar, havotu, itdavası, piltan, buğa tikanı, gəzəl, məröycə, xoruz pipiyi, kortum, quşəppəyi, qazayağı, lüləpər, xaşxaş, göbələk, unnuca və s.

**7. TERMİN SƏCİYYƏLİ SÖZLƏR**

**a) Məişət, əkinçilik və biçinçiliklə bağlı sözlər**

Cüt – (Dərələyəzin əksər kəndlərində); Yaba (Qovuşuq, Ələyəz, Qabaxlı, Gülüdüz, Qaraqaya, Hors, Civə); Şana (Dərələyəzin əksər kəndlərində), Şanə (Ağkənd, Heşin, Yelpin).
Şilaver – Oraq növü (Gülüdüz, Horbadıq, Qovuşuq, Qalaser).
Oraq – Dərələyəzin əksər kəndlərində.
Gəm, vəl – Xırmanda dərz döymək üçün alət. (Gədikvəng, Civə, Əmağu, Zeytə).

Ləğərə – Yeri iki tərəfli əkmək.
Cırım – Yerin, torpağın bir hissəsi.
Bafa (Bafə) – Oraqla biçilən buğdanın, arpanın, otun və s. bir əlin içində yerləşən hissəsi.
Xozan – Əkilməmiş taxıl sahəsi, əkilməmiş yer.
Bəndəm – Bağ bağlamaq üçün az yetişmiş buğdanı, arpanı küləşi taxılı bağlamaq üçün istifadə olunan əşya, qırılmayan otların bir hissəsi.
Dərz – Biçilən buğda, arpa bağlarının 10-15-ni bir yerə tayalamaq.
Kürəkeş – xırmanı, döyülmüş samanı, buğdanı, qarı bir yerə toplamaqdan ötrü işlədilən, eni 20-25 sm, uzunluğu 40-45 metrə qədər taxta və sapı bərk ağacdan qayrılmış əl aləti.
Xırman (Xərmən) – Dərz döyülən yer.
Xotma – Kiçik ot, taxıl tayası.
Küləş – Xırmana tökülən buğda və arpanın döyülməmiş hissəsi.
Savırıx//Savrıx – Xırmanda döyülmüş dəni yelə verib samandan ayırma.
Bəlim – hər hansı dənli bitkinin xırmana dağılıb vəl və vələ qoşulan öküzlərlə, atlarla bir az döyülən, xırdalanan küləşi.
Şadara – buğdanı qatışıqlardan təmizləyən alət.
Daşgir – Buğdanın, arpanın daşını təmizləyən alət.
Pişik quyruğu - Buğdanın, arpanın içində bitən darıya oxşar alaq otu.
Çılpağ buğda - buğda növü.
Kərdiyar - arpa, buğda və digər dənli bitkilərin qarışığı.
Ağ arpa - arpa növü.
Sulu yer - sulamaq mümkün olan yer.
Zir - yerlərin içindən kotanla, cütlə zir çəkirlər ki, yerin hər tərəfinə su getsin.
Dəmyə yer - susuz əkin yeri.
Xərək - əkilən yerin içində əkilməyən hissə.
Peşqurt (peşğurt) - Əkilən taxılın ilk növbarı.
Qırp - buğdanı başdan (sünbüldən) doğrayıb götürmək.
Qara arpa (qərə arpa) - arpa növü.
Pərinc - dənli bitki növü.
Zəyərək (zəyərəx) - dənli bitki növü.

**b) Cütün və kotanın hissələrinə aid sözlər:**
Maj - kotanın və xışın dəstəyi, əl tutan yeri.
Köbal – (Köbəll) – zəncirə keçən həlqə.
Həvəndə – bişmiş kəndirdən hörülmüş alət.
İşgil – İki ağacın deşiyindən keçirilən və bunları bir-birinə bağlayan ağac, taxta, dəmir.
Lavaşa (lavəşə) – enli dəmirdən düzəldilən, torpağı yanı üstə çevirən hissə.
Kotanın çəmbərəyi. Kotanla boyunduruq zəncirini birləşdirən kiçik zəncir.
Bazı (bazi) – xışın, cütün ən uzun hissəsi. Xışın dairə şəkilli ağac hissəsi.

Sırnış – Kotanın torpaq və palçığını təmizləyən ağac.
Samı (səmi) – Boyunduruğun hər iki tərəfindən deşiyə salınan və boyunduruğu öküzün, kəlin boynuna bağlayan və iplə bir-birinə bərkidən əyri ağac. Bunların uzunluğu 50-60 sm olur.
Sambağı (səmbəği) – Öküzün boynundakı iki samını bir-birinə bağlamaq üçün istifadə olunan ip.
Laydır – Arabanın yanları.
Maz – Arabanın təkərlər keçən oxu.
Əymə – 1 metr uzunluğunda palıd və ya kərməşov ağacından hazırlanan alət. Ağac kəsilib ocaqda isidilir, əyilir, uclarından göz açılır, sonra da sambağının hər ikisi bir-birə bağlanır.

**c) Maldarlıqla bağlı sözlər:**

Naxır – Malın sürü halda olması
Naxırçı – Mal otaran şəxs .
Xalxal (xalxəl) – (əksər kəndlərdə) – yazda, yayda, payızda mal qatılan yer. Hərtərəfi alçaq daşla hörülür və bir qapı qoyulur.
Kələ – burulmamış erkək mal.
Qısır – doğmayan mal və qoyun.
Gəzyazma – Buğaya gəlməyən, bir il vaxtı keçən, düyə mal deməkdir.
Ərəmik – Doğmayan mal.
Hörüyə gəlmak – Buğaya gəlmək .
Düyə – ikidən artıq yaşı olan dişi mal.
Qısırəmən düyə – ikiillik dişi dana.
Bijəh//bijəx – vaxtından əvvəl doğan düyə.
Cöngə – birdən artıq yaşı olan erkək dana.
Öküz – üç yaşdan yuxarı erkək mal.
Buğa//kələ – üç yaşdan yuxarı
Quzu/qüzü – yeni doğulmuş qoyun balası.
Toxlu//toxlü – altıaylıq qoyun balası.
Şişək – bir illik dişi qoyun
Erkək//erkəh – bir illik erkək qoyun
Öyəş//öyəc – üçdən artıq yaşı olan erkək qoyun.
Qərə diş//qara diş – qocalmış erkək qoyun
Çəpiş – bir yaşadək keçi balası.
Qide – bir illik keçi balası.
Oxlax//oxləx – altı aya qədər yaşı olan keçi balası.
Küyər//küvər – iki yaşınadək dişi keçi.
Sıbır//sibir – iki yaşından yuxarı erkək keçi.
Seyiz – heyvanın qabağında gedən qoca keçi.
Mor keçi – boz və göyrəngli keçi.
Qole//kole keçi – buynuzu olmayan keçi.

Ala keçi – qəzili ağ və qara olan keçi.
Burux – xayası çevrilmiş erkək qoyun.
Kərə – qulağı balaca qoyun növü.
Kürə – qulağı iri qoyun növü.
Qomral – rəngi tünd qızılı qoyun növü.
Əbrəş – başı alabəzək olan qoyun növü.
Kəlin – buynuzu olan qoyun növü.
Təpəl – alnındı qaşqası olan mal, qoyun.
Səkil – ayağının üstü (dırnağının üstü) iki rəngdə olən at.
Yorğa – rahat yerişli at.
Maydan – dişi at.
Aygır – miniyə öyrənməmiş erkək at.
Axta – xayaları çıxarılmış at.

**ç) Təbiət hadisələri ilə bağlı sözlər.**

Xilloru (qilloru) – Dolu (buzlamış yağış).
Çiskin – Uzun müddət davam edən, narın şəkildə yağan yağış.
Göyçə yeli – yuxarıdan, Göyçə tərəfdən əsən yel.
Qara yel (qərə yel) – Şimal tərəfdən əsən külək, bəzən də məcazi mənada, xoşa gəlməyən hadisə mənasında işlənir.
Ayaz yeli (əyaz yeli) – Səhər ertə əsən yel.
İl qulun atdı – yəni payız ayı quraqlıq keçdi, qışda yaxşı olar.
Boğanax – tozu, kiçik qumu, otu bura-bura kom halında gətirən yel, külək.
Ələyəz yeli – aşağıdan əsən yel.

**ç) Ay, gün, fəsil adları ilə bağlı sözlər:**

Böyük çillə (böyük çilə) – Qışın birinci 40 günü.
Kiçik çillə (qışın ikinci ayının axırıncı 20 günü).
Keçiqıran, qarının dərdi – Martın 22-dən aprelin 2-nə qədər olan vaxt. Bu sözə «oxlaqqıran», «oxlaxqıran», «öxlək ırən» da deyilir.
Kərnəbut – Martın 21-dən 30-na qədər olan dövr.
Ağlar – gülər ay – Qışın axırıncı ayı. Bəzən buna "boz ay" da deyilir.
Bozay – qışın axırıncı ayı. Havaların tez-tez dəyişdiyi ay.
Qora birişən ay – İyul ayının 15-dən, avqust ayının 15-nə qədər olan dövr.
Quyruq doğan ay (quyrix dögən ay) – Avqustun ikinci yarısı.
Cəmlələr – Fevralın 21-dən martın 21-nə kimi olan dövr. Bu dövrdə olan həftələr. Bəzən buna "abi, atəş, xaki və bad həftələri" deyirlər. Yəni birinci həftədə su, ikinci həftədə hava, üçüncü həftədə torpaq və dördüncü həftədə külək isinir, qızır.

**d) Toxuculuqla bağlı sözlər:**

Kilim -
Palaz//paləz –

Hana//hanə –
Yer hanası//yer hanəsi –
Gəbə –
Xalı//xəli –
Gecim//gejim//ceyim –
Xurcun//xürcün –
Həybə –
Xaral//xarəl –
Çuval//çüvəl –
Secim//sejim//şejim –
Örkən –
Çatı –
İrəşmə –

**e) Toy adətlərinə aid sözlər:**

Elçi – oğlan evindən qız evinə gedib qızı oğlana istəyən şəxslər
Başdıx – oğlan evinin qız evinə verdiyi qoyun, un, paltar və pul.

Gəlin görümü – qız ata evindən oğlan evinə gedəndən bir həftə sonra, qız tərəfi qızı görmək üçün oğlan evinə getməsi.

Qardaşdıx//qardəşdıx – toyu olan oğlanın evindən oğlanla gedib qızı ata evindən əlindən tutub gətirən, toy günü və toy gecəsi evlənənlə birlikdə olan oğlan.

Cehiz – qızın ata evindən oğlan evinə apardığı əşyalar.

Bəlgə – evlənən oğlan tərəfindən qız evinə göndərilən birinci nişanə: yaylıq, üzük.

Toy babası – toyu idarə edən, oynayanların xahişini yerinə yetirən və şabaş yığan adam.

Bəy gecəsi – qız oğlan evinə gedən axşamı oğlanla yeyib içən adamlar.

Xonça gecəsi – gəlin oğlan evinə gedən axşamı yengənin gətirdiyi xonçanı açıb paylayırlar, hərə götürdükcə yerinə pul və ya qiymətli əşya atır.

Yengə – gəlini oğlan evinə aparan qadın.

Şabaş – oynayan adama verilən pul.

**ə) Paltar adları:**

Büzmə – ipəkdən tikilmiş qollu qadın geyimi
Çəpkan – qolsuz qadın geyimi
Arxalıx – kişi geyimi
Çuxa – kişi geyimi
Vəznəli çuxa – şal və ya mahuddan tikilib bərbəzək vurulan çuxa
Dizdik//dizdix – qadın üçün tuman
Zərbab – güllü ipək parça

Xaz çeşməy – qolsuz qadın geyimi, qalın ipək parçadan, xəz dəridən tikilən qadın paltarı

Qalınça – gödək kişi pencəyi
Şal şalvar – ipdən toxunmuş şalvar
Qəloş//qaloş – rezin ayaqqabı
Çus//çust – dabansız ayaqqabı növü
Kürdü çarıx – burnu uzun olmayan çarıx
Əjəmi çarıx – burnu miz çarıx
Çarıx bağı – çarığı bağlamaq üçün ip və ya köşə
Göllü coraf – üstündə müxtəlif bəzək vurulan corab
Qayıx coraf – möhkəm toxunmuş corab
Tək qırış coraf – bir ilmə ilə hörülmüş corab
Sipayi coraf – bəzəksiz corab
Dovşan naxışı coraf – dovşan şəkli çəkilmiş corab
Gümüşü papax – buxara papaq
Saçaxlı papax – tükü saçax-saçax olan, tükü burulan papaq
Cəhəy – qadınların tumanının ətəyinə qoyulan naxış
Sortux//sortof – pencək
Quşkeçər – dikdaban qadın tuflisi

**f) Xörək adları:**

Aş- pilov
Umac//umaş//süddü omaş//boz omaş – xamırdan hazırlanmış xörək növü
Xaşıl//xəşil//xaşil – xamır xörəyi
Qəysəpə//qaysəpə//ğaysəpə – ərikdən bişirilən xörək
Kələcoş – çox şey qatılmış xörək növü
Çəhmə//çəkmə – düyüdən bişirilən xörək növü
Qatmalı – qatı xamırdan hazırlanan xörək növü
Cılvır//cilvir – göyərtidən hazırlanan xörək növü
Əri̇şdə// sulu ərişdə// ərişdə aşı – xamırdan hazırlanan xörək növü
Yarmaşı –buğdadan hazırlanan xörək növü
Kələfətir – sacda bişirilən çörək
Xamıralı – sacda bişirilən qalın çörək
Dasdana//dasdənə – təndirdə bişirilən çörək növü
Çırpa – təndirdə bişirilən enli çörək
Şilə aşı – düyüdən hazırlanan xörək növü

**g) Xəstəlik adlarını bildirən sözlər**

Sətəlcəm – soyuq dəymə xəstəlik
Vurğun//verğın –
Qızılca//qizilcə –
Çiçək//çiçəx –

Qulunc//quluş//quliş –
Babasil –
Qotur –
İlancıx –
Çivan//çivən
Kor çivən//çivən –
Sarılıx –
Tutma – ürəkgetmə
Göbəkdüşməsi – mədənin sallanması
Qara yara –

**ğ) Sürünən və həşərat adları:**

Ox ilanı, gürzə ilan, şahmar ilan, yatağan ilan, boz ilan, qara ilan, uçan ilan, qanadlı ilan, əjdaha; koramal, ilana ağı verən, kərtənkələ, qayaqarpan, əqrəb, qırxayaq və s

**h) Dənli bitki adları:**

Ağ buğda, qırmızı buğda, sarı buğda, gülüsor buğda, yazdıx buğda, payızdıx buğda, çılpaq buğda, qılçıxlı buğda, topbaş buğda; pərinc, zəyərək, arpa, darı və s.

**x) Ev əşyalarının adları**

Abıgərdan, qərə çırax, qəçi, qazan, sini, sərnıc, simavar, sapılcı, saj, tava, teşt, təhnə, tabax, tulux, təvənə (palan tikən iynə), duvax, dördayax, divək, oxlov, şiş, hərsin, cəhrə, oxlavı, müyürü, maşa, kəfkir, zir və s.

**i) Meyvə adları:**

**Alça:** dağ alçası, turş alça, qırmızı alça, çöl alçası.
**Alma:** ağ alma, qırmızı alma, acı alma, daş alma, söyüd alması, kəpək alma, meyxoş alma, payız alması, turş alma, cır alma, bal alma, uzun alma, qığ alma.
**Armud:** daş armud, ağ armud, qaylan boğaz armud, qum armudu, qış armudu və s.
**Gilas:** ağ gilas, qərə gilas, sarı gilas.
**Cəviz:** kətən köynək cəviz, kor cəviz ...
**Ərik:** şalax ərik, qığ ərik, ajı ərik, turş ərik.
**Üzüm:** ağ üzüm, qara//qərə üzüm, xatın barmağı, keçiəmcəyi, qızıl üzüm, qış üzümü ...
**Yabanı meyvələr:** giviş, yemşan, qaragillə, əppəyli, davşan alması, qaraca və s.

**j) Tərəvəz adları:**

Yemiş, qavın, qarpız, gülbəsər//xiyar, badımcan, qarğıdalı//məkə, pazı, irey-han, kişniş, tırp, yer alması, kök, bibar, soğan, sarımsax, zəfəran, günəbaxan.

## 8. DƏRƏLƏYƏZDƏKİ ŞİVƏ SÖZLƏRİNİN LÜĞƏTİ*

A

Abqora – yetişməmiş üzüm suyu (şirəsi)

Ağ arpa – arpa növü

Ağa – ata, dədə

Ağciyər – qorxaq

Ağçamaya – ağappaq//kök, gözəl qadın

Ağıl – 1. hər tərəfi hasarlanmış yer, qoyun sürüsü saxlanan yer; 2. zəka

Ağlar gülər ay – qışın axırıncı ayı

Ağnağaz – dəyirmanda növbədənkənar üyüdülən az miqdarda taxıl

Ağnamax – 1. dalı üstə uzanıb ayaqlarını yuxarı qaldıraraq, o üz – bu üzə çevrilmək; 2. uçmaq, yıxılmaq, dağılmaq, tökülmək

Ağuz – inək,camış, qoyun doğan vaxt birinci 2 – 3 gün ərzində sağılan süd

Ağzıisti – qorxmaz, sözünü deyən, sonu yaxşı görməyən

Axça – pul

Ada – hər tərəfi su ilə əhatə olunmuş quru sahə

Ala – dəri xəstəliyi, bədən dərisinin ağarması

Alaf – ot.

Alışqan – kibrit, spiçka

Annax – qanacaq, mərifət

Arağaş – erkən, vaxtından qabaq, əvvəl

Arğalı – dağ qoçu, dağ qoyunu

Arxaç – qoyunu saxlamaq üçün ayrılmış yer

Arı – 1. təmiz, pak; 2. bal hazırlayan canlı

Arılıx – arı səbətləri qoyulan yer

Arqaç – xalça, palaz, cecim, kilim və s. toxunan zaman istifadə olunan ip

Aşırma – şalvar üçün çiyindən keçirilmiş qayış

Aşargə – meşədə, çınqıllı bərk yerlərdə mal, qoyunun oğurlanıb gizlənən yerin adı; ağıla gəlməyən yer

Atalıx – ögey ata

Atıcı – keçəçi, yundan alacıq keçəsi, evdə döşəməyə salınan keçəni hazırlayan adam

Atma – damın, tövlənin üstünə qoyulan, atılan ağac

Av//Ov – arğalı, dağ qoçu, dağ qoyunu, dağ keçisi

Ava//Aba//Əpə – ana mənasında

Avazımaq – rəngi qaçmaq

---------------------

* Bax: *Mirzəyev H.* Dərələyəzin şivə sözləri və bunların lüğəti. "Dədə Qorqud" jurn. №1, 2003

Avsar//Ovsar – Dəvənin başına vurulan ip /irəşmə/
Avsarramax – dəvəni noxtalamaq
Avşar – iri bıçaq, xəncərə oxşayan bıçaq.
Avırtdax – ovurdları iri, şiş olan adam
Ayama – ləğəb
Ayaz yeli – səhər ertə əsən yel
Aybaşı – qadın orqanizmində gedən fizioloji proses
Ayı döşəyi – yabanı bitki, bitki növü.
Ayqır//ayqır – axtalanmamış, xayası, toxumluğu... çıxarılmamış, miniyə öyrədilməmiş, ilxını, atın sürüsünü idarə edən erkək at.
Aylıqçı – aylıq əməkgünü alan adam

B

Bab – tay, özünə bərabər
Bacanax – bacıların ərləri
Bad – kürənin, təndirin divarı, kərpici.
Bafa – biçinçinin bir əli doluncaya qədər biçdiyi taxıl
Bağ – taxılı biçərkən 3 – 4 bafanın birləşdirilib bağlanması
Bağlaşma – şifahi xalq ədəbyyatında müəmma, deyişmə, qıfılbənd demək, aşıqların deyişməsi
Balax – 6-7 aylıq camış balası
Baldız – arvadın ərinin bacısı
Balxı – veyil, maymaq
Barmaxlıx – iş zamanı barmaqları müdafiə üçün dəridən hazırlanmış əşya
Batman – çəki ölçüsü, 14 girvənkə
Başdıx – oğlan evi tərəfindən qız evinə toydan qabaq verilən pul, qoyun, varidat
Başdansavma – başdan sovdu, başdan eləmə, işi dəqiq görməyən
Başəyax – 1. kəllapaça; 2. biçin zamanı yerə tökülən sünbül, dənnəmə
Başaltı - mütəkkə
Bavar eləmək – davam eləmək, davam gətirmək, əmələ gəlmək
Bazı – cütün, kotanın bir hissəsi, ən uzun hissəsi
Bedana – toxumsuz meyvə
Beddam – bədnam, biabır, rüsvay
Bezar olma – təngə gəlmə
Bəbə – körpə uşaq
Bələban – kiçik uşaqları qorxutmaq üçün işlədilən xəyali ad
Bəlgə – 1. Ağacla vuruşan zaman özünü müdafiə etmək üçün qola dolanan çuxa, palto, pencək; 2. Adaxlanmış oğlan evindən qız evinə verilən, göndərilən ilk nişan şeyləri
Bəlim – döyülmüş arpa və darı samanı
Bəllə – qulağı xırda qoyun, quzu
Bənd – 1.bağlama; 2.dəhnə; 3.düyün

Bəndəm – taxıl dərzini, ot xorumunu bağlamaq üçün küləş dəstəsi, ot dəstəsi
Bərə – 1. Keçid 2. Qoyunları sağmaq üçün hasarlanmış yer 3. ov vurmaq üçün seçilən yer
Bərəmüm – arı pətəyində qalan mum
Biçənək – biçilmək üçün saxlanılan yer, çəmənlik
Bir dəfəmə – bir dəfəyə
Bir yol – bir dəfə
Bişməcə – istidən səpmiş dəri, istidən bədəndə əmələ gəlmiş yara
Boğma istəkan – armudu stəkan
Bordax – bəslənmiş, kökəldilmiş ev heyvanları
Boyundurux – öküzün boynuna keçirilən, qoyulan ağac, taxtadan qayrılmış alət
Bozay – mart ayı
Bozay – qışın son ayı, 22 fevraldan 21 marta qədər olan dövr
Böyük çillə – qışın ilk 40 günü
Bulama – təzə doğan mal və qoyunun südündən hazırlanan yemək
Bulamac – bişməmiş un horrası
Burcutma – rəqs edən zaman sındırmaq növü; 2. fikrindən daşınmaq
Burqu – ağac şivindən hazırlanan alət
Burum – dəfə, kərə (xörəyi bir burum qaynat)
Bülöv – bıçaq, ocaq, kərənti, balta, kərki itiləyən daş

## C

Cad – darı çörəyi
Cacıq – yabanı bitki
Cam – mis kasa
Cecim – ipək və ya yundan toxunmuş zolaqlı parça
Cələ – at quyruğunun tükündən qayrılmış tələ
Cəmlə – qış fəslinin axırıncı ayı
Cəmlələr – fevralın 21-dən martın 21-nə kimi olan dövr
Cəvərə – xırda səbət
Cəviz – qoz
Cəyək – meyvənin içi
Cici-bacı – sirdaş, rəfiqə.
Civir – öz-özünə bitən söyüd, söyüdün balaca qanadları.
Cılfır – göyərtidən bişirilmiş xörək növü
Cılxa – xalis
Cığal – oyunu qarışdıran
Cılxı – tüklü üzü kənarda olan dəri
Cırım – yerin, torpağın bir hissəsi
Cıvrıx – 1. yeməli ot; 2. qabığı çıxmış meyvə; 3. lüt, çılpaq
Cıvıl – çox arıq adam
Cızbız – qoyunun quyruğunu əritdikdən sonra qalan hissəsi

Cod – kobud, tərs, yağı olmayan
Cunquş – xırda, balaca
Cuvar – su paylayan, suvarma üçün suyu idarə edən
Cüt – xış
Cüzbücə – qısa, az, müxtəsər.

Ç

Çax-çax – dəyirmanda daşın üstündə tərpənən taxta, taxılı daşın boğazına tökən alət
Çaqqala//Çağala – yetişməmiş ərik, kal ərik
Çalğı – çubuqdan bağlanmış süpürgə
Çalkeçirt – qarmaq, geyimdə istifadə olunan əşya
Çamır – bataqlıq
Çanax – 1. ölçü qabı, ağacdan qayrılmış ölçü qabı; 2. 16 kiloqrama bərabər ölçü vahidi
Çapacaq – xırda balta
Çardax – talvar
Çarıx – 1. mal, camış, ot gönündən hazırlanan ayaqqabı növü; 2. arabanın təkərindəki şini təkər ağacına bərkidən dəmir halqa
Çatal – ikiyə ayrılmış, bir neçə qola ayrılmış sahələrin birləşdiyi, qovuşduğu yer
Çatı – bağ, ip qırığı, nisbətən ködək və yoğun bağ, ipdən toxunan əşya
Çatma – nehrə çalxamaq üçün istifadə olunan ağac, üç haça ağacın baş-başa qoyulması
Çapıt – culun, palazın, qalın parçanın qıraqları
Çaşır – bitki növü, şorbaya qoyulan yeməli bitki növü
Çetver – 100 qr
Çeyil – sucuq yer, sulu otlaq yeri, bataqlıq olan biçənək
Çəhlim – mal-qaranın otlağa gediş-gəliş yolu, iz, iz düşən yer
Çərək – 25 sm
Çərəkə – təsbeh
Çərənçi – uzunçu
Çərşov – çadra
Çətən – alaçığın yanlarını tutmaq üçün qarğıdan, çubuqdan toxunan alət, qamışdan toxunmuş həsir.
Çillə – qış ayı
Çini – 1. büzmə; 2. tarelka növü
Çil – quş növü, kəklik növü
Çilik – Oyun adı
Çilik – hamar ağac, kilimin toxunuşunda istifadə olunan alət
Çimir – mürgü, az yuxu
Çiriş – bitki növü, kətə, qutab, xörək bişirilən bitki növü

Çiş – balı çıxarılmış şan, arı şanı
Çiskin – narın yağış, duman, çən
Çiv – xırda paz, ağacı yarmaq üçün hazırlanan dəmir və ağac alət
Çiy – 1. bişməmiş; 2. nəm, yaş
Çoban düyüsü – yazda yağan dolu
Çod içi – ölçü vahidi, 13 girvəngə yarım.
Çözələmək – 1. çəkib çıxarmaq, uzatmaq; 2. sözü – söhbəti uzatmaq
Çüyəçə – içi 1 girvəngə, 400 qr, ölçü vahidi
Çin – 1. odunu bir yerdə üst-üstə yığmaq

## D

Dadaş – ata, qardaş
Dağar//dağarcıq – yunu, qəzili təmizlənərək qoyun, keçi dərisindən hazırlanan qab, kisə
Dağdağan – ağac növü
Dadıxmax – pis dad vermək, xarab olmaq, iylənmək
Daqqa – ağacdan, taxtadan hazırlanan və təxminən 50 put maye tutan qab
Damba - kobud
Dambat//dammat – lovğa, dikbaş, mədəniyyətsiz, kobud
Danqa – sözə baxmayan, söz qaytaran, kobud, qanacaqsız, dikbaş adam.
Danqır – arıq, sümükləri çıxmış mal
Daramax – ağacın budaqlarını kəsmək, seyrəltmək
Dayanacax – 1. əl ağacı, əsa, 2. adamların çox yığıldığı yer.
Davgəlmə – qalib gəlmə, zor gəlmə
Dəsdana – çörək növü, təndir çörəyi
Daşgir – buğdanın, arpanın daşını təmizləyən alət
Daşıxçı – taxılı, otu at, öküz vasitəsi ilə daşıyan adam
Demi//Demiyə – susuz yer, su çatmayan yer
Deyikli – nişandan qabaq, uşaq vaxtı bir-birinə ad edilmiş gənclər, vaxtından qabaq, şifahi olaraq bir-birinə nişanlanmış gənclər, uşaqlar
Dəbbələmək – fikrindən dönmək, verdiyi sözü danmaq, inkar etmək, cığallıq eləmək
Dədə – ata
Dəhnə – gölün, çayın, bulağın suyunun başqa yerə ayrılan hissəsi, buraxılan yeri
Dələmə – ağartı növü
Dəmbələmdüz – dümdüz
Dəmdəməki – rəybərəy adam, hər saatda bir söz deyən adam, ağılsız adam
Dəmyə yer – susuz əkin yeri
Dəndənə – 1. daş hörgüsündə işlənən xırda daş, 2. araba təkərinin hissəsi
Dərz – biçilən buğda, arpa bağlarının 10 – 15-ni bir yerə tayalamaq, yığmaq
Dəstənə – çörək növü

Dəstərxan – süfrə
Dibir//Dübür – erkək keçi, iki yaşlı keçi
Dilbaz – dilli, qılıqlı adam
Dimməver – vergi növü
Dingə – başlıq, qadınların başlarına qoyduqları bəzək
Dişəmək – 1. uşağın süd dişlərinin daimi dişlərlə əvəz olunması, yeni dişin çıxıb əvvəlki dişlərin tökülməsi; 2. dəyirman daşının və mişarın dişlərini itiləmək
Dizlik – kişi tumanı
Dınqili – balaca, xırda, kiçik
Domba – çıxıq, qabarıq
Dombalax aşmaq – dığırlanmaq, başın üstündən bədəni aşırmaq
Domuşmax – çömbəlmək, qırışıb oturmaq
Donuxma – donub qalmaq
Dozanqurdu//dozanqurdu – böcək növü
Doğar – doğan, bala doğan mal, qoyun
Duruxmaq – dayanmaq, quruyub qalmaq, özünü itirmək
Duvax – 1. gəlinin üzünə çəkilən pərdə; 2. çörək bişirərkən kündəni yaymaq üçün istifadə olunan taxta alət; 3. çölməyin ağzına qoymaq üçün palçıqdan hazırlanmış papaq;
Duzdax//Duzlaq – mala, qoyuna, ata duz verilən yer
Düdəmə – axmaq, sarsaq, səfeh, heç nədən başı çıxmayan, zırrama
Dümbək – 1. Nağara, təbil; 2. köpmüş qarın, yekə dal
Dümsük – dürtmə, vurmaq, çimdik götürmək
Dümsükləmək – tərpətmək, yerindən qaldırmaq, hərəkətə gətirmək
Dürmək – içərisinə pendir və s. yığılıb bükülmüş yuxa, çörək
Dürməkləmək – dürmək qayırmaq, bükmək
Düşük – ağılsız, səfeh, yarımçıq adam, yersiz danışan, mədəni səviyyəsi aşağı olan adam
Düyələk – eybəcər, formasını dəyişmiş, paltarını gödəltmiş adam, forması, xasiyyəti normal olmayan adam
Düymək – bağlamaq

E

Erkəs – sürünün qabağında gedən erkək keçi, buynuzlu keçi növü
Eymə – içində qatıq saxlanılan balaca, xırda qoyun, keçi dərisi, tulux
Eyzən – tamamilə, bütün

Ə

Ələm (tuğ) – dini təbliğ edərkən istifadə olunan bayraq
Ələyəz – yeyilən yabanı bitki, göyərti növü
Əndam – bədən, vücud
Əlçim – daranmış əl boyda yun

Ərdəmli – hünərli

Ərəmix//Ərəmik – doğmayan, qısır mal

Əriş – hananın şaquli ipləri; calça, gəbə, kilim, cecim, çul, xurcun, örkən toxuyarkən arğaca keçən ip

Ərzi – tülü – sözün qısası

Əyal – üşaq

Əməzəy – aciz, az yeyən

Ətənə – məməlilərin doğandan sonra ifraz etdikləri bir parça ət

Əymə – ağacdan hazırlanan alət, 1 metr boyda olan palıd, sonra da onun və ya kərməşov ağacını kəsib ocaqda isidib və əyirlər; uclarından gəz açıb sambağını ora bərkidirlər.

Əfsəmək – düyünü, taxılı, dənli bitgiləri məcməyi, sini içərisində göyə ata-ata təmizləmək.

Əvlat – qohum

Əzvay – 1. aciz, bacarıqsız 2. yumru meyvə; 3. acı,

F

Farmaş – paltar, yorğan-döşək yığılan qab, yun ipdən xalça kimi toxunan böyük əşya qabı

Fətir – çörək növü, qalın bişirilən çörək növü

Fut olmaq – tükmək, qurtarmaq

G

Gahgir – tərs, tez-tez fikrini dəyişən

Gay – key, qanmaz, maymaq.

Gədik – aşırım, hündür dağ arası yol

Gəvən – çöldə, dağda, xırrıqda bitən tikanlı kol, yanacaq kimi istifadə edilən ot növü.

Gərnəbut – martın 21-dən 30-na qədər olan dövr

Gərmə – yandırmaq məqsədilə qurudulmuş mal peyini, mal təzəyi

Gəvəzə – çoxdanışan, boşboğaz

Gəz – aşırım, gəzdək, dağçökəyi, dağın qılıcında nazik yer, dağın təpəsindəki çökəklik, gədiyin ən alçaq yeri

Gəzəl – qozun və ya fındığın yaşıl qabığı

Gəzyazma – buğaya gəlməyən, birinci il doğmayan, doğmaq vaxtı keçən düyə

Gic – sarsaq, axmaq, özünü idarə edə bilməyən

Gicbəsər – başdan xarab, sarsaq

Girəvə – fürsət

Girəvəcil – sözü girəvələyib yerində deyən, məqamı yaxşı bilən

Gödən – qarın

Gödən bağırsaq – düz bağırsaq. 2. Çox yeyən

Göy – xəsis

Gözə – sucuq, bulaq yeri, təbii su mənbəyi, sulu yer, sızqa şəklində çıxan su, nəmiş otluq, yaşıllıq yer, çəmənlik.

Gülab – əkinə verilən ikinci su

Gülüsor – buğda növü

Günü – kişinin arvadının üstünə gələn sonrakı arvad.

Güz – qoyun, quzu salınan yer, ağıl; qarğıdan, qamışdan hazırlanan quzu yeri və s.

Güzdək – payız səpini, payız göyərən taxıl, ot və s.

Güzdük buğda – payızlıq buğda, payız əkildən buğda

Güzəm – payızda qırxılan yun

H

Halaylama – dövrəyə alma, əl-ələ tutub dövrəyə alma

Hambal – 1. evin üstünə qoyulmuş uzun ağac; 2. belinə palan bağlayıb və ya əl arabası götürüb böyük, ağır yükləri daşıyan adam

Hampa – dövlətli, zəngin adam

Harın – ərköyün, varlı, var-dövlətin çoxluğundan başı gicələn adam

Havara gəlmək – köməyə gəlmək, haya gəlmək

Heşan – taxıl səpilən yer, yığım; bir xırmanlıq taxıl dərzi

Heyvərə – 1. çox və yersiz danışan; 2. avara, qanacaqsız

Həlim – yumuşaq, duru

Həməgil – girəvəcil adam, məqamı yaxşı bilən adam

Hələmqələm – hiyləgər, yalançı

Hənək – zarafat

Hərə – taxça, rəf

Həsləmək – geri çəkilmək

Həvə – xalça//kəbə, palaz toxumaq üçün ağacdan hazırlanan alət

Həybə – çiyindən aşırılan iki gözlü çanta

Hikkə – tərs, hirsli, yersiz hirslənən, qəlbi təmiz olmayan, pis xasiyyət

Hodax – kotana, cütə qoşulan, iki cüt, üç cüt öküzün idarə edən adam, ikinci cüt öküzün boyunduruğuna minib qabaqdakı və daldakı cüt öküzlərin kotanı, cütü çəkməsini tənzimləyən adam

Hoqqa – bir kilo; yarım hoqqa – yarım kilo çəki vahidi

Hoqqa – qanun, qayda

Hoqquş – eşşəyi saxlamaq üçün çıxarılan səs

Hov – iltihab

Hozu – qaba, kobud, qanmaz, başa düşməyən adam

Hörüyə gəlmək – buğaya gəlmək

Hövsəmə – sovurma, təmizləmə. Dənli bitgilərin təmizlənməsi

X

Xafdan – qəflətən

Xalxal – yazda, yayda, payızda gecə mal qatılan yer

Xama – iy südün üzü, maşınla çəkilən çiy südün üzü, qaymaq
Xamra – xəmir mayası
Xamralı – çörək növü, sacda bişirilən dairəvi və qalın çörək
Xamışdıx – arxayınçılıq, adam olmayan vaxt
Xapa-xap – gözlənilmədən, qəflətən
Xapan qalmax – bağlı qalmaq, tək qalmaq, kimsəsiz qalmaq, sahibsiz qalmaq, viran qoymaq
Xapdan – birdən-birə, qəfildən, gözlənilmədən
Xar – iki-üç yaşında axtalanmış keçi
Xaral – iri kisə, iri torba, yundan toxunan böyük çuval
Xart – bucaq, oraq, kərənti itiləyən çay daşı
Xaşal – sallaq, qarnı böyük, qarnı yekə
Xəkov – susuz qalmış əkin yeri, ikinci suvarma
Xədim – burulmuş, axtalanmış canlı
Xəlbir – xırda torpağı, taxılı ələyən alət, ələkdən böyük, şadaradan kiçik gözü olan alət
Xəlvər – çəki növü (30 pud)
Xəmrə – taya
Xərə – əkilən sahədə qalmış xam yer
Xərək – əkilən yerin içində əkilməyən hissə
Xəsil – taxılın göy vaxtı
Xəfə – bürkü, boğuq hava.
Xişdəy – alt köynəyin qolunun altı
Xırsız – güclü, pəzəvəng adam
Xıl – xeyli, çox, dəstə
Xılloru – dolu (buzlamış yağış)
Xırman – dərz, döyülən yer
Xırsız – güclü, canlı, kobud
Xorramax – qorxmaq, çəkinmək, ürkmək
Xorum – bir qucaq ot, otun bükülmüş, bağlanmış hissəsi
Xozan – müvəqqəti dincə qoyulmuş zəmi; arpa və buğda əkilməmiş yer, zəmi
Xum – böyük saxsı küpə
Xuygir – dəli (at), tez dəyişən, vəhşi at, xasiyyəti daimi olmayan
Xüfət – dərd, qəm, fikir
Xuduru – boş danışıq
Xuruşdanmaq – başqasının haqqında öz-özünə danışmaq.

## İ

İncəvara – yaxşı ki
İrağ – uzaq
İrəd – ləpir, rədd

İrəfətə – çörək, lavaşı təndirə vuran alət, lavaşın xəmirini təndirin divarına vurmaq üçün düzəldilmiş döşəkçə

İrəşmə – keçi tükündən toxunmuş yoğun ip, kəndir

İrişmək – qımışmaq, xəfif gülmək

İkiavırtdı – çörəyi iki ovurduyla yeyən

İşgil – cütdə işlənən xüsusi taxta; qapı və ya pəncərəni daldan bağlamaq üçün xüsusi taxta; iki ağacın deşiyindən keçirilən və bunları bir – birinə bağlayan ağac, taxta, dəmir.

K

Kab – aşırım, qayalıqdan keçən yol, uçurum, daşlıq

Kaftar – qoca, çox qoca

Kaha – zağa, daş oyuğu, qoyun saxlanılan yer

Kahal – qanmaz, könülsüz, laqeyd

Kal – 1. Kobud; 2. yetişməmiş meyvə; 3. yarımçıq, bacarıqsız maymaq

Kalafa – quyu, uçub tökülmüş bina, yer

Katda – kəndi idarə edən, camaatın şikayətinə baxan

Kav//Kov deyil – hesabdan deyil, hesablanmır

Kavranqıran – ulduz adı

Keçiqıran (Qarının dərdi) – martın 22-dən aprelin 2-nə qədər olan vaxt

Kəf – 1. xörək bişirən zaman suyun üzərində toplanan köpük; 2. çaydanda, simavarda əmələ gələn çöküntü; 3. hiylə, kələk; kəf gəlmək – kələk gəlmək, aldatmaq

Kəfgir – sulu xörək bişirdikdə onun üzərində əmələ gəlmiş kəfi yığmaq üçün alət

Kəfrəm – mitil

Kəkotu – kəklik otu

Kələk – yanı daşla düzəldilmiş ağıl, heyvan salınan yer, daşlıq, daş topası

Kələcoş – qurut, yağ, soğan, kartofdan hazırlanmış xörək növü

Kəltar arvad – kök, uca gövdəli arvad

Kənkan – kəhriz və quyu qazan

Kərə – 1. buynuzsuz xırda qulaq qoyun; 2. ərinməmiş (şit) yağ; 3. dəfə

Kərki – dəmirdən ağac kəsən, ağac yonan alət

Kərmə – tapdanıb qurudulduqdan sonra bel vasitəsilə kəsilən təzək

Kərt – malın, keçinin buynuzundakı qırış, qat, gəz

Kəsat – az tapılan, az olan əşya

Kəsə – kəsmə yol, yaxın yol, qısa

Kəv – yeznə, kürəkən

Kəvşən – çöl, əkin əkilən və ya mal otarılan yer

Kiçik çillə – qışın ikinci ayının axırıncı 20 günü

Kifsimək – kif atmaq

Kiriş – qoyun və keçi bağırsaqlarından hazırlanan bağ

Kirtik – sabının, qurudun istifadə olunub xırda-xırda qalan hissəsi.

Kirkid – xalça, kilim, palaz toxuyarkən işlənən dəmir alət
Kirkirə – əl dəyirmanı
Köbal (Köbəl) – zəncirə keçən həlqə
Kökləmək – 1. Sırımaq (dərzilikdə); 2. musiqi alətini sazlamaq
Körük – ocağa hava vurmaq üçün tulux
Körəməz – yemək adı
Kösöv – ucu yanmış ağac
Köşə – çarıq tikmək üçün ip kimi nazik kəsilən gün; gönün qırağından çıxarılan siyrım
Közəmə – tikmə, çuxur, deşik yeri ip və sapla tikib doldurma
Küflə – hava çəkən, yel çəkən yol
Küləş – xırmana tökülən buğda və arpanın döyülməmiş hissəsi
Külfət – ailə üzvləri
Kürnəş – qoyun-quzunun bir yerə yığılan yeri
Kürsü – qışda evin ortasında qızışmaq üçün qurulmuş taxta alət, kravat
Kürüşnə – balıqların, böcəklərin bir yerə tökdüyü çoxlu yumurta
Küz – quzu saxlanan yer

Q

Qafsımax//qafsamax – zəbt etmək, ələ keçirmək, mənimsəmək
Qamqalax – odundan, taxtadan qopan xırda parçalar, qırıntılar
Qanıx – qana susamış
Qanıxmaq – qana susamaq
Qanırmax//qanqırmax – burmaq, arxaya əymək
Qantəpər – bitkinin bir növü, soyuqdəymə, sətəlcəm olan vaxt dərman kimi istifadə olunun ot
Qara arpa – arpa növü
Qara yel – 1. şimal tərəfdən əsən külək. 2. işin bəd gətirməsi
Qaraqayış – kotana, cütə qoşulan üç cüt öküzün arxadan ikinci cütlüyü
Qaravəlli//qərəvəlli – məzhəkəli uydurma
Qarayer – məzar, gor, qəbir
Qardaşdıx – toyu olan oğlanın yanında duran şəxs, dost
Qarsımax – dərinin, çörəyin üzünün həddən artıq qızarması, yanması, köpüşməsi.
Qaşqa – alnı ağ tüklü at, inək, öküz
Qatma – ip, kəndir
Qaysər – soyuq dəymək
Qaynana – ərinin anası
Qaynata – ərinin atası
Qavzamax – qaldırmaq
Qavqarmax – qablaşdırmaq
Qazalax // Qazalaq – kəkilli turağay
Qəni – 1.gözəl; 2. doymaq

Qəvrə – bıçağı, baltanı, kərkini, itiləyən alət, yiyə
Qəvli – ot adı
Qıpıx – gözü çaş, kirpiyini tez – tez vuran
Qıra – yemiş növü, xırda yemiş
Qırxbuğum – dağlarda, yollarda bitən bitki, yol otu, kətə, qutab bişirmək üçün istifadə olunan bitki növü
Qırxlıx – qoyun qırxmaq üçün istifadə olunan alət, uzun qayçı
Qırışmal – dəcəl, şuluqçu, ovraş, nadürüst, alçaq adam
Qıxmıx – samavar qaynatmaq, ocaq yandırmaq üçün doğranmış kiçik odun taxta yeşikləri
Qıtmıx – 1.bir tikə; 2. kəpək növü
Qıtırrıq – yoxsulluq, məhsul olmayan il
Qındı – horra (xörək adı)
Qolay – pis, keyfiyyətsiz, narahat, namünasib
Qoşa – cüt, yanaşı, paralel dayanan adam, əşya
Qora – dəyməmiş turş üzüm
Qorabişirən – yayın orta ayı – 15 iyuldan 15 avqusta qədər olan dövr
Qotaz – qoyunun, dəvənin, keçinin boğazından asılan rəngli ip topası
Qoyunhəngi – musiqi havası, qara zurna ilə qoyun sürüsünü yavaşıtmaq üçün çalınan hava
Qovurma – payız vaxtı qovrulub qış üçün saxlanan ət
Qu kəkliyi – yüksəklikdə, uca qayaların başında məskən salan, insan fışqırığına oxşar səslər çıxaran iri, qarnının altı ağ tüklə örtülmüş, yaxşı yeməli əti olan quş növü
Quba – çöl ördəyinin balası
Qulac – iki qolun arasındakı məsafə
Qulağagirən – cücü növü
Qulunc – bel ağrısı, əzələ ağrısı
Qundax – körpə uşaq, bələklənən uşaq
Qurra - püşk
Qursax – canlıların mədəsində olan bir hissə
Qurut – şordan, qatıqdan qurudulmuş ağartı növü, yemək
Quyruq doğan ay – avqustun ikinci yarısı
Quzey – gün düşməyən yer
Quzuçu – quzu otaran çoban
Quzulamaq – torpağın nəm, yaş olması nəticəsində uçub dağılmışı, dağılıb tökülməsi

L

Lağar – yekə qarın
Lağarəx – eybəcər, yekə qarın doğulan mal və qoyun balası
Lağım – yer altı yol, oyuq
Lapdan – birdən, qəfildən

Lavaşa – əkin aləti, enli dəmirdən düzəldilən, torpağı yanı üstə çevirən alət; alçanın, almanın lavaş halına salınan turşusu

Lehmə – bataqlıq, çirkli su

Lağərə – yeri iki tərəfli əkmək

Ləj – bədrəftar, tərs, öc

Ləj düşmək – düşmən kəsilmək

Ləmpə – çıraq

Ləms olmaq – süst olmaq

Lətdi – xəstə, çox öskürən

Ləvərə – pis, qaydasından iri, böyük

Ləvin – cürbəcür

Ləçər – abırsız, həyasız qadın

Licim – görünüş, sir-sifət

Liləmar – ılıq.

Lırt – əldən düşmüş, boş, zəif, tənbəl, tör-töküntü

Lomba – parça, koma

Lopa – parça-parça, yumru

Lodur – tənbəl adam

Löhmə – palçıqlı yer

Lül – tamamilə, büsbütün

## M

Mac – kotanın, cütün, xışın dəstəyi

Mağıl – heç olmazsa, yaxşı ki

Mağmın – yazıq, fağır

Majğal – majtutan

Mama – bibi

Mansıra – mühasirə

Marığ – pusqu

Marığa durmaq – pusquda durmaq

Matah – nadir tapılan, qıt

Maya – 1. dırnağın dibi; 2. xəmirə vurulan acı xamra; 3. yeni doğmuş inəyin ilk südü; 4. qatıq hazırlamaq üçün südə vurulan azca qatıq; 5. pendir hazırlamaq üçün ılıq südə vurulan maddə.

Mayıf – şikəst, kor

Mavri – pişik balası

Maz – arabanın təkərlər keçən oxu

Meyxoş – turşməzə

Məfrağ – zəif, xarab olmuş

Mələfə – döşək ağı, prostın, uşaq anadan olduğu zaman büküldüyü parça

Mərək – ot, saman saxlanılan yer

Mərəkə – yığıncaq

Mərəndi – taxıl biçmək üçün işlədilən iri oraq yarım dairəvi oraq
Mil – yoğun tir, ağac
Mişov – kisə, torba
Mitil – döşək, yastıq torbası, ağı
Mırıx – dodağı kəsik adam, dodağı örtülməyən, dişi görünən adam
Mırtdanmaq//Mırtıldamaq – mızıldaya-mızıldaya deyinmək, öz-özünə danışmaq
Mısmax – küsmək, pusmaq, güdmək, gizlənmək: dinib danışmamaq
Mısmırığı sallamaq – qaş-qabaq tökmək
Mozalan – milçək növü, iri milçək, bərk sancan həşərat
Muxuru – dairəvi, hündür və iri alacıx, dəyə, keçə ilə örtülən dəyə, iri keçə alaçıq
Muşqurmaq – dodaqları birləşdirib marçıldatmaqla çıxarılan səs

N

Naxır – sürü halda olan mal, çoxlu mal yığını
Naxırçı – mal otaran şəxs
Naqqal – çoxdanışan, uzunçu
Nal – 1. dirəklərin altında olan ağac; 2. atın, qatırın, ulağın ayağına vurulan dəmir
Nəmxuda – yaxşı, gözəl
Nəcabət – kökü, əsli, nəcabəti
Nənə – 1. ana; 2. ata və ananın anası
Nəs – tərs, uğursuz, pis
Nırğız – xəsis, bədməcaz, söz eşitməz, söz kar etməyən adam
Noxud – dənli bitki növü
Nüşəbağı – tikiş adı

O

Oylar – doğma, tanış yer, yurd...
Oyma – qadın donu
Oymax – yer, yurd, ev
Oyux – quyu, dayanın, daşın, dağın, torpağın deyil, mis, qazılmış, genişlənmiş yeri
Ovxar – kərəntinin, baltanın, kərkinin, bıçağın itilənməsi, ovxar verilməsi

Ö

Öddək – qorxaq
Ölüvay – aciz
Öpgə – ağ ciyər
Örkən – ulağın, atın, qatırın palanını bərkitmək üçün ipdən hazırlanan əşya
Örüş – mal-qara otlayan yer
Öyəc – üçdən artıq yaşı olan erkək qoyun
Öynə//əvnə – vaxt, malın, qoyunun sağıldığı, ot-alaf verildiyi vaxt

P

Pak – təmiz

Papış – 1. heyvanın dırnağı; 2. papaq

Parç – qulplu su qabı, misdən, gümüşdən hazırlanmış su qabı

Pazı – çuğundur, qənd çuğunduru

Pencə – otuz, iyirmi dərz taxıl

Peşqurt – təcili üyüdülən azacıq taxıl, taxılın ilk məhsulu

Pezi – yekə, iri, böyük, yöndəmsiz, kobud, qanacaqsız, qorxmaz, güclü

Pəl vurmax – mane olmaq

Pələ – yanlara doğru əyilmiş buynuzlar

Pəndəm olmax – qəbiz olmaq, düz bağırsağın tutulması

Pər – dəyirmanda su üstünə tökülən daşı fırladan ağac

Pərdi – tavan, dam üzərinə qoyulan ağac, şalban

Pərinc – dənli bitki növü

Pəriş//pərinc – arpayaoxşar dənli bitki

Pərsəng – tərəzini tarazlamaq üçün işlənən əşya

Pərşum – qabaqcadan şumlanmış yer

Pişik quyruğu – buğdanın, arpanın içində bitən darıya oxşar alaq otu, "çılpaq buğda" növü

Posdal – 1. boğazlı, kobud çəkmə; 2. yüngül ayaqqabı, çust

Pota – kök, dolu

Pörşələmək – isti su vasitəsilə əşyanı ütmək, yandırmaq

Pülük – sünnət dərisi

Püstəqarın – azyeyən

S

Sacayağı – üstünə qazan qoymaq üçün dəmirdən hazırlanmış üçayaqlı dayaq

Sağır – yetim, sahibsiz

Sal – 1. qəbir üstündə qoyulan baş daşı; 2. yastı daş

Saldat pulu//vergi pulu – əsgərliyə, hərbi xidmətə getməmək üçün verilən vergi

Saman – xırmanda döyülmüş arpa və buğda küləşinin xırda hissəsi

Sambağı (Səmbəği) – öküzün boynundakı iki samını bir-birinə bağlayan ip

Sami – boyunduruğun üst ağacı, boyunduruğa salınan ağac

Sapılca – qulplu tava

Savırıx – xırmanda döyülmüş dəni yelə verib samandan ayırma

Savlamax – alətlərin ağzını itiləmək

Saya – adi, sadə

Sayıl – dilənçi, qapı-qapı gəzib kömək diləmək

Sazax – soyuq hava, sərt külək

Selov – dərə, çaybasar, sel yuyan yer

Sədəf – 1. dırnaq; 2. düymə növü

Səhlav – bitki növü

Səjin – çin-çin, üst-üstə hörülən ot, taxıl, odun
Səkil –atın ayağında ağ rəngli tük
Səllim – boş, işsiz istifadəsiz
Səlquş – kərənti tiyəsiylə sapını birləşdirən halqa
Səmə – avara, gic, boş-boş gəzən adam.
Sənək – misdən qayrılmış qulplu su qabı
Səpəng – ipdən toxunmuş içində daş qoyulub atan uzun qollu əşya
Sərnic – süd sağmaq və qatıq çalmaq üçün iki qulplu saxsı və ya mis qab
Səy – dəli, kəmağıl
Sidr kafır – insan öləndən sonra meyitin üzərinə səpilən dərman
Silə – dolu, ağızbağız
Sini – 1. iri yastı boşqab; 2. dəyirmi mis padnos
Sivişquliya dəm verm[illegible]aq, əkilmək, aradan çıxmaq
Sırnı – arabanın təkərl[illegible]irildiyi dəmir parça
Sırnış – kotanın torpaq və palçığını təmizləyən ağac
Sortux – pencək
Sotux – bir əmək gününün yüzdə biri
Sulu yer – sulamaq mümkün olan yer
Sulux – 1. su çox olan yer; 2. əlin, bədənin dərisinin köpməsi
Südəcər//südəjər – hər il dalbadal, ildə biri doğulan uşaq
Süysün – boyun

Ş
Şadara – taxılı ələmək üçün alət; iri gözlü xəlbir
Şaqqıldaq – qoyun quyruğu altındakı tüklərə yapışıb qurumuş peyin
Şamlıq – çox otlu yer
Şapalax – sillə
Şahad – dəyirmanda taxıl üyüdən zaman dəyirman haqqı olaraq verilən taxıl, un
Şax – 1. tikanlı kol; 2. Əzik olmayan əşya.
Şil – əlləri, ayaqları iflic olmuş adam
Şit –nadinc, yersiz danışan
Şişək – 2 yaşlı doğmamış qoyun
Şitəngi – dəcəl, adamı incidən, nadinc
Şitənmək – şuluq salmaq, dəcəllik etmək
Şıntır – köhnə paltar, tör – töküntü
Şırram – navalça, novdan, su tökülmək üçün hazırlanan alət
Şumal – hamar, şumşad
Şürə – talan
Şüvən – ağlaşma

T
Tab – taqət, dözüm

Tağ – qarpız, xiyar qovun və s qanadı; sütun, divar, dirək

Tapan – əkin yerini, torpağı yumşaltmaq üçün istifadə edilən kənd təsərrüfatı aləti, dırmıq

Tapqır – atın yəhərinin bir hissəsi, qarınaltısı, qəyiş növü

Tar – 1. toyuq yatan ağac, yer; 2. qar uçqunu, qar sürüşməsi; dərəyə toplanmış qar yığını

Tarp – kiçik təpə

Talaş - həyəcan

Tavlamax – 1. aldatmaq; 2. qovurmaq; 3. ipi əyirmək; 4. hərləmək, fırlamaq

Taya – bir yerə toplanan ot yığını

Taytımaq – azca axsamaq, çaşmaq.

Tapan – əkilmiş, şumlanmış yerin torpağını, kəsəyini əzmək üçün istifadə olunan alət.

Tel – 1. Sap; 2. baş tükü

Ter – iri heybə, iri xurcun

Təhnə – ağacdan hazırlanmış qab, çörək qabı, taxıl qabı, daşdan ovulmuş böyük qab, tabaq

Təlbə – qabal, musiqi aləti

Təng – döngə, dalan

Tənzif – nazik ağ parça, cuna

Təpəl – heyvanın alnında olan "ağ tük" mənasındadır

Təpilmək – soxulmaq, girmək, dürtülmək

Tərrik – yəhərin altından atın belinə salınan yun örtük, keçə

Təs – atın zibili, atın peyini

Tilişkə – 1. doğranan ağacdan, taxtadan, odundan çıxan kiçik, nazik parçalar; 2. barmağa batan taxta parçası

Tir – damın evin üstünə atılan, qoyulan böyük, uzun və yoğun ağac

Tirə – qohum, əqraba

Tığ dənli bitki yığını – 1. xırmanda döyülüb yığılmış ot; 2. sovrulmaq üçün xırmana yığılan döyülmüş həşən (heşən)

Tığ vurmaq – qalaq vurmaq, üst-üstə yığmaq, bir yerə toplamaq

Tıxac – təndirin külfəsinin, tövlənin bacasının ağzına taxılan yasdıq, əşya

Tovlamaq – 1. aldatmaq; 2. sapı əyirmək, ipi hamarlamaq; 3. qarışdırmaq

Töycü – vergi növü

Tuş – 1. yuxu; 2. üz-üzə, eyni istiqamətdə

Tutma – 1. Torpaqda basdırılan ağacın göyərməsi; 2. xiyar növü

Tülü – hiyləgər, oğru, cibgir, əqidəsi məlum olmayan.

Türə içi – 8 kq tutan qabın içi.

Tüstü pulu – hər evə, hər ailəyə qoyulan vergi, naloq.

Tütyə – 1. az tapılan, nadir tapılan, əldə edilməsi mümkün olmayan.

U

Unnux – taxtadan düzələn və çoxlu un tutan yeşik.

Urvat – hörmət.

Urya – çörək bişirilərkən onun üzərinə səpilən un.

Uşağı – ailə, nəsil.

Ü

Üçəm – qoyunun üç quzu doğması

Ün – səs

Üşənmək – qorxmaq, qorxunu hiss etmək, təhlükəni hiss etmək

Üzbəsurət – üzüzə, qarşı-qarşıya, qabaqqabağa

Ütməcə - bişməmiş

V

Vam – bir qayda ilə, az isti ilə, az hərarətlə

Vayğa – yuxu

Vayıs – araqarışdıran, söz gəzdirən, pislik eləməyə çalışan

Vələmir – yulaf

Vəng – abidə, daşdan tikilən abidə, daimi abidə, tükənməyən abidə, möhkəm abidə

Vər – sıra, əkində cərgələrin arası

Vərbəvər – tədricən, sıra-sıra, bir-birinin ardınca

Vərgal – var gəl, get gəl, gəzişmə

Y

Yabı – erkək at, tənbəl erkək at

Yağır – sürtünmə nəticəsində əmələ gələn yara, üstü açılmış, dərisi getmiş yara

Yağır olmaq – yorulmaq, çox işləmək, əldən düşmək

Yağlıqara – cındır ilə, əysi ilə yağ və baldan hazırlanan məlhəm

Yal – at, it və ya maldan ötrü undan, kəpəkdən və digər yeyinti növlərindən hazırlanmış duru yemək

Yal – atın boynunda olan uzun tüklər

Yal – dikin, yoxuşun başı, dağ, təpə

Yalax – çökək yer, yal tökülən yer

Yanpörtü – əyri, yanı üstə

Yapağı – yazda qırxılan yun

Yappa – divara, daşa yapışdırılmış təzək, mal zibili

Yarğan – dərə, qobu, uçurum yer

Yarım put – ağacdan qayırılan//hazırlanan çəki vahidi

Yarpız – su içində və su kənarında bitən tərəvəz, nanəyə oxşayan ot

Yaşmax – üzü gizlətmək üçün örtük

Yatax – çöldə qoyun, mal, at dəvə saxlanılan yer, heyvan yatağı

Yatar – dövlət, qızıl-gümüş, pul

Yavannıx – pendir, yağ, qovurma növündən az-az istifadə etmək, az istifadə olunan yemək növü

Yazı – çöl, səhra, düzənlik

Yeznə – kürəkən

Yelin – heyvan əmcəyi

Yengə – 1. toy vaxtı qız evindən gəlinlə gedən qadın; 2. qardaş arvadı, dayı arvadı, əmi arvadı

Yemlik – yeyilən yabanı bitki

Yük – yorğan döşək yığmaq üçün divarda ayrılmış yer, yığılmış yorğan-döşək

## Z

Zağa – mağara, kaha, daşın, qayanın böyük oyuğu

Zəllə – xəsis, çox xəsis

Zənqun//Zəqqum – çox acı

Zəyərək (Zəyərəx) – bitki növü, darıya, xırda ləpəyə, mərciməyə, oxşayan dənli bitki

Zir – 1. nəlbəki; 2. yerlərin içindən suyun axması üçün kotanla, cütlə çəkilən cızıq

Zındıx – lap qara, qapqara

Zır – qaba, kobud, qanmaz

Zırı – yekə, böyük, qüvvətli, pəzəvəng

Zırpı – yekə, normadan artıq, böyük, qüvvətli, güclü və s.

Zırrama – qanacaqsız, mədəniyyətsiz, etika qaydalarını bilməyən, kor-kobud, dünyadan xəbəri olmayan

Zoddu – qüvvətli, güclü, yekəxana, özünü yüksək tutan və s.

Zol – hissə, şırım, mal, camış, at gönlərinin hissə-hissə, uzununa kəsilmiş, bölünmüş gön, dəri

Zolax – 1. qamçı yeri; 2. əkin yerinin, biçənəyin, otlağın, meşəliyin müəyyən bir hissəsi

Zülü getmək – əldən düşmək, ardı-arası kəsilmədən gülüb yorulmaq, sinov getmək; hədsiz dərəcədə istəmək.

# AŞIQLAR

## AŞIQ CƏLİL

Aşıq Cəlil 1850-ci ildə (təqribən) Dərələyəz mahalının Sallı kəndində anadan olmuşdur. Sallı kəndi Dərələyəzdə aşıq və şair məskəni kimi də tanınır. Burada Aşıq Cəlil, şair Təhməz, Dəllək Xələf, Aşıq Əsəd, şair Al-hüseyn, şair Ağamməd, şair Rzaqulu, Aşıq Qulu, Aşıq Bəhmən, Aşıq Mirzalı, şair Rəhman kimi saz-söz xiridarları yetişmişdir.

Yaşlı adamların dediyinə görə Dərələyəzdən və Azərbaycanın bir çox bölgələrindən, həmçinin başqa ölkələrdən gələn şair və aşıqlar (Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Abdal Gülablı Aşıq Valeh, Aşıq Nəcəf və başqaları) həmişə Sallıda ayaq saxlayar, saz-söz məclisində iştirak edər və sonra gedərmişlər.

Aşıq Cəlil 1918-ci il erməni-müsəlman davasından sonra Şərur rayonunun Dizə kəndində yaşamışdır. Aşıq Cəlilin ilk ustadı Cənubi Azərbaycandan olan Aşıq Abbas olmuşdur (1866-1867). Sonrakı dövrlərdə Aşıq Alının yanına da gedib ondan aşıq sənətinə aid çox şey öyrənmişdir. Lakin onun ən böyük ustadı və həmkarı Aşıq Ələsgər olmuşdur. "Cəlili" havasını da ona Aşıq Ələsgər vermişdir. Əhvalat belə olmuşdur: Göyçənin Çaxırlı kəndində Böyük Bəyin bacısı oğlunun toyu imiş. Bu toyu Aşıq Ələsgərlə Aşıq Cəlil aparırmış. Gecə məclisdə Aşıq Cəlil bir saz havasının üstündə məlahətli səslə oxuyur və oxuduğu bu saz havasına çoxlu xallar əlavə edir. Bu xallar saz havasını qismən yeni bir havaya çevirir. Ələsgər məclisdə deyir ki, ey Göyçə camaatı. Sözdə, hikmətdə biz irəlidəyik, səsdə, saz havalarının ifasında isə Dərələyəz irəlidədir. Bu havanı Cəlil qədər oxuyan və ona yeni-yeni xallar vuran 2-ci adam tanımıram. Qoy bu hava Aşıq Cəlilin nəməri olsun. Deyəsən onun nəməri mənim nəmərimdən yaxşı oldu. Bu əhvalatı mənə Cəlili, Ələsgəri görən, onların məclislərində iştirak edən, 1889-cu il təvəllüdlü atam İbrahim Mirzəli oğlu danışmışdır. Atamın dediyinə görə Aşıq Cəlil ucaboylu, yaraşıqlı, cəsur, hörmətli bir adam olmuşdur. O, Dərələyəzin Ələyəz kəndində məclisdə (gecə) "Misri" havasında oxuyanda nəfəsi lampanı söndürmüşdür. Aşıqların söylədiyinə görə 12 saz havası Aşıq Cəlilin adı ilə bağlıdır. «Cəlili»(«Baş Cəlili», «Orta Cəlili», «Ayaq Cəlili»), «Ağır Şərili», «Yüngül Şərili», «Təzə Naxçıvani», «Qaytarma», «Sallama Gəraylı» («Dərələyəz gəraylısı») və başqaları. Aşıq Cəlil haqqında xeyli xoş xatirələr var. Onlardan bir neçəsini qeyd edirəm.

1. Folkloru toplayan, yaxşı bilən Göyçəli Əli Şamilov yazır: «Aşıq Qulu 1938-ci ildə Bakıda keçirilən ikinci «Aşıqlar Qurultayı»nı və qurultayda Aşıq Əsədin söylədiyi bir xatirəni indi də tez-tez yada salır. Aşıq Əsəd deyirmiş ki, gənc yaşlarında bir dəfə o Aşıq Cəlillə rastlaşıb. Gözəl və şaqraq səsinə, məharətli məclis aparmaq bacarığına güvənən Aşıq Əsəd yaşı 50-ni keçmiş Aşıq Cəlilə laqeyd yanaşıb. Onlar bir məclisdə çalıb oxumalı olublar.

Aşıq Cəlil gözəl ifaçılığı ilə sazda çaldığı havalarla məclis iştirakçılarını ovsunlayıb. Əsədin zil səsi, Koroğludan oxuduğu qəhrəmanlıq mahnıları da Aşıq Cəlilin saz havalarını kölgədə qoya bilməyib. Sadə, səmimi və təvazökar insan olan el sənətkarı məclisdən toplanan vəsaitin çoxunu Aşıq Əsədə verməklə də öz insanpərvərliyini bir daha nümayiş etdirir».

2. Çaxırlı hadisəsi.
3. Ağ kilsə.
4. Ələyəz.
5. Şərur hadisəsi (Ələyəzlə birlikdə).

## *QOŞMALAR*

### HARDASAN

Üzülübdür doğma yurddan ayağım,
Gecələr zülmətdir, sönüb çırağım.
Alınmaz səngərim, arxam, dayağım,
Dilim, ağzım, söhbət-sözüm hardasan?

Soruşmursan dost-tanışdan hardayam?
Sağım yağı, solum düşmən dardayam.
Dörd bir yanım dəmir qəfəs tordayam,
Yetiş dada, canım-gözüm hardasan?

Yapon bu yerlərdə meydan sulayır,
Nijde belimizdə ocaq qalayır,
Yurdumda, yuvamda bayquş ulayır,
Sönür od-ocağım, gözüm hardasan?

Kafir süngüsünə keçir qız-oğlan,
Arpa qayasından qan süzülür, qan!
Qalmadı mahalda ər sənə qurban,
Şəhid olur, oğlum-qızım hardasan?

Civə, Sallı, Ərgəz oda qalandı,
Leyliqaçan, Bülbülölən talandı.
Arpa qan ağladı, sular bulandı,
Açılmaz baharım, yazım, hardasan?

Kəsdilər yağılar bərəni-bəndi,
Odlara qalandı Əmağu kəndi
Bütün Dərələyəz ağlayır indi
Bu dərdə mən necə dözüm, hardasan?

Cəlil deyər gözlərimiz qan ağlar,
Viran oldu abidələr, saraylar,
Sinəm üstə gecə-gündüz haraylar
Xan Abbasım, telli sazım hardasan?

*1918*

### OLAR

Əqlində olmasa ixtiyar iblis,
Sövdada düşmannan bitişmək olar.
Olsa ləyaqətin insanlığa xas
Fələynən, pələynən öpüşmək olar.

Xəstə sağalarmı ağı olmasa,
İgid seçilərmi yağı olmasa
Sinəndə qohumun dağı olmasa,
Qaçarda ceyrannan ötüşmək olar.

Bilərsən qiymətin incinin, zərin,-
Əgər elmin olsa dərindən, dərin,
O Şah Süleymanın, o peyğəmbərin
Taxtına, tacına yetişmək olar.

Cəlilin dilində, qəlbində allah
Keçər günahından, keçər şahənşah.
Böyük ustadlardan dərs alıb vallah,
Ustadlıq adına yetişmək olar.

## BİLMƏRƏM

Dedilər: Çatginən şana-şöhrətə,
Dedim: Çatmamışam, çata bilmərəm.
Dedilər: Ləzzət var arsız ömürdə
Dedim: Görməmişəm, görə bilmərəm.
Dedilər: Sağlam gör görcək hər kəsi
Dedim: Təbiblərlə etmərəm bəhsi.

Dedilər: Cənnətdir namərd kölgəsi
Dedim: Yatmamışam, yata bilmərəm.
Dedilər: Ay Cəlil, gəl eyləmə naz
Dedim: Rüzigara ərkim var bir az.
Dedilər: Mənliyin satmasan olmaz
Dedim: Satmamışam, sata bilmərəm.

## ÜZ OLA
(cığalı təcnis)

Yetən məni kari görür, lal sayır,
Nə var danışmağa hər söz üz ola
Aşıq deyər üz ola,
Gər münasib üz ola.
Sənə çiynində çinin,
Mənə tanrım üz ola.
Astar kimi doğulanlar qoy bilsin,
Gözləməsin gəlib ondan üz ola.

Mənə göstər dərdsiz adam, haq sözdü,
Ləğviyyətə deməzlər ha haqq sözdü.
Aşıq deyər haq sözdü,
Haq özü də haq sözdü.
Yalanı yalvarmasın
Canım alsın haq sözdü.
Mərd igidin mərd övladı haq sözdü
Baxt gətirə üzündə də üz ola.

Yaran var, ay Cəlil, gözlə yaraynan
Yaranmısan, yararlı tək yaraynan.
Aşıq deyər yaraynan
Sal bıçağı yar aynan
Fərhad kimi külüng çal
Sərt qayanı yar aynan
Vaxt deyilsə insan ölməz yaraynan
İstər yara dərin ola, üz ola.

## GÖZƏ GÖRÜNMƏZ
*(Divani-təcnis)*

Dilbilməzin əsiriyəm naçar, gözə görünməz,
Şükürlüyəm, dağ-düyünə açar gözə görünməz.
Mərhəmətsiz nə kişidir mənəm-mənəm deməsin,
Ədəb, ərkan bilməyənlər qaçar gözə-görünməz.

Sanma məni dilacıyam, gəl məni gör qəlbimdə,
Naşı deyil, anlayıram, dürüstü də, qəlbi də,
Ala qarğa, kor yapalaq uça bilməz qəlbimdə,
O qartalın layiqidir uçar gözə görünməz.

Gəl Sallılı Cəlili sən qana salma nahaqdan,
Xəbərin yox nə xaliqdən, nə şahiddən, nə haqdan
Bax özünə, bax özümə ayır haqqı nahaqdan,
Sən seçməsən ay kəm insaf, seçər gözə görünməz.

## AŞIQ QƏHRƏMAN

Aşıq Qəhrəman Dərələyəzin Hors kəndindəndir. O, ucaboylu, cüssəli, sarıbəniz, məğrur baxışlı, təmkinli bir adam olmuşdur. Onun anadan olduğu tarix məlum deyil. Amma o Aşıq Cəlilin şagirdi olmuşdur. Yaşlıların dediyinə görə o Aşıq Cəlildən təxminən 15-20 yaş kiçik olmuşdur (Aşıq Cəlil də təqribən 1850-ci ildə anadan olmuşdur).

1905-ci il erməni-müsəlman davasında Aşıq Qəhrəman böyük qəhrəmanlıqlar göstərmiş və həyat yoldaşı bu davada həlak olmuşdur. Bundan sonra o, Horslularla qohum olan Qovuşuqlu Xudaverdinin qızı ilə evlənmişdir. Qadının adını xatırlayan yoxdur. Lakin onun 4 qardaşı (Kərim, İrəhim, Müseyib, Əsgər) və bir bacısı (Məsmə) həmişə Qovuşuq kəndində yaşamışdır. Onlardan Museyib kişi, Əsgər kişi və Məsmə qarı mənim yadımdadır.

Aşıq Qəhrəman ocağında çoxlu aşıqlar, musiqiçilər yetişmişdir. Oğlu Aşıq Paşa da atası kimi məşhur aşıqlardan biri olmuş və onun oğlanları Sultan (tar), Yaqub (saz, qabal, oxumaq), Siyanfər (kamança) bu ənənəni davam etdirmişlər. Deyilənlərə görə "Qəhrəmani" havasını onun qədər yaxşı çalan və yaxşı oxuyan ikinci bir adam olmamışdır. O, "Qəhrəmani" havasının yaradıcısı hesab olunur. Məhz buna görə də Aşıq Ələsgər bu havanın onun adı ilə deyilməsini məsləhət bilmişdir.

Aşıq sənətini bilənlər söyləyirlər ki, aşıqlar öz şəyirdlərinin tam yetişib yetişmədiyini müəyyənləşdirmək üçün hörmət əlaməti olaraq birlikdə ustadlar ustadı Aşıq Ələsgərin yanına gedər, onun son sözünü, xeyir-duasını eşitmək istəyərlərmiş. Sallılı Aşıq Cəlil də bir gün Aşıq Qəhrəmanı götürüb Göyçəyə, özünə ustad, dost və qardaş hesab etdiyi Aşıq Ələsgərin yanına gedir. Ağkilsəyə xəbər yayılır ki, Aşıq Cəlil gəlibdir. Yavaş-yavaş camaat yığılır. Əvvəlcə ustadlar çalıb-oxuyur. Bir qədər sonra isə Aşıq Cəlil meydanı Aşıq Qəhrəmana verir. Qəhrəman ustaddan üç dəfə üzr istəyib "Divani" çalır. Sonra "Osmanlı divanisi", sonra da zil havalara keçir. "Misri", "Keşiş oğlu", "Koroğlu" havalarını çalıb oxuyur. Aşıq Ələsgər görür ki, bu, aşıq kimi yetişmişdir. Yaxına gəlib Aşıq Qəhrəmanın üzündən öpür. Bu da imtahandan beş almaq deməkdir. Məclisin

sonuna yaxın Aşıq Qəhrəman yaratmış olduğu, "Qəhrəmani" havasını çalır və zil zəngulәsini işə salır. Ustad Ələsgər bu mənzərəyə heyran qalır, sevindiyindən gözü yaşarır. Üzünü Aşıq Cəlilə tutub deyir: "Oğul, söz xiridarları bizdə, havacat xiridarları sizdədir. Qoy bu havacat da sənin bacarıqlı şəyirdin Qəhrəmana ad olsun". Odur ki, bundan sonra həmin saz havası "Qəhrəmani adlanır.

Əfsuslar olsun ki, Aşıq Qəhrəmanın yazdığı qoşma, gəraylı, təcnis, ustadnamə və müxəmməsləri it-bata düşdüyündən burada onlardan az qismini oxuculara təqdim edirik. (Bax: Aşıqlar, Bakı, 1938; Azərbaycan aşıqları və el şairləri, II cild, Bakı, 1984). Qohumlarının dediyinə görə o ömrünün son dövrlərində Şərurun Qarxun kəndindəki qohumlarının yanına gedib orada yaşamışdır. Onun əlyazmalarından məlumatı olanlar folklor institutuna məlumat versələr böyük bir xeyirxah iş görmüş olarlar.

## *GƏRAYLILAR*

### ELLƏR

Gəlib çatıb yaz ayları,
Köç-köç olub ağır ellər.
Hər yanda səs-səsə verib,
Ötüşürlər tuti dillər.

Gözəllər gedib bulağa,
Batıblar yaşıla, ağa,
Çıxıblar əlvan yaylağa,
Sayrışırlar siyah tellər.

Obalar düzülüb yola,
Qəflə işlər sağa, sola,
Ətir verir nərgiz, lala,
Açılıb qonçalar, güllər.

Xublar yeriyirlər sana,
Ala gözlər susar qana,
Çalxanır yaşılbaş sona,
Bulanır dalğalı göllər.

Qızlar gəlir dəstə-dəstə,
Qəddi əlif, boyu bəstə,
Qəhrəman alıb qol üstə,
Xoş saz çalır şümşüd ellər.

### TƏRLANIM

Dün güzarım düşdü yara,
Gözəl, havalı tərlanım.
Saqın, uyma zalım sara,
Gözəl, havalı tərlanım.

Aşıq qonaq eləmədin,
Bir xoş gəldin, söyləmədin,
Bağrım başın teyləmədin,
Gözəl havalı tərlanım.

Boylanırsan yanı-yanı,
Gözlərinin mən qurbanı,
O verdiyin peyman hanı?
Gözəl, havalı tərlanım?

Gözəlliyin bildirirsən,
Dostlarını güldürürsən,
Axır məni öldürürsən,
Gözəl, havalı tərlanım.

Ağrın alım qoşa kaman,
Çəkdirmə dostuna aman,
İltimas elər Qəhrəman,
Gözəl, havalı tərlanım.

## *QOŞMALAR*

### YERİNDƏDİR

Dost məzəmmətindən incimək olmaz,
Əgər onda namus, ar yerindədir.
Gözlədiyin karvan çoxdan keçibdir,
Sanma ki, vəfasız yar yerindədir.

Xəstənin təbibdir, dağdır çarəsi,
Gözələ şöhrətdir onun vəfası.
O nə dostdur səndən vardır yarası,
Eyləyir əl-aman, zar yerindədir?!

Qəhrəman dost üçün sərdən keçibdir,
Gahı şərbət, gahı zəhər içibdir.
Sən deyən bülbüllər çoxdan uçubdur,
Ötüşür budaqda, sar yerindədir.

### SEVDİYİM

Məndən uzuq gəzən Zərnişan xanım,
Eləmə baxtımı qara, sevdiyim,
Sana qurban olsun bu şirin canım,
Vurma ürəyimə yara, sevdiyim.

Əllərindən dolu badə içmişəm,
Yar yolunda bu canımdan keçmişəm,
Gözəllər içində səni seçmişəm,
Məni atma sən kənara, sevdiyim.

Kirpiklərin cəllad, gözlərin yağı,
Çəkirsən qəlbimə düyünü, dağı,
Qoynunda behiştin o gözəl bağı,
Vermə qızıl gülü xara, sevdiyim.

Bizim bağda sallanıbdan gəz gözəl,
İnci, sədəf ağ buxağa düz gözəl,
Məclisimdə sağa, sola süz gözəl,
Salma məni qəm-qubara, sevdiyim.

Qoymadın hüsnünə baxıb qanam mən,
Necə qıydın bu odlara yanam mən,
Səndən dönməm, əyri telli sonam mən,
Elə bu dərdimə çara, sevdiyim.

Mən nələr çəkmişəm yar səndən ötrü,
Bülbül fəqan elər çəməndən ötrü,
Sən də bir hövqə gəl qız, məndən ötrü,
Çəkmə aşığını dara, sevdiyim.

Səndən ayrı necə dözər Qəhrəman,
Qaşına, gözünə olubdu heyran,
Gen gəzmə dostundan, sevdalı ceyran,
Mənlə yaxın olsun ara, sevdiyim.

## DÜŞÜBDÜ

Bir sonam qalxıbdı göl kənarından,
Havalanıb burda tora düşübdü.
Sevdiyim nazlı yar əğyara uyub,
Bülbül güldən qalxıb xara düşübdü.

Ayıla bilmərəm yarın xasından,
Doymaram qaşının təmənnasından,
Keçməyir ürəyim qəm dəryasından,
Həsrət canım ahi-zara düşübdü.

Sən gül qonçasına mən oldum bağban,
İnsaf et çəkdirmə dostuna aman,
Qoymadın ki, məndə qala din-iman,
Meylim bağçadakı bara düşübdü.

Dost sirrimi seyrağıba deyibdi,
Onun üçün əlif qəddim əyibdi,
Çürüdüb qəlbimi bu dərd, yeyibdi,
Sinəm doxsan yerdən nara düşübdü.

Qəhrəman, mətləbin canana söylə,
Xəncər al bağrımın başını teylə,
Dərmansız dindirmə bir dərman eylə,
Gözüm qoynundakı nara düşübdü.

## BİLMƏDİM

Gözüm düşdü bir gözəlin qaşına,
İstədi meylimi bilə, bilmədim.
Məhbubluqda yoxdu yar bərabəri,
Hardan düşüb bizim elə, bilmədim.

Üzükdən keçir bax o nazik beli,
Zalım sözlərimə demədi bəli,
Az qaldım dərdindən mən olam dəli,
Axdı gözüm yaşı silə bilmədim.

Darayıb telini gərdənə düzdü,
Ala gözləriynən dostunu süzdü,
Sitəmkar bağrımın başını üzdü,
Çəkdi məni fitnə, felə, bilmədim.

Sallana-sallana qarşıdan keçdi,
Neştər qaynaxları canımı deşdi,
Ömrümü herçayı budadı, biçdi,
Dostun öhdəsindən gələ bilmədi.

Qəhrəman bulmadı bir vəfalı yar,
Bu düşgün halıma güldü ol əğyar,
Bada getdi yarla etdiyim ilqar,
Düşdü sirr sözlərim dilə, bilmədim.

# AŞIQ FƏTULLA

Aşıq Fətulla İbad oğlu Allahverdiyev 1910-cu ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Novlar kəndində (Əzizbəyov rayonunda) İbad kişinin ailəsində anadan olmuşdur. Atası İbad kişi Vətəndaş müharibəsində iştirak etmiş və 1917-ci ildə müharibədə həlak olmuşdur. İki oğlu-Fətulla, Abutalıb və bacıları Zərnişan atadan yetim qalırlar.Ailənin bütün yükü böyük oğul Fətullanın üzərinə düşür.1917-ci ildən 1928-ci ilə kimi aşıq Fətulla muzurluq ilə məşğul olmuşdur. Kollektivləşmə dövründən isə, yəni 1928-ci ildən 1932-ci ilə qədər xüsusi təsərrüfat ilə məşğul olmuşdur. Naxçıvanın Şıxmahmud kəndindən olan anası Gülşən, qardaşı və bacısı ilə birlikdə Naxçıvana köçüşdür. Saz, söz xiridarı olmuş ulu babası el sənətkarı, söz bilicisi aşıq Haqverdinin ocağından nəfəs alan aşıq Fətulla 1928-ci ildən saz götürüb aşıqlıq etmişdir. Şıxmahmudda ustadı Aşıq Cəfər olmuşdur.

Aşıq Fətulla 1938-ci ildə Azərbaycan aşıqlarının ikinci qurultayına nümayəndə seçilərək orada iştirak etmişdir. O, Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə dahi Üzeyir bəylə, Aşıq Əsədlə birgə iştirak etmişdir. Səsi qrammafon vallarına yazılıb və indi də Səsyazmalar arxivində saxlanılır. SSRİ Elmlər Akademiyası- Azərbaycan Filialı Nizami adına Dil və Ədəbiyyat İnstitutunun 1939-cu ildə çap olunmuş «Aşığın səsi» adlı kitabda onun xeyli qoşma, divani, muxəmməs, təcnis və s. şerləri çap olunmuşdur. Aşıq Fətulla dövlət tərəfindən və şəxsən böyük Üzeyir bəyin imzası ilə fəxri təltiflərə layiq görülmüşdür. Azərbaycan Dövlət Konservatoriyası yanında təşkil edilmiş elmi-tədqiqat musiqi kabinəsinə başçılıq edən məşhur xalq müğənnisi Bülbül də aşıq Fətulla yaradıcılığına nəzər yetirmişdir. O 50-dən artıq saz havasının mahir ifaçısı kimi tanınmışdır. Bacısı oğlu Aşıq Mehdi deyirdi: O «Qurbani», «Tahir Zöhrə», «Əsli Kərəm», «Aşıq Qərib», «Novruz və Qəndab», «Əmrah» kimi dastanları, Aşıq Alının Türkiyə səfərini , Ələsgərin Naxçıvan səfərini, Ağ Aşığın, Xəstə Qasımın, Abbas Tufarqanlının bir çox qoşmalarını məclislərdə məharətlə ifa edirmiş.

Aşıq Fətulla 1942-ci ildə Böyük Vətən müharibəsinə getmiş və Son döyüş yeri Xarkov şəhəri ətrafı olmuşdur. 1923-cü ildə Dərələyəzin Her-her kəndində anadan olmuş bacısı oğlu Mehdi Ataş oğlu Mehdiyevin (Aşıq Mehdi) bir el sənətkarı, el şairi kimi yetişməyində dayısı aşıq Fətullanın böyük təsiri olmuşdur. Ailəli idi. Bir oğlu – Nəsrəddin. Bu yaxınlarda Gəncədə vəfat etdi. Aşıq Fətullanın sazı indi də qardaşı Abutalıbın Tərtər rayonundakı evindədir. Qardaş və bacısı hər ikisi rəhmətə gedib. Qrammafon valında «Göyçə gülü» saz havasında Aşıq Fətullanın öz ifasında lentə yazıbdır.

Aşıq Fətullanın bütün əlyazmalarını, külliyatını anası Gülşən və bacısı Zərnişan arvad saxlayırmış. Ailə 1948-ci ildə Dərələyəzdən deportasiya olunanda aşıq Fətullanın bütün yazdıqları orada qalıb və indiyə qədər taleyi məlum deyil. Onun bacısı Zərnişan sinədəftər bir qadın idi. Aşıq Fətullanın bir çox şerlərini sinədən əzbər deyərdi.

Mən (Həsən Mirzəyev) bunun canlı şahidiyəm.Tərtərin Şəhləbad kəndində mən Fətullanın bacısı, Aşıq Mehdinin anası Zərnişanı dönə-dönə dinləmişəm. Aşıq Fətullanının yazdığı qoşma və təcnisləri, bayatıları əzbər deyirlər. Təəssüf ki, onun dedikləri lentə alınmadı. O deyirdi ki, aşıq Fətullanın yazılarının əksər hissəsi Dərələyəzdə və bir qismi isə Naxçıvanın Şıxmahmud kəndində qalmışdır.

Bəzi mənbələrdə (Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru, Bakı, 1994, səh. 316) Aşıq Fətullanın doğulduğu yer və il dəqiq göstərilməmişdir. Orada göstərilir ki, Aşıq Fətulla 1920–ci ildə Babək rayonunun Şıxmahmud kəndində doğulmuş, 1942-ci ildə Böyük Vətən müharibəsində həlak olmuşdur.

Görünür Aşıq Fətulla haqqında məlumat verən adam geniş bilgiyə malik olmamışdır:

1. Aşıq Fətulla 1920-ci ildə deyil, 1910-cu ildə doğulmuşdur..O,1937-ci ildə Moskva dekadasında Aşıq Əsədlə birlikdə Stalinin qarşısında çıxış edəndə onun 17 deyil, 27 yaşı olmuşdur.

2. Aşıq Fətulla Naxçıvanın Şıxmahmud kəndində yox, Dərələyəzin Herher kəndində anadan olmuşdur. O, Dərələyəzin Herher kəndində doğulan, 1949-cu ildə Tərtərin Şəhləvad kəndinə departasiya olunan şair və Aşıq Mehdinin doğmaca dayısıdır.

Aşıq Fətullanın dədə-babaları da tarixən (1703-1730) Dərələyəzin Herher «Hərhərəs» kəndində yaşamışdır. Ziya Bünyadov və Hüsaməddin Məmmədovun «Naxçıvan sancağının» müfəssəl dəftəri adlı kitabın « Dərələyəz (nahiyyəsinə) tabe olan Hər-hər kəndi» başlıq altında verilmiş şəxslər Aşıq Fətullanın və Aşıq Mehdinin babalarıdır. «Xudaverdi Pirverdi oğlu–bennak, Qasım Haqverdi oğlu-bennak, Novruz Allahverdi-oğlu-bennak» (Bax: Ziya Bünyadov və Hüsaməddin Məmmədov –Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı,1997 səh.308-309).

Aşıq Mehdi öz şerində babasını belə yada salır:

*Aşıq Cəlil aşıqların atası,*
*Aşıq varmı Fətullaha çatası*
*Aşıq Haqverdidi nənəm butası,*
*Bəhmən Dərələzdə, söz Dərələzdə.*

*Herherdə doğuldum, yetirdi zaman*
*Mayam Bulaqlardı, anam Zərnişan,*
*Qardaşım, yaxın gəl söyləyim pünhan,*
*Mehdiyə Şərbəti süz, Dərələzdə.*

*(Aşıq Mehdi.)*

Naxçıvan sancağında göstərilmiş Allahverdi adı Aşıq Fətullanın ulu babasıdır.

## GƏRAYLILAR

### GƏLİN

Ürəkdə pünhan dərdin var
Gərək deyim sizə gəlin.
Əlini ver sən əlimə,
Gəl sən gedək bizə gəlin.

Baxışından od tökürsən,
Ortalığa qan əkirsən.
Naz ilə vəsmə çəkirsən
Qaş altından gözə gəlin.

Sənsən ariflərin canı,
Sinəsindəki gövhər kanı.
Fətulla tək aşıq hanı
Bu cəbirə dözə gəlin.

## *QOŞMALAR*

### MEYDANI

Aşıq gərək ələ ala sazını,
Çala sinəsində, süzə meydanı,
Həqiqət kəlməsi dilində əzbər,
Qalmaya məəttəl, üzə meydanı.

Qəvvas olan ləl çıxardar dəryadan,
Bənna olan himi qazar binadan.
Aşıq odu sözü əzbər sinədən
Cəvahir kəlməyə düzə meydanı.

Fətullaha kömək olsun ərənnər,
Mərd igiddir mətləbini verənnər.
Mənəm-mənəm deyib cəhlə girənnər
Deyə qabax verdim sizə meydanı.

### GÖZƏL

Bir ah çəksəm, dağı-daşı əridər,
Bəsdi zinət verdin camala, gözəl.
Hər baxanda od salarsan könlümə,
Dəhanın batıbdı xub bala, gözəl.

Qədrini bilənsən gövhər, zərin də,
Qızılgül əlində, cığa sərində.
Ağlın, huşun, söz-söhbətin yerində,
Afərin səndəki kamala, gözəl.

Şirinsən dünyada hər bir insandan,
Vərqadan, Gülşadan, Yusif- Kənandan.
Yanağın lalədi, olubdu xəndan,
Möhtacam ağ üzdə o xala, gözəl.

Əhvalım pozğundu, halım pərişan
Eşqdən ürəyim olubdu şan-şan.
Çəkirəm həsrətin, bilginən pünhan,
Bir yol rəhmin gəlsin bu hala, gözəl.

Nagah aldın Fətullahın canını ,
Yox kimsəsi ala səndən qanını.
Almısan əlimdən din-imanımı,
Döndərdin qəddimi sən dala, gözəl.

### ZÜLFLƏRİN

Bir ala gözlüyə nəzər eylədim,
Darayıb tökübdü yana zülflərin,
Halqa-halqa, dəstə-dəstə, çinbəçin,
Yaxşı düzüb dal gərdana zülflərin.

Gecə - gündüz gözüm gəzdi, aradı,
Ah çəkməkdən bağrım başı yaradı.
Gecəm sitəmlidi, günüm qaradı,
Döndərib könlümü qana zülflərin.

Fətullah Hər cövrü cəfaya dözər,
Nazı qəmzələrin bağrımı üzər.
Bəxtəvər başına, sinəndə gəzər,
Arayar,axtarar şana zülflərin.

## BƏNZƏR

Sevdiyim, bənzərsən Misir şahına,
O kaman qaşları hilala bənzər.
Düz on dörd gecəlik aydı camalın
O şəhla ğözlərin piyala bənzər.

Buxağında əlvan-əlvan gülləri,
Vardı mənim kimi çox bülbülləri,
Məzədi ləbləri, şirin dilləri,
Bu qəndi-şəkərə, o bala bənzər.

Bir sənsən, özgəyə gəlmir gümanım,
Sirrim, həm sirdaşım, dinim, imanım.
Fətullaham sənsən əzəli-canım
Sən getsən, işlərim zavala bənzər.

## İSTƏR KÖNLÜM

Baharın xoş fəsli güllər açanda
Nərgiz, bənövşəli yaz istər könlüm.
Tovuz tamaşalı, tərlan duruşlu
Qəmzəsi can alan qız istər könlüm.

Könlüm bir pay dilər sinəsində nardan,
Camalın ötədi yaylaqda qardan.
Bil ki, əl çəkmərəm vəfalı yardan,
Yarınan qolboyun gəz, istər könlüm.

Dindirsən can deyə, cana can düzə,
Hər vaxt aşiqinin cəbrinə dözə.
Yanaqlar piyalə, dodaqlar məzə,
Onda işvə, qəmzə, naz istər könlüm.

Sevdiciyim, bürünmüsən ala sən,
Bu sınıq könlümü alsan ələ sən.
Götürüb qələmi alsan ələ sən,
Mən deyim, dərdimi yaz, istər könlüm.

Fətullah mayıldı cığalı telə
O qaymaq dodağa, o şirin dilə.
Xoş yeriyə, xoş danışa, xoş gülə,
Bu nişanlar onda duz istər könlüm.

## YAN BARI

Beymürvət, beyinsaf, əl çək zülümdən,
Şərik ol dərdimə, alış, yan barı.
Məcnunam, üzündən gəzirəm düzdə,
Soruş bu dərdimi, sən də qan barı.

Salmışam meylimi qönçə güllərə,
Eyləmə bülbülü bağrıqan barı.

İnsafdımı aşıq düşsün çöllərə,
Car etdim vəsfini cəmi ellərə.

Uca dağ başını qucan qar olar,
Bülbülün qisməti ahu zar olar.
Qönçənin ətrini çəkən xar olar.
Olma seyraqubla mehriban, barı.

Ötüşən bülbüllər qonar budağa,
Bir canım var, olsun yara sadağa.
İnsaf əhli dözə bilməz bu dağa,
Eyləmə könlümü pərişan barı.

Fətullahın canı olubdu yarı,
Tərlansan qoynuna almaynan sarı.
Mən əziz tuturam əhdi, ilqarı,
Az eylə aşiqi imtahan, barı.

## ALLI QIZ

Xətrinə dəyməsə, bir söz deyərəm,
Zər-ziba geyinən yaşıl, allı qız.
Ətirli buxağın gül qönçəsidi,
Ləbi şirin, dodaqları ballı qız

Ürəyim açılar olsan mənə yar,
Çıxar bu könlümdən, gedər qəm-qubar.
Eşqindən olubdu dünya mənə dar,
Şirindil, şirinsöz, xoş xəyallı qız.

Fətullah aşıqdı, ilqarda düzdü,
Oxların sinəmdə əllidi, yüzdü,
Başına döndüyüm ay ala gözlü,
Ağ buxağı danə-danə xallı qız.

## ƏSMƏRİM

Vəsvini salıram dilə , dastana
Ay qabaqlı, qəmər üzlü Əsmərim
Bir söz deyim sənə olsun bəhanə
Gül əndamın, boyun düzdü Əsmərim.

Aşıqlar şövq alır sənin qəmindən
Xoşlanıram ədəbindən, dilindən,
Danışanda şəkər damır ləbindən
Xoş ədalı şirin sözdü Əsmərim.

Fətullahı saldım qəm dəryasına
Yanağın bənzəyir dağ lalasına
Dodaqların batıb balın tasına
Qaş oynatdı, gözün süzdü Əsmərim.

## DODAQ-DODAĞA

Bahar fəsli, gül mövsümü gələndə
Ötüşər bülbüllər, qonar budağa.
İki həsrət bir-birini qucanda
Qoyarlar ləb-ləbə, dodaq–dodağa.

Pünhan-pünhan danışırlar, gülələr,
Şümşad bilək, şana barmaq, gül əllər.
Qaydadı, gözəldən dilək diləllər,
Aşıqlar dilinə olmaz qadağa.

Fətullah eşqindən şirin güləndə,
Hərdən yar yanına punhan gələndə.
İşarətlə dərdi-dilin biləndə
Canım olsun belə dosta sadağa.

## DAŞ-DAŞA

Aşığın sinəsi ləldi, gövhərdi,
Yendirsən sındırar ləli daş daşa.
Aşıq hiddətiynən girsə gərdişə,
Layıq deyil qeyrisiynən daş-daşa.

Əsil aşıq özün oda yandırsa,
Həqiqəti anlayana qandırsa,
Aşıq səni qeyri halda dindirsə,
Layiqdi sal oda, yandır ataşa,

Fətullah da özün saldı dərinə,
Can Qurban eylədi dostun sərinə.
El borcunu yaxşı yetir yerinə,
Əyləşənlər desin əhsən, yüz yaşa!

## KÜRDÜN CEYRANI

Səfər etdim yolum düşdü obana
Ağlım aldın başdan, a kürd ceyranı.
Cedər olsan, mən də gəlləm hər yana,
Vəsvinə deyərəm təcnis divanı.

Bir dənə xalın var alnında sənin,
Gülünün ətri var canında sənin.
Bir gecə mehmanam yanında sənin,
Hörmət ilə gəl saxla mehmanı.

Gözəllər sultanı, mələklər şahı,
Səndəki insafa qıllam pənahı.
Dolandır başına mən Fətullanı,
Görən desin qəbul olsun qurbanı.

## QIZ

Xətrinə dəyməsə bir söz deyərəm,
Zər-ziba geyinib yaşıl, allı, qız.
Ətirli buxağı gül qönçəsi tək
Ləbi şirin, dodaqları ballı qız.

Könül istər mənə olasan sən yar,
Könlümdə qalmasın heç vaxt ahu-zar.
Eşqindən olubdu dünya mənə dar
Şirin dil, şirin söz, xoş xəyallı qız.

Fətulla ilqarda həmişə düzdü,
Dərdin bu sinəmdə əllidi, yüzdü
Başına döndüyüm ay ala gözdü,
Ağ buxağda dənə-dənə xallı qız.

## DAĞ-DAĞA

### (cığalı təcnis)

Dolandım dünyanı nəzərdən keçdi
Görürsən ki, söykənibdi dağ-dağa.
Mən aşığam dağ-dağa
Dayaq durub dağ-dağa.
Fələk vurub çal-çarpaz
Bax sinəmdə dağ-dağa
Binadan ki, əsli kökü olmasa
Başa gəlməz söykəsən də dağ-dağa.

Mən tərpəndim hifsi oldum bəladan
İrəbbim, irsəlim qövlü bəladan
Mən aşiqəm vəladan,
Oxu dərsin vəladan,
O qədər ki narındı
Deyən keçib vəladan
Hər gül gözəl olmaz dağda laladan,
Çal-çapaz köksündə başdan dağ-dağa.

Fətulla dərsini alıb əbcətdən,
Dərs alıb, oxuyub əlif əbcətdən,
Mən aşiqəm əbcətdən,
Oxu dərsin əbcətdən,
Eşq oduna yanan gül
Gərək keçsin cəsətdən.
Aşıqla elmində hər söz, sənətdən,
Köksündə hal ola, dura dağ-dağa.

## AŞIQ BEHBUD

Alıyev Behbud Bəşir oğlu 1916-cı ildə Ermənistanın Dərələyəz mahalının İstisu kəndində anadan olmuşdur. İbtidai təhsilini doğma kəndində, yeddillik təhsilini isə qonşu Cul kəndində almışdır. Bir müddət Dərələyəzin müxtəlif kəndlərində sinif müəllimi, hesabdar köməkçisi, ferma müdiri, kolxoz sədri işləmişdir.

1942-ci ildə cəbhəyə yola düşmüş, Tiflisdə kiçik zabitlər kursunu bitirmiş, cəbhədə səhra komandiri olmuş, kapitan rütbəsinədək yüksəlmişdir. El arasında Aşıq Behbud kimi tanınan sənətkar saz, tar, zurna, balaban kimi musiqi alətlərinin mahir ifaçısı olmuşdur. Onun şerləri hələ sağlığında dillər əzbəri olmuş, müxtəlif mətbuat səhifələrində dərc edilmişdir.

1975-ci ildə vəfat etmişdir.

## *GƏRAYLILAR*

### AĞSU

Yenə gəldi bahar fəsli,
Qonaq gəldik sənə, Ağsu.
Çiriş ilə bənövşəni,
Yığdıq dənə-dənə, Ağsu.

Axar suyu süddən ağdı,
Dörd bir yanın dərə-dağdı.
Nə qədər ki, canım sağdı,
Gəl ol mənə ana, Ağsu.

Ötür torağay quşların,
Göyərib yal-yamacların,
Yenə gəlir sirdaşların,
Qapına mehmana, Ağsu.

Bir tərəfin Arpaçayı,
Gözəllikdə yoxdu tayı.
Üç ay yazı, üç ay yayı,
Bənzəyirsən, xana, Ağsu.

Murad təpədi bir yanı,
Neçə dərdlərin dərmanı,
Behbud, həm Nərimanı,
Gətirdin imana, Ağsu.

## GETDI

Bulaq üstə duran qızın,
Saçları xurmadı, getdi.
Mətləb istədim diləyəm,
Söhbətə durmadı, getdi.

Bilmirəm eşqin sirrini,
Qoynunda yumru görünü,
Qoşa narından birini,
Mənə də qıymadı, getdi.

Gəlməsin qada-bəlaya,
Camalın oxşatdı aya.
Sailəm, gəlmişdim paya,
Payımı vermədi getdi.

Behbudun uçub tərlanı,
Canımdan əzizdi canı,
İstədim olam qurbanı,
Qurbanı görmədi. Getdi.

## *QOŞMALAR*

## NECOLDU

Səndən xəbər alım, ay Murad təpə,
Səndə dövran sürən canlar necoldu?
Yamaclardan gül-çiçəyin dərənlər,
At oynadan növcavanlar necoldu?

Bahar fəsli ağır keçir toyların,
Qıj-qıj edir boz-bulanıq çayların,
Gəzdim oylağını, yoxdu toyların,
Durna telli məhtabanlar necoldu?

Gahdan bürünürsən yaşıla-ala,
Yaylağında gəzən məst ola,
Buludtək tökəndə zülfünü dala,
Şahmar zülfün yan açanlar necoldu?

Payız düşüb, yenə üzün bozarıb,
Dörd yanım duman, çiskin, çən alıb,
Köçüb ellər. Yurdun-yuvan boş qalıb,
Ağ sürülü xan çobanlar necoldu?

Behbudun qəlbində çox qanlar axır,
Qalmayıb nə sürü, nə də ki naxır.
Ayrılıq çağları yandırıb yaxır,
Dağ oynadan pəhləvanlar necoldu?

*07.VI.1962*

## SAZIMDI

Məclis-mərəkəni şövqə gətirən,
Əlimdə çaldığım telli sazımdı.
El içində xeyir işlər bitirən,
Əlimdə çaldığım telli sazımdı.

Gecə-gündüz arifləri güldürən,
Dost-aşnanı şirin dillə dindirən,
Aşiqlərin ürək sözün bildirən,
Əlimdə çaldığım telli sazımdı.

Sınıq könülləri abad eyləyən,
Vəfalı dostları şən, şad eyləyən,
Həqiqəti, düzü isbat eyləyən,
Əlimdə çaldığım telli sazımdı.

Döyüş meydanında mərdana duran,
Cəbhələr dağıdan, ordular yaran,
Axır mənzilə də Behbudla varsan,
Əlimdə çaldığım telli sazımdı.

## DÖZƏSƏN GƏRƏK

Osman qağa, oçağına gəlmişəm,
Ad-sanına, sorağına gəlmişəm,
Sarıyerdən Şahdağına gəlmişəm,
Mənim bu dərdimi yazasan gərək.

Vurğundan qalmısan bizə yadigar,
Səndə cəsarət var. Səndə hünər var.
Zəngəzur, Dərələyəz nə qədər nə var,
Meydanda nər kimi qızasan gərək.

Behbud deyir haqqa tutdum üzümü,
Köçürtdüm kağıza ürək sözümü,
Babalardan öyrənmisən dözümü,
Mənim də cəfama dözəsən gərək.

**21.09.1971**

## GÖYÇƏ MAHALI

Car çəkirəm səsim düşsün hər yana,
Şairlər ocağı Göyçə mahalı.
Hörməti var gələn əziz mehmana,
İgidlər oylağı Göyçə mahalı.

Kəsir qonağına əmlik quzunu,
Yazıram, deyirəm sözün düzünü,
Dədə Ələsgərin ustad sözünü,
Xayır ölkələrə Göyçə mahalı.

Ürəkdən sevirəm Miri qardaşı,
Dilimin əzbəri, ürək sirdaşı,
Yolunda qurbandı Behbudun başı,
Pozulmaz növrağın Göyçə mahalı.

**10.IV.1965**

## CERMUK
(İstisu)

Hüsnünə heyrandır gələn mehmanın,
Meşədir, çiçəkdir, dağdı dörd yanın,
Suyun dərmanıdır hər xəstə canın,
Adın dildən-dilə dolaşır, Cermuk..

Dağ gözəli dağda məskən salıbdır,
Min-min səyyah gəlib qonaq qalıbdır,
Aşıq mahnı qoşub, saz da çalıbdır.
Gözəllik hüsnünə yaraşır, Cermuk.

Bir yanın yaylaqdır, bir yanın aran,
Şərbətdir süzülən bulaqlarından,
Həzz alır içəndə qoca, həm cavan,
Aşıq Behbud sənə söz qoşur, Cermuk.

**22.VII.1964**

## HARA HEY

Qadir Sübhan, sənə şikayətim var,
Yandı yazıq canım ataşlara hey.
Nə müddətdi xəstə könlüm arzular,
Tamarzıyam yar qoynunda nara hey.

Əzəl baxtım belə yazıb ilahı,
Adəm oğlu çox daşıyır günahı.
Üstümüzdə duran şahların şahı,
Axirət hakimsən, eylə çara hey.

İsmin min hərflə min aya gəldi,
İsmayıl qurbanı Minaya gəldi,
Xəstə diriltməyə yar haya gəldi,
Hicranın əlindən gəldim zara hey.

Yazıq Behbud hey çağırır, ay ana,
Baş götürüb varım gedim hayana?
Cismin, canım da alışa, ha yana,
Çatmaz əlim dost-tanışa, yara hey.

## BIZIM ARVAD
(həcv)

Ay həzarat, qızlar pencər yığanda,
Gedir Ələyəzə yaz bizim arvad.
Hamı torbasını dolu gətirir,
Yığır torbasına az bizim arvad.

O qədər tənbəldi işə əl atmaz,
Nəsihət, məsləhət beyninə batmaz,
Oda düşüb yansan, hayına çatmaz,
Sındırır başımda qoz bizim arvad.

Gedir çölə dovğa pencəri yığmır,
O qədər enlənib qapıya sığmır,
Gün axşama yatır, yorğandan çıxmır,
Dindirəndə satır naz bizim arvad.

Uşaq baxmır buyruğuna, sözünə,
Gah vurur başına, gah da dizinə,
"Güllə dəysin bədəsilin gözünə"
Göstərmir üzümə üz bizim arvad.

Açılmır heç zaman qaş-qabağı,
Sındırır gah teşti, gah da tabağı,
Hər gün qapılardan gəlir sorağı,
Olub beş yaşında qız bizim arvad.

Yazıq Behbud, bir az pulun olanda,
İpək, məxmər, tirmə şalı alanda,
Axşam evə əli dolu gələndə,
Fırlanır qarşımda tez bizim arvad.

***20.IV.1967***

## VAR

Naqafildən bir hikmətə tuş oldum,
Qapısız, bacasız bir qalası var.
İçi mil dəryası gözə görünməz,
Ab içində iki rəng alası var.

Gündə dərya yığılır cana,
Qalanı tərpədir o yana bu yana,
Bisti-yekdə ayaq basır cahana,
Quh edir, guh edir, çox sədası var.

Bir əsrardı, necə gəlib cahana,
Həm təamdı, ləzzət verir dəhana,
Gah cansızdı, gah da o gəlir cana,
Bədəni var, ürəyi var, səsi var.

Hərdən yumrulanıb daşa bənzəyir,
Birdən qanadlanıb quşa bənzəyir,
Sədası bir sirli işə bənzəyir.
Xəlqi oyatmağa çox həvəsi var.

Behbud deyir igidlərə candı bu,
Kənd içində aləmə dastandı bu,
İrəli dur, şairə meydandı bu,
Tapa bilsən açmağa mənası var.

*30.III.1968*

## AŞIQ BEHBUD VƏ SAÇLI

Dərələyəzdə qış çox sərt keçir. Həm qar xeyli, həm də soyuq olur. Qışa payızdan tədarük görürlər. Həm ərzaq, həm yanacaq, həm də isti pal-paltar tədarükü görürlər. Behbud da baxır görür ki, bütün arvadların əlində cağ corab, əlcək, fayka toxuyurlar, amma arvadı Saçlı hələ ki, tərpənmir. Bir axşam Behbud oğlu Vahidə deyir, a bala, o sazı mənə ver, bir-iki kəlmə söz gəlib sinəmə, deyim. Arvadı Saçlı qayıdır ki, a kişi, keçmişdən, olub-keçənlərdən bir az söhbət elə, sazı neynirsən, gecə keçib, qonşuları narahat eləmə. Behbud qayıdır ki, ay arvad keçən keçib, gələcək haqda fikir eləmək lazımdı. Behbud sazı köynəkdən çıxarıb köklədi və görək arvada mətləbi necə çatdırdı:

*Arvad, payız düşdü qışa tədarük,*
*İsti faykaların ehtiyatın gör.*
*Bu il deyən qış çox soyuq görünür,*
*Əlcəyini dara hər bir varın gör.*

Söz tamam olmamış Saçlı qımışdı. Sən demə əlçəyi darayıb, əyirib ip tədarükü görübmüş. Evdəki yunu aparıb qardaşı qızı Tümənlə dəyişibmiş. Dedi ki, a kişi, elə bilirsən təkcə sən sözlə deyə bilərsən, sazı bəri ver görüm:

*Kişi, mən bilirəm qış ehtiyatın,*
*Yun alıb darayıb, əyirəcəm mən.*
*Çox da çəkməz iki həftə ərzində,*
*Bir fayka toxuyub verəcəyəm mən.*

**Behbud**

*Sən barı tez toxu, geyinim görək,*
*Ortasın dar etmə, qolların gödək,*
*Boyaqçıya gedim vurdum bir rəng,*
*Naxış-ilməsinin hər karını gör.*

**Saçlı**

*Söz vermişəm, bir yaxşısın hörərəm,*
*Həftəsi çəkməmiş, vallah, verərəm,*
*Yumaqlarım çoxdu bax, dirəm-dirəm,*
*Ennicə, uzunca hörəcəyəm mən.*

**Behbud**

*Behbud deyir, toxu nə ola-ola,*
*Yaxşı toxu, söküb ataram çölə,*
*Xar olub düşərsən sən dildən-dilə,*
*Sən fayka toxuyan ustadları gör.*

**Saçlı**

*Kişi, qorxma özüm mahir ustayam,*
*Gərək qollarını bir metir qoyam,*
*Ortan çox yoğundu, yüz ilmək sayam,*
*Habelə şeylərin ustasıyam mən.*

Arvad səhər işə başladı. Payızı bir ayı keçmiş fayka hazır oldu. Yuyub qurutdu, bir axşam gətirib qoydu kişinin qabağına ki al, bu da sənin faykan. Behbud ha çalışdı fayka başından keçmədi. Gördü ki, hirslənməyin yeri deyil, yenə əlac qaldı saza. Aldı sazı görək nə dedi:

**Behbud**

*Bir aya arvadım fayka toxudu,*
*Əlacım yox, necə geyim, neyləyim?*
*Bir əntiqə şeydi, keçi qəzili*
*Əlacım yox, necə geyim, neyləyim?*

**Saçlı**

*Kişi, geyinginən əyini yalındı,*
*Yaxşı toxumuşam, isti, qalındı,*
*Kürk kimidir, əsil sənin malındı,*
*Ta əlimdən gələn budu, neyləyim?*

**Behbud**

*Sən bircə hovur gey, yanımda otur,*
*Görəsən bədənin necə od tutur?*
*Qaşımaqdan canım lap oldu qotur,*
*Əlacım yox, söz deməyə neyləyim?*

**Saçlı**

*Qəzilini mən təndirdə ütərəm,*
*Geyinməsən bir kasıba verərəm*
*Mernos yundan yumağım çox, bir dirəm,*
*Toxuyaram yenisini neyləyim.*

**Behbud**

*Ay arvad, qorxuram o da puç ola,*
*Dava düşər, qanın axa sel ola,*
*Dərə-divan bilə, milislər gələ,*
*İxtiyar yox səni döyüm, neyləyim.*

**Saçlı**

*Fayka hazır oldu, geyindi kişi,*
*Boğazı dar oldu, qısadı dişi,*
*Məni vurmaq üçün götürdü şişi,*
*İnsaf mürvəti budu, neyləyim?*

**Behbud**
*Arvadım başladı birin də hörə,*
*Payızın ilk ayı çıxmamış verə,*
*Behbudam bu işim qaldı səbirə,*
*Əlacım yox, arvadımdı, neyləyim.*

**Saçlı**
*Saçlıyam hər işi düşmüşəm başa,*
*Dedim yazda verim, göz dikdim qışa,*
*Özüm də məəttəl qaldım bu işə,*
*Bacardığım budu, deyin neyləyim?*

Saçlı başladı qardaşı qızı Tümənlə dəyişdiyi mernos yunla fayka toxumağa. Beləliklə, payızın iki ayı keçdi, soyuqlar düşdü. Bir gecə faykanı yuyub quruladı Verdi Behbuda ki, al geyin. Behbud da faykanın o yanı, bu yanına baxıb yenə sazı köynəkdən çıxarıb köklədi. Arvad fikirləşirdi ki, bunun qabağında söz deməsəm, kişinin ayağı yer alacaq.

**Behbud**
*Mernos yunundan başladı,*
*Dedim səni sağ ol, arvad...*
*Üç ay üstündə işlədi,*
*Dedim səni sağ ol, arvad.*

**Saçlı**
*Ta neynirsən ayı, günü,*
*İtirdin məssəbi, dini,*
*Faykalar lap yordu məni,*
*Bəsdi, az danla, a kişi.*

**Behbud**
*Atalar deyibdi üçə,*
*İpi əyirdin bir düyçə,*
*Bu dərdə dözüm mən necə?*
*Səni üzü ağ ol, arvad.*

**Saçlı**
*Bircə geyin, baxım görək,*
*Əynində duracaq qəşəng*
*Gödək olsa, aşağı çək.*
*O yoğun canına, kişi.*

**Behbud**
*Behbud deyər sür köçünü,*
*Özüm bilirsən suçunu,*
*Allah qırmasın qıçını,*
*Ölüncə axsağ ol, arvad.*

**Saçlı**
*Üç ay əlimi sökmüşəm,*
*İpin xəyatı çəkmişəm,*
*Saçlı deyər, tər tökmüşəm,*
*Danış imanla, a kişi.*

Söz tamama yetişdi. Behbud faykanı əlinə aldı ki, geyinsin. Baxdı ki, indiki fayka isə lap yekədi. Bu boyda kişidən başqa, bir o boyda adam da içinə girsə faykaya yerləşər. Behbud çox aşağı-yuxarı baxdı, fikirləşdi ki, neyləsin. Elə bu dəm bacısı Gülcahan faykanı qardaşının əlindən alıb, başladı zarafata ki, qağa, balaca toxuyur diyirsən dardı, iri toxuyur, deyirsən gendi.

Bu dəfə özüm toxuyacam. Gülcahan başladı faykanı sökməyə. Bir neçə günə çox gözəl bir fayka toxuyub verdi qardaşı Behbuda ki, indi sözün nədir, bizi el içində biyabır eləmə.

Behbud faykanı alıb o yana bu yana baxdı, gördü ki, elə bil maşın ağzından çıxıb, fayka nə fayka.İki göz istəyir tamaşa eliyə. Geyindi əyninə. Həqiqətən fayka onu qutu kimi tuturdu, özü də yaraşıqlı, bərli-bəzəkli idi. Bacısının əl qabiliyyətinə ürəkdən sevinən Behbud yenə sazı köynəkdən çıxarıb, aldı görək nə dedi:

*Əllərin var olsun, Gülcahan bacı,*
*İndi bildim faykalara ustasan.*
*İlməyi çalmağı yerbəyerində,*
*Qolların var olsun, qızıl dəstlisən.*

*Paqon qoydun sən faykanın çiyninə,*
*Tərsalar da görsə, tez gələr dinə.*
*Bir təzə moda da yaratdın genə,*
*Yeni modalara bircə ustasan.*

*Səndə günah yoxdu, ipidi guzəm,*
*İlmələrin yaxşı eləmisən cəm,*
*Behbudu el içində etmədin sərsəm,*
*Sevindirdin həm qardaşı, dostu sən.*

Söz tamama yetişdi. Saçlı da gördü ki, həqiqətən fayka Behbuda çox yaraşır. Qayıtdı ki, a kişi, mən o faykaları toxuyanda uşaq imkan vermirdi ilmələrin sayını itirirdim, həm də filan bədnəzər qonşu iki dəfə də işimin üstünə gəldi, ona görə alınmadı. Amma bacın arxayın oturub sakit bir evdə , bir həftəyə toxuyub. Hamı gülüşdü və Behbuda faykanın sağlıqla geyinməyi arzuladılar.

## AŞIQ BEHBUDUN QARA KİLSƏ SƏFƏRİ

1944-cü ilin payızı idi. Behbud müharibədən yaralı gəlmişdi.

Kolxoz sədri Süleyman Əhmədov Behbudu çağırır ki, hökumət bizə Qara Kilsədən (Sisyan) taxıl gətirməyə "limit" ayırıb. Bir neçə öküz və 10-15 arvad götür get taxıl gətir. Meşəbəyi Laləzarı da sizə ağsaqqal verirəm. Behbud altı öküz, on dörd qız-gəlin və Laləzarla Sisyana yola düşür. Yolda öküzləri adamlar arasında bölüşdürürlər. Vanka adlı öküz Behbudun payına düşür. Payızın son ayı olduğu üçün qar-boran başlayır. Bir günə gəlib Terpə çatırlar. Gecə orada qalıb obaşdan yola düşdülər.Bir gün Bazarçayda malakanların yanında qalır, yenə səhəri Sisyana yola düşdülər. Vanka yorulub heydən düşmüşdü. Bir təhər Sisyana çatıb taxılı təhvil alırlar. Hər öküzə yüz kiloqram. Hər adama isə otuz kiloqram taxıl düşür. Hərə öz öküzünü dəhmərələyib yola düşdü. Vanka heç boş gəlib çıxmırdı, qaldı ki, yüklü yol gedə. Behbud karvandan geri qalır. Öküz yatdıqca quyruğundan tutub qaldırır. Artıq əldən düşmüşdü. Öküz də, Behbud da. Bir təhər gəlib Bazarçaya çatırlar. Behbud qırx manat verib bir ot alıb verir Vankaya ki, bəlkə cana gəlib karvana çata. Behbud görür ki, Vanka otu iştahsız yeyir Behbud otun yabasını saz əvəzinə sinəsinə basıb başlayır Vankaya yalvarmağa:

*Ta çatmışıq Malakana,*
*Vanka, yorulma, amandı.*
*Əl-ayağım dona-dona,*
*Vanka, yorulma, amandı.*

*Bir bağ ot da aldım sənə,*
*Ye, bəlkə gələsən cana,*
*Yön tutma o yan bu yana ,*
*Vanka, yorulma. Amandı.*

*Xamır etdim bircə kündə,*
*Qoy yeyim dincəlim mən də,*
*Məni yaman saldım bəndə,*
*Vanka, yorulma, amandı.*

*Yükünü böldüm yarıya,*
*Birin göndərdim haraya.*
*Niyə dönmüsən xarıya,*
*Vanka, yorulma, amandı.*

*Yükünü böldüm yarıya,*
*Birin göndərdim haraya.*
*Məni yaman saldın bəndə,*
*Vanka, yorulma, amandı.*

*Behbud yaralı qolundan,*
*Qaldırammır sağ-solundan,*
*İldırım vursun belindən,*
*Vanka, yorulma, amandı.*

Söz tamam oldu. Səhər açıldı. Behbud öküzün yükünü yarı bölüb öz şələsinə aldı, yol başladı.

Behbud fikirləşir ki, karvana çata bilmirəm, elə Arxaşandan kəsə yolla aşım Püsyana, orda yükü düşürüb başqa bir at, öküzlə kəndə çatdıraram. Öküz bir neçə yerdə qara bata-bata bir qədər gəlib dayandı. Behbud nə qədər öküzün quyruğundan tutub qaldırmaq istəsə də öküz qalxmadı ki, qalxmadı. Yükü tamam götürdü, öküz qalxmadı, alığını da aldı, öküz qalxmadı. Çarəsiz qalan Behbud əl ağacını sinəsinə basıb görək öküzə nə dedi:

*Yetişirik Arxaşana,*
*Vanka, dur yeri, dur yeri.*
*Lap məni gətirdin cana,*
*Vanka, dur yeri, dur yeri.*

*Dizə kimi batdım qara,*
*Qaldırmağa yoxdu çara,*
*Leşini sərəcəm yerə,*
*Vanka, dur yeri, dur yeri.*

*Qaldırdım qırdın qolumu,*
*Şəllədim palan, çulunu,*
*İndi kəsərəm dilimi,*
*Vanka, dur yeri, dur yeri.*

*Süleyman qurar heyəti,*
*Mənə verəcək töhməti,*
*Əlimdən alacaq atı,*
*Vanka, dur yeri, dur yeri.*

Behbud sözü tamama yetirməmiş gördü ki, öküz ölür. Çarəsiz qalıb cibindən bıçağı çıxarıb Varkanın başını kəsdi ki, haram olmasın. Bir qədər fikrə gedib çıxdı qarşıdakı yala və haraya saldı Zirəy və Biləy kəndinin adamlarına:

*Çağırıram Zirəy, Biləy,*
*Boran məni boğdu, haray!*
*Qoy eşitsin Quşçubiləy,*
*Boran məni boğdu, haray!*

*Harayıma gəlmir qardaş,*
*Yoxdu yanımda bir yoldaş.*
*Didəmdən axar qanlı yaş,*
*Boran məni boğdu, haray!*

*Çatmışam Allah amana,*
*Vanka məni gətdi cana,*
*Tez xəbər verin Püsyana,*
*Boran məni boğdu, haraya!*

*Məni bir yetirin kəndə,*
*İlahi, kömək ol sən də,*
*Behbud, ümid çoxdu məndə,*
*Boran məni boğdu, haray!*

Bu harayı eşidən Zirək və Bilək kəndinin adamlarından gəlib Behbudu kəndə aparırlar. Həmin gecə Behbud Zirəkdə qalır. Behbud səhəri oradan atla İstisuya gəlir, qardaşı Abdulla və Mahmudla ata minib hadisə yerinə yollanırlar. Görür ki, taxıl, palan, alıx ordadı, amma öküzün ordan-burdan sümükləri ağarır. Canavarlar o boyda öküzü elə dağıtmışdılar ki, bir tikə də kəsib evlərinə gətirməmişdilər. Həmin gecə çölməkdə bişən öküzün ətindən Behbud da yemişdi, ancaq açıb-ağartmamışdı. Onlar paltar-palazı və taxılı atlara yükləyib İstisuya dönürlər. Axşam kolxoz idarə heyrətinin iclası qurulur və Behbudu sorğu-suala tuturlar.Behbud deyir ki, icazə verin, sözümü sazla deyim. Behbud sazı sinəsinə basıb bu əhvalatı görək necə deyir:

*Getdim Zəngəzurdan "limit" gətirəm,*
*Vanka yaman bala gətdi başıma.*
*O, yollarda yata-yata gedirdi,*
*Quyruqladım zəhər qatdı aşıma.*

*Haray saldım Zirək gəldi köməyə,*
*Öküz ətin bölüşdürüb yeməyə...*
*Cəfa çəkdim, sözüm çoxdu deməyə,*
*Yaxşı adam heç çıxmadı tuşuma.*

*Axır çul-alığın şələmə aldım,*
*Arxaşanda qar-boranda çox qaldım,*
*Öküz dizə gəldi, günahkar oldum,*
*Behbud deyər kömək verin işimə.*

Heyətin üzvləri xeyli gülüşdülər, akt bağladılar ki, öküz soyuqlayıb ölüb, əti isə istifadəsiz olub. Beləliklə, Behbud canını bu şerlə xatadan qurtardı. Allah da sizləri xatadan-baladan qurtarsın.

## AŞIQ QULU

Bayramov Qulu Bayram oğlu 19...-c.. ildə Dərələyəzin Sallı kəndində anadan olmuşdur. 1948-ci ildə doğma Sallı kəndindən Səlyana deportasiya edilmiş, 1968-ci ildə Səlyanın Kürqaraqaşlı kəndində dünyasını dəyişmişdir.

Aşıq Qulu Aşıq Cəlilin şəyirdi olmuş, aşıqlıq sənətini ondan öyrənmişdir. O ustad Aşıq kimi bir çox yerlərdə tanınmışdır. Onun aşıqlıq məskəni əsasən Naxçıvan, Şərur və Dərələyəz olmuşdur. Özünün qohumlarının və nəvəsinin dediyinə görə o Şıxmahmudda Aşıq Cəfər və Aşıq Fətullah ilə çox məclislərdə olmuşdur.

Aşıq Qulu həm də yaradıcı aşıq idi. Onun qəraylı, qoşma, bağlama və müxəmməsləri vardır. Bir neçəsini burada verməklə kifayətlənirik.

Mən (Mirzəyev Həsən) Aşıq Qulunun şəxsən tanıyırdım. Onun oğlu Məhəmmədəli müəllim bizim kənddə (Qovuşuqda) müəllim işləyəndə (1946-1947) oğlunun yanına tez-tez gələrdi. Şirin söhbətləri var idi. Çoxlu dastan bilirdi.

## KİMİ

Durub dolanım başına,
Şamda pərvanələr kimi.
Yandım sənin atəşinə,
İstəkli analar kimi.

Kor oldum, gələ bilmədim,
Dərdini bilə bilmədim,
Şad olub gülə bilmədim,
Solmuşam lalalar kimi.

Qulu deyər sözüm haqdı.
Qocaldım ünvanım yoxdu,
Səni saxladım bir vaxtı,
İstəkli balalar kimi.

## MƏNİ

Bedasıldan mən qaçardım.
Axır gəldi tapdı məni,
Çox cəfa çəkdim yolunda,
Dar günümdə atdı məni.

Nə yaxşı yamana baxdım,
Canımı odlara yaxdım,
Can deyən yarı buraxdım,
Onun ahu tutdu məni.

Müşkül-müşkül dolanıram,
Dərdi qəmə calanıram,
Gedib bivəfa alıram,
Öz ağlım aldatdı məni.

İgidlərdən mən baş idim,
Qarlı dağlar aşan idim,
Özüm bir nəhəng dağ idim
Yerimdən oynatdı məni.

Fikir etmə dərd azalmaz,
Yaranmış dünyada qalmaz,
Təzdən Qulu cavan olmaz,
Düşmənimə satdı məni.

## DAĞLAR

Elin səndən üz bürüdü,
Necə oldu maralım dağlar.
Fələk bizə püşk atıbdı,
Olmuşuq aralı, dağlar.

Qız-gəlinlər dəstə-dəstə,
Gələrdi çeşmənin üstə,
Qürbət eldə olduq xəstə,
Düşmüşük aralı, dağlar.

Əzəlimi kim görərdi,
Mənə bəxtəvər deyərdi,
Kimi istəsəm gələrdi,
İndi yaxın gəlmir, dağlar.

Qulu dərdli, yaralıdı,
Vətənindən aralıdı,
Fələk gör necə dağladı,
Kimə qaldı bizim, dağlar.

## XOŞ GƏLDİN

Budur gəldi bahar fəsli,
Sən bu diyara xoş gəldin.
Çilə bizi salıb qəfsə,
Çəkirdi dara xoş gəldin.

İnsanlar girməz içəri,
Açılar güllü, çiçəyi,
Gəlib dünyanın göyçəyi,
Yetib havara xoş gəldin.

Çilənin ömrü azalsın,
Baharın ömrü çoxalsın,
Qoyginən yoxsul dolansın,
Dərdinə çarə xoş gəldin.

Quşlar havasından uçar,
Ördəklər gölünə qaçar,
İnsanın qəlbi açılar,
Düşməz azara xoş gəldin.

Qulu deyər sözüm düzdü,
Sonalar gölündə üzdü,
İndi inanmışıq yazdı,
Çatdıq bahara xoş gəldin.

## GÖRDÜM

Keçən əsrdən danışım
Qlava kəndi gəzərdi
Əlində bir simli tatar
Yazıq yoxsulu əzərdi
Zəhmətkeşə gün verməzdi
Döyüb ürəyin üzərdi.
Mən ki, doğru söz deyirəm
O şahmar ilanı gördüm.
Andranik, o tay qulaq,
Körpə uşaqları qırdı,
Görün necə qan eylədi.
Zülm ərşə dirək oldu

Çarın arxayın vaxtında
Hansı adam gördü otaq
O cümlədən birisi mən
Yorğan tapmırdıq ki, yataq
Evdə uşaq ağlayırdı
Bir cındır yoxuydu yataq
Xalqın gözünü bağlayan
O şeytan dövranı gördüm.
Kəndləri viran eylədi
Yüzünü alqan eylədi
Vətəndən didərgin düşdüm
Quluyam, boranı gördüm.

## *QOŞMALAR*

## DANIŞAQ

Gəl sənə söyləyim ey duran aşıq,
Tənəfsiz dirəksiz göydən danışaq,
Yaranmış insanın ruzisin verin,
İstəkli torpaqdan yerdən danışaq.

Bahar fəsli insan yaxşı qazanır,
Sülhü sevənlərin ömrü uzanır,
Təyyarələr ərş üzündə dolanır,
Elmi artıq olan dildən danışaq.

Səd afərin olsun belə insana
Gör nələr yaradıb çıxıb meydana
Quş kimi səslənib uçur hər yana
O qızıl barmaqdan əldən danışaq.

Ayla Günəş ərş üzündə durubdur,
Bu qurğu büsatı bəs kim qurubdur?
Neçə il bu dünya yetim qalıbdır?
Onlardan bilirsən ondan danışaq.

Qulu deyər dünya halı necədir?
Gahdan o gündüzdü, gahdan gecədir.
Göydəki ulduzun sayı neçədir
Hesab eylə gəl onlardan danışaq.

## OLDU

Bir zəmanə gördük tərsin başladı,
Gündə bir kənd yanıb, səngi-sar oldu.
Altmış meyit birdən düşdü araya
Nə kəfən tapıldı, nə məzar oldu.

Kimini boynundan çəkdilər dara
Kiminin qəlbinə vurdular yara
Müsəlman millətim düşübdür dara
Bilmədim dünyada qeyri-qal oldu.

İnsanın içinə düşdü bir səda
Yazıqlar bir-birin yandırdı oda.
Erməni dəstəsi oldu bir fida,
Müsəlman seçilib can bezar oldu.

Millətin içinə düşdü vəlvələ,
Danışasan qəmi sığışmaz dilə.
Biz deyərik dalı çəkər yüz ilə,
Kim deyərdi dünya mürğüzar oldu.

Yeni dövran gəldi özün yetirdi,
Düşmənləri qovub burdan itirdi.
Qulu üçün xoş günləri gətirdi
Vətən çiçəkləndi, taləzar oldu.

## SAMOVAR

Ciyərim alışdı, ürəyim yandı,
Sızıldama tez ol qayna samovar.
Töküm stəkana nəlbəki, qənddən,
Bir doyunca içim barı samovar.

Ətrafında baxça ola, gül ola,
Sənə qulluq edən incə bel ola,
Stəkanı yuyan şümşad əl ola,
Qonaqların xoş giftarı samovar.

Duruşun tərlandır, baxışın sona,
Çayın həyat verir yorğun insana,
Adın yayılıbdır, çıxıb hər yana,
Evin yaraşığı, barı samovar.

Qaynar qazanlısan, zinə bulaqlı,
Başın qalmaqallı, ağzın yığnaqlı.
Ətrafın dil bilən, əziz qonaqlı,
Ürəyimin ucu barı samovar.

Qulu sözlərini qoy desin barı,
Eşidənlər məni görməsin karı,
Hər kəsin ki, ola vəfalı yarı,
Neylər bu dünyada varı samovar.

## GƏZİRƏM

Dəli könül, doğru yola düz yeri
Deyir bir vəfalı yarı gəzirəm.
Axtarıram onu tapa bilmirəm.
Qoynunda bəsləmiş narı gəzirəm.

Mənə nə eylədi nainsaf fələk,
Axırda başıma o açdı kələk,
Bir tərəfdə qoyun, bir yanda inək,
Onu itirmişəm varı gəzirəm.

Bülbül cəh-cəh vurar qonar budağa,
Gülün açılmağı qalar sabaha,
Axşam çağı çörək gələr qabağa,
Yağ əlimdən çıxıb, şoru gəzirəm.

Könül pərvazlanıb namusu atmır,
Qəm tüğyan eyləyir heç yuxu yatmır,
Arpaya buğdaya qüvvətim çatmır,
Əlacım kəsilib darı gəzirəm.

Qulu deyir vaxtım keçib qalmaram,
Əlac olsa bu sazımı çalmaram,
And içmişəm bihəyanı almaram
Əgər alsam koru, karı gəzirəm.

## HƏRBNAMƏ

Mənə barat verib gözəl ilahi,
Gərək gözəllərdən göz alam indi.
Oxumuşam həqiqətin bəndini,
Mən də bu dərsimdən yüz alam indi.

Qəbul etdim haqq-taalanın payını,
Hər kəs görsə, qabağımdan yayını,
Olmamışam qohum, qonşu xayını,
Mən də mətləbimi tez alam indi.

Hər kim atın sürsə mənlə meydana,
Yəhərin boyaram qızıl al qana
Yazaram dəftərə, verrəm dastana,
Kimdi mənlə üzbə-üz olan indi.

Həkk olub sinəmə dəftər kitabım,
Şair-şüardan heç yoxdur pakım.
Qızıldı məzarım, qaynadı abım,
Satan yoxdu bir az bez alam indi.

Aylar öyünməsin yayın yanında,
Horra nə danışar çayın yanında,
Milçək dızlamasın şirin yanında,
Görünməsin gözə mozalan indi.

Aşıq Qulu çağır ədalət hökim,
Axund üləmədan heç yoxdur qorxum,
Bu yolda qoymuşam cəmi əmlakım,
Mən də əlinizdən saz alam indi.

## DÜŞÜBDÜ

Ey ariflər gəlin sizə söyləyim,
Ağ kağız üstünə qara düşübdü.
Tərk olduq Vətəndən, qohum qardaşdan,
Fələk vurdu bu diyara düşübdü.

Kim bilirdi axır belə olacaq,
Hərə bir diyarda düşüb qalacaq,
Yurddan uzaq düşən qərib öləcək,
Qohum-qardaş hər diyara düşübdü.

Yazı beləymiş ki, ayrıldıq eldən,
Sonalar dövr elər tərk olar göldən,
Sizə xəbər verim şeyda-bülbüldən,
Onun qızıl gülü xara düşübdü.

Sözün günahını qoy deyim barı,
Ürəyimdə çoxdur qəmin anbarı,
Pərvanə dövr eylər ataşa sarı
Qanadları yansa nara düşübdü.

Bir kağız yazıram o qardaşıma,
Bu ayrılıq haqdan gəlib başıma,
Hərdən hirsim tutur öz yoldaşıma,
Könlüm pərişandır, dara düşübdü.

Qərib olan hər dillərdə ad olar
Hansı kəndə düşsə orda yad olar
Həsrət çəkər axır bimurad olar
Yazıq Qulu bu azara düşübdü.

## DAĞLARIM

Əziz dostlar, gəlin sizə söyləyim,
Gör necə xoş keçir halı dağların.
Süsəni, sünbülü, gülü, reyhanı,
Nə gözəl bəslənir malı dağların.

Al yaşıl geyinir qız gəlinləri
Çeşmələrdə gəzir incə belləri.
Nazik barmaqları, şümşad əlləri,
Nə gözəl tam verir yağı dağların.

Onun erkəyinin çoxdu qiyməti,
Boyun əyməz, nədir xalqa minnəti,
Arısı, becəsi, şanı şöhrəti,
Pətəkdən kəsilir balı dağların.

Kəklikləri qayalarda səs eylər,
Qaqqıldaşıb bir-biriylə bəhs eylər,
Ovçu marıtdayıb çox həvəs eylər,
Üç təpədən keçir yolu dağların.

Qulu deyər ayrı düşdüm elmdən,
Başım ayazımır, didəm selindən,
Dəmliyəsən çayı səhlab gülündən,
Uzaq düşdü bizə yolu dağların.

## *BAĞLAMALAR*

### VAR

*(Özümə aid deyib)*

Bir qalada neçə dustaq görmüşəm,
Nə ağzı məhlimdi, nədə gözü var,
Hər kəs inanmasa sübut eylərəm,
Bu doğru sözümə kimin sözü var.

Bahar olcaq onlar olur miyana
Onları qazancı nəftir insana
Vaxt olar ki hazır çıxar meydana
Onların bir-birə ərki nazı var.

Vaxt olar ki onlar çıxar aşkara,
Dustağın artırar baxın ləşkara,
Kimi ağ geyibdi kimsi qara,
Hər qalada əllisi var, yüzü var.

Onların anası düşüb cahana
Ayaq üstə durub mərdi mərdanə
Sovqatın bağlayıb gedər hər yana
Neçə oğlanı var, neçə qızı var.

Əvvəl xırda olar, sonra yekələr,
Anasının qucağında kökələr,
Qohuma, qardaşa sovqatı gələr,
Qulu deyər onun söbət-sazı var.

ARASINDA

*Elektrikə (bağlama)*

Ey ariflər gəlin sizə söyləyim,
Bir pəhləvan gördüm el arasında.
Səddi çıxıb hər mahala yayılıb,
Qüvvəti söylənir el arasında.

Onun qüvvətinə heç qüvvə çatmaz,
Gündüz gərdiş eylər, gecələr yatmaz,
Gör necə möhkəmdir özün unutmaz,
Onun günü keçər çöl arasında.

Heç pəhləvan onla üzbarı olmaz,
Onun meydanına heç kəs dolanmaz,
Hər kəs küskü tutsa onu buraxmaz,
Nəfəsini kəsər əl arasında.

Ustadı oturub nizamın düzür,
Şəyirt fərəhlənib quş kimi süzür,
Onların adəti evləri gəzir,
İnsanı aldadır göz arasında.

Qulu deyər ustadının huşu var
Özü yalqız deyil çox yoldaşı var
Deynən görüm onun neçə yaşı var?
İnsana nəf verir ev arasında.

## AŞIQ BƏHMAN (SALLILI)

Mustafayev Bəhman Kərbəlayı Səfəralı oğlu 1904-cü ildə Dərələyəzin Sallı kəndində doğulmuşdur.

1926-1931-ci illərdə Sallı kəndində kənd Sovet sədri, 1936-1943-cü illərdə rayon partiya komitəsində instruktor və şöbə müdiri, 1943-1949-cu illərdə Ələyəz və Sallı kəndlərində kolxoz sədri işləmişdir.

1949-cu ildə Ermənistan hökuməti tərəfindən öz doğma yurdundan Səlyana deportasiya olunmuş, orada mühitə uyğunlaşa bilmədiyi üçün yenidən öz doğma kəndinə qayıtmış, erməni təzyiqləri nəticəsində Azərbaycanın Xaçmaz rayonunun Arzu kəndinə köçmüş və orada da dünyasını dəyişmişdir.

Məlahətli səsə, fitri istedada malik olan, saz havalarını mükəmməl çalan Aşıq Bəhman, həm də yaradıcı aşıq və el ağsaqqalı olmuşdur.

*GƏRAYLI*

### MƏNİM

Nəsiyyətim kar eyləmir,
Qan ağlar həyatım mənim
Dağa-daşa ün salıbdır,
Bu qəmli bayatım mənim.

Bahar olmaz zimistansız,
Adım sağdır, özüm cansız.
Dözə bilmirəm Telmansız,
Qopub qiyamətim mənim.

Fələk sındırdı könlümü,
Kökündən vurdu qolumu,
İtirdim doğma yurdumu,
Çatıb son saatım mənim.

## HANI[1]?

Görünmür boz muxruların,
Qan ağlayar çınqılların,
Qoyun, quzu naxırların,
Səndə gəzən ellər hanı?

Köksündə otlar sürülər,
Suyundan içən dirilər,
Əlvan libaslı hürülər,
Səndə gəzən ellər hanı?

Bəyəli zəngin düdmandı,
Güllü-çiçəkli ormandı,
Qənimi hökmü-zamandı,
Səndə gəzən ellər hanı?

Bəhman unutma bu yeri,
Bir gün təkər dönər geri,
Dağıdar səddi, çəpəri
Səndə gəzən ellər hanı?
Gəlsin belə dövran hanı?

## *QOŞMA*

## HAYIF OLDU

Bir tülək tərlanım uçdu əlimdən,
Adı əzbər olub, düşmür dilimdən,
Qocalmışam, bir iş gəlmir əlimdən,
İşləmir qollarım, diz hayıf oldu.

Vicdan qəbul etmir böhtan, məzəmmət,
Qəlp çıxıb müsayib, yoxdur məhəbbət,
Oğulda, uşaqda qalmayıb hörmət,
Ortalıqda çörək, duz hayıf oldu.

Bülbül idim, ayrı düşdüm gülümdən,
Zaman ayrı saldı məni elimdən,
Vəfalı dostlarım çıxdı əlimdən,
Kəsildi ixtilat, söz hayıf oldu.

Qocalıq əl verib, dağılıb huşum,
Köçdülər dünyadan çox tayım-tuşum.
Gor deyə titrəyir bəlalı başım,
Ömrüm bada getdi, tez hayıf oldu.

Həyatda bir müddət eylədim dövran,
Axırda bir bağa kəsildim bağban,
Qəza vurdu, soldun, şüara Bəhman,
Əlində sədəfli saz hayıf oldu.

---

1. 1949-cu ildə Sallı kəndini deportasiya edəndə Aşıq Bəhman bu gəraylını Bəyalı yaylağına deyibdi. Gəraylının qalan bəndlərini əldə edə bilmədik.

## VƏSİYYƏT[1]

*Ömür yoldaşım Qənahətə*

Acı rüzgar döyəcləyir şəhəri,
Gümüşü qar, elə bil ki, kətandır.
Kirpiyimlə açacağam səhəri,
Əynimdəki paltar deyil, kəfəndir.

Səfərbərlik ya bu gündür, ya sabah,
Dörd tərəfdə şüvənə bax, yasa bax,
Aman gətir, ya Sübhanım, ya Sabah,
Dava deyil, bu taundur, tufandır.

Kiçik səhvimi də böyük söz etdin,
Üzümü darayıb üstümü diddin,
Bəlkə də ölmədim, uzun vaxt itdim,
Ərə getmə, gözlə məni, amandır.

Sən unutma olanları, ötəni,
Heç axtarma qürbət eldə itəni,
Yaxşı saxla Roza ilə Kətəni,
Bilirsən ki, onlar əziz balamdır.

Qurban getsəm bu Vətənə, bu elə,
Çox ağlama, bir neçə gün qəm eylə.
Şər deməsən, xeyir gəlməz qəm ilə,
Üç oğlum var, hər birisi Bəhmandır!

*1942-ci il.*

## AŞIQ MEHDİ

Aşıq Mehdi Ataş oğlu Mehdiyev 1923-cü ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Her-her kəndində anadan olmuşdur. Uşaq yaşlarından saz-söz sənətinə həvəs göstərən Aşıq Mehdi dayısı Aşıq Fətulladan və başqa aşıqlardan dərs alaraq mahir bir sənətkar kimi yetişmişdir.

Aşıq Mehdi 1941-1943-cü illərdə Böyük Vətən müharibəsində 416-cı Taqonroq diviziyasının 1373-cü polkunun pulemyotçular rotasında döyüşmüşdür.

1949-1950-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiya edilməsinin növbəti mərhələsində Aşıq Mehdi də həmvətənləri kimi doğma elindən didərgin salınmışdır. O, 1953-cü ildə Naxçıvan müəllimləri İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirərək müəllimlik fəaliyyətinə başlamışdır. O, «Azərbaycan SSR Xalq Maarif Əlaçısı»dır (Vəsiqə: № 7120), 12 fevral 2002-ci ildən isə «Azərbaycan yazıçılar birliyi»nin üzvü seçilmişdir (Vəsiqə: № 874)

-----------------------------

1. Rəhman Mustafayev öz atası Bəhman haqqında yazır:

"Dədəm deyərdi ki, 1942-ci ilin qışı, Böyük Vətən müharibəsinin qızğın vaxtı idi. Almanlar ildırım sürəti ilə SSRİ-nin içərilərinə doğru irəliləyirdilər.

Rayon partiya komitəsi binasında gecə məsul növbətçi idim. Lampa işığında oturub, gözümü pəncərədən çölə, tufanlı gecəyə zilləmişdim. Yağan qar torpağı ağ kəfənə bürümüşdü. Yuxum ərşə dirənmişdi. Birinci səfərbərlikdən təkəm-seyrək qalmış kişilərin, o cümlədən mənim də qulaqlarımız səsdəydi: növbəti səfərbərlik ya bu gün olar, ya sabah.

Qəm güc gəldi. Qələmi götürüb kağıza cızma-qara etməyə başladım. Vəsiyyətnamə yazırdım."

Aşıq Mehdinin şerləri "Kommunist", "Azərbaycan gəncləri", "Sovet kəndi", "Azərbaycan müəllimi" qəzetlərində və başqa mətbuat orqanlarında çap olunmuş, 1995-ci ildə "Gənclik" nəşriyyatında "Qurban olum torpağına, daşına", 2003-cü ildə "Deyirdin ölərəm sənsiz" adlı 380 səhifəlik (24 ç/v) kitabı nəşr olunmuşdur. Onun çoxlu gəraylı, qoşma, bayatı və həcvləri vardır ki, bunlar aşıqların, musiqiçilərin, oxucu kütləsinin dillər əzbəridir. 80 il ömür sürən Aşıq Mehdi 2003-cü il mayın 13-də Tərtər rayonunun Səhləbad kəndində dünyasını dəyişmişdir.

## *GƏRAYLILAR*

### DAĞLAR

Saysız igid yola salıb,
Özü təkcə qalan dağlar.
Ağ örpəyin örtən kimi,
Matəm marşı çalan dağlar.

Bilinməyir yaşın sənin,
Əyilməzdir başın sənin,
Vüqarlıdır daşın sənin
Payız oldu solan dağlar.

Murad təpə yaylağından,
Çobanların oylağından
Gözəllərin bulağından,
Məni ayrı salan dağlar.

Mehdi baxıb səni süzdü.
Məcnun kimi Leyli gəzdi,
Duman gəldi, dodaq büzdü,
Gah boşalıb dolan dağlar.

### DAĞLAR

Ağ dumanı zirvələrdə,
Tutub gedər yallı,dağlar.
Arı uçur çəmənində,
Çiçəkləri ballı dağlar.

Dolaylarda otlar naxır,
Qayasından qartal baxır,
Dərələrdən sellər axır,
Ağ çalmalı,allı dağlar.

Daşlarında kəklik ötür,
Arxasında sürü yatır.
Ağ dumandan örpək tutur,
Quzeyləri xallı dağlar.

Əsən külək ətəkləyir,
Duman gəlir çisəkləyir,
Qar-borandan püsəkləyir,
Hərdən qeylü-qallı dağlar.

Buz bulaqlar düzə gəlir,
Mehdi görüb, sözə gəlir,
Qoyun-quzu duza gəlir,
Duzlaxları sallı dağlar.

## BIZIM DAĞLAR, BIZIM DAĞLAR

Qoynun açıb əl eyləyir,
Bizim dağlar, bizim dağlar.
Hər insana gəl eyləyir,
Bizim dağlar, bizim dağlar.

Kim deyir ki, cəfalıdır,
Ürək açan, səfalıdır,
Qonağa da vəfalıdır,
Bizim dağlar, bizim dağlar.

Çiçəkləri göz eyləyir,
Mehdi baxıb söz eyləyir,
İnsan ömrün yüz eyləyir,
Bizim dağlar, bizim dağlar.

## O DAĞLARIN

Dolaylardan axıb gələn
Bulağıyam o dağların.
Ellərinə nəğmə deyən
Dodağıyam o dağların.

Neçə balın,yağın süzən,
Köz üstünə kabab düzən,
Dövrəsində çoban gəzən,
Ocağıyam o dağların.

El şənliyi olsa haçan,
Saz götürüb, söhbət açan,
Məclislərə işıq saçan,
Çırağıyam o dağların.

Göylərində şimşək çaxan,
Qayasından qartal baxan,
Sinəsindən sular axan,
Qucağıyam o dağların.

Duman kimi qalxıb gedən,
Çaylar kimi axıb gedən,
Mehdi deyər: baxıb gedən,
Qonağıyam o dağların.

## DAĞLAR

Çiçəklərin əlvan-əlvan,
Seyrəngahsan bizə,dağlar.
Hər tərəfin lalə-nərgiz,
Gəlməyəsən gözə, dağlar.

Ləli-gövhər daşlarını,
Ucaltdı el başlarını,
İnsanların yaşlarını
Çatdırdın sən yüzə,dağlar.

Sarı yerin Ala gölü,
Qonaq eylər gələn eli,
Mehdinin də şirin dili
Gəldi vəcdə, sözə,dağlar.

## DAĞLAR

Gecə-gündüz duman-çiskin,
Əskik olmur səndə, dağlar,
Gəlin kimi örpək tutub,
Gizlənibsən çəndə,dağlar.

Arxacların tala-tala,
Sürülərin çıxar yola,
Xəstə olan gələr hala,
İlham çoşdu məndə,dağlar.

Buz bulaqlar xoşa gəlir,
Qayalar baş-başa gəlir.
Mehdi baxıb coşa gəlir,
Tərif yazır gündə,dağlar

## DAĞLAR

Cığırlardan kəmər tutub,
Gəlin kimi belə dağlar.
Ana kimi südün verir,
Vətənimə, elə dağlar.

Arxacların talasından,
Çələng hördüm lalasından,
Zirvələrin qalasından,
Doymamışam hələ dağlar.

Quzeylərin şehdi, nəmdi,
Bulaqların yasəməndi,
Otaqların çöl-çəməndi,
Bələnibdir gülə dağlar.

Qəm libası geyən Məcnun,
Əlif qəddin əyən Məcnun,
"Leyli-Leyli" deyən Məcnun,
Necə dözdün ilə, dağlar.

Mehdi duman örpəyindən,
Sular axan ətəyindən,
Xan çobanın tütəyindən,
Heç düşərmi ələ, dağlar.

## QOYNUNDA-QOYNUNDA

Mərd igidlər sürər səfa
Dağlar qoynunda-qoynunda.
Toy- büsatlı gözəl həyat,
Dağlar qoynunda-qoynunda.

Dan ulduzu açar səhər,
Üz bürüyər səndə ülkər.
Çadırların olub şəhər,
Dağlar qoynunda-qoynunda.

Mehribandı qonaqları,
Xoşa gələn yaylaqları,
Lilpar gözlü bulaqları,
Dağlar qoynunda-qoynunda.

Doğdu günəş,gül oynadı,
Sazımdakı tel oynadı,
Mehdi çaldı,el oynadı,
Dağlar qoynunda-qoynunda.

## DÜŞDÜ

Dərələzin güvəndiyim,
Torpağına zəhər düşdü.
Çəmənimə bələndiyim
Torpağına zəhər düşdü.

Çəmən xalça oylağının,
Ellər düşən yaylağının,
Suyu sərin bulağının
Torpağına zəhər düşdü.

Arpaçayın axarının,
Arxaşanın baxarının,
Murad təpə çıxarının
Torpağına zəhər düşdü.

Dağlarımın lalasının
O Salsalın qalasının
Ceyran,cüyür balasının
Torpağına zəhər düşdü.

Mehdi deyər kəkliklərin,
Meşədəki əliklərin,
Balbas quzu əmliklərin
Torpağına zəhər düşdü.

## AĞARMA, SAÇIM, AĞARMA

Arzu deyir,dilək deyir:
Ağarma, saçım, ağarma.
Yorulmadan ürək deyir:
Ağarma, saçım, ağarma..

Varla sərvət gəzməmişəm,
Külüng alıb qazmamışam.
Elə bir şey yazmamışam,
Ağarma, saçım, ağarma..

Oğlum yarın gətirməyib,
Sazım kökün itirməyib.
Ömrü başa yetirməyib,
Ağarma, saçım, ağarma..

Yar axtaran Aslanım var,
Bar üstündə bostanım var.
Yazılmamış dastanım var
Ağarma, saçım, ağarma..

Yaylaqların çiçəyi tək,
Gözəllərin göyçəyi tək,
Qarıların birçəyi tək,
Ağarma, saçım, ağarma..

Yaşım əlli,ürək təzə,
Yaylaqları gəzə-gəzə...
Könül istər çata yüzə
Ağarma, saçım, ağarma.

Könül quşu qara geyər,
Kədər-qüssə qəddim əyər.
Qız-gəlinlər əmi deyər
Ağarma, saçım, ağarma.

Durma məğrur sarov kimi,
Qış fəslində Murov kimi.
Qüzeylərdə qırov kimi
Ağarma, saçım, ağarma.

Mehdi deyər:Dürdanəsən,
El-obada bir dənəsən.
Qartal kimi zirvədəsən,
Ağarma, saçım, ağarma.

## KİMİDIR

Yazda aşıb-daşan Tərtər,
Payız olub, lal kimidir.
Dəlidağdan su gətirir,
Doymaq olmur, bal kimidir.

Qar basıbdır dərələri
Çoxdan köçüb sürüləri.
Çobanların ocaq yeri
Al yanaqda xal kimidir.

Meşələrin bulaqları,
Buz bağlayıb dodaqları.
Mehdi deyər: yarpaqları
Örpək üstə pul kimidir.

## SÜZƏ-SÜZƏ

Ağ dumanlar zirvələrdə
Yallı gedir, süzə-süzə.
Qüzeylərin sinəsinə
Muncuq taxır düzə-düzə.

Bulaqları axarlıdır,
Yaylaqları buxarlıdır.
Ləpələri ovxarlıdır,
Dənizlərdə üzə-üzə.

Mən Mehdini dilləndirir,
Tavar sazı tellədirir,
Məclisləri güllədirir,
Mağarları gəzə-gəzə

## KƏKLİK

Yalçın qaya-daşda durub,
Qaqqıldayır ana kəklik.
Qüdrətindən bəzəklidir,
Ayağında xına kəklik.

Yeri yalçın qayalıdı,
Qanadları cunalıdır,
Ayaqları xınalıdır,
Dimdik batıb qana,kəklik.

Əzəldən vurğunam sənə,
Xoş səsindi müjdə mənə,
Mehdi deyər: dönə-dönə,
Oxu daşda, sona kəklik.

## NƏRGİZ

Səhər-səhər qarşı gəldi
Çiçək açmış lalə,nərgiz.
Alıb ələ ətir çəkdim,
Qəlbim döndü bala nərgiz.

Fəsillərin ilk yazında,
Bənövşə durur nazında.
Çay qırağı qar ağzında,
Gözün dikib yola nərgiz.

Daşır çaylar, qalxır ləpə,
Çiçəklənib yaşıl təpə,
Mehdi istər səni öpə,
Sarı çiçək,bala nərgiz

## BƏNÖVŞƏ

Bahar çağı səhər-səhər,
Açılıbdır gül bənövşə.
Könül səni çox arzular,
Bir de,danış, gül,bənövşə.

Bülbül bizə qonaq gəlmiş,
Gül dibində boynun əymiş,
Dəstə tutub qızlar dərmiş,
Gizli fikri bil,bənövşə.

Coşur ürək,coşur əllər,
Şadlıqdadır bizim çöllər,
Mehdi çalar,titrər tellər,
Gülüb-oynar əl, bənövşə.

## BULAQ

Lülpər gözlü, buzlu bulaq,
Tərlanların oylağısan.
Məclis qurub,dövran sürən,
İgidlərin bulağısan.

Suyun axır Ala gölə,
Adın düşüb dildən-dilə.
Qızlar içib vurur telə,
Siyah zülfün darağısan.

Məftillidir sənin adın,
Ağızlardan getməz dadın,
Var olsun hörən ustadın,
Pərvanələr çırağısan.

Şahın kimi süzənlərin,
Örpək kimi üzənlərin,
Kabab kimi düzənlərin,
Şirin-şərbət arağısan.

Əkbər sənə çəkib cəfa,
Suyun içən sürür səfa,
Qonaq gələn görür vəfa,
Çox sevirsən qonağı sən.

Mehdi,oxu asta-asta,
Şəfa tapsın bir çox xəstə,
Leyli gəlsə bulaq üstə,
Məcnunun da sorağısan.

## GƏLDİ

Ellər, gözəl Vətənimə
Gül-çiçəkli bahar gəldi.
Quçağında çəmən,nərgiz,
Gül-çiçəkli bahar gəldi.

Ətəyində süsən-sünbül,
Bağçasında şeyda bülbül.
Götür sazın çal,oyna-gül,
Gül-çiçəkli bahar gəldi.

Gah qaynayan, gah buz olan,
Qayalardan tər süzülən,
Yarpağına şeh düzülən,
Gül-çiçəkli bahar gəldi.

Meşələri yaşıl geyər,
Bənövşəsi boynun əyər,
Bülbülləri nəğmə deyər,
Gül-çiçəkli bahar gəldi.

Əl çomağı kaman çoban,
Yapıncısı duman çoban,
Gözəlləşir zaman,çoban,
Gül-çiçəkli bahar gəldi.

Mehdi deyər: lalə bitən,
Daşlarında kəklik ötən,
Vurğununam,gözəl Vətən,
Gül-çiçəkli bahar gəldi.

## GƏLİR

Əziz ata,canım ata,
Xıdır baba bizə gəlir.
Sazın götür,mahnı oxu,
Yəqin o da sizə gəlir.

Qova-qova küləkləri,
Yeni ildə diləkləri,
Süfrələrə yeməkləri,
Budur, düzə-düzə gəlir.

Qədəmləri bar gətirir,
Namus-qeyrət ar gətirir.
Soy – kökümə var gətirir,
Təbrik üçün sözə gəlir.

Mən Mehdinin var vüqarı,
Pozulmazdı düz ilqarı,
Götür sazı köklə barı,
Qonum-qonşu bizə gəlir.

## GƏLƏNDƏ

Bağban gülər,bağlar gülər,
Qar əriyib,yaz gələndə.
Aşıqlar da cuşa gələr,
Öz həmdəmi saz gələndə.

İnsan oğlu qanan ola,
El halına yanan ola,
Mənlə bircə canan ola,
Deməliyəm söz gələndə.

Mehdi,çalıb məzələnir,
Şirin sözlər süzələnir,
Könül tez-tez təzələnir,
Yarım qarşı düz gələndə.

## AZƏRBAYCAN

Hər bir yanın ətir qoxur,
Gül çiçəkli Azərbaycan.
Bülbüllərin nəğmə oxur,
Gül çiçəkli Azərbaycan.

Xoş arzular bayrağısan,
Qara qızıl bulağısan,
Qəhrəmanlar oylağısan,
Gül çiçəkli Azərbaycan.

Məhsuldardır çöllərimiz,
Gül çiçəkli Azərbaycan.
Vüqarlıdır ellərimiz,
Sonalıdır göllərimiz,

Əcəb gözəl çağların var,
Gül çiçəkli Azərbaycan.
Başı qarlı dağların var,
Könül açan bağların var,

Elmi ilə zəfər çalır,
Ay üstündə ləpir salır,
Mehdi baxıb ilham alır,
Gül çiçəkli Azərbaycan.

## AZƏRBAYCAN

"Lenin" ordenin mübarək,
On bayraqlı Azərbaycan.
Hər il sizi xoşbəxt görək,
Çilçıraqlı Azərbaycan.

Bağlarında bar siləmə,
Tarlalarda var siləmə,
Dağlarında qar siləmə,
Buz bulaqlı Azərbaycan.

El-obası tar-kamanlı,
Qızıl əlli,mərd insanlı,
Zəhmət sevə qəhrəmanlı,
Gözəl çağlı Azərbaycan.

Arzum mənim, diləyimsən,
Partiyalı ürəyimsən,
Mehdi deyər: çörəyimsən,
Bal-qaymaqlı Azərbaycan.

## MİLLƏTİMİZ XOŞ GƏLİBDİ
(Məhsəti türklərinə)

Azərbaycan torpağına
Millətimiz xoş gəlibdi.
Odlar yurdun ocağına,
Millətimiz xoş gəlibdi.

Kimlər sizi obanızdan,
Perik saldı yuvanızdan,
Qorxmadılar davanızdan
Millətimiz xoş gəlibdi.

Qarşılarıq elnən sizi,
Şirin-şirin dilnən sizi,
Dəstə-dəstə gülnən sizi,
Millətimiz xoş gəlibdi.

İz qoyarsız, izim üstə,
Nəvəm gəlsin dizim üstə.
Mehdi deyər gözüm üstə,
Millətimiz xoş gəlibdi.

## BAYRAĞIDIR

Osmanlının Ağrı dağı
İgidlərin papağıdı.
Kür-Arazın şəlaləsi.
Xalqımızın çırağıdı.

Ərzurumun ətəkləri,
Bənövşəli birçəkləri,
Oymaq-oymaq çiçəkləri,
Çobanların yaylağıdı.

Atatürkün vəsiyyəti,
Türk xalqına nəsihəti,
Məsləhəti, söz-söhbəti,
El-obamın mayağıdı.

İstanbula gedən yollar,
Qolumuza keçən qollar,
Əfəndilər, əhli hallar,
Odlar yurdun dayağıdı.

## QALDI

Ayrılıram yarım səndən
Sinəmdə dağların qaldı.
Şaxta vurdu bostanımı,
Saralmış tağların qaldı.

Bulaqları büllur gözlü,
Ağ çalmalı məxmər üzlü,
Quzeyləri durna gözlü,
Dumanlı dağların qaldı.

Yar əlindən cam almadım
Çıraq tutub şam almadım.
Fələk vurdu kam almadım
Növcavan çağlarım qaldı.

Anam olar dəli kimi
Yarım sazın teli kimi
Hikmət kimi,Əli kimi
Dalımca ağlarım qaldı.

## VALLAH-VALLAH

O qız mənnən danışmayır.
Lal kimidir vallah-vallah.
Küsülüdür, barışmayır,
Bal kimidir vallah-vallah.

Qadan alım,asta yeri,
Hərdən məni səslə,yeri,
Al yanaqda busə yeri,
Xal kimidir,vallah-vallah.

Aşıq Mehdi, çaldı başın,
İndi kim olar sirdaşın?
Gözdən axan qanlı yaşın.
Sel kimidir, vallah-vallah.

## QURBAN OLUM

Sürmələnmiş qaşlarının
Naxışına qurban olum.
Gözlərinlə gözlərimin
Baxışına qurban olum.

Gül-çiçəyi əkənlərin,
Yolunda tər tökənlərin,
Bizə zəhmət çəkənlərin,
Alqışına qurban olum.

Mehdi deyər: ellərimin,
Bülbül qonaq güllərimin,
Sənlə keçən illərimin
Hər qışına qurban olum.

## DEYİM, DEMƏYİM

Ürəyimdə bir sözüm var,
Bilmirəm deyim, deməyim.
Könlüm hər an səni istər,
Bilmirəm deyim, deməyim.

Mən xəstəyə nar olmağı,
Dağ başında qar olmağı,
Həmişəlik yar olmağı,
Bilmirəm deyim, deməyim.

Qəlb evimə salma talan,
Oğrun baxıb, canım alan,
Mənlə yaşa,qoşa dolan,
Bilmirəm deyim, deməyim.

Haqq yolunda davalısan,
Ömür-günün amalısan,
Dərdlərimin dərmanısan,
Bilmirəm deyim, deməyim.

Aşıq sazın çalmaq istər,
Gözəl yurdda qalmaq istər,
Mehdi səni almaq istər,
Bilmirəm deyim, deməyim.

## SƏNSƏN

Lilpar gözlü bulaq kimi
Şırıl-şırıl axan sənsən.
Səni sevən ürəyimi
Atəşlərə yaxan sənsən..

Özün balsan,sözün şirin,
Alma yanaq üzün şirin.
Mənə baxan gözün şirin
Yay-oxunu çaxan sənsən.

Mehdi olub sənə vurğun,
Yeriyirsən yorğun-yorğun,
Hərdən dönüb orğun-orğun
Daldalardan baxan sənsən.

## DAYNA

Dedim gözəl bu nə işvə,
Sizə baxan gözdü,dayna.
Dedi bir də belə baxma,
Dedim bir azdı,dayna.

Atəşinə qalanıram,
Xilqətinə calanıram,
Mən başına dolanıram,
Acıqlanma, sözdü,dayna.

Quzeylərdən nərgiz dərək,
Gül-çiçəkdən çələng hörək,
Bu dünyada bir gün görək,
Qoşa gəzək,yazdı,dayna.

Ələyində ələnərəm,
Gülşənində güllənərəm,
Buxağına bələnərəm,
Dərdin məni üzdü, dayna.

İncimƏzsƏn qonağından,
Bal süzülür dodağından,
Bir busƏ ver, yanağından,
Yeri qalmaz,üzdü, dayna.

Mehdi deyƏr, bizƏ gƏl sƏn,
Eynim yaşın özün silsƏn,
DƏrdlƏrimin satını bilsƏn,
ÜrƏyimdƏ yüzdü,dayna.
DƏrdin mƏni üzdü,dayna.

## GÜLƏ-GÜLƏ

Bir uca boylu sƏrvinaz,
Qarşı gƏldi gülƏ-gülƏ.
Xoş ürƏklƏ Əlim tutdu,
Əhval bildi gülƏ-gülƏ.

O gƏlirdi çöl düzündƏn,
Cavab aldım mƏn gözündƏn.
Damcı-damcı ağ üzündƏn,
TƏrin sildi gülƏ-gülƏ.

Mehdi can qoyub yolunda,
GƏlib dayandı solumda.
Soruşdum nƏdi qoynunda?
Dedi güldür,gülƏ-gülƏ.

## NƏDƏNDİ

Mina boylu büllur buxaq,
Dönüb baxmağın nƏdƏndi?
HƏr baxanda atam evin,
Vurub-yıxmağın nƏdƏndi?

HƏrdƏn mƏni salsan yada,
BƏnd olmuşam gözƏl ada,
Al ağacı,mƏni buda,
Oda yaxmağın nƏdƏndi?

Yetirib qoyubsan dƏmƏ,
SinƏndƏdir bir cüt mƏmƏ.
Mehdi istƏr onu ƏmƏ,
Yaşmaq tutmağın nƏdƏndi?

## NAZLANA-NAZLANA

Baharın gülşƏn çağında,
GƏlir nazlana-nazlana.
Bülbül tƏki gül bağında,
GƏzir nazlana-nazlana.

ZƏbanı dür,lƏbi ballı,
Ağ buxaqlı, qoşa xallı.
O SƏrvinaz Əhli-hallı
GƏlir nazlana-nazlana.

BƏzƏmişdi otağını,
Şamamanın çüt tağını,
Yazıq Mehdinin bağrını
Əzir nazlana-nazlana.

## ZİYARƏTDİR

Bu dünyada qəlbə dəymək,
Qəbahətdi, qəbahətdi.
Yıxılana dayaq durmaq,
Mərhəmətdi, mərhəmətdi.

Səyyad olan ova gedir,
Qaçan ceyran kava gedir,
Şikar üstə dava gedir,
Ədavətdi, ədavətdi.

Yoldan azıb yana baxmaq,
Təmiz ada qara yaxmaq,
Yar yolunda yoldan çıxmaq,
Cinayətdi, cinayətdi.

Əyri əllər yoxa çıxa,
Qayıl olmur aza-çoxa,
Biri yeyə, biri baxa,
Qiyamətdi, qiyamətdi.

Mehdi, dosta dilək vermək,
Çətin gündə ürək vermək,
Gülə-gülə çörək vermək,
Ziyarətdi, ziyarətdi.

## YARAŞIR

Gözəl elin gözəl qızı,
Ağ buxağa xal yaraşır.
Şəvə kimi saçlarına
Qızılgüllü şal yaraşır.

Gözəl-göyçək ellərinə,
Ağ bilərzik əllərinə,
Qaymaq dodaq ləblərinə
Şanındakı bal yaraşır.

Nə baxarsan sağa, sola,
Könlüm istər mənim ola.
Sənin kimi əhli-hala,
Mənim kimi qul yaraşır.

Anaların alqışına,
Qaşlarının naxışına,
Mehdi deyər: baxışına
Yüz min tümən pul yaraşır.

## QUCAĞINDA

Dərdə dərman axtarıram,
Zalım,sənin qucağında.
Dodaqların şəhdi-şəkər,
Balım sənin qucağında.

Mən nəğməni yaza qoşum,
Səndə olan naza qoşum,
Tellərini saza qoşum,
Çalım sənin qucağında.

Kirpiyinlə oxla məni,
Axşam-səhər yoxla məni,
Yarım deyib saxla məni
Qalım,sənin qucağında.

Eşit birgə xoş səsimi,
Sən gəl qırma həvəsimi,
Mehdiyəm, son nəfəsimi,
Alım sənin qucağında.

## BELƏ SİNƏ

Gözlərimi qamaşdırır
Belə sinə, belə sinə.
O sinədən min bir busə,
Belə sinə, belə sinə.

Məcnun kimi dolanaram,
Kərəm kimi qalanaram,
İlan kimi yalanaram,
Belə sinə, belə sinə.

Mehdi sevib-çağlayıbdır,
Qəlbin sənə bağlayıbdır,
Çalın-çarpaz dağlayıbdı,
Belə sinə, belə sinə.

## DAĞLAR OĞLU MƏMMƏD ARAZ

60 yaşın çox mübarək
Dağlar oğlu Məmməd Araz.
Hər il səni xoşbəxt görək,
Dağlar oğlu Məmməd Araz.

100 yaşında qoşa duraq.
Qayalarda təkə vuraq.
Zor bulaqda məclis quraq,
Dağlar oğlu Məmməd Araz.

Batabatdan yollar keçək
Qanlı göldə yaylaq seçək.
Hər bulaqdan bir cam içək.
Dağlar oğlu Məmməd Araz.

Şerlərin bal kimidir.
Dürdanədir ləl kimidir.
Al yanaqda xal kimidir
Dağlar oğlu Məmməd Araz.

O daşlarda maral ataq.
Şiş bəziyək ocaq çataq,
Sağlıq deyək, qədəh tutaq,
Dağlar oğlu Məmməd Araz.

Əldə tərlan ova gedək,
Boran olsa geri dönək
Cığır tapaq Nursa yenək.
Dağlar oğlu Məmməd Araz.

Mehdi tutub çırağından,
Doymaq olmur bulağından,
Bal süzülür dodağından
Dağlar oğlu Məmməd Araz.

## GƏZƏ-GƏZƏ

A Bəxtiyar, gözün aydın,
Müjdə gəldi təzə-təzə.
Nəvən sənin boya çatsın
Gəlsin sizə gəzə-gəzə.

Babasıyla desin, gülsün,
Yorulanda tərin silsin,
Dəlidağa qonaq gəlsin,
Lalələrdən üzə-üzə.

Nərgizlərdən ilham alsın,
Qırxbuğumdan kətə salsın.
Aşıq Mehdi sazın çalsın,
Gül- çiçəyi üzə-üzə.

## BAĞIŞLAYIB

*Həsən Mirzəyə ithaf edirəm*

Süfrə açan əllərini,
Allah özü bağışlayıb.
Şölə saçan əllərini,
Allah özü bağışlayıb.

Meydanlarda tac almağı,
Düşmənindən bac almağı,
Hatəm kimi ucalmağı
Allah özü bağışlayıb.

Dostlar yeyən çörəyini,
Əyilməyən biləyini,
Səxavətli ürəyini,
Allah özü bağışlayıb.

Ağarmayan birçəyini,
Dəstələnmiş çiçəyini,
Balla dolu pətəyini
Allah özü bağışlayıb.

Kişi kimi dolanmağı,
Koroğlu tək sallanmağı,
Mehdi kimi xal yığmağı,
Allah özü bağışlayıb.

***Bakı, 1996***

## YARADIB

Dağlar oğlu Həsən müəllim!
Allah səni pir yaradıb.
Ellər deyir yüz nəfərdi,
Yox-yox ancaq bir yaradıb.

Dağlarımın lalasını,
Vətənimin qalasını,
İbrahimin balasını,
Yaradanım dürr yaradıb.

Çiçəkləri gilə-gilə,
Qüzeylərdə silə-silə,
Muradtəpə gəldi dilə,
Öz oğlunu şir yaradıb.

Döyüşlərdə döyülməyən,
Namərdlərə əyilməyən,
Mərifətdə söyülməyən,
Ər oğlunu ər yaradıb.

Mehdi, demə bu bir baxtdı,
Xal qazanıb xalı çoxdu,
Kişilikdə tayı yoxdu,
Gövhər üstə zər yaradıb.

***Xızı-Altıağac, 14 i yun 1998***

## QARDAŞ

Koroğlu tək insanların
Qadasını alım qardaş.
Leyli deyən cavanların
Toy şənliyini çalım,qardaş.

Ələyəzin çiçəyindən,
Arı qonan ləçəyindən,
Gözəllərin göyçəyindən,
Sazla söhbət salım,qardaş.

Könlüm istər bu çağımda,
Dədəm əkən gül bağımda.
Suyu buzlu göy dağımda,
Bircə gecə qalım, qardaş.

Günəş doğar karvan keçər,
Qəvvas olan göhər seçər,
Kim nə əksə onu biçər,
Biz olmayaq zalım,qardaş.

Mehdi yalan yazanlara,
Yuxunu tərs yozanlara,
Bizə quyu qazanlara,
Qılıncımı çalım, qardaş.

## BALASINI

Oğlum gedib əsgərliyə,
Gözüm gəzir balasını.
Qoruyuram gözüm kimi,
Dağlarımın lalasını.

Polad kimi əriyirəm,
Dörd bir yanın bürüyürəm,
Kirpiyimlə qoruyuram,
Gözlərimin alasını.

Mehdi deyər, yoxlayaram,
Hara getsən, haqlayaram,
Köksüm üstə saxlayaram,
Ürəyimin parasını.

## O DAĞLARIN ÇOBANLARI

Koroğluya qardaşdılar
O dağların çobanları.
Bulaqlara sirdaşdılar
O dağların çobanları.

Dost yolunda candan keçər,
Çəhlimlərdən yollar keçər.
Hatəm kimi süfrə açar
O dağların çobanları.

Atı nazlı çaxmaq çalar,
Dolaylarda cığır salar.
Qoyunlardan quzu alar
O dağların çobanları.

Mən demirəm ərinirlər,
Çən-dumana bürünürlər,
Şimşək kimi görünürlər
O dağların çobanları.

Qartalların qıy səsidi,
Babəklərin nəvəsidi
İgidlərin dədəsidi
O dağların çobanları.

Toy günündə sevinirlər,
Cıdırlarda öyünürlər.
Uduzanda deyinirlər
O dağların çobanları.

Vətənimə çıraqdılar,
Mən Mehdiyə ocaqdılar,
Bir-birindən qoçaqdılar
O dağların çobanları.

## DANIŞIR

Dildən iti olan kəslər,
Yerli-yersiz söz danışır.
Anlamayan elə bilir
Alim kimi düz danışır.

Altunların qədrin bilən,
Söz –söhbətin yerin bilən,
Elimləri dərin bilən.
Hər suala düz danışır.

Söz var düşər dildən-dilə,
Söz var bəmdən qalxar zilə.
Söz var bənzər qızılgülə,
Çox bilənlər az danışır.

Yaltaqlıqla başa çıxan,
Vicdan satıb,evlər yıxan,
Haq-divanda peşman baxan,
Dil dolaşır,göz danışır.

İnsanların qeyrətindən,
Mərd igidin şöhrətindən,
Qəhrəmanlar qüdrətindən,
Mehdi yazıb,söz danışır.

## *QOŞMALAR*

### SAXLA
*(Ustadnamə)*

Aqil məclisində, natiq yanında,
Yersiz demə, danışmağa söz saxla.
Mübtəlası olma varın-dövlətin
Dostun olsa, ilqarın düz saxla.

Namərd adamların yorğunu olma,
Suyu axarı ol, durğunu olma,
Hər yetən gözəlin vurğunu olma,
Fitnə başına baxma, göz saxla.

Arı kimi pətəyində bal qazan,
Sərsəm olma, el-obada xal qazan,
Könül qırma, zəhmət çəkib mal qazan,
Dalaşanda barışmağa üz saxla.

Süfrə aç, çörək ver, xəsis utandır,
Qananın qulu ol, qanmazı qandır,
Ocaqlar söndürmə, ocaqlar yandır
Qar-boranlı günlərinə köz saxla.

Sərvətin olsa da qumara qoyma,
Şeytana aldanıb, tumara uyma,
Mehdinin sözlərin əfsanə sayma,
Pisləri at, yaxşıları yaz, saxla.

## OLMAZ

Dəli könül, demə dünya mənimdir,
Ömür karvanını əyləmək olmaz.
Hər yetən gədəyə sirdaşdı deyib,
Sir sözünü ona söyləmək olmaz.

Ürəkdən xaini, qəlbi qaranı,
Qəlbimi bürüyən kədər boranı,
Sinəmə vurulan yaman yaranı,
Vaxtı yetişməmiş teyləmək olmaz.

Mehdi də canını odlara yaxdı,
Çevrildi dövranı, çevrildi taxtı,
Əcəl yastığına dayanan vaxtı,
Azreili aldadıb piylənmək olmaz.

## OLMAZ

Uzaq görən, ata sözü eşidən,
Tutduğu işlərdən xəcalət olmaz.
El içində pak oturub, pak duran
Ürəkdən sağ olar, xəyanət olmaz.

Boş qabıyla el içində tanını,
Gül-çiçək yerinə qanqal əkənin,
Özünü varına çəpər çəkənin,
Gözü əldə olar, səxavət olmaz.

Yaxşı adam el içində tanını,
Hey artırar şöhrətini-şanını.
Mehdi dostdan əsirgəməz canını,
Namuslu insanda qəbahət olmaz.

## OLMAZ

Yaxşılıq toxumun ək ki, biçəsən
Həmişə əlində ixtiyar olmaz.
Ağılsız insana taleh neyləsin
Sərvəti olsa da bəxtiyar olmaz.

Haqq yolunda zəhmət çəkən usanmaz,
Doğru söz itidir əyilər, sınmaz,
Dost dostdan inciyər ürəkdən dönməz,
Dönsə ilqarında etibar olmaz.

Mehdi, dərd bilənə de sən dərdini,
O, öyərinib hər kitabı, hər dini,
Harayla şahların şahı mərdini,
Dadına yetişər qəlbi xar olmaz.

## OLMAZ

Könül, hər deyilən sözə inanma.
Çünki hər sözün beh-bazarı olmaz.
Arvad təklif edib, qonaq eyləsə,
Qaxar başa inan, ilqarı olmaz.

Arvad malın özünə mal eyləmə,
Hər ötən sirrini ona söyləmə.
Hərdən də hirslənib, üzünə gülmə,
Hörmətdən düşərsən, həmkarı olmaz.

Ürəkdən yanana belini bağla
Bəxtinə yazılan elinə bağla.
Mehdi, səhvlərini dilinə bağla
Azaldar hörmətin, dəmvarı olmaz.

## İSTƏMƏ

İstəyirsən sənə yaxşı desinlər,
Qarşındakın nadan sanıb, pisləmə.
Yaxşılardan yaxşı dərs al, adam ol,
Tüstü olub,könlüm evin hisləmə.

Tərəqqindən düşsən, tənəzzül etsə,
Talehin tərlanı uzaqdan ötsə,
Tutduğun tərlanın əlindən getsə,
Hay vurub, qıy vurub, artıq səsləmə.

Mehdinin öz xalqı saysa yaxşıdı,
Halal qazanc, halal maya yaxşıdı,
Cavan oğlan, abır-həya yaxşıdı,
Məzluma əl açıb, pərə istəmə.

## GEDƏCƏK

Bu dünya deyilən, geniş meydandır,
Hər gələn atını çapıb, gedəcək.
Əqlilə talehi cəm olan kəslər,
Dünyanın şöhrətin tapıb, gedəcək.

Zəhmətsiz özgədən şirə çəkənlər,
Qonşunun malına gözün dikənlər,
Quzğun kimi leş axtarıb sökənlər,
Namusun, qeyrətin atıb, gedəcək.

Ləl axtarıb, dəryalarda üzənlər,
Laçın kimi səmalarda süzənlər,
Fərhad kimi "Şirin" deyib gəzənlər,
Yalçın qayaları çapıb, gedəcək.

Aldanma xainin yağlı dilinə,
Zəhər tökəcəkdir dostluq gülünə,
Gücü çatsa, səni alıb əlinə,
Çolpa qiymətinə satıb, gedəcək.

Mehdinin dilinə gəlməz yalanlar,
Əhdiylə ilqarı doğru olanlar,
Kökləyib sazını eldə çalanlar,
Axır muradına çatıb gedəcək.

## DƏYMƏ

Özgələr sözünə uyan qardaşım,
Sinəsi alovlu budağa dəymə.
Bağban ol, gül yetir, bülbül incitmə,
Bizim bağçamızda budağa dəymə.

İlişmişəm fitnəkarın çilinə,
Qurulub, uymusan şeytan felinə,
Qadağa ver həcv deyən dilinə,
Mərifətlə danışan dodağa dəymə.

Mehdinin sözünü sən özün haqla,
Ondakı fikiri əməlli yoxla,
Ağır ol, çəkini özündə saxla,
Tarazı saxlayan qadağa dəymə.

## GÜLƏRMIŞ

Ürəkdən xainə, qəlbi qaraya
Ariflər kəc baxıb, mahal gülərmiş,
Mərdin məclisinə namərd gələrsə
Müxənnət həcv deyib, naqqal gülərmiş.

Məcazi mənalı nakəs bir bəndə,
Utanmaz-utanmaz düşür hər kəndə.
Gördüyü işlərə, tutduğu fəndə,
Şeytan fitnə verib, baqqal gülərmiş.

Namusu yedəkdə vara çəksələr,
Mehdini yandırıb, nara çəksələr,
Aslanı zəncirdə dara çəksələr
Tülkü meydan açıb, çaqqal gülərmiş

## GEDƏR

A dostlar, məhəbbət olmasa əgər,
Yer üzündə bəşər yox olub, gedər.
Qızlar oğlan deyər,oğlanlar da qız,
Gecə-gündüzləri ax olub, gedər.

Lazımdır ki, yar qadasın yar ala,
Dəli könül, əm ləbindən, yarala.
"Qoca ləzzət çəkə, cavan sarala"
Qağa, belə işlər çox olub, gedər.

Mehdi də həmişə toyda-büsatda,
Gözəllik eşqilə yaşar həyatda.
Xoruzsuz yumurta toyuğun altda,
Nə qədər çalxasa, lax olub gedər.

## QALARMIŞ

Bu dünyada heç bir kəsi olmayan,
Susuz səhralarda çöldə qalarmış,
Fırtınalı gündə, dəniz içində,
Gəmisi qərq olub, göldə qalarmış.

Əriməz dağ kimi qarı olmayan,
Qonaq eyləməyə varı olmayan,
Məhəbbət artıran karı olmayan,
Piyada yorulub, yolda qalarmış.

Mehdinin cibində pulu olmasa,
Süfrədə çörəyi dolu olmasa,
Haqqı dərgahına yolu olmasa,
Bütün arzuları dildə qalarmış.

## YAXŞIDI

Qürbət ölkələrin gözəl qızından,
Qonşu qızlarının koru yaxşıdı.
Namərd süfrəsinin yağlı aşından,
Mərdin turş ayranı, şoru yaxşıdı.

Doymamışam Dərələzin dağından,
Behiştə bənzəyən cənnət bağından,
Anamın tutduğu kərə yağından,
Deməm, yağının bəhr-barı yaxşıdı.

Necə oldu mən Mehdinin babası,
Ermənilərə qaldı eli-obası,
Cənnət oldu yad ellərin sobası,
Ocağımın külü, qoru yaxşıdı.

## MANAT

Saxəli mərdlərin şanı-şöhrəti,
Açılan süfrəsi, əlisən manat.
Bağlı qapıların min bir açarı,
Xeyri deyənlərə bəllisən, manat.

Lalların dilisən, bəşərin gözü,
Şirincə kamalı, şirincə sözü,
İnsanın mənliyi, insanın özü,
Qohumu, qardaşı, elisən, manat.

Məclisdə demirlər: "Kimin oğlusan?"
Cibində yoxdursa, qolu bağlısan,
Çirkin gözəlliyi, dəli ağlısan,
Mehdinin qılıncı, dilisən, manat.

## ÇƏLƏBI FATMANI ZİYARƏT EYLƏ

İqbal səni Tərəqqindən salarsa,
Çələbi Fatmanı ziyarət eylə!
Cəllad olub həyatını çalarsa,
Çələbi Fatmanı ziyarət eylə!

İnsanın bəlası hey gəlir pünhan,
Allaha yalvarıb eyləyir fəqan,
Övladın qürbətdən qayıdan zaman,
Çələbi Fatmanı ziyarət eylə!

Asılmaz, basılmaz dayaq olarsa,
Xilqətdən sirilən payın olarsa,
Oğlunun, qızının toyu olarsa,
Çələbi Fatmanı ziyarət eylə!

Mehdi, öp Həcərin qanlı daşından
O İmam Hüseynin kəsik başından
Sonra da Fatmanı ziyarət eylə!
Çələbi Fatmanı ziyarət eylə!

## DAĞLAR

Payız fəsli ellər səndən köçəndə,
Viranə görünür yurdların, dağlar.
Hər yerindən gediş-gəliş yox olur,
Oylaqda ulaşır qurdların,dağlar.

Torağayı sınır güney döşündə,
Qız-gəlin görünmür bulaq başında,
Tərlanlar qıy vurur qarlı daşında
Şaxtadan bozarır otların,dağlar.

Elə ki, başlayır qara-borana,
Mehdinin qəlbini edir virana,
Ellər də köç edir,köçür arana,
Düzlərdə səyrimir atların, dağlar.

## O DAĞLAR

Köçbəyin baharı, Qısırın dağı,
Hilalın gəzdiyi dağdı o dağlar.
Fərhadın bulağı, gözümün ağı,
Hilalın gəzdiyi dağdı o dağlar.

Daş körpüdə Arpaçaydan keçdiyim,
Əyilib doyunca suyun içdiyim,
Turşsudan özümə yaylaq seçdiyim,
Hilalın gəzdiyi dağdı o dağlar.

Ala göldə su çilənib üzümə,
Keti dağda maral dəydi gözümə,
Sarı bulaq qüvvət verdi sözümə,
Dedi Hilal gəzən dağdı o dağlar.

Yüz bulaqdan keçdim Dəvə üzünə,
Süfrə sərdim bulaqların gözünə,
Ordan yendim Bazar çayın düzünə,
Deḑim Hilal gəzən dağdı o dağlar.

Dəli Dağdan aşdım Sultan Heydara,
Gecələdim səhər gəldim Qoşqara,
Biri dedi: sən hara, bura hara,
Dedi Hilal gəzən dağdı o dağlar.

Tərtər çaydan qızıl balıq ovladım.
Meşəsində ceyran, cüyür qovladım,
Quzu kəsib qazançada tovladım,
Dedi Hilal gəzən dağdı o dağlar.

Mehdiyəm bağrım başın teylədim,
Saz götürüb el-obanı əylədim,
Hüseyni də tapıb ona söylədim,
Xəzan vurdu, viran oldu o dağlar.
Dedi Hilal gəzən dağdı o dağlar.

## DAĞLARIN

Yenə payız gəlib, solub, saralır,
Yamanca dəyişib halı dağların.
Çiçəyi sovulub nazlı yaylağın,
Çəkilib şirəsi, balı dağların.

Əsən küləklərdə hay-haray salır,
Hikkəli təbiət min hava çalır,
Qışda yetimlər tək kimsəsiz qalır,
Dərəsi, təpəsi, yalı dağların.

Mehdi, qartal qonub güney daşına,
Zirvələr buludu çəkib başına,
Qar elə qalanıb Gədik qaşına,
Hər yandan kəsilib yolu dağların.

## GƏLİR

Yayda yaylamalı səfalı dağlar,
Toy libası geyib ellərin gəlir.
Yağış yağır, qar əriyir, ot bitir,
Bənövşə qıvrımlı tellərin gəlir.

Qayaları döyəcləyib ötüşən,
Dənizlərlə qucaqlaşıb öpüşən,
Çöl-çəmənin harayına yetişən,
Min bir şəlaləli sellərin gəlir.

Şimşəklər oynayır, kəsilir nərəm
Mehdiyə səs verir kəklikli dərən,
Məxmər quzeylərdən gül-çiçək dərən,
Bəzəyi solmayan əllərin gəlir.

## YADIMA DÜŞDÜ

Qarlı quzeylərin lalə, nərgizi,
Dəli Dağın gözü yadıma düşdü.
Ala güllər, Murad təpə, Çaxmal daş,
Qar arxacın düzü yadıma düşdü.

At belində o yerlərdən keçdiyim,
Oylaqlarda gözəl yaylaq seçdiyim,
Əyilib doyuncan suyun içdiyim,
Bulaqların gözü yadıma düşdü.

Arxaçlarda çobanların ocağı,
O dağlarda yaylaqların qucağı,
Maral inəklərin sarı qaymağı,
Çiyənin ağ üzü yadıma düşdü.

Keti axarında çoban bulağı,
Qırmızı dağ o dağların papağı,
Pəsinin, Musanın gözəl yaylağı,
Min çiçəkli yazı yadıma düşdü.

Kəngərlidə şehli-şehli gəzdiyim,
Dəstə tutub bənövşəsin üzdüyüm,
Mehdiyəm, vəsfinə dastan yazdığım,
Sarı yerin özü yadıma düşdü.

## QALIB

Ay Mənsurə, getdim çıxdım vətənə,
Sonalı göllərim sonasız qalıb.
Bir kəklik ovlayıb bağrıma basdım,
Dimdiyi, ayağı xınasız qalıb.

Getdim çıxdım Herherdəki evimə,
Nəzir, niyaz qoydum Ərkəz pirinə,
Qırxbulaqdan torpaq yığdım civimə,
O yaşlı yaylaqlar obasız qalıb.

Nərgizlərdən dəstə tutub bağladım,
Ağ bulaqda ellər deyib ağladım,
Çaylar kimi aşıb-daşıb çağladım,
Toy-büsatlı dağlar kamansız qalıb.

Qıy vurdum qayalar səs verdi mənə,
Sarıyerdə düşdüm dumana çənə,
Güneyvəngdən alça gətirdim sənə,
Ceyranlar, cüyürlər anasız qalıb.

Bol bulaqdan su gətirdim gözümdə,
Necə getdim-gəldim bilməm özüm də,
Dostlar, kimlər olar məntək dözümdə,
Sonalı göllərin sonasız qalıb.

Dığalar o yerdə məskən salıbdır,
Vətən Dərələyəz girov qalıbdır,
Yurdumun başını duman alıbdır,
Qıy vuran qartallar yuvasız qalıb.

Mehdi, Mənsurənin gözü yoldadır,
Torpaq su istəyir, bu vüsaldadır,
Vətən həsrətindən yaman haldadır,
Yurdunu itirib, yuvasız qalıb.

## OLMUŞAM

Məcnunuyam çiçək açan dağların,
Vətəni yolunda Kərəm olmuşam
Bülbülüyəm nərgiz bitən bağların
Xilqətimi o yerlərdən almışam.

Gen dərədən Gədikvəngə keçmişəm,
Bulaqlardan ovuc-ovuc içmişəm,
Qumunu əliyib göhər seçmişəm,
Qəvvas kimi dəryalara dalmışam.

Hicranın dərdi də qəddimi əydi,
Vətən oğulları hamısı bəydi.
Üçüncü bəndində xətrimə dəydi,
Sizdən şübhələnib məəttəl qalmışam.

Ovçu oylağında özümü yordum,
Dostun qulluğunda qul kimi durdum.
Gəlinlər gətirdim, məclislər qurdum,
Sazımı zilbəndə, elə çalmışam.

Mehdi deyər daşa dəyməsin oxum,
Malanı çəkmərəm səpməsəm toxum,
Gündüz xəyalımsız, gecələr yuxum,
Həmişə sizləri yada salmışam.

## SOLUBDU

Elimin, günümün vətən Ballısı,
O lalə yanaqlar niyə solubdur?
Qaranlıq gecədə şam kimi yanan,
O şəhla gözlərin niyə дolubdur?

Yendim getdim Qırxbulağın düzünə,
Süfrə saldım bulaqların gözünə,
Qar yağmışdı ayağının izinə,
Daşların üstünə əksin qalıbdır.

Nazəniyə de sən, məlul durmasın,
Kədərdən, qüssədən özün yormasın,
Düşmən toxmağıdır tez qocalmasın,
Hayların qəlbinə o xal qalıbdır.

Novruz bulağından içib doydunuz,
Yaramın qaysağın yaman soydunuz.
Xızı meşəsində bir iz qoydunuz,
Bu da ürəyimdə bir dərd olubdu.

Sağlıq olsun, gəlim bir də görüşək,
Yallı gedək, deyək, gülək, gülüşək.
Mehdi deyər dostlar, gəlin sarışaq,
Fələk ömrümüzə qılınc çalıbdır.

## GÖYÇƏ SİZİNDİR

Doğma yerlərindən perik düşənlər,
Vətənə qayıdın, Göyçə sizindir.
Yurd-yuvasını atıb gedənlər,
Vətənə qayıdın, Göyçə sizindir.

Məlul-müskül olmuş o uca dağlar,
Yadınıza düşər, könül qan ağlar,
Şaxta olar, yollarınız buz bağlar,
Vətənə qayıdın, Göyçə sizindir.

Hanı aşıqların o telli sazı,
Ellər oxşardı gözəl avazı,
Göyçə mahalının gəlini, qızı,
Vətənə qayıdın, Göyçə sizindir.

Orda dəfn olunub ulu babalar,
Sizləri səsləyir, ellər-obalar,
Sönübdü çıraqlar, yanmır sobalar,
Vətənə qayıdın, Göyçə sizindir.

Şeytanın felinə uyub gəldiniz,
Ömür sarayını oyub gəldiniz,
Ələsgər, Alını qoyub gəldiniz,
Vətənə qayıdın, Göyçə sizindir.

Zodlu Abdullanın qohum-qardaşı,
Talıbın, İmanın ürək sirdaşı,
Qəza üz veribdi olmayın naşı,
Vətənə qayıdın, Göyçə sizindir.

Saçlar ağarsa da, ürək təzədi,
O yerlərdə insan ömrü yüzədi,
İsmixan, Haqverdi, sözüm sizədi,
Vətənə qayıdın, Göyçə sizindir.

Zəhər düşdü süfrənizin aşına,
Dolanaram mahalının başına,
Qurban olum torpağına, daşına,
Vətənə qayıdın, Göyçə sizindir.

Həsrət ürəyimi çarpaz dağladı,
Qəhərləndi çaylar kimi çağladı,
Mehdi sizi gördü yaman ağladı,
Vətənə qayıdın, Göyçə sizindir.

## GÖYÇƏ

Qərib insanların yay düşərgəsi,
Könül quşlarının budağı Göyçə.
Şaqraq bulaq kimi qaynayır, axır,
Cığalı təcnisin ocağı Göyçə.

Ələsgəri doğan doğdu dürdanə
Mərd oğula süd veribdir mərdanə.
Ellər də söyləyir mərdi-mərdanə,
Hamıdan çox sevir qonağı Göyçə.

Mən Aşıq Mehdinin binası sənsən,
Ağarmış saçların xınası sənsən.
Aşıq sənətinin anası sənsən,
Saz tutan əllərin qucağı Göyçə.

## DAĞINDA

Yollar yolçusuyam, səyyar bir səyyah,
İqbala yetişdim Murat dağında.
Mərdlər məclisində qarşıma çıxdı,
Gül kimi açıldı ellər bağında.

Pərişan məclisdə şəkliyə döndü,
Oxuyan oxudu, dinləyən güldü.
Şükür də bağbandır, qardaşı güldü,
Gəlib əyləşmişdir özgə çağında.

İgidlər butağı, Murat təpəsi,
Mehdinin oylağı Murat təpəsi,
Ellərin fərağı Murat təpəsi,
Elə bil asılıb bostan tağında.

## İSTİSU

Xəstə ikən yolum düşdü obana,
Dağlar çiçəklənib elə İstisu.
Şehli çəmənlikdə sənəm çiyninə
Müjdə gətirmişdi sənə İstisu.

Bulutları burum-burum burulur,
Qayalar qoynunda çadır qurulur,
Gələn qonaqların halı sorulur,
Çox mehriban gəldi mənə İstisu.

Bir yanı obadır, bir yanı qaya
Sızar bulaqları, tökülər çaya,
Coşqun fəvvarələr qalxır havaya,
Bürünüb dumanə çənə İstisu.

Gəldi bahar, açıb qızılgülləri,
Gör necə gözəldi Azər çölləri,
Mehdi də sazıynan şirin dilləri,
Söyləyir bir dənəsən, dənə İstisu.

## DÜŞÜB

Kəlbəcər dağları qana bələnib,
Ömür bağçamızın yarpağı düşüb.
Qoyunlar, quzular mər-mər mələşib,
Çobanın əlinin çomağı düşüb.

Sarı bulaq Təhlə deyib çağlayır,
Ceyran bulaq Tatalları ağlayır,
Həmin qaya sinəmizi dağlayır,
Çünki torpağa yad ayağı düşüb.

Dumanlı, çiskinli dağları qarlı,
Hatəm səxavətli, süfrəsi varlı,
Loğman təbiətli, zərli, zibalı,
Aranın başının papağı düşüb.

Tərtər çayı indi daha neynəsin,
Sağ solunda bəs kimləri əyləsin,
Qız, gəlinlər dərdin kimə söyləsin,
Xalçası talanıb, darağı düşüb.

Mehdinin sazı da telin itirib,
Yaşılbaş sonalar gölün itirib,
Kəlbəcər mahalı elin itirib,
Talanmış dağlara sorağı düşüb.

## YAVAŞ-YAVAŞ

Bağçalar içində gəzən gözəl qız,
Lalədən, nərgizdən üz yavaş-yavaş.
Əlində saxlama, inciyər səndən,
Buxağın altına düz yavaş-yavaş.

Mən bilmirəm, sən də mən həvəsdəsən,
Yardan yaralısan, həm də xəstəsən,
Axşam-səhər yarı görmək istəsən,
Güllü bağçaları gəz yavaş-yavaş.

Sevib-seçilməyə uymuşam mən də,
Mehdiyəm, canımdan doymuşam mən də,
Yolunda başımı qoymuşam mən də,
İstərsən kəs, istərsən əz yavaş-yavaş.

## OLMAZ

Mən sənə baxanda,baxma deyirsən
Məhəbbət gözdədir, baxmasam olmaz.
Sənin kimi bir gözəlin yolunda,
Canımı odlara yaxmasam olmaz.

İstər öldür, istər məni yarala,
Al bıçağı, vur neştəri, yarala,
Ovçu bərəsinə düşmüş marala
Çəkilmiş çaxmağı çaxmasam olmaz.

Bəs necə sevməyim açan bir gülü?
Ağladıb, incitmə şeyda bülbülü,
Laləni, nərgizi, süsən, sünbülü,
Tər buxaq altına taxmasan olmaz.

Hürülər pərisi, canan yolunda,
Dərdimin dərmanı,qanan yolunda,
Sənin təki bir cananın yolunda,
Çaylar kimi daşıb, axmasam olmaz.

## XOŞUM GƏLİR

Qaşların cəllad tək alır canımı,
Alırsan canımı al, xoşum gəlir.
Hökümdarsan, höküm işlər, ay zalım,
Eşqin zindanına sal, xoşum gəlir.

Yanağın almadır, gözlərin mərcan,
Dodağın qaymaqdır, döşlərin fincan,
Hüsnünə valehdir bütün bu cahan,
Geyibsən əyninə şal, xoşum gəlir.

Darayıb zülfünü hörəndə, gözəl,
Mehdini axtarıb görəndə, gözəl,
Zəbanı dəhanə verəndə, gözəl,
Dəhanda dadacaq bal, xoşum gəlir.

## DEYİLƏM

Yanıram oduna, könül ver mənə,
Qəlbimi özgəyə verən deyiləm.
Qoynunda xəstəyə dərman deyirlər,
İcazə verməsən, deyən deyiləm.

Qarlı dağlar əgər kəssə aranı,
Dörd yanımı alsa çovğun-boranı,
Get gətir and içim, " Quran"ı,
Sən dönsən də, mən ki, dönən deyiləm.

Mehdiyəm, istərəm sübh-sabahdan,
Mehtaba gözəldən, ayna qabaqdan,
Bir busə istərəm dildən-dodaqdan,
Əməcəyəm doyunca, yeyən deyiləm.

## GÖRDÜM

Bir gün Ədəbiyyat muzeyində mən,
Ölməz sənətkarın sazını gördüm.
Dünya xalqlarına təravət verən,
Sirlər xəzinəsinin sözünü gördüm.

Kəsilmiş saçları pərişan halda,
Sanki şer deyir böyük bir zalda.
Hansı şair olar bəs bu kamalda,
Deyirəm Vurğunun özünü gördüm.

Mehdiyəm, ağlayıb bulud tək doldum,
Gül kimi açılıb, gül kimi soldum,
Tüfəngi götürüb bir nişan aldım,
Nişanda ceyranın gözünü gördüm.

## AY BABA

Qəbrinə əyildim öz nəvən kimi,
Nələr yaradıbsan bizə, ay baba.
Yüz il bundan qabaq yazdığın şeri,
Elə bil yazmısan təzə ay baba.

Qəbrinə baxdıqca mən heyran-heyran,
Daşından oxudum neçə min dastan,
Sənətin laçını,ey böyük insan,
Təcnisdə vurğunam sizə,ay baba.

Dərin ümmanları təkcə keçmisəm,
Dəryalardan ləli-gövhər seçmisən,
Anan Göyçə, Geytidən su içmisən,
Onçun yaşın çatıb yüzə, ay baba.

Qəbir torpağından bir az götürdüm,
Dağlar aşıb Kəlbəcərə gətirdim,
Tərtər çayla Qarabağa yetirdim,
Onu yaydım bizim düzə, ay baba.

Babam Ələsgərin məşhurdu adı,
Qəlbimi yandırır ayrılıq odu,
Mehdinin arzusu, diləyi budur,
Sən gəzən yerləri gəzə, ay baba.

## YAVAŞ-YAVAŞ

Ay böyük sənətkar, ay Dədə Şəmşir,
Qəvvassan, dəryada üz, yavaş-yavaş.
Yazıb-yaratdığın duzlu sözləri,
Könül dəftərinə düz yavaş-yavaş.

Qurbanı yetirən bağın barısan,
Azəri yurdumun iftixarısan,
Böyük sənətkarın yadigarısan,
Tərlansan, dağlarda süz yavaş-yavaş.

Bu gözəl Vətəndə, bu gözəl çağda.
Vurğunu gəzəydi o Dəlidağda,
Qazaxda, Gəncədə, Mil, Qarabağda,
Sədəfli sazınla gəz yavaş-yavaş.

Aşığın mizrabı ayrılmaz teldən,
Bu gözəl Vətəndən, bu gözəl eldən,
Bərəkətli düzdən, pambıqlı çöldən,
Dastanlar yaradıb, yaz yavaş-yavaş.

Həştad yaş da sizə azdı a Şəmşir,
Məhəbbət körpüsü sözdü, a Şəmşir,
Mehdi deyir, indi yazdı, a Şəmşir,
Lalədən, nərgizdən üz yavaş-yavaş.

## VURĞUN

O rəssam fırçanla, qızıl qələmlə,
Saysız lövhə cızdın çöllərə, Vurğun.
Ana torpağıma zər-ziba düzdün,
İncilər yaratdın ellərə, Vurğun.

Söz çatarmı bir de, sənin sözünə,
Sürmə çəkdin ceyranların gözünə,
Şölə saldın, Mil-Muğanın düzünə,
Min-min bəzək vurdun güllərə, Vurğun.

A qartal qanadlı, laçın xəyallı,
Məcnun məhəbbətli, Leyli vüsallı,
Dodağı nəğməli, sözləri ballı,
El-obada düşdün dillərə, Vurğun.

Ceyran bulağında şirin söz dedin,
Aşıq Şəmşir, Dəlidağı gəz dedin,
Kəklikli daşlara belə yaz dedin,
Vurğundur Dürrədə tellərə Vurğun.

Kaş Mehdiyə dərsi özün verəydin,
Könül sarayını zərlə hörəydin,
Ölməyəydin, bax bu günü görəydin,
Nəğmələr qoşaydın illərə Vurğun.

## XOŞ GƏLDİN

Ey ana yurdumun əziz şairi,
Bahar təzə, könül təzə, xoş gəldin.
Saz götürüb qulluğunda durmuşam,
Sənətdə vurğunam sözə, xoş gəldin.

İki səs səhnədə verib baş-başa,
Həqiqət vicdanı salıbdır daşa,
Şerin mayağısan, səni yüz yaşa,
Şölənlə dünyanı bəzə, xoş gəldin.

Yada salıb Qarabağın elini,
Sizə salam deyir qızı, gəlini,
Şair Bəxtiyarın sıxıb əlini,
El-oba söyləyir: bizə xoş gəldin.

Dağlarımızın sürmə çəkir qaşına,
Qartallar qıy vurub, qonur başına,
Ehtiram Vurğunun qoç qardaşına,
Mən bunu demirəm üzə, xoş gəldin.

Mehdinin qüdrəti, ey böyük alim,
Görüşünə gəlib qohumum, elim,
Sinəmdə ürəyim, ağzımda dilim,
Deyir cansağlığı, sizə xoş gəldin.

## AYRILDI

Xalqın sənətkarı Məzahir Daşqın
Obadan ayrıldı, eldən ayrıldı.
Sözün süxəndanı, şerin dəryası,
Sazının mizrabı teldən ayrıldı.

Ay ellər, siz gəlin, tez gəlin görək,
Əyildi nə qafil o polad bilək,
Daşqın yol üstədir, dayandı ürək,
Şana barmaqları teldən ayrıldı.

Uca zirvələrdən aşan şairin,
Alovlu odlarda bişən şairin,
Qələmi əlindən düşən şairin,
Ayağı çəməndən, çöldən ayrıldı.

Mehdi, ustad köçdü sözlü yaylaqdan,
Qartal qayalardan, ovçu oylaqdan,
Bağban bağlarından, tərlan bulaqdan,
Bülbülün naləsi güldən ayrıldı.

## SƏNDƏDİ

*(Söz ustası Xuduya)*

Sənətin allahı,sazın ustası,
Ağaca dil verən əllər səndədi.
Ərzurum dağında borana düşən,
Kərəmə yol verən yollar səndədi.

Qarlı gədiklərdən aşrımlar aşan,
Kərəm tək alışıb, Məcnun tək coşan,
Dəniz tək çağlayan, çaylar tək daşan,
Sazlarda titrəyən tellər səndədi.

Mehdiyəm, ay xuda, qəvvaz istərəm,
Qadiri-sübhandan muraz istərəm,
Bu qoca çağımda bir az istərəm
Onda min dil açan dillər səndədi.

## XOŞ GƏLMİŞSİNİZ

Özbək qardaşımız, özbək elimiz,
Odlar torpağına xoş gəlmişsiniz.
Xalqının diliylə Vətənim deyir,
Anam qucağına xoş gəlmişsiniz.

Vurğun nəğməsinin min bir qəzəli,
Dodaqları ballı, sözü məzəli,
Oğlumun Leylası,əkə gözəli,
Ozan ocağına xoş gəlmişsiniz.

Yurdum-yuvam qarşılayır çörəklə,
Sinəsi ordenli polad biləklə,
Mehdiyəm, deyirəm açıq ürəklə,
Yazın gül çağına xoş gəlmişsiniz.

***4 iyun 1979-cu il***
***Özbəklərin Azərbaycana gəlməsi ilə yazdım.***

## NƏVƏN OLUB
*(Bəxtiyar Vahabzadəyə ithaf edirəm)*

A şair Bəxtiyar, gözünüz aydın,
Eşitdim, çox şükür qız nəvən olub.
Sözün süxəndanı, şer dəryası,
Ömrü uzun olsun, yaz nəvən olub.

Kök atsın, ucalsın qollu-budaqlı,
Göylərə sığmasın zəkası ağlı.
Hürülər pərisi, o şam çıraqlı,
Elçilərə etsin naz, nəvən olub.

Saçın hörsün, çalma çalsın başına,
Tuman geysin,döşlük taxsın döşünə,
Geyvənlik etsin toy qardaşına,
Aşıq Mehdi çalsın saz, nəvən olub.

## MƏNİM

Ay Aşıq Ələsgər, yatmısan oyan,
Hara köçür gedir ellərim mənim?
Göyçə mahalına bir deyinən dayan.
Vaxtsız saralacaq güllərim mənim.

Doğma yurdların atıb getdilər,
Qəmlər dəryasına batıb getdilər.
Həsrət ocağını çatıb getdilər,
Xalqa çatmayacaq əllərim mənim.

Talıba de, Kəlbəcərə atlansın,
Nəcəfə de, Qarabağa yollansın,
İslama de, Mil-Muğana sallansın,
Sonasız qalacaq göllərim mənim.

Milli dərəsində kəklik vurmuşam,,
Versin dağlarında köhlən yormuşam,
Keti yaylağında məclis qurmuşam,
Kimsəsiz qalacaq çöllərim mənim.

Mehdi, unutdunuz Aşıq Alını,
Ozan sənətinin Rüstəm-Zalını,
Gətirə bilmirəm sözün dalını,
Necə nəğmə desin dillərim mənim.

## SEVİNİR

Aşıq Ələsgərin bayram günüdür,
Vətənim sevinir, ellər sevinir.
Göyçə təcnis deyir, Qarabağ muğam.
Bənövşə, nərgizli çöllər sevinir.

El aşığı ümmüm kimi dərindir,
Oddan alovludur, buzdan sərindi,
Hər sözü-söhbəti baldan şirindi,
Dodağa dəydikcə dillər sevinir.

Dəli Alı igidlərin yüzüdü,
Səhnəbanı gözəllərin gözüdü,
"Xırdaca qız" Ələsgərin özüdür.
Bülbüllər oxuyur, güllər sevinir.

Mehdi müəlliməm, əlimdə çıraq,
Oxudum babamı mən varaq-varaq.
A dostlar, yığılın bir məclis quraq,
Bu gün sazımdakı tellər sevinir.

## GƏZƏYDİK QOŞA
*(Həsən müəllimə ithaf edirəm)*

Mirzəli oğlunun qartal balası,
Vətən dağlarını gəzəydik qoşa.
Şiş bəzənə, ocaq yana, köz düşə,
Müşfiqlə şişləri düzəydik qoşa.

Qız-gəlinlər dağa çıxa,yaylaya,
Qırxbulaqdan kətə sala, yağlaya,
Bənövşədən çələng hörə, bağlaya,
Süsəni,sünbülü üzəydik qoşa.

Kəhər atlar Qırxbulağa çatanda,
Saz dillənə günəş gedib batanda,
Arpaçayı layla çala yatanda,
Nəvələr toyunda süzəydik qoşa.

Qarı nənə çaydan süzə çaylaya,
Qızyetərqaçandan çoban haylaya,
Quzu kəsə, qonşulara paylaya,
Göydən qədəhlərə süzəydik qoşa.

Qarmaq ataq Gədikvəngin çayına,
Qayıl olaq Allah verən payına,
Əl qaldıraq haqq-talanın sayına,
Nərgiz ,bənövşədən üzəydik qoşa.

Muradtəpəsinin sərt yoxuşundan,
Zirvədən qartalın ov baxışından,
Məxmər quzeylərin al naxışından,
İncilərə düzüb yazaydıq qoşa.

Həsən de yəhərləsin atını,
Ellərdə başlasın toy-busatını,
Mehdi , sən aç kitabların qatını,
İbrahimdən inci düzəydik qoşa.

*Tərtər 1999*

## OLMA
*(Həsən müəllimə müraciət)*

Həsən müəllim , Dərələzə gedəndə,
Elimin dağların gəzməmiş olma!
Baharın ilk çağı məxmər quzeydən,
Bənövşə , nərgizin üzməmiş olma!

Qanlı göl göylərə nazını satır,
Yalçın qayaları baş –başa çatır.
Hər daşın altında bir kitab yatır,
Külüngü götürüb qazmamış olma!

Elimin məclisi başa gələndə,
Qız–gəlin bəzənib qoşa gələndə,
Əlinə saz alıb coşa gələndə,
Giribən meydana süzməmiş olma!

Göylər kişnəyəndə axır selləri,
Laləzar eyləyir mavi çölləri,
Dərdimin dərmanı məxmər gülləri,
Tər buxaq altında düzməmiş olma!

Mən Mehdinin bağlasalar gözünü,
İtirmərəm ellərimin izini,
Mirzəli oğlunun inci sözünü ,
Könül dəftərinə yazmamış olma!

*Bakı 1974*

## DIĞA
*(Həcv)*

İştahan itidir, Zori Balayan,
Cızdığın planlar zay olar,dığa.
Sən bilmirsən soyum qulaq kəsəndir,
Xalqımız səylərə tay olar, dığa.

Qarabağdan əl çək, əlin kəsilər,
Papa, mama deyən dilin kəsilər,
Xıcıdur, Vartazar elin kəsilər,
Leşiniz itlərə pay olar, dığa.

Özgə torpağına baxma qırarlar,
Damğa vurub ağzınızı cırarlar,
Sinənizə çal-çarpaz dağ vurarlar,
Hayastanda haray-hay olar, dığa.

Gorusu, Sisyanı keçmək istəsən,
Arpaçayın suyun içmək istəsən,
İravan şəhərinə köçmək istəsən,
Mindiyin köhlən yox, day olar, dığa.

Meydanda olmusan buynuzlu kosa,
Şənliyiniz dönər vay-şivən, yasa,
Qanınız qıcqırıb dolubdu kasa,
Qan yollarınızda çay olar, dığa.

Şirinlik yaxşıdı, acı nə lazım,
Bizə kəc baxanın qəbrini qazım,
Sizə bəs eyləmir benzinim, qazım,
Torpaq sənə oxlu yay olar, dığa.

Laçınımdı zirvədə, həzrət dilində,
Koroğlu sərhəddə, Qırat belində,
Dəlilər yanında, qılınc əlində,
Vətən bölünməz bil, vay olar, dığa.

## KÖPƏKOĞLU
*(Həcv)*

Qudurdub qançığı salmısan çölə,
Mıxçasın qapıda çal, köpəkoğlu.
Ərsiz arvad, yüyənsiz at,-deyiblər,
Noxtasın başına sal, köpəkoğlu.

Dağların başını duman eyləyən,
Üç kişi evini talan eyləyən,
Dəliləri keçib yalan eyləyən,
Dəlinin qaydına qal, köpəkoğlu.

Eşşəkdən törəyən olubdur qatır,
Bazara gedəndə on beş put çatır,
Çöllərdə qurtdanıb, küllükdə yatır,
Ayağına vurdu nal, köpəkoğlu.

Soruşan yox, yazıq Mehdi, halını,
Sözüm çoxdur deməmişəm dalını,
Qancığın qudurdub versən yalını,
Eşit bu sözləri öl, köpəkoğlu.

## SALIM
*(Həcv)*

Adını soruşdum Etibar dedi.
Sənin etibarsız götünə salım
Tuşladı üstümə tapança kimi,
Qırıq kamerana, lentinə salım.

Birisi Sabirdi, sazdı boğazdan
Yedi şeir dedi bahardan, yazdan.
Kəndi Dərəçiçək, rayonu Razdan,
Sənin rayonunun kəndinə salım.

Birisi Malikdi, bir az xəstədi,
Quyruqdan, tikədən yedi əsnədi.
Sonra da o məndən şeir istədi.
Aldatma vermədi fəndinə salım.

Süfrə ətrafında döndülər devə,
Yedilər, içdilər baxdılar kefə.
Mehdi adam bilib gətirdin evə,
Sənin də yanılmış zəndinə salım.

## DÖNƏRSƏN
*(Həcv)*

Gün kimi şığaram açılar başın,
Əriyib qar kimi suya dönərsən.
Dəyərsən yollarda daşdan-daşa sən,
Nəzilib-nəzilib muya dönərsən.

Qacar tək susasan insan qanına,
Hərdənsə düşürsən şeytan donuna.
Qaşıyaram çəkərsən ağac ununa,
Qarışıb şalvarda... dönərsən.

Mehdiyəm tor atıb tutaram səni,
Bazarda dana tək sataram səni
Alıb lapatqaya ataram səni,
Yapıxıb küllük quyuya dönərsən.

## ARVADIM
*(Bəzi çoxdanışan arvadlara)*

Arvadın əlindən zara gəlmişəm,
Söylənməyi edib peşə arvadım.
Dindirsək, əlüstü muftanı basır,
Sürəti dəyişir beşə arvadım.

Dindirəndə hərdən özünü öyür,
Əllərin oynadıb, yanına döyür,
Özümü danlayıb,üzümə söyür,
İstəyir boynumu eşə arvadım.

Top kimi atılır, ayaqda çaxmaq,
Utanıb-çəkinmir o dəli-axmaq,
Sol əldə iskənə, sağ əldə toxmaq,
Az qalır başımı deşə arvadım.

Mən ona yabıyam, o mənə yağı,
Əridib canımı, qalmayıb yağı,
Aradan götürüb qaranı-ağı,
Evimdə söykənib leşə arvadım.

Qonşu qalmır, qohum qalmır, dalayır,
Cismimi yandırıb, oda qalayır,
Halal çörəyimə haram calayır,
Olubdur buynuzdan şeşə arvadım.

Nəzildir ki, iynədən keçirə məni,
Dağlardan-daşlardan uçura məni,
Yamanca tanıyıb biçarə məni,
Hey dərimdən çəkir köşə arvadım.

Mən Ataş oğluyam,oddan düşmüşəm,
Dəmirim korlanıb, zoddan düşmüşəm,
Daha qocalmışam, moddan düşmüşəm,
Əyilmiş qəddimə döşə arvadım!

## SƏNİ

Cavan oğlan kəs səsini ,qıfılla,
Şumlayıb bostan tək əkərəm səni.
Sənin kimi çox qoçaqlar görmüşəm,
Uşaqsan arxamca çəkərəm səni

Daşa çəkib qılıncımı sovlaram,
İşıqlıdan o zülmətə qovlaram,
Mən bir ovçu, bil ki ,səni ovlaram,
Doğrayıb quyuya tökərəm səni.

Adım Mehdi, özüm şiri-şirzadam,
Alınmaz qalayam , bir böyük yurdam,
Əslim Dərələz, qurdoğlu qurdam,
Əmlik quzu kimi sökərəm səni.

## MEHDİYƏM

Qartal vüqarlıyam, dağlar oğluyam,
Vətənə nəğmələr qoşan Mehdiyəm.
Dörd yüz on altının qoç balasıyam,
Hitlerin bağrını deşən Mehdiyəm.

Vurğun görüşündə mehman biz idik,
Koroğlu nərəli cavan biz idik.
Düşməni meydandan qovan biz idik,
Hünər meydanında coşan Mehdiyəm.

Avtomat əlində, döşüm qundaqda,
Əsgərə dayaqdır yaxşı yaraq da,
Qələbə günündə durub qabaqda,
Dostlarımla qucaqlaşan Mehdiyəm.

## 416-nın ƏSGƏRİYƏM MƏN

Cəngavər döyüşlü, cəngavər atlı,
Dörd Yüz On Altının əsgəriyəm mən.
Sinəsi zirehli, Həzi ürəkli.
Dörd Yüz On Altının əsgəriyəm mən.

İgid Mehdilərdən dərsini alan,
Faşizmin yurduna vəlvələ salan,
Hitlerin tacına qılınclar çalan,
Dörd Yüz On Altının əsgəriyəm mən.

Şaxtalı günlərdə səngərdə yatan,
Düşmənin qanını torpağa qatan,
Qələbə günündə Berlinə çatan,
Dörd Yüz On Altının əsgəriyəm mən.

İldırım çaxışlı,şimşək küləkli,
Əyilməz vüqarlı, polad biləkli,
Qəhrəman cüssəli, aslan ürəkli,
Dörd Yüz On Altının əsgəriyəm mən.

Günəşli ölkəmi seyr edib gəzən,
Altmış baharında incilər düzən.
Mehdiyəm, Vətənə nəğmələr yazan
Dörd Yüz On Altının əsgəriyəm mən.

## UTANMIR

Cibə girən, qulaq kəsən dələduz,
Xalqa malı baha satır utanmır.
Ədalət zəncirin boynuna keçir
Dərin ümmanlara batır utanmır.

Burulqandan burum-burum burulur,
Çirkin əməl süzgəclərdən durulur,
Müqəssirə nizam taqaz qurulur,
Soyuq zindanlarda yatır utanmır.

Arpa yolmur tikan bata əlinə,
Buğda biçmir ağrı düşə belinə,
Vicdan yox, doğru gələ dilinə,
Namus, qeyrəti satır utanmır.

Mehdi, rüşvətxorlar halal bilməyir,
Zəhmət çəkib alın tərin silməyir,
Belələri görən niyə ölməyir,
Halalı harama qatır utanmır.

## MƏNİ

Göydə Allah, yerdə sizi bilirəm,
Qoymayın gədələr dolaya məni.
Saqqallı uşağam,altmışdı yaşım,
Nadanlar çalışır bələyə məni.

At görməzlər atın çapır yanımdan,
Qəsbkarlar istər içsin qanımdan,
Düzün deyim, usanmışam canımdan,
Bəzən bənzədirlər dəliyə məni.

Mən qulammı bazarlarda satılam?
Arpayammı samanlara qatılam?
Duz salıyam, duzlaxlara atılam?
Hər yetən yetirib, yalaya məni.

Bəzi insanların xilqəti saxta,
Taleyi gətirib, çıxıbdı taxta.
Qurumuş odunam, atılmış taxta,
Uşaqlar ocağa qalaya məni?

Doğulubsuz Vətənimin elindən,
Heç düşməzsiz mən Mehdinin dilindən,
"Qardaş" deyib, yapışmışam əlindən,
Qoymayın salalar tələyə məni,
Gədələr istəyir dolaya məni.

## LƏKƏLƏNMƏSİN

Əlsiz-ayaqsız tək nəzir yığanlar,
Gəlirinə baxıb, yekələnməsin.
Qarğa kimi qanad çalıb səmada,
" Laçın mənəm" deyib silkələnməsin.

Hər oğuldan olmaz ərkin qalası,
Alında qaşqası, beldə alası,
Bir qotura düşmüş keçi balası,
"Təkə mənəm" deyib təkələnməsin.

Duz-çörək ye, cibkəsənə sarışma,
Evlər yıxıb, əyrilərə qarışma,
Oğruluq eyləyib, yalan danışma,
Haqq divanda dilin kəkələməsin.

Vəzifən var, buraxmısan siftəni,
Çolpa-plov, tez-tez gələn küftəni,
Acgöz olub təpişdirmə müftəni,
Mədənə yığışıb kökələnməsin.

Mehdini eşitsən, torpaqla yarış,
Varlanmaq istəsən, zəhmətə alış,
Adı gözlə, danışanda düz danış,
Ləkə düşüb, adın ləkələnməsin.

## *TƏCNİSLƏR*

### DƏR İNDİ

Zəhmət çəkib bağ becərdim, gül əkdim,
Damcıladı damcı-damcı, dər indi.
Aşıq deyər, dərindən,
Dərdə dərman dər indi.
Loğman gəlsə azalar,
Şəfa verər, dər indi.
Yar bağının bağbanısan, a zalım,
Meyvə dəyib, vaxtı çatdı, dər indi.

Sözü desən, utanma, de üzə sən,
Şirin ol dosta ki, şirin üzəsən.
Aşıq deyər, üzəsən,
Dənizlərdə üzəsən.
Sözü daldada demə,
Həmişə de üzə sən.
Qəvvas olub dənizlərdə üzəsən,
Görərsən ki, ləl dəryası dərindi.

Mehdi istər öz bağının almasın,
Görməyəsiz təbiblərin almazın.
Aşıq deyər almasın
Yar gətirsin almasın.
Qoy canımı o alsın,
Özgələri almasın.
Bir kişinin Allah ağlın almasın,
Bəxt gətirsə, fələk açar dər indi.

### ALMASIN
*(Təcnis)*

Bu xəstə qəlbimin təbibi Leyli,
Yarama nəştər vur dərin olmasın.
Qoynun cənnət bağı barı tərtəmiz,
Saxlama pünhanda dərdin almasın.

Məni atan uzun ömür sürməsin,
Yadlar gəlib karvanını sürməsin.
Qoy mən görüm qaşlarının sürməsin,
Can alansan üzə-üzə alma sən.

Düşüb eşqin dəryasında üz barı,
Gəl Mehdinin güllərini üz barı.
Qoy söykənsin sinən üstə üz barı
Məkəs qonub şirəsini almasın.

## BAX-BAX

Laçın könlüm, pərvaz eylə havaya,
Qarğa tərlan tutur, cürətə, bax-bax.
Qurbağa tullanır, ceyran sayağı,
Ondakı yerişə, sürətə bax-bax.

Baxan varmı şər işlərin halına,
Nə düşmüsən, düz ilqarın dalına,
Dünyanın güzgüsünü götür əlinə,
Binası əyilmiş cənnətə bax-bax.

Vəfalı dost xəstə dosta qan verir,
Yalan dostu bunu görüb yan verir,
Bir gün gördüm nəfəs gedir, can verir,
Tünbətün deyilən lənətə bax-bax.

## ÇATAÇAT

Əti duzla, çək şişləri hazırla,
Odun doğra çat ocağı, çataçat.
Köz düşəndə şişi döşə qızarsın,
Yar dediyi vaxta tələs çataçat.

Neyləyirsən özgələrin sinisin,
Vətənin qucağında sin isin,
Yadlar görsə sevdiciyin sinəsin,
Cəsəd yanar, alovlanar çataçat.

Mehdi istər yar da yardan yarısın,
Fəda etsən yara canın yarısın,
Canan görsə cananının yarısın,
Görəcəkdir cadarlanıb çataçat.

Əzizinəm, üz alə,
Verməram üz alə.
Namərdin iç üzünü
Tök ələyə yüz alə.

Əzizinəm, bir iki,
Bülbül birdi gül iki.
Cəsətində beş şey var
Dördü üçdü biri iki.

Əzizim, qarasına,
Qaşların qarasına.
Yolların işıq olsun
Ağ yana qarasına,

Əzizinəm, şir Asdan,
Əbilhəsəndi Şirasdan.
Bu gün bir oğlan gördüm
Həm toydan gəlir, həm yasdan.

Əzizinəm, bir dəndi,
Doğulubdu bir dəndi.
Dünyaya bax birdəndi.
Gedişin bax birdəndi.

Əzizim, özgəsinə,
Şirindi özgə sinə.
Gözlərin nə qəşəngdi
Baxmaya özgəsinə.

Əzizim, yedək saxla,
Atına yedək saxla.
İstəsən sağ qalasan,
Dilini gödək saxla.

Aşıq, yazım ağlasın,
Əldən sazım ağlasın.
Yadlar yalan ağlayır
Qoyun qızım ağlasın.

Əzizim, sana düşür,
Aqillər sana düşür
Gədələr gəzənlər,
Həmişə qana düşür.

Kəklik daşın ağrıdar
Qələm qaşın ağrıdar.
Arvad bildiyin edir,
Kişi başın ağrıdar.

Əzizim, əlim çıxıb,
Vətəndən elim çıxıb.
Bulaqlar haya qaldı
Susuzdan dilim çıxıb.

Əzizim, çiskin olar,
Dağ başı çiskin olar.
İtirdim vətənimi
Bundan da pis gün olar.

Əzizim, yasa məni,
Dər gətir yasəməni.
Aparırsan toya apar
Aparma yasa məni.

Əzizinəm, bal düşər,
Arı uçar bal düşər.
Oğlan qızı öpəndə,
Yanağına xal düşər.

Əzizim, oddan çıxmaz,
Pərvanə oddan çıxmaz.
Dərələyəzi itirdim
Axi bu yaddan çıxmaz.

Aşıq yaman çağlayır,
Qəlbin elə bağlayır.
Girov düşən Tərtərim
Səhra deyib ağlayır.

Əzizinəm, nə tərzi,
Nə daş ver, nə tərəzi.
Kişini tez qocaldar
Arvadın natərəzi.

Əzizinəm, sıldırımı,
Qayaların sıldırımı.
Kişinin payın yeyər
Arvadın holdurumu.

Əzizim, üzündən öp,
Ketinin üzündən öp.
Əyil Sarı bulağın
Qucaqla gözündən öp.

Əzizinəm, nə simdi,
Pərdəsiz bu nə simdi.
Çıxam bir də dağlara
Daha deyəm bəsimdi.

Əzizim, od ələndi,
Ağacı o dələndi,
Dağlar yadıma düşdü,
Başıma od ələndi.

Aşıq deyər, dərindi,
Dərdə dərman dər indi.
Loğman gəlsə azalar
Şəfa verər tər indi.

Aşıq deyər, almasın,
Yar gətirsin almasın.
Qoy canımı yar alsın
Özgələri almasın.

Əzizinəm, qar silə,
Dərələrdə tar silə,
Dünyadan arzum budu
Yar tərini yar silə.

Əzizinəm, yara de,
Ürək sözüm yara de.
Həkim gəlsə sağalmaz
Loğmanımdı, yara de.

Mən aşıq, sağı yaxşı,
Dostluğun sağı yaxşı.
Namərdin şan balından
Mərd verən ağı yaxşı.

Mən aşıq, dərdin olsun,
Qızıldan zərin olsun.
Köntöy baxma dostuna
Dostluğun dərdin olsun.

Əzizinəm, mərd ünü,
Şeş at, oyna nərdini.
Biri oyunda udar
Biri çəkər dərdini.

Əzizinəm, sinəsi,
Mərd igidin sinəsi.
Tuş oldu namərd oxa
İgid oğul sinəsi.

Aşıq deyər, üzəsən,
Ümmanlarda üzəsən.
Sözü daldada demə
De, həmişə üzə sən.

Mən aşiqəm tər gülə,
Bülbül qonur tər gülə.
Girəm yarın qoynuna
Bələnəm mən tər gülə.

Əzizinəm, yüz qala,
Ömür yaşın yüz, qala.
Əmim yarın ləbindən
Silinməyən iz qala.

Əzizinəm, dağa gəl,
Gül saraldı dağa gəl.
Könül səni istəyir
Min atına dağa gəl.

Əzizinəm, lal eylər,
Arı şanda bal eylər,
Yarın oğrun baxışı
İnan məni lal eylər.

Əzizinəm, bux ara,
Başında var Buxara.
Mən ki, gülə vurğunam
Gül vurğundu bux ara.

Əzizinəm, mərd ana,
Səni doğub mərd ana.
Gözlərinə vurğunam
Qoy söyləyim mərdana.

Əzizinəm, ağ dama,
Yolum düşdü Ağdama.
Dostuna kəj baxanın
Gözlərinə ağ dama.

Atı bozdu gədənin,
Kefi sazdı gədənin.
Bazburutdan yaxşıdı
Ağlı azdı gədənin.

Eləmi, özgəsinə,
Yaramaz özgə sinə.
Yarıma canım qurban
Baxmaram özgəsinə.

Əzizinəm, yüz il yaz,
Yüz il bahar, yüz il yaz.
Hüsnün kimi gül olmaz
Dövran keçsə yüz il az.

Mən aşıq, daşla məni,
Al daşı daşla məni .
Fələkdən bəla yensə
Yazar hey başda məni .

Əzizinəm, yayındı ,
Kaman oxdan yayındı.
Namərd gördü dardayam
Tez yanımdan yayındı

Eləmi sinəsi nəm,
Dağların sinəsi nəm.
Lilparlı bulağın
Əyil sinəsindən əm.

Mən aşıq, yara qanlı
Üz vermiş yara qanlı,
Yarla qanlı olmazdım
Sən etdin yara qanlı.

Gözlərin xumar indi,
Yaş tökər, yumar indi.
Gözlərim yarı gördü
Sevgisin umar indi.

Pəncərədən baxan yar,
Canım oda yaxan yar,
Ağa kimi oturub
Yağı kimi baxan yar.

Səbət dolu gavalı,
Yedim oldum havalı,
Elinizdən qız sevdim
O da çıxdı davalı.

Ay yarım, Araz mənəm,
Kür sənsən, Araz mənəm.
Sən axıb durulmusan
Eşqimlə taraz mənəm.

Əzizinəm, dəstə gülə,
Telindən dəstə gülə.
Namərdi qoyma,könül,
Dərd bilən dosta gülə.

Bağça sızlar bar üçün,
Alma üçün, nar üçün,
Qərib canım çürüdü
Bir vəfalı yar üçün

Gün təki batmaz oldun,
Yaman əl çatmaz oldun.
Gözüm yollarda qaldı
Nədən qayıtmaz oldun?

Ustad əli butanda,
Al geyinər kətan da.
Namərd arxa çevirər
Əli qazanc tutanda.

Əzizinəm,yad üzə,
Ya dərəyə,ya düzə.
Qoyma qönçə gülümü
Əlin atıb yad üzə.

## AŞIQ MİRZALI

Mirzəyev Mirzalı Əziz oğlu 1929-cu ildə Dərələyəzin Sallı kəndində dünyaya göz açmışdır. Çox erkən ata-anasını itirən Mirzalı Banının himayəsində yaşamışdır. Orta təhsilini Dərələyəzin Qovuşuq kəndində aldıqdan sonra o babası Aşıq Cəlilin sənətini yaşatmağa meyl etmiş və Sallılı Aşıq Qulunun şəyirdi olmuş və eldə, obada yaxşı səsə, yaxşı avaza malik olan bir aşıq kimi tanınmışdır. 1949-cu ildə Ermənistan hökuməti tərəfindən deportasiyaya məruz qalmış, Azərbaycanın Səlyan rayonunda məskunlaşmışdır.

Respublikada ustad aşıq kimi tanınan Aşıq Mirzalı 1965-ci ildə Naxçıvan Muxtar Respublikasında Aşıqlar birliyinə sədr təyin edilir və 1970-ci ilə qədər orada fəaliyyət göstərir. 1970-ci ildən başlayaraq Tərtər rayonunun Qaynaq kəndinə köçüb ömrünün axırına kimi orada yaşayır. Sadəlövlük ucundan 1981-ci ildə türməyə də düşmüşdür. 1992-ci ildə böyrək xəstəliyindən dünyasını dəyişmişdir. İndi onun 4 oğlu, 2 qızı var.

Aşıq Mirzalı saysız-hesabsız qoşmaların, gəraylıların, deyişmələrin, dastanların müəllifidir. Onlardan bir qismini burada verməklə kifayətlənirik.

### *GƏRAYLI*

#### VAR

Doğru tanı məni hakim,
Ellər sevən sənətim var.
Həqiqətdən söz açanda,
Dürlü göhər qiymətim var.

Zülüməti görür gözüm,
Daha tükənibdi sözüm,
Haqsız işə necə dözüm,
Nə dövlətim, sərvətim var?

Şeytanlar bərədə yatdı,
Müstəntiq məni allatdı,
Mirzəliyəm baxtım yatdı,
Oyatmağa minnətim var.

### *QOŞMALAR*

#### QALMADI
*(Ustadnamə)*

Yüz iyirmi dörd min peyğəmbər getdi,
Fani dünya Süleymana qalmadı.
Kərəm yandım dedi, Fərhad dağ çapdı,
Məcnun Leyli dedi, bir kam almadı.

Kimi var topladı, kimisi ağıl,
Kimi söz gəzdirdi, kimisi ahıl,
Kimi qız bəslədi, kimisi oğul,
Kimisinə övlad qismət olmadı.

Yüz ağıl neyləsin bir yatan baxta,
Baxtın oyanarsa çıxarsan taxta,
Ağılsız baş vallah saxtadı, saxta,
Saxta ağıl boş kəlləyə dolmadı.

Çoxunun qisməti gəldi çətindən,
Barsızlıq yaxşıdır el töhmətindən,
Çoxu var topladı el sərvətindən,
Axır getdi, heç kəs yada salmadı.

Çoxların sınadım daşdı ürəyi,
Hesaba almayan duzu, çörəyi,
Mirzəli, çoxları etdi diləyi,
Qəvvas olub dəryalara dalmadı.

## BAĞIŞLA
*(Cənabəmir Əlehsalama ərizə)*

Şahların şahısan möhlət ver ağa,
Özün et dərdimə çarə bağışla.
Köməyim ol övladlara çatmağa,
Əlindəki Zilfiqara bağışla.

Pirhünər adına düz ilqaram mən,
Yolunda can versəm bəxtiyaram mən,
Bilirəm qarşında günahkaram mən,
Yazılıbdı baxtım qara bağışla.

Allahın şirisən əzizdir adın,
Sənə bel bağlıyan alır muradın,
Kərbəla düzündə on bir evladın,
Şəhid olan imamlara bağışla.

Yalvarıram yad et zəlil bəndəni,
Bağışla günahım əff eylə məni,
Bu günümdə sevindirmə düşməni,
Havadarsan havadara bağışla.

Əvvəli ibtida adındı Əli,
Haqqın kəlamına demisən bəli,
Sığınır adına yazıq Mirzəli,
Özün et dərdinə çara bağışla.

## ARASINDA

Özün gör yarını, özün danışdır,
Belə bir misal var el arasında,
Dostlar sadiq olar qohum mehriban,
Olmasa hərcayi dil arasında.

Ömür bəzəyidi bir Vəfalı yar,
Hər şeydən üstündür vicdan, düz ilqar.
Pak bir gülüstana qona bilməz xar,
Bülbül sehr eyləyər gül arasında.

Mirzəli burada çəksən də zillət,
Çalış qardaşa da eyləmə minnət,
Qərib ellər dönüb olsa bir cənnət,
El-obana qayıt qal arasında.

## HƏSRƏT

Qollarım da bağlı, yolum da bağlı,
Xəstə könlüm qalıb dağlara həsrət.
Gecə yuxum yoxdu, gündüz qərarım,
Tükənib göz yaşım ağlara həsrət.

Nə deyim dövrana, nə deyim vaxta,
Umud qalmayıbdı o yatan baxta.
Devran puç olubdu insanlar saxta,
Keçirdiyim gözəl çağlara həsrət.

Mirzəli mərtlərə məhəbbət bəslə,
Alacax cəzasın kim dolsa qəstə,
Bülbül kimi nalə çəkib qəfəsdə,
Bağçalara həsrət bağlara həsrət.

## AŞIQ

Mərd ilə çörək ye, mərd ilə əyləş,
Namərdin yanında qalma, ay aşıq.
Əsli kök olandan əmanət istə,
Sonradan görəndən alma, ay aşıq.

Tale düz gətirə gərək əzəldən,
Ətir gəzmə payız tökən xəzəldən,
Ehtibar gözləmə yetən gözəldən,
Eşqin ürəyinə salma, ay aşıq.

Mirzəli, gizlətmə xoş avazını,
Sədaqətə çatdır öz murazını,
Ruhları oxşayan telli sazını,
Qanmazın yanında çalma, ay aşıq.

## OĞUL
*(nəsihət)*

Vəsiyyət yüngüllük həm də şəfadır,
Dünya cifasına aldanma, oğul!
Nə qədər çox olsa dostun, sirdaşın,
Nə bada heç kəsə inanma, oğul!

Ehtibar eyləmə dosta, qohuma,
Nəlayıq işləri heç vaxt yuma,
Dünya vəfasızdır yatma, uyuma,
Çalış şöhrət qazan yubanma, oğul!

Hər gözələ uyma, onlardan yan keç,
Ömür şərbətinin zülalından iç,
Əvvəl nəslin yoxla, sonra zatın seç,
Nacins bedasıla calanma, oğul!

Haqqın yazısından tapsan da xata,
Kəsmə umudunu düşsən zülmata,
Bir qohum ki səni dar gündə ata,
Tez uzaxlaş ondan dayanma, oğul!

Əvvəldən belədir dünyanın işi,
Daim qarşıdadı yeniş, yoxuşu,
Əvvəldən fikirləş tutduğun işi,
Heç kəsin yanında utanma, oğul!

Mirzəli tanıyır mərd insanları,
Zəhmətinlə topla dövləti varı,
Talan gördüm haqsız var yığanları,
İbrət al onlardan talanma, oğul!

*11 sentyabr 1981-ci il.*

## YAXŞIDIR
*(nəsihət)*

Namərd dünyasında, bic əyyamında,
Sirrini saxlasan pünhan yaxşıdır.
Həqiqi düz sözlər isbata keçmir,
Namərdə söyləsən yalan yaxşıdır.

Ağır gündə ehtibarsız qohumnan,
Beqeyrət qohumdan arsız qohumnan,
Açıx-aşkar xeyir karsız qohumnan,
Qan içən bir qəddar düşmən yaxşıdır.

Mirzəli axtarma həqiqət dostun,
Səsin öz qəlbindi, sədaqət dostun,
Hərcayı, saxtakar, bemərfət dostun,
Yükləsən belinə palan yaxşıdır.

*14 sentyabr 1981-ci il*

## ƏLİ
*(Oğlum Əliyə)*

Gözümün nurusan, son beşiyimsən,
Sənsiz vurmaz mənim ürəyim, Əli!
Yaraşır adına Ağamın adı,
Çünki sənsən şöhrət, dirəyim, Əli!

Dar gündə Ağamdan vaxt diləyəydim,
Canımı yolunda qurban verəydim,
Möhlət alıb bir də səni görəydim,
Deyil artıx ömür gərəyim, Əli!

Gecə gündüz səbrim yoxdur yatmağa,
Daha dözəmmirəm vaxt uzatmağa,
Səbrim tükənibdi sənə çatmağa,
Adın özü olsunköməyim, Əli!

El, oba oxuyur nəhlət şeytana,
Haqqın özü verib möhlət şeytana,
Həm namussuz, həm beqeyrət şeytana,
Qənim olsun halal çörəyim, Əli!

Əziz balalarım, əziz övladlar,
Cəzasına çatacaxdı zülümkar,
Mirzəli də sizə xoş gün arzular,
Budur tək Allahdan diləyim, Əli!

***20 sentyabr 1981-ci il.***

## DİLİNDƏDİR

Mərifətli, qabiliyyətli, insanın,
Hər zaman layıxlı söz dilindədir.
Hər kim dönüb olsa bir od, bir alov,
Özünü yandırar köz dilindədir.

Hərcayı danışan bemürvət insan,
Hörməti, izzəti bir dəfəlik qan,
Söyüşlər yağdırıb desən də hədyan,
Onun dadı, tamı öz dilindədir.

Unutma qəlbində söz yaraşığın,
Çətindi görəsən namərd işığın,
Mirzəliyəm vətən sevən aşığın,
Daim güllü bahar, yaz dilindədir.

***10 avqust 1981-ci il.***

## SAZDADIR

İnsan ürəyinin şah damarında,
Musiqinin xoş avazı sazdadır.
Ata babaların hikmətli sözü,
Ömrümüzün gələn yazı sazdadır.

Sazdadır ünsiyyət həm də həqiqət,
Dosta həm düşmənə yaradır ülfət,
Dünya tarixində saf bir məhəbbət,
Vəfalı gəlini qızı sazdadır.

Sazda çalınanda yanıx kərəmi,
Dəhşətə gətirir bütün aləmi,
Alimin, şairin odur həmdəmi,
İslam aləminin özü sazdadır.

Haqqın özü barat veribdi ona,
Ustatdır kamana, tara, qarmona,
Verəndir yaraşıx min bir dastana,
Haqq yolunun Piyandazı sazdadır.

Sazınan bəhs etsə əgər gitara,
İşıx kəsiləndə qalar avara,
Sazdı şöhrət verən mərd insanlara,
Hatəmin, comərdin izi sazdadır.

Sazdı təranəsi açılan gülün,
Onu sevməyənlər nadandı bilin,
Əli zülfüqarı atı düldülün,
Ləpiri gözəldir, tozu sazdadır.

Hər kim yada salsa keçən anların,
Bilki dayağıdı müsəlmanların,
Tarixdə ad qoyan Pəhlivanların,
Qüvvə alan güclü dizi sazdadır.

Ruhani, Sarıtel çal sərin-sərin,
Aşıxlıx elmidi mənada dərin,
Aşıx Alı, iman bil Ələsgərin,
Söhbəti sazdadı, sözü sazdadır.

Düşəndə ellərdə aşıxlıx bəhsi,
Yüksəldi göylərə Cəlilin səsi,
"Cəlili" havası, bülbül nəğməsi,
Göldə üzən quba qazı sazdadır.

Xalqıma bağlıdı bu saf ürəyim,
Şad olsun vətənim, budur diləyim,
Eşqim, məhəbbətim, duzum, çörəyim,
Mirzəlinin görən gözü sazdadır.

## YEREVANDADIR

Əslimi, nəslimi soruşan qardaş,
Ömrümün növrağı Yerevandadır.
Birgə xalqı niyə iki bölürsən,
Nəslimin sorağı Yerevandadır.

Yersiz yerli deyib seçən xalqımın,
Dost yolunda candan keçən xalqımın,
Öz elində qərib düşən xalqımın,
Yanan çıl çırağı Yerevandadır.

Göyçə bir mahaldır şair oylağı,
Səs salıb dünyaya düşüb sorağı,
Aşıq Ələsgərin qaynar bulağı,
Şeir güllü bağı Yerevandadır.

Bir cənnət bağıdır bil Dərələyəz,
Ormanı, oylağı gül Dərələyəz,
Namusda, qeyrətdə Cul, Dərələyəz,
İyitlər yığnağı Yerevandadır.

Bir zaman gəzmişəm dağda, aranda,
Çox sinə gərmişəm qarda, boranda,
Yayın istisində bürkü vuranda,
Aranın qonağı Yerevandadır.

Qeyrətlilər öz xalqını atarmı,
İyid olan vətənini satarmı,
Mərd namərdin kölgəsində yatarmı,
Qədir bilməz yağı Yerevandadır.

Andronik hücum etdi Sisyana,
Qoç iyitlər onu boyadı qana,
Düşmən təslim oldu Kəlbəli xana,
Tarixin varağı Yerevandadır.

Abbasqulu bəy də xalqı oyatdı,
Çox qisaslar aldı, murada çatdı,
Əbədi göz yumdu, Vedidə yatdı
Aldı sinə dağı Yerevandadır.

Mirzəliyəm, indi bəs niyə yadam,
Azər vətənimdi ürəkdən şadam,
Yadıma düşəndə anamla-atam,
Yatdığı torpağı Yerevandadır.

## EYLƏR

Yazıq kasıb cömərdlikdən dəm vurar,
Varını paylayar bir ülfət eylər.
Varlı xəsisliklə milyona çatar,
Birvarı çıxanda bir il fət eylər.

Leyli nahar çağırıram ay ağa,
Vətənimdə büküleydim ay ağa,
Namərd günahsızı salar ayağa,
Mərd günah bağışlar mərhəmət eylər.

Mirzəliyəm tükənibdi qanım az,
Nəf eylərəm bu dünyada qanım az,
Nakəs vəzifədə qohum tanımaz,
Ömür kitabında bir qələt eylər.

## ETDİM

Əvvəldən haqsızsan ay qoca dünya,
Sən neçə dəhşətli nahaq qan etdin.
Mərdləri eylədin namərdə möhtac,
Nakəs gədaları firavan etdin.

Haqqı gəzən, fəda edən canını,
Dağıtdın onun da xanımanını,
Şeytanların dəyişdirdin donunu
İslam aləmində müsəlman etdin.

Könül sarayını alıbdı duman,
Aldanma fənaya ey aqil insan,
Külli baharımı eylədin duman,
Yazıq Mirzəlini imtahan etdim.

## YATIR

Bu qoca dünyada ikinci məzar,
Görməmişdim gördüm hər insan yatır.
Bulunmaz dərdinə dərman axtaran,
Dərtli qoca yatır, həm cavan yatır.

İqbalın kəc gəlsə gün olsa qara,
Fələk qarğıyana tapılmaz çara,
Qəza bəd gətirib düşübdü tora,
Qolları qüvvətli pəhlivan yatır.

Ah vay içindədi neçə min canlar,
Bəzən hiddətlənib özünü danlar,
Kamına çatmayan cavan oğlanlar,
Sürməyib həyatda bir dövran yatır.

Kimi ana deyir, qəm, kədər çəkir,
Kimi bala üçün göz yaşı tökür,
Kimi öz qəmini içində çəkir,
Kimisi ah çəkir ucadan yatır.

Bu sonsuz məzarın Türmədi adı,
Burda yatan seçir qohumu, yadı,
Göründə dadına çatan olmadı,
Dünyadan əl üzüb hər zaman yatır.

Bəzi düz sözünün bəlasın, çəkib,
Bəzi daimalıx qəm kədər əkib,
Bəziləri namus üstə qan töküb,
Bəzisi eyləyib nahaq qan yatır.

Başacan görmədim şirin tam dadan,
Haqq görmədim bu vəfasız dünyadan,
Sağ böyrümdə ah çəkirdi bir nadan,
Mirzəli onunla yanba-yan yatır.

## TÜRMƏDƏ

Saniyəsi bir gün, dəyqəsi bir ay,
Hər saatın bir il olur Türmədə.
Düşgün ixtiyarlar, cavan iyitlər,
Saralıb gül kimi solur Türmədə.

Çoxları bu yerdə baxtın sınadı,
Qəmlər ocağında gülən olmadı,
Bi ehtibar dostu, qohumu, yadı,
Onları sınayır bilir, Türmədə.

Bəzi şərə düşüb nahaxdan yatıb,
Bəzi həm özünü, həm dostu satıb,
Bəzi qəm ucundan dəryada batıb,
Ağlayıb göz yaşı silir türmədə.

Vəfasız dünyaya yoxdu ehtibar,
Gahdan günəş eylər, gah yağdırır qar,
Vəfalı qohumlar, həqiqi dostlar,
Bir onlar salama gəlir, Türmədə.

Bəzilərin qəza tutub maşında,
Cəza çəkir fərqi yoxdu yaşında,
Bəzi sərxoş olub süfrə başında,
Ayılıb başını yolur türmədə.

Hər kim ki dözəmmir haqsız işlərə,
Türməni xoş bilir yatır bir kərə,
Ton çıxır təkrar gəlir dübarə
Kamına çatmayır ömür türmədə.

Qeyrətin ucundan tutulan da var,
Bu dünya malına satılan da var,
Pis ailə ucundan atılan da var,
And içib daima qalır, Türmədə.

Bir vaxt zəli kimi soran insanı,
Göz yumurdu, tanımırdı sübhanı,
Soyulub qabığı çıxanda canı,
Onda ibrət dərsin alır türmədə.

Dərindi bu yerin sorğu suvalı,
Zəhərdən acıdı şəkəri, balı,
Çox sözlər eşitdi Aşıq Mirzalı,
Gah ağlayır, gah da gülür, Türmədə.

## MƏNİ

Varsa da ölümüm möhlət ver Allah,
O min bir adına bağışla məni.
Qazamatda yatan məsum bəndədi,
Özün sal yadına bağışla məni.

Cəbrayıl da ərş üzündə dayandı,
Cavab verəmmədi şapəri yandı,
Yetmiş il dəryada günlərin sandı,
Onun ustadına bağışla məni.

Özün sağalt Mirzəlinin yarasın,
Unuda bilmirəm imamət yasın,
O qolları kəsik Həzrət Abbasın,
Ahu fəryadına bağışla məni.

## EYLƏDİN

Dad sənin əlindən zülmətli türmə,
Çoxların yurdunu veran eylədin.
Zimistana döndü güllü baharı,
Ömür yollarında boran eylədin.

Arzum var düşmən də görməsin səni,
Zəlil eyləmisən şahı, gədanı,
Bircə sevindirdin biti birəni,
Taxta bitini də şulan eylədin.

Ağartdın başını neçə canların,
Vayısı sən oldun nahaq qanların,
Yalanı bilməyən mərd insanların,
Doğru sözünü də yalan eylədin.

Çoxların başından aldın ağlını,
Zəhərə döndərdin şəkər, balını,
Yığıb topladığı halal malını,
Rüşvətxora verib talan eylədin.

Mirzəli, varını versən də çərmə,
Qətlinə fərman ver bu yerə girmə,
Cəhənnəmin son bucağı ey türmə,
Kədərlər artırıb tüğyan eylədin.

*8 oktyabr Xalaç 1981*

## GÖRMÜŞƏM

Ey dəhşətli türmə, qorxulu türmə,
Səndə alimi də dəli görmüşəm.
Pəhlivan cüssəli mərd iyitlərin,
Əsməcə tutmuşdu əli görmüşəm.

Orda umud gözləyən sirdaşından,
Ehtibar görmədi öz qardaşından,
Həsrət ilə çox gözlərin yaşından,
Qanlı dərya kimi gölü görmüşəm.

Nəlayiq işləri çoxdu dünyanın,
Çoxunun zəli tək sordular qanın,
Bülbül təki ötən natiq insanın,
Daha söz tutmurdu dili görmüşəm.

Altay oldu altmış ilə bərabər,
Kaş ki görməyəydim qurulaydı dar,
Dar günündə qaçan dostlar, qohumlar,
Dəyişdi onların halı görmüşəm.

Mirzəli dostları, düşməni tanı,
Yetişsin dadıma kəramin kanı,
Yaşasan da mərd edirsən dünyanı,
Çoxları sağ ikən ölü görmüşəm.

*10 oktyabr 1981-ci il Xalaç*

## UNUTMA

*(Türmənin rəisinə)*

Mahmud müəllim ədalətin, hörmətin,
Güntək tutub bu diyarı unutma.
Darda qalanlara Pənah olmusan,
Səbəbkarsan səbəbkarı unutma.

Dünyanın gərdişi bir uçan quşdu,
Bu vəfasız həyat yeniş, yoxuşdur,
İnsan ömrü həmi bahar, həm qışdı,
Zimistanda yağan qarı unutma.

Məzlumları hər kim yada salıbdı,
Dastan olub tarixdə ucalıbdı,
Ata həsrətilə məlul qalıbdı
Gözü yaşlı balaları unutma.

Kim ki dost vəfasın dar gündə gördü,
Elə bil xəznədən simuzər götdü,
Demirəm insanlar hamısı birdi,
Baxtı yaman dustaxları unutma.

Mirzəliyəm bu kəç baxtı atıram,
Dərd qəm adlı bir dəryadı batıram,
Qazamatın bucağında yatıram,
Nəzərdə tut sənətkarı unutma.

*15 iyul 1981 Xalaç*

## CƏBRAYILOV

*(Yenə də xalaç türməsinin rəisinə)*

Əlim ətəyində, dilim duvada,
Məni nəzərinə al Cəbrayılov.
Vicdanın təmizdi bütün el bilir,
Sənətkarı yada sal Cəbrayılov.

Sükan kimi əldə tutub qeyrəti,
İşığa salırsan hər bir milləti,
Hər vaxt unutmursan haqq, ədaləti,
Seçmisən bir doğru yol Cəbrayılov.

Xoş kəlamla məhbusu dindirirsən,
Yaxşını, yamanı seçib bilirsən,
Ərzəsini alıb sevindirirsən
Çəkirsən mübarək qol Cəbrayılov.

Məhbus kimi məndə sıraya durdum,
İlhamlı şeirdən bir qala qurdum,
Çıxış eliyirdi mən fikir verdim,
Süzür hər kəlmədən bal Cəbrayılov.

Mirzəliyəm əlli iki yaşım var,
Dostlarım önündə uca başım var,
Könlümdə mərd adlı bir sirdaşım var,
Sən özün qaydıma qal Cəbrayılov.

*16 iyul 1981 Xalaç*

## ANAMIN

Səndən gileyliyəm Səlim qardaşım,
Dedin mənə qəmli sözün anamın.
Deyəydin qardaşım toya gedibdi,
Nəmli etməyəydim gözün anamın.

Yaxşı seç dostunu, düşməni tanı,
Anadan müqəddəs bir insan hanı,
Geşd eləyib cənnət görsən hər yanı,
Könül tələb edir özü anamın.

Mirzəliyəm telli sazı çalaydım,
Ana laylasından ilham alaydım,
Arzum budu ölməyəydim, qalaydım,
Dadaydım xörəyin, duzun, anamın.

## AĞLADIM

Bu gecə yuxuda vəfasız qardaş,
Sənin gül üzünü gördüm ağladım.
Bir vaxt devran sürdük eldə, obada,
İndi qazamatdı yurdum ağladım.

Gördüm su basıbdı bütün türməni,
Özünü yetirib ayıltdın məni,
Gözümü açanda görmədim səni,
Uşax tək bir şivən qurdum ağladım.

Həqiqət yolunda səfərdə oldum,
Mirzalıyam haqsız türmədə oldum,
Dostlux aləmində sərkərdə oldum,
Baxdım ki dağılıb ordum ağladım.

*18 iyun 1981-ci il Şuşa*

## ŞAMO DAYI

Boylandı hasardan məni görməyə,
Əlində bir dəsdə gül, Şamo dayı.
Baxdım gözlərinə nəmli göründü,
Ağlama göz yaşın sil, Şamo dayı.

Bu günlərim qoy sinəmdə dağ olsun,
İstəyən qohumlar, dostlar sağ olsun,
Ömrün işıxlansın, canın sağ olsun,
Daim ömür boyu gül, Şamo dayı.

Car çəkirəm eşitsinlər, bilsinlər,
Pis adamlar sənə qurban olsunlar,
Gözləyirlər cinazama gəlsinlər,
Sən özün üstümə gəl, Şamo dayı.

Haqqa min bir ada eylərəm şükür,
Hər kim pislik əksə özüçün əkir,
Bu bir imtahandır seçdim birbəbir,
Tanıdım hamını bil, Şamo dayı.

And içirəm yaxşıları atmaram,
Pis qohuma bir də əl uzatmaram,
Mirzəliyəm bu günü unutmaram,
Lap keçsə də neçə il, Şamo dayı.

*3 oktyabr 1981 Xalaç*

## AĞLASIN

Bu günümdə qohum qardaş yad oldu,
Mənim əvhalımı ellər ağlasın.
Ümmana qarışdı çeşmimin yaşı,
Car oldu köhsümdə sellər ağlasın.

Can deyən çox oldu işrət çağımda,
Əbədi gül yetişmədi bağımda,
Kaş ölüb qalaydım öz torpağımda,
Qürbətə gətirən yollar ağlasın.

Tək gəldim cahana yoxdu qardaşım,
Qəmnən ayılmadı bəlalı başım,
Qürbətə atıldı torpağım, daşım,
İmdadsız məhbusu çöllər ağlasın.

Zalım fələk tərsə yazdı yazımı,
Döndəribdi Zimistana yazımı,
Alıbdı əlimdən xoş avazımı,
Qəmli sazımdakı tellər ağlasın.

Həqiqət yolundan üz döndərmədim,
Həvəslənib evlad toyu görmədim,
Qızımın səadət saçın hörmədim,
Bülbüllər qəm yesin, güllər ağlasın.

Özüm təkəm, tək allahı çağırram,
Dada yetən qibləgahı çağırram,
Ərişdə vuran şeydullahı çağırram,
Bunu yad eyləyən dillər ağlasın.

Dar gündə sınallar qohum-qardaşı,
Bu bir imtahandır deyiləm naşı,
Könül sarayından atılan daşı,
Yazıb nəzmə çəkən əllər ağlasın.

İnsaflıydım nainsafa tuş oldum,
Gördüm ki cəlladdı mən behuş oldum,
Dünyanı mərd etdim, mən bir quş oldum,
Uçuban gedirəm, illər ağlasın.

Əldə dəsmal Mirzəlini ağlayın,
? qoyun başa qara bağlayın,
İnnən sonra çaylar kimi çağlayın,
Ummana qarışan göllər ağlasın.

*28 aprel 1981-ci il Şuşa*

## ALLAH KƏRİMDİR

Gözü yolda qalan zavallı məhbus,
İnşaallah çıxarsan Allah kərimdir.
Sənə qatil olan zalım nakəsin,
Axrına çıxarsan Allah Kərimdir.

Dema ki dardayam kömək duran var,
On iki imam var, əldə Quran var,
Zülfüqarla kafərləri qıran var,
Zülmətdən çıxarsan Allah kərimdir.

Səni ağladanı ağlar görərsən,
Çəkilər köksünə dağlar görərsən,
Yurdunda verana bağlar görərsən,
Şadlıxla baxarsan Allah kərimdir.

Bir zülmətin min işıxlı yolu var,
Ömür karvanının sağı-solu var,
Günəş də var, yağış da var, dolu var,
Şimşək tək çaxarsan Allah kərimdir.

Aşıx Mirzəli də gördü türməni,
Ağlı olan kəslər qınamaz məni,
Vaxt olar insafsız yağı düşməni,
Yandırıb yaxarsan Allah kərimdir.

*1 may 1918 Şuşa*

## AĞLAMA

### *(Bacım Bakıda məhkəmədə ağlayanda)*

Əziz bacı sən Allahı sevərsən,
Amandı eşidər düşmən ağlama.
İnsanın ömrü bir nərdə bənzər,
Yek du gətiribdi, zaman ağlama.

Demə ki heç yerdə ədalət yoxdu,
Çoxlu zülmkarın çevrildi taxtı,
Haqqı ayaxlayan vicdansız çoxdu,
Hələlik sürürlər dövran ağlama.

Çoxu bais oldu nahaq qanlara,
Fitva verdi günahsız insanlara,
Ədalətsiz qansız, bevicdanlara,
Bir gün qurulacax divan ağlama.

Qəmli Mirzəlidi bu tək qardaşın,
Ona görə axır qəmli göz yaşın,
Beş oğul, iki qız, uca tut başın,
Şükür et sevinsin hər yan ağlasın.

*12 iyun 1981-ci il*

## SEVİNSİN

Deyirlər dustaxlar azad olacax,
Xoş xəbər yayılsın ellər sevinsin.
Gözü yolda qalan gəlinlər, qızlar,
Darasın saçını tellər sevinsin.

Subay qayıdana nişan taxılsın,
Sağdışın əlinə xına yaxılsın,
Çuğulun, satqının evi yıxılsın,
Haqq sözü danışan dillər sevinsin.

Atalar şad olsun, analar gülsün,
Gözünün yaşını əbədi silsin,
Qardaşlar, bacılar salama gəlsin,
Bağlarda açılan güllər sevinsin.

Ata həsrətini çəkən uşaxlar,
Atası sağ ikən yasını saxlar,
Düzü qoyub tərsə yazan sarsaxlar,
Düşsün biyabana, çöllər sevinsin.

Mirzəli sıtqınan çağırır Ağa,
Özü kömək olsun cəmi dustağa,
Qurbanlar paylansın həm sola, sağa,
Düşməni məhv edən əllər sevinsin.

*3 may 1981-ci il Şuşa*

## BACANAX

Atalar misalı yeddi şəxs gördüm,
Yolda bir birini dandı bacanax.
Bir vaxt qürrələndim, ehtibar etdim,
Sonra həqiqəti dandı bacanax.

Biri qardaş dedi məni aldatdı,
Alim kimi qayda-qanun yaratdı,
Dar günümdə məni bəs niyə atdı,
Bəlkə məni haqsız sandı bacanax.

Biri sənətində qızıllar dərir,
Səxavət əhlidir özün göstərir,
Deyir, işə gəlmir nəmər göndərir,
Əza yerindən də yandı bacanax.

Biri cəddi ağır seyidəm deyir,
Qaçıb gizlənməyə iyidəm deyir,
Güllü bağçalarda söyüdəm deyir,
Xoş söhbətə bircə candı bacanax.

Biri Mirzəlidi baxtı yatıbdı,
Bəlkə günahkardı dostlar atıbdı?
Gileyin güzarın vaxtı çatıbdı,
Bu möhnətdən çox usandı bacanax.

*Şuşa 23 iyun 1991-ci il*

## MƏNİ
*(Türmənin rəisi Vəlyəddin müəllimə)*

Vəlyəddin məllimə salamlar olsun,
Təvəqqəm var nəzərinə al məni.
Dövrün hatəmisən, özüm duymuşam,
Çünki başa saldı el mahal məni.

Bir qərib aşığam bəlalı başım,
Uzağa düşübdü qohum-qardaşım,
Qəza tutdu qurumadı göz yaşım,
Fələk tora saldı bu minval məni.

Əlimdə saz el, mahalı gəzirdim,
Dost bağından qızıl güllər üzürdüm,
Vəfalı mərtlərə dastan yazırdım,
Əfi ilan çaldı dalbadal məni.

Ömrüm pay-puş oldu boranla, qışla,
Mirzəli çırpınır qarla, yağışla,
Məni o pak vicdanına bağışla,
Sən münasib bir kalona sal məni.

*25 iyun 1981 Şuşa*

## SALAM DE

Kağız gedər olsan Bakı şəhrinə,
Xalqım kimin bir ummanı salam de,
Namuslu, qeyrətli Azərbaycanda,
Neçə-neçə qəhrəmana salam de.

Qanat çal sehr elə uç get Xaçmaza,
Meylini bağlasın o telli saza,
Deynənki aşığı tapıbdı qaza,
Ağsaqqal sən Bəhmana salam de.

Qürbətdə yollarda qalıbdı gözü,
Həqiqət yerini seçibdi özü,
Dinəndə кəlməsi atalar sözü,
Qənəhət tək xoş zəbana salam de.

Ona pis olmadım, o məni atdı,
Bir namə yazmadı vaxtı uzatdı,
Gen gündə gəlmədi, dar gündə yatdı,
Abbas kimi bevicdana salam de.

Baxtı kəclər bu diyara düşübdü,
Çəkib zimistanı qara düşübdü,
Söylə iş dolaşıb dara düşübdü,
Mirzalıdan sən Rəhmana salam de.

*3 iyul 1981-ci il Xalaç*

## VAR
*(Məhkəməyə son söz)*

Tərəhhüm et mənə möhtərəm hakim,
Səbəbkar qədrini seçib bilən var.
Elin sənətkarı, saz ustasıyam,
Şeir aləmində hündür qalam var.

Haqqı, ədaləti axtar özün seç,
Günahkar olsam da taxsırımdan keç,
Belə xəyallara düşməmişdim heç,
Bunu sübut edən bütün aləm var.

Əvvəldən talehim yazılıb qara,
Beş dəfəm köçmüşəm iki diyara,
Özüm xəstə, həm də qəlbimdə yara,
Məni sağaltmağa səndə qələm var.

Mən yetim olmuşam tifil yaşımdan,
Ah-vay çəkmək heç çıxmadı başımdan,
Üç dənə bacının tək qardaşından,
Ağlayıban göz yaşını silən var.

Əlli iki yaşın, sənətim aşıq,
Sənətdi dünyaya verən yaraşıq,
Qəza vurdu işim düşdü dolaşıq,
Kamına çatmayan yeddi balam var.

*12 iyun 1981-ci il Ağdam*

## BAĞIŞLA MƏNİ
*(Məhkəmənin iclasına son söz)*

Məhkəmə iclası, məhkəmə zalı,
Doğru haqqı saya bağışla məni.
Peyklərimiz ulduzları seyr edir,
Ulduzlu səmaya bağışla məni.

Amerikada yetən olmadı dada,
Neçə min zəncilər getdilər bada,
Sülh sözü dillərdə oldu bir nida,
Həqiqi nidaya bağışla məni.

Faşistlər vətənə hücum etdilər,
Ağzı daşa dəydi, geri getdilər.
Es-es-çilər çox zülümlər etdilər,
Haqlı qələbəyə bağışla məni.

Çində neçə-nahax işlər görüldü,
Haqqı atdı iş tərsinə quruldu,
Brejnevdən sülhə nota vuruldu,
Ədalət notaya bağışla məni.

Fəhlə kəndli qoşuldular parata,
Dahi Lenin bir son qoydu zülmətə,
Bütün dünya onu çağırır ata,
Müqəddəs ataya bağışla məni.

Çilidə zülm etdi çoxlu insana,
Neçə-neçə məzlum boyandı qana,
Şahın rejim bir dağ çəkdi İrana,
Bu azad dünyaya bağışla məni.

Azərbaycan iri addımlar atdı,
Misli görünməmiş mayaq yaratdı.
On bir ədəd qızıl bayrağa çatdı,
Tükənməz dəryaya bağışla məni.

Moskva dünyaya saldı haqqı say,
Səmada parladı həm ulduz həm ay,
İşıx saldı 26-cı qurultay
Şanlı qurultaya bağışla məni.

Mirzəli sözlərin deyir sərasər,
Bir xəstə məhbusam yazıram əsər,
Partiyanı sevirsənsə müxtəsər,
Doğma partiyaya bağışla məni.

*12 iyun 1981-ci il*

## AŞIX MURAD

Ələsgər diyarlı, iman misallı,
Uzaxdan salamım al, Aşıx Murad!
Şeirdə alimsən, sənətdə nərsən,
Söhbəti, ləhcəsi bal, Aşıx Murad!

Dostlarla danışıb gülmək istəsən,
Çeşminin yaşını silmək istəsən,
Mənim əhvalımı bilmək istəsən,
Bir yanıx kərəmi çal, Aşıx Murad!

Dost əlilə mənə bir ox atdılar,
Namusu, qeyrəti pula satdılar,
Beqeyrətlər məqsədinə çatdılar,
Düşdü ürəyimə xal, Aşıx Murad!

Arifsən, aqilsən özün hər işdə,
Düzgün yol seçənsən yeniş, yoxuşda,
Küskün talehimdə, bu boran qışda,
İtirdim tapmadım yol, Aşıx Murad!

Bu qoca dünyadan olmadım halı,
İtirdim, tapmadım yatan iqbalı,
Düşübdü zindana aşıx Mirzəli,
Hərdən bir yadına sal, Aşıx Murad!

*04 iyul 1981-ci il Xalaç*

## İSLAM
*(Aşıx İslamın məzarına)*

Torpağın nurludu, yerin behişdi,
Ərzim var yatdığın məzara, İslam!
Vəfasız fənada yerin bilindi,
Sən idin dərtlərə bir çara, İslam!

Qəza tutdu gecə-gündüz yatmadım,
Dostlar qaçdı çox yüyürdüm, çatmadım,
Dört göz oldum, səni gəzdim tapmadım,
Dərdimi söylədim sulara, İslam!

Qürbət el sormadı mənim halımı,
Qəza qarışdırdı xoş əhvalımı,
Heç görmədim əmoğlu tək zalımı,
Nə deyim mən belə dostlara, İslam!

Hamıya dost bir sən idin dünyada,
Heyif aramızdan tez getdin bada,
Gözəl kəlamların düşəndə yada,
Bir dərdim beş oldu dübara, İslam!

Mirzalıyam bu dərdlərə dözürəm,
Can deyən dostlardan ərzə yazıram,
Kəc dolanıb itən baxtı gəzirəm,
Mən tapa bilmirəm, sən ara İslam!

*10 iyul 1981 Xalaç*

## DƏMİRÇİ

*(Dostum dəmirçi Abbasa)*

İldırım sürətlə yayıldı adın,
Yayıldı adına sada dəmirçi.
Duz çörək kəsmişik bir qardaş kimi,
Dar günümdə yetiş dada dəmirçi.

Dövrün imanısan el yaraşığı,
Şövq verir hər yerdə şirin işığı,
Dostlara naxələf çıxan aşığı,
Hərdən bir özün sal yada dəmirçi.

Bu fənada heç ürəkdən gülmədim.
Hicran ataşından heç üzülmədim,
Tora düşdüm heç özüm də bilmədim,
Beyqıfıl atıldım oda dəmirçi.

Hərdən yada düşür dağların suyu,
Elatın məclisi kürdüstan toyu,
Qazamat buçağı istisi yayı,
Çoxlarını verdi bada dəmirçi.

Sərraf bazarından bir səni andım,
Dostların yolunda atama yandım,
Mirzalıyam hər yetənə inandım,
İnanmaynan sən nə bada dəmirçi.

*15 iyul 1918-ci il Xalaç*

## DANIŞ

Əvvəl salam olsun qardaşım Qafar,
Müştaqam o şirin dillərə danış.
Hər günüm, saatım bir aya bənzər,
Vaxtı gecikdirən ülkərə danış.

Doğma qardaş olub nərə çəkirdik,
Ayrılanda qəmlənib yaş tökürdük,
Baxçamızda dostluq gülü əkirdik,
Pozduğun ilqarı güllərə danış.

Çoxlu şahlar tərк elədi taxtını,
Ömür keçir itirir öz vaxtını,
Qəmli Mirzəlinin dəli baxtını,
Gəzib dolandığım ellərə danış.

*Xalaç 1981-ci il avqust*

## SAZLA AŞIQ MİRZƏLİNİN DEYİŞMƏSİ

*Saz*

Özün günahkarsan düşmüsən bura,
Bəs mənim nə idi günahım aşıq?
Yanıq kəramiynən çağır sübhanı,
Söylə bir Allahdı pənahım aşıq.

*Saz*

Mənimlə gəzirsən aranı, dağı,
Bilginən insana insandı yağı,
Burax gedib gəzim ana torpağı,
Sənə kömək olsun ilahım aşıq.

*Aşıq Mirzəli*

Sənin hüzurunda günahkaram mən,
Ahu zar eyləmə ey qəmli sazım.
Sənsiz dözəmmərəm bil ki dünyada,
Yaraşıxlı sazım, ey telli sazım.

*Aşıq Mirzəli*

Bəzi insanlardan etibarlısan,
Aran vuqarlısan, dağ vuqarlısan,
Havacat elmində, sözdə varlısan,
Ey elli obalı aləmli sazım.

*Saz*

Mənim nəcabatım bilki ozandı,
Ağac parçasıyam içirəm andı,
Çuğullux etməknən kim nə qazandı,
Tutacax düşməni bil ahım aşıq.

*Saz*

Adın Mirzəlidi naşısan özün,
Beqeyrət dostları gördümü gözün,
İnsan evladısan düz olsa sözün,
Güləcəkdi mənim sabahım aşıq.

*Aşıq Mirzəli*

Mənim nəcəbətim adam atadı,
Sözümün mənası allah fatadı,
Hara addım atdım gördüm xatadı,
Könüllər oxşayan həndəmli sazım.

*Aşıq Mirzəli*

Sən gəl Mirzəlini saymaynan naşı,
Sınadım dostları yüz ilin başı,
Ahı nalən niyə yandırır daşı,
Cəlili, Sarıtel, Dilqəmli sazım.

## BAYATILAR

Əzizim bala dərdi,
Baladan bala dərdi.
Hər dərdə dözmək olar,
Çətindi bala dərdi.

Mən aşıq balasına,
Qurbanam balasına,
Dünya altuna dönsə,
Kim qıyar balasına.

Mən aşıq bala gəzər,
Sonsuzlar bala gəzər.
Kasıb çörək axtarır,
Varlılar bala gəzər.

Mən aşıq bala saxlar,
Quş uçar bala saxlar.
Atanı öz atası,
Balanı bala saxlar.

Əzizim oda atar,
Tüfəngin oda atar,
Ata baladan ötrü,
Özünü oda atar.

Mən aşıq bala neynim,
Düşmüşəm qala neynim.
Var dövlət həddi aşıb
Gəzirəm bala neynim.

Mən aşıq bala deyin,
Arını bala deyin,
Ürəyim gecə gündüz
Sızıldar bala deyin.

*Al cavabı deyim ay Aşıq Səlim*
*Bu üsuldan*

## MİRZƏLİ VƏ KƏTAN DASTANI

Dərələyəz adlı bir mahal vardı,
Orda ağır oğuz eli yaşardı.
Kalbaxəlil gəlib bir səhra tapdı,
Adın Sallı qoyub himini yapdı.
Havasın yoxladı kalba İsmayıl,
Suyunu içənlər oldular qayıl.
Bir kənd düzəltdilər aranlı dağlı,
Həm güllü, səfalı, meyvəli, bağlı.
Dört tərəf meşəlik, sərin bulaxlar
Tapınan, bəyəli gözəl yaylaxlar.
Qışlağın böyründə vaxsey Meşəsi,
Nərgiz bənöyşəli, cənnət guşəsi.
Hər fəsil dinlənir kəklik nağməsi.
Bülbül seyrangahı kəsilmir səsi.
Kalba Səfəralı çayda kənd saldı,
Məmməd Kərim yuxarıda bənd aldı.
Onunçun yarandı aşağı Sallı,
Həm bərqərar oldu yuxarı Sallı.
O kənddə yarandı gözəl mənzərə,
Güllü, gülüstanlı, yaşıl dağ dərə.
Qurt təpəsi birdə ki dərə bağı.
Üstündə car oldu Mərdan bulağı.
Adına deyildi daşdı güneyi,
Yayda qar saxlardı qara quzeyi.
Kəndin baxarında otayın düzü,
Heç əskik olmurdu mal, qoyun, quzu.
Bir təpə üstündə qoşa armudlar,
Bəlkə də onların min il yaşı var.
Çərəli bulağı altdan yol düşdü,
Qulu bulağından ellər su içdi.
Qazax dərəsinin alma, heyvası,
Ağ qoyun ölənin buğda, arpası.
Xəstə şəfa tapdı şorrax suyundan
Kəklik otu ət otunun iyindən.
Quru dərə, öküz uçan dərəsi,
Görünməyib Bəyəli mənzərəsi.
Hayana baxanda çəməni, düzü
Sehrikardı pırt-pırt bulağın gözü.
Dəhnə dərəsində cacıx, baldırğan,
Ələyəz pencəri əvəlik, şoşan.
Xorasana baxır qiblə bulağı,
Solu Tapdı, Ballı qayadı sağı.
Suyu abi kövsər Süddü bulağın,
El düşürdü üstünə yığın-yığın.
Cənnətə bənzəyən bu gözəl kənddə,
Aranlı, yaylaxlı bu məmləkətdə.
Dəli Əziz adlı dəmirçi vardı,
İki əyalilə birgə yaşardı.
Birinci əyalın Fatmaydı adı,
Bir müddət Əzizlə birgə yaşadı.
Fatimadan bir qız dünyaya gəldi,
Bir yollux evladın dalı kəsildi.
Oğlu olmax üçün Cahanı aldı,
Vaxt oldu Cahanın bir oğlu oldu.
Yığıldı qohumlar gəldilər bəli,
Qoydular oğlanın adın Mirzəli.
Uşağı saxladı altı il daya,
Yeddidə qoydular məktəbxanaya,
On il məktəbində oxudu əla.
Amma sənətindən qalmadı dala.
Mirzəli söylədi olacam aşıx,
Sənətdi dünyaya verən yaraşıx.

Bir hikməti vardı hər bir sənətin,
Heç kəsi ac qoymaz olsa da çətin.
Dedilər lazımdır sənə bir ustad.
Ustad görməyənlər almayıbdır ad.
Söylədilər aşıx Cəlildir baban,
O da dərsin alıb Kamil ustaddan.
Aşıx Cəlil özü belə söyləyib,
Aşıx Ələsgərlə dostlux eyləyib.
Əfsus ki, Ələsgər dünyada yoxdur,
Amma nəslində pürkamal çoxdur.
Sallıda var idi bir aşıx Qulu,
Dedi bala getmə bu uzax yolu.
Gəl mənə şəyird ol, məndən dərsin al,
Yeddi il qullux et, alarsan kamal.
Quluya şəyirdlik etdi bir zaman,
Beyqafıl ölkəni aldı bir duman.
Hitler istədi ki, ala cahanı,
Dəhşətə gətirdi bütün dünyanı.
Üstümüzə gəldi azğın faşistlər,
Dağıldı neçə kənd, neçə şəhərlər.
Ustad Qulu köç eylədi uzağa,
Köçünü yüklədi düz Qarabağa,
Mirzəli bir müddət qaldı yarımçıx,
Sallıda var idi yenə bir aşıx,
Qabil bir sənətkar elə yaraşıx.
Keşiş kənddə o qulluğa dalmışdı,
Şöhrətilə bir vəzifə almışdı.
Adı Bəhman idi özü dilavər,
Neçə dastan söyləyirdi sərə-sər.
Mirzəli söylədi eylə məni şad,
Təvəqqə edirəm, ol mənə ustad.
Bəhman qəbul etdi həmin sözləri,
Sənət davam etdi o gündən bəri.
Vardı Mirzəlinin bircə sirdaşı,
Ağır günün dostu siqə qardaşı.
Adı Əziz idi, Koroğlu misal,
Neçə döyüşlərdə qazanmışdı bal.
Əziz Mirzəliylə birgə gəzirdi,
Qəlbi xainlərin ağzın əzirdi.
Məmmədsalah gəldi Şərildən qonax,
Bəhmanın evini eylədi sorax.
Bəhmanın evində məclis quruldu,
Yedilər, içdilər keflər duruldu.
Söyləndi dastanlar, çalındı sazlar,
Məclisə toplandı gəlinlər, qızlar.
Usta, şəyird böyük məclis açdılar
Qadın, kişi məclisə toplaşdılar.
Bir kişi var idi, adı Zilfiqar,
O Sallıda işləyirdi hesabdar.
Mirzəli vuruldu onun qızına,
Qız isə bənzərdi dan ulduzuna.
Adı Kətan idi o gözəl qızın,
Gülü, çiçəyiydi baharın, yazın.
Qız da vurulmuşdu bil Mirzalıya
Bu səs yayılmışdı bütün Sallıya.
Mirzəli ustadın elçi göndərdi,
Sahibkar elçini geri döndərdi.
Söylədi Zilfiqar olmadı razı,
Deyir ki, mən ona verməram qızı.
Oydu ki Mirzəli köklədi sazı,
Aldı görək nədir onun avazı.

*Mirzəli*

Sənə qurban olum qasidim usta,
Nə dedi dərdimin dərmanı mənə.
Hazıram yolunda qul kimi inan,
Versə də neçə cür fərmanı mənə.

*Bəhmən*

Sən ki, şəyirdimsən oğlum əvəzi,
Zilfiqar eylədi bəyani mənə.
Dedi qızı bir varlıya vermişəm,
Onunçun dar etdi dünyanı mənə.

*Mirzəli*

Hər şey asılıdır qızın özündən,
Sevsə dönər atasının sözündən
Xəbər gəldi Əriklinin düzündən
Vədə yeri verdi oranı mənə.

*Bəhmən*

Gedib əvvəl anasını dindirdim,
Zatı alko cin atına mindirdim
Qıza namə verib çox sevindirdim
Az qaldı bəxş edə binanı mənə.

*Mirzəli*

Umud sənə bağlayıbdı Mirzəli,
Eşqin firqətindən olmuşam dəli.
Atası, anası deməsə bəli
Ox atıb çəkəllər kamanı mənə.

*Bəhmən*

Eşqin ataşına düşmüşdüm mən də
Sadam yayılmışdı şəhərə, kəndə.
Bəhməni – Qənəhət salmışdı bəndə,
Taleh yazdı bu cür cananı mənə.

Bəhmən dedi ey Mirzəli, sən gəl çox fikir eyləmə
Dərdini de bilən kəsə, sən hər nadana söyləmə.
Ərz eylədim Zilfiqara, səni yaman asır-kəsir,
Söyləyir ki, o yoxsuldu, evində yoxdu bir həsir.
Sonra dedi o dəlidi, başında yoxdu kamalı,
Hər yetənə bir daş atır, o çox salır qalmaqalı.
Ustad dedi, Mirzəli sən burdan köç get Şərilə,
Bir misal var meyvə gərək yetişən vaxtı dərilə.
Səs düşdü Mirzəli köçür xəbər gedib qıza çatdı
Göz yaşını axıdaraq leysan tökdü, qəmə batdı.
Anasına çox yalvardı, cavab aldı anasından,
Dedi sənə nişan gəlir bir varlının balasından.
Cavab verdi qızı ona, mən sevmirəm özgəsini,
Əhdinə sadiq olmayan alır elin tənəsini.
Qız nişana göndərdi ki qoy qalsın onda yadigar
Dedi axır mən onunam getsədə diyarba-diyar.
Xülasə ki, köç yükləndi yığılıban gəldi hamı,
Aşıq Bəhman saz götürdü çün coşa gəldi ilhamı.

*Aldı Bəhmən*

Qürbət elə sizi yola salıram,
Elə bilirəm ki, bir yanım gedir.
Qəmdə ağlayırdıq toyda gülürdük,
Koroğlu tək bir cüt cavanım gedir.

Mən də çox görmüşəm qərib qürbəti,
Namərdlərə eyləməyin minnəti.
Təvəqqəm var, unutmayın sənəti
Saz çalıb söz deyən dövranım gedir.

Haqq tala yazdığı yazıya inan
Rüsxət versə açılacaq yol ərkan,
Çox odlara yanıb bu yazıx Bəhman,
Dostlara sadağa bir canım gedir.

*Aldı Mirzəli*

Qürbət elə yol alıram,
Yarın dərdi artacaxdı.
Mən gedirəm güllü baxçam
Ya rəb, kimə qalacaxdı.

Sözüm düşdü dildən-dilə,
Didəm yaşı döndü selə,
Mən gedirəm qürbət elə,
Yarım ağlar qalacaxdı.

Mirzəli də oda yandı,
Eşqin oduna qalandı,
Yolum düşdü qürbət elə,
Yarım tənha qalacaxdı.

Müəyyən vaxtdan sonra biz bir-birimizə yetişdik. Qızın anası Qaratel hər ikimizə analıq edirdi. Bunu belə bəyan edirəm:

QARATEL

Həmi qaynanamsan, həm də ki anam,
Mən düşəndə bildim dara, Qaratel!
Ömrümdə neçə yol dolaşıb işim,
Özün eyləmisən çarə, Qaratel!

Döyüş illərində mərdliklə durdun,
Beş bala saxladın, üstündə durdun.
Yetim-yesirlərə tasattıx verdin,
Baxmadın tükənən vara, Qaratel!

Mən varam, özünü oğulsuz bilmə,
Düşmən ürəyindən kədəri silmə,
Arzum var qocalma, arzum var ölmə,
Qoy saçların qalsın qara, Qaratel!

Məhəmmədlə döydün on beş erməni,
Boğosyan çağırıb açdı türməni,
Rafiq məhkəməyə vermişdi məni,
Sən vurdun onlara yara, Qaratel!

Mirzəliyəm, sözün düzün deyirəm,
Namusda, qeyrətdə səni öyürəm,
Leyli Məcnunsunuz bunu duyuram,
Yaraşırsan Zülfüqara, Qaratel!

Dastanı yazan və onu söyləyən Dərələyəzin Sallı kəndindən olan Aşıq Cəlilin nəticəsi Aşıq Mirzalı.

## CƏFƏR VƏ FƏTULLAH DASTANI

*Mən bu kiçik dastanı Aşıq Həsəndən aldığım məlumatlar əsasında yazdım. Bu dastanı ithaf edirəm öz azərbaycanlılarıma, dili dilimdən, qanı-qanımdan olan bütün dastan sevənlərə*

Sizə haradan xəbər verim, Naxçıvandan. Naxçıvanın toy məclislərini bəzəyən Aşıq Cəfər və onun şagirdlərindən. Aşıq Cəfər Ələsgərdən dərs almış ustad aşıqdır və Naxçıvan aşıqlarının ustadı sayılır. Aşıq Cəfər Ermənistanın Çobankərə kəndindən olmağına baxmayaraq, Naxçıvanın Şıxmahmud kəndində yaşayır. Onun şagirdlərindən Aşıq Fətullah, Aşıq Abdulla, Aşıq Qulunu və b. göstərə bilərik.

Aşıq Cəfər öz dəstəsi ilə birlikdə Şahbuz, Ordubad, Culfa, Noraşen rayonunda toylar keçirmiş və bayram şənliklərində iştirak etmişlər. Onu da deyim ki, şagirdlər arasında yəni Fətullahla – Abdullanın arasında münasibət pis idi. Bunlar

yola getmirdilər. Çox mübahisələri olurdu. Günlərin birində Şıxmahmud kəndində Fətullahla Abdulla sınaq məclisi təşkil etmək fikrinə düşürlər ki, bəlkə aralarında olan münasibət aydınlaşsın və həqiqətən kimin üstün olduğu bilinsin.

Bəli, məclis təşkil olunur, həmin məclisə Vayxır kəndindən ustad aşıq Ələkbər, ustad aşıq Əzim də dəvət edilir.

Eyni zamanda bu məclisə qonaqlar da dəvət edilmişdi. Noraşendən Bağır, Əlihüseyn, İskəndər, Şahbuzdan Əli, Qəşəm, Qışlaq kəndindən şair təbli Qasım, Heydər, Ordubaddan, Culfadan da qonaqlar var idi. Ətraf kəndlərdən də xeyli adam var idi.

Lakin məclisdə olan adamların əksəriyyəti ağsaqallar idi. Onu da xatırladım ki, Ustad Cəfər həmin günlər Şıxmahmud kəndindən başqa yerə toya dəvət edildiyi üçün, kənddə yox idi. Bəli, məclis qızdı. İki şəyird Fətullah və Abdulla meydana girdilər.

***Fətullah***

*Ustadlar ustadı verib dərsimi,*
*Pür kamala dolub varam meydanda.*
*Ehtibar, sədaqət anasıyam mən,*
*Sənətim çiçəkdir, baram meydanda.*

***Abdulla***

*Söz deyərəm kəsər qılıncdan betər,*
*Sədan ərşə çıxıb göylərə yetər,*
*Məni vuran kəsə vuraram neştər,*
*Alaram qanımı, qanam meydanda.*

***Abdulla***

*Ustaddan almışam əzbərdir dərsim,*
*Durmuşam qarşında mənəm meydanda.*
*Sözlər tutarlıdır gözəldir səsim,*
*Sevilib yeyilən nakam meydanda.*

***Fətullah***

*Rüstəmi Zal kimi, cəngi tutaram,*
*Kəmərdən yapışıb göyə ataram,*
*Cəh-cəh vurub səsdə səni ötərəm,*
*Dar ağacı məndə, daram meydanda.*

***Fətullah***

*Dəryada üzdürür mövlam gəmimi,*
*Odur taraz edən gözəl bəmimi,*
*O, kökləyib sazda mənim simimi,*
*Məclislər bəzəyi yaram meydanda.*

***Abdulla***

*Cəngidir inanın, sazın meydanı,*
*Qılıncla nizədir sözün meydanı,*
*Çox olur gələni olmur qaydanı,*
*Yanaram, çətin ki, sənnən meydanda.*

***Abdulla***

*Mən çağrıram dada yetəndir onu*
*Şir kimi coşuram qızdırır qanı*
*Polat donda möhkəm edibdir canı*
*.....................................................*

***Fətullah***

*İstəsən söz ilə vuruşum sənlə,*
*Səndə Fətullahla danışma kinlə,*
*Əldən allam sazı, eşit sən dinlə,*
*Ölüncə mən hazır varam meydanda.*

***Fətullah***

*Coşğun edib səsim ümmana bənzər,*
*Meydan mənimkidir, o, edir nəzər,*
*Qorxum yoxdur düşmən olsa da hazar,*
*Hazıram qırmağa saram meydanda.*

***Abdulla***

*Abdulla sözləri deyir sərindən,*
*Kökləyib qoparram səni yerindən,*
*Xəbər verim qüvvə həm də girimdən,*
*Qaçmaram çətin ki, dönəm meydanda.*

Abdulla ilə Fətullah deyişəndən sonra afərin, sağ ol sədaları bülənd oldu. Elə işin qızğın yerində, məclisin şirin yerində Ustad Cəfər gəlib çıxdı. Abdulla ilə Fətlullah sus durdular. Ustad dilləndi. Hə, eybi yoxdur. Mənsiz məclis keçirirsiniz, bu pis olmaz. Lakin elə edin ki, camaatın xoşu gəlsin. Bütün yerdə oturanlar Ustad Cəfərə bir ağızdan: çox yaxşı oxuyurlar, sağ olun ustad, dedilər.

Belə olan əsnada Ustad Cəfər sazını köynəkdən çıxardıb, meydana girdi. Görək o, məclisə aid və oturan ağsaqqallar üçün nə cür söz oxudu, biz deyək, siz də dinləyin:

### *MÖVLAMDIR*

*Məclisə yığışan əhli möminlər,*
*Dünyanı yaradıb quran mövlamdır.*
*Bağlı qapıları açıq eyləyər,*
*Binalar ucaldıb, hörən mövlamdır.*

*Qəzəbi tutanda budayıb vurur,*
*Həm yaradıb, həm də öldürüb qırır,*
*Yerini bilmirsən, harada durur,*
*Yaradandır, başda duran mövlamdır.*

*Sözləri yazılıb onun Quranda,*
*Dərdə dərman vardır başda duranda,*
*Odur əlac edən qışda, boranda,*
*Dar günündə səni görən mövlamdır.*

*Əməl et sözünə, yolundan çıxma,*
*Dəhnəni möhkəmlət, heç vaxtı yıxma,*
*Dəryada qərq olub, ümmana axma,*
*Dənizdə gəmini buran mövlamdır.*

*Kərəmi coşanda qışı yaz eylər,*
*Sevinc verər, söhbət eylər, söz eylər,*
*Aşıq Cəfər sözü məclisə söylər,*
*Hər vaxt imdad yerim, çarəm, mövlamdır.*

Ustad Cəfər oxuyub qurtarandan sonra Fətullah və Abdullaya dedi ki, indi meydan sizindi. Gəlin görüm, nə edəcəksiniz.

Mən burada olmayanda oxuduğunuz camaatın xoşuna gəlib. İndi də oxuyun ustadınız sizə baxıb qiymət versin və sizin qüvvənizi bilim. Görüm ki, hansınız daha yaxşı bacarırsınız.

***Fətullah***

*Səni şikar edib tora salmışam,*
*Meydanda qənimi döyən mənəm, mən.*
*Sazı əldən alıb, üryan edərəm,*
*Allam canı, səni soyan mənəm, mən.*

***Abdulla***

*Meydanında duran dağa bənzəyir,*
*Sərt yollarda səni qoyan mənəm, mən.*
*Qıy vurram uçarsan, hündür zirvədən,*
*Qarşında var, böyük qayan, mənəm, mən.*

***Fətullah***

*Məqsədim budur ki, qanını alam,*
*Səni paymal edib, zərbəni çalam,*
*And içirəm, sənə əzrayıl olam,*
*Əcəl körpüsündə, dayan, mənəm-mən.*

***Abdulla***

*Meydanda durmuşam qalxan çək başa,*
*Tutarıq cəngini, biz qoşa-qoşa,*
*Ya mən yaşayaram, ya da sən yaşa,*
*Hay salaram, edən bəyan mənəm-mən.*

*Fətullah*

*Mən səni qovaram köçərsən eldən,*
*Fətullaham, səni salaram dildən,*
*Canı qor edərəm, keçərsən yeldən,*
*Duraram yerimdə, sayan mənəm-mən.*

*Abdulla*

*Sən qovarsan, mən də gedərəm eldən,*
*Yazıq, Abdullanı salma heç dildən,*
*Canımı qor etmə keçirmə yeldən,*
*Pasiban olaram, hayan mənəm-mən.*

Bəli, Abdulla ilə Fətullah deyişəndən sonra məclisə sükut çökdü. Aşıq Cəfər dinməz-söyləməz şagirdlərə baxırdı. O dilləndi. Hə, demək dərdiniz var. Gərək elə bu məclisdə açaydınız. Fətullahın sözləri Abdullanı qılınc kimi kəsdi. O, susmuşdu. Bu deyişmə sübut etdi ki, ……

Ustad Cəfər üzünü məclisə tutub dedi ki, ay camaat, siz deyirsiniz Fətullah Abdullaya üstün gəldi, onda mən bir neçə bənd qıfılbənd deyəcəm. Əgər ki, bu şagirdlərin hansı onu açdısa, quvvəli odur. Belə şeylərinən aşıq qüvvəsi bilinməz. Usta Cəfər meydana düşdü və görək necə qıfılbənd dedi və sonrası necə oldu:

### *KİMDİR*

*Cavab verin Fətullah və Abdulla,*
*Taxtası nə oldu, dülgəri kimdir?*
*Neçə min mıxçanı vurdular ona,*
*Qarşıdakı sükan sərkəri kimdir?*

*Yalvaran kim oldu, kim getdi ərzə,*
*Kim sözə baxmadı, o aldı cəza,*
*Yerləri titrətdi gətirdi lərzə,*
*Ərşin, kürşün dayaq ləngəri kimdir?*

*Kim ölçdü metrlə planı cızdı,*
*Bəs kim haqq-hesabı dəftərə yazdı,*
*Yükü nədən oldu, dəryada üzdü,*
*De, onun dövrəsi pərgarı kimdir?*

*Məqsəd nə olmuşdu, dünya qərq oldu,*
*Canlılar qırılıb, hamısı soldu,*
*Kim idi evində salamat qaldı,*
*Onun da dayağı, səngəri kimdir?*

*Qərq olub, kainat ümmana batdı,*
*Cismi canlıları gəmiyə atdı,*
*Köməyi kim oldu, kim dada çatdı*
*Onun işıq ayı, ilkəni kimdir?*

*Haraya baş aldı, dayandı durdu,*
*Ömürlük məskəndir, həm də ki yurdu,*
*Cilovun bağlayıb bərk yerə vurdu,*
*Cəfər, onun dayaq lövbəri kimdir?*

Fətullahla Abdulla yerlərində donmuşdular, ustalarının sözünün qabağını deyə bilmədilər. Camahat da narahat idi. Ustad Cəfər dilləndi və dedi ki, aşıqlıq asan deyil, gərək belə meydanlardan çıxmağı bacarasan. Madam ki, sözün qabağını deyə bilmədiniz, eybi yoxdur. Bura öz məclisimizdi. Başqa yerdə belə olsa çox pisdir. Həm sizə və həm də mənə. Deməli bu sınaq müəyyən etdi ki, hər ikiniz eyni qüvvədə olan aşıqsınız. Əgər ki, biriniz üstün olsaydı, onda bağlamanı açardı. Şagirdlər donmuşdular. Nə isə, handan-hana dillənib öz ustadlarından üzr istədilər. Görək meydandan onlar hansı sözlərinən özlərini təmizliyə çıxarmağa çalışır, biz deyək, sizi də həmişə təmiz və duruluğa çıxasınız.

*Fətullah*
*Sən bağışla bizi ustad,*
*Xar olmuşuq biz qarşında.*
*Artıqdır hörmətin candan,*
*Öldür bizi öz qarşında.*

*Abdulla*
*Qıfıllı qalıbdır sandıq,*
*Qabaq-qarşı biz də donduq,*
*Ürəkdən od tutub yandıq,*
*Yandır bizi köz qarşında.*

*Abdulla*
*Cavabın vermədik sənin,*
*Taqsırkarıq biz qarşında.*
*Əff et bizi qoy yaşayaq,*
*Heç çalmarıq saz qarşında.*

*Fətullah*
*Qurtarıb sözümüz yoxdur,*
*Dərd-qəmimiz, bilin çoxdur,*
*Fətullaha dəyən oxdur,*
*Sən taqsırı yaz qarşında.*

*Fətullah*
*Zəhmətini eylə halal,*
*Heç qurmadıq bizdə cəlal,*
*Bizi tutdu möhnət, məlal,*
*Can veririk üz qarşında.*

*Abdulla*
*Öldürürsən öldür bizi,*
*Abdullanın budur sözü,*
*Qaldırırsan qaldır bizi,*
*Sən taqsırı poz qarşında.*

Ustad Cəfər və məclis əhli hamı şagirdləri bağışladı. Onlar da söz verdilər ki, bir daha belə olmayacaq və yaxşı oxuyacaqlarına söz verdilər. Bildirdilər ki, hər ikisi yəni Abdulla və Fətullah mehriban olacaqlar.

Bundan sonra Ustad Cəfər üzünü məclisə dəvət edilmiş Vayxır kəndindən gələn usta aşıq Ələkbərə və Payız kəndindən gələn usta aşıq Əzimə tutaraq dedi ki, bizdən inciyərsiniz ki, bizi oxutmadılar. Xahiş edirik siz də meydanda bir neçə qatar oxuyasınız.

Aşıq Ələkbərlə Əzim ayağa qalxıb divani üstə görək necə oxudular və məclis əhli necə dinlədi.

*Aşıq Ələkbər*
*Aləmi cənnət edibdir,*
*Tabe olaq biz rizvana.*
*O, pünhandan baxır bizə,*
*Biz tez inanaq Qurana.*

*Hər şey bizə ətirlidir,*
*Tikandır qızıl gülü də,*
*Qüdrətdən o, xəlq edib,*
*Bizə veribdir gülü.*

*Özü birdi, adı min bir,*
*Odur sirri kainat.*
*O da səni atar közə,*
*İnan başda durana.*

*Aşıq Ələkbər*
*Nahaqdan qaçıb yorulma,*
*Nə yazıbsa o, olacaq.*
*Verən odur, alan odur,*
*İstəsə o solduracaq.*

*Aşıq Əzim*
*Gözə işıq o veribdir,*
*Sözə veribdir dili,*
*On iki ayı xəlq edib,*
*Bizə veribdir ili.*

*Qəbr evində o, qaldırar,*
*Dirildər Ələkbəri*
*Sorğu-sual edən odur,*
*O bağışlar Ələkbəri.*

*Aşıq Əzim*
*Həm öldürür, həm sağaldır,*
*Odur hamını ağladan.*
*Yaşayışda hava sudur*
*Odur, sinəmi dağladan.*

*Kainatı sökən odur,*
*Əzim qorxmayır canından,*
*Qüvvəli od, külək, sudur,*
*Bəla versə keç qanından.*

Məclisdəki ağsaqqallar və aşıqlar hamı razı oldu, ustadlara təşəkkür etdilər.

Bundan sonra Ustad Cəfər üzünü Cavan Quluya sarı tutaraq dedi ki, ay oğul, sən də gəl sazını götür gir meydana. Belə meydanda oxumağın da sənə çox köməkliyi olar. Cavan oğlansan, gələcəyin var. Bəli, cavan aşıq Qulu sazı sinəsində meydana düşdü və görək necə dedi, necə dinlədilər.

*Başına döndüyüm qədiri-mövlam,*
*Qol, qanat ver mənə, sazla meydanda.*
*Coşğundur kərəmin, mən sənə qurban,*
*Kömək ol, sən məni nazla meydanda.*

*Ustadlar yanında pənahım sənsən,*
*Dərdə qəmə düşsəm həm ahım sənsən,*
*Hamıdan ucada həm şahım sənsən,*
*Yandırma sən məni gözlə meydanda.*

*Pənah ol, məclisdə, qəlbimi sıxma,*
*Yalvarıram sənə, mənə kəm baxma,*
*Ürəkdə saxlaram, gəl məni yıxma,*
*Kömək ol, sən məni gözlə meydanda.*

*Əlimə saz alıb düşmüşəm izə,*
*Şahi sultanımsan vurma sən nizə,*
*Sən Qulunu möhtac etmə heç sözə,*
*Nəğmələr qoşaram, sözlə meydanda.*

Cavan aşıq Qulunun oxumağı hamının xoşuna gəldi və əhsən dedilər.

Bundan sonra ustad Aşıq Ələkbər yenə icazə aldı – sazını köynəkdən çıxardıb meydana düşdü.

*Məclisdə oturan mömin qardaşlar,*
*Zamına verirəm Allaha sizi.*
*Sözünüz ürəkdən haqqı söyləsin,*
*Mən sirdaş edirəm vallaha sizi.*

*Yaxşılıq eyləyin, siz alın satın,*
*Şəfa verər sizə əmbiya, xatun,*
*Meydana girəndə əməkdən tutun,*
*Mən tapşırram bismiillaha sizi.*

*Bu dünya işləri fanidir, fani,*
*Neçə canlar getdi, siz deyin hanı,*
*Ələkbər də deyir Allahı tanı,*
*Tapşırıram Qülfüallaha sizi.*

Oturanlar Aşıq Ələkbərin bu sözlərinə çox yaxşı qiymət verdilər və bu məclisin gedişinə uyğun söz olduğunu təsdiq etdilər.

Aşıq Ələkbər də öz minnətdarlığını bildirib, sakit-sakit gedib oturdu yerində. Məclis çox qızışdı, aşıqlar çox oxudu. Nəhayət axırda Aşıx Cəfər Fətullaha bildirdi ki, müxəmməs üstə bir söz oxusun.

Fətullah ustadının sözünü eşitcək quş kimi meydana atıldı və başladı:

*Məclisimiz başa çatır*
*Çaldılar sazı şirin*
*Mən xoşbəxtəm şəkər qatır*
*Çəkirlər nazı şirin.*
*Pislərin seçib atır,*
*Çoxu həm azı şirin*
*Qələm mürəkkəbə batır*
*Kağızda yazı şirin*
*O, kəlməni deyib satır*
*Ağızda sözü şirin.*

*Bağban olub, bağ salanda,*
*Barı olsa yaxşıdır.*
*Eli dolanıb alanda,*
*Varı olsa yaxşıdır.*
*Qabağa süfrə salanda,*
*Narı olsa yaxşıdır.*
*Ələkbər, Əzim çalanda,*
*Saz, həm tarı yaxşıdır.*
*Qulaq asaq, sən gəl otur,*
*Güldürər üzü şirin.*

*Var olub, böyük yeri,*
*Qəleyi xeybər alındı.*
*Dar olub böyük yeri*
*Boğulub tora salındı.*
*Qar olub onun yeri,*
*Başından qılınc çalındı.*
*Qor olub onun yeri,*
*Alova yanıb qalandı.*
*Kəmərindən Əli tutur,*
*Qaradır gözü şirin.*

*Düşməni vurun ölsün,*
*Azadlıq görək özümüz.*
*Cəfərin üzü gülsün,*
*Binanı hörək özümüz.*
*Abdulla bura gəlsin,*
*Həm dövrən sürək özümüz.*
*Qulu qoy sözümü bilsin.*
*Məclisi quraq özümüz,*
*Fətullaha sən gəl yetir,*
*Güclüdür gözü şirin.*

Bəli aşıq Fətullahın bu oxumağı hamını razı saldı. Məclisin axırında Aşağı Qışlaq kəndindən gələn şair təbli Qasım üzr istədi və ustad aşıqlar haqqında yazdığı öz şerini oxudu.

*Ustadlar ustadı Cəfəri tanı,*
*Ələsgər şagirdi yadigar odur.*
*Fətullah, Abdulla, onun barıdır,*
*Könüllərdə yaşar, Mehriyar odur.*

*Böyük sənətkarlar eldə dolanır,*
*Əbədi yaşayır, dildə dolanır,*
*Səsləri gurlayıb zildə dolanır,*
*Tacir kimi gəzən sövdəgar odur.*

*Ələkbərlə Əzim, sırada Qulu,*
*İşıqlıdır bunun gələcək yolu,*
*Sənətkarla dolub, sağı həm solu,*
*Heç görünməz gözə sehriyar odur.*

*Onlar bilirlər ki, sənətkar yaşar,*
*Həmişə solmazdır, diləfkar yaşar,*
*Meyvəsi bol olar, qaynayıb daşar,*
*Çiçəyi çox olan bağda bar odur.*

*Ulular ulusu, əziz sənətkar,*
*Sizinlə görüşüm qalsın yadigar,*
*Qışdaqlı Qasımam, mənim də çox var*
*Əriməz heç vaxtı dağda qar odur.*

Şair Qasımın da bu şeri çox xoşa gəldi. Bununla məclis qurtardı. Məclis Ustad Cəfərə və onun şəyirdlərinə yüksək qiymət verdi və onlara təşəkkür etdi.

Dastan Şahbuz rayonunun Aşağı Qışlaq kənd sakini 1939-cu il təvəllüdlü Sərraf Qasım Əyyub oğluna ithaf olunmuşdur. Dastan Dərələyəzin Sallı kənd sakini Aşıq Mirzəlinin şəxsi arxivindən götürülmüşdür. Aşıq Mirzəli yazır: Dastanı yazıb qurtardım 13 may 1968-ci ildə gecə saat 1-ə 15 dəqiqə işləmiş.

Əzizlərim. Sizə kimdən deyim, kimdən xəbər verim Şahbuz rayonunun Aşağı Qışlaq kənd sakini Sərraf Qasımdan. Əzizlərim Sərraf Qasımın haxdan yazması, həqiqətdən söz deməsi hər yerə yayılmışdı. Bu xəbər mollalara da çatmışdı. Sərraf Qasım Naxçıvanlı olduğu üçün Naxçıvan aşıqları və Naxçıvanın aşıqpərəst adamları uzaqdan uzağa da olsa Sərraf Qasımı Naxçıvan məscidinin bir neçə mollasına tanış etmişdilər. Sərraf Qasım bir gün Şahbuz rayonunun Aşağı Qışlaq kəndindən (öz doğma kəndi) Naxçıvan şəhərinə gəlir. Onun yolu Məscidin yanınnan düşür. Bu zaman Sərraf Qasım ordan keçərkən bir ağsaqqal kişi Sərrafı səsləyərək oğul sizinən bir az işim var deyib onu saxlayır. Bu ağsaqqal həmin Naxçıvan Məscidinin Baş mollası Hüseyn olur. Molla Hüseyn Sərraf Qasıma deyir ki, ay oğul, mən dildən-ağızdan, aşıqlardan bir neçə söz eşitmişəm. O sözləri sən yazmısan? Sərraf Qasım deyir ki, Molla əmi, de görüm hansı sözü deyirsən. Oydu ki, Molla bir neçə dəfə eşitdiyinə görə sözlər onun yadında qalmışdı, Molla Hüseyn başladı eşitdiyi, öyrəndiyi sözləri deməyə:

*Sənə küllü salamım var*
*Xaliqi sübhan baba.*
*Sən nə vaxtdan bərqərarsan*
*Hakimi cahan baba.*
*Dur aç tarix kitabını*
*Sualıma cavab ver*
*Gəldi getdi, neçə Davud*
*İbni Süleyman baba.*

*Səbəb nədir bilmirəm mən,*
*Dərd verdin, dərmanı yox.*
*Adəmi də yola saldın*
*Köçürdün karvanı yox.*
*Kim çəkdi Nuhun qatarın*
*Qabaxda sarvanı yox.*
*Xəbərsizkən Nəbiyullah*
*Oxudun fərman baba.*

*Zibh edəndə İsmayılı,*
*İbrahim Xəlilullah*
*O dəmdə mərhəmət etdi*
*Ərşə kürşə seyfullah*
*Kəsmək üçün rəva bildi*
*Minada qadir Allah.*
*Cəbrayıla bir qoç verdi*
*Göndərdi qurban baba.*

*Pak bətində pak olasan*
*Məryəmi İsa kimi.*
*Hax yanında kəlamullah*
*Kəlamı Musa kimi.*
*Qisas alasan Firondan*
*Sən nahaqqa meydan vermə*
*Ədalət divan baba.*

*Aləmi ərvahda yazdın*
*Dörd kitabı dalbadal.*
*Xəlq eylədin badi ataş*
*Həm turabı dalbadal.*
*Çar oldu çeşmeyi zəm-zəm*
*Kosər abı dalbadal*
*Ali əba beş pəncini*
*Sən verdin nişan baba.*

*Sərraf Qasım Məhəmmədir*
*Təbəbi xeyrəl şəfa*
*Haqq ona xəbər veribdir*
*Üç min söz, üç min vəfa*
*Özün əfsəl peyqənbərsən,*
*Mübüvvəti Mustafa*
*Həm Əlidir, həm də sənsən*
*Natiqi quran baba.*

Molla sözləri əzbər deyəndən sonra Sərraf Qasım dedi ki, bəli bu sözlər mənim sözümdür. Molla dübarə qayıtdı ki, ay oğul bu sözləri də sən yazmısan? Sərraf Qasım qayıtdı ki, hansı sözləri, ay molla əmi. Yenə Molla Hüseyn əzbərdən dedi:

*Aləmi ərvahda əzəl yarandı,*
*Biri Adəm, biri Həvva, biri Nuh.*
*Məhəmməd peyqənbər, Fatimə, Əli,*
*Biri Alım, bir Mehdi, biri şah.*

*Məğriblə məşriqi tez görənlərin,*
*Cahan yollarında at sürənlərin,*
*Bax bu ağaların, bu ərənlərin,*
*Biri qəmər, biri şəmsdir, biri mah.*

*Belə zənn et ağıl başında tasdır,*
*Çalış dəhanından dür sözlər asdır,*
*Bu adəm babadan bizə mirasdır,*
*Biri bəli, biri xeyir, biri bah.*

*Dəhridə insanı qoşa ağladar,*
*Başına qaranı, alı bağladar,*
*Ürək sakit edər, cigər dağladar,*
*Biri sevinc, biri kədər, biri ah.*

*Sərraf Qasım, sən sərrafsan bunu bil,*
*Haqqın haqq elmini həkk etdi qabil,*
*Əmirlə Quranı yaxdı neçə il (min il),*
*Biri qələm, bir kağız, biri loh.*

Bəli, Molla Hüseyn əmi sən ki, əzbərdən dediyin bu sözlər ki var bu sözləri mən 1968-ci ildə Sabirabad rayonunda işləyən zaman həmin rayonun məşhur axundu Müseyibin yanında demişəm. O da icazə verdi ki, bu sözləri göndər qoy aşıqlar oxusun. Mən də göndərdim aşıqlara. Bəli bu sözləri mən yazmışam. Molla Hüseyn elə zənn edirdi ki, bu sözləri indiki zamananın adamı yaza bilməz. Bu yəqin ya Xəstə Qasımın, ya da ki kimin sözüdürsə öz adına vurur.

Sərraf Qasım bu sözləri Molla Hüseynə deyəndən sonra Molla Hüseyn gördü ki, doğrudan da Sərraf Qasım çox qiymətli sözlər deyir. Molla Hüseyn Sərraf Qasımdan soruşdu ki, ay oğul, sənin bu haxdan deməyin, mənim çox xoşuma gəldi, sözlərin qiymətlidir.. İndi mənə de görüm sənin savadın zadın nədir. Sərraf Qasım Mollaya dedi ki, mən kənd təsərrüfat institutunu qurtarmışam, zootexnikəm. Bundan başqa mənim qeyri dərsim də var. Gör o dərsi mən kimdən almışam. Aldı Sərraf Qasım:

*Oxuyub oxuyub sərraf olmuşam,*
*O, bir yaradandan dərs almışam mən.*
*Həqiqətdə özü bir, adı min bir,*
*O, sirri sübhandan dərs almışam mən.*

*Əlif-bey demişəm mim hesabında,*
*Təbim ümman olub cim hesabında,*
*Molla bilirsənmi kim hesabında,*
*Otuz cüzb Qurandan dərs almışam mən.*

*Qələmə hökm edib lohu yazdıran,*
*Cansıza can verib onu gəzdirən,*
*Qərq olanda Nuh gəmisin üzdürən,*
*İsmi kərəm-kandan dərs almışam mən.*

*Arifsən nəticə çıxar buradan,*
*Haqqa meyl et, qəlbin çıxsın qaradan,*
*Torpaqdan yoğurub, Adəm yaradan,*
*Hikməti, xəndandan dərs almışam mən.*

*Sidqi dillə qüdrətə and içmişəm,*
*Elm içində ümmanlardan keçmişəm,*
*Alimlər alimin məllim seçmişəm,*
*Ucada durandan dərs almışam mən.*

*Mehri Mübüvvətdən, on dörd ərəndən,*
*Mehraca tək, buraq atın sürəndən,*
*Məhəmmədə ayə, vəh göndərəndən,*
*Katib Gohərkandan dərs almışam mən.*

*Sərraf Qasım deyər Zülfüqarını,*
*Haqqın əmudunu, hax tatarını,*
*Qəzəbindən əhmərini, narını,*
*Əntərə vurandan dərs almışam mən.*

Molla Hüseyn gördü ki, Sərraf Qasım çox dərin yerlərdən dərs alıb. Ona görə də, Mollanın qəlbindəki bütün qaralar çıxdı və Sərraf Qasıma əhsən dedi. Sonra Molla Hüseyn Naxçıvan məscidinin minarəsinə baxa-baxa, divardakı yazıları oxuya-oxuya Sərraf Qasıma dedi. Sənə bir neçə sualım var. Onları aça bilsən daha sənə heç bir sözüm yoxdur.

## *QIFILBƏND*

***Molla Hüseyn***

*Məndən salam olsun Sərraf Qasıma*
*Əzəl başdan Qələm loha nə yazdı?*
*Mən aşiqəm nə yazdı*
*Hansı kanım nə yazdı*
*Söylə kimin əmriylə*
*Qələm loha nə yazdı.*
*Nə oldu mətləbi, nə oldu sözü,*
*Nə aşkar eylədi daha nə yazdı?*

***Sərraf Qasım***

*Məndən salam olsun Molla Hüseynə*
*Əzəl, qələm laha bismillah yazdı.*
*Mən aşiqəm lah yazdı*
*Kərəm kanım lah yazdı*
*Haqqın əmriylə qələm*
*Loha bismillah yazdı.*
*Əşhədü ən oldu, mətləbi sözü*
*Aşkar, lailahəillələh yazdı.*

***Molla Hüseyn***

*Hansı əl Məhəmməd Rəsulallaha,*
*Bəxş eylədi, nə göndərdi pənaha?*
*Mən aşiqəm pənaha*
*Pənah gətir pənaha*
*Sığın öz mürşüdünə*
*Bir sual ver pənaha.*
*Peyqənbəri kim gətirdi dərgaha*
*Mustafaya, xeyril şaha nə yazdı?*

***Sərraf Qasım***

*Haqq əli Məhəmməd Rəsulallaha*
*Bəxş eylədi vəh göndərdi pənaha.*
*Mən aşiqəm pənaha*
*Pənah gətir pənaha*
*Sığın öz mürşüdünə*
*Bir cavab ver pənaha.*
*Peyqənbəri hax gətirdi dərgaha*
*Xeyril şaha Quranı agah yazdı.*

***Molla Hüseyn***

*Molla Hüseyn deyər neçə şaxəli*
*Bağın bağmanına kim dedi bəli?*
*Mən aşiq dedi bəli*
*Öz könlüm dedi bəli*
*Görün kimə inandı*
*Xeyriyə dedi bəli.*
*Bəs kimin yerində Əlini Vəli,*
*Mövlam, ərzə, kahımaha nə yazdı?*

***Sərraf Qasım***

*Sərraf Qasım deyər on bir şaxəli,*
*Bağın bağmanına hax dedi bəli.*
*Mən aşiq dedi bəli,*
*Öz gönlüm dedi bəli,*
*Məhkəmədə inandı*
*Xeyriyə dedi bəli.*
*Peyqənbər yerində Əlini Vəli*
*Mövlam gahı – Maza Şirullah yazdı.*

Söz tamam olandan sonra, Sərraf Qasım Mollaya dedi ki, mən bilmirdim ki, məni imtahan edəcəksən. Madam ki, belədir, mənim də sənə bir neçə sualım var. Molla razı oldu. Aldı Sərraf Qasım:

***Sərraf Qasım***

*Aləmi ərvahda ismi mübarək*
*Baqidə, saqidə hazır neçədir?*
*Mən aşiqəm neçə dür,*
*Neçə yaqut, neçə dür,*
*Nuru Əhməd bağında,*
*Talib Bağman neçədir.*
*Sərraf olan desin neçə fazili*
*Ayeyi Quranda yazır neçədir?*

Molla Hüseyn dedi sağ ol, oğul. Sözlərinin qiyməti yoxdu. O, biri xanəsində de, fikirləşib cavab verərəm. Söz çox uzandı, molla cavab verə bilmədi. Molla qocaldığına görə sualda çaşdığını bildirdi. Sərraf Qasım suala özü cavab verdi.

***Sərraf Qasım***

*Aləmi ərvanda ismi mübarək*
*Baqidə, saqidə hazır ondördtdür.*
*Mən aşiqəm on dörtdür,*
*Ondörd yaqut ondörtdür,*
*Nuru Əhməd bağında,*
*Talib bağman ondörtdür.*
*Sərraf olan deyən on dörd fazili*
*Ayeyi Quranda yazır ondörtdür.*

***Molla Hüseyn***

*Neçə müsafirin neçə nizamı*
*Neçədir onların Kosərdə camı*
*Mən aşıq kosərcamı*
*Doldur ver Kosər camı*
*Səlsəbil çeşməsində*
*Neçədir kosər camı.*
*Neçənin arzusu, neçənin kamı,*
*Neçə pünhan, neçə aşkar, neçə sir.*

*Sərraf Qasım*

*On dörd müsafirin, on dörd nizamı*
*On dörddür onların kosərdə camı.*
*Mən aşiq Kosər camı*
*Doldur ver kosər camı*
*Səməbil çeşməsində*
*Ondörtdür kosər camı.*
*On dördün arzusu, on dördün kamı*
*On dörd pünhan, on dörd aşkar, on dörd sir.*

Molla Hüseyn sözə cavab tapa bilmədi. Sərraf Qasım bu qıfılbəndə də özü cavab verdi.

*Sərraf Qasım*

*Qışlaqlı Qasımam, eylərəm əyan*
*Nur üstündə o, minayə daş qoyan*
*Mən aşiqəm daş qoyan,*
*Təməl qoyan, daş qoyan*
*Ayə yazıb Quranda*
*Neçə eşqə daş qoyan.*
*Hax verib xəbərin var bircə qurban,*
*On dörd nəzir, on dörd ocaq, on dörd pir.*

Sərraf Qasım gördü ki, Molla Hüseyn bunu imtahan edir. Bu sözün qarşısında aldı Sərraf Qasım:

Sərraf Qasım sözün axırıncı xanəsində öz adını doğma kəndinin adı ilə birləşdirdi. Qoy aşıqlar məni həmişə Sərraf Qasım və Qışlaqlı Qasım kimi oxuculara tanıtsınlar.

Oydu ki, Sərraf Qasım (Qışlaqlı Qasım) sözün axırıncı xanəsində görək nə dedi:

Bilirsənmi:

Molla bilirdi ki, Sərraf Qasım Şahbuz rayonunun Aşağı Qışlaq kəndindəndi. Oydu ki, dedi oğul, yüksək adım-sanım var. Biz daha tanış olduq. Məni el içində biabr etmə və bu sözləri qoyma dilə ağız düşsün. Sərraf Qasım baş üstə dedi.

Axırıncı sözə də Sərraf Qasım (Qışlaqlı Qasım) öz cavab verdi:

*SƏRRAF QASIM*

*AY ƏYƏR-ƏYƏR*

*İsmayıl Minada zibh olmasaydı,*
*Məkkə bərq olmazdı ay əyər-əyər*
*Mən aşiq ayə indi*
*Nə qalıb ayə indi*
*Natiqəm mən oxuram*
*Qurandan ayə indi.*
*Şin şoq ilə çalınanda sin-sinə*
*Əlif dal qəddini ay əyər-əyər.*

*Ərənlər pirində bazar salmasa*
*Məhəmməd mehraca güzar salmasa*
*Mən aşiqəm salmasa*
*Bir ərzim var salmasa*
*Ağa min kəlmə danış*
*Min birdə de salmasa*
*Ərşə kürşə əli nəzər salmasa*
*Yer təlatüm eylər ay əyər-əyər.*
*Sərraf Qasım deyər gözəl atası*
*Sey sabitdə verdi gözələ tası*
*Aşiq, gözəl atası*
*Verdi gözələ tası*
*Əyləşib məqamında*
*Odu gözəl atası.*
*İstəsə qaytarar gözəl atası*
*Günü günortadan ay əyər-əyər.*

Söz tamama yetəndən sonra Molla Hüseynlə Sərraf Qasım salamlaşıb ayrıldılar.

## SƏRRAF QASIM VƏ DƏLİ KÜR DASTANI

Əziz dostlar Naxçıvan aşıqları 1968-ci ilin may ayında bir ay Sabirabad rayonuna qastrol səfərinə getdilər. Həmin vaxtı Naxçıvanın Şahbuz rayonunun Aşağı Qışlaq kəndindən olan Sərraf Qasım da İnstitutu qurtarıb Sabirabad rayonunda işləyirdi. Naxçıvan aşıqlarının Sabirabad rayonuna konsert verməyə gəldiyini bilən kimi Sərraf Qasım bir baş mehmanxanaya aşıqlarınan görüşməyə gəldi. Görüşdülər. Aşıqlar hər gün kəndlərdə konsert verirdilər. Bir gün də aşıqlar Kürün üstən bərədən (Kür körpüsündən) keçib türk kəndinə konsert verməyə getdilər.

Həmin gün aşıqlar Sərraf Qasımı da özləri ilə apardılar. Sərraf Qasım və Naxçıvan aşıqları bir maşına minib bir baş gedərək Kürün üstəki bərəyə çatdılar. Bəli, çox gözlədilər, bərənin yükü düzəldi. (Bərənin üstə 3 avtomaşın, 70-ə qədər adam oldu). Bərə tərpənməyə başladı. Bu vaxt may ayı, qara tutun yetişən, Dəli Kürün ən coşqun vaxtı idi.

Bərə bir az getmişdi ki, trosun bir tərəfinin stolbası yerindən çıxdı. Bir o qədər insan və maşınlar da bərənin üstə bərə axmağa başladı. Bərə Kürün üzündə qərq olmaq ərəfəsində görək Sərraf Qasım nə dedi:

*Sərraf Qasım:*

*Dar gündə çağır kərrarı,*
*Köməkliyi ondan istə.*
*Taxtı-tacı həm iqbalı,*
*Əli kimi xandan istə.*

*Arzu istək vüsalını,*
*Axtar yolda əsalını,*
*Haqqın doğru misalını,*
*Qadiri subhandan istə.*

*Haraya çağır ağanı,*
*Qapıda ahu sağanı,*
*Şəms ilə qoşa doğanı,*
*İsmi Kərəmkandan istə.*

*Qoymasın qərq olaq nakam,*
*Şəfa badəsi dolmuş cam,*
*Versin on ikinci imam*
*Sahibəl Zamandan istə.*

*Sərraf Qasım Mətləbini,*
*Sel kimi coşan təbini,*
*Dərdlərinin səbəbini,*
*Ol, Şahi Mərdandan istə.*

Söz tamam olsa da, bərə dayanmaq bilmədən Dəli Kürün üstüynən bir taxta parçası kimi axırdı. Sərraf Qasım bir adamlara baxdı, bir bərənin axmasına baxdı. Göz dolandırıb yenə də ağaların ətəyindən yapışaraq görək nə dedi:

***Sərraf Qasım:***

*Nəcəfdən çağırıram Şahsuvarı mən,*
*Yalvarıram tez gəl sən bəri Əli.*
*Müşgülə düşmüşəm qurtar müşgüldən,*
*Könlümü sevindir, dön bəri Əli.*

*Boyanıbdır künbəzləri qaradır,*
*Tapdım, ərənləri, piri buradır,*
*On dörd məhsum üçün on dörd sıradır,*
*Məscidi əxzanın mənbəri Əli.*

*Göndərirəm baratımı al oxu,*
*Düşdüm dara işdən halı ol oxu,*
*Nicat qapısına nəzər sal oxu,*
*Allahın gövhəri, ənbəri Əli.*

*Mən Sərraf Qasımam gəlmişəm dilə,*
*Şahım Şahi Mərdan mərhəmət elə,*
*Ey babil həvayiç sən gülə-gülə,*
*Ver düldülü, göndər qənbəri Əli.*

Sərraf Qasım bu sözləri tamamlayanda baxdı ki, bərə üstündə adamlarla dolu bir tərəfə yan aldı. Necə deyərlər, söykəndi Kürün xəndəyinə dayandı. Sərraf Qasım bərənin dayandığını görüb camaata ürək-dirək verdi ki, qorxmayın ağalar köməyimizə gəldi.

***Sərraf Qasım***

*Dostlar qərq oluruq Kür bərəsində,*
*Çağırdım, ağamı gəldi ha gəldi.*
*O, havadar bizə nicat verəndə,*
*Guşuma salamı gəldi, ha gəldi.*
*Mehracın hakimi Mehracın yarı,*
*Ora düşdü Məhəmmədin güzarı,*
*Əbəlfəzim, Abbas haqq ələmdarı,*
*Əlində ələmi gəldi, ha gəldi.*

*Üzümüzə açdı qapısın dərgah,*
*Bizim halımızdan tez oldu agah,*
*İqbal kitabını yazan barigah,*
*Gəldi sərəncamı gəldi, ha gəldi.*
*Yüz irmi dörd min o əmbiyanın,*
*Mehri Mübüvvətin, Zəhra ananın,*
*Bərhəqq olan, o, on iki imamın,*
*Dolu, şəfa camı gəldi, ha gəldi.*

*Düldülün sahibi Qənbər ağası,*
*Üzdə niqab, başda göy əmmaması,*
*Sərraf Qasım ərənlərin hamısı,*
*On dörd haqq qulamı gəldi, ha gəldi.*

Söz tamam olarkən türklərin kəndindən köməyə gəldilər. Bərənin burnu Kür xəndəyinə ilişib durduğu üçün ip ataraq, adamları bir-bir çəkib ordan çıxardılar. Bu minvalla adamlar ordan çıxdı. Türk camaatı maraqlandlı ki, nə yaxşı bərə batmamış və qərq olmamışsınız.

Sərraf Qasım Türklərə belə cavab verdi:

*Əhval soruşanlar, ölümdən bizi,*
*Bilin ki, Lahila fəta qurtardı.*
*Ordakılar, sığındılar Əliyə,*
*Başımızdan böyük xata qurtardı.*

*Bərə tərsə dönüb selə batmamış,*
*Sanki, burulğanda gölə batmamış,*
*Hamımız sağ ikən hələ batmamış,*
*Cümləmizi o, əbəta qurtardı.*

*Sərraf Qasım deyər yetmiş insanı*
*Əl üstə saxladı o, Kərəm kanı*
*Çox şükür edirəm bu qədər canı*
*Dəli Kürdən talib ata qurtardı.*

Aydın oldu ki, bu qədər insanı Dəli Kürdən ərənlər, ağalar qurtarıb (Maşınları da kranla çıxardılar). Bəli axşam çağı camaat sağ-salamat qurtardı. Naxçıvan aşıqları həmin gecə o türk kəndində elə çalıb oxudular ki, gəl görəsən.

Allah hamını dardan qurtarsın. Məclisdəkilər də həmişə Sərraf Qasımın bu sözün oxusun.

*Haqqı, ədaləti, axtaran hakim,*
*Tez eyləyər, yaxşılığın isbatın.*
*Vicdan ilə, namus, qeyrət satılmır,*
*İnsaf mətah deyil alasan satın.*

*Salam ver arifə sin kökü üstə,*
*Gəl qanmazı dindir, din kökü üstə,*
*Bir bar ağacının, min kökü üstə,*
*Hər insan göstərər öz nəcabatın.*

*İblis kimi yoldan çıxıb axanlar,*
*Haqq yanında nahaq fərman yazanlar,*
*Özgəsinə dərin quyu qazanlar,*
*Özü düşər, alar, doğru qıymatın.*

*O, yüz irmi dörd min mübüvvət ilə,*
*Haqqın məclisinə gəl dəvət ilə,*
*Halal süfrəsində səxavət ilə,*
*Mərdlər verər, namərdlərin xalatın.*

*Sərraf Qasım, nə qovrulma, nə bişmə,*
*Kənardan keç, haram mala ilişmə,*
*Dünyada pul yığmaq eşqinə düşmə,*
*Beş arşın kəfəndir, sənin qısmatın.*

Bəli, əzizlərim! Xoş keçən məclis bu sözlərdən sonra başa çatır.

# AŞIQ HƏŞİM

Aşıq Həşim 1868-ci ildə Dərələyəzin Cul kəndində anadan olmuş, 1966-cı ildə Yevlax şəhərində dünyasını dəyişmişdir.

1919-cu il erməni-müsəlman davasında Azərbaycana köçmüş, bir neçə il sonra öz yurduna qayıtmış, 1949-cu ildə təkrarən deportasiya olunub Yevlax şəhərinə gətirilmiş və dünyasını dəyişənə qədər burada yaşamışdır.

1919-cu ildə Naxçıvanda ermənilərlə vuruşan Lazım Paşa aşıq Həşimin qoçaqlığını və erməni dilini bilməsini öyrənib onun vasitəsi ilə Gəncədə türk qoşunlarına başçılıq edən Nuru Paşaya gizli bir məktub göndərir. Aşıq Həşim sazın çanağının içində məktubu Nuru Paşaya çatdırır. Nuru paşa aşıq Həşimin qoçaqlığına valeh olur və ona "Qəhrəman türk əsgəri" medalı verir. Aşıq Həşim 1918-1919-cu illərdə ermənilərlə mübarizədə böyük qoçaqlıq göstərmişdir. Həşimin cəngavər dəstəsi erməni şovinisti Yeranı öldürdükdən sonra ona belə bir şer də yazır:

*"Dəli" Yeran – "qoç" Yeran,*
*Gözlərini aç, Yeran.*
*Qana çox susamışdın,*
*Öz qanından iç, Yeran.*

Aşıq Həşim yaxşı çalıb oxuyurdu. Mən 1960-cı ildə Yevlaxda onun evində olmuş, şirin söhbətlərinə qulaq asmışam. Qoşmalarını hələlik əldə edə bilməmişik.

## *AŞIQ PAŞA*

Aşıq Paşa Qəhrəman oğlu Dərələyəzin Hors kəndində anadan olmuşdur. Məşhur "Qəhrəmanı" saz havasının yaradıcısı Aşıq Qəhrəmanın oğludur. O, çox məşhur aşıq olmuşdur. Dərələyəzdə, Şərurda, Vedibasarda, Zəngəzurda, Göyçədə, elat camaatı içərisində olan şənliklərin əksəriyyətinə onu çağırarmışlar. Zil, məlahətli səsi olmuşdur. Camaat deyirmiş ki, onun səsi kəllədən gəlir. Saz havalarının da mahir ifaçısı olmuşdur. Ucaboylu, zarafatcıl, yaxşı qaravəlli danışan bir aşıq olmuşdur. Onun oğlanları Sultan tar, Siyanfər kamança çalır, o biri oğlu isə dəf və saz çalıb oxuyardı. Mən (Həsən Mirzəyev) şəxsən onların Ələyəz kəndində keçirdikləri toy məclisində olmuş və oynamışam.

Aşıq Paşa həm də yaradıcı aşıq olmuşdur. Lakin hələlik onları tapa bilməmişəm. Yalnız Dərələyəzin Qabaxlı kəndindən olan Hürü arvadın toyda ona verdiyi bir tapmacanın cavabında yazdığı qoşma vardır. Tapmaca belədir:

*Əzizim müşkül açar,*
*Müşkülü müşkül açar,*
*İldə bir, ayda iki,*
*Həftədə üç gül açar.*

Aşıq Paşanın cavabı:

*Bir yemişi alıb kəsdim bu yalda,*
*İnsaf deyil Paşa qalsın xəyalda,*
*Dediyin ammanı tapdım bu yolda,*
*Sən də bil ki, məndə hünər var Hürü!*

*Telli haqda sən öyrətdin elini,*
*Mənə çox işlətdin fəndi-felini,*
*Canına qıymaram şirin dilini,*
*Ya əqrəb dişləsin, ya da mar Hürü!*

*Yazıq Paşa cavanların mərdidir,*
*Məni öldürən sən Hürünün dərdidir,*
*Sən dediyin baramanın qurdudur,*
*Üç girvəngə tənbəkimi ver, Hürü!*

## AŞIQ NƏBİ

Aşıq Nəbi Əhməd oğlu Dərələyəzin Cırrannı kəndindəndir. Dərələyəz mahalında məşhur aşıqlardan olmuşdur. Aşıq Nəbi Nikolay dövründə yaşamış və dövründəki hadisələri öz şerlərində tərənnüm etmişdir.

Aşıq Nəbinin oğlu Əhməd, nəvələri Baloş, Zülfi, Oktay da atalarının yolunu davam edirmişdir. Aşıq Baloş son illərə kimi el şənliklərində atasının, ustad aşıqların havacatlarını, sözlərini çalıb oxuyardı. Aşıq Nəbinin oğlu Zülfi Böyük Vətən müharibəsində, Oktay isə 1976-cı ildə İstisuda elektrik qəzasından həlak olmuşdur. Oktay atası kimi qoşmalar yazırdı.

### DAĞLAR

Dağılıb ağır elləri,
Həsrət qalıb xasa dağlar.
Dərdin, qəmin şərbətindən,
İçibdi bir kasa dağlar.

Mərdlər ilə öyünübdü,
Güllü donun soyunubdu.
Kərəm təki geyinibdi,
Bir qara libasa dağlar.

Ağrının dağı qoşadı,
Gülü nərgiz, bənövşədi.
Qıran tayqulaq paşadı
Dünya döndü yasa, dağlar.

## CAN SƏFƏRALI

Xəbər gəldi, Məmmədalı tutulub,
Qol-qanadı qandalağa bükülüb.
Bedavi minədə qullar tökülüb,
Yüz atlı dağıdan can Səfəralı,
Düşmənə yaladır qan Səfəralı.

Pristav öldürüb izin izlədi,
Sir sözünü şirin dildə gizlədi,
Tikəni yemədi yoldaş gözlədi,
Hatəmə tay olan xan Səfəralı.

Göydağda çadırın qurub dirəkli,
Ətrafı bəzənib güllü, çiçəkli.
Ey enli kürəkli, pələng biləkli,
Yetir, qandalı aç, can Səfəralı,

Qırır bəyi, xanı gen açır meydan,
Kasıb, yoxsullara eyləyir ənam.
Dünyaya gəlmiyif heç belə insan,
İçir düşməninə qan Səfəralı.

Neçə para kəndi eylədi azad,
Qırdı ermənini qəlblər oldu şad.
Aşıq Nəbi aldı bir ağır xələt,
Düşmənə içirtdi qan Səfəralı.

## İGİD SƏFƏRALI, QOÇ MƏMMƏDALI

Aslan kimi cumdu rusun üstünə,
İgid Səfəralı, qoç Məmmədalı.
Ata-oğul düşmənlərin qəsdinə,
İgid Səfəralı, qoç Məmmədalı.

Qaçdı İvan, qorxdu Nikolay, Saşa,
Afərin, türk oğlu, söylədi Paşa.
Qoç ata var olsun, oğul yüz yaşa,
İgid Səfəralı, qoç Məmmədalı.

Nizəyə taxanda düşmən başını,
Qoymadı daş üstə qala daşını.
Qırıb tökdü sərçə kimi qoşunu,
İgid Səfəralı, qoç Məmmədalı.

Göydağdan yollandı Ağrıya şir tək,
Hay saldı dağlara nərə çəkərək,
Anadan doğulub bu dünyada tək,
İgid Səfəralı, qoç Məmmədalı.

Aşıq Nəbi igidliyi şan eylər,
Ellərə səs salıb bir dastan eylər.
Rusa hücum çəkib neçə qan eylər,
İgid Səfəralı, qoç Məmmədalı.

## AŞIQ XANLAR

Aşıq Xanlar Dərələyəzin Herher kəndində, aşıqlar məskənində anadan olmuşdur. Çoxlu gəraylı və qoşmaları vardır. Onlardan ikisini veririk. O yaxşı aşıq kimi eldə hörmət qazanmışdır.

### QALDI

Yaslı dağlar, qan boyanan dərələr,
Deyin görüm Əmağudan kimi qaldı.
Yapon əclaf al elədi ellərə,
Yandı ellər, bizlərə də qəm qaldı.

Hiylə ilə əldən silah alındı,
Arvad-uşaq tövlələrə salındı.
Od vuruldu, nəhəng tonqal qalandı,
Oda yandı, evlər uçdu, him qaldı.

Belə dərdi Xanlar necə götürsün,
Səs-sədası eldən elə yetirsin.
Allah «hay»ı yer üzündən itirsin,
Kədər aldıq, sitəm gördük, dəm qaldı.

### MƏNİ

Nə müddətdi qan ağlayır gözlərim,
Nə olar vətənə yetirin məni.
Öpüm torpağımı, verim canımı,
Doğma qəbristana götürün məni.

Görüm dağ-dərəni, sorum halını,
Zeytə gözəlini şah camalını.
Qırmızı lalənin qara xalını,
O doğma yerlərə ötürün məni.

Mən Xanlaram getdim yurda daş qoyum,
Vətən deyim, uğrunda baş qoyum.
Bu dünyada bu həyatdan bir doyum,
Nə olar imana gətirin məni.

## AŞIQ MƏHƏMMƏD
## (FÜQARƏ MƏMMƏD)

Aşıq Məhəmməd (füqarə Məmməd) yaşlı adamların, informatorların dediyinə görə XIX əsrin 20-ci illərində Dərələyəzin Amağu kəndində doğulmuşdur. O füqarə Məmməd ləqəbi ilə də tanınır. Təbiət etibarilə sakit adam olduğu üçün bu ləqəbi qazanmışdır. İnformatorların dediyinə görə çoxlu qoşmaları vardır. Lakin hələlik bunların hamısını əldə edə bilməmişik.

Bəzi mənbələrdə göstərilir ki, füqarə Məmməd Şərurun Yaycı kəndində doğulmuşdur. Bu dəqiq məlumat deyil. O, Amağu kəndində doğulub orada da boya-başa çatmışdır. O yaşlı vaxtlarında Yaycıya köçüb orada yaşamışdır.

Əvvələn, məqalə yazan bilməliydi ki, məlumatı verən Aşıq Həmidin özü də Dərələyəzlidir. Dərələyəzin Kotanlı kəndindəndir.

İkincisi, bu tədqiqatçı onu da bilməliydi ki, füqarə Məmmədin yaşadığı dövrdə Yaycı və Danzik kəndləri də Dərələyəzin ərazisi olmuşdur.

Füqarə Məmməd yüz ildən çox ömür sürmüşdür. Bu onun "Hey" rədifli qoşmasında da vardır.

### HEY

Seyraqubu döyün getsin qoyuna,
Tutun boğazına salıb bağlar hey.
Tifil kimi onu basıb bağrına,
Döşünü ağzına salıb ağlar hey.

O kimdir ki, allahına ox atıb,
Şikarına balıq verib, o xatıb.
Gör nə gözəl xəlq eyləyib o katib
Qaranın altından salıb ağlar hey.

Ey Füqara, dərin qazdır sini sən,
Yetirmisən indi yüzə sinni sən.
Düzdürmüsən məclisinə sini sən,
Fələk sinən üstə salı bağlar hey.

### FÜQARALIQDIR
*(qıfılbənd)*

Bizdən salam olsun sübhü danlara,
Adəmi Səfidən neçə tarixdi?
Bu yerdən dumana, dumannan günə,
Gündən də asmana nə qadalıxdı?

Nə idi su ikən gətirdi cana,
Ona ruzi verir gündə pünhana.
Doqquz ay, doqquz gün salır zindana,
Bu necə qurğudu, nə ustalıxdı?

O necə padşahdı, min bir adı var,
Bir adı Kərimdi, bir adı Cabbar,
Siq ilə çağırram qadiri Qaffar,
Bağışla günahım Füqaralıqdır.

## GÖR KİMƏ QALDI

Ay ariflər, gəlin sizə söyləyim,
Yurdumun sərvəti gör kimə qaldı?
Atamın görgahı, babamın mülkü,
Əlimin zəhməti gör kimə qaldı?

Arpa çayı tərsə saldı axarın,
Təpəsidəlik heç vaxt pozmaz vüqarın.
Rus haya pay verdi Herher bağların,
Culun səltənəti gör kimə qaldı.

Əyricə, Ələyəz, Qısırın dağı,
Sandıqlı, Sarıyer, Yazı yaylağı,
Göy dağın meşəsi, Morun bulağı,
İstisu cənnətdi, gör kimə qaldı?

Yazdığın lavaşı, əmliyi əti,
Balığın kababı, zirincin məti,
Məhəmməd, süfrənin şanı-şöhrəti,
Şəkəri-şərbəti gör kimə qaldı.

## TERPLİ AŞIQ ƏLİ

Aşıq Əli – Kərimov Əli Fərman oğlu 1923-cü il aprel ayının 22-də Dərələəz mahalının Terp kəndində anadan olmuşdur. 1937-ci ildə atası siyasi dustaq kimi Sibirə sürgün ediləndə onun 14 yaşı var idi. O, aşıqlıq sənətinə də elə bu kiçik yaşlarından maraq göstərmişdir.

1942-ci ildə o, Böyük Vətən müharibəsinə getmiş, 1947-ci ildə ordudan təxris olunmuş, 1948-ci ildən isə aşıqlıq sənətini davam etdirmişdir. Aşıq Əli Dərələyəzdə, Naxçıvanda, Şərurda, Ordubadda xüsusən Şahbuzda olan toy şənliklərində, aşıq məclislərində çox olmuşdur.

Başqa həmvətənliləri ilə birlikdə Aşıq Əli 1949-cu il Ermənistan hökuəti tərəfindən Azərbaycana, Səlyanın Qarabağlı kəndinə departasiya olunmuş və orada yaşamışdır.

Aşıq Əlidən sual-cavab edənlərə, harada doğulmusan deyənlərə o həmişə aşağıdakı kimi cavab vermişdir.

*Qoy deyim mən kiməm, nə axtar, nə gəz,*
*Doğma ata yurdum o Dərələyəz.*

Aşıq Əli sazın mahir ifaçısı kimi, yaradıcı, qoşmalar, gəraylılar yazan bir aşıq kimi böyük hörmət qazanmışdır.

O, toylara, şənliklərə ən çox bacısı oğlanları Budaq Həsənovla (qara zurna çalan), Ələmşah Həsənovla (nağara çalan) və yeznəsi Bulud Həsənovla (balaan çalan) gedərmiş.

Onun altı övladı (3 oğlu, 3 qızı) var. O, 2003-cü ilin yanvar ayında dünyaını dəyişmişdir.

Aşıq Əlinin anası Kərimova Anaxanım Ələkbər qızı şairə, sinədəftər bir qaın olmuşdur. Anaxanımın gəraylısı:

*GƏRAYLILAR*

## HANI

Bu dərədə axan çaylar,
Ondan içən gözəl baylar,
Bedav daylar, köhlən atlar,
İlxı-ilxı duran hanı?

Əvvəl əlifbey deyənlər,
Zəbər üstə dal yazanlar,
Yaxşı kamil oxuyanlar,
Əllərində quran hanı?

*QOŞMALAR*

## NAXÇIVAN

Hayana baxırsan güldü, çiçəkdi,
Səfalı yaylaqlı, dağlı Naxçıvan.
Bağ-bağçada güllər ləçək-ləçəkdi,
Almalı, heyvalı bağlı Naxçıvan.

Sədərəkdən düş gəl Şərura sarı,
Tale bəxş eyləyib meyvəni, barı,
Qışda qovurması, motalı, şoru,
Qaymaqlı, pendirli, yağlı Naxçıvan.

Tarixlərə baxsan böyük adın var,
Şairin, alimin, çox övladın var,
Cəlilin, Cavidin, Ordubadin var,
Min şerli, yüz dastanlı Naxçıvan.

Batabatı gözəl, xoş mənzərəli,
Yenişli, yoxuşlu, düzlü, dərəli,
Nanəli, yarpızlı, acıtərəli,
Qorkuda, Cavidə bağlı Naxçıvan.

Əliyəm, deyirəm sözün düzünü,
Ordubad meyvəsi, Şahbuz üzümü,
Hər yerdə söylərlər sənin sözünü,
Qəlbim də səninlə bağlı, Naxçıvan.

Oğluna yazdığı "Oğul" rədifli qoşmadan yalnız bir bəndi oğlu Fikrətin yadaşında qalıbdır.

Nə aman dilədim, nə də ah çəkdim,
Nə ömür istədim, nə də var seçdim.
Əliyəm ər kimi yaşayıb keçdim.
Bu fani dünyanın odundan oğul!

Əlini Naxçıvanda, xüsusən Şahbuzda olan el şənliklərinə çox çağırarmışlar. Bunları yaxşı görən və Əlini yaxşı tanıyan Şahbuzlu məşur el şairi Qışdağlı Sərraf Qasım Aşıq Əliyə bir qoşma həsr etmişdir:

Naxçıvan xalqının vərdişi, işi,
Əzəldən gəlibdir xoşuna Əli.
Kef məclisi quraq biz Batabatda
Dostların yığışsın başına Əli!

Bızqovdan at sürək dağlara sarı,
Olaq o yerlərin mehmanı-yazı,
Təkəli, salvartı əritmiş qarı,
Çıxaq zor bulağın daşına Əli!

Qasımam deyirəm sözün düzünü,
Axtar yolun doğrusunu, düzünü,
Ömürlər talayan çətin illərin,
Düşmə boranına, qışına Əli!

## AŞIQ HƏMİD

Aşıq Həmid Məmmədbağır oğlu Ağamalıyev 1925-ci ildə Dərələyəzin Kotannı kəndində (Paşalı rayonu) dünyaya göz açmışdır. O, uşaq vaxtından saza meyl etmiş və babası aşıq Adıgözəl ona saz çalmağı öyrətmişdir. Yaşlıların dediyinə görə onun səsi dayısı Aşıq Surxayın səsinə bənzəyirdi.

Kiçik yaşlarından Dərələyəz aşıqlarının məclislərində oturub onlara heyranlıqla baxan Aşıq Həmid saz havalarını məharətlə ifa etmiş və çoxlu dastanlar sinəsində gəzdirmişdir. Aşıq Həmid eyni zamanda yaradıcı aşıqdır. Onun çoxlu gəraylı və qoşmaları vardır. Ermənilərin təqibi nəticəsində Dərələyəzdən köçüb Şərurda məskən salan Aşıq Həmid ömrü boyu məlahətli səsi, sözü, avazı ilə vətənini tərənnüm etmişdir. Məlahətli səsə, gözəl ifaçılıq qabiliyyətinə malik olan Aşıq Həmid xeyli müddət Şərurda aşıqlar ansanblının rəhbəri olmuşdur. O, 1986-cı ilin noyabr ayında Şərur rayonunun Yenikənd kəndində dünyasını dəyişmişdir.

### *GƏRAYLI*

### DAĞLAR

Məğrur olan qartalların,
Ağ çalmandı zirvə qarın
Səndən köçsə dostun, yarın,
Qəlbim sızlar, mələr, dağlar.

Hər qayanın min sirri var,
Hər daş altda tarix yatar
Hər yaz quşlar qatar-qatar,
Sənə qonaq gələr, dağlar.

Həm əzəmət, həm hünərsən,
Bahar gəlcək təzə-tərsən,
Bir gün məndən üz döndərsən
Aşıq Həmid ölər, dağlar.

## VƏTƏN DARDADI, DARDADI

Şahinlərim qanadlanın,
Vətən dardadı, dardadı.
Yaraqlanın, tez atlanın.
Vətən dardadı, dardadı.

Azğınlara qan uddurun.
Başlarına toy tutdurun,
Adlarını unutdurun,
Vətən dardadı, dardadı.

Canımızdan keçək gərək.
Qanımızdan keçək gərək.
Bu yolda and içək gərək.
Vətən dardadı, dardadı.

Nəğmələri bayquş ötər,
Bağ-bağçada qanqal bitər,
Mənlik itər, qeyrət itər,
Vətən dardadı, dardadı.

Nə sızla, nə də ah eylə,
Öz gücünə pənah eylə.
Həmid sazı silah eylə,
Vətən dardadı, dardadı.

***Aşıq Həmid Ağamalıyev,***
***İliç rayon. Yenikənd kəndi.***

## *QOŞMALAR*

### BİLƏRSƏN

Əziz dostum, sən Şərurun qiymətin
Mehman olmaq üçün gəlsən, bilərsən.
Gəzib qarış-qarış hər torpağını,
Bəhrəsin əlinlə dərsən bilərsən.

Sən də vurğunu ol halal zəhmətin,
Burda oğlan mətin, burda qız mətin,
Əhmədin, Yusifin şanın-şöhrətin,
Yaxından danışıb görsən bilərsən.

Dəyişib donunu Şərurun zaman,
Gəl söz sal İsadan, Həlməxatından,
Həmid tək yurdumun abadlığından,
Şeir çələngini hörsən bilərsən.

### OLMUSAN

Gördüm gözlərini, kövrəldim yenə
Məhzun, lal baxışın dərd oldu mənə.
Kimin gücü çatar ürək deyənə,
Qəlbimin təşnəsi, odu olmusan.

Nə deyim fələyin fitnə-felinə,
Qərq edib eşqimi tilsim gölünə,
Bu yazıq, vəslinə həsrət dilinə,
Min bir qıfılbəndli cadu olmusan.

Bir zaman qəlbimin həmdəmi idin,
İlk eşqin naminə bir də danış, din,
Vəfasız, nə oldu, Aşıq Həmidin,
İndi ən uzağı, yadı olmusan.

## SƏNİ

Aldım məktubunu, qardaşım İdris,
Nə bir dərd görəsən, nə qada səni.
Ürəyim hey səni arzulayırdı,
Çatasan arzuya, murada səni.

Birlik olan yerdə nə dağ, nə kərən,
Kim əyər dünyanın işini görən,
Sanıram tufana döşünü verən,
Dəryada möhtəşəm bir ada səni.

Həmidəm, ürəyim dostlar üçündü,
Bir dost salamından qəlbim uçundu,
Yığış, ürəyimə yığış köç indi,
Tapmasın bir xata dünyada səni.

*04 mart 1986-cı il*

## VƏTƏN, BİZƏ SƏN ƏMR ELƏ, ƏMR ELƏ

Göylərində qara bulud oynaşır,
Vətən, bizə sən əmr elə, əmr elə.
Yağı düşmən qarışqa tək qaynaşır,
Vətən, bizə sən əmr elə, əmr elə!

İnam olsa gül açdırrıq kolunda,
Birləşərik, güc olarıq qolunda,
Sinəmizi sədd edərik yolunda,
Vətən, bizə sən əmr elə, əmr elə!

Qucağında yaşamaqdan doymarıq,
Adi qara daşına da qıymarıq,
Torpağını tapdanmağa qoymarıq,
Vətən, bizə sən əmr elə, əmr elə!

Həvəsliyik yaratmağa, qurmağa,
Gözütoxuq, ilişmərik qarmağa,
Həmid deyər, keşiyində durmağa,
Vətən bizə sən əmr elə, əmr elə!

***Aşıq Həmid Ağamalıyev,***
***İliç rayon. Yenikənd kəndi. 26.01.1944-cü il.***

## DEYİŞMƏ

Günlərin birində Aşıq Həmid saz çiynində bir dağ kəndinə səfər edərkən şair Əhməd Sədərəklini əlində dəftər qələm, pərişan halda bir qayaya dirsəklənib xəyala daldığını görür. Aşıq Həmid bu mənzərəni seyr etdikdən sonra sazı köynəkdən çıxarıb görək nə deyir.

*Aşıq Həmid*
Salam, Əhməd Sədərəkli,
Od oğlusan, od ürəkli.
Oldun elə sən gərəkli,
El də səni anar, şair.

*Əhməd Sədərəkli*
Aşıq Həmid, salamın al,
Bir əfsunlu «Sarıtel» çal.
Pərdələrdə bu el, mahal
İstəyinə dönər, aşıq.

*Aşıq Həmid*
Dağxislətsən, dağlara bax,
Ləpələri yaşıl varaq.
Hər yazdığın şer-çıraq
Əməlindir-anar, şair.

*Əhməd Sədərəkli*
Bir dastan de bu aləmdən,
Oxu dəmdən, oxu qəmdən.
Bu hikməti, inan ki, sən,
Nadan çətin qanar, aşıq.

*Aşıq Həmid*
Fitrətində nə qüdrət var?...
Qələmindən çaylar çağlar.
Sənsən bizim ulu dağlar,
Özün tənha sanar, şair.

*Əhməd Sədərəkli*
«Şəruru» çal-parlasın dan,
Ülfət görək dosdan yardan.
Hörmət umma nadanlardan,
Qəlbi buzdur-donar, aşıq.

*Aşıq Həmid*
Bir çələngdir hər əsərin,
Hər sözündə məna dərin.
Dünya olar ilham pərin,
Ürəyinə qonar, şair.

*Əhməd Sədərəkli*
Zirvələrin getməz qarı,
Nəğməkardır elin varı.
Kim dansa da sənətkarı,
Tarix çətin danar, aşıq.

*Aşıq Həmid*
Şerin gəzir dilimizdə,
Çiçək açır-çığır izdə.
Həmid deyər: xoşdur-bizdə
Yetdi sən tək çinar, şair.

*Əhməd Sədərəkli*
Qəlbə verər min həvəsi-
Sazın sehri, sazın səsi.
Əhməd kimi məğrur kəsi
Dünya yoxlar-sınar, aşıq.

## *MÜXƏMMƏS*

## ŞƏRURA

Əzizlərim qulaq asın
Deyirəm dastan Şərura.
Oğlanları igid, mətin,
Qızları ceyran Şərura.
Gündə yüz min qonaq gəlsə,
Olacaq heyran Şərura
Görməyənlər gəlib görsün
Olsunlar mehman Şərura.
Neçə zirvə fəth eyləyib
Yaraşır ad-san Şərura.

Yaraşıqlı binaların
Bərabəri, tayı hanı?
Günü-gündən abadlaşır
Gülzara dönür hər yanı.
Boz səhralar, susuz çöllər
Olubdu hünər meydanı.
Yaxın, uzaq, hünərin var
Gəl bu eli indi tanı.
Halal olsun bu cah-cəlal
Bu qurğu, dövran Şərura.

Min yaşasın partiyanı.
Çatdırıbdır şərəf-şana.
Qırılmaz tellə bağlıyıq,
Anamız Azərbaycana.
Keçici al bayraq alıb,
Səs saldın bütün cahana.
Belə bir elin yolunda
Hansı igid qıymaz cana?
Bir canın var, aşıq Həmid
Qoy olsun qurban Şərura.

## AŞIQ HÜSEYN ARPAÇAYLI

Aşıq Hüseyn Arpaçaylı 1926-cı ildə Dərələyəzin Arpa kəndində anadan olmuşdur. Arpaçayının üstündə yerləşən, ta qədim dövrdən azərbaycanlılara məxsus olan və türk tayfasının adını daşıyan bu kənddə indi ermənilər yaşayır.

Aşıq Hüseyn Arpaçaylı lap uşaq yaşlarından aşıq sənətinə həvəs göstərmişdir. Onun ilk ustadı Dərələyəzin Qaravəng kəndindən olan dayısı Aşıq Məhəmməd olmuşdur. Saz çalmağı, oxumağı, dastan söyləməyi ona dayısı öyrətmişdir. Qaravəngdən köçüb Şərurun Aralıq kəndində yaşayan Aşıq Məhəmməd 1979-cu ildə həmin kənddə dünyasını dəyişmişdir.

Aşıq Məhəmməd ona Ağ Aşıqla Aşıq Alı haqqında çox şey öyrətmişdir. Cavan vaxtlarının çoxunu Dərələyəzdə, Şərurda keçirən Ağ Aşıqla Alının deyişmələri onların çoxuna məlum olmayan gəraylı və qoşmaları, Aşıq Alının Türkiyə səfəri Hüseyn Arpaçaylıya dayısı Aşıq Məhəmməddən yadigar qalmışdır. Neçə-neçə rəğbətləndirmələri olan Aşıq Hüseyn Arpaçaylı 40-dan artıq saz havasını ifa etməyi bacarır.

Aşıq Hüseyn dayısı Aşıq Məhəmməddən yadigar qalan bir deyişməni-Ağ Aşıqla Aşıq Alının deyişməsini burada verməyi faydalı hesab etdim.

## AĞ AŞIQLA ALININ DEYİŞMƏSİ

*Alı*
Əvvəl-əvvəl bu dünyaya,
O kimdir ki, maya gəldi.
Söylə kimdən əmr olundu,
Nə üzünə həya gəldi?

*Ağ Aşıq*
Əvvəl-əvvəl bu dünyaya,
Adəm ata, Həvva gəldi.
İlahidən əmr olundu,
Yer üzünə həya gəldi.

*Alı*
Hansı nərə gəldi maya,
Kim əl götürdü duvayə,
Kimin üstə gəldi sayə,
Kəlmə-kəlmə ayə gəldi?

*Ağ Aşıq*

Həvva gəldi bu dünyayə,
Məryəm əl götdü duvayə.
Məhəmmədə gəldi sayə,
Kəlmə-kəlmə ayə gəldi.

*Alı*

Neçə dəstədi gülümüz,
Nə idi gəldi dilimiz,
Ey ustad kimdir pirimiz,
Kimdir ona dayə gəldi?

*Ağ Aşıq*

On iki imam gülümüz,
Kəlmədə gətdi dilimiz,
Aşıq Alı var pirimiz.
Salman ona dayə gəldi.

Bu qıfılbəndi Dərələyəzin Qaravəng kənd sakini Aşıq Məhəmməd sinəsində saxlamış. O da bacısı oğlu Aşıq Hüseyn Arpaçaylıya vermişdir. Dərələyəzli Aşıq Hüseyn Arpaçaylı da bunu məclislərdə söyləmişdir.

## AŞIQ QAFAR

Aşıq Qafar Dərələyəzin Axta kəndində doğulmuşdur. O, 1949-cu ildə Dərələyəzin Axta kəndindən deportasiya olunmuş və Əlibayramlı rayonunda məskunlaşmışdır. Aşıq Hüseyn Cavanın şəyirdi olmuş və kamil aşıq kimi yetişmişdir. Aşıx Qafar saz çalıb oxumaqla yanaşı, həm də qoşma və gəraylı da yazıbdır. Sallılı Aşıq Mirzalı ona bir qoşma da həsr etmişdir.

*QOŞMA*

### PULDUR

Hər kasıb dövləti bəşəriyyətin,
Dilinin əzbəri, çörəyi puldur.
Bəzi milyonerdi, gözləri doymur,
Bəzinin çırpınan ürəyi puldur.

Bəzinin cibindən qaçaq olubdu,
Bəzinin çantası dümdüz dolubdu,
Neçə padşahları taxtdan salıbdı,
Bəzinin olmayıb yeməyi, puldur.

Cibin dolu olsa kefin kök olur
Cibdə olmuyanda rəngin də solur,
Qaşların çatılır, gözlərin dolur,
Hər dərdin, dərmanın dirəyi puldur.

Bəzi varlananda adı ucalır,
Bəzi Koroğlu tək qılıncın çalır,
Bəzini bulunmaz dərdlərə salır,
Bəzi ah-vay deyir, diləyi puldur.

Ahutək gözəllər mənliyin satır,
Qardaş dinar üstə qardaşın atır,
Çox bayıslar gündə min qana batır,
Qafar, çətin günün gərəyi puldur.

Dərdin çoxdur dərd əhlini unutma,
Qulluq eylə yaxşı sözlər alınca.
Sınanmamış kəsdən dost olmaz tutma,
Qiybət edər, düz danışmaz dalınca.

Qonağım ol sözün diliynən deyir,
Yeməkdir adəti, pul vermək xeyir!
Yeyir, içir gedib belə söyləyir,
Xam tapmışdım, yedim, içdim, doyunca.

Yaxşısı var, yaman qoymur tanıyax,
Vəfalısın nə cür seçək, sınayax?
Çoxların dost edir araxla, kanyax,
Mehribandı istəkanı dolunca.

Belələri özün insan sınamır,
Qohum da, qardaş da bezir, qınamır,
Özü öz mənliyin hələ unamır,
Şeirə yazılıb ifşa olunca.

Bir dərin fikirlə xəyala dalın,
İnsan olub insanlıqdan ad alın,
Səxalı mərd adı ilə ucalın,
Qafar şeirində yada salınca.

*Aşıq Mirzalı*

## QARDAŞ

### Aşıq Qafara ithaf edirəm

Sənətin şonqarı, el yaraşığı,
Eşitmişdim sorax alanda qardaş.
Ellər sənə xoş məhəbbət bəsləyir,
Məclislərdə qonax qalanda qardaş.

Ustan Cavan Söyün dərsini verir,
Səninlə fəxr edib göyə yüksəlir.
Bütün bəşəriyyət həvəsə gəlir,
Sən Orta sarıtel çalanda qardaş.

Elin Dərələyəz adın Qafardı,
Şəyirdin Əfsəl də çox bəxtiyardı.
Boş qalmayıb atan Fərmanın yurdu,
Coşursan qaynayıb dolanda qardaş.

Aşıq Teymurunan qoşa çal sazı,
Şirindir ləhcəsi, xoşdur avazı.
Səlimin xoş gəlir baharı, yazı,
Nəcəfqulu siznən gələndə qardaş.

Sözüm sona çatır bağışla məni,
Hər vaxt yad edirsən eli, vətəni.
Aşıx Mirzalı da unutmaz səni,
Bəlkə də unudar öləndə qardaş.

## AŞIQ FİRİDUN

Aşıq Firidun – Allahverdiyev Firidun Balaxan oğlu 1923-cü ildə Dərələyəzin Cul kəndində anadan olmuşdur. 1949-cu ildə Ermənistan hökuməti onu öz doğma yurdundan deportasiya etmiş və o Cul kəndinin əhalisi ilə birlikdə Yevlax rayonunda məskunlaşmışdır. Ömrünün axırına qədər burada yaşayan Aşıq Firidun 1989-cu ildə dünyasını dəyişmişdir. Məlahətli səsə, xoş avaza malik olan Aşıq Firidun həm də yaradıcı aşıq olmuşdur. Onun bir sıra gəraylı və qoşmaları vardır. Lakin hələlik bunları əldə edə bilməmişik.

### GÜLƏ-GÜLƏ

İşləyirik gecə-gündüz,
Yaxşı keçir günlərimiz.
Müqəddəsdir vətənimiz
Vəsv edirik gülə-gülə.

Qeyrətlidir oğlan qızı,
Sevindirir qəlbimizi,
Firidunun xoş avazı,
Mahnı deyir gülə-gülə.

## AŞIQ NƏSİB

Aşıq Nəsib Musa oğlu 1926-cı ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur. Qovuşuq kənd orta məktəbində oxumuş, 1943-cü ildə Böyük vətən müharibəsinə getmiş, Berlinə qədər döyüş yolu keçmiş, bir çox orden və medallarla təltif olunmuşdur. Müharibədən qayıtdıqdan sonra Göyçənin İnəkdağı kəndindən olan Aşıq Qənbərə şəyirtlik etmiş, sonra da müstəqil şəkildə aşıqlıq etmişdir. O ustadından öyrəndiyi «Sarıtel», «Dilqəmi», «Kərəmi», «Misiri» və sair bir çox saz havalarını məharətlə ifa edirdi. Onun «Dağlar», «Axşam-Səhər», «Bu yerdə», «Eyləyər», «Gözləyər», «Sənsən», «Bəri», «Bizə doğru» və bu kimi qoşmaları vardır. O hərbi xidmətdə olarkən sehrbazliq sənətini öyrənmişdir.

Aşıq Nəsib 1973-cü ildə Moskvadan gələrkən avtomobil qəzasına düşmüş və həlak olmuşdur. Qəbri Dərələyəzin Qovuşuq kəndindədir. Qoşmalarından birini verməklə kifayətlənirik.

### BİZƏ DOĞRU

Novruz da baharın ilk nişanıdır,
İstəyirik gəlsin yaz bizə doğru.
Könül pərvazlanıb qalxsın havaya,
Aşıqlar da çalsın saz bizə doğru.

Sevgili sevgiyə eyləyir nazı.
Hacı bir-birindən qalır razı.
Məhəbbət bürüyüb çölləri, düzü.
Yazılır ilqarlı söz bizə doğru.

Gətirib bağçalar çiçəkli barı.
Açıb üzümüzə xoş rüzgarı,
Azadlıq həsrəti çəkən diyarım.
Onu da döndərsin tez bizə doğru.

Açıb ana-bacı qolun, qanadın.
Ucaldır dünyada vətənin adın,
Sevib, seçilməyə səs verən qadın,
Edir işvə, ərin, naz bizə doğru.

Aşıq Nəsib sənin söhbətin, sazın,
Bürüyür elləri coşqun avazın,
Əlində qaşı at şeytanın izin
Açılsın könüllər düz bizə doğru.

## AŞIQ ŞÜKÜR

Aşıq Şükür Əli oğlu Məmmədov 1927-ci ildə Dərələyəzin Terp kəndində anadan olmuşdur. 1949-cu ildə Ermənistan hökuməti tərəfindən deportasiyaya məruz qalmış, Səlyan rayonunun Qarabağlı kəndində məskunlaşmış və hal-hazırda həmin kənddə yaşayır.

Yaxşı səsə malik, gözəl saz ifaçısı kimi tanınan aşıqdır. O həm də yaradıcı aşıqdır. Bir sıra qoşma, gəraylı və bayatıları vardır.

### *QOŞMALAR*

### OLMASA

Quzu neyləyər damğanı
İnsanlar xain olmasa,
Günün keçər ahı-vayla
Yarın öz tayın olmasa.

Qopsa tufan, əssə külək,
Dizdə qüvvət, davam gərək,
Elsiz olsan qalarsan tək
Köməyin, hayın olmasa.

Quş qəfəsdən çıxa bilməz,
Su göllənsə axa bilməz
Namərd mərdi yıxa bilməz,
Yatıb arxayın olmasa.

Bələd oldun belə sözə,
Ağır ellər gəzə-gəzə,
Dost-tanışın baxmaz üzə,
Əlində payın olmasa.

Aşıq Şükür dostu ara,
Qəmlər səni çəkər dara,
Tərlan könlün dönər sara,
Arxanda elin olmasa.

## DÜNYA

Dünya insafsızsan əzəldən bəri,
Namərdi yemlədin mərd baxa-baxa.
Yaxşını yaşatdın zillət içində
Apardın məzara dərd baxa-baxa.

Fəryada baxmayıb üz tutub getdin
İgidlər başına çox oyun gətdin,
Varlıya diz çökdün yaltaqlıq etdin,
Kasıbın üzünə sərt baxa-baxa.

Pələng bəndə düşüb ahi-vaydadı,
Pişik meydan açıb şir nə haydadı,
Fələyin işidi gözəl qaydadı,
Şeş yekə uduzur nərd baxa-baxa.

## BAYATILAR

Əziziyəm keçdi məndən,
Ox dəydi, keçdi məndən.
Mərdlərə körpü oldum
Namərdlər keçdi məndən.

Əzizim, 100 də var,
50 də var, 100 də var,
Öpməli ayaq gördüm,
Tüpürməli üz də var.

Əzizinəm 100 qandı,
50 qandı, 100 qandı
Qanàna can qurban,
Qanmayana 100 qandı.

## AŞIQ VƏ XANƏNDƏ QARDAŞXAN

Əliyev Qardaşxan Dilizbar oğlu 1935-ci il sentyabrın 14-də Dərələyəzin Terp kəndində anadan olmuşdur.

Kərimov Əli ona aşıqlıq etməyi demiş, lakin Qardaşxan muğam və xalq mahnıları oxumağa daha çox meyl etmişdir. Muğamın sirlərini ona Səlyan rayon mədəniyyət evində ansamblın rəhbəri Məzahir Manaf oğlu Məmmədov öyrətmişdir.

*Çıxmayır yadımdan uca dağları,*
*Yaşıl güneyləri, ceyran oylağı,*
*Tər qaymaq çiçəyi, quzuqulağı,*
*Körpə mərövcəsi yadıma düşdü.*

*Bulaqları qoşa-qoşa,*
*Hər birisi bir tamaşa,*
*Qardaşxan da getmir huşa,*
*Bizdən uzaq qalan dağlar.*

Aşıq və xanəndə Qardaşxan başqa stildə də şeir yazmışdır. Ondan birini ixtisarla veririk.

Öd kisəsi, bir də prostat vəzi,
Mənimlə saxladı kini, qərəzi,
Biri daş topladı, birisi şişdi,
Hiss etdim bu dərdlər böyük təşvişdi.

Səlyanda dərdimə olmadı əlac,
Sistem köçürdülər, saxladılar ac.
Daha yəqin etdim öləsi oldum,
Təcili Bakıya gələsi oldum.

Burda Respublika xəstəxanası,
Üzülən canımın oldu xilası,
Həkimlər ürəkdən yandı halıma,
Min şükür eylədim bu iqbalıma.

Məni bir otağa tez apardılar,
Özüm də bilmədim necə yardılar.
Yetmiş daş dənəsi öd kisəsindən,
Həkimlər çıxardı, bu işə əhsən!

Kəsilib atıldı prostat vəzi,
Bədənimdə onun qalmadı izi.
İkicə gün keçməmiş aradan,
Mən durub gəzirəm, şükür yaradan.

Ölümün əlindən məni aldılar,
Həkimlər qəlbimdə oldular vüqar.
Elmlər doktoru Akif Bağırov,
Qoymadı azara olum mən bir ov.
Minnətdaram onun bu hünərinə,
Əcəllə apardı bıçağıyla dov,
Qayğıkeş alimdi Qasımov Elman,
Həm kamil həkimdi, həm gözəl insan.

Ona da edirəm qəlbdən təşəkkür,
Mənə həyan oldu hər saat, hər an,
Qulluğumda durdu tibb bacıları,
Olmasın bir ağrı, bir acıları.

Tahirə, Mirvari, Aişə, Fatma,
Zahidə, Səadət, Gözəl – onları,
Unuda bilmirəm, zəhmət çəkdilər,
Mən onlarda gördüm qayğı, həm hünər.

Allah bəxtlərini yeyin eyləsin,
Çəkməsinlər heç vaxt nə qəm, nə qəhər,
Qoy deyim mən kiməm, nə axtar, nə gəz,
Atadan-babadan köküm Dərələz.

Çoxdandı, Səlyanda, Qarabağlıda,
Yurd salsam da, olmaz yurduma əvəz.
Babam Əli olub, adım Qardaşxan,
Belə həkimlərə can qıyaram, can.

Məni qaytardılar həyata bir də,
Yox oldu qəlbimdən qorxu, həyəcan.

*Bakı, 01/IV- 2003*

## AŞIQ TALIB

### GEDİR

Alış indən belə, yan indən belə,
Ay könül, sevdiyin xar alıb gedir.
Yalçın qayalara get döy başını,
Gədə igid kimi yar alıb gedir.

Kasıblıq odunda tutuşan sönməz,
Ər ölər, əyilməz, nadana enməz.
Bir sənsən üstümdə gözə görünməz,
Tərlanın şikarın sar alıb gedir.

Talıb nə yatmısan, mal qazanginən,
Sərinə sevdanı al, qazanginən.
Əlləş, çalış, vuruş, öl qazanginən...
Gözəllər malını var alıb gedir.

## OLDU

Ağla könül, sızla könül
Mayaxanım gedər oldu.
Daha bir də sağalmaram,
Mənim dərdim betər oldu.

Yar olan arxa çevirdi,
Taxtımı yana devirdi.
Bu necə murad dövrüdü,
Gəldi mənə kədər oldu.

Talıb kimə gümanın var,
Dağsan, başda dumanın var.
Sənin ahın-amanın var,
Qazandığın kədər oldu.

# AŞIQ ABDULLA

## *QOŞMALAR*

### AFƏRİN

Ayrılıram, yana-yana ağlama,
Vallah, dünya belə qalmaz, Afərin.
Verən tanrı, bəndə kimdi neyniyə,
Yaxşı günü Allah almaz, Afərin.

Bəla tutub, od düşübdü hər yana,
Kövrək könül ha alışa, ha yana.
Fürsət düşüb müxənnətə, xayına,
Göydəkini yada salmaz, Afərin.

Abdullayam iraq ollam elimdən,
Ayırırlar çiçəyimdən, gülümdən.
Telli sazım daha çıxdı əlimdən,
Bir də onu kimsə çalmaz, Afərin.

### YAVAŞ-YAVAŞ

Kimin gəlinisən, kimin qızısan,
Bələnir dodağa bal yavaş-yavaş.
Bu qərib aşığa qaynadı qanın,
Sürüşdü başından şal yavaş-yavaş.

Özün əhli-halsan, bəstədi boyun,
Məni də yandırdı alovun-odun.
Nəzərə gələrsən, bəd gözdən yayın,
Yaşmağı dodaqdan sal yavaş-yavaş.

Aşıq Abdullayam sinəm dağlıdı,
Eşqim daşa dəyib, qolum bağlıdı.
Deməynən bu aşıq qaş-qabaqlıdı,
Düşmənin qəlbinə xal yavaş-yavaş.

## AŞIQ

Meydandakı bir uşaqdı, giribsən meydana, aşıq,
Deyirsən, əla iş tutdum, olubsan mərdana, aşıq,
Nə deyim ki, anlayasan, sən gələsən, dona aşıq,
Qansızlığın yayma elə, bu yerdən dörd yana, aşıq!

İşin olmasın uşaqla, nə sözüm var mənə buyur,
Qızışıbsan göz təpəndə... Düşüb işə çəkə, aşıq.
Vurağan öküzlər kimi fısıldayıb önə, buyur,
Hirs qaraldar sifətini, verməz xeyir cana, aşıq!

Abdulla deyilən mənəm, tanıdınmı daha məni,
Xəstə yataqda yatırdım, çıxarırsan dağa məni,
Fikrin budu öldürəsən, tez bükəsən ağa məni,
Aşıq odu dərd anlaya, sənətkarı qana, aşıq!

## KİMİ

Yellənirsən elə-belə, mollanın əbası kimi,
Cibin elə genişdi ki, tiyançı torbası kimi.
Adın bəllidi hamıya, kəndin ən qabası kimi,
Od tutubsan, ataşdasan sən Allaha ası kimi.

İşin nədi, gücün nədi, ona-buna tənə demək,
Səninki iş görmək deyil, tərpətməkdi çənə, demək.
Zəhərli sözlərin birbaş şamil olub mənə, demək?
Qolun uzundu, ay aşıq, çobanın yabası kimi.

Sənə bir gəliş gələrəm, yanılarsan öz yolunu,
Azıb qalarsan dərədə, tapammazsan öz yolunu,
Ağlın azıb qudurubsan, gedəmmirsən düz yolunu,
Abdulla yandırar səni, qışın sərt havası kimi.

## XALOĞLU

Bir gün seyraqubdan bir söz eşitdim,
Meyl edirsən heyva-nara, xaloğlu.
Deyirlər ki, çox aşiqsən məşuqa,
Bel bağlama dilivkara, xaloğlu.

Sən içən şərabdan mən də içmişəm,
İndi peşman olub, başa düşmüşəm.
Sənə baxıb mən bir dükan aşmışam,
Həsrət qaldın xiridara, xaloğlu.

Göydən dul adına enə bir pəri,
Nə sözü düz olar, nə də ilqarı.
Yadına düşəndə qabaqkı əri,
Başlayacaq ahu-zara xaloğlu.

Abdulla da desin sözün düzünü,
Qonaqlıqda göstərəcək özünü.
Daha burda qurtarıram sözümü,
Çəkmə özün bərkə, dara, xaloğlu.

## AŞIQ AYPARA DƏRƏLƏYƏZLİ

Cabbarova Aypara Qambay qızı 30.06.1986-cı ildə qədim Dərələyəz mahalının İstisu (Cermük) şəhərində anadan olmuşdur. Hələ uşaq yaşlarından onda xalq musiqimizə, muğamlarımıza olan böyük həvəsi onu 1994-cü ildə Sumqayıt şəhər Fikrət Əmirov adına 5 saylı musiqi məktəbinə gətirir. O, az vaxtda həm saz üstə köklənmiş səsilə, həm də saz havalarını tez qavrama və ifa qabiliyyətinə görə müəllimlərin diqqətini cəlb edir.

Aypara Aşıq Ələsgərin, Aşıq Alının, Aşıq Şəmsirin, Səməd Vurğunun şerlərini əzbərdən söyləyir, aşıq havalarını məharətlə sazda dilləndirib oxuyur. Onun kamançada da xalq mahnılarımızı, muğamlarımızı necə həvəslə ifa etdiyini görən 5 saylı musiqi məktəbinin direktoru onu kamança sinfinə keçirir.

1996-cı ildə Aypara Cabbarova Azərbaycan Dövlət Uşaq Filormoniyasına solist kimi qəbul edilir. Orada o, sevimli bəstəkarımız Əfsər Cavanşirovun, Tofiq Quliyevin qayğısı altında qədim xalq musiqimizə, hətta bəstəkar mahnılarımızı, sazda isə qədim xalq havalarını çalır, həm də oxuyur.

1998-ci ildə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə "Kainat" Gənclik Mərkəzinin birgə keçirdiyi, Azərbaycan Milli Musiqi Alətləri ifaçıları müsabiqəsinin yekun konsertində fəal iştirakına görə diplomla təltif edilmişdir.

1999-cu ilin aprel ayında Respublika Mədəniyyət Nazirliyi tərəfindən, uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin müsabiqəsi keçirilmişdir. Aypara bu müsabiqənin də qalibi olmuş, müsabiqənin Diplomantı adına layiq görülmüşdür. Dəfələrlə Azərbaycan dövlət televiziyasında, "Sumqayıt" qəzetində onun uğurları işıqlandırılmışdır.

Hazırda Aypara Cabbarova Azərbaycan Uşaq Filarmoniyasının solisti, Azərbaycan Televiziyası və Radiosu "Bənövşə" mahnı və rəqs ansamblının solisti və Üzeyir Hacıbəyov adına Musiqi Akademiyasının istedadlı uşaqlara verdiyi təqaüdün təsisçisidir. Aypara ara-sıra şerlər də yazır.

## BALASIYAM

Vətənimdən gələn durna!
Mən Dərələyəz balasıyam.
Danış, söylə, din ay durna!
Mən yurdumun balasıyam.

Ayparadır mənim adım,
Ayrı düşüb qohum-yadım.
Yurdda qalıb ağız dadım,
Mən yurdumda qalasıyam.

## KİMİYƏM

*Aşıq Behbud babanın xatirəsinə*

Oxudum şerini, ey şair babam,
Sandım o dağlardan keçmiş kimiyəm.
Tərif eylədiyin o buz bulağın,
Saf şərbət suyundan içmiş kimiyəm.

Tərənnüm etmisən gələn qonağı,
O türfə gözəli, o al yanağı.
Bənövşəli dağı, Güllü yaylağı,
Cənnətdir, yoxsa nə, çaşmış kimiyəm.

Ayparayam, cavab axtarıram mən,
Lap zara gəlmişəm yağı əlindən.
Didərgin ellərim, ey qərib vətən!
Fikirdən yuxusu qaçmış kimiyəm.

***2000-ci il***

## SƏNİN

Gülən üz gül qönçəsidir,
Gül tək ömrün gülsün sənin.
Dostla ülfət bağlayanda,
Kaş qədrini bilsin sənin.

Sən söz söylə ömür gülsün,
Gül dodaqdan bal süzülsün.
Qıyma könlüm səndən küssün,
İntizarın itsin sənin.

Ayparanı gəl incitmə,
Yaxına gəl, uzaq getmə

## AŞIQ MƏMMƏDTAĞI

Məmmədov Məmmətağı Cəfərqulu oğlu 1925-ci ildə Dərələyəzin Hors kəndində anadan olmuşdur. O, aşıqlıq sənətinə uşaq yaşlarında başlayıb. Ustadı Göyçənin Daşkənd sakini, Alqayıdın atası olmuşdur. O, ən çox Sallılı Aşıq Mirzalı ilə Dərələyəzdə, Şərurda, Naxçıvanda məclislər keçirmişdir.

1988-ci ildə ermənilər tərəfindən doğma yurdundan zorla qovulmuş və Şərurda qızının yanına getmiş, oradan da Bakıya gəlmiş və orada məskunlaşmışdır. Bakıda göyçəli el şairi və aşıq Alqayıtla məclislər keçirmiş, 1998-ci ildə, 73 yaşında Bakıda dünyasını dəyişmişdir.

## VAR MƏNİM

Ay ellər eşidin ana yurdumda,
Gül-çiçəkli bağça-bağım var mənim.
Yurdum Dərələyəz cənnət diyarda
Tükənməyən cah-cəlalım var mənim.

Ərəb at üstündə gəzirdim dağı,
Dostuma dost oldum, düşmənə yağı,
Ermənilər çəkdi qəlbimə dağı,
Onlara çəkəsi dağım var mənim.

Ermənilər nələr gətdi başıma,
Zəhər qatdı mənim bişmiş aşıma,
Dərd çəkməkdən ağ tük gəldi başıma,
Qərib yerdə bir cüt balam var mənim.

Aşıx Tağı deyin indi neynəsin?
Xəncər çəksin, ermənini teyləsin,
Bir canı var, yurda qurban eyləsin,
Bu yürüşə qeyrət-arım var mənim.

*GƏRAYLI*

## QALDI

Elin gedir, ağla dağlar,
Dağlar, səndə izim qaldı.
Hüsnündən heç vaxt doymadım,
Dağlar, səndə gözüm qaldı.

Bizim dağın yolu dalda,
Bulud oynar sağı-solda,
El-obanın gözü yolda,
Dağlar, səndə izim qaldı.

Süsən-sünbülün sinəndə,
Nərgiz bənövşə çəməndə,
Məhəmmədtağı saz sinənə,
Deyilməmiş sözümqaldı.

## YOXDU

Dəli könül, nə gəzirsən,
Bağçaların bağı yoxdu.
Didərginin bu günündə
Qapısını açan yoxdu.

Çoxlarına bel bağladım,
Sazla qəlbləri dağladım,
Vətənimçün çox ağladım,
Haya güllə çaxan yoxdu.

Tağıyam, nədi günahım,
Ərşə dayanıbdı ahım,
Kimsədən yoxdu pənahım,
İndi dada çatan yoxdu.

## AŞIQ NƏBİ

Aşıq Nəbi Əhməd oğlu 1904-cü ildə Dərələyəzin Cırranlı kəndində, Göydağın ətəyində anadan olmuşdur. 1905-ci ildəki erməni-müsəlman davasında Cırranlı kəndi ermənilər tərəfindən yerləyeksan edildikdən sonra bu kəndin sağ qalan əhalisi, o cümlədən Aşıq Nəbinin ailəsi yaxınlıqdakı İstisu kəndinə yığışıb orada məskunlaşırlar. O, tayqulaq Andranikin və onun dəstəsinin Dərələyəzdə törətdiyi vəhşilikləri öz gözləri ilə görmüş və "Dağlar" rədifli gəraylısını bu məsələyə həsr etmişdir.

Aşıq Nəbi 1943-cü ildə Böyük Vətən müharibəsinə getmiş, 1945-ci ildə yaralanıb Dərələyəzin İstisu kəndinə qayıtmış, 1948-ci ildə doğma yurdundan deportasiya olunmuş və Yevlaxda məskunlaşmışdır. 1950-ci ilin sonunda Yevlaxda dünyasını dəyişmişdir. Lakin onun həyat yoldaşı Fatma, oğlanları Aşıq Baloş, şair Oqtay və qızı Diləfruz 1956-cı ildə Yevlaxda iqlimə uyğunlaşmayıb Dərələyəzə-İstisuya qayıtmışlar.

Aşıq Nəbi həm müharibədən əvvəl, həm də müharibədən sonra Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Kəlbəcərdə, Laçında yaylaqlara gələn tərəkəmə camaatı içərisində aşıqlıq etmiş, toy şənliklərində, məclislərdə dastan söyləmişdir. O məclislərə ən çox Aşıq Behbud və Aşıq Qoşnalı ilə gedirdi.

Aşıq Nəbi həm də yaradıcı aşıq idi. Onun çoxlu qoşma və gəraylıları vardır. "Qaçaq Səfərəli" dastanındakı qoşma və gəraylıların bir hissəsi də bu Aşıq Nəbinindir.

## AŞIQ ƏHMƏD

Aşıq Əhməd Dərələyəzin Cırrannı kəndində anadan olmuşdur. O, aşıqlıq sənətini babası Aşıq Məhəmməddən və atası Aşıq Nəbidən öyrənmişdir. Aşıq Əhməd el şənliklərinə atası Nəbi ilə birlikdə gedər, dastan söyləyərkən atası ilə tərəf müqabil olar və az-az da gəraylı və qoşma yazarmış. Lakin hələlik onun yazdıqlarını tapa bilməmişik.

Aşıq Əhməd öz doğma kəndində dünyasını dəyişmiş və Cırrannı kəndindəki köhnə qəbiristanlıq adlanan yerdə basdırılmışdır.

## AŞIQ BALOŞ

Aşıq Baloş Nəbi oğlu 1920-ci ildə Dərələyəzin İstisu kəndində anadan olmuşdur. O, lap uşaq vaxtlarından atası Aşıq Nəbidən sazçalmağı öyrənmişdi. Baloşun yalnız atası deyil, babası Əhməd də, Əhmədin atası Aşıq Nəbi də, Aşıq Nəbinin atası Məhəmməd də aşıq olmuşdur. Bunların doğma yurdu Dərələyəzin Cırranlı kəndi olmuşdur.

Dərələyəzin başqa kənd əhalisi kimi Aşıq Baloş da Ermənistan hökuməti tərəfindən Azərbaycana deportasiya olunmuşdur. Lakin mühitə uyğunlaşa bilməyib 1957-ci ildə Dərələyəzə qayıtmışdır.

Aşıq Baloş Dərələyəzin, Şərurun, Naxçıvanın, yaylaxlara gələn tərəkəmə camaatının toylarında çalıb oxumuşdur. O, məclislərə çox vaxt Qovuşuqlu Aşıq Nəsiblə gedərdi. Çünki aşıq Nəsib aşıqlıqdan başqa uşaqları sünnət eləməyi də bacarırdı.

Erməni rəhbərləri başqa aşıqlar kimi, Baloşu da təqib etdiyi üçün o, Yevlaxda yaşayan dayısı Səməndin yanına getdi və 1986-cı ildə Yevlaxda dünyasını dəyişdi.

Baloş həm də yaradıcı aşıq idi. Lakin onun yazdığı gəraylı və qoşmaları hələlik əldə edə bilməmişik.

## AŞIQ BƏYLƏR

Şabanov Bəylər Abtalıb oğlu 1925-ci ildə Sallı kəndində doğulmuşdur. Professional aşıqlıq sənəti ilə məşğul olmamışdır. Saz çalmağı müstəqil öyrənmiş və məhdud el məclislərinə musiqi bəzəyi vermişdir.

Bəylər Şabanovdan belə bir məzhəkəli söhbət qalmışdır:

- Böyük Vətən müharibəsi illərində və bundan sonrakı illərdə Dərələyəzdə, o cümlədən Sallı kəndində maddi həyat tərzi çətin olmuşdur. Yay vaxtı əhali Əyricə yaylaqlarına eşşəklə odun, meyvə, tərəvəz aparıb, qatığa, şora, üzsüz pendirə, bəzən ətə dəyişib gətirərlərmiş. Bu məşğuliyyət Bəylərdən də yan keçməyib.

O illərdə çox ciddi əmək rejimi var idi. Əmək günü normasını yerinə yetirməyənlər cinayət məsuliyyəti daşıyırdılar, sürgünə göndərilirdilər.

Növbəti Əyricə səfərindən sonra briqadir Bəyləri çağırır, iş gününü üzürsüz səbəbə buraxdığı üçün ona hədə-qorxu gəlir. Başını aşağı salan Bəylər birdən dikəlir və yavaş-yavaş deyir:

*Bağçalar ağlayır bardan ötəri,*
*Almadan, heyvadan, nardan ötəri,*
*Biçarə Şabanov şordan ötəri,*
*Əyil, boz eşşəyin dırnağından öp.*

Aşıq Bəylər də başqa azərbaycanlılar kimi 1949-cu ildə Ermənistan hökuməti tərəfindən deportasiyaya məruz qalmış, əvvəlcə Azərbaycanın Səlyan rayonuna, oradan da Bərdə rayonunun İmirli kəndinə getmiş, orada məskunlaşmış və ömrünün axırına qədər orada yaşamışdır.

Qəbri Bərdə rayonunun İmirli kəndindədir.

## AŞIQ KİRMAN

Aşıq Kirman – Muradov Kirman Kərəm oğlu 1930-cu ildə Dərələyəzin Terp kəndində anadan olmuş, bu kənddə məktəbə getmiş, 12 yaşından aşıqlıq sənətinə yiyələnmişdir. Gənc yaşlarında Dərələyəzin Gülüdüzü, Köçbək, Cul, Zeytə və başqa kəndlərində olan el şənliklərinin iştirakçısı olmuş və çalıb oxumuşdur.

1949-cu ildə Ermənistan hökuməti tərəfindən deportasiyaya məruz qalmış, Azərbaycanın Səlyan rayonuna köçürülmüş və buradakı Qarabağlı kəndində məskunlaşmış və hal-hazırda orada yaşayır.

Azərbaycana gələndən sonra da o aşıqlıq sənətini davam etdirmişdir. Azərbaycanın Əlibayramlı, Səlyan, Tərtər, Yevlax, Bərdə, Sabirabad rayonlarında, Naxçıvanda, Gürcüstanın Qardabani rayonunda və digər yerlərdə toy şənliklərində, məclislərdə çalıb oxumuş və camaatın hüsn-rəğbətini qazanmışdır. Ustadı, əsasən, Aşıq Səyyub olmuşdur.

## AŞIQ SƏYYUB

Aşıq Səyyub – Quliyev Səyyub Ağa oğlu 1924-cü ildə Dərələyəzin Zeytə kəndində doğulmuşdur. O, 14-15 yaşlarından aşıqlıq sənətinə sahib olmuşdur. Onun ilk ustadı atası Aşıq Ağa və Dərələyəzin Herher kəndindən olan Aşıq Fətulla olmuşdur. 1949-cu ildə Ermənistan hökuməti tərəfindən öz doğma kəndindən represiya olunmuş, Azərbaycanın Əli-Bayramlı rayonunda məskunlaşmışdır. O ustad aşıq kimi tanındıqdan sonra Əli Kərimin, Girman Məmmədin və Musa İmanın ustadı olmuşdur. Əli Bayramlı mədəniyyət evində fəaliyyət göstərən Aşıq Səyyub saz havalarını yaxşı çalır, klassik dastanların əksəriyyətini məclislərdə məharətlə söyləyir və ifa edirdi.

O, həm də yaradıcı aşıq olmuşdur. Lakin hələlik onları əldə edə bilməmişik. Oğlanları söz verib ki, onun qoşma və gəraylılarını tapıb verəcəklər.

Səlyanda Şirvan aşıqlarının çalıb oxumasını da mükəmməl öyrənmişdir. O, 1969-1970-ci ilin sonu 1970-ci ilin əvvəllərində respublikada saz çalmaq üzrə III yeri tutmuşdur.

Zeytəli Musa da Səyyubun balaban çalanı olmuşdur.

## QƏRİB MAMEDOV

Qərib Mamedov 1936-cı ildə Dərələyəzin Zeytə kəndində doğulmuş və Aşıq Səyyubun balabançısı olmuşdur.

1949-cu ildə Ermənistan hökuməti tərəfindən deportasiyaya məruz qalmış, Azərbaycanın Yevlax rayonunun Malıbəyli kəndində məskunlaşmış və orada da yaşamışdır. Qərib savadsız olmasına baxmayaraq çox hazırcavab bir balabançı olmuş, duzlu-məzəli sözləri, lətifələri ilə məclisləri həmişə şənləndirmişdir. Zeytə kəndindən Musa adlı birisi də balaban çalan olmuş və o da Səyyubla toylara getmişdir.

## CIRRANLI AŞIQ MƏHƏMMƏD

Aşıq Məhəmməd XIX yüzilliyin əvvəllərində yaşamışdır. Dərələyəzin Cırranlı kəndindən olan Məhəmməd dövrünün çox adlı-sanlı aşığı olmuşdur. Yaşlıların dediyinə görə o Aşıq Alı, Aşıq Cəlil kimi ustadlarla bir məclislərdə çalıb oxumuşdur. Əfsuslar olsun ki, onun yaradıcılığı haqqında heç bir şey əldə edə bilmədik.

Lakin oxucular bilməlidir ki, bu ocaqdan çıxanların əksəriyyəti aşıq olmuşdur. Onların yaxşı saz çalmaları, məlahətli səsləri, yaxşı dastan söyləmələri hamıya məlum idi. Bu ocağın səcərəsinə baxaq:

Aşıq Məhəmməd→oğlu Aşıq Nəbi→oğlu Aşıq Əhməd→oğlu Aşıq Nəbi→oğlu Aşıq Baloş→və el şairi Oqtay Nəbi oğlu.

## AŞIQ MƏHƏMMƏD

Aşıq Məhəmməd Ələkbər oğlu Cəfərov Dərələyəzdə (Keşkənddə) dünyaya göz açmışdır.

O, 1904-1910-cu illərdə Dərələyəzdə muzdur olmuş, 1910-1914-cü illərdə Rusiyanın Tula vilayətində, 1914-1917-ci illərdə Bakıda Musa Nağıyevin neft buruqlarında fəhlə işləmişdir. 1921-ci ildə öz doğma vətəni Dərələyəzə qayıtmış, lakin ermənilərin təzyiqi nəticəsində o Gədəbəyə köçmüş. Sonra da Ağdamın Qərvənd kəndində məskunlaşmış və orada da dünyasını dəyişmişdir.

## AŞIQ MÜZƏFFƏR CƏFƏRLİ

Aşıq Müzəffər – Müzəffər Bəşir oğlu Cəfərli 1901-ci ildə Dərələyəzin Qaravəng kəndində anadan olmuşdur. O, 18 yaşına qədər öz doğma Qaravəng və qonşu Ərgəz kəndində muzdurluq və çobanlıq etmişdir.

1918-ci ildə erməni daşnakları və şovinistlərinin törətdiyi erməni-müsəlman davasında doğma yurdunu tərk edərək Ağdamın Qiyaslı kəndinə getmiş, bir müddət orada qaldıqdan sonra Ağdamın Qarvənd kəndində məskunlaşmışdır.

O, Dərələyəzli Aşıq Məhəmmədin, Dərələyəzin Hors kəndindən olan Aşıq QƏhrəmanın oğlu Aşıq Paşanın və Göyçəli Aşıq Bəhmanın şəyiridi olmuş, onlardan aşıq sənətinin sirlərini, incəliklərini, dastan söyləməyi, məclis aparmağı öyrənmiş, sonra da ustad aşıq kimi eldə-obada tanınmışdır. O, həm də mahnı ifaçılığı ilə Qarabağda böyük hörmət qazanmışdır. Onun yaradıcılığı haqqında elə bir məlumat toplaya bilməmişik.

## ÇİVƏLİ AŞIQ ƏLİ

Aşıq Əli təxminən XIX əsrin sonu, XX əsrin əvvəllərində Dərələyəzin Çivə kəndində doğulmuşdur. O, uşaq vaxtından saz çalmağı öyrənmiş və məlahətli səsi ilə məclislər keçirmişdir. Arvadı Səlbi xanım sinədəftər bir qadın olmuş və ərinin bu sənətə yiyələnməsində maraqlı olmuşdur. Aşıq Əlinin Səlbi xanımdan dörd oğlu (Müzəffər, Qəzənfər, Səfər, Qəfər), bir qızı (Zinhar) olmuşdur.

Aşıq Əli erməni-müsəlman davasından sonra Çivə kəndindən köçüb əvvəlcə Qərbi Dərələyəz ərazisində olan, sonra da Şərura verilən Yaycı kəndinə köçüb orada yaşayır və aşıqlıq sənətini burada da davam etdirir.

Bir gün Aşıq Əli evdə olmayanda oğlu Qəzənfər anası ilə sözləşir və xəkəndazı ona tərəf atır. Xəkəndaz anası Səlbinin başına dəyir və Səlbi ölür. Aşıq Əli evə gəlib bu mənzərəni görəndə dəlilik dərəcəsinə gəlir və xəstələnib o da ölür. Onun sənətini 2 oğlu davam etdirir.

## AŞIQ BƏRXUDAR

Bərxudar Müsdəcəb oğlu Quliyev, təqribən 1900-cu ildə Dərələyəzin Qurdqulaq kəndində doğulmuş, erkən yetim qalmış, əmisinin himayəsində böyüyüb onun qızı Mələknisə ilə evlənmişdir. 1930-cu illərdə Sallı kəndinə köçüb gəlmiş və orada yaşamışdır. Lakin 1949-cu ildə Ermənistan hökuməti tərəfindən deportasiyaya məruz qalmış, öz doğma kəndini tərk edərək Azərbaycanın Səlyan rayonuna gəlmiş, oradan da Bərdə rayonuna köçüb İmirli kəndində məskunlaşmış və ömrünün axırına qədər orada yaşamışdır.

Aşıq Bərxudarın çox güclü və qəlbəyatan səsi olmuşdur:

"Aşıq Bərxudarın gur zənguləsi,
Yerdə sədasıydı odlu şimşəyin..."

Aşıq Alını, Aşıq Ələsgəri, Növrəs İmanı, şair Rzaqulunu əzbər bilmişdir. Saz çalmaqda Sallıdakı başqa aşıqlar qədər mahir olmamışdır.

Qəbri Bərdə rayonunun İmirli kəndindədir.

## AŞIQ KƏRƏM

Aşıq Kərəm XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamışdır. O, təxminən 1890-cı ildə Dərələyəzin Hors kəndində dünyaya göz açmışdır. Horslu şair Şüvara Bayramın, Sallılı şair Rzaqulunun qıfılbəndlərini, Aşıq Cəlilin və Aşıq Qəhrəmanın sözlərini sevə-sevə oxumuşdur. Yaşlıların dediyinə görə həddindən artıq zarafatcıl, yumorlu bir aşıq olmuşdur. Əfsuslar olsun ki, Dərələyəzdə baş vermiş qanlı hadisələr, qaçhaqaçlar nəticəsində ondan elə bir yadigar qalmamışdır. Gələcək tədqiqatçılar qoy axtarsınlar, bəlkə bir şey əldə edə bildilər.

## AŞIQ BİLAL

Aşıq Bilal Dərələyəzin Zeytə kəndində doğulmuşdur. O yaxşı saz çalar və yaxşı da oxuyarmış. Çoxlu dastan bilirmiş. Yaşlıların dediyinə görə el şənlikləri onsuz keçməzmiş. Lakin o Böyük Vətən müharibəsinə gedib geri qayıtmamışdır. Deyilənə görə çoxlu qoşma və gəraylıları olubdur. Lakin biz hələlik onları əldə edə bilməmişik.

## *SAZ, BALABAN, ZURNA, TÜTƏK, NAĞARA, KLARNET, QARMON ÇALANLAR*

### BALABAN VƏLİ

Balaban Vəli Sallı kəndində ən böyük tayfa olan Ayrım tayfasındandır. Sallı kəndində adları çəkilən xalq yaradıcılığı nümayəndələrinin əksəriyyəti bu tayfadandır. Bu tayfaya deyərdilər: "Su şırıltısına oynayan ayrımlar."

Balaban Vəli aşıq Cəlili, aşıq Qulunu, aşıq Bəhmanı, aşıq Bərxudarı müşaiyət etmişdir. Çox tərs adam olmuşdur. Xətrinə dəyən kimi:"Çalmınam, çalmınam!"- deyib məclisi tərk edərmiş. Balaban Vəli xeyli ömür sürmüş və balabanı əldən yerə qoymamışdır. Onun qəbri Sallıdadır.

### KƏRİMOV XUDAKƏRİM

Xudakərim Dərələyəzin Ərgəz kəndində doğulmuş, sonra o XIX əsrin əvvəllərində qonşuluqda olan Kotanlı kəndinə köçüb orada yaşamış və oradan da evlənmişdir. O, Dərələyəz mahalında qara zurna, balaban və tütək çalan sənətkarların ustadı olmuşdur. Xudakərim öz oğlu Məhəmmədə də öz sənətini öyrətmiş və bunların bütün törəmələri göstərilən sənətin mahir ifaçıları olmuşlar. Anadan olduğu və dünyasını dəyişdiyi illər haqqında məlumat əldə edə bilmədik.

### KƏRİMOV MƏHƏMMƏD

Kərimov Məhəmməd Dərələyəzin Kotanlı kəndində doğulmuş, orada yaşamış orada da dünyasını dəyişmişdir. Onun iki arvaddan 10 uşağı olmuşdur. Kotanlı qızı Sonadan 3 oğlu (Əhməd, Qaçay, Balay) iki qızı (Ağcagül, Təzəgül), İstisulu Qaçaq Səfəralının nəvəsi Ceyrandan da 3 oğlu (Surxay, Azay, Kərim) iki qızı (Bağdagül, Qəmzə) olur.

Məhəmməd həm qara zurna, həm balaban, həm tütək, həm də dəf çalırdı. O özünün bu sənətini altı oğlunun altısına da öyrətmiş və bunları mahir sənətkar etmişdi. Mən (Həsən Mirzə) onun məclislərində çox olmuşam. Qoca vaxtları idi. Bəzən oğlanları qara zurnanı çalanda özü onlara mey tuturdu. Lakin saz məclislərində çox vaxt balabanı onun özü çalırdı. O, Dərələyəzdə, Naxçıvanda, Zəngəzurda ustad bir sənətkar kimi tanınırdı.

## KƏRİMOV ƏHMƏD

Neçə-neçə festivallar laureatı olan, qara zurnanı qoşa çalan (eyni vaxta iki qara zurnanı çalan), balabanı ilə aşıx məclislərini yaraşığa mindirən Əhməd Məhəmməd oğlu Kərimov 1929-cu ildə Dərələyəzin Kotanlı kəndində anadan olmuş və 1948-ci ilə kimi doğma kəndində yaşamışdır.

Lakin Ermənistan hökumətinin mənfur qərarı ilə o 1948-ci ildə doğma kəndindən deportasiya olunanda Naxçıvana üz tutur. Qardaşlarından Qaçay və Balay da onunla Naxçıvana gedir və orada məskunlaşırlar.

Əhməd həm qara zurnanın, həm balabanın, həm yan tütəyin, həm də tulumun mahir ifaçısı olmuşdur. Mən onun həm toy, həm də digər məclislərində çox olmuşam. Həmişə qara buxara papaq, uzunboğaz çəkmə, kolferi şalvar və ona uyğun köynək geyər, belinə nazik qədim qayış bağlayardı. Aşıqlar cəhd edərdilər ki, onlarla balabanı Əhməd çalsın.

Toy məclisləri üçün Əhmədin razılığını almaq çox çətin məsələ idi, vaxtı olmurdu. Onu tez-tez həm Azərbaycan rayonlarından, həm də digər yerlərdən şənliklərə aparırdılar. Hamı istəyirdi ki, onun toyunda Əhməd çalsın. Onun çaldığı cəngi havasını, çoban bayatısını və qoyun həngisini heç kim çala bilməyib, bəlkə bundan sonra da çala bilməyəcək.

## QAÇAY KƏRİMOV

Qaçay Məhəmməd oğlu Kərimov 1930-cu ildə Dərələyəzin Kotanlı kəndində doğulub. 1948-ci ilə kimi doğma kəndində yaşayıb, 1948-ci ildə deportasiyaya məruz qalıb, 2 qardaşı ilə birlikdə Naxçıvana köçüb orada yaşamışdır.

O, atası Məhəmməddən nəfəs alətlərinin sirlərini yaxşı öyrənmişdir. Lakin 1960-cı illərdən başlayaraq o nağara çalır və oxuyardı. O, xalq mahnılarına və aşıq havalarına daha çox meyilli idi. Naxçıvanın Mədəniyyət evində xeyli müddət inspektor da işlədi. 1982-ci ildə Naxçıvanda dünyasını dəyişdi.

## KƏRİMOV SURXAY

Surxay Kərimov 19-cį ildə Dərələyəzin Kotanlı kəndində anadan olmuş, atası Məhəmməddən qara zurnanı, balabanı, tütəyi çalmağı öyrənmişdir. Əksər vaxtlarda qardaşı Əhmədin və Azayın yanında qara zurnanın dəm tutanı olmuşdur. Lakin o müstəqil şəkildə də toy məclislərini aparmışdır.

1988-ci ildə ermənilər tərəfindən öz doğma yurdundan qovulmuş, Bakıda məskunlaşmış və 2005-ci ildə Bakıda dünyasını dəyişmişdir.

## BALAY KƏRİMOV

Balay Məhəmməd oğlu Kərimov 1934-cü ildə Dərələyəzin Kotanlı kəndində anadan olmuşdur. O, gənc yaşlarından atası Məhəmməddən zurna, balaban, tütək çalmağı, sonra da müstəqil şəkildə klarnet çalmağı öyrənmişdi. Balay Kərimov həm qardaşları, həm də Dərələyəzin başqa sənətkarları ilə el şənliklərində olmuş və öz istedadına görə böyük hörmət qazanmışdır.

Bir müddət Naxçıvanda olmuş, lakin sonra doğma kəndinə qayıtmışdır. 1988-ci ildə ermənilər tərəfindən zorla doğma kəndindən qovulmuş və Bakıd məskunlaşmışdır. O bir sıra festivalların qalibi olmuşdur.

## KƏRİMOV AZAY MƏHƏMMƏD OĞLU

Kərimov Azay Məhəmməd oğlu 1933-cü il mayın 10-da Dərələyəz mahalının Kotanlı kəndində anadan olmuşdur. 1939-1949-cu illərdə Kotanlı kənd orta məktəbində təhsil almışdır. Musiqiçi ailəsində anadan olan Azay Kərimov ilk musiqi təhsilini babası Xudakərimdən, atası Məhəmməddən və böyük qardaşı Əhməddən almış, 1950-ci ildən başlayaraq musiqi ilə məşğul olmuşdur.

1952-ci ildən Naxçıvan şəhərinin İliç rayonunda "Zurnaçılar" ansamblının bədii rəhbəri işləmiş, Qərbi Azərbaycanın "40 illiyində" çıxış etmiş, fəxri fərman və musiqi ordeni ilə təltif olunmuş, bir çox olimpiadaların qalibi olmuşdur. 1970-ci ildə ümumittifaq festivalında, Moskva şəhərində festivalın xüsusi döş nişanı ilə təltif olunub.

1988-ci ilin fevral ayında Ermənistandan deportasiya edilmiş Azay Kərimov hal-hazırda Sumqayıt şəhərində yaşayır. 1988-1989-cu ildən "28 May" mədəniyyət evində "Zurnaçılar" ansamblında bədii rəhbər işləyir.

O bir çox xeyriyyə konsertləri vermiş, 1993-1994-cü illərdə "Ozan" folklor ansamblının nəzdində Almaniyaya getmiş və orada qara zurna ilə Azərbaycanı təmsil etmişdir. 1990-cı ildə Almaniyada tək zurna, qoşa zurna, balaban və tulumla gözəl ifasına görə ona fəxri fərman verilmişdir.

Azay Kərimovun fondunda 80-ə yaxın el havası qorunub saxlanır. O, 20-yə qədər havacat yaratmışdır. İki qara zurnanı eyni vaxtda ağzında, iki neyi isə eyni vaxtda burnunda yaxşı çala bilir.

## KƏRİMOV MƏMMƏD

Kərimov Məmməd Əhməd oğlu 1946-cı ildə Dərələyəzin Kotanlı kəndində anadan olmuş, babası Məhəmməddən, atası Əhməddən və əmilərindən musiqi alətlərinin sirrini öyrənmiş və elin obanın toy şənliklərində zurna, ba-

laban, klarnet çalaraq camaatın hüsn-rəğbətini qazanmışdır. O klarnet alətlərinin məşhur ustası kimi Dərələyəzdə, Naxçıvanda, Şərurda şöhrət qazanmışdır.

O, 1980-ci ildə Naxçıvanda qəflətən ürək tutmasından vəfat etmişdir.

## SƏFİYEV QOŞUNƏLİ ATAŞ OĞLU

Səfiyev Qoşunəli 1910-cu ildə Dərələyəzin İstisu kəndində anadan olmuş, 1948-ci ildə Bərdənin Qaradəmirçi kəndinə deportasiya olunmuş, 1953-cü ildə yenidən doğma yurdu İstisuya qayıtmışdır.

16-17 yaşlarından aşıqlığa başlamış, Cırranlı, İstisulu Aşıq Əhməd, Aşıq Nəbi və Aşıq Alının ustadı olmuşdur. Çoxlu yallı havaları çalırdı. 1936-cı ildə Zaqafqaziya xalqları ümumi festivalının laureatı olmuşdur. 1941-ci ildə Böyük Vətən müharibəsinə getmiş, Kerç uğrunda döyüşlərdə ayağından yaralanmış və 1943-cü ildə hərbi xidmətdən təxris olunmuşdur.

Onun çalğısı haqqında əfsanələr mövcuddur. O, balaban, qara zurna ilə "çobanbayatı" havasını çalanda qoyun sürüsü arxaca gələrmiş.

Onun şöhrəti Qarabağ elinə, Laçına, Kəlbəcərə, Naxçıvana da yayılmışdır. O, çoxlu şagirdlər yetirmişdir.

Bu el sənətkarı 1974-cü ildə öz doğma yurdunda dünyasını dəyişmişdir. Onun qəbri Dərələyəzin Cırranlı kəndindədir. Övladları Cərrah Eldar, Şəhriyar, Zünrüd hal-hazırda Yevlaxda yaşayır.

## AĞAYAROV HÜSEYNQULU

Hüseynqulu Qəhrəman oğlu Ağayarov 1915-ci ildə Dərələyəzin Ərgəz kəndində doğulmuş, lakin bir müddətdən sonra ailələri köçüb yaxınlıqda olan Qabaxlı kəndində məskunlaşmışdır. Böyük Vətən müharibəsinə getmiş və salamat geri qayıtmışdır.

O, 12 yaşından nağara çalmağa meyl etmiş və bu sənəti incəliklərinə qədər mənimsəmişdir. Hüseynqulu nağara çalmaqla yanaşı, həm də saz və balaban üstündə oxuyardı. Gözəl, məlahətli, ürəkləri oxşayan səsi ilə hər məclisdə oxuyar və camaatı şənləndirərdi. Bəzən aşıq məclislərində aşıqlarla qabaq-qabağa dayanıb oxuyar, öz səsi və avazı ilə ona qalib gəlməyə çalışardı. Hətta toylarda yallı gedilən zaman üçlük ortada dayanıb çalanda o musiqiyə uyğun bir avazla oxuyardı. Camaat sarıgəlin, üçayaq və tello havalarında yallı gedərkən Hüseynqulu mütləq oxumalı idi. Mən şəxsən dəfələrlə bunun canlı şahidi olmuş və bu havalar üstündə yallı getmişəm.

Dərələyəzdə toyları əsasən üçlük aparırdı. Qara zurna çalan, onun dəmkeş tutanı və nağara çalan. Hüseynqulu həmişə zurnaçı Azay, dəm tutan Surxayla toylara gedərdi.

1988-ci ildə Ermənistan hökuməti tərəfindən deportasiyaya məruz qalan və Sumqayıtda məskunlaşan Hüseynqulu 20 oktyabr 2000-ci ildə 85 yaşında dünyasını dəyişmişdir.

## ÇƏRKƏZ CABBAROV

Cabbarov Çərkəz Əmiraslan oğlu 1914-cü ildə Dərələyəzin İstisu kəndində anadan olmuş, 1941-ci ildə Böyük Vətən Müharibəsinə yola düşmüş, uzun döyüş yolu keçmiş, 1943-cü ildə yaralandığı üçün təxris olunmuşdur. O, 1987-ci ilə kimi el şənliklərində, əsasən, nağara çalmışdır. Bununla yanaşı Çərkəz zurna və balabanı da çalır, həm də uşaqları sünnət etməyi də bacarırdı. Bu səbəbdən onu el şənliklərinə çox çağırardılar.

Çərkəz Qurbanov 1987-ci ildə Dərələyəzin İstisu qəsəbəsində rəhmətə getmiş və yaxınlıqdakı Cırranlı qəbristanlığında basdırılmışdır.

## QURBANOV YUSİF

Qurbanov Yusif Ağa oğlu 1939-cu ildə Dərələyəzin İstisu kəndində anadan olmuşdur. O, kiçik yaşlarından əmisi Aşıq Qoşnalıdan zurna, balaban və tütək çalmağı öyrənmiş, sonra da klarnet çalmaqda məşhur olmuşdur.

1948-ci ildə doğma kəndindən Azərbaycanın Bərdə rayonuna deportasiya olunmuş, 1956-cı ilə qədər orada yaşamış, orada mühitə uyğunlaşa bilmədiyi üçün doğma kəndinə qayıtmışdır. O, Bərdədə olarkən Bərdə rayon mədəniyyət evi nəzdində xalq çalğı alətləri ansambılının rəhbəri kimi yay aylarında Dərələyəz və tərəkəmə yaylaqlarında konsertlər vermişdir.

O, hal-hazırda Bərdə şəhərində yaşayır.

## MAMED HÜMMƏTALI OĞLU

Hümmətalı oğlu Mamed Dərələyəzin İstisu kəndində doğulmuşdur. O, Aşıq Qoşnalının qardaşı oğludur. Onun ustası əmisi olmuşdur. Əmisi Qoşnalı ona zurna, balaban, tütək çalmağı öyrətmişdir. Klarnet çalmağı isə başqalarından öyrənmişdir. O, əmisi Qoşnalı, qohumu Çərkəz Əmiraslan oğlu və əmoğlusu Xasayla bir dəstə düzəltmişdi. Həmin dəstə eldə-obada toy məclislərini keçirirdi. Aşıq oxuyanda da bunlar balaban çalırdılar, aşıqla qoşa dövran edirdilər.

Ustad sənətkar kimi formalaşan Mamed Hümmətalı oğlu 1982-ci ildə İstisu (Cermuk) qəsəbəsində dünyasını dəyişmiş və yaxınlıqda xarabaya çevrilən Cırranlı kəndinin qəbristanlığında dəfn edilmişdir.

## ŞABANOV HACIMƏMMƏD

Şabanov Hacıməmməd Kəblə Babış oğlu çox məzəli bir kişi olmuşdur. Böyük ustalıqla toylarda qara zurnanı nağarayla müşaiyət etmişdir. Arada çox gülməli qaravəllilər söyləmişdir. Hacıməmməd də 1949-cu ildə deportasiyaya məruz qalmış və Azərbaycanın Şəmkir rayonunun Muxdariyyə kəndində məskunlaşmış və ömrünün axırına qədər orada yaşamışdır.

Qəbri Şəmkir rayonunun Muxdariyyə kəndindədir.

## SƏFİYEV SAHİB

Səfiyev Sahib Əvəz oğlunun ailəsi 1949-cu ildə Ermənistan hökuməti tərəfindən deportasiya olunarkən bunlar Bərdənin Qaradəmirçi kəndində məskunlaşmışlar. Lakin isti mühitə alışa bilmədikləri üçün 1956-cı ildə öz doğma yurdlarına qayıtmışlar.

Sahib əvvəlcə tarı, sonra da gitaranı ifa etməyə həvəs göstərmiş və mahir gitara ustası olmuşdur. O el şənliklərinə ən çox əmisi Yusiflə getmiş və onun dəstəsinin bir üzvünə çevrilmişdir. O, hal-hazırda Bakıda yaşayır.

## XASAY CABBAROV

Xasay Əmiraslan oğlu Cabbarov 1934-cü ildə Dərələyəzin İstisu kəndində doğulmuş, Aşıq Qoşnalının şəyirdi olmuş, musiqi alətlərində - zurnada, balabanda, tütəkdə çalmağı ondan öyrənmiş və Qoşnəlinin dəstəsində də toy şənliklərində çalmışdır. Aşıqlar sazda çalıb oxuyanda bəzən onların yanında balaban da çalardı.

Cabbarov Xasay 1976-cı ildə Dərələyəzdə maşın qəzasına düşmüş və elə oradaca dünyasını dəyişmişdir.

## MEHRƏLİYEV MƏHƏMMƏD

Mehrəliyev Məhəmməd Mürsəl oğlu 1936-cı ildə Sallıda doğulmuşdur. Atası Böyük Vətən müharibəsindən qayıtmamışdır. Anası Güllünün himayəsində böyümüşdür.

Musiqi təhsili almamışdır. Əvvəl qamışdan düzəltdiyi tütəyi çalmağı öyrənmiş, sonra isə yastı balabanın mahir ifaçısı olmuşdur. Uzun müddət aşıq Mirzalını müşaiyət etmişdir. 1949-cu ildə Ermənistan hökuməti tərəfindən deportasiyaya məruz qalmış və gəlib Gəncə şəhərində məskunlaşmış və ömrünün axırına qədər orada yaşamışdır.

Gəncə şəhərində yaşayır.

*Məlumatı Rəhman Mustafayev yazdı. 15 may 2006-cı il.*

## İLAYƏT İSMAYILOV

İlayət Hidayət oğlu İsmayılov 1966-cı ildə Dərələyəzin İstisu (Cermuq) qəsəbəsində anadan olmuş, atası Hidayətdən qarmon çalmağı öyrənmiş, sonra da pianinoda xalq havalarını ifa etməyə başlamışdır. Yaxşı, məlahətli səsi olduğu üçün o sonra müğənnilik etmişdir.

1988-ci ildə ermənilər tərəfindən zorla doğma yurdundan çıxarılmış və Bakıda məskunlaşmışdır. Hal-hazırda o şadlıq saraylarında, toy mərasimlərində, eldə-obada toy şənlikləri aparır.

## NƏCƏFOV CÜMŞÜD

Nəcəfov Cümşüd Göydağ oğlu 1969-cu ildə Dərələyəzin İstisu (Cermuk) şəhərində anadan olmuş, kiçik yaşlarından nağara, qoşa nağara çalmaq həvəsinə düşüb. O, həm çiliklə (ağacla), həm də əli ilə nağara çalır. 1988-ci ildə ermənilər onu öz doğma yurdundan zorla çıxarıbdır. O hal-hazırda Sumqayıt şəhərində yaşayır və el şənliklərində fəal iştirak edir.

## *MUĞAM, XALQ MAHNISI VƏ AŞIQ HAVALARINDA OXUYANLAR*

## NƏBİYEV İDRİS

*(xanəndə-aşıq)*

Nəbiyev İdris 1936-cı ildə Dərələyəz mahalının Səfolar İstisuyu kəndində (indiki Cermuq şəhərində) anadan olmuş, 30-cu illərin axırlarında Yevlağa köçmüşdür.

O, 16 yaşından xanəndəliyə başlamış, Bərdədə xanəndə Cəlalın, xalq artisti Yaqub Məmmədovun, Xan Şuşinskinin vallarından bəhrələnmiş, Habil Əliyevlə, Rəmişlə, Bərdəli tarçalan Mamedlə, Hacı Məmmədovla, Əhsən Dadaşovla tədbirlərdə, məclislərdə çıxış etmişdir. Xan Şuşinskinin, Arif Babayevin, Yaqub Məm-

mədovun, Avtandil İsrafilovun dostu olmuşdur. O, Ümumittifaq festivalının qızıl mükafatını, Cabbar Qaryağdı adına festivalın diplomunu almış, Qarabağ şikəstəsinin, xaric segahın ən mahir ustası olmuşdur. O, Şur dəstgahı, Rast, Bayatı-Şiraz, Cahargah, Zabul segah muğamlarını çox yaxşı ifa edir. Zəminxarə muğamı, Humayun dəstgahı, Mirzə Hüseyn segahı, Bayatı-kürd, Bayatı-qacar, Qarabağ şikəstəsi, Kəsmə şikəstənin, Heyratı, Mənsuriyyə, Çoban bayatının mahir ifaçısıdır. O, həm də aşıq sənətinin gözəl ifaçısıdır. Sarıtel saz havası üstündə onun kimi yaxşı oxuyan ikinci bir adama az-az rast gəlmək olar

Hal-hazırda Yevlax şəhərində yaşayır.

## ŞAHMALI KÜRDOĞLU

Soy-kökü, ata-babası Dərələyəzin Ərgəz kəndindən olan Şahmalı Kürdoğlu 1930-cu ildə anadan olmuşdur. Atası Mirsəqulu Əhmədalı oğlu erməni quldurları tərəfindən öz doğma yurdundan didərgin salınmışdır. Şahmalının atası "xalq düşməni" elan edildiyindən anası məcburiyyət qarşısında Şahmalının soyadını dəyişmişdir.

Şahmalı 1949-1950-ci illərdə Ağdam musiqi məktəbini bitirmiş, Aşqabad şəhərində hərbi xidmətdə olmuş, sonra Aşqabad Universitetinin hüquq fakültəsinə daxil olmuş, lakin vətən həsrətinə dözə bilməyib təhsilini yarımçıq qoymuşdur. 1960-1964-cü illərdə Asəf Zeynallı adına Musiqi məktəbinin muğam şöbəsini, S.Şuşinskinin sinfini bitirmiş, Azərbaycan Opera və Balet teatrında solist olmuşdur.

1962-1968-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş, xeyli müddət Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuş, 1976-1992-ci illərdə fasilələrlə Ağdam orta ixtisas musiqi məktəbində muğam şöbəsinin müəllimi işləmişdir. O xalq mahnılarının mahir ifaçısı idi. Şahmalı Kürdoğlu yeri gələndə saz havaları üstündə də oxuyurdu. Azərbaycan musiqisinin, eyni zamanda folklorun inkişafında onun xüsusi yeri vardır. Duzlu-məzəli söhbətləri, lətifələri məclisdə olanlara ruh verirdi.

1992-ci il noyabrın 6-da erməni hücumu zamanı oğlu ilə birlikdə doğma kəndində şəhid olmuşdur.

## AĞAYAROV SƏLİM

Ağayarov Səlim Qəhrəman oğlu 1941-ci ildə Dərələyəzin Qabaqlı kəndində anadan olmuş, orada boya-başa çatmış, bir müddət Xocalıda yaşamış, ondan sonra Sumqayıtda məskunlaşmış, ömrünün axırına qədər orada yaşamış və 1995-ci ildə dünyasını dəyişmişdir.

Səlim muğam və xalq mahnıları oxumağa da çox meyl etmişdir. Bununla belə o saz havaları üstündə də məharətlə oxuyardı.

Yüksək, məlahətli səsə malik olan Səlimin ilk müəllimi yaxın qohumu Şahmalı Kürdoğlu və böyük qardaşı Hüseynqulu olmuşdur.

O Sumqayıtda "Tello" folklor ansamblını yaratmış və ölənə qədər onun bədii rəhbəri olmuşdur. Bu ansamblda bədii rəhbər olduğu müddətdə çoxlu musiqiçilər, xalq mahnısı və muğam oxuyanlar yetirmişdir. Həqiqət Ağayeva, Kamal Əmrahov, Ədalət Quliyev, Vəli Quliyev, Sevda Kazımova, Mətanət Piriyeva, Mənzurə Musayeva kimi oxuyanlar Səlimin yetişdirmələridir.

Onun rəhbərlik etdiyi ansambl bir çox xarici ölkələrdə (Rumıniya, Polşa, Almaniyada) qastrol səfərlərində olmuş və bunların radionun qızıl fondunda çoxlu kasetləri vardır.

Ağayarov Səlimin nəsli çalıb oxuyan adamlar kimi Dərələyəzdə məşhurdur.

## QEYDLƏRİM

*Oxuculara onu da çatdırmalıyam ki, kökü, soyu, ata-babası, özü Dərələyəzdən olan saz-söz ustaları, musiqiçilər Azərbaycanda böyük ad-san qazanmışlar.*

*Kəlbəcərdə böyük ad-san sahibi olan ustad Qəmkeş Allahverdinin, Kəlbəcərli Aşıq Ədalət Dəlidağlının, hal-hazırda Kəlbəcərdən gedib Şəmkirdə qaçqın kimi yaşayan və tanınan Aşıq Əhlimanın, Aşıq Pəri məclisində fəaliyyət göstərən, məlahətli səsi və avazı olan Aşıq Aybəniz Laçınlının, məlahətli səsləri və avazları ilə Azərbaycanda hamı tərəfindən sevilən Şahnaz və Aybəniz bacılarının və bir çoxlarının soyu, kökü Dərələyəzlə bağlıdır.*

Tədqiqata cəlb edə bilmədiyim aşıqlar əsasən, aşağıdakılardır. Qoy gələcək folklorşünaslar bunları araşdırsınlar.

*Aşıq Novruz – (XIX əsr) Zeytə kəndi.*
*Aşıq Musa – Zeytə kəndi.*
*Aşıq Məmmədtağı – Hors kəndi.*
*Aşıq İbrahim – Hors kəndi.*
*Aşıq İbad – Herher kəndi.*
*Aşıq Nəcəf – Qurdqulaq kəndi.*
*Aşıq Qaçay (Aşıq Abdüləzimin oğlu) – Bulaqlar kəndi.*
*Aşıq Zeynəb – Ertiş kəndi.*
*Aşıq Cabbar – (təcnis Cabbar) – Şəmkirdə dünyasını dəyişib.*
*Aşıq Qurban – Amağu kəndi.*
*Aşıq Sərxan Alxan oğlu – Gomur.*
*Aşıq Zalxan Alxan oğlu – Gomur.*
*Aşıq Allahverdi İsmayıl oğlu – Gomur.*
*Aşıq Məhəmməd – Qaravəng (Şərura köçüb).*

# AĞ AŞIQ VƏ SÜSƏNBƏR DASTANI

Ustadnamə ustadlarından ad alar, o da əhli-məclisə dad olar.Götürdü görək ustad nə dedi: biz deyək bir olsun, əhli dinləyiciləri pir olsun:

*Həqiqət bəhrinə qəvvasam deyən,*
*Qəvvas isən, gir dəryaya üzhaüz.*
*Aşıq deyər üzhaüz,*
*Sonam göldə üzhaüz.*
*Qarı düşmən dost olmaz*
*Yalvarasan üzhaüz.*
*Bir mərd ilə İlqarını vur başa.*
*Namərd ilə kəs ülfəti üzhaüz.*

*Parçalandı gəmim qaldı dərində,*
*Mən qərq oldum dəryalarda, dərində.*
*Aşıq deyər dərində,*
*Dayazında, dərində.*
*Sidqi haqqa düz olan,*
*Hərgiz qalmaz dərində.*
*Qismət olsa o mövlanın dərində,*
*Üz döşəyək, səcdə qılaq üzhaüz.*

*Xəstə Qasım deyər: canan can deyə,*
*Can eşidə, can danışa, can deyə.*
*Aşıq deyər can deyə,*
*Vəfalıya can deyə.*
*Görmədim hərcayilər*
*Cananına can deyə.*
*Yox vəfalım, can deyənə can deyə,*
*Bivəfadan çək əlini, üzhaüz.*

Ustadlar ustadnaməni bir deməzlər iki deyərlər, biz deyək iki olsun, dostlar başı dik olsun:

*Qulluğunda üççə kəlmə sözüm var:*
*Birin eşit, birini öyrən, birini qan.*
*İyidin başına üç dövlət qonar:*
*Biri ağıl, biri gənci, biri şan.*

*Heç kəsin eyliyi, heç kəsdə qalmaz,*
*Arayıb-axtaran itiyin bulmaz.*
*Yəqin bil, dünyada üç şey zay olmaz:*
*Biri eylik, biri elim, biri nan.*

*Dərdli Kərəm, diləyini dilə sən,*
*Ağlayasan, sızlayasan, güləsən.*
*Ey yaradan, mənə üç dərd verəsən:*
*Biri alış, biri tutuş, biri yan.*

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz deyək üç olsun, düşmən ömrü puç olsun:

*Yüz yalvar,*
*Yüz bilən var, yüz al var.*
*Namərddə səxa olmaz*
*Yüz ətəklə, yüz yalvar.*
*Dərd arxalı,*
*Sərilmiş dər-dərxalı.*

*Dərdə mərdim.*
*Düşməsin dərdə mərdim.*
*Mənə dərman neyləsin,*
*Tifilkən dərd əmərdim.*
*Ya rəbb, varmı mənim tək*
*Qəm övlü dərd arxalı.*

Bəli, sizə haradan və kimdən danışım. Sizə Şərul mahalında Kosacan kəndində Qara Osman oğlundan danışım. Qara Osman oğlu sazı-sözü ilə Arazdöyənin hər iki tayında toy məclisi aparar, güzəran keçirərdi. Dünya malına nəfsi olmayan, gözü-könlü tox adam idi. Özü şıx olsa da, əlsiz-ayaqsızlara əl tutar, nəzir-niyaz verərdi. Qara Osman oğlu el-obanın xeyir-şərində hər şeyə yarayan adam idi. Hamı onunla məsləhətləşər, məclislərinin başında əyləşdirərdi. Şıx oğlunun qoca dünyadan heç bir təmənnası yox idi. Yeganə dərdi züryət dərdi idi.

Çillənin son günləri idi. Şıx oğlu bir gün vayğada gördü ki, atası cənnətməkan ağ əbada qənşərinə gəldi, dedi:

- Oğul! Bil və agah ol. Arazın xəndəyinin qaşında cavan bir dağdağan ağacı var. Sən onun yerini dəyişməsən, baharın ilk sellər-suları onu yuyub aparacaq. Onun ilk nübarı ilə sənin də ilk barın olacaq. Onu sənə, səni də bir olan allaha tapşırıram.

Qara Osman oğlu yuxudan hövlənək durdu. Səhərin gözü açılmamış özünü yetirdi atasının yuxuda vəsiyyət etdiyi yerə. Baxdı ki, ey dili-qafil, dağdağan son əmici telindən asılı qalıb. Əl atıb ağacı çəkdi. Göyürüb evə qayıtdı. El-oba sabahı salamlamamış Şıx oğlu ağacı qapısının doqqazında əkdi. Dibinə bir sərnic su tökdü.

Əl qərəz, aylar-illər dolandı. Amma Şıx oğlu yuxusunu heç kəsə danışmadı. Qara Osman oğlunun hesabında bu il dağdağan bar verməli idi. Axşam əl-ayaq yığışdırılanda Şıx oğlu baxdı ki, baş yoldaşı nə isə ondan həyalanır. Nağılçılar dili mübarək olar demişlər. Günlər keçdi, həftələr dolandı. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə tamam oldu. Şıx oğlunun həyat yoldaşı, yükünü yerə qoydu. Elə o ili də dağdağan ağacı ilk nübar verdi. Qara Osman Oğlunun həyətində qurbanlar kəsildi, yeddi qapıya nəzir-niyaz paylandı. Kosacanın qarı-quruları göz aydınlığına yığışdılar. Hərə uşağa bir ad qoydu. Biri Yarməmməd, biri Əlinəzir, biri Xıdır, biri Məhəmmədəli deyə ad qoydu. Axırda mamaça irəli gəlib dedı:

- Uşağın adı Allahverdidi. Adını mən verdim, ruziqasını allah-taala versin. Hamı mübarək deyib, şirin-şərbətdən nuş eylədi. Uşaq iməkləyib oturanda baxdılar ki, hey ayağını dartır. Hərə bir cür yozdu. Bunu görən anası Yasəmən nənə dedi:

- Oğul! Uşaq ki oturanda ayaqlarını ağzına tərəf çəkdi, bil ki, özünə tay axtarır. Sənin qızın olacaq. Ölüm-itim dünyasıdır. Ömrüm vəfa eləməsə, qızın adını Ümmülbanu qoyarsan.

Günlər keçdi, ay dolandı Qara Osman oğlunun bir qızı oldu. Adını Ümmülbanu qoydular. Bəli, günlər günlərə qarışdı, uşaqlar boya-başa çatdılar. Şıx oğlu Allahverdini mollaxanaya qoydu. Allahverdini mollaxanada yoldaşlar rənginin ağlığına və məlahətli səsinə görə "Ağ Aşıq" deyə çağırırdılar. Allahverdi gündüzlər mollaxanada oxudu, gecələr isə atasından saz-söz öyrəndi. Allahverdi mollaxananı başa vurdu. Təhsilini mədrəsədə davam etdirdi. Məd-

rəsəni başa vurduqdan sonra Qurandan yox, bir baş çömçə, bir başı nimçədən yapışdı. El-obalarda Ağ Aşıq adı ilə şöhrət tapdı. Aşığın səsi gah Bağdaddan, gah Təbrizdən, gah İstanbuldan, gah Bəsrədən, gah da Rumdan gəldi.

Bir gün Telli Cəfər Ağ Aşığı oğul toyuna dəvət etdi. Ağ Aşıq 40 gün, 40 gecə Telli Cəfərin oğul toyunu necə keçirdiyini özü də bilmədi. Telli qızı Süsənbər Ağ Aşığın səbir-qərarını kəsdi.

Bəli, Süsənbər də bir Süsənbər idi. Ay onun gözəlliyindən üz bürüyür, gün xəcalət təri tökürdü. Ağ Aşıq baxdı ki, ey dili-qafil, toyun son günüdür, belə getsə Süsənbərin dərdi onun ürəyində qövr eyləyəcək. Saralıb sapa, incəlib ipə dönəcəkdir. Ürək sözünü ona deyə bilməyəcəkdir. O idi ki, sazının bəmini-bəm, zilini-zil eyləyib basdı sineyi-sandığa. Götürdü görək nə dedi, tərəfindən bir ərz eyləyərək siz şad olun:

*Gözəllərə bağlıyıram dastanı,*
*Bir mələyin eşqi canı yandırır.*
*Sərraf olan lələ qoyar qiyməti,*
*Göz görəndə din-imanı yandırır.*

*Sonam cilvələnib qarşımda durur,*
*Xedəngini bağrım başına vurur,*
*Bürümür üzünü, mərdanə durur,*
*Bir baxışla yüz min canı yandırır.*

*Gözəllər açıbdır Yusif bazarı,*
*Bəsləyib sinədə Hindistan narı*
*Gözüm görür, artır canım azarı,*
*Ağ Aşıq tək binəvanı yandırır.*

Ağ Aşıq baxdı ki, söz qızları yaman tərpətdi. O idi ki, sazın Beçə pərdəsində bir bayatını zilə çəkdi.

*Eləmi, sona gözəl,*
*Gəzmə oysana gözəl.*
*Baxdım ağlım apardın*
*Vuruldum sana, gözəl.*

Məclisdə əyləşən kəmərqurşaq bəynişan qızlar bir-birini himlədilər ki, görəsən aşıq daşı kimin bağına atdı. Ağ Aşıq usta idi. Sözün yerinə düşdüyünü görüb götürdü dübarə:

*Mən aşıq, gəldi keçdi,*
*Günlərim gəldi keçdi.*
*Yarın odlu baxışı,*
*Sinəmi dəldi keçdi.*

Qızlar gözlərini zillədilər ki, görsünlər aşıq oxuyanda kimi gözaltılayıb. Aşıq götürdü görək öz ovunun səmtini necə isnad verdi, biz deyək siz şad olun:

*Çevirib yönümü haqq dərgahına,*
*Çağırıram bəlkə gələydi baxtım.*
*Keçə günahımdan kərəm sahibi,*
*Mənim də üzümə güləydi baxtım.*

*Ürəyim istəyir halalı, pakı,*
*Şeytanı qəlbimdən qovaydım hakı.*
*Rəbbimə duadır dodağımdakı,*
*Qanlı göz yaşımı siləydi baxtım.*

*Könlünə nə dəyib, inciyib belə,*
*Bəlkə uyubdu o, fitnəyə-felə?*
*Ağ Aşığın dönüb göz yaşı selə,*
*Nola əhvalımı biləydi baxtım.*

Ağ Aşıq gördü ki, qızlar bir-birini yamanca himləyib. Ovu ov barəsində görmək istəyirlər. Fürsəti əldən verməyib, saza tərsə-ovand təzənə çəkdi:

*Əzizim, barəsinə,*
*Ov gəldi barəsinə.*
*Teylənib şux nigarım,*
*Ovçu, sin barəsinə.*

Söz tamama yetdi. Qızlar baxdılar ki, Süsənbərin halı özündə deyil. Rəngi əhməri alma kimi yalaf-yalaf yanır. Kiprikləri ox kimi nişan alıb aşıqın bağrının başını. Ağ Aşıq sazın kökünü dəyişdi. Bəmini-bəm, zilini-zil elədi. Götürdü görək nə dedi, tərəfindən qulluğunuza ərz eyləyək, siz şad olun:

*Bir maral baxışlı, tərlan cilvəli,*
*Gəlib məni gördü, güldü, qayıtdı.*
*Pünhana göstərdi gül camalını,*
*Buxağına şəbnəm doldu, qayıtdı.*

*Mən görmüşəm gözəllərin çoxunu,*
*Belə olmaz ancaq boyu, buxunu.*
*Müjganından çəkib xədəng oxunu,*
*Yaralı sinəmə çaldı, qayıtdı.*

*Gözləyərkən gözlərimə sataşdı,*
*Xəstə canım eşq oduna alışdı.*
*Şəhrayıdan qıya baxıb ötüşdü,*
*Ağ Aşığa nəzər saldı, qayıtdı.*

Söz tamama yetişdi. Ağ Aşıq sazla dediyini, sözlə də dedi. Baxdı ki, Süsənbər mətləbi aldı. Fürsəti-fövtə vermədi, sazın kökünü dəyişdi:

*Yanaqların çox gözəldi,*
*Ay qız, bil sənin, bil sənin.*
*Hüsnün huridən əzəldi,*
*Ay qız, bil sənin, bil sənin.*

*Keşd eylədim eldən-elə,*
*Yıxdın evim bilə-bilə.*
*Müştağınam, salma dilə.*
*Ay qız, bil sənin, bil sənin.*

*Gərdən mina, sürah boyun,*
*Alosmanda yoxdur tayın.*
*Tutacağam özüm toyun,*
*Ay qız, bil sənin, bil sənin.*

*Camalındı şəmsi-qəmər,*
*Bahar səndən şəbnəm əmər,*
*Peşkəşindi qızıl kəmər,*
*Ay qız, bil sənin, bil sənin.*

*Ağ Aşığın günü qara,*
*Ciyar oldu hazar para.*
*Bir busəndi mənə çara,*
*Ay qız, bil sənin, bil sənin.*

Söz tamama yetişdi. Ağ Aşıq Telli Cəfərin oğul toyunu mübarək duvaqqapmasını oxudu. Döndü Kosacan kəndinə. Evə çatan kimi bayaqdı düşdü üzü üstə. Bu ilmi ölmüsən, bildirmi. O yatan yeddi gün, yeddi gecə heç kim ondan bir kəlmə söz eşitmədi. Qara Osman Şıx övladı idi. Bildi ki oğluna hər nə olubsa Telli Cəfərin oğul toyunda olub. Özü də deyəsən eşq sövdasıdır. Yerlər qulaqlı olar demişlər. Söz-söhbətin uc-qulağından Şıx oğluna çatdı ki, bə bilməzsənmi, oğlun Telli Cəfərin qızına vurulub.

Qara Osman oğlu dilli-dilavər sazı divardan endirib, dilə gətirdi, təzənəni simlərə tərsə-ovand çəkdi. Aldı görək nə dedi:

*Nədir dərdin söylə mənə?*
*Ağlar gözlərim, gözlərim.*
*Qurban sənə şirin canım,*
*Ağlar gözlərim, gözlərim.*

*Sən mənim dini-imanım,*
*Qurban sənə xanimanım,*
*Boynu buruq Ümmülbanım,*
*Ağlar gözlərim, gözlərim.*

*Şıx oğlunun sanı vardı,*
*Elçilər ata suvardı.*
*İstədiyin sənə yardı,*
*Ağlar gözlərim, gözlərim.*

Söz tamama yetişdi. Şıx oğlu sazla dediyini sözlə də dedi:

- Oğul! Mən ölmüşəm ki, sən xiffət çəkəsən. Telli Cəfər mənim dostumdur. Biz özümüz ağırda onunla duz çörək, düz çörək kəsmişik. İnşallah bu gün-sabah Telli Cəfərin şad qapısına elçi gedərəm. Bir qızdan ötrü ürəyini niyə sıxırsan?

Atasının ürək-dirəyindən Ağ Aşığın söz sinəsində tüğyan etdi. Sazı atasından alıb mindirdi sineyi-sandığına. Götürdü görək öz halını sazla dədəsinə necə dedi. Biz deyək, əhli-məclis şad olsun:

*Yarım çıxıb yaylaqlara,*
*Qaldım, yalvara-yalvara.*
*Bərə qurdum oylaqlara,*
*Durdum, yalvara-yalvara.*

*Qurban dedim yar adına,*
*Səs vermədi fəryadıma.*
*Şahi-mərdan, yet dadıma,*
*Öldüm yalvara-yalvara.*

*Qamət çəkib naz eylədi,*
*Bir dərdimi yüz eylədi.*
*Bağrım başın köz eylədi,*
*Yandım yalvara-yalvara.*

*Gülər üzlü, boyu bəstə,*
*Dağ çəkibdi sinəm üstə.*
*Ağ Aşığı etdi xəstə,*
*Qaldım, yalvara-yalvara.*

Söz Qara Osman oğlunun bağrının başını köz kimi yandırdı. Dedi:

- Oğul, o nə qızdı ki, səni xəstə edən? Bəyəm Şıx oğlu ölmüşdür ki, gözünün ağı-qarası xiffət çəksin? Sən qızın adını de, dalısı ilə işin yoxdu.

Bəli, götürdü görək Ağ Aşıq sevgilisi Süsənbəri atasına təsnif üstə necə nişan verdi. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Qulac saçdı,*
*Qələm qaşdı,*
*Ağzın açdı,*
*Gövhər saçdı,*
*Süsənbərim.*

*Kəklik səkər,*
*Boynun bükər,*
*Ovçun çökər,*
*Qanın tökər*
*Süsənbərim.*

*Şəhla gözü,*
*Gözəl üzü,*
*Şirin sözü,*
*İlqar düzü*
*Süsənbərim.*

*Yaşıl başlı,*
*Çatma qaşlı,*
*Şux baxışlı,*
*Yaraşıqlı*
*Süsənbərim.*

*Sən əzəlsən,*
*Dil məzəsən,*
*Çox gözəlsən,*
*Bir dənəsən*
*Süsənbərim.*

*Telli sazım,*
*Xoş avazım,*
*Bahar yazım,*
*Sən murazım*
*Süsənbərim.*

*Şirin avaz,*
*Kirpik almaz,*
*Aşıq sınmaz,*
*Yardan dönməz,*
*Süsənbərim.*

*Bulaq başı,*
*Gözüm yaşı,*
*Var təlaşı,*
*Qəlb sirdaşı*
*Süsənbərim.*

*Budur sözüm,*
*Qurban özüm.*
*Telli sazım,*
*Şən avazım*
*Süsənbərim.*

*Sən halalsan,*
*Bir cəlalsan,*
*Mənə yarsan,*
*Bizə varsan*
*Süsənbərim.*

*Aşıq Ağdı,*
*Toy təlağdı,*
*Xoş sorağdı,*
*Gözəl çağdı,*
*Süsənbərim.*

Söz tamam oldu. Şıx oğlu anladı ki, qızın adı Süsənbərdir. Qohum-əqrəba məşvərətə yığıldı. Qərara gəldilər ki, elçiliyə getsinlər.

El dili mübarək olur-demişlər. Kosacanın müdrik qocaları üz qoydular Telli Cəfərin dərgahına. Günə bir mənzil, teyi-mənzil, qırdılar yolun damarını. Ertəsi gün atdan endilər Telli Cəfərin dərgahında. Telli Cəfər Şıx oğlunun elçilərinə xoş gəldin deyib, onları ağzı qıfıllı bir qapının ağzına apardı. Şıx oğlu arif bir adam idi. Mətləbi qandı. Cibindən bir açar çıxarıb qapını açdı. Dedi:

- Telli Cəfər! Bil və agah ol, qıfıl sizdə, açarı bizdədir.

Telli Cəfər elçilər oturanda ortalığa süfrə əvəzinə bir baş şalı sərdi. Şıx oğlu tez şalın üstünə bir papaq, bir kəmər, bir xəncər qoydu. Dedi:

- Telli Cəfər! Biz kişi üçün qapına elçi gəlmişik. Şal sahibinin namusunu qorumağa qeyrətimiz çatar.

Telli Cəfər dizinin üstünə bir parça çörək qoydu. Şıx oğlu çörəyi Telli Cəfərin dizi üstən götürüb öpdü. Sonra üstünə duz qoydu. Dedi:

- Telli Cəfər! Bil və agah ol. Şıx oğlunun əsl-nəcabəti var. Bizim çörəyimiz heç vaxt dizimizin üstə olmayıb. Qohumluğumuz düz çörək, duz çörək üstə qurulur.

Telli Cəfər ortalığa bir qab bibər qoydu. Şıx oğlu bibəri götürüb bayıra atdı. Süfrəyə qənd-noğul səpdi. Dedi:

-Telli Cəfər! Şirinlik olan yerdə acılıqdan söhbət açmaq yersizdir.

Telli Cəfər süfrəyə iynə, sap, qayçı qoydu. Şıx oğlu bir boğça açdı. Əvəzində süfrəyə üzük, sirğa, boyunbağı, gümüş kəmər, başlıq qoydu. Sonra hamısını boğçaya yığıb ağzını bağladı, verdi Telli Cəfərə. Telli Cəfər ayağa qalxdı. Boğçanı öpüb-mübarəkdir!- dedi. Süfrəyə şirin çay gəldi.

Bəli, əzizlərim! Allah-taala sizin də bəynişanlarınızı mübarək etsin. Ağ Aşıqla Süsənbərin tale ulduzlarının sövda məşvərəti qurtardı. Hər iki ailədə toya hazırlıq başlandı. Nağılçılar dili mübarək, köhlən at yüyrək olar demişlər. Şıx oğlu Ağ Aşığa bir toy etdi ki, səs-sorağı Alosmana yayıldı.

Aylar-illər dolandı. Qara Osman oğlu nəvə buyurub-çağırır. Gün o gün oldu ki, qocalar ömür-günlərini cavanlara bağışladılar.

Arazdöyən tərəflərdə şah qoşunlarının talanı başladı. Camaat el-obasından pərən-pərən oldu. Əl-ayağı tutan vəzndə ağır, çəkidə yüngül hər nəyi vardı farmaşa qabğardı. At-ulağa yükləyib Dərələzə, Göyçəyə tərəf pənah apardılar. Ağ Aşıq da külfəti ilə günə bir mənzil, teyi-mənzil üz qoydu Göyçəyə. Güllüdərənin gədiyindən aşanda dönüb Araz tərəfə boylandı. Ürəyi qubar eylədi. Dili-dilavər sazı köynəkdən çıxarıb bəmini-bəm, zilini-zil köklədi. Aldı görək nə dedi. Biz deyək, siz şad olun:

*Bahar gəldi bu dağlara,*
*Gülüm gələ, gülüm gələ.*
*Yay olanda yaylaqlara,*
*Elim gələ, elim gələ.*

*Gözəlləri söhbət sözüm,*
*Şövqə gələ telli-sazım.*
*Cövlan edə xoş avazım,*
*Söz deməyə dilim gələ.*

*Ağ Aşığın xoş çağıdı,*
*Gül yanaqlar oylağıdı.*
*Göyçə bir gülşən bağıdı,*
*Tərifinə dilim gələ.*

Söz tamama yetdi. Ağ Aşıq baxdı ki, Süsənbər bulut kimi qara çüyütdü. Bir himə bənddi yumub tökə. Götürdü dübanə:

*Dağlar səndən duman qalxar,*
*Çərxə dolana-dolana.*
*Göy guruldar, şimşək çaxar,*
*Çərxə dolana-dolana.*

*Tər çiçəklər ilməyindi,*
*Nərgiz-çəmən köynəyindi.*
*Duman çalman-diləyindi,*
*Çərxə dolana-dolana.*

*Ağ Aşıq tək havalısan,*
*El-obanın calalısan.*
*Bahar fəsli davalısan*
*Çərxə dolana-dolana.*

Söz tamam oldu. Üz qoydular karvansaraya. Ağ Aşıq karvansaraya çatanda gördü ki, ey dili-qafil, Göyçə elə bil cənnətmisil behiştdi. Gül bülbülü, bülbül gülü çağırır. Sıra dağlar ağ buludlardan başına tac qoyub, Göyçə gölündə güzgülənir. Ürəyi cuşa gəldi. Götürdü görək Göyçənin vəsfinə nə dedi, tərəfindən ərz eyləyək, siz şad olun:

*İgid olsa elə arxa,*
*Can sadağa beləsinə*
*Gözlərinin giləsinə.*
*Çörək verib ala səxa,*
*Can sadağa beləsinə*
*Gözlərinin giləsinə.*

*Göyçə gözəllik oylağı,*
*Güldü-çiçəkdi yaylağı,*
*Murğuz, Murov, Kəpəz dağı,*
*Can sadağa beləsinə*
*Gözlərinin giləsinə.*

*Güzgüsüdü Göyçə gölü,*
*Tamaşadı bütün eli.*
*Şəhdi-şəkər şirin dili,*
*Can sadağa beləsinə*
*Gözlərinin giləsinə.*

*Dağlar başı qarlı gərək,*
*Bağça bağlar barlı gərək,*
*İlqar özü varlı gərək,*
*Can sadağa beləsinə*
*Gözlərinin giləsinə.*

*Ağ Aşığın odu sönməz,*
*El-obadan üzü dönməz,*
*İgidlərin başı enməz,*
*Can sadağa beləsinə*
*Gözlərinin giləsinə.*

Ağ Aşıq külfəti ilə gecəni karvansarada gecələdi. Karvansara əhli aşığın başına toplaşdılar. Xahiş etdilər ki, biz də yolçu, sən də yolçu. Arazdöyəndən bir neçə yarpaq söz oxu, səhərin açılmasına körpü sal. Ağ Aşıq baxdı ki, heç insafdan deyil

ki, karvansara əhlinin xatiri sına. O idi ki, İmran dilli sazını köynəkdən çıxardı, zilbəm eyləyib dilə gətirdi. Aldı görək nə dedi. Biz deyək, siz şad olun:

*Vətənimdən cida düşdüm,*
*Bəy əlindən, xan əlindən.*
*Heç birində insaf yoxdur,*
*Onların aman əlində.*

*Rəiyyət qərq olur qəmə,*
*Dərdimizi deyək kimə?*
*Zəhrimardı alıb yemə,*
*Kəndxudanın nan əlindən.*

*Ağ Aşığı dostu yoxlar,*
*Dərdi-qəmi canda saxlar.*
*Köksünə tuşlandı oxlar,*
*Dil bilməz nadan əlindən.*

Məclis əhli bir ağızdan dedi:

- Sağ ol, aşıq! Sən yaxşı deyərsən, ustadına bərəkallah!

Məclis əhli bir ağsaqqal dedi:

- Aşıq! İndi gəda-güda dünyasıdır. Hanı sən gördüyün səxasan. Ağ Aşıq arif adam idi. Bildi ki, dünya görmüş bu piranə hansı simə ilmə çalır. Götürdü dübarə:

*Qəm çəkmə, ey könül, fani dünyada,*
*Qılınc çəksən dərdə, aha yaxşıdır.*
*İbadət et, leyli-nahar sal yada,*
*Şükür etsən bir Allaha yaxşıdır.*

*Düşün ədaləti, unutma daha,*
*Ağada iman yox, sultanda səxa.*
*Nəsihət sözləri deyim bir daha,*
*Haram yüzdən, halal şaha yaxşıdır.*

*Əl çirkidi qızıl, mal ilə dövlət,*
*Kim tapıb onunla dünyada şöhrət?!*
*Namussuz, qeyrətsiz olsa bir övlad,*
*Onu atsan fızıllığa yaxşıdır.*

*Ağ Aşıq, elini etdilər talan,*
*Namərdlər mərd olub, mərdlərsə yalan,*
*Atalar ölərkən yurdunda qalan,*
*Qeyrətli övladı daha yaxşıdır.*

Söz tamama yetişdi. Məclis əhlindən əhsən səsi ucaldı.

Səhər açıldı. Üzünüzə mübarək səhərlər açılsın. Ağ Açıq da üz qoydu Göyçənin Kərkibaş kəndinə. Şər qarışar-qarışmaz Kərkibaş kəndinə varid oldu. Aşığı tanıyanlar, bilənlər evinə dəvət etdilər, ona elə gecəykən bir kümə düzəltdilər. Allah hamınızi evli-eşikli eləsin. Səhəri Ağ Aşıq külfətini yığdı küməsinə. Amma baxdı ki, Süsənbərin halı heç özündə deyil. Bıçaq vursan qanı çıxmaz. Ağ günü elə bir göy əskiyə düyülüb. Ağ Aşıq sazı divardan endirdi, zil-bəm elədi, dedi:

- Mehribanım! Sənin bu baxışın könlümü qan elədi. Sinəmə bir neçə xana söz gəlib. Deyim, qulaq as.

Aldı Ağ Aşıq:

*Mah camalın şölə saçır ay kimi,*
*Gözüm, könlüm ay Süsənbər səndədir,*
*Qaşların sinəmi oxlar yay kimi,*
*Bir ahusan, müşki-ənbər səndədir.*

*Yandı Qürbət eldə dilim-dodağım,*
*Çatıb Alosmana sözüm-sorağım.*
*Bir busa ver, dada gəlsin damağım,*
*Yandı cigər, abi-kövsər səndədir.*

*Üzündə xallara salmışam nəzər,*
*Daldalan, görməsin xoyrat, bədnəzər,*
*Nadanlar nə bilir, nədir gövhər, zər?*
*Ağ Aşığam, od dürr-gövhər səndədir.*

Söz tamama yetişəndə aşıq baxdı ki, Süsənbər üzünü dağlara çevirib için-için ünləyir. Dərdi təzələndi. Saz sinədə yön çevirdi dağlara. Aldı görək Ağ Aşıq nə dedi. Qulluğunuza biz ərz eyləyək, siz şad olun:

*Məcnun deyə Leyli ünü,*
*Düşdü dağlara, dağlara.*
*Kərəmi də keşiş dini,*
*Saldı dağlara, dağlara.*

*Dağlar başı tamam qardı,*
*O ki elə bir vüqardı.*
*Niyə günahkar dağlardı?*
*Derlər: dağlara, dağlara...*

*Murğuz, Murov, Kəpəz xandı,*
*Alvız, Ağrı bir sultandı.*
*Ağ aşıq hələ cavandı,*
*Alqış dağlara, dağlara.*

Söz tamam olanda Ağ Aşıq baxdı ki, Süsənbər mileymləndi. Sözün yerinə düşdüyünü görüb öz-özünə dedi:

- Zənən xeylağıdır, bir az qubarlanıb. Gəl könlünü bir də al. Bir-iki yarpaq könül açan söz oxu. O idi ki, Ağ Aşıq sazı Beçə pərdədə zilə çəkdi:

*Aşığam şana qaldı,*
*Saçında şana qaldı.*
*Busa aldım üzündən,*
*O da nişana qaldı.*

*Mən aşıq sənə sarı,*
*Üz çevir mənə sarı.*
*Könlüm məlhəm istər*
*Təbibsən-onu sarı.*

*Mən aşıq, sinəsinə,*
*Dağların sinəsinə.*
*Gül olub taxılaydım*
*Yarımın sinəsinə.*

Söz tamam oldu. Aşıq sözlə dediyini səslə də dedi. Baxdı ki, ey dili-qafil, Süsənbər yüz nazü-qəmzə ilə özünə sığal verib. Götürdü dübarə:

*Budur gəldi fəsli-bahar,*
*Mah camallı Süsənbərim,*
*Mənim gülənbərim!*
*Sənə qurban şirin canım,*
*Mah camallı Süsənbərim,*
*Mənim gülənbərim!*

*Qurban olum boy-busata,*
*Seyrə çıxaq asta-asta.*
*Bağçanın barından dosta,*
*Nübar yolla, Süsənbərim,*
*Mənim gülənbərim!*

*Mah camala qara tellər,*
*Vurğundu şeyda bülbüllər,*
*Ağ Aşığı da lal eylər,*
*Qoşa xallı Süsənbərim,*
*Mənim gülənbərim!*

Bəli, söz tamam oldu. Süsənbərin kefi durdu.

Bu minval ilə aylar-illər keçdi. Gün o gün oldu ki, Ağ Aşığın ağ günü qara əskiyə düyüldü. Urum elindən Sərdar Hüseyinin fərraşları Kərkibaşda aşığın doqqazında atlarının başını çəkdilər. Fərmanı verdilər aşığa. Buyurdular ki "Sərdar Hüseyinin mərəzi qalxıb, yuxusu ərşə çəkilib. İranın, Turanın loğmanları onun mərəzinə ağ adamın qanını dərman buyurub. Hazırlaş, yarın bizimlə Uruma varmalısan"- deyə atlarının başını çevirdilər kəndxudanın evinə. Ağ Aşığın ürəyində yara yenidən qövr eylədi. Ürəyi qubarlandı. Sazı divardan endirdi. Köynəkdən çıxarıb əl gəzdirdi kökünə. Mindirdi sineyi-sandığa:

*Bir yanda pristav, bir yandan koxa,*
*Biçarə rəiyyəti dara çəkirlər.*
*Qazı, darğa xalqı soyur soğan tək,*
*Dirikən üstündən qara çəkirlər.*

*Dağ çəkildi Naxçıvana, Sulduza,*
*Duz nədir ki, həsrət qala el duza?*
*Axund, molla, seyid dönüb quduza,*
*Elin sərvətini hara çəkirlər?*

*Sığındım Göyçəyə, bu mahala mən,*
*Fitnə-fəsaddan düşdüm zavala mən.*
*Necə dönüm, üzüqara dala mən?*
*Ürəyimi atəşə, nara çəkirlər.*

*Ağ Aşıq da, dərd əlindən dəlidir,*
*Kəndə koxa qanı soran zəlidir.*
*Gözüm yaşı, dağ çayının selidir,*
*Sinəmə dağ-düyün, yara çəkirlər.*

Söz tamama yetər-yetməz Ağ Aşıq baxdı ki, oğlanları Məhərrəm ilə İsmayıl anaları Süsənbərin boynuna yaz sarmaşığı tək elə sarılıblar ki, illər-aylar həsrətlisi kimi, göz istəyir on yerindən yumub tökə... Bir tərəfdən də biçarə bacısı Ümmülbanu əl eləyib gözünə. Bahar bulud kimi tökür. Ürəyi qövr eylədi, götürdü görək Ağ Aşıq vəziyyətinə bahəm nə dedi. Qulluğunuza biz ərz eyləyək, cəmi dinləyənlər şad olsun:

*Dərdin karvanıyam, qəmin suvarı,*
*Üzü gülməyəcəyəm haçana kimi?!*
*Gecəli-gündüzlü işığa həsrət,*
*Yanıb çağlayacağam haçana kimi?!*

*Fərraş hüzurunda qolu bağlıyam,*
*Müxənnət kəndxuda, sinə dağlıyam.*
*Haqq-ədalət hanı dərdim ağlıyam,*
*Dərd bağlayacağam haçana kimi?!*

*Sərdar Hüseyn tək sitəmkar olmaz,*
*Zülmündən dünyada kimsənə qalmaz.*
*Ağ Aşıq, dərdini təbib də bilməz,*
*Məlhəm bulmayacam haçana kimi?!*

Söz tamam oldu. Süsənbər baxdı ki, ay dili-qafil, kişi heç özündə deyil. Qəhər onu boğub, istədi ki, ürək-dirək versin. Ağ Aşıq götürdü dübarə:

*Taleyim belədir, yaranan gündən,*
*Nahaq odlara, qalanmalıyam.*
*Nə qədər əlləşsəm, var-dövlət yığam*
*Bir yandan çapılıb-talanmalıyam.*

*Ürəyimdən od düşübdür üstümə,*
*Heyran-heyran baxanlar var tüstümə.*
*Təndir bilib sığınırlar istimə.*
*Belə dolanmışam, dolanmalıyam.*

*Qəlbimi qanadan yar yarasıdır,*
*Bəxtimin taleyi məni sarsıdır.*
*Ağ Aşıq, haqq deyə hey yanasıdır,*
*Od oğluyam, oda qalanmalıyam.*

Söz tamama yetişdi. Ümmülbanu ürəyi qəmli, gözləri nəmli bayaqdı ipək saçlarından üç tel ayırdı. Basdı sineyi-sandığa. Aldı görək ürəyi yaralı, dili naləli nə dedi. Tərəfindən biz ərz eyləyək, siz şad olun.

***Aldı Ümmülbanu:***
*Can-ciyərim, getmə, aman günüdür,*
*Çalışıb düşmə güzarına sərdarın.*
*Baş götürək, gedək qürbət diyara,*
*Yox etibar, ilqarına sərdarın.*

***Aldı Ağ Aşıq:***
*Sultanların taxtı olaydı taraş,*
*Xan zülmkar, ağa cəllad, bəy fərraş.*
*Cumdum dərin ümmanlara, vurdum baş,*
*Dolaşmışam mən toruna sərdarın.*

***Aldı Ağ Aşıq:***
*Gəl görüşək, halallaşaq, ay bacım,*
*Gedər oldum hüzuruna sərdarın.*
*Yazıq qardaşını qara qul kimi,*
*Aparırlar bazarına sərdarın.*

***Aldı Ümmülbanu;***
*Yaralıyam tayım-tuşum içində,*
*Dağ əriyər qanlı yaşım içində*
*Ümmülbanu qəm-ataşın içində,*
*Lənət deyər məzarına sərdarın.*

***Aldı Ümmülbanu:***
*Sənsiz necə dözüm qəm möhnətinə?*
*Özümü öldürrəm düşsən qürbətə.*
*Şeytan da vurmaz əl, haram dövlətə*
*Od ələnsin yollarına sərdarın.*

***Aldı Ağ Aşıq:***
*Ağ Aşıq taleyi qara, baxtı kəm,*
*İqbalıma mənim fələk baxdı kəm.*
*Doğrananda qıyma-qıyma baxdı kəm,*
*Ollam məlhəm azarına sərdarın.*

Söz tamam oldu. Aşıq baxdı ki, Süsənbər heç özündə deyil, bir himə bənddi. Ağ Aşıq bir oğullarına, bir bacısına, bir də ömür-gün yoldaşına baxdı. Ürəyi od tutub yandı. Sazı basdı sinəsinə. Götürdü görək "Kərəmi" üstə vəziyyətini necə ərz eylədi, tərəfindən biz deyək, siz şad olun:

*Zəhmət ilən bağça saldım becərdim,*
*Muştaq oldu qəmxarına ha dərdim.*
*Bülbül tək gül üçün candan keçərdim,*
*Müştaq oldu qəmxarına ha dərdim.*

*Qızılgül becərdim ərşə boy atdı,*
*Ah-fəğanım el-obanı oyatdı.*
*Fələk məni bəxtiqara yaratdı,*
*Müştaq oldu qəmxarına ha dərdim.*

*Ağ Aşıq tutuldu gündə min dərdə,*
*Huş getdi, qalmadı ağlı da sərdə,*
*Ayrılıq üz verdi bu bəd səfərdə,*
*Müştaq oldu qəmxarına ha dərdim.*

Söz tamam oldu. Fərraş içəri daxil oldu. Ağ Aşıq əhli-əyalı ilə halallaşanda baxdı ki, ey dili-qafil, Süsənbərin bayaqdan bəri qurumuş gözlərində leysan kimi yaş şoralanır.

Ağ Aşıq dedi:

- Fərraş! İnsaf eylə. Sinəmə bir neçə xanə söz gəlib. Onu da deyim. Sonra ixtiyarı sahibisiniz.

Fərraşlardan biri dedi:

- Ayə, gəvur oğlu! Biz nə hayda, sən nə hayda. Pəzəvəng yanşaq, haydı hüzuruna sərdarın!

O biri fərraş dedi:

- Efəndim! Bir qaç söz üçün şimdi darılma.

Ağ Aşıq sazı zilə çəkdi. Aldı görək Süsənbərə nə dedi. Qulluğunuza ərz eyləyək, siz şad olun:

*Sərdar Söyün fərman verdi.*
*Ağla, mənim Süsənbərim,*
*Gözü yaşlı sitəmkərim!*
*Yolum oldu gedər-gəlməz,*
*Ağla, mənim Süsənbərim,*
*Gözü yaşlı sitəmkərim!*

*Fərman gəldi yaman oldu,*
*Könlüm şəhri talan oldu.*
*Demə, dərdim pünhan oldu,*
*Ağla, mənim Süsənbərim,*
*Gözü yaşlı sitəmkərim!*

*Əlif qəddim döndü yaya,*
*Ömür-günüm getdi zaya.*
*Dərdim gəlməz haqqa-saya,*
*Ağla, mənim Süsənbərim,*
*Gözü yaşlı sitəmkərim!*

Bəli, söz tamam oldu. Ağ Aşıq Sərdarın fərraşları ilə öz qoydular Uruma. Günə bir mənzil, teyi mənzil, qırdılar yolun damarını. Çatdılar Uruma. Bu o vaxt idi ki, sərdarın fərraşlara verdiyi vaxt artıq tamam olhaol idi. Aşığı Sərdar Hüseynin hüzuruna apardılar. Ağ Aşıq baxdı ki, ayə, burada nə inni-çinni desən var. İlan vuran, iman quran, ipəyi, köpəyi qarılardan tutmuş, tas quran cindara kimi hamı burdadır. Cəllad da əlində ovxarlı balta qətl üçün əmrə müntəzirdir. Saz əlində aşığı görəndə hərə bir tərəfə çəkildi. Sərdar Hüseyn baxdı ki, ayə bu bir oğlandır ki, Allah xoş saatında, xoş dəqiqəsində qələmini çəkib onun xətti-xalına. Yemə-içmə, bax boy-büsatına. Allah, bir baxan deyir, qoy bir də baxım. Ürəyində dedi:

- Bəxti qara! Allah da səni mənim dərdimə dərman yazıb. Nə etmək olar, yazıya pozu yoxdur - deyiblər. Görünür, sənin də vədən bura kimi imiş.

Ağ Aşıq ədəb-ərkanla Sərdar Hüseyn və məclis əhlinə salam verib, baş əydi.

Sərdar dedi:

- Aşıq, hələlik amandasan. Sazını köynəkdən çıxar. Bir keyfimizi oyla.

"Bəçəşm" – deyib, Ağ Aşıq sazı köynəkdən çıxardı, bəmini-bəm, zilini-zil elədi. Götürdü görək ölümqabağı nə dedi. Tərəfindən biz deyək, siz şad olun:

*Ağ Aşığam, xətim-kəlamdır bu gün,*
*Cənnətül məvaya götürün məni.*
*Eldə sirr sözümü etmədim bəyan,*
*Cəlali-üqbaya yetirin məni.*

*Əlacım eyləsin on iki imam,*
*Bu fani dünyadan gedirəm nakam.*
*Gözləyir yolumu biçarə anam,*
*Qəbir əzabından ötürün məni.*

*Cəlilüşşən mələk həmdəmim ola,*
*Ol xəlili-xəlit namazım qıla.*
*Tez verin duamı, salın da yola,*
*Siz Baği-cinana götürün məni.*

Söz tamama yetişdi.Ağ Aşıq sazla dediyini, sözlə də dedi. Aşığın yanıqlı oxuması Sərdar Hüseynin canına məlhəm kimi yayıldı. Xahış etdi ki, aşıq bir mahnı da oxusun. Ağ Aşıq götürdü dübarə. Aldı görək nə dedi:

*Ömür oldu tamam, gün oldu tamam,*
*Götürün çevirin qilbəyə məni.*
*Dursun namazıma on iki imam,*
*Yetirin cənnəti-əlayə məni.*

*Xəzan əsdi, vaxtsız soldu güllərim,*
*Yetişsin imdada Xudayi-Kərim.*
*Eldə qalan nəsihətli sözlərim,*
*Qaldıracaq ərşi-əlayə məni.*

*Ellər gələr Ağ Aşığın yasına,*
*Süsənbər qərq olar qəm dəryasına.*
*Ya rəbb, qıyma onun cüt balasına,*
*Aparın fənadan üqbaya məni.*

Söz tamama yetişdi. Saray əyanları, əşrəfləri baxdılar ki, Sərdar Hüseyn keçinib. Loğman da əvvəl-əvvəl elə bildi ki, sərdar o söz...Hamı bir-birinə dəydi. Loğman sərdarın yoxladı. Gördü ki, şirin yuxudadı. Dedi:

- Ḥazạrat! Sərdarı rahat buraxın. Özü ayılmayınca onu narahat etməyin. Hamı çəkilib getdi. Ağ Aşığı da Sərdar Hüseynin Gülşən bağında qonaq otağına apardılar. Sərdar o yatan 40 gün, 40 gecə yuxudan ayılmadı. Bu 40 gün Ağ Aşıq üçün 40 ilə bərabər oldu. Canına vəsvəsə düşdü. Dağı arana, aranı dağa daşıdı. Baxdı ki, budur bir dəstə durna qatarı səf çəkib vətənə sarı. Ürəyi qubar eylədi. Sazı köynəkdən çıxardı. Zilini-zil, bəmini-bəm eylədi. Götürdü görək Urumdakı halını əhli-əyalına necə ismarladı. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Qərib-qərib ötən durna,*
*Durna, yara salam söylə.*
*Bir-birinə yetən durna,*
*Durna, yara salam söylə.*

*Sağ gedin səfər başına,*
*Yol gözləyir dost-aşına*
*Mənnən yara bir nişana,*
*Durna, yara salam söylə.*

*Göydən enər qatar-qatar,*
*Dırnaqları quma batar.*
*Gecə gedər, gündüz yatar,*
*Durna, yara salam söylə.*

*Vədə verdim, vədəm bitdi,*
*Ayım-günüm ilə yetdi.*
*Telli sazım qəmgin ötdü,*
*Durna, yara salam söylə.*

*Səf çəkərsiz düzüm-düzüm,*
*Şahpəri boynundan uzun.*
*Sizsiz mənim iki gözüm.*
*Durna, yara salam söylə.*

*Gülü əkdim, güldən oldum,*
*Yar deməkdən dildən oldum.*
*Cida düşdüm eldən oldum,*
*Durna, yara salam söylə.*

*Ağ Aşıqın məlul çağı,*
*Zindanımdı Gülşən bağı.*
*Qəsdimdədi cəllad, yağı*
*Durna, yara salam söylə.*

Söz tamam oldu. Aşıq baxdı ki, sərdarın fərraşı ona tərəf gəlir. Fərraş dedi:
- Yanşaq! Haydı sərdarın hüzuruna.

Ağ Aşıq sərdarın hüzuruna gəlib, ədəb-ərkanla salam verdi. Sərdarın əmrinə müntəzir dayandı. Sərdar Hüseyn dedi:

- Yanşaq! Loğmanlar mənim mərəzimin sağalması üşün dava-dərman tapmadılar. Elə mənim dava-dərmanım sənin sazın-sözündür. Mən harda, sən də orda olmalısan.

Nağılçılar dili yüyrək olar. Bu minvalla Ağ Aşıq sərasər 3 il Sərdar Hesey-nin qulluğunda çalıb oxudu. Amma Sərdar Hüseyn insafa gəlmədi ki, gəlmədi.

Bir bahar günü sərdar dost-aşnası ilə Gülşən bağına seyrəngaha çıxmışdı. Qulağına səs gəldi. Baxdı ki, aşıq yanıqlı-yanıqlı oxuyur:

*Başına döndüyüm, gül üzlü yarım,*
*Qoymaram həddini aşa dərdimi.*
*Rumun loğmanında çarə bulmadım,*
*Varın, deyin Qızılbaşa dərdimi.*

*Bülbül güldən ötrü yalvara xara,*
*Xun-ciyərim oldu səd həzar para.*
*Səni loğman bildim, olmadı çarə,*
*Varın, deyin yar-yoldaşa dərdimi.*

*Ağ Aşığam, vəsfə gəlməyir sözüm,*
*Heyif, gen dünyanı görməyir gözüm.*
*Bircə allah bilir, bir də mən özüm,*
*Bilmir sərdar, nə də paşa dərdimi.*

Söz tamama yetişəndə Sərdar Hüseynin ürəyi kövrəldi. Öz-özünə dedi:

- Ey dili-qafil, heç insafdan deyil ki, belə bir aşığı dustaq edəsən. Sərdar başının adamları ilə içəri daxil oldu, dedi:

- Yanşaq, məndən istək-arzunu dilə. Nə istəsən yerinə yetirərəm.

Ağ Aşıq baxdı ki, ölümün ağuşundan süyüşüb. O idi ki, sazın ustad kəlamına köklədi. Aldı görək nə dedi, biz deyək, siz şad olun:

*Dedim: könül bacar yaxşılıq eylə,*
*Həmişə əlində ixtiyar olmaz.*
*Çox da bel bağlama dünya malına,*
*Nə mala, nə mülkə etibar olmaz.*

*Yaxşı olar mərd igidin fənməli,*
*Namərd tutmaz heç kəsə dad əli.*
*Hər qul qəmbər olmaz, hər ağa Əli.*
*Hər qılınc kəsməklə zülfüqar olmaz.*

*Dəli könlüm, səndə də bu nə haldı?*
*Yenə başındakı hansı xəyaldır?*
*Birisi büdrəsə, qolundan qaldır,*
*Hər zaman dost-dosta səbəbkar olmaz?*

*Aşıq oldun hər ağrıya dözəsən,*
*Sinən üstə odlu közlə əzəsən,*
*Gündoğanla, günbatanı gəzəsən,*
*Ağ Aşıq kimi heç xirdar olmaz.*

Söz tamam oldu. Ağ Aşıq sazla dediyini sözlə də dedi. Hər yerdən alqış sədası ucaldı. Sərdar Hüseyn xəzinədarı çağırıb aşığa çoxlu ənam verməyi əmr etdi. Sərdarın əyan, əşrəfləri də Ağ Aşığa çoxlu xələt verdilər. Ertəsi günü Sərdar Hüseynin fərraşları Ağ Aşığın kəhər köhləninin gümüşü üzəngisini basdılar, aşığa Urum elində uğur dilədilər.

Bəli, əzizlərim! Sizin də görüm üzünüzə gün doğsun. Heç dar-damanda qurtardı. Urum elindən kəhər köhləninin Göyçə deyə cilovunu boşaltdı. Günə bir mənzil, teyi-mənzil qırdı yolun damarını, Ağrı dağının ətəyində atdan endi. Baxdı ki, boz qayada xınalı kəklik səkir. Ürəyinə bir neçə xanə söz gəldi. Götürdü görək aşıq xınalı kəkliyə nə dedi, biz deyək, siz şad olun:

*Baharın gülşən çağında*
*Uçar daşdan-daşa kəklik.*
*Ovçu görsə, səkər asta,*
*Sinər daşdan-daşa kəklik.*

*Məskən salar qayalarda,*
*Özü göyçək boyalarda.*
*Gözdən iraq sayalarda,*
*Çökər daşdan-daşa kəklik.*

*Süsənbərim göylər mahı,*
*Ağ Aşığın qibləgahı.*
*Əyər belim yarın ahı,*
*Bükər başdan-başa kəklik.*

Söz tamama yetişdi.

- Yolçu yolunda gərək, -deyiblər. Ağ Aşıq da üz qoydu yolun tənginə.

Nağılçılar dili mübarək, köhlən kəhər yüyrək olar-demişlər. Qırdı yolun damarını.Qoşabulağa çatanda atdan endi. Əl-üzünü yuyub sərinlədi. Baxdı ki, ey-dili qafil, bənövşələrin ətri adamı bihuş edir. Sazı köynəkdən çıxardı. Aldı görək nə dedi. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Sən baharın qonağısan,*
*Boynu buruq bənövşələr.*
*Eşq əhlilər qınağısan,*
*Boynu buruq bənövşələr.*

*Məcnun Leyli xəyalında,*
*Kərəm Əsli sorağında.*
*Qurbanının qəm bağında,*
*Boynu buruq bənövşələr.*

*Ağ Aşığın bəxti kəmdi,*
*Fələkdən bu bir sitəmdi.*
*Dərdim bil səndən betəmdi.*
*Boynu buruq bənövşələr.*

Söz tamama yetişdi. Aşıq köhlənin belinə qalxdı. Ağanı allah saxlasın deyib, şər qarışanda özünü yetirdi Kərkibaşa. Ağ Aşığın sağ-salamat qayıtması el-obada toy-bayrama çevrildi. Aşıq Urumda gördüklərindən dəm verdi çənə söhbətinə. Bir də baxdı ki, Süsənbər özünə bir zinyət verib ki, gəl məni gör, dərdimdən öl. Söz sinəsində Qoşa bulağ kimi çağladı. Götürdü görək Süsənbərə nə dedi, tərəfindən ərz eyləyək, siz şad olun:

*Leyli-nahar hüsnünə mən,*
*Həsrətəm ay ilə-ilə.*
*Şəhdi-şəkər ləbinə mən,*
*Həsrətəm ay ilə-ilə.*

*Bu yerlərdə bahar-yazdı,*
*Yaylaqları söhbət-sazdı.*
*Demə ki bu nə avazdı,*
*Həsrətəm ay ilə-ilə.*

*Qürbət oldu mənə yağı,*
*Ürəyimə çəkdi dağı.*
*Ağ Aşığın cavan çağı,*
*Həsrətəm ay ilə-ilə.*

Söz tamama yetişdi. Ağ Aşıq sazla dediyini sözlə də dedi. Kərkibaş camaatı Ağ Aşığına külfətinə gözaydınlığı verdi. Məclisdə iştirak edən piranə bir aşıq sazını götürüb zilini-zil, bəmini-bəm köklədi. Basdı sineyi-sandığa. Kərkibaşda tamamlanan bu məclisə bir duvaqqapma oxudu. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Soruşursan ərzi-halım,*
*Deyim haradan gəlirəm.*
*Satmışam əqil-kamalı,*
*Dərdin simadan gəlirəm.*
*Fikir gəzir asimanı,*
*Ərşi-əladan gəlirəm.*
*Tilsimlərin açarıyam,*
*Sirri-binadan gəlirəm.*
*Neyləyirsən xəbər alıb,*
*Sehri-səfadan gəlirəm.*

*Getmiş idim bir aləmə,*
*Tunc əridən havası var.*
*Hazırlaşıb leşkərləri,*
*Kimin ilə davası var.*
*Məqamını tam dolandım,*
*Yeddi böyük qalası var.*
*Hər qalanın qapısında,*
*On min dənə halqası var.*
*Tutmuşam mən yüklərimi,*
*Muzdu babalda gəlirəm.*

*Yetmiş mindən yetmiş minə,*
*Zərb eylədim bir hesabı.*
*Doxsan minlik sərlövhədə,*
*Yazılıbdı var kitabı.*
*Çahar altı yan-yana yaz,*
*Hesab eylə, ver cavabı.*
*Neynirsən xəbər alıb,*
*Ləldir Valehin mətahı.*
*Gəl ziyarət eylə məni,*
*Turi-Sinadan gəlirəm.*

## AĞ AŞIQ HAQQINDA QEYDLƏRİM

Azərbaycan xalqının adlı-sanlı, sinədəftər, təkrarsız aşıqlarından biri də Ağ Aşıqdır. Lakin onun tərcümeyi-halı haqqında tədqiqatçıların fikri yekdil deyil. Tədqiqatçılardan, folklorşünaslardan, şairlərdən bəziləri məsələyə böyük Azərbaycan prizmasından yox, region prizmasından baxır. Biri deyir Ağ Aşıq Şərurun Kosacan kəndində anadan olmuş, sonradan 40-41 yaşında Göyçəyə köçmüşdür. Başqa birisi deyir ki, Ağ aşıq Qazaxlıdı. Qazaxdan Naxçıvana, oradan da Göyçəyə köçmüşdür. Başqa birisi də deyir ki, Ağ Aşığı Göyçə mühitindən kənarda axtarmağa ehtiyac yoxdur.

Mənim fikrimcə bu məsələdə folklorşünas professor Mürsəl Həkimovun fikri daha inandırıcıdır.

Məsələnin tam aydınlaşması üçün mən əvvəlcə söylənən fikirləri, qəzetlərdə, kitablarda gedən məqalələrdən bəzilərini verib sonra öz yekun sözümü deyəcəyəm.

Əli Şamilovun "Sovet Naxçıvanı" qəzetində, sonra da Rafiq Odayın "Şərur folkloru" kitabında yazılır:

"Ağ Aşıq – Allahverdi kimdir? Aşıq Alının ustadı kimdir?"

"Ədəbiyyat və incəsənət" qəzetinin 28 iyun 1969-cu il tarixli nömrəsində yazılır: "XVIII əsrin axırında Göyçə mahalında doğulub 70 ilə yaxın ömür sürmüş Ağ Aşıq məşhur saz və söz ustadı Aşıq Alının müəllimi olmuşdur. Əsil adı Allahverdidir" yazan H. Arif sonrakı məqalə və çıxışlarında yazır ki, Ağ Aşıq təxəllüslü Allahverdi Kosacan kəndində doğulmuş və Göyçədə yaşamışdır. (Filologiya elmləri namizədi M. Həkimov da "Sovet Ermənistanı" qəzetinin 1981-ci il 3 sentyabr tarixli nömrəsində dərc etdirdiyi "Aşıq Alının sazlı-sözlü dünyası" məqaləsində bu fikri təkrar etmişdir). "Azərbaycan" jurnalının 1982-ci il 11-ci nömrəsində dərc olunmuş müsahibəsində isə H. Arif deyir: "Ağ Aşıq əslən Qazaxlıdır, sonra Naxçıvana köçmüş, oradan da Göyçə mahalına gəlmişdir".

Alının ustadı olmuş Allahverdi haqqında belə dolaşıq müddəalar özünə geniş yer tapmışdır. Hətta N.Məmmədova "Azərbaycan qadını" jurnalında (1981, №11) dərc etdirdiyi məqaləsində Aşıq Alının 11 ildən artıq süldüzlü Ağ Aşığa (Allahverdiyə) şagirdlik etdiyini yazır.

Bir adam neçə yerdə doğula bilər? Alının ustadı olmuş görkəmli el sənətkarı Ağ Aşıq təxəllüslü Allahverdi haralıdır? İran Azərbaycanının Urmiya gölü yaxınlığındakı keçmiş Sulduz mahalındandır, qazaxlıdır, yoxsa Kosacan (Şərur rayonu) kəndindəndir?

Mətbuatda özünə geniş yer tapmış yalnış fakt bir çox müəlliflər kimi bu sətirlərin müəllifinin də səhv fikir (bax: "Sovet Naxçıvanı" qəzeti, 1981-ci il, 18 sentyabr) söyləməsinə səbəb olmuşdur. Sonralar dəfələrlə Göyçənin və Naxçıvanın kəndlərində ağsaqqal-ağbirçəklərlə, aşıqlarla ətraflı söhbət edib material topladıq. Toplanmış materialları tutuşdurduq. Aydın oldu ki, iki eyni ad və təxəllüslü el sənətkarlarının tərcümeyi-halı eyniləşdirilmişdir.

Bu sənətkarlardan biri bizə nisbətən yaxın dövrdə yaşamış Kosacanlı Allahverdidir. Onun son beşik qızı Zülfünaz nənə hazırda Aşağı Aralıq kəndində yaşayır. Yaşı 87-ni keçib, 60-a yaxın nəvə-nəticəsi var. Zülfünaz nənənin və başqa qocaların xatırladığına görə Allahverdi 1919-1920-ci illərdə şərurlular daşnaqların zülmündən İrana qaçanda Ərəblər kəndində (Araz çayının sağ sahilində, Şahtaxtı kəndinin qarşı tərəfindədir) 80-100 yaşlalrında vəfat etmişdir.

Qızının və kəndlilərinin xatırladığına görə Allahverdinin atasının adı Baba, anasının adı Nənəqız imiş. Ailənin yeganə övladı olan Allahverdi ərköyün böyümüş, gəncliyində aşıqlığa meyl göstərmişdir. İki dəfə evlənən aşığın birinci arvadı Siyaqut kəndindən Zeynəb, ikinci arvadı isə Qərbi Azərbaycanın Əzizbəyov rayonunun Zirək (Püsyan) kəndindən Pəri olmuşdur. Zeynəbdən Abbas, Əli, Qiyas adlı oğulları, Pəridən isə Gülşən, Ərkinaz, Zülfünaz adlı qızları olmuşdur. Qışı Şərurda, yayı Dərələyəzin Əyricə yaylaqlarında keçirən aşıq bu yerlərin el şənliklərində çalıb oxuyarmış. Allahverdi Baba oğlu şer də qoşarmış.

Allahverdi Baba oğlu təxminən 50-60 yaşlarında (Zülfünaz anadan olmamışdan bir neçə il əvvəl) Kərbəlaya ziyarətə getmiş, ziyarətgahda sazını sındıraraq bir daha çalmayacağına and içmişdir. Ömrünün axırınadək əlinə saz almayan sənətkar getdikcə düzüb qoşduğu şeirləri də yaddan çıxarmışdır. Elə buna görədir ki, aşığın şeirləri doğulduğu Şərurda belə geniş yayılmamış ailə üzvlərinin də yaddaşından tez silinib getmişdir. Aşığın adını daşıyan nəvəsi 1930-cu illərdə vəfat edib.

Ağ Aşıq haqqında məlumat toplayan Göyçənin Şəfəq kənd orta məktəbinin müəllimi Z. Cəfərova görə Allahverdinin atasının adı Qara Osman, anasının adı isə Hürü imiş. H.Arif də bu fikri doğru hesab edir. Aşığın nəslinin şiyə təriqətinə mənsub olduğunu bildiyimiz halda atasının adı Qara Osman olması şübhə doğurur. XVIII əsrin əvvəlində şiyə təriqətinə mənsub bir şəxsin övladına Osman adı verməsi o qədər də inandırıcı deyildir. M.Həkimov 1982-ci ildə çap etdirdiyi "Folklordan çöl materialları toplusu üzrə (bayatılar) metodik iş" kitabında Ağ Aşığın (Allahverdi) 1754-cü ildə doğulub, 1860-cı ildə vəfat etdiyini yazır. Söylənilənə görə yüz ildən artıq ömür sürmüş, haqqında yazılı bir mənbə (qəbir daşı, sənəd və s.) qalmayan bir şəxs haqqında belə qəti hökm vermək bizcə doğru deyil.

Ağ Aşığın vətənini, təxəllüsünü aydınlaşdırmaq üçün şeirlərinə müraciət etmək daha doğru olar. Göyçədən toplanmış şeirlərdə oxuyuruq:

*Eləmi Göyçəyə mən,*
*Gözələ, göyçəyə mən.*
*Qürbətdə həsrət qaldım*
*Vətənim Göyçəyə mən.*

Və yaxud:

*Allahverdi neylər dünya malını,*
*Vəsf edər Göyçəni öz mahalını,*
*Yaxın dostlar Ağ Aşığın halını,*
*Sormaq üçün Kərkibaşa gəlibdir.*

Və yaxud:

*Əlqərəz ruzumuz oldu üç batman,*
*Növbə mənə çatcaq sındı dəyirman,*
*Yerdə qalanını apardı siçan,*
*Güldü Ağ Aşığa Göyçə mahalı.*

Bu cür nümunələrin sayını artırmaq da olar. Ağ Aşığın şeirlərində Göyçə mahalının bir çox oykonimlərinin adı çəkildiyi kimi, Kərkibaş kəndində sənətkarın adı ilə bağlı sahə, ev yeri, əşyalar və sair vardır. Şeirlərində haqsızlığı, bəy-xanların zülmünü kəskin tənqid edən aşıq kəndlərindən xeyli aralıdan axıb Göyçə gölünə tökülən çaya həsr etdiyi şeirində deyir:

*Dərya kimi çalxalanıb daşırsan,*
*Salırsan Göyçəyə qalma-qal, Gilli.*
*Bəy-xan kimi çox həddini aşırsan,*
*Vermirsən yolçuya bir macal, Gilli.*

Aşığın qəbri Kərkibaş kənd qəbirsanlığındadır. Evinin yerində isə nəticəsi Bəsdi ev tikdirib yaşayır.

Onu da qeyd edək ki, Aşıq Alının ustadı olmuş Ağ Aşığı Göyçə mühitindən kənarda axtarmağa ehtiyac yoxdur... (Bax: Əli Şamilov. "Sovet Naxçıvanı" qəzeti, Rafiq Oday. Şərur folkloru, Bakı, 2006, səh., 6-11.)

Tədqiqatçı Əli Şamilovun söylədiyi fikirlər, əsasən, inandırıcıdır. Lakin onun "Ağ Aşığı Göyçə mühitindən kənarda axtarmağa ehtiyac yoxdur" fikri ilə razılaşmaq olmaz. Çünki Ağ Aşıq 40-41 yaşında Göyçəyə getmişdir. Bu qədər müddət ərzində o, əsasən, Şərur – Dərələyəzdə aşıqlıq etmişdir. Göyçədə Aşıq sənəti yaxşı inkişaf etdiyi kimi Dərələyəzdə də bu sənət yaxşı inkişaf etmişdir. AĞ aşığı yalnız Göyçə mühiti ilə məhdudlaşdırmaq olmaz.

Professor Mürsəl Həkimov yazır: "Göyçə müdriklərinin, ağsaqqallarınnı verdikləri məlumatlara görə Ağ Aşıq yalnız Naxçıvan, Şərur, Dərələyəz, İrəvan, Göyçə, Dərəçiçək, Kəlbəcər, Laçın, Qazax, Şəmkir, Şəmsəddin, Gəncəbasarda deyil, həm də Bağdad, Bəsrə, Təbriz, Buxara, Urum ellərində də ağır-ağır toy məclisləri keçirmiş, bir çox məşhur aşıqlar ilə deyişmişdir. İrəvanda Aşıq Duraxan, Naxçıvanda və kiçik Məzrədə keşişoğlu ilə deyişmiş, hamısında da qələbə çalmışdır...

Ağa Məhəmməd şah Qacarın Azərbaycana hücumları zamanı Arazdəyəndə oba-oymaqlar talan olduğundan əhali öz doğma ocağını tərk edib dağlara tərəf pənah aparır. Ağ Aşıq da vəziyyətin ağırlığından təxminən 1794-95-ci illərdə, 40-41 yaşlarında, həyat yoldaşı Süsənbər, bacısı Ümmilbanu və oğulları Məhərrəmlə İsmayılı götürüb Göyçə mahalına pənah gətirir. Kərkibaş (İndiki Şəfəq kəndində) hazırda "şairin diki" adlandırılan yerdə sakin olur..."

*M. Həkimov*
*"Ustad aşıqlar" kitabı,*
*Bakı, "Gənclik" nəşriyyatı, 1983-cü il.*

***Əli Şamilov Ağ Aşığın yalnız Göyçənin adını çəkdiyi qoşmaları misal gətirir. Nə üçün onun Şərurla bağlı dediklərini misal gətirmir:***

*BABA YURD*

*Bu da bir cür yazı idi, yazdılar,*
*Hər kəlməmi tərs uvanda yozdular.*
*Ürəyimi qazma-qazma qazdılar,*
*Gedər oldum, salamat qal, Baba yurd.*

*Yol boyunca qələmələr əl eylər,*
*Sıldırımlar öz qoynunu yol eylər,*
*Arpaçayı aşar-daşar sel eylər,*
*Gedər oldum, salamat qal, Baba yurd.*

*Ağ Aşığam, günüm qara, neyniyim,*
*Elim, günüm düşüb dara, neyniyim,*
*Dözəmmirəm, ahu-zara, neyniyim*
*Gedər oldum, salamat qal, Baba yurd.*

*DÜNYA*

*Nə veribsən alammırsan,*
*Suçum nədi görən, dünya?*
*Gündə min cür üz göstərib,*
*Min bir dona girən dünya.*

*El-obadan cida saldın,*
*Neyləmişdim oda saldın,*
*Ev-eşiyə qada saldın,*
*Dərd üstdən dərd verən, dünya.*

*Ağ Aşığam, taleyi kəm,*
*Görməmişdim belə sitəm.*
*Qolubağlı rəiyyətəm,*
*Az gücünə güvən, dünya.*

* * *

*Əzizim, Şərilə mən,*
*Düşmüşəm şər ilə mən.*
*Sərdar, evin yıxılsın*
*Həsrətəm Şərilə mən.*

*Əzizim, buda məni,*
*Xəncər al buda məni.*
*El-obadan ayırıb*
*Saldılar oda məni.*

*Əziziyəm, qaralmaz,*
*Sevən könlü qar almaz.*
*Şəril elində qalan*
*Od-ocağım qaralmaz.*

Faktlardan göründüyü kimi Ağ Aşıq Şərili (Şəruru) baba yurd, doğma od-ocağı hesab edir. Yaşlı adamların dediyinə görə Ağ Aşığın Şərurun Kərki kəndində də qohumları olmuş və ona görə də Göyçədəki Kərkibaş kəndinə getmişdir. Belə bir rəy vardır ki, Şərurdakı Kərki kəndi ilə Göyçədəki Kərkibaş kəndi eyni soydandır.

## AŞIQ ALININ TÜRKİYƏ SƏFƏRİ

Bəli, əzizlərim! Qulluğunuza kimdən və haradan ərz eyləyim, Göyçə mahalında Qızılvəngli Kalvayı Mirzədən. Kalvayı Mirzə bir vaxtlar qonaq-qonça qəbul etməkdə, süfrə açmaqda ad-san çıxarmış, el-obada səxavət qazanmışdı. Bir vaxtlar Kalvayının da gəlirinin tozhatoz vaxtı vardı. Zaman, indi o zaman idi ki, Kalvayı Mirzənin bəxti bəd gətirmiş, var-dövləti əlindən üşələnib getmiş, yoxsulluq qılıncını üstünə çəkmişdi.

Kalvayı Mirzə naşükür adam deyildi. O, ümidini-pənahını bənövşəyi bığlı oğlu Alıya bağlamışdı. Alı qəddi-qaməti, pəhləvan cüssəli sərrast cavanlardan idi. Tay-tuşları arasında ağlı-kamalı, məlahətli səsi ilə hamıdan seçilirdi. Alı oxuyanda yolçu atının başını çəkər, rəncbər işini dayandırıb, soluğunu alardı.

Alının bülbül kimi cəh-cəhini eşidənlər, istəyirdi bir də eşitsin. Qızılvəng ağsaqqalları hey təəssüflənirdilər ki, belə qumru səsli-nəfəsli cavanı Kalvayı nahaq bir ustada şəyird vermir. Ondan gözəl el aşığı çıxar – deyirdilər.

El ağzı fal, nağılçılar dili mübarək olar. Günlərin bir günü Göyçə, Dərəçiçək, Dərələz, Çuxuryurd, Gəncəbasar, Şəmkir, Şəmsəddin, Qazax, Borçalı, Naxçıvan və Alosmanda «Ağ Aşıq» təxəllüsü ilə şan-şöhrət qazanmış Aşıq Allahverdi Qızılvəngdə toy keçirməyə gəlmişdi. O, «Aşıq Qərib – Şahsənəm» dastanının şirin yerində söhbətini dayandırıb, çay içmək istəyəndə Qızılvəng ağsaqqallarından ağzı mübarək bir piranə dilləndi:

-Ustad! Məclisin mübarək, şöhrətin şəkər! Bə bir azdan sənin közərən sinənin köyrüyünü kim basacaq? Qara torpağın üzü dönükdü. Sənin bu ləziz söhbətlərinin, dastanlarının, gözəlləmələrinin, təxmislərinin, el havalarının bir pürkamal sahibi olacaqmı?

Ağ Aşıq arif adam idi. Başa düşdü ki, dünya görmüş piranə-nurənə sözü elə-belə havayı demir. Dedi:

-Nə edim! Doğrusu, məni tapanları saz dindirir. Sazı dindirənləri isə hələlik mən tapmıram.

Ağsaqqal:

-Ustad! Axı atalar deyib ki, axtaran tapar…

Ağ Aşıq:

-Elə olmağına elədir! Amma mən ki, hələlik tapmamışam. Əgər bəxti gətirən olsa, o da mənim el-obamıza ustadlıq borcum olardı. Ağır-ağır el məclislərindən ustadlıq rəhmətim kəsilməzdi.

Sözün məqamının çatdığını görən ağsaqqal:

-Ustad! Sınaq da bir inamdır. Sizə əziyyət olmazsa, bizim Kalvayı Mirzənin oğlu Alını bir bərkə-boşa salardın. Bəlkə döşünə yatdı.

Ağ Aşıq çaydan bir qurtum içib:

-Buyursun, Alı balamız! – deyə üzünü məclisə tutdu. Məclisdəkilər Alını dürtmələyə-dürtmələyə irəli itələdilər. Ağ Aşıq Alının təhər-törünə təfərinclə baxdı. Boy-buxunu xoşuna gəldi. Ürəyində dedi: «Ey dili-qafil! Bu boy-buxunun səsi-nəfəsi də olsaydı, nə mən deyən olardı.»

Ağ Aşığın zəhmi Alını yaman basmışdı. O yaxşı bilirdi ki, Ağ Aşığın meydanına at sürmək hər aşığın işi deyil. O idi ki, pis yerdə axşamlamışdı. Öz-özünə ürəyində: «Nə olsun ki, Ağ Aşıqdır? Qorxa-qorxa cənnətə getməkdənsə, hoppana-hoppana cəhənnəmə getmək daha yaxşıdır. Bir-iki yarpaq sözdü oxuram, xoşuna gələr-gələr, gəlməz məni dara çəkməyəcəkdir ki?! –deyib bayaqdı Ağ Aşığın imran dilli-dilavər sazını «Göyçə gülü» kökün bəmini-bəm, zilini-zil elədi. Mindirdi sineyi-sandığa. Götürdü görək Alı ustadlar ustadı Ağ Aşıqdan gözəlləməni necə dedi, tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Bir maral baxışlı, tərlan cilvəli,*
*Gəlib məni gördü, güldü, qayıtdı.*
*Pünhanı göstərdi gül camalını,*
*Buxağına şəbnəm doldu, qayıtdı.*

*Mən görmüşəm gözəllərin çoxunu,*
*Belə olmaz ancaq boyu, buxunu.*
*Müjganından çəkib xədəng oxunu,*
*Yaralı sinəmi çaldı qayıtdı.*

*Gözləriynən gözlərimə sataşdı,*
*Xəstə canım eşq oduna tutuşdu.*
*Şəhrayıdan qıya baxıb ötüşdü,*
*Ağ Aşığa nəzər saldı, qayıtdı.*

Söz tamama yetişdi. Alı sazla dediyini, sözlə də dedi. Alının pəsəndə aşıq kimi sazı dilə gətirməsi, sözləri havacatla, şövqlə sərrast oxuması, zəngulələri yerli-yerində vurması, oxuyarkən boğazının açıqlığı Ağ Aşığın döyşünə yatdı, dedi:

- Şəyird! Sövdamız mübarək olsun! Amma oğul! Aşıqlıq nə pinəçilikdir, nə də danaçılıq. Əgər sən tamam-kamal el aşığı olmaq istəyirsənsə, düz onca il mənə şəyird durmalısan. Əgər səbrin çatarsa, elə bu gündən şəyirdimsən ki, şəyirdim.

Bəli, əzizlərim! Ustad dili mübarək olar. Alı elə o gündən Ağ Aşığın şəyirdi oldu. El-obanın toylarını, şanlarını birgə keçirdilər. On ildə Alı ustadından aşıqlığın sirrini tamam-kamal sinədəftər etdi.

İndi Ağ Aşıq özü məclisdə olsa da, xeyir işi aparmağı Alıya etibar edirdi. Bu ustadın şəyirdini bərkdə-boşda sınaq imtahanı idi. Gün o gün oldu ki, Alı ustadı ilə Qızılvəngdə xeyir iş keçirirdi. Ağ Aşıq üzünü məclis əhlinə tutub dedi:

- Həzarat! Düz on il bundan qabaq mən sizdən bir məclis əmanəti almışam. Bu günkü xeyir işimizi o aparacaq.

Ustadın işarəsi ilə Alı bu məclisi elə şən-şux apardı ki, hələ Qızılvəngdə ruzigarın gözü belə toy görməmişdi. Ağ Aşıq Alının şən-şux məclis aparmasından irəyi dağa döndü. Yerindən sıçrayıb sazının simini zil-bəm edib, sazını şəyirdinin sinəsinə yaxın tutdu. Götürdü Ağ Aşıq bədahətən görək nə dedi, şaigrd ona nə cəavab verdi. Biz ərz eyləyək, siz şad olun:

***Aldı Ağ Aşıq:***

*Bahar olcaq çıxaq çəmən seyrinə,*
*Bülbül tək çək çiçək qəhrin dal-dala.*
*Məcnunsansa qatlan yarın qəhrinə,*
*Leyli tək sən də çək qəhrin dal-dala.*

***Aldı Aşıq Alı:***

*Səyyadsansa, dağlar sənin, gəz dolan,*
*Alışıban yar oduna, az qalan,*
*Ovun gəlir, keç bərəndə daldalan,*
*Neştər xədənginə düzüb dal-dala.*

***Aldı Aşıq Alı:***

*İsmin üç hərfinən eylərəm bəyan,*
*Mimdi, cindi, nun yazılıb dal-dala.*
*Seyraqubla, müxənnətnən işim yox,*
*Əlif qəddin bəd yazılıb dal-dala.*

***Aldı Ağ Aşıq:***

*Gecə keçdi, dan atınca yara sən,*
*Qəza gəldi, həsrət qaldın yara sən,*
*Ya rəbb, eylə məlhəm ona, çara sən,*
*Allah, Alının da qəhrin dal-dala.*

***Aldı Ağ Aşıq:***

*Təşnə ciyər, yar əlindən yaralı,*
*Haqqı çağır, yara yetsin yar əli,*
*Siyah telə şana çəksin yar əli,*
*Çin-çin etsin o, əsmərin dal-dala.*

***Aldı Aşıq Alı:***

*Fərzənd olub gecə-gündüz dərs aldım,*
*Zəhmət çəkib, dərgahında tər saldım,*
*Dosta həlim, müxənnətə tərs oldum,*
*Divanim-cəngim düzülüb dal-dala.*

*Aldı Ağ Aşıq:*
*Ağ Aşıq, hər kəlamın bir həyatdı,*
*Şəyirdlərin nur çeşmi bir həyatdı,*
*«Divani», «Duvaqqapmanı» bir həyatdı,*
*Şükür haqqa, verdi bəhrin dal-dala.*

*Aldı Aşıq Alı:*
*Aşıq Alı, mərdi meydan içində,*
*Saz sinədə, sərtdi meydan içində,*
*Ustadım Ağ Aşıq meydan içində,*
*Süzülüb ayəsi odur, dal-dala.*

Alı məclisin duvaqqapmasını oxuyanda, Ağ Aşıq:

-Ya Allah! – deyib, Alıya bir ustad silləsi çəkdi ki, səsi Ala dağda əks-səda verdi. Uzun illərdən bəri ustadının silləsini gözləyən Alı Ağ Aşığın mübarək əllərini öpdü. Sazının simlərini «Haqq qapısı» üzərində zilə çəkdi. Götürdü görək necə dedi, tərəfindən biz deyək, siz xoşbəxt olun:

*Mən bimaram, ustam təbib gözlər məlhəm, çara məni,*
*Onsuz firavan dolansam, görsün günü qara məni.*
*Çatdırıbdı qüdrətiylə, hazır bəhrə-bara məni.*
*Mehrin məndən kəssə bir an, dağda-daşda ara məni,*
*Xidmətində zay olanda, atın aşkar nara məni.*
*Əbəs kamil aşıq deyə, göndərin şikara məni.*

*Əzəlindən ata bilib, sığınmışam kölgəsinə,*
*Can evində canım oldu, meylim qonmaz özgəsinə.*
*Fərzənd üçün istirahət, əsla olmaz özgə sinə,*
*Kənar olsam gözlərindən, inanmaram dözməsinə,*
*Tənha güzar etsəm yana, qovlar eldən dara məni.*

*Düşünürəm, anlamıram, əbəs deyir kamil mənə,*
*Ehtiyacım qayğısında, hər gün mənə, hər il mənə,*
*Sayə salmasa üstümə, deyin əsil zəlil mənə,*
*Həqiqəti söyləməyə, öyrədibdi o dil mənə,*
*Cida düşüb xanəsindən eyləyibdi mənzil mənə,*
*İran hara, aşinəm yox, yollayır gör hara məni.*

*Mən sızqayam, ümman odu, dərya odu, damla mənəm,*
*Göy üzündə əbri odu, mən zirvədə bir az çənəm.*
*Bir sözünə cavabım yox, hikmətlərdə dola sinəm,*
*Ağa qara desə belə, imkanım yox əsla dinəm,*
*Həm üzünə asi olsam, olum qəlbi para məni.*

*Səxavətdə, kəramətdə, o şahım, mən gəda oldum,*
*Hüzurunda lelyi-nahar, yol ərkana əda oldum,*
*Yolunda peşkəşdi sərim, bəlkə eldən qada oldum,*
*Ruhum qalar dərgahında, bəlkə eldən cida oldum,*
*İnadından dönən deyil, sövq eyləyir kara məni.*

*Mərd gəldi, mərdanə gedər, elmin ənasir ustadı,*
*Şöhrəti aləm kimidi, hər yanı dolanır adı.*
*Əsil islam fərzəndidi, elin sevər, sevməz yadı,*
*Hər elimdən halı oldu, aramaqdan dayanmadı,*
*Saysız hikmət sahibidi, asini bəşər sanmadı.*
*Xof etmərəm rəqibimdən, qoymaz düşəm dara məni.*

*İlahi, sən ustadımı, kənar eylə bəd halətdən,*
*Göstər sirat müstəqimi, uzaq olsun zəlalətdən.*
*Aman versin ömür mənə, bəlkə çıxam xəcalətdən,*
*Arif-aqil bir kimsədi, usanmadı dəlalətdən,*
*Sərraf gözü nəm görməsin, kənar olsun məlalətdən,*
*Alıyam, şıx ümmətiyəm, görməsin biçara məni.*

Məclis əhli bir ağızdan dedi:

-Toyumuz kimi, adı da mübarək, oğul!

Bəli, əzizlərim Ağ Aşığın şəyirdi Aşıq Alı deyilən el-obanın dillər əzbəri oldu. Çal-çağırı mahaldan-mahala yayıldı. Kalvayı Mirzə oğlunun səs-sorağından qürrələndi. Arvadına dedi:

-Ay Fatma! Sən bilirsən ki, atanın övlada üç mübarək borcu var: birinci odur ki, ata gərək oğlunu əhli-müsəlman etmək üçün onu sünnət etməlidir, ikincisi odur ki, ata oğlunu bir tikə çörək üçün sənət sahibi etməlidir, üçüncüsü odur ki, oğlunu ev edib əl-ayağını başına yığmalıdır. Şükür Allahın birliyinə! Oğlumuz murazının ikisinə çatıb. Bizim də başımız gora titrəyir. Hesabımda onun evlənmək vaxtı çatıbdır. Sümüyüm də kövrəkləşib, gəlin buyurub-çağırmaq, nəvə oynatmaq yamanca könlümə düşüb. Sən nə deyirsən?

-Nə deyim, ay pir olmuş! Lap ürəyimdən dedin. Arzun mübarək olsun, kişi! Deyirəm hər necə olsa da, ömür-günümün yaraşığı Alının da bir ağzını arayaq. Bəlkə elə gözaltısı var. Kimdən əskikdir? Su suaatında, bulaq başında, əryən qızların dilindən düşmür. Şükür Allahın verdiyi payına, kor deyil, keçəl deyil. Boyuna baxan deyir, bir də baxım.

-Düz deyirsən, ay Fatma! Sən elə bu axşam oğlunun ağzını ara, kimin qapısına getsək yox deməzlər.

Bəli! Xeyir işə mübarək deyərlər. Fatma arvad elə axşam Alını yanında əyləşdirdi. Boy-buxununu oxşayıb dedi:

-A malım-payım! Biz kimdən əskiyik. Könlümə gəlin buyurub-çağırmaq düşüb. Sən nə deyirsən?

Aşıq Alı arifdən dərs almışdı. Danışırdı ki, anası hansı simə ilmə çalır. Dilli-dilavər sazı divardan endirdi, kökünü zil-bəm edib, basdı sineyi-sandığa. Dedi:

-Mehriban anam! Dil-cavabımı sözlə desəm, dilim ağzımda kösöy olar. İcazə ver sazla deyim. Bəlkə bir şey anladın. Aldı Aşq Alı:

*Əldən alıb ixtiyarım,*
*Bir boyu bəstə öldürür.*
*Həsrətini çəkə-çəkə,*
*Düşmüşəm xəstə, öldürür.*

*Kərəməm ocağa düşdüm,*
*Fərhad olub dağa düşdüm,*
*Sənanam sorağa düşdüm,*
*Məcnun həvəsdə öldürür.*

*Əsli-Leyli odu düzü,*
*Buxaq büllur, ayna üzü,*
*Lalə yanaq, şəhla gözü,*
*Yoxdu bir kəsdə, öldürür.*

*Alı qəfil düşdü oda,*
*Leyli-nahar düşdü yada,*
*Can alandı mələkzada,*
*Durubdu qəsdə öldürür.*

Fatma arvad dedi:

-Oğul! Başına dönüm, vallah sənin oxuduğun qarğa dilindən bir şey başa düşmədim. O sevgilinin bəyəm adı yoxdurmu?

Aşıq Alı baxdı ki, anası mətləbi almadı. O idi ki, sazın kökünü dəyişdi. Götürdü görək istəklisinin ismi-pünhanlığını anasına necə isnad verdi. Biz ərz eyləyək, siz şad olun:

*Həbibimdi, təbibimdi Bəsdi yar,*
*Uydu könlüm o dildara dolandı.*
*Vəfasız dünyanın vəfalı yarı,*
*Əmr eylədi, düz ilqara dolandı.*

*Tay olmaz sədrinə bir qeyri sinə,*
*Qoymadı qoynuna bir qeyri sinə,*
*Yarım meyl etmədi bir qeyrisinə,*
*Gəldi neçə zülfü qara dolandı.*

*Yazı haqdan oldu, o doldu yandı,*
*Hərdən əbrü təki o doldu yandı,*
*Sevda aləmində od oldu yandı,*
*Alı səməndərdi, nara dolandı.*

Söz tamama yetişdi. Alı sazla dediyini, sözlə də dedi. Bəli, əzizlərim! Fatma arvad oğlunun mileyimindən anladı ki, o kəndin varlı-hallı bəyi Niftalının qızı Bəsdi xanımı gözaltılayıb. Hətta deyəsən, aralarında əhdi-peyman da bağlayıblar. Axşam çənə söhbətində Kalvayı Mirzə soruşdu:

- Arvad! Bir şey öyrənə bildinmi?

- Bəli, ay kişi! Ömür-gününə sadağa olduğum, Niftalı bəyin qızı Bəsdi xanımı gözaltılayıb. Aralarında əhdi-peymanları da var. Kalvayı bəyin adın eşidəndə pozuldu, elə bil qaş-qabağını boran döydü. İşi belə görən arvadı:

- Bıy başıma xeyir, a kişi! Sənə nə oldu, üz-gözün niyə turşudu?

- Eh, ay Fatma! Belə qanıram ki, oğlumuz deyəsən ayağını yorğanına görə uzatmayıb. Bəy hara, biz hara, bəyinki dəmdən-dəmə, bizimki isə bəmdən-bəmədir. Qorxuram bəylə sevdamız baş tutmasın.

- Qulaqlara qurğuşun, ay kişi! Ağzını xeyirliyə açsana. «Qız qapısı, şah qapısıdır», sən bəyin ağzını ara, oğlumun gözünün ilk ovunun qapısında nəs danışma. Saqqalı sarı, bir çənə tərpət. Bəlkə Allahınköməkliyi ilə bəy «hə» dedi.

- Nə deyirəm, ay arvad! Qoy sən deyən olsun. Saqqal tərpət deyirsən, tərpədim.

Kalvayı Mirzə elə o axşam Niftalı bəyin evinə getdi. Niftalı bəy Kalvayının el-obada sözü ötən ağsaqqal olduğunu bilirdi. Kalvayının şər qarışanda beyvaxt onun qapısına elə-belə gəlmədiyini duydu. Öz-özünə dedi: «Adamdı, bəlkə bir şeyə ehtiyacı var. Qonşuluqda əlini tutmaq lazımdır.» Bəy Kalvayını çaya dəvət etdi. Söz-söhbət xeyli uzandı. Bəsdi xanım süfrədəki çayı təzələyəndə Kalvayı mətləbə keçdi:

- Bəy, şükür elimizin-günümüzün adətinə! Deyirəm, tanrının buyurmağı, peyğəmbərin sağırmağı ilə nökəriyin xeyir işinin vaxtı çatıb. Məsləhətdirsə, bir çənə tərpədərik.

- Nə olar, Kalvayı! Alı Göyçədə adlı-sanlı cavandır. Oba-oymaqlarda hamı onun mərifətindən danışır. Kimə deyirsən elçi gedək. Xeyir işdən mizaq etmək Allahın yanında üzüqaralıqdır. Alı kimi oğulun elçiliyi uzağlığıdır. Ona elçi getməyə mən can-başla hazır.

Kalvayı baxdı ki, bəy mətləbdən çox uzaqlaşdı. Dedi:

- Bəy, ev-eşiyin mübarək! Deyəsən mətləbimi anşırmadın. Deyirəm ki, bizim bülbül sizin gülüstandakı qızıl gülün xiffətini çəkir. Sən nə deyirsən?..

Kalvayının gəlişinin mətləbi indi bəyə çatdı. Niftalı bəy pərt olsa da üzə vurmadı. Arvadının səsinə bayıra çıxdı. Kalvayının mətləbini arvadına dedi. Bəyin arvadı qızının Alıda gözü olduğunu bildirdi. Amma bəyə açıb-ağartmaqdan qorxurdu.

Dedi:

- Bəy! Qanını qaraltma. «Qız ağacı, qoz ağacı, hərə bir salba atar, kimin baxtına düşdü-düşdü.» Sən Kalvayının ağzını bir qədər dağa-daşa sal, kasıb olsa da, el arasında ötən adamdır. Xatirini sındırma. Onsuz da sən deyən sövdanın altına girə bilməz. Qoy günahı özündə görsün.

- Düz deyirsən, ay arvad! Nahaq yerə deməyiblər ki, ağıl-ağıldan süyüşüklü olar.

Niftalı bəy içəri girəndə, özünü elə göstərdi ki, guya Kalvayıya etiraz etmir.

- Kalvayı Mirzə! Sən dünya görmüş adamsan. Bilirsən ki, bəylə qohum olanın darvazası gen gərək. Mənim də özümə görə Göyçə, Dərəçiçək, Dərələz, İrəvan çuxurunda adım-sanım var. Mən hələ Qazax, Şəmsəddin, Şəmkir, Qarabağ, Naxçıvan, Borçalı kimi oba-oymaqları demirəm. Oymaqlardan atlananlar Qızıl vəngdə mənim qapıma düşəcək. Odur ki, aramızdakı sövdamızın baş tutması üçün toyun xərcini bir kağıza yazım. Bax, əgər gücün çatarsa, nə deyirəm. Allah qohumluğumuzu mübarək eyləsin. Yox, əgər gücün çatmazsa, bir daş altına, bir daş üstünə. Nə dil bilsin, nə dodaq – deyib bəy toy xərcini kağıza yazdı. Kağız büküb verdi Kalvayı Mirzəyə.

Kalvayı Mirzə:

- Gecən xeyrə qalsın, a bəy! – deyib evinə qayıtdı. Oğlu Alıya:

- Ə, a bala! O çırağı bir bəri gətir. Bəyin kağızını oxu görüm, nə yazıb? Mənim onun sözündən – söhbətindən nə isə sümüyüm bir şey sancmadı – dedi.

Alı Niftalı bəyin kağızını çırağın şöləsində oxuyub, məzmunu ilə tanış oldu. Oğlunun susduğunu görən Kalvayı hövsələdən çıxdı.

- Ayə, a bala! Suruğvat deyirsən ki, ə bir dillənsənə görək orada nə yazılıb?

Alı dedi:

- Atayi-mehriban! Sən bilirsən ki, belə hallarda aşıqlar dil-cavabını sazla deyər, sözlə yox. İcazə ver, gör bəy səndən qohumluq üçün nə istəyir, -deyib divardan sazı endirdi. Bəmini-bəm, zilini-zil elədi. Götürdü görək bəyin Kalvayı ilə qohumluq sövdasını sazla necə bəyan elədi. Tərəfindən ərz eləyək, siz şad olun:

*Elçi bəylər, xətrinizə dəyməsin,*
*Bu sövdada elin işin istərəm.*
*Əbrüdən, ipəkdən, atlas, xaradan,*
*Tirmələrdən, şaldan başın istərəm.*

*İki dəvə gətir, yanında köşək,*
*Ağ köşək yunundan tutulsun döşək,*
*Damazlıq gətirin əlli beş şişək,*
*Əlli də erkəyin leşin istərəm.*

*Gətirin başlığa üççə min manat,*
*Cüt qızıl bilərzik, bir qızıl saat,*
*«Hə» sözün dəyəri iki köhlən at,*
*Almazdan üzüyün qaşın istərəm.*

*Put yarım çay gətir, on put da şəkər,*
*Yerə baxırsınız, çox dedim məjər?*
*Bu toyun müddəti qırxca gün çəkər,*
*Qısır inəklərdən beşin istərəm.*

*Şıx Alı yazığı bu sursat əyi,*
*Çağırram məclisə rəyyəti, bəyi,*
*On beş pud yağınan, qırx beş pud düyü,*
*El yeməyə əppək, aşın istərəm.*

Söz tamama yetişdi. Alı sazla dediyi kimi, sözlə də dedi. Kalvayı Mirzə baxdı ki, bu xına o xınadan deyil, dedi:

- Ə, oğul! Mənim bir ayağım bu dünyada, bir ayağım o dünyadadır. Sinnimin bu ixtiyar çağında dizimi Niftalı bəyin qarşısında niyə titrədirsən? Nə qədər ki, söz-sov el-obaya yayılmayıb, gəl daşı ətəyindən tök. El məsəli var: «Atıcı atar, tayını tapar.» Oğul, deyəsən sən tayını tapmayıbsan. Bəyin istəyi cənnəti-məkan şah oğlu Şah Abbasın bir ildə el-obadan aldığı bac-xəracdır. Onun iştəhası Həzrət Süleymanın tamahından da itidir. Elə mən bu günü qabaqcadan gözləyirdim.

Alı baxdı ki, atası bərk sarsılıb. Götürdü sazı, zilini-zil, bəmini-bəm elədi. Aldı görək atasına bu işdən geri durmamaq üçün necə yalvardı. Biz deyək, siz şad olun:

*Eylə mərhəmətin, çatım murada,*
*Şad olar mətləbin alan, atacan!*
*Bülbüləm gülümsüz fəğan eylərəm,*
*Aman istər darda qalan, atacan!*

*Tənha övladınam, tərk etmə məni,*
*Rüsxətindən ollam, dövlətdən qəni,*
*Kərəm et, and verrəm mövlaya səni,*
*Yaşamaz Bəstisiz balan, atacan!*

*Peymana dayandım, ağardı saçım,*
*Mübtəla Cünunam, səhraya qaçım?*
*Alıyam, rəhm eylə var ehtiyacım,*
*Qoyma məni dili-nalən, atacan!*

Söz tamama yetişdi. Alı baxdı ki, atası qəm dəryasına qərq olub. Heç halı özündə deyil. Anası isə əl eyləyib gözünə. Ürəyi qövr elədi. Üzünü tutdu anasına. Götürdü görək anasına dərdiməndini necə dedi. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Gözəlliyi bəndəsinə xaliqim,*
*Verməyəydi, nə verəcəm, anacan!*
*Bir Bəsdiyə bəxş olunub qüdrətdən,*
*Onsuz qəmdi gündüz-gecəm, anacan!*

*Xilqət xəlq olundu, tanrıya bağlı,*
*Müşkü kəsər ömrü qaralı-ağlı,*
*Ömür yeydi, yaşamaqdan nasağlı,*
*Nə qismətdi ey görəcəm, anacan!*

*Huridi-mələkdi, heyif dili səng,*
*Saldı can evimə aram, olmaz, cəng,*
*Belə dilbər görməyibdi nə firəng,*
*Nə rumidir, nə də əcəm, anacan!*

*Eşq dağına vəfa ilə dırmandım,*
*İlqarım pozulmaz, sadiqdi andım,*
*İbtidadan peymana mərd yarandım,*
*Haqq-nahaqdan dürüst seçəm, anacan!*

*Alıyam, saxlaram adı-sanımı,*
*Heyif yoxdu, cananımın yanımı,*
*Cismim qaldı, yar apardı canımı,*
*Əzrailə nə verəcəm, anacan?*

Söz tamama yetişdi. Alı sazla dediyini, sözlə də dedi. Alının belə fağır-fağır yanıqlı oxuması qaratikan gözü olub Fatma arvadın bağrının başına yapışdı. Gözü nəmli, ürəyi qəmli üzünü tutdu Kalvayı Mirzəyə, dedi:

- Ay kişi! Nə tez əlinin arxasını yerə qoydun. Mən səni belə bilməzdim. Allah bəndəsini dar-damanda qoymaz, bir qapı açar. Deyirəm, hələlik bəlgə üçün mənim gəlinlik üzüyümü, tənələrimi, bilərziyimi, bir də boyunbağımı apar. Ad elə. Sonrası düzələr. Çalış toyun vaxtını gələn payızdan sonraya sal. Bir ilə qədər də Allah kərimdir. Alı da el-oba toylarından əlinə bir şey salar. El-obanın xeyir işləri bərəkətli olar, ay kişi!

Aşıq Alı:

- Ateyi-mehriban! Anam düz deyir. Ustadlar ustadı Aşıq Qəribin də taleyi elə mənimki kimi olub. Amma dilli-dilavər saz onu dar-damanda qoymadı. İnşallah məni də dar-damanda qoymaz. Bir ilə bəyin istədiklərini gətirərəm. Görürəm, bəyin sevdasından çox pozulubsan. Eyib etməz, hər şey düzələr. Amma sinəmə bir neçə yarpaq söz gəlib. İstəyirəm ki, mən səfərdən gələnə qədər o sözlər təsəlli olsun, - deyib, bayaqdı dilli-dilavər sazını köynəkdən çıxarıb öpdü. Mindirdi sineyi-sandığa. Götürdü görək Aşıq Alı imran dilli sazını, nə dedi, biz deyək, siz şad olun:

*Duhasıynan, nidasıynan, səsiynən,*
*Elin hüzurunda dayandı sazım!*
*Nə naqisdi, nə qovğakar, nə zalım,*
*Nuhi-nəbiyyidən əyandı sazım!*

*Elinən şad oldu, elnən ağladı,*
*Peyman etdi, ömrün elə bağladı,*
*İşi nə şərinən, nə nahaqladı,*
*Ellə yatdı, ellə oyandı sazım!*

*Şan-şöhrəti daim eldə qalandı,*
*Düşdü el izinə, ellə yollandı.*
*Odlar keçdi, dağlar aşdı, dolandı,*
*Nə çovğuna düşdü, nə yandı sazım!*

*Necə dil söyləyən bu para taxta,*
*Billah, qüdrətini sevibdi haqda,*
*Dolandı Türküstan, İran, İraqda,*
*Dedilər hikmətdə boyandı sazım!*

*Ruha qida verir, məclisə növraq,*
*Keçmişdən, keçəndən verəndi soraq,*
*Alının əlində görmədi fəraq,*
*Şöhrətin aləmə yayandı sazım!*

Bəli, söz tamama yetişdi. Aşıq Alı sazla dediyini, sözlə də dedi. Kalvayı Mirzənin külfəti hərə öz arzusu ilə yorğan-döşəkdə səhəri açdılar.

Görüm üzünüzə neçə-neçə xeyirli sabahlar açılsın. Kalvayı Mirzə Qızılvəngin sözüötən ağsaqqalları ilə Niftalı bəyin qapısına getdi. Bəlgə üçün apardığı şeyləri öpüb, Allah mübarək eləsin – deyə Niftalı bəyin qarşısına qoydu.

Niftalı bəy dedi:

- Kalvayı! Bəlgən mübarəkdir. Amma sözümüz də sözdür. Səndən nə istəmişəm, hamısını toyda alacağam. Bu ağsaqqalların yanında şərti şumda kəsirəm ki, sonra xırmanda yabalaşmayaq. Elə olmasın ki, sonra pozuluşaq, el qınağı olaq.

Kalvayı Mirzə:

- Bəy, Mən, Qızılvəngin sözüötən ağsaqqallarını heç vaxt rişxəndə qoymamışam. Bir iş tutanda yüz ölçüb, bir biçmişəm. Hələ ki, papağım öz başımdadır. Nə istəmisən onun hamısı inşallah toy günü qapındadır. Mən də çiy adam deyiləm, -dedi.

Niftalı bəyin işarəsi ilə süfrəyə şirin çay gəldi. Qızılvəng ağsaqqalları:

-Xeyir işimiz mübarək olsun! – deyib, Alı ilə Bəsdi xanımın bəlgəliyinin şirinliyini nuş etdilər. Toy işini isə gələn payızdan sonraya vədələşdilər.

Bəli, əzizlərim! Sizin də subaylarınızın xeyir işlərini görək.

Aşıq Alı dan yeri söküləndə, ya mədəd səndən! -deyib üz tutdu İrəvana. Günə bir mənzil, qırdı yolun damarını. Ertəsi gün özünü yetirdi İrəvanda Mirzəli xanın draxtınına. Cavan aşığın əlində saz içəri girdiyini görən bəynişan oğlanlardan biri:

-Aşıq qardaş! Sazın dəmdədi, ya qəmdə?

Aşıq Alı:

-Bəynişan oğlanlar üçün dəmdədi – dedi.

-Adın nədir, aşıq qardaş?

-Aşıq Alı.

-Aşıq qardaş, Bizim üçün bir «İravan çuxuru» oxuyarsanmı? – dedilər.

Aşıq Alı sazı köynəkdən çıxaranda, bəynişan oğlanlardan birisi sazın sinəsinə üç tümən qoydu:

-Aşıq qardaş! Hələlik siftəndir, -dedi.

Aşıq Alı arifdən dərs almışdı. «Məclisiniz mübarək», deyib, götürdü görək bəynişan oğlanların məclisini necə güllədirdi, tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Elə müəmmadır aşıq sənəti,*
*Bir isimdə dörd hikməti dərindi.*
*Şairdir, məzəkar, sazan, xoşavaz,*
*Fəhm eylə cəmini bəhrə dər indi.*

*Huşyar ol, alim var hikmətli söylər,*
*Elmi dayaz aşıq naçardı, neylər?*
*Məclis kudrət çəkər, qəlbini teylər,*
*Bunu dərk etməzin əqli sərindi.*

*Bu məqamda əhsənlər var, minnət var,*
*Bir dərgahdı, içrə zülmət, cənnət var.*
*Firudin var, siludin var, sünnət var,*
*Al mətahın taybataydı dər indi.*

*Yetmiş iki dildi bir para taxta,*
*O ustad əlində dolanmaz saxta.*
*Gah başda dolandır, gah da ayaqda,*
*Eylə qəm evini dərbədər indi.*

*Aşıq oldun aqillərdən elm ara,*
*Arif məclisində gələrsən kara.*
*Həm hikmət söylənsə tapmasan çara,*
*Çuğlayar qəlbini dərdi-sər indi.*

*Adəmdən Xatəmə sazda dəlil var,*
*Anlamasan tərk et, meydan etmə dar.*
*Alı nəsihəti qalsın yadigar,*
*Xəbərdar olunsun, bu xəbər indi.*

Söz tamama yetişdi. Aşıq Alı sazla dediyini, sözlə də dedi. Bəynişan oğlanlar gördülər ki, əyə, bu cavan aşığın ləfzi o qədər şirin, səs o qədər məlahətlidir ki, bu boğaz, bu nəfəs nə aşıq Duraxanda, nə də Aşıq Səməddə yoxdur.

«Yerlər qulaqlı olar» demişlər. Aşıq Alının çalıb-çağırması ildırım süräti ilə İrəvana yayıldı. Mirzalı xanın draxtını o gündən sonra ziyarətgaha çevrildi. Draxtında iynə salsan yerə düşməzdi. Mirzalı xanın sümüyü şırtıq çalırdı. Aşıq Alı isə məclisə bülənd olmuşdu. Çal-çağırdan həftələrin ayların birbirini necə əvəz etdiyindən Aşıq Alının xəbəri yox idi.

Bir gün Aşıq Alı draxtında oxuyarkən, bir nəfər gəlib Aşığın sazının sinəsinə nəmər qoydu:

-Məclisin mübarək, aşıq! –dedi. Sonra da üzünü məclisə tutub:

-Həzarat! Xeyir işim var. İstərdim ki, Aşıq Alı bu gecə mübarək işimizi yola versin. Üzr məndən, rüsxət sizdən.

Məclis əhli:

-Xeyir işin mübarək, ay qardaş! İzindir, -dedilər.

Aşıq Alı sazın simini silib köynəyinə qoydu. Toy sahibi ilə xeyir işə getdi.

İndi sizə haradan, kimdən xəbər verim. Xəbəri sizə İrəvan çuxurunda sazı-sözü ilə ad-san qazanmış Aşıq Duraxandan verim. Aşıq Duraxan toya məclis aparan aşıq kimi dəvət olmadığı üçün bıçaq vursan qanı çıxmazdı. O idi ki, əvvəl-əvvəl istədi toya getməsin. Sonra başa düşdü ki, yaxşı deməzlər. O biri tərəfdən də Aşıq Duraxan Rumlu Cəfər paşanın oğlunun toy işi üçün sifariş almışdı. Öz-özünə dedi: «Gedim görüm bu necə aşıqdır, əyər qabında bir şey varsa, elə özümlə Ruma apararam. «Şəyirdimdir! Deyərəm. Bəlkə Rumlu Aşıq Yığvalın yığvalını elə bu aşıq döndərdi», deyib toy məclisinə

gəldi. Aşıq Duraxan toy sahibinin məclisini mübarək eyləyib, aşığa nəmər verdi. Keçib məclisin baş tərəfində əyləşdi. Aşıq Duraxan gördü ki, cavan aşığın ədəb-ərkanına, məclis aparmasına söz ola bilməz. Aşıq Alı arif adam idi. Gözü məclisə gələn adamdan su içmədi. Sazın kökünü dəyişdi. İmran dilli-dilavər sazın simlərinə Beçə pərdədə tərsə-avand təzənə çəkdi. Aldı görək qonağın gəlişinə nə dedi, tərəfindən ərz eyləyək, siz şad olun:

*Nida çəkib çağıraram imdada,*
*Reyləri, dalları heylərəm asan.*
*Hikmət bazarının sərrafı mənəm,*
*Gözümlə bəd qəlbi teylərəm asan.*

*Beş surə «Zəbur»dan, üçü «Tövrat»dan,*
*Yeddi surə haqdı «İncil» xurfatdan,*
*Altı min altı yüz əsil nicatdan,*
*Ayəni «Quran»dan söylərəm asan.*

*Ah, ərzimi haqla keçər isbata,*
*Üçü-üçlə açdı əsil bixəta,*
*Qoymaram qisasın mən qiyamata,*
*Bir qana yüz qanı eylərəm asan.*

Aşıq Duraxan, cavan aşığın ədəb-ərkanına, məclis aparmasına ürəyində sevindi. «Mər axdardığımı tapmışam», – dedi. Məclis dağılışanda Aşıq Duraxan Aşıq Alıya yaxınlaşdı, dedi:

-Oğlum! Aşıqsan, ya şəyird?

Aşıq Alı söz sərrafı idi. Başa düşdü ki, Aşıq Duraxan nə demək istəyir. O idi ki:

-Ustad Aşıq olmasam da, 10 il Ağ Aşıqdan dərs almışam- dedi.

Ağ Aşığın adını eşidən Aşıq Duraxan anladı ki, elə kamil ustadın yanından əldəqayırma aşıq çıxmaz. Amma özünü o yerə qoymadı. Dedi:

-Oğlum, görürəm, aşıqlıq elmindən az-maz xəbərin var. Amma bir üç il də mənə şəyirdlik eləsən tamam-kamal aşıq olarsan. Üç ildə el-oba toy-nişanlarından yığılan nəmərin hər yüz manatının beşini sənə verərəm.

Aşıq Duraxanın belə yekəxana danışması Alını təşvişə saldı. Ürəyində «Ayə, görəsən bu necə söz dəryasıdır ki, ustadın öyrətdiyi ustadlar içərisində ondan bir kəlmə də olsun mənə öyrətməyib. Ağ Aşıqdan sonra hələ bir üç il də buna qulluq edim. Özü də yığılan nəmərin yüz manatından beş manatını alım». Ustadı Ağ Aşığı yamanladı. Aşıq Duraxan baxdı ki, sözü Aşıq Alını yamanca tutub. Dedi:

-Oğul! Yüzün yarısı əllidir. Mən bir söz idi ərz elədim. Şəyirdim olsan da, olmasan da fərqi yoxdur. Amma bu gecə qonağımsan.

Aşıq Alı Duraxanın «qonağımsan» sözünə etiraz etmədi.

Onları Aşıq Duraxanın həyətində cavan bir oğlan qarşıladı. Aşıq Duraxan dedi:

-Tanış ol, şəyirdim Aşıq Səməddir.

Aşıq Səməd, Aşıq Duraxan evə keçəndə imkan tapıb dedi:

-Ayə, yığvalı dönmüş! Sən dəmi Aşıq Duraxanın toruna düşüb, qurbanı oldun? Ay yazıq, bu çökəkdə Aşıq Duraxanı bir tapan sevinər, bir də ondan canını qurtaran.

Aşıq Alı dedi:

-Qardaş! Nə qurban, nə toy? Aşıq Duraxana bu gecəlik qonağam, İnşallah, sabah çıxıb gedəcəm.

Aşıq Səməd dedi:

-Biçarə! Aşıq Duraxan elə məni də məclisdən bir gecəlik qonaq gətirmişdi. Budur, üç ilim tamam olmağa nə az, nə çox düz yeddicə ayım qalıb. İnşallah! Sən də üç il məclislərdən yığılan nəmərin hər yüz manatı üçün soğan qabığı kimi soyulanda Aşıq Duraxanın kimliyini bilərsən. «Şəyirdləri» söhbətindən Aşıq Duraxanın səsi ayırdı. Ortalığa yenicə çay-çörək gəlmişdi ki, darvaza döyüldü. İki nəfər türk yasavulu iki at yedəyində həyətə girdilər. Yasavullardan biri Aşıq Duraxana bir müşəmbəli namə verdi. Aşıq Duraxan naməni açıb oxudu. Sonra da öpüb gözünün üstünə qoydu. «Bəçeşm», deyib, yasavullara əyləşməyi təklif etdi. Üzünü Aşıq Alıya tutub dedi:

-Oğlum, Alı! Bəxt ulduzumuz parlayıb, qədəmlərin mübarək imiş. Namə Rumlu Cəfər paşadandır. Yazıb ki, «Başını İravanda islat, Rumda qırxdır». İnşallah! Paşanın oğul toyundan nəmərimiz də ürəyincə olar. Toydan yığılan hər yüz manatın onu sənindir.

Aşıq Alı dedi:

-Ustad! Elə mən özüm də toy tədarükündəyəm. Vədimə naxələf çıxa bilmərəm. Elə buralarda da nəmərim babatdır. Mənim Rumda nə itiyim var?

Aşıq Alının söhbətini anlayan türk yasavullarından biri dedi:

-Gedə, pəzəvəngin birisi! Nasıl Cəfər paşanın dügününə varmıyorsan? Gavurun biri gavur! Ben səne yüz zopa vuruyorum, onda sən pek iyi gediyorsın.

Aşıq Alı baxdı ki, pis yerdə axşamlayıb. Yasavullar ölüb-öldürməkdən danışır. Ürəyi qabarlandı dedi:

-Əfəndilərim! Onda gərək mən karvansaraya gedib həmyerlilərimdən dil-cavab göndərəm ki, evdə nigaran olmasınlar.

Yasavullar Aşıq Alı ilə razılaşdılar. Aşıq Alı karvansaraya yollanarkən Aşıq Duraxan yasavullardan birinə işarə etdi ki, onu gözdən qoymasınlar. Yasavul da Aşıq Alı ilə karvansaraya getdi. Alı kəndlilərindən bir nəfər tapıb İrəvanda yığılan nəmərləri ona verdi. Xahiş etdi ki, ata-anasına çatdırsın. Sonra da bir namə yazıb verdi ki, Niftalı bəyin qızı Bəsdi xanıma çatdırarsan. Aşıq Alı həmyerlisi ilə halal-hümmət edəndə qəhər onu boğdu. Sazını köynəkdən çıxarıb, zilini-zil, bəmini-bəm elədi. Götürdü görək dərdi-halını həmyerlisinə Göyçədə nişanlısı Bəsdi xanıma necə ismarladı, tərəfindən biz deyək, siz şad olun:

*Qasid, gedər olsan bizim ellərə,*
*Ərzi-halım o canana deginən.*
*Namərd olsan ilqarından dönəni,*
*Göz tikməsin başqa yana deginən.*

*Uymasın sevdiyim nakəs dillərə,*
*Gələrəm fəsilə qalmam illərə,*
*Rahi-rəvan oldum qürbət ellərə,*
*Yolum düşdü Alosmana deginən.*

*Durub o yollara varandan sonra,*
*Sən bizim elləri görəndən sonra,*
*Bu dilsiz naməni verəndən sonra,*
*Dil cavabı yana-yana deginən.*

*Bülbüləm qonmaram qeyri güllərə,*
*Yarım əl verməsin özgə əllərə,*
*Səfərim üz qoydu tozlu yollara,*
*Ağlamasın, mahtavana deginən.*

*Soruş əhvalını, necədi halı,*
*Yarı cida saldı dünyanın malı.*
*Dilində Bəsti tək yar Aşıq Alı,*
*Qəsd eylədi şirin cana deginən.*

Bəli, söz tamama yetişdi. Aşıq Alı sazla dediyini, sözlə də dedi. Sonra da yasavulla Aşıq Duraxangilə qayıtdı. Aşıq Duraxan onları doqqazda yəhərli-yüyənli atla qarşıladı. Alının atının üzəngisini basdı:

-Ya, Allah, oğul! Yolçu yolunda gərək, -dedi.

Bəli, mənim əzizlərim! Ustad dili mübarək, köhlən at yüyrək olar demişlər. Yolçular dərələrdən sel kimi, təpələrdən yel kimi aşaraq günə bir mənzil, teyi-mənzil yolun damarını qırdılar, özlərini yetirdilər Ruma. Gün yaxar-yaxmaz Cəfər paşanın həyətində atdan endilər. Cəfər paşa Aşıq Duraxanla hal-əhval tutduqdan sonra üzünü cavan aşıqlara çevirdi.

Aşıq Duraxan dedi:

-Paşam sağ olsun! Bu bəndeyi-fəqirlər mənim şəyirdlərimdir. Yanımda hərləyirəm ki, gələcəkdə bir tikə çörək sahibləri olsunlar, bu da bir savabdır.

Cəfər paşa:

-Evet, efendim! Pek eyi, -dedi. Sonra da aşıqları məclisə dəvət etdi. Aşıq Duraxan keçib sultanların, paşaların yanında əyləşdi. Üzünü Aşıq Alıya tutub dedi:

-Şəyird! Məclisin mübarək. Cırımı köynəkdən çıxart. Xas laftalar üçün xas cırra.

Bunu deməklə Aşıq Duraxan istəyirdi ki, görsünlər o, ustad, Aşıq Alı isə şəyirddir. Aşıq Alı Duraxanın özünü belə lobbaz aparmasından bərk incidi. İşi belə görən Aşıq Səməd dedi:

-Aşıq Alı! Dur, Cəfər paşanın toy məclisini mübarəkləndir. Onsuz da, harada olsa ustadımızın qənimi Aşıq Yığval indilərdə gəlib çıxacaq. Onun ağ gününü göy əskiyə düyəcək, yığvalını qara boyayacaq. Yığılan nəmərini silib-süpürəcəkdir.

Aşıq Alı məclisə «Baş divani» havası ilə başladı, cəmi ustadları yada saldı. Üzünü sultanlara, paşalara tutub:

-Ağalar, sifariş sizdən, cavabı bizdən, -dedi.

Paşalar Qafqaz aşığının dilli-dilavərliyini görüb xahiş etdilər ki, Yunis İmrədən bir söz oxusun.

Aşıq Alı:

-Paşalar! Türk aşıqlarından Yunis İmrə, Qaracaoğlan, Dadaloğlu, Pir Sultan, Avdal, Aşıq Ömər, Aşıq Əmrah, Öysüz Dədə, Qayıqçı Qul Mustafa, Qul Mehmed, Qul Hümmət, Aşıq Həsən və başqaları sinədəftərimdir, -deyib götürdü görək türk paşalarının sifarişi ilə Yunis İmrədən nə dedi, tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Biz dünyadan gedər olduq,*
*Qalanlara salam olsun!*
*Bizim üçün xeyir-dua*
*Qılanlara salam olsun!*

*Kimsə durmaz qəsdimizə,*
*Gedər olduq dostumuza,*
*Namaz üçün üstümüzə,*
*Duranlara salam olsun!*

*Əcəl bükə belimizi,*
*Söylətməyə dilimizi,*
*Xəstə ikən halımızı*
*Soranlara salam olsun!*

*Bu qaydadı, gələn gedər,*
*Əcəl ki var, bizi güdər,*
*Bizim halımızdan xəbər,*
*Soranlara salam olsun!*

*Tənim ortaya açıla,*
*Yaxasız köynək biçilə,*
*Bizi asan bir vəch ilə,*
*Yuyanlara salam olsun.*

*Dərviş Yunis, söylər sözü,*
*Yaş doludur iki gözü,*
*Bilməyənlər bilsin bizi,*
*Bilənlərə salam olsun!*

Söz tamama yetişdi. Aşıq Alı baxdı ki, Yunis İmrənin ustad kəlamı məclisi yamanca tutdu. Fürsəti-fövtə vermədi. Söz sinəsində tüğyan etdi. O idi ki, götürdü görək Aşıq Alı nə dedi, tərəfindən ərz eyləyək, siz şad olun:

*Qoca dünya çoxun yola salıbdı,*
*Köçən köçüb, köçməyənlər köçəcək,*
*Qafil, içmə bu gün əcəl şərbətin,*
*İçən içib, içməyənlər içəcək.*

*Necoldu var üçün qanlar tökənlər?*
*Əziz canın al qumaşa bükənlər,*
*Unutmasın şərmi-xəta əkənlər,*
*Biçən biçib, biçməyənlər biçəcək.*

*Yazıq Alı, nə tez düşdün həvəsdən,*
*Sərraf olan seçər qızılı misdən,*
*Arif olan kəslər, yaxşını pisdən,*
*Seçən seçib, seçməyənlər seçəcək.*

Söz tamama yetişdi. Sultanlar, paşalar Aşıq Alının başından o qədər axçalar tökdülər ki, əli qələmli mirzə istəyirdi ki, bunu hesaba alsın.

Paşalar:

-Məclisin mübarək! Ustadın afərin – dedilər. Məclisin elə bu yerində aşıq qiyafəsində nurani bir adam içəri girdi. Cəfər paşanın toy xələtini verdi. Keçib sultanların, paşaların yanında əyləşdi. Aşıq Alı Aşıq Səmədin işarəsi ilə Aşıq Duraxana baxdı. Gördü ki, Aşıq Duraxanı əsməcə tutub, qaraqızdırmalı adam kimi tir-tir əsir. Anladı ki, Aşıq Səmədin dediyi Aşıq Duraxanın qənimi Aşıq Yığval elə budur. Aşıq Alı Aşıq Yığvala məhəl qoymadı. Sazın zil guşəsinə Təbil cəngi pərdədən başladı. Beçə pərdədə Koroğlu kimi bir nərə çəkdi ki, Alosmanda çoxları qorxuluğunu götürmək üçün molla axtarmağa başladı.

***Aldı Aşıq Alı:***

*Əhli-ürfan məclisində üzü ağ,*
*Dolanan diyarlar həyalı mənəm.*
*Sahibi-hünərdən dərsim almışam,*
*Möhtəbər kəslərin xəyalı mənəm.*

*Guşeyi-izzətdə xaba dalmadım,*
*Simuzərə əsla nəzər salmadım,*
*Ətrabi süxənnən geri qalmadım,*
*Sənəti, söhbəti səyalı mənəm.*

*Sahibi-imanda zatı nakama,*
*Paki-dil olmaqda adil hakima,*
*Sənətdə ustadım pür qəmnakama,*
*Səxada Hatəmə tay Alı mənəm.*

Aşıq Yığval gördü ki, bu cavan aşığı həzm etmək üçün ona ördək mədəsi lazımdı. Fürsəti-fövtə vermədi. Aşıq Alı bir də baxdı ki, Aşıq Yığval budur yerindən durdu, məclis əhlinə xeyir-dua verdi. Aşıq Duraxanın qarşısındakı mücrülərdə qalaqlanan axçaları cibindən çıxardığı bir torbaya yığışdırdı. «Bu mənim nəmərim» - deyib üz qoydu qapıya tərəf. Aşıq Alını təəccüb bürüdü. Amma onu da deyək ki, Aşıq Yığvalın belə tezliklə getməsi Aşıq Duraxanın sifətini durultdu, üzündəki əsməcədən əsər-əlamət qalmadı. Gözləri sevincindən ov görmüş pişik kimi par-par parıldadı. Cəfər paşa arif adam idi. Gördü ki, Aşıq Alı heç özündə deyil, nə isə bir himə bənddir. Dedi:

-Oğlum, qanını qaraltma! Sən Rumlu Cəfər paşanın oğul toyundasan. Səni Alosmandan adıma layiq şan-şöhrətlə yola salacağam. Məclisini davam etdir.

Aşıq Alı:

-Paşam! Şərt sizin məni Alosmandan adımıza layiq yola salmanızda deyil. Bizlərdə aşıqlığın bir adəti var: əvəl-əvvəl deyişirlər, rəqibi məğlub etdikdən sonra sazını alarlar. İrəlicədən şərtləşdirilən adət-ənənəyə görə aşığa cəza verərlər. Amma Aşıq Yığvalın məni məclisdə bağlamadan, sazımı almadan nəmərimi yığışdırıb aparması qanacaqsızlıqdır. Bu qoluzorluluq, torpaqbasdıqlıdır. Özü də sizin kimi Alosmanda adlı-sanlı paşalar məclisində, - deyib sazın kökünü dəyişdi. Götürdü görək əhvalına bahəm nə dedi, biz ərz eyləyək, siz şad olun:

*Sərih müqəvvasan, nər meydanında,*
*Ustadın önündə naşı dayanmaz.*
*Atəşlərəm, yanar cismin aşikar,*
*Car olar eyninin yaşı, dayanmaz.*

*Aqil bilər nəqa nərsə, fil də var,*
*Qəza, qədər hər həftədə, ildə var.*
*Fərsizlərin hünər karı dildə var,*
*İmtahanda əqli çaşı, dayanmaz.*

*Vurma sərin əsil qüdrət səngimə,*
*Sual, cavab bais olar dənginə,*
*Əsla tab eyləməz aslan cənginə,*
*Rubahların pür savaşı, dayanmaz.*

*Nəfsi naqis qəm üstündən qəm bağlar,*
*Qovğakarlar həmdəmliyə çəm saxlar,*
*Qüdrətin qəhrinə tutar dəm dağlar,*
*Uçanda torpağı, daşı dayanmaz.*

*Keçər dövran, Aşıq Alı qocalar,*
*Güman etmə rəqib ondan bac alar,*
*Bir bina ki, ibtidadan kəc olar,*
*Uçar bünövrədən, başı dayanmaz.*

Cəfər Paşa gördü ki, Aşıq Alının sinəsi doludur. Özü də Aşıq Yığvaldan pəsinmir. Məclisə qan-qaralığı düşməmək xatirinə dedi:

-Oğlum! Sən hələ çox cavansan, Osmanlı məmləkətində hələ Aşıq Yığval ilə döş-döşə gələn olmayıb. O, bir dəryadır. Qabarıb-coşanda yaman olur. Şükür elə ki, mənim məclisim idi. Başqa birisinin məclisi olsaydı, səni də ustadıyın gününə salardı. Oğlum! Sən nahaq pozulursan.

Aşıq Alının tərsləşdiyini görən Aşıq Duraxan Cəfər paşanın sözünə qüvvət verdi:

-Oğlum, Alı! Cəfər Paşa düz deyir. Yığvalı dönmüşün ətəyinin nə işi kalın buynuzunda ki, göydən yerə düşüb parça-parça olsun. Allahı sevərsən işində ol. Ağrımaz başımızı ağrıtma. O axçalar da onun olsun, Allahın dərd-bəlası da. Nəmərin yüzə iyirmi manatı sənindir.

İşi belə görən sultanlar, paşalar Aşıq Alının tərəfində durdular. Çiyni zər haşiyəli paşalardan biri:

-Hazarat, biz dəfələrlə Aşıq Yığvalın da məclislərində olmuşuq. Bir ulu tanrı şahiddir ki, bu cavan aşıq ondan şirin oxuyur. Aşıq doğru deyir. Aşıq Yığvalın da həddi-hüdudu olmalıdır. Nə vaxtacan o qərib-qürbət diyardan gələn aşıqların nəmərinə şərik çıxacaqdır? Mən tələb edirəm, Aşıq Yığval məclisə gəlsin, Aşıq Alı ilə deyişsin.

Naəlac qalan Cəfər Paşa adam göndərib Aşıq Yığvalı məclisə deyişməyə çağırtdırdı.

"Dəvəti" eşidən Aşıq Yığval:

-Yaxşı oldu, -deyib sazını götürüb, apardığı ağçalar ilə məclisə gəldi. Axçaları mücrünün yanına qoydu. Üzünü Aşıq Duraxana tutub:

-Geda, taleyi dönmüş! Keçənilki tövbəm sənə dərs olmadımı? Saz götürüb yenə Ruma məclis aparmağa gəldin, -dedi.

Aşıq Duraxan dili dolaşa-dolaşa:

-Ustad! Məni başına çevir, bəxtim, yığvalım dönsün ki, mən deyiləm. Sizi deyişməyə bu cavan oğlan çağırıb, -deyə zorla əli ilə Alını göstərdi.

Aşıq Yığval:

-Ağzı qatıqlı çocuq! Hələ səndən ana südünün iyi gəlir. İndi sənin gözlərini oyduraram, yerinə qurum qoyduraram. Nəmərini alaram, qulağından Rumun girəcəyində divara mıxçalaram. Bəxtini-yığvalını qara geydirərəm. Nişanlını dul qoyduraram. Onda bilərsən ki, Aşıq Yığval kimdir. Əməli azmış, taleyi dönmüş cocuq! Şimdi gəl arxamca, -deyib, zər haşiyəli sazını "Osmanlı divanisi" kökündə köklədi. Çocuq! –dedi, -Bizlərdə adətdir yolu qəribə verərlər. Fürsət sənindir.

***Aldı Aşıq Alı:***

*Bir mərdə qonaq gələndə, gülə-gülə nan verə,*
*Namərd bir mehman görəndə, görərsən ki, yan verə,*
*Hanı hatəm kimi hatəm, süfrə salıb ad ala,*
*Hanı loğman kimi loğman, xəstələrə can verə.*

*Aldı Aşıq Yığval:*
*Eldə ustad ölməyib ki, yetənə dövran verə,*
*Qərib getsə qürbət elə, mərifətlə san verə,*
*Yolun azan xərac verər, mərd meydanı sulamaz,*
*Öz xoşuna verməsə də, zülmünən danan verə.*

*Aldı Aşıq Alı:*
*Bir kimsədən xaliq ala, gündüz ona gecədir,*
*Bir kimsəyə qarğış keçə, çalışdığı becədir,*
*Bir kəsə ki, alqış keçə, onun haqqı ucadır,*
*Bir kəsə ki, xaliq verə, görərsən hər yan verə.*

*Aldı Aşıq Yığval:*
*Bir kəsi ki, ela ata həsrət qala camala,*
*Bir kəs ərkanı bilməyə çata bilməz kamala,*
*Bir kəs ki, kəcrəftar ola, dərdi satıb qəm ala,*
*Bir kəs ki, həddini aşa, qəza tuta qan verə.*

*Aldı Aşıq Alı:*
*Davud kimi Nəbi hanı, qəmləri dəm eyləyə,*
*Həmzə kimi igid hanı, rəqibi rəm eyləyə,*
*Süleyman tək Süleyman yox, aləmi cəm eyləyə,*
*Kişi gərək el yolunda canını qurban verə.*

*Aldı Aşıq Yığval:*
*Bir kəs haqdan əl üzməyə, aqibətdə şad ola,*
*Bir kəs qaça nairzaya, səadətdə yad ola,*
*Bir kəs qaça kəs bəhrəyə, xanəsi bərbad ola,*
*Bir kəs Qasim qismindənsə, ruzisin asan verə.*

*Aldı Aşıq Alı:*
*Gəl biçarə Aşıq Alı, sığın haqqın adına,*
*Əta eylə namazına, xaliqi sal yadına,*
*Harda dara düşər olsan yetişər imdadına,*
*Mətləbini quli-Qənbər, o şah-Mərdan verə.*

*Aldı Aşıq Yığval:*
*Bir kəs özün şahi bilə, haqda görsün əməli,*
*Bir kəs eldə məğrur ola, tez də uça təməli,*
*Əsla kütah olmaz sözüm, xeyli vardı deməli,*
*O haq ki, Yığvala dostdu dərsini nihan verə.*

Söz tamama yetişdi. Aşıq Yığval dedi:

-Cocuq, indi söz sənindir, "Divani" üstə get görüm, baxım məharətinə.

Aşıq Alı sazı sinə pərdədə zilə çəkdi. Götürdü görək nə dedi, tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Aşıq Alı:*
*Kəndinə aşıqam deyən,*
*Aşıqsan meydana gəl.*
*Namərd gəlməz bu meydana,*
*Mərdisən, mərdana gəl.*
*Kəndi olan kəndisini*
*Öyməyi layiq deyil,*
*Sazını sən al əlinə,*
*Bu cəngi-cövlana gəl.*

*Aşıq Yığval:*
*Sən damlasan, mən dəryayam,*
*Axıban ümmana gəl.*
*Mən danışım, sən qulaq ver,*
*Mərifət, ərkana gəl.*
*Sən satansan mən alanam,*
*Açğınan dükanını,*
*Sərraf mənəm xırd eylərəm,*
*Mətahın alana gəl.*

Aşıq Alı baxdı ki, Yığval çox qabil sənətkardır. Sözləri həmin qafiyədə yerli-yerində deyir. Dedi: Bəlkə bu doğrudan da, haqq aşığıdır. Qoy bir onu yoxlayım. Odur ki, aldı görək nə dedi:

*Aşıq Alı:*
*Ey arifə bir salam ver,*
*Danış sən, halın görüm.*
*Əgər haqq aşığısansa*
*Söylə kəmalın görüm.*
*"İncil", "Zəbur", "Tövrat", "Quran",*
*Göstər kəlamın görüm.*
*Dostum, əgər bütpərəsdən*
*Bu nari-nirənə gəl.*

*Aşıq Yığval:*
*İsayıyam, Musayıyam,*
*Hər nəyəm öz yolumda.*
*Həqiqətdən söz deyərəm,*
*Mərifət kəmalında.*
*Şimdi paşam qulluğunda,*
*Sədiri-əzəm yanında.*
*Haqqımnan divan kəsərlər,*
*Ədalət divana gəl.*

*Aşıq Alı:*
*Aşıq Alı leyli-nahar*
*Paşam söylərəm mədhi.*
*Həqiqət, mərifət haqdı,*
*Anla, qan təriqəti.*
*İsayısan "İncil"i sev,*
*Musayısan "Tövrat"ı.*
*Gər Məhəmməd hümbətisən*
*Boyun əy "Quran"a gəl.*

*Aşıq Yığval:*
*Aşıq Yığvalam, qazilər,*
*Fərzi-sünnət qanıram.*
*Əlif Allahın adıdır,*
*Bey peyğəmbər tanıram.*
*Tey təbərrəh, qəni Allah,*
*Ona səcdə qılıram.*
*Xilqətim Adəm atadı,*
*Xey xaki-yeksana gəl.*

Aşıq Yığval baxdı ki, ayə Aşıq Alı sözlərini çox səmtli-suatlı oxuyur. Səsinə də söz ola bilməz. Dedi:

-Ay oğul! Sən hələ çox uşaqsan. Sənə yazığım gəlir. Səni sinəndəki saz dindirir, sən sazı yox. Aşıqlıq elminin qırx qapısı var. Bil və agah ol, sən onun 39-nun qapısını açsan da, qırxıncıda yığvalını döndərəcəm. Nə qədər ki, kükrəyib coşmamışam, haydı məclisimdən.

Aşıq Alı baxdı ki, Aşıq Yığval hədə ilə onu qorxutmaq istəyir. Dedi:

-Aşıq Yığval! Mənəm-mənəmlik ustada yaraşmaz! O ki, qaldı sizin dediyiniz aşıqlığın qapısının haqq açarı, o məndədir, hərzə-hədyan danışma.

Aşıq Yığval dedi:

-Hə cocuq! Necə deyərlər: "Adın nədir Rəşid, birini de, birini eşit". İndi də fürsət mənimdir. Mən deyim, sən cavab ver. Tanrım ya sənə verər, ya mənə.

*Aldı Aşıq Yığval:*
*O nədir ki, otuzunda cavandır?*
*On beşində qocalardan uludur.*
*O nədir ki, dili ayrı, sözü bir?*
*Hansı dərya hər dəryadan doludur?*

*Aldı Aşıq Alı:*
*O aydır ki, otuzunda cavandır,*
*On beşində qocalardan uludur.*
*O qələmdir dili ayrı, sözü bir,*
*Elm dəryası hər dəryadan doludur.*

*Aldı Aşıq Yığval:*
*O nədir ki, haqq yanında nahaqdır?*
*O nədir ki, yerlə, göyə dayaqdır?*
*O kimdir ki, yatmayıbdı oyaqdır?*
*Aşıq Yığval hər elmidən halıdır.*

*Aldı Aşıq Yığval:*
*Hansı tədbir səbir ilə görülər?*
*O nədir ki, məhəbbətlə hörülər?*
*O nədir insana əmanət verilər?*
*O nədir ki, o da onun gülüdür?*

*Aldı Aşıq Alı:*
*Haqq tədbiri səbir ilə görülər,*
*O könüldür məhəbbətlə hörülər.*
*O ruhdur, insana əmanət verilər,*
*İlqar, iman o da onun gülüdür.*

*Aldı Aşıq Alı:*
*Böhtan sözdür haqq yanında nahaqdır,*
*Haqq nəzəri yerlə, göyə dayaqdır.*
*Haqqın özü yatmayıbdır, oyaqdır,*
*Bu sözləri açan Aşıq Alıdır.*

Bəli, mənim əzizlərim! Aşıq Alının Aşıq Yığvalla qoç kimi meydanda döyüşü Aşıq Duraxanı sevindirdi, bunu görən Aşıq Səməd dedi:

-Ay çarxı dönmüş, taleyi kəm! Sən niyə sevinirsən? Aşıq Alı Yığvalın bəxtini göy əskiyə düyəndən sonra meydana deyişməyə səni çağıracaq. Yazıqsan, nə qədər gec deyil, başına bir çarə qıl. Hələ ki, Aşıq Alı kələfini dolaşdırmayıb, bədbəxt, Arazı keç o taya. Sənə yazığım gəlir. Mənə nə var, uzaq başı, bərk ayaqda deyəcəyəm ki, ustadımsan. Yığvalı kəm, bəs bu zırpılıqda sən nə deyəcəksən? Hələ bir Cəfər paşaya, sultanlara yekə-yekə özünü ustad kimi qələmə verdin. Bə bilmirdin ki, "İlanın anasına balası qənim olar?" Aşıq Alı səni sinəsinə çəkməyə meydan axtarır. Bax, bu da meydan. Dur, bayıra çıxmaq bəhanəsilə sürük əppəyini götür, canını qurtar.

Aşıq Duraxan dedi:

-Ə, Səməd! Bəs mənim o telli-toqqalı imran dilli sazım necə olsun?

Aşıq Səməd:

-Ə, dəftəri dönmüş, kələfi dolaşmış! Bu həngamədə sazını özünə başdaşı qoyacaqsan? Bu qızdır-basdırda saz vaxtıdırmı?

Nə çoxdur el-obada bir başı nimçə, bir başı çömçə.

Aşıq Səmədin sözlərinə inanan Aşıq Duraxan bayaqdı "Ağanı Allah saxlasın" –deyib çuxasının ətəyini yığışdırdı. Cəfər Paşanın məclisindən "Asta qaçana göy imam qənim" –deyb arxasına baxmadan süpürüldü. Aşıq Səmədə də elə bu lazım idi. Onun Aşıq Duraxanın sazında çoxdandı ki, gözü qalmışdı.

Bəli, əzizlərim! Qulluğunuza ərz eyləyim ki, bu gecəki deyişmədən heç nə hasil olmadı. Aşıqların deyişməsi qaldı sabaha. Gecə Aşıq Alı Aşıq Səməddən soruşdu:

-Bəs bizim "ustadımız" hardadı? Heç gözümə dəymir. Allah eləməmiş xəstələnib eləməyib ki?

Aşıq Səməd dedi:

-Aşıq Alı! Bir Allahdan gizli olmayan, səndən nə gizli. Aşıq Duraxanı göndərdim fələyin badına. O daha bizim "ustadımız" deyil. İndi o Arazı çoxdan keçib. Elə yaxşı oldu ki, getdi. Sazım ötkəm deyildi. Doğrusu, Aşıq Duraxanın sazında çoxdan gözüm vardı. Bu da mənim üç illik "şəyirdlik" zəhmətimin qəniməti.

Aşıq Səmədin sözləri köz olub yapışdı Alının ürəyinin başına. Duraxanın namərdliyi ürəyində qubar eylədi. Dedi:

-Aşıq Səməd! Sazı mənə ver ürəyimə bir neçə yarpaq söz gəldi, onu da deyim, bir gün gərəyin olar.

Alı sazı Səməddən alıb zil-bəm eylədi. Götürdü görək nə dedi. Tərəfindən ərz eyləyək, siz sağ olun:

*Bədəməl sinniyə kəlam oxuma,*
*Peykəri kəcləri məzar düzəldər.*
*Xənnasdan kənar ol, tənə toxuma,*
*Vərdişi biəncam azar düzəldər.*

*Qəzaya sövq edən nəhr lal axar,*
*Südlə gələn məcaz sümüklə çıxar,*
*İblis əməllilər ayağa baxar,*
*Həmdəminə quyu qazar, düzəldər.*

*Alı, bədnamlıqdı gücsüzə zəfər,*
*Bədxahla bir yana eyləmə səfər,*
*Fitnələr əhlidi hünərdən bilər,*
*Qəbahətin dastan yazar, düzəldər.*

Bəli, mənim əzizlərim! Sabah açıldı. Görüm sizin də üzünüzə neçə-neçə xeyirli sabahlar açılsın. Aşıq Səməd əllərini göyə qaldırıb Allahdan dilək dilədi ki, ya rəbb! Sən qərib-qürbət torpaqda Aşıq Alını xar eləmə. Aşıq Yığval bağlansın. Onun qızıl haşiyəyə tutulmuş sazını alsın. Bunu görən Aşıq Alı bərkdən güldü:

-Ayə, Aşıq Səməd! Doğrudanmı inanırsan ki, Aşıq Yığval məni bağlayacaq? Belə çıxır ki, 10 il nahaqdan Ağ Aşığın yanında papağımı günə yandırmışam. Bu gün o Aşıq Yığvaldı, nədi onun bəxtini, yığvalını döndərmək mənə borc olsun. Ona bir toy tutum ki, öz toyunu unudub, atasının toyu yadına düşsün.

Bəli, əzizlərim! Allah heç kəsi qərib-qürbətlikdə dar-damanda qoymasın. Aşıq Alı ilə Aşıq Yığval bir ərəsət divanı qurdular ki, göz istəyirdi tamaşa etsin. Əvvəl-əvvəl bir-birlərinə hərbə-zorba gəldilər. Amma bir-birlərinə dov gələ bilmədilər. Saz havacatlarında sınaşdılar. Bundan da bir iş məsrəf olmadı. "Aşığın qənimi" sayılan Beçə pərdəsinin zil zəngulələrini "Təbil cəngi" pərdələrdə gəzişdilər, yenə də bir-birinə doy gələ bilmədilər. İndi fürsət Aşıq Alıya keçdi. Aldı görək, Aşıq Alı qıfılbənd üzərində Aşıq Yığvala hansı kilidlənməni dedi, tərəfindən bir ərz eyləyək, siz şad olun.

*Aldı Aşıq Alı:*

*Səndən xəbər alım, ay Aşıq Yığval,*
*Şəriyəti nəylə eylərsən aşkar?*
*Bey altında o nöqtəni bəyan et,*
*O nöqtədən eylə məni xəbərdar.*

*Yeddi damı, səkkiz cənnət yəqin var,*
*Yerdədi, göydədi, hardadı Ənnar?*
*Ərşdə iki quş var, müdəm dən dənnər,*
*Gahdan pünhan olur, gah olur aşkar.*

Söz tamama yetişdi. Aşıq Alı sazla dediyini sözlə də dedi. Aşıq Yığvalın qılçaları boz ayda götrüm düşüm xarı kimi başladı əsməyə. Dodaqları yalquzaq görmüş qoyun kimi təpidi. Başladı cığallığa. Dedi:

-Paşa! Bu cocuğun dediyi qıfılbəndin mənası yoxdur. Əgər o oxuduğu bəndin məna-məramını tərcümə etsə, onda mən sazımı onun qarşısına qoyaram.

Götürdü görək Aşıq Alı Cəfər paşanın toy məclisində öz qıfılbəndinə necə xitam verdi, tərəfindən qulluğunuza ərz eyləyək, siz şad olun.

*Aldı Aşıq Alı:*

*Deməynən ki, bu sözlərim yalandır,*
*Ay, gün, Zümrüd, Zühal ona qulamdır.*
*Zatı Zülcəlaldı, özü kalamdır,*
*Peyğəmbərdən qalıb hədis aşikar.*

*Təriqətdən mərifətə gəlmişəm,*
*Həqiqətdə yol ərkanı bilmişəm,*
*Aşıq Alı deyər: mətəl qalmışam,*
*De, Çərxi-dəvvarəda neçə elm var?*

Aşıq Alı ustaddan dərs almışdı. Baxdı ki, Aşıq Yığvalın yığvalı dönüb. Dəyirmanın suyu tükənib. O idi ki, qıfılbəndi ustad kəlamı ilə əvəz etdi:

*Sərrafam, bazarım xiridar istər,*
*Bihuda sursatın bazara vermə.*
*Bir dəfə salaram, əlacın olmaz,*
*Cismini çarasız azara vermə.*

*Qabağa sıçrama, dala düşərsən,*
*Düşməmisən, qeyli-qala düşərsən.*
*Lal eyləyərəm, müşkül hala düşərsən,*
*Bivədə cismini məzara vermə.*

*Aləm bilir: köşək çəkməz nərinən,*
*Xəcil olar sənətində ərinən.*
*Meydan açma sən ər oğlu ərinən,*
*Hələ dərs al dinlə, yaz, ara vermə.*

*Həqiqət elmində keçək isbata,*
*Məna verək ərzə, həm kainata,*
*Bir dastan bağlayaq hər hurufata,*
*Tərdəst ol, məzarın qaz, ara vermə.*

*Çərxin elmin tökən olsa araya,*
*Aramağa sərin gəlməz haraya,*
*Qaraya ağ, ağ deyirsən qaraya,*
*Ağlını iblisə, nə zara vermə.*

*Şıx Alıya cəng eyləyən xar oldu,*
*Verdi sazın el içində ar oldu,*
*Nadanın əlindən o bezar oldu,*
*Qaç, fürsət canından bezara verma.*

Söz tamama yetişdi. Aşıq Alı sazla dediyini sözlə də dedi. Aşıq Yığval kürt toyuğun son cücəsi kimi suyu süzülə-süzülə qızıl haşiyəli sazını qoydu Aşıq Alının qarşısına. Aşıq Səməd əl atdı ki, Aşıq Yığvalın sazındakı qızıl haşiyələri söksün.

Aşıq Alı dedi:

-Ə, Aşıq Səməd! Bir əl saxla, nə etmək fikrindəsən?

Aşıq Səməd:

-Ustad! Əhdim vardı. Əyər sən Aşıq Yığvalı bağlasaydın, onun sazında

-Ustad! Əhdim vardı. Əyər sən Aşıq Yığvalı bağlasaydın, onun sazındakı qızılları söküm. Rumlu zərgərlərinə verim. Nişanlın Bəsdi xanıma bilərzik, üzük, tənə və bir də boyunbağı bağladım. Şükür Allaha, diləyim yerinə yetişdi. Rumdan Göyçəyə əli boş qayıtmayacağam ki? – dedi.

Aşıq Alı:

-Aşıq Səməd, bəyəm saz oyuncaqdır ki, onunla istədiyin kimi rəftar edəsən? Aşıq Yığvalın sazı Osmanlı məmləkətində neçə-neçə bəynişan oğlanların ağır-ağır toylarının yadigarıdır. Onun İmran dilli sədası ilə neçə-neçə ailə xoşbəxt olub. Hələ neçələri də bundan sonra olacaq. Aşıq Yığval mənim ustadım Ağ Aşıq sinnindədir. Belə bir aşığın sazını almaq günahdır. İgid basdığını kəsməz. Aman da bir imandır, -deyib sazı Aşıq Səməddən aldı, öpdü və Aşıq Yığvalın qarşısına qoydu, dedi:

-Aşıq Yığval! Alla-taala qoy Cəfər Paşanın oğlunu oğullu-qızlı eləsin. Məclisdə yığılan nəmərə şəriksən. Halalındır.Nə qədər xatirindir ixtiyarındadır.

Aşıq Alının ədəb-ərkanından xoşhal olan Aşıq Yığval yerindən qalxıb Aşıq Alının alnından öpdü, "Ustadına bərəkallah!" – deyib cibindən bir xışma qızıl çıxarıb Alının başına səpdi. "Halalındır, oğlum", - dedi.

Bəli, əzizlərim!Görüm hamınızın toy-düyününüz mübarək, işiniz avand olsun. Məclisin yeddinci günü Aşıq Alı Cəfər paşanın oğlunun duvaqqapmasını oxuyurdu, bu vaxt br qasid gəlib, ədəb-ərkənla salam verdi. Əlindəki naməni qoydu Cəfər paşanın qabağına. Cəfər paşa naməni oxuyub bərk tutuldu. Hamı bir-birinin üzünə baxdı. Cəfər paşa dedi:

-Paşalar! Yerlər qulaqlı olar, - demişlər. İstambuldan Əsmər xanım namə yazıb ki, eşitmişəm Qafqazdan gələn bir cavan aşıq oğlunun mübarək işini keçirir. Özü də Aşıq Yığvalı bağlayıb. İndi gərək Aşıq Alını mənimlə deyişməyə göndərəsən. Əgər göndərməsən, qoy paşalıq adı sənə ar olsun. Əgər Aşıq Alı dəvətimdən boyun qaçırsa, mənim yaylığım qoy papaq əvəzi ona örpək olsun, -deyib, Əsmər xanımın göndərdiyi müşəmbəli məktubdakı dəvət qoşmanı da oxudu:

*Alanda naməni, ay Aşıq Alı,*
*Götür sazın, bu meydana, durma gəl.*
*Gəlməsən gətirrəm, gəlsən həp gözəl,*
*Yana qaçıb, heç özünü yorma gəl.*

*Bəyan et aşıqsan, yoxsa naçarmı?*
*Şəms varkən, səyyarə nuru saçarmı?!*
*Ər oğlu ər, zənanədən qaçarmı?*
*Ağlayıb, sızlayıb boyun burma, gəl.*

*Adım Aşıq Əsmər, bir nazənin gənd,*
*Meydanımda tab etməyib bir həpənd,*
*Neçə-neçə aşıq eyləmişəm bənd,*
*Zatı-pakı ünvanımı sorma, gəl.*

Məclisin qan-qaralığını görən Aşıq Alı dedi:

-Cəfər paşa! Əsmər xanım haqlıdır. "Bizlərdə pirə gələn qurbanlığı qaytarmazlar." Allah ya Əsmər xanıma verər, ya da mənə. Götür qasidnən cavab göndər ki, Aşıq Alı dəvəti qəbul edir. İnşallah, 3 ötər, 4 deyən gün İstambuldayam. Hazırlaşsın.

Aşıq Alının mərdi-mərdanəliyi Cəfər paşaya xoş gəldi:

-Məni istəyənlər aşığa xələt, -dedi.

Onu da deyək ki, Cəfər paşanın oğul toyunda Aşıq Alıya o qədər nəmər yığılmışdı ki, bu nəmərlə Göyçənin say-saltal oğlanlarının yüzünün toyunu keçirmək olardı. Ertəsi gün Cəfər paşanın nökər-naibi iki kəhər köhlənin üzəngisini basdı. Cəfər paşa Aşıq Alı ilə Aşıq Səmədə uğur dilədi. Əsmər xanım bağlasan, əbrişin qoç qurbanlığın məndə. Səni oğlum kimi Rumdan Qafqaza özüm yola salacam, -dedi.

Bəli, əzizlərim! Aşıq Alı ilə Aşıq Səməd "Ya mədəd!" –deyib üz qoydular İstambula. Onlar yolun damarını qırmaqda olsunlar, indi qulluğunuza ərz eyləyim İstambulda Əsmər xanımdan. Əsmər xanım eşidəndə ki, Aşıq Alı İstambula gəlir, əmr etdi, bütün küçələrə, bazarlara, meydanlara car çəkilsin ki, şənbə günü Baş meydanda Əsmər xanım Qafqazdan gələn Aşıq Alı ilə ədalət divanı quracaq. Kim haqq divanı görmək istəyirsə, təşrif gətirə bilər. Əsmər xanımın elanını eşidən hər kəs bu xəbəri bir cür yozdu. Qərib aşığa yazıqları gəldi. Dedilər:

-Yazıq olsun səni doğan anaya. 19-cu aşığa təkcə bircə nəfər çatışmırdı, o da sən oldun.

Aşıq Alı ilə Aşıq Səməd isə İstambulu haqlamaqda idilər. Aşıqlar göy çəmənlikdə atları yançidar edib dinclərini alanda, Türkiyə dağlarını görən Aşıq Alını qəhər boğdu. Ata-anası, nişanlısı, qohum-əqrabası, Göyçə yaylaqları yadına düşdü. Baxdı ki, ey dili-qafil! Verdiyi vədədən də xeyli keçir. Könlü qübar elədi. Dedi:

-Aşıq Səməd! El-obam yadıma düşdü. Verdiyim vədədən də artıq keçir. Bu tərəfdən də Əsmər xanım. Sinəmə bir neçə xanə söz gəlib, qoy onu da deyim, sonra yolumuza davam edərik. Götürdü görək Aşıq Alı Alosman yaylaqlarına özünün qərib-qürbət eldə əhvalını necə bəyan eylədi. Tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Sədrin səfalıdı, sərin sövdalı,*
*Aləmi imkanda sədalı dağlar.*
*Tufana yenilməz, şaha baş əyməz,*
*Vüqarlı-cüssəli, ədalı dağlar.*

*Altı ay zülcəlal, altı ay qəmin,*
*Ellər yığnağından yaranar dəmin,*
*Dəyişsə halını asiman, zəmin,*
*Çəkər bir-birindən had alı dağlar.*

*Təlatüm zərbindən olundun bina,*
*Müqəddəs yerindi Turunan, Mina,*
*Haziranda döndü rövzü rizvana,*
*Zimistanda qəfil-qadalı dağlar.*

*Səxanı, sayəni bimürvət danı,*
*Yeyildi qoynunda min elin nanı,*
*Abı kövsər üstdə zənburun şanı,*
*Nemətindən doyan dad alı dağlar.*

*Bahar el məkanı, xəzandı kanı,*
*Xotkarın, sərdarın, sultanın hanı?*
*Vəsfikarı köçən bir bülbül tanı,*
*Qalmaz nə Ağ Aşıq, nə Alı, dağlar.*

Söz tamama yetişdi. Aşıq Alı baxdı ki, dostu Aşıq Səməd özündə deyil. Odur ki, gəzdiyi süsənli, laləli yaylaqlar, səfalı dağlar yadına düşdü. Aşıq Alının dərdi dəli dağ çayı kimi tüğyan etdi. Yön çevirdi dağlara. Dedi:

-Gəl bu dağları sorğu-suala tut, soruş görək onun köksündən neçə-neçə ərənlər keçib…

***Aldı Aşıq Alı:***

*Dağlar sinəsindən, yaylaq yolundan,*
*Neçə-neçə pasibanlar keçibdi.*
*Arxasında ləşkər, başında əyan,*
*Neçə xaqan, neçə xanlar keçibdi.*

*Neçə fateh saldı burdan izini,*
*İsgəndərdən bəri deyim yüzünü,*
*Neçə aqil burda yazdı sözünü,*
*Sahib cəlal nə insanlar keçibdi.*

*Məkan, məskan gördüm dağların başın,*
*Kimsə aparmadı ləlin, daş-qaşın,*
*Keçənin, keçmişin kim bilər yaşın,*
*Nə qərinə, nə zamanlar keçibdi.*

*Məğribdən, Məşriqə hökm verənlər,*
*Gəldi, getdi Merac evin görənlər,*
*Neçə həbibullah, neçə ərənlər,*
*Gəlib neçə Süleymanlar keçibdi.*

*Köçdü Loğman, ehtiyacı dərmanda,*
*Neçə ər oğlu ər, başı fərmanda,*
*Cəng eylədi, səri qaldı ormanda,*
*Nalə-fəryad, ah-amanlar keçibdi.*

*Boşaldı neçəsi, doldu neçəsi,*
*Açıldı neçəsi, soldu neçəsi,*
*Qan eylədi, qanlı oldu neçəsi,*
*Alınmayan neçə qanlar keçibdi.*

*Sabahın sübhündə, səba yelində,*
*Ürbəndi sərində, yaqut telində,*
*Köhlən sinəsində, nəqa belində,*
*Bayaz sinə, neçə canlar keçibdi.*

*Şamikən köçəni səhər görmüşəm,*
*Neçə zülm, neçə qəhər görmüşəm,*
*Neçə diyar, neçə şəhər görmüşəm,*
*Abdal Alı biyabanlar keçibdi.*

Aşıq Alının "Kərəmi" üstə ünləməsi Aşıq Səmədin də sinəsini dağladı. Dedi:

-Aşıq Alı! Düzü oxumağın məni də kövrəltdi. İnşallah, Əsmər xanımın da payını palçığa döndərəndən sonra sənə Göyçədə bir toy edəcəm ki, külli-kainatda ruzgarın gözü belə toy görməmiş olsun.

Aşıq Səmədin toy söhbəti Aşıq Alının ürəyinin başını göynətdi. Bəsdi xanım yadına düşdü. Götürdü görək bu yerdə Aşıq Alı nə dedi, tərəfindən biz ərz eyləyək, siz şad olun:

*Yar, yanında günahkaram,*
*Doğru sözüm yalan oldu.*
*Yeriş etdi qəm ləşkəri,*
*Könlüm şəhri talan oldu.*

*Bax bu qaşa, bax bu gözə,*
*Yandı bağrım, döndü közə.*
*Keçən sözü çəkmə üzə,*
*Keçən keçdi, olan oldu.*

*Aşıq Alı sənə qurban,*
*Gəl eyləmə bağrımı qan.*
*Səni məndən ayrı salan,*
*Filan oğlu, filan oldu.*

Söz tamama yetişdi. Aşığın ürəyi od tutub yandı. Götürdü dübarə:

*Nə qədər dolandım Turan elini,*
*Yenə öz torpağım yadıma düşdü.*
*Sarınər yaylağı, Göyçə mahalı,*
*Öz gözəl oylağım yadıma düşdü.*

*Gəlib xəyalımdan keçdi o çağlar,*
*Yay fəsli atlanıb gələn qonaqlar,*
*O güllü, çiçəkli alışan dağlar,*
*O Qiblə bulağım yadıma düşdü.*

*Qızıl dağı, Məciddinin oylağı,*
*Doğma yurdun, doğma odu, ocağı*
*Alının köksündə hicranın dağı,*
*O qaymaq dodağım yadıma düşdü.*

Söz tamama yetişdi. Aşıqlar İstambula getməkdə olsunlar. İndi sizə kimdən deyim, sizə söhbəti uzun illərdən bəri İstambulda yaşayan Türk paşasının qızı ilə xoşbəxt ailə quran Gəncəli Hacı ağadan deyim. Hacı ağa İstambulda bir sözü iki olmayan kişilərdən idi. Olduqca səxavətli, həm də təəssübkeş idi. Əsmər xanımın elanını eşidib öz-özünə dedi:

-Ey dili-qafil! Heç insafdan deyil ki, el-obamdan bir cavan aşıq gəlib İstambulda zənən xeylağının əlində zəbun olsun. Hacı ağa oğlanlarını çağırıb dedi:

-Oğullarım! Bilin və agah olun. Siz gərək bu gündən yol ayrıclarını kəsəsiniz. Çiynində saz olan Aşıq Alı kimdirsə, onu ədəb-ərkanla evimizə dəvət edəsiniz. Nağılçılar dili mübarək olar. Hacı ağanın oğlanları baxdılar ki, budur çiyinlərində saz, iki aşıq İstambulun şəhər darvazasından girha-girdilər. Tanrı-taala elə bil xoş dəqiqələrində, xoş saatlarında qələmi onların hüsnunə çəkmişdi. Hacı ağanın böyük oğlu irəli yeriyib, ədəb-ərkanla salam verdi. Dedi:

:Aşıq qardaş! Aşıq Alı hansınızsınız?

Aşıq Alı:

-Mənəm, -dedi.

Hacı ağanın oğlanları mətləblərini dedilər. Aşıqlar Hacı ağanın dəvətini hörmətlə qəbul etdilər. Bir azdan Hacı ağanın həyətində atdan endilər. Həmyerlilərindən ana torpağın ətrini duyan Hacı ağa çay-çörəkdən sonra mətləbə keçdi. Dedi:

-Oğlum, Aşıq Alı! Çox şadam ki, sənin kimi cavab bir həmyerlinin adı İstambul kimi şəhərdə məmə deyəndən, pəpə deyənə hamının dilinin əzbəridir. Amma oğul! Bil və agah ol. Əsmər xanım neçə ildir ki, 18 aşığı bağlayıb, sazını əlindən alıb, dustaq edib. Onun qorxusundan indi bir aşıq belə bu tərəflərə hərlənməyib. Əgər sən onu bağlasan, o 18 nəfər fağır da zindandan azad ola bilər. Yox bağlaya bilməsən, hamınızın dəfn-kəfəniniz Baş meydanda birdən olacaq. Şər deməsən, xeyir qənşərə gəlməz. Əgər sinəndə bir şey varsa, Allah amanında olsun. Yoxdursa, qonaq Allah qonağıdır. Nə qədər istəsəniz ev-eşiyim sizə peşkəşdir. Onda gərək sizin Aşıq Alı olduğunuzu nə dil bilsin, nə diş. Oğlum! Əsmər xanım zor aşıqdır. Bil və agah ol ki, o, Aşıq Yığvalın tayı deyil. Sinəsi söz xəzinəsidir.

Aşıq Alı dedi:

-Hacı ağa! Atalıq məsləhətiniz üçün çox sağ olun. Onsuz da iki gülşən pəhləvanın birisi basılmalıdır. Mən hələlik saz verməyə adət eləməmişəm. İnşallah, Əsmər xanımın İmran dili Bulğurlu sazını alıb, baş örpəyi ilə gözünün yaşını sildirərəm.

Aşıq Alının cəsarəti Hacı ağaya xoş gəlsə də, ürəyi narahat idi. "Pənah Allaha!"- deyib götürüb Əsmər xanıma belə bir namə yazdı:

"Əsmər xanım! Əvvəl-əvvəl salam-dua. Sonra bil və agah ol ki, Aşıq Alı mənim qonağımdır. Əgər səhərki məclisində yersiz pərtlik olsa, torpaq basdılıq eləsəniz məndən yox, özünüzdən küsün. Onda gərək mən başıma Gəncəli oğlunun papağını qoymayım. İstambul ləçəyi örtəm. Ümidvaram ki, mətləbim sizə əyandır...

Hörmətlə Hacı ağa Gəncəli."

Hacı ağa məktubu müşənbələyb böyük oğluna verdi. Əsmər xanıma çatdırmağı xahiş etdi. Gecədən xeyli keçəndə Hacı ağa baxdı ki, Aşıq Alı elə bərk yatıb ki, qırx başlı əjdahanın nəriltisi də onu ayılda bilməz. Bu Hacı ağanı sevindirdi.

Bəli, əzizlərim! Səhər açıldı. Üzünüzə neçə-neçə xeyirli səhərlər açılsın. Aşıqlar toqqalarının altını bərkidib Hacı ağa və oğlanları ilə Əsmər xanımın qurdurduğu Baş meydana getdilər. Meydandakı insan yığnağını görən Aşıq Səməd özünü itirdi. Dili ağzında quruyub boğazına yapışdı. Dedi:

-Tufannan dağılsın, Aşıq Alı! Durduğumuz yerdə işə düşdük. Qəribqürbətlikdə cavan canımızı ağlamağa bir simsar tapılmayacaq.

Aşıqları meydanda qırmızı gülməxmər geymiş Əsmər xanım qarşıladı. Əsmər xanım da bir Əsmər xanım idi. Allah-taala elə bil xoş saatında, xoş dəqiqəsində qələmini onun gözəlliyinə çəkmişdi. Aşıq Səməd onun qamətinə, xətti-xalına, yüz naz ilə sallanışına heyran qaldı. Davax vurmuş dana kimi ağzının suyu axdı. Öz-özünə dedi: "Xudavəndi aləm! Yaratdığına şükür. Kaş öləndə əzrayılım bu olaydı. Namərdəm "uf" da desəm."

Əsmər xanım Aşıq Alıya "xoş gəldi", -deyib onu meydanın ortasında qoyulmuş stolun ətrafında əyləşən münsiflər heyəti ilə tanış etdi. Hər ikisi münsiflər heyətinin hazırladığı şərtləri oxuyub imza atdılar. Amma Aşıq Alı baxdı ki, ortada iki stul boşdur. Stolun birinin örtüyündə belə bir kəlam yazılmışdır: "Bağladım, qulumsan". O birində isə yazılmışdır ki, "Bağlandın, qulunam." Aşıq Alı hal əhli idi. Heç bir söz demədən "Bağladım, qulumsan" sözü yazılmış stulun üstündə əyləşdi. Heç bir dəvət gözləmədən sazı köynəkdən çıxartdı.

Bunu görən Əsmər xanım dedi:

-Aşıq Alı! Səhv edirsən. Hələ ki, sənin qulun deyiləm.

Aşıq Alı dedi:

-Əsmər xanım! Bil və agah ol, mən ömrümdə heç vaxt səhv etməmişəm. Elə fərz elə ki, bəri başdan ixtiyarımdasan.

Əsmər xanım:

-Aşıq Alı! Nənəm Ərəbzəngi demiş: "Hələ yeməmişdən gəyirmə."

Aşıq Alı:

-Əsmər xanım! Yəqin yadındadır ki, elə mənim babam Şah İsmayıl rəhmətlik də nənən Ərəbzəngini bu sözlərinə görə ram etmişdir.

Əsmər xanım baxdı ki, belə getsə söz altında qala bilər. O idi ki, Bulğurlu sazını ipək köynəkdən çıxarıb, bəmini-bəm, zilini-zil kökləd̈i. Basdı turunc məmələrinin üstünə. Dedi:

-Aşıq Alı! Çoxdan idi ki, bir aşıq üçün gözləməkdən gözlərimin kökü saralmışdı. Şükür, tanrının böyüklüyünə. İndi qurbanlıq qoyun kimi özün öz ayağınla gəlib çıxdın. Ananı ağlar, yarını dul qoyaram. Bu gün sazını əlindən alıb 18 aşıqla inşallah qanından əlimə həna yaxaram, - deyib Bulğurlu sazını dilə gətirdi.

***Aldı Əsmər xanım:***

*Bir qərib aşıqsan düşüb güzarın,*
*Ver dilinə sən qadağa, gəlmisən.*
*On səkkiz aşığı bəndə salmışam,*
*Cümləsinə sən sadağa gəlmisən.*

***Aldı Aşıq Alı:***

*Yad olub sinəmə bisəmər huşum,*
*Oddan xof eyləməz Səməndər quşum,*
*Laf eyləmə, hədyan eşitməz guşum,*
*Aç mətahın, yoxlamağa gəlmişəm.*

***Aldı Aşıq Alı:***

*Al cavabını deyim: Ay Əsmər xanım,*
*Qollarını bağlamağa gəlmişəm.*
*Sazını, sözünü bir də özünü,*
*Dustaq edib saxlamağa gəlmişəm.*

***Aldı Əsmər xanım:***

*Əsmərəm, qəddini döndərrəm yaya,*
*Kimsənən yoxdur ki, yetişə haya,*
*Alaram sazını, düşərsən vaya,*
*Söylə görüm, nə sorağa gəlmisən?*

***Aldı Əsmər xanım:***

*Dada yetər Cəbrayılın ustası,*
*Əlimdən tutarsan tükənməz yası,*
*Yoxdu səndə aşıqlığın siması,*
*Bu diyara sən nasağa gəlmisən.*

***Aldı Aşıq Alı:***

*Çağırram Əlini, həm Mustafanı,*
*Quraram şəninə haqqı divanı.*
*Alını sənətdə bir sərraf tanı,*
*Sən Əsməri bağlamağa gəlmişəm.*

Əsmər xanım fürsəti-fövtə vermədi.

***Götürdü dübarə:***

*Saqın meydanımdan ay cavan aşıq,*
*Səni qara qəpik pul eylərəm mən.*
*Düşərsən əlimdə sönməz atəşə,*
*Yandırıb cəsədin kül eylərəm mən.*

***Aldı Aşıq Alı:***

*Qəza tutdu, düşdün sərraf əlinə,*
*Yahu etsən, kəlmə gəlməz dilinə,*
*Mərdlər uya bilməz namərd felinə,*
*Qalalar dağıdıb yol eylərəm mən.*

***Aldı Aşıq Alı:***

*Gəl sənə söyləyim, ay Əsmər xanım,*
*Çox sənin kimisin qul eylərəm mən.*
*Divani, təcnisə çəkərəm səni,*
*Ağlını zay, dilin lal eylərəm mən.*

***Aldı Əsmər xanım:***

*Yaxşı düşdün sən Əsmərin girinə,*
*Hədyan deyib, sözü salma dərinə,*
*Minərəm belinə köhlən yerinə,*
*Arpa-samanını bol eylərəm mən.*

***Aldı Əsmər xanım:***

*Al məndən nəsihət, sirr vermə yada,*
*Çəkdiyin zəhmətin tez gedər bada.*
*On iki şəyirdim vardı bəyzada,*
*Səni də onlara qul eylərəm mən.*

Aşıq Alı baxdı ki, Əsmər xanım ərsiz arvad, yüyənsiz at söhbətinə keçdi. Sözündə, abır-ismətə məhəl qoymadı. Gözü həmyerlisi Hacı ağaya sataşdı. Hacı ağa dedi:

-Oğul, Alı! Daha abırdan keçib. Utanma, hərcayi sözün, mərcayi cavabı olar. Saqqalı ələ vermə, cavabını ver.

*Aldı Aşıq Alı:*

*Aşıq Alı təvəkküldü pirinə,*
*Yetmək olmaz ərənlərin sirrinə,*
*Kükülənmiş qancıq kimi hürümə,*
*Arpadan yalını bol eylərəm mən.*

Söz tamama yetişdi. Əsmər xanım baxdı ki, Aşıq Alı hələ yenicə qızışır. Qəsdən onu pərt etmək üçün dedi:

-Ə, Aşıq Alı! Kəlmeyi-şəhadətini oxu, Hacı ağaya, gözü yolda qalanlarına vəsiyyətini elə. Ölüm qabağı amandasan. Sonra gec olar.

Aşıq Alı:

-Əsmər xanım! Ağı demək bizlərdə qadın peşəsidir. O ki, qaldı ölməyə, mən İstambulda ölmək üçün gəlməmişəm. Nə çoxdu Qafqazda səfalı yerlər. Əgər ölməli olsam, orada dəfn edərlər. Amma bil və agah ol, bizlər qəribqürbət ellərdə can vermirik, can alırıq. İnşallah! Sənin də ağ gününü göy əsgiyə düyüb 18 aşığı da azad edərəm. Sonra gecavanı qara geydirərəm.

Aşıq Alının sözlərindən qeyzlənən Əsmər xanım götürdü görək nə dedi:

*Aşıq olub bu diyara gələnin,*
*Əzəl başdan pür kamalı düz gərək.*
*İgid odur mərd meydanda dayana,*
*Dura müqabildə üzbə-üz gərək.*

*Aldı Aşıq Alı:*

*Yaxşı yerdə düşdün mənim cəngimə,*
*Cəngimdən çıxmağa bir hünər gərək.*
*Maya dura bilməz nər meydanında,*
*Meydana girməyə nərə-nər gərək.*

*Aldı Əsmər xanım:*

*Fərzənd xar olanda çəkər dərd ana,*
*Ha cəhd edə, ola bilməz nər dana,*
*Arif olan cavab verər mərdana,*
*Sinəsində qıfılbəndi yüz gərək.*

*Aldı Aşıq Alı:*

*Namərd dala çəkər, mərdlər qabağa,*
*Əlimdən qaçarsan arana, dağa,*
*Şahin kimi göydə qanad çalmağa,*
*Havada süzməyə balü pər gərək.*

*Aldı Əsmər xanım:*

*Əsmərəm, haqqımı haqdan umaram,*
*Sədaqətdə Sənan üçün Xumaram.*
*Bir qəvvasam dəryalara cumaram,*
*Nabələdə bəhri ümman, üz gərək.*

*Aldı Aşıq Alı:*

*Camalın şoqundan Alıdı diltəng,*
*Eşqin sövdasını eyləmisən cəng,*
*Sən ümman pərisi, mən də bir nəhəng,*
*Hikmət anlamağa aqil sər gərək.*

Söz tamama yetişdi. Gəncəli Hacı ağa baxdı ki, Alı çox zor aşıqdı. Amma Əsmər xanım torpaqbasdılıq edir, aşıq ədəb-ərkanını pozur. Elə hey qabaqca özü deyir. Dedi:

-Hazarat! Deyişmə adətinə görə indi də qabaqca Aşıq Alı desin, Əsmər xanım cavab versin.

Məclis əhli:

-Hacı ağa doğru deyir. Qərib aşığa da fürsət verilsin.

Aşıq Alı:

-Hazarat! Bizlərdə adətdi yolu zənən xeylağına verərlər. Əsmər xanımın xatiri nə qədər istəyir izindədir. Xam dayçanı boğmaq üçün comərdin bir kəməndi bəsdir.

Aşıq Alının sözlərindən qeyzlənən Əsmər xanım qıfılbəndə keçdi.

*Aldı Əsmər xanım:*

*Səndən xəbər alım, ay Aşıq Alı,*
*O nədir ki, onda dürrü hal olur?*
*O nədir ki, hey dolanır nam üstə,*
*Nə sayaq düzülür, dalbadal olur?*

*Aldı Aşıq Alı:*

*Yeddi gün üstündə dağları aşır,*
*On iki ayında karvanı düşür,*
*Dörd fəsil içində xörəyi bişir,*
*Üç yüz altmış altı payimal olur.*

*Aldı Aşıq Alı:*

*Al cavabın deyim, ay Əsmər xanım,*
*O dünyadır onda dürrü xal olur.*
*Günlərdi dolanır əsil nam üstə,*
*Həftəsi, ayları dalbadal olur.*

*Aldı Əsmər xanım:*

*O nədir ki, göydən endi qarasız?*
*O nədir ki, bu dünyada çarasız?*
*Əsmər deyər, nə şəhərdi darğasız?*
*Onu tapan aşıq pürkamal olur?*

*Aldı Əsmər xanım:*

*Neçə gün üstündə dağları aşır?*
*Neçə mənzilində karvanı düşür?*
*Neçə qazanında xörəyi bişir?*
*Neçə məcməidə payimal olur?*

*Aldı Aşıq Alı:*

*O Qurandır göydən endi qarasız,*
*O ölümdü bu dünyada çarasız,*
*Məzarxana bir şəhərdi darğasız,*
*Alı hara gedir, qalmaqal olur.*

Söz tamama yetişdi. Bəli, əzizlərim, düz 3 gün idi ki, aşıqlar Baş meydanda ərəsət divanı qurmuşdular. Amma heç bir kəs biri-birinə zor gələ bilmirdilər. Əsmər xanım öz-özünə dedi: «Sən gəl bu cavan aşığı dinlər tarixində bərkə-boşa sal, imtahan elə. Bəlkə dolaşdı.»

*Aldı Əsmər xanım:*

*Ver cavabım, sən ay Aşıq Alı,*
*O kim idi dörd şey yetişdi bara?*
*Hansı qəza gəldi düşdü araya?*
*Neçəsi şad oldu, neçəsi qara**

*Aldı Aşıq Alı:*

*Fatmeyi-Zülfüqar, Düldüli-Qənbər,*
*Ol şahi-mərdana verildi barat.*
*Kərbəla söhbəti keçdi aradan,*
*Üçü şad, xaneyi-Fatimə qarat.*

*Aldı Əsmər xanım:*

*O kim idi, hannan-hana atdılar?*
*Saxla deyə, kimə əmir etdilər?*
*O kim idi, cismin oda tutdular?*
*O kim idi, ona etdi iltifat?*

*Aldı Aşıq Alı:*

*Adəmi, Həvvayla yerə atdılar,*
*Saxla deyə yerə əmir etdilər*
*İbrahimdi cismin oda tutdular,*
*Sara idi, ona etdi iltifat.*

*Aldı Əsmər xanım:*
*Mən Əsmərəm, budur sözümün düzü,*
*Haqq nədən yaratdı qızıl öküzü?*
*Neçə əl-ayağı, neçədir gözü?*
*Neçə min tükü var gətir bir isbat?*

Aşıq Alı baxdı ki, Əsmər xanımın söz bazarı kasadlayır, köhnə palan içi tökür. Onu keçmiş əfsanələrə çəkir. Öz-özünə dedi: «Adamdır, qoy xətri qalmasın. Bu suala da cavab verim».

*Aldı Aşıq Alı:*
*Aşıq Alı deyər: xaliqin özü,*
*Oddan xəlq eylədi qızıl öküzü.*
*Dörd əl-ayağı var, ikidi gözü,*
*Ulduzun sanında tüküdür isbat.*

Söz tamama yetişdi. Münsiflər heyəti dedi:
-Əsmər xanım! Neçə gündür ki, əvvəlcə sən deyirsən, daha bəsdir. İndi fürsət Aşıq Alınındır.
Aşıq Alı fürsəti-fövtə vermədi. Götürdü görək Əsmər xanıma kilidləmə üstündə nə dedi, tərəfindən qulluğunuza ərz eyləyək, siz şad olun.

*Aldı Aşıq Alı:*
*Yerdə, göydə inni-cinni yox ikən,*
*Haqq əmir eylədi, yer nədən oldu?*
*Pərdəyi nicatdan bir dəsti gəldi,*
*O dəstin içində sirr nədən oldu?*

Aşıq Alı baxdı ki, Əsmər xanımın gül yanağı payızın zəhməri vurmuş nar yarpağı kimi sap-sarı saraldı. Götürdü dübarə:

*Haqq əmirin eylədi göhər tərlədi,*
*Qətrəsi bir dərya ümman eylədi,*
*Kimdən səda gəldi, kimə söylədi?*
*Şahpərin yandıran nar nədən oldu?*

Aşıq Alı baxdı ki, Əsmər xanımın halı özündə deyil. Elə bil qərib-qürbətlikdə Aşıq Alı yox, Aşıq Əsmərdi. Bulğurlu sazı sinəsinə qısıb, sanki ondan imdad diləyirdi. Götürdü dübarə:

*Aşıq Alı, duva istər pirindən,*
*Mərhəmət diləyir xaliq rəhmindən,*
*Hansı dürrü xəlq eylədi nurindən,*
*O dürdən yaranan nur nədən oldu?*

Bəli, əzizlərim! Söz tamam oldu. Aşıq Alı sazla dediklərini, sözlə də dedi. Əsmər xanımın qulaqları ildırım vurmuş adam kimi güyüldədi. Aşıq Alı ilə söz güləşdirmədi. Əsmər xanım Bulğurlu sazı dilə gətirdi. Görək Aşıq bağlamasının əvəzində nə dedi, tərəfindən biz deyək, siz şad olun:

*Başına mən dönüm, Ay Aşıq Alı,*
*Gəl al məni, mən də sənnən varalım.*
*Çox çəkmişəm inan, mən qeylü-qalı,*
*Gəl al məni, mən də sənnən varalım.*

Aşıq Səməd baxdı ki, ayə, Əsmər xanım indi asıb-kəsməkdən yox, Qafqaza gəlin olmaqdan danışır. Dedi:

-Əsmər xanım! Ustadım Aşıq Alı ilə Rumdan gələndə aramızda ilqar kəsmişik. O ilqara əsasən indi sən mənə çatırsan.

Əsmər xanım:

-Aşıq Alı! Bu kimdi yuyulmamış qaşıq kimi ortadan çıxıb, başından böyük danışır?

Aşıq Alı?

-Əsmər xanım! Aşıq Səməd pürkamal sənətkardır. Özü də xalis subaydır. Yoldaşlıqda, dostluqda əhdinə vəfadır.

Aşıq Alının eyhamını anlayan Əsmər xanım özünü o yerə qoymadı. Amma sərraf gözləri ilə Aşıq Səmədi süzdü. Doğrudan da, Səmədin qəddi-qamətinə, xətti-xalına, pəhlivan cüssəsinə söz ola bilməzdi. Bunu görən Aşıq Alı Əsmər xanıma götürdü görək nə dedi, tərəfindən biz deyək, siz şad olun:

*Başına döndüyüm, ay Əsmər xanım,*
*Mən gəlib qürbətdə qala bilmərəm.*
*Mənim gözü yolda intizarım var,*
*Mən gəlib qürbətdə qala bilmərəm.*

Əsmər xanım öz-özünə dedi: «Alı ki, belə zor aşıqdı, gəl onu dostuna etibarda bir də sına.»

***Aldı Əsmər xanım:***
*Mayıl oldum sənin şirin dilinə,*
*Dərya kamalına, gövhər-ləlinə.*
*Qəbul eylə məni apar elinə,*
*Gəl al məni, mən də sənnən varalım.*

***Aldı Aşıq Alı:***
*Dərin-dərin dəryalara dalaram,*
*Şirin canım eşq oduna salaram.*
*Sən Əsməri şəyirdimə alaram,*
*Mən gəlib qürbətdə qala bilmərəm.*

***Aldı Əsmər xanım:***
*Əsmər deyər: sənlə olaydım sirdaş,*
*Ağlaram didəmdən gedər qanlı yaş.*
*Mən sənə bacıyam, sən mənə qardaş,*
*Qardaşımsan, bu ilqarda duralım.*

Söz tamama yetişdi. Əsmər xanım sazla dediyi sözlə də dedi. Bulğurlu sazını qoydu Aşıq Alının qabağına. Aşıq Alı Əsmər xanımın zindana saldığı 18 aşığı azad edib, üzünü tutdu Gəncəli Hacı ağaya:

-Hacı Ağa! Deyirəm, el adətimizə görə Alosmandan gəlinimiz Əsmər xanımı Qafqaza kəbinsiz aparmaq günahdır. Aşıq Səmədlə Əsmər xanımın toyunu İstambulda başlamağımız pis olmazdı. Siz nə deyirsiniz?

Aşıq Alının bu sözlərindən razı qalan məclis əhli Baş meydanda qoyulmuş stolun üstünə o qədər nəmər tökdülər ki, İstambulun əli qələmli mirzələri onu 3 gün 3 gecəyə hesaba almaqda çətinlik çəkərdi.

Hacı ağa dedi:

-Hazarat! Mübarək işə, mübarək deyərlər. Hamınızı toya dəvət edirəm.

Qasid göndərdilər. Qazı çağırdılar. Elə meydandaca Aşıq Səmədlə Əsmər xanımın mübarək kəbinini kəsdilər. Gəncəli Hacı ağa el-adətilə Aşıq Səmədlə Əsmər xanımın İstambulda yeddi gün, yeddi gecə bir toy məclisi keçirdi ki, Alosmanda onun tayı-bərabəri olmamışdı. Aşıq Alı toyaxırı onların mübarək duvaqqapmasını oxudu. Bir neçə gün də Əsmər xanımın xanəgahında qaldılar. Çəkidə yüngül, vəzndə ağır şeylərdən götürüb, Hacı ağa və oğlanları ilə halal-hümmətdən sonra üz tutdular Rumlu Cəfər paşanın mənzilinə.

Gecəni-gündüzə qatıb yetişdilər Ruma. Cəfər paşa onların pişvazına çıxdı. Bir neçə gün evində qonaq saxlayıb kamal-ədəblə hər üçünü adına layiq Qafzaqa yola saldı. Aşıqlar ya mədəd səndən! –deyəndə Cəfər paşa Aşıq Alıya bir möhürlü kağız da uzatdı. Dedi:

-Al, oğlum! Yolda gərəyin olar. Qaçaq-quldura, azan-təzənə rast gəlsəniz bu kağızı göstərin. Möhürümdən tanıyıb, sizə toxunmazlar.

Aşıq Alı:

-Paşam sağ olsun! Biz el aşığıyıq. El sənətkarına toxunan obasının urvatına toxunar, -deyib Cəfər paşa ilə halal-hümbət elədi. Götürdü sazı sineyisandığa. Aldı görək Aşıq Alı nə dedi, biz deyək, siz şad olun:

*Qohum-qardaş yenə düşdü yadıma,*
*Dedim, könül, bir səfərim var, gedək.*
*Heç görmədim əhdə peyman olanı,*
*Nadan qurdu tərlan üçün tor, gedək.*

*Onu gördüm atdım dərdi, vərəmi,*
*Mübarək dəstindən aldım salamı,*
*Götürdüm əlimə dəftər-qələmi,*
*Könlüm istər o dağlardan qar, gedək.*

Cəfər paşa Alının sözlərindən elə anşırdı ki, Aşıq deyəsən ondan narazı gedir. Dedi:

-Oğlum, gərək ki, mən səni adıma layiq yola saldım. Bəs niyə belə sözlər oxudun?

Aşıq Alı dedi:

-Cəfər paşa! Allahdan gizli olmayanı, səndən nə gizlədim. Evdə verdiyim vədədən bir ildən çox keçir. Bir gecə yuxumda gördüm ki, Niftalı bəy deyəsən əhdi-peymanına dönük çıxır. Odur ki, qubarlandım, -deyib, götürdü görək tapşırma bəndində nə dedi:

*Alı təkdir, qürbət eldə dolanır,*
*Oğrun-oğrun yar oduna qalanır.*
*Ağ əllərə toy xınası bulanır,*
*Xoryad üzdü güllü bağdan nar, gedək.*

Söz tamama yetişdi. Aşıqlar yön aldılar Qafqaza. Köhlən atlar nəqqarə kimi ağızlarını açıb qırdı yolun damarını. Aşıq Alı bir də baxdı ki, budur, Ağrı dağını haqlayıblar. Dedi:

-Uşaqlar Bilin və agah olun. Ağrı dağının ətəyində Cəlalı Kürd adlı bir harami peyda olub. Onun qorxusundan bu həndəvərlərdən qəflə-qatır keçmir. Qatır keçsə dırnaq, quş səksə qanad salır. Sərvaxt olun. İşdir, bir ənərəncinərən görsəniz, tez mənə xəbər eyləyin.

Aşıq Alı sözünü yenicə qurtarmışdı ki, Aşıq Səməd dedi:

-Ustad! Qurd de, qulağını bur. Odur ey, bir neçə atlı sərcə görmüş ley kimi üstümüzə şığıyır.

Aşıq Alı:

-Əsmər xanım! Siz qorxmayın. Atdan enin. Yerinizdən tərpənməyin. Mən onlara bir toy tutum ki, adlarını yadlarından çıxartsınlar, -deyib tez yaxınlıqdakı iri sal qayaya mətərisləndi. Haramilər Əsmər xanımla Aşıq Səmədi qomarladılar. Aşıq Alı sazını silah kimi qayanın arxasından onlara tuşladı. Dedi:

-Ədə, harami uşağı! Tərpənməyin! Nə qədər ki, sizi cəhənnəmlik eləməmişəm silahlarınızı tökün, əllərinizi qaldırın! Kürdlər səsə qanrılıb baxanda gördülər ki, ayə, budur bir zəhmli silah onlara tərəf tuşlanıb. Naəlac qalıb silahlarını tökdülər yerə. Bu o vaxt idi ki, Calalı Kürd durbinlə baxırdı ki, görsün bugünkü qənimətlərini ata necə döşlədəcələr. Amma nə gördü? Baxdı ki, kürdlər silahlarını töküb əllərini göyə qaldırıblar. Əvvəl-əvvəl elə bildi ki, kürdlər qənimətin çoxluğundan Allaha şükür edirlər. Sonra anladı ki, bu dua əhvalatına oxşamır. O idi ki, tez köhlənin yalmanına yatdı. Özünü yetirdi yoldaşlarına. Dedi:

-Ay insan! Hər kəssən çıx daşın dalından. Mənim igid adamlardan xoşum gəlir. And içirəm babamın çatmasına! Dəymərəm, amandasan.

Aşıq Alı Calalı Kürdün mərdliyi haqqında çox eşitmişdi. Bilirdi ki, o andını basan deyil. O idi ki, saz əlində qayanın arxasından çıxdı. Əl atdı ki, Türkiyə səfərində məclislərdən qazandığı nəmərlərdən ona ənam versin. Bunu görən Calalı Kürd dedi:

-Aşıq qardaş! Bir olan Allah şahiddir ki, bizim işimiz kasıb-kusublarla aşıqlarla yox, tacir-tuccar, xan-xavanlarladır. Amma sizdən bir diləyim var. Doğrudan da, kamil aşıqsansa gərək başı buludlardan, ayağı xan Arazdan bac alan bu Ağrı dağına könül açan bir tərif deyəsən.

Aşıq Alı «bəçeşm» -deyib, sazının bəmini-bim, zilini-zil elədi. Götürdü görək Cəlalı Kürdün istək-arzusunu necə yetirən yetirdi, tərəfindən biz deyək, siz şad olun:

*Havalanıb ərz üzünə qalxmısan,*
*Dağların sultanı nər, Ağrı dağı.*
*Bahar əyyamıdı, zimistan keçib,*
*Əksilməz sərindən qar, Ağrı dağı.*

*Yenə yada düşdü cənnətin bağı,*
*Neçə qapısı var, neçə tağı.*
*Nuh gəmisi, peyğəmbərin bulağı,*
*Saysız sirrilərin var, Ağrı dağı.*

*Ormanında xan atlanar, xan düşər,*
*Leşkər gələr, mahallara qan düşər.*
*Cümlə dağdan günəş sənə dan düşər,*
*Eylərəm şöhrətin car, Ağrı dağı.*

*Ərimez buz dağı, il üstən keçər,*
*Elə ormanın var gülüstan keçər.*
*Sərindən açılmaz zimistan keçər,*
*Ətəyində bağça-bar, Ağrı dağı.*

*Müəmman var, Alı üçün sirridi,*
*Şamdan əvvəl bir tərəfin yeridi.*
*Tozun qalxıb İravanı bürüdü,*
*Etdin Axuranı xar, Ağrı dağı.*

Bəli, söz tamama yetişdi. Aşıq Alı sazla dediyini, sözlə də dedi. Cəlalı Kürd baxdı ki, ayə, bu bir aşıqdır ki, yemə-içmə, xətti-xalına tamaşa et. Oxumağı hələ ondan da gözəl. Aşıq Alının Ağrı dağına dediyi sözləri Calalı Kürdün döşünə yatdı. Əl atdı cibinə, bir ovuc daş-qaş çıxarıb, qoydu aşığın sazının sinəsinə. Bunu görən harami kürdlər də Aşıq Alıya layiqli nəmər verdilər.

Aşıq Alı kürdlərlə halal-hümmət edib, üz qoydu İravan çuxuruna. İravana çatanda Aşıq Alı Aşıq Səmədin də nəmər payını verdi. Hər üçü əhdi-peyman bağlayıb, aralandılar. Aşıq Alı üz qoydu Göyçəyə.

Bəli, əzizlərim! Aşıq Alı yolun damarını qırmaqda olsun. İndi sizə xəbər verim Qızılvəngli Niftalı bəydən. Niftalı bəy Kalvayı Mirzəni çağırıb dedi:

-Kalvayı! Bir olan Allah şahiddir ki, mən sözümün ağası oldum. Sizlə bağladığım ülfətdən nə az, nə çox, düz bir il üç ay keçir. Bu tərəfdən də elçilər qapını yağır edib, oğlundan da ki, bir xəbər-ətər yoxdur. Mən qızımın bəxtini bağlayıb, evimdə un çuvalına tay edə bilmərəm. Səninlə olan qohumluq əhdi-peymanım bu gündən pozulur. Sənə məsləhət görərdim ki, günahdır. Oğluna heç olmasa il ehsanı ver. Bu Allaha da, bəndəyə də xoş gedər. Sabah elçilərim gəlir. İnşallah, şənbə günü xeyir işə başlayacağam.

Bəydən bu sözləri eşidən Kalvayı Mirzənin ürəyinin başı göynədi, korpeşman evinə qayıtdı. İndi başa düşdü ki, türk yasavulları oğlunu qızıl gülləyə qurban eləyiblər. Ər-arvad qapını bağlayıb, Alının paltarını tökdülər qabaqlarına. Əl elədilər gözlərinin qorasına. Gözləri kor olana qədər yaşlarını sıxdılar. Bu tərəfdən də Niftalı bəyin tənəli sözləri Kalvayı Mirzənin qırdı belini. Fatma arvad gördü ki, kişisində hey qalmayıb, təsəlli üçün dedi:

-Ay Kalvayı! Allahın yazısına pozu olmaz. Amma, kişi, özün həmişə deyərdin ki, evdə birin ölüncə, çöldə minin ölsün.

-Eh, rəhmətliyin qızı! Sən də təsəlli verməyə adam tapdın. Mənim çırağım sönüb, ocağım qaralıb. Sənsə…

Kalvayının sözü ağzında qaldı. Qapı döyüldü. Kalvayı Mirzə:

-Kimsən, ay insan? Keç içəri, qapı açıqdır.

Aşıq Alı:

-Allah qonağıyam, ay ata! Bu gecəliyə qonaq qəbul etməzsinizmi?

-Oğul! Qonaq Allah qonağıdır.

Aşıq Alı baxdı ki, bu bir ildə atası-anası elə ixtiyarlaşıblar ki, görsə yağının da yazığı gələr. Amma ata-anasının nə isə gözləri nəmli, ürəyi qəmlidir. Dedi:

-Ateyi-mehriban! Sizə nə dərd üz verib belə qəmlisiniz? Deyin, bəlkə bir əlac elədim, köməyim dəydi.

-Oğul, fələk çırpan qapını, bəndə aça bilməz. Bizim dərdimiz oğul dərdidir. O, aşıq idi. Gedər-gəlməzə getdi. İxtiyar vaxtı belimizi qırıb, bizi köməksiz qoydu. İndi bu gün, sabah nişanlısını da başqasına verəcəklər.

Alı gördü ki, bir az da belə getsə ürəyi partlayacaq. Götürdü görək özünün gəlməsini ata-anasına necə isnad verdi. Tərəfindən biz deyək, siz şad olun:

*Canım ata, gözüm ata,*
*Ağlama ata, ağlama.*
*Sənə qurban özüm ata,*
*Ağlama ata, ağlama.*

Səsindən oğlunu anşıran *Kalvayı Mirzə*:

*Canım oğul, gözüm oğul,*
*Ağlaram oğul, ağlaram.*
*Sənə qurban özüm oğul,*
*Ağlaram oğul, ağlaram.*

***Aldı Aşıq Alı:***

*Nə olubdu yara deyin,*
*Sözünü aşkara deyin.*
*Alıya bir çara deyin,*
*Ağlama ata, ağlama.*

***Aldı Kalvayı Mirzə:***

*Mən Mirzəyəm, bu dünyada,*
*Dərdimdir həddən-ziyada.*
*Sevgilin verdilər yada,*
*Ağlaram oğul, ağlaram.*

Söz tamama yetişdi. Alı ilə ata-anası yaz sarmaşığı kimi bir-birinə sarmaşdılar. Bu minvar ilə sabahı açdılar. Üzünüzə mübarək sabahlar açılsın.

Xoruzun ilk banından Qızılvəngə səs düşdü ki, Aşıq Alı İravanda Aşıq Duraxanın, Rumda Aşıq Yığvalın, İstambulda 18 aşığı bağlayıb zindana salan Əsmər xanımın dizlərini yerə gətirib, bağlayıb. İndi yeddi arxadan dolananına çatacaq ənamla Qızılvəngə qayıdıb. Söz-sovu eşidən Niftalı bəy tutduğu işdən peşman oldu. Günah-vəbalını yumaq üçün zurnaçılara səhər sazını başlatdı. Aşıq Alını da təzəbəy kimi evinə dəvət etdi. Aşıq Alı qardaşı Səmədə və bacısı Əsmər xanıma xəbər göndərib toyuna dəvət etdi.

Toyun şirin yerində Aşıq Alı baxdı ki, sevgilisi Bəsdi xanım qırx incə belli qızın içərisində hər kirpik çaldıqca gözlərindən Pəri bulağı kimi gildir-gildir yaş süzülür. Ürəyi qubarlandı. Dedi:

-Aşıq Səməd! Sazının sinəsini bir mənə tut:

*Aylar, illər mənim yolum gözləyən,*
*Ala gözlüm, Bəsdi xanım, ağlama.*
*Yandırıb bağrımı sən kül eylədin,*
*Sənə qurban şirin canım, ağlama.*

*Vaxt vardı, beləydi bizlərdə adət,*
*Varlı yoxsula verərdi əziyyət.*
*Bizə də bir qapı açılar əlbət,*
*Alagözlüm, var gümanım, ağlama.*

*Mən Aşıq Alıyam, illər ayrısı,*
*Bülbüləm bağçanda güllər ayrısı.*
*Məcnun tək düşmüşəm çöllər ayrısı,*
*Sənə qurban şirin canım, ağlama.*

Söz tamama yetişdi. Aşıq Alı baxdı ki, Bəsdi onun yalvarışından mileyimləndi. Götürdü dübarə:

*Sən şəmsi, mən kənarında sitarə,*
*Rüsxət ver sərinə dolanım, Bəsdi!*
*Can fəda eylərəm, ey mahiparə,*
*Budur sərmayədən olanım, Bəsdi.*

*İqbalım dadıma yetmədi bir an,*
*Sitəmindən oldu can evi viran,*
*İstərsən gəzərəm İranı, Turan,*
*Qürbət diyarlara yollanım, Bəsdi.*

*Kərəməm, Əslisiz giryan neylərəm?*
*Məcnunam, dəştidə üryan neylərəm?*
*Nəinsaf, halıma bir yan, neylərəm?*
*Sənsən canı verib, alanım, Bəsdi.*

*Umma mərhəməti qəni daradan,*
*Əgər sevirsənsə çıxaq aradan.*
*Kərəm hasil olar nadir çaradan,*
*Tərsinə odlara qalanım, Bəsdi.*

*Dərhi cifə çoxlarını tövladı,*
*Uydu baban rəsulları qovladı.*
*Alı sənlə bir diyarın övladı,*
*Qoyma yad ellərə calanım, Bəsdi.*

Söz tamama yetişdi. Aşıq Alı baxdı ki, ey dili-qafil, Bəsdi su sonası kimi silkinib, gərdan çəkib, baxan deyir, qoy bir də baxım. O idi ki, Aşıq Alı sazın kökünü dəyişib zil-bəm etdi. Götürdü görək nə dedi. Tərəfindən biz deyək, siz şad olun:

*Gözəllər şahıdı nazlı nigarım,*
*Kimsənə Bəsdiyə tay ola bilməz.*
*Xilqətinə xudasından verilən,*
*Bundan qeyri cəlil pay ola bilməz.*

*Şəms oldum aləmə aqil sözümlə,*
*Ucalmışam, cəfalara dözümlə,*
*Nainsaf, seyr eylə yarı gözümlə,*
*Hilal qaşı kimi yay ola bilməz.*

*Buğdayıya qara dedin, a zalım?*
*Bir an görməyəndə pozular halım.*
*Odu pəri nisbət şəmsi-camalın,*
*Şəbahəti ulduz, ay ola bilməz.*

*Kanaram qüssədən başdan-binadan,*
*Cəlil xilqət törər, cəmil anadan.*
*Ah gövhər sərrafıdı, a nadan,*
*İnşallah cəfası zay ola bilməz.*

Söz tamama yetişdi. Hamı Niftalı bəylə Kalvayı Mirzəyə gözaydınlığı verdilər. Məclisin yeddinci günü aşıq Səmədlə Əsmər xanım qarşı-qarşıya Aşıq Alıdan güllü qafiyə üzərində Alı ilə Bəsdi xanımın duvaqqapmasını götürdü görək necə oxudular. Tərfindən biz ərz eyləyək, siz şad olun:

*Bir nişan istədim, gülüzlü yardan,*
*Dirsəyin göstərdi: «Alısan» dedi.*
*Dedim: «Ay qız, köçdüm sənnən*
*əl çəkdim»,*
*«Həlbət bir yadına salısan» - dedi.*

*Dedim: «Ay qız, qəmnən dəftər*
*bağlaram»,*
*Dedi: «Baxma nişanını saxlaram»,*
*Dedi: «Həsrətindən, bilnən, ağlaram,*
*«Qorxma, yaxın vaxtda gülüsən» - dedim.*

*Dedim: «Ay bəxtəvər, bu nə büsatdır?»*
*Dedi: «Nəzər eylə gör nə sufatdır*»,*
*Dedim: «Çeşmin yaşı yeri islatdı»,*
*«Verrəm dəsmalımı, silisən» - dedi.*

*Dedim: «Ay qız, nə gözəldir şamama»,*
*Dedi: «Dərmə, ömrün yetər tamama».*
*Dedim: «Ay qız, əl uzadım butama»,*
*«Özünü nüfuzdan salısan» - dedi.*

*Dedim: «Xəstələrin can dərmanısan»,*
*Dedi: «Aşiqlərin kərəm kanısan».*
*Dedim: «Ay qız, mənim adım tanısan»,*
*«Əvvəldən bilirəm, Alısan» - dedi.*

Bəli, əzizlərim! Söz tamama yetişdi. Aşıq Səmədlə Əsmər xanım qardaşları Alı ilə Bəsdi xanımın mübarək işinə xeyir-dua verdilər. Onlar xoşbəxt ömür sürüb yüzü aşdılar, görüm sizi də iki əlli yaşa dolasınız. Amin!

## AŞIQ ALI HAQQINDA EŞİDİB BİLDİKLƏRİM

Oxucuların nəzərinə çatdırım ki, Dərələyəz uzunömürlülər məskənidir. Qafqazın məşhur tədqiqatçısı, alman tarixçisi Şopen 1852-ci ildə yazdığı kitabında göstərir ki, Azərbaycan Qafqazın İsveçrəsidir. Cənnəti xatırladan Dərələyəzin təbiəti burada insanların uzun ömür sürməsinə səbəb olmuşdur.

Mən hal-hazırda 80 yaşın içindəyəm. Mən uşaqlıq və gənclik illərimdə orada 150 il ömür sürən Qalaserli Əli kişini, 130 il yaşayan Nəbilərli Hüseynqulu oğlu Əlini, 120 yaşında olan Qovuşuqlu Fatan qarını, 114 il yaşayan Ayısəsikli Nağı kişini görmüş və onların söhbətlərini eşitmişəm. 1940-cı ildə dünyasını dəyişən 101 yaşlı babam Mirzəli kişinin, 1957-ci ildə həyatdan gedən 107 yaşlı nənəm Ballının, 1982-ci ildə dünyasını dəyişən, canlı ensiklopediya olan 93 yaşlı atam İbrahim Mirzəlioğlundan və yüzlərlə belə adamlardan Dərələyəz folkloru və aşıqlar haqqında çox məlumatlar eşitmişəm.

Dərələyəzdə aşıq sənətinə böyük ehtiram olmuşdur. Mənim ana babam Əmirin və nənəm (anamın anası) Nigarın toyunu Aşıq Ələsgər etmişdir. O, 3 gün çalıb oxumuşdur.

Mən bizim evdə Dərələyəz və Dərələyəzə kənardan gələn aşıqları çox görmüşəm. Atam folkloru, klassik ədəbiyyatı, şəriəti yaxşı bildiyi üçün bu sahələrin mahir bilicisi olduğu, həm də Dərələyəzin bir nömrəli ağsaqqalı olduğu üçün aşıqlar həmişə əvvəlcə gəlib onunla görüşər, onun xeyir-duasın alar və ondan sonra oxu-

yardılar. Göyçədən Aşıq Əsəd, qardaşı Aşıq Məhəmməd, Növrəs İman, Daşkəndli Aşıq Hacı, Qannılı Aşıq Mehdi, Tovuzdan Aşıq Mirzə, Gürcüstandan Aşıq Hüseyn Saraclı, Aşıq Əmrah, Aşıq Əhməd və onlarla belə aşıqlar atamın qonağı olmuşlar.

Mən də bu mühitdə böyüdüyüm üçün aşıq ədəbiyyatına böyük həvəsim olmuşdur. Elə bunun nəticəsidir ki, mən aspiranturaya qəbul olanda ən çox söylənən 9 dastanı sözləri ilə, Xəstə Qasımın, Ələsgərin, Alının və başqalarının yaradıcılığını əzbər bilirdim. Lakin bu ixtisas üzrə dissertasiya yazmaq mənə qismət olmadı və onların çoxu indi yaddaşımdan silinibdi.

Bütün bunları sadalamaqda məqsədim odur ki, mən bu sahə üçün təsadüfi adam deyiləm. Bilmədiyim şeyi də yazmıram .

Aşıq Alı haqqında bildiklərim:

Dərələyəzin yaşlı adamlarının hamısı deyir ki, Dərələyəzin toyları, aşıq məclislərində Ağ Aşıq, Aşıq Alı, Aşıq Cəlil, Aşıq Qəhrəman həmişə məclisin başında olardılar.

Aşıq Alının anadan olmasının, illik yubileyini keçirmək üçün Azərbaycan Respublikası Mərkəzi Komitəsinin birinci katibi Ümummilli liderimiz Heydər Əliyev fərman vermişdi. Bu yubileyə hazırlıq üçün müxtəlif tədbirlər həyata keçirilir və Aşıq Alı haqqında məlumat toplanırdı.

O zaman mənim işlədiyim Azərbaycan Dövlət Pedaqoji İnstitutunda işləyən folklorşünas professor Mürsəl Həkimov Aşıq Alının həyat və yaradıcılığı haqqında məlumat toplamaq üçün 6 aylıq elmi məzuniyyətə göndərildi. O, bu 6 ay müddətində Vedi (həmçinin Qarabağlar), Dərələyəz, Şərur və Göyçəyə getdi, bu yerlərdə olan aşıqlar, ziyalılar, tarixçilər və yaşlı adamlarla, ağsaqqal və ağbirçəklərlə söhbətlər apardı və Alı haqqında çoxlu məlumat topladı. Bakıya qayıtdıqdan sonra folklorşünaslarla, filoloq və tarixçilərlə bu məlumatlarla bağlı söhbətlər apardı. Mən yuxarıda adı çəkilən bölgələri yaxşı tanıdığım, şifahi xalq ədəbiyyatına, xüsusən aşıq yaradıcılığına yaxşı bələd olduğumu bildiyi üçün məni bu məsələlərlə bağlı sorğu-suala tuturdu.

Nəticədə o Aşıq Alı haqqında topladığı məlumatları 72 makina səhifəsində ümumiləşdirdi. Mürsəl Həkimov Aşıq Alı haqqında yazdığı bu məqaləni 2 dəfə mənə oxudu. Birinci dəfə institutda, ikinci dəfə isə Cənub mehmanxanasında. Mehmanxanada Aşıq Alı haqqında məlumat toplayan başqa adamlar da var idi.

Mürsəl Həkimovun gəldiyi nəticə bu idi ki, Aşıq Alı Vedibasarın Gilanlar kəndində doğulmuş, 8 yaşında Şərurun Başnoraşen (Cəlilkənd) kəndində molla məktəbinə qoyulmuş, 12-14 yaşlarında saz çalıb oxumağa başlamış, Kosacanda Ağ Aşığa şəyirdlik etmiş və xeyli müddət Ağ Aşıqla birlikdə Şərur, Dərələyəz və Vedibasarda aşıqlıq etmişdir.

Yaşlı adamlar ona demişdi ki, Aşıq Alının tayfası ilə qonşu kənddəki bir bəyin arasında düşmənçilik düşür. Bəy bunların nişanlı qızını zorla qaçırır, qız da özünü atın üstündən uçuruma atıb öldürür. Sonra da qız sahibləri gəlib onlardan adam öldürür. Bəyin əlindən Alının tayfası Göyçəyə köçür. Bir

hissəsi Qızılvəngdə məskunlaşır, bir hissəsi isə əvvəlcə Göyçənin Qırxbulaq kəndində məskunlaşmaq istəyir, lakin hansı səbəbdənsə sonra Kəlbəcərə gedib orda məskunlaşırlar. Bundan sonra Alı Göyçənin Qızılvəng kəndində yaşayır.

Mürsəl Həkimov Aşıq Alı haqqında eşidib bildiklərini yubileyin hazırlanmasına kömək edən əziz şairimiz Hüseyn Arifə danışır. Hüseyn Arif deyir ki, yubileyə çox az qalır. Belə mübahisəli məsələləri yubileyə çıxarmaq olmaz. O yazdığını ver mənə diqqətlə oxuyum.

Bundan bir neçə gün sonra Hüseyn Arif məşhur, Azərbaycanın fəxri olan akademik Həmid Araslıya müraciət edir və yubiley ərəfəsində mübahisələrə son qoymaq üçün onun rəyini istəyir. Akademik Həmid Araslı qəzetdə çox qısa, məlumat xarakterli fikrini bildirdi ki, Aşıq Alı Göyçədə doğulmuşdur. Mənim fikrimcə bu yazı yubileyi sakit keçirmək üçün atılan addım idi. Odur ki, yubileydə Mürsəl Həkimovun yazdıqlarına toxunulmadı.

Mənə elə gəlir ki, gələcək tədqiqatçılar bu məsələlərdə qaranlıq yer qoymamalı və bu məsələləri dəqiqləşdirməlidirlər.

2006-cı ilin mart ayı idi. Professor Mürsəl Həkimov mən işləyən kafedraya (Müasir Azərbaycan dili kafedrasına) gəlmişdi. Mən ondan kitab istəmişdim, o da bu kitabı (Azərbaycan xalq dastanları, əfsanə-əsatir və nağıl deyimləri kitabını) gətirmişdi. Professor Buludxan Xəlilov da yanımda idi. Məndən soruşdu ki, bu kitab 1999-cu ildə çapdan çıxıbdı, səni maraqlandıran hansı məsələdir? Mən dedim ki, Dərələyəz aşıq məskəni olmuşdur. Dərələyəz camaatının əksəriyyəti Ağ Aşıqla Alını çox sevir, bunlardan çoxlu qoşmalar bilirlər. Həm də Dərələyəz və Göyçə aşıqları həmişə bərabər çalıb oxumuşlar. Aşıq Cəlil, Aşıq Qəhrəman Aşıq Ələsgərlə çox məclislərdə olublar. İndi mən Dərələyəzin folklorunu yazıram, istəyirəm ki, Ağ Aşıq və Süsənbər dastanını və "Aşıq Alının Türkiyə səfəri" dastanını da bura daxil edəm. Bu, Dərələyəz camaatına bir töhfə olar. O, cavab verdi ki, fikrin məqsədə uyğundur. Sonra da dedi ki, mən indi yazdıqlarımın hamısını çap etdirirəm. Amma Aşıq Alı haqqında yazdığım iri həcmdə bir məqaləm çap olunmayıb. Professor Buludxan Xəlilov dedi ki, o məqaləni gətir mən redaktoru olduğum "Dədə-Qorqud" jurnalında çap edim. O cavab verdi ki, məqalə əlimdə yoxdu. Aşıq Alının yubileyində mən onu Hüseyn Arifə verdim, o vaxt onu mənə qaytarmadı. Məndə də səhlənkarlıq oldu. İndi məlumat almışam ki, Hüseyn Arif o yazını Aqstafada, yoxsa Qazaxda Aşıqlar evinə veribdir. İndi ürəyim məni bir az incidir, yaxşılaşan kimi gedib onu gətirəcəm verəcəm çap eləyəsən. Çox keçmədi ki, Mürsəl Həkimov dünyasını dəyişdi. Aşıq Alı haqqında olan məlumatlar hələlik açıqlanmadı.

Aşıq Alı haqqında mübahisələrə son qoymaq üçün aşağıdakı məsələlər ətraflı şəkildə araşdırılmalıdır:

1. Aşıq Alı 8 yaşında Şərurda (deyilənə görə Başnoroşendə - Cəlilkənddə) molla məktəbində oxuyanda Göycədən bura necə gəlib-gedirmiş.

Valideynləri necə razı olmuşlar ki, o bu uzaq məsafədə olan məktəbdə oxusun. Məgər Göyçədə molla məktəbi yox idi?

2. Aşıq Alı nə üçün qoca vaxtı, gözləri tutulanda gedib 15 il Kəlbəcərin Milli kəndində qalmışdır. Qızıl Vəngdə niyə qalmamışdır? Adətən insan qocalanda öz doğmalarını, doğma vətənini axtarar. Bu istək nədən əmələ gəlmişdir?

3. Ağ Aşıq Göyçəyə köçəndə onun 2 böyük uşağı olmuşdur. Bu, Ağ Aşığın dastanında da var. Ağ Aşıq Göyçəyə köçəndə xeyli yaşı var imiş. Aşıq Alı nə üçün bu uzun yolu Şərurda Ağ Aşığın yanına gəlib gedibdir. Məgər orada ustad bir aşıq yox idi ki, Alıya saz çalıb oxumağı öyrətsin?

4. Hansı səbəbdəndir ki, Dərələyəz, Şərur və Vedibasar camaatının əksəriyyəti Aşıq Alını çox sevir və qoşmalarını oxuyur?

5. Nə üçün professor Mürsəl Həkimovun Aşıq Alı haqqında tapdığı geniş məlumat it-bata düşüb, indiyədək çap olunmayıb?

6. Nə üçün Azərbaycanın fəxri sayılan Akademik Həmid Araslının Aşıq Alı haqqında məqaləsi çox qısadır, məlumat şəklindədir? Onun bu məqaləsinin məlumat şəklində olmasının səbəbi nədir?

Arada belə bir söz də gəzir ki, keçmiş Qarabağlar rayonundakı Milli dərəsində olan əhali guya kürddür. Aşıq Alı bura gedib bağlansa kürd olar. Bu həddindən artıq yanlış fikirdir.

Əvvəlcə xalqlara belə göz ilə baxmaq olmaz.

İkincisi Millilərin soyu kürd deyil. Onlar sufizmi yayan türk qəbilələrindəndir. Onlardan bir kənd də Dərələyəzdədir. Dərələyəzin Heşin kəndi Milli dərəsindən gəlmədir. Dərələyəzin bir çox yaşlı adamları, o cümlədən ensiklopedik məlumata malik olan atam İbrahim Mirzəlioğlu deyirdi ki, Millilərin xüsusi adətləri var. Onlar məclislər keçirəndə dərvişlər kimi oxuyar, hətta bəzilərinin ağzı köpükləyərmiş. İsmayıl Şıxlının "Dəli Kür" əsəri əsasında çəkilən "Dəli Kür" filmi kimi, mollalar da dərviş kimi oxuyarmışlar.

Atam Mirzəlioğlu İbrahim Heşin kəndindən olan Camala (sovet sədri), Mamedov Həsənə (hakim), Savalana (kolxoz sədri) və başqa Heşinlilərə deyərdi ki, sizin ildə bir dəfə olan mərasiminiz nə vaxt olacax? Həmin mərasim vaxtı siz özünüzdən çıxırsınız. O vaxt sizə etibar eləmək olmaz...

Nəticə olaraq deməliyəm ki, hər bir xalqın, hər bir tayfanın özünə məxsus adət-ənənələri olmuşdur. Bunlara görə xalqı xırdalamaq olmaz. Məsələyə region prizmasından yox, bütöv Azərbaycan prizmasından baxmaq lazımdır.

## QAÇAQ SƏFƏRALI

## VƏLİ KİŞİ

Sizə kimdən xəbər verim, Səfəralının dədəsi Vəli kişidən. Vəli kişi Qazax mahalından idi. Həm öz kəndində, həm də ətraf kəndlərdə böyük hörməti varıydı. Onun xasiyyəti camaatın xoşuna gəlirdi. O, nə çox varlı, nə də çox kasıbıydı. Orta hal dolanırdı. Yaxşı rəncbər, qoçaq adamıydı. Kənddə heç kəsin xətrinə dəyməmişdi.

Vəli kişi həm də süfrəsi açıq, qonaqsevən bir adamıydı. Qonşu kəndlərin adamları da onun hörmətini saxlayırdılar. Vəli kişinin iki qızı, iki oğlu varıydı. Böyük oğlunun adı İmran, kiçiyinin adı Səfaralıydı. Səfəralının evlənməli vaxtıydı.

Səfəralı Kəlbəcərin Oruclu kəndindən Balaxanım adlı bir qızı sevirdi. O da Səfəralını sevirdi. Balaxanım sayılıb-seçilən tayfadan idi. Məşədi Səfərin, Məşədi Şükürün, Məşədi Alının bacısıydı. Balaxanımı da tay-tuşları, ata-anası Ballı deyib çağırırdılar.

Ağsaqqal, qarasaqqal Vəlinin üstünə düşdülər ki, ay Vəli, bu Səfəralını evləndir, sevdiyi qızı ona al, qoy gözü ordan-burdan kəsilsin.

Atası Vəli Səfəralıya üç gün-üç gecə yaxşı bir toy çaldırıb, Balaxanımı ona alır. Vəli kişi böyük hörmət sahibi olduğundan qonşu mahallardan və kəndlərdən xeyli qonaq gəldi. Vəli kişi toya gələnlərə razılığını bildirdi.

Səfəralı ilə Balaxanım çox mehriban yaşayırdılar. Səfəralı Balaxanımı Ballı deyə çağırır, Ballı da Səfəralıya Səfo deyə müraciət edirdi. Sonralar Səfəralının yoldaşları və camahat da ona Səfo deyə müraciət etdilər. El-oba Səfəralıya qısa olsun deyə və Balaxanımın istəyi ilə Səfo dedilər.

Mahala, kəndə gələnlərin çoxu Vəli kişiyə qonaq olardı. Vəli kişi də adına layiq qonaqlara hörmət edərdi. Vəli kişinin arvadı Bədiyyəcamal da çox hörmətcil, qonaqsevən zənəniydi.

Günlərin birində Qazax mahalına baxan pristav iki nəfər strajniklə Vəligilin kəndinə gəlir. Vəli kişi onları nahara qonaq dəvət edir. O, oğlu Səfəralını çağırıb deyir:

- Tez get bir heyvan gətir qonaqlara kəsək.

Səfəralı kəvşənə getməkdə olsun, sizə Vəlidən deyim. Vəli kişi qonaqların atlarını irahlayır, arpa-samanını verir. Qonaqlara da həyətdəki tut ağacının kölgəsində taxtın üstündə oturmaq üçün yer göstərir.

Vəlinin arvadı Bədiyyəcamal və qızı Günəş taxtın üstünə xalça, nimdər döşəyib başqa iş dalınca gedirlər. Vəli kişi qızı Günəşə deyir ki, ay qızım, aftafanı, dəsmalı götür, qonaqların əlinə su tök, qoy yuyunub sərinləsinlər.

Günəş çox gözəliydi. Uzun saçı, iri qara gözləri, buxağı süddən ağ, elə bil ki, yanağına lalə sancılmışdı. Həddən artıq gözəl olduğundan qız-gəlinlər ona Günəşli deyirmişlər.

Günəşli bir qolunun üstündə dəsmal, o biri əlində aftafa qonaqların əlinə su tökəndə, pristav altdan-altdan onu süzür. Qız utanıb üzünü yana çevirir. Bu eynidə pristav əlindəki suyu qızın üzünə çiləyir ki, qız ona tərəf dönsün.

Qız diksinif ucadan «alçaq» - deyib dəsmalı və aftafanı taxtın üstünə atır. O, ev damına – anasının yanına qaçır və deyir:

- Atam niyə hər yoldan ötən iti-qurdu evə gətirir?

Bədiyyəcamal soruşur ki, qızım, nolub, niyə belə hirsdənmisən?

Qız əhvalatı anasına danışmaqda, Vəli kişi içəri girməkdə.

Bədiyyəcamal əhvalatı olduğu kimi ərinə danışır. Vəli kişi sükut içində çıxanda görür ki, Səfəralı atın üstündə, qucağında da bir erkək quzu özünü həyətə yetirdi. Vəli kişi acıqlı-acıqlı Səfəralıya deyir:

- Oğul, Səfəralı, heyvanı apar pəyəyə, atı da bağlıyıf tez bura gəl.
- Atı buraxıf heyvanı kəsimmi?
- Yox, heyvanı kəsməkdən keçdi, atı da buraxma.

Səfəralı görür ki, atası çox bərk hirslənif. Atı bağlayır, erkəyi də pəyəyə salıb gəlir atasının yanına.

Vəli kişi deyir:

- Oğul, bizim bu qədər qazandığımız hörmət heç oldu. Həlbət bizim çörəyimiz qanla yoğruluf. Biz bu təhqir altında qala bilmərik. Elin, obanın qanını soran bu alçaq pristav bacının üzünə su çiləyib. Halal olsun Günəşliyə, o da şərəfsizin cavabını yaxşı verib. Amma nə olsun? Atalar deyib ki, otuz iki dişdən çıxan, otuz iki mahala yayılar. Bu hadisəni qonum-qonşu, ətraf kəndlər, bütün mahal eşitsə biabır olacağıq. Onlarla hesablaşmalıyıq, əclaf o birilərin də qanına bais oldu.

Səfəralı o saat atasının fikrini başa düşdü. Belindəki xəncərə əl atanda, Vəli kişi deyir:

- Ay oğul, hövsələsizlik eləmə, qanı da ocağımıza tökmə. Səfəralı bir qədər fikrə getir, xəncəri qınına qoyuf içəri keçir.

Səfəralıgilin evlərinin arxası qalın meşəliy idi. Qonaqlara deyir ki, durun gedək meşə ətrafına gəzinək, ta ki yemək hazır olsun.

Qonaqlar silahlarını evdə qoyuf bayıra çıxırlar, meşəliyə tərəf üz tuturlar. Yavaş-yavaş meşənin içiynən addımlamağa başlayırlar. Meşənin lap dərin yerində Səfəralı geri dönüb soruşur ki, kimiydi bacıma su atan?

Heç kim dinmir. Pristav deyir:

- Ayə, Səfəralı, nə deyirsən, dəli olmusan, nədi?

Səfəralı deyir:

- Sənin o pis, əxlaqsız hərəkətin əlbəttə ki, məni dəli eləyib.

Səfəralı əl atır xəncərə. Əvvəlcə pristavı, sonra o birisini cəhənnəmə vasil eləyib qayıdır geri. Atası Vəli kişiyə deyir:

- Ata, mən öz işimi bitirdim, ta sözün nədi?

Atası deyir:

- Bundan sonra ta bizim burada qalıb yaşamağımız keçdi, gecəni araya salaq, bu vilayətdən çıxaq.

Heylə də olur. Vəli kişi gündüzü günbatana qədər əl-ayağın yığır, necə deyərlər, ağırın töküb, yüngülünü götürür. Əl-ayağı yığıb hazır olurlar. Elə gün batan kimi malı-dövləti töküb hərə bir ata süvar olub, arvad-uşaqlı dağlara tərəf gedirlər. O vaxt Vəli kişi eşitmişdi ki, Göyçə, Dərələyəz mahalında səfalı yerlər çoxdu. Üz qoyurlar Göyçə mahalına, ancaq görürlər burada meşəlik yoxdu.

Burada bir neçə gün qaldıqdan sonra yenə yollarına davam edillər. Dərin-dərin dərələrnən, çox hündür dağların beliynən gəlib çıxırlar bir balaca çayın qırağına. Bu çayın üstündə daşdan körpü varıymış.

Vəli kişi baxıb görür ki, burada daşdan körpü qayırıblar, yanında da gözəl bir bulaq. Deyir ki, gəlin burada düşək, atlar bir az dincəlsin, görək başımıza nə gəlir. Düşüb atları buraxıllar, atlar çay yuxarı şamda otlayır və özləri də Allah verəndən nahar eləyib dincəlirlər. Vəli kişi həm yaxşı saz çalır, həm də təbi cuşa gələndə bədahətən şer söyləyərmiş. Vəli kişi mənzərəyə baxıb təbi gəlir. Neçə gün köynəkdə lal-dinməz qalan sazını tərki köynək edib sinəsinə basır, görək dərdli-dərdli nə deyir:

*Ana vətənimdən düşüb dərbədər,*
*Bu dünyada məlul qalan mən oldum.*
*Qohumdan-qardaşdan üzüldü əlim,*
*Ayrılıq təbilin çalan mən oldum.*

*Bir simsarım yoxdu dadıma çata,*
*Çətin günlərimdə əlimdən tuta,*
*Dərdimi yüklədim bir köhlən ata,*
*Karvanı yorulub qalan mən oldum.*

*Fələyin yanında düşmüşəm gözdən,*
*Şalın əvəzinə geyirəm bezdən,*
*Hərcayı kəlmədən, tənəli sözdən,*
*Ay Vəli, ürəyi yanan mən oldum.*

Söz tamama yetişəndən sonra Vəli kişi deyir:

- Siz burada dincəlin, mənim atımı gətirin, mən bir enim dərə enişə, görüm buralarda meşədən-zaddan varmı, ancaq mənə bir balaca yol çörəyi qoyun, yolçunun işini bilmək olmaz, bəlkə ləngidim.

Vəli kişi heybəsinə bir neçə çörək qoyub bağlayır yəhərin qaşına. Süvar olub ata, yola rəvan olur. Dərə enişə cığır varıymış. Bu cığırların biri ilə xeyli getdikdə görür ki, bir dərin dərədən böyük bir çay axır. Ancaq bu çayın o tay-bu tayı qəlbi dağlardı, dağların döşündə də yaşıl meşələr qalxıb göyün bir qatına, necə deyərlər, buludlarnan yoldaş olublar.

Bir qədər çay aşağı enəndən sonra görür, iki dağın arasında böyük bir düz var. Düzün ortasında həmin böyük çay dərin dərəynən axır. Yenə də çayın o tay, bu tayında qəlbi laçın qayalar var. Adam xof eliyir yaxınlaşa. Qayanın içində elə böyük kahalar var ki, Allah qüdrətindən yaranıb. Hər biri dörd-beş yüz baş qoyun tutar. Elə kahalar var ki, içində çeşməsi var, suyu göz yaşından duru, adamın ürəyinin yanğısını söndürür. Vəli baxır ki, meşənin bir tərəfində dağın döşüynən ən azı altmış-yetmiş bulaq axır. Hamısının suyu axıb həmin böyük çaya tökülür. Bulaqların ətrafı o qədər yaşıllıq, çəmən-

zarlıqdır ki, baldırğanın, lülpərin, yarpızın, nərgizin, bənövşənin ətri bir-birinə qarışıb, insan heç istəmir buradan çıxa. Adamın hayıfı gəlir çəmənlikdə otursun. Bura sanki cənnətin bir güşəsidir.

Vəli kişi bu çəmənliynən yavaş-yavaş yuxarı qalxıb bu misli görünməmiş çəmənzarlığı seyr eləyirdi. Birdən soyuq bulaqların arasında isti bir bulağa rast gəlir, baxır ki, burada isti su pıqhapıqla çıxır. Belindən xəncəri çəkib bir ağac kəsir, ucunu itiləyib buranı qazmağa başlayır, atını buraxır otlamağa. Bu isti suyun ətrafını xeyli qazır, sonra oturub bir çaxmaq çalıb qəlyan çəkir. Əlini gölməçənin içinə salır, görür ki su çox istidi, adamın əlini yandırır. Elə bil burada qəsdən ocaq qalayıb bu suyu isidiblər. Vəli kişi nə fikirləşirsə soyunub bu gölməçədə çimir. Öz-özünə deyir ki, bu mənzərəni yaradan Allah elə mənim üçün yaradıb. Əsl qaçaq yeridi, isti suyu, soyuq suyu, içində yaşıllığı, mənzərəsi, sıx meşəsi, kahaları. Ta artıq öldü var, döndü yoxdu. Gedim köçümü yığım gətirim, başlıyım burada yaşamağa, axırı nə olar, olar. Mənim qismətim buraymış, belə qismətdən qaçmaq olmaz.

Ata süvar olub, yoluna davam edir. Getdiyi cığırnan geri qayıdır uşaqlarının yanına. Ailə-uşaq çox sevinir ki, Vəli kişi sağ-salamat qayıdıb gəldi. Arvadı Bədiyyəcamal deyir ki, de görüm əliboş gəldin, yoxsa əlidolu? Xoşuna gələn yer oldu ya yox.

Vəli kişi söyləyir ki, ay arvad mən gördüyüm mənzərəni elə-belə desəm dilim yanar. Qulaq as gör nələr görmüşəm. Görək Vəli kişi burda götürüb nə deyir:

*Qazaxdan mən səfər etdim Murova,*
*Getdikcə Sarı yer yolların gördüm.*
*Yaşıl meşələrin, uca dağların,*
*Al yaşıl bəzənmiş kolların gördüm.*

*Yağış yağır, abi-leysan tökülür,*
*İsti suyu gah qaynayıb çəkilir,*
*Sinəsində gül bənövşə bükülür,*
*Min bir ətir saçan güllərin gördüm.*

*Dağa boylan, yamaca bax, yala çıx,*
*Dərə dərin, quzey kölgə, yol açıx,*
*Tər çiçəklər arasında alaçıx,*
*Qonaqlı-qaralı yurdların gördüm.*

*Qoynu cah-cəlallı cənnəti-rizvan,*
*Yalçın qayaları durubdu müdam,*
*Neçə Rüstəm-Zallar sürübdü dövran,*
*Ötən əsrlərin illərin gördüm.*

*Ay Vəli, tərifin yaz qoçaqların,*
*Nəğmə qoş dastana düz qoçaqların,*
*Atadan lütfəsi yüz qoçaqların,*
*Qayalar aşıran qolların gördüm.*

Söz tamama yetəndən sonra Vəli kişi dilcavabı da bəyəndiyi məskənin mənzərəsini ailəsinə danışdı.

Vəli kişi köç ehtiyatı gördü, axır gəlib çatdılar həmin yerə. Baxdılar ki, Vəli kişi bir demişdi, bura beş artıqdı, burada qəlbi laçın qayalar var ki, adam baxanda xoflanır. Hər qayanın altında elə var ki, hər biri beş-altı yüz baş qoyun tutar. Vəli kişi köçü bu kahaların birinə yığır və burada yaşamağa başlayırlar.

Bir neçə gündən sonra ata-oğul atları minib aşağı-yuxarı gəzdikdən sonra həmin düzəngahların ayağında bir kəndə rast gəlirlər. Görürlər ki, doqquz evdi. Soruşurlar ki, bu hansı kənddi? Deyillər ki, bura Quşçubiləy kəndidir. Bundan aşağı Püsyan, Gümüşxana, Çaykənd, Gindivas kəndləridir.

Quşçubiləy kəndinin adamları Vəli kişigilnən maraqlananda Vəli kişi onlara deyir:

- Biz çox uzaq yerdən gəlmişik. Mənim ailəm dağın o üzündən – Kəlbəcərdəndir. Üç-dörd aydı burada, meşənin içində bir kahada yaşayırıq.

Həftədə bir dəfə də gedib o isti gölməçələrdə yuyunuruq. Yuyunduqdan sonra özümüzü gümrah hiss edirik.

- Bəlkə orada kənd saldıq. Mən istəyirəm buranın adı İstisu olsun. O gündən kənd İstisu adlanır. (Sonralar ermənilər həmin adı dəyişib Cermuq qoydular).

## SƏFƏRALI İLƏ MUROVUN ƏHVALATI

Vəli kişiynən övladları burada yaşamaqda olsun, sizə kimdən deyim, Quşçubiləynən Gindivas kəndində yaşıyan gəlmə ermənilərdən. Bu o vaxtlar idi ki, 1829-cu ildə olan Rus-İran müharibəsi qurtarmış, Araz hər iki dövlət tərəfindən sərhəd olmuşdu. Nikolay hökuməti İrannan, Türkiyədən gələn «qaxtağan» erməniləri Dərələyəzə yerləşdirirdi. Onlar Vəli kişinin İstisuda özünə yurd-yuva salmasından ehtiyatlanırdılar. Murova xəbər verirlər ki, bilmirik hardansa bir köç gəlif bizdən yuxarıda kənd salıfdır. Xahiş edirik, gəlif onu burdan çıxarasız.

Murov qəzəbnak olub iki nəfər strajniknən Vəli kişinin olduğu yerə gəlir ki, görsün bunlar kimdi. Vəli kişinin Cəvahir adlı gözəl-göyçək ərlik bir qızı da varıydı. O da bacısı Günəş kimi gözəliydi.

Murov çöldə Cəvahiri görən kimi ona vurulur və öz-özünə deyir:

- Allah yaxşı yetirib, bir qərib adamdı, başına vurub qızı əlindən alaram.

Elə bu fikirnən də atdan düşür. Murov Vəli kişiyə heç nə demir.Vəli kişi oğlu İmranı çağırıb deyir:

- Ay oğul, tez Bedavı min, çaparaq get bu yaxın kəndlərin birindən bir heyvan al gətir qonaqlara kəsək. Belə sərin bulağın üstündə kabab yeməmək günahdı. İmran getməkdə olsun, sizə Murovdan deyim. Xəlvətliyə salıb qızı dilə tutur. Qız isə ona tutaq vermir. Gecəni bu qayda ilə keçirdikdən sonra səhər deyir. Vəli kişi çöldə olan zaman Murov onu yanına çağırır və fikrini Vəli kişiyə deyir.

- Gərək sən o qızını verəsən mənə, qohum olaq, yoxsa sizi hardan gəlmisiz ora qaytararam.

Vəli kişi nə qədər öyüd-nəsihət elədisə Murov az eşitdi. Axırda gördü ki, olmur, başladı tənə eləməyə:

- Ay ağa sağ olsun, bizim vilayətin bəyindən, xanından qaçıf gəldim buraya ki, qulağım dincəlsin, indi də ondan betərinə rast gəldim. Allahı sevərsən etmə, eləmə böylə zülümkarlıq olmaz. Mən qərib adamam, qız da sənin tayın deyil.

Belə deyəndə Murov strajniklərə əmr edir ki, qızı tutub yanıma gətirin. Strajniklər evə tərəf irəliləyəndə Vəli kişi xəncərə əl atıb Murova tərəf gedir. Murov kənara çəkilib əmr edir ki, tutun bunu. Strajniklər Vəlini tutur. Vəli boynundan yaralanır. Arvad-uşağın içinə vaynöysə düşür. Elə bu vaxt Səfəralı özünü yetirir. O, atasını yaralı görəndə dünya başına dar olur. Şığıyır onların üstünə. Murovu da, strajnikləri də o dünyaya göndərir. Yazıq Vəli kişi qulağı dinc yer axtarırdı, indi də başqa bir xətaya düşdü.

Səfəralı atasına deyir:

- Ata, and içirəm, bundan sonra sənin qanına min qan alacağam, belə zülümkarların nəslini harada görsən qoyun kimi kəsəcəm.

Bu hadisəni eşidən yaxın kəndlilər qubernatora xəbər verirlər ki, tanınmaz yerdən bir köç gəlib, yuxarıda özünə məskən salıb. Murovu və onun strajniklərini öldürüb. Qubernator və pristav əmr eləyir ki, həmin şəxsi tutub onun yanına gətirsinlər.

Vəli kişi oğlu Səfəralını çağırıb deyir:

- Oğul, ta bu gundən sonra dinc çörək yemək bizə haramdı. Qoy ev beləcə qalsın, biz köçək bu səringahların birində dolanaq görək başımıza nə gəlir. Qəm dəryasına batan Səfəralı atasına deyir: Ata ateyi-mehriban, sinəmə bir neçə kəlmə söz gəlib izn ver deyim, sonra yola düşərik.

Buyur, oğul, buyur.

**Aldı Səfəralı:**

*Bahar fəsli zənbur bara çıxanda,*
*Çiçəkli çöllərdə barın axtarır.*
*Könül quşu uçub qalxır havaya,*
*Bağçada heyvasın, narın axtarır.*

*Gəzir səmalarda fikri-xəyalım,*
*Daha kəsilibdi səbri qərarım,*
*Əğyara deyən yox, bəsdi, a zalım,*
*Bu illər xəstəsi yarın axtarır.*

*Fələk saldı bizi yaman bazara,*
*Bizim dərdimizə bulunmaz çara,*
*Bülbül necə dözsün gül üstə xara,*
*Dəli könül düz ilqarın axtarır.*

*Dövlət əldən getdi, yoxdu bir kilim,*
*Qəhri-zimistanda tutulur dilim,*
*Tamarzı çörək də tapmır bir dilim,*
*Dadanmış dünyanın varın axtarır.*

*Ömür beşgünlükdü, fanidi dünya,*
*Əzəldən köhnədi, yenidi dünya,*
*Səfəralı səni tanıdı dünya!*
*Tutub əllərindən gorun axtarır.*

Bəli, söz tamama yetdi.

Vəli kişigil Sarı yer deyilən dağın ətəyində meşənin qalın yerində bir böyük kaha tapdılar ki, gəl görəsən. Elə bil əsl qaçaq yeridi, içində bulağı, dörd ətrafı meşə və uca qayalar. Səfəralı deyir:

- Hə, bax belə, yerimiz elə budu. Bura bizə sığınacaq ola bilər.

Qayıdıb evi yükləyib aparırlar ora. Bu münvalla günlər keçir.

Bu əhvalatdan sonra qoburnatın əmrinə görə jandarmalar, bəylər, xanlar qasidlər gecə-gündüz Səfəralını axtarır. Amma onu tapa bilmirdilər.

Bir gün Səfəralı oğlanlarıynan meşədə ov eliyəndə 5-6 nəfər bunların üstünə çıxır. Onlar deyirlər ki, təslim olun. Sizi aparıb üzə çıxardacağıq. Bu zaman Səfəralı deyir:

- Əşi, biz uşaq deyilik, bizi aldadırsız. Bizi aldada bilməzsiniz. Mən sizin neçə sərkərdələrinizi doğramışam, sizin ürəyiniz bizimnən düzəlməz.

Səfəralı sözünü qurtaran kimi göz eləyir oğlu Məhəmmədalıya ki, indi igidlik vaxtıdı. Vurun. Onlar birdən silaha əl atıb bunları bu meşə aşağı elə pələsəng edirlər ki, daha na deyim. Ölən ölür, qalannarı da şil-küt olub qaçırlar. Davada Vəli kişi yaralanır amma oğlanlarına demir ki, qorxarlar. Sonra oğlanları bir yerə cəm olan vaxtı deyir:

- Uşaqlar, mən də yaralanmışam.

Onlar tez atalarını götürüb aparırlar evə. Vəli kişi deyir:

- Ta burada qalmağın adı yoxdur. Gəlin yerimizi dəyişək.

Onlar buradan köçüb Göydağ adlanan bir böyük dağda yurd salırlar. Onun ətrafı çox qalın meşəlik idi. Amma dağın yamacı açıq tala idi. Bunlar köçüb ora gedirlər. Orada özlərinə yatacaq yeri düzəldib yaşamağa başladılar. Bir neçə gündən sonra Vəli kişi bu aldığı yaradan ölür. Onu elə orada, Göydağın döşündə basdırırlar. Bu dəfə evin ağsaqqallığı və yükün ağırlığı düşür Səfəralının üstünə.

Səfəralı hərdənbir atasının icazəsiynən sazı götürüb dınqıldadar, bəzən atasıynan söz də «güləşdirərdi». Bir söznən, söz deməyi, saz çalmağı öyrənmişdi. Atasının ölümündən sarsılan Səfəralı sazı köynəkdən çıxarıb «Yanıq Kərəm»i üstdə görək nə deyir:

*Fani dünya, sənə etibar yoxdu,*
*Səndə neçə canlar durdu da getdi.*
*Neçəsi kamını almamış köçdü,*
*Özünü qoynunda yordu da getdi.*

*Kərəmi atəşə, oda yandırdın,*
*Fərhad kimi pəhləvanı öldürdün,*
*Qul Allahqulunun sazın sındırdın,*
*Dünyada yarımçıq çaldı da getdi.*

*Qul Abbas Gülgəzin oduna yandı,*
*Neçə imtahanda o, Haqqı andı,*
*Səfəralı, bu da dövrü-zamandı?*
*Sinənə yaralar vurdu da getdi.*

*Söz tamama yetdi. Səfəralının oğlu Məmmədalı atasına dedi:*

- Atacan, sən heç qorxma, fikir də eləmə mən təkcə yüz kazaka cavab verərəm. Məmmədalı belə deyəndə Səfəralının kefi açıldı.

Günlər keçdikcə Səfəralının da adı hər yana yayılırdı. Bundan sonra bir çox adlı-sanlı qaçaqlar gədib Səfəralı ilə yoldaşlıq edirdilər. Hətta Dağıstan torpağından bir neçə adlı-sanlı oğlanlar, - Ləzgi Əhməd, Ləzgi İsmayıl, Türkiyədən Şərif, Yılmaz adında igidlər də Səfəralının dəstəsinə qoşulmuşdular. Bu qaydaynan Səfəralının başına yüzdən çox qaçaq toplanmışdı. Səfəralı Dərələyəz, Zəngəzur, Kəlbəcər, Göyçə, Laçın, Şərur mahallarında adlı-sanlı qaçaq kimi tanınırdı.

*Deyilənlərə görə Səfəralının dəstəsi hər il yazın bahar ayında İstisu kəndindən çıxıb Göydağ adlanan dağın başında çadır qurar, yayı orda keçirdərmiş. Göydağın dörd tərəfi qalın meşəyidi, bu meşədə də hər cür yırtıcı heyvan varıydı. Dağın ətəklərində yaşayan kəndlilər meşədən odun yığan zaman xof elədiklərinə görə meşənin o dərin yerinə getmirdilər. Dağda böyük bir talanın içində iki bulaq vardı. Lap Koroğlunun yağı qoruğuna oxşayırdı. Xülasə, baş ağrısı olmasın, bir gün Səfəralı evdə olan zaman arvadı Balaxanım dedi:*

- Ay Səfəralı, unumuz qurtarıb, taxıl üyütmək lazımdır.

Səfəralı dərhal oğlu Məmmədalını çağırıb dedi:

- Oğlum, anan deyir un qurtarıb, evdə dən var, üç at yüklə apar üyütdür gətir.

Məmmədalı tez üç at palanlayıb yükləyənnən sonra öz atını da yəhərləyib mindi, xəncəri bağladı belinə, aynalı tüfəngi əlinə alıb yola düşdü. Bu zaman atası Məmmədalıya belə dedi:

- Mən bilirəm, sən bir orduya da cavab verərsən, heç kəs sənə dav gələ bilməz. Uzaq səfərlərə çıxanda yatma, səni tutsalar ancaq yuxuda tutarlar.

Məmmədalı düşdü yola, ancaq, bilmirdi hara getsin. Deyilənlərə görə, o vaxt buralarda heç bir yerdə dəyirman yoxuydu. Dəyirman ancaq Zəngəzurnan Laçın torpağının sərhəddində Kilisəli adlanan dağın ətəyində bir dərədəydi. Ona Bükün dəyirmanı deyərdilər. Məmmədalı üz tutdu ora.

Məmmədalı yol getməkdə olsun, sizə xəbər verim Qarakilsə yaxınlığında Çalbayır adlı yaylaqda yaylayan köçəri camahatından. Orada bir neçə oba torpaq üstündə bir-biri ilə dalaşmış və dava zamanı bir nəfər öldürülmüşdü. Obadakı varlılarından bir nəfər Gorusun qəza pristavının yanına adam göndərmişdi.

Pristav elə ki, eşitdi adam ölüb, o saat başına on-on beş nəfər strajnik yığıb gəldi obaya. Elə bu vaxt obanın başçısı da bir dəvəni Qarabağın sarı buğdasıynan yüklədib verir nökərə. Deyir apar Bükün dəyirmanında üyütdür gətir. İşdi, əgər növbə olsa, dəyirmançıya söylə, ağa buyurdu ki, qonağımız çoxdu, qoy növbəni sənə versin.

Bu dəvəçi dəyirmana çatanda, Məmmədalı da ora çatdı. Hər kəs öz miniyinin yükünü açdı, apardı dəyirmana. Burada o dedi, mən birinci üyüdəcəm, bu dedi mən üyüdəcəm. Məmmədalı aynalısını saz əvəzi sinəsinə basdı, görək dəvəçiyə nə dedi:

*Adam oğlu, yol-ərkanı tanı, bil,*
*Dəyirmanda yal-yamacdan danışma,*
*Ədəbdən, qaydadan çıxma kənara,*
*Şərab içib hər sərxoşdan danışma.*

*Məclisə girəndə tanı yerini,*
*Hər yetənə sən danışma sirrini,*
*Kəmsavadsan, çox axtarma dərini,*
*Kamal dəryasında huşdan danışma.*

*Əyri yolla getsən düşərsən tora,*
*Dilin gödək olar, üzün də qara,*
*Məmmədalı deyər, tapmazsan çara,*
*Ariflər yanında ərşdən danışma.*

Söz tamama yetdi, amma Məmmədalı gördü dəvəçi heç onu başa düşmür. Dəyirmançını kənara çəkib dedi ki, Qaçaq Səfəralını tanıyırsan?

Dəyirmançı dedi:

- Eşitmişəm.

- Eşitmisənsə, dəni üyüt, yoxsa sənin üçün pis olar.

Bu sözü eşidəndə dəyirmançı dinməz-söyləməz gəldi başladı Məmmədalının dənini üyütməyə.

Dəyirmançı dəvəçini kənara çəkib dedi:

- Ay başına dönüm, demə bu Qaçaq Səfəralıymış, dinmə ha, səni də öldürər, məni də.

Dəvəçi yavaş-yavaş arx aşağı gedib bir az aralanandan sonra «asta qaçana göy imam qənim» olsun deyib daban götürdü obaya. Bu namərd əhvalatı ağasına deyən kimi, ağası beli sınmış da daban götürdü pristavın yanına.

- Ağa pristav sağ olsun, biləsən ki, Qaçaq Səfəralı gəlib, Bükün dəyirmanında dən üyütdürür. Onu tutmaq lazımdır. O, biz varlıların çörəyini haram edib.

O saat pristav obadan xeyli atlı götürüb Bükün dəyirmanına tərəf yola düşdü.

Bunlar yola düşməkdə olsun, sizə Məmmədalıdan deyim. Dəvəçi gedəndən sonra Məmmədalı dəyirmançıya dedi:

- Mən yorulmuşam, bir az yatacam. Atlardan muğayət ol.

Xəncərini belindən açdı, aynalı tüfəngiynən söykədi divara, yapıncını da çəkdi başına.

Pristav dəyirmana çatan kimi əmr elədi, dəyirmanın ətrafına ətdən qala çəkdilər, oranı üzük qaşı kimi bürüyəndən sonra dəyirmançını çağırtdılar.

- Dəyirmandakı kimdir?

Dəyirmançı dedi:

- Qaçaq Səfəralıdır.

Pristav soruşdu:

- O neyliyir?

Dəyirmançı dedi:

- Yatıb, xəncərini, tüfəngini də söykəyib divara.

- Get onun tüfəngini, xəncərini gətir ver bizə. Qapıdan çağır ki, ay Səfəralı atları oğrular apardılar, özün də qaç yanımıza gəl.

Namərd dəyirmançı gedib tüfəngi, xəncəri götürüb gətirdi verdi pristava. Sonra qapıdan çağırdı:

- Ay Səfəralı dur, oğrular atdarı apardılar.

Məmmədalı durdu nə durdu, baxdı tüfəngi, xəncəri yoxdu. Silahsız nə edə bilərdi ki, sonra istədi çölə çıxsın. Baxdı ki, gözlər olsun görməsin, ətrafı ətdən qala yapıblar.

Pristav dedi:

- Bax, bacısı göyçək, belə günlər var ha. İndi halın necədi təslim olursanmı, ya yox? Qaçaq Səfəralı budu getdi, odu getdi, yəni axırın bu deyil, təslim ol.

Məmmədalı dedi:

- Hər kəsi öz adıynan çağırarlar. Mən Səfəralı deyiləm.

Pristav dedi:

- Bəs kimsən? İndi qorxudan adını danırsan?

Məmmədalı dedi:

- Mən qorxan oğul deyiləm, bir az tələsmə, adımı deyərəm.

Aldı Məmmədalı:

*Sənə nişan verim namərd pristav,*
*Səfəralı deyil, Məmmədalıyam.*
*Neçə Murovların canın almışam,*
*Səfəralı deyil, Məmmədalıyam.*

*O namərd dəvəçi tez məni satdı,*
*Alçaq dəyirmançı aranı qatdı,*
*Məni div yuxusu burdaca tutdu,*
*Səfəralı deyil, Məmmədalıyam.*

*Səfəralı babam gələcək haya,*
*Sənin qəhqəhlərin dönəcək vaya,*
*Özünnən çox demə, basma hay-küyə,*
*Səfəralı deyil, Məmmədalıyam.*

Söz tamama yetdi.

Pristav dedi:

- Hə, indi qorxudam adını danırsan? Səfəralının oğlusan lap yaxşı. İndi səni aparıb boğazına tənəf ataram, onda adını danmazsan.

Çox hərbə-zorbadan sonra pristav əmr elədi ki, əllərini yuxarı qaldır, irəli gəl. Silah üzündən düşmənə əyilən Məmmədalı irəli yeridi. İki nəfər gəlib Məmmədalının qollarını dalda bağlayandan sonra onu saldılar qabaqlarına. Obaya tərəf yol başladılar. Məmmədalını aparıb bir çadıra saldılar. Əl-ayağına qandal vurub ətrafa da on-on beş strajnik düzdülər.

Səfəralının tutulmasını eşidən varlılar, bəylər, xanlar sevinirdi. Amma kasıblar, nökərlər çox pərişan olmuşdular ki, axırımız itdi. Yenə bu bəylər bizim gönümüzü soyacaq.

Məmmədalı burada qalmaqda olsun, sizə kimdən xəbər verim, pristavdan. Pristav bütün obalara, yaxın kəndlərə adamlar göndərdi ki, Səfəralını tutmuşam. Kim görmək istəyir gəlsin onun halına baxsın. Sabah yox, o biri gün aparacam Gorusa. Bu sözü eşidən obalar, kəndlər səğirdən-kəbirə töküldülər Çalbayırın düzünə. Torpaq atsan insandan yerə düşməzdi. Amma sizə ərz eləyim ki, yaxın kənddə Səfəralının aldığı arvadın Məcid adında qoçaq bir qohumu var idi. Səfəralının qızı Ayna da bu kəndə ərə getmişdi. Məmmədalının tutulma xəbərini eşidəndə Aynanın əri evdə yox idi. Yağışlı bir gecə idi. Ayna ərinin paltarını geyindi, tüfəngini çiyninə saldı ki, yolda ona sataşan olmasın, düz gəldi Məcidgilə. Məcid bu xəbəri eşidən kimi, tez durub düşdü yola. Gəlib Çalbayır yaylağına çatdı. Məcid gördü ki, insandan yer yoxdu. Onların arasından birtəhər keçib baxdı ki, tutulan Məmmədalıdı. Məmmədalı Məcidi görən kimi işarə elədi ki, nəyə durmusan, qaç atama xəbər apar. İki gündən sonra məni aparacaqlar Gorusa. Oradan məni çətin qurtarar. Məcid kişi düzəldi yola. Günorta Çalbayırdan çıxan Məcid gecəni də yol gedib dan

yeri sökülən vaxtı Arxaşan gədiyindən aşıb Göydağın qənşərindəki Qısır dağının döşünə çatdı. Məcid kişi fikirləşdi ki, ta ki, mən bu dərəni enib-çıxam çox vaxt gedəcək. Yaxşısı budur ki, çağırım, bəlkə eşitdilər.

Səfəralı gecə yuxusunu qatmışdı, quşlar cüyüldəyəndə durdu yola baxsın görsün Məmmədalı gəlmir ki. Səfəralı çölə çıxmaqda olsun, Qısırdağın döşündə 7-8 km məsafədən Məcid kişi haray salmaqda. Səfəralı baxdı ki, qulağına haray səsi gəlir. Sakit dinləyib gördü səs Məcid kişinin səsidi:

- Ay Səfəralı, hey... Məmədalını dəyirmanda tutdular. Durma gəl.

Bu sözləri eşidəndə Səfəralının elə bil başına qara bulud çökdü. Tez çadıra qayıdıb haray saldı ki, nəyə durmusunuz, Məmmədalını tutublar, Məcid haraylayır. Hamı cəm oldu Səfəralının başına. Dedilər:

- Nə eləmək lazımdı, Səfəralı baba?

Səfəralı dedi:

- Qulaq asın, deyim ki, neynəmək lazımdır.

Aldı Səfəralı:

*Bayramalı, Qurbanalı, ey Alı,*
*Hazır olun, Zəngəzura gedirəm.*
*İndi yol gözləyir can Məmmədalı,*
*Hazır olun, Zəngəzura gedirəm.*

*Həsənalı, nərə çəkərsən hərdən,*
*Ləzgi Əhməd dağı tərpəd yerindən,*
*Qalanın qapısı polad dəmirdən,*
*Hazır olun, Zəngəzura gedirəm.*

*Səfəralı deyər, tez düşün yola,*
*Dava vaxtı heç kim baxmasın dala.*
*Düşməni dağıdın sağa və sola,*
*Hazır olun, Zəngəzura gedirəm.*

Söz tamama yetdi, Səfəralı dilcavabı da fikrini dedi.

Yola düşən düşsün, qalan adamlar obanı gözləsin. Düşmənlər fürsətdən istifadə edib obanı talan eləyərlər.

Səfəralı Bayramalını, Həsənalını, Qurbanalını, Alını, Ləzgi Əhmədi və o biri qaçaqları da götürüb Gorusa tərəf yola düşdü. Gedib Arxaşan gədiyinə çatanda gördülər Məcid yolun kənarında oturub bunnarı gözdüyür. Səfəralı soruşdu ki, Məmmədalını nə vaxt aparacaqlar Gorusa?

Məcid dedi ki, sabah yox biri gün aparacaqlar.

Səfəralı üzünü Gorusa tərəf tutub dağı-daşı lərzəyə gətirən yanıqlı bir səsnən aldı görək nə dedi:

*Aman Allah, ayrılığın əlindən,*
*Əridi bu canım sellərə döndü.*
*Gecə-gündüz yollarına baxıram,*
*Axdı göz yaşlarım sellərə döndü.*

*Oğul dərdi canımdan od aparır,*
*Qolu bağlı qalıb haray qoparır,*
*Şaqqalayıb bir tərəfim aparır,*
*Əridi bu canım küllərə döndü.*

*Ər igidlər gedin, gedin qabağa,*
*Səfəralı canın qoyub sadağa.*
*Məmmədalı düşüb bizdən irağa,*
*Hicran uzun çəkdi, illərə döndü.*

Söz tamama yetdi. Səfəralı qayıtdı ki, vaxt itirmək olmaz. Dəstə yola düşdü.

Səfəralı yola düşməkdə olsun, sizə kimdən xəbər verim pristavdan. Pristav həmin gecəni Çalbayırda keçirdi. Başqa bir dustağı Məmmədalıynan qolbənd elətdirdi, onlara qandalaq vurdurdu, düşdülər yola. Farmaştəpə adlanan yaylaqdan keçib endilər Minkəndə.

Bunlar bu gecə Minkənddə qalmaqda olsun, sizə Səfəralıdan xəbər verim. Səfəralının dəstəsi Məcidi də götürüb o günü at sürdülər. Gəlib Çalbayıra çatanda gecədən xeyli keçmişdi. Bunlar obaları bir-bir gəzsələr də, Məmmədalının hansı obada olduğunu öyrənə bilmədilər. Bir çınqılın yanında atlardan tökülüşüb bir qədər dincəldilər.

Bunlar burada qalmaqda olsun sizə pristavdan xəbər verim. Pristav həmin gecəni Minkənd kəndində qaldı. Hava işıqlananda, Məmmədalıynan çobanı götürüb yola düşdülər. Minkəndin aşağısındakı Mollaəhmədli kəndindən keçib Gorusa tərəf yol başladılar.

Bunlar yol getməkdə olsun, sizə xəbəri Səfəralıdan verim. Dünya Səfəralının başına dar oldu, hirsindən az qaldı bağrı çatlasın ki, mən niyə Məmmədalının yerini öyrənə bilmədim. Dan ulduzu doğanda süvar oldular atlara. Bir dərə ilə getdikləri zaman bir çobana rast gəldilər. Burada görək Səfəralı çobandan pristavın yerini necə xəbər aldı:

*Bərəkətli olsun, ay çoban qardaş,*
*Pristavın yığıncağı hardadı?*
*O Məmmədalını zindana salıb,*
*Ya öldürüb, ya da sağı hardadı?*

*Ata istər görə oğul camalın,*
*Dindirə özünü, sora əhvalın.*
*Bu qoç igidləri tez yola salın,*
*Bilirsənmi, düşmən, yağı hardadı?*

*Mən Səfəralıyam, ona adaşam,*
*Həm ata-oğuluq, həm də qardaşam.*
*Düşmən gücü çatmaz mən ağır daşam,*
*Tez xəbər ver mənə, yağı hardadı?*

Çoban fikirləşdi ki, mən dilcavabı desəm, deyəcəklər çobandı, başa düşmür. Çomağı saz əvəzi sinəsinə basıb aldı görək çoban onlara nə cavab verdi:

*İyid oğlan, dediyimi bilginən,*
*Getdilər Gorusa, çata bilməzsən.*
*İki gündü onlar yola düşübdü,*
*Quş olsan da uçub tuta bilməzsən.*

*Duruşundan bəlli, iyidsən sən də,*
*Bir çoban da tutub salıblar bəndə.*
*Dünən axşam apardılar Minkəndə*
*Yolun uzaqlaşdı yetə bilməzsən.*

*Çobanam, deyirəm sözün düzünü,*
*Mən də cəhd elədim görəm üzünü,*
*Düşməni çökdürün, qırın dizini,*
*Leşkərləri çoxdu, bata bilməzsən.*

Söz tamama yetdi.

Çoban dilcavabı da söylədi ki, gecikmisiniz, pristav bir cahicəlal düzəldib ki, toy çaldıra-çaldıra tutduğu adamları apardı Minkəndə. Bu gün oradan Gorusa aparacaq.

Bu sözü eşidən Səfərah az qaldı yerin damarını çəkə. Atına bir tazyana çəkib Minkəndə tərəf səyirtməyə başladı. Bir az getmişdilər ki, Minkəndin yanından keçəndə bir quzuçuya rast oldular. Səfərah ondan soruşdu:

- Ay bacıoğlu, pristavın dəstəsi necoldu?

Quzucu dedi:

- Getdilər Gorus tərəfə. İndi onlar Molləhmədli kəndindən keçmiş olarlar.

Səfərah atı dəhmərlədi, amma Səfərahnın atı yorulub haldan düşmüşdü. Birtəhər dərə enişə gedib Bozlu deyilən kəndin ayaq tərəfində bağlı-meyvəli şam vardı, çatdılar ora. Bunlar bağın içində düşüb atları bir az otardılar. Baxdılar ki, burada bir adam var. Onu çağırdılar yanlarına, soruşdular:

- Ay kişi, sən kimsən, nəçisən?

- Mən bağbanam, qadan alım.

Səfərah soruşdu:

- Bu bağ kimindi, belə?

- Bu bağ mənim ağam məşhur varlı Məmmədşərəfsultanın bağıdır.

- Onda yaxşı atlar varmı?

- Onun atı çoxdu, bir ilxıdı. Hamısı da yaxşı atlardı. Amma ilxının içində bir alapaça ayğır var. İnanma ki, Zəngəzurda belə at olsun, düz altı ildir minilmir.

Səfərah bir belə şeyi Allahdan istəyirdi. Dedi:

- Bağban, indi ağan hardadı?

- Odey, aşağıda bir ağacın kölgəsində yatıb.

Tez Səfərah dəstəsi ilə getdi gördü ki, doğrudan da Məmmədşərəfsultan yatıb. Çağırıb bunu durğuzanda kişi gördü başının üstündə xeyli adam var, hamısı da silahlı. Kişinin rəngi dəyişdi və soruşdu:

- Siz kimsiniz, nə istəyirsiniz?

Səfərah dedi:

- Dərələyəz mahalından Qaçaq Səfərahnı eşitmisən?

Bunu eşidən kişinin rəngi ağardı:

- Bəli, eşitmişəm.

- Pristav mənim oğlumu tutub aparır Gorusa. İndi mənim atım yorulub. Səndə əla bir ayğır var, onu ver səyirdib çatıb oğlumu qurtarım. Söz verirəm, qayıdanda yenə özünə qaytarar və hörmətindən çıxaram.

Məmmədşərəfsultan dedi:

- Ay başına dönüm, mən necə verim, o atı hamı tanıyır. Pristav bilsə ki, ayğırı özüm vermişəm, dərimə saman təpər. İndi ki, belədir, mən bir yaxşı söz deyim. İlxı indi bu saat Molla Məhəmmədin dərəsində otlayır. Əgər tuta bilsən, get oradan tut min get. Məndən soruşsalar, deyəcəm qaçaq adamdı, atımı da çöldən tutub aparıb, bəlkə onda canım qurtara.

Bu söz Səfəralının ağlına batdı. Atalar deyib «Rəhmət düzənə, lənət pozana».

Səfəralıgil düşdü yola, bir az getmişdilər ki, dərədə ilxıya rast gəldilər. Kəmənd atıb ayğırı tutdular. Yəhəri belinə basıb rəvan oldular yola.

İndi sizə pristavdan deyim. Pristavın başına obalardan o qədər adam toplaşmışdı, gəl görəsən. Bunlar Mollaəhməd kəndindən ötüb Dığ adlı erməni kəndinin baş tərəfindən keçirdilər. Məmmədalı bilirdi ki, bu gün üç gündür onu tutublar, Səfəralı babası harda olsa çatacaq pristava.

Məmmədalı pristava dedi:

- Ay pristav, təvəqqe edirəm məni tez apar çatdır Gorusa. İndi vaxtdı, atam gələcək. Gəlsə Allah göstərməsin, buradakılardan birini də sağ qoymacayaq. Elə səni öldürsəyidi, dərd yarıydı.

Pristav qəzəblənib dedi:

- Əyə, bacısı göyçək, ta baban öldü, o, qorxudan gəlməz. Əgər gəlsə də bu dəstəyə nə edəcək. Sənin baban nə fason adamdı ki, sən onu belə tərifləyirsən?

- Mənim babam enli kürək, pələng bilək, hündür, yekə adamdı. Adama baxanda adam qorxuya düşür. Bir də onda bir səs var ki, nə deyim, həmişə əlində ucu haça cidəsi var, başında da balaca qırmızı baydağ bağlı olur. Düşmənnən davada nərə çəkəndə düşmənin dizləri qırılır, gözünə qaranlıq çökür.

Bunlar bu söhbətdə ikən Səfəralının dəstəsi geridən yalın başına çıxdı. Onlar pristavın dəstəsini gördülər. Yoldaşları tələsik soruşdular:

- Neyləyək, Səfəralı?

O dedi:

- Qulaq asın, deyim ki, nə edəcəyik.

O, tüfəngi saz əvəzinə basdı döşünə, görək yoldaşlarına nə tapşırdı, nə dedi:

Mən deyim, eşidənlər sağ olsun:

*Ta çatmışıq pristava,*
*İgidlər, düzülün bir-bir.*
*Qılınc çalın sola-sağa,*
*Onları, öldürün bir-bir.*

*Bir tazyana çəkin ata,*
*Pristav baxsın büsata,*
*Ac qurd kimi qoburnata,*
*Dörd yandan soxulun bir-bir.*

*Mən qabaq səmtdən gələcəm,*
*Gavırın bağrın dələcəm,*
*Bağırdıb atdan salacam,*
*Siz yaldan tökülün bir-bir.*

*İyid meydanda tanını,*
*Şərbət bilər öz qanını,*
*Qırın ancaq bəy, xanını,*
*Tutun, başın kəsin bir-bir.*

*Oğlumu eliyək azad,*
*Eşidən dostlar olsun şad,*
*Səfəralı qursun büsat,*
*Soldatdan üzülün bir-bir.*

Söz tamama yetdi. Səfəralı adamlarına göstəriş verdi.

- Mən təkcə ala ayğırı səyirdib dərə ilə qabağı kəsəcəm, siz də arxadan yüz metrdən biriniz bir-bir gəlin ki, elə bilsinlər çox adam var. Amma birdən başınız davaya qarışar, Məmmədalını tələf edərlər. Tez onun üstünü kəsin ha.

Səfəralı alapaça ayğıra bir tazyana çəkib dərəaşağı səyirddi, qabağı kəsdi. Məmmədalı Səfəralının nişanını pristava deyib qurtaran anda, Səfəralı qabaqdan çıxdı.

Pristav dedi:

- Balam, bu kimdir qabaqdan gəlir?

Məmmədalı baxan kimi gördü ki, atasıdır. Sevincək dedi:

- Vay, pristav, atam gəlir, işiniz bitdi.

Pristav dedi:

- Sənin atan Gorusdanmı gəlir, yoxsa Göydağdan? Bəs sən deyirdin o, nərə çəkir, deyəsən milləti çox görüb səsi batıb.

Bu dəmdə Səfəralı nərə çəkərək alapaça ayğırı oynada-oynada götürdü görək pristava nə dedi:

*Əmr edirəm, aşıq cəngini çalsın,*
*Zalım gavır, bu gün meydan mənimdi.*
*İyid olan bu meydanda ad alsın,*
*Zalım gavır, bu gün meydan mənimdi.*

*İldırımlar yağdıracam başına,*
*Ana-bacın baxsın o göz yaşına,*
*Hanı qoç igidin, çıxsın qarşıma,*
*Təbil çaldır, bu gün meydan mənimdi.*

*İndi oyduracam o gözlərini,*
*Dabbaq üçün soyduracam dərini,*
*Talan etdirəcəm Gorus şəhrini,*
*Cəngi çaldır, bu gün meydan mənimdi.*

*Ləzgi Əhməd indi çatanda sana,*
*Baxarsan meydanda tökülən qana,*
*Səfərəlı deyər gəlmişəm cana,*
*Cəngi çaldır, bu gün meydan mənimdi.*

Söz tamama yetişən kimi Səfəralı elə birinci pristavı atdan aşırdı, cəhənnəmə vasil elədi. Ona kimi Ləzgi Əhməd arxadan çatdı, siyirmə qılınc strajniklərdən on-on beş nəfəri qabağına qatdı. Onlar tərpənməyə macal tapmadılar.

Səfəralının dəstəsi Dığınan Gorus arasında olan bu düzdə bir dövran açdı ki, gözlər olsun görməsin. İki göz lazımdı çıxıb bir qəlbi yerdən bura tamaşa eləsin.

Səfəralının yoldaşları çatanda Səfəralı dedi:

- Ləngiyibsiz.

Tüfəngin qundağı ilə qandalağı sındırdılar və Məmmədalının qolundan qandalağı açdılar. Səfəralı dedi:

- Ay oğul, bəs bu nə edib ki, tutublar?

Məmmədalı dedi:

- Onun əlindən xata çıxıb, adam öldürmüşdü, tutmuşdular. Onunla işiniz yoxdu, buraxın qoy getsin.

Həmin çoban getməyib dedi:

- Mən də sizinlə yoldaş olacam, getmərəm.

Səfərəlı dəstəsinə geri qayıtmaq əmri verir. Bu zaman pristavın çağırdığı aşıqlar deyir:

- Ay başına dönüm, bəs bizi hara aparırsan?

Səfərəlı deyir:

- Siz qorxmayın, pristav yaxşı toy çaldıra bilmədi. İndi mən yaxşı toy çaldıracam. Bunu deyəndən sonra Səfəralının dəstəsi gəlib Bozlu kəndinə çatdı. Səfərəlı Məmmədşərəfsultanı çağırdı ki, ayğırı versin. Məmmədşərəfsultan atı götürməyib dedi:

- Səfərəlı , sən ki, bu igidliyi elədin, ayğırı sənə bağışladım.

Bu arada Məmmədalı dedi ki, ata, bəs o Çalbayır tərəfdən gələn atlı dəstəsi kimiydi? Onlar da pristavın adamlarına hücum etdilər, sizin qalib gəldiyinizi görüb bir-birinə işarə verib aradan çıxdılar. Səfərəlı dedi:

- Balam, görəsən kim olub, yəqin bizi istəyənlərdən olublar. Yəqin səni qurtarmağa gəliblərmiş. Səfərəlı belə deyəndə çoban qayıtdı ki, Səfərəlı baba, onlar Qaçaq Nəbinin dəstəsindəniydilər. Onlardan bəzilərini tanıdım.

Səfərəlı bunu eşidəndə çox şad oldu və dedi:

- Halal olsun Nəbiyə. Doğrudan da igid igidin düşmən əlində qalmasına razı ola bilməz. Qaçaq Nəbi elə bilib ki, mən çata bilmərəm. Ona görə də səni qurtarmağa gəlibmiş. Hər şey aydındır.

Səfəralının dəstəsi həmin günü və gecəni atları sürüb gəlib çatırlar Göydağa. Bu münasibətlə üç gün-üç gecə şadyanalıq eləyilrər. Üç gündən sonra aşıqlar da icazə alıb evlərinə qayıdırlar.

Səfərəlı aşıqlara xeyli xələt, pul verir. O zaman Dərələyəzli Aşıq Nəbi də bu məclisdə iştirak edirdi. Üç gün idi ki, çalıb-çağırırdı. Aşıq Nəbi Səfəralını qoçaq, mərd, səxavətli olduğunu həm eşitmişdi, həm də öz gözləriynən görmüşdü.

Ləzgi Əhməd üzünü Aşıq Nəbiyə tutub deyir:

- Ay Aşıq Nəbi, mən bir işə məəttəl qaldım. Sən özün öz gözlərinlə Səfərəlı babanın igidliyini, səxavətini, comərdliyini gördün. Nə əcəb, bu haqda bir şey söyləmədin?

Bu zaman Aşıq Nəbi qayıtdı ki, a Ləzgi Əhməd, igidin üzünə tərif deməzlər. Aşıq gördüyünü çağırar. Mən burda gördüyümü çala-çala el-obada söyləyəcəyəm. İndi ki, deyirsən, nə olar, deyim də.

Aşıq Nəbi sazı köynəkdən çıxarıb zilini-zil, bəmini-bəm eliyib aldı görək nə dedi:

*Dəyirmanda Məmmədalı tutuldu,*
*Qol-qanadı qandalağa büküldü,*
*Bedavını mindi qullar töküldü,*
*Min atlı dağıtdı can Səfərəlı,*
*Düşmənə yalatdı qan Səfərəlı.*

*Pristavı uzun yolda izlədi,*
*Sirr-sözünü ürəyində gizlədi,*
*Tikəni yemədi, yoldaş gözlədi,*
*Eldə Hatəm olan can Səfərəlı,*
*İyidlər sərdarı xan Səfərəlı.*

Bu sözləri deyəndən sonra aldı sözün o biri xanasını.

*Göy dağda çadırı qurub dirəyli,*
*Ətrafı bəzənib güllü-çiçəkli,*
*Ey enli kürəkli, pələng biləkli,*
*Tez yet qandalağı aç, Səfəralı,*
*Yoxdu bərabərin qoç Səfəralı.*

*Qırır bəyi, xanı gen açır meydan,*
*Kasıba, yoxsula eyləyir ənam,*
*Dünyaya gəlmiyib heç belə insan,*
*Ellər əhsən deyir can Səfəralı,*
*İçirdir düşmənə qan Səfəralı.*

*Neçə para kəndi eylədi azad,*
*Qırdı düşmənləri qəlblər oldu şad,*
*Aşıq Nəbi aldı bir ağır xələt,*
*Gorusda ad aldı can Səfəralı,*
*Gavıra içirtdi qan Səfəralı.*

Söz tamama yetişdi. Ləzgi Əhməd əynindəki vəznəli mahud çuxasını çıxarıb Aşıq Nəbiyə xələt verdi. Hamı hər ikisinə əhsən dedilər.

## QAÇAQ SƏFƏRALININ QARAARXAC SƏFƏRİ

Dağıstan mahalında, İsmayıl adında bir oğlan varıydı. O, 6-7 yaşında olanda ata-anası ölmüşdü. Həmin kəndin adamlarından biri bunu götürüb saxlayır. İsmayıl 13-14 yaşa çatanda öz tay-tuşuynan gəzəndə biriynən söz-sözə gəlir. Ona deyərdilər ki, İsmayıl, səni allahlığına saxlayıblar, kimin var ki.

Bir gün İsmayıl bu töhmətdən çıxmaq məqsədiynən səhər tezdən ağacını götürüb yola düşür və üzünü tutur Azərbaycan torpağına. Qarabağ mahalında Cinni adlanan bir kənddə Hacı Bəbir adında varlı bir adama rast gəlib deyir:

- Ay əmi, bu gecə məni qonaq edərsənmi?

- Niyə eləmirəm, a bala, qonaqsız evi Allah dağıtsın. Allah qonağıyam?

Kişi bunu evə aparır, çörəydən, çaydan yeyib-içəndən sonra soruşur ki, a bala, bəs kimsən, hara gedirsən?

İsmayıl deyir:

- Gəlmişən bir yerdə nökər olub başımı saxlayam.

Hacı Bəbir deyir:

- Mənə nökər olarsan?

-Niyə olmaram, qismətimə elə sən çıxmısan.

İsmayıl burada iki-üç ay qaldıqdan sonra görürlər ki, evdar, təsərrüfatcıl oğlandı. Bir gecə oturub söhbət eliyəndə Hacı Bəbir İsmayıldan soruşur:

- İsmayıl, nəyin, kimin var evdə?

İsmayıl deyir:

- Allahdan gizli deyil, bəndədən nə gizlədim, mənim atam-anam vəfat edib. Heç bir kimsənəm yoxdu.

Hacı Bəbir bu işi biləndən sonra bir gün arvadıynan xısınlaşdı ki, gəl bir iş eliyək.

- Nə eliyək?

- Sən bilirsən ki, bizim var-yox bircə qızımız var, ondan başqa evladımız yoxdur. Elə gəl İsmayılı özümüzə həm oğulluğa götürək, həm də Balqızı verək ona.

Arvad razı olandan sonra bir gecə Hacı Bəbir məsələni açıb İsmayıla söyləyir.

İsmayıl bir qədər sükuta gedib öz baxtından razılıq etdikdən sonra cavab verir. Bəs belə təklifə niyə razı olmayım. İndən belə siz olarsız mənim atam, mən də sizə oğul.

Hacı Bəbir bu sözü eşitdikdən sonra sabahı heyvan kəsdirib çörək bişitdirdi. Kəndin bir neçə hörmətli adamlarını çağırtdırdı evə. Süfrə açıldı, çay-çörək yeyilib qurtarandan sonra süfrəyə nəmər gəldi... Oturanlar soruşdular ki, bəs bu nə nəmərdi?

Hacı Bəbir dedi:

- Mən qızım Balqızı İsmayıla nişan taxıram.

Bu sözü eşidəndə hamı:

- Allah mübarək eləsin dedi.

Bundan sonra ev oldu İsmayılın. İsmayıl oldu cəmi nökərlərə sərkar.

Bunlar burada qalmaqla olsunlar, sizə xəbər verim Hacı Bəbirin qardaşlarından. Bunlar yığılıb bir yerə dedilər:

- Görürsünüz, bizim qardaşımız qızı bizə rəva bilmədi, verdi bir yetim ləzgiyə. Gəlin elə eliyək ki, yetim ləzgi qızı ala bilməsin.

Yazın orta ayıydı. Tərəkəmə camaatı yaylağa getməyə hazırlaşırdı. O zaman Qarabağın bəyləri, xanları, varlıları səfalı yerlərdə yaylayardı. Murov dağ, Sarı yer, Murad təpə, Ala göllər, Qaraarxac, Divəyli, Tikannı yurd, Zalxa, Qızıl təpə, Dəvəözü, Sandıxlı, Daşkörpü, Dərə yurd, Soğannı, Dikcə pilləkən, Versin dağı, Soyuq bulaq, Göy bulaq, Kəngərli yaylağı kimi yerlər onların istirahət yerləri idi. Həmin ili Hacı Bəbirin obası Qaraarxac yaylamağına gedəsi oldu. Gəlib yaylağa çatandan sonra Hacı Bəbir dedi ki, toy tədarükü görmək lazımdı. Artıq Balqız da yekəlib, İsmayıl da. Dağda toy eləməyin özgə ləzzəti var.

Bir gün Hacı Bəbir obadan kənara çıxıb bir güllü-çiçəkli çəmənzarda yığıncaq qurdu, qardaşlarını çağırdı yanına.

- Gəlin məsləhətləşək. Mənim övladımın toyunu başlayaq. Naxçıvan mahalından duz, düyü gətirməyə, Gəncə şəhərinə qənd-çay gətirməyə adam göndərmək lazımdır.

Bu sözü eşidən qardaşlar dərhal bir-birinə işarə elədilər. Çünki axı bir-birinə söz vermişdilər. O saat qardaşlardan biri dedi:

- Bizi havax məsləhətə çağırmısan? Əgər sən o qızı İsmayıla versən, biz sənin qardaşın deyilik, nə də toyuna gələcəyik. Sən qıza nişan taxandan bəri camaatın içində biabır olmuşuq. Hamı deyir ki, ayıb deyilmi sizin kimi adlı-sanlı adamlar, qızı yetim ləzgiyə ərə verirsiniz.

Bu sözü eşidən Hacı Bəbir çox fikrə getdi, handan-hana dedi:

- Bəs nə deyim?

Dedilər:

- Bax, qızı hansımızın oğluna verirsən ver, toyunu başlayaq, onu da bu saat qovalayaq getsin.

Hacı Bəbir çox fikirli halda gəldi evə. Axşam oldu. Hamı evə gələndə Hacı Bəbir dedi: İsmayıl, mənim qardaşlarım razı olmur qızı sənə verim. Sən gəl bu işdən heç incimə, amma bu obada kimin qızını deyirsən alım, toy eləyim, yenə qal evimdə.

İsmayıl bu sözü eşidəndə rəngi dəyişdi, çölə çıxdı. Hirsindən həmin gecə çadıra gəlməyib qaldı qoyunların içində. İşıqlaşanda sürünü haylayıb yaylıma apardı. Bir zaman gördü toy səsi gəlir. Yaxınlaşıb gördü ki, toyu başqa qapıda başlayıblar. İsmayıl bunu belə görəndə qapıya gəlib Hacı Bəbirə dedi:

- Yeddi il sənə nökər olmuşam, haqqımı verin, gedirəm. Bu sözü eşidəndə Hacı Bəbirin qardaşları gəlib İsmayılı döyüb obadan çıxartdılar. İsmayıl tək nə etsin? Yön çevirib ağlaya-ağlaya başqa obalara yollandı.

İsmayıl bir qədər yol getdikdən sonra birdən Qaçaq Səfəralı yadına düşdü, öz-özünə dedi:

- Axı mən eşitmişəm ki, Göydağda Qaçaq Səfəralı var. O, çox rəhmdil, nökərlərin həmişə haqqını tələb edən, kim incidərsə onlara cəza verən adamdı. Düz gedirəm onun yanına. Dərdimi ona deyim, bəlkə dərdimə əlac eləsə, o eləyər.

İsmayıl soraqlaşa-soraqlaşa Daş körpüdən, Muradtəpə yaylağından aşıb düz gəlib çıxır Göydağda Qaçaq Səfəralının obasına. Səfəralı onu görüb soruşdu:

- Kimsən, bura niyə gəlmisən?

İsmayıl başına gələn qəza-qədəri nağıl elədi Səfəralıya. Ləzgi Əhməd İsmayılın ləzgi olduğunu bilib bu işə ürəkdən qol qoyuf Səfəralıya dedi:

- Səfəralı baba, gərək bu işi düzəldəsən?

Məmmədalı obada yoxudu. Səfəralı əmr elədi ki, tez Məmmədalını çağırın yanıma. Məmmədalını çağırdılar gəldi. Dedi:

- Ata, məni niyə çağırmısan?

Səfəralı dedi:

- Qulaq asın igidlərim, görün nə deyirəm.

Aldı Səfəralı:

*Qaraarxaca doğru səfərimiz var,*
*Yığılsın buraya el, Məmmədalı.*
*Şimşək kimi hər tərəfə çaxarsız*
*Götürsün hər yanı sel, Məmmədalı*

*İsmayılın gərək gətirək yarın,*
*Qız atası gərək itirsin varın,*
*Dava meydanında üzbəüz durun,*
*Qoy tanısın sizi el, Məmmədalı.*

*Şahin kimi şığıyarsan obaya,*
*Əl vurmayın orda yurda,yuvaya,*
*Çox da fikir verməyəsiz davaya,*
*Qızı çal tərkinə al, Məmmədalı.*

Söz tamama yetdi. Səfəralı soruşdu ki, qızı havax aparırlar?

İsmayıl dedi:

- Hələ yeddi gün toy eliyəcəklər, bu gün toyun üçüncü günüdü.

Səfəralı arxayınlaşdı. Həmin gecəsi tədarük görüb yatdılar. Sabah açılan kimi atlara süvar olub düşdülər yola, amma bir at da İsmayıla verdilər. Çünki o olmasaydı nə biləcəkdilər ki, hansı qızı aparacaqlar.

Bunlar yol getməkdə olsunlar, sizə xəbəri Hacı Bəbirdən verim. Bunlar toyu başlayanda neçə-neçə təhlifçi atlılar yola saldılar. Bir ucu Murovdağ, Dəlidağ, Çalbayır, bir ucu Sarıyer, Muradtəpə, Alagöllər, Qızıl təpə, Kəngərli dərəsi bunun arasında nə qədər ki, əhali vardı, hamısını dəvət etdilər toya. Neçə-neçə pristavlar, neçə-neçə dağbəyilər öz dəstəsiynən yığışmışdılar toya. Qaraarxac düzündə insan qarışqa kimi qaynaşırdı.

Göydağnan Qaraarxacın arası 50-60 kilometr yoluydu. Günorta olmamış Səfəralının dəstəsi çatdı bir yalın başına. Yuxarı çıxanda obadakı cahi-cəlalı görəndə İsmayıl qorxuf dedi:

- Səfəralı baba, bu millətin içində qız gətirmək olmaz. Sizi də tələf edərlər, məni də öldürərlər. Xahiş edirəm qayıdın gedək. Elə əvvəldən mənim bəxtim qara gəlib.

Bu sözü eşidəndə Səfəralı çox təsirləndi, tüfəngini saz eyləyib, görək İsmayıla nə dedi:

*Dağ döşündə turac, kəklik çox olar,*
*Tərlan görcək tez gizlənər, İsmayıl.*
*Qanad çalsam çoxu doluşar kola,*
*O bacarmaz dura uça, İsmayıl.*

*Ər, meydanda baxmaz ikiyə-üçə,*
*Qartal caynağına tab etməz beçə,*
*Aslan gərək bu meydanda qan içə,*
*Qılınc çala, dövran aça, İsmayıl.*

*Mən ki, qızdım şimşək kimi çaxacam,*
*Boz-bulanıq bir sel kimi axacam,*
*Zalımları qırıb, evin yıxacam,*
*Səs salacam Qaraxaca, İsmayıl.*

*Dörd olacaq Hacı Bəbirin gözü,*
*Pristav tərəfdən öləcək yüzü,*
*Səfəralı gətirəcək Balqızı,*
*Gərək aşıq dövran aça, İsmayıl.*

Söz tamama yetdi.

Səfəralı bir qədər fikrə getdi. Öz-özünə dedi: «Biz dəstəynən obaya girə bilmərik. Nahaq qan çox tökülər. Özü də qızı belə basdırıqda tapıb, çıxarmaq çətin olacaq».

Bütün toy adamlarının atları yəhər-yiyənli obanın kənarında bağlanmışdı. Səfəralı bir qədər fikirləşəndən sonra iki nəfər ayırdı ki, gedin qonaqların atlarının yüyənini, hörüyünü kəsib qabağınıza qatıb oba aşağı aparın. Hay düşəcək ki, oğrular atları apardılar. Hamı düşəcək sizin arxanızca. Təpəni aşan kimi atları dərəyə töküb yalın dalıynan gəlin bura, biz də sahibsiz obaya girib qızı götürüb aradan çıxarıq. Sonra Daşkörpü dərəsində görüşərik.

Bu məsləhət hamının ürəyincə oldu. Sonra Ləzgi Əhməd siyirmə qılınc özünü yetirdi nə qədər ki, toya gələnlərin atları vardı, hörüyün kəsib hamısını qatıb bir-birinə atdöşü eliyib yaldan aşırdı. Camaat bunu görən kimi atların dalınca düşdülər. Bu tərəfdən də Səfəralı dəstəsiynən şığıdı obaya, İsmayıla dedi:

- Qız haradadı, bizi o çadıra apar.

Düz sürdülər həmin alaçığın qabağına. Məmmədalı çox hünərpərvər, cəngavər, qüvvəli bir pəhləvan idi. Özünü atdan atıb cumdu çadıra. İçəridə bir neçə qız-gəlin varıydı. Əl atıb bir qızı götürəndə sən demə, bu başqa gəlinmiş. Gəlin əhvalatı duyub qışqırdı ki, ay başına dönüm, Balqız mən deyiləm. Qız odu gərdəyin arxasındadı.

Məmmədalı tez gəlini buraxıb gərdəydən qızı çıxartdı çölə və dedi:

- Əyə, keçəl, qız budumu?

İsmayıl dedi:

- Hə, odu, qadan alım.

Məmmədalı atı mindi, qızı tərkinə qucağına basıb Göydağa sarı yola düşdü. Bir az obadan kənara çıxandan sonra hay düşdü ki, qızı apardılar. Pristavlar, dağbəyilər bütün toya yığılanlar gördülər ki, bir nəfər qızı aparır. Məmmədalı qızı İsmayılın qucağına basıb dedi:

- Sən sür get.

Səfəralı, Məmmədalı, Qurbanalı, Baxşalı, Niftalı, Cabbar, Ataş, Mikayıl, Ləzgi Əhməd və o biri qoçaqlar hərə bir tərəfdən bunların dalınca gələnləri elə pələsəng etdilər ki, gözlər olsun görməsin. Pristavın dəstəsi guya özünü iyid hesab edib hücuma keçəndə Səfəralı Koroğlu kimi nərə çəkib pristava dedi:

Gəlmə irəli, Pristav,
Pozaram əhvalın sənin.
Sinənin üstə çökərəm,
Alaram canını sənin.

Talan salaram elinə,
Çəpər çəkərəm yoluna,
Qandal vuraram qoluna,
Yandırram imanın sənin.

Misri qılıncı çalaram,
Başın bədəndən salaram,
Yurd-yuvana od salaram,
Sel tək axar qanın sənin.

Səfəralı tutar səni,
Tuluğ eyləyər dərini,
Görürsən iyidlərimi?
Tərs gələr dövranın sənin.

Söz tamama yetişdi.

Pristav yavaşcadan dəstəsini geri çəkib qaçmağa başladı. Elə qaça-qaça Səfəralıdan xəbər aldı:

- Sən ki, Səfəralısan, deyirlər camaat tərəfdarısan. Bə niyə xalxın toy üstə gəlinini aparırsan özünə?

Səfəralı dedi:

- Səhv düşmə pristav, mən həmin qızı aparıram nişanlısı İsmayıla. Qızın həqiqi nişanlısı budur, o deyil.

Bunu eşidən camaat hamı geri qayıtdı. Səfəralı öz dəstəsiynən gəlib yetişdi İsmayıla. Göydağa çatan kimi orada üç gün-üç gecə İsmayılnan Balqıza toy elədilər. Toy qurtarandan sonra ləzgi Əhməd dedi:

- Ay İsmayıl, bəs Səfəralı babam bu qədər əziyyət çəkib nişanlını gətirib verdi sənə, sən ona nə xələt verəcəksən?

Yazıq İsmayıl çox fikir elədikdən sonra dedi:

- Səfəralı babama bu əziyyətin qabağında pulun, malın layığı yoxdu. Qulaq as gör Səfəralı babama nə verirəm, aldı İsmayıl:

Var-dövlətim yoxdu, bircə canım var,
Qurban olsun sənə ay Səfəralı.
Qalalar dağıdıb ordu pozursan,
Rüstəm-Zal kimisən ay Səfəralı,
Yox sənə dünyada tay Səfəralı.

Gorusda dövranı sən vurdun başa,
Namuslu kişisən, səni yüz yaşa,
Təfavüt qoymursan yoldaş, qardaşa,
Sən bunu ellərə yay, Səfəralı,
Yox sənə dünyada tay Səfəralı.

Murovlar öldürüb, pisi əzirsən,
Aslan kimi hər meydanda gəzirsən.
Müxənnətin boğaz-başın üzürsən,
Yetimlər atası, ay Səfəralı,
Yox sənə dünyada tay Səfəralı.

Öz fikrini pristava yetirdin,
Sən Balyızı Qaraxaçdan gətirdin.
İsmayılı xoş murada yetirdin,
Qoy doğsun üzünə ay Səfəralı,
Yox sənə dünyada tay Səfəralı.

Söz tamama yetişdi.

Həmin gündən sonra İsmayıl da Səfəralının yanında bir oğlu kimi qalası oldu. İki ildən sonra Hacı Bəbir minnətə adam göndərdi. Özü gəldi ki, ay Səfəralı, sən bilirsən var-yox bircə övladım Balqızdı. İcazə ver, İsmayılı da, qızı da aparım. Elə mənim ürəyimcə oldu, bu mənim əvvəlki fikrimiydi.

Səfəralı icazə verdi və ona dedi: ay Hacı Bəbir, əgər İsmayılın başından bir tük əskik olsa, torpağını at torbasında daşıtdıraram.

İsmayıl Səfəralı babaynan, dəlilərnən öpüşüb halallaşdı, getdi Hacı Bəbirin yanına. Balqızla İsmayıl xoşbəxt olub muradlarına çatdılar. Sizi də muradınıza çatasınız.

Qaçaq Səfəralının Qaçaq Nəbiynən Göbəkdaşda görüşməsi

Zəngəzurda Qaçaq Nəbi adında bir qoçaq varıydı. Başında da xeyli atlısı. O da Zəngəzur mahalında qaçaqlıq eliyirdi. Həmin dövrdə Naxçıvanın Şahbuz bölgəsində Qaçaq Quşdan, Göyçədə Qaçaq Şirin addı-sannı qoçaxlarıydı. Qaçaq Səfəralı bir dəfə eşitdi ki, Nəbinin dəstəsi hardansa gəlirmiş. Yolüstü Dəvəgözü yaylağından Arxaşana tərəf üz tuturlar. Gecə güclü çənə düşürlər. Gəlib çıxırlar Dərələyəzə – Gümüşxanaya. Gümüşxananın dərəsində atlardan düşüb dincəlirlər. Səhər açılır, gün çıxır, çən çəkilir, dəstə yoluna davam edir.

Zəngəzura yola düşəndə Gümüşxanalı Əziz adında bir kişinin ilxısından bir neçə at da seçib aparırlar. Öz atları yorulubmuş. Mənzil kəsməzmiş.

Bu xəbər Göydağda Səfəralıya çatır. Səfəralı bu işə məəttəl qalır. Deyir ki, axı Qaçaq Nəbi belə iş tutmaz. Niyə kənd ağsaqqalı Gümüşxanlı Əzizin atlarını aparsınlar? Sonra eşidir ki, Nəbinin dəstəsindən bir neçə adam həmin gecə kənddən bir neçə qoyun da aparıb, Gümüşxana dərəsində kəsib yeyiblər. Səfəralı Nəbiyə belə bir xəbər yollayır:

- Nəbiyə deyin bir də bu tərəflərə üzükməsin. Gədələrinə tapşırsın, camaatı incitməsinlər, yoxsa onun atlarının yal-quyruğunu qırxdıraram. O vaxt atın yal-quyruğunu qırxmaq təhqir sayılarmış. Bu xəbəri Qaçaq Nəbiyə Çalbayırda çatdırırlar.

Nəbi deyir ki, eşitmişəm, Qaçaq Səfəralını da iyid söylüyürlər. Dəstəmiz çənə düşdüyü üçün biz Dərələyəzdən yolumuzu salmalı olduq. Qaldı gümüşxanlı Əzizin atlarına, bizim atlar yorulduğundan onun atlarını minməli olduq. Öz atlarımızı orada qoyduq, sonra kişinin atları yola salmışam. Qaldı bir neçə erkəyi gətirməyə, uşaqlar neçə gün idi ki, ac idilər. Nə olar, adam-adama qonaq gedəndə heyvan kəsirlər. Elə zənn etsinlər ki, evlərində qonaq olmuşuq.

Bu söhbətdən sonra Nəbi də Səfəralıya xəbər yollayır ki, Səfəralının igid oğlu Məmmədalını yatdığı yerdə götüzdürərəm, xəbəri olmaz. Nəbi eşitmişdi ki, Məmmədalı çox igiddi, amma yatanda ağır yatır.

Hər iki qaçağın arasında belə xoşəgəlməz ismarıc olmuşdu. Ancaq onlar üz-üzə gəlməmişdilər. Səfəralı Nəbiyə xəbər yollayır ki, bizim bir düşmənimiz var, o da çardı, onun yerlərdəki adamlarıdı. Murovdu, pristavdı, çinovnikdi. Biz onlara divan tutmalıyıq. Yaxşı olar ki, biz qaçaqlar birləşib birlikdə onlardan qisasımızı alaq.

Sizə kimdən deyim Qaçaq Nəbidən. Qaçaq Nəbi eşidir ki, pristav Qaçaq Səfəralının oğlu Məmmədalını dəyirmanda tutub Gorusa aparır. Lakin ona demişdilər ki, bu tutulan Qaçaq Səfəralıdır. Pristav hər yerə car çəkmişdi ki, Qaçaq Səfəralını tutmuşam, üç gündən sonra Gorusa aparacam. Kim istəyirsə gəlib görsün. Bu xəbər Çalbayırda məskən salan Qaçaq Nəbiyə də çatır. Fikirləşir ki, bu kişilikdən deyil. Mən gərək ona kömək edəm, onu dardan qurtaram. Qalanı sonrakı işdi.

Qaçaq Səfəralının dəstəsi Üçtəpədə pristavın dəstəsinə yetişməkdə, Qaçaq Nəbinin dəstəsi də ora çatmaqda. Bir-birindən xəbərsiz pristavın dəstəsini pərəsəng eyləyib pərən-pərən salırlar. Məmmədalı azad olanda atasına deyir ki, ata, bir başqa dəstə də Çalbayır tərəfdən pristavın dəstəsinə cumdu. Çoban deyir ki, o Qaçaq Nəbinin dəstəsiydi.

Səfəralı bir qədər fikrə gedir. Sonra ləzgi Əhməd ona deyir:

- Səfəralı baba, sən atı çapıb düşmənin qabağını kəsməyə gedəndə bir dəstə atlı Çalbayır tərəfindən gəlib bizə qarışdı. Soruşanda dedilər ki, qaçaq Səfəralını qurtarmağa gəlmişik. Biz də söylədik ki, tutulan Səfəralı deyil, oğlu qoç Məmmədalıdır. Səfəralı özü pristavın dəstəsinə qabaqdan hücum edəcək. Dəstənin içində boz atlı, şiş papaqlı, şeşə bığlı, aynalı tüfəngli bir nəfər dəstə üzvlərinə nəsə deyib dəstədən çıxdı. Üzündə ürbəndi də vardı. Həmin dəstə də biznən hücuma keçdi. Axırda baxdıq ki, heç biri yoxdur.

Səfəralı:

- Hər şey aydındı, o rübəndli Nəbiymiş.

Bir neçə gün sonra Səfəralı oğlu Qurbanalını çağırıb dedi ki, kişi gərək kişiyə borclu qalmasın. Atını min, o boz ürgəni də yəhərlə, sür Çalbayıra. Nəbini taparsan, həmin boz ürgəni bağışlarsan ona, mənim də salamlarımı, təşəkkürümü yetirərsən. De ki, vaxtı olsa, bir görüşək. Harda, nə vaxt, onu da dəqiqləşdir.

Səfəralı oğlu Alını çağırdı ki, ürəyimə üç kəlmə söz gəlib, mən deyim, sən yaz göndərək Nəbi qağaya.

Aldı Səfəralı:

*Aynalı tüfəngli, eşmə bığ oğlan,*
*Ağrın alım, ürək yara, incimə.*
*Soyuq əksaq düşmən bundan sevinər,*
*Bizi eylər günü qara, incimə.*

*Dostun sədaqəti dosta gərəkdi,*
*Qəlb sirdaşı vallah baldı, çörəkdi,*
*Gennən-genə sözlər nəyə gərəkdi,*
*Edər bizi para-para, incimə.*

*Murovları əzək gəlsin fəryada,*
*Yaxşı ad qalacaq fani dünyada,*
*Səfəralı səni salacaq yada,*
*Giley-güzarlardan küsmə, , incimə.*

Qurbanalı iki gün at sürdü, Nəbinin olduğu obanı tapıb dedi:
- Nəbiyə çatdırın ki, Dərələyəzdən-Göydağdan ona Qaçaq Səfəralının ismarıcı var. Yalnız özünə deməliyəm, məni qəbul eləsin.

Bir gecə Qurbanalını obada qonaq saxladılar. Səhəri günorta Qurbanalının gözlərini bağlayıb Nəbinin yanına gətirdilər. Qurbanalı özünün kimliyini söylədi. Dedi ki, Qaçaq Səfəralının oğlu Qurbanalıyam. Məmmədalının azad edilməsinə kömək etdiyinizə görə atam təşəkkürünü bildirir. Atam sənə yəhərli-yüyənli bir at, bir qamçı, bir də bir məktub göndərib. Atam sənnən görüşmək də istəyir, xahiş edir ki, yerini və vaxtını deyəsən. Özü də görüşə həmin boz ürğəynən əlinizdə də həmin gümüş dəstəkli qamçıynan gəlməyinizi xahiş etdi.

Nəbi Qurbanalıya diqqətnən qulaq asandan sonra bir xəncər verib deyir ki, Üçtəpənin yanında Göbəkdaş deyilən bir qaya var, onun yanında həmin boz ürgənin üstündə olacam. O da bu xəncər belində orada olar. İkicə adamla gələr, biz də üç nəfər olacağıq. Gecikməsin, hansımız tez çatsaq, 15-20 dəqiqə gözləyərik, alınmasa, demək görüş baş tutmadı.

Nəbi də Səfəralıya üç benddən ibarət cavab məktubu yazıb verdi Qurbanalıya.

*Səfəralı, aldım sənin naməni,*
*Çox şad oldum məni yada salmısan,*
*Peşkəş göndərmisən sən boz ürgəni,*
*Çox sağ ol ki, sən Nəbini anmısan.*

*Kişinin əlindən çıxar hər xata,*
*Mərd igidlər gərək xisləti ata,*
*İstərəm ərənlər murada çata,*
*Yaxşı ki sən buna körpü atmısan.*

*Elə bil ki, köz basılıb yarama,*
*Fikrim dağınıqdı, könlüm virana,*
*Nəbi deyir, sən gəl məni sınama,*
*Sən də el-obaya kömək olmusan.*

Bunnan sonra Qurbanalı yola düşdü Göydağa.

Qaçaq Nəbi ilə Qaçaq Səfəralı vədələşdikləri vaxtda Göbəkdaşda görüşdülər. O vaxtdan onlar möhkəm dost oldular, bu dostluq eldən-elə, dildən-dilə yayıldı.

Yazın ilk ayıydı. Aşağılarda havalar isinişmişdi. Səfəralı dəstəsinə tapşırdı ki, dağa çıxmaq vaxtıdı. Düzdü, Göydağ hələ açılmamışdı, yerdə xeyli qar varıydı. Göydağa qalxmaq mümkün olmasa da onun ətəyindəki Dərəyurdda müvəqqəti yola getmək olardı.

Səfəralının dəstəsi bir neçə gün idi ki, Dərəyurdun Böyük kaha deyilən kahasında köç salmışdılar. Dərə yurdun çayı göynən gedirdi. Göy dağın qarı əriyib selə dönürdü.

Qaçaq Səfəralının adamları çirişdən, qırxbuğumdan, yarpızdan, bütün yeməli pencərlərdən yığıb kətə bişirir, qaynadıb sarımsaq-qatıqla yeyir, "dişlərini dəyişirdilər".

Belə bir vaxtda sizə kimdən deyim Gindivas kəndlisi Hacalıdan. Hacalı bir neçə günüydü ki, oğlu Şıxalıya deyirdi: Səfəralını qonaq çağıraq, bir onuynan söhbətləşək, məsləhətləşək görək bu işə nə deyir. Axı Səfəralının Gümüşxana kəndiynən qohumluğu da var. Hamı Səfəralının xətrini istiyir, bir sözü iki olmur.

Bu görüş ona görəydi ki, Hacalının bacısı oğlunun gümüşxanalı bir nəfərlə sözləri çəp gəlmişdi, araya qannıçılıx düşmüşdü. Hacalı onu da eşitmişdi ki, Qaçaq Səfəralı artıq Pir kahasından köçünü Dərəyurda dəyişib, beş-on günə Göydağa qalxacaq. O, Şıxalını səhər obaşdan göndərdi Dərəyurda.

Şıxalı Dərəyurda çatan kimi Qaçaq Səfəralıya dedi: atam deyir ki, ya sabah obaşdan, ya da axşamüstü bizə buyursun gedək Gümüşxanaya, araya qan düşüb, bu ədavəti aradan götürək, barışıq olsun.

Qaçaq Səfəralı Şıxalıya diqqətlə qulaq asdı, sonra işarə elədi, ortaya süfrə gəldi. Birlikdə doyunca çiriş kətəsi, qırxbuğum kətəsi yeyib, yarpızlı çay içdilər.

Səfəralı Hacalının oğluna belə dedi;

- Hacalı babana salam söylə. De ki sübh tezdən, çay çox qalxmamış orda olaram. Səfəralı qalasında məni gözləsin.

Şıxalını axşamüstü kəndə yola saldılar. O, kəndə çataçatda kəndin başında "qaxtağan" dəllək Harutunla rastlaşdı. Onu da deyim ki, bu ərəfədə bu kəndə İran və Türkiyədən on-on beş ailə erməni köçürülmüşdü. Müsəlmanlarla bir kənddə qarışıq yaşayırdılar. Ermənilər dəlləklik, ustalıq edir, müsəlmanlara ot-alaf toplamaqda, təsərrüfat işlərində köməklik göstərir, sərbəst dolanırdılar.

Harutun Şıxalının hal-əhvalını, atası Hacalının kefini xəbər alıb bu dar vaxtı hardan gəldiyini soruşanda Şıxalı hardan gəldiyini, Qaçaq Səfəralının sübh tezdən onlara qonaq gələcəyini dəllək Harutuna danışdı.

Dəllək Harutun evinə gedəndə yolda qonşusu Kostanla qarşılaşdı. Söhbət əsnasında dedi ki, sabah sübh tezdən Qaçaq Səfəralı Hacalı ağaya qonaq gələcək. Qaçaq Səfəralı Hacalıyla Gümüşxanaya gedib qan düşmüş tərəfləri barışdıracaqlar.

Kostan dəlləkHarutuna heç nə deməyib tez iti addımlarnan evinə keçdi, xeyli fikirləşib qardaşını, bir də oğlunu yanına çağırdı. Tapşırdı ki, tez mişarı götürüb enin Arpaçayın dərəsinə, ta ki, su yatıb keçin o biri taya. Hər iki atmanı-tiri kəsin, bir balaca qalmış qoyarsınız ki, üstünə çıxan anda sınsın. Özünüz də yuxarı addamacdan, Səfəralı qalasının tuşundan addıyıb evə gəlin. Çalışın sizi heç kəs görməsin.

Kostanın qardaşı və oğlu soruşdular ki, körpünü niyə kəsək, sən nə danışırsan, bəs camaat hardan o taya-bu taya keçəcəklər?

Kostan astadan dedi ki, sabah tezdən Qaçaq Səfəralı öz adamlarıynan bura gələcək, Hacalıgilə. Hacalı onu qonaq çağırıb. Körpünü kəsərik, Qaçaq Səfəralı igidləri ilə çaya düşər, bu qıjhaqıjda ordan heç fil də qurtara bilməz. Onlar ölər, xəbər Dərəyurda çatar, Səfəralının dəstəsi elə düşünür ki, Hacalı qəsdən Qaçaq Səfəralını qonaq adı ilə çağırtdırıb, hiylə qurub körpünü kəsib. Onun dəstəsi də hücum edib Hacalı ağanın nəslini kəsər, kənd qalar bizə, ağa biz olarıq.

Namərd Kostan dığaların tapşırığını verib yola saldı, özü də səbirsizliknən onların yolunu gözlədi. Gecədən xeyli keçmiş dığalar gəldilər ki, tapşırığı çox ustalıqla yerinə yetirdik. Bizi heç kim görmədi.

Sizə xəbər verim, Qaçaq Səfəralıdan. Səfəralı sübh tezdən durub təhrat aldı, namaz qıldı, çay-çörəyini yedi. Böyük oğlu Məmmədalını çağırdı ki, tək getməyin adı yoxdu. Sən də elə dayıngillə görüşərsən. Göydağa qalxanda ta payıza kimi kimdi aşağı düşən. Bir az da taxıl götürüb endirərsən Gindivasın dəyirmanına, üyüdərsən, mən də qayıdanda birlikdə qayıdarıq.

Səfəralı, Məmmədalı, Alı, iki nəfər də qoçaqlardan atlara minib Gindivasa yola düşdülər. Səfəralı dedi:

- Ay uşaqlar, atları yeyin sürün ki, çayı səhər-səhər keçək. Çünki su indi yatıb. Bir azdan dərələrin seli töküləcək çaya, Arpaçay da göynən gedəcək. Körpünü su basır belə olanda.

Onu da deyim ki, Səfəralı həmişə yol gedəndə oğlu Məmmədalını qabağa salar, özü də onun ardınca at sürərdi. Məmmədalı çox igid, özü də sərvaxt adamıydı. Çox ehtiyatla at sürər, diqqətlə ətrafı yoxlayardı. Gözləri də çox iti idi, uzağı yaxşı görərdi. Bu işdə Səfəralıya çəkən o imiş. Arpaçay dərəsində elə körpüyə çathaçatda birdən Səfəralının gözü suyun üzündəki ağac kəpəyinə sataşdı. Məmmədalı elə az qalmışdı ki, çıxsın körpünün üstünə Səfəralı qışqırdı:

- Məmmədalı, dayan, körpünün üstünə çıxma.

Onlar tez atdan düşdülər, körpünün altına boylanıb gördülər ki, tirlərin hər ikisi yarıdan çox kəsilib. Mişarın ağzından çıxan kəpək də suyun üzündə burulub üzür.

Səfəralı iri bir daş götürüb görpünün üstünə atan kimi körpü şaqqıltıynan sınıb çaya düşdü, su körpünü götürüb apardı. Səfəralı xeyli fikirləşməli oldu.

Məmmədalı dedi ki:

- Ata, Hacalı oğlu Şıxalını elə-belə yollayıbmış ki, sən inanasan, yox demiyəsən. Özü də körpünü kəsdirib ki, bizi məhv eləsin.

- Oğul, sən ağıllısan, Hacalı oğlunu axı başqa işdən ötrü göndərmişdi. Əgər elə fikri olsaydı, başqa bir adam göndərərdi. Burda başqa məsələ var. Çox güman ki, Hacalını istəməyənlərdir, düşmənidir bunu edən. Biliblər ki, Hacalı məni qonaq çağırıb, bu tələni qurublar ki, bizi məhv eləsinlər. Siz də Hacalını məhv eliyəsiniz, kənd qala başqasına. İndi biz gərək onu öyrənək ki, bu ətrafda kimdi Hacalının düşməni.

Sizə xəbəri verim Hacalıdan. Sübh tezdən Hacalı kürkü çiyninə salıb çıxmışdı yolun qənşərindəki Səfəralı qalasının üstünə ki, görsün Səfəralı gəlirmi? Hacalı gördü ki, dərədə, körpünün yanında bir atlı var, onlar atdan düşüb o tərəf, bu tərəfə addımlayırlar. Amma bu taya keçmirlər. Xeyli gözlədi-gözlədi baxdı ki, atlılar çayı keçmək istəmirlər. Elə zənn etdi ki, kötpünü su basıb. Tez geri döndü kiçik oğlunu ata mindirib körpüyə yola saldı ki, get gör onlar kimdi, orada nə edirlər.

Hacalının oğlu körpüyə çatmaqda, Səfəralının atlıları geri dönməyə hazırlaşmaqda. Səfəralı gördü ki, bir atlı çaparaq özünü körpüyə çatdırdı. Soruşdu ki, a bala, kimlərdənsən, belə tezdən hara tələsirsən?

Oğlan baxdı ki, körpü yerində deyil, çay aparıb. Ucadan dedi:

- Əmi, mən Hacalının kiçik oğluyam. Atam sizi burda görmüşdü, məni yolladı ki, get gör kimlərdi, çayı niyə keçmirlər. Bəlkə körpünü çay basıb.

Məmmədalı hövsələsizlik edib dedi:

- Ədə, get atana de ki, bizi qonaq çağırır, körpünü də mişarladır ki, Səfəralını məhv etsin hə? Əgər kişidirsə atamla üz-üzə gəlsin, Şıxalını göndərmişdi ki, inanıb gələk, o da bizi məhv edə, hə. Atana söylə ki, səni bax indicə məhv edərəm, kişi düşmənçiliyi belə etməz. Sonra görüşərik, yadında saxla ki, Səfəralının körpüsünü kəsənin nəsli kəsilər.

Oğlan and-aman elədi ki, babam sizdən narahat idi. Ona görə sübh tezdən çıxmışdı ki, görsün gəlirsinizmi, sizi özü qarşılasın. Sizin adınıza heyvan kəsdirib, qazan asdırıb, samavar odlatdırıb atam. And olsun o bir Allaha bizim bu işdən xəbərimiz yoxdur. Mən bu dəqiqə qayıdıb atama hər şeyi söylərəm.

Səfəralı dedi:

- Oğlum, sən ona fikir vermə, atana söylə ki, görüşümüz baş tutmadı, qaldı sonraya. Amma atana bir neçə kəlmə sözüm var, çatdirarsan ona:

*Sən məni çağırdın çatam hayına,*
*Çatammadım bu diyarı görəndə.*
*Körpünü kəsəni tez axtar, tez tap,*
*Pərvazlan sən vəfədarı görəndə.*

*Dağ üstə dağ çəkir yağı insana,*
*Yayılıb sorağım mənim hər yana,*
*Namərdin yolunda qəsd etmə cana,*
*Şadlıq elə düz ilqarı görəndə.*

*Səfəralı sözün saxla yadında,*
*Kişi kişi olar, varsa zatında,*
*Alışar ürəyim dostun badında,*
*Zəhləm gedir biilqarı görəndə.*

Hacalı xeyli gözlədi ki, oğlu gecikir. Yenə qayanın başına çıxıb dərəyə boylandı. Gördü ki, oğlu at yedəyində, piyada yoxuşu qalxır. Körpünün yanına heç kim yoxdu. Hövlank oğlundan soruşdu:

- Ay oğul, kim idi onlar, bəs nə əcəb kəndə qalxmadılar?

Oğlu qayıtdı ki:

- Baba, onlar Qaçaq Səfəralı, oğlu Məmmədalı, Alı, iki nəfər onların silahdaşları idi. Sən demə körpünü gecə kəsiblər, amana bənd imiş. Qaçaq Səfəralı şübhələnib, böyük bir daş atan kimi körpü sınıb onu çay aparıb. Məmmədalı bizdən şübhələndi. Dedi ki, Hacalının əgər atamnan ədavəti varsa, üz-üzə gəlsin, belə nakişilik etməzlər. Körpü kəsmək kişilik deyil. Hacalının oğlu həmin üç bənd şeri atasına söylədi.

Hacalı kişini elə bil ki, ildirim vurdu. Tez geri dönüb Şıxalını çağırıb sorğu-suala tutdu ki, sən gedib-gəldiyin haqda kimə nə söyləmisən. Kim səni görüb, sən dünən gələndə körpü nə vəziyyətdəydi.

Əvvəlcə Şıxalı heçnə anlamadı, necə gedib gəlməyini söylədi. Səfəralının qonaqpərvərliyini, oğlanlarının onu ta Quşçubiləyə kimi ötürməsini babasına dedi. Onu da dedi ki, təkcə axşamüstü kəndə çathaçatda qonşumuz dəllək Harutyunu gördüm, bu işnən o maraqlandı. Mən də səhər tezdən Qaçaq Səfəralının bizdən olacağını ona söyləmişəm.

Hacalı dedi:

- Dəllək Harutyun çox künə adamdı, qorxaqdı, öldürsən də gecə çölə çıxmaz. Qaldı ki, qan-qan deyən Arpaçayın üstündəki körpünü kəsə. Bu kimdirsə bizə düşmən adamdı.

Hacalı kiçik oğlunu göndərdi ki, tez dəllək Harutyunu bura çağır. Oğlu tez qaçıb dəllək Harutyunu çağırdı.

Dəllək Harutyun Hacalının oğlunu görəndə dedi:

- Axı, atanın baş-gözünü dünən qırxmışam. Bəlkə qonağınız var, qayçıdarağımı da götürümmü?

Oğlan dedi:

- Yox, sənə vacib sözü var.

Dəllək Harutyun bir azdan Hacalının həyətinə daxil olanda gördü ki, allaha and olsun Hacalının qanı elə qaralıb ki, çırtma vursa qan sel olub axar. Harutyun Hacalıya dedi:

- Ay kirvə, nolub, qanın niyə qaradı?

- Harutyun, biz neçə ildi qonşuyuq. Sənə bir pisliyim keçməyib ki? Bizdən nə pislik görmüsünüz? Gətirib sizə qoltuğumuzda yer verdik ki, ev-eşik yiyəsi olasız. De görüm dünən Şıxalının sənə dediyi sözü kimə çatdırmısan?

Hacalı bütün əhvalatı olduğu kimi danışanda Harutyun işi başa düşdü.

- Ara, kirva, o Kostan bizim həyətə gəlmişdi, mən söyləyim ki, yaxşı olar arıya barışıq salsın, qan davası aradan qalxsın. Dedim ki, sabah Qaçaq Səfəralı Hacalıya qonaq gəlir. Burdan da Gümüşxanaya gedəcəklər.

- Bəsdi, hər şey aydındı. Olmuya-olmuya bu söhbətimizi bir kimsəyə deyəsən ha. Onda səni bütün ailənnən o çaya tökərəm. Kostanla mənimki qalsın sonraya.

Sonra Hacalı özü Dərəyurda, Qaçaq Səfəralının yanına gəldi, əhvalatı ona olduğu kimi danışdı. Səfərali dedi ki, Hacalı, Məmmədalı cavanlıq elədi, sən onu bağışla, mən onu da fikirləşdim ki, sən bu nakişiliyi eləməzsən. Bu düşmən işidi, səni gözü götürməyənlərin işidir. Kim fikirləşibsə çox hiyləgərcəsinə fikirləşib. Biliblər ki, uşaqlar düşünəcəklər ki, sən dəvət eləmisən, bu işi də sən təşkil eləmisən. Ona görə də səni məhv eləmək istəmişlər. İndi get özün düşmənini məhv elə. Qaldı barışıq məsələsi, mənim adımdan digər tərəfə xahiş elə, çox güman ki, barışar. Barışmasa payızda özüm aşağı enəndə məsələni yoluna qoyaram...

Dərələyəzdə hansı körpüdən ki, keçmək istəyirdilər, düşüb yoxlayır, sonra keçirdilər. Həmin görpü də "Kostan kəsən körpü" adı ilə son illərə kimi qalırdı. Bəli, erməniyə etibar eləməy olmaz. Belə bir atalar sözü var. Atın kolasına, itin tulasına, erməni balasına etibar yoxdu. Səfəralı hamıya deyirdi: erməniyə arxa çevirməyin. Dərələyəzdə qadınlar aşağıdakı bayatını tez-tez oxuyardı:

*Əzizim quzu qurban,*
*Qoç qurban, quzu qurban.*
*Qeyrətli türk oğluna,*
*Hayların yüzü qurban.*

## QAÇAQ SƏFƏRALININ TÜRKİYƏ SƏFƏRİ

Artıq xeyli müddətiydi ki, Qaçaq Səfəralı Dərələyəzdə, qonşu mahallarda ad-san qazanmışdı. Bir çox müşkül işləri yoluna qoyur, qananı sözlə, qanmazı bizlə qandırırdı. Onun dəstəsi günü-gündən artır, elin qeyrətli oğlanları onun dəstəsinə axışmaqdaydı. Bunu görən ağalar, bəylər qorxuya düşdülər, necə olursa-olsun Səfəralını aradan götürmək qərarına gəldilər.

Bir neçə vaxt idi ki, Səfəralı Qaraarxac səfərindən geri dönmüşdü. Dəstə istirahət edirdi. Hər kəs atını tumarlayır, silahını təmizləyir, yağlayır, xəncərini itiləyir, bir sözlə, dəstədə döyüş hazırlığı gedirdi. Göydağda bir çal-çağır idi ki, igidlərin nərəsindən, atların kişnərtisindən, güllə səsindən sanki dağlar-dərələr bir-birinə dəyirdi. Elə bil Göydağda aramsız ildırım çaxırdı. Nabaləd adam orda olsaydı bağrı yarılardı.

Səfəralının dəstəsinə Dağıstandan, Türkiyədən, qonşu mahallardan da igidlər gəlirdilər. Yenicə dəstəyə gəlmiş türkiyəli Şərif söylədi ki, Səfəralı baba, ruslar bizim ölkəmizə hücum ediblər, qanlı döyüşlər gedir. Paşa bütün türkləri ruslara qarşı cihada çağırıb. Sən bu işə nə deyirsən?

Bu söhbətdən sonra Qaçaq Səfəralı bütün dəstə üzvlərini bir araya toplayıb dedi:

- Hər necə olursa-olsun biz qanıbir qardaşlarımıza kömək etməliyik. Bütün dəstəni ora aparmaq, Paşanın dəstəsinə qoşulmaq məsləhətdir, yoxsa dəstədən qolu-qüvvətli, cürətli, qoçaq igidlərdən ayırıb getmək məsləhətdir?

Dəstədə ağıllı, fərasətli və məsləhəti ilə seçilən igidlər çox idi. Onlar xeyli söhbətdən sonra qərara aldılar ki, Göydağı da sahibsiz qoymaq olmaz. Hamılıqla Türkiyəyə getmək və ruslara qarşı döyüşmək məsləhət deyil.

Qaçaq Səfəralı işi belə görəndə dedi: Mən özüm, oğlanlarım – Məmmədalı, Qurbanalı, Bayramalı, Həsənalı, Atəş, İbrahım, dəstə üzvlərindən Qoçu Məmməd, Ləzgi Əhməd, Div Salman, Qurd Həsən, Pələng Səməd, Keçəl Murad, Qara İsa, Kürd Mamo, Qatıq Mamur, Qanlı Abbas, Cinni Yəhya sabah sübh tezdən hazır olsunlar ki, Türkiyəyə yola düşək. Cəmi otuz nəfər oldular.

Dan üzü ağarhaağarda Qaçaq Səfəralı dediyi adamlarnan üz tutdu Ağrı dağa sarı, Türkiyəyə. Qaçaq Səfəralı türkiyəli Şərifi də özüynən bələdçi götürdü.

Aşıq dili yüyrək olar, onlar bir neçə günə gəlib çatdılar Türkiyəyə. Qaçaq Səfəralının dəstəsi münasib bir ucqar kənddə dincəlməli oldu.

Sizə xəbər verim türk Paşasından. Paşa bu qərara gəlmişdi ki, hər iki tərəfin qoşununu üz-üzə döyüşə salmaq münasib deyil. O, köhnə qayda-qanuna üstünlük vermişdi-təkbətək döyüşü seçmişdi.

Səfəralı elə ki, dəstəsiynən Türkiyəyə çatdı, Şərifə bir namə verib türk Paşasının yanına göndərdi. Görək Qaçaq Səfəralı namədə nə yazmışdı:

*Paşam, nə müddətdi mən dərbədərəm,*
*Urusun dağı var, qar sinəmdədi.*
*Elim dad eyləyir onun əlindən,*
*Axır gözüm yaşı, car sinəmdədi.*

*Əzəldən meylimi saldım Vətənə,*
*Kazakları qırdım mən dönə-dönə.*
*Pristav, murovlar əl çəkmir yenə,*
*Qəriblik həsrəti, tor sinəmdədi.*

*Gecə-gündüz gözüm qalıb yollarda,*
*Yanıb odlanıram atəşdə, narda,*
*Sizinlə qanımız birdi damarda,*
*Yurdumun ağrısı var sinəmdədi.*

*Mərdlərin əlinə çatmayır əlim,*
*Naxələflər qoymur yaxına gəlim,*
*Harda rahat olum, harda dincəlim?*
*Osmanlı ordusu, zor, sinəmdədi.*

*Səfəralı qisas alar urusdan,*
*Geyib qəm libasın, çıxmayıb yasdan.*
*Namussuz, qetrətsiz, vəfasız dostdan,*
*Düşüb ürəyimə qor, sinəmdədi.*

Məktubu ucadan oxudular. Hamının xoşuna gəldi, ürəyincə oldu. Qaçaq Səfəralı məktubu büküb verdi Şərifə. Belə ki, Şərif məktubu aparıb ordu generalına, yəni türk paşasına təqdim etdi. Qaçaq Səfəralı, onun dəstəsi, yeri

haqqında, qaçaq düşməsi səbəbini olduğu kimi türk generalına danışdı. Onu da dedi ki, Qaçaq Səfəralının dəstəsi xeyli böyükdü. O, istəyirdi ki, bütün dəstəsi ilə sizə köməyə gəlsin. Amma ehtiyat etdi, fikirləşdi ki, ruslar fürsətdən istifadə edib yurdda qalan qocalara, cocuqlara hücum edərlər. Namərddən nə desən çıxar. Ona görə də, dəstədən otuz nəfərə yaxın adam ayırıb köməyə gəlib.

General türk Paşasıynan əlaqə saxladıqdan sonra Şərifə dedi:

- O ki, Qaçaq Səfəralı könüllü olaraq bizə köməyə gəlib, anasının südü ona halal olsun. Yazdığı namədən görürəm ki, qeyrətli türk balasıdı. Mənim təşəkkürümü ona çatdır, ona söylə ki, dəstəsi ilə gəlsin bura, onun dəstəsinin döyüş hazırlığını yoxlayıb,sonra onu təkbətək döyüşə buraxarıq.

Türk generalı Qaçaq Səfəralıynan, onun oğlanlarıynan, o biri qaçaqlarnan yaxından tanış oldu. Səhəri gün onlarnan türk əsgərlərinin təlim məşqini seyr etdilər. Özləri də məşqdə iştirak etdilər. Türk generalı Qaçaq Səfəralının, onun qaçaq yoldaşlarının döyüş məharətinə, döyüş hazırlığına heyran oldu.

- Ay Səfəralı, bu nizami məşqi siz harada, necə öyrənmisiz. Axı siz qaçaqsınız, dağda, daşda bu cür hazırlıq heç mənim xəyalıma belə gəlməzdi.

- Paşam sağ olsun, əsl təlim məşqini dağda-daşda keçirmək lazımdır, düzəngahda məşq keçməyə nə var ki.

- Düz deyirsən, sənin adamlarının çevikliyi, səriştəliyi həm mühitdən, həm də Vətənə bağlılıqdandı. Halal olsun sizə. Məmmədalıynan Qannı Abbas təkbətək döyüşə buraxaram, sizə əlavə əziyyət vermək istəməzdim. Heç onları da buraxmaq istəmirəm, ruslara layiqli cavab verməyə qüvvəmiz çatır. Ruslar Osmanlı ordusu qarşısında duruş gətirə bilməz.

- Paşam sağ olsun, əvvəlcə özümnən Məmmədalı döyüşə girəcəyik. Sonra lazım bilsəniz, o biri uşaqlar da türk xalqı, Osmanlı uğrunda ölümə hazırdır.

General Səfəralının Məmmədalının təkbətək ruslara qarşı döyüşməsinə icazə verdi, daha bir neçə gün ciddi məşq etdilər.

İlk əvvəl Səfəralı meydana çıxdı. Səfəralı fikirləşdi ki, işdi, nə bilmək olar, müharibədə hər şey ola bilər, qoy mən oğlumun ölümünü görməyim.

Səfəralı rəqib rusla meydana çıxdı, elə ilk həmlədə at üstündəki rus pəhləvanının başını yerə dığırladıb nizənin ucunda paşanın qarşısında yerə tulladı. Hamı "əhsən" deyə, əl çaldı.

İkinci həmlədə Məmmədalı ata minib meydana çıxdı. Onunla döyüşə bir heyvərə rusu çıxardılar. Məmnmədalı atı cövlana gətirib o başa-bu başa sürdü, qırğı kimi rus pəhləvanın üstünə cumdu. Bir anın içində onu atdan necə aşırdısa, əl atıb boynundan təkəlli yapışdı, qartal caynağında sərçə tutan kimi, onu gətirib paşanın qabağında yerə atdı. Hamı "iyi", "iyi"-deyib əl çaldı.

Bu igidliklərinə görə Türk paşası Qaçaq Səfəralıya gümüş, Məmmədalıya qızıl medal verdi.

Qaçaq Səfəralının və oğlu Məmmədalının bu igidliyi həm Türkiyədə, həm də digər mahallarda söyləndi, şairlər, aşıqlar, el sənətkarları onlar haqqında dastanlar söylədilər, qoçaqlıqlarına mahnılar qoşdular.

Səfərdən üzüağ qayıdan Qaçaq Səfəralını hamı böyük hörmətnən qarşıladı. Qələbə münasibətiynən üç gün-üç gecə çal-çağır oldu. Zəngəzurdan, Göyçədən, Kəlbəcərdən, Laçından, Şərurdan Qaçaq Səfəralının dəstəsini təbrikə gələnlər də oldu. Aşıq Nəbi yenə meydana çıxdı. Şadyanalığın üçüncü günü adəti üzrə Aşıq Nəbi Qaçaq Səfəralının və oğlu Məmmədalının Türkiyədə göstərdikləri igidliyi belə vəsf etdi:

*Aslan kimi çıxdı rusun üstünə,*
*İgid Səfəralı, qoç Məmmədalı,*
*Ata-oğul düşmənlərin qəsdinə,*
*İgid Səfəralı, qoç Məmmədalı.*

*Nizəyə taxanda rusun başını,*
*Qoymadı daş üstdə qala daşını,*
*Qırıb-çatdı sərçə kimi qoşunu,*
*İgid Səfəralı, Qoç Məmmədalı.*

*Qaçdı İvan, qorxdu Nikolay, Saşa,*
*Afərin, türk oğlu, söylədi Paşa,*
*Qoç ata var olsun, oğul yüz yaşa,*
*İgid Səfəralı, qoç Məmmədalı.*

*Göydağdan yollandı Ağrıya şir tək,*
*Hay saldı dağlara nərə çəkərək.*
*Anadan doğulub bu dünyada tək,*
*İgid Səfəralı, qoç Məmmədalı.*

*Aşıq Nəbi igidliyi şan eylər,*
*Ellərə səs salıb bir dastan eylər,*
*Rusa hücum çəkib neçə qan eylər,*
*İgid Səfəralı, qoç Məmmədalı.*

Söz tamama yetdi, aşıq sazı yerə qoydu.

Hamı Aşıq Nəbiyə əhsən dedi. Qaçaq Səfəralının dostları aşığa ağır xələt verib, onu yola saldılar.

## QOÇU HƏŞİMİN QAÇAQ SAFƏRALIYA GÜLLƏ ATMASI

Səfəralı o vaxt çar hökumətindən narazı olduğuna görə həm çar hökumətiynən, həm də yerlərdə onlara kömək edən bəylərnən, xanlarnan, varlılarnan mübarizə aparırdı. İş o yerə çatır ki, Şərur, Dərələyəz, Zəngəzur Göyçə mahalında yaşayan varlı hökumət tərəfdarları Naxçıvan qubernatoruna ərizə yazırlar ki, Qaçaq Səfəralı bizim aman-imanımızı qırıb, qoymur dincələk. Hara tərpənirik karvanımızı və malımızı talayır, adamlarımızı da öldürür. Var-dövlətimizi də aca-gicə, kasıb-kusuba paylayır.

Bu şikayətlər qubernatoru yaman narahat elədi. O elan elədi ki, hər kəs Qaçaq Səfəralını onu tutub hökumətə versə, ya da öldürsə hökumət ona külli miqdarda xələt-barat və bəylik rütbəsi verəcək.

Bunlar burada qalmaqda olsun mənim istəklilərim, indi sizə xəbəri verim Dərələyəz mahalının Cul kəndində adlı-sanlı Qoçu Həşimdən. Qoçu Həşim bu elannaməni alanda birini götürüb saldı papağının qulağına. Ata süvar olub Naxçıvana yön çevirdi. Bir neçə günə gedib Naxçıvan şəhərinə çatdı, qubernatorun divanxanasını soruşa-soruşa gedib tapdı. Qapıda elçi daşı vanıydı. Hər kəs qubernatorun yanına getmək istəsə gərək o daşın üstündə oturaydı. O vaxtın adəti də beləydi. Həşim gedib daşın üstündə əyləşdi. Qubernatora xəbər verdilər ki, elçi daşında bir adam oturub. Əmr elədi ki, gətirin hüzuruma görüm nə istəyir. Gəlib Qoçu Həşimi apardılar qubernatorun yanına. Sizə onu da deyim ki, o vaxtı böyüklərin yanına gedəndə qolu döşündə gedərmişlər. Qoçu Həşim içəri daxil olanda qolunu çarpazlayıb, çöküb baş əydi. Ağadan səda gəldi ki, nə istəyirsiniz, kim sizə zülm edib gəlmisiz?

Qoçu Həşim yavaşcadan elannaməni papağının qulağından çıxarıb qoydu ağanın stolunun üstünə, dedi:

-Ağa sağ olsun, sizin bu yazdığınız əgər düz olsa, mənə də kömək versəniz həmin Qaçaq Səfəralını öldürərəm.

Qoburnat bu işə çox şad olub, dedi:

-Bəs məndən nə kömək istəyirsən?

-Ağa sağ olsun, mənə 20-30 atlı kazak ver, mən Səfəralının yerini bilirəm, gedib öldürərəm.

Qubernator bu işdən çox razı qaldı. Qoçu Həşimi o gecəsi saxladı yanında, onun şərəfinə böyük məclis qurdu. 30 nəfər kazakın siyahısını tərtib edib möhürlədi, verdi Qoçu Həşimə. Sabahdan həmin kazakları çağırıb verdi Qoçu Həşimin ixtiyarına dedi:

-Ta bura gələnə kimi sizin ağanız Qoçu Həşimdi.

Bunlar düşdülər yola. Gəlib çatdılar Cul kəndinə. İki gün orada dincəldikdən sonra axşam günbatanda düşdülər yola.

Bunlar yola düşməkdə olsun, sizə xəbəri Qaçaq Səfəralıdan verim. İstisuynan Quşçubiləy kəndlərinin arasında bir böyük dərə vardı. Arpa çayı adlanan çay həmin dərəynən axır, onun qırağı böyük meşəlikdir.

Həmin meşəliyin içərisində qəlbi qayalar var. Qayaların birinin altında iki böyük kaha vardı. Ona Pir kahası deyirdilər. Yazın ilk ayı olduğundan Qaçaq Səfəralı həmin Pir kahasının birində özü yaşayırdı, birində də o biri qaçaqlar qalırdı.

Səfəralı Pir kahasında öz oğlanlarıynan, ailəsiynən arxayın yatmağında olsun, gecənin bir vaxtı Qoçu Həmişin dəstəsi gəlib Pir kahasını üzük qaşı kimi bürüyür. Ancaq Qoçu Həşim özü təkcə qayanın böyründən çıxıb kahanın başını kəsir. Aynalı tüfəngi palıd kolunun haçasına qoyub kahanın ağzını gözdüyür. Dan ulduzu doğanadək gözdüyür. Birdən Həşim çox fikirləşir, bu işə peşiman olur. Öz-özünə deyir: Bu nə işdi mən tutdum. El-oba eşidib məni qınayacaq. Nə edim, elə belə geri dönmək də olmaz. Qubernator elə zənn edər ki, onu aldadıb ələ salmışam. Qoy çağırım bəlkə çölə çıxa. Onda güllə ataram dəyər, dəyməz, nə olar, olar.

Həşim çığırmağa başladı:

-Ay Səfəralı, ay Səfəralı!

Səfəralının qulağına səs gəldi. Tez gecə paltarında çölə çıxmaq istəyəndə arvadı Ballı qoymadı.

-Əşi, hara çıxırsan? Özün qaçaq, düşmənin çox. Adam gecə paltarı ilə çölə çıxar? Geyin, sonra çölə çıx.

Qaçaq Səfəralı gülüb dedi:

-Arvad, mənim qorxumdan heç kim buralara ayaq basa bilməz. O, kimdisə, yaxın adamdı. Səfəralı yapıncını çiyninə salıb kahanın qapısından çıxanda Qoçu Həşim kahanın başından bir güllə atdı. Güllə Səfəralının sol çiynindən dəydi. Səfəralı tez geri qayıtdı. Ev, uşaq güllənin səsinə bir-birinə qarışanda Qaçaq Səfəralı dedi:

-Heç səs eləməyin, bilsələr ki, güllə mənə dəyib, sizi qırarlar. Tez gətirin qolumu sarıyın, çıxaq davaya. Yəqin ki, bizi mühasirəyə alıblar.

Səfəralı elə yaralı-yaralı aldı görək nə dedi:

*Aman Allah, heç etibar qalmayıb,*
*İgidləri yola salan dünyadı.*
*Neçə padşahları çəkib kamına,*
*Əzrayıl tək canın alan dünyadı.*

*Əlbət ilahidən belədi yazı,*
*Gələn irazıdı, gedən narazı.*
*Nə vaxt qurulacaq nizam-tərəzi?*
*Hamını aldadan yalan dünyadı.*

*Heç kim dövranını vurmadı başa,*
*Neçəsinin oxun o vurdu daşa,*
*Çoxun həsrət qoydu qohum-qardaşa,*
*Yunisi dəryaya salan dünyadı.*

*Cəld tərpənin kömək edin bir-birə,*
*Canım qurban igidlərin sərinə,*
*Səfəralı, uyma dünya felinə*
*Sən köçəri, dünya qalan dünyadı.*

Arvadı Ballı tez fərməşdən bir dənə keçmiş Gəncə kəlağayısı çıxarıb yaranı sarıdı. Oğlanları Məmmədalı, Alı, Bayramalı, Qurbanlı, Nəcəfalı, Həsənalı, Ağamalı, Baxşalı, Nabatalı, Ataş, Cabbar, Ləzgi Əhməd, Ləzgi İsmayıl, Kürd Mamo o biri qaçaqlar hər kəs öz silahını götürüb atları yəhərlədilər. Başladılar başqa ehtiyata.

Bunlar burada hazırlaşmaqda olsun, sizə xəbəri qoçu Həşimdən verim. Qoçu Həşim bu gülləni atan kimi qaçıb getdi kazakların yanına. Dedi:

-Eşitdinizmi güllənin səsini? Səfonu öldürdüm, di gəlin gedək.

Kazaklar sevincək düşdülər yola. Quşçubilək kəndinə tərəf bir qədər getmişdilər ki, Qaçaq Səfəralı dəstəynən atları minib kahadan çölə çıxdılar. O yan-bu yana atları səyirdib bir şey tapa bilmədilər. Yön çevirdilər Göydağa tərəf.

Bunlar yol getməkdə olsun, sizə xəbər verim kazaklardan. Kazaklar bir qədər getdikdən sonra durdular. Həşim dedi:

-Bəs niyə durdunuz, atları sürün gedək.

Kazakbaşı dedi:

-Yox, getmiyəcəyik, ona görə ki, ağamız bu işə qəti inanmaz, deyək ki, bəs öldürdünüz, niyə onun heç bir nişanəsini gətirmədiniz? Gəlin qayıdaq ev-

lərini talayaq, hər nəyi varsa dağıdaq. Tutaq arvad-uşağını, evini talan edib aparaq ki, hamı inansın.

Onlar istər-istəməz məcburiyyət altında qalıb qayıtdılar geri. Pir kahasına daxil olanda gördülər ki, heç kim yoxdu.

Qoçu Həşim dünyada ölsə də Səfəralının üstünə hücum etməzdi. Çünki o Səfəralının iyidliyini çox eşitmişdi, yaxşı bilirdi. Axı Səfəralı onun bacısının əri, yeznəsi olmuşdu.

Xülasə, kazaklar hücum edib kahaya doluşdular. Heç zad yoxudu, ancaq gördülər ki, qayanın üzünə iki dəmir çiv vurub, bir yüyrük asıblar, içində bir uşaq yatıb. Qoçu Həşim dedi:

-Bax, indi sözümə inanırsız, ya yox? Yəqin ailəsi Səfəralının meyitini çəkib bir yana aparıb, uşağı da tərgidiblər. Aha, bu da sizin əlinizdə bir sübut aparın qubernatora. Sən demə, yüyrükdəki İsmayıl imiş. Tələm-tələsik çıxdıqları üçün bir-birilərinə arxayınlaşıblar, uşaq yaddan çıxıb qalıb burada.

Kazakların başçısı dedi ki, bu heç kişilikdən deyil. Onun anasının ah-naləsi dağı-daşı götürər. Pristav bizi qınayar, deyər ki, Səfəralıya gücünüz çatmayıb, bu tifili gətirmisiz? Yox, gəlin tez çıxaq, mütləq onun anası geri qayıdıb uşağı aparacaq. Onun sözünə baxmırlar, İsmayılı özləri ilə götürüb Quşçubilək kəndinə aparırlar.

Kazaklar gedib dolurlar Quşçubilək kəndinə, orada başlayırlar şadlığa ki, Qaçaq Səfəralını öldürdük.

Bunlar burada kef etməkdə olsun, xəbəri Qaçaq Səfəralıdan verim. Qaçaq Səfəralı Göydağın ətəyinə çatanda birdən arvadının yadına düşür ki, vay, Səfəralı evin yıxılmasın, İsmayıl qaldı kahada yüyrüyün içində. Elə sən vurulanda fikrim qarışdı, uşaq yadımdan çıxıb orda qalıb.

Hamısının rəngi dəyişdi, Səfəralı dedi:

-Arvad, Qurbanalı qalsın burada, biz gedək İsmayılı gətirək.

Ballı dedi:

-Əşi, hara gedirsən, özün də yaralı. Bəlkə qabağına adam çıxdı, elə bil bir uşaq da doğmadım, necə deyərlər, elə bil bir yumurtamız lax çıxdı.

Bu söz Qaçaq Səfəralını yaman tutdu, rəngi dəyişib dedi:

-Axı, arvad nə qanır iyidliyin təhərin, bəlkə biz kahadan çıxandan sonra düşmən doldu kahaya, uşağı götürüb apardılar. Deyəcəklər Qaçaq Səfəralı uşağını da qoyub düşmən qabağından qaçıb getdi. Onda mən ölsəm yaxşıdı. Arvad, eşit gör nə deyirəm. Aldı Səfəralı:

*İgid olan ad qazanar,*
*Bu dünyada, bu dünyada.*
*Eşqin də oduna yanar,*
*Bu dünyada, bu dünyada.*

*Ağlı başda yarın olsun,*
*Dosta etibarın olsun,*
*Bir vəfalı varın olsun,*
*Bu dünyada, bu dünyada.*

*Məmmədalı qaçmaz asta,*
*Bel bağlama sən hər dosta,*
*Allahından qüvvət istə,*
*Bu dünyada, bu dünyada.*

Onlar istədi yola düşsünlər. Səfəralının sözləri arvada təsir elədiyindən dedi:

-İndi ki, elədi, mən də sizinnən gələcəm. Bəlkə də düşmənnən qabaqlaşdıq, mən də sizinnən davada iştirak edərəm. "Aslanın erkəyi, dişisi, olmaz" deyiblər.

Bir azdan bir dəstə adam qayıtdı geri. Gəlib Pir kahasına çatanda gördülər ki, itləri vurublar, içəri girdilər ki, uşaq yoxdu. Qaçaq Səfəralı qəzəbləndi:

-And olsun anamın südünə, atamın əməyinə, o uşağı Naxçıvana-qubernatorun yanına aparsalar da, gedib uşağın bir qanına min qan alacam.

Qaçaq Səfəralı daha sonra dedi:

-Durmayın, tez gedək Quşçubilək kəndindən soruşaq. Bəlkə onlar adam zad görüblər. Sonra atları səyirdək. İndi hər kəsdilərsə hələ yaxında olarlar. Daha onlar göyə uçmadılar ki!

Tez atları sürdülər Quşçubilək kəndinə. Yolda bir naxırçıya rast gəldilər. Soruşdular ki, sən atlı görmədin ki?

Naxırçı dedi:

-20-30 kazak atlısı Səfəralını öldürüblər. Uşağı da əsir gətiriblər, odu kənddə şadlıq edirlər.

Səfəralı yaralı olsa da atını irəli sürdü. Hücum etdilər kəndə. Kəndi mühasirəyə aldılar və xəbər göndərdilər ki, uşağı verməsəniz hamınızı qıracağıq. Uşağı gətirdilər və anasına verəndə dedilər ki, kəndə qan tökməyin.

Səfəralı arvadına dedi ki, sən uşağı götür burdan aralan ki, biz davaya başlayacayıq.

Arvad uşağı götürüb Göydağa tərəf yola düşdü. Səfəralı dəstəni çəkib getdi Qısır dağının ətəyində bəndi-bərəni kəsib gözlədi. Bir müddətdən sonra günün axşam çağında gördü ki, kazaklar dəstəylə gəlirlər. Qaçaqlar burda bir meydan açdılar ki, Allah göstərməsin.

Səfəralının dəstəsi bunlardan 14 nəfəri öldürdü, birini də əsir tutdu. Qalanları da hərəsi bir yana qaçdı. Qaçaqlar əsiri də götürüb düşdülər yola. Gedib Ballıya çatdılar. Arvad əsiri görəndə xəbər aldı:

Bu kimdi, ay Səfəralı?

Səfəralı dedi:

-Onlar uşağı aparırdılar, amma iş tərsinə döndü, özləri əsir düşdü.

Arvad işdən halı olandan sonra kişiyə dedi:

-Ta orada nə elədin elədin, bunun da qanına bais olma. Burax çıxsın getsin.

Səfəralı bu yekəpər kazakı üç gün saxlayandan sonra buraxdı. Dedi, get sizin ağaya de ki, ay yekəbaş, bax, bu sənə ibrət olsun. Qatırçının qatırını ürkütmə, yoxsa gəlib əhvalını qataram.

Qaldı ki, Qoçu Həşimin kimliyinə və Qaçaq Səfəralının üstünə kazak gətirməsinə. Bu uzun əhvalatdı. Bu, belə olmuşdu. Qaçaq Səfəralı Qoçu Həşimin bacısını almışdı. O arvaddan da bir qız olmuşdu. Qız 5-6 yaşında olanda anası xəstələnib ölmüşdü. Səfəralı arvadların içində çox da gözəl olmayan, lakin igidlikdə Səfəralıdan geri qalmayan Balaxanımı çox istəyirdi. Buna da Həşimin bacısı xuruş eliyərdi. Ölən vaxtı yalandan qızına deyir ki, Həşim babana deyərsən ki, Səfəralı babam ocaq daşı ilə anamın böyründən vurdu, bu səbəbdən anam öldü.

Dəfndən sonra Həşim uşaqdan soruşur ki, bə niyə anan öldü? Sənə bir söz-zad dedimi? Uşaq qayıdır ki, mən heç nə bilmirəm, amma anam dedi ki, Həşim dayına de ki, atam onu ocaq daşıynan vurduğuna görə öldü.

Bir neçə gün sonra Həşim Səfəralıya dedi ki, sən qaçaq adamsan, dağda-daşda olursan, bu da qız uşağıdı. İndi bizimki belə gətirdi, anası rəhmətə getdi. Balaxanımın da uşağı balacadır, əliuşaqlıdır. Razı ol, bu yetimi aparım kəndə nənəsi saxlasın.

Səfəralı qaynına heç nə demədən, razılaşdı.

O acığa Qoçu Həşim Səfəralıdan qisas almaq istəmişdi. Sonralar bu məsələ açıldı, Səfəralı qaynını bağışladı. Qoçu Həşim həm Culun, həm də qonşu kəndlərin ağsaqqallarını, mollalarını Səfəralının yanına minnətə göndərdi, səhvini boynuna aldı. Səfəralı onu bağışladı. Həşimin kiçik qızını oğlu Həsənalıya alıb yenidən qohum oldu. Narazılıq aradan qalxdı, nəsil bir-birinə qarışdı.

## MƏMMƏDALININ CUL SƏFƏRİ

Qaçaq Səfəralı araşdırıb öyrəndi ki, Pir kahasında olarkən pristavın, murovun dəstəsini onun üstünə gətirən Cullu Qoçu Həşimdir. Qoçu Həşim Qaçaq Səfəralının qaynı idi. Ailə zəminində narazılıq yarandığı üçün Qoçu Həşim belə bir addım atmışdı. Məmədadı hey vurnuxurdu ki, ata, mən bu hayıfı Qoçu Həşimdə qoymuyacam.

Bir gün payız vaxtı Məmmədalı iki-üç atlı götürüb, aşağı kəndlərdən bir neçə at yükü buğda aldı, apardı Gindivasın dəyirmanında üyütməyə. Dəyirman nəsə bağlıydı. Ordan keçif Çaykəndin dəyirmanınan gəldilər. Dəni dəyirmana boşaltdılar. Atlılar üst paltarlarını soyunub uzandılar ki, bir az dincəlsinlər. Məmmədalı dedi ki, siz dincəlin, mən bir baxım görüm bu çaydan bir az balıq tuta bilərəmmi. Dişimizi dəyişək, bir az balıq yeyək. Məmmədalı yaxşı balıq tuturdu. Məmmədalı xeyli çay yuxarı getdi bir münasib yerdə ada kəsdi, mağağ qurdu. Balıqlar səhərə yaxın, oynayan vaxt mağağa tökülür. Məmmədalı xeyli gözləməli oldu. Birdən yadına düşdü ki, elə yaxşı aylı gecədi. Balıq mağağa dolunca, gedim Cula, Həşimnən haqq-hesabı çürüdüm. Məmmədalı heç kəsə demədən atın başını çevirdi Cula tərəf.

Gecədən xeyli keçmiş. Həşimin damının üstünə çıxır, görür ki, bacanın dörd tərəfi çətənlə hörülüb. Xəncəri çəkib çətəni doğrayır və baxır ki, Qoçu Həşim dirsəklənib mütəkkəyə qəlyan çəkir, qarşısında da çay.

Məmmədalı bacadan tüfəngi tuşlayıb Həşimi nişan alır. Birdən Həşimin gözü tüfəngə sataşır. Baxır ki, artıq nişangahdadır.

Qoçu Həşim də ağıllı adamıymış. Bilir ki, bu, mütləq Məmmədalı olacaq. Qayıdır ki, Məmmədalı, tanıdım, sənsən. Öldürsən də sözüm yoxdur. Allah şeytana lənət eləsin. Məni başqa cür başa salmışdılar.

Məmmədalı işi belə görüb deyir ki, ay Qoçu Həşim, indi ki, tanıdın, bir neçə kəlmə söz deyəcəm, yaxşı eşit:

*Alınmaz qaladı Culun.dərəsi,*
*Sirrini kim saxlar, ay etibarsız.*
*Ormanları ceyran, cüyür oylağı,*
*Ötdü keçən çağlar, ay etibarsız.*

*Kəndin bağ-bağatlı el yığnağıdı,*
*Bir tərəfi Qanlı gölün dağıdı,*
*İndi həmdəmləri düşmən, yağıdı,*
*Qara geyib bağlar, ay etibarsız.*

*Gəldim ötən günlər yadıma düşdü,*
*Çayı abi-kövsər, daşı gümüşdü,*
*Məmmədalı deyər ciyərim bişdi,*
*Hiylən qəlbi dağlar, ay etibarsız.*

Söz tamama yetdi.

Məmmədalı dedi ki, Həşim, sən bizim ocağda çörək yemisən. Biz də bu evdə tikə kəsmişik. Başqa adam atamın üstünə gəlsə idi, bizə yer eləməzdi. Sən mənim atama güllə atmısan.

Həşim qayıdır ki, düzdür atmışam, amma qəsdim öldürmək olmayıb, ona görə gülləni yan atmışam. Çünki siz mərdsiz. Mərdi öldürmək namərdlikdir. İndi fürsət səndədir, igidlik qalıb sənə, istəyirsən at, istəyirsən atma.

Məmmədalı qayıdır ki:

-Həşim, biz heç vaxt basdığımızı kəsməmişik. Amma bütün hər yerdə bu gecəki əhvalatı söyləyərsən.

-Bunu edərəm, səni and verirəm Allaha, düş gəl içəri, bilirəm ki, sən məni öldürməyə yox, yəqin ki, başqa işə gəlmisən. Nə diləyin var, aç söylə, həyətdə yaxşı qoçlar var, ətdiy apar, on quyu da taxılım olub, düş bir neçə at yükü dən apar, yavanlığ da çoxdur.

-And olsun Allaha atamın bura gəlməyimdən xəbəri yoxdur. Taxılımız da var, elə dəyirmana, Çaykəndə dən gətirmişəm, uşaqlar dincəlir, mən də ada kəsib balıq tuturdum, elə beynimə gəldi buraya üz tutdum. O ki, Allaha and verirsən, həyətindən bir quzu apararam, uşaqlar dəyirmanda kabab eliyib yesinlər.

Qoçu Həşim nə qədər təklif etdi, Məmmədalı evə gəlmədi, bir quzunu atın üstdə qucağına alıb dəyirmana gəldi. Yoldaşları onu gözləyirdilər. Məmmədalı qucağında quzu gəlib dəyirmana çatanda, atın ayaq səslərinə çıxıb onu gördülər.

-Məmmədalı, bu nədi, balıq oldu quzu, hardandı bu?

Məmmədalı onlara heç nə demədi. Bircə onu dedi ki, Allahın qismətidi bu.

Onlar tez dəyirman bulağının yanında bir ocaq düzəltdilər. Quzunu kəsib şişə çəkdlər. Bir az da dincəlib obaya qayıtdılar.

Məmmədalı bu əhvalatı atasına danışdı.

Səfəralı dedi:

-Məmmədalı, nahaq elə hərəkət eləmisən, Qoçu Həşim bizim düşmən deyil, onu bizi istəməyənlər qızışdırmışdılar. Həşim düz deyir, məni öldürə bilərdi, bunu etmiyif. Allah şeytana nəhlət eləsin. Sənə əməyim halal olsun ki, başqa cür hərəkət eləməmisən. Mən Qoçu Həşimnən qohumluğu təzələyəcəm, sağlıq olsun.

Hə, əziz eşidənlər, belə də oldu, Qaçaq Səfəralıynan Qoçu Həşimin qohumluğu təzələndi, kin-küdurət aradan götürüldü.

Deyirlər ki, kazaklar Səfəralının üstünə hücuma gəlib, bir şey əldə edə bilməyəndən sonra onnan çox maraqlandılar. Səfəralı qışda Arpaçayın ətrafında olan kahalarda, ən çox Pir kahasında qışlayırdı. Çünki orada bir neçə kaha sıraynan yerləşirdi. Kahanın içində bulaq varıydı. Mal-heyvanı da suvarmaq asan olurdu. Hər tərəfi sərfəli qışlağıydı. Meşənin içində geniş bir tala vardı. Meşədən o talaya xüsusi bir cığır açmışdılar. Bəndərgahı tutandan sonra həmin talaya heç bir miniklə gəlmək mümkün deyildi, həmin talada iki bulaq vardı. Bura sanki Koroğlunun Çənlibeliydi. Göydağ çox vaxtlar çənli, dumanlı olurdu.

Sizə kimdən deyim, kazaklardan. Onlar Səfəralı dağlara qalxandan sonra deyirlər ki, gedək görək o daş-kəsəyin içində dəstəsiynən qışda necə qalır, necə yaşayır...

Gəlib görürlər ki, yan-yana bir neçə kaha. Birində Səfəralı ailəsiynən qalırmış. Sağ, sol tərəfindəki kahalarda isə qaçaqlar qalırmışlar. Kahaların qabağı böyük qayalarnan sanki hörülmüşdü.

Başqa böyük bir kahada at, heyvan üçün bütün şərait yaradılmışdı. Atların axuru, noxda yeri, heyvanların arakəsməsi, suvarılması, ot tayası yığılan yerin rahatlığı, çaya kimi uzanan təhlükəsiz yolağa, hər şey səliqə-səhmanla yerləşdirilmişdi.

Kəsilən mal-heyvanların sümüyü bənd-bənd qalaqlanmışdı dərənin bir tərəfinə.

Kazakların böyüyü bu maraqlı mənzərəni olduğu kimi dəftərində qeyd elədi. Quşçubiləydən, Gindivasdan, Culdan, Çaykənddən olan adamlardan da soruşub eşitdiklərini, dəftərinə yazdı. Xəbər aldı ki, bu qədər mal-heyvan sümüyü ki var, bu ətdiyi bu qaçaq hardan əldə edir. Yəqin ki, sizin mal-qaranı oğurlayıb, talan edir. Səfəralının 100-dən çox atlısı var. Onlar çörəyi, ərzağı haradan əldə edirlər?

Səfəralını haqqında qonşu kəndlərin adamları söyləyirlər ki, ağa naçalnik, Səfəralı çox qoçaq olduğu qədər də düzgün adamdır. Onun dəstəsindən bir ziyan görməmişik. Əksinə, o, bizi başqa qaçaq-quldurlardan qoruyur. Onun qorxusundan Dərələyəzə başqa vilayətdən heç kim ayaq aça bilməz. Payızda bilirsiniz ki, bizdə qar tez yağır. Taxılı çatdırıb toplaya bilmirik. Onun adamları bizə kömək edir. Tez bir zamanda toplayırıq. Əkəndə də, biçəndə də bizə köməkləri dəyir. Allahdan gizli deyil, sizdən nə gizlədək, o, bizə kömək elədiyi üçün, bizi digər qaçaq-quldurdan qoruduğu üçün biz də ona kömək edirik, onu ətdiy, taxıl, yavanlıqla təmin edirik. Göyçə, Zəngəzur, Şərur mahalında da çoxlu dostları var. Onlar da kömək edirlər. Səfəralı qan barışdırandır, hansı kənddə müşkül iş olsa, qan işlərini barışdırır, həm də Allah adamıdır, namaz qılır, oruc tutur, qurban kəsir, Allaha yaxın adamdır. Dəstəsində hər vilayətdən adam var. Hamısı da ondan, oğlanlarından razılıq edirlər. O, oğlanlarıynan qaçaqlara təfavüt qoymur. Çoxunu evləndirib, ailə uşaq yiyəsi edib. Dağlara gələn elat, tərəkəmə camaatıynan yaxşı rəftar edir. Bir sözlə, bu dərədə heç kim ondan narazı deyil.

Bütün bu söhbətlərin məzmununu kazakların başçısı bir-bir dəftərinə qeyd elədi. O, geri dönəndə Gülüdüz, Qovuşux, Ələyəz, Sallı, Ağ kənd, Erdəpin, Əmağu, Arpa, Danzik və başqa kəndlərin ağsaqqallarından, varlılarından da Səfəralının haqqında fikirlərini soruşub dəftərinə yazdı.

Dərələyəz o vaxt Naxçıvan quberniyasına tabe idi. 1849-cu ildə yaranan İrəvan quberniyasının mərkəzi ilk vaxtlar Naxçıvan olmuşdu.

Kazakların başçısı bütün bu məlumatı olduğu kimi, qubernatora çatdırdı. Onunla gələn kazaklar da bütün gördüklərini, eşitdiklərini danışıb kazakbaşının sözünü təsdiqlədilər.

Qubernator çox fikirləşdi ki, nə eləsin ki, 25 il qaçaqlıq edən Səfəralıynan görüşsün. Çox götür-qoydan sonra Naxçıvanın qazısını, axundunu yanına çağırtdırdı. Onlarnan da bu haqda söhbət aparıb fikirlərini öyrənmək istədi. Belə qərara gəldilər ki, Səfəralı kimi bir qoçaq adama onların ehtiyacı var. Onsuz da o bölgədən vergini lazımınca toplaya bilmirlər, həm də Səfəralı kimi igidin onlara ziyanı dəyməz.

Fikirləşdilər ki, neyniyək, Səfəralının yanına kimi göndərək onu inandırsın, ona xoş niyyətlə görüşmək istəyimizi çatdırsın.

Qoburnat axunda dedi ki, gəl sən ona bir namə yaz göndərək, Səfəralını dəvət eliyək bura. Qoy gəlsin özüynən üzbəüz söhbətləşək. Sonra çara bu haqda məlumat verib ondan məsləhət istəyirik, məsləhət necə olarsa elə də eliyərik.

Qoburnat yazdırdı: Səfəralı, and olsun Allaha, Allahın göndərdiyi Qurana mən səni tutmaq fikrində deyiləm. Eşitmişəm ki, sən el adamısan, heç kəsə dəyib-dolaşmırsan. Gəl mənim qonağım ol, mən axundnan, qazıynan da məsləhətləşmişəm, səni istəyirik ki, azadlığa çıxaraq, istəyirik gedib bundan sonra rahat yaşayasan. Nə vaxta kimi kahalarda, dağlarda səyyarı ömür sürəcəksən, sənə bizim ehtiyacımız da var.

Sizə kimdən deyim Səfəralıdan. Elə ki, kazaklar Səfəralının üstünə Pir kahasında hücum eləmişdilər, heç nəyə nail olmamışdılar, Səfəralı dedi ta burda qalmaq olmaz, yerimizi bilirlər, ola bilər daha güclü dəstəynən üstümüzə gəlsinlər. Düzdü hələ yazın ilk ayıydı, Göydağ hələ qarıydı, açılmamışdı. Səfəralı dedi eyb eləməz, Dərə yurdda böyük kahalar var, həmişəki kimi çəkilək orda qalaq ona kimi dağın yolları açılar. Səfəralı dəstəsini Dərə yurda çəkdi.

Səfəralının dəstəsi bir müddət Dərə yurdda qalıb sonra Göydağa üz tutdu. Sizə xəbər verim, qoburnatdan.

Elə ki, qoburnat məktubu yazdırdı, zərfə qoyub üstünü yazdırır və üç yerdən möhürrüyüf yola saldı Dərələyəzə – Göydağa.

Səfəralının belə bir xasiyyəti varıydı. Hamıdan tez durar, dan üzü aftafa götürüb obadan bir qədər uzaqlaşardı, çeşmə başında yuyunar, ətrafı yoxlayardı. Bir də baxıb gördü ki, Murad təpə tərəfdən bir qaraltı Göydağa tərəf gəlir. Tez çıxdı yalın qaşına baxdı ki, bu gələn bir atlıdı. Obaya qayıdıb dedi ki, bir atlı Murad təpədən bizə tərəf gəlir. Özü də nabələd adama oxşayır. Göz-qulaxda olun görün o kimdi.

Xeyli vaxtdan sonra xəbər gəldi ki, bəs bu şəxs Naxçıvandan gəlib, qoburnatdan Səfəralı babaya namə gətirib, onunla görüşmək istəyir. Səfəralı göstəriş verdi ki, o adamı yanıma gətirsinlər.

Həmin şəxs gəlib ədəb-ərkannan salam verdi, qoburnatın salamını dilcavabı da Səfəralıya çatdırıb məktubu ona uzatdı. Səfəralıynan təkbətək söhbət elədi, qoburnatın fikrini Səfəralıya çatdırdı. Dedi ki, mən qoburnatın tapşırığıynan hər kəndin qlavasıynan görüşmüşəm, söhbətləşmişəm heç kəs səndən narazı deyil.

Səfəralı gələn nümayəndəni üç gün qonaq saxladı. Qonaq da bu üç gündə dəstədə olan nizam-intizama, Səfəralıya olan hörmətə, dəstənin ayrı-ayrı üzvlərinin bir-birinə münasibətinə, keçdikləri təlimə baxıb heyran oldu. Səfəralı həmin şəxslə xəbər yolladı ki, məsləhətləşib fikrimi ağa qoburnata çatdıraram.

Sizə kimdən deyim, qoburnatdan. Qoburnat çaparı yola salandan sonra da Naxçıvan, Şərur bəylərini toplayıb onlarla da bu haqda məsləhətləşdi. Hamı söylədi ki, bu neçə ildə biz eşitməmişik ki, Qaçaq Səfəralı nahaqdan kiməsə dəyib-dolaşsın. Hələ eşitmişik ki, o Zəngəzur, Göyçə, Laçın, Kəlbəcər qaçaqları ilə də əlaqə yaradıb. Heç kəsə zərər yetirməmək, camaatı incitməmək haqqında sövdələşiblər. O qaçaqlar böyük qüvvədilər. Əgər düşmən bizim vilayətə hücum etsə əminik ki, onlar bizə kömək edərlər, vətəni düşmənə satmazlar. Onların hamısı elin qeyrətli oğul-qızlarıdı. Biz bəylərin bəzi hərəkətlərinə etiraz kimi onlar isti ocaqlarından perik düşüblər. Bəylər də etiraf edirlər ki, camaatla düzgün rəftar olsa, özümüzdən incik salmasaq, heç onlar da istirahətlərini pozub dağlara, çöllü-biyabana düşməzlər. Qoburnat deyir ki, Səfəralıya namə yollamışam, gözləyək görək nə cavab gəlir.

Sizə xəbər verim çapardan. Elə ki, onu daha kəsə yolnan gətirib Quşçubiləyə ötürürlər, o kəndbəkənd geri qayıdarkən ağsaqqallardan, kəndlilərdən Qaçaq Səfəralı haqqında fikirlərini öyrənib qeyd eləyir. Bütün bunları əlində dəstəvuz eləyib qoburnata çatdırır. Söyləyir ki, ağa qoburnat, Səfəralının dəstəsində o dağın başında olan intizam heç bizim bu divanxanada yoxdu. Hamı Səfəralıya "Baba" – deyə müraciət edir. Böyüyə xüsusi hörmət var dəstədə. Zənənlər də çoxdur. Səfəralı cavanları evləndirib sevdikləri qızları onlara çatdırır. Dəstədə yaşdan əlavə vəzifə bölgüləri elə aparılıb ki, hərə tezdən durandan axşama kimi öz işini bilir. Heç kim digərinin işnə qarışmır. Qəribədir ki, kimin kim tərəfindən tapşırıq alması, nə vaxt almasını görmürsən. Gecə nətər tapşırıq alırlarsa, gündüz hərə öz işindədi, həm də oylaqları elə bir yerdi ki, ora quş da səkə bilməz. Bircə yolağası var, o da ki, ciddi mühafizə olunur. Qışlaqlarında da oldum. Elə kahalar, səngərlər var ki, Allah qüdrətindən yaradıb o yerləri. Onlara heç bir dəstə yox, on dəstə də getsə bata bilməz. Bütün mahalın əksəriyyəti onlardan razıdırlar. Heç kim şikayət etmir. Əksinə, kəndlilər söyləyirlər ki, bəylər, qlavalar onları incidəndə, Səfəralıya müraciət edirlər, o da öz növbəsində hadisələri sülh yoluynan düzüb qoşur. Camahat yerli bəylərdən, ağalardan çox Səfəralıya hörmət qoyurlar. Səfəralı Göyçə, Kəlbəcər, Zəngəzur, Vedi, hələ Naxçıvan qaçaqlarıynan da sıx əlaqə-

dədi. Onun dəstəsində hər yerdən, hətta Dağıstandan, Türkiyədən, İrandan da adamlar var. Hamısı da çox mehriban və sözübir adamlardı.

Bunlar burda qalmaqda, olsun sizə Səfəralıdan deyim.

Elə ki, Səfəralı çaparı yola saldı, bütün dəstə üzvlərini toplayıb Ballıdan sazı istədi. Ballı qayıtdı ki, ay Səfo, deyəsən təbin coşa gəlib?

Səfəralı dedi ki, Ballı, qulaq as, gör nə deyirəm:

*Dad sənin əlindən, a qanlı fələk,*
*Padşahları taxtdan salan sən oldun.*
*Kimdən üz döndərdin vurdun boynunu,*
*Ayrılıq təbilin çalan sən oldun.*

*Neçə karvanların kəsdim yolunu,*
*Neçə zalımların qırdım qolunu,*
*Səfəralı deyər atam Vəlini,*
*Əlimizdən vaxtsız alan sən oldun.*

*Ballının gözünün sellənib yaşı,*
*Sən apardın neçə dostu, sirdaşı*
*Üz-üzə qoyursan qardaş-qardaşı,*
*El obanı ayrı salan sən oldun.*

Söz tamama yetdi.

Səfəralı dəstə üzvləriynən məsləhətləşdi. Dedi ki, igidlərim, artıq 25 ildir ki, mən bu dağlarla sirdaş olmuşam. Siz də mənimlə neçə illərdi dost, qardaş kimi dolanırsınız. Bir sözümü iki eləməmisiz, böyüyə, kiçiyə hörmət qoymusuz. Dəstədəki zənənləri ana-bacı bilmisiz. Məndən icazəsiz artıq-əskik iş görəmisiz. Sizin heç birinizdən şikayət eşitməmişəm. Buyurduğum işi yarıtmısınız. Hər döyüşdən qələbəynən çıxmısız. Döyüş meydanında yaralı yoldaş qoymamısız. Silahınıza sədaqətli olmusuz, namərdlik etməmisiz. Sizin də ananızın, övrətlərinizin gözü yoldadır. İndi bizə qoburnat belə bir namə yazıb, nə deyirsiz, neyliyək?

Hamı buyurdu ki, Səfəralı baba, böyüyümüz sizsiz, ağsaqqalımız necə məsləhət bilsə, elə olacaq, məsləhət sizindi.

Səfəralı dedi ki, mən mütləq Naxçıvana qoburnatın yanına getməliyəm. Özümlə kiçik oğlum Alını aparmaq istəyirəm, Alı çox tədbirlidi, yazı-pozunu da bilir. Qalanlarınız qalın burda. Böyük oğlum Məmmədalı mən gələnə qədər sizə rəhbərlik eliyəcək. Qoburnat Qurana and içibsə qorxu yoxdu. Yəqin ki, sağ-salamat qayıdarıq.

Məmmədalı qayıtdı ki, ata, and olsun anamın südünə, mən də gedəcəm, mən burda qala bilmərəm. Dəstəni başqa adama tapşır. Qoy Alı qağam qalsın, mən gedim, orda savad yoxlamır ki, qoburnat, yazı-pozuya çağırmır ki səni.

Səfəralı nə qədər dedi Məmmədalı eşitmədi, höcətlik edib fikrindən dönmədi. Qoşun əhli də Səfəralıya xahiş etdi ki, xətrinə dəymə, onu da apar. Naillac qalan Səfəralı razılaşdı, dəstənin ağsaqqallığını digər igid oğlu, qoçaqlığıynan hamıdan seçilən Qurbanalıya tapşırdı.

Naxçıvana yola düşən zaman üzünü Göydağa tərəf tutub aldı görək nə dedi:

*Ərisin Göydağın qarı,*
*Tökülsün Şərura sarı.*
*Allah, saxla qoçuları,*
*Gözlə mən gəlirəm, dağlar.*

*Mənə həmdəm qoç Ballıdı,*
*İyidlərim şir qolludu,*
*Sərdarı Qurbanalıdı,*
*Gözlə mən gəlirəm, dağlar.*

*Səfərah kəmənd atdı,*
*Elin düşmənini tutdu,*
*Obam, yurdum amanatdı,*
*Gözlə mən gəlirəm, dağlar.*

Söz tamama yetdi.

Səfərah, Məmmədalı, Alı yol başladılar Naxçıvana. Yolda qonaqçısı olduğu kəndlərdə bəzi dostları getməməyi, bəziləri isə ona getməyi məsləhət bildilər. Səfərah dedi ki, igid tüpürdüyünü yalamaz, səfərdən geri dönmək nəs gətirər. Allaha təvəkkül. Əgər qoburnat yazdığına əməl etməsə, bunu xalq görəcək. Mən buna inanmıram ki, hiylə olsun. Alı da çox ağıllı, uzaqgörəniydi. O da atasının sözünə qüvvət verdi ki, bu boyda yalan olmaz. Namənin altında qoburnatla bərabər Naxçıvanın axundu, qazısı, ordu komandanı imza atıblar.

Xülasə, onlar gəlib Naxçıvana çatdılar, soruşub divanxananın, qoburnat oturan binanın qarşısına gəldilər. Bütün şəhər əhli bu üç atlıya heyrətlə baxırdı. Başlarında papaq, çərkəzi arxalıq, çiyinlərində tüfənk, bellərində xəncər, patron qatarı, atları da döyükə-döyükə göynən gedirdi. Binanın qabağında atdan düşüb qoburnatı soruşdular. Xəbər qoburnata çatdı ki, bəs üç atlı gəlib, üstləri də silahlı-şaşka-tüfəngi. Deyirlər ki, Dərələyəz mahalından, Göydağdan gəliblər, Qaçaq Səfərahdır.

Qoburnat tapşırdı ki, atlarını iraxlayın, özlərini də tərksilah etmədən, necə varlarsa elə də buraxın yanıma.

Tez bir neçə adam atları çəkdilər içəri, qabağına arpa-saman tökdülər, qonaqlara xoşgəldin edib içəri apardılar. Onlar bir otaqda oturub gözlədilər. Bir azdan bir yasovul içəri daxil olub buyurdu ki, durun gedək, qubernator sizi gözləyir.

Səfərah buyurdu ki, üst paltarınızı, silahımızı harda soyunaq, axı belə getmək ədəbsizlikdi.

Yasovul söylədi ki, xeyr, qubernator tapşırıb ki, necə var elə də buraxın.

Yasovul qabağda, Səfərahgil də arxasınca daxil oldular içəri. Başda xüsusi taxtda oturan qubernator ayağa qalxıb otağın ortasında qonaqlarla salamlaşdı. İçəridə daha bir neçə adam varıydı. Onlar da qonaqlarla salamlaşdılar. Qubernator hər üç cəngavərin boy-buxununa, geyiminə, silahına gözaltı nəzər yetirdi, onları əyləşməyə dəvət etdi.

Səfərah qayıtdı ki, ağa qoburnat, sizin qəbulunuza silahla girmək ədəbdən deyildi. Biz istəməsək də yasovul icazə vermədi ki, ağa qubernator belə buyurub, indi icazə ver silahlarımızı, çuxamızı soyunub sizlə üz-üzə oturaq, silahla oturub söhbətləşmək ədəbdən deyil. Qubernator icazə verib, yasovula tapşırdı ki, silahları as divardan.

Qubernator içəridəki adamlara otağı tərk etməyi təklif etdi. Üç nəfər ata-bala, bir də qubernator xeyli söhbətləşəndən sonra qoburnat, çinovniklərdən çağırıb onlara tapşırıq verdi, dedi ki, yol gəlmisiniz, gedin istirahət eləyin, lazım olanda sizi özüm çağırtıdracam.

Səfəralı, oğlanlarını xüsus qonaq evinə aparıb otaq ayırdılar. Onları düz on gün burada saxladılar. Arada Məmmədalı dedi ki, ata, bizi öldürəcəklər, yəqin bunlar yuxarıların razılığını almaq istəyirlər. Əlbət Nikolaya yazıb ki, Səfəralını tutmuşam, əmri gözləyir.

Alı qayıtdı ki, qağa, elə şey olmaz. İlk gündən bizi istəsəkdi qazamata saldırıb işini rahat görərdi. Düzdü, çox güman ki, yuxarıya – Nikolaya, bizim gəlməyimizi xəbər verib, ondan xüsusi sərəncam gözləyir. O, bizimlə gələn günü təam da elədi, çörək kəsdi. Bizi geyimli-keçimli, silahlı içəri buraxmaqda məqsədi bizim qiyafəmizə baxmağıydı. Çox ağıllı adama oxşayır. Bizim güzaranla, dəstəmizin hər bir üzvü ilə xüsusi maraqlandı. Gözləyək görək axırı nə olur.

Doqquz gündən sonra yasovul gəldi ki, hazırlaşın, sizi qubernator günorta qəbul edəcək. Məmmədalı qayıtdı ki, yəqin məhkəmə qurub təqsirnaməmizi üzümüzə oxuyacaq, bizi tutub qazamata salacaqlar.

Alı dedi ki, Məmmədalı bir hövsələn olsun. Qoburnatın fikri bizi öldürmək olsaydı, indi çoxdan öldürüb Nikolaya da tel vurardı ki, Qaçaq Səfəralını oğlanlarıynan öldürmüşəm. Özü də xeyli ənam alardı. Burda nəsə başqa şey var, məsləhətləşmə gedir.

Səfəralını, Məmmədalını, Alını hamama apardılar, üz-gözlərini qırxıf, yenə silahlarını özlərinə verib qubernatorun malikanəsinə gətirdilər. Artıq bu dəfə qəbul otağında dedilər ki, silahlarınızı çıxarın, asın divardan, içəri silahsız keçin. Məmmədalı tez atasının üzünə baxdı. Səfəralı işarə elədi ki, narahat olma, işin axırını gözlə.

Hər üçü silahlarını divardan asıf, içəri keçdilər. Qubernator, Naxçıvan şəhərinin axundunu, qazısını, daha bir neçə nəfəri də qonaqlarla tanış etdi, oturmaq üçün yer göstərdi. Qubernator oturanları bir-bir təqdim etdikdən sonra, qonaqları da onlara təqdim etdi ki, bu Qaçaq Səfəralıdır. O, Səfəralının böyük oğlu Məmmədalıdı, bu da oğlu Alıdı.

Qubernator sözə başlayıb dedi ki, bəs siz bu 10 gün mənim qonağımıydınız. Bu gün keçirik rəsmi işə. Mən siz bura gələn günü tel vurmuşdum Nikolaya ki, siz mənim qonağımsız. Ondan qabaq da sənin haqqında Nikolay əlahəzrətlərinə geniş məlumat vermişdim. Səninlə barışıq etmək razılığını almışdım. Sənə yazdığım namənin bir nüsxəsini də yuxarı göndərmişdim. Nikolay əlahəzrətlərinin cavabını rəsmi şəkildə gözləyirdim. Dünən məlumat aldım ki, səninlə danışıq aparmağa razıdır. İndi sizin gəldiyiniz günü mənə verdiyiniz məlumatı bir daha söyləməyi xahiş edirəm. Çünki axundun, qazının iştirakı ilə mirzələr bu deyilənləri yazıya almalıdılar ki, bizim axırda qərar çıxarmağa əlimizdə əsas olsun.

Səfəralı qaçaq düşmə səbəbini, Dərələyəzə necə gəlməyini, dəlilərin onun başına toplaşmasını, hər dəlinin haradan olması, niya qaçaq düşməsini

ətraflı danışdı. Qubernator xahiş etdi ki, Alı özü qaçaqların hamısının adını, hardan nə vaxt, nə səbəbə qaçaq düşməsi siyahısını da tərtib etsin.

Düz üç gün bu cür söhbətləşmə getdi. Dördüncü günü qubernator rəsmi bir ziyafət təşkil etdi, ziyafətdə Səfəralıya azadlıq kağızını təqdim edib onun bir daha belə xətaya düşməməsini arzuladı. Qaçaqların da hər birinin adına olan azadlıq, toxunulmazlıq kağızını təqdim elədi. Dedi ki, indi qaldı sənin öz razılığın, istəsən öz elinə, vilayətinə qayıdarsan, istəməzsən harada istəyirsən orada özünə yurd-yuva sala bilərsən, heç kim sənə, nə də o biri qaçaqlara dəyib-dolaşa bilməz.

Səfəralı elə oradaca söylədi ki, mən daha öz vilayətimə qayıtmaram. 25 ildən artıqdı bu dağlar mənim səngərim, pasibanım olub. İcazə versən, Dərələyəzin ən yuxarı nahiyəsində, Göydağnan Murad təpəsinin aşağı ətəyində, Arpaçayın kənarında, Pir kahasından yuxarı, Quşçubiləy kəndindən 6 ağac kənarda bir balaca düzəngah var, orada soyuq suynan yanaşı turş su, isti su da çıxır. Elə orada özümə yurd salaram. Atam Vəlinin də arzusu belə olmuşdu.

Qubernator dedi ki, siz gedərsiz, sonra mən "Zemlyoneri" göndərərəm gəlib sənə kənd satmaq üçün torpaq sahəsi ayırar, kənd salmağa icazə kağızını verər.

Səhəri hər üçünün silahlarını da qaytardılar, atlarını çəkib, bir neçə yasovulla Cəhriyə kimi gətirib ötürdülər.

Səfəralıgil Göydağa üz tutdular. Sizə kimdən deyim, Qoçu Həşimdən. Qoçu Həşim Naxçıvandan gəlirdi. Cəhriynən İtqıran kəndi arasında gözəl bir bulaq var. Suyu keybirdi deyirsən. Həmişə yolçular bu çeşmə başında düşüb yuyunar, dincəlib günorta naharını edər, atını hörükləyib bir qədər ata da rahatlıq verərdilər. Bulağın üstündə bir böyük palıd ağacı da varıydı. Əsrlərin şahidiydi. Bu kölgəlikdə dincəlmək adama ləzzət verirdi. Qoçu Həşim də bu bulağın başında atı hörükləyib dincəlirdi.

Səfəralı və oğlanları yolda bu neçə günkü səfərlərindən danışır, məsləhətləşirdilər. Bulağa çatmamış sərt bir dərə keçməli olursan, sonra yala çıxıb bulağa çatırsan. Məmmədalı atı bir az ləng sürüb geri qalmışdı. Səfəralıynan Alı yala çıxanda Səfəralı gördü ki, bulağın üstündə, ağacın yanında bir at hörüylüdü. Yaxınlaşdılar ki, bir nəfər yapıncısını çəkib başına yatıb. Alı atı tanıdı. Dedi ki, ata, bu, Qoçu Həşimin atıdı. Səfəralı elə atın üstündə qamçısıynan yapıncını kənara itələdi ki, görsün kimdi bu adam. Baxdı ki, qaynı Qoçu Həşimdi. Onu durğuzub dedi ki, evin yıxılmasın, dur tez ata min tərpən, Məmmədalı gəlir, yoxsa səni bir təhər eliyər. Qorxudan Həşimin dodağı partladı. Səfəralı dedi ki, nəyə baxırsan, tez ol tərpən, yoxsa "dəli" Məmmədalının cəngindən qurtara bilməzsən.

Alı gördü ki, kişi karıxıb. Tez atdan düşdü, Həşimin atının hörüyünü xəncərlə kəsdi, Həşimi yapıncı qarışıq atın üstünə qoyub atı dəhmərlədi ki, tez ol oradan çıx. Həşim qayıtdı ki, əgər məni arxadan atacaqsansa, elə burda öldür, daha niyə arxadan vurursan. Səfəralı dedi ki, a kişi, ağlın olsun, sən nə danışırsan. Öldürsəydim elə yatdığın yerdə öldürərdim. Nə mən, nə oğlanla-

rım arxadan heç kəsə güllə atmamışıq, nahaq yerə qan tökməmişik, səninlə də qohum olmuşuq, nəhlət şeytana, tez ol aradan çıx, onun hirsi hələ soymayıb.

Həşim ata suvar olan anda Məmmədalı yala çıxdı, gördü ki, atası, qardaşı bulaq üstündədi, atdan yenicə düşüb atları iraxlıyırlar. Atını yeyin sürüb bulağa çatdı, soruşdu ki, qağa, o kimiydi?

Alı dedi ki, nə bilim kimdi, gördü ki, biz yaldan çıxdıq, əlbət qorxdu, qaçdı.

Məmmədalı diqqətlə baxıb dedi ki, qağa, o, Qoçu Həşimdi. Arxadan ona bircə güllə atacam.

Alı dedi ki, ay qardaş, Həşimin burda nə işi var. Görəsən kimdi, bu kəndlərdən olar. Baxıb ki, biz iki atlıyıq, qorxub getdi də, deyib birdən qaçaqquldur olar, kişini incidər.

Məmmədalı baxdı ki, atın tovlamıxı yerə çalınıb, üstündə də bir qədər hörüyün kəndiri. Bildi ki, atası Həşimi özü yola salıb. Məmmədalı qayıtdı ki, ata mən onu öz evində atmadım, dedim kişinin qanını öz ocağı başında, özü də uzanmış vəziyyətdə tökməyim. Bu, kişilikdən deyil. İgid gərək düşmənlə döş-döşə gələ, təkbətək vuruşa ad ala. O, Həşimdi, niyə qoymursuz bircə gülləyə onu yerə sərim.

Səfəralı da, Alı da Məmmədalını sakitləşdirdilər ki, ağlın olsun, xalxla işin olmasın. Biz neçə ildi bu mahaldayıq, əlimizdən nahaq qan çıxmayıb. İndi gedib azadlıq kağızını alandan sonra qan tökmək istəyirsən? Düş, ata əziyyət vermə, aç hörüklə, dincələk, yolumuz uzaqdı günbatana ancaq obaya çatarıq.

Məmmədalı atı hökurlədi, yuyundu və oturub çörək yeyəndə atası qayıtdı ki, Məmmədalı, hirsin soyudu?

Məmmədalı atasının nə deyəcəyini anlayıb dedi ki, ata, danışma, yaxşı anamı ağlatdın. Həşimin anası namaz üstdə imiş, yoxsa mən tez çatsaydım onu sağ buraxmazdım.

Alı qardaşına öyüd-nəsihət verdi ki, ağlın olsun, düzdü o, Həşim idi, hörüyü də mən kəsib onu ata mindirdim. O özü öz səhvini başa düşüb. Həşim də igid adamdı. Onu şeytan yoldan çıxartmışdı, həm də bala şirindi. O, elə bilib ki, atamız onun bacısını qəsdən öldürüb. Biz bundan sonra kənd salıb dolanmaq, yurd-yuva yiyəsi olmaq istəyiriksə, hamıynan mehriban dolanmalıyıq. Keçənə güzəşt deyərlər.

Səfəralı dedi ki, ay uşaqlar, mübahisə eləməyin, Naxçıvanın istisindən çıxdıq bu gözəl, sərin bulağın üstündə istirahət nəyə desəniz dəyər. Bu bulaq bizim kimi çox igidlər, yolçular yola salıb. Bulağa bir neçə kəlmə deyim, siz də qulaq asın.

Aldı görək Səfəralı bulağa nə dedi:

*Yazın burnu qaynayıbdı,*
*Açılıb yolların bulaq.*
*Ətrafın laləzar olub,*
*Bitibdi güllərin, bulaq.*

*Altı ay batmışdın yasa,*
*Çiskin, çən üstünü basa,*
*Yenə gəlmisən həvəsə,*
*Gəlirmi ellərin, bulaq.*

*Biz sevirik düz ilqarı,*
*Açıldı könlüm qubarı,*
*Ata-baba yadigarı,*
*Soruşdum halların bulaq.*

Məmmədalı da, Alı da atalarına əhsən dedilər. Üçünün də kefi xeyli duruldu. Bir qədər dincələndən sonra Göydağa sarı yola düşdülər. Hansı kəndin ətrafından keçirdilərsə hamı sevinirdi ki, Səfəralıynan oğlanları salamat geri döndülər. Eşidəndə ki, Səfəralıya və digər qaçaqlara azadlıq kağızı verilib, daha çox sevindilər.

Səfəralı və oğlanları gəlib Göydağa çatdılar. Bütün dəstə onların sağ-salamat gəlməsinə sevinib şadyanalıq elədilər, qurban kəsdilər. Qonşu obalardan, ətraf kəndlərdən pay-pürüş göndərdilər. Sayılıb-seçilən adamlar, ağsaqqallar, bəy, kəndxudalar Səfəralını təbrikə gəldilər. Düz yeddi gün Göydağda kef məclisi quruldu, Aşıq Nəbi də sazı götürüb düşdü meydana bu cah-cəlalı alqışladı. Səfəralının, digər qoçaqların şəninə çalıb-çağırdı.

Məclisin axırına yaxın Səfəralı sazı Aşıq Nəbidən alıb sinəsinə basdı, məclis əhlinə üzünü tutub görək nə dedi:

*Üstünə qar yağsın güllü Göydağım,*
*Bu gün həmdəmlərin səndən yan gedir.*
*Ətrafını duman, çiskin bürüyüb,*
*Gözlərindən yaş tökülür, qan gedir.*

*Hanı bu Göydağda gəzən cavanlar,*
*Xəncər qurşananlar, qılınc çalanlar,*
*Yerdən-göydən bac-xəracı alanlar,*
*İndi yol salıbdı bir zaman gedir.*

*Payız düşüb gül-çiçəyin azalıb,*
*İgidlərin gedir, rəngin sozalıb,*
*Elə bil Əzrayıl çəngəlin çalıb,*
*Kəsib nəfəsini, daha qan gedir.*

*Kiminin qəlbinə vurmusan yara,*
*Kimini salıbsan yanan odlara.*
*Qovursan dəstəni ay üzü qara,*
*Səfəralı qaçır səndən yan gedir.*

Söz tamama yetdi.

Səfəralı oradakı görüşü necə olmuşdu elə də məclisdəkilərə danışdı. Aşağı kəndlərdə də qoburnatın bu işi bəyənildi. Səfəralının bu dərədə yurd-yuva salmaq niyyətini də bəyəndilər. Səfəralı bir müddətdən sonra bütün dəstəni yığdı, dedi ki, hamınıza azadlıq kağızı almışam, kim istəyir öz vilayətinə qayıda bilər, heç kəs sizi incidə bilməz. Nikolayın möhürlü sərəncamı var, sizə dəyib-dolaşmazlar. Kim də istəsə qalar yanımda, kənd salıb yaşayarıq.

Dəstənin bir hissəsi çıxıb öz el-obalarına getdi. Digər hissəsi Səfəralının yanında qalıb Arpaçayın kənarında, Murad təpəsinin, Sarı yerin ətəyində, Səfəralının dədəsi Vəli kişinin əvvəlcə bəyəndiyi yerdə – İstisuda yurd saldılar. Səfəralıya həmin ərazidə kənd salmaq üçün xüsusi torpaq sahəsi ayrıldı. Oğlu Alını da əvvəlcə həmin kəndə kəndxuda, sonra isə Dərələyəz mahalının 22 kənddən ibarət olan Gindivas kənd icmasına qlava təyin elədilər[1].

1. 25 il (5 seçki) Alı qlava işlədi.

## QOÇU HƏŞİMİN ÜZRXAHLIĞI

Qaçaq Səfəralı elə ki, Naxçıvan qubernatorundan azadlıq kağızı aldı, üz tutdu Dərələyəzin ən ucqar nöqtəsi olan Göydağa, Murad təpəsinə. Əvvəlcədən bələdlədiyi, gözaltı elədiyi yeri kənd salmaq məqsədiynən qubernatordan istəmişdisə də yol boyu da çox fikir elədi, gələcək aqibətlərinin necə olacağını düşündü, düşündükcə də müəyyən qərarlar qəbul elədiyi özlüyündə.

Artıq dəstə Göydağdan aşağı – Pir kahasına enmişdi. Vədələşdikləri kimi, qubernator torpaq, ərazi bölgüsüynən məşğul olan şəxsi bir neçə adamla bura göndərmişdi. Quşçubiləy kəndindən, digər ətraf kəndlərdən də nümayəndə göndərib həmin kəndə ərazi verilməsini tapşırmışdı. Səfəralı ətraf kəndlərin ağsaqqal, qarasaqqallarıynan görürşüb bu mahalda kənd salmaq fikrində olduğunu söyləmişdi. Hamı bu işə razılığını bildirmişdi. Qubernator öz nümayəndəsini bu mahala göndərdi. Səfəralıya kənd salmaq üçün ərazi ayrıldı. Arpa çayının sağ sahilində, Kəngərli dərəsinin ayağında, isti su çıxan bulaqların yanında, xeyli düzəngah bir sahədə Səfəralı özünə kənd saldı. Səfəralıya Göydağdan ayrılmaq çox ağır gəlirdi. Sazı sinəsinə basıb görək dağlarnan necə halallaşdı:

*Hanı, görünmür ellərin,*
*Yoldaşsan dumana dağlar!*
*Bağlamısan yolu, izi,*
*Qalmışam yamana, dağlar!*

*Qoyun, quzu mələyəndə,*
*Çoban ocaq qalayanda,*
*Yağış yağıb sulayanda,*
*Ruh verirsən cana, dağlar!*

*Alçaq, uca yaylaqlarda,*
*İgid gəzər oylaqlarda.*
*Səfəralı ovlaqlarda,*
*Ömrü vurar sona, dağlar!*

Söz tamama yetdi.

Hamı Səfəralıya ürək-dirək verdi ki, budu Göydağ başının üstündə, istədiyin vaxt gedib ziyarət eliyə bilərsən.

Sizə kimdən deyim, Səfəralının qaynı Cullu Qoçu Həşimdən. Qaçaq Səfonu Naxçıvan qubernatoru çağırıb, onunla bir neçə gün söhbətdən etdikdən onun bütün dəstəsinə istədikləri mahalda rahat yaşamaq hüququ verdikdən və bu razılığı rus çarı imzaladıqdan sonra Qoçu Həşim yaxşı başa düşürdü ki, onunla əvvəlki yaxınlığı tam bərpa etmək lazımdır. Qaçaq-quldurdan bu mahalı qoruyan belə bir adamla arada mehribançılıq çox vacibdir.

Kənd ağsaqqallarıynan məsləhətləşən Qoçu Həşim elə məhz Culun sayılıb-seçilən ağsaqqallarını, kəndin mollasını, mahalın digər sayılıb-seçilən hörmət sahibi olanları başına toplayıb Səfəralının binə saldığı İstisuya gəldi. İstisuya çataçatda mollalar əllərində "Quran", bir neçə qadının əlində duz-çörək, qarşılarında bir neçə qoç kəndə daxil oldular. Səfəralının qapısında dualar oxundu, bu kəndi salmaqda, yurd-yuva yiyəsi kimi ona Allahdan uğur-

lar dilədilər. Səfəralı çörəyi duza batırıb daddı. Quranı öpüb gözləri üstə qoyandan sonra, qadınları, qız gəlinləri bir evə, kişiləri digər bir ev damına dəvət etdilər. Qonaqlara böyük hörmət, ehtiram göstərildi. Səfəralı qaynı Qoçu Həşimə də, digər qonaqlara da olub-keçənləri unutduğunu söylədi, Allah şeytana lənət eləsin dedi.

Səfəralı üzünü məclis iştirakçılarına tutub aldı görək yenə nə dedi:

*Mənim gözüm mehribanını axtarır,*
*Baxıram hər yana görə bilmirəm.*
*Yolunda müştağam gəlmir bərəyə,*
*Hansı səyyad salıb tora, bilmirəm.*

*Çeşmimdən tökülür məhəbbət yaşı,*
*Əridir torpağı, yandırır daşı,*
*Qürbətdə qalıbdı ürək sirdaşı,*
*Xəbər alıb əhval sora bilmirəm.*

*Səfəralı əziz tutur quranı,*
*Seyraqublar qarışdırdı aranı,*
*Təbib, loğman yüz bağlasa yaramı,*
*Sizdən qeyri, dosta vara bilmirəm.*

Söz tamama yetişdi.

Səfəralı bundan sonra da Qoçu Həşimə böyük hörmət eliyəcəyini dedi.

Sonralar Səfəralı Qoçu Həşimin kiçik qızını oğlu Həsənalıya aldı, umuküsünü tamam aradan götürdü, qohumluğu təzələdi.

## SƏFƏRALININ PRİSTAVI QONAQ ÇAĞIRMASI

Səfəralıya azadlıq kağızını təqdim edən vaxtı o, pristava xahiş etmişdi ki, ona qonaq gəlsin.

Pristav cavabında zarafatla bildirmişdi ki, ay Səfəralı, sən çölçü adamsan, evin yox, eşiyin yox. Mən də səfərə çıxanda bilirsən ki, heç olmasa 10-15 atlıynan çıxıram. Sən bu qədər adamın yatacaq-duracağını, qab-qacağını haradan alacaqsan?

Səfəralı söz altda qalmayıb cavabında dedi ki, ay pristav, sən elə bilirsən ki, biz dağda-daşda yaşayanda qonağımız olmur? Bizim qonaqlarımız da olur, qonaq-qaraya layiq yatıb-duracağımız da öz yerində. Qaldı ki, Allah qonağın ruzasını özündən qabaq yetirir.

Səfəralı da ona belə zarafat eləyir ki, bu ipək, atlaz yorğan-döşəkdə yatmağın ləzzəti bir özgə, dağda-daşda yatmağın tamam başqa ləzzəti var. Kişinin yastığı gərək qaya, yorğanı duman ola ki, canı bərkiyə, həm də bu atlaz yatacağın qədrini bilə.

Pristav qayıtdı ki, bu deyilənlər zarafatdır. Söz verirəm ki, özünə yurdyuva salan kimi xəbər edərsən, gəlib qonağın olaram.

Səfəralı pristava dedi ki, bizim yerlərdə olmuyubsunuz. İcazə ver bizim ellər haqqında sənə beşcə kəlmə söz deyim.

Aldı görək burda Səfəralı pristava öz eli-obası haqqında nə dedi:

*Gəzdim hər diyarı tapa bilmədim,*
*Dünyanın gözəli bizim ellərdi.*
*Havası məlhəmdi, suyu dərmandı,*
*Loğmanın əzəli bizim ellərdi.*

*Durna gözlü çeşmələri axanda,*
*Səhər-səhər gün buluddan çıxanda.*
*Gözəlləri canım oda yaxanda*
*Söhbəti məzəli bizim ellərdi.*

*İsti su xəstəni cana gətirir,*
*Cansıza can verir, qana gətirir.*
*Çöləlrində lalə, nərgiz bitirir*
*Cənnətin təməli bizim ellərdi.*

*Göylər şahı saçağını saçanda,*
*Erkək kəsib ağır məclis açanda.*
*Ağır ellər hər il dağa çıxanda,*
*Yaylağı saz olan bizim ellərdi.*

*Səfəralı deyir, bizə gələsən,*
*Düzlərindən gül-çiçəyin üzəsən.*
*Sonaların toylarında süzəsən,*
*İgidləri bəlli bizim ellərdi.*

Bəli, söz tamama yetişdi.

Pristav bir daha söz verdi ki, inşallah sağlıq olsun, bir yay fəslində dağlara qalxıf sənin qonağın olaram.

Bir müddət ötdü. Səfəralı özünə ev-eşik, lazımi istirahət yaratdı, sonra pristava yazda xəbər yolladı ki, buyursun, qonağım olsun. Pristav verdiyi sözə əməl elədi. Beş-on atlıynan ailəsini də götürüf Dərələyəz mahalına – İstisuya, Səfəralıya qonaq gəldi. Onu kənddən-kəndə böyük qayğıynan, təntənəynən ötürürdülər. Pristavın xanımı xüsusi müşayətnən İstisuya gəldi.

Səfəralı əvvəlcədən hazırlıq görmüşdü. Səfəralı bulağından aşağıda yerdən qaynayıb çıxan mədən suyu – istisu olan yerdə gözəl bir hovuz qazdırıb düzəltdirmişdi. Hovuzun ətrafına hündür hasar çəkdirmişdi. Hovuzun üst yanında keçədən iki muxuru (çadır) qurdurmuşdu. Muxuruların içi xalça-palazla döşənmişdi, yatıb-duracaq da ki öz yerindəydi.

Səfəralı pristavı bir neçə atlı ilə Məmmədalı düzündə qarşıladı, onları muxuruya gətirdi. Pristav bu səliqə-sahmana heyranlığını bildirdi. Özü də, xanımı da bu hovuza baxıb heyrətini gizlətmədilər.

Hər gün qonaqlara erkək kəsilir, Arpaçaydan qızılala balıq tutulur, ov əti ilə qonaqlıq verilirdi. Pristavın adamları hər gün hovuzda çimir, səfalı meşəni, oylaqları gəzir, gözəl istirahət edirdilər.

Səfəralı pristava söylədi ki, bu gördüyünüz hovuzları da mən düzəltdirmişəm. Amma bu hovuzu sizin adınıza layiq, sizin şərəfə düzəldirmiş, ətrafını isə hasarlatmışam. Sizin şərəfə bu hovuzun-gölün adını qoyuram "Pristav gölü".

Pristav və xanımı ləziz xörəkləri yedikcə, İstisuyun gözəl təbiətini seyr etdikcə, hovuzda çimib yüngülləşdikcə Səfəralıya minnətdarlıq eliyif, deyirdi ki, ömrümdə belə gözəl, füsunkar təbiətli yer görməmişəm. Doğrudan da söylədiyin tərifə layiqdi. Qoburnat gülə-gülə Qaçaq Səfəralıya sual verdi: Ay Səfəralı buradakı kişilərdən, qadınlardan hansınnan soruşursan deyir ki, Səfəralının oğluyam, Səfəralının qızıyam. Bu qədər uşaq sənə hardandır.

- Ağa qoburnat onnar düz deyir. Mənim 4 arvadım var, hərəsindən də xeyli oğlan, qız. Birinci arvadım Kəlbəcər qızıdı. Adı Balaxanımdı. Ondan 8 oğlum, 6 qızım var: Məmmədalı, Nabutalı, Bayramalı, Qurbanalı, Həsənalı, Alı, Ataş, İsmayıl; Tavat, Xırda, Nabat, Başxanım, Qönçə, Ayna.

İkinci arvadım Dərələyəz qızıdır. Gümüşxana kəndindəndir. Adı Bahardır. Ondan 5 oğlum, 4 qızım var: Ağamalı, Niftalı, Baxşalı, Cabbar, Xasa, Yaxşı, Bəsti, Fitat.

Üçüncü arvadım Laçın qızıdır. Minkənddəndir. Ondan bir oğlum, bir qızım var. İbrahim və Bənövşə.

Dördüncü arvadım Dərələyəz qızıdır. Culdandır. Qaçaq Həşimin bacısıdır. Ondan da Süsən adlı bir qızım var.

Qubernator: elə sənin bir qoşun övladın var ki?

Səfəralı: bəli.

Qubernator: Ay Səfəralı, sənə bu Səfo adı hardandır?

Qaçaq Səfəralı: Ağa Qubernator. Bu adı mənə birinci arvadım Balaxanım qoyubdur. Onnarın kəndində əri qısa şəkildə demək adətdi. O mənə Səfo deyir, mən də ona Ballı. Qaçaqların hamısı Ballının xətrini çox istədiyindən onnar da bəzən Səfo deyirlər. Bu yerlərdə adı qısa deməyi xoşluyurlar.

Bir müddətdən sonra pristavı çox hörmətlə yola saldılar, Səfəralıynan pristav möhkəm dost oldular. Bundan sonra pristav hər il istirahətini burda keçirərdi.

## QAÇAQ SÜLEYMAN

### *QAÇAQ SÜLEYMAN HAQQINDA OLAN ŞEİR VƏ RƏVAYYƏTLƏRDƏN PARÇALAR*

*1880-cı illərdə Şərur-Dərələyəz qəzasının Qaraqaya kəndində anadan olan Süleyman Məmməd oğlu ailə-məişət zəminində başlamış bir münaqişəyə görə qaçaq düşür. Başına dəstə toplayıb dağlara çəkilən Süleymanı uzun illər həbs etmək və ya öldürmək mümkün olmur. Birinci Dünya Müharibəsində Osmanlı cəbhəsində döyüşən Rusiya ordularına silah və ərzaq daşıyan araba karvanlarına basqınlar edən və əhalidən araba, at, ərzaq toplanmasına əngəllər törədən qaçaq dəstəsini açıq döyüşdə məhv edə bilməyən hökümət məmurları dəstənin içərisinə öz adamlarını yerləşdirmək və qaçaqların etibarını qazanmış insanları ələ almaqla onları məhv etməyə girişdilər. Qaçaq Süleymanı da 1916-cı ildə Çivəli dəllək Səfəralının əlilə Danzikin yaxınlığındakı Zərdə dərədə (indiki Şərur rayonu ərazisində) öldürürlər.*

*Aşağıda Qaçaq Süleyman haqqında 1980-1985-ci və başqa illərdə toplanmış şeir və rəvayətləri veririk.*

*1985-ci ildə Qaraqayalı, 84 yaşlı Ələkbər Məşədi Ələsgər oğlu Məmmədovun dedikləri:*

Qaçaq Süleyman əmimdi. Babam Məmməd Qaraqayalı, nənəm Göhər Ayisəslilidi. Onların 11 uşağı olub. Qızları: Almaz, Ballı, Nərgizxatun, Vəsmiyyə. Oğlanları: Əmiraslan, İbrahim, Əbdüləzim, Əbdülkərim, Paşa, Ələsgər, Həşim, Süleyman.

Süleymanın qaçaq yoldaşları: əmilərim Əbdüləzim, Əmiraslan, nənəm Gövhərin qardaşı oğlu Əli, nənəmin bacısı oğlu Pəsərək, Saraşdı Budaq, Bəşki kürdlərindən Həso və başqaları. Bu qaçaqlardan Budağın, Həsonun ölümündə hökümətin əli var idi. Paşaya isə Türkiyədə zəhər verib öldürdüklərini söyləyirdilər.

*Yaşı 80-i keçmiş, Şərur rayonunun Sovxoz kəndinin sakini Süleyman Əhmədovun 1982-ci ildə dedikləri:*

Qaçaq Süleyman haqqında olan qoşmalardan 3-ü yadımda qalıb:

*Yorğanı adyaldı, döşəyi həsir,*
*Adı çəkiləndə piristav əsir,*
*Nəçənniklər yazır, divan iş kəsir,*
*Dillərdə əzbərdir, Qaçaq Süleyman,*
*Anası özündən qoçaq Süleyman.*

*O ata minəndə rus dedi nazat,*
*Nəbitək ona da yaraşır Bozat,*
*İşlərin mayası binamaz Hürzat,*
*Dillərdə söylənir Qaçaq Süleyman,*
*Anası özündən qoçaq Süleyman.*

*Beşaçılan tüfəngi mıxdan endirdi,*
*Endiribən sinə üstə mindirdi,*
*Yeddi gündə on beş düşmən öldürdü,*
*İgidlikdə təkdi Qaçaq Süleyman,*
*Anası özündən qoçaq Süleyman*

*Dərələyəzin Kotanlı kəndində doğulan, sonra köçüb Danzikdə məskunlaşan aşıq Həmid Ağamalıyevin Cağazirli Cəfərdən eşitdiyi qoşmalar, 1983-cü il.*

Dərələyəzdə çoxları istəyirdi ki, Qaçaq Süleymanla qohum ola. Ələyəz kəndində onun gözəl maması (bibisi) qızları var idi. Çox adamlar onlara elçi göndərirdi. Deyəcəyim qoşmalar o zaman yaranıb.

*Qurban olum başındakı əyməyə,*
*Gözüm düşüb yaxandakı düyməyə,*
*Əhdim budu anan səni döyməyə.*
*Az naz eylə, Kəlbə Xəlilin qızı,*
*Xara tuman, mintənəsi qırmızı.*
*Qaçaq Süleymanın maması qızı.*

*Qurban olum başındakı puşduya,*
*Anan qoymur sən gələsən qonşuya,*
*Sən söz vermə nadanlara, naşıya,*
*Az naz eylə, Kəlbə Xəlilin qızı!*
*Xara tuman, mintənəsi qırmızı!*
*Qaçaq Süleymanın maması qızı.*

*Qurban olum başındakı çəngələ,*
*Dağların başına duman, çən gələ,*
*Yazıq Süleymanı saldın əngələ,*
*Az naz eylə, Kəlbə Xəlilin qızı!*
*Xara tuman, mintənəsi qırmızı!*
*Qaçaq Süleymanın maması qızı.*

*Dərələyəzin Qaraqaya kənd sakini, 67 yaşlı Mərcan Rzayevin 1985-ci ildə dedikləri:*

Bir anam vardı. Şair idi, şair kimi sinədəftər bir adam kimi toya da aparırdılar, yasa da. Anam oturub-durub Süleymannan danışardı. Süleymanın dədəsi Məmməd Qaraqayalı, anası Göhər qonşu kənddən-Ayısəsindəniydi. Onların 7 oğlu, 4 qızı olub. Süleyman kiçik yaşlarında maması (atasının bacısı) Hürzadın qızı Səadətlə nişanlayıblar.

Allah baisin evini yıxsın. Sonralar nə olursa, bu iki ailənin arasında bir soyuqluq olur. Səadəti dədəsi Qasım və anası Hürzat xəlvəti Qarabağlı bir tacirə ərə verirlər. Özü də «Süleyman qızımı qaçırıb» deyə hay-haray salırlar.

Yalan ayaq tutar, yeriməz, deyiblər. İşin üstü açılır. Süleyman Qasımı öldürmək istiyir. Ağsaqqal-qarasaqqal yığılır. Deyillər: «Qasım bir səhvdir eləyib, qanmayıb. Buna görə iki nəsil arasında qan düşmənçiliyi salmaq olmaz. Biri dəli olanda, biri ağıllı olar». Qasımın qardaşı qlava Həsən deyir: «Altı qızım var. Süleyman hansını istiyir, onu alsın. Təki nəsillərimiz arasında qan düşmənçiliyi salmasın».

Süleyman ağsaqqal-qarasaqqal sözünü eşidib sakitləşir və deyir: «Hər şeyə dözüjam, hər şeyi bağışlayajam. Amma kimsə bunu mənim başıma qaxsa, Qasımı da, oğlanlarını da öldürüjam».

Heç aradan bir il keçmir. Süleyman erkək otarırmış. Başı qarışır erkəklər Fatma qarının noxud zəmisinə dolur. Fatma qarı da, nə Fatma qarı! Açır ağzını, yumur gözünü: - Nişannısını saxlaya bilməyən qurumsaq, məni sahibsizmi görübsən?! Noxudumu otarırsan?! – deyir. Süleyman Fatma qarının təhqir və söyüşündən can qurtarmaq üçün qaçıb evə girir və deyir: «Mənə daha papaq gəzdirmək haramdır».

Yenə ağsaqqal-qarasaqqal yığılır. Çox nəsihət edir, dəlil gətirirlər. Süleyman sakitləşmir ki, sakitləşmir. Süleymanın anası Göhər kişi kimi qadınmış, yanında silah gəzdirərmiş. Dəfələrlə İrəvana gedib naçalniknən, qubernatınan danışıbmış. Elə olub ki, həbs olunmuş oğlanlarını həbsdən, Sibir sürgünündən azad etdirib. Onun düşmənlərinin qarşısına silahla çıxmasına, İrəvana getməsinə də şerlər qoşulubmuş.

*İrəvanın uşaxları,*
*Kətannandı qurşaxları,*
*Allah qoy təndirdə yansın,*
*Səbəbkarın uşaxları.*

*Sinəmi büryan eylərəm,*
*Didəmi giryan eylərəm,*
*Daha cannan usanmışam,*
*Qoysalar qurban eylərəm.*

Süleymanın döyüşlərindən, çar əsgər və zabitlərini üç-dörd qaçaq yoldaşı ilə darmadağın etdiyindən, jandarma və polisi dəfələrlə pərənpərən saldığından da danışırdılar.

Süleymanın şəxsi intiqam hissi ilə başladığı mübarizə getdikcə ictimailəşirmiş. Birinci Dünya Savaşı illərində Rus orduları Kars-Ərzurum ətrafında cəmləşibmiş. Döyüşən orduya ərzaq, hərbi sursat daşımaq üçün at, araba səfərbərliyə alı-

nırmış. Camaat bundan narazı qalsa da hökümətin qorxusundan könülsüz də olsa, əmri yerinə yetirirmiş. Süleyman cəbhəyə kömək edənləri cəzalandırır, hədələyir, yük aparan karvanlara basqınlar təşkil edirmiş. Osmanlı orduları ilə döyüşən rus ordularının arxasında belə təxribatçı qüvvələrin olması hökuməti bərk narahat edir. Bir tərəfdən hökümət dağlara – qaçaqların arxasınca silahlı dəstələr göndərir, o biri tərəfdən də qaçaqları öz içərisindən parçalayıb dağıtmaq üçün gizli casuslardan istifadə edirmiş. Qaçaqlarla yaxınlıq edən adamları aşkarlayıb ələ alırmış.

Süleymanın da başına belə bir iş gəlir. Çivəli dəllək Səfaralı neçə illərmiş Süleymanın saçını-saqqalını qırxırmış. Süleyman da ona çox inanırmış. Süleyman gəlir Danzikin yaxınlığındakı Zərdə dərəyə və Səfəralıya sifariş göndərir. O da gəlir. Süleyman Qızılqışlağın yeni sahibi Arpalı Tetovosu da özü ilə gətiribmiş. Tetovos at, araba, ərzaq toplayıb rus ordusuna göndərirmiş. Süleyman ona neçə dəfə xəbər göndərib, bu işdən əl çəkməyi tapşırıb. Amma Tetovos çar Nikolaydan orden almaq, hökümət yanında nüfuzunu artırmaq üçün daha da fəallaşırmış. Süleyman yolda ona rast gələndə əl-qolunu bağlayıb gətiribmiş ki, cəzalandırsın.

Süleyman saçını-saqqalını qırxdırmaq istəyən vaxt yorğun olduğundan yuxu onu tutur. Bundan istifadə edən Səfəralı Tetovosun əl-qolunu açır. Birləşib Süleymanın başına böyük bir daş salıb onu öldürürlər. Bu xəbər əvvəlcə Süleymanın düşmənlərinə çatır. Onlardan Hajı Namazallı oğlu Qara (Qovuşuqlu) gedib Süleymanın cənazəsini öz gözü ilə görür. Qamçısını da qanına bələyir. Sonra da Süleymanın qohumlarına «Gedin itinizin leşini sürüyüb bir çuxura atın. Qoxuyub ordan keçənnərin ürəyini bulandırır!» sifarişini göndərir. Bu söz Süleymanın adamlarına yaman toxunur. Onlar əvvəlcə gedib Qaranı öldürür, sonra Qaçaq Süleymanın meyidini aparıb el adətilə dəfn edirlər.

Deyirlər, Hajı Namazallı Qaranın yasında qardaşı arvadı Niyar belə oxuyurmuş:

*Həyatdarın, həyatdarın,*
*Tövlədə bədoy atdarın,*
*Xanım-xatın arvatdarın,*
*Balqonuynan kimə qaldı?!*

*Hay dizdərin, hay dizdərin,*
*Çuxura endi gözdərin,*
*Zər-zibə geyən qızdarın,*
*Balqonuynan kimə qaldı?!*

*Mərcan Rzayeva anası Xanımdan eşitdiklərinə əsaslanıb fikrini belə davam etdirdi:*

El töhmətinə dözməyib Süleyman var-dövlətini satıb, baş götürüb kənddən gedir. Bir il nə öldüsündən, nə də qaldısından xəbər çıxır.

Bir gejə Süleyman, yanında da bir yoldaşı ilə kəndə gəlir. Məqsədləri Qasımı öldürmək olur. Gejə Qasımın evinin üstünə çıxıllar. Bajadan baxıb içəridə kim olduğunu öyrənmək istiyillər. Hürzad evin içində gəzinirmiş. Yoldaşı tüfəngi üzünə götürür, istiyir onu vursun. Süleyman qoymur. Deyir: «Uşaqlıqda dizinə çox baş qoyub, laylasına qulaq asmışam. Bir də deyərlər Süleymanın zoru kişiyə çatmadı, arvad öldürdü».

Gejəynən Qasımı axtarıllar. Gülüdüz kəndinin üstündə taxıl zəmisini suvaran yerdə tapıllar. Yoldaşı Qasımı vurmaq istəyəndə Süleyman qoymur.

Deyir: «Arxadan vursaq, kişilik olmaz. Üzbəüz gəlsək də bizi tanıyıb qaçajaq. Öldürə bilməyəcəyik. Bir də qız onundu. Kimə istəsə verə bilər. Buna görə də onu öldürməyə haqqımız yoxdu».

Çox ölçüb-biçdikdən sonra Qasımı hirsləndirməyi qərara alıllar. Gəlib arxı uçurub yaxınlıqda gizlənillər. Qasım gəlib çətinliklə arxı düzəldib zəmini suvarmağa gedir. Üçüncü dəfə su kəsiləndə Qasım bunun qəsdən edildiyini annıyır. Amma Süleymanın qayıtması ağlına gəlmir. Söyüş söyə-söyə arxın uçan yerini düzəltməyə gəlir. Onda Süleyman deyir: «İndi vaxt gəldi. Ana-bacımızı söyəni öldürməyə haqlıyıq». Gizdəndiyi yerdən çıxıb Qasımı vurur. Hürzadın Süleymana tikdiyi arxalığı və beş patronu da Qasımın meyidinin yanında qoyub dağlara çəkilirlər. Sabah Qasımın meyidini tapıllar. Nişanələrdən Süleymanın gəldiyini bilillər.

Bu gün də Gülüdüzün üstündəki dərəyə Qasım ölən dərə deyillər. Bunnan başqa kəndimizin yaylağında Süleymanın adıyla bağlı yerlər var. Qızılqayada Süleyman səngəri, Süleyman kahası var. Bunlar qaçaq Süleymanın adıyla bağlıdır. Soğannı yaylağında iki qaçaq qayası var. Süleyman o qayalarda da çox olmuşdur.

*Qaraqaya kənd sakini 45 yaşlı Ağakərim Əhmədovun 1985-ci ildə dedikləri:*

Ələyəzli Kəlbə Xəlilin qızları Zəhra, Sona və Xanım çox gözəl və qoçaq imişlər. Hər üçünün iri gözləri var imiş. İkisinin gözü qara, birinin gözü ala imiş. Onnar nə hökümətdən qorxurlarmış, nə də Süleymanın düşmənnərinnən. Süleymanın öldürdüyü Qasım qlava Həsənin qardaşı olsa da, Kəlbə Xəlilin qızları həmişə Süleymana gizlicə çörək, patron aparar, vəziyyətdən onu halı eliyərmişlər. Ona görə də Süleyman onları çox istəyirmiş. İslam aləmində qadının adının çəkilməsi qəbahət sayıldığından Süleyman və camahat onları Kəlbə Xəlilin Qızdarı deyə tərif edib. Bu qızların anası Tükəz Süleymanın doğmaca əmisi qızıymış. Kəlbə Xəlilin qızlarına qoşulmuş mahnı dillər əzbəriydi. Təkcə Dərələyəzdə deyil, Şərurda, Naxçıvanda da toylarda oxunardı. Onlardan yadımda qalan bunnardı:

*Ələyəzin üstü xaş-xaş,*
*Xaş-xaşı biçəllər yaş-yaş,*
*Bir cüt məmən mənə peşkəs,*
*Çəpgəni xal-xal Qaraqöz,*
*Məməndə var bal, Qaraqöz.*

*Ələyəzin cəvizdəri,*
*Kəlbə Xəlilin qızları,*
*Yarımın ala gözdəri,*
*Çəpgəni xal-xal Qaraqöz,*
*Məməndə var bal, Qaragöz.*

*Ələyəzdə Sonam təkdi,*
*Əhməd yanında köpəkdi,*
*Süleyman kəsən ipəkdi,*
*Çəpgəni xal-xal Qaragöz,*
*Məməndə var bal, Qaraqöz.*

Qaragöz ad deyil, qızları adları ilə yox, gözləri ilə adlandırırlar.

Süleyman öldükdən sonra onun dəstəsi başsız qaldı, hökümət az vaxtda onların bəzini həbs etdi, bəzini də öldürdü.

Süleyman Qarabağa gedir. Dilənçi paltarında nişanlısı olmuş Səadətgilə gedib ondan pay istəyir. Səadət gözlərindən Süleymanı tanıyır. Ərini öldürəcəklərindən qorxub hay-haray salır. Nə qədər axtarırlar, Süleymanı tapa bilmillər. O qaçıb aradan çıxır. Süleyman Qarabağlıların sürülərini yaylamağa buraxmır. Süleymanın qaçaqlığı dövründə 72 adam ölür. Süleyman çox cəld və çevik imiş. Gülləsindən kimsə yayına bilməzmiş. Quşu gözündən vurarmış. Rus qoşununu bu dağlarda çox pərən-pərən salıbmış.

Ona görə də aşıq Süleymanı:

*Çıxarıb çəhməni, geyibdi məsi,*
*Ordu pozur, top dağıdır gülləsi,*
*Dağları titrədir səsi, nərəsi,*
*Qoçaqlıqda təkdi, təkdi Süleyman,*
*Ruslara turp əkdi, əkdi Süleyman.*

Deyilənlər onu göstərir ki, Qaçaq Süleyman haqqında zəif də olsa, bir dastan varımış. Bu dastanın yaradacılarından biri, bəlkə də elə birincisi şahablı Aşıq Cəlil imiş.

Qasaq Süleymandan söz açanların tez-tez təkrarladıqları bir deyim də yaddaşıma hopub:

*Az qaçaqlıq elədi,*
*Çox qoçaqlıq elədi!*
*Şan-şöhrəti ellərdədi,*
*Qoçaqlığı dillərdədi.*

*Dərələyəzin Qovuşuq kənd sakini, el ağsaqqalı 93 il ömür sürən İbrahim Mirzəloğlunun 1980-ci ildə dedikləri:*

Qaçaq Süleymanı dastan olub-olmaması haqqında söylənilən fikirləri, rəvayətləri oxuculara çatdırmaq istəyirəm. Aşağıda deyəcəyim fikirləri mənə el ağsaqqalı, folklorun mahir bilicisi atam İbrahim Mirzəlioğlu söyləmişdir: «Qaçaq Süleyman haqqında Şaablı Aşıq Cəlil dastan yazırdı. O zaman mənim 26-27 yaşım var idi. Şahablı Aşıq Cəlil (Vedi rayonundandır) Dərələyəzin Ayısəsi kəndinə tez-tez gələrdi. Ayısəsi kəndində onun qohumları var idi. Qaçaq Süleymanın anası Gövhər Ayısəsi kəndindən idi və Qaraqaya kəndinə ərə getmişdi. Onun Şahablı Aşıq Cəlilə qohumluğu çatırdı. O, 1914-1917-ci illərdə Qaçaq Süleymanın başına gələnlərlə bağlı dastan yazmışdı. Lakin bu dastanı orda-burda gizli şəkildə oxuyardılar. Çünki Qaçaq Süleymanın nişanlısı qaçandan sonra onun üstündə 72 adam ölmüşdü. Dərələyəzdə düşmənçilik var idi. Qaçaq Süleymanın tərəfi birinin xoşuna gələndə o birinin xoşuna gəlmirdi.

Şahablı Aşıq Cəlil Ayısəsi kəndindən olan bir qızla da evlənmək istəyirmiş. Hətta Qaçaq Süleymanın xalası oğlu Pesərək və onun dostu Torpaqyeyən (hər ikisi qaçaq olublar) təkid edirmişlər ki, Cəlillə o qızın adı çıxıbdır. Aşıq Cəlil mütləq onu almalıdır.

Bir gün Aşıq Cəlil Ayısəsi kəndindən gəlib Vediyə gedirmiş. Yol Qovuşuq kəndinin içindəndir. O, mütləq buradan keçməli idi. Qovuşuq kəndində Qaçaq Süleymanın üstündə Pesərək və Torpaqyeyən tərəfindən öldürülən Hacınamazalı oğlu Qaranın qardaşı oğlu Çərkəz Qayıbulaq deyilən yerdə, dəyirmanın qabağında itləri açıb ötürür Aşıq Cəlilin üstünə. İtlər Aşıq Cəlilin şalvarını da cırır, əlindəki xurcunun içindəki əşyalar, dəftərlər yerə tökülür. Dəyirmançı özünü çatdırıb itləri qovur və Aşıq Cəlili yola salır. Sonra Aşıq Cəlil bu hadisə ilə bağlı 3 bənd qoşma da yazmışdı. (Həmin qoşmaları atam Mirzəlioğlu İbrahim mənə deyib mən də yazmışam. Lakin indi arxivimdə hara düşübsə tapa bilmirəm. Yəqin ki, bir gün tapılacaq.)»

Bəziləri deyir ki, o zaman itləri açıb Aşıq Cəlilin üstünə ötürən Çərkəz onun əşyalarını tullayıb çaya. O əşyaların içində Qaçaq Süleyman haqqında yazılanlar çox olmuşdu.

Başqa bir fərziyə də var: 1918-ci ildə ermənilər Şahablı Aşıq Cəlili dəhşətli bir şəkildə öldürmüşlər. Onun belinə qaynar simavarı bağlayıb kərmə qalağının içinə salır və diri-diri yandırırlar.

Sonra da gedib evinə od vururlar. Deyilənə görə Aşıq Cəlilin yazdıqları qoşmaları, dastanları o zaman yanıb kül olmuşdur.

*Qələmə aldı Həsən Mirzəyev, 1927-ci il təvəllüdlü, Bakı, 1980-ci il.*

*Qaçaq Süleymanın nişanlısı olan və üstündə 72 adam ölən 1959-1960-cı illərdə Bakı şəhəri 14-cü Naqornı küçəsi 14-də yaşayan Fizzənin (Səadətin) Qaçaq Süleyman haqqında Həsən Mirzəyevə dedikləri.*

1959-cu ildə Bakıda aspiranturaya qəbul olunanda kirayədə qalmaq üçün ev axtarırdım. Bakının Yuxarı dağlıq küçəsində mənə dedilər ki, bu küçədə 14№-li evdə Fizzə adlı qadının çoxlu otaqları var, o həmişə otaqlarından bir neçəsini kirayəyə verir. Ondan soruşun. Mən həyətə girib onun qapısını döydüm və kirayə qalmaq üçün ev axtardığımı dedim. Mənə cavab verdi ki, mən tələbə götürürəm. Başqa adamları götürmürəm. Sonra onlar evdən çıxmırlar. Məndən haradan gəldiyimi soruşdu, mən də yerimi dedim. Mən Dərələyəzliyəm deyəndə gözləri doldu və məni içəri dəvət etdi. Hal-əhval tutandan sonra məlum oldu ki, bu Qaçaq Süleymana nişanlı olan, sonra Şuşalı Məşəd Ələsgər tərəfindən qaçırılan Səadətdir. Hətta onun ana tərəfdən mənə uzaq qohumluğu da çatırdı. Mənə dedi ki, evim çoxdur, hansından xoşun gəlir, orada da qal. Amma mən səndən kirayə pulu almaram.

Əri rəhmətə getdikdən sonra o ikinci bir kişiyə (Abbas kişiyə) ərə getmişdi. Amma bütün Şuşalılar, o cümlədən Xan Şuşinski həmişə dəstə-dəstə gəlib onu yoxlayar və dərdindən halı olardılar. Onun Bərdə şəhərində yaşayan bacısı Abuzəndənin qızı da onunla birlikdə qalırdı. Həm oxuyur həm də xalasına qulluq edirdi.

Bir gün mən ondan bu hadisələrin necə baş verdiyini, necə sona çatdığını ondan soruşdum. O, boş vaxtlarda kövrələ-kövrələ, Qaçaq Süleymanla bağlı olan hadisələri mənə danışırdı.

*Fizzənin (Səadətin) dedikləri:*

Məni Qaçaq Süleymana nişanlayanda yaşım az idi, amma boyum iri qızlara bənzəyirdi. Həyatı yaxşı başa düşmürdüm. Amma Süleyman boylu-buxunlu, gözəl bir oğlan idi. Ona meylim də var idi. Amma anam Hürzat onu istəmirdi. Deyirdi ki, Qaraqayalılar kasıbdırlar. Süleymanın ana tərəfi də çox kasıbdı. Həm də onların çoxu qaçaqdırlar. Hökumətə qarşıdırlar. Bir gün yəqin Süleyman da onlara qoşulacaq. Bizim tərəfin adamları isə həm varlı, həm də hökumət adamlarıdır. Mən istəyirəm ki, sənin ərə getdiyin adamlar bizdən də varlı-hallı olsunlar.

Mənnən olsa sən Soyuqbulaqda olan Qarabağlıya gedəsən. Öyrənmişəm Şuşa şəhərində yaşayır. Həm var-dövlətləri var, həm də Şuşa yaxşı yerdir. Hələ səndən kiçik bacın Abuzəndəni də o tərəfə verəcəyəm. Mən o bizə iki atlı ilə gələn Ələsgəri deyirəm. Gözəl-göyçək oğlandı. Yaxşısı odur ki, ona qoşul qaç. Nişanı qaytarmaq olmaz. Süleymanın dayısı qaçaq Pesərək hamımızı qırar. Mən də anamın sözü ilə Şuşalı Ələsgərə qoşulub qaçdım.

Mən Şuşa şəhərinə gəldim. Ələsgərin Şuşada çox yaxşı şəraiti var idi. Qohum-qardaşı, dost-tanışı da həddindən artıq çox idi. Günlərim çox yaxşı keçirdi. Uşağım olmasa da mənə çox mehriban idi.

Günlərin birində Şuşada gördüm ki, bir nəfər qapını döyür. Qapını açanda gördüm ki, dilənçidir. Çörək istəyir. Çörəyi gətirib verəndə o dedi ki, yavannıq da ver və içəri girmək istədi. Üzü-gözü tüklü idi. Gözlərinə baxan kimi onu dərhal tanıdım. Bu mənim nişanlım olmuş qaçaq Süleyman idi. Mən möhkəm qışqırdım. Yanındakı adam dedi ki, qışqırma. Mən dərhal onu tanıdım. Atamın yaxın qohumu, gülüdüzlü Hacməhəmməd oğlu Bəhlul idi. O, mənim Qarabağlıya getməyimə razı deyildi. Bəhlul da vuran-tutan, yaxşı güllə atan adam idi. Süleymanı da çox istəyirdi.

Yenə qışqırdım. Qonşular töküləndə bunlar yox oldular. Ərim evə gələndə vəziyyəti görüb dedi: Biz Şuşadan getməliyik. Qaçaq Süleyman yerimizi öyrənibdi. Biz az bir müddətdə köçdük Bakıya və bu həyəti aldıq. Bu evlərin hamısı bizim idi. Sonra yavaş-yavaş bunlardan bir hissəsini satdıq. Məşəd Ələsgər burada rəhmətə getdi. Qohum-qardaşları, o cümlədən Xan (Şuşinski) tez-tez məni yoxlamağa gəlirlər.

Onu da deyim ki, biz Şuşadan bura köçəndə ərim Məşəd Ələsgər dedi ki, Qaçaq Süleymanı günahlandıra bilmərik. Onun haqqı var idi.

Amma indi Dərələyəz üçün burnumun ucu göynəyir. 45 ildi oradan çıxmışam. Amma ora getməyə də utanıram. Axı mənim üstümdə Süleyman qaçaq düşdü, hökumətə qarşı çıxdı, onu öldürdülər. Qannıçılıq düşdü. 72 adam öldü.

Mən dedim ki, bunlar hamısı keçibdi. O zaman başa düşməyən dövrünə düşübdü. Günah da ananda olubdur. Mən sənin qardaşın Mehdi və başqa qohumlarınla söhbət edərəm, onlar səni Dərələyəzə apararlar. Belə də oldu. Sonra o, hər yay ayı Dərələyəzə gedirdi.

Fizzə (Səadət) 19.. - Bakıda dünyasını dəyişdi. Məclisə rəhbərliyi Xan Şuşinski edirdi.

## FOLKLORUN ALLAHI, DƏRƏLƏYƏZİN AĞSAQQALI İBRAHİM MİRZƏLİOĞLU

Yarım əsr Dərələyəz mahalının ağsaqqalı olan İbrahim Mirzəlioğlu 1889-cu ildə həmin bölgənin Qovuşuq kəndində anadan olmuş, 93 il ömür sürmüş və 1982-ci il yanvarın 6-da Bakı şəhərində qəflətən infarktdan vəfat etmişdir. O, Azərbaycan folklorunun, Şərq ədəbiyyatının, şəriətin gözəl bilicisi, saz-söz sənətinin xiridarı, "Leyli-Məcnun"u, "Gülüstan-Büstan"i, "Şahnamə"ni əzbər bilən, Abbası, Xəstə Qasımı, Qurbanini, Valehi, Ələsgəri, Alını əzbər bilən, Nizamini və Nəsimini, Şərqin hikmətlərini yaddaşında gəzdirən, daim Vətən, yurd dərdi ilə qəlbi döyünən, ensiklopedik məlumata, güclü yaddaşa, geniş dünyagörüşə malik olan sinədəftər, şair təbiətli el ağsaqqalı olmuşdur. 1920-ci ildə Xaçbulaq yaylağında Aşıq Ələsgərlə, sonra Aşıq Ələsgərin oğlu Bəşirlə (Kəvər qalasında yatarkən), qardaşı oğlu İmanla tanış olan, Aşıq İmanı 28 gün Dərələyəzdə öz evində qonaq saxlayan, Göyçə, Borçalı, Tovuz, Kəlbəcər aşıqları ilə tez-tez məclislər keçirən, onlarla fikirlərini bölüşən İbrahim Mirzəli oğlu folklor xəzinəsi kimi tanınırdı.

O, kiçik və gənc yaşlarında təxminən 15 il ruhani təhsili almışdır. Ona dərs deyən müəllimlər, əsasən, Təbriz və Mərənd axundları, Təbrizdə ruhani təhsili almış atası Mirzəli kişi və 20 il Nəcəfdə oxumuş yaxın qohumu Axund Əli olmuşdur. Fars dilini professional tərcüməçilər səviyyəsində mənimsəmiş, ərəb, rus, erməni dillərini isə orta səviyyədə öyrənmişdir.

O, 1918-ci il erməni-müsəlman davasında Andranikin dəstələrinə qarşı vuruşurmuş.

1918-ci ildən 1921-ci ilə kimi Şəmkir rayonunda qaçqın olmuş, 1920-ci ildə Şəmkirin Alabaşlı stansiyasında Dərələyəz qaçqınlarının 9 ağsaqqalı ilə birlikdə Azərbaycanın böyük oğlu Nəriman Nərimanovu qarşılamış, qaçqınlarla bağlı, doğma yurda qayıtmaq haqqında onunla xeyli söhbətlər etmişdir. Nəriman Nərimanov bu cavan ağsaqqalın söhbətindən çox razı qalaraq demişdir: "Görürəm, çox dilavərsən, ermənilərlə bacara bilərsən".

1921-1935-ci illər arasında Dərələyəz camaatını ermənilərin şərindən, hiyləsindən, təzyiqindən qorumuş, 1935-ci ildə bir neçə kəndin kənd sovet sədri işləyərkən Ermənistan daxili işlər naziri Dülqaryan adlı şəxslə Qovuşuq kəndində sözləşmiş, onların millətçilik etdiklərini, azərbaycanlıları sıxışdırdıqlarını üzünə demiş və əlbəyaxa olmuşlar. Bu hadisədən 40 gün sonra, gecənin birində gəlib onu tutub aparmış, xalq düşməni, siyasi məhbus adı altında (onu üçlük məhkəmə etmişdir) Sibirə sürgün etmişlər.

5 il Sibirdə millətçi adı altında dustaq olmuş, 1940-cı ildə azad edilmiş, lakin Dərələyəzə qayıtmağı ona qadağan etmişlər. Odur ki, o 1940-1953-cü illər arasında, əsasən, Qarabağ, Gəncə və Naxçıvanda yaşamalı olmuşdur. 1953-

cü ildən sonra o, öz doğma kəndinə qayıtmışdır. İbrahim Mirzəlioğlu 1953-1976-cı illərdə öz doğma kəndində,1976-cı ildən 1982-ci ilə qədər isə Bakı şəhərində yaşamış, 1982-ci il yanvarın 6-da Bakıda dünyasını dəyişmişdir. Şərur-Dərələyəz eli, Naxçıvan, Qarabağ, Gəncə, Göyçə, Vedi, Zəngibasar, İrəvan, Laçın, Kəlbəcər camaatı dəstə-dəstə axışıb onun dəfninə gəlmişlər.

İbrahim Mirzəlioğluna həsr olunmuş poema və şerlərdən bəzi sətirləri oxucuların nəzərinə çatdırırıq.

Əlli il ağsaqqal olub,
Bu mahala Mirzəloğlu.
Hayları lərzəyə salıb,
Pür kamallı, Mirzəloğlu.

El yolunda qoyubdu can,
Sülh yaradıb, tökməyib qan,
At belində sürüb dövran,
Dağ qartalı Mirzəloğlu.

Zirvə deyib dağı gəzib,
Bağban olub, bağı gəzib,
Öldürməyə yağı gəzib,
Sinə dağı Mirzəloğlu.

Ellər verib qiymətini,
Candan sevib millətini,
Tanrı verib fitrətini,
Dərin zəka, Mirzəloğlu.

Zindanlara atılsa da,
Qulac qolu çatılsa da,
Əyilməyib bir an yada,
Deyib sözün Mirzəloğlu.

Hara getsə Mirzəloğlu,
Dost-tanışı arayardı.
Harda olsa Mirzəloğlu,
Dərdə-sərə yarayardı.

Harda bir qan düşdü, qada gəldisə,
Orda loğman oldu Mirzəlioğlu,
Naşı neştər vurdu, yara qanadı,
Dönüb dərman oldu Mirzəlioğlu.

Soyunu yaşadır o, öz adında,
Təmizlik, paklıq var əsil-zatında,
Dostun salamını yel qanadında,
Dostuna yetirdi Mirzəlioğlu.

Qapılar açıldı onun üzünə,
EL yığıldı ocağına, közünə,
Bil, haram qatmadı, çörək-duzuna,
Elə arxa oldu Mirzəlioğlu.

Məclisdə oturdu yuxarı başda,
Ağsaqqal dedilər ən cavan yaşda,
Əməli gül açdı torpaqda, daşda,
Elə bağban oldu Mirzəlioğlu.

Göy atın belində gəzdi mahalı,
Daşdan od qopardı atının nalı,
Başına topladı cavanı, çalı,
Oddan od götürdü Mirzəlioğlu.

Sevinci, kədəri el ilə böldü,
El ilə ağladı, el ilə güldü,
Qəlblərdən dərd-qəmi, ələmi sildi,
Elə Loğman oldu Mirzəlioğlu.

Qurani-Kərimi təbliğ eylərdi,
Hər bir surəsini əzbər söylərdi,
Sözün qüdrətilə karvan əylərdi,
Şirin söhbətliydi Mirzəlioğlu.

Şərqin şeriyyəti dostu, həyanı,
Nizami, Fizuli, Sədi, Xəqani.
Əzbərdən deyərdi o "Gülüstan"ı,
Hikmət sahibiydi Mirzəlioğlu.

Nəsimi, Firdovsi dilində əzbər,
Şərqin tarixindən verərdi xəbər,
Dastanlar söylərdi o, sinədəftər,
Böyük ümman idi Mirzəlioğlu.

Ustad meydanında usta dinərdi,
Sazın hikmətinə baş endirərdi,
Haqqa sığınardı, haqqa dönərdi,
Sözün sərrafıydı Mirzəlioğlu.

*Səadət Buta*

## AĞLADI

İbrahim Dünyadan köçüb gedəndə,
Vətənim çırpındı, ellər ağladı,
Mirzəli oğlunun gəzdiyi dağlar,
Dumana büründü, sellər ağladı.

Eşidənlər hayıf dedi, dilləndi,
"Misri" nalə çəkdi, zilə zilləndi,
Gəraylılar kirpiklərdən ələndi,
"Yanıq Kərəmi"də tellər ağladı.

Amansız ölümün yoxdur imanı,
Vədə yetişəndə vermir amanı,
Vers dağından sordum İbrahim hanı,
Nərgizlər titrədi, çöllər ağladı.

El yaman ayrıldı ağsaqqalından,
Hayları titrədən dağ qartalından,
Sordum İbrahimi Arpa çayından,
Ləpələr çırpındı, göllər ağladı.

*Aşıq Mehdi,*
*12 yanvar, 1982. Bakı şəhəri.*

* * *

Dilində Fizuli, Sədi, Ələsgər,
Elin ağsaqqalı bir sinədəftər,
Bu məğrur İbrahim Mirzəli oğlu,
Qarışdı torpağa yer oldu Gövhər.

*Məmməd Aslan,*
*6 yanvar, Bakı, 1982.*

## AY HƏSƏN

Doqquz aydır Sizdən məktub almırdım,
Doymuş idim şirin cana, ay Həsən!
Sibir zindanında, qəm diyarında,
Dönmüş idi bağrım qana, ay Həsən!

İki məktub Sizdən, biri Amildən,
İksi Süleymandan, biri Bəbirdən,
Altı məktub altısı da bir yerdən,
Gətdilər, verdilər mənə, ay Həsən!

Əziz oldu bu ay mənə hər aydan,
İyirmi yeddi gün keçmişdi maydan,
Aldım məktubunu fərz oldu qurban,
Gərək çıxam müsəllaya, ay Həsən!

Gəncənin, Bərdənin, həm Qarabağın,
Bəbirin məkanın verən Yujlağın,
Yaxşı-yaman hər qəribə əhvalın,
Məktublar söylədi mənə, ay Həsən!

Vətən torpağından gəlib ərməğan,
Tel tükü, bənövşə dərdimə dərman,
Nərgiz nalə çəkir gözündə leysan,
Ərzi-hal söyləyir mənə, ay Həsən!

Fikr eləmə atan zindanda qalmaz,
Elin qisasın düşməndə qoymaz,
Mirzəloğlu heç vaxt övladdan doymaz,
Qayıdıb gələrəm qorxma, ay Həsən!

*İbrahim Mirzəli oğlu,*
*Sibir, 28 may 1938.*

## BƏNÖVŞƏ

Doğma torpağımdan, doğma elimdən,
Ərməğan gəlmisən mənə, bənövşə.
Övlad həsrətimə, Vətən dərdimə,
Sən dərman gəlmisən mənə, bənövşə!

Bənövşə dillənmir, yalvar nərgizə,
Tel tükü göndərib nişanə bizə,
Allah ömür versin o bir cüt qıza,
Göndəribdi səni mənə, bənövşə!

Xınalı kəkliklər daşda səkirmi?
Dağ erkəci sürüsünü çəkirmi?
Şeyda bülbül bağ-baxçada ötürmü?
Bircə-bircə söylə mənə, bənövşə!

*İbrahim Mirzəli oğlu,*
*Sibir, 28 may 1938.*

## QONAQ GƏL İLYAS

Vətən Dərələyəz səni gözləyir,
Öz doğma yurduna qonaq gəl, İlyas!
Lalə-nərgiz, çöl-çəməni bəzəyir,
Bu cənnət məkana qonaq gəl, İlyas!

Vətənə gəl, getmə bizdən uzağa,
Məcnun kimi bizi salma sorağa,
Həsəni də gətir Yastıbulağa,
El-oba istəyir, qonaq gəl, İlyas!

Yamyaşıldır, gül-çiçəkdir yaylaqlar,
Göz oxşayır, at sürdüyün oylaqlar,
Suyu keybir, şır-şır axan bulaqlar,
Yolunu gözləyir, qonaq gəl, İlyas!

Sən gələndə elə yayılır ətir,
Bil ki, həsrətini vilayət çəkir,
Gələndə özünlə qənd-çayın gətir,
Bu minvalla bizə qonaq gəl, İlyas!

Demə, Dərələyəz uzaq səfərdi,
Vəkilovlar adı eldə əzbərdi,
Fikirləşmə, qonaq neçə nəfərdi,
Bütün nəsillikcə qonaq gəl, İlyas!

Həmid qardaşımdır, raya qızımdır,
Sultan ümidimdir, iki gözümdür,
Mirzəloğlu deyir axır sözümdür,
Onlarla bərabər qonaq gəl, İlyas!

*İbrahim Mirzəli oğlu,*
*15 aprel 1964.*

## ANAM NAHADIN (NAHİDİN) ATAM SİYASI MƏHBUS OLARKƏN SİBİRƏ GÖNDƏRDİYİ BAYATILAR

Dərələyəz bahardı,
Viranə Sibir qardı,
3 ildi zindandasan
Lalə rəngim saraldı.

Qəbul eylə nərgizi,
Bənövşəni, nərgizi,
Tel tükü qızlarındı,
Baxıb xatırla bizi.

Ağaydı atam Əmir,
İndi dərdnən qəm əmir,
Sən tutulub gedəndən,
Çoxları bizə gəlmir.

Anam Nigar ağlayır,
Ürəkləri dağlayır,
Uşaqların nərgizdən
Sənə dəstə bağlayır.

Atan gizlin ağlayır,
Anan qara bağlayır,
Onların ah-fəğanı,
Ürəyimi dağlayır.

Elin səni gözləyir,
Məktubunu izləyir,
Həsənin[1] toy-düyündə,
Gözü səni gəzir.

## *EL AĞSAQQALINA AŞIQ ƏLƏSGƏRİN OĞLU TALIBIN GÖNDƏRTDİYİ MƏKTUB*

Saz-söz sənətinin xiridarı olan İbrahim Mirzəlioğlu Aşıq Ələsgər yaradıcılığının vurğunu idi. Aşıq Ələsgərin oğlu Bəşirlə, qardaşı oğlu İmanla və Ələsgərin şagirdi Aşıq Əsədlə yaxından tanış olan Mirzəlioğlu İbrahim Gülüdüzlü Camaloğlu Firudunla Aşıq Ələsgər ocağına tez-tez gedərmiş.

1976-cı ilin yazında mən Dərələyəzə getmişdim. Atamı müalicə üçün Bakıya gətirirdim. Elə bu vaxt bizə poçtalyon bir məktub gətirdi. Atam xəstə-xəstə həmin məktuba cavab yazdı (ərəb əlifbası ilə) və həmin məktuba Ələsgərin bəzi qoşmalarını da yazdı. Biz maşına minəndə tapşırdı ki, bu konverti həmin adresə göndərin. Sonra onun göndərdiyi məktubun taleyindən xəbərimiz olmadı.

İbrahimə göndərilmiş məktubu olduğu kimi verirəm.

*Арм. ССР. Ехегнадзорский р-н, село Говушуг,*
*Ибрагиму (Ашыг Әләскәрпәрәст)*
*378812, Арм. ССР, Варденисский р-н,*
*село Зеркенд,*
*от Самедова Габиба Юсиф оглы.*

---

1. Mirzəloğlu toylara gedəndə həmişə oğlu Həsəni özü ilə apararmış. Ona işarədir.

*Hörmətli İbrahim əmi*

*Səmimi salamlarımı qəbul edin. Sizin həmyerliniz, Ələyəz kənd sakini Allahquluyev Cəfərqulu Aşıq Ələsgərin nəvəsi İslam müəllimə yazdığı məktubda qeyd edir ki, Aşıq Ələsgərin şerlərindən mətbuatda dərc olunmayanlardan sizdə var. Bu xəbər bizim hamımızı hədsiz dərəcədə sevindirdi. Biz Aşıq Ələsgər irsinin qorunub saxlanmasında əməyini əsirgəməyən hər kəsə həmişə minnətdarıq. Qeyd etməliyəm ki, mətbuatda dərc olunan şerlər heç də Aşıq Ələsgər şerlərinin əksəriyyəti deyil. Onun şerlərinin toplanması işi üçün xüsusi ekspedisiyalar lazımdır. Biz belə qərara gəlmişik ki, İslam müəllim, Haqverdi (İslamın kiçik qardaşı) və mən sizin görüşünüzə gələk. Tanışlıq verim ki, mən də Aşıq Ələsgərin ana tərəfdən qohumlarından biri olmaqla onun ən çox pərəstişkarlarındanam.*

*Hələlik məktəb işləri ilə əlaqədar olaraq görüşə tez gələ bilmədik. Bu işi tətil günlərində yerinə yetirməyi nəzərdə tutmuşuq. İndi sizdən bir xahişimiz var ki, sizdə olan sözlərin kimin vasitəsi ilə və yaxud nə zamandan yazılması haqda bizə qısa məlumat verəsiniz.*

*Aşıq Ələsgərin oğlu Aşıq Talıb bu xeyir xəbər üçün bütün Ələsgər nəsli adından sizə dərin təşəkkürlərini bildirir. İndi onun 99 yaşı olmasına baxmayaraq, özünü yaxşı hiss edir.*

*Heç şübhəsiz ki, sizin bu xeyirxah işiniz mətbuat səhifələrində geniş qeyd olunacaqdır.*

*Hörmətli İbrahim əmi, xahiş edirəm məktubu alarkən mənə cavab göndərəsiniz. Cəfərqulu sizin kiminiz olduğunu bilmirik, amma onun bu şad xəbəri üçün hamımız ona minnətdarıq.*

*Bütün ailənizə və istəyənlərinizə salamlarımız var.*

*Səmimiyyətlə əlinizi sıxıram.*

*Salamlarla Həbib müəllim.*

*12 fevral 1976-cı il.*

*Ünvanım: Vardenis (Basarkeçər) r-nun Zərkəndi.*

El ağsaqqalı İbrahim Mirzəli oğlunun həyat yolu ilə bağlı faktlar saysız-hesabsızdır. Onlardan burada bir neçəsini demək Dərələyəzin gələcək tədqiqatçıları üçün faydalıdır.

## 30-u 9 RƏQƏMI ILƏ YARILA

1970-ci il avqustun axırlarında Naxçıvanın Xalxal kənd müəllimi Təmoyev İsmayıl oğlu Qaçayla birlikdə Dərələyəzdən (Gədikvəng kəndindən) Naxçıvana gedərkən yolüstü Qovuşuqlu Mirzəlioğlu İbrahimin yanına dönüb onun Nax-

çıvana gedib-getmədiyini soruşur. İbrahim kişi cavab verib deyir ki, biz də bu gün gedirik, nəvə toyuna gecikmək olmaz, bir az gözləyin, bərabər gedək.

İbrahim kişi cavan oğlanın hansı ixtisas sahibi olduğunu soruşur. İsmayıl müəllim çay içə-içə bunun (Qaçayın) riyaziyyatçı olduğunu deyir və onu tərifləyir. Mirzəlioğlu deyir ki, hələ qabaqcadan çox tərifləmə. Ona bir misal deyəcəyəm, onu aça bilsə, doğurdan da tərifə layiqdir. Amma indi yol üstəyəm, Naxçıvanda deyərəm. Qaçay təkid edir ki, indi deyin, cavabını Xalxalda deyərəm. İbrahim kişi misalı deyir:

O, öz söhbətinə belə başlayır: "Rəvayətə görə qədim zamanlarda bir müsəlman ölkəsində otuz nəfər heyəti olan bir gəmi müəyyən müddət üçün dəniz səyahətinə çıxır. Gəminin bosmanı müsəlman olduğundan gəmidəki heyətin 15 nəfər müsəlman, 15 nəfər ermənidən ibarət olduğunu əvvəlcədən bilirmiş. Bir müddət keçdikdən sonra dənizdə çox güclü bir fırtına başlayır. Bosman cəld hesablama aparır ki, bu gəminin heyəti və heyət üçün götürülmüş ərzağın və adamların yarısı dənizə tökülməlidir. Bosman dəniz heyətini bir düz xətt boyunca sıraya düzür və deyir ki, mən elə bir rəqəm deyəcəyəm ki, başdan başlayaraq bu adamları saydıqca həmin rəqəm kimin bəxtinə düşdüsə onu dənizə tullamaq lazımdır. Hamı bosmanın göstərişi ilə onun dediyi kimi düz xətt boyunca düzülür. Bosman bu rəqəmin "doqquz" olduğunu elan edir. Yəni 1-dən 9-a qədər sayırsan. 9 rəqəmi kimin üstünə düşürsə o dənizə atılmalıdır. Özü də buradakı 30 adam qarışıq şəkildə durmalı, bir dairənin, bir çevrənin üstündə yan-yana düzülməlidir. Gəmi kapitanı bu əməliyyatı apardıqdan sonra adamları saymağa başlayır. Ən sonuncu əsgər "yəni on beşinci əsgər" suya atıldıqdan sonra məlum olur ki, suya atılanların hamısı erməni imiş".

Sual: "Bosman onları necə düzmüşdür? Necə olmuşdur ki, bir nəfər də olsun dost dənizə atılmamışdır?"

Naxçıvanda toy qurtaran gecə İsmayıl müəllim İbrahim kişi üçün öz evində məclis düzəldir. Toya gələn və burada olan ziyalıları onun başına yığır. İbrahim kişi şirin söhbətləri ilə hamını heyran edir. Məclisdə İbrahimin Qaçaya verdiyi sualdan da söhbət düşür. Başqa riyaziyyatçılar, o cümlədən İsmayıl müəllimin böyük oğlu riyaziyyatçı Çapay Təmoyev də misalın həllinə qoşulur. Lakin bütün gecəni çalışsalar da misalı həll edə bilmirlər. Yalnız Qaçay müəllim inadından dönmür. Səhərə yaxın misalın həllini tapır.

Müsəlman: ○○○

Ermeni: ●●●



İbrahim kişi bu məsələnin həllini həmişəlik yadda saxlamaq üçün ona həsr olunan şeri deyir. Şerdən aydın olur ki, qara rənglərə işarə düşmənlərə işarədir.

*Dörd qönçə gülün həmdəmi beş zağ idi gördüm,*
*İki gül bir zağçaya müştaq idi gördüm,*
*Üç türkü pəri bir həbəşə qul,*
*Bir üzdə iki xalı giriftar idi gördüm.*
*İki sənəm, üç səngi siyah, bir məhitaban,*
*İki gecə, iki də gündüz*
*Gör nə əcəb xab idi gördüm.*

Bundan sonra məclisdəkilər həm İbrahim kişiyə, həm də Qaçaya əhsən deyirlər. İbrahim kişi əlavə edir ki, Mən Dərələyəzdə olan gənclərə, cavanlara bu misalı öyrədirəm. Siz də Naxçıvanda öyrədin. Qoy onlar belə məqamlarda düşmənlərimizə qələbə çalsınlar.

Atam bu misalı cavanlara verəndə ona aid izahatı bəzən bədii şəkildə deyərdi:

*Otuz nəfər hamısı,*
*Qalmalıdı yarısı.*
*Otuzu böl yarıya,*
*Yarısın at dəryaya.*

*Düz cərgiyə hamını,*
*Sən itirmə sayını.*
*Doqquz-doqquz say götür,*
*Onu dənizə ötür.*

*Söyləyəni İbrahim Mirzəlioğlu (1889-1982). Qələmə aldı oğlu Həsən Mirzəyev. Dərələyəz, 1957, Qovuşuq kəndi.*

## BORÇALI AŞIQLARININ DƏRƏLƏYƏZ SƏFƏRİ VƏ MİRZƏLOĞLU İBRAHİMLƏ SÖHBƏTLƏRİ

Aşıq məskəni kimi tanınan, Aşıq Cəlil, Aşıq Qəhrəman, Aşıq Paşa, Aşıq Fətulla, Aşıq Məhəmməd, Aşıq Mirzalı, Aşıq Bəhman kimi ustad aşıqlar, Aşıq Mehdi, Aşıq Rzaqulu kimi el şairləri yetirən Dərələyəz mahalında saza-sözə, aşıq sənətinə xüsusi həvəs və hörmət olmuşdur. Elə buna görədir ki, Ağ Aşıq (Aşıq Allahverdi), Alı və Ələsgər kimi Dədə aşıqlar, Şahablı Cəlil (Vedi), Növrəs İman, Aşıq Musa (Göyçəli), Aşıq Əsəd, Aşıq Bəhmən (Göyçəli), Aşıq Hüseyn (Şəmkirli), Aşıq Mirzə (Tovuzlu), Aşıq Hüseyn Saraclı, Aşıq Əmrah Gülməmmədov, Aşıq Əhməd Sadaxlı, Aşıq Hacı (Göyçəli), Aşıq Ziyad (Göyçəli Aşıq Əsədin şagirdi), Aşıq Mehdi (Göyçəli, Qannılı), Aşıq Hüseyn (Göyçəli, Məzrə kəndi), Cilli Aşıq Müseyib və bu kimi bir çox görkəmli aşıqlar, saz-söz ustadları vaxtaşırı Dərələyəzə gəlmiş, burada aşıqlarla, el şairləri ilə, aqillərlə, din xadimləri ilə saatlarla, günlərlə söhbətlər aparmış, sual verib cavab almış, sonra da məclis qurub dastan söyləmişlər. Hətta çox zaman bu aşıqlar Dərə-

ləyəzdəki toy məclislərini də aparmışlar. Məs: Mənim nənəm Nigarın (anamın anası) və babam Əmirin toyunu Aşıq Ələsgər aparmış, üç gün çalıb çağırmışdır.

Dastan gecələrində camaat həmişə aşıqlardan xahiş edərdilər ki, onlar dastanda işlənən qoşma, gəraylı, təcnis, qıfılbəndlərin bütün variantlarını desinlər. Burada aşıqla məclisə yığışanlar arasında sanki yarış gedərdi. Hətta bəzən söz aşığın yadından çıxanda yerdən zarafatla onu aşığın yadına salardılar. Bəzi aşıq məclislərində kişilərlə yanaşı, qadınlar və uşaqlar da oturardı. Dərələyəzdə çox az-az adam tapılardı ki, o qoşma və dastan bilməsin.

Dərələyəzdə belə bir adət mövcud idi ki, kənar yerdən aşıq gələndə o, əvvəlcə el ağsaqqalının və ya kənd ağsaqqalının yanına gedər, onunla bir qədər söbət edər, onun çayını içər, çörəyini yeyər, sonra da çalıb-oxumaq üçün ondan icazə istəyərdi. Bunlardan biri də İbrahim Mirzəlioğludur.

Yuxarıda adını çəkdiyimiz aşıqların bir çoxu el ağsaqqalı İbrahim Mirzəlioğlunun qonağı olarkən, onun şirin söhbətlərinə qulaq asmış, Şərq tarixi, klassik şer, din, şəriət, müqəddəs kitablar, peyğəmbərlər, imamlar, Nizami, Füzuli, Sədi, Firdovsi, Nəsimi haqqında onun dediklərini diqqətlə dinləmişlər. Xəstə Qasım, Qurbani, Abbas Tufarqanlı, Valeh, Alı və Ələsgərin işlətdiyi ərəb-fars sözlərini təhlil edərkən, onların dinlə bağlı mətbuatda çap olunmayan qıfılbəndləri, qoşmaları haqqında məlumat verərkən ona heyranlıqla qulaq asmışlar.

Belə bir faktı da qeyd edim ki, Aşıq Ələsgər irsini araşdıranlar, tədqiq edənlər çox vaxt Dərələyəzdəki sinədəftərlərə də müraciət etmişlər. Məs: 1976-cı ildə Göyçənin Zər kənd sakini Səmədov Həbib Yusif oğlu Mirzəlioğluna məktub yazıb Ələsgərin çap olunmayan qoşmalarını ondan istəmişdir (Məktub Həsən Mirzəyevin «Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz» adlı kitabında verilmişdir. Bax: Bakı, 1997, səh. 309-310).

Mən yalnız son dövrlərdə Dərələyəzə gedib atam Mirzəlioğlu İbrahimin qonağı olan iki aşığın söylədiyi fikri deməklə kifayətlənəcəyəm. Ona görə son dövrdə misal verirəm ki, həmin aşıqlardan indi biri sağdır, maraqlananlar soruşa bilərlər.

1. Təxminən 17 il bundan öncə, Azərbaycan Dövlət Pedaqoji Universitetində prof. Mürsəl Həkimov Gürcüstan aşıqları ilə tələbələrin görüşünü təşkil etmişdi. Gürcüstandan Aşıq Məhəmməd və Aşıq Əhməd Sadaxlı da bu görüşdə iştirak edirdi. Görüşdən əvvəl yığışdığımız otaqda aşıq sənətinə və saz havalarına aid xeyli söhbət oldu. Aşıq Əhməd mənim harada doğulduğumu soruşdu. Mən Dərələyəzdə doğulduğumu dedim. Aşıq Əhməd dedi ki, hə sizin camaat aşığı sevir və bu sənəti yaxşı başa düşür. Üzünü alimlərə tutub dedi ki, mən ustadım Aşıq Hüseyn Saraclı ilə Dərələyəzə getmişdim. Biz ora çalıb-oxumaq üçün getməmişdik. Orada aşıq sənətini, qədim saz havalarını, Abbas və Gülgəz dastanının bütün variantlarını, aşıqların şəriətlə, dinlə bağlı dedikləri qoşmaları, müəmmaları dərindən bilən İbrahim adlı kişiyə qonaq getmişdik.

İki gün camaat nə qədər xahiş etdisə də ustadım Hüseyn Saraclı oxumadı. Dedi ki, mən bu kişinin söhbətinə qulaq asmağa, ondan bəzi şeyləri öyrənməyə

gəlmişəm. Mən iki gündür ona qulaq asıram, amma hələ də söhbətindən doymamışam. Ağzından ləl tökülür, mən də onları bir-bir yığıb öz xəzinəmə tökürəm ki, bərk gündə gərəyim olar. İndi mən bu ləli qoyub sizin qəpik-quruşunuzun dalınca getməliyəmmi? Xeyr, qardaş, bizə bu kişinin söhbəti, hikməti sərf eləyir. Bu zaman İbrahim kişi üzünü Hüseyn Saraclıya tutub dedi:

Ay Hüseyn, yaxşısı budur ki, oxuyun, söhbətimizi sonra davam etdirərik. Belə də oldu. Məclisimiz çox şən keçdi. Amma onu deyim ki, «aşıq sənətinə dərindən bələb olmayan sənətkar Dərələyəzdə baş çıxara bilməz, dərhal xoruzunu qoltuğuna verərlər». Dərələyəz çamaatı böyüklü-kiçikli sinədəftərdir. Xüsusən Mirzəlioğlu İbrahim. Onun söhbətlərindən doymaq olmurdu. Hər bir müəmmanı təhlil edəndə onun kökünə gedib çıxırdı.

Aşıq Əhməd belə danışdıqca Mürsəl Həkimov gülürdü. Aşıq az qalmışdı pərt olsun. Mürsəl müəllim gülə-gülə dedi ki, aşıq, sizi sorğu-suala tutan bu Həsən müəllim həmin kişinin oğludur.

Aşıqlar - Məhəmməd və Aşıq Əhməd ayağa qalxıb mənə yenidən əl verdilər. Əhməd dedi ki, o kişi Allah vergisidir.

2. 16.03.1998-ci ildə Akademiyanın Akt zalında Aşıq Ələsgərin 175 illik yubileyi keçirilirdi. Mən, şair Zəki İslam, dos. Rəhim Əliyev, prof. Mürsəl Həkimov və "Sarıtel" verlişinin aparıcısı Elxan Məmmədli (Borçalı) yanaşı oturmuşduq. Aşıq Əhməd Sadaxlı da burada idi. Üzünü bu adamlara tutub dedi: Mən çox yerlər gəzmiş və çox məclislər yola salmışam. Aşıq sənətini bu Həsən müəllimin atası İbrahim kişi kimi dərindən bilən ikinci adama rast gəlməmişəm. 1966-cı ilin iyun ayında mən və Aşıq Hüseyn Saraclı onun sorağı ilə Gürcüstandan Dərələyəzə getdik. Sonra da 1967-ci ilin mayında Hüseyn Saraclı ilə Əmrah Gülməmmədov onun yanına getdilər. Həm 1966, həm də 1967-ci ildə onun qonağı olanda, biz iki gün başqa məclislərə getmədik. Aşıq ədəbiyyatının dərinliklərini, xüsusən "Abbas və Gülgəz", "Qurbani", "Valeh və Zərniyar" dastanlarındakı dini məsələləri, qədim variantları, qıfılbəndləri öyrənmək məqsədilə onun yanında oturduq. Onun dediyi qoşmalara, müəmmalara qulaq asdıq. Qurbaninin "Yekayek" divanisini dedi və onu elə təhlil etdi ki, biz ona heyran qaldıq. O, aşıq poeziyasında işlənən ərəb-fars sözlərinin mənalarını açıqladı. Bəzi saz havalarının qədim adlarını dedi. Biz ondan çox şey öyrəndik. Təəssüf ki, belə ensiklopedik məlumata malik olan adamı ermənilər həmişə incitmiş, çox vaxt onu doğma yurdunda yaşamağa qoymamışlar.

*Həsən Mirzəyev (Həsən Mirzə).*
*Bakı, 2001-ci il.*

## «HAMISI SİNƏDƏFTƏRDİR. ADAMIN PİŞİYİNİ AĞACA DIRMAŞDIRIRLAR»

Bir neçə il bundan öncə, Bakının Koradil kəndində Qudam Rəhim müəllimin bağ evində aşığı sevən bir neçə adamla Göyçəli Aşıq Hacını və Aşıq Zülfiyyəni oxudurduq. İki yaşlı nəvəm Rüfət də qucağımda idi. Oynaq saz havaları çalınanda onu oynadırdım. Uşaq tez-tez Aşıq Hacının sazını tutmaq istəyirdi. Aşıq Hacı özünəməxsus yumorla dedi ki, ay camaat, gör iş nə yerdədir ki, körpə uşaq da sazımı əlimdən alır. Mən də yumorla cavab verib dedim ki, nəvə ala bilmədi, amma babası sazını əlindən alacaqdır. Sənə bir neçə qıfılbənd deyəcəyəm, aça bilməsən, nəvəmə saz çalmaq öyrədəcəksən. Razılaşdıq.

Mən Valehlə Zərniyarın bu günə qədər mətbuatda çap olunmamış və atamdan mənə yadigar qalmış 10 bənd qıfılbəndini dedim. Bundan səs çıxmayanda 5 bəndin açmasını da dedim. Aşıq Hacı bir qədər fikrə getdikdən sonra dedi ki, "Bu qıfılbəndi mən Dərələyəzli Mirzəlioğlu İbrahimdən yazmışdım, lakin elə orda da həmin qıfılbəndi itirdiyim üçün əzbərləyə bilmədim. Biz Qovuşuqda iki gün onun qonağı olduq. İki qədim saz havasını dodağında çalıb bizə öyrətdi. Çox savadlı adam idi. Onunla hər aşıq danışa bilmirdi. Onun sinəsi söz xəzinəsidir. İki oğlu var idi. İkisinin də başı ülgüclə qırxılmışdı, başları ağ kələm kimi ağarırdı. Bir oğlu da Bakıda idi, biz onu görmədik.

Amma Dərələyəzdə başıma gələn bir əhvalatı heç unuda bilmirəm. Qovuşuq kəndində şair təbiətli Qarahəsən adlı bir hesabdar mənim kimi yumor sahibini doladı. Əhvalat belə olubdu: Yayın axır ayı idi. Balabançım ilə Dərələyəzə gedirdik. Göyçədə olduğu kimi, Dərələyəzdə də aşıq sənətinə böyük məhəbbət, diqqət və qayğı vardır. Dərələyəz də Göyçə kimi xeyli ustad aşıq yetirmişdir.

Bizim oturduğumuz maşın Selim yolu ilə birbaşa Dərələyəzə gəlirdi. Hava bir qədər isti olduğu üçün maşın Dərələyəzin aşağı kəndlərində dayanmadı. Qovuşuq kəndinin qırağında "Otaybulaq" adlanan bulağın üstündə əyləndi. Başqa sərnişinlər kimi biz də maşından düşüb əl-üzümüzü yuduq və sərin sudan içib dincəldik. Sonra da balabançı ilə qərara gəldik ki, bir neçə gün bu kənddə qalıb oxuyaq.

Mən bu zaman bulağa su içməyə gələnlərin birindən soruşdum: bilirsiniz bu kənddə aşıqpərəst, aşıqsevən adamlar kimlərdir? O dərhal cavab verdi ki, elə biri bizə tərəf gələn hesabdar, şair Qarahəsən. Həmin adam bulağa çatanda bizə salam verdi, xoşgəldin dedi, sonra da su içib getmək istərkən mən soruşdum: deyirlər aşıqsevənsən, doğrudurmu?

- Doğrudur, amma Həşim kişi kimi aşıqpərəst ikinci bir adam yoxdur. Onun evi də çox genişdir. Məclisə yığılan adamların hamısını tutur. Məsləhətdir ki, qabaqca ora baş vurasınız. Odur ey yolun üstündəki ev onundur. Kimdən soruşsanız deyər: "Həşimtrest nol doqquz".

Biz həmin deyilən küçəyə tərəf yollandıq. Yolda qarşımıza çıxan bir adamdan soruşdum: deyə bilərsənmi "Həşimtrest nol doqquz" hardadır? O, möhkəm güldü və mənə cavab verməyib keçdi. Bundan sonra yolun üstündə ağac sulayan bir kişiyə yanaşıb həmin sualı verdim. Kişi bərk əsəbləşib dedi: bu adresi sizə o pyanska verdimi? Bir az bundan qabaq buradan keçdi, ayaq üstə dura bilmirdi, araq qoxusu verirdi. Mən də ona ağzıma gələni dedim. Hər gün belədir. Aşıqlar gərək belə adamlara inanmasın. Bu sözləri deyəndən sonra əlindəki beli yerə atıb bizə əl verdi, xoş gəldin dedi, sonra da evə dəvət etdi. Evə çatan kimi qoyun kəsib yaxşı bir süfrə açdı.

Mən yaman pərt olmuşdum, özümə gələ bilmirdim. Həşim kişi bunu hiss edib dedi: Sən belə adamlara çox fikir vermə, ağsaqqala deyərik onu tənbeh edər. Durun gedək İbrahim kişinin yanına. Bizdə qayda belədir ki, kəndə gələn aşıq əvvəlcə ağsaqqalın yanına getməli və oxumaq üçün ondan icazə almalıdır.

Durub ağsaqqalın evinə getdik. O bu əhvalatı biləndən sonra dedi: siz daha heç hara gedən deyilsiniz, mənim qonağım olacaqsınız. Belə də oldu. İki gün onun qonağı olduq. Həmin Qarahəsən də gəlib zarafat edə-edə bizdən üzr istədi, 2-3 gün də kənd camaatı üçün oxuduq. Hamısı sinədəftərdir. **Adamın pişiyini ağaca dırmaşdırırlar.** Lakin neçə il keçməsinə baxmayaraq indi də o əhvalatı unuda bilmirəm. Kefli adamın çox ciddi görkəmlə məni doladığı yadımdan çıxmır.

"Mən ayağa qalxıb dedim ki, o kişidən öyrəndiyin havanı çalsan sazını almayacağam. Onun həmin Bakıdakı oğlu da mənəm. Boynumu qucaqladı və kişinin öldüyünü eşidəndə gözləri doldu. Bu anda Zülfiyyə Qaraçı üstündə həzin-həzin oxumağa başladı. Mən Valehlə Zərniyarın aşağıda yazdığım qıfılbəndlərini Aşıq Hacıya verdim ki, "Valeh və Zərniyar" dastanını danışanda həmişə atamın xatirəsini yad etsin. Bu işi yerinə yetirmək qalıb onun öz vicdanına.

### *QIFILBƏND*
### *(Valehlə Zərniyarın deyişməsi)*

*Zərniyar*

O necə şəhərdir on iki bazar?
Qırx səkkiz məhəllə, üç küçəsi var.
Üç yüz altmış altı hücrəsindədir[1],
Altı min yüz iyirmi min həm xacəsi var.

*Zərniyar*

O necə şəhərdir on beş çırağı?
Doqquz bağbanı var, on iki bağı,
Müttəsil pərgardır onun otağı,
Qapısın açanın nə ixlası var?

*Valeh*

Bir ilin içində on iki aydır,
Qırx səkkiz həftəsi, üç bayramı var,
Üç yüz altmış altı gün hesabıdır,
Altı min yüz iyirmi vaxt namazı var.

*Valeh*

Suliddin, Firuddin on beşdir hamı,
Doqquz yol oğludur on iki imamı,
Müttəsil pərgardır cənnəti, damu,
Möminin behiştdə çox ixlası var.

--------------------

1. Hücrəsindədir - içindədir, taxcasındadır.

*Zərniyar*
Altı min yüz iyirmi onun dükanı,
On yeddi mənzildir yarın məkanı,
Necə pəhləvandır, yaxlayan onu?
Tap görüm sözümün nə mənası var?

*Valeh*
Altı min, altı yüz, altmış altıdı ayə,
On dörd səcdə tapar, onda hidayə,
Səkkiz min, altı yüz, qırx dörd sühayə,
Onu yalqız yapanın bir Allahı var.

*Valeh*
Altı min yüz iyirmi namazdır bir il,
On yeddi rikətdir bir gün yəqin bil,
Yeddi əzan yerə dəyər mütəssil,
Mən deyim sözümün bu mənası var.

*Zərniyar*
Yüz on dörddə yəqin eylərəm şükür,
Yüz bir dərviş orda eyləyər zikir,
Bu Zərniyar sənə çəkər bir fikir,
Şəfiəl məzlum[2] tək həm ağası var.

*Zərniyar*
Altı min, altı yüz, altmış altıdı hacı,
On dörd ovçusu var, var onun gücü,
Səkkiz min, altı yüz qırx dörd kərpici,
Onu yalqız yapanın nə bənnası var?

*Valeh*
Yüz on dörddür yəqin sureyi-Quran,
Yüz bir təsbeh edər zikri ya sübhan,
Valehə kömək ol, ya Şahi-Mərdan[3],
Bu əmrdə küllü müddəası[4] var.

*Həsən Mirzəyev (Həsən Mirzə)*

## İBRAHİM MİRZƏLİOĞLUNUN BAKI SƏFƏRİ

1965-ci il iyun ayının 25-i idi. Mən həmin gün Azərbaycan Dövlət Pedaqoji Universitetinin akt zalında namizədlik dissertasiyası müdafiə edirdim. Atam da Dərələyəzdən gəlib müdafiəyə qulaq asırdı.

Atam universitet kollektivi üçün binanın 1-ci mərtəbəsindəki yeməkxanada stol açdırmışdı. Müdafiə qurtaran kimi Bakı şəhər plan komitəsinin sədri İlyas Vəkilovla (qohumu ilə) birlikdə hamını ora dəvət etdi. İlyas Vəkilov burda olduğu üçün universitetin bütün rəhbərliyi bu məclisə gəldi. Universitetin yeməkxanası başdan-ayağa qədər alimlərlə dolu idi.

İnstitutun rəhbərliyi, sovet üzvləri, opponentlər müdafiənin yaxşı keçdiyini, tənqidlərə verdiyim cavabların yerli-yerində olduğunu və s. söylədilər. Axıra yaxın İlyas Vəkilov universitetin rektoru prof. Şövqi Ağayevə dedi ki, bu dissertantın atası niyə belə sakit əyləşib, qoy heç olmasa bu alimlərə öz razılığını bildirsin.

Mirzəlioğlu ayağa durub dedi: Mən sadəcə bir kəndliyəm. Bu alimlərin qarşısında mən nə söz deyə bilərəm. Bu zaman yerdən onu tanımayanlar dedi ki, a kişi, qorxma bir-iki kəlmə sözlə öz razılığını bildir.

---------------------

1. Şəfiəl məzlum – məzlumların atası, Məhəmməd Peyğəmbər.
2. Şahi-mərdan – İmam Əli
3. Zərniyar əhd eləmişdi ki, kim məni bağlasa ona gedəcəyəm, ona görə Valeh deyir ki, bu məsələdə çoxlu iddiam, umacağım var.

O, sözə başladı: oğlum sərf-nəhfdən (qrammatikadan) dərs deyir. Mən sizdən bilmək istəyirəm, oğlum bu çətin fənni uşaqlara başa sala bilirmi? Bu işə can yandırırmı? Bu sualdan sonra o, bir beyt şer dedi: "Sərfi-nəhvin emalı çoxdur, daş-dəmirdən baş gərək. Ya oxuyan sahib-kamal, ya dərs deyən qardaş gərək".

Bundan sonra Şərq tarixinə, qabusnaməyə, Kəlilə və Dimnəyə müraciət etdi, Quranda elm və alimlər haqqında deyilənləri yada saldı. Nizami Gəncəvinin, Sədi Şirazinin, Firdovsinin nəzm ilə deyilən nəsihətlərini, müdrik kəlamlarını farsca deyib azərbaycancaya tərcümə etdi. Sədi Şirazinin "naəhlə tərbiyə vermək məscidin başına atılan qoz kimidir" nəsihətinin üstündə Azərbaycanın məşhur pedaqoqları prof. Əhməd Seyidov və prof. Mərdan Muradxanovla xeyli mübahisəyə girişməli oldu. O, Sədi Şirazinin "Gülüstan" və "Bustan" əsərlərindən nəzmə çəkilmiş başqa nəsihətlərini əzbər deyib tərcümə etdi. "Kim mənim övladıma bir qətrə bilik versə, mən ömür boyu onun qulu olaram" misalına etiraz edən universitetin prorektoru dosent Əsəd İbrahimova ərəb və fars dillərində deyilmiş xeyli misalları, tarixi faktları xatırlatdı.

Bundan sonra sevdiyi, əzbər bildiyi Məhəmməd Fizuliyə müraciət etdi. Xeyli şer və qəzəl parçalarını əzbər deyib onu dərindən təhlil etdi. Məclisdə heç kim danışmır, hamı ona qulaq asırdı. Bu zaman universitetin rektoru prof. Ş.Ağayev zarafatla dedi: İbrahim kişi ədəbiyyat kafedrasında müəllim işləməyə razılıq ver, bu saat əmrini verirəm. Orada yalnız Nizami, Füzuli, Nəsimi, Firdovsi və Sədi Şirazinin əsərlərini uşaqlara təhlil et. Yerdən Mirzə Ələkbər Sabirin oğlu Məmmədsəlim Tahirli söz atdı ki, mən prorektor kimi razılıq verməyəcəyəm, çünki Sabiri yada salmadı. İbrahim kişi dərhal Sabirdən üç şer əzbər dedi və Sabirə söykənib mədəni şəkildə müəllimlərə sataşdı. Tahirli İbrahim kişiyə razılığını bildirdi. Bundan sonra keçdi şifahi xalq ədəbiyyatına. Qurbanidən, Valehdən, Ələsgərdən, Abbas Tufarqanlıdan, Xəstə Qasımdan məclisin nəbzinə uyğun qoşmalar dedi, dini məsələlərə həsr olunmuş qıfılbəndləri açdı. Prof. Ə.Dəmirçizadə, prof. F.Qasımzadə, prof. Z.Tağızadə, prof. F.Fərhadov ədəbiyyata belə dərindən bələd olduğu üçün İbrahim kişiyə öz razılıqlarını bildirdilər. Məclisdə oturanlar hamısı buna əl vurdu.

İbrahim kişi oturmaq istərkən dedi: "İki şey adamı hörmətdən salar. Bir, söz məqamına çatanda deməmək, bir də söz məqamından keçəndə demək. Bir sözü deməsəm ürəyim sakitləşməz. Müdafiə bir neçə saat çəkdi. Burada danışanların hamısı və oğlum tez-tez deyirdi, "Feli sifət belə gəldi, feli sifət belə getdi. Axı belə mövzuların indiki dövrdə cəmiyyətə nə faydası var. Mən də oğlumu göndərmişəm ki, gedib alim olsun. Belə alim olmağa nə var ki? Beləsindən ildə 5-ni yetirərəm." deyib yerində əyləşdi.

Hal-hazırda yaşayan və həmin məclisdə iştirak edən alimlərdən prof. Qəzənfər Kazımov, prof. Mürsəl Həkimov, prof. Afaq Qurbanov, prof. Cəfər Cəfərov, dos. Yunis Məmmədov, Dərələyəzli Novruz Dünyamalıyev və başqaları bu dediklərimin canlı şahidləridir.

## ŞAİR ALHÜSEYN

El şairi Alsöyün şair Rzaqulunun və Aşıq Qulunun dayısıdır. 1860-cı ildə Dərələyəz mahalının Qurbankəsilən kəndində doğulmuş və orada yaşamışdır. Erməni-müsəlman davasında bu kəndi erməni daşnakları yandırmış, tam dağıtmışdır. Bundan sonra o Dərələyəzdə bacısının ərdə olduğu Sallı kəndinə köçmüş və orada yaşamışdır. Dövrünün savadlı adamlarından olmuşdur. Şəriəti yaxşı bilirmiş. Onun əlimizdə olan qoşma və bağlamasını veririk.

### *QOŞMALAR*

### AMANDI

Yön çevirib biz Vətənə gedirdik,
Yol ver-yol ver bizə dağlar amandı,
İrayın döndərsən min qan eylərsən,
Göstərməyən yaman çağlar, amandı.

Səhrada sərkəndən qaldıq avara,
Bir kəs yoxdur burda yetə havaya,
Üç yoldaş bir özüm düşmüşük dara,
Qəmgin olub didəm ağlar, amandı.

Çoxlarının gözü yolda-yarı var,
Bu sınıq könlümün ahu-zarı var,
Qohum-qardaş, dalda intizarı var,
Vurma sinəsinə dağlar, amandı.

Duman qalxar qanla boran tərs eylər,
Dağlar inildəyər, daşlar səs eylər,
Bu əhvalı gedib xəbər versələr,
Anam, bacım qara bağlar, amandı.

Alsöyünəm bu növrağa qailəm,
Əcəl qəflətindən çətin ayılam,
Zalım dağlar ölməyimdən deyiləm,
Tapılmaz beş arşın ağlar, amandı.

### ÖLSÜN

Alhüseynəm, yaralıyam, yasdıyam,
Dindirməyin məni qəm həvəsdiyəm,
Nə müddətdi bir tüngəni bəsdiyən
Onu məndən alan bemiraz ölsün.

### KİMİDİR

*(tikiş maşınına xitabən)*

*Qıfılbənd*

Bu gün bir əcaib gördüm,
Təşbehi zənan kimidir.
Oturubdur taxt üstündə
Əsası sultan kimidir.

Vüsalını xəbər alsan,
Bir qara tərlan kimidir.
Əl vuranda elə sancır,
Bir şahmar ilan kimidir.

O hirsindən cahat eylər,
Başında titrəyər dili.
Hər işi yöndəmə salar,
Sol tərəfdə var bir mili.
Alnında bir gözü vardır,
Kəlləsində ipək teli,
Sənətini elə yazır,
Sər xətti loğman kimidir.

Dəhanında təam yeyir,
Nə qədər yeyir, heç yemir.
Gecə-gündüz qanad çalır,
Yoruldum, usandım demir.
Üç əzasın nişan verim.
Bir anac, bir sümük, dəmir.
Qəlib olub bir-birinə,
Hamısı bi rcan kimidir.

Alsön deyər, mətəl qaldım,
Mən onun əməlinə.
Batinində əməl çoxdur,
Aşkar deyil ki, görünə.
Ona ki, bir əl vuranda,
Mətəl qalırsan sirrinə,
Cəmi əzası səslənir,
Köçünən karvan kimidir.

Alsön deyər məttəl qaldım
Mən onun iki işinə
Dodağını söykəyibdir.
Döşündə dəmir dişinə.
Quyruğu təkərə bənzər
Başı qulanın başına.
Əməlindən baş açmadım
Müxtəsər şeytan kimidir.

*Qeydim:*

*Qıfılbəndin yazılma tarixi belə olmuşdur: Nikolay hökuməti dövrü imiş. Kənddə tikiş maşını yox imiş. Camaat paltarı əl ilə tikirmiş. Bir gün kəndə xəbər yayılır ki, kəndə bir dərzi gəlib, özü də paltarları maşınla tikir. Şair Alhüseyn də tamaşaya gəlir və dərzinin yanında oturub ona diqqətlə baxır və dərzini sorğu-suala tutur. Səhərisi gün bu qıfılbəndi yazıb tamamlayır.*

*Bu məlumatı mənə 1928-ci ildə Dərələyəzin Sallı kəndində doğulan, 1949-cu ildə departasiya olunan, hal-hazırda Bərdə rayonunun İmirli kəndində yaşayan Vəliyev Rəbbil Əli oğlu yazıb göndərmişdir.*

## ŞAİR RZAQULU

Hüseynov İrzaqulu Bayram oğlu 1870-ci ildə Dərələyəzin Sallı kəndində anadan olmuşdur. Şair Alhüseynin bacısı oğlu, Sallılı aşıq Qulunun doğma qardaşıdır. O, saz çalmağı bacarsa da, el içində aşıqlıq etməmişdir.

1948-ci ildə doğulub boya-başa çatdığı Sallı kəndindən Salyan rayonunun Kürqaraqaşlı kəndinə deportasiya olunmuş, 1956-cı ildə burada dünyasını

dəyişmişdir. Bir oğul, üç qız atası olan şair Rzaqulunun çoxlu qoşma, gəraylı, qıfılbəndi vardır. Biz burada onlardan bir neçəsini verməklə kifayətlənirik.

Mən şair Rzaqulunu şəxsən tanıyırdım. O, Dərələyəzin toy və yas məclislərində çox olar və şirin söhbətlər edərdi. Sinədəftər adam idi.

## *GƏRAYLILAR*

### DAĞLAR

Mən ki səni şad görmüşdüm,
Niyə batdın yasa dağlar.
Dərdin-qəmin şərbətindən,
İçirsənmi kasa dağlar.

Səndə dövran sürən hanı,
Yetiş dada kərəm kanı,
Oldun bayquşlar məskəni,
Verərlər səs-səsə, dağlar.

Getməz üstündən çənlərin,
Boş qalıbdı sərdənlərin,
Gəlsə nazik gərdənlərin,
Gələrsən həvəsə, dağlar.

Keçdi çoxların çırağı,
Günbəgün artdı fərağı,
Budu gəldi bahar çağı,
Dur bürün libasa, dağlar.

Payız olacaq qaçır qanın,
Pozulur qurğu dövranın.
Sərindən getməz dumanın,
Görünməzsən gözə, dağlar.

Şair səni məlul gördü,
Pişvazına salam verdi.
Səksəni ötübdü dərdi,
İndi yetib yüzə, dağlar.

Necoldu səfa sürənlər,
İpək çadırlar quranlar,
Oynuya qanlı boranlar,
Küləklərin əsə dağlar.

Mən Rzayam, çoxdur yaram,
Gecə-gündüz ahuzaram.
İstədim təbibə varam,
Yolum düşdü düzə, dağlar.

## *QOŞMALAR*

### OLSUN

Aşıq qardaş, elə bir hava çal ki,
Ələsgər də onu çalmamış olsun.
Mənə göstərginən elə bir insan,
Tanrı onu dərdə salmamış olsun.

Oynayır gözümdə yenə də şimşək,
Gözümdən yaş axır bahar seli tək,
Varmı elə bir gül, elə bir çiçək,
Açılsın, saralıb solmamış olsun.

Bilmirəm nə üçün gəldim cahana,
Dünya mənsiz qalardımı virana,
Mənə göstərginən elə bir ana,
Əlləri qoynunda qalmamış olsun.

Dünyaya şairin gözləriylə bax,
Həyatda yaxşılıq qalacaq ancaq,
Varmı elə bir yer, elə bir torpaq,
İnsan olsun, məzar olmamış olsun.

Rza, azca alış, azca oda yan,
Dünya belə qurulubdu binadan,
Mənə göstərginən elə bir insan,
Fələk qılıncını çalmamış olsun.

## DAĞLARIN

Könül, bir çıxginən seyrangahlara,
Budu gəldi bahar çağı dağların.
Uymaginən qəm möhnətə, ahlara,
Açılacaq cənnət bağı dağların.

Olar bu dağların varlı halları,
Pətəkdən kəsilən beçə balları,
Balbas qoyunları, qəssab malları,
Pendiri, qaymağı, yağı dağların.

Qurulmur alaçıq, çəkilmir nəmi,
Hər kəs görsə artar möhnəti, qəmi.
Çeşmə bulaqları abı-zəmzəmi,
Paylanmır üstündən saqi dağların.

Çəkilər üstündən qara dumanlar,
Virana yurdunda bayquşlar banlar,
Gəzməsə üstündə töhvə cavanlar,
Solar çiçəkləri tağı dağların.

Fələk saldı məni bəlaya, dərdə,
Mərdə söyləmədim, dedim namərdə,
Ağıl başdan gedib, qalmayıb sər də,
Rza olub qəm ortağı dağların.

## DAĞLAR

Səni görcək halım oldu pərişan,
Qalıbdı çöllərin virana, dağlar.
Əhvalını mənə verginən nişan,
And verirəm səni qurana, dağlar.

Bu cəbri-cəfaya sən necə durdun,
Səs salır bayqular, ulaşır qurdun,
Mənim kimi artıb sənin də dərdin,
Dərdini de bilib görənə, dağlar.

Ellərin qalıbdı nə yaman hala,
Əsmanı yandırır ahınan nala,
Kənd qarışıb kəndə, mal isə mala,
Hamısı dönübdü harama, dağlar.

Əsir qanlı boran, gəlir küləklər,
Çeşmələrdən su götürmür mələklər,
Duva eylə hasil olsun diləklər,
Kəbənin himini hörənə, dağlar.

İrza kəlməsini oxur dilində,
Qərq oldum dəryanın dərin gölündə,
Fələk qılıncını tutub əlində,
Burur yaram üstə yarama, dağlar.

## ZEYNƏB

Qüdrətdən çəkilib qaşın, qələmin,
Quranda oxunur Sənaya, Zeynəb.
Camalın şöləsi tutub aləmi,
Bənzəyirsən Günə sən Aya, Zeynəb.

Bədnəzərə görünməynən barı sən,
Hansı gözəl bağçaların barısan,
Kəhrəba tək öz həddində sarısan,
Zülfün möhtac deyil hənaya, Zeynəb.

Gözəllər gözəli, mələklər xanı,
Hüsnün təcallası tutub dünyanı,
Lazım budur, kəsdirələr qurbanı,
Neçə qurban gəldi Minaya, Zeynəb.

Gözəllikdə söyləyillər sözünü,
Müjgan kipriyini, süzgün gözünü,
Götür ürbəndini bir aç üzünü,
Qoy baxsınlar sən tək sonaya, Zeynəb.

Özün bir cavansan təzə, növrəstə,
Yasəmən tellərin dəstəbədəstə,
Rza deyər səni görsə hər kəs də,
Tez verər ömrünü fənaya, Zeynəb.

## EYLƏSİN

Başına döndüyüm, qurban olduğum,
Tanrı səni mənə mehman eyləsin.
Hər yanına qabaq-qarşı gələndə,
Can gərək yolunda qurban eyləsin.

Sevdiciyim necə yandırır bizi,
Qaradır qaşları, aladır gözü,
Təzədən dostluğu eyləsin özü,
Qayıtmaq binasın pünhan eyləsin.

Bülbüllər dolanır bağçanı, bağı,
Bəzəndiyim nazlı yarın otağı,
Gərək dost gələndə səhərin çağı,
Özü qaş-göz ilə nişan eyləsin.

Ovçu olan öz ovunu ovlayar,
Dağlardan, daşlardan salıb qovlayar,
Rzayam, ciyərim yara bağlar,
Dilbər gərək onu dərman eyləsin.

## GEDİRSƏN

Xudam səni bəxş eyləyib cahana,
Söylə görüm, nə iqbala gedirsən?
Adın düşüb dildən-dilə dəhana,
Bir hilalsan, bir hilala gedirsən?

Yaranmışlar olub bil sənə tabı,
Nə gecə dincəlir, nə yatır xabı[1].
Yığılır bir yerdə əldə tənabı[2],
Cəhd eyləyib qeylü-qala gedirsən?

Bir xəbər ver bostanlardan, bağlardan,
Bostançılar murad alır tağlardan,
Dalbadal köməyin gəlir dağlardan,
Arxayın olubsan dala gedirsən?

Hirslənəndə sanki vurursan səngə[3],
Dönürsən aslana, müşgü-pələngə,
Hövsələn yatanda çökürsən həngə,
Cilovdarnan hər mahala gedirsən?

Rza deyər, bəs sən harda qalarsan,
Əgər qalsan dağı-daşı dələrsən,
Hirslənəndə dillənərsən, mələrsən,
Sən dillisən niyə lala gedirsən?

---

1. Xab – yuxu.
2. Tənab – dar ağacının kəndiri.
3. Səng – dal.

## GEDİRƏM

Gileyliyəm fələk sənin əlindən,
Yön çevirib bir diyara gedirəm.
Saldın bir tükənməz əyyub dərdinə,
Oldu bir sağalmaz yara gedirəm.

Kimi sürgün oldu, kimi talandı,
Zülüm artdı, zülüm üstə qalandı,
Döndü ruzigarım tərsə dolandı,
Təhr eyləyib ruzigara gedirəm.

Qalmışam sərgəndar, bevec, avara,
Mərdlərin ağası sən eylə çara,
Çalışdım, vuruşdum dövlətə vara,
Əlləri boş, üzü qara gedirəm.

Mərd atadan mərd törəyər mərd olar,
Namərd adam, bir gün evin yurd olar,
Vətən ayrılığı yaman dərd olar,
Həsrət qaldım bulaqlara, gedirəm.

İrza kəlməsini oxur dilində,
Ey ariflər, eşidin də, bilin də,
Qoymuşam başımı allah yolunda,
Sığınmışam imamlara, gedirəm.

## MƏZAR SANDIQ [1]

Müxənnət zəmanə nələr qayırdı,
Oynadı yerindən el, məzar sandıq.
Qəza vurdu bizi səndən ayırdı,
Daha düşməz sənə yol, məzar sandıq.

Fələk bizə qismət etdi qürbəti,
Yandırdı canımı qəmin firqəti,
Günbəgündən oldum qəm fəlakəti,
Bu qəmli canımı al, məzar sandıq.

Tərk edə bilmirəm ata, anamı,
Kimlər sizə verər xeyir fatanı,
Ya qismət ki, bir də görək vətəni,
Səni də salamat qal, məzar sandıq.

Səndə yaslanıbdır qohum qardaşlar,
Surahi gərdənlər, o qarğu qaşlar,
Təbibdən, loğmandan kamallı başlar,
Üstünə döşənib sal, məzar sandıq.

Fələyin əlindən gedirəm dada,
İlahidən gün görmədim dünyada,
Hərdən öz vətənim düşəndə yada,
Car olur didəmdən sel, məzar sandıq.

Yadıma düşəndə səhralar, çöllər,
Titrəyir dəhanda danışan dillər,
Ağlasın üstündə yasəmən güllər,
Daş-torpağın olsun ləl, məzar sandıq.

İrza deyər qaldı verana bağlar,
Çəkildi sinəmə düyünlü dağlar,
Titrəyər məzarlar, uruflar ağlar,
Tərpən bizə sarı gəl, məzar sandıq.

-------------------------

1. 1949-cu ildə vətəndən deportasiya olunarkən Sallıda qəbiristanlığa gedib valideynlərinə və qəbristanlıq əhlinə fatihə verir və orada oturub bu qoşmanı yazır.

Bir yanım Arazdır, bir yanım Kürdür,
Gecə gündüz mən çəkdiyim fikirdir.
Yayı Ərəbistan, qışı Sibirdir,
Bilmirəm ki, qaçım hara Əmioğlu.

Bizdə gəldik yaxın olduq şəhərə,
Fələk bizi gətdi saldı qəhərə,
Belə dolanmağı dönsün zəhərə,
Ağ günümüz oldu qara Əmioğlu.

Üç ay qışı mən girmişəm çəmirə,
Xudam hesab eləməsin ömürə,
Ürçah gəldik Qaraqaşlı Temirə,
Onu da gətirdik zara Əmioğlu.

Boran guruldayır küləklər əsir,
Eşikdə qalanın nəfəsin kəsir.
Kaş ki, Vətənimdə olaydım yesir,
Gəlməyəydim bu tarmara Əmioğlu.

Yaxşı yaman dolanırıq bir babat,
Belə vilayəti olmasın avad,
Hanı sən gördüyün unluq, kravat,
Doğrayıb yandırdıq narə Əmioğlu.

Əlimizə keçdi bir iti dəhrə,
Dəhrəyə neyləsin bu yazıq nehrə,
Nə stol qalmadı nə də bir cəhrə,
Onlar oldu parça-para Əmioğlu.

Kim deyər ki, mənim günlərim ağdır,
Ürəkdə iztirab, sinəmdə dağdır.
İrzayam can gedib cəsədim sağdır,
Eylə bu dərdlərə çarə Əmioğlu.

*Salyan 1950*

Şair Rzaqulu Səlyanda olanda əmisi oğlu Elyas kişiyə (Sallıya) yazıbdır.

## *DEYİŞMƏ*

## ARPA İLƏ BUĞDANIN DEYİŞMƏSİ

*Buğda*

Arpa, biyət eylə buğda sözünə,
Verərəm bəndəmin həmişə, arpa.
Tuğ kimi uzanım qalxım havaya,
Eylə gərdənimə tamaşa, arpa.

*Arpa*

İgidin yaxşısı olar tösmərək,
Uzun adam deyil bir şeyə gərək,
Bil ki, mən olmasam, tapılmaz çörək,
Gəzərlər dünyanı baş-başa, buğda.

*Buğda*

Səbəb nədir, sən girirsən qınına,
Baş açmamış bürünürsən donuna,
Dəyirmançı tez-tez baxır ununa,
Zülmü eyləyirsən o daşa, arpa.

*Arpa*

Əgər olsa zodlu mənim dəmirim,
Günbəgündən şəfa tapar ömürüm,
Çox yoğurub yetirsələr xəmirim,
Bənzəyər çörəyim xaşxaşa, buğda.

*Buğda*

Üzünə çəkmisən bir nazik fitə,
Layıxsan eşşəyə, atınnan itə,
Hazırdır böyrümdə bir irəfətə,
Gəlginən, baxginən lavaşa, arpa.

*Arpa*

Buğda, əl çək and verirəm qurana,
Mən olmasam, dünya qalar virana,
Mənim anbarlarım keçdi İrana,
İrəncbəri bükdüm qumaşa, buğda.

*Buğda*
Bilginən ki, sənnən davadır davam,
İstəyirəm səni mahaldan qavam,
Qırmızı fətirəm, sarı pilovam,
Doğramazlar səni bozbaşa, arpa.

*Arpa*
Sən bilirsən mən gəlmişəm davaya,
Baş qoşmuram sənin kimi yavaya,
Bais oldun Adəm ilə Həvvaya,
Bunları salmısan ataşa, buğda.

Buğdanın dili qurudu. Aldı dübarə:

*Arpa*
Adım Rzaqulu, özüm bilici,
Sən də bilirsən ki, məndəki gücü,
Həmi şeşpəriyəm, həmi qılıncı,
İnsaf deyil mənlə savaşa buğda.

## *QIFILBƏNDİ*

## NEÇƏDİR

Bizdən salam olsun şuvara Bayram
Çöldə gəzən dilli ahu neçədir?
O neçə şəxs idi gəldi dünyaya,
Onun sinəsində ahı neçədir?

Ayıbdı, sən etmə belə hərəkət,
Həqiqətdir qülfü-Allahü əhət,
Hansı kəlmə verir ona əmniyyət,
Həqiqətin bəndərgahı neçədir?

İsrəfil nə üstə, suru nə üstə,
Ona şölə çəkən nuru nə üstə,
Seçilmiş dəstənin pəri nə üstə,
Bir xəbər ver tez, kütahı neçədir?

İndi sənə cəm eləyim dəftəri,
Kim oldu kimlərin əziz yavəri,
Məhəmməd dünyaya gələndən bəri,
Salavatı, bismillahı neçədir?

Mənə barat verib şahların şahı,
Sinəmdə açılıb sərraf mətahı,
Rza deyər budur sözün kütahı,
Dəryanın tərkində mahı neçədir?

*Mənim qeydim: Qıfılbəndin əmələ gəlmə tarixi belədir: Şair Rzaqulunun doğulduğu Sallı kəndinin əhalisi əsasən, Kəngərli və ayrım tayfalarındandır. Hamısı saz-söz vurğunu və sinədəftərdilər. Bu kənddən 30-dan artıq şair və aşıq çıxmışdır. «Cəlili» saz havasının yaradıcısı Aşıq Cəlil də bu kənddəndir.*

*Bu kəndə qonşuluqda olan Hors kəndinin əhalisi də belədir. «Qəhrəmanı» saz havasının yaradıcısı Aşıq Qəhrəman da Hors kəndindəndir. Bu kənddə də çox aşıq və şair olmuşdur. Şüvara Bayram adlı şair də bu kənddəndir. Hors kənd sakini cavan Aşıq Kərəm bir gün gəlir şair*

*Rzaquluya deyir ki, su dəyirmanına yazdığın qıfılbəndi mənə de yazım. Məclislərə gedəndə mənə lazım olar. Şair Rzaqulu qıfılbəndi verir. Aşıq Kərəm qıfılbəndi götürüb Şüvara Bayramın yanına gəlib deyir ki, Rzaqulu sənə qıfılbənd yazıbdır. Onu açmalısan. Odur ki, bunları qarşı-qarşıya qoyur. Uzun illər hər ikisi br-birini imtahana çəkir. Şüvara Bayramın yazdıqları qalmayıb. Ancaq Rzaqulunun ona yazdığı «Neçədir» rədifli bağlaması qalmışdır. Hətta şair Rzaqulunun Şüvarə Bayrama yazdığı hərbə-zorbadan bir bənd də yadda qalmışdır:*

*Sən gəl çıxma uca dağın başına,*
*Duman olu, boran olu, qar olu.*
*Bir şahmar ilanam çıxsam qarşına,*
*Hər hərənnan vursam tari-mar olu.*

*Yaşlıların dediyinə görə belə yazışmalar Dərələyəz aşıqları və el şairləri arasında çox olmuşdur. Bunu camaat bilə-bilə edirdi ki, məclisləri şən keçsin...*

*Bu məlumatı mənə 1928-ci ildə Sallıda doğulan, hal-hazırda Bərdə rayonunun İmirli kəndində yaşayan Vəliyev Rəbbil Əli oğlu bir məktəbli dəftərində öz xətti ilə 25 aprel 2006-cı ildə yazıb göndərmişdir.*

## VAR
### *(Evə xitabən)*

Bu gün bir heyvana nəzər eylədim,
Təpəsində bir şavaxlı gözü var.
Əjdaha hökmündə ağzın ayırır,
Bir dağ misalında onun özü var.

Açıbdır gözünü yaradan yara,
O heyvan tabedir dövlətə, vara,
Gəlin deyim, durub aləm aşkara,
Bu doğma sözümə kimin sözü var.

Kamandar fəndini qurubdu sara,
Özü təslim olur cahar-hamara,
İnanmırsan, bu sözləri sən ara,
Hər cəzrədə əllisi var, yüzü var.

Bir qulu var sağdan, soldan gətirir,
Xudam onu mətləbinə yetirir,
Bir aşbazı hər səlqəsin bitirir,
Bir-birə etməyə işvə-nazı var.

Biri işə getmir, səllimi gəzir,
Biri qayğu çəkir, canından bezir,
Biri qəzəblənib birisin əzir,
Onun bu cür, bu cür oyunbazı var.

Ətrafında yüz pəhlivan düzəsən,
Müşkül olar, onu yerdən üzəsən,
Səmtə getmək olmur, qarnın gəzəsən,
Ətlazı, qumaşı, bəlkə vazı var.

Rzaqulu, ömrün yetdi bu yaşa,
Axırında yandı aşkar ataşa,
Hər kəs bu əmmanı tez düşsə başa,
Verməli naziri, çox niyazı var.

*QIFILBƏND*
*(Dəyirmana xitabən)*

## DOLANMAZ

Bu gün bir pəhləvan çıxdı qarşıma,
Çəkməsə meydandan dara dolanmaz.
Hökrüyüb meydandan çıxsa kənara,
Yerdə olar para-para, dolanmaz.

Yalqız deyil, var onun bir həmdəmi,
Atadan, babadan bəyənməz nəmi,
Bir soyuq meydanda işlədi gəmi,
Çıxıb günəş, ruzigara dolanmaz.

Pəhlivan oynayır bir ağ otaqda,
Yalançı oturub bir qəlbi taxtda,
Noxçalar çağrışır başında noxta,
Ağlı kəmlər bu sözlərə inanmaz.

Alıbdı döşünə bir gümüş ayna,
Tovlananda yetmək olmur sayına,
Zərbə vurmur altındakı tayına,
Meydan aşıb xoş kiftana dolanmaz.

O qədər oynayır yannarı şişir,
Oynayıb, usanıb taxtından düşür,
Canına doxsan min yara yetişir,
Olmasa canında yara dolanmaz.

Əməli salehdi, taleyi kürdü,
Müxənnəs olmasa ocağı pirdi,
Gecə-gündüz uçur mənzili birdi,
O mənzildən bir kənarə dolanmaz.

İrza sözün dəftərlərə yazdırar,
Elmin cəhətilə sözbəsöz durar,
Çilə gələr havasını azdırar,
Eyliyər gününü qara dolanmaz.

*MÜXƏMMƏS*

## HARAY

Bülbül bağı-gülüstanda
Çağırır qannım haray.
Pərvanəyəm, eşq odunda
Qoymayın, yandım, haray.
Məcnun kimi yol gözlərəm,
Gəlmədi yarım, haray.
Qəmi-möhnət əl veribdi,
Artıb azarım haray.

Könül, qayıt bu sevdadan,
Başa gəlir bəlalar.
Açılıbdı dost bağında,
Qızıl güllər, lalalar.
Məgər ölüb şeyda bülbül,
Daha gəlmir nalalar.
Getdi bahar, gəldi çilə,
Solub gülşanım, haray.

Bisutunda daş çaparam,
Fərhadam Şirinim deyib
Rzayam mən qan ağlaram,
Gəlmədi yarım bu gün.

Qəmi-möhnəti əl veribdi,
Artıb azarım bu gün,
Atı düldül, qulu Qəmbər,
Şahı Mərdanım haray.

## *QIFILBƏND MÜXƏMMƏS*

### MAŞIN
*(Çəyirtgəyə müraciət)*

Bu gün bir maşın görmüşəm,
Qənədin verir içəri.
Ortasında bir topu var,
Hər tərəfində üç pəri.
Müddəsil mücərrərdi,
Qabağında bir mehtəri.
Oxunu düzgün eyləsən,
Bil ki, gedər qana maşın.

Onun tək bir yoldaşı var,
Qənət gətirir boynuna.
Dəhanında polad dişi,
Yorulmaq gəlmir eyninə.
Yaxşısın zülal eyləyir,
Pisin doldurur qoynuna
Oturubdu seyrangahda,
Çıxıbdı cövlana maşın.

Gəl kəndirbazından deyim,
Oxunun üstə tovlanır.
Qılçın qoyur düzgün yerə,
Ortasından buxovlanır.
Onun bircə kəməri var,
Tərsə-uvanda tovlanır.
Gecə-gündüz qanad çalır,
Qəsd eyləyir cana maşın.

Rzaqulu deyir, gördüm.
Oxundan nalə çıxardır.
Kimisi buynuzludur,
Kimisin kola çıxardır.
Hər saat tamam olanda
Hərdən bir bala çıxardır.
Çinniyibdi balaların,
Düzübdü yan-yana maşın.

## VAHİD ƏZİZ

Vahid Əziz (Cəfərov Vahid Əziz oğlu) 1945-ci il noyabrın 23-də Dərələyəzdə - Əzizbəyov rayonunun Herher kəndində anadan olmuşdur. O, dövrünün ən qabaqcıl ziyalısı, Dərələyəzin Əzizbəyov rayonunda və Azərbaycanın bir çox rayonlarında yüksək vəzifələrdə (raykomun II katibi, İcraiyyə Komitəsinin sədri...) işləyən, xalqını sevən, ermənilərlə mübarizə aparmağı bacaran Cəfərov Əziz kimi bir şəxsin ailəsində boya-başa çatmışdır. Ailəsi 1949-cu ildə ermənilər tərəfindən deportasiya olunub Tərtərdə məskunlaşan Vahid Əziz orta təhsilini burada almış, 1964-1969-cu illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirmişdir. O, bir çox məsul vəzifələrdə, o cümlədən Azərbaycan Mərkəzi Komitəsində şöbə müdiri, Yazıçılar İttifaqında katib işləmişdir. O, çoxlu sayda şer kitablarının müəllifidir, Azərbaycanda şerlərinə ən çox musiqi bəstələnən şairlərdən biridir.

## VƏTƏN SEVGİSİ

Sələm – dağdan üzülürəm,
Durulub, bulanmaq üçün.
Qartal tək zirvə gəzirəm,
Başına dolanmaq üçün.

Heç kəs yaşamaz doyunca,
Zirvə yox Vətəndən uca,
Atılarıq qucaq-qucaq,
Odunda qalanmaq üçün!

Vətən, səndən ad almışıq,
Gözlərindən od almışıq,
Bayrağını ucaltmışıq,
Göydə dalğalanmaq üçün!

Bilən bilir kimliyimi,
Varmı qıran mənliyimi?
Çarmıxa çəkməyin məni,
Sözümə inanmaq üçün.

Sərkərdəsiz batar qoşun,
Alaylara nəğmə qoşun,
Vətən gərək arxa olsun,
Tufanda dayanmaq üçün!

Ölüm bir yuxudur, yozun,
Təzədən oyanmaq üçün,
Torpaq gərək hazır olsun
Uğrunda çan verənlərin
Qanına boyanmaq üçün!..

## BİLMİRƏM

Ölürəm – ölə bilmirəm,
Qalıram – qala bilmirəm,
Pərən-pərən pərdələri,
Çalıram, çala bilmirəm.

Bu nə hicran, nə vüsaldı,
Dünya savaş, qalmaqaldı,
Zirvələrdə obam qaldı,
Gedirəm – ala bilmirəm.

Hicran yükü bənizimdə,
Batdım həsrət dənizində,
Tər çiçəyəm yer üzündə,
Biryolluq sola bilmirəm.

Geri dönməz neçə igid,
Neçə qurban, neçə şəhid,
Saçlarımı, salxım söyüd,
Səntək yola bilmirəm.

Anan ölsün, qaçqın gəlin,
Nə gündəymiş körpələrin,
Qəndin, südün yad əllərin,
Bölürəm, bölə bilmirəm.

Ölüm olmaz bundan betər,
Uzaq başı qəbrim itər,
Bu müsibət nə vaxt bitər,
Vur öldür, vallah, bilmirəm.

## *QOŞMALAR*

## ÇALIN

Bir aşıq çağırın dastan başında,
Kərəmi alışsın dastan başında,
İnsan yurd yerində,bostan başında
Neçə ki, payızdır, "Kərəmi" çalın.

O dağlar dağılsın, mənə qalmadı,
Dağları çəkməyə sinə qalmadı,
Yurd-yuva dağıldı, binə qalmadı,
Görün Sarı aşıq görərmi, çalın.

Kəkliyi görmədim uçandan bəri,
Dərd gəlib qapını açandan bəri,
El zülmün əlindən qaçandan bəri,
Yenə dövranını sürərmi, çalın.

Ötüşən vaxt deyil, xəzəldi bəlkə,
Ömür əzabıyla gözəldi bəlkə,
Dünya bir yazıyla düzəldi bəlkə,
Ey qələm tutanlar, qələmi çalın.

Didərgin mən oldum, sizlərə nə var,
Ürəyim göynəyər, gözüm yalvarar,
Bilmirsiz qələmin min sifəti var,
Demişdim çalanda beləmi çalın?

## BİLƏSƏN

Oğulluq etmədim sənə, bağışla,
Vətən, günahımdan keç, keçə bilsən.
Bütün boyaları yuyur yağışlar,
Gəl, ağı qaradan seç, seçə bilsən.

İllərlə qapımı döyən olmadı,
Körpə tək hönkürdüm həyan olmadı,
Heç yanda sözümü deyən olmadı,
Necə dayaq durdu küt, gicə – bilsən!..

Gör nələr əkmişdim, nələr göyərdi?
Gör kimlər ömrümün barını dərdi?
Hər yanda boy atıb tikan cücərdi,
İndi bu "zəmini" biç, biçə bilsən.

Nə var ki, mənsiz də dözə bilərsən,
Azmıdır dünyada didərgin gəzən?
Yurdundan uzaqda gözəl gün gəzən,
Nə çoxdur qürbətdə yol, küçə – bilsən?

Yad mənəm! Özgələr qədir biləndi!
Namərdlik üstünə hardan ələndi?
Dilim də, ağlım da Tanrı verəndi,
Bir qurtum zəhərəm iç, içə bilsən.

Hara üz tutacam, indi nə fərqi?
Gileyim xalı tək yolları sərdi,
Torpaqdan ayrıldım, dizim titrədi,
İndi, Vahid Əziz, köç, köçə bilsən?!
Vətən, günahımdan keç, keçə bilsən...

## ÜSTÜNƏ

Bəxtimin çarxını fələk işlədir,
Söz verir, aldadır, kələk işlədir,
Yüz ildir yollarım keşməkeşdədir,
İndi gəlib çıxar Araz üstünə.

Qarışıb sulara nəfəsim yanır,
Göynəyə-göynəyə nəfəsim yanır,
Ay Allah, deyəsən tilisim yanır,
Bayatı çilənir Şiraz üstünə.

Bilmirsən özünü hara vurasan,
Naxçıvan, Xankəndi, Dərbənd, Xorasan,
Yazıq Azərbaycan, para-parasan,
Kaş ki gün doğaydı bir az üstünə.

## HƏSƏN MİRZƏ

Mirzəyev Həsən İbrahim oğlu (Həsən Mirzə) 1927-ci il noyabr ayının 26-da Qərbi Azərbaycanda, Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur.

1948-ci ildə orta məktəbi, 1950-ci ildə Naxçıvan Dövlət Müəllimlər İnstitutunu, 1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini, 1977-ci ildə Marksizm-Leninizm Universitetini fərqlənmə diplomları ilə bitirmiş, 1965-ci ildə namizədlik, 1987-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Filologiya elmləri doktoru, dilçi-türkoloq, professor, kafedra müdiridir. O, bir çox elmi və bədii əsərlərin – məqalə və kitabların müəllifidir. Yazıçılar və jurnalistlər birliyinin üzvüdür. Respublikanın 70-dən çox şair və şairtəbiətli adamları onun şəxsiyyətinə və yaradıcılığına 100-dən artıq şer və 2 poema həsr etmişdir. Yazıçılar və Jurnalistlər Birliyinin üzvüdür. 1959-cu ildə kənd sovetinə, 1990-cı ildə Bakı Şəhər Sovetinə, 1998-ci ildə birinci çağırış, 2000-ci ildə ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 1998-ci ildə Məşhəd, 2000-ci ildə Həcc ziyarətində olmuşdur.

### *GƏRAYLI*

### DAĞLAR

Uşaqlığım, ən xoş çağım,
Səndə keçib, səndə dağlar.
Ətəyində bağça, bağım,
Qalıb məndən gendə, dağlar.

Hanı o oğuz ellərin,
Nədən solubdu güllərin,
Niyə lal olub dillərin,
Susma dillən sən də, dağlar.

Yurdunda elin görünmür,
Ocaqların yanıb sönmür,
Yan tütəyin səsi gəlmir,
Döz bü dərdə sən də, dağlar.

Göyçə göldən duman enə,
Göytəpədə çən sürünə,
Yağışdan sonra görünə,
Göy qurşağı səndə, dağlar.

Quzqulağı duzla ovam,
Qar altından yarpız yığam,
Dost-tanışla məclis quram,
Yatam qalam səndə, dağlar.

Şeh çəməndə izim düşə,
Palıd közdə kabab bişə,
Lilpar dolçan işə düşə,
Məclis quram səndə, dağlar.

Səma uca enəmmirəm,
Qucağına gələmmirəm,
Səni qoyub gedəmmirəm,
Ruhum qalır səndə, dağlar.

Lalələr örpək şalındır,
Çiçəklər xalça-xalındır,
Həsən Mirzə qonağındar,
De qalsınmı səndə, dağlar?

***Naxçıvan-Bakı təyyarəsi,***
***21 mart 1999***

## DƏRƏLƏYƏZ

Doğranıbsan dilim-dilim,
Elin itib ilim-ilim,
Qərib yerdə zülüm-zülüm,
El ağlayır, Dərələyəz!

Yağıya qalıb diyarım,
Sökülüb ömür sarayım,
Dünyaya yetmir harayım,
Bir az da döz Dərələyəz!

Əriyirəm gilə-gilə,
Göz yaşlarım silə-silə,
Törədilən fitnə-felə
Ürək dözmür, Dərələyəz!

Xoş baharım qışa dönüb,
Yanan çıraqlarım sönüb,
Zamananın üzü dönüb,
Sənsə dönmə, Dərələyəz!

## BU GÖZƏLƏ

Qürurludur söz götürmür,
Yersiz yerə deyib gülmür,
Eyş-işrətlə ömür sürmür,
Kömək edin bu gözələ.

Mərcan dişli, bal dodaqlı,
Mərmər sinə, ağ buxaqlı,
Şux baxışlı, al yanaqlı,
Allah bəxt ver bu gözələ.

Zümzüməsi layla çalır,
Baxışıyla canlar alır,
Həsəni də oda salır,
Nə deyəsən bu gözələ.

*Bakı, 18 yanvar 2001*

## A CEYRANIM

Hər baxışın bir can alır,
Təkcə gəzmə, a ceyranım!
Hər naxışın bir qan salır,
Sən tək gəzmə, a ceyranım!

*Nəqərat*
Ceyranım, a ceyranım!
Təkcə gəzmə, a ceyranım!
Mən tək gəzsəm eybi yoxdu,
Sən tək gəzmə, a ceyranım!

Gözəlisən bizim elin,
Çöhrəsisən qızıl gülün
Əzəlisən şirin dilin,
Qəmli gəzmə, a ceyranım!

Kirpiklərin peykan, oxdur,
Gözəllikdə tayın yoxdur,
Sənə meyli olan çoxdur,
Tənha gəzmə, a ceyranım!

Dağlarda bitən lalasan,
Sularda üzən sonasan,
İstərəm mənim olasan,
Dodaq büzmə, a ceyranım!

Tər qönçədir bağça-bağın,
Şölə verir al yanağın,
Qədrini bil cavan çağın,
Məni üzmə, a ceyranım!

Tilsimlisən, can alırsan,
Aşiqi dərdə salırsan,
İşarədən söz qanırsan,
Mənsiz gəzmə, a ceyranım!

Ətirlidir bahar, yazın,
Qəlb oxşayır xoş avazın,
İcazə ver çəkim nazın,
Gendə gəzmə, a ceyranım!

Qaşın gözün canlar alır,
Eşq əhlini oda salır,
Səni görən alovlanır,
Yalqız gəzmə, a ceyranım!

Yurd salmısan könüllərdə,
Dastan olmusan dillərdə,
Gedib toyda, düyünlərdə,
Mənsiz süzmə, a ceyranım!

Müştaqam qönçə gülünə,
Heyranam şirin dilinə,
Sinəndə mərcan yerinə,
Pərək düzmə, a ceyranım!

Çəmənlərin turacısan,
Gözəllərin baş tacısan,
Dərdlərimin əlacısan,
Uzaq gəzmə, a ceyranım!

Sən könlümdə bir baharsan,
Zirvədəki düm ağ qarsan,
Həsən Mirzə sevən yarsan,
Məlul gəzmə, a ceyranım!

*Həsən Mirzə*
*Bakı, 12 fevral 2005*

## NƏVƏLƏRIM

*Nəvələrimə - üç qız nəvəmə ithaf edirəm*

Biri dağlar lalasıdır,
Biri sular sonasıdır,
Biri çiçək topasıdır,
Nəvələrim, nəvələrim.
Mənim gözəl nəvələrim.

Biri süsən-sünbülümdür,
Biri tər qönçə gülümdür,
Biri şeyda bülbülümdür,
Nəvələrim, nəvələrim.
Mənim göyçək nəvələrim.

Birisi Dan ulduzumdur,
Birisi dadım-duzumdur,
Birisi körpə quzumdur,
Nəvələrim, nəvələrim.
Mənim çiçək nəvələrim.

Biri çəməndə çiçəkdir,
Biri hamıdan göyçəkdir,
Biri topqara birçəkdir,
Nəvələrim, nəvələrim.
Mənim gəşəng nəvələrim.

Birisi fərə kəklikdir,
Birisi körpə əlikdir,
Birisindən yoxdur, təkdir
Nəvələrim, nəvələrim.
Mənim ceyran nəvələrim.

Birinin qaşı düyməli,
Biri özündən sürməli,
Birisi şirin, yeməli,
Nəvələrim, nəvələrim.
Şəkər-baldı nəvələrim.

Birisi çəmən turacı,
Birisi gözəllər tacı,
Birisi dərd-qəm əlacı,
Nəvələrim, nəvələrim.
Şipşirindi nəvələrim.

Biri tovuz qanadıdır,
Biri ağzımın dadıdır,
Biri nənəmin adıdır,
Nəvələrim, nəvələrim.
Şən-mehriban nəvələrim.

Birisi ağ göyərçindir,
Birinin teli çin-çindir,
Birisi pərvaz laçındır,
Nəvələrim, nəvələrim.
Körpə-kövrək nəvələrim.

Birisi kəklik xınası,
Birisi Bağdad xurması,
Birisi cənnət alması,
Nəvələrim, nəvələrim.
Nazlı-duzlu nəvələrim.

Biri qara göz nərgizim,
Biri canım, iki gözüm,
Həsən deyər budur sözüm:
Xoşbəxt olun, nəvələrim,
Ey, mənim gönçə güllərim.

*Bakı, 6 noyabr 2001*

## *QOŞMALAR*

### DƏRƏLƏYƏZ

Ey ana torpağım, ey can diyarım,
Hanı o səndəki el, Dərələyəz?!
Ey cənnət məkanım, ey dağ vüqarım,
Pərən-pərən olub el, Dərələyəz!
Yaram göz-göz olub bil, Dərələyəz!

Ömür sarayımı sökür həsrətin,
Gözümdən qanlı yaş tökür həsrətin,
Qəddi-qamətimi bükür həsrətin.
Həsrətdən ağarıb tel, Dərələyəz!
Dərdindən yay olub bel, Dərələyəz!

Düşmən əlindəsən gələ bilmirəm,
Axan göz yaşını silə bilmirəm,
Dərd məni öldürür, ölə bilmirəm,
Aylarım olubdu il, Dərələyəz!
Sənsiz lal olubdu dil, Dərələyəz!

Səndə mənim bağça-bağım qalıbdır,
Keçmişim, tarixim, tacım qalıbdır,
Cənnət kimi bir məkanım qalıbdır,
Mütləq gələcəyəm bil, Dərələyəz!
Çox ötüb keçsə də il, Dərələyəz!

Sənsiz qışa dönüb baharım, yazım,
Susubdur kamanım, dillənmir sazım,
Həsənəm, bu dərdi, de, necə yazım?
Didərgin olubdu el, Dərələyəz!
Göz yaşım olubdu sel, Dərələyəz!

*Bakı, 17 fevral 2001*

## DƏRDİMİ

Aşıq Ulduz, çox da dərdliyəm demə,
Söyləsəm qurtarmaz ilə dərdimi.
Əldən gedib yurdum, yuvam, məskənim,
Yükləsəm çəkəmməz filə dərdimi.

Babamın o yerdə izi qalıbdır,
Nənəmin nəğməli sözü qalıbdır,
Türk-oğuz yurdunun gözü qalıbdır,
Töksəm də aparmaz Nilə dərdimi.

Parçalanıb, şaqqalanıb vətənim,
Tapdalanıb, hey talanıb vətənim,
Tonqallara çox qalanıb vətənim,
Töksəm dərya olar gölə dərdimi.

Borçalı doğranıb, Dərbənd doğranıb,
İrəvan doğranıb, Təbriz doğranıb,
Torpağımın çoxu yada paylanıb,
Mən necə unudum belə dərdimi.

Düşmən əlindədir müqəddəs yerim
Ləlim, cəvahirim, abidəm, pirim,
Qoy ayağa qalxsın igidim, ərim,
Bəlkə, bu şad xəbər silə dərdimi.

Zorla köçürüblər Oğuz elimi,
Bu qəm yükü yaman büküb belimi,
Dilim-dilim doğrayıblar dilimi,
Aşıqlar söyləsin elə dərdimi.

Vətən həsrətimi yazsın Zəlimxan,
Sücaət, Səadət, Alqayıt, Bəhman,
Ərlər qılınc çəksin yetişib zaman,
Aqillər gətirsin dilə dərdimi.

Qalxın, Vətən oğlu, qalxın ayağa,
Doğma yurda sahib çıxmasın dığa,
Qovun nankor hayı, qovun uzağa,
Arpa çayda verim selə dərdimi.

Ulduz xanım, daha çalma "Dilqəmi",
"Sarıtel" çal bir az unudaq qəmi,
Həsən deyər gəlsin xoş günlər dəmi,
Darayım sazında telə dərdimi.

*Altıağac, 15 iyun 1998*

## DAĞLAR

Yağılar əlində qalmısan əsir,
Sinəmi dağlayır bu dağın dağlar!
Həsrətdən ürəyim sızlayır, əsir,
Tez götür sinəmdən bu dağı, dağlar!

Soğanlını, Köytəpəni gəzmirəm,
Süsən-sünbül bənövşəsin üzmürəm,
Versə çıxıb Göyçə gölün görmürəm,
Mən necə yaşadım bu dağı, dağlar?!

Qəlbimi göynədir hicranın dağı,
Sinəm olub qəm dəryası, qəm dağı,
Həsən Mirzə çəkə bilmir bu dağı,
Sən necə çəkirsən bu dağı, dağlar?!

*Bakı, 16 yanvar 2003-cü il*

* * *

Sən mənim anamsan, mən sənin balan,
Balanı qoynuna al, Dərələyəz!
Tarix şahiddir ki, bu yurd bizimdir,
Haylardan qisası al, Dərələyəz!
Şaxtaya, borana sal, Dərələyəz!
Elinin qaydına qal, Dərələyəz!

* * *

Həsrət arta-arta Ərşə dayanıb,
Ürəyimiz çalın-çarpaz dağlanıb,
Sinəm büryan olub, ataşdə yanıb,
Sən bunu tarixə yaz, Dərələyəz!
Düşmənin qəbrini qaz, Dərələyəz!
Sinəndə çağlasın saz, Dərələyəz!

* * *

Həsrətindən odlanıram, yanıram,
Yenə tək qalmısan can, Dərələyəz!
Gecə də, gündüz də səni anıram,
Sən də bu həsrətdən yan, Dərələyəz!
Qoy doğsun üstünə Dan, Dərələyəz!
Həsən Mirzəni də an, Dərələyəz!

* * *

Bağ-bağçamda daha bülbüllər ötmür,
Dərd-qəmim tükənmir, həsrətim bitmir,
Harayım, fəryadım heç yerə yetmir,
Qəddim yaya dönüb ey, Dərələyəz!
Bədəndə qalmayıb hey, Dərələyəz!
Mən səni anıram hey, Dərələyəz!

* * *

Yağı düşmən bizi çöllərə salıb,
Sonalı göllərim sonasız qalıb,
Səndə cavanlığım, xatirəm qalıb,
Yaman ağır keçir il, Dərələyəz!
Ətrini gətirmir yel, Dərələyəz!
Qəlbimdən kədəri sil, Dərələyəz!

* * *

Səfalı, şəfalı Cənnət bağımsan,
Həkimim, təbibim, sən loğmanımsan,
Heç kimə verмərəm, öz diyarımsan,
Həsən Mirzə gələr döz, Dərələyəz!
Yağının başını əz, Dərələyəz!
Didərgin elini gəz, Dərələyəz!

* * *

Sən mənim anamsan, Cənnət bağımsan,
Yurdumsan, yuvamsan, başda tacımsan,
Canımsan, qanımsan, şah damarımsan,
Sən dağ vüqarımsan, ay Dərələyəz!
Doğma diyarımsan, ay Dərələyəz!
Ana torpağımsan, ay Dərələyəz!

* * *

Elimi Vətənə qaytar, ay Allah!
Yurduma, yuvama qaytar, ay Allah!
Həsrətdən qamətim yaya dönübdü,
Həsəni bu dərddən qurtar, ay Allah!

## OLARMI?

*Osman Sarıvəllinin «Olarmı?» rədifli qoşmasına nəzirə*

Niyə kədərlisən, niyə qəmlisən,
Dərdini səninlə bölüm, olarmı?
Kirpiyindən leysan kimi tökülən,
Gözünün yaşını silim, olarmı?

Gözlərimdə sən hamıdan gözəlsən,
Gülərüzlü, şirindilli gözəlsən,
Əhdə sadiq, eşqə sadiq gözəlsən,
Cığa telə çiçək düzüm, olarmı?

Ömrüm gilə-gilə əriyib gedir,
Bəzən silə-silə əriyib gedir,
Gözəlim, baharım əriyib gedir,
Gül baxçana qonaq gəlim, olarmı?

Hürisən, pərisən, mələk misalsan,
Həkimsən, təbibsən, məhi-tabansan
Həsənin dərdinə çarə, dərmansan,
Çarəyə, dərmana gəlim, olarmı?

*Bakı, 26 noyabr 1998*

## AY NARINC XATIN

Yox yerdən yaratdın «Pəri məclisi»n,
Saz-söz vurğunusan, ay Narınc Xatın!
Dünyaya tanıtdın «Pəri məclisi»n,
Elin ər qızısan, ay Narınc Xatın!

Şeir yazdın, hikmət dolu söz dedin,
Hər kəlməni sərrast dedin, düz dedin.
Pərilərə könüllərdə gəz dedin,
Qoşqar vüqarlısan, ay Narınc Xatın!

«Dilqəmi»də qəmə batdın, qəm yedin,
«Kərəmi»də nalə çəkdim, inlədin.
«Qaytarma»da yurd həsrətin söylədin,
Araz məlallısan, ay Narınc Xatın!

Seçdin söz sərrafın, sazı duyanı,
Qəmli Gülayəni, dərdli Butanı,
Əziz tutdun Dilarəni, Tərlanı,
Durna qatarlısan, ay Narınc Xatın!

Zülfiyyənin sazı qəlbi dağlayır,
Ulduz «Misri» üstə çoşur, çağlayır,
Solmaz can evində muğam saxlayır,
Axar-baxarlısan, ay Narınc Xatın!

Gülarəni, Kəmaləni sevir el,
Misralara sığal çəkir Cığatel,
Gültəkinə gəlgəl deyir sazda tel,
Qollu-qanadlısan, ay Narınc Xatın!

Məclisə ruh verir Tellinin nazı,
Məlahətli səsi, gözəl avazı,
Qorqud yadigarı müqəddəs sazı,
Ellərə yayırsan, ay narınc Xatın!

Sağ-solunda zər-zibalı pərilər,
Dil açanda məftun olur könüllər.
Qoy açanda belə çetdə bülbüllər.
Sona diyarlısan, ay Narınc Xatın!

Dastanlar yaratdın el gəzə-gəzə,
Məhəbbətdən yazdın can üzə-üzə,
Həsən Mirzə istər yetəsən yüzə,
Ruhən tər-təzəsən, ay Narınc Xatın!

*Bakı, 2 noyabr 2002*

## AZƏRİ QIZI

***Azərbaycan qızlarına 8 Mart***
***Beynəlxalq Qadınlar günü münasibətilə***

Allah pay veribdir ona naxışı,
Nuri təcalladır Azəri qızı.
Can alır, qan salır xumar baxışı,
Bir ay parçasıdır Azəri qızı.

Sözünə sadiqdir, ilqarı düzdür,
İncəbel, şirindil, o lalə üzdür,
Dərdindən öləni əllidir, yüzdür,
Çəmən turacıdır Azəri qızı.

Tər qönçədir keçən yaşı bilinmir,
Həmişə bahardır, qışı bilinmir,
Yaqut tək parlaqdır, daşı bilinmir,
Günəşlə bacıdır Azəri qızı.

Özilə gəzdirir baharı, yazı,
Aşiqi öldürür qəmzəsi, nazı,
Xəstəni sağaldır gözəl avazı,
Dərd-qəm əlacıdır Azəri qızı.

Mina gərdən göz oxşayır, can alır,
Rəssamı ram edir, kəməndə salır,
Kirpik oxdur eşq əhlini oxlayır,
Gözəllər tacıdır, Azəri qızı.

*Bakı, 8 mart 2005*

## TAPIN GƏTİRİN

Niyə qan-yaş tökür, niyə ağlayır,
O qıza nə olub, tapın gətirin!
Fəryadı, naləsi ürək dağlayır,
O su sonasını tapın gətirin!

Üzə baxan kimi qəlbi oxuyur,
Bağ-baxçası müşkü-ənbər qoxuyur,
İnsana xoş sözdən çələng toxuyur,
O sehrikar qızı tapın gətirin!

Ağ bədən, ağ buxaq, incəbellidir,
Qaraqaş, qaragöz, siyahtellidir,
Şux yeriş, gülərüz, şirindillidir,
O ağ göyərçini tapın gətirin!

Ədası da gözəl, özü də gözəl,
Söhbəti də gözəl, sözü də gözəl,
Qəmzəsi də gözəl, nazı da gözəl,
O nazlı dilbəri tapın gətirin!

Göz oxşayır tovuz kimi naxışı,
Canlar alır oğrun-oğrun baxışı,
Rəssamı ram edir ceyran duruşu,
O Ahu-Ceyranı tapın gətirin!

Kim qəlbinə dəydi o şux gözəlin?
Hara uçub getdi o şux nazənin?
Şair təbiətli Həsən Mirzənin,
İlham pərisini tapın gətirin!

*Bakı, dekabr, 2000*

## GÖZƏLDİR

Bir həkim hər səhər nəbzimə baxır,
Gülər üzü, xoş rəftarı gözəldir.
Duyan könülləri yandırıb yaxır
Şirin dili, şəkər sözü gözəldir.

Xaliq heç bir payın kəsməyib ondan,
Qıyqacı baxanda olursan candan.
Mələk yaradıbdı onu yaradan,
Ağ üzündə zənəxdanı gözəldir.

Cığa teli tökülüb ağ buxağa,
Ala gözü şölə verir yanağa,
Çoxu istər ola ona sadağa,
Çünki onun hər ədası gözəldir.

Yeriyəndə sanki kəklikdi, səkir,
Oğrun baxışları qəlbə dağ çəkir,
Görün indi Həsən Mirzə nə çəkir?
Gəlişi də, gedişi də gözəldir.

*Bakı, Nefçilər xəstəxanası,*
*21 iyul 2002*

Yetmiş il yolları bağladı yağı,
Qoymadı üzünü görməyə, Təbriz!
Sinəmi yandırdı, dağladı yağı,
Qoymadı gülünü dərməyə, Təbriz!
Qardaşı, bacını görməyə, Təbriz!

Gəlmişəm üççə gün qoynunda qalam,
Qardaş tək qolumu boynuna salam,
Başına dolanam, qadanı alam,
Səs ver kamanına, sazına Təbriz!
Qovuş baharına, yazına, Təbriz!

İllərdən ən əziz ilin gəlibdir,
Görüşə ulusun, elin gəlibdir,
Parlamandan çoxlu Ərən gəlibdir,
Səninlə dərdini bölməyə, Təbriz!
Qəlbindən niskili silməyə, Təbriz!

Baxdım, heyran oldum, Ellər gölünə,
Qar düşmüşdü çiçəyə, gülünə,
Şəhriyarın doğma, şirin dilinə,
Qurbanam, qurbanam, qurbanam, Təbriz!
Səttərxan elinə qurbanam Təbriz!

O taylı, bu taylı boyların birdir,
Güneyli-Quzeyli soyların birdir,
Dərd-qəmin, ələmin, toyların birdir,
Qardaşıq, qardaşı unutma, Təbriz!
Həsən Mirzəni də unutma, Təbriz!

*Təbriz, 26 dekabr 1998*

## *DEYİŞMƏ*

### DƏRƏLƏYƏZDƏ
### *(Aşıq Mehdi ilə deyişmə)*

*Aşıq Mehdi*
Atam Muradtəpə, anam Bolbulaq,
Yaraşır deməyə söz Dərələzdə.
Yayın istisində xəstə istəsə,
Taparsan çınqıldan buz Dərələzdə.

*Həsən Mirzə*
A Mehdi! Bilirsən şair deyiləm,
Sənin tək deyəm söz Dərələyəzdə.
Yaddan çıxanları yada salıram,
Sən bir də dolan, gəz Dərələyəzdə.

*Aşıq Mehdi*
Soyuqbulaq yaylaqların gözüdü,
Soğanlı dağ çəmənidi, düzüdü,
Versin dağı aşıqların sözüdü,
Baxmaqla doymayır göz Dərələzdə.

*Həsən Mirzə*
Hasardır Zəngəzur, Kəlbəcər, Göyçə,
Naxçıvan, Şərurdüz, Vedi, Əyricə,
Açardı Ağmanqan, Ağrı, Əlincə,
Bunları şerə düz Dərələyəzdə.

*Aşıq Mehdi*
Dağ döşündə lalə üstə qana bax,
Qabaxlıda pətəkdəki şana bax,
Qovuşuqda sən şöhrətə, şana bax,
Ömr edir, qocalar yüz Dərələzdə.

*Həsən Mirzə*
Qəndbölən Nəbidən qalıb yadigar,
Dədəli körpüsün söküb ruzigar,
Xalaclar yurdunda lalə füsünkar,
Əl uzat, birin üz Dərələyəzdə.

*Aşıq Mehdi*
Qalaser kənd qonşularla yarışır,
Canı kəndi ulduzlara qarışır,
Ələyəzdə dost-dostuna sarışır,
Dostluğa mehriban söz Dərələzdə.

*Həsən Mirzə*
Qayalardan gəlir Nəbinin səsi,
Calal bəylə gedən cəngi, nərəsi,
Aşıq Qəhrəmanın zil zəngulәsi,
Söylənir payız, yaz Dərələyəzdə.

*Aşıq Mehdi*
Gülüdüzdü bu yerlərin əsası,
Qoymaz yağı düşmənlərdə qisası,
Gədikvəngdir Arpaçayın binası,
Çiçəyi solmayan yaz Dərələzdə.

*Həsən Mirzə*
Yetişib çox aşıq Horsda, Sallıda,
Herherdə, Ərgəzdə, Zeytədə, Culda,
Çeşidlər vurula, xalça xalıda,
Üstdən asıla saz Dərələyəzdə.

*Aşıq Mehdi*
Danzik, Qozulcada gözüm qalıbdı,
Ardaraz kəndində sözüm qalıbdı,
Dərmədim bağımda üzüm qalıbdı,
Qoyma, yadlar dərsin üz Dərələzdə.

*Həsən Mirzə*
Salsalın qalası məğrur, vüqarlı,
Qoçdaşlı qəbirlər sinəsi dağlı,
Alban kilsələri sirli-soraqlı,
Salıb tarixə iz Dərələyəzdə.

*Aşıq Mehdi*
Horsun yaylağıdı Muradtəpəsi,
Könlüm istər Arpa çaydan öpəsi,
Təndirin lavaşı, cəviz təpəsi,
Gələcək süfrəyə tez Dərələzdə.

*Həsən Mirzə*
Şah İsmayıl burda qılınc çalıbdı,
Teymurləng Keşkənddə məskən salıbdı,
Yolda Karvansara şahdan qalıbdı,
Qaldımı bir oğuz Dərələyəzdə?

*Aşıq Mehdi*
Qaraqaya arıların pətəyi,
Aynəzirdi o dağların ətəyi,
İlanlıdı çobanların tütəyi,
Çağırır sürünü yaz Dərələzdə.

*Həsən Mirzə*
Bu yerdə çox aşıq olubdu qonaq,
Abbasdan, Valehdən tutubdu soraq,
Hamı sinədəftər aç varaq-varaq,
Sevilir söhbət, saz Dərələyəzdə.

*Aşıq Mehdi*
Arpadan, Qoytuldan çıxsan Başkəndə,
Almalı, Məlişkə, Çanaxçı kəndə,
Qaravəng, Ortakənd, Yelpin, Keşkənddə,
Əyyamdan taparsan iz Dərələzdə.

*Həsən Mirzə*
Ağ aşıqla Alı başdan binadan,
Saz tutub, bu yerdə ediblər dövran,
Ələsgər, Saraclı, o Növrəs İman,
Hikmət açıbdı yüz Dərələyəzdə.

*Aşıq Mehdi*
Bülbülölən o yerlərin xalı dağ,
Yanıx, Əyər dövlətidi, malı dağ,
Alxanpəyə vətənimin balı dağ,
Nemətdən süfrəyə düz Dərələzdə.

*Həsən Mirzə*
Dağa qartal təki qonan Qoşavəng,
Cəvizdən elə pay verən Güneyvəng,
Alban yadigarı – ulu Şadıvəng,
Deyir gəl məni gəz Dərələyəzdə.

*Aşıq Mehdi*
Çıraq, Tarpla, Terp, Köçbəklə yanaşı,
Leyliqaçan geyib əlvan qumaşı,
Çay kəndin füsünkar kəklikli daşı,
Bizə qismət oldu az Dərələzdə.

*Aşıq Mehdi*
Həsənkəndlə Hostun sönmüş çıraqdı,
Karvansara, Hortun dumanlı dağdı.
Nəbilər, Horbadıq meyvəli bağdı,
Xartdıqda çəməni gəz Dərələzdə.

*Həsən Mirzə*
Qız-gəlini qoçaq, məğrur, vüqarlı,
Şirin təbəssümlü, Həcər misallı,
Al yanaq, ağ buxaq, ağ tirmə şallı,
Çox gözəl gördük biz Dərələyəzdə.

*Həsən Mirzə*
Gözləri oxşayır gülü, nərgizi,
Həcərtək at çapır gəlini, qızı,
Axundun quranı, İmanın sazı,
Hərəsi bir ulduz Dərələyəzdə.

*Aşıq Mehdi*
Təkədonduranda yatmaq istəsən,
Ovçu Qəhrəmana çatmaq istəsən,
Təkəni qayada atmaq istəsən,
Qoymalısan yerə diz Dərələzdə.

*Aşıq Mehdi*
Amağu, Zeytədən yen Cığataya,
Haxlı, Qurtqulaqda Təkəliqaya,
Mozda, Daylaqlıda neçə nər maya,
Bax, qoyub gedibdi iz Dərələzdə.

*Həsən Mirzə*
Bu yurdda çox olub dava-qalmaqal,
Yapona dağ çəkib qəhrəman Calal,
Hürünün aşığa verdiyi sual,
İtib-batmasın tez Dərələyəzdə.

*Həsən Mirzə*
Baş kəsib, döş kəsib burda qəsbikar,
Andranik adlı tay qulaq, murdar,
Süngüyə çəkilib körpə uşaqlar,
Gəl də bu dərdə döz Dərələyəzdə!

*Aşıq Mehdi*
Cul kəndi məşhurdu bağlı, meşəli,
Axta, Gomur, Kabud tər bənövşəli,
Hüseynlidə hər kəs min bir peşəli,
Çəkillər bir-birə naz Dərələzdə.

*Aşıq Mehdi*
Kotannıdan aşsan Corrannı kəndə,
Azarsan Göydağda, dumanda, çəndə,
Bir doyunca əyləş Orucöləndə,
Aşıq, hər nə görsən yaz Dərələzdə.

*Həsən Mirzə*
Oğullar yetişib qorxmaz, yenilməz,
Xacoya diz çökməz, haya əyilməz,
Dosta sədaqətli, çörək itirməz,
Çoxdur Qorquddan iz Dərələyəzdə.

*Həsən Mirzə*
Dilində Füzuli, Sədi, Ələsgər,
Elin ağsaqqalı bir sinədəftər,
Atam İbrahimdi qoy bilsin ellər,
Haya çökdürüb diz Dərələyəzdə.

*Aşıq Mehdi*
Arınc, Ərgəz, Novlar tər yasəməndi,
Göyabbas, Gendərə yaşıl çəməndi,
Gümüşxana, Zirək, Səfolu kəndi,
Dərdlərə dərmandı gəz Dərələzdə.

*Həsən Mirzə*
Süsənli, sünbüllü uca dağları,
Laləli, nərgizli baxça, bağları,
Həmdəmlə gəzəsən bahar çağları,
Edəsən ömrü yüz Dərələyəzdə.

*Aşıq Mehdi*
Çivəni, Heşini gəzməmiş olma,
Sallının nərgizin üzməmiş olma,
Ağkəndin çəmənin əzməmiş olma,
Torpaqda gör nə var, yüz Dərələzdə.

*Həsən Mirzə*
Laçın qayalarda qartal qıy vurur,
Şişbuynuz təkələr nizama durur,
Xınalı kəkliyə nərgiz göz vurur,
Gül-gülə edir naz Dərələyəzdə.

*Aşıq Mehdi*
Aşıq Cəlil aşıqların atası,
Aşıq varmı Fətullaha çatası,
Aşıq Haqverdidi nənəm butası,
Bəhman Dərələzdə, söz Dərələzdə.

*Həsən Mirzə*
Kaş ki, o yerləri bir də gəzəydik,
Nərgizin gözündən öpüb, üzəydik,
Nəticə toyunda yallı süzəydik,
İşlər olaydı düz Dərələyəzdə.

*Aşıq Mehdi*
Herherdə doğuldum, yetirdi zaman,
Mayam Bulaqlardı, anam Zərnişan,
Qardaşım, yaxın gəl, söyləyim pünhan,
Mehdiyə şərbəti süz Dərələzdə.

*Həsən Mirzə*
A Mehdi, vəsf elə uca dağları,
Türk-Oğuz yurdunu, göy yaylaqları,
Lilparlı, yarpızlı buz bulaqları,
Həsənlə birgə gəz Dərələyəzdə.

*Bakı, 1997*

## "QALDI" - "QALMAZ"
*(Aşıq Mehdi ilə deyişmə)*

*Aşıq Mehdi*
Gəl sənə söyləyim əziz qardaşım,
Vətən Dərələyəz Xaçoya qaldı.
Qumlunun bulağı, Muradtəpəsi,
Məryəmin dığası Vaçoya qaldı.

*Həsən Mirzə*
Aşıq Mehdi məğrur dayan, məğrur dur,
Vətən Dərələyəz Xaçoya qalmaz.
Qumlunun bulağı, Muradtəpəsi,
Məryəmin dığası Vaçoya qalmaz.

*Aşıq Mehdi*
Yazının yaylağı, Culun havası,
Kəkliyin xınası, qartal yuvası,
Meşənin nərgizi, dağlar lalası,
Arama, Markara, Açoya qaldı.

*Həsən Mirzə*
Aç tarixi keçmişinə nəzər sal,
Göytürkləri, Atillanı yada sal,
Teymurləngdən, Bayaziddən qılınc al,
Döyüş, vuruş, yurdum Açoya qalmaz.

*Aşıq Mehdi*
Qayaların əksi, igid nərəsi,
Əyricə yaylağı, Cığın dərəsi.
Becənin şan balı, yağın kərəsi,
Andoya, Samsona, Qıncoya qaldı.

*Həsən Mirzə*
Vətən yada qalsa Tomris qan ağlar,
Babək daş məzarda od tutub yanar,
Şah Xətaim bil ki, Allahı danar,
Hünər göstər, yuvan Qıncoya qalmaz.

*Aşıq Mehdi*
Balbasın qaymağı, küpənin yağı,
Arıncın balığı, palıd ocağı,
Keçə alaçığı, Qısırın dağı,
Qarnikə, Sərkizə, Qısdoya qaldı.

*Həsən Mirzə*
Soğanlı, Versdağı, Təkədonduran,
Ətəyi bənövşə, başı çən, duman,
Cənnət Dərələyəz, o gözəl məkan
Dıroya, Seroya, Armoya qalmaz.

*Həsən Mirzə*
Atatürkün qeyrətini bilir hay,
Səttar xanın cürətini bilir hay,
Heydərimin qüdrətini bilir hay,
Qorxma, ərlər yurdu Laçoya qalmaz.

*Aşıq Mehdi*
A Mehdi, dağlarda yaşıl yaylaqlar,
Talası baldırğan, sərin bulaqlar,
Meşələrdə közü düşmüş ocaqlar,
Vazgenə, Poqosa, Maşoya qaldı.

*Aşıq Mehdi*
Bolbulağın suyu, Ağxaç təpəsi,
Xınalı kəkliyin çolpa fərəsi,
Təndirin lavaşı, cəviz təpəsi,
Vaskana, Civana, Armoya qaldı.

*Həsən Mirzə*
Süsənli-sünbüllü yaşıl yaylaqlar,
Lilparlı, yarpızlı şır-şır bulaqlar,
Dədəm Qorqud gəzən qədim oylaqlar,
Həsən deyər heç vaxt Maşoya qalmaz,
Vətən Dərələyəz Xaçoya qalmaz!

***Bakı, 10 fevral 2000***

## *"AY HƏSƏN MİRZƏ" – "BUTA"*
*(Buta ilə deyişməsi)*

*Buta*
Gəl məni dindirmə fəğan eylərəm,
Yaman yaralıyam, ay Həsən Mirzə!
Didərgin ellərin qərib qiziyam,
Ağlı-qaralıyam, ay Həsən Mirzə!

*Həsən Mirzə*
Sən Dədə Camala heykəl qoymusan,
Heykəlin ləldən təməl qoymusan,
Şer dünyamıza məşəl qoymusan,
İlham ümmanında üzürsən, Buta!

*Həsən Mirzə*
Saz-söz xiridarı, dillər əzbəri,
Yenə zirvələrdə süzürsən, Buta!
Söz mülkündən seçib ləli, gövhəri,
İnci tək misrana düzürsən, Buta!

*Buta*
Alimsən, aqilsən, şairsən qardaş,
Canımda od, alov, kipriyimdə yaş,
Vurub gözüm tökdü, kim düzəltdi qaş,
Başı bəlalıyam, ay Həsən Mirzə!

*Buta*
Göyçə göl sinəmin çarpaz dağıdır,
Qarabağ bəxtimin qara bağıdır,
Yurdum başdan-başa qəm oyləğıdır,
Araz məlallıyam, ay Həsən Mirzə!

*Həsən Mirzə*
Qoşmaları yana-yana yazırsan,
Sözlərini qatıb qana yazırsan,
Hikmətləri ruha-cana yazırsan,
Şerimizə çələng hörürsən, Buta!

*Buta*

Həmzələr fəndilə aldı Qıratı,
Koroğlu bəyənib minməz Düratı,
Çən-duman bürüyüb eli, elatı,
Bağrı paralıyam, ay Həsən Mirzə!

*Həsən Mirzə*

Yurdum əldən gedib dözə bilmirəm,
Ağsaqqal tək eldə gəzə bilmirəm,
Toy-düyündə daha süzə bilmirəm,
Sən bu dərdə necə dözürsən, Buta!?

*Buta*

Dərdi-qəm əlindən bad oldu Buta,
Özünü yandıran od oldu Buta,
Güllü Baş Keçidin yad oldu Buta,
Eldən aralıyam, ay Həsən Mirzə!

*Həsən Mirzə*

Eldən elə gedib Hüsen Saraclı,
Əmrah Gülməmmədov, Əhməd Sadaxlı,
Görüblər atamı sazlı, qonaqlı,
Sən Həsən Mirzəsiz gəzirsən, Buta!

***Bakı, 10 aprel 2000***

*Həsən MIRZƏ*

## VƏTƏN BAYATILARI

Dərələyəz vətənim,
Yoxdur gedib gələnim,
Haylar yurdumda qalsa,
Yanar qəbrim, kəfənim.

Dərələz yada qalıb,
Məni kədər-qəm alıb,
Vətəndən ayrılandan,
Rəngim-rufum saralıb.

Dərələyəz qədimsən,
Hər bir yerdən qədimsən,
Sənə həsrət qalandan
Əlif qəddim əyifsən.

Dərələyəz dardadı,
Qızıl gülü sardadı,
Aləm cənnətə dönsə
Mənim gözüm ordadı.

Soğannını qar aldı,
Duman aldı, qar aldı,
Süsən-sünbül, bənövşə,
Elsiz qaldı saraldı.

Laçın qayalı yurdum,
Qədim oylaqlı yurdum,
Elin səni unutmur,
Qayıdıb gələr yurdum.

Təkədonduran ağlar,
Başına qara bağlar,
Keşik çəkən Adamdaş,
Hər gün el deyib ağlar.

## ƏLİ ƏKBƏR

Ələkbərov Əli Hüseyn oğlu 1927-ci ildə Yeğeqnadzor rayonunun Qovuşuq kəndində anadan olmuşdur. 1950-ci ildə Qovuşuq orta məktəbini bitirdikdən sonra bir müddət müəllim işləmişdir. 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1968-ci ildə oranı bitirmişdir. 1965-ci ildən 1988-ci ilə qədər Qovuşuq kənd orta məktəbində dil və ədəbiyyat müəllimi işləmişdir.

Müəllim işləməklə yanaşı, o, "Əli Əkbər" təxəllüsü ilə bədii yaradıcılıqla da məşğul olmuşdur. Dərələyəzdə olarkən yazdığı şerlərinin bir hissəsi "Sovet Ermənistanı" qəzeti və "Ədəbi Ermənistan" almanaxında çap olunmuşdur. Onun yüzlərlə şeri, çoxlu poemaları və mənzum dram əsərləri vardır ki, bunların bir hissəsi iqtisadi çətinlik üzündən hələlik çap olunmamışdır. 1988-ci il deportasiyasından sonra Ermənistandan qovulan bir qaçqın kimi o Ceyranbatan qəsəbəsində məskunlaşmışdır. Hal-hazırda Ceyranbatan orta məktəbində müəllim işləyir.

### SARITEL

Gözəllərin gözəlisən,
Yoxdu sənə tay, Sarıtel.
İncə belə çox yaraşır,
Gümüş kəmər, ay Sarıtel.

Könlümü əlimdən aldın,
Ürəyimə dərdi saldın,
Qəlbimi eşqinlə çaldın,
Sözüm yoxdu day, Sarıtel.

Sən olmusan dağ çiçəyi,
Dodaq qaymaq, gül ləçəyi,
Tər buxaqda xal göyçəyi,
Qaşlar olub yay, Sarıtel.

Dağ başında qar görünür,
Ağ sinədə nar görünür,
Köynək ona dar görünür,
Olsun bizə pay, Sarıtel.

Gəl bulama sən başını,
Çatma o qələm qaşını,
Tökmə Əlinin yaşını,
Axıb olar çay, Sarıtel.

*30 aprel 1996*

### SONA

Baharın gülşən çağında,
Seyrə çıxıb gəzən sona.
Süzgün baxıb can alırsan,
Qəlbimizi əzən sona.

Sökülür könül sarayım,
Sənsiz keçmiş günüm, ayım,
Baxmağınan necə doyum?
Sinəmə od düzən sona.

Dolmusan sevgi yaşına,
Heyranam çatma qaşına,
Hər gün dolannam başına,
Dodağını büzən sona.

Gəl əlini ver əlimə,
Kəmər bağlansın belinə,
Qızıl sancaq tax telinə,
Gəlin kimi bəzən sona.

Əlidir eşqinə yanan,
Məcnun, tək candan usanan,
İnsaf eylə, sən ey canan!
Ürəyimi üzən sona.

*10 iyun 2004*

## VURULMUŞAM

Bir gözələ vurulmuşam,
Sinəm üstə çəkib dağı.
Şirin dilli bir mələkdi,
Dodaqları yaz qaymağı.

Dindirəndə naz eləyir,
Süzgün baxıb toz eləyir,
Eləsə də az eləyir,
Eşqin coşub-daşan çağı.

Seyrə çıxıb tül bürünür,
Hörüklər yerlə sürünür,
Tər sinədə nar görünür,
Qoynu olub cənnət bağı.

Şəvəyə dönüb qaş-gözü,
Şirin şəkərdi hər sözü,
Gözəllikdə təkdi özü,
Xal bəzəyir gül yanağı.

Bir azəri balasıdır,
Gözəllərin lalasıdır,
Kimə qismət olasıdır.
Onun bu gülşən qucağı.

Eşq oduna yanma Əli,
Olarsan Məcnun tək dəli,
Yetişməsə qadir əli,
Yanarmı bəxtin çırağı.

*18 oktyabr 1998*

## DƏLİ KÖNÜL

Coşdun yenə dəli könül,
Sellər kimi çağlayarsan.
İtirmisən nazlı yarı,
Qan-yaş töküb ağlayarsan.

Daha əlin yetməz yara,
Bulunmaz dərdinə çara,
Sən qaldın tənha, avara,
Kimə könül bağlayarsan?

Hey axar gözünün yaşı,
Əldən getdi can sirdaşı,
Alışar bağrının başı,
Eşq odilə dağlayarsan.

Keçən günlər düşər yada,
Qalanarsan oddan-oda,
Xoş günlərin getdi bada,
Xatirəndə saxlayarsan.

Taleyin gəldimi qara?
Bağrın oldu para-para,
Əli, dözsən bu dağlara,
Ölənəcən ağlayarsan.

*25 aprel 1995*

## QURBAN OLUM

Ay qız, üz yana tökülən,
Tellərinə qurban olum.
Alma yanaqda açılan,
Güllərinə qurban olum.

Bir de görüm haralısan?
Qaşı-gözü qaralısan,
Hansı elin maralısan!
Ellərinə qurban olum.

Yurdumun gözəl qızısan,
Ömrümün dan ulduzusan,
Eşqin sədəfli sazısan,
Tellərinə qurban olum.

Qoynun dönüb bir gülşənə,
Büllur olub mərmər sinə,
Doğulduğun aya, günə,
İllərinə qurban olum.

İnan, candan keçəsiyəm,
Zəhər versən içəsiyəm,
Səni təbib seçəsiyəm,
Əllərinə qurban olum.

Əli yarın qəhrin çəkər,
Sənsiz ağlar, qan-yaş tökər,
Sözü dürlü, şirin şəkər,
Dillərinə qurban olum.

*2 fevral 1997*

## DÖNMƏRƏM

Gülər üzlüm, incə bellim,
Sən dönsən də, mən dönmərəm.
Yanaqları qızılgüllüm,
Sən dönsən də, mən dönmərəm.

Məni topa qoysalar da,
Gözlərimi oysalar da,
Nəsimitək soysalar da,
Sən dönsən də, mən dönmərəm.

Qurbanam gülüm, adına,
Salma məni eşq oduna,
Sözlərini sal yadına,
Sən dönsən də, mən dönmərəm.

Göylərdən daş tökülsə də,
Gözümdən yaş tökülsə də,
Qəlbim evi sökülsə də,
Sən dönsən də, mən dönmərəm.

Yolunda candan keçmişəm,
Eşqin badəsin içmişəm,
Mən təkcə səni seçmişəm,
Sən dönsən də, mən dönmərəm.

Günəşmisən, sən aymısan?
Bağrımın başın oymusan,
Əlini ağlar qoymusan,
Sən dönsən də, mən dönmərəm.

*11 iyun 2004*

## NAZPƏRİ

Yanaqların Lalə kimi,
Oxşadın gülə, Nazpəri!
Gözlərin piyalə kimi,
Düşmüsən dilə, Nazpəri!

Gəzirsən nazlı-qəmzəli,
Olmusan ellər gözəli,
Gəl sənə güllər gözəli,
Verim düz telə, Nazpəri!

Dağ başında qar görünür,
Bağçanızda bar görünür,
Ağ sinədə nar görünür,
Qoy dərim belə, Nazpəri!

Süzgün baxıb can alırsan,
Məni odlara salırsan,
Ayrılıq sazın çalırsan,
Əl sürtmə telə, Nazpəri!

Əli sənsiz qan ağlayar,
Qəlbinə yara bağlayar,
Eşqin yasını saxlayar,
Hər ildən ilə Nazpəri!

*20 mart 1961*

## GÖZƏL

Gəl süzdürüb qaş-gözünü,
Oğrun-oğrun baxma, gözəl!
Götürüb eşqin közünü,
Sinəm üstə yaxma, gözəl!

Bağçamızda açan gülsən,
Ağzımdakı şirin dilsən,
Gəl gözümün yaşın sil sən,
Məhəbbəti çaxma, gözəl!

Təzə dəymiş nar olmusan,
Quzeydəki qar olmusan,
Bir istəkli yar olmusan,
Özgəsinə axma gözəl!

Heyran etmisən çoxunu,
Aldın əldən var-yoxunu,
Sən allah, eşqin oxunu,
Ürəyimə taxma, gözəl!

Gəl öldürmə sən Əlini,
Çəkmə əlimdən əlini,
Anamın gözəl gəlini,
Sözü başa qaxma, gözəl!

*20 avqust 1991*

## GÖZƏLİN İZTİRABI

Tale üzə gülmədi,
Göz yaşımı silmədi,
Hamının yarı gəldi,
Mənim yarım gəlmədi.

Dağları duman aldı,
Çən gəldi, duman aldı,
Yolunu gözləməkdən,
Gözümdə sarı qaldı.

Yarım, sən hara getdin?
Günümü qara etdin,
Niyə gəlib çıxmırsan?,
Qəlbimi yara etdin.

Tənha gəzə bilmirəm,
Çiçək üzə bilmirəm,
Niyə məndən küsmüsən?
Sənsiz dözə bilmirəm.

Ürəyimi oymusan,
Boynu buruq qoymusan,
Özgəsinə uyub sən,
Yoxsa məndən doymusan?

Keçdi neçə il, yarım,
Gəl dərdimi bil, yarım,
Axan bu göz yaşımı,
Öz əlinlə sil, yarım.

*29 may 2001*

## GÖRMƏDİM

Gözəllərin gözəlisən,
Hüsnün kimi ay görmədim.
Çatma qaşlar dartılıbdı,
Bərabəri yay görmədim.

Qara gülün tər buxaqda,
Sözün şirin dil-dodaqda.
Qızılgülün var yanaqda,
Maral, sənə tay görmədim.

Əli vurğun olub sənə,
Qoynu dolu bir gülşənə,
Allahım göndərib mənə,
Sən tək şirin pay görmədim.

*19 avqust 1991*

## GÜLƏR

Gözəllikdə yoxdu tayın,
Olmusan bir sona, Gülər.
Qüdrətdənmi çəkilibdi?
Bu gözəllik sana, Gülər.

Hələ körpə bir sonasan,
Eşqin gölünə qonasan,
Özünü mələk sanasan,
Baxasan dörd yana, Gülər.

Lalə açılıb yanaqda,
Qaymaqdır incə dodaq da,
Xal bəzənib tər buxaqda,
Girmisən gül dona, Gülər.

Büllur bədən, incə belli,
Mərmər sinə, ipək dilli,
Sözü şəkər, şirin dilli,
Yaraşırsan buna, Gülər.

Nar sinəndə təzə dəyib,
Şah budağın boynun əyib,
Gözəlliyin donun geyib,
Dəyərsən min cana, Gülər.

Süzgün baxış şeir, qəzəl,
Nazı-qəmzən ondan əzəl,
Görən, səni belə gözəl,
Doğub hansı ana, Gülər.

Gözəllikdə gültək qalıb,
Ürəklərə bir od salıb,
Əlinin qəlbini alıb,
Döndərirsən qana, Gülər.

*28 aprel 2000*

## *USTADNAMƏ-NƏSİHƏTNAMƏ*

## DÜNYADI

Qardaş, bu dünyanın uyma felinə
Mərdi namərdlərə satan dünyadı.
Gözlə düşməyəsən daşqın selinə,
Aparıb ümmana atan dünyadı.

İnanmaq olarmı çərxi-fələyə?
O bir şeytan olub girir ürəyə,
Dostluqda kəsilən halal çörəyə,
Gizlincə zəhəri qatan dünyadı.

Gədənin heç zaman olmaz hünəri,
Haqdan qurşanmayıb onun kəməri,
Yenilməz ərləri, mərd igidləri,
Aparıb qol-qola çatan dünyadı.

Çoxların görmüşəm özündən deyən,
Alçaqlıq cilidin əyninə geyən,
Səni çalmaq üçün fürsət gözləyən,
Şahmar ilan kimi yatan dünyadı.

Artıq keçib gedib mərdlik zamanı,
Coşa ürəyində, qəlbində qanı,
Ay Əli, de görüm yaxın dost hanı?
Hiyləlik içində batan dünyadı.

*3 mart 1986*

## GETDİ

Dostum, gileylənmə fani dünyadan,
Çoxları kamını almadı, getdi.
Aldanıb uydular dövlətə, vara,
Onlardan nişanə qalmadı, getdi.

İnsan daim sevər baharı, yazı,
Uçurmaz gölündən ördəyi, qazı,
Çıxarıb köynəkdən sədəfli sazı,
Nə deyim, çoxları çalmadı, getdi.

Baxırsan çoxları dəm verir sözə,
Qalxır zirvələrə enməyir düzə,
Özü bilə-bilə kül atır gözə,
Namərddə heç mərdlik olmadı, getdi.

Çalış ki, dostluqda sən gül əkəsən,
Dostluğun qədrini dost tək çəkəsən,
Dostluq himi eşib beton tökəsən,
Himlər qazılsa da dolmadı, getdi.

Ay Əli, gəl yorma daha özünü,
Nadanlara ucuz satma sözünü,
Sən ki deyən zaman sözün düzünü,
Çoxu heç ağlına salmadı getdi.

*5 oktyabr 1991*

## *VƏTƏN HƏSRƏTİ VƏ VƏTƏNİN TƏRƏNNÜMÜ*

## VURĞUNAM

Ey ana Vətənim! Azərbaycanım!
Hüsnündə açılan gülə vurğunam.
Sən mənim ciyərim, sən mənim canım,
Zərli geyindiyin tülə vurğunam.

Səhralara kanalları çəkilən,
Hər tərəfi bağça-bağa bükülən,
Qız-gəlinin üz yanına tökülən,
Sığallanmış durna telə vurğunam.

Durnaların qatarlaşıb uçanda,
Ceyranların hey hürküşüb qaçanda,
Tər çiçəklər qönçələrin açanda,
Gözəllik bürünən çölə vurğunam.

Neçə min qərinə, əsrlər keçib,
Nəsillər hey gəlib, nəsillər keçib,
Babalar ləlini, gövhərin seçib,
Bizə bəxş etdiyi dilə vurğunam.

Hər sözün bir inci, kəlməsi şirin,
Mənası qüdrətli, göylərdən dərin,
Coşub qucağında gen dərələrin,
Qoynunda çağlayan selə vurğunam.

Füsunkar yaradıb təbiət səni,
Gülşənə döndərib çayır-çəməni,
Baxdıqca ilhama gətirir məni,
Sonası çırpınan gölə vurğunam.

Nə gözəldi bağçaların, bağların,
Zirvəsi qartallı uca dağların,
Baharda cənnətə dönən çağların,
Əsən küləyinə, yelə vurğunam.

Torpağında min cür neymət bitirən,
Şöhrət üstə gündə şöhrət gətirən,
Nizamilər, Füzulilər yetirən,
Bu doğma yurduma, elə vurğunam.

*6 fevral 1987*

## AZƏRBAYCANIM

Sən ey ana Vətən, ey ana diyar!
Sənin torpağına, daşına qurban.
Bir tərəfin olub azad, bəxtiyar,
Bir tərəfdə axan yaşına qurban.

Sən odlar yurdusan, odlar ölkəsi,
Onunçün taleyin odlara düşdü.
Ürək tən bölündü, yarı hissəsi,
Arazın o tayı yadlara düşdü.

Çoxu yaralandı ayaqdan, əldən,
Amma sənin yaran ürəyindədir.
Təbrizim qoynunda doğulan ildən,
Zalimin zənciri biləyindədir.

Qəlbi parçalanan Azərbaycanım!
Daim əldən-ələ saldılar səni.
Vurdular sinənə qılınc yarası,
Şahmar ilan kimi çaldılar səni.

Sənin övladların ayrılıq daşın,
Birləşib üstündən atacaqdılar.
Bizdən ayrı düşən doğma qardaşın,
Arzusun bir-birə qatacaqdılar.

Ey doğma Vətənim, gəl qəmlər çəkmə!
Bülbül hər bağında ötüşəcəkdi.
Zaman gələcəkdi, göz yaşı tökmə,
Yaralı ürəyin bitişəcəkdi.

*27 noyabr 1969*

## İTİRMİŞƏM

Deyirsən ağlayıb, sızlama qardaş,
Vətən itirmişəm, çöl itirmişəm.
İndi qəmlər olub könlümə sirdaş,
Yaşılbaş sonalı göl itirmişəm.

Günəşi göylərdən nur töküb saçan,
Ovları sürilə hürküşüb qaçan,
Çölləri bəzəkli tər çiçək açan,
Min ətir çiləyən gül itirmişəm.

İnsana ruh verən dağlar havasın,
Doğma yurdumuzun kefin, safasın,
Ata-babamızın isti yuvasın,
Şənliklər dolusu il itirmişəm.

Baharda çayları kükrəyib coşan,
Dərin dərələrə sığmayıb aşan,
Suları büllur tək çağlayıb daşan,
Şaqqıldayıb axan sel itirmişəm.

Göylərə baş vuran uca dağları,
Ömürdən xoş keçən gözəl çağları,
Hər nemət yetirən cənnət bağları,
Al-yaşıl bürüyən tül itirmişəm.

Xəstəyə can verən bahar küləyin,
Şirin arzuların, şirin diləyin,
Fərəhlə çırpınan hər bir ürəyin,
Sındırıb sazını tel itirmişəm.

Zər-ziba yaylaqlar qoynunda gəzən,
Ülvi məhəbbətin güllərin üzən,
Toylarda, düyündə sona tək süzən,
Şən qızlı, gəlinli el itirmişəm.

*1 may 1994*

## SULTAN DƏRƏLƏYƏZ, XAN DƏRƏLƏYƏZ

Əzəl torpağısan Azərbaycanın,
Onunla bağlıdır sənin ad-sanın,
Qəlbimdə çağlayan qanımdır qanın,
Sultan Dərələyəz, xan Dərələyəz!

Oğuz babamızın yadigarısan,
Elin doğma yurdu, mülki, varısan,
Ömrümün ağ günü, ilk baharısan,
Sultan Dərələyəz, xan Dərələyəz!

Daşlarında kəkliklərin qaqqıldar,
Dərələrdən sellər-sular şaqqıldar,
Gur bulaqlar yerdən coşub paqqıldar,
Sultan Dərələyəz, xan Dərələyəz!

Uca bağlar al-yaşıla bürünür,
Ətəyində ağ dumanlar sürünür,
Meşələrin çox füsunkar görünür,
Sultan Dərələyəz, xan Dərələyəz!

Qız-gəlin nazlanıb süzgün baxardı,
Güllərindən dərib döşə taxardı,
Oğlanları yandırardı, yaxardı,
Sultan Dərələyəz, xan Dərələyəz!

Yaylaqların səf-səf olub düzülür,
Üz-gözündən şer yağıb süzülür,
Qəriblikdə vallah canım üzülür,
Sultan Dərələyəz, xan Dərələyəz!

Gecələr çaldıqca çoban tütəyi,
Yayırdı çöllərə bahar küləyi,
Cana gətirirdi qəmli ürəyi,
Sultan Dərələyəz, xan Dərələyəz!

Sürülər otlağa səpələnirdi,
Buludlar pambıq tək təpələnirdi,
Göllərin müncüq tək ləpələnirdi,
Sultan Dərələyəz, xan Dərələyəz!

Çayların mahnılar bəstələyirdi,
Baharın gül-çiçək dəstələyirdi,
Günəşin göylərdən nur ələyirdi,
Sultan Dərələyəz, xan Dərələyəz!

Toylu busatlıydı hər zaman halın,
Bənzəri yox idi o cəh-cəlalın,
Çiçəkdən süzülüb axardı balın,
Sultan Dərələyəz, xan Dərələyəz!

Bəxtiyar keçirdi ayın, illərin,
Nəğmə oxuyurdu axan sellərin,
Əlvan açılırdı qönçə güllərin,
Sultan Dərələyəz, xan Dərələyəz!

Xəyaldan baxıram hüsnünə hər an,
Bizi ayrı saldı bu alçaq zaman,
Günahsız elimə tutdular divan,
Sultan Dərələyəz, xan Dərələyəz!

Tapdaqlar altında qalıb çöllərin,
Sonası didərgin olub göllərin,
Sazın sinəsində susub tellərin,
Sultan Dərələyəz, xan Dərələyəz!

Qartalın zirvədən uzaqlaşıbdı,
Göylərin quzğunla qucaqlaşıbdı,
Dərdin ürəyimdə aşıb-daşıbdı,
Sultan Dərələyəz, xan Dərələyəz!

Şehli çəmənlərdə izim qalıbdı,
Mirvari düzlərdə gözüm qalıbdı,
Hələ deyilməmiş sözüm qalıbdı,
Sultan Dərələyəz, xan Dərələyəz!

Neçə nəsilləri yola salmısan,
O şan-şöhrətinlə hey ucalmısan,
İndi yağılarda girov qalmısan,
Sultan Dərələyəz, xan Dərələyəz!

Ayrılıq qəlbimi hey dartıb üzür,
Ümid kəsilməyib, hicrana dözür,
İndi qucağında gör kimlər gəzir,
Sultan Dərələyəz, xan Dərələyəz!

Açılaydı o bağlanmış yolların,
Bir dərəydim güllərini kolların,
Dolanaydı kaş boynuma qolların,
Sultan Dərələyəz, xan Dərələyəz!

Gələydim qoynunda bir daş olaydım,
Dərdinə-qəminə sirdaş olaydım,
İsti qucağında ölüb qalaydım,
Sultan Dərələyəz, xan Dərələyəz!

Üzümə vuraydı həzin yellərin,
Darayıb tökəydi günəş tellərin,
Qayıdıb gələydi qaçqın ellərin,
Sultan Dərələyəz, xan Dərələyəz!

Dağların başına qalxıb çıxaydım,
Bir doyunca yaylaqlara baxaydım,
Yağıları yandıraydım, yaxaydım,
Sultan Dərələyəz, xan Dərələyəz!

Bir içəydim kəkotulu çayını,
Çatdıraydım sənə şer payını,
Azaldaydım dərdin, qəmin sayını,
Sultan Dərələyəz, xan Dərələyəz!

Çiçəyini dəstələyib qoxlardım,
Çələng hörüb başımda tac saxlardım,
Oylaqları bir-bir gəzib oxlardım,
Sultan Dərələyəz, xan Dərələyəz!

Ürək qubar edir gəzsin dağları,
Nəğməkar bülbüllü, gülşən bağları,
Xəyaldan keçirir ötən çağları,
Sultan Dərələyəz, xan Dərələyəz!

Gözümdə canlanır hüsnü-camalın,
İndi xəbərsizik necədir halın,
Ayrılıq qəlbimə salıbdır xalın,
Sultan Dərələyəz, xan Dərələyəz!

Görüş həsrətilə yaşayırıq biz,
Sənsiz açılmayır bir an könlümüz,
Axan göz yaşımız olub bir dəniz,
Sultan Dərələyəz, xan Dərələyəz!

Çəmənin, çiçəyin, gülün solmasın,
Buludlar ağlayıb saçın yolmasın,
Yurdumuz doğmaca elsiz olmasın,
Sultan Dərələyəz, xan Dərələyəz!

Sinəndə yağılar gəzib dolanır,
Ürəymin başında odlar qalanır,
Bütün varlığımız yanıb talanır,
Sultan Dərələyəz, xan Dərələyəz!

Axı sən tarixi yurdumsan mənim,
Bəs niyə qovulduq, artdı dərd-
qəmim?
İndi su üzündə qalıbdır gəmim,
Sultan Dərələyəz, xan Dərələyəz!

Zaman tarixlərə bir ləkə saldı,
Halal, torpağımı əlimdən aldı,
Yaralı sinəmə bir qılınc çaldı,
Sultan Dərələyəz, xan Dərələyəz!

Vaxt olar hökmünü dəyişər zaman,
Vermərik düşmənə bir daha aman,
Yurdumu zəbt edən olacaq peşman,
Sultan Dərələyəz, xan Dərələyəz!

Başını dik saxla, əyilmə bir an,
Çəkilər üstündən o qara duman,
Azad olacaqsan düşməndən inan,
Sultan Dərələyəz, xan Dərələyəz!

Qoynunda məclislər qurulacaqdı,
Badələr bir-birə vurulacaqdı,
Keflər kökələcək, durulacaqdı,
Sultan Dərələyəz, xan Dərələyəz!

Yağılar əlində qoymarıq səni,
O güllü-çiçəkli çayır-çəməni,
Ey doğma elimin doğma Vətəni!
Sultan Dərələyəz, xan Dərələyəz!

Sənin torpağına, daşına qurban,
Gözlərindən axan yaşına qurban,
Kədərdən çatılan qaşına qurban,
Sultan Dərələyəz, xan Dərələyəz.
Doğma ana yurdum, can Dərələyəz!

*20 dekabr 1997*

## DƏRƏLƏYƏZ

Baharda dağların yaşıl bürünür,
Ətəyində ağ dumanlar sürünür,
Zirvəsindən Ağrı dağı görünür,
Biz səndən düşmüşük gen, Dərələyəz!

Yadıma düşürsən gündə min kərə,
Gözümdə canlanır hər dağ, hər dərə,
Bizdən uzaqlaşıb qalxdın göylərə,
Əlim sənə çatmır en, Dərələyəz!

Qoynunda gəzdirir xəyallar məni,
Dərələr, təpələr, o yallar məni,
Axır öldürəcək bu hallar məni,
Hanı o gördüyüm gün, Dərələyəz!

Gecələr çaldıqca çoban tütəyi,
Çöllərə yayırdı bahar küləyi,
Sənsiz qəriblikdə yanan ürəyi.
Söndürə bilərmi ün, Dərələyəz!

Köhlən sürüb Təzəklidən keçəndə,
Qırxbulağın sularından içəndə,
Kabab üçün əmlik quzu seçəndə,
Yanıb alovlanma sön, Dərələyəz!

Təkədonduranın uca zirvəsi,
Qıy vuran qartalın gəlməyir səsi,
Odlar yurdumuzun gözəl güşəsi,
Olmusan gözümdə ön, Dərələyəz!

Soğanlıda ağ sürülər bəslənmir,
Kəkliklərin daşa qonub səslənmir,
Körpələrin qucağında əslənmir,
Dönmüşdün cənnətə dön, Dərələyəz!

Eşitmişəm buludların ağlayır,
Bulaqların qan-yaş töküb çağlayır,
Yaylaqların elsiz qara bağlayır,
Səndən kim çevirər yön, Dərələyəz!

Bizə zülm elədi bu alçaq zaman,
Yurdumuz, yuvamız dağıldı tamam,
İnsafsız fələk də vermədi aman,
Belimdən çıxartdı gön, Dərələyəz!

Ay Əli, ömrünü vermə yellərə,
Sürtmə barmağını qəmli tellərə,
Daha nə edək ki, düşdük çöllərə,
Çəkildi üstündən gün, Dərələyəz!

*28 dekabr 1992*

## ÖP

Aşıq qardaş, yolun düşsə Vətənə,
Sərin yaylaqların düzlərindən öp.
Büllur kimi axan buz bulaqların,
Hüsnünə səcdə et, gözlərindən öp.

O sazlı, söhbətli ötən çağların,
Gülşənə bənzəyən gözəl bağların,
Zərnişan geyinən uca dağların,
Boynunu qucaqla, üzlərindən öp.

Günəşi göylərdən şəfəq saçanda,
Durnalar qatarla qalxıb uçanda,
Ovları sürilə hürküb qaçanda,
Şehli çəməndəki izlərindən öp.

Keç Qızıl qəyədən, Soğanlıya çat,
Sultanın yurdunda bir doyunca yat,
Aş Kürdün yalını, Göyçədə yarat,
Aşıq Ələsgərin sözlərindən öp.

Sür gözəl yurdumda köhlən atını,
Murad təpəsindən al baratını,
Öyrən Dərələyəz küllüyatını,
İlham pərisinin dizlərindən öp.

Getsən o yerlərə sazını götür,
Əlinin salamın yurduna yetir,
Çıxsan Əyri qara, bir nubar gətir,
Xınalı daşların üzlərindən öp.

*3 iyul 1998*

## OLAYDIM

Dərələyəz, bahar fəsli gələndə,
Çəməndə çiçəyin, gülün olaydım.
Günəş göylərindən baxıb gələndə,
Qarın əridikcə selin olaydım.

Yadıma hey düşür qoynun, qucağın,
Cənnətə bənzəyən hər bir bucağın,
Qəlbimi göynədir şən, gözəl çağın,
Nəğməli bülbülün, dilin olaydım.

Görməyə can artır sinəmdə ürək,
Elin səsləyirmi açan gül-çiçək?
Gəlib bir görüşək, bir deyib-gülək,
Hicransız ayların, ilin olaydım.

Üzünə güləydi o gülşən yazın,
Çaylara qonaydı ördəyin, qazın,
Ucalıb köksündə sədəfli sazın,
Nəğməsi car olan telin olaydım.

Zirvələri buludlara bürünən,
Ətəyində dumanları sürünən,
Hər tərəfi zər-zibalı görünən,
Süsənli, sünbüllü çölün olaydım.

Dağların qaşında ovları gəzən,
Durnası göylərdə dövr edib süzən,
Mavi sularında çırpınıb üzən,
Yaşılbaş sonalı gölün olaydım.

İndi gözlərimdən olmusan iraq,
Ümidim qırılıb, sönübdür çıraq,
Ay Əli, Vətəndən gəlmir səs-soraq,
Kaş əsən küləyin, yelin olaydım.

*15 oktyabr 1997*

## ALLAH

Kaş gəzib yurdumun al yaylaqların,
Əlvan güllərindən seçəydim, Allah!
Büllur kimi axan buz bulaqların,
Şirin sularından içəydim, Allah!

Belinə qalxaydım köhlən atların,
Gəzəydim qoynunda doğma yurdların,
Uzanıb üstündə ipək otların,
Dərib çiçəklərin biçəydim, Allah!

Həsrətin çəkdiyim ötən çağların,
Gülşənə bənzəyən gözəl bağların,
Dumana bürünən uca dağların,
Quş olub başında uçaydım, Allah!

Doyunca baxaydım çəmənə, çölə,
Yaşılbaş sonalar qonaydı gölə,
Sinəmi verəydim bir sərin yelə,
Nəğməli çaylardan keçəydim, Allah!

Doğma evimizdə bir də yataydım,
Hicranı qəlbimdən tamam ataydım,
Bu arzu, amala bircə çataydım,
Sonra bu dünyadan köçəydim, Allah!

*10 aprel, 1996*

## VƏTƏN HEY!

Nə vaxtdır ki, görəmmirəm üzünü,
Gəzəmmirəm yaylaqların düzünü,
Söndürən yox ürəyimin közünü,
Mən qalmışam yana-yana, Vətən hey!

Bir çıxaydım dağlarının başına,
Hey baxaydım torpağına, daşına,
Dözmək olmur axan bu göz yaşına,
Qürbət eldə doydum cana, Vətən hey!

Qəriblikdə sızıldayıb ağlaram,
Sinəm üstə yaraları bağlaram.
Sellər kimi hey coşaram, çağlaram,
Doğma yurdum, əziz ana, Vətən hey!

Xəyal gəzib qucağında dolanır,
Varlığımız əldən gedib talanır,
Köksümüzdə od-ocaqlar qalanır,
Nə pis gəldi bu zamana, Vətən hey!

Axtarıram, tapammıram tayını,
İtirmişəm ayın, günün sayını,
Eşidən yox harayımı, hayımı,
Səsim çatmır heç bir yana, Vətən hey!

Nə olaydı ayrılığı ataydım,
Qollarımı baş altında çataydım,
Qucağında bir doyunca yataydım,
Bir gələydim din-imana, Vətən hey!

Tale bizə yar olmadı, nə işdi,
Bu qəm-kədər bizə yaman ilişdi,
Elin çoxu dünyasını dəyişdi,
Vaxtsız çatdı ömrü sona, Vətən hey!

Dərdli getdi, dözəmmədi ürəyi,
Gözlərində qaldı arzu-diləyi,
Harama döndümü halal çörəyi,
Tarix girdi dondan-dona, Vətən hey!

Ana yurdum, hər vaxt səni anıram,
Xoşbəxtliyi qucağında sanıram,
Sənsiz burda alışıram, yanıram,
Bənzəyirdin gülüstana, Vətən hey!

Qoynunda var min cür dərdin davası,
Dərman idi gül-çiçəyi, havası.
Qovuldumu yurdun eli, obası?
Bağrı dönüb indi qana, Vətən hey!

Tarix yazsın qoy bunları adına,
Saldı bizi fələklərin oduna,
Yetən yoxdu imdadıma, dadıma,
Naləm düşüb asimana, Vətən hey!

Dərələyəz, yollarımız bağlandı,
Ciyərimiz çalın-çarpaz dağlandı.
Məzarlar da girov qalıb saxlandı,
Yaşım dönüb bir ümmana, Vətən hey!

Ermənilər su qatdılar aşına,
Yiyələndi torpağına, daşına,
Nələr gəldi elimizin başına,
Həsrət qaldıq indi sana, Vətən hey!

Əli artıq dərdə, qəmə batıbdı,
Şənliyini, sevincini atıbdı,
Qocalıbdı ömrü başa çatıbdı,
Qismət olmaz torpağına, Vətən hey!
O mehriban qucağına, Vətən hey!

***26 sentyabr 1998***

## MƏNİM

Əsdi üstümüzə acı tufanlar,
Dağıldı yurdumdan ellərim mənim.
Fələk qılınc çaldı, töküldü qanlar,
Axdı gözlərimdən sellərim mənim.

Analar, bacılar tökdü göz yaşı,
İtirdi çoxları qohum-qardaşı,
Ələ keçənlərin əzildi başı,
Susdu tutu kimi dillərim mənim.

Vətən başdan-başa geyindi qara,
Həqiqət boğazdan çəkildi dara,
Zalımlar qəlbimə vurdular yara,
Soldu bağça-bağım, güllərim mənim.

Çətinliklə köçdük boranda, qarda,
Çoxları əlacsız qalmışdı darda,
Başımıza nələr gəldi yollarda,
Qırılmışdı ümid tellərim mənim.

Bu qədər qəm yemə, Əli amandı,
Yollarımız tamam çəndi, dumandı,
Daha sızıldama çox pis zamandı,
Demə ki, xoş keçməz illəri mənim.

*31 avqust 1991*

## HƏSƏN MÜƏLLİMƏ

Çıxmır xəyalımdan doğma yurdumuz,
Axır gözlərimdən çay, Həsən məllim!
Gəzsən yer üzünün bütün hər yerin,
Tapılmaz yurduma tay, Həsən məllim!

Adı Dərələyəz, əvəzsiz diyar,
Qoynunda yaşayan olur bəxtiyar,
Düşmənə verməyi kim ona qıyar,
Oldu ermənıyə pay, Həsən məllim!

Göylərə baş vuran uca dağları,
Cənnətə bənzəyən gözəl bağları,
Gözümdə canlanır keçən çağları,
O el şənlikləri, toy, Həsən məllim!

Şirin nəğməlidi buz bulaqları,
Dağların gül açır al yanaqları,
Yurdumun gülüşən o yaylaqları,
Düşürmü yadına, ay Həsən məllim!

Baharda al-yaşıl dona bürünür,
Hərdən sinəsində duman sürünür,
Yalçın qayalarda ovlar görünür,
Qəlbimə od salır uy, Həsən məllim!

Yada salırsanmı coşğun çayları?
Ömürdən xoş keçən ili, ayları,
Füsunkar yurdumun yazı, yayları,
Gəlsin göz önünə May, Həsən məllim!

Kəkliklər uçuşub qonardı daşa,
Qonaqlar gələndə keçərdi başa,
Mehriban olardı yoldaş-yoldaşa,
İndi tamam olub zay, Həsən məllim!

Məclis qurulardı çeşmə başında,
Əmlik kəsilərdi körpə yaşında,
Ovlar vurulardı Adamdaşında,
Düşməsin yadına qoy, Həsən məllim!

İndi sonaları üzür göllərdə,
Gül-çiçəklər ətir tökür çöllərdə,
Həzin-həzin əsən sərin yellər də,
Dağlayır sinəmi oy, Həsən məllim!

Hanı Dəmirtəpə, Göytəpə hanı?
Təkədonduranım dağların xanı,
Qırxbulaq, Soğanlı, Təzəkli, Canı,
Mən deyim birbəbir say, Həsən məllim!

Axır büllur kimi suları sərin,
Üzündən nur yağır mavi gözlərin,
Ətri car olduqca bəyaz çöllərin,
Yaz kimi keçirdi yay, Həsən məllim!

Çox valeh edirdi gəlib-gedəni,
Əylərdi hər zaman yoldan ötəni,
Belə gözəl yeri, gözəl Vətəni,
Aldı əlimizdən hay, Həsən məllim!

Heç əksik olmazdı başının qarı,
Həddini aşmışdı dövləti, varı,
Hər gün yön çevirib Vətənə sarı,
Həsrətlə baxıram day, Həsən məllim!

O gün olsun doğma yurdla görüşək,
Qucaqlaşıb bir ürəkdən öpüşək,
Ana-bala kimi sevək, sevişək,
Bu da olsun bizə pay, Həsən məllim!

*15 iyun 1997*

## GÖRƏ BİLMİRƏM

Baharda çalmasın atanda dağlar,
Kimə açılacaq qolların, Vətən!
Tökəcək ətrini bağçalar, bağlar,
Qoynu bənövşəli kolların, Vətən!

Nə vaxtdır üzünü görə bilmirəm,
Zərli çiçəyindən dərə bilmirəm,
Gülündən bir çələng hörə bilmirəm,
Gör necə bağlandı yolların, Vətən!

Hicran sinəmizi yaman dağlayır,
Qəlbimiz günbəgün yara bağlayır,
Sənsiz göz yaşımız seltək çağlayır,
Niyə müşkül oldu halların, Vətən!

Tanrımız köməyə yetmədi bir an,
Aldı başımızın üstünü duman,
Yağılar bizlərə vermədi aman,
Səngərə döndümü yalların, Vətən!

Dərələyəz, mahalların başısan,
Oğuz yurdun torpağısan, daşısan,
Didərgin elimin qanlı yaşısan,
Sızlayır Əlitək qulların, Vətən!

*12 aprel 1998*

## NEYLƏYİM

Xəyal dolandıqca Vətən torpağın,
Qəlbimdən qara qan axır, neyləyim?!
Düşmənlər gəzdikcə bağçasın, bağın,
Sinəmə odları yaxır, neyləyim?!

Zirvəsində qartalları qıy vuran,
Gur bulaqlar üstə məclislər quran,
Atdöşü eləyib ovların yoran,
Ovçusu həsrətlə baxır, neyləyim?!

Baharda canlanır füsunkar meşə,
Pöhrələr boylanıb, baxır Günəşə,
Kolların dibində şehli bənövşə,
Qəlbinə qəm-qüssə taxır, neyləyim?!

Yada düşür doğma yurdun hər daşı,
Hey yanıb-göynəyir bağrımın başı,
Qurumaq bilməyir gözümün yaşı,
Sel kimi çağlayıb, axır, neyləyim?!

Ay Əli, qəmlərə qərq olma daha,
Ömrünü sızladıb, bağlama aha,
Qurtara bilməzsən bu dərddən yaxa,
Fələk gülləsini çaxır, neyləyim?!

*4 dekabr 1992*

## DAĞLARIN

Röyada görürəm dalğın görünür,
Sinəsində qara duman sürünür,
Çəmənləri qönçələrə bürünür,
Açılmır çiçəyi, gülü dağların.

Çobanlar sürüsün yaymayır düzə,
Qartalı zirvədə görünmür gözə,
Qayalar kədərli durub üz-üzə,
Elsiz qırılıbdı beli dağların.

Düzlərdə kişnəmir köhlən atları,
Tamam yasa batıb ağ buludları,
Daha sığallamır ipək otları,
Sərin-sərin əsən yeli dağların.

Gəlməyir baharı, gəlməyir yazı,
Məclislər qurulub çalınmır sazı,
Uçubdu qoynundan ördəyi, qazı,
Sonasız qalıbdı gölü dağların.

Susubdu nəğməkar buz bulaqları,
Gəzib dolanan yox tər oylaqları,
Görün kimə qaldı el yaylaqları,
Axır gözlərindən seli dağların.

Binələrdə çadırları qurulmur,
Çeşmələrin qanlı yaşı durulmur,
Əli, bərələrdə ovlar vurulmur,
Didərgin olubdu eli dağların.

*25 may 2001*

## AYRILIQ

Ağ çalmalı, hay-haraylı dağların,
Bənövşəli, gül yanaqlı bağların,
Sazlı-sözlü xoş nəfəsli çağların,
Yaz ətirli qucağından ayrıldıq,
Ata-baba ocağından ayrıldıq.

Göylərində qartalları qıy vuran,
Qayaları cərgələnib sal duran,
Ürəklərə şənlik, sevinc dolduran,
Meşələrin nəşəsindən ayrıldıq,
Onun dilbər guşəsindən ayrıldıq.

Maral gəzən yaylaqların düzündən,
Zümzüməli bulaqların gözündən,
Doğma yurddan, vətənimin özündən,
O müqəddəs yuvamızdan ayrıldıq,
Elimizdən, obamızdan ayrıldıq.

Tər mahnılar bəstələyən çayların,
Ömrümüzə ömür verən ayların,
Təbiətin bəxş etdiyi payların,
Süsənindən, sünbülündən ayrıldıq,
O nəğməkar bülbülündən ayrıldıq.

Zirvələri buludlara bürünən,
Ətəyində dumanları sürünən,
Sinəsində ağ sürülər görünən,
Bulaq gözlü dərələrdən ayrıldıq,
Ov ovlanan bərələrdən ayrıldıq.

Bahar nazlandıqca çəməndə, çöldə,
Sonalar sulaşır aynalı göldə,
Açıb ləçəyini çiçək də, gül də,
Darayıb tökdüyü teldən ayrıldıq,
Üzünə çəkdiyi tüldən ayrıldıq.

Orda böyümüşdük uşaq yaşından,
Kim ayrılar torpağından, daşından,
Od vurdular ürəyimin başından,
Alovlandıq, yana-yana ayrıldıq,
Ayrılmazdıq, doyduq cana, ayrıldıq.

Ay Əli bu qədər yanıb ağlama,
Sellər kimi aşıb-daşıb çağlama,
Yada salıb ürəkləri dağlama,
Millətçilik yaratdılar, ayrıldıq,
Güclə bizi çıxartdılar, ayrıldıq.

*12 sentyabr 1988*

## ƏMOĞLU

Özündən bu qədər demə, «Əmoğlu»,
Gəl bizim elləri gəz, onda danış.
Lalədən, nərgizdən, tər bənövşədən,
Hansın istəyirsən üz, onda danış.

Gəlib bir görəsən bahar çağların,
Almalı, heyvalı meyvə bağların,
Zirvəsi qartallı uca dağların,
Beçə ballarını süz, onda danış.

Sözünü qiymətsiz vermə yellərə,
Gözlə düşməyəsən coşan sellərə,
Əgər bacarırsan qoy nəsillərə,
Yadigar olaraq iz, onda danış.

Gəzsən yurdumuzun al yaylaqların,
Ceyranlı, cüyürlü tər oylaqların,
Bəstəkar çayların, buz bulaqların,
Nəğməsin şerinə düz, onda danış.

Nadan ləkə vurar öz ad-sanına,
Namərd çörək doğrar mərdin qanına,
Gəl, bir düş Əlinin söz ümmanına,
Əgər, bacarırsan üz, onda danış.

*15 yanvar 1985*

## GƏLMİŞƏM

Ürəyimdə arzularım qalıbdı,
Hicran bizi yaman hala salıbdı,
Yurdumuzu yağı düşmən alıbdı.
Dərd əlindən cana doyub gəlmişəm,
Cənnət kimi vətən qoyub gəlmişəm.

İtirmişəm şan-şöhrəti, elimi,
Xoş günümü, xoş ayımı, ilimi,
Süsənimi, sünbülümü, gülümü,
Çəmənimdə çiçək solub gəlmişəm,
Qəm-qüssədən qəlbim dolub gəlmişəm.

Həsrət qaldıq doğma yurda, vətənə,
Əlim çatmır bir qovuşam mən sənə,
Gəl eyləmə qardaş bizə heç tənə
Yollarımız bağlanıbdı, gəlmişəm,
Ciyərimiz dağlanıbdı, gəlmişəm.

İnanmayın qəlbim deyib-güləcək,
Kimlər gəlib göz yaşımı siləcək,
Nəsillərim gələcəkdə biləcək,
Necə olub yana-yana gəlmişəm,
Bağrım dönüb qızıl qana gəlmişəm.

Yaddan çıxmır o yurdumuz-yuvamız,
Ayrı düşdü ellərimiz, obamız,
Daha çatmır heç yerə səs-sədamız,
Ürəyimdən yaralanıb gəlmişəm,
Vətənimdən aralanıb gəlmişəm.

Çəkmək olmur ayrılığın dağını,
Əridiblər ürəyimin yağını,
Yerimizin bağçasını, bağını,
Əlimizdən alıbdılar, gəlmişəm,
Bizi oda salıbdılar, gəlmişəm.

Hey saldılar millətçilik azarın,
Dağıtdılar xalqın dostluq bazarın,
Atamızın,anamızın məzarın,
Ay ellərim orda qoyub gəlmişəm,
Sarsılmışam, cana doyub gəlmişəm.

Dindirməyin köksüm yanır amandı,
Sinəm üstə od-ocaqlar qalandı,
Vətən dərdi hər bir dərddən yamandı,
Sıldırımlı yollar keçib gəlmişəm,
Bu torpağı Vətən seçib gəlmişəm.

## AĞLARAM

Dərələyəz, doğma yurdum Vətənim,
Bağrım sənsiz dönüb qana ağlaram,
Qəm-qüssəyə qərq olubdu hər dəmim,
Od düşübdü şirin cana ağlaram.

Getmək olmur, yollarımız bağlandı,
Ciyərimiz çalın-çaraz dağlandı,
Dərd əlindən göz yaşımız çağlandı,
Səsim düşüb al-osmana ağlaram.

Ayrılmışıq yaylaqların düzündən,
Zümzüməli bulaqların gözündən,
El-obanın dadlı-duzlu sözündən,
Dağılmışıq hər bir yana ağlaram.

Özgə yurddan vətən olmaz qaçqına,
Doğmalaşmaz ögey olan bir ana,
Daha təhnizlərdən doymuşuq cana,
Alışmışam, yana-yana ağlaram.

Ay Əli, qəlbini sıxma bu qədər
Qəmli yaşamağın hədərdir-hədər,
Axır öldürəcək məni bu kədər,
Ömrüm vaxtsız çatar sona ağlaram.

## *MƏHƏBBƏT QOŞMALARI*

## SƏN ALLAH

Pərilər pərisi, ey nazlı sona!
Müjganı sinəmə çaxma, sən Allah!
Ağam səni mənə buta veribdi,
Özgəyə dil verib baxma, sən Allah!

Pərvanə tək dolanaram başına,
Sürmə olub çəkilərəm qaşına,
Rəhim elə gözlərimin yaşına,
Qəlbimi odlara yaxma, sən Allah!

Qurban olum yarandığın o günə,
Gözəlliyin məni saldı eşqinə,
Bəzəndikcə gözəlləşir tər sinə,
Başqası gül versə taxma, sən Allah!

Gözüm qalıb qoyundakı narında,
Ləblərinin quzeyinin qarında,
Çox incidib məni eşqin torunda,
Könlümün evini yıxma, sən Allah!

Əli sənsiz yaşayarmı dünyada?
Yolunda düşəcək hey oddan oda,
Sevən aşiqini gəl vermə bada,
İnsafdan, imandan çıxma, sən Allah!

*13 fevral 1996*

## NEYNİRƏM

Ömrümün gülüsən, ey nazlı nigar!
Sənsiz bu dünyanı, varı neynirəm.
Aləm gözəlləşib olsa bir bahar,
Baharı neynirəm, barı neynirəm.

Dinim-imanımsan, ruhum, canımsan,
Ülvi məhəbbətim, asimanımsan,
Eşqimin nurusan, xanimanımsan,
Tökmə üstümüzə, qarı neynirəm.

Camalın günəş tək göz qamaşdırır,
Ağlımı başımdan alıb çaşdırır,
Qəlbi ümman kimi çoşub daşdırır,
Sazı köklənmişəm, tarı neynirəm.

Gözəllər sultanı, mələklər şahı,
Göyləri yandırır köksümün ahı,
Nədir sevənlərin bilməm günahı?
Eşqin xəstəsiyəm, narı neynirəm.

Bir cənnət bağıdır qoynun, qucağın,
Balın qaymağıdır incə dodağın,
Əritmə Əlinin könlünün yağın,
Səndən özgə olsa, yarı neynirəm.

*31 yanvar 1996*

## İNCİMƏSİN

Başına döndüyüm, ay gedən sona,
Elə sallanginən yol inciməsin.
Yaxan açılıbdı, görünür sinə,
Elə düymələ ki, qol inciməsin.

Aşiqin müştaqdı o şirin dilə,
Alırsan canını sən gülə-gülə,
Tökmə gözlərindən qanlı yaş belə,
Qəlbimin həmdəmi ol inciməsin.

Görürəm, əsdikcə bahar yelləri,
Darayıb üz yana tökür telləri,
Gəl yarın bağında açan gülləri,
Elə dərginən ki, kol inciməsin.

Eşqin xəstəsidir, yoxdur çarası,
Onu sağaltmadı dağlar havası,
Sənin varlığındır onun davası,
Dərdinin dərmanın bul inciməsin.

Müjganın ox olub bağrını dəlir,
Alışır, alovlu göyə yüksəlir,
Əli hüzuruna səcdəyə gəlir,
Elə dara çək ki qul inciməsin.

*4 may 1998*

## GÜL SƏNƏ VURĞUNDUR, YOXSA SƏN GÜLƏ

Döşünə bir dəstə gül taxan gözəl,
Gül sənə vurğundur, yoxsa sən gülə?
Üz yana tökülüb qara tellərin,
Tel sənə vurğundur, yoxsa sən telə?

Gül baxıb hüsnünə rəngini solur,
Lalə açılmağa peşiman olur,
Çiçəklər gizlənib kollara dolur,
Gül sənə vurğundur, yoxsa sən gülə?

Gözəlliyin üz-gözündən süzülür,
Nazı-qəmzən yollarına düzülür,
Səni görən candan olub üzülür,
Gül sənə vurğundur, yoxsa sən gülə?

Mələklər utanıb göyə qalxdılar,
Camalına oğrun-oğrun baxdılar,
Ah çəkdilər, qəlbi oda yaxdılar,
Gül sənə vurğundur, yoxsa sən gülə?

Qüdrət qələmini çəkib hüsnünə,
Görənlər gəlirlər imana, dinə,
Əli bu şerini bəxş edir sənə,
Gül sənə vurğundur, yoxsa sən gülə?

*3 iyun 2001*

## SƏN OLMADINMI?

Məhəbbət nə idi, bilmirdim gözəl,
Məni eşqə salan sən olmadınmı?
Ayırıb zülfündən nazik telləri,
Sinə üstə çalan sən olmadınmı?

Şirin söhbət açdın öz baharından,
Ətir tökülürdü söz baharından,
Mənə könül verib siz baharından,
Qəlbimi bəs alan sən olmadınmı?

Mənsə danışmadım, dinmədim bir an,
Eləbil üstünü almışdı duman,
Sanki fırlanırdı başına cahan,
Gözü yaşla dolan sən olmadınmı?

İndi nə olub ki, susmusan belə?
Ülvi məhəbbəti vermisən yelə,
Sevirəm sözlərin bir gəlmir dilə,
Mənə vurğun olan sən olmadınmı?

İlqarına düz çıx, peşman olarsan,
Sonra saçlarını dartıb yolarsan,
Gül kimi saralıb birdən solarsan,
Bəs Əlini bulan sən olmadınmı?

*3 dekabr 1998*

## SƏN OLMASAYDIN

Dünya gözəlləri yığılsa belə,
İnan, yar seçməzdim sən olmasaydın.
Bağlana bilməzdim canlı bir gülə,
Qəlbimi əlimdən sən almasaydın.

Sevgi nədir, vallah onu bilməzdim,
Boynu buruq qapınıza gəlməzdim,
Qan-yaş töküb göz yaşımı silməzdim,
Eşq odun canıma sən salmasaydın.

Çatmamışdın hələ yetkin yaşına,
Vurulmuşdum qövsi-quzey qaşına,
Pərvanətək dolanmazdım başına,
Könlümün sazını sən çalmasaydın.

Bir yaxın gəl, qoy bir baxım doyunca,
Ürəyimin sən pərdəsin soyunca,
Ağlayardım vallah ömrüm boyunca,
Nur olub gözümə sən dolmasaydın.

Sevməyənlər ülviliyi sanmazdı,
Bu yolların çətinliyin anmazdı,
Əli eşqin odlarına yanmazdı,
Yurd salıb qəlbimdə sən qalmasaydın.

*5 iyul 1991*

## GÖRMƏMİŞƏM

Yanaqlarda gül açılıb, ay pəri,
Camalın tək günəş, ay görməmişəm.
Dolanıb dünyanı, gəzdim hər yeri,
Hüsnünə bərabər tay görməmişəm.

Dodağından beçə balı süzülür,
Tel tökülüb üz yanında düzülür,
Baxışından vallah canlar üzülür,
Qələm qaşların tək yay görməmişəm.

Gözəlliyin ətir töküb, çağlanır,
İncə belə gümüş kəmər bağlanır,
Eşq oduna sinəm yanıb dağlanır,
Sənin tək bir şirin pay görməmişəm.

Qara zülfün çiyinlərə tökülür,
Nar sinədə zər köynəyə bükülür,
Tər buxağa xal qüdrətdən çəkilir,
Gözəllərdə belə soy görməmişəm.

Sözün şirin şəkər, gülüşün gözəl,
Yollara naz satan gəlişin gözəl,
Əliyə ruh verən hər işin gözəl,
Mələklərdə belə boy görməmişəm.

*18 yanvar 1996*

## HARDAN BİLƏYDİM

Şirin dil tökürdün aldandım sənə,
Nə deyim sən məni sevdiyin günə,
Deyirdin gəlmirsən imana, dinə,
Sonra nə etməni hardan biləyidim.

Deyirdin ölüncə dönmərəm səndən,
Can qurban etmişəm sevdiyim gündən,
Səni artıq sevən olarmı məndən?
Belə tez itməni hardan biləydim.

Qarşımda dayanıb, hey diz çökürdün,
Yalvarıb yaşını sel tək tökürdün,
Bir sevən aşıq tək boyun bükürdün,
Məndən yan ötməni hardan biləydim.

Bilmədim, qəlbimi əlimdən aldın,
Xəyanət eləyib daşlara çaldın,
Sevgi-məhəbbətin oduna saldın,
Bu yolla getməni hardan biləydim.

Daim arzuların gözündə qalsın,
Şahmar ilan olub qəlbini çalsın,
Mənə o kəc baxan gözün kor olsun,
Bu günə yetməni hardan biləydim.

*23 aprel 2002*

## NƏDƏNDİR

O qara gözlərin aşiqiyəm mən,
Gözlərini süzdürməyin nədəndir?
Bilirsən qəlbimi vermişəm sənə,
Bəs özünü əzdirməyin nədəndir?

Çaylar kimi sən gəl coşub çağlama,
Məhəbbətin yollarını bağlama,
Eşq oduna aşiqini dağlama,
Baxıb gözü süzdürməyin nədəndir?

Açılanda mərmər kimi ağ sinə,
Camalın bənzəyir günəşə, günə,
Bəs niyə gəlmirsən imana, dinə?
Gülüm, qəlbi gəzdirməyin nədəndir?

Çox cəfa çəkmişəm yollarında mən,
Qəlbimə ən yaxın sən oldun həmdəm,
Zülm edib başını bulama hərdəm,
Yar qəlbini üzdürməyin nədəndir?

Sərvi boylum, aç qəlbinin qarasın,
Təbib gəlsin qoy dərdini arasın,
Əli sənə axıradək qul olsun,
Bəs dodağı büzdürməyin nədəndir?

*8 fevral 1958*

## GÖZ DƏYƏR SƏNƏ

Səhər-səhər tül geyinib baxma gəl,
Əsən sərin yellər tez dəyər sənə.
Dərib çiçəkləri döşə taxma gəl,
Güllərin içində göz dəyər sənə.

Yeriyəndə yollara naz satırsan,
Yanaqlarda gülü gülə qatırsan,
Gündən-günə gözəlliyə batırsan,
Çox səhrə çıxmayan toz dəyər sənə.

De, hardan almısan bu işvə-nazı?
Dillənir köksümdə könlümün sazı,
Öldürmə Əlini, ay zalım qızı,
Qəlbi fəryad edər söz dəyər sənə.

*2 iyun 2004*

## BƏNZƏYİR

Gözəllər gözəli, qızların xası,
Yanaqlar açılan gülə bənzəyir.
Tər buxaqda qara xalın olması,
Bəyaz camalında gölə bənzəyir.

Hüsnündən baharın ətri çağlayır,
Zülfün çiyinlərdə dəstə bağlayır,
Süzgün baxışların qəlbi dağlayır,
Məhəbbət car olub selə bənzəyir.

Açılanda ayna qabaq, ağ sinə,
Sanki göz qamaşır, baxırsan günə,
Kim görsə o gəlir imana, dinə,
Dodaq nərmi-nazik tülə bənzəyir.

Qüdrət qələmini çəkibdir qaşa,
Təzəcə yetmisən sevilən yaşa,
Qəlbini gəzdirib salma dağ-daşa,
Sevgi çox zərifdi, telə bənzəyir.

Söylə, gözəlliyi hardan almısan?
Əlinin qəlbinə bir od salmısan,
Eşqin zirvəsində çıxıb qalmısan,
Enmirsən, günlərim ilə bənzəyir.

*27 iyun 1991*

## GÜL SƏNƏ QURBAN

Hərdən seyrə çıxıb bağda gəzən yar,
Yenicə açılan gül sənə qurban.
Dərib çiçəkləri dəstə düzən yar,
Ağzımda titrəyən dil sənə qurban.

Bilirəm ürəkdən ahu-zarın var,
Eşqin, məhəbbətin olub tarimar,
Sənə can deməyən vəfadarın var,
Sənsiz yaşamaram, bil sənə qurban.

Gözəlim, gəzirsən nazlı-qəmzəli,
Görmədim səni tək bircə gözəli,
Dodaqları qaymaq, qaşı sürməli,
Boynuna dolanan qol sənə qurban.

Getdikcə saralır ömür çiçəyim,
Sənsən məhəbbətim, sənsən ürəyim,
Məni ağlar qoyma, ey sevdiciyim,
Gəl gözümün yaşın sil, sənə qurban.

Hərdən süzgün baxıb alma canımı,
Ox vurub qəlbimə tökmə qanımı,
Bəs niyə sormursan mənim halımı?
Əlidir eşqinə qul, sənə qurban.

*6 may 1960*

## İNCİMƏRƏM

Ala gözlü, qələm qaşlı, gül üzlü,
Gəl sinəm üstündə gəz, incimərəm.
Şirin danışıqlı, dürdanə sözlü,
Qəlbimi eşqinlə əz, incimərəm.

Alış desən alovlara bürünnəm,
Duman desən ayağına sürünnəm,
Görün desən hər an gəlib görünnəm,
Desən ki, qəlbini üz, incimərəm.

Oğrun baxıb sən canımı alma gəl,
Ürəyimə eşq odunu salma gəl,
İnsaf elə, çox insafsız olma gəl,
Bilsəm ki, deyirsən döz, incimərəm.

Bülbül olub kaş qonaydım gülünə,
Kəmər olub dolanaydım belinə,
Sancaq olub taxılaydım telinə,
Desən ki, bezərdim bez, incimərəm.

Ay Əli, ilham al belə gözəldən,
Ahu balasından, bu qönçə güldən,
Sürün dizin-dizin getməsin əldən,
Kim nə deyir desin söz, incimərəm.

*28 iyun 1991*

## ÖZÜNƏ QURBAN

Sərvi boylum, ay qabaqlı mələyim,
O şirin dilinə, sözünə qurban.
Qaşların altında süzülüb axan,
O maral baxışlı gözünə qurban.

Qəmzəli gəzməyi etmisən peşə,
Dərib çiçəkləri taxırsan döşə,
Sənə həsəd çəkir şehli bənövşə,
O çöllərdə qalan izinə qurban.

Baharlı çağına, barlı bağına,
Varlı aranına, qarlı dağına,
Gül kimi açılan al yanağına,
O mərmər sinənin düzünə qurban.

Qıvrım saçı çiyinlərə tökülən,
Hörükləri ilmə-ilmə sökülən,
Qüdrətdən üz yana qələm çəkilən,
O qara xalların özünə qurban.

Əlinin qəlbində gül kimi açan,
Sona kimi eşqin gölünə uçan,
Günəş kimi şölələnib nur saçan,
Zərnişan camallı üzünə qurban.

*5 fevral 1984*

## BƏNÖVŞƏ

«Gözəllərdə naz eyləmək qaydadır»,
Gəl məni odlara salma, Bənövşə!
Sinən billur kimi, üz də aynadır,
Özgəsin qoynuna alma, Bənövşə!

Söz verəndə söz yerinə gəlmirsən,
Ağlayanda göz yaşımı silmirsən,
Niyə danışmırsan, niyə gülmürsən?
Sonsuz xəyallara dalma, Bənövşə!

Nəçün naz eyləyib qəmzə satırsan?
Axşam günəşi tək birdən batırsan,
Qələm qaşlarını niyə çatırsan?
Gül kimi saralıb solma, Bənövşə!

Ayrı düşsəm sənin kimi mələkdən,
Allam xəbərini əsən küləkdən,
Vurğununam, aç qəlbini ürəkdən,
Dərin dəryalara dalma, Bənövşə!

Bülbül heç küsərmi qönçə gülündən?
Sonalar ayrılmaz məncə gölündən,
İcazə ver Əli öpsün əlindən,
Ayrılıq sazını çalma, Bənövşə!

*15 may 1958*

## PƏRVANƏ

Sən gözəl qızısan bizim ellərin,
Bənzəyirsən Günə, Aya, Pərvanə.
Tökülür üz yana qıvrım tellərin,
Göz istəyir baxıb doya, Pərvanə.

Günəşə bənzəyir gülüşün, sona,
Yoxsa bir mələksən, girmisən dona,
Nə gözəl doğubdu, qız səni ana,
Heyranam bu gözəl soya, Pərvanə.

Körpə bir sonasan, çox deyil yaşın,
Gözəllik qoy olsun daim yoldaşın,
Qüdrət qələmilə çəkilib qaşın,
Çatılıb bənzəyir yaya, Pərvanə.

Pərvanələr şam başına dolanır,
Odda yanır, alovlara qalanır,
Gəl sən yanma, bağrım başı talanır,
Olmusan bir ağca maya, Pərvanə.

Gül açıb hüsnündə, al yanağında,
Qaymaqdır o incə bal dodağın da,
Ağ sinə üstündə, tər qucağında,
Narın çox yaraşır boya, Pərvanə.

Gözəllikdə yoxdu tayın dünyada,
Bir maralsan, yaraşırsan bu ada,
Aşiqi yandırıb, gəl salma oda,
Göz yaşları dönər çaya, Pərvanə.

***21 sentyabr 2000***

## *QOŞMALAR*

## AY PƏRİ

Sallanıban sən bulağa gələndə,
Örpəyi endirmə qaşa, ay Pəri.
Səhər günəşitək birdən güləndə,
Qəlbimi döndərmə daşa, ay Pəri.

Bilirəm, qızılgül açılır yayda,
Dərib qoxlamaqdır ətrini qayda.
Sən əlində sudan duranda çayda,
Oxşadın tovuztək quşa, ay Pəri.

Dal gərdəndə hörüklərin burulur,
Camalını görən sənə vurulur,
Büllur buxaq, qaymaq dodaq sorulur,
Ta gedib çatınca dişə, ay Pəri.

Sən bir maralmısan, yoxsa bir mələk?
Günbəgün açırsan bir qönçə gül tək,
Xəstəyəm dərdimə dərman et görək,
Ömrü yetirməyim başa, ay Pəri.

Ağ sinədə qoşa düşən narın var,
Bəs nə edim deyirlər ki, yarın var,
Əlini öldürən gül camalın var,
Rəhm elə gözümdə yaşa, ay Pəri.

*22 iyun 1958*

## XƏZƏNGÜL

Səhər-səhər çıxıb gülşən sehrinə,
Şehli çəmənlərdə gəzmə, Xəzəngül!
Hüsnündən utanır güllər, çiçəklər,
Düşər ayağına əzmə, Xəzəngül!

Çox da cilvələnmə, göz dəyər sənə,
Dodaqlar qaymaqdır, püsdədir çənə,
Narın təzə dəyir, tərlidir sinə,
Vaxtsız budağından üzmə, Xəzəngül!

Tanrım buta verib mənə adını,
Nə gözəl yaradıb Allah qadını,
Eşqin alovunu, eşqin odunu,
Töküb sinəm üstə düzmə, Xəzəngül!

Sən bir canlı gülşən, söz yoxdur buna,
İnan tək gəlmisən cümlə-cahana,
Çoxları dərdindən olub divana,
Yanan ürəyimi üzmə, Xəzəngül!

Dərdimin dərmanı o bir cüt nardı,
Bədənin büllurdu, ağ sinə qardı,
Qarşında Kərəm tək alışan yardı,
Əliyə gəl dodaq büzmə, Xəzəngül!

*26 yanvar 1999*

## GÜLŞƏN

Gözəllik qələmin çəkib hüsnünə,
Hörüklər tökülüb dalına, Gülşən!
Qaşlar arasında bir şəvə kimi,
Görən heyran olur xalına, Gülşən!

Üz yanında tellər dəstə bağlayır,
Camalından gözəlliklər çağlayır,
Qara gözlər ürəyimi dağlayır,
Vuruldum yanağın alına, Gülşən!

Süzgün baxışınla süzülüb axma,
Qəlbimi odlara yandırıb yaxma,
Müjganı ox edib sinəmə taxma,
Bax bir aşiqinin halına, Gülşən!

Yoxdur bərabərin dünyada haşa,
Şirin arzularım qoy yetsin başa,
Eşqimi əlinlə gəl vurma daşa,
Çıxma məhəbbətin yalına, Gülşən!

Ayrı yaşamaram bircə gün belə,
Yox sözün gətirmə sən Allah dilə,
Əlini həsrətli gəl qoyma gülə,
Qaymaq dodaqların balına, Gülşən!

*14 mart 1996*

## ELNARƏ

Bir bahar günündə çıxıb qarşıma,
Tənha maral kimi gəzmə, Elnarə!
Məhəbbət sevdasın saldın başıma,
Könlümü gəl sıxıb əzmə, Elnarə!

Sən gözəl qızısan bizim ellərin,
Tökülüb üz yana durna tellərin,
Yanaqda açdıqca qızıl güllərin,
Ətrini çağlayıb süzmə, Elnarə!

Hərdən naz eləyib, qıyqacı baxma,
Eşqin oxlarını sinəmə taxma,
Məni Kərəm kimi yandırıb-yaxma,
Bağrıma köz töküb düzmə, Elnarə!

Gözəllik qoynunda bəsləyib səni,
Başından töktibdü gülü-gülşəni,
Əgyarın yanında xar etmə məni,
Qaymaq dodaqları büzmə, Elnarə!

Əlidir eşqinlə alışıb yanan,
Atəşlər içində candan usanan,
Qarşında diz çökür, ey nazlı canan!
Əlini əlimdən üzmə, Elnarə!

*3 oktyabr 1995*

## FATMA

Süzgün baxışınla məni dağlayıb,
Eşqiın odlarına qalama, Fatma!
Ay üzündən gözəlliyin çağlayıb,
Könlümün evini talama, Fatma!

Gəl bağlama taleyimin yolların,
Soldurarsan çiçəklənmiş kolların,
Ülvi məhəbbətin açıb qolların,
Özgənin boyununa dolama, Fatma!

Dindirəndə naz edirsən, gülmürsən,
Ağlayanda göz yaşımı silmirsən,
Pünhan-pünhan əriyirəm, bilmirsən,
Ömrümü hicrana calama, Fatma!

Gözəlisən tər çiçəyin, gülün də,
Bir nəğməsən qəlbin incə telində,
Yaşılbaş sona tək eşqin gölündə,
Çırpınıb başqasın sulama, Fatma!

Əli fəryad edər, coşub çağlayar,
Köksünə sağalmaz yara bağlayar,
Məcnun tək çöllərə düşüb ağlayar,
Başını gəl belə bulama, Fatma!

*26 sentyabr 1995*

## GÜLPƏRİ

Qüdrət qələmilə çəkilib qaşın,
Yanağın bənzəyir gülə, Gülpəri!
Hələ tamam deyil on altı yaşın,
Qəlbimi sən aldın ələ, Gülpəri!

Qara zülfün çiyinlərdə düzülür,
Dil-dodaqdan bal tökülüb süzülür,
Ürəklərdən tər çiçəklər üzülür,
Düzmək üçün gümüş telə, Gülpəri!

Məhəbbət odunu canıma saldın,
Ağlımı aparıb başımdan aldın,
Eşqimin əzəli, ilki sən oldun,
Düşüb gözəlliyin dilə, Gülpəri!

Tül köynəkdə qoşa narın görünür,
Xal buxaqda gözəlliyə bürünür,
Zər düyməli xələt yerlə sürünür,
Xub yaraşır kəmər belə, Gülpəri!

Ahu gözlüm gəl bulama başını,
At qoy getsin inadlığın daşını,
Sən axıdıb Əlinin göz yaşını,
Döndərmə çağlayan selə, Gülpəri.

*21 sentyabr 1995*

## GÜLƏNDAM

Nə gözəl yaradıb, yaradan səni,
Bənzəyirsən qızılgülə, Güləndam.
Açıb zər düyməni, büllur bədəni,
Çox vermə küləyə, yelə, Güləndam.

Lalə açılıbdı o gül yanaqda,
Şirinlik car olur dildə, dodaqda,
Xal bəzənir üz yanında, buxaqda,
Göz dəyməsin qıvrım telə, Güləndam.

Tül köynəkdə narın təzə dəyibdi,
Tər sinədə şah budağın əyibdi,
Hüsnün daha əlvan donum geyibdi,
Kəmər olum, bağla belə, Güləndam.

Qara zülfün dal gərdəndə düzülür,
Süzgün baxış ala gözdən süzülür,
Qıya baxma, vallah canım üzülür,
Göz yaşlarım dönər selə, Güləndam.

Su içəndə boğazında görünür,
Ay camalın gözəlliyə bürünür,
Əli eşqin yollarında sürünür,
İnsafa gəl, insaf elə, Güləndam.

*5 oktyabr 1996*

## PƏRİ

İlahi mələkmi yaradıb səni?
Sən bir mələykəsən, yoxsa qız, Pəri?
Sənin əlindədir taleyim mənim,
Necə istəyirsən elə yaz, Pəri!

Tül geyibsən, büllur bədən görünür.
Şux məmələr sanki gülə bürünür,
Dal gərdəndə xələt yerlə sürünür,
Nə gözəl yaraşır sənə naz, Pəri!

Siyah zülfün çiyinlərə tökülür,
Xal yanaqda qaralara bükülür,
Görməyəndə bağrım başı sökülür,
Qəlbimə eşq odun salma az, Pəri!

Güləndə baharı xatırladırsan,
Yeriyəndə yollara naz satırsan,
Qıya baxıb müjgan oxun atırsan,
Sancılır sinəmə olur saz, Pəri!

Gözəllikdə günəş qalır kölgədə,
Yoxdur tayın, yerdə, göydə, ölkədə,
Belə desəm yanılmaram bəlkə də,
Bu sözlər səninçün olar az, Pəri!

Bir çıxaq sehrinə çəmənin, çölün,
Dərək qönçəsini açılan gülün,
Qonsun sinəsinə sonası gülün,
Sularında üzsün ördək, qaz, Pəri!

Gəl eşqin bağında, biz gəzək qoşa,
Məhəbbət oxumuz dəyməsin daşa,
Şirin arzularım qoy yetsin başa,
Bu yolda olmasın duman, toz, Pəri!

Əli vurğun olub, o qaşa, gözə,
İncə dodaqlara, o gülər üzə,
Eşqin zirvəsindən sən ensən düzə,
Qəlbin zimistanı olar yaz, Pəri!

*1 yanvar 1999*

## «ƏMOĞLU» « ƏMİQIZI»

*Əmoğlu*
Eşqindən Məcnun tək dəli olmuşam,
Gəl məni çöllərə salma, əmiqızı!
Qara bulud kimi tamam dolmuşam,
Ağladıb canımı alma, əmiqızı!

*Əmiqızı*
Eşqə sadiq olan düşüb çöllərə,
Özgə xəyallara dalmaz, əmoğlu!
Öz gülün sızladıb başqa güllərdən,
Məhəbbət qoxusun almaz, əmoğlu!

*Əmoğlu*
Günah mənimkidir, qoy deyim özüm,
Düzgün sözlərinə heç yoxdur sözüm,
Gərək kor olaydı hər iki gözüm,
Ayrılıq sazını çalma, əmiqızı!

*Əmiqızı*
Gözəl axtarırdın, get axtar yenə,
Məhəbbət oyuncaq olmuşdu sənə,
Həmişə şirin dil tökürdün mənə,
Sözlərin qəlbimə dolmaz, əmoğlu!.

*Əmoğlu*
Sənə yalvarıram, keç günahımdan,
Göylər qarsılmasın mənim ahımdan,
Ayrıla bilmərəm qibləgahımdan,
Başqa xəyallara dolma, əmiqızı!

*Əmiqızı*
Günahın böyükdü, keçə bilmərəm,
Şərbətin bal olsa, içə bilmərəm,
Sizə bir gəlin tək köçə bilmərəm,
Düz sözdən xətirin qalmaz, əmoğlu!

*Əmoğlu*
Əmin oğlu ayağına sürünər,
Oda yanar, alovuna bürünər,
Çəkdir dara, nə danışar, nə dinər,
Bağışla, insafsız olma, əmiqızı!

*Əmiqızı*
Əmin qızı qoy söyləsin sözünü,
Saxta eşqə heç yandırma özünü,
Çək deyirəm birdəfəlik gözünü,
Səndən mənə bil yar olmaz, əmoğlu!

*27 avqust 1991*

## «OĞLAN» - «AY QIZ»

*Qız*
Niyə dönük çıxdım eşqə, ilqara?
Qəlbimi sındırıb sən etdin yara,
Deyirdin dərdimə gəl eylə çara,
İndi niyə məndən qaçırsan oğlan?

*Oğlan*
Bilməm necə olub sevmişəm səni,
Hüsnü-camalını, gülü, gülşəni,
İndi gözəlliyin açmayır məni,
Səndən də gözəli varıymış, ay qız!

*Qız*
Dalımca sürünən sən olmadınmı?
Eşqimə bürünən sən olmadınmı?
İlqarı görünən sən olmadınmı?
Qəlbi özgəyəmi açırsan, oğlan!

*Oğlan*
Sevdiyim o gözəl mələkdir-mələk,
Onsuz dözə bilmir sinəmdə ürək,
Onunla xoş keçər ömür, gələcək,
Sinəsi dağların qarıymış, ay qız!

*Qız*
Vəfasız oğlana nə deyim daha,
Heç dözə bilmirəm bu qədər aha,
Gəl insaf eləyib bax bir Allaha,
Bağrıma niyə ox sancırsan, oğlan?!

*Oğlan*
Məndən əlini üz, ümid bağlama,
Göz yaşı axıdıb sellər çağlama,
Allaha yalvarıb daha ağlama,
O mənə istəkli yarıymış, ay qız!

*14 aprel 2002*

## *MAHNILAR*

### DUET

*Oğlan*
Əlimə ver əlini,
Üz yana tök telini,
Ay qız, gəl gedək bizə,
Ol anamın gəlini.

*Qız*
Gedə bilmərəm, oğlan,
Deyib gülmərəm, oğlan,
Özgəsinə veriblər,
Sənə gəlmərəm, oğlan.

*Oğlan*
Axı sevirəm səni,
Hüsnu dolu gülşəni,
Sənsiz dözə bilmərəm,
Gözəl, öldürmə məni.

*Qız*
Dərdindən halıyam mən,
Dağlar maralıyam mən,
Çox bənd olma, ay oğlan,
Özgənin malıyam mən.

*Oğlan*
Qaşları qara, gözəl,
Dərdimə çara, gözəl,
Nazın öldürür məni,
Çəkinən dara, gözəl.

*24 aprel 2002*

### AY OĞLAN

Ay boyu bəstə oğlan,
Durma yol üstə oğlan,
Könlüm səni çox sevir,
Gəl məni istə oğlan.

Gəl dayanma aralı,
Qəlbim olar yaralı,
Kim sevməz mənim kimi,
Gözəl, göyçək maralı.

Yaxın gəl, durma gendə,
Məni salmısan bəndə,
Eşq oduna yanıram,
Daha can yoxdu məndə.

Gözümün qarasısan,
Qəlbimin parasısan.
Nə vaxtacan, ay oğlan?
Məndən gen durasısan.

Sən oldun varım oğlan,
Dəyibdi narım oğlan,
Elçi göndər bizə sən,
Qoy olum yarın oğlan.

*21 mart 2001*

## VƏTƏNƏ AİD BAYATILAR

Dağları duman aldı,
Çən gəldi, duman aldı.
Ermənilər yurdumu,
Əlimdən yaman aldı.

Çaylarım buz bağladı,
Qar yağdı buz bağladı,
El Vətəndən köçəndə,
Yas tutub yurd ağladı.

Qaldı bağçamın barı,
Alma, heyvası, narı,
Mən öləndə basdırın,
Üzü Vətənə sarı.

Deməyin haralıyam,
Vətəndən aralıyam,
Toxunmayın qəlbimə,
Ürəyi yaralıyam.

Yolumuz qar olubdu,
Kəsilib tar olubdu,
Vətən, Vətən deməkdən,
Dilim qabar olubdu.

Gözümüz qan ağlayar,
Coşar sellər çağlayar,
Vətəndən ayrılanın,
Qəlbi yara bağlayar.

Yağının külü yansın,
Od tutsun gülü yansın,
Vətənimdən qovanın,
Ağzında dili yansın.

Qanadlı quş olaydım,
Vətənə tuş olaydım,
Qonaydım qucağına,
Orda bir daş olaydım.

Dağları çeşməlidir,
Suları içməlidir,
Vətənimi alanın,
Ciyəri bişməlidir.

Çayları lal axardı,
Sal qayalar baxardı,
Vətən çiçəklərindən,
Süzülüb bal axardı.

Hanı o cəh-cəlalım,
Yaman pis keçir halım,
Erməniyə qaldımı?
Dərələyəz mahalım!

Əziyyəm günüm qara,
Olubdu günüm qara,
Vətənim əldən getdi,
İndi mən gedim hara?

Yolumuz daşlı qaldı,
Töküldü daşlı qaldı,
Vətən üçün elimin,
Gözləri yaşlı qaldı.

Sözü söz qayırdılar,
Yalanlar yayırdılar,
Vətəndən ayrılmazdıq,
Güc ilə ayırdılar.

Yoluma daş töküldü,
Bağrım başı söküldü,
Vətən əldən gedəndə,
Belim sınıb büküldü.

Qaldı Salsal qalası,
Təzəklinin çalası,
Vətənimi alanın,
Qoy pörtdəsin balası.

Haray, ellərim haray!
Gəlmir sellərim, haray!
Vətənimdən əsməyir,
Sərin yellərin, haray!

Dərələri dərindi,
Havaları sərindi,
Vətənim Dərələyəz,
İndi gör kimlərindi.

Əzizinəm yan-yana,
Nahaqdan batdıq qana,
Dərdin, qəmin içində,
Daha doymuşuq cana.

Dərələyəz ayları,
Nəğmə demir çayları,
El köçüb qucağından,
Kəsilibdi payları.

Əziyyəm gözüm qaldı,
Vətəndə izim qaldı,
Ölürəm, ay ellərim,
Deməyə sözüm qaldı.

Dərələyəzin yazı,
Uçmur ördəyi, qazı,
Vətəndən ayrılmışıq,
Belə yazılıb yazı.

Göyün üzü qaraldı,
Çəmənləri saraldı,
Qartalların yurdunu,
Zaman verdi, sar aldı.

Çəmənin gülü soldu,
Saraldı, gülü soldu,
Qəbirlər qaldı girov,
Analar saçın yoldu.

Əzizinəm dolan gəz,
Aç zülfünü, dolan gəz,
Vətənin həsrətilə,
Qürbət eldə dolan gəz.

Hanı qarlı dağlarım?
Bağçalarım, bağlarım?
Qalmışıq qəm içində,
Hanı o şən çağlarım?

Sular qanlı axırdı,
Düşmən kinli baxırdı,
Yağılar körpələri,
Nizələrə taxırdı.

Pozmaq olmaz yazını,
Aşıq götür sazını,
Vətəndən ayrılırıq,
Çal Kərəm avazını.

Əzizinəm bu yana,
Yolum düşdü bu yana,
Sərin yaylaqdan gəlib,
Düşdük isti arana.

Dağlarda maral mələr,
Enib düzlərə gələr,
Doğma Vətənin qədrin,
Ayrı düşənlər bilər.

Haqq yerini almadı,
Gün dağlara çalmadı,
Vətəndən ayrı düşən,
El qırıldı, qalmadı.

Bir ev tikdim dəyirmi,
Pəncərəsi iyirmi,
Elim, hara köçürsən,
Bu yurd sənin deyilmi?

Qayaları baş-başa,
Güneyləri tamaşa.
Biz ayrıldıq Vətəndən,
İndi Ziyadxan, yaşa.

Duman dağı alıbdı,
Qəlbimə od salıbdı,
Vətəndən ayrılmışıq,
El Vətənsiz qalıbdı.

Qürbət el bizə neynər,
Ömrümü didib çeynər,
Vətənimdən ötəri,
Burnumun ucu göynər.

Şaxta, boran olubdu,
Çiçəklərim solubdu,
Bəs nə edim, Ziyadxan?
Qəlbim yaman dolubdu.

Siniyə doldur dəni,
Qoy göyərsinsələni,
Həmişə şirin olar,
Hamıya öz Vətəni.

Durnası uçan dağlar,
Buludu qaçan dağlar,
Görüşümüz bilmirəm,
Olacaq haçan dağlar?

Çəkilmir göydən duman,
Vermir bizlərə aman,
Nə vaxt qayıdacayıq,
Biz Vətənə Ziyadxan?

Vətəndən aralandıq,
Ürəkdən yaralandıq,
Hərə bir yana köçdü,
Biz niyə paralandıq?

Dağlar çənə bürünər,
Ətəyində sürünər,
Gəl çıxaq bir zirvəyə,
Vətən ordan görünər.

Əzizinəm, Ziyadxan,
Bağrımız oldu al-qan,
Biz kimə neyləmişdik?
Bizə kəc baxdı zaman.

Bir çovğun, boran əsdi,
Yolu doldurub kəsdi,
Yaman zülüm etdilər,
Bu da bizlərə bəsdi.

Düşmən yurdumu aldı,
Bizi çöllərə saldı,
Vətənə dönməyimiz,
Tale yazana qaldı.

Sinəmdə od qalandı,
Var-yoxumuz talandı,
Yaxamız doğma yurdda,
Xaçolara calandı.

Rüzigar silkələndi,
Millət qana bələndi,
Vətən dərdi çəkməkdən
Saçıma qar ələndi.

Dağlardan aşmaq olmaz,
Qarla savaşmaq olmaz,
Taleyinə yazılan,
Yazıdan qaçmaq olmaz.

Aylar dolandı getdi,
Sular bulandı getdi,
Bax ömrümüz, günümüz,
Görün nə yerə yetdi.

Mən aşiqəm gələn yox,
Göz yaşımı silən yox,
Dərdimiz olub bir dağ,
Heç soruşub bilən yox.

Yaram dizimdə qaldı,
Vətən sözümdə qaldı,
O şirin arzularım,
Allah, gözümdə qaldı.

Əziyyəm qalasına,
Batdıq elin yasına,
Görün necə tuş olduq,
Fələyin bəlasına.

Vallah açılmır eynim,
Xarab olubdu beynim,
Qəriblikdə qalmışıq,
Ürək dolubdu, neynim.

Xəyalım uçdu kəndə,
Vətənim düşdü bəndə,
Həsən Mirzə neyniyim,
Daha can yoxdu məndə.

Əziyyəm, ay Ziyadxan,
Günləri, say Ziyadxan,
Vətənsiz qərib eldə,
Ölürəm day, Ziyadxan.

Baharda güllər gülər,
Aynalı göllər gülər,
Bir arxdan su gəlibsə,
İnşallah bir də gələr.

*10-25 yanvar 2001*

## QARABAĞA AİD BAYATILAR

Ulduzdan ay olarmı?
Arxdan da çay olarmı?
Qarabağ əldən gedib,
Torpaqdan pay olarmı?

Oba yoxdur dağında,
Güllər solub bağında,
Qalıb yurdum Qarabağ,
Erməni tapdağında.

Yurdum-Laçın ağlayır,
Açıb saçın ağlayır,
Doğma Vətəni üçün,
Anan, bacın ağlayır.

Əziyyəm Qarabağda,
El yoxdu Qarabağda,
Dağıldı abidələr,
Qalmadı Qarabağda.

Gözüm qarası Şuşa,
Qəlbin parası Şuşa,
Yurdum Azərbaycanın
Ürək yarası Şuşa.

Dağda duman ağlayır,
Yoxdur güman ağlayır,
Qarabağdan ayrılan,
Elim yaman ağlayır.

Bu qədər yatmaq olmaz,
Qeyrəti atmaq olmaz,
Bu yurd sənin yurdundur,
Vətəni satmaq olmaz.

İçimizdən atdılar,
Pis niyyətə çatdılar,
Gözəl Qarabağımı,
Düşmənlərə satdılar.

Getmək olmayır kəndə,
Yollar görünmür çəndə,
Qarabağım düşübdü,
Düşmən əlində bəndə.

Qəlbim keçmişi anır,
Xəyal gəzib dolanır,
Yaddan çıxmır Qarabağ,
İçim göynəyib yanır.

Qeyrətimiz hardadı,
Yurd boranda, qardadı,
Qoy el qalxsın ayağa,
Qarabağım dardadı.

Gedək Cıdır düzünə,
Qarabağın özünə,
Biz ayrıldıq Şuşadan,
Həsrət qaldıq üzünə.

Doğma yurda bağlıyam,
Sinəm üstü dağlıyam,
Vətənimi soruşsan,
Qardaş, Qarabağlıyam.

Əziyyəm qayasına,
Quş qonmur qayasına,
Qarabağım talandı,
Elim batdı yasına.

Çiçəkləri soldumu?
Buludları doldumu?
Elsiz ulu dağlarım,
Saçlarını yoldumu?

Oxumur xarı bülbül,
Susubdu sarı bülbül,
El-oba ayrı düşdü,
Axtarır yarı bülbül.

Əzizinəm gələn yox,
Göz yaşımı silən yox,
Qarabağ dərdimizi,
Bir soruşub bilən yox.

Bu bəla hardan endi?
Zamanın üzü döndü,
Qarabağın çırağı,
Düşmən əlində söndü.

*1-10 yanvar 2001*

## MƏHƏBBƏT BAYATILARI

Mən aşiqəm telinə,
Yanaqdakı gülünə,
Bir qızıl kəmər olub,
Dolanaydım belinə.

Mən aşiq zülfün dara,
Tök teli zülfün dara,
Yolunda can qoymuşam,
Gəl apar çəkdir dara.

Qaşları qara gözəl,
Bir dayan, hara, gözəl,
Gəl etmə aşiqinin,
Qəlbini yara, gözəl.

Mən aşiq qarasına,
Xalların qarasına,
Görən kimi vuruldum,
Gözlərin qarasına.

Kamalın çoxdur sənin,
Kirpiyin oxdur sənin,
Allah gözəl yaradıb,
Qüsurun yoxdur sənin.

Mən aşiqəm üz yana,
Tel tökülüb üz yana,
Qara xallar buxaqda,
Düzülübdü üz yana.

Hər sözün şirin, şəkər,
Nazın qəlbimi sökər,
İcazə ver mələyim,
Olum qapında nökər.

Mən aşiqəm nara bax,
Ağ sinədə nara bax,
Qüdrətdən yaranıbdı,
Qələm qaşlı yara bax.

Aşiq oldum oynuna,
Bahar gəlib qoynuna,
Bir boyunbağ olaydım,
Asılaydım boynuna.

Duman dağda görünür,
Ətəyində sürünür,
Gözəlim su içəndə,
Boğazında görünür.

Aşiqinəm çəməndə,
Salmısan məni bəndə,
Gecə yata bilmirəm,
Bircə gün görməyəndə.

Gözəl, sən haralısan?
Qaşları qaralısan,
Süzgün baxıb can alan,
Dağların maralısan.

Gözəllər qaş-göz eylər,
Bağrımın başın teylər,
Qəlbim yandı, yaxıldı,
Açılmır zər düymələr.

Dağlarda qar görünür,
Bağlarda bar görünür,
Tül köynəyin içində
Sinəndə nar görünür.

Sonasan, ay qız, sona,
Gündə girmə bir dona.
Bəs niyə söz vermirsən?
Qalmışam yana-yana.

Aşiqinəm qalası,
Göytəpənin talası,
Gəl məni öldürmə sən,
Ay zalımın balası.

Pərim, vurğunam sənə,
Niyə gəlmirsən dinə,
Sənsizlikdən doymuşam,
Yazığın gəlsin mənə.

Ver əlimə əlini,
Məhəbbətin ləlini,
Gəl biz sevək, sevilək,
Ol anamın gəlini.

Ulduz dönüb ay olmaz,
Yaz getməsə yay olmaz,
Mənim sevdiyim qıza,
Gözəllikdə tay olmaz.

Ay qız, mənə bax mənə,
Bir dənəsən, bir dənə,
Əgər razı sən olsan,
Elçi göndərrəm sənə.

Mən aşiqəm boyuna,
Qurban olum soyuna,
Bircə dəfə hə de sən,
Hazırlaşaq toyuna.

Gəl dodağı büzmə sən,
Ürəyimi üzmə sən,
Məhəbbətin odunu,
Sinəm üstə düzmə sən.

Axı sevirəm səni,
Hər gülünü, gülşəni,
Bu eşqin yollarında,
Gülüm, öldürmə məni.

Əziyyəm, aldı getdi,
Qəlbimi çaldı getdi.
Ayrılığın odunu,
Canıma saldı getdi.

Camalın aya bənzər,
Qaşların yaya bənzər,
Nazın öldürər məni,
Bəs Əli necə dözər.

*25-30 yanvar 2001*

## BAYATILAR

Dağları duman aldı,
Çən gəldi, duman aldı,
Ermənilər yurdumu
Əlimdən yaman aldı.

Çaylarım buz bağladı,
Qar yağdı buz bağladı,
El Vətəndən köçəndə,
Yas tutub yurd ağladı.

Dərələri dərindi,
Havaları sərindi,
Vətənim Dərələyəz
İndi gör kimlərindi.

Çəmənin gülü soldu,
Saraldı gülü soldu,
Qəriblər qaldı girov,
Analar saçın yoldu.

Qürbət el bizə neynər,
Ömrümü didib çeynər,
Vətənimdən ötərin
Burnumun ucu göynər.

Mən aşıqəm gələn yox,
Göz yaşımı silən yox,
Dərdimiz olub bir dağ,
Heç soruşub bilən yox.

Yağının gülü yansın,
Od tutsun gülü yansın,
Vətənimdən qovanın
Ağzında dili yansın.

Qanadlı quş olaydım,
Vətənə tuş olaydım,
Qonaydım qucağına,
Orda bir daş olaydım.

Duman dağı alıbdı,
Qəlbimə od salıbdı,
Vətəndən ayrılmışıq
El Vətənsiz qalıbdı.

Əzziyəm gözüm qaldı,
Vətəndə izim qaldı,
Ölmürəm, ay ellərim
Deməyə sözüm qaldı.

Haqq yerini almadı,
Gün dağlara çalmadı,
Vətəndən ayrı düşdük,
El qırıldı, qalmadı.

Durnası ucan dağlar,
Ceyranı qaçan dağlar,
Görüşümüz bilmirəm
Olacaq haçan dağlar?

*10-15 yanvar 2001*

## MƏHƏBBƏT BAYATILARI

Yanaqda gül qəşəngdir,
Üz yanda tel qəşəngdir,
Ağ əndamın içində,
Geydiyin tül qəşəngdir.

Çıxma çəmənə, düzə,
Baxma özgə bir sözə,
Çox əzilib büzülmə,
Ay qız, gələrsən gözə.

Canlı gülşən, bir dərə,
Püstədir ağız, çənə,
Çox naz-qəmzə eyləmə,
Pərim, göz dəyər sənə.

Mələksən, ay qız, mələk,
Süzgün baxışlı, göyçək,
Bağrıma od salmısan,
Dözmür sinəmdə ürək.

Qaş çatmadır, göz ala,
Heyranam üzdə xala,
Ağlımı əldən alıb,
Məni salma pis hala.

Bülbülün köksü sarı,
Olub gül nəğməkarı,
Ömrü hədər keçirmə,
Sən də olarsan qarı.

Zirvədən bir en düzə,
Doyunca baxım üzə,
Məni yandırıb, yaxma,
Gir qola, gedək bizə.

Durnalar qatar gedər,
Göylərdə yatar gedər,
İlqarı olmayanlar,
Yarını atar gedər.

Kirpiklərin oxdu, qız,
İşvə-nazın çoxdu, qız,
Gözəllik aləmində,
Heç bir tayın yoxdu, qız.

Baxışdan qıyqacısan,
Günəşlə cüt bacısan,
Yığılsa mələklər də,
Sən onların tacısan.

Əzizinəm gül bədən,
Gül camalı, gül bədən,
Məni candan eyləyib,
Süzgün baxış, gül bədən.

Mən aşiq gülə-gülə,
Gül açar gülə-gülə,
Gəl öldürmə Əlini,
Üzünə gülə-gülə.

*20-25 fevral 2001*

## RƏHMAN MUSTAFAYEV

Aşıq Bəhmanın oğlu Rəhman Mustafayev 1937-ci ildə Dərələyəzin (Yeğeqnadzor rayonunun) Sallı kəndində anadan olmuşdur. 1945-ci ildə birinci sinfə daxil olmuş, 1952-ci ildə 7-ci sinfi bitirdikdən sonra Ordubad pedaqoji texnikumuna qəbul olmuşdur. 1956-cı ildə texnikumu fərqlənmə diplomu ilə bitirib Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix-filalogiya fakültəsinə daxil olmuş və 1961-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1970-ci ildə Hüquq fakültəsini bitirmişdir.

1961-ci ilin sentyabr ayında 1962-ci ilin fevral ayına qədər (İmişli rayonunun) Sarxanlı kəndindəki orta məktəbdə dərs hissə müdiri işləmişdir. 1962-1963-cü illərdə Sovet ordusu sıralarında xidmət etmiş, 1964-cü ildən 1992-ci ilə qədər isə Azərbaycan Respublikası Daxili İşlər orqanlarında müxtəlif vəzifələrdə çalışmışdır.

Rəhman Mustafayev Bakı şəhəri Lenin rayon daxili işlər şöbəsinin rəis müavini, Quba rayon DİŞ-nin rəisi, Nəsimi rayon DİŞ-in rəisi, Bakı şəhər Daxili İşlər İdarəsinin rəis müavini, Lenin rayon DİŞ-in rəisi, Daxili İşlər Nazirliyinin Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin rəisi vəzifələrində işləmiş, 1995-ci ilin mart ayından istefaya çıxmışdır.

1963-cü ildən 1990-cı ilin yanvar ayına qədər Sov. İKP sıralarında olmuşdur.

### *GƏRAYLILAR*

### HARAY VƏTƏNİM!

Sallının yolu yoxuş,
Bəyəli yolu naxış,
Oğuz izi qalmamış,
Haray, Vətənim, haray!

Sallıda izim qaldı,
Hüsnündə gözüm qaldı,
Daşında sözüm qaldı,
Haray, Vətənim, haray!

Sallıda İman vardı.
Dağında duman vardı,
Görməyə guman vardı…
Haray, Vətənim, haray!

Sallı, Vətənim mənim!
Ruha ötənim mənim!
Ölsəm, kəfənim mənim!
Haray, Vətənim, haray!

*21.07.2002*

## ŞUŞA HƏSRƏTİ
*(işğal günü yanğısıyla)*

Əsir Şuşam, can Şuşam!
Mən sənə qurban, Şuşam!
Səndən uzaq düşəli
Çox dərdə tuş olmuşam.

Yuxumda Cıdır düzü
Vaqifin həsrət sözü.
Min təsnif, min guşəli,
Bir muğama dalmışam.

Xan qızının naləsi,
Dağların şəlaləsi,
Buz bulaqlı, çeşməli,
Mən teşnələb qalmışam.

Bülbül, Üzeyir ağlar,
İsa bulağı çağlar,
Yüz köklü, min rişəli…
Saralmışam, solmuşam.

***08.05.2003***

## MİLLƏTİMİN QEYRƏTİ

Ay, Qarabağ, Qarabağ,
Ürəyimdə yara, bax!
Buna nədir çarə? Bax,
Millətimin qeyrəti!

Qızım adaxlısızdır,
Məclisim xalısızdır,
Cəngisiz, yallısızdır,
Millətimin qeyrəti!

Siyasət bir oyundur,
Uyma ona amandır!
Nə yatmısan, oyan, dur!
Milətimin qeyrəti!

***2001***

## DƏRDİM VAR

Xəncər kimi ürəyimi,
Yaran dərdim var, dərdim var.
Zəncir kimi biləyimi,
Qıran dərdim var, dərdim var.

Söndürmüşəm od-ocağı,
Soyuqdur fikrin qucağı.
Yol azmışam qürub çağı,
Toran dərdim var, dərdim var.

Sanki vətənimdir Azıx,
Dörd tərəfim ünvansızlıq,
Deyən yoxdur: - Bədbəxt, yazıq,
Ümman dərdim var, dərdim var!
Boran dərdim var, dərdim var!

***21.03.2002***

## GƏLSİN

Oğul deyil, eldən gələn,
Oğul, gərək, beldən gəlsin.
Gülab deyil, seldən gələn,
Gülab, gərək, güldən gəlsin.

Hər noğula, noğul demə,
Hər oğula, oğul demə,
Hər sığala, sığal demə,
Sığal, gərək, teldən gəlsin.

Saç ağarıb, başım qardı,
Yaşadığım gün biyardı,
Desələr ki, Rəhman vardı…
Əks-sədam eldən gəlsin.

*10.11.2001 Bakı*

## TƏƏSSÜF

Qəlbim kədərlə dolur,
Sən yadıma düşəndə.
Ürəyim şan-şan olur,
Sən yadıma düşəndə.

Gör necə kal oluram,
Elə bil lal oluram,
Ölü, bihal oluram,
Sən yadıma düşəndə.

Guya ağıllı idim,
Sözlü, nağıllı idim,
Ağzı noğullu idim,
Sən yadıma düşəndə…

Görən gözüm kor oldu,
Qulaqlarım kar oldu,
Ömrüm zəhrimar oldu,
Sən yadıma düşəndə.

*2001*

## İSTƏRƏM

Sən çiçəksən, mən bağbanam,
Barını görmək istərəm.
Sən ləçəksən, mən loğmanam,
Varımı görmək istərəm,

Sən silahsan, mən tətiyəm,
Sən arısan, mən pətəyəm,
Sən zirvəsən, mən təpəyəm,
Qarını görmək istərəm.

Sən cavansan, mən yaşlıyam,
Eşqimlə başı daşlıyam,
Çətin ki, sənsiz yaşıyam,
Yarını görmək istərəm.

*Bakı-2000*

## DƏYƏRMİ

Sən işıqsan, mən zülmətəm,
Qığılcımın mənə bəsdir.
Sən sevincsən, mən möhnətəm,
Zil də səsdir, bəm də səsdir.

Qəm üstündə köklənmişəm,
Ondan cəzana gəlmişəm,
Əzilmişəm, ələnmişəm,
Bu da özümə bir qəsddir.

Saxladım eşqimin yasın,
Tutun, boğazımdan asın,
Rəhman, yanma xısın-xısın,
Dünya ötəri həvəsdir.
Oda qalandın ta bəsdir!

*Bakı-2000*

## ƏZİZİM

Şübhələrim dağ qədər,
Hər gün məni qəhr edər.
Nə sevincdir, nə kədər,
Bəs bu nədir, əzizim?

Gah doluram nifrətlə,
Gah ölürəm həsrətlə,
İçimdə məhəbbətlə,
Qəm, qüssədir, əzizim!

Xoş günlərin anımı,
Alır şirin canımı,
Mənim könül şamımı,
Dərd əridir, əzizim.

Bir görəydim üzünü,
Eşidəydim sözünü,
Söyləyəydim düzünü,
Bu hünərdir, əzizim!

*24.10.199 Buzovna*

## GÖZLƏRİN

Gözlərinin gözəlliyi,
Gözəlləri gözdən salıb.
Gözlərinə göz dikənlər,
Gözləyə-gözləyə qalıb.

Gözün gözlərin göyçəyi,
Gözün gözəllər çiçəyi,
Gözüm gözündən içməyi,
Bulağın gözündən alıb.

Çox gözəldi gözün, gözəl,
Göz-göz olub sözüm, gözəl.
Közərirəm özüm, gözəl,
Közü gözlərin qalayıb!

*6-7 noyabr 1999 Quba-Bakı*

## PÜNHANIM

Gəl oturaq üz-üzə,
Baxışdıqca göz-gözə,
Qiymət qoyaq hər sözə,
Satılmayaq, Pünhanım!

Mən payızam, sən bahar,
Sənsiz ömrüm biqərar,
«Yaşımın nə fərqi var?»
Utanmayaq, Pünhanım!

İbrət alaq bəşərdən,
Qaçaq yalandan, şərdən,
Asılmayaq qənşərdən,
Tutulmayaq, Pünhanım!

*01.09.2002 Bakı*

## OLAYDIN

Qarğışımmı tutdu səni?
Kaş ki, dilim, lal olaydı.
Dəhşətlər didir sinəmi,
Acı dilin bal olaydı…

Haqq olanı söyləmişdim,
Gördüyümü düz demişdim,
Sən tələsmə, döz, demişdim,
Gərək əhli-hal olaydım.

İndi gecdir, uduzmusan,
Bəxtini qara yazmısan,
Özün yıxılıb, azmısan,
Tədbiri-vüsal olaydın!

*03.07.2001 Bakı*

## GÖZƏL

Dərd mənim, dərman sənin,
Dərmanımı eylə, gözəl,
Suç mənim, hökm sənin,
Fərmanını söylə, gözəl.

Səndən aman gözləmirəm,
Hər əmrinə müntəzirəm,
Can itirib, bəxt gəzirəm,
İnsafdırmı böylə, gözəl.

Ayaqlarda sürünmərəm,
Dərdə-qəmə bürünmərəm,
Gözünə də görünmərəm,
Uçma belə göylə, gözəl.

*04.01.2002*

## BELƏSİNİ

Sözüm düzlərin düzüydü,
Sevəmməzdim beləsini.
Sevgim qəlbimin gözüydü,
Sevəmməzdim beləsini.

Şeytan ikən, mələk oldu,
Heç kim ikən, fələk oldu,
O başıma kələk oldu,
Sevəmməzdim beləsini.

Rəhmanın diləyi haqdı,
Eşqə xəyanət nahaqdı,
Beynimdə ildırım çaxdı…
Sevəmməzdim beləsini.

*03.06.2003 Bakı*

## HƏQİQƏT

Ömrüm anbaan azalır,
Dərd çəkməyə dəyməz, bala!
Günüm çıraq tək sozalır,
Qəmim məni əyməz, bala!

Günəş paydır kainata,
Nur çiləyir pak həyata,
Dözməyirəm xəyanətə,
Ondan imdad gəlməz, bala!

Həqiqət əhddir, inamdır,
Həqiqət ali imandır,
O nə şübhə, nə gumandır,
Dözər, ancaq ölməz, bala.

*Dekabr 1999, Bakı*

## *QOŞMALAR*

### AMANDIR

Oxudum, oxudum min dəfə azı,
Bir daha kəşf etdim Məmməd Arazı,
Hardandı o hikmət, o müdrik yazı?
İlahi, şairə qıyma, amandır!

Haqqa haq söylədi, nahaqqa yaman;
Sözündən dərs aldı-sözdən pay uman,
Onun əvəzinə dilədim aman,
İlahi, şairə qıyma, amandır!

Sözündə sərhəd yox, qəlbində nifrət,
Düzündə ifrat yox, əmrində töhmət,
İzində möhnət çox, səbrində hörmət,
İlahi, şairə qıyma amandır!

Bir ömür yaşadı ağlı, qaralı,
Bir ömür yaşayır ağlar, yaralı,
Şerinə əl çalır dağlar maralı,
İlahi, şairə qıyma amandır!

Nə göz yaşı tökdü, nə pay istədi,
Xışı yaxşı əkdi, dəni üstədi,
Ağlı yaşı ötdü, canı xəstədi,
İlahi, şairə qıyma amandır!

Yüz ildə bir dəfə tapılır külçə,
Ona tapılacam ancaq ölüncə,
Keşik çəkir Xan Arazın, Əlincə,
İlahi, şairə qıyma amandır!

Diz çökərəm Əshabül-Kəfə min kərə,
Kömək olsun şairimə bir kərə,
And verirəm Ərənlərə, Ərlərə!
İlahi, şairə qıyma amandır!

Bakir murazımdır Azərbaycanım,
Şerimdir, sazımdır Azərbaycanım,
Məmməd Arazımdır Azərbaycanım,
İlahi, şairə qıyma amandır!

*25.06.2001 Bakı*

### DAĞLAR

Əzəmətli Dəmirtəpə tək durar,
Mavi güzgüsüdür göllərin, dağlar.
Üzbəüz məğrurdur Təkədonduran,
Xalıdır, xalçadır güllərin, dağlar.

Söylə, bilən varmı sənin yaşını,
Duman, çən bürüyür qarlı başını,
Gəzdim torpağını, gəzdim daşını,
Məni qorxutmadı yellərin, dağlar.

Soğanlıda oğuz elin görünmür,
Tər buxaqlar cığa telə bürünmür,
Göytəpədə ağ dumanın sürünmür,
De, niyə susubdur dillərin, dağlar.

Yayın oğlan çağı qar yedim səndə,
Dolaşdım doyunca yaşıl sinəndə.
Necə də qəşəngdi məxmər çəməndə,
Axan gur suların, sellərin, dağlar.

Qədrini bilməyən de, görüm kimdi?
Sənin səhər şehin canlı həkimdi.
Bilirəm, kimsəsiz qalmısan indi,
Perikib yurdundan ellərin, dağlar.

Sallı Bəyəlidə daha dincəlmir,
Bəhmanın sədəfli sazı dillənmir.
Axan göz yaşların ölçüyə gəlmir,
Sırsıra bağlayır tellərin, dağlar.

Gəlib sizi gördü Rəhman min kərə,
Dinlədi səsini hər dağ, hər dərə,
Qaldı ürəyimdə həzin xatirə,
Yad etsin ayların, illərin, dağlar.

*1959, Əmirin yurdu*

## VƏTƏNİM

***Professor Həsən Mirzəyə xitab***

Mən necə unudum ulu dağları?
Dərələyəz vətənimdir, vətənim!
Almalı bağları, buz bulaqları,
Cənnətə misaldır, mənim vətənim.

Bəyəli yaylağı, Qiblə bulağı,
Cənnətin laləzar bir parçasıydı.
Bağrına basardı gələn qonağı,
Sallı bu yerlərin gül xalçasıydı.

"Cəlili" suların zümzüməsidir,
Xeyir-duasını Ələsgər verib.
Qəlblərə məlhəmdi Bəhmanın səsi,
Yaradan loğmana bərabər verib.

Rzaqulu, Qulu, Aşıq Mirzalı,
Sənətkar idilər başdan, binadan.
Hacməhəmməd əmim, balaban Vəli,
İlham alardılar eldən, obadan.

Aşıq Bərxudarın gur zənguləsi,
Yerdə sədasıydı odlu şimşəyin.
Dağlarda gurlayan sellərin səsi,
Hücum nərəsiydi mərd igidlərin.

Əyricə yoluydu Səlim gədiyi,
Yaylağa gedərdi Şərur elləri,
Hər ulu ağacı köç kölgəliyi,
İmanın Dərəsi ünsiyyət yeri.

Çiçəkli baharda, barlı payızda,
Göyçə aşıqları məclis qurardı.
Hər igid oğlanda, ismətli qızda,
Nəbinin, Həcərin qeyrəti vardı.

Ellər məhrəm idi, vicdanlar təmiz,
Bir kəs o birinə tələ qurmazdı.
Ürəklər pak idi, insanlar təmiz,
Qonşu qonşusuna ziyan vurmazdı.

Əhriman dağıtdı gözəl növrağı,
Murdar əlləriylə quyular qazdı,
Özününkü etdi daşı, torpağı,
Türkün baş daşına adını yazdı.

Qisas qiyamətə qalmaz! – deyiblər,
Bir gün oyanacaq ruhu babamın!
Torpaqdan pay olmaz, olmaz! – deyiblər,
Tanrıya çatacaq ahı babamın!

"Dağlar" şerin ürəyimi dağladı,
Məlhəm o dağlardır, necə gətirim?
"Dərdimi" deyəndə elin ağladı,
Dərdli eli yurda necə yetirim?

Həsən Mirzə həsrətinə şərikəm,
Ulu Vətən yolumuzu gözləyir.
Mən Rəhmanam usanmaran ümiddən,
Dərələyəz, elimizi gözləyir.

## DAĞ BOYDA DAĞ HƏSRƏTİ

Hanı Dəmirtəpə, Təkədonduran,
Zəngəzur dərdidir canı yandıran.
Salvartı həsrəti qəlb usandıran,
Bir dərddir dağ boyda, canlar alıbdır.

Əyricə yaylağı, Göyçə mahalı,
İtirib növrağı, cahi-cəlalı.
Andıqca qəlbimin artır məlalı,
Burda Ələsgərim mizrab çalıbdır.

Dəli dağım, Murov dağım mükəddər,
Boylanıb yollara elini gözlər.
Dədə Şəmşirimin ruhu dərbədər,
Ceyran bulağında qəmə dalıbdır.

Bu dərd usandırıb duyan hər kəsi,
Aranı səsləyir dağ silsiləsi.
Murad həsrətlidir Murad təpəsi,
Qara gələn bəxti qara qalıbdır.

Nə yaman sərt gəlib qışı dağların,
Ağappaq çalmadır başı dağların.
Görəsən, neçədir yaşı dağların,
Neçə Süleymanlar yola salıbdır.

*04.11.1999, Buzovna.*

## QARDAŞ

*"Dərdimi" qoşmasının müəllifi*
*professor Həsən Mirzəyə*

Həsən Mirzə, dərdin mənə, əzizim,
Dərd deyib, dərdimi oyatdın, qardaş!
Qoy, mən də söyləyim sənə, əzizim,
Mükəddər qəlbimi qanatdın, qardaş!

Yurd yeri sinəmdə yara yeridir,
Həsrət ürəyimin qara yeridir,
Vətən tamlığımın para yeridir,
İçimdə vulkanı oynatdın, qardaş!

İlk güllə Sallıya dəydi dərədə,
Hiylə qurulmuşdu küncdə, bərədə,
Sallı Salyan oldu... Ona görə də,
Qanımı bir daha qaraltdın, qardaş!

Məskən oldu Bərdə, Tərtər, Kəlbəcər,
Ələyəzə üz çevirdik birtəhər,
Erməni döşünü eylədi sipər,
Şərur ellərinə can atdım, qardaş!

Sallıya gec döndüm ölgün, naillac,
Bir qarın çörəyə, çırağa möhtac,
Varımız, yoxumuz olmuşdu tarac,
O illər təhsildə boy atdım, qardaş!

Səksəninci illər, doxsana yaxın,
Erməni fırlatdı son uca çarxın,
Qorbaçov söylədi: – Dağıdın, yıxın!
Qubaya yollandı son addım, qardaş.

Sallılı qəbiri axtarsan əgər,
Bütün Azərbaycan, bütün bölgələr!
Orda var, burda var, axtarma hədər...
Yaxşı ki, "Dərələz" yaratdın, qardaş.

İndi ekranlarda görüşür elim,
Vətən, Vətən! – deyir qabarlı dilim,
Aman ver, ürəyim, aman ver, ölüm,
Bəlkə o yerlərə qayıtıdım, qardaş!

Qəmli hekayətim bitməyəcəkdir,
Bu dağlar sinəmdən getməyəcəkdir,
Dərələz yuxumdan itməyəcəkdir,
Rəhmanam, Vətəndir son andım, qardaş!

## DAĞLAR

Yaylağa çıxanda sürüylə gecə,
Deyirəm hardansa baxıb gizlicə,
Bir şey atılacaq bu an, indicə,
Yeriyib durduqca xarkətə, dağlar.
Hər dərən, hər təpən təhlükə, dağlar.

Min ətir duymuşam otlaqlarında,
Hansı ləzzət yoxdur quzey qarında,
Əskilməz ellərin xoş çağlarında,
İgidin, hünərin, kəhərin, dağlar.
Yarağın, qantarğan, yəhərin, dağlar.

Qartal yuva qurar yalqız qayanda,
Çiçək dənizidir, baxsan, hər yanda,
Sevgilim saçını hörüb sayanda,
Verəydim onunla baş-başa, dağlar.
Edəydim hüsnünə tamaşa, dağlar.

Ayna bulaqların axdıqca axır,
Qızların döşünə gül, çiçək taxır,
Şaqraq gülüşləri şimşək tək çaxır,
Sınanmış müqəddəs ilqarın, dağlar.
Elin vüqarıdır vüqarın, dağlar.

*18.12.1957 Bakı şəhəri*

## BULAQ

Günəşlə yuxudan durub bərabər,
Axışır üstünə qızlar, gəlinlər,
Suyunda göz olub də hər səhər,
Onlara doyunca baxaydım, bulaq.
Şirin suyun olub axaydım, bulaq.

Odunsuz, ocaqsız suyun qaynayır,
İçdikcə içirəm, gözüm doymayır,
Dövrəndə gözəllər salır, oynayır,
Sənsən həm müğənni, həm aşıq, bulaq.
Həm toya, düyünə yaraşıq bulaq.

Şöhrətin dolaşır doğma vətəni,
Aranı, yaylağı, çölü, çəməni,
Hər canlı, hər cansız xoşlayır səni,
Sənsiz heç olmasın bir yaylaq, bulaq.
Həyatda həyatsan, bulaq, ay bulaq.

Neçə qərinəyə yoldaş olmusan,
Min bir məhəbbətə sirdaş olmusan,
Müqəddəs arzumla qardaş olmusan,
Gözündə bir daşın olaydım, bulaq.
Əbədi yoldaşın olaydım, bulaq.

Qədrini çox bilmiş qədirbilənlər,
Sağlam geri dönmüş xəstə gələnlər,
Sənə mehman olmuş Vurğun, Ələsgər,
Dörd yanın gül-çiçək, gülüstan, bulaq.
Azdır sənə yazsam min dastan, bulaq.

## DÜNYADA

Oturmuşam, dünya təkdir, mən də tək,
Əbədilik kim qalıbdır dünyada?
Məndən sonra yurduma kim gələcək?
Yaxşı itib, kin qalıbdır dünyada.

Yaxşı demə hər gördüyün yaxşıya,
Yaxşı odur ürəkləri oxşaya,
Hər addımda saxta çıxır qarşıya,
Mələk uçub, çin qalıbdır dünyada.

Nə biləsən, nalan kimdir, yaman kim,
Nə biləsən, haqlı kimdir, yalan kim,
Nə biləsən gülən kimdir, ölən kim,
Bir həqiqət-din qalıbdır dünyada!

*22.02.2001 Buzovna*

## BİR İMİŞ

Sevda məstliyinə uyub yatana,
Bahar da bir imiş, qış da bir imiş.
Eşqi ucuz alıb, ucuz satana,
Çahar da bir imiş, şeş də bir imiş.

Məhəbbət bakirə, sevgi müqəddəs,
Eşqdə ülvilik, ürəkdə həvəs,
Daşa dəyən oxu düzəltmə əbəs,
Qəmbər də bir imiş, daş da bir imiş.

Rəhman, qavramadın saxta ülfəti,
Zərə dəyişmədin saf məhəbbəti,
Duya bilməyənçün bu həqiqəti,
Qəhər də bir imiş, yaş da bir imiş.

*14 noyabr 2000 Bakı*

## LƏLƏ

Mən sənə üz verdim, sənsə qudurdun,
Quduran qırxca gün yaşayır, lələ!
Ləpirim yerinə sən baş qoyurdun,
Tarix hər cür yükü daşıyır, lələ!

Vəzifən böyükdü, gəlirin artdı,
Ağan böyük zirvəyə dartdı,
Onun iştahıyla lap çox qopartdın,
Varis peysərini qaşıyır, lələ!

Nə qul, mən nə də ki, müti olmuşam,
Mən düzə düz deyib nöqtə qoymuşam,
Mən haqdan özümə qala qurmuşam,
Namərd divarıma dırmaşır, lələ!

*25.03.2003*

## DÜŞÜBDÜR

Bu dünyanın qarası çox, ağı az,
Qara mənə, ağı sənə düşübdür.
Muğan isti, dağlar isə güllü yaz,
Aran mənə, dağı sənə düşübdür.

Yarışırıq qonşuların bəhsinə,
Yaşayırıq dünyamızın tərsinə,
Fırlanırıq zəmanənin əksinə,
Solu mənə, sağı sənə düşübdür.

Özülüyəm çox divarın, möhrənin,
Son ucuyam bu fırlanan cəhrənin,
Bəs nədəndir çalxalanan nehrənin,
Şoru mənə, yağı sənə düşübdür?

Belədir, əzizim, dünyanın işi:
Qayğıda, zəhmətdə olur ər kişi!
Gəl unutma, adətləri, vərdişi:
Koru mənə, sağı sənə düşübdür.

*2001*

## SUAL

De görüm, mən hara durub tələsim,
Yolumu gözləyən varmıdır, görən?
Kimsəyə çatarmı yanıqlı səsim,
Özümü özləyən varmıdır, görən?

Başımdan qovummu qəm havasını,
Söylədim hansını, deyim hansını,
Bu dərd libasının geyim hansını,
Halımı izləyən varmıdır, görən?

Rəhmanam, başımdan yağır dərd-qəmim,
Nə bir canyananım, nə bir həmdəmin,
İçimdə qovrulur arzum, istəyim,
Yanğıma sızlayan varmıdır, görən?

*10.01.2002 Bakı*

## BİLMƏDİM

Mən bulaq başında görmüşdüm səni,
Bilmədim, balağa, ya sənə baxım.
Hüsnün bəzəmişdi ətraf çəməni,
Bilmədim, buxağa, ya sinə baxım.

Gözəllər içində bircəyidin, bircə,
Geyimin, libasın mina boyunca,
Gərdənin mərmərdi, dəxi bel incə,
Bilmədim dodağa, Yasinə baxım.

Xəyalım göylərə uçmuşdu o an,
İtmişdi beynimdə həqiqət, zaman,
Demə ki, qocalıq, ruhsuzdur Rəhman,
Bilmədim, növrağa, ya sinnə baxım?!

*07.11.2003*

## PÜNHANIM

Qəlbim yaralanıb namərd oxundan,
Gəl, zərif əlinlə bağla, pünhanım.
Görüb camalını, qalxdım yuxudan,
Ömrünə bulaq tək çağla pünhanım.

Bahar nəfəslisən, tərsən, təzəsən,
Görüm gəlməyəsən, əsla, gözə sən,
Xəzan taleyimi çəkdin yaza sən,
Onu bahar kimi saxla, pünhanım.

Əhdimə sadiqəm, yoxdur qələtim,
Saxta ünsiyyətə çoxdur nifrətim,
Mətindir, dönməzdir saf məhəbbətim,
Lap imtahan eylə, yoxla, pünhanım!

*29.09.2001 Bakı*

## NOVRUZ MƏRASİMİ

Novruz mərasimi çox
Keçəli, kosası tox,
Ancaq bərabəri yox,
Yumurta döyüşünün!

Tutardıq gözümüzə,
Vurardıq dişimizə.
Şadlığı ömrümüzdə,
Yumurta döyüşünün!

Böyüdüm, yaşa doldum,
Ağsaqqal kişi oldum,
Nəvəmlə sevinc böldüm
Yumurta döyüşündə!

Dost da yumurta kimi,
Gözə tutulmalıymış.
Dost da yumurta kimi
Dişə vurulmaymış.

Nə biləsən, bu dostun
Mətanətli, sadiqdir.
Nə biləsən bu dostun
Ləyaqətli, dəqiqdir.

Dost gördüm, arı kimi,
Çiçəyə, gülə qondu.
Dost gördüm, ağrı kimi,
Keçib ürəyə qondu.

Dost gördüm, mövqeyimdə,
Yedi, yatdı, məst oldu.
Dost gördüm, bəd günümdə,
Danışmadı, süst oldu.

Dost gördüm, ünvanımı,
Soyadımı unutdu.
Dost gördüm, məramımı
Muradımı unutdu.

Dostlar idimi onlar,
Oyuncaqlar, oyunlar,
Qarınqulu qoyunlar,
Hardadır görən, Novruz?

Dost idi, qohum idi,
Canıma qurban idi,
İndi Allahlıq edir,
Yaddaşın dönər, Novruz!

Bu günün sabahı var,
Yaddan çıxarmı bunlar?
Bir gün bərk tutar azar,
Çırağın sönər, Novruz!

İstərəm ki, Novruzum,
Yaşasın əsr-əsr.
Novruzun gəlişinə,
Ürək dözmür, tələsir…

Qoy gəlməsin dostlarım,
Bitməz qazancım, varım,
Yenə bayram gələcək,
Nəvələrim güləcək.

Yumurtalar sınacaq,
Uşaqlar şad olacaq,
Gəl, gəl Novruzum mənim!
Tanrıdan ruzim mənim!

*16.10.2000 Bakı*

## HƏFTƏ BAYATILARIM

Bu gün bazar ertəsi,
Gəlmir telefonun səsi.
Ölə də bilmirəm mən,
Günüm varmış görəsi.

Çərşənbə axşamıdır,
Qismət yanan şamındır.
Dünənə bu gün şükür!
Hər səhəri şam udur.

Bu gün çahardı şənbə,
Yola qatardı şənbə.
Yığışdır çul-çuxanı,
Ölüm nahardı, şənbə!

Gəldi cümə axşamı,
Ruhlara yandır şamı.
Yas axtar, yeməyə get!..
Buyumuş ömrün davamı.

Bü gun cümədi, neynim!
Kimə çatır gileyim?
Gələn cümə gününə,
Düşəydi yeddim mənim!

Bu gün bazar axşamı,
Yanır göylərin şamı.
Ən əziz doğmalarım,
Unudub ünvanımı.

Bu gün bazar günüdür
Canın azar günüdür
Yaddan çıxıb adım da,
Ömrün bezar günüdür.

Günlərin günahı nə,
Tanrı yazıb bəxtinə,
Görürsən ki, gətirmir,
Döz bu zülmə, çətinə.

## DÜNYA BAYATILARDA

Bu dünya-acı dünya,
Başımın tacı dünya.
Qalıb odsuz, ocaqsız,
Nənəmin sacı, dünya.

Bu dünya-naşı dünya,
Qəbrimin daşı dünya.
Milyon illər keçsə də,
Bir parça kaşı dünya.

Bu dünya-hədər dünya,
Son ucu kədər dünya,
Yedikcə yeyər doymaz,
Elə ac gedər dünya.

Bu dünya başı daşlı,
Sevgisi gözüyaşlı.
Əzəli muştuluqlu,
Sonu halvalı, aşlı.

Bu dünya-yalan dünya,
Yığdığı talan dünya.
Kiminə palan dünya.
Bu dünya-zalım dünya,

Qadanı alım, dünya!
Qismətimə qayiləm,
Qoyma, talanım, dünya!
Mən də balanam, dünya...
Qıyma dilənim, dünya!

*Aprel 2002*

## ZAKİR ŞƏHRİYAZ

Zakir Şəhriyaz - Ələsov Zakir Ələs oğlu 1954-cü ildə Dərələyəzin Ayısəsi kəndində anadan olub. Yaradıcılığa orta məktəb illərindən başlayıb. İndiyə qədər şairin iki kitabı «Yazanda elə yaz...» və «Dərələyəz deyə-deyə» çapdan çıxmışdır.

### *USTADNAMƏLƏR*

### KORLANMASA

Sərrafın bazarı qiymətdən düşməz,
Naşılar əlində ləl korlanmasa.
Baş öz bədənində salamat qalar,
Boşuna danışıb dil korlanmasa.

İstəsə gününü keçirməz hədər,
Bağını becərən meyvəsin dərər.
Gözəllik gözələ yaraşıq verər,
Hörüklər kəsilib tel korlanmasa.

Şəhriyazın canındadır bu istək,
Nəyi deyiriksə gərək düz deyək.
Ləkələnməz vicdan, ağrımaz ürək,
Nəfis bütün olsa, əl korlanmasa.

## PARALANMASIN

Məclisdə yaxşıdır qayda gözləmək,
Çalış ki sözlərin havalanmasın.
Səbrin dərin olsun, ürəyin geniş,
Üstünə başqası lovğalanmasın.

Təmkinli ol, əyriliyə alışma,
Bilmədiyin işə heç vaxt qarışma.
İmkanın olsa yersiz danışma,
Gözün göz yanında daldalanmasın.

Şəhriyaz, pis kəlmə gətirmə dilə,
Bu da bir gün idi heç düşməz ələ.
Hər gəlib gedənə baş qoşma belə,
Ürəyin od tutub paralanmasın.

## NƏ VAR

Sevdiyini gərək candan sevəsən,
Nəyinsə xətrinə sevməyə nə var.
Nimdaş paltarını yaxşı geyəsən,
Təzəni bəzəyib geyməyə nə var.

Boşboğazı qoyma yersiz deyinsin,
Haraya getsən də yerin bilinsin.
Oğul deyərəm ki, içməmiş dinsin,
İçəndə özünü öyməyə nə var.

Nər insan bir şeyə eyləyir vərdiş,
Pis olmaz vaxtında görünəndə iş.
Hünərin çatırsa güclüyə iliş,
Gücsüzü, zəifi döyməyə nə var.

Şəhriyaz, sən demə sözüm çox olsun,
Aramızda hörmət-izzət yox olsun.
Məclisə gedəndə gözün tox olsun,
Əlinə keçəni yeməyə nə var

## HAYIF OLAR

*Oğlum Sədiyə*

Sarmaşıq dolaşıb yolunu tutar,
Bağban naşı olsa gül hayıf olar.
Yiyəsiz qalmasın, ay ellər, çöllər,
Yiyəsiz qalanda çöl hayıf olar.

Göz aldadan işi görüb çalışma,
Giclərə qoşulub gic-gic dolaşma.
Cavansan, ay oğul, yalan danışma,
Yalan danışanda dil hayıf olar.

Əsli-zatı olan haqqı itirməz,
Boynunu qızartmaz, minnət götürməz.
Halallıq adama ziyan gətirməz,
Harama öyrəşsə əl hayıf olar.

Yaşlandıqca adam çox sözü udur,
Soysuzlar yuvasın tezcə unudur.
Şəhriyazı elə yandıran budur,
Yurddan ayrılanda el hayıf olar.

Azarı,
Çox bal verməz az arı.
Naşı təbib qurtarmaz,
Canda olan azarı.

Lələ səni,
Tutublar lələ səni.
Qorxuram Kərəm olam,
Qoyalar Lələ səni.

Dolana,
Dağda bulud dolana,
Toxunmayın gözləri,
Doluxsunub dolana.

Gündə sən,
Kölgədə yox gündəsən.
Bayram olar evimdə,
Bizə gəlsən gündə sən.

Qurandı,
Oxuduğun Qurandı.
Yaxşı oğul həmişə,
Ata evi qurandı.

Almalı,
Çıx bazara al malı.
Düşmən elə od qoyub,
Külə dönüb Almalı.

Azadam,
Söz anlayır az adam.
Dərd ürəkdən qurtarmır,
Deyəm dərddən azadam.

Düz yaza,
Həsrət qalıb düz yaza.
Qələm tutan gərəkdir,
Dərdlərimi düz yaza.

Üzlüdü,
Ev qatığı üzlüdü.
El içində elə gəz,
Deməsinlər üzlüdü.

Yar qana,
Yar anlaya, yar qana.
Yaxşı otur, yaxşı dur,
Heç düşməsin yar qana.

Dörd əlli,
İki yüzdür dörd əlli.
Ac gözlər yaman tutub,
Bu dünyanı dörd əlli.

Buxara,
Başqa papaq buxara.
Özbəklərdə gözəldir,
Səmərqəndlə Buxara.

Xalıdı,
Toxuxuduğun xalıdı.
Yara yaraşıq verən,
Üzündəki xalıdı.

Çəkməni,
Yaxşı saxla çəkməni.
İnsaf eylə, demədim,
Gündə dara çək məni.

Bir birə,
Bir qarışqa, bir birə.
Qonşular yaxşı olsa,
Düşmən olmaz bir-birə.

Düşərsən,
Gəl qabağa düşərsən.
Namərd olsan Vətənə,
El gözündən düşərsən.

Din sizi,
Hifz eləsin din sizi.
Tanrı gora göndərsin,
İmansızı, dinsizi.

Kasa dərin,
Olubdur kasad ərin.
Vermisən necə içim?
Şərab tünd, kasa dərin.

Qurd ala,
Hər sözü az qurdala.
Vay o günə, gün gələ,
İt yerini qurd ala.

Sürünər
Çoban nərdi, sürü nər.
Tənbəlin qaydasıdır,
Daldalarda sürünər.

Özgədən,
Özgə sümbül, özgə dən.
Öz işini özün gör,
Kömək umma özgədən.

Dərd oxu,
Ova dəyəməz dərd oxu.
Sən ki, qanan əhlisən,
Aç kitabı dərd oxu.

Qara günü,
Unutma qara günü.
Bir cananın üstünə,
Gəlibdir qara günü.

Qar daşı,
İsladacaq qar daşı.
Yaman gündə unutmaz,
Yenə qardaş qardaşı.

Qala yeri,
Ev yeri, qala yeri.
Canımda üşütmə var,
Ocağın qala yeri.

Yad ana,
Ya öküzdür, ya dana.
Balaya doğma olmaz,
Özgə ata, yad ana.

Daş altı,
Qaya altı, daş altı.
Tələ qurdu xainlər,
Ələ keçdi Daşaltı.

Keçələ,
Demədim get keç ələ.
Koroğlu tək nər igid,
Aldanıbdır keçələ.

Daş başa,
Gözün düşüb daş-başa.
Sabah peşman olarsan,
Gəlib dəysə daş başa.

Mədəni,
Gücə salma mədəni.
Elə danış desinlər,
Mədənidir, mədəni.

Aranı,
Gün yandırar aranı.
Danışana qulaq as,
Qarışdırma aranı.

Ha lalı,
Dolaşdırma ha lalı.
Boğazdan şirin keçər,
Çörəyinin halalı.

Yar ağı,
Geyinibdir yar ağı.
Yaxşı igid həmişə,
Yaxşı saxla yarağı.

Qarğa yar,
Gülə qonub qarğa yar.
Paxılın peşəsidir,
Başqasına qarğayar.

Ağrıya,
Qoyma canın ağrıya.
Vedibasar elləri,
Həsrət qalıb Ağrıya.

## YAZMAMIŞAM

Ürəyimdən keçənləri,
Ürəyimcə yaxmamışam.
Doğru sözü, həqiqəti,
Yalan yerə yozmamışam.

Maral gəzər göl yanında,
Bülbül ötər gül yanında.
Üzüm ağdır el yanında,
Düz yolumu azmamışam.

Çal ay Azay gəlsin səsin,
Sönməsin gözəl həvəsin.
Şəhriyazam, bircə kəsin,
Ayaq altın qazmamışam.

## DAĞLAR YENƏ MƏNSİZ QALDI

Bu bahar da belə keçdi,
Dağlar yenə mənsiz qaldı.
Yuxularım çin olmadı,
Dağlar yenə mənsiz qaldı.

Arxacında əyləşmədim,
Bulağınla öpüşmədim,
Ürəyimcə görüşmədim,
Dağlar yenə mənsiz qaldı.

Ömrün yarsın verdim yelə,
Kövrəlib çox gəldim dilə.
Gün keçirdim elə-belə,
Dağlar yenə mənsiz qaldı.

Şəhriyaz oldu bir təhər,
Yurdsuz yandım Kərəm qədər.
Arzularım oldu hədər,
Dağlar yenə mənsiz qaldı.

## GƏTİRƏR

Zimistanda qar olanda,
Bahar çiçək gül gətirər.
Aranı isti yandırar,
Yaylaq sərin yel gətirər.

Çox olsa da dərdi-sərin,
Başqa olar sənin yerin.
Axşam üstü şirin-şirin,
Söz-söhbəti dil gətirər.

Deyəmmirəm deyəm ağı,
Sinəmdədir Vətən dağı.
Yağış yağsa yaz qabağı,
Çaylar daşar sel gətirər.

Şəhriyaz, sən olma axmaq,
Görürsən dərs verir sarsaq.
Gözün qaydasıdır baxmaq,
Ayaq gedər, əl gətirər.

## DUMAN GETMİR BU DAĞLARDAN

*Abbas Tufarqanlıya*

Nə müddətdir get demisəm,
Duman getmir bu dağlardan.
Dağlardan bar istəmisən,
Duman getmir bu dağlardan.

Dərdi çəkmək bizə gəlib,
Həyasızlar üzə gəlib.
Elə bil ki, gözə gəlib,
Duman getmir bu dağlardan.

Daha mənim yoxdur çaram,
Biilqarla olmaz aram.
Sızıldayır köhnə yaram,
Duman getmir bu dağlardan.

Qoyun-quzu sudan içmir,
Biçinçilər otu biçmir.
Şəhriyazın sözü keçmir,
Duman keçmir bu dağlardan.

## DEYİL

Sən nadana can desən də,
Nadan səni qanan deyil.
Yaş palıdı oda atıb,
Neyləsən də yanan deyil.

Bu düşdüyüm nə xəyaldı,
Dünya malı kimə qaldı?!
Qartal zirvədə qartaldı,
Kola-kosa qonan deyil.

Şəhriyazı bilə-bilə,
Gəl sən tutma şirin dilə.
Canı qurban versə belə,
Düz sözünü danan deyil.

## YARIYAR

Gözəllərin adətidir,
Tellərini yan darayır.
Vaxtı gəlib yetişəndə,
Özünə həmdəm arayır.

Nələr gördük yalanlarda,
Ömür keçdi talanlarda.
Dərdi-qəmi olanlar da,
Qocalıb vaxtsız qarıyar.

Ay Şəhriyaz, bir az dayan,
Nə yatmısan, sən də oyan.
El vereni unutmayan,
Elin işinə yarayır.

## BAĞLANA-BAĞLANA

Yaz gələndə çay suları,
Axar çağlana-çağlana.
Nənələrin qazanları,
Qaynar buğlana-buğlana.

Qışdan keçdik yaza doğru,
Ürəkdən getsin ağrı.
Dillən sazım düşmən bağrı,
Qalsın dağlana-dağlana.

Şəhriyazla gəl görüşə,
Çiçək dərib çıxaq döşə.
Qorxuram ki, qar tez düşə,
Yollar bağlana-bağlana.

## DAĞLAR, MƏNDƏN İNCİMƏYİN

Görüşməyə gələmmədim,
Dağlar, məndən inciməyin.
Güllərini üzəmmədim,
Dağlar, məndən inciməyin.

Düşmən namərd, yollar bağlı,
Ürək xain, dillər yağlı.
Qalmışam sinəsi dağlı,
Dağlar, məndən inciməyin.

Sizdə keçdi ömrüm-günüm,
Başınıza özüm dönüm.
Sizə çatmır hayım, ünüm,
Dağlar, məndən inciməyin.

Ayrı düşmək nə yamandı,
Quzeylərin çən, dumandı.
Şəhriyazın nigarandı,
Dağlar, məndən inciməyin.

## QƏRİB ELDƏ

*Qardaşım Əkbərə*

Vətənimdən aralandım,
Qərib oldum qərib eldə.
Dərd əlindən yaralandım,
Qərib oldum qərib eldə.

Günlər keçdi dayanmadı,
Sayılmazlar say anmadı.
Yatmış bəxtim oyanmadı,
Qərib oldum qərib eldə.

Getdim uzaq ellərə mən,
Düşdüm daşqın sellərə mən.
Həsrət qaldım güllərə mən,
Qərib oldum qərib eldə.

Şəhriyaz, ömür hədərdi,
Hara yazaq biz bu dərdi.
Fərmanımı verən verdi,
Qərib oldum qərib eldə.

## KİMİ

Ala gözlər nə dolubdur,
Göydə bulud dolan kimi.
Yanaqların saralıbdır,
Bağça-bağlar solan kimi.

Gedən gedərələ gəlməz,
Qəlbim sınsa üzün gülməz.
Həs kəs laylay çala bilməz,
Ana laylay çalan kimi.

Şəhriyazam, çən olardım,
Sünbülündə dən olardım.
Sənə qurban mən olardım,
Pirə qurban olan kimi.

## OLMAZ

Bala quş tək uçub gedər,
Yuvasında qalan olmaz.
Dərdi elə satma qardaş,
Belə dərdi alan olmaz.

Çoxdur haqqı-say itirən,
Ona-buna söz ötürən.
Hər əlinə saz götürən
Ustad olub çala bilməz.

Şəhriyazla yaxşı dolan,
Tez boşalar tez də dolan.
Kimin sözü olsa yalan,
Mənim sözüm yalan olmaz.

## DEMƏDİN

Coşa gəlib saz götürdüm,
Bircə dəfə çal demədim.
Əziyyətim hədər getdi,
Bir qədəmi al demədin.

Səhər yandım, axşam yandım,
Səni gördüm, səni qandım.
Otağını cənnət sandım,
Gəl yanıma qal demədin.

Gecə-gündüz ha alışdım,
Oda közə mən qarışdım.
Şəhriyazam çox çalışdım,
Məni yada sal demədin.

## BİLƏM

Yaradanım möhlət verə,
Gedib kəndi görə biləm.
Bir qoşulam uşaqlara,
Çöldə çiçək dərə biləm.

Donam qışın sazağında,
Yatam dağlar qucağında.
Bir bulağın qırağında,
Güllü dəsmal sərə biləm.

Şəhriyaz gül ata yola,
Sevincindən gözü dola.
Gələ elə bir gün ola,
Elə müjdə verə biləm.

## DOYMAMIŞAM

Danış dilinə qurbanam,
Dillərindən doymamışam.
Əllərini çək başıma,
Əllərindən doymamışam.

Sevinirsən gəlsəm haçan,
Sözlərin var ürək açan.
Bağçanızda ətir saçan,
Güllərindən doymamışam.

Şəhriyazı gətir cana,
Qol qoyaq əhdi-peymana.
Yel vurub atsın bu yana,
Tellərindən doymamışam.

## SƏNİN QUCAĞINDA

Fərman göndər gəlim sizə,
Yatım sənin qucağında.
Elə saxla isti tərə,
Batım sənin qucağında.

Qoyma çıxsın söz adıma,
Güllü yazı sal yadıma.
Bir anlığa muradıma,
Çatım sənin qucağında.

İmtahan et sən o günü,
Şəhriyaza ver ikini.
Ürəyimin qəm yükünü,
Atım sənin qucağında.

## DAĞLARA-DAĞLARA

Dillənirəm çatmır hayım,
Ünüm dağlara-dağlara.
Xəyal, məni göydən burax,
Enim dağlara-dağlara.

Həsrətindən can usanıb,
Dərdimiz yüzə dayanıb.
Göz gəzdirib, bir boylanıb,
Çönüm dağlara-dağlara.

Şəhriyazın yoxdur baxtı,
Hicran bizi yenə yaxdı.
Heç olmasa ahıl vaxtı,
Dönüm dağlara-dağlara.

## YUXUDA-YUXUDA

Yurd yerinə səfər etdim,
Getdim yuxuda-yuxuda.
Bülbül kimi cəh-cəh vurub,
Ötdüm yuxuda-yuxuda.

Hicran qəminə alışıb,
Məndən küsənlə barışıb,
Yazda çisəyə qarışıb,
İtdim yuxuda-yuxuda.

Şəhriyazam, qəlbim incə,
Əyilmərəm mən ölüncə.
Muradıma ürəyimcə,
Yetdim yuxuda-yuxuda.

## DƏRƏLƏYƏZ DEYƏ-DEYƏ

Vaxtım ötdü, tez qocaldım,
Dərələyəz deyə-deyə.
İllər keçdi, həsrət qaldım,
Dərələyəz deyə-deyə.

Uzadıram çatmır əlim,
Gələmmirəm necə gəlim.
Qabar oldu mənim dilim,
Dərələyəz deyə-deyə.

Şəhriyazam, yandı didəm,
Nağıl oldu ötən vədəm.
Tanrım, qoyma vaxtsız gedəm,
Dərələyəz deyə-deyə.

## YERİNƏ

Anlamaza qoşma başı,
Sözü salır kal yerinə.
Çox çalışdım düzəlmədi,
Özün qoyub mal yerinə..

Hanı bizdə olan hörmət,
Getdi əldən, getdi ismət.
Gözdən düşüb deyər, qiymət,
Çit satılır şal yerinə.

Şəhriyazı ver qabağa,
Qoyma getsin bir uzağa.
Gəl bazarı gör, ay qağa,
Sor çıxıbdır bal yerinə.

## O DAĞLARDA

Atamın dalına düşüb,
Yeriyərdim o dağlarda.
Dolu kimi göydən yağıb,
Əriyərdim o dağlarda.

Dərəydim gülün tərini,
Ataydım çaya birini.
Qoyun-quzunun yerini,
Kürüyərdim o dağlarda.

Baş qoyardım baş balınca,
Gün batardı oyanınca.
Şəhriyazam, ayrılınca,
Çürüyərdim o dağlarda.

## AĞLAR QALDI

Bar vədəsi bar vermədi,
Bağlarımız ağlar qaldı.
Ellər çıxıb yaylamadı,
Dağlarımız ağlar qaldı.

Ölməzdi o sudan içən,
Gül içində gülü seçən.
Ömrümüzdən gəlib-keçən,
Çağlarımız ağlar qaldı.

Şəhriyazı gəlib getdi,
Göz yaşını silib getdi.
Ölənimiz ölüb getdi,
Sağlarımız ağlar qaldı.

## BİR GÖRƏYDİM

Şeh düşəndə o dağların,
Lalasını bir görəydim.
Kəndimizin meşəsini,
Talasını bir görəydim.

Vurğunuydum yaz yelinin,
Sirdaşıydım qız-gəlinin.
Dağda qaçan dağ kəlinin,
Balasını bir görəydim.

Xeyri yoxdur boş gümanın,
Gedir əldən, gedir canın.
Şəhriyaza od qoyanın,
Xalasını bir görəydim.

## *CİNASLI GƏRAYLILAR*

## LALA XANIM

Kim nə deyib qəmlənibsən,
Dinməz su tək lal axanım.
Gəl mənimlə seyrə çıxaq,
Açıb dağda lala xanım.

Aç kitabı, bir oxu «nu»
Yaxşı yazı bir oxunu.
Qəfil atıb söz oxunu,
Lağ eyləmə lala, xanım.

Sözün varsa de yaxına,
Gətir sürmə sən, ya xına.
Şəhriyaz gəlsə yaxına,
Dilin olur lal, a xanım.

## *QOŞMALAR*

### YERDƏ

Gərək lal olaydı ağzımda dilim,
Gəlib sənə salam verdiyim yerdə.
Düşəydi dünyanın daşı başıma,
Səni belə dərdli gördüyüm yerdə.

Yaman günə qoydu ahu-zar məni,
İncidib göynətdi intizar məni.
Birdən qəfil tutdu boran-qar məni,
Çəməndə gülümü dərdiyim yerdə.

Şəhriyazı nədən günahkar bildi,
Qəlbinin başını tənələr yedi.
Başıma çox bəla, müsibət gəldi,
Beləcə ömrümü sürdüyüm yerdə.

### LƏZZƏT VERƏR

Göz-gözə gələndə könül atdanar,
Gözəl danışanda dil ləzzət verər.
Ayna qabağında xumarlananda,
Sığal çəkiləndə tel ləzzət verər.

Yerişi-duruşu bənzəyir xana,
Nazıyla – qəmzəsi qəsd edər cana.
Bəzəyi-düzəyi qalsın yana,
Kəmər qurşananda bel ləzzət verər.

Şəhriyazın batmaz hər söz beyninə,
Gah inciyə, gah da durub deyinə.
Nə ağrı, nə acı gəlməz eyninə,
Günün xoş keçəndə il ləzzət verər.

### HƏRDƏN

Sən demə qocalıq nə pis olurmuş,
Əlimi gözümə dürtürəm hərdən.
Soyuqlar olanda can sızıldayır,
İstilər gələndə pörtürəm hərdən.

Bülbülüm ötüşmür gülümdən gedib,
Bəzəkli sözlərim dilimdən gedib.
Əzəlki sağlığım əlimdən gedib,
Üstümü yorğanla örtürəm hərdən.

Qoyma Şəhriyazı hər gələn yora,
Ayaqlarım getmir, düşmüşəm tora.
Başımı, beynimi salmıram zora,
Qələmi kağıza sürtürəm hərdən.

## QALDIM

Zəmanə mənimlə düz dolanmadı,
Ömürlük sinəsi yaralı qaldım.
İstəyim gül açıb ətirlənmədi,
Solmuş bağlar kimi saralı qaldım.

Biri fərman verdi, biri buyurdu,
Əlimizdən çıxardılar o yurdu.
Qəza qəfil gəldi düşmən qudurdu,
Yurdumdan, yuvamdan aralı qaldım.

Şəhriyazın daha yoxdur dözümü,
Çevirmişəm Yaradana üzümü.
İncitmədim, incitdilər özümü,
Axırda mən bəxti qaralı qaldım.

## YANDIRIR

Mənimki əzəldən heç gətirmədi,
Kənddə çırağımı yağı yandırır.
Həyət-bacamıza gedib-gələn yox,
Bülbülün naləsi bağı yandırır.

Toy çalınıb, gəlin gəlmir otağa,
Bu işlərə mat qalmışam, mat ağa.
Həsrətdən düşəndə bir gün yatağa,
Xəstənin əzabı sağı yandırır.

Şəhriyaz deyirlər vaxtsız qocalıb,
İllər boyu zəhmət çəkib az alıb.
Dağların özü də ellərsiz qalıb,
Ellərin həsrəti dağı yandırır.

## SƏN DƏ MƏNƏ DAYI DE

***Bir qız mənə dayı dedi dükanda.***

Qocalmışa dayı demək savabdı,
De, ay qızım, sən də mənə dayı de.
Sənin bu deməyin qəbahət deyil,
De, ay qızım, sən də mənə dayı de.

Əldən gedib mənim gözəl mahalım,
Şeytan bazarına tökülüb malım.
Daha sözə baxmır tərlan xəyalım,
De, ay qızım, sən də mənə dayı de.

Min tənə götürdüm bir ağlı kəmdən,
Bir də söz açmıram əlifdən beydən.
Qırılıb qanadım, düşmüşəm heydən.
De, ay qızım, sən də mənə dayı de.

Şəhriyazın kəsilibdir gümanı,
İndi seçmir gözüm arpa-samanı.
Qocalığın gəlib çatıb zamanı,
De, ay qızım, sən də mənə dayı de.

## GƏLMİR

İlahi, gör necə dünya dəyişib,
Perikib sonalar gölə də gəlmir.
Kimi dindirirsən şikayət edir,
Bircə şirin söz-sov dilə də gəlmir.

Bəxtsiz gözəl gördüm kamın almayıb.
Bir şirin vüsala qismət olmayıb.
Bağlarda əzəlki bağlıq qalmayıb,
Bülbüllər nazlanıb gülə də gəlmir.

Şəhriyazın gözü haqqa dikilib,
Yol var ki, təzədir, yol var keçilib.
İstədiyin nə var yoxa çəkilib,
Gəzib axtarırsan elə də gəlmir.

## OLDU

Xəyal məni o yerlərə apardı,
Yollarımda boran oldu, qar oldu.
İstəyimə yetəmmədim nə fayda,
Bəlalı başıma dünya dar oldu.

Bəxtim üz döndərdi durduğun yerdə,
Bir bəndə düşməsin mən düşən dərdə.
Lələsiz qalmışam dar gədiklərdə,
Bağçalar gözümdə solub xar oldu.

Şəhriyazı fələk gətirdi dilə,
Atıb çalxaladı elədən-belə,.
Ömrün ləzzətini görməmiş hələ,
Dağıldı bərxanam tarımar oldu.

## GÜLÜR

Tərsinə dönübdür dövrü-zəmanə,
Öz yolunu azan canana gülür.
Belə göynəməyin xeyiri yoxdur,
Qəlbdən yanmayanlar yanana gülür.

İllərlə görüşmür nə dost, nə sirdaş,
Üzüb canımızı yersiz bu savaş.
Neyləyə bilərik belədir, qardaş,
Bir şey anlamayan anana gülür.

Şəhriyaz, bax kimlər durur namaza,
Başı çıxmayanlar qurşanıb saza.
Keçmişdə gülərdi qanan qanmaza,
İndi də qanmazlar qanana gülür.

## BİLİR

Adam var həsrətdən dolubdur gözü,
Nə ağlaya bilir, nə gülə bilir.
Adam var dizinin yoxdur taqəti,
Nə dayana bilir, nə gələ bilir.

Adam var möhnətdən çatılıb qaşı,
Adam var axtarır dava-savaşı.
Adam var hiylədən açılmır başı,
Nə anlaya bilir, nə bilə bilir.

Adam var, Şəhriyaz, qaralıb qanı,
Adam var itirib abır-həyanı.
Adam var dünyadan bezibdir canı,
Nə yaşaya bilir, nə ölə bilir.

## QORXUDUR

Aman Allah nə pis günə çatmışıq,
Tülkülər yekəlib şiri qorxudur.
Moda minib həyasızlar bazarı,
Birisi qorxanda, biri qorxudur.

Qarışıb böyüklə kiçiyin yeri,
Ağıllılar olub dəli müştəri.
Əllərinə fürsət keçəndən bəri,
Cılızlar sürtülüb nəri qorxudur.

Şəhriyaz, bulanıb sözün axarı,
İtib günümüzün gəlir-çıxarı.
Görürsən sən barı çıxma yuxarı,
Arvad var dinəndə əri qorxudur.

## QOCALANDA

Vaxtın keçdi daha döymə başına,
Ayaqlar yeriməz diz qocalanda.
Güzgü də səninlə dostluq eləməz,
Qırışar sifətin üz qocalanda.

Sən küsərsən körpə uşaq sayağı,
Çəlik olar əllərinin dayağı.
Qarışıq salarsan yağla qaymağı,
Axtararsan balı göz qocalanda.

Şəhriyaz, kimsəyə bir daş atmadın,
Gecələr bir dəfə rahat yatmadın.
Cavanlıqda istəyinə çatmadın,
Əlini dünyadan üz qocalanda.

## ÇOXALIB

Ayrılıq əlindən, el həsrətindən,
Nigaran dağlarda duman çoxalıb.
Zəmanə bəd gəlib, dövran dəyişib,
Yaxşılar azalıb, yaman çoxalıb.

Haqqı-ədaləti biz necə danaq,
Əlacımız odur beləcə yanaq.
Kimə bel bağlayıb, kimə inanaq,
Yersiz, boş vədələr, güman çoxalıb.

Halımızı soruşmağa gəldilər,
Dövrümüzün tərs üzünə güldülər.
Görənlər gözünə baxıb bildilər:
«Şəhriyazın dərdi yaman çoxalıb».

## YOXDUR

Eşidənlər qınamasın tez məni,
Desəm düşünməyə başımız yoxdur.
Bəyənmirik başqasını dinəndə,
Elə bilirik ki, naşımız yoxdur.

Həsrət çəkən gördüm yerdə zəlildir,
Biri ümidsizdir, biri əlildir,
Düşmən at oynadır gör neçə ildir,
Başına vurmağa daşımız yoxdur.

Şəhriyazam, niyə düşdük dəyişik,
Qayıdarıq yurd yerinə demişik,
Neçə ildir ağlamaqdan bezmişik.
Daha gözümüzdə yaşımız yoxdur.

## YALANIYMIŞ

Heyif gec anladım, gec başa düşdüm,
Elə bilirdim ki, düz yalanıymış.
Həyasız dinəndə bunun yanında,
Abırlı-həyalı üz yalanıymış.

Yersiz gəl toxunma o sarı simə,
Həvəsim olmasa gəlmərəm dəmə,
Yalanı danışdı bizə, sən demə,
Mənim danışdığım söz yalanıymış

Şəhriyaz, beləcə boynunu bükür,
Şükür kərəminə, yenə min şükür.
Gedənlər keçmişdən elə dil tökür,
Dədələr qoyduğu iz yalanıymış.

## TULLAMAMIŞAM

Yaxşı tanımırsan məni hələ sən,
Təzəyə meyl edib çullanmamışam,
Sənin kimi yeri gəldi-gəlmədi,
Gündə nəsə içib hallanmamışam.

Başımı əyəndə haqqa əymişəm,
Nəyi düşünmüşəm onu demişəm,
Yavan çörəyimi baltək yemişəm,
Özgə qapısında yallanmamışam.

Axıtmadım nahaq yerə tərimi,
Dosta yük etmədim dərdi-sərimi.
Şəhriyazam gözləmişəm yerimi,
Sıçrayıb qabağa tullanmamışam.

## ÇIXMIRAM

Xəcalət çəkmirəm kimsə yanında,
Xəyanət eyləyib, könül yıxmıram.
Nəfsim bütündür nəyi gördümsə,
Qamarlayıb boğazıma tıxmıram.

Hiylə girə bilməz söz sandığıma,
Özü tək inandım inandığıma,
Ürəkdən yanıram mən yandığıma,
Yalandan gözümü yumub sıxmıram.

Sinəmdə yurd salan sağalmaz qəmdi.
Didəmin yaşını yanağım əmdi,
Şəhriyazam, ağlım yerində cəmdi,
Səsimi qaldırıb zilə çıxmıram.

## AXTARIRSAN

Sənin ki, üzünün həyası yoxdur,
Bəs niyə həyalı üz axtarırsan?
Dilin əməlinə müxalif olub.
Durub danışanda düz axtarırsan?

Mən elin yolunda olaram lələ,
Eldən aldığımı qaytarsam elə.
Dünən gördüyümü demirəm hələ,
Yüzü qurtarmamış yüz axtarırsan.

Şəhriyaz, sən də ki yola gəlmirsən,
Tərsliyin tutanda heç düzəlmirsən.
Evdə bir misranı yaza bilmirsən,
Çıxıb dağda-daşda söz axtarırsan.

## SAXLAMIŞAM

Pisniyyət olmadım mən doğulanda,
Könlümü-gözümü tox saxlamışam.
Nə qədər mülayim olsam da belə,
Namərdin gözünə ox saxlamışam.

Qəlbimdə çox şeylər keçdi nədənsə,
Fağırın zərəri dəyməz bir kəsə,
Demişəm biri var qapıma gəlsə,
Üzünə deməyə yox saxlamışam.

Yalançı verdiyi sözünə gəlməz,
Qızarar-bozarar, utanıb, ölməz,
Şəhriyazam, yüküm qurtarmaq bilməz,
Sinəmə doldurub çox saxlamışam.

## BELƏSİNƏ

Başım üstümdədir, huşum yerində,
Qoymamışam baxsın göz beləsinə.
Torbası dolanda cənnət görünür,
Dərə beləsinə, düz beləsinə.

Əlliyə çatsa sa adam olmayıb,
Birinə yanmayıb, gözü doymayıb,
Mənim dinləməkdən səbrim qalmayıb,
Sənin səbrin varsa döz beləsinə.

Şəhriyaz, göz vurdu ona pünhanı,
İşarə eylədi yerini tanı,
Qatıb qarışdırdı cümlə-cahanı,
Heyif, kar etmədi söz beləsinə.

## USTAD
(ustadıma)

Sözümün mədəni qurtarmaq bilmir,
Gündəlik azacıq deyirəm, ustad!
Dişlərim hələlik öz yerindədir,
Əlimə keçəni yeyirəm, ustad!

Haqsız işlər görüb evlər yıxmıram,
Onun-bunun arxasınca baxmıram,
Yeri gələndə də başa çıxmıram,
Yalandan özümü öyürəm, ustad!

Axşamlar hərdənbir axır xəyalım,
Qoymurlar məni də özüm qocalım.
Ağlıma da gəlmir təzəni alım,
Köhnədən qalanı geyinirəm, ustad!

Düz yola çəkmişəm axmaq dəlini,
Bağlamışam nanəcibin dilini,
Biri sinəsinə döyür əlini,
Mən də öz başıma döyürəm, ustad!

Şəhriyaz başını bəlaya salıb,
İçindən alışıb, oda qalanıb,
İmkan olmasa da taqətim qalıb,
Dostlara baş çəkib dəyirəm, ustad!

## QABAĞINDA

Ay usta, dünyamız yaman dəyişib,
Çaqqallar oynaşır fil qabağında.
Yerdə tərpənməmiş düşürük şərə,
Dillənə bilmirik dil qabağında.

Neyləyə bilərik bu da həyatdı,
Çox qələm tutanlar paslanıb yatdı.
Köhnə yazıların dadıma çatdı,
Elə bil dayandım gül qabağında.

Bir az qocalmamış halım qalmayıb,
Ürəkdən keçəni əlim almayıb,
Şəhriyazam, dərdsiz anım olmayıb,
Vallah, üzüm ağdı el qabağında.

## *CIĞALI QOŞMALAR*

## LƏZZƏT VERƏR

Pirlər məclisində könül xoşlanar,
Ağızdan çıxanda söz ləzzət verər.
Mən demişəm a sözü,
A söhbəti, a sözü.
Yaradırsan söz yarat,
Gəl korlama a sözü.
Yayın istisində sərin bir kölgə,
Qışın soyuğunda köz ləzzət verər.

Nahaqdan başını salmadım bəhsə,
Belə gün keçirdim belə nə isə.
Mən demişəm bu başı,
Danış ayın bu başı.
Haqqı qurban deyərəm,
Bu bədəni, bu başı.
Gətirər çəmənlik səni həvəsə.
Çiçəklər açanda düz ləzzət verər.

Şəhriyazam, görən küsməz dilimdən
Bir kiməsən olmadı tutsun əlimdən.
Mən qurbanam bir dilə,
Bir dodağa, bir idlə.
Harda olsam gələcəm
Can sağlığı sən dilə.
Nələr keçdi birdən bu an könlumdən,
Yanaq qızaranda üz ləzzət verər.

## DOLANIR

Bir vaxt qabaqlarda gəl-gəl deyənlər,
Xəlvətcə çəkilib yana dolanır.
Mən demişəm dolanır,
Məcnun çöllər dolanır.

Qanan nə haydadı, qanmaz nə hayda,
Günlərimiz gah toydadır, gah vayda
Mən demişəm nə hayı,
Nə harayı, nə hayı.

Xəyalımdan nə keçir,
Nələr gəlib dolanır.
Mehriban olanı, can deyənləri,
Zəmanə gətirib cana dolanır.

Qərib uzaqda ölsə,
Çatmaz elə nə hayı.
Əzəldən deyilib belədir qayda,
Balanın başına ana dolanır.

Əhli-hal hər sözü dillərə yaymır,
Ellərə car çəkib ellərə yaymır.
Mən demişəm yayıla,
Əldə kündə yayıla,
Eşidənə xoş gələ,
Yaxşı sözlər yayıla.
Dünənki gədələr adamı saymır,
Şəhriyaz da yana-yana dolanır.

## HA GƏLƏ-GƏLƏ

Dost ona deyərəm ərzi-halını,
Soruşmağa gələ, ha gələ-gələ.
Mən demişəm ha gələ,
Ha dayana, ha gələ.
Keçənləri unuda,
Bir insafa ha gələ.
Gileyi-güzarı qoya bir yana,
Danışmağa gələ, ha gələ-gələ.

Oxunun dözməyə çatmır qüdrəti,
İtirir arada olan hörməti.
Mən demişəm qüdrəti,
O gördüyün Qüdrəti.
Tanrı özü yaradıb,
İnsandakı qüdrəti.
Ata ürəyindən kini-küdurəti,
Sarışmağa gələ, ha gələ-gələ.

Şəhriyaz çalışdı gələ bir yana,
Dayana yan-yana, gəzə qol-qola.
Mən demişəm bir yolu,
Bir küçəni, bir yolu.
İndi belə yaranıb,
Hər adamın bir yolu.
Əzabı çəkməyə sənlə tən ola,
Barışmağa gələ, ha gələ-gələ.

## VERƏ-VERƏ

Həsrətin çəkdiyin gələ görüşə,
Dərindən bir salam ay verə-verə.
Mən demişəm gələndə,
Dolananda, gələndə.
Mənə müjdə verərlər,
Hərdən bizə gələndə.
Xətrinə dəyməyə bir istəyənin,
Əlini açana pay verə-verə.

Səninlə bir çıxa qoşa gəzməyə,
Nahaq yerə bağrın başın əzməyə.
Mən demişəm bir çıxa,
Durub çölə bir çıxa.
Elə gəzə hər yeri,
O dağlara bir çıxa.
Evdə durub üz-gözünü büzməyə,
Gələn qonağına çay verə-verə.

Gəl incitmə ya qəmgini, ya şadı,
Sevənlərin meyli qələm qaşadı.
Mən demişəm bir qəmə,
Əlindədir bir qəmə.
Mürvət eylə sən daha,
Məni salma bir qəmə.
Şəhriyaz həmişə belə yaşadı,
Çətinə düşənə hay verə-verə.

## DEYƏ-DEYƏ

İstədiyin gərək mehriban ola,
Səni danışdıra can deyə-deyə.
Mən demişəm bu canı.
Bu gördüyün bu canı.
Tanrım, hələ işim çox,
Alma məndən bu canı.
Hər görəndə qol dolaya boynuna,
Sultan deyə-deyə, xan deyə-deyə.

İncitmisən bir də məni az ara,
Kimsə kömək etməz dərddən bezara.
Mən demişəm o dərdi,
O gülüşü, odərdi.
Heç kəs çıxara bilməz,
Sinəmdəki o dərdi.
Sən də saldın məni qəfil araza,
Alış deyə-deyə, yan deyə-deyə.

Hamı dilər ömrü yetişsin yüzə,
Düşməyə bəlaya, gəlməyə gözə.
Mən demişəm bir gözə,
Bir çəməndir, bir gözə.
Bənnəzərdən uzaq gəz,
Gəlməyəsən bir gözə.
Şəhriyaz, ağzınlar durublar üzə,
Dava deyə-deyə, qan deyə-deyə.

## *DODAQDƏYMƏZ CIĞALI QOŞMA*

## YETƏR

Ay ana, deyərsən darda qalanda,
Eşidərsə anan haraya yetər.
Aşıq deyər harayı,
Gələr səsin harayı.
Xəstə elə deyinər,
Çətin keçər hər ayı.
Can sirdaşın yanar sənin halına,
Tələsər əlləri yaraya yetər.

Hər ağılda nələr keçər, ay nələr,
Sarsaqlar da yerli-yersiz deyinər.
Aşıq deyər ay nələr,
Saçına qar ələnər.
Dilənənin işidir,
Çıxar gedər dilənər.
Gecikə də yenə elə il gələr,
Yesirin ayağı saraya yetər.

Şəhriyazı siz də hərdən az anın,
Çətinləşər işi ağlı azanın.
Aşıq deyər azanın,
Eldə adı qazanın.

Dili ağzında yansın,
Dalda qara yazanın.
Yaxşı sənətkarın, yaxşı yazanın,
Sədası səslənər hər aya yetər.

## TƏCNİSLƏR

### AY BELƏ QALA

Kim istəməz güzaranı xoş keçə,
İlləri şad gələ, ay belə qala.
Ürəyin atəşi, odu sönməyə,
Günəş şölə saça, ay belə qala.

Bir gözəl yamacdı, bir gözəl dərə,
Əkdiyim çiçəyi bir gözəl dərə.
Qırxbulaq, Təzəkli, bir Gözəldərə,
Qalıb xatirində ay belə qala.

İnsana əzizdir inan gözəl din,
Gözəl yerdə gözəl danış, gözəl din.
Şəhriyaz, gəl demə sözüm gözəldin,
Nəyin var ki, qala, ay belə qala.

### AYAĞA SARI

Mərdin cəfasını eldə mərd çəkər,
Namərd gözün dikər ayağa sarı.
Yayın istisində bar gətirəndə,
Sünbül başın dikər ayağa sarı.

Oğul odur zəhmət çəkə qazana,
Ara vuran düşsün qaynar qazana.
Biz nə deyək qəbir qazana,
Yaxşı başa düşdü, ayağa Sarı.

Torpağa səpilər yazda təzədən,
Saçlarıma vaxtsız düşüb təzədən.
Bir məclisdə oturmuşuq təzədən,
Qovma məni başdan ayağa sarı.

Şəhriyazın sözü toxunmaz yara,
Fərhad gərək qaya çapa, dağ yara.
Təpə-dırnaq canı tutubdur yara,
Tənfiz götür başdan ayağa sarı.

### YAXANA

Nə lazımdır artıq-əksik danışam,
Sözüm deyə ya sultana, yaxana.
Çarpaz düymə gör necə də gözəldir,
Gətirmişəm al düz bir-bir yaxana.

Kamını almadı Yaxşı Sarıdan,
Şövqünü salıbdır sənə sarıdan.
Yaraşar paltarı güllü sarıdan,
Saçlarına əlvan həna yaxana.

Ac arı qayıdıb daraşar bala,
Ana qucağına sığınar bala.
Tanrıdan gəlməsin bir daha bəla,
Dalda Şəhriyaza qara yaxana.

## QARALAR

Payızın son ayı başa çatmamış,
Yeri-yurdu çovğun tutar, qar alar.
Düşüncəsiz bilməz sözün qədrini,
Danışsa adamın qanı qaralar.

Düzü söyləyənin yeri başdadı,
Ləzzət verər kəllə-paça, baş dadı.
Ayrılığın ağır günü başdadı,
Eli köçdü, elsiz qaldı Qaralar.

İtiyini bir də axtar, arada,
Namərd baxmaz qeyrətə də, ara da.
Baş qarışsa danışığa arada,
Ocaq his eyləyər, qazan qaralar.

Şəhriyaz da yola getməz tər silə,
Canan odur dəsmal ilə tər silə.
Qismətləri birdən düşsə tər silə,
Dünyadan inciyər bəxti qaralar.

## AZ AYA

*Kərimov Azaya*

Gəzirsən öz ağlınla dolan gəz,
Gəl başını qoşma ağlı az aya.
Taleyin hökmüdür, belə keçəcək,
Baxıb yanma az həftəyə, az aya.

Tanrı arsız başa qarı gec ələr,
Yurdsuz-yuvasızlar çöldə gecələr.
Hərdən-hərdən gün batanda gecələr,
Çıxıb belə nə baxırsan az aya.

Sən qoyma Şəhriaz odlanıb yana,
Çoxları dar günü çəkilər yana.
Günü-gündən düzülsə də yan-yana,
Hər sənətkar çata bilməz Azaya.

## DÜZ KEÇİR

Yurd yerləri gözlərimdə canlanır,
Xəyalımdan dərə keçir, düz keçir.
Fələyin işindən baş açammırıq,
Əyri qalır, bu dünyadan düz keçir.

Qab deyiləm boşalam, a dolama,
Ayağıma yara çıxıb-dolama.
Hər gələni barmağına dolama,
Sözlərini gəl isbata düz keçir.

Demə ki, Şəhriyaz oludbu Dara,
Zəmanə bəd kəlib düşmüşəm dara.
Günah etsəm öz əlinlə çək dara,
Al kəndiri boğazıma düz keçir.

## AY AĞA BAĞLAR

Səhər tezdən çıxdıq gülşən bağına,
Gör necə bəzənib, ay ağa, bağlar.
Yaz gələndə ətirlənər, güllənər,
Qış olsa bürünər ay ağa bağlar.

Gözəllər bəzənib tel tökər dala,
Qoyma fərsiz başı xəyala dala.
Qorxmaz əziyyətdən çəkilməz dala,
Yağ tutan meylini ay ağa bağlar.

Şəhriyaz sevinər evin güllərdən,
İstəsək də qovuşmaz ki, güllədən.
Xəta çıxsa əlindəki güllədən,
Cəllad qandalını ayağa bağlar.

## HAYANA

Axtardığın ləli tapa bilməzsən,
Dərviş kimi sən getsən də hayana.
Gətirməsə bəxtin gəlsən qəzaya,
Harayına hay verəcək, hayana.

Sənətin yolları olmayır kəsə,
Kim istəyər qatil bir də baş kəsə.
İstədiyin dönüb baxmaz bir kəsə,
Sən üzünü döndərsən də hayana.

Dam üstünə döşənibdir qır ağa,
Deməmişəm məni sındır qır ağa.
Dar günündə çəkilməyə qırağa,
Canan gərək hay deyəndə hay ana.

Şəhriyazın düzü olub dik sinə,
Namərd elə yekə başdı, dik sinə.
Qıl körpüdən keçən zaman diksinə,
Cəhənnəmin atəşinə hayana.

## ATANA

Dünya malı gözlərini tutumasın,
Qəddar olma hörmət eylə atana.
Şah olsa sağ ol deməz bir kimsə,
Qocalanda anasını atana.

Təzələnə dövran yaxşı ay ola,
Qədir bilən yarın ay ola.
İstədiyin zaman çıxşa o yola,
Hər yabıdan olmaz belə at ona.

Şəhriyaz özünü saymaz birinci,
Əhli-haldan demə bir küs, bir inci.
Sağ olsun zərgəri düzüb bir inci,
Bəzək verir qulağına a tana.

## A SARI TELƏ

*Elxan Məmmədliyə*

Qəlbimdən keçəni deyim, deməyim,
Könül vurğun olub a sarı telə.
Ağlımı apardı zabulun səsi,
Mizrab toxunanda a sarı telə.

Gəl başımı bağla, ara aç ara,
Haqdan kəsilmişə yoxdur a çara.
İnanmırsan bu sinəmi aç, ara.
Məhəbbətim qalıb a Sarı telə.

Qaşların oxşayır çəkili yaya,
Bir gözəl kündəni bir gözəl yaya.
Çalış təzələnib qalmasın yaya,
Sən köhnə yaramı a sarı telə.

Yaz gəlibdir sevin təpə, sevin dik,
Uzaq düşüb bizim elli Sevindik.
Şəhriyaz de, hamı bilir sevindik,
Elxan yaratdığı a «Sarıtelə».

## *DODAQDƏYMƏZ TƏCNİSLƏR*

### AY AĞA TƏK-TƏK

Yaradan insanın canın alanda,
Yerində sarınar ay ağa tək-tək.
Dağlara gəzəndə nazlı yarınla,
Qarışa çiskinə ay ağa tək-tək.

Tər çiçəyi ya saxlayın, ya dərin,
Qadın, sənə xeyri nədir yad ərin.
Dedin ağlı ya dayazdı, ya dərin,
Əyilər sərsəri ay ağa tək-tək.

Şəhriyazı ara sən, at ara sən,
Əldən gedir həya asan, arasan.
Eylədiyim yaxşılığı arasan,
Qarşına çıxacaq, ay ağa tək-tək.

## *TƏCNİS DİVANİLƏR*

### ÇALHAÇAL

Qəmin dəryasına batsan,
Gəl sazını çalhaçal.
Gözlə başın ağrıyanda,
Götür çalma çalhaçal.
Danışanda ağır danış,
İncitmə bir kimsəni.
Dilin şahmar ilan kimi,
Qoy olmasın çalhaçal.

Niyə qoydun sənə gələn,
Mən qadanı az alım.
Çay deyiləm yazda daşam,
Qışda durum azalım.
Bu könlümü həsrət qoyma,
Qalsın belə, a zalım.
Al əlinə gətir maya,
Yaxşı qatıq çalhaçal.

Dolanırsan yaxşı dolan,
Deməsinlər kimsən, ə,
Qanın niyə qaralıbdır,
Nə deyibdir kim sənə.
Ay Şəhriyaz, köməyinə,
Çatan olmaz kimsənə.
Qoçalanda qara başın,
Bir gün olar çalhaçal.

### CIZHACIZ

Qövr eyləyər köhnə yaran,
Sızıldayar cızhacız.
Damcı düşəndə ocağa,
Səsi çıxar cızhacız.
Hər kəlamın mətləbi var,
Bunu yaxşı biləsən.
Dil yarası gec sağalar,
Qəlbi yaxar cızhacız.

Gözəl incə, kəmər incə,
Taxsa yaraşar belə.
Bağ becərən, bağ suvaran,
Əlin uzadar belə.
Göz açandan biz görmüşük,
Qayda belədir, belə.
Dərsə gedən, elm öyrənən,
Xətti çəkər cızhacız.

Çölə gedən balta vurar,
Yığar çoxlu odunu.
Yaxın qoyma gəl ocağa,
Yandıracaq od unu.
Şəhriyaz, dur qarışdırma,
Nəhr oda eşq odunu,
Kərəm kimi sən yanarsan,
Öz oduna cızhacız.

## *CIĞALI TƏCNİSLƏR*

### AY YAVAŞ-YAVAŞ

Yüklənibdir, yol üstədir karvanım,
Gəlib keçir illəri ay yavaş-yavaş.
Aşıq deyər ay yavaş,
Ömrünü sür ay yavaş.
Dərdi olan inciyib,
Bu dünyadan ay yavaş.
Cavanlığım nə tez çıxdı əlimdən,
Daha qocalıram ay yavaş-yavaş.

Un gətirdim götür onu ələ sən,
Yaxşı olar bir də təmiz ələsən.
Aşıq deyər ələ sən,
Vermə əli ələ sən.
Dəli ollam gözündən,
Acı yaxşı ələsən.
Düş qabağa çatdır əli ələ sən,
Barışsın küsənlər ay yavaş-yavaş.

Mərd olanlar mərd danışar bir başa,
Doğrudan danışıb çıxar bir başa.
Aşıq deyər bir başa,
Söz bəzəkdir bir başa.
Neçə inci düzülüb,
Cəm oludbur bir başa.
Şəhriyaz, gəl sözü yetir bir başa,
İstəsən belə yaz ay yavaş-yavaş.

### AY SÜZƏ-SÜZƏ

A zalım, canımı niyə alırsan,
Ala gözlərini ay süzə-süzə.
Aşıq deyər ay süzə,
Qartal göydə ay süzə.
Gözəl sağa inəyi,
Süzgəc ilə ay süzə.
Belə dayanmağın adam öldürür,
Hərdən bir çayımı ay süzə-süzə.

Mən çətin çatarsan dağdan aşana,
Ot yığıram əlimdədir a şana.
Aşıq deyər a aşan,
A şöhrət, a şana.
Bayram ola gələsən,
Sənə verə aş ana.
Bal tutanlar yaxşı baxar a şana,
Beçənin balını ay süzə-süzə.

Şəhriyaz qol qoymaz hər bir sənədə,
Sədə eylə gəl bir haqqa sən ədə.
Aşıq deyər sənədə,
Vurma qələm sənədə.

Kimdən mənə nə çatıb,
Elə çata sənə də.
Boylanıb gözəlin baxsa sənə də,
Nazlanıb oynaya ay süzə-süzə.

## SALHASAL

Mərifət elmindən uzaq olanı,
Yola gətir bir də başa salhasal.
Aşıq deyər ay sala,
Göydən işiq ay sala.
İstəmədim mənə sən,
Gətirəsən ay ala.
Demişdim ki, yaxşı dolan, yaxşı gəz,
Demədim fağırı ələ salhasal.

Bir qoymurlar dərdi-sərim azala,
Az qazanan gərək malı az ala.
Aşıq deyər azala,
Çox da gərək azala.
Söhrab qarşı dayandı,
Öz atası a Zala.
Sən ki, evi bənzədibsən a zala,
Götür xalçaları yerə salhasal.

Gəzdirmişəm xəyalımda Aralı,
Sözlərində gözləyibdir ar Alı.
Aşıq deyər aralı,
Düşmə sözdən aralı.
Qılınc dəysə düşəcək,
Bədən başdan aralı.
Şəhriyaz, keçmişdən olma aralı,
Ötən günlərini yada salhasal.

## ÜZƏ-ÜZƏ

Nə müddətdir sən aranı kəsmisən,
Gözləmişəm səni gəl üzə-üzə.
Aşıq deyər bir üzə,
Bir buxağa, bir üzə.
Canan gərək od qoya,
Aşiqində can üzə.
Gözəlin baxışı canlar alandır,
Nə gözəl yaraşır tel üzə-üzə.

Otağın istidi, eyvan sərindi,
Yuduğun paltarı çölə sər indi.
Aşıq deyər bir sərin,
Bir istidir, bir sərin.
Bu dərdi necə çəksin.
Bir ürəyin, bir sərin.
Qəlbini incidən dərdi-sərindi,
Gözlərindən axır yaş üzə-üzə.

Quzular qayıdıb cumar yatağa,
Əl uzatma ya budağa, ya tağa.
Aşıq deyər yatağa,
Daş qoyulub yatağa.
Elə ki günün keçdi,
Gedib evdə yat, ağa.
Şəhriyaz, bir can ki düşə yatağa,
Dostlar çevirəcək dal üzə-üzə.

## GƏLİNCƏ

Ay insafsız, həsrətindən sailəm,
Xəstə oldum bir gün sizə gəlincə.
Aşıq deyər gəlincə,
Dayan sözə gəlincə.
Çək üzünü daldada,
Pis gözlərə gəlincə.
Qəsd eyləyib məni nə hala saldın,
Sən başlayıb bir mətləbə gəlincə.

Süfrədə nə görsən demə yar aşır,
Yaylağı dolanır dağı yar aşır.
Aşıq deyə yaraşar,
Meylin düşüb yar aşa.
Dodaq dilin həsrəti,
Dil dodağa yaraşa.
Geydiyin paltarın gözəl yaraşır,
Gözəl bəzənmisən gözəl gəlincə.

Gözəl başa güllü yaylıq dolayır,
Kim deyər ki, ağla, boşal, dolayar.
Aşıq deyər dolayar,
Göydə bulud dolayar.
Hər yetənə baş qoşma,
Səni elə dolayar.
Şəhriyazın qoyma gözü dolayar,
Dayan incə, boylan incə, gəl incə.

## *DODAQDƏYMƏZ CIĞALI TƏCNİSLƏR*

### A DALA-DALA

Taleyin gərdişi qəddini əyər,
Qalarsan cərgədən a dala-dala.
Aşıq deyər a dala,
Ad qazana, ad ala.
Daraq ilə darana,
Tel atıla a dala.
Qananlar yanında sənə dedilər,
Dilinlə canları a dala-dala.

Ata nisgilini ata yanında,
Zatına nə deyək ata yanında.
Aşıq ata yanında,
Qalsa at ayanında.
Dərdə elə alışdı,
Yandı ata yanında.
Hərdən dillənəndə ata yanında,
Nəzər yetirəsən a dala-dala.

Şəhriyaz əriyir yanır nahaqdan,
İncidir səni denən nə haqdan.
Aşıq deyər nahaqdan,
Nə yalan de, nə haqqdan.
Ağılsıza nə deyək,
Deyir çıxdı nahaqdan.
Ağıllı tələsik qaça nahaqdan,
Dayana xəyala a dala-dala.

## AY ELƏ «SİN»Ə

Yay gələndə seyr edəsən yaylağı,
Qarşı gələ səhər a yelə sinə.
Aşıq ay elə sinə,
Yazdın ay elə sinə.
Canı əsir edəsən,
Ansa ay elə sinə.
Sərsərilər təki qayıtsan geri,
Çəkəcək nazını ay elə sinə.

Hərcayının nəyi qaldı de səndə,
İnanarlar ağa qara desən də.
Aşıq deyər de sen də,
Gedən gedər desən də.
Eşqdən yanan atəşə,
Niyə yandın de sən də.
Nadan deyilənə nadan de sən də,
Eləsi nədir ki, ay eləsi nə.

Dil istəyir yaxşı narı dərsinə,
Hicran atəşinin nədir, dərsinə.
Aşıq deyər dərsinə,
Gəl sən eşqin dərsinə.
Cahanda qan eyləyən,
Gedər dərsi-dərsinə.
Şəhriyaz gedəndə sənət dərsinə,
«Şin»dən adlayasan ay elə «sin»ə.

# *DİVANİLƏR*

## VERƏR

Yaxşı sözü eşidəndə,
İnsana həvəs verər.
Yazda günəşin istisi,
Torpağa nəfəs verər.
İsa, Musa quşları da,
Çöldə gəzib boylanır.
Axtarar dağı, dərəni,
Bir-birinə səs verə.

Yanan şamın başına,
Pərvanələr dolaşar.
Arıların peşəsidir,
Şan üstündə yalanar.
Dost-sirdaşı xain olsa,
Qəlbin oda qalanar.
Ürəyi paxıl olanın,
Danışığı nəhs verər.

Şər danışan, şər söyləyən,
Tez qızardar üzünü.
Qohum-qardaşın yanında,
Gülünc edər özünü.
Qəribliyə salmasınlar,
Şəhriyazın sözünü,
Özü bir şey anlamayan,
Özgəsinə dərs verər.

## DEYİM

Bu dünyada qanmayana,
Axı necə qan deyim.
Həqiqətə baş əyənə,
Mən gərək insan deyim.
Yaltaqların yarışında,
Başımız əldən gedir.
Bizə kömək olsun özü,
Qadiri-Sübhan deyim.

Əziyyətə qatlaşanlar,
Doğru yazar varağa.
Ayağını gücə salıb,
Gedib çıxmaz uzağa.
Giley-güzarı götürüb,
Gəl biz qoyaq qırağa.
Sən mənimlə yaxşı dolan,
Mən də sənə can deyim.

Haqlı-haqsız savaşında,
Gendə qala bilmirəm.
Bu insanlar necə düşdü,
Əyri yola bilmirəm.
Ürəyimdən keçənləri,
Baxıb ala bilmirəm.
Nə günümə yaraşır ki,
Özümə sultan deyim.

Abır-həya gözləyənlər,
Heç vədə düşmür yada.
Özümüzə xor baxırıq,
İmkan vermişik yada.
Qələm tutan, söz uyduran,
İndi çoxdur dünyada.
Hər yazana Ələsgər tək,
Mən necə ümman deyim.

Şəhriyazın bu həvəsi,
İstəkli yardan gəlir,
Coşub ilhama gəlməyi,
Saz ilə tardan gəlir.
Kimsə bilməz məndə olan,
Bu sözlər hardan gəlir.
Ustandımdan dərs almışam,
Mən onu pünhan deyim.

## İŞİN OLMASIN

Üzə bəzək vurammırsan,
Üzlə işin olmasın.
Qaşı düzəldə bilmirsən,
Gözlə işin olmasın.
Cəsarətin çata bilmir,
Gedib dağa çıxmağa,
Heç olmasa düzə getmə,
Düzlə işin olmasın.

Qış olanda gözlə başı,
Gedib vermə sazağa.
Elə danış xəcalətdən,
Girmə küncə-bucağa.
Yalan yerdə qurdalanıb,
Əl uzatma ocağa.
Ocaq yandıra bilmirsən,
Közlə işin olmasın.

Lovğalanma, ay Şəhriyaz,
Nəyin var ki, hələ sən,
Ustad yanına gedəndə,
Gətirəsən dilə sən.

Dədələrin söhbətindən,
Bir şey qanıb biləsən.
Yerində söz deyəmmirsən,
Sözlə işin olmasın.

## ƏLDƏN GEDİR

Yaman günə qalıb bağlar,
Barımız əldən gedir.
Zəmiləri biçən yoxdur,
Darımız əldən gedir.
Gedib millətin dərdini,
İndi kimə söyləyək.
Abır-həya yoxa çıxıb,
Arımız əldən gedir.

Bir çox şeyləri görəndə,
Olduq dəli-sərsəri.
Can hayında olan var ki,
Bir sümükdür, bir dəri.
«Rok»la «pop»un qışqırtısı,
Moda minəndən bəri,
El havası yada düşmür,
Tarımız əldən gedir.

Şəhriyaz, gəl öz adını,
Batırma sən günaha.
Hörmət-izzət, ədəb-ərkan,
Yada düşməyir daha.
Əlacsızların ümidi,
Bircə qalıb Allaha.
Sərvətimiz talan olur,
Varımız əldən gedir.

## BAŞ ƏYƏR

Ustadına qulluq edən,
Ustadına baş əyər.
Saz tutub meydana girən,
Saz adına baş əyər.
Dünya görmüş kişilərin,
Dilindən eşitmişik.
Qız-gəlin hörmət edən,
Hər qadına baş əyər.

Məcnun tək çöllərə düşməz,
Yar ki, yarına yetsə.
Müxənnətdən mömin olmaz,
Ürəkdən səcdə etsə.
Qadir Mövlam kömək etməz,
İxtiyar əldən getsə.
Adam olmaz aciz olan,
Arvadına baş əyər.

Şəhriyaza deməyin siz,
Meylin özgə yanadır.
Cənnət ayaqları altda,
Ana elə anadır.
Oddan çıxar cana gələr,
Səməndərin qanadı.
Pərvanə tək oda yanar,
Öz oduna baş əyər.

## ÇIXIR

Gül bağını seyr etməyə,
Qaşları kaman çıxır.
Görənləri dərdə salır,
Elə bil ceyran çıxır.
Dünyanın tərs işlərindən,
Hələ də baş açmırıq.
Yaxşı bilib inandığın,
Sonradan şeytan çıxır.

Acgöz gördük şeytanlığı,
Özünə şöhrət bilir.
Əza yerinə gedəndə,
Yalandan gözün silir.
Yaxşıların qabağında,
Lənətə gəlmiş gedir.
Yamanların qabağına,
Bir nəcib insan çıxır.

Şəhriyazı öyrətməyin,
Sözü yalan deməyə.
Əsli-zatı halal olan,
Baxmaz haram əməyə.
Külli-aləm cəm olsa da,
Çata bilməz köməyə
Adam var ki, şərə düşür,
Qətlinə fərman çıxır.

## GÖZLƏSƏN

Yarın səni gözləyəcək,
Sən də onu gözləsən.
Günün ahu-zarla keçər,
Ahu-zarı gözləsən.
Ariflərin məclisində,
Adın başda çəkilər.
Məhəbbəti, sədaqəti,
Etibarı gözləsən.

Tülkü şirə bata bilməz,
Şir qocalıb yatmamış.
Ovcu ova necə çatar,
Qana-tərə çatmamış.
Ehtiyatı yaxşıca gör,
Payız başa çatmamış.
Köməyinə gələn olmaz,
Boran-qarı gözləsən.

Şəhriyazam, nələr gördüm,
Nələr səbrimi kəsdi.
Cır-cır səsi olanlara,
Dedilər gözəl səsdi.
Bir mətləbin hasil olmaz,
Cəng eyləmə əbəsdi.
Fitnəkara baş endirsən,
Zülümkarı gözləsən

## KİMİDİ

Bu gün bir gözəl görmüşəm,
Gözləri ceyran kimidi.
Yanaqları dağ laləsi,
Dodaqları qan kimidi.
Taxta çıxıb fərman verir,
Misirdə sultan kimidi.
Ağzından çıxan sözləri,
Xəstəyə dərman kimidi,
Sinəsini görən deyir:
«Cənnəti-rizvan kimidi».

Yerişinə heyran oldum,
Kirpikləri can alandı.
Neçə gözəllər cəm ola,
Deyərəm onlar yalandı.
Baxıb elə naz eylədi,
Bağrımın başı talandı.
Hüsnünə vurğun olanı,
Odlayıb oda salandı.
Ağzındakı ağ dişləri,
Düzülü mərcan kimidi.

Zalım qızının əndamı,
Nə geysə ona yaraşır.
Səhər yeli toxunanda,
Qıvrım telləri qarışır.
Elə bir ki, qəsdə durub,
Dövri-zamanla yarışır.
Şəhriyazla düz dolanmır,
Gah küsüb, gah da barışır.
Dərdə salıb məlhəm edir,
Həkimi-loğman kimidi.

## SƏNİ

Hanı elə qələm tutan,
Tərifləyib yaza səni.
Görənlər də oxşadacaq,
Bir gün quba qaza səni.
Heç bilmədim kim öyrədib,
Belə işvə-naza səni.
Qaş-gözünü kim bəzəyib,
Çıxarıbdır yaza səni.
Könlümün xoş vədəsi,
Gətirəcəm saza səni.

Gözlərini süzdürəndə,
Neçə dəfə can alırsan.
Camalına baxanları,
Haldan-hala sən salırsan.
Birdən ürkək maral kimi,
Niyə elə boylanırsan?
Bilmirəm ki, nə olubdur,
Durub xəyala dalırsan.
Yaradanın bənzədibdir,
Gözəl sərvinaza səni.

Gözəllərin yığnağında,
Sən bir gözəl can kimisən.
Ağ libasın çox yaraşır,
Elə bil ceyran kimisən.

Özgəsin deyə bilmərəm,
Bizə mehriban kimisən.
Yerişinə heyrandılar,
Sərvi-xuraman kimisən.
Deyrəm çox görməsinlər,
Təki Şəhriyaza səni.

## DEYƏSƏN

Həqiqətdən dərs alana,
Bir gözəl insan deyəsən.
Dərd-sərinə şərik ola,
Can deyənə, can deyəsən.
Yaxşı olana sən yaxşı,
Yamana yaman deyəsən.
Sərraflar çıxa bazara,
Açıla meydan deyəsən.
Nahaqdan şərə düşməyə,
Olmaya şeytan deyəsən.

Yaradanın bəli deyə,
Bu misildə yarın ola.
Heç nə gəlməyə eyninə,
Nə dövlət, nə varın ola.
Beləcə məftun olasan,
Üzündəki qara xala,
Süzdürə ala gözləri,
Səni haldan-hala sala.
Tovuz kimi cilvələnə,
Hüsnünə heyran deyəsən.

Elimdə toy-büsat səsi,
Bürüyə hər yanı tuta.
Təzə eşqə düşənlərə,
Xaliqin yetirə buta.
Daha mənim millətimin,
Başına gəlməyə xata.
Bircə nagüman olmaya,
Hamı muradına çata.
Şəhriyazın üzü gülə,
Xoş gələ dövran deyəsən.

## *BAŞQA SƏPGİDƏ ŞEİRLƏR*

## AY AŞIQ MAHMUD

Şairlər yanında, ləl bazarında,
Sən ki, bir ümmansan, ay aşıq Mahmud.
Yaradana şükür, görüb anladım,
Nurlu bir insansan, ay aşıq Mahmud.

Mən ürək sındırıb qəlbə dəymərəm,
Bir başım var, hər yetənə əymərəm.
Hər sazı çalana ustad demərəm,
Sənətdə Sultansan, ay aşıq Mahmud.

Paxıllıq o qədər çıxıbdır önə,
Çətin ki, bu dünya düşə bir yönə.
Məni qınasalar deyəcəm yenə,
Sahibi–zamansan, ay aşıq Mahmud.

Dağa bənzəyirsən ahıl çağında,
Dürlü yükün olub göz qabağında.
Bu qoca dünyada sənət bağında,
Güllü-gülüstansan, ay aşıq Mahmud.

Zakir Şəhriyazam, səcdənə gəldim,
Dilqəmə qoşulub dirildim,öldüm.
Sinənin yükünü açanda bildim,
Mülkü-Süleymansan, ay aşıq Mahmud.

## ELOĞLU İLƏ DEYİŞMƏ

*Eloğlu:*
Şair, mən çox dedim, zalım qanmadı,
Anlamır ki, deyəm qanmağında ol.
Keçmişdə yanmışdın pərvanə kimi,
Yanırsan, eləcə yanmağında ol.

*Zakir Şəhriyaz:*
Həvəsim tez sönür gələndə azar,
Yaram qövr edəndə canım sızıldar.
Etibar, sədaqət hələ məndə var,
Can deyən dostları anıram elə.

*Zakir Şəhriyaz:*
İxtiyar özümdə deyil, ay qağa,
Qananın yanında qanıram elə.
Deyirlər yanmayın gönü qalın tək,
Od çıxır canımdan yanıram elə.

*Eloğlu:*
Eloğlu bələddir sənin gücünə,
Baş qoşma axmağın sarsaq gicinə.
Yatanda dünyanı alma vecinə,
Çiçəkli dağlara qonmağında ol.

*Eloğlu:*
Əhvalın sorasan gözəl insanın,
Qeydinə qalasan nazlı cananın.
Etibarı yoxdur belə dünyanın,
Hərdənbir dostları anmağında ol.

*Zakir Şəhriyaz:*
Şəhriyaz başını qoşmadı gicə,
Murazım kəm gəlib sevinim necə.
İstəyim nədənsə gəlməyir vecə,
Yuxuda dağlara qonuram elə.

## ƏHLİYYƏT MƏMMƏDLİ İLƏ DEYİŞMƏ

*1.*

*Əhliyyət Məmmədli:*
Salmısan canıma fəraqın odun,
Olmuşam divanə bu neçə gündə.
Özün ürəyimdə, adın dilimdə,
Bağrım olub şanə bu neçə gündə.

*Zakir Şəhriyaz:*
Bir xəttə yazmısan köhnə misalı,
Öyrətmisən mənə qalıq əmsalı.
Göydə eyni yüklü bulud misalı,
Boşalıb dolmuşam bu neçə gündə.

*Zakir Şəhriyaz:*
Sən məndən ayrılıb gedəndən bəri,
Yarı can qalmışam bu neçə gündə.
Sənin söylədiyin təkrar olmasın,
Divanə olmuşam bu neçə gündə.

*Əhliyyət Məmmədli:*
Yazıq canım, əldən qələmim düşür,
Kim bilir yadına kimin kim düşür.
Əhliyyət səninlə hər an görüşür,
Olubdur əfsanə bu neçə gündə.

*Əhliyyət Məmmədli:*
Xəyala qərq olan bu anım olub,
Nə dərdimə şərik çıxanım olub.
Ayrılıq bir yandan çox qənim olub,
Qalıbdır nişanə bu neçə gündə.

*Zakir Şəhriyaz:*
Şəhriyaz bəyənməz yorğa yerişi,
Kimsəyə gəlməyib hiylə gedişi.
Ağacın altında olan görüşü,
Yadıma salmışam bu neçə gündə.

2.

*Zakir Şəhriyaz:*
Qul xatasız olmaz, ağa kərəmsiz,
Belə vurulmuşam, Əhliyyət, sənə.
Açıdil adamdan canım bezəndə,
Yetirdim özümü nəhayət sənə.

*Əhliyyət Məmmədli:*
Elə bir sərvətdir tükənən deyil,
Haqdan bir şam yansa o sönən deyil.
Könlüm nə ayrılan, nə dönən deyil.
Dedim ki, düşməsin o səndən ayrı.

*Əhliyyət Məmmədli:*
Sən bu əmanətdə bir bax sehrə gəl,
Əvəzsiz töhvədir gövhər, həm də ləl.
Şəhriyaz, bəxş etdin mənə bir məşəl,
Salıbdır şöləsin o səndən ayrı.

*Zakir Şəhriyaz:*
Sağalmadı sinəmizin yarası,
Tapılmadı dərdimizin çarası.
Zakir Şəhriyazın cızma-qarası,
Həmişəlik olsun əmanət sənə.

*Zakir Şəhriyaz:*
Sinəmə söz gəlib onu deyirəm,
Can evimdə qəmlə ömür sürürəm.
Gördüyün yuxunu mən də görürəm,
Xudam versin dözüm, dəyanət sənə.

*Əhliyyət Məmmədli:*
Dedim bu sinəmə gələndən yazım,
Dərdimi dərd ilə böləndən yazım.
Əhliyyət o qədər biləndən yazım,
Bir günüm keçməsin o səndən ayrı.

## DEYİŞMƏ

*Aşıq Şamil:*
Çoxdur köçən bu dünyadan,
Alim, loğman, ay Şəhriyaz.
Sazlı-sözlü, sinədəftər,
Dərya-ümman, ay Şəhriyaz.

*Aşıq Şamil:*
Aşıq Alı ümman idi,
Ələsgəri o yetirdi.
Növrəs İman nakam getdi.
Sirri-pünhan a Şəhriyaz.

*Zakir Şəhriyaz:*
Fərman onun fərmanıdır,
Keçir belə zaman, Şamil.
Sınağına gərək dözək,
Çox etməyək aman, Şamil.

*Zakir Şəhriyaz:*
Çoxdur veyil-veyil gəzən,
Ürəyimi qəmdir üzən.
Ustadlara ağız büzən,
Çoxalıbdır yaman, Şamil.

*Aşıq Şamil:*
Dövran belə keçir nə qəm,
Dərd içində üzür aləm.
Yaza-yaza əldə qələm,
Aşıq, ozan, ay Şəhriyaz.

*Aşıq Şamil:*
Aşıq Calalda olan səs,
Edən olmaz onu əvəz.
Saz sirrini bilən o kəs,
Köçdü bir an, ay Şəhriyaz.

*Zakir Şəhriyaz:*
Yazan olmaz ağıldan kəm,
Bilirsən ki, sözdə pakan.
Doğru dedin gedib nakam,
İtdi Növrəs İman, Şamil.

*Zakir Şəhriyaz:*
Qaysaqladı köhnə yara,
Zülüm olub bu diyara.
Nəcəf kimi sənətkara,
Tutulubdur divan, Şamil.

*Aşıq Şamil:*
Azaflı tək çəkdi haray,
Haqdan ona düşmədi pay.
Söz mülkündən qurdu saray,
Bildi cahan, ay Şəhriyaz.

*Zakir Şəhriyaz:*
Dadımıza kim yetişsin,
Könlümüzü bir isitsin.
Allah ağzından eşitsin,
Xeyir olsun duvan, Şamil.

*Aşıq Şamil:*
Şirin ləhcə, xoş avazdı,
Dərya idi aşıq Avdı.
O kamildi, o ustaddı,
Etdi dövran, ay Şəhriyaz.

*Zakir Şəhriyaz:*
Ağlayıram sazı dindir,
Sözlərinlə məni güldür.
Dağlarımı neçə ildir,
Bürüyübdür duman, Şamil.

*Aşıq Şamil:*
Aşığı, həm də şairi,
Olubdur dillər əzbəri.
Faxralıda şair Nəbi,
Oldu dastan, ay Şəhriyaz.

*Zakir Şəhriyaz:*
Sazın ələ götürübdür,
Əl tutub, əl yetiribdir.
Səməd Vurğun yetiribdir,
Sənin yurdun-yuvan, Şamil.

*Aşıq Şamil:*
Şamil sazın hədər çalmaz,
Hər ustaddan dərsin almaz.
Bu dünyada gələn qalmaz,
Yoxdur guman, ay Şəhriyaz.

*Zakir Şəhriyaz:*
Qələm götür denən gəlsin,
Eşidənlər əhsən desin.
Şəhriyazam, görüm ölsün,
Namərddən pay uman, Şamil.

## MƏN BELƏ DÜNYANIN NƏYİNDƏN YAZIM

*Məmməd Araza*

Söz yazırıq, söz də sığışmır dilə,
Mən belə dünyanın nəyindən yazım?
Dünyanın canına düşüb vəlvələ,
Mən belə dünyanın nəyindən yazım?

Qocası ah çəkib dizini bükür,
Qarısı gözünün yaşını tökür.
Ac gözlər böyürdən dağıdıb sökür,
Mən belə dünyanın nəyindən yazım?

Yaltağı görənin qəlbin göynə bir,
Bilinmir məqsədi, məramı nədir
Tülküsü aslana ağıl öyrədir,
Mən belə dünyanın nəyindən yazım?

Bəxtin gətirməsə ha cütlə zəri,
Alış öz içində şam kimi əri
Böyüklə kiçiyin bilinmir yeri,
Mən belə dünyanın nəyindən yazım.

Quyruq bulayanlar aranı qatır,
Kölgədən qorxanlar kölgədə yatır.
Kimi dar gündə dədəsin satır,
Mən belə dünyanın nəyindən yazım?

Alanı verənin əlini sıxdı,
Qazanı pas atdı , paxırı çıxdı..
Dünyanın evini yıxanlar yıxdı,
Mən belə dünyanın nəyindən yazım?

## ÜRƏYİMDİ

Dağlar mənim ilk məskənim,
Çaylar neyim, tütəyimdir.
Sal qayalar baş yastığım,
Çəmən yorğan-döşəyimdir.

Mənzərədi sağım-solum,
Meşələrdən keçdi yolum.
Öz dilimə qurban olum,
Dilim varım, gərəyimdir.

Gül yığarıq qucaq-qucaq,
Bəzənəndə yazda yaylaq
Dar günümdə arxa-dayaq,
Dostlarım ilk köməyimdir

Namərd dalda öyünməsin,
Dərdə-qəmə sevinməsin.
Çox da qələm öyünməsin
Yazan mənim ürəyimdi.

## SƏNDƏN AYRI GƏZƏNDƏ

Heyran oldum sənə yar,
Doğulduğun günə yar.
Gözüm qızlar içində,
İndi səni arayar,
Səndən ayrı gəzəndə.

Vaxtsız dağa qar gəlir,
Gül üstünə xar gəlir,
Elə bil ki, dünya da
Bu gün mənə dar gəlir,
Səndən ayrı gəzəndə.

Hər tərəfə çən düşür,
Ürək həvəsdən düşür.
Ay insafsız saçıma,
Yavaş-yavaş dən düşür.
Səndən ayrı gəzəndə.

Hər an səni gəzərdim,
Yüz cəfaya dözərdim,
Necə danım sözümü,
Özümdən də bezərdim,
Səndən ayrı gəzəndə.

## BİZ NİYƏ BİRLƏŞƏ BİLMİRİK AXI

Ay dəyişir, il dolanır, gün keçir,
Biz niyə birləşə bilmirik axı.
Hamı bir ağızdan birləşək deyir,
Biz niyə birləşə bilmirik axı.

Söz də ucuzlaşar tez-tez deməkdən,
Baş açmırıq fırıldaqdan, kələkdən.
Kimi üzdən deyir, kimi ürəkdən,
Biz niyə birləşə bilmirik axı.

Yaddan çıxıb əvvəl olan hörmət də,
Günlərimiz gəlib keçir qeybətdə.
İqtidar da deyir, müxalifət də,
Biz niyə birləşə bilmirik axı.

İçimizdə olan nifrət atılmır,
Adam gördük bircə işə qatılmır.
Hələ dərdimizə əlac tapılmır,
Biz niyə birləşə bilmirik axı.

Aramızda hansı küləklər əsib,
Susanlar inciyib, dinənlər küsüb
Yolumuzu heç bilmirəm kim kəsib.
Biz niyə birləşə bilmirik axı.

Birisi kənarda durub boylanır
Birisi gör neçə odlara yanır.
Verilən suallar cavabsız qalır,
Biz niyə birləşə bilmirik axı.

## KİMİ

Gül balama naz yaraşar,
Gözəllərin nazı kimi.
Yanaqları ətir saçır,
Təbiətin yazı kimi.

Dünya səndə nələr olar,
Tez açılan, tez də solar.
Kişi gördüm quyruq bular,
Qapılarda tazı kimi.

Adam var ki, qəlbi paxır,
Ara vurur, evlər yıxır.
Adam var ki, dala baxır,
Xorasanın qazı kimi.

Səndən küsən gələ yola,
Düşməyəsən qalmaqala.
Duz-çörəyin halal ola,
Elin duz-çörəyi kimi.

## SƏN OLMADINMI
*(Səməd Vurğun sayağı)*

Demirəm gözlərin bulud tək dolsun,
İlqarı unudan sən olmadınmı?
Əgər yalan desəm dilim tutulsun,
Şöhrətə aldanan sən olmadınmı?

Özün ki bilirsən, nə deyim sənə,
Vəfasız olmusan, vəfasız mənə.
Mənim üryimi hey dönə-dönə,
Odlayıb yandıran sən olmadınmı?

Sən mənim günümü eylədin qara,
Sağalmaz könlümə vurduğun yara.
Şəhriyaz neyləsin sən kimi yara,
Şahmara dolanan sən olmadınmı?

## YURD YERİMİZ

Harayıma hay verən yox,
Elsiz qaldı yurd yerimiz.
Vaxtsız oldu köçhaköçü,
Elsiz qaldı yurd yerimiz.

Heç bilmədim bu nə gündü,
Həqiqətin üzü döndü.
Baş qarışdı, ocaq söndü,
Elsiz qaldı yurd yerimiz.

Hər gələn bir qərar verdi,
Güllərini düşmən dərdi.
Dözülməzdir elin dərdi,
Elsiz qaldı yurd yerimiz.

## VƏTƏN HƏSRƏTİNİ ÇƏKƏN ÜRƏYİM

Bilmirəm nə olub, yenə də dolub,
Vətən həsrətini çəkən ürəyim.
Daha sözə baxmır, yəqin yorulub,
Vətən həsrətini çəkən ürəyim.

Gənclik vaxtı gedib yaz da güllənmir,
Aşıb-daşıb bulaqlar tək sellənmir.
Yerli-yersiz söz eşidib dillənmir,
Vətən həsrətini çəkən ürəyim.

Gülünc sözü yaraşdırmır adına,
Günləri var çətin gəlir yadına.
Tamarzıdır qovurmanın dadına,
Vətən həsrətini çəkən ürəyim.

Axşamlar içimdə qərib yel əsir,
Bu nisgil qəlbimi doğrayıb kəsir.
Görüşə getməyə yaman tələsir,
Vətən həsrətini çəkən ürəyim.

Deyəsən bu yaş da bir bəhanədir,
Xətrinə kim dəyib bilmirəm nədir.
Son zamanlar Şəhriyazı incidir,
Vətən həsrətini çəkən ürəyim.

## ULU TANRI, ÖZÜN QORU BU XALQI

Gümanım sənədir, üz tutdum sənə,
Ulu tanrı, özün qoru bu xalqı.
İnamım qalmayıb daha bəndəyə,
Ulu tanrı, özün qoru bu xalqı.

İndi çoxalıbdır, müftə yeyənlər,
Özgəsin söyənlər, özün öyənlər.
Səs-səsə veriblər tərif deyənlər,
Ulu tanrı, özün qoru bu xalqı.

Vicdanı itirib elə baxanlar,
Yaxşılıq etməmiş başa qaxanlar.
Büşüblər araya qara yaxanlar,
Ulu tanrı, özün qoru bu xalqı.

Hamı bir-birini ittiham edir,
Bilmirsən daxildə bu giley nədir.
Görürsən torpağın əlindən gedir,
Ulu tanrı, özün qoru bu xalqı.

Ürəyimdən keçən bu nə həvəsdir,
Elə bil dünya da bir dar qəfəsdir.
Çəkdiyi ağrılar özünə bəsdi,
Ulu tanrı, özün qoru bu xalqı.

Sinəsi dağlandı, üzü gülmədi,
Ağlayan gözünün yaşın silmədi.
Bu xalqın başına nələr gəlmədi,
Ulu tanrı, özün qoru bu xalqı.

## ÖZÜMƏ BƏSDİ

Özgə dili neylərəm,
Dilim özümə bəsdi.
Od-ocağım bir yana,
Külüm özümə bəsdi.

İstəmirəm azı çox,
Könlüm evi toxdu, tox.
Yad gülündə gözüm yox,
Gülüm özümə bəsdi.

Ötsə kaman, ötsə tar,
Havalanar arzular.
Başqa eldə nəyim var,
Elim özümə bəsdi.

# DƏRƏLƏYƏZ

*Dərələyəz mahalından didərgin düşmüşlərə həsr edirəm.*

*I hissə*

Dərələyəz, çətin yola çıxmışam,
Göz yaşımı mən kağıza sıxmışam.
Olanlara, keçənlərə baxmışam.
Bəzək olsun bu dastanım adına,
Vaxt olar ki, kimsə salar yadına.

Dərələyəz, adın mənə şirindi,
Bilirəm ki, yaraların dərindi.
Demə məndən yazammadı ərindi,
Tənbəlliyim daşın atdım bir yana,
Dərdlərini köçürmüşəm bu cana.

Dərələyəz «Heydərbaba» dillərdə,
Dastan olub gəzdi neçə ellərdə.
Yollarını gözləyirdi güllərdə,
Bir gəlmədi gül də baxa üzünə,
Həsrət qaldıq o nisgilli gözünə.

Dərələyəz, qızlar pencər yığardı,
Sağınçılar inəkləri sağardı.
Bir də gördüm narın yağış yağardı,
İslanardı çəmənlikdə göy otlar,
Kişnəyərdi quzeylərdə boz atlar.

Dərələyəz, oldum səndən aralı,
Ömrüm boyu qaldım belə yaralı.
Orta Təzəklinin otu saralı,
Turş suyundan qurtum-qurtum içmişəm,
Ay ölən çayından qaçıb keçmişəm.

Dərələyəz, əhdim-andım pozulmaz,
İmanın düzünü gəzən yorulmaz.
Belə yerdə yalan desəm düz olmaz,
Əzəl gündən adət belə quruldu,
Bu kəndlərin xeyri-şəri bir oldu.

Dərələyəz, uşaq çıxardı yala,
Oyunlar var, oynanardı qol-qola.
Küsülü olanlar gələrdi yola,
Çağırardı toybəyi ay sabaşı,
Oturardı qonum – qonşu yanaşı.

Dərələyəz, yaman darda qalmışam,
Günüm olub min xəyala dalmışam.
Allahımdan yeni fərman almışam,
Elə havalana qəlbim tez coşa,
Bu dastanı mən gətirəm bir başa

Dərələyəz, kimsə olsa köməyim,
Zaya getməz əziyyətim, əməyim,
Başa çatsa xoş niyyətim, diləyim,
Bir doyunca rahat nəfəs alaram,
Torpağını quzu kimi yalaram.

Dərələyəz, niyyətim var canımda,
Yalan sözü danışmazlar yanımda.
Uşaqlıqdan belə qalıb qanımda,
Dünya cənnət olsa sənsən cənnətim,
Sənsiz yoxdur bir qədiri-qiymətim.

Dərələyəz, Ağbulağın axardı,
Sel gələndə ağacları yıxardı.
Bulud toqquşanda şimşək çaxardı,
Doluşardı çadırlara uşaqlar,
Gün çıxanda alışardı ocaqlar.

Dərələyəz, Qara şumda nələr var,
Göndərəni görən necə unudar?
Ağ yarğandı babalardan yadıgar,
Gələn qonaq sularından içibdir,
Qaçaq Nəbi bu yerlərdən keçibdir.

Dərələyəz, yada gəlir gör nələr,
Adətimiz belə idi o günlər.
Elə ki, başlandı toylar düyünlər,
Yallı tutub gedərdilər əl-ələ,
«Uca dağlar» çalnardı ay belə.

Dərələyəz, günün üzü dönəndə,
Başlanardı çox oyunlar sərində.
Birdə gördüm toyun şirin yerində,
Maşllah Alının gəlib yanına,
Bir həvəslə gedərdilər zorxana.

Dərələyəz, qədim, köhnə havalar,
Düşünəndə ürəyimi yaralar,
«Osmanlı»nı oynayardı qocalar.
Baxanlara yaxşı ləzzət verərdi,
Qara zurna bülbül kimi ötərdi.

Dərələyəz, Çala yurddan keçəndə,
Yorulardıq çöldə otu biçəndə.
Baldırğanlı sularından içəndə,
Bir sərinlik yayılardı ürəyə,
Oturardıq qatıq-çörək yeməyə.

Dərələyəz, yalotunun kətəsi,
Nərgiz ilə qaymaqgülün dəstəsi,
Yaz gələndə əmliklərin bəstəsi,
Bulaq üstə tutulardı kababa,
Oxunardı «ay baba, gəl, ay baba».

Dərələyəz, ötüb keçdi hər anım,
Qaraqaya yaylığında harayım.
Dəmir təpə, Çınqıllı yurd, ha sayım,
Çıxan deyil yaddaşımdan, yadımdan,
Tüstüləndim içimdəki odumdan.

Dərələyəz, suyu arxdan açardım,
Quzuların arxasında qaçardım.
Geyinəndə sevincimdən uçardım,
Hanı mənim qızqaytaran çarığım,
Əlimdən sürüşüb çayda balığım.

Dərələyəz Kotanlıdan enəndə,
Köç karvanı yaylaqlardan enəndə,
Qış gecəsi sazın səsi gələndə,
Səsimizi gizlədərdik o gecə,
Aşıqları yamsılardıq gizlicə.

Dərələyəz, Tələ meşə, Şiş qaya,
Doğma adlar saya gəlməz, heç saya,
Qarğıdalı doldurardıq tavaya,
Necə indi salım yada haranı,
Yayda isti yandırardı aranı.

Dərələyəz, bir gün getdim Sallıya,
Heyran oldum necə əhli-hallıya.
İstəmirəm bir kəs məni danlaya,
Xatırlaram Cəlil kimi ustadı,
Ələsgərlə görüşməyi yaddadı.

Dərələyəz, Telli tikə, Sarı yer,
Elçi daşı gedənimdən xəbər ver.
Dayanmışdı gözəl yerdə Qalaser,
Əlimizdən bu kəndi də aldılar,
Ermənilər yaman günə saldılar.

Dərələyəz, qonum-qonşu bir idi,
Yastı bulaq yüz bulaqdan biridi.
Bu yerlərə cənnət desəm yeridi,
Nigarandı orda Molla bulağı,
Gətirən yox bir də mənə sorağı.

Dərələyəz, görəm bir də üzünü,
Qabaxlının biçənəkli düzünü.
Unutmarıq ağsaqqalın sözünü,
Heç bir kəsə eyləmədik yamanlıq,
Qocaldıqca bahalaşır cavanlıq.

Dərələyəz, sacın altı yananda,
Xamralı bişərdi, qaymaq yanında.
Yayın avqust ayı quyruq donanda,
Ağ sürülər qayıdardı arana,
Həsrət qaldım elə gözəl dövrana.

Dərələyəz, Gədikvəngin qucağı,
Soyuq olur yayın sazağı,
Görəmmədik bircə dəfə uzağı,
Nə bilərdik qismət belə gələrmiş,
Üstümüzə yağı düşmən gülərmiş.

Dərələyəz, eyləmədik ay aman,
Yaşayardıq qəm-qüssəsiz firavan.
Oynun olsun sənin ay qoca Zaman,
Bığlarını qaldırıb endirərdi,
Uşaqları doyunca güldürərdi.

Dərələyəz, nigaranam elimdən,
Uşaqlığım nə tez getdi əlimdən.
Gülüdüzü heç düşməyib dilimdən
Səfər müəllimin oldum qonağı,
Oturub dərdləşdik məkkət qabağı.

Dərələyəz, marta Novruz bayramı,
Gələn kimi qarşılardı el hamı.
Son çərşənbə, ilaxırı axşamı,
Su tökərdik baxçalardan evlərə,
Oxşadardıq özümüzü devlərə.

Dərələyəz, nələr gəldi başına,
Yağı düşmən zəhər qatdı aşına.
Göz dikdilər torpağına, daşına,
Zəmanənin üzü döndü bir anda,
Neyləmişik görən biz bu cahanda.

Dərələyəz, ötən günü anıram,
Düşündükcə alovlanıb yanıram,
Çox mətləbi görüb indi qanıram,
Yanammadıq bir doyunca halına,
Daraşdılar ac qurd kimi malına.

Dərələyəz nəyi deyim, nəyi yox?
Bu dərd bizi yandıracaq hələ çox.
Fitva verdi başı yekə, qarnı tox.
Dəlləkliyi başımızda öyrəndi,
Biz dinəndə gileyləndi, söyləndi.

Dərələyəz, çoxdur sözün niyəsi,
Bülbülölən kəndin hanı yiyəsi?
Yandı Məşədilər, Alxan pəyəsi,
Aşağı Sallı bir gecədə yox olub.
Viran qalmış belə kəndlər çox olub.

Dərələyəz, biz ki, möhlət götürdük,
Getdərəni, Ardarazı itirdik.
Dünənkini bu gün dilə gətirdik.
Nə dedilər ağlımıza girmədi.
«Başbilənlər» bizə aman vermədi.

Dərələyəz, yapon yolu bağladı,
Qanlı günü görən gözlər ağladı.
Övlad dərdi bir aşığı dağladı,
Yana-yana «Qaytarma»nı yatardı,
Ürəklərin nisgilini oyatdı.

Dərələyəz, əsəbimiz gəlirdi,
Qırx altıda yeni fərman verildi.
Türk adları başqa ada çevrildi,
Qudurub çöndülər çoban itinə,
Baş kəndimiz döndü birdən «Şatinə».

Dərələyəz, müsibətin çox oldu,
Ev-eşiyin bir gecədə tutuldu.
Sağ qalanın canı yaman qurtuldu,
Adamları yarı yolda soydular,
Bizi tezdən yaman günə qoydular

Dərələyəz qoyub gəldik naxırı,
Ağır oldu bu illərin axırı,
Üzə çıxdı düşmənlərin paxırı,
Qurd xislətli qonşuların var imiş,
«Öz yer»ləri özlərinə dar imiş.

Dərələyəz, illər boyu yatdıq biz,
Nə etdilər bir çıxmadı səsimiz.
Günü-gündən isidikcə yerimiz,
Dərdimizi bayram edib oynadıq,
Qara günümüzü anıb duymadıq.

Dərələyəz, fikrim çəkdi keçmişi,
Çevirdilər tərsə çərxi-gərdişi.
Bizə baha gəldi ilin gedişi,
Beş-yeddidə Ağdərəmiz dağıldı,
Keçmiş illər elə bil ki, nağıldı.

Dərələyəz, düşmən doluşdu kəndə,
Göstərişi verən dayandı gendə.
Güney-Vəngi dağıdıldı bir gündə,
Canı kəndi meşəliyə dönübdür,
Nəbilərin od-ocağı sönübdür.

Dərələyəz, çatmadılar hayına,
Gülüşdülər xalqın ahı-vayına.
Qanlar axdı onda Arpa çayına,
Axar çayın qızıl qana boyandı,
Köhnə dərdlər yenə birdən oyandı.

Dərələyəz, onda yaz da gec gəldi,
Qorxu hissi adamlara güc gəldi.
Ürəklər ağrıdı, başlar gicəldi,
Tayqulaq kəndləri çapdı-taladı,
Şaumyana şad bir xəbər yolladı.

Dərələyəz ildən-ilə üzüldük,
Aldana-aldana təzədən əzildik.
Dərd içində gündən-günə nəzildik,
Kəsilmədi daşnaqların qabağı,
Bu mahalın söndü birdən ocağı.

Dərələyəz, keçdik çaqqal toruna,
Qoymadılar torpağımız qoruna.
Lənət gəlsin alçağına, koruna,
Kor şeytana papış tikən qudurdu,
Ara vuran bir kənarda oturdu.

Dərələyəz, bu da belə bir işdi,
Əzizlərim dünyasını dəyişdi.
Qananla qanmazlar gəlib deyişdi,
Baş açmadıq haqlı-haqsız oynundan,
Qurdlar gizləndilər axsaq qoyundan.

Dərələyəz, Tanrı səni saxlaya,
Qalan olsa gəlib səni yoxlaya.
Yaman ölüm düşmənləri haxlaya,
Qan düşmənim muradına yetməsin,
Bağçasından gül-çiçəyi bitməsin.

Dərələyəz, demə ömür hədərdi,
Biz üzdü yurd həsrəti, yurd dərdi.
Ayrılıq var ölümdən də betərdi.
Köhnə kişilərin səbri qalmayıb,
Dünya bizi heç vecinə almayıb.

Dərələyəz, Cəlaloğlu küsübdür,
Gorus ümidini bizdən üzübdür.
Üstümüzə qara yellər əsibdir,
Biz yatmışıq oyanmırıq hələ də,
Tərpənmərik yüz də kömək gələ də.

Dərələyəz, keçmiş kəndim hardadı,
Gözəl yerlərimiz qalıb dardadı.
Gecə-gündüz qəlbim yenə ordadı,
Dədə-baba yurdu mənə əzizdi,
Yazmasaydım deyərdilər fərsizdi.

Dərələyəz, bizi fağır saydılar,
Gecikdirib dərimizi soydular.
Aldadıb dünyanı böhtan yaydılar,
Düz sözümüz heç keçmədi isbata,
Çətin ki, qanmaza doğru söz çata.

Dərələyəz, bahar gəldi, oldu yaz,
Yada salıb səni andım mən bir az.
Deyəcəksən bir gün oğlum Şəhriyaz,
Gələ bilsə gəlib məni yoxlasın,
Tanrı ona möhlət versin toxtasın.
Dərələyəz dincəlmədim üç ayı,

Dərələyəz., ilin, günün pis vaxtı,
Qədirbilməz qonşun sənə pis baxdı.
Nənələrin gözlərindən yaş axdı,
Zaman səni yenə çəkdi sınağa,
Şirin sözün yaxın gəlmir dodağa.

Dərələyəz demişdilər dədələr,
At oynadar yerli-yersiz gədələr,
Ağlımızı aldı o xoş vədələr,
Qanun-qayda elə bizə yazıldı,
Görə-görə öz qəbrimiz qazıldı.

Dərələyəz, getdi neçə bölgələr,
Arxamızca gəzdi qara kölgələr.
Hərdən xəyalıma Qəmərli gələr.
Əlim çatmır Zəngibasar elinə,
Həsrət qaldıq Ağbabanın gülünə.

Dərələyəz, Dərəçiçək dumanlı,
Yaşayırdıq yenə yaxşı yamanlı.
Əldən getdi Qarakilsə, Hamamlı.
Yurdumuzda çaqqal-çuqqal ulaşdı,
Qanımıza murdar əli bulaşdı.

Dərələyəz, dərdli sinəm göynədi,
Əksiklər çürüdüb sözü çeynədi.
Bu yurdsuzlar bizə divan eylədi.
Özümüzə gələmmirik hələ də,
Başımız çatladı bu vəlvələdə.

Dərələyəz, özümüzdən küsməsək,
Külək olub ora-bura əsməsək.
O şeytanın barmağını kəsməsək.
Qurtarmarıq bu bəladan, ağrıdan,
Yalvrmaqla donuz çıxmaz darıdan.

Hər günümü keçirməzdim havayı.
Şəhriyazın bu töhfəsi, bu payı,
Məlhəm olsun yurd həsrəti
çəkənə,
Ölüm gəlsin şər toxumu əkənə.

## İSA ƏSƏDOV

Əsədov İsa Məhəmməd oğlu 1938-ci ildə Dərələyəzin Ertiş kəndində anadan olmuş, 1939-cu ildə ermənilər tərəfindən doğma kəndindən zorla köçürülüb Amağu kəndində məskunlaşdırılmış, 1956-cı ildə orta məktəbi, 1961-ci ildə ali məktəbi bitirmiş 40 il dil-ədəbiyyat müəllimi işləmiş, 1973-cü ildə Bakıya köçmüş, hal-hazırda Abşeronunun Mehdiabad qəsəbəsində yaşayır. Təqaüdçüdür. 1958-ci ildən şer yazır. Çoxlu gəraylı, qoşma, təcnis və poemaları vardır. Onlardan bir qismini burada verməklə kifayətlənirik.

### *GƏRAYLILAR*

### YAZ

Qəhrəmanlıq dastanını,
Dünəndən yox bu gündən yaz.
«Koroğlu»nu baban yazıb,
Sənsə indi özündən yaz.

Qılınc, qalxan vaxtı deyil,
Nizə tutma, yoldan çəkil.
Onlar dövrə yaraşmır bil
Topdan, tankdan tüfəngdən yaz.

Nə meydan var, nə də namərd,
İpi düyub, atma kəmənd,
Dünyamızda var bircə dərd,
Atom kimi nəhəngdən yaz.

Raketlər gedir aya,
Dəqiqəni saya, saya.
Bax o taya, bax bu taya,
Nüvə kimi pələngdən yaz.

Mən də bəşər, sən də bəşər,
Bunu başa düşsək əgər.
Meydanlarda kim güləşər,
Dostluq kimi gərəkdən yaz.

### MƏN

Aşıq qızın sinəsində,
Saz yerində olaydım mən.
«Sarı tel»i çalan zaman,
Huşsuz halda qalaydım mən.

Tellərində əl gəzəydi,
Buxağına gül düzəydi;
Yanağından xal üzəydi,
Bircəsini alaydım mən.

Boylanaydım xəlvət yerdən,
Dağ döşündən dərələrdən.
Səhər mehi olub hərdən,
Ürəyinə dolaydım mən.

Gətirəydi onun baxtı,
Geydirəydim zər xalatı.
«Misiri»ni çalan vaxtı,
Xəyallara dalaydım mən.

Diləyim çox, arzum bircə,
Qovuşaydım bir sevincə;
Qış ayları uzun gecə,
Qol boynuna salaydım mən.

## DAĞLAR

Ucaların ucasıdır,
Bizim dağlar, bizim dağlar.
Qocaların qocasıdır,
Bizim dağlar, bizim dağlar.

Gədikləri duman, çənli,
Karvan keçər sənli, mənli.
Hər qarışı göy çəmənli,
Bizim dağlar, bizim dağlar.

Gündüzü var al səhərli,
Gül çiçəyi sulu, tərli.
Dar sinəli, gen dərəli,
Bizim dağlar, bizim dağlar.

Hər zirvəndə ağappaq qar,
Yaza qalar, yaya qalar.
Qartal keçər, qanad çalar,
Bizim dağlar, bizim dağlar.

Turacın var, kəkliyin var,
Ceyran, cüyür, ənliyin var.
İgidliyin, mənliyin var,
Bizim dağlar, bizim dağlar.

## DİLƏ DÜŞÜR

Ürəyimdə söz karvanı,
Qatar-qatar dilə düşür.
Kamançada həzin-həzin,
Saz üstündə telə düşür.

Gül bülbülə naz eyləyir,
Bənövşələr boynun əyir.
Arana bax, dağa bax bir,
Yağış, yağır, gilə düşür.

Vətən geniş, elləri şən,
Hər guşəsi behişt, gülşən.
Bir yadigar qalır məndən,
İzim çöldən-çölə düşür.

Düzdə duman, dərədə çən,
Boran keçir gədiklərdən.
Yaz ayları karvan hərdən,
Dolaylarda selə düşür.

Bizim yerdə iqlimə bax,
Bir yan qışlaq, bir yan yaylaq.
Çox keçmədən yaxın uzaq,
Həyat əldən ələ düşür.

## OLSUN

Ürək deyir bir şer yaz,
Qəhrəmanı əsgər olsun.
Döyüş yeri geniş meydan,
Yataq yeri səngər olsun.

O oxşasın babasına,
Oğuz oğlu Qazan xana.
Onu doğan igid ana,
Nigar olsun, Həcər olsun.

Dağ titrəsin nərəsindən,
Alov yağsın nəfəsindən.
Səda gəlsin gur səsindən,
Mindiyi at kəhər olsun.

Yaz seli tək aşıb daşsın,
Dərə aşsın, təpə aşsın.
Gədiklərdən yollar açsın,
Axşam olsun, səhər olsun.

Belə igid bizdə çoxdur,
Yenilməzdir, tayı yoxdur.
Vuruş günü o, bir oxdur,
Əli olsun, Cəfər olsun.

## MASABƏYİ

Toy düyündür onun yeri,
Ləqəbidir Masabəyi.
Çənədən saz, dildən zirək,
Əsəbidir masabəyi.

Öz-özünə əsib, coşur,
Toy əhlinə tez qovuşur.
Şer deyib, söz də qoşur,
Ədəbidir masabəyi.

Saç ağardıb bu sənətdə,
Sədaqətdə, məhəbbətdə.
Xeyirxahdır hər niyyətdə,
Təbiidir masabəyi.

Söz də verib, söz də alır,
Keçmişini yada salır.
Mizrab vurur, saz da çalır,
Bədlidir masabəyi.

Hər nə desən yaraşdırır,
Cümləsini qarışdırır.
Küsənləri barışdırır,
Səmimidir masabəyi.

Gələnləri salamlayır,
Gedənləri yola salır.
Şabaş verib, şabaş alır,
Mədənidir masabəyi.

## YAZDA OLSUN

Bizim gözəl bu vətəndə,
Qış da olsun, yaz da olsun.
Payız köçən qaranquşlar,
Bağçamızda yazda olsun.

Səhər-səhər düşən şehlər,
Çəmənlərdə gülü şehlər.
Bənövşəni qujaqla dər,
Çox da olsun, az da olsun.

Yar bağında qızılgül ək,
Bülbül gəlsin birgə gülək.
Tel oynatsın sərin külək,
Aramızda nazda olsun.

Mən qurbanam şirin dilə,
Al dodağa, şirin dilə.
Şəkər deyib, şirin dilə,
Xoş danışıq, saz da olsun.

Üzüm gətir gilə-gilə,
Göz oxşatsın gilə-gilə;
Su üzündə damjı gilə,
Gölümüzdə qaz da olsun.

## SORAĞINA

Gül toplayıb, çiçək dərən,
Gözüm düşdü yanağına.
Yayınmadı gözlərimdən,
Əl apardın dodağına.

Qaşın qara, gözün ala,
Oxşayırsan bir marala.
Ürək yandı tala-tala,
Ətir səpdin buxağına.

Qoşa hörük dal gərdəndə,
Ulduz-ulduz xal çənəndə.
Bu gözəllik nədir səndə,
Aşiq düşüb sorağına.

Sinən dağlar qarı kimi,
Qoynun bağlar narı kimi,
Məni sanjdın arı kimi,
Bir söz dedim qulağına.

## MOLLA ƏMİ

Yas yerinin sütunusan,
Əyri dirək, molla əmi.
Ağızlardan söz qapansan.
Qara külək, molla əmi.

Qara təsbeh əlindədir,
Əqidən də dilindədir.
Yüz-yüz babal belindədir,
Hara tökək, molla əmi.

Armuda "armudi" dedin,
Dilimizi tamam əydin,
Neçə-neçə qəlbə dəydin,
Sözü kötək, molla əmi.

Sən də islam, mən də islam,
Sən dərvişsən, mən də imam.
Türk dillidir atam, anam,
Bizdən əl çək, molla əmi.

Guya dilin çox ədəbi,
Qurtarıbsan bir məktəbi,
Nə farsısan, nə ərəbi,
Gəlmə kələk, molla əmi.

Gəl "Quran"ı oxuyaq bir,
Kəlmə, kəlmə, sətir-sətir,
Düz danışan görək kimdir,
Dili pəltək molla əmi.

## *GƏRAYLI TƏCNİSLƏR*

### SARI - SARI

*(Dodaqdəyməz təcnis)*

Çiçəkləri dərəndə sən,
Tələs dər ki, sarı-sarı.
Sağ əlinlə dəstə-dəstə,
Nazik-nazik sarı, sarı.

Qar əriyər, a yaz gələr,
İsti gələr, ayaz gələr.
Əsən yellər ay az gələr,
Yaylaqlara sarı, sarı.

Kəklik səkər sinə-sinə,
Lalə qalxar sinəsinə.
Ayağı nə, sinəsi nə.
Yax xınadan sarı, sarı.

Səngərlənir dağ qartala,
İllər keçə, dağ qartala,
Zəlzələsiz dağ, qartala,
Gəl əzizlə sarı, sarı.

Yanağında xal da yana,
Qaraldıqja xal da yana.
Əl çəkilə, xal dayana,
Ayələrə sarı-sarı.

### YAR, YARANDI

Ürəyimi xəstə edən,
Vallah, billah yar yarandı.
Təbib dedim onu yara
Söylədilər: - Yar, yarandı.

Bənövşəyə inci: - dedi
Dürr göndərdim, inci: - dedi.
Üz döndərdi, inci: - dedi
Mənə qənim yar, yarandı.

Ya Şirindi, ya da leyli,
Məcnun düşdü yada, Leyli.
Qismət oldu yada leyli,
Salamlara yar yarandı.

Saz üstündə sim sarıdı,
Usta gəldi, sim sarıdı.
Bu qız kimin simsarıdı,
Dosta sadiq yar, yarandı.

Müsəlmanam, dinim, dindi,
Türk dilində məni dindi.
Türk dilbəri, birdən dindi,
Əhdə vəfa yar, yarandı.

## YARI-YARI

Gecə qara, üfüq tutqun,
Ay buludda yarı-yarı.
Belə gizli pərdələrdə,
Bir görəydim yarı, yarı.

Dilbər gördüm dərdi üzdə,
Xal yerində dərdi üzdə.
Öz əlinlə, dərdi üzdə
Gəl bölüşək yarı, yarı.

Gözüm düşdü bir gözələ,
Dikilibdir bir göz, ələ.
İnsafa gəl bir göz elə,
Sən unutma yarı, yarı.

Nə dəmirdir, nə də daşdı,
Dəniz kimi sinəm daşdı.
Ürək gördüm ət yox, daşdı,
Qan damara yarı, yarı.

Mən qurbanam göy çəmənə
Söykənibdir Göyçə mənə.
Alça sənə, göyjə mənə,
Gəl bölüşək, yarı-yarı.

## YARA-YARA

Qələm səni süngü edim,
Səngərlərə yara, yara.
Bir ildırım bir şimşək ol,
Buludları yara-yara.

Çiçək nədi, dərdi nədi,
Bənövşəni dərdi nədi.
Süngü xalqın dərdinədi,
Yol göstərək yara, yara.

Dinməyirik dinir əsr,
Lal durmuşuq külək əsir.
Ana əsir, bajı əsir,
Əl uzadaq yara, yara.

Xojalıda gülüm yandı,
Körpəm yandı, gülüm yandı.
Yad əl dəyib, gülüm yandı,
Ləçəkləri yara, yara.

## *QOŞMALAR*

## CAN DEYİR

Elə bil dünyamız ağlın itirib,
Atomdan danışır, qırğından deyir.
Süstləşib alimin, arifin başı,
Adi bir general qana, qan deyir.

Yumruq düyünləyib, hay salanlar çox,
İnsan qayğısına heç qalanlar yox.
İstər qarnı aclar, istər qarnı tox,
Səngərlər qazılsın yana, yan deyir.

Giliz parıltısı, top gurultusu,
Təyyarə harayı, tank uğultusu;
Zəhrimara qalmış uranın tozu,
Yandırıb yaxmağa, ana, an deyir.

Yaxşı insanların gözündən iraq,
Neçə başlar kəsir bir parça torpaq.
Qızılı, gümüşü sevənlərə bax,
Od vurub dünyaya, yan, a, yan deyir.

Hərənin bir canı, bir nəfəsi var,
Beş il yaşamağa çox həvəsi var.
Hər balaca quşun öz nəğməsi var,
Yuvada yatmağa, can, a, can deyir.

Çox insan görmüşəm birlik həvəsli,
İngilis, türk, rus, ərəb nəfəsli.
Kaman, tar üstündə musiqi səsli,
Ürəyə can deyir, cana, can deyir.

## QOŞA-QOŞA

Dağlardan enmişik, dağlara qalxaq,
Gəl, əziz qardaşım, biz qoşa-qoşa.
Qartallar sərxoşdur ona qoşulaq,
Qalsın zirvələrdə, iz, qoşa-qoşa.

Yaşıl çəmənlikdir hər yaylaq qoynu,
Nərgiz, bənövşədən biçilib donu.
Necə ki, çatmayıb ömrün sonu,
Baxsın bir-birinə göz, qoşa-qoşa.

Güneydən adlayaq, qüzeydən keçək,
Dərman nə lazımdır, güllərdən seçək.
Buzlu bulaqlardan doyunca içək,
Sularda görünsün, üz, qoşa-qoşa.

Bədbinlik nə lazım, doyunca gülək,
Sevinci, kədəri gəl yarı bölək.
Qoy bizdən gileyli qalmasın ürək,
Vursun nəbzimiz, düz, qoşa-qoşa.

Bu gün səksən yaşın olsa da belə,
Günlər görəcəyik qabaqda hələ.
Qocalıq adını gətirmə dilə,
Qalxacaq, enəcək diz, qoşa-qoşa.

## YERİNDƏDİR

Demə vulkan vurdu, dağıldı hər yan,
Təpə yerindədir, dağ yerindədir.
Zəlzələ hərdənbir oynadı keçdi
Bağça yerindədir, bağ yerindədir.

Gündüz günəşlidir, gecələr aylı,
Ulduzlar sayrışır göydə çox saylı.
Yerdə də gül açır yerin cəlalı,
Qara yerindədir, ağ yerindədir.

Hərdən duman keçir, hərdən çən keçir,
Hər ağ gün, qara gün ömrdən keçir.
Daşqın Arazımdan, sel Kürdən keçir,
Bostan yerindədir, tağ yerindədir.

Yenə də yol verir karvana gədik,
Alt yanı dərədir, üst yanında dik.
Dünən yuva quran xınalı kəklik,
Balası yanında, sağ yerindədir.

Hər kəndə, şəhərə yetir bir nəzər,
Qoynunda boy atır sütunlu evlər.
Dörd yanı sarmaşıq, çiçəkləri tər,
Divar yerindədir, tağ yerindədir.

## GÖRÜRƏM

Baxıb insanlarda davranışa mən,
İzi bilinməyən ayaq görürəm.
Yayına bilməyir gözümdən bir an
Közərən, qaralan ocaq görürəm.

Gözü dar, qəlbi dar, fikri qaranlıq,
Kənardan seyr elə, onu bir anlıq.
Bizim cəmiyyətdə atıntı, qalıq,
Köhnə şalvarlara yamaq görürəm.

Nə bir bacarığı, nə hünəri var,
Nə də ki, bir damcı alın təri var.
Bir kəsə xeyri yox, ancaq şəri var,
Əyri dodağını sallaq görürəm.

Baxışı, duruşu sünidir, süni,
Tondan-tona salır o gur səsini.
Hər dəfə alanda buz nəfəsini,
İynəylə deşilmiş dalaq görürəm.

İnsan formasında, şeytan nisbəti,
Vətənə, xalqına yox məhəbbəti.
Dəyərsiz istəyir ala cənnəti,
Cəhənnəm odundan qalaq görürəm.

## BU GECƏ

Gülür səma, gülür ulduz, gülür yer,
Günəş ayın qoynundadır bu gecə.
Nə tufan var, nə ildırım, nə şimşək,
Hamı bəyin toyundadır bu gecə.

Hər yan səssiz, mürgüdədir dağ, dərə,
Qaranlıq da pərdə çəkib hər yerə.
Hələ tezdir, çox qalıbdır səhərə,
Gəlin şahlıq donundadır bu gecə.

Yengə baxır sevinc ilə gərdəyə,
«Ay qız, tez ol, naz eyləmə, gəl» - deyə.
Sağdış-solduş xəbər verir tez bəyə,
Qız analıq yolundadır, bu gecə.

İşıq sönür, pəncərələr qapanır,
İki sevgi qabaq, qarşı dayanır.
Qoca yengə bir tərəfdən boylanır,
Qız sultanlıq, sonundadır bu gecə.

Sərin-sərin arabir də əsir meh,
Bənövşənin çiçəyinə düşür şeh.
Oğlan şaddır, sevinci çox, qız valeh,
Qolu qızın boynundadır, bu gecə.

Sahillərə can atdıqca dalğalar,
Sevincindən ətir saçır ilk bahar.
Təzə toydan istəyir bir yadigar,
Körpə gəlin boyundadır, bu gecə.

## NƏ DEYİM

Uşaqlıqdan hələ qalıb dilimdə,
Biri vardır, biri yoxdur nə deyim.
Bir keçəllə sevişmişdi xan qızı,
Biri acdır, biri toxdur, nə deyim.

Gəncliyimdə çox sevərdim dastanı,
Abbas kimi dolaşardım hər yanı.
İndii deyin, Gülgəz kimi qız hanı,
Söz gəzdirən qarı çoxdur, nə deyim.

Unutmaram beşiyimi, laylamı,
Qucaqlayıb məni öpən anamı.
Sağ olsaydı mən verərdim canımı,
Qibləm odur, Kəbəm odur, nə deyim.

İndi isə çox sevirəm bayatı,
At belində dolanıram elatı.
Qocaların belə olar həyatı,
İnsan keçən yollar budur, nə deyim.

## BİR BAX

*(Aşıq Ələsgərə nəzirə)*

Oxu kirpiyində, yayı qaşında,
İzimi izləyən ovçuya bir bax.
Qıyıb gözlərini baxır daldadan,
Qan tökən cəllada, suçuya bir bax.

Gecələr tez yatıb, tez də oyanır,
Görüb qaraltımı baxıb, boylanır.
Tətikdə barmağı hazır dayanır,
Qızıldan kəmərli, qoçuya bir bax.

Ay belə ovçunun boyuna qurban,
Qırmızı geyinib donuna qurban.
Bir cüt nar saxlayan qoynuna qurban,
Yolumu gözləyən yolçuya bir bax.

## DƏRƏLƏYƏZIM

Bir yanın Zəngəzur, bir yanın Göyçə,
Kəlbəcər yastıqlı, Dərələyəzim.
Sinən bir meydandır, hər dərən səngər,
Arpaçay yataqlı, Dərələyəzim.

Atadan, babadan qalma yadigar,
Gədiklər dolaşan cığırların dar.
Güney!i, güzeyli iki üzün var,
Soyuq buz bulaqlı, Dərələyəzim.

Dağlardan göylərə dirək vurubsan,
Qara buludlardan çadır qurubsan.
Şimşəkdən at çapıb, onu yorubsan,
İldırım yaraqlı, Dərələyəzim.

Ürək həsrət çəkir yaylaqlarına,
Kəklikli, turaclı ovlaqlarına.
Qartala duz olan zirvə qarına,
Qızılquş qonaqlı, Dərələyəzim.

Gündüzün günəşli, gecən aylıdır,
Ətəyin baharlı, sinən yaylıdır.
Payızın küləkli, boran paylıdır,
Qarlı qış soraqlı, Dərələyəzim.

İnan ki, sevirəm ürəkdən səni,
Dağında dumanı, dərəndə çəni.
Uzaqdan yaxına yad elə məni,
Ey islam dayaqlı, Dərələyəzim.

## DÜŞÜR

İllər gəlib keçir köhlən at üstə,
Üzə qırış düşür, saça dən düşür.
Körpələr boy atır, gənclər qocalır,
Qərinə aralı, əsr gen düşür.

Dünya bir meydandır, zaman çapır at,
İnsan qarışqa tək axtarır nicat.
Yenicə doğulmuş quş açır qanad.
Qocaman qartallar zirvədən düşür.

Nə ulduz dəyişir, nə Günəş, nə Ay,
Dənizlər yaradır bulaqlardan çay.
Payıza verdikcə öz yerini yay,
Aran dumanlanır, dağa çən düşür.

Həyat müvəqqəti, şirin bir nemət,
Kiminə ehtiyac, kiminə sərvət.
Deməyin, dünyada yoxdur məhəbbət,
Nəsilsiz bir məxluq ziynətdən düşür.

## QALIR

Şahmat oyunundan baş çıxaranlar,
Vəzir dara düşüb, şahım mat qalır.
Vuruldu piyadam çıxdı cərgədən,
Bir topum, bir filim, bir də at qalır.

Rəqibə baxıram iki fili var,
Çəpəki düşübdür ağ piyadalar.
Atım əsirlikdə meydanı çox dar,
Yerində sakitcə farağat qalır.

Gediş özümündür, şahım qorxulu,
Qılınc tuta bilmir vəzirin qolu.
Topum aralıdır, geriyə yolu,
Yerindən tərpətsəm, şahım pat qalır.

Zirəkdir qonşunun bir piyadası,
Onu düşündürür vəzir odası.
Yetim qudurubdur, çoxdur ədası,
Düşünsən ona da, zərli taxt qalır.

## DİLİCANDADIR

Basılmaz bir elin, Odlar yurdunun,
Dağlardan dayağı Dilicandadır.
Oğuz tayfaları burda boy atıb,
Babamın ocağı Dilicandadır.

Axşamı aladır, gecəsi qara,
Buludu doğrayır ay, para-para.
Ürəkdən vurğunam belə diyara,
Nənəmin çırağı Dilicandadır.

Hayana baxırsan nərgiz, bənövşə,
Kök üstə dayanıb, baxır günəşə,
Alt yanı dərədir, üst yanı meşə,
Qafqazın ayağı Dilicandadır.

Qalın buludları zirvələr sıxır,
Şimşəklər oynayır, ildırım çaxır.
Qoca palıdları küləklər yıxır,
Tufanlar qucağı Dilicandadır.

Birləşir, ayrılır karvanlar yolu,
Dolanır başına Kürün bir qolu.
Gələnlər boş gəlir, gedənlər dolu,
Karvanlar yığnağı Dilicandadır.

## KƏKLİK

- Dimdiyi qırmızı, gözləri qara,
Ayağı al-əlvan xınalı kəklik.
Sən bizim dağların yaraşığısan,
Xoruzlu, beçəli, balalı, kəklik.

Yaylağın yamacdır, qışlağın dərə,
Məhrəm yaranmısan al səhərlərə.
Qanadın çilçildir, popullu fərə,
Mənim sevgilim tək həyalı, kəklik.

Qışda üşüyəndə gəl gir qoynuma,
Yayda qanadını dola boynuma.
Məndən uzaq gəzib, kənar dolanma,
Yoxsa küsdürərsən xəyalı, kəklik.

Qılınc qanadlısan, döşlərin qalxan,
Təzə gəlin kimi bəzənib yaxan.
Sal üstə dayanıb, mənalı baxan
Yalçın qayalardan qalalı, kəklik.

Dağlara çox qalxma, qara düşərsən,
Quzğun yatağıdır, dara düşərsən.
Yadelli əlində tora düşərsən.
Doğma xalqım kimi, vəfalı kəklik.

## OLDU

Kiçik bulaqlardan yaranan çaylar,
Dünyanın qoynunda okean oldu.
Ey Cəfər, səninsə odlu sözlərin,
Hər duyan könüldə bir ümman oldu.

Dünyaya boylanıb baxdığın zaman,
Gözün dumanlandı qaranlıqlardan.
Yolunu kəsdisə qar, çovğun, boran,
Bələdçin həm məkan, həm zaman oldu.

Gözlərin dikildi dan ulduzuna,
Səhərin o parlaq, gözəl qızına.
Bütün taleyini bağladın ona,
O sənə yol açan, bir karvan oldu.

Duzlu hekayələr, dadlı şerlər,
Axdı qələmindən hər axşam, səhər.
«Firuzə», «Dilarə», «Dilbər» və «Gülər».
Hərəsi bir epos, bir dastan oldu.

Keçmişə baxaraq daldın xəyala,
Qoşuldun zirvədə uçan qartala.
Aydın cavab verdin sirli suala,
O da «Qız qalası», poeman oldu.

Vəfalı Səriyyən gülmədi bir an,
Axıtdı gözyaşı hicran doğuran.
«Solğun çiçəklər»də Saran verdi can,
Çiçəklər saraldı, ev viran oldu.

İnqilab içində görüb sabahı,
Oynatdın taxtından Nəsrəddin şahı.
Kirmani döşünə sıxdı silahı,
Mərmər sərdabələr qızıl qan oldu.

Dövlət bəy sındırdı Aydının qəlbin,
Əldən-ələ keçdi yazıq Gültəkin.
Dayandı üz-üzə qəzəb ilə kin,
Dodaq zəhərləndi, dil yanan oldu.

Aşiqin qəlbini qırmamaq üçün,
Verdi bıçaq altda Firəngiz özün.
Oqtayın əliylə yardırıb köksün,
İlk qaranquş kimi yuvadan oldu.

Sağında Solmazı, solunda «Quran»
«Mənəm Allah» - deyib, asıldı Elxan.
Od qalxdı dağlarda atəşgahlardan,
Şəhərlər çapıldı, kənd talan oldu.

Səninlə ucaldı Sevilin səsi,
Yandırdı çadranı odlu nəfəsi.
Parladı ay kimi qadın çöhrəsi,
Azad ana oldu, qəhrəman oldu.

Tarixdə keçilməz ən çətin gündə,
Yenilik gətirdi Almazın kəndə.
Dağ üstə dağ çəkib hacı Əhmədə,
Kasıb kəndlilərə əl tutan oldu.

Yad edib dostluğu, beynəlmiləli,
Bir əsər yaratdın geniş şaxəli.
Sıxdı bir-birini iki dost əli,
Simvolun erməni, müsəlman oldu.

Dondan-dona girən İmamyarları,
Qansoran, o zəli mülkədarları.
Çəkib gətirəndə səhnəyə sarı,
Yaşarın, Toğrulun düz insan oldu.

Milli səhnəmizdə dönüş yaratdın,
Yenilik gətirdin, «Dönüş» yaratdın.
Gözyaşı içində gülüş yaratdın,
Səhnəmiz gül açıb, gülüstan oldu.

Ana dilimizə verdin təravət,
Təzə söz gətirib, göstərdin xidmət.
Bütün ömrün boyu çəkdiyin zəhmət,
Yer oldu, göy oldu, asiman oldu.

Otuz beş qış gördük, otuz beş bahar,
Həm vətəndaş oldun, həm də sənətkar.
Qoynuna aldısa səni dar məzar.
Adın ürəklərdə yaşayan oldu.

## QALDI

### S.Vurğunun «Ziyafət» şerini oxuyarkən

O gün ki Londona ayaq qoydun sən,
Adın yaxınlarda, uzaqda qaldı.
Hind qızı əksini basıb bağrına,
Qanqın sahilində soraqda qaldı.

Ziyafət axşamı ucaldı səsin,
Çatdı yer üzünə isti nəfəsin.
Verdin siyasətdən Çörçillin dərsin,
Siqarı sönməmiş, damaqda qaldı.

Lordlar yüz-yüz oldu, sənsə tək oldun,
Sönmədi alovun, sönmədi odun.
Bulud tək boşaldın, bulud tək doldun
Əlcəkli xanımlar maraqda qaldı.

Neçə generalla gəldin üz-üzə
Neçə diplomatla durdun göz-gözə.
Hamı heyran oldu kəsərli sözə,
Hər cümlən ağızda, dodaqda qaldı.

İnan, and içirəm, bu İsa canı,
İndi sənin kimi bir şair hanı.
Tanıda dünyaya Azərbaycanı,
Deyəm ki, sözləri qulaqda qaldı.

## İNDİ CƏNNƏTDƏDİR HEYDƏR ƏLİYEV

Gözümdən getməyir şəklin bir an
Xəyalım göylərdə axtarır səni.
Bir mələk olaydı tutub qolumdan,
Kaş ki, qaldıraydı yanına məni.

Görünür, bir daha yer üzərinə,
Qayıtmaq fikrin olmayacaqdır.
Dağlardan endiyin çölə, çəmənə,
Nəzərin dikilib qalmayacaqdır.

Gecənin qoynunda ulduzlar büllur,
Bilirəm onların arasındasan.
Həlalik dərk etmir, ancaq ki, şüur,
Parlaq kəhkəşanın harasındasan.

Səs gəlir, yaxınsan Bakıya bir az,
Hərdən də baxırsan Milə, Muğana.
Gözündən yayınmır Kür ilə Araz,
Salam göndərirsən Azərbaycana.

Məzarın önündə olan hər uşaq,
Əlində gülə də deyir: - Onu sev.
Ayağım altında dil açır torpaq:
- İndi cənnətdədir Heydər Əliyev.

## *TƏCNİSLƏR*

### ÜZDÜ, ÜZ

Təzə forma, yeni məzmun, şirin söz,
Deyir: - Bizi tər budaqdan üzdü, üz.
Gəl əl götür gəraylıdan, qoşmadan,
Yüz xal olmaz bir yanaqda, üzdü, üz.

Ələsgərdən çox söz keçdi nadana,
Kim istəyər nə gizlədə, nə dana.
Qısırəmən nə buzovdur, nə dana,
Çək altından, anasını üzdü, üz.

Çox görmüşəm mənsəb üçün əl çalan,
Boynuyoğun, qıpqırmızı, al çalan,
Məjlislərdə tərif deyib, alçalan,
Üzdəniraq badoş kimi üzdü, üz.

Qatır bilmir nə anadır, nə ata,
Oxşarı var həm ulağa, həm ata,
Öz nəslini kim unuda, kim ata?
Bənzəyişi bənzədəndir, üzdü, üz.

Səmt küləyi hərdən qalxar, bir əsər,
Gəlib keçər, ondan qalmaz bir əsər.
Nəsillərə yadigardır bir əsər,
Dodaqların qaymağıdır, üzdü, üz.

## OXATAN

Dilbər, sənə silah necə yaraşır,
Elə bil ki, bir bacındır Oxatan.
Bakımızdan Qarabağı nişan al,
Düşmənləri yerə sərsin o xatan.

Bilməlisən dərədə nə, düzdə nə,
Yay çəkəndə, ox üstündə düzdənə.
Göz qıyıla, ara-ara düz dönə,
Görən deyə:-Tomrisdir, ox atan.

İncə dildə nəğmə şirin, söz şirin,
Dağında nəğmə vardır nə şirin,
Öz tərzi var, ova çıxan hər şirin,
İgidlərin ər oğludur, ox, atan.

Bədənini ox görmüşəm gümüşdən,
Çək buxağa, soyuq sudan gümüşdən.
İnci kimi dişlərindir gümüş, dən,
Görən deyir bir pəridir, oxatan.

## YADA NAR

Qız, qoynunda bəslədiyin o nədir,
Bilinmir ki, ya heyvadır, ya da nar.
Hər gün durub boylanıram kənardan,
Yel tərpədir, gəlib düşür yada nar.

Heyva sarı, nar cəhrayı, az ala,
Qorxuram ki, əl dəydikcə azala.
Dəllal gələ çəkisindən az ala,
Ucuz-ucuz qismət ola yada nar.

Yay çıxanda payız vaxtı vədəydi,
Yetişdikcə şirələndi və dəydi.
Əsdi xəzan, yarpaq düşdü, vəd əydi,
Dərmədim ki, bağban bilər, yad anar.

Təzə yesən şirin gələr dada nar,
Dil dodaqda damaqların dad anar.
Yaxşı saxla, oğru gələr dadanar.
Divan qursan ya düz deyər, ya danar.

## SİLSİLƏ GƏRƏK

Təpəyə dağ deyib, ucaltma onu,
Dağa zirvə gərək, silsilə gərək.
Yayda başı qarlı, payızda çənli,
Yayda sinəsini sel, silə gərək.

Hər sinə atəşgah, hər ürək kürə,
Dəmiri sal ora, odunda kürə.
Hər çayı bənzətmə Araza, Kürə,
Zaylar sahilində sel silə gərək.

Kiçik bulaqların meyli arxadı,
Sızğalar birləşib aldı arx adı.
Cavan palıdlara meşə arxadı,
Dağ dağa gərəkdir, sel selə gərək.

Göylərə baxıram ay, sinə, sinə,
Ulduzlar sancılıb ay sinəsinə.
Bizim sənəmlərin ay sinəsinə,
Qızıldan, gümüşdən silsilə gərək.

## QARALAR

Nəzər salsan taleyinə dərindən,
Xeyir şəri, şər xeyiri qaralar.
Şər əliylə qılınc çəkər gecələr,
Dar ağızda səni sıxar qaralar.

Dərin dərə yaz selindən yarandı,
Hər xəndəyin, dağlar, qara yarandı.
Əhdə sadiq yar ilqarı, yar andı,
Hansı dildar yazılanı qaralar.

Tala-tala yaşıl yaylaq xalıdı,
Çiçəkləri sərilədi, xalıdı.
Eşq əhlinə Leylilərin xalıdı,
Əlin dəysə, sıxsan qanı qaralar.

Gül qalağı, daş qalağı adalar,
Yer titirəsə dənizləri adalar.
Tarix –tarix nəsillərdən ad alar,
İsti dəyər, xəzan dəyər qaralar.

Gədiklərdə cərgə-cərgə daş qala,
Qılınc yeri, qalxan yeri, daş qala.
Atalardan yadigardır daş qala,
Yaxşı saxla, yağış alar, qar alar.

## ŞİRİNDİ

Dərd satıram, qəm yerinə ay alan,
Məndən başqa qeyrisinə şirindi.
Güc gətirər meydanlarda biləyə,
Görən deyər bu güc ancaq şirindi.

Vətən dərdi, el həsrəti bu qanım,
Sözün varsa işarə et, qoy qanım.
Səngərləri boyadıqca al qanım,
Düşmən bilsin, oyanıbdır şir indi.

Gecə vaxtı buludlarda ay, qara,
Elə bil ki, öz bəxtimsən, ay qara.
Mən möhtacam qarlı qışda ay qara,
Dadmamışam, ya acıdı, şirindi.

Şuşa qala, Laçın qala, sevgilim,
Qoymaram ki, darda qala, sevgilim.
Qalx Murova, tonqal qala, sevgilim.
Qoy desinlər, Odlar qızı Şirindi.

## OY, ANA

Vətən eşqi ürəyimin şamıdır,
İstəyirəm sinəm üstə o yana.
Ağır gündə işıq saça torpağa,
Babalarım məzarlardan oyana.

Dirək vurdun torpağımın səddinə,
Bilinmir ki, arası nə, səddi nə.
Ey yadelli, özün çəkil səddinə,
Arazımdan səksən ağac o yana.

Oğul odur, Fərhad kimi dağ çapan,
Bəhram kimi gur ovlayan, at çapan.
Mənliyin yox, sən oğrusan, ev çapan,
Elə etmə ev sahibi oyana!

Döyüş günü səhvliyim var a, yaman,
Nadanlara inanmışam ay aman.
Pis övladı görüm tutsun a yaman,
Məzarını qorumadım oy, ana.

## AY ATA, ATA

Hanı Koroğlunun Misri qılıncı,
Qıratın belində a yata-yata.
Düşməni görəndə çıxa qınından,
Doğraya başları ay, ata, ata.

Torpağım əllərdə, bax, ara-ara.
Zəngəzur bir ara, Göyçə bir ara.
Bir bədnam qonşum var hər il bir ara,
Özünə pay çıxır, a, yata-yata.

Alaylar qoynunda cərgə düz gərək,
Keçdiyi yollarda dərə, düz gərək,
Düşmən ürəyinə hədəf düz gərək,
Toplar nərə çəkə, ay ata-ata.

Gözüm Qarabağın ayazındadı,
Yağışdan doymayan a, yazındadı.
Dəydi damağıma a yazın dadı,
Gecənin qoynunda ay, yata-yata.

Vətən bölünübdür, amanatdadı,
İgidin gözləri, aman, atdadı.
Canı Allah verdi amanatdadı,
Biz hərbə hazırıq, ay ata, ata.

## ÇALMADI

Ay mənim Təbrizli gülüzlü bacım,
O yaylıq nə yaylıq, o nə çalmadı.
Nəbinin Həcəri, o doğma nənən,
Dağlarda at çapdı, yaylıq çalmadı.

Qaşların kamandır, süzən yaya bax,
Sinəndə cənnətə, isti yaya bax.
Sana tellərini yana, yaya bax,
Məsəldir, gözlünü ilan çalmadı.

Nə deyim Araza, o tay, bu taydı,
Təbriz o taydadı, Bakı bu taydı.
Bu necə yuxuydu, necə butaydı,
Xızır şərbət verdi, bəxtin çalmadı.

Sinəmdə sazımın simi pərdəli,
Havası pərdəli, sözü pərdəli.
Gördüm tül altında səni pərdəli,
Ürək məyus oldu, sazım çalmadı.

Dünyanı yaradıb, qurana qurban,
Surəli, ayəli "Quran"a qurban.
Başında tac bəzə, qur, ana qurban,
Yanaqda xalların çalma, çalmadı.

## GÜLBAHARINDIR

Xəzan payızındır, çovğun qışındır,
Çiçək baharındır, gül baharındır.
Yayda yelpəklənən dağ laləsinin,
Ətirli tacında gül, baharındır.

Mən səni sevəndə birinci dedim,
Xanımlar xanımı, bir inci dedim.
Boynuna qol saldım, bir inci, dedim,
Ürək dilə gəldi, gül, baharındır.
Sağında Bədayə, solunda Arzu,
Nüşabə bir arzu, Afaq bir arzu.
Beş nəvən sağ olsun, daha, nə arzu,
İllərlə sən yaşa, gül, baharındır.

Cənnəti gəl bölək biz iki yerə,
Gah göylərə qalxaq, gah enək yerə.
İsanı sən göndər pərili yerə,
Söyləyim: - Bu fərman, Gülbaharındır.

## A LAYLA

Babamın yox, nənəmindir bayatı,
Anam deyən oxşamadır, a layla.
İgid kimi qılınc çalıb atalar,
Səngərlərdə gülünc olar a, layla.

Türk oğlusan Koroğludur şir zatın,
Niyə dönüb Həmzələrə şir, zatın,
Arayıb tap elimizdən şirzatın,
Qisasçıdan qisas alaq, alayla.

Yad ellərdə söylə işin nədir, nə,
Dilin yoxdur nə danışa, nə dinə.
Qayıtmırsan nə məzhəbə, nə dinə,
Günah olar, öz balana a lay-la.

Nə düşmüsən biyabana, düzdərə,
Vətənində daha çoxdur düz, dərə.
Bir yar seç ki, bənövşəni düz dərə,
Torpağını əkib-biçib, a layla.

## NƏ QOŞMA

Gözəllikdə, cinaslıqda bayatı,
Qoşduran nə, qoşulan nə, nə qoşma.
Sözü sözlə uyuşdurma bayağı,
Ələsgərdən sonra, axı, nə qoşma.

Yazdığında özgəsinin xalı var,
Əlvan-əlvan ipəyi var, xalı var.
Sözümüz çox, yazılmamış, xalı var,
Ulduzlara elçi gedir, nə qoşma?

Xanımların xanımıdır o, Telli,
Qara qaşlı, uzun saçlı, o, telli.
Ağ eyvanlı, ağ otaqlı, otelli.
Yatağında nə nağıl de, nə qoşma.

Sinəmdədir vətən dərdi, el dərdi,
Torpağımın havasını yad dərdi.
Ürəyimdən az da olsa, al dərdi,
Demirəm ki, Koroğludan nə qoşma.

## DADANDI

Bu necə hərracdır, necə bazardır,
Dilbər dodağından dadan dadandı.
Hər öpüş satılır şor qiymətinə,
Ağızlar sulandı, damaq dadandı.

Gecənin qoynunda buludlar qara,
Dumanlı dağlarım batıbdır qara.
Çobanı-çoluğu basıbdır qara,
Sürülü yaylağa qurdlar dadandı.

Darğanın, dəllalın axı, nə dərdi?
Nə əkdi, nə biçdi, nə də ki, dərdi.
Yadlar bənövşəni, nərgizi dərdi,
Oğrunun əlindən bağban, dad andı.

Tələlər quruldu yalana qaldı,
Qalxdıq təpələrə, yala, nə qaldı?
Maral balasıyla yalana qaldı,
Dil dilə toxundu, dada, dad andı.

## AY AZDIR, NAZİR

Şikayət etmirəm, sözdür deyirəm,
Mənim təqaüdüm ay azdır, nazir.
Yazdığım xahişə bir dərkənar at,
Sağına bir sıfır a yazdır, nazir.

Qışda çarıx geydim, bahaydı çəkmə,
Ayağım isindi dedi: - Naz çəkmə.
Haqdan nida gəldi: - əziyyət çəkmə.
İndi gül fəslidir, a yazdır, nazir.

Əlli il işlədim bel bahasına,
Külüng bahasına, bel bahasına,
Əyildi qamətim bil bahasına,
Köynəksiz qalmışam, ayazdır, nazir.

Bu necə məzhəbdir, bu necə dindi.
Alimlər lal oldu, bakkallar dindi.
Çağır o "gədəni" yanına dindi,
Silib idarədən ay azdır, nazir.

## YARANAR

Bağbanımsan yaxşı becər bu bağı,
Şah budaqda seçib saxla yara nar.
Bir əl dəysə, bir iz düşsə o bağa,
Aramızda ixtilaflar yaranar.

Məndən qeyri özgəsinin dərdi nə,
Kim nə əkdi, nə becərdi, dərdi nə.
İcazə ver; şərik olum dərdinə,
Başqaları gəlib sənə yaranar.

Sel çulğanar, sular qalxar daşdanar,
Dəfinəni qaranlıqda daş danar.
Eşq əhlilər dəli kimi daşdanar,
Qorxuram ki, yar başını yara nar.

Qışla yaya bir sədd olar yaz ara,
Bənövşəni payızda yox, yaz ara.
Düşünmə çox, cavab göndər yazara,
Yar qəlbindən keçənləri yar anar.

Yar qoynunda bağça gördüm almalı,
Saf qalıbdır, cüt meyvəsi almalı,
Müştərinəm, budur, denən: - Al malı,
Əgər qalsa düşəcəkdir yara nar.

## DAĞLAR

Ayağın torpaqda, başın buludda,
Sıranı düzübsən o yana, dağlar.
Həmişə cavansan, heç qocalmırsan,
İlqarın gətirib oy, ana dağlar.

Xoş günün, xoş ayın yazla yayladı,
Sinəndə gözəllər yayı yayladı.
Kəklik görmüş, ovçu yayın yayladı,
Ürəyim az qaldı, o, yana, dağlar.

Zirvənə baxıram, köhnə qar tala,
Anası boylanır bala qartala.
Ömür sənin kimi kaş ki, qartala,
Aşıra yüz ili, o yana, dağlar.

Bir dərən pələngin, biri şirindi,
Arada yar bağı, alma şirindi.
Pələng ova çıxıb, yatıb şir indi.
Qorxuram səs salam oyana, dağlar.

Aylı gecələrin gündüz əksinə,
Güney dayanıbdır, qüzey əksinə.
Bir ceyran görmüşəm suda əksinə,
Məndən üz döndərib, o yana, dağlar.

## QARALA

Cavan şair, bu dağları gəz, dolaş,
At belində şer yazıb qarala.
Baban keçən yaylaqlara nəzər sal,
Özü gedib, izi qalıb qarala.

İşin yoxdur, özgə odla, alovla,
Qur tonqalı öz zirvəndə alovla.
Düşmən görsən tez hədəfə al, ovla,
Qoy qızarsın, tala-tala, qar ala.

Araz axar qarşısını gil əyər,
Sel olmasa təpə olar gil, əyər.
Təbriz qızı göz yaşını giləyər,
Qorxuram ki, sahilləri qar ala.

Doğma xalqım kamanladı, neylədi,
Kaman teldə, tel mizrabda neylədi.
Ərəb gəldi, monqol gəldi neylədi,
Torpaq yandı, daşlar qaldı qarala.

## AD ARA

At igidin yaraşığı, dostudur,
Sığal verib, tumar çəkib, a dara.
Bir meydana hər ikiniz girəndə,
Həm özünə, həm də ona ad ara.

Nəzər yetir kök üstündə nəsilə,
Sel də qalxsa nə tərpədə, nə silə.
Əgər düşsən çətin ilə, nəhs ilə,
Qoy yaraşsın ad qeyrətə, ad ara.

Gəl aldanma nə şöhrətə, nə şana,
Başı yolux keçəl qıza nə şana?
Ad çıxart ki, səndən qalsın nişana,
Köməyinəm, əgər düşsən a dara.

Vətəndaşsan nə düşübsən yad elə,
Yad şəhərə, yad ölkəyə, yad elə.
Ayda, ildə gəl ananı yad elə,
Hərbə hazır özün üçün at ara.

Sənin xalqın kamanladı, neylədi,
Mizrab dəydi, tel mizrabla neylədi.
Qorxaq oğul, vətən sənə neylədi,
Boğazlayıb, çəkdirmədi a, dara.

## A YALAN

Mən Yusifəm, sən Züleyxa şər demə,
Sözün gəlib bir gün çıxar a yalan
Ağlamaqdan iki gözün kor olar,
Asta sürün ayağıma, a, yalan.

Nə durmusan ürəyimin qəsdinə,
Söylə görüm, baxışın nə, qəsdi nə?
Nahaq qanlar tökmə sevgi qəsdinə,
Mən Məcnunam, eşq satıram ay alan.

Zəriflikdə, gözəllikdə güldü, gül,
Əlim dəydi, sərxoşlandı, güldü gül.
Qaranlıqda ürəyimi güldür, gül,
Gecələrim buludluqdur, ay, yalan.

Eşq dərdimin dərmanıdır həmdərdin,
Qızılgülü həm iylədin, həm dərdin.
Səhraları nə dolanır həmdərdin,
Kölgələrdə Günəş yalan, Ay yalan.

## GÜL İNCİSİNƏ

Şair, asta yeri Qarabağda sən,
Ayağın dəyməsin gül, incisinə.
Orda Nigar yatıb, Həcər yatıbdır.
Torpaq da söykənib, gül incisinə.

Qartal zirvələrə yanaşır keçir,
Gədikdən karvanlar yan aşır, keçir.
Sən də köhlənini yan, aşır keçir.
Amandır, toxunma, gül, incisinə.

Aranın yağışı, dağın dolusu,
Dərələr sellənir içi dolu su.
Söz qoşaq, saz çalaq ürək dolusu,
Lalə yanağına, gülincisinə.

Aşıqlar bu yerdə «Kərəmi» dedi,
Ağanı çağırıb, Kərəmi dedi.
Əsli Vandan gəldi, Kərəmi dedi,
Baxıb yad qızına, gül, inci, sinə.

## BİR AĞA

Eşq paylasam Məcnunlara verməram,
Özüm ollam səhralara bir ağa.
Ətək tutub, əl açaram göylərə,
Yol göstərər onda mənə bir ağa.

Göz yaşıdı məhəbbətin təkanı,
Aşıq sevər səhralarda tək anı.
Mənim kimi boynu bükük tək hanı?
Al canımı, təkcə bükdür bir ağa.

Al geyibsən, yaxasında nə zərdir,
Bilinmir ki, nə gümüşdür, nə zərdir,
Əgər bilsəm gözlərində nəzərdir,
Mən baxaram bir qaraya, bir ağa.

## YARALAR

Ağlar görsəm bir körpəni beşikdə,
Qönçə dodaq ürəyimi yaralar.
Anaların kirpiyində yaş olsa,
Ağrı verər sinəm üstə yaralar.

Vulkan vursa, dağ dəlinər, daşdanar,
Başı alov, ətəkləri daşdanar.
Qozbelləri məzarlarda daş danar,
Zalimlərin kürəyindən yaralar.

Qarışqa tək göz tikibsən bir dənə,
Əgər yesən, dağ aşırar bir dənə.
Saray qurdun, hovuz saldın, bir də nə?
Yetim ahı zər divarı yaralar.

Dumanlardan göy buludlu, göy ləkə,
Al günəşdən götürərmi göy ləkə.
Qaynar suyu gəl çiləmə göy ləkə,
Gül qaralar, qaysaq verər, yar alar.

## SALDI, SAL

İcazə ver, qoy bir baxım sinənə,
Anam deyir: - Gümüşdəndir, saldı, sal.
Mən bu taydan, sən o taydan baxırsan,
Aramızdan bir körpünü saldı, sal.

Ürəyimi yandırırsan a, zalım,
Qorxuram ki, çəkim itə, azalım.
Bir öpüş ver, yanağından az alım,
Ondan sonra nəzərindən saldı, sal.

Dərman üçün boyun əymək yaraşmaz,
Bir him, cimsiz yar bağından yar açmaz.
Qeyrisinə qapısını yar açmaz,
Yaxan üstə sədəf düymə saldı, sal.

Gül kolundan çəpər çəkidin ara sən,
Qıfıl vurdun hər keçidə ara, sən.
Ay insafsız, hərdən məni ara sən,
Bir yolunu bizə tərəf saldı, sal.

Gözlərimdə yaranıbdır sel-sular,
Bir ah çəksəm bulanacaq sel, sular.
Yaz gələndə bağçamızı sel sular,
Üzmək üçün bu qollarım saldı, sal.

## AY ARA, ARA

*(Dodaqdəyməz təcnis)*

Arandan yaylağa, yaylaqdan dağa,
Dər təzə çiçəyi ay ara, ara.
Yayın istisidir, saralacaqdır,
Saxla sərinlikdə, a yara, yara.

Yığanda elə yığ gəlsin dəst ələ,
Nərgizdən, nanədən dəstə dəstələ.
Sarını ətəklə, alı dəstələ,
Laləni ayrıca ay ara, ara.

Əsər xəzan yeli dağ qarasına,
Yaylaq qarasına, dağ qarasına.
Qartal qanad çalar dağ qarasına,
Sisli gədikləri a, yara-yara.

Ay aya cərgədir, il ilə sıra,
Hər yaşı aylardan al ilə sıra.
Yazda yağış seli, qışda sırsıra,
Yayda aç sinəni, ay ara, ara.

Ay keçir, il keçir əsr dəyişir,
Yel yelin ardınca əsir dəyişir.
Dağlar da çiçəyi əsir dəyişir,
Şahidlik eyləyir ay, ara-ara.

## GÜL DƏRDİM

Bağa girdim, yarı gördüm yaxından
Bilmədim ki, çiçək dərdim, gül dərdim.
Yar gedəndə yuxudaydım, ayıldım,
Baxıb gördüm çiçək deyil, gül dərdim.

Gözəl gördüm, kiprikləri oxatan,
Ürəyimi yaraladı ox, atan.
Saldı məni yataqlara o xatan,
Nahaq yerə buxağından gül dərdim.

Al boyalar yanaqdadır, dodaqda,
Öpüş yeri qalmayıbdır dodaqda.
Küsüb məndən ağ buxaq da, dodaq da,
Günahkarsan, mən neyləyim, gül, dərdim.

Dumanlardan göy buludlu, göy ləkə,
Dərələrdən sislər qalxar göy, ləkə.
Heç sevərmi çəmənlikdə göy, ləkə,
Bunu gördüm, qönçə qaldı, gül dərdim.

## NƏDİ, NƏ

Söz qoymadın ələsgərdə, Vaqifdə,
Çırpışdırdın bilmədin ki, nədi, nə?
Oğurladın Müşkünazın xalını,
Ölü soyan, bu vicdanın nədi, nə?

Qoşma yazan indi çatıb min-minə,
Qorxuram ki, milyonları min minə.
"Bənövşə"ni gəl hesabla min-minə
Mal yiyəsi Qurbanilər nə dinə.

Ələsgərin hər qoşması incidi,
Tellisidir, Güllüsüdü, İncidi.
Dəyişdirdin nadanlara, incidi
Sığışmadın nə məzhəbə, nə dinə.

## DÜZ, ƏYRİ

Silahımı dur hazırla, sevgilim,
Bu dağlara qalxacağam düz, əyri,
Laçınımın yollarına bələdəm,
Dərəlidir, təpəlidir, düz, əyri,

Ağı demə, bayatı de yaraşdır,
Dağ başında məzarımı yar, aşdır.
Baş daşımda qılınc qalxan yaraşdır,
Ay, ulduzdan halə düzdür, düz, əyri.

Yağışlıdır buludlarda ay, ara,
Geciksəm gəl səngərləri ay ara.
Əgər alsam ürəyimdən a yara,
Saçlarını sinəm üstə düz əyri.

Taleyimə nə yazılıb o, odu,
Göz yaşınla gəl keçirmə, o odu.
Görən desin göy götürməz o odu.
Əvvəl, axır kəsəcəkdir, düz, əyri.

## YARANDI, BULAQ

Yazın yağışından, qışın qarından,
Dağlara bir dilbər yarandı bulaq.
Hicranın əlindən axdı göz yaşı,
Ceyranlı çöllərdə yarandı bulaq.

Alt yanın dərədir, üst yanın düzdü,
Yatağın göy çəmən, axarın düzdü.
Gözəllər başında süfrələr düzdü,
Hərə öz tayını yar, andı, bulaq.

Sağında, solunda al-əlvan güldü,
Bənövşə bir güldü, nərgiz bir güldü.
Əyildim içməyə üzümə güldü,
Qəlbimi könlünə yar andı bulaq.

Payızda şaxtaya, ayaza qaldı,
Qışda buz bağlayıb, ay, aza qaldı.
Yatıb yorğun-yorğun a yaza qaldı,
Torpağın bağrını yarandı bulaq.

Bilinmir tarixin, bilinmir yaşın,
Qaynayıb qalxanda, axdı göz yaşın.
Zəlzələdən çəkin, vulkandan yaşın
Yeraltı təkanlar yarandı, bulaq.

## NƏDİ, NƏ

Bir dünyadır qoca, sənin tamahın,
Sandığında qızıl, gümüş nədi, nə?
Başındakı əski papaq çalmadı,
Sığışmırsan nə məzhəbə, nə dinə.

Dünya sudur, dörddən biri adadı,
Əkib-biçdik, yeyib-içdik, a, dadı.
Səxavətdə üstələyər ad, adı,
Xəsislikdə nə bir dillən, nə din, ə.

Süleymanlar yola salan sarılar,
İlan kimi boyunlara sarılar.
Baş kəsəndir, baş yeyəndir sarılar,
Dili yoxdur, nə danışa, nə dinə.

Bir əl vardır görünməz bir əl idi,
Urzu verən yaradanın əlidi.
Xilaskarım Məhəmməddir, Əlidi,
Hər ikisiz məzhəb nədir, nə din ə.

## BİR KƏSƏ

Çərxi-fələk, dərdim çoxdur neyləyim,
Sən veribsən bildirmirəm bir kəsə.
Təbib gəlsə qoymaram ki, əl vursun,
Qorxuram ki, bir doğraya, bir kəsə.

Dağ başında qala saldım bir tirə,
Bənd elədim bir dirəyə, bir tirə.
Daşın yondum, naxış saldım bir tirə,
Dolayıdır, yolu yoxdur bir kəsə.

Qapım açıq, yoldan keçən kimsənə,
Söylə görüm, süfrə açmaz kim, sənə?
Uzaq olsun, yaxın olsun kimsə, nə,
İstəyirəm çörəyimi bir kəsə.

Bu dünyanın əyrisi var, düzü var,
Enişi var, yoxuşu var, düzü var,
Qoynu dolu, nə istəsən düzü var,
Möhtac deyil, bir kimsəyə, bir kəsə.

Səhər parlaq, axşamlarım ay ala,
Buludlardan süzüb keçir ay, ala.
Bir yar sevdim, ürəyimi, ay, ala,
Söz deyəndə cavab verə bir kəsə.

## ALA SƏN

Bir canansan tayın yoxdur, qəşəng qız,
Ürəyimi istəyirsən, ala, sən.
Yerişində, duruşunda yox nöqsan,
Gözlərinə çox çəkibsən ala, sən.

Yanaqların qıpqırmızı nar üzdü,
Elə bil ki, bölünübdür nar, üzdü.
İncimə̇zsən sənə deyim narüzdü,
Gəlin kimi bürünübsən ala sən.

Saçın qara, qaşın qara gecə tək,
Sən evində, mən evimdə gecə, tək.
İnsafdırmı durum, gəlim gecə tək,
Bənzədəsən qaraltımı ala, sən.

## DÜZ DƏRƏ

İlahidən nida gəldi «ol» sözü,
Bizi aldı öz qoynuna düz, dərə.
Bir anadan, bir atadan doğulduq,
Toxum kimi səpələndik düzdərə.

Bəşər səndə nə oxşardır qan Qana,
Harda olsa meyl eyləyər qan, Qana.
İki damcı qarışanda qan Qana,
Kəbin olsa, zaval yoxdur düzdərə.

Təbiətin gözəlliyi bir də yaz,
Qələm götür dünyamızdan bir də yaz.
Dəniz dərin, çaylar qolu bir dayaz
Dağlar uca, ara-ara düz dərə.

Əhsən sənə dünyamızı bir quran,
Pilə-pillə bir yaradan, bir quran.
Dörd kitabın qardaşıdır bir «Quran»,
Hər sözünü dilim gərək düz dərə.

Günəş göyün, ulduz göyün, Ay yerin,
Gecəsinin fanarıdır ay, yerin.
Dağ mənimdir, aran sənin, ay yerin,
Aramızdan gəlib keçir düz, dərə.

## O DİLƏ

Ana dilim şəkərin var, qəndin var,
İcazə ver dilim dəysin o dilə.
Söhbət açım Füzulidən, Vaqifdən,
Qurban olum şirin-şirin o, dilə.

Sinəm üstü həm bayatı, həm layla,
Bircə-bircə gah hecala, gah layla.
Yadımdadır, anam deyən a, layla,
Ara-ara hərdən gəlir o dilə.

Bu Vətənim, bu torpağım, yar diyar,
Səni sevən, əzizləyən yardı, yar.
Ürəyimi parçalama, yardı, yar,
Yad ağızda gəl oynama od ilə.

Bədənimin bir üzvüdür bax dilim,
Dünya gəzir, dostluq edir bu dilim.
Anam verib öz mülkündən bir dilim
Nə istəsən ürəyimdən o, dilə.

## ALDI, AL

Yar bağından əsirgəmə cüt narı,
Yetişibdir, şirinləşib aldı, al.
Vaxtı keçər, külək dəyib qəhr elər,
Bağban çağır, öz əlinlə aldı, al.

Təzə saxla, eyni olsun cüt dənə,
Çiçəkaltı düymə kimi cütdənə.
Tək olmasa göz dikilər cüt dənə,
Qasid göndər, buyur denən: - Aldı, al.

Dilim dəydi bir tayına bal daddı,
Bilinmədi nə şəkərdi, nə daddı.
Yanaqların buxağından çox daddı,
Tək-tək verib dodağımdan aldı, al.

Nə əkirsən dürüst öyrən, bir bil, ək,
Bilməsən də xəbər göndər biz Bilək.
Sağ biləkdən gücsüz olar sol Bilək,
Sağ əlinlə bu canımı aldı, al.

## A DİLƏ

Söz meydanı gen olanda bir ürək,
Nələr seçir, nələr verir a dilə.
Nə görürsən dünyamızda gözünlə,
Onu dindir ləqəbiylə, ad ilə.

Qələm zoru, kağız gücü heç nə, nə…
Pıçıldama dodağında bir nə, nə…
Söy öyrət ki, cıtrdanına ay nənə,
Fikrini qoy gətirsin a, dilə.

Əliş dedi, İbiş dedi kəsmədi,
Bilimədi şikəstdədi, kəsmədi.
Tükəzbanlar əriştəsin kəsmədi,
Corab kimi yamaq vurdu a dilə.

Damcı-damcı saysan gəlməz su saya,
Ətrafına salmaz heç vaxt su saya.
Bulaq görsə ürək kaş ki, susaya,
Sərinliyi ləzzət verə a dilə.

Gözəl dilim, şəkərlisən şirinsən,
Leyli desəm Məcnunlara şirinsən.
Tacidarı, dağçapana şirinsən,
Şükür olsun yaradana, Adilə.

## ƏKSİLƏ

Bir gözəlin yanağında cüt xalı,
Göz önündə dayanıbdır əks ilə.
İstəyirəm birin dərəm götürəm,
Qorxuram ki, nişan günü əksilə.

Yar buxağın qızılgülün üzüdür
Dodaqların bal, qaymağın üzüdür.
Hər sinəndə bir almanın üzüdür,
Yaxşı saxla, toy vaxtına əks ilə.

Kaman meyli nə bəmədi, nə zilə,
Barmaq gərək sim üstündə nazilə.
Ay nazənim, buyur bizə naz ilə,
Bir güzgüdə görüm səni əks ilə.

Şəkər dedim, dilim batdı bir bala,
Maral gördüm yanında da bir bala.
Səni sevdim, başım çəkdi bir bəla,
Ağlım getdi, huş qorxdum ki, əksilə.

## ÇALDI, ÇAL

Yaş ötəndə qara tellər ağarar,
Saç dinləşər görən deyər: - Çaldı, çal
Cavanlıqdan səndə qalmaz bir əsər,
Bayatı de, «Kərəmi»ni çaldı, çal.

Görən deyər, saçlarına yax xına,
Nə mənası ya sürmə çək, ya xına.
Gənclik ötüb, birdə gəlməz yaxına,
Dəllək çağır çal saqqalı çaldı, çal.

Başım üstdən bulud keçir ağ-qara,
Ömrümüzün ziynətidir ağ, qara.
Boyaların boyasıdır ağ-qara,
Nə etmək ki, qarışanda çaldı, çal.

Kabab odur bir qızara, bir yana,
Dişin yoxdur, göz tikmə gəl bir yana.
Nə yemişik, nə içmişik bir yana
Üzdə südü, turş qatığı çaldı, çal.

## ÜZDƏ, ÜZ

Həm köhnədi, həm yenidi, sözdü-söz,
Hər dodaqdan bir gül kimi üzdə, üz.
Gəlin kimi qoyma qala pərdədə,
Al yanaqda qoy parlasın üzdə, üz.

Söz əhlilər Füzulini həm Qana,
Həm öyrənə, həm öyrədə, həm Qana.
Qulluq edə bir dammara, bir Qana
Oxşar ola Ələsgərə üzdə üz.

İstəyirəm qələm verəm yazara,
Ona deyəm: - Vətənimdən yaz ara.
Qışı qarla, yayı isti, ya, ara
Bahar fəsli gül-çiçəkdən üzdə, üz.

Alim gördüm villalarda diz çökən,
Suyu üzdə, qazanlarda şor çökən,
Vətən satın nazirlərdən söz çəkən.

Şair gördüm hər nəfəsi dondu, don,
Dodağına şaxta vurdu, dondu don.
Geyindiyi, geydirdiyi dondu, don,
At dənizə, söylə ona: - Üzdə üz.

## AY SƏNƏM

Xanımların xanımısan nə deyim,
Dil, damağın şəkər dadır, ay Sənəm.
İnsaf elə bircə gündə bizə gəl,
Dodağımdan azacıqda ay, sən əm.

Ayrı düşdün gözlərimdən bir ara,
Dağlar kəsdi yolumuzu bir ara.
Heç demədin onda məni gəl ara,
Gecələri xəlvət edib, aysan, əm.

Dalğalardan boylanma gəl, dur yeri,
Bağçamızda məskən eylə bir yeri.
Heç kəs yoxdur, taxt üstündə sal yeri
Göy buludlu, duman buxar, aysa nəm.

Sözüm çoxdur, dəftərimdə yer azdı,
Çox danışdım, kəlmələrim yer azdı.
Gəl danışma ya yerlidi, yerazdı,
Bir Vətənin övladıyıq, ay Sənəm.

## *CIĞALI TƏCNİS*

### ÜZ-ÜZƏ

*(Cığalı təcnis)*

Gözüm gördü, könlüm sevdi, qızılgül,
Bağçamızda gəl əyləşək üz-üzə.
Mən aşiqəm, üz-üzə.
Leyli Məcnun üz-üzə.
Dodaqların incədi,
Qorxuram ki, üz üzə.
Vurğunu olduğum ay vətən gülü,
Bakıda, Qazaxda duraq üz üzə.

Tac başında ləçəklərin az ala,
Zər qədrini zərgər bilə, zər ala.
Mən aşiqəm, zər ala,
Sərraf gələ, zər ala.
Sevdiyimsən, qızılgül,
Mən də taxım, zər ala.
Əyninə geymisən tamam zər ala,
Astarı tərsinə, özü üz-üzə.

Qaşlarında ya sürmədi, ya xına,
Tut əlimdən bir az gəlim yaxına.
Əzizinəm, yaxına,
Burax gəlsin yaxına.
Gəlin köçür gərdəyə,
Dırnağına yax xına.
Öz əlinlə saçlarına yax xına,
Çox surtmə ki, dodaq üzə, üz üzə.

## AY ANA, ANA!

*- A-*

Arabir ağlaram ayrılığından,
Açıqda, aşkarda, ay ana, ana!
Ancaq axirətin ağuşundasan,
Aramız aralı, ay ana, ana!

Axşamdan axşama ay ara-ara,
Axır asimanda ay, ara-ara.
Allahın altında ay ara-ara,
Adımı anaydın, ay, ana-ana!

Altunsuz apardın altı arşın ağ,
Arası, astarı, arğacları ağ.
Alnında amalın, aqibətin ağ.
Axsın ağuşuna ay, ana-ana!

Axardan axara ağzı arxadı,
Arazdan ayrılan aldı arx adı.
Adəm atamızdır, Allah arxadı,
Aydınlıq altında, ay ana, ana!

Aləmdən-aləmə altı aradı,
Arxası anılmaz, altı, aradı.
Ağıl ancaq-ancaq altı aradı,
Aylardan aylara, ay ana, ana!

## BİR BELƏ

*-B-*

Bağban bağ becərər, budaq bəsləyər,
Bizim Bakımızda baxsan, bir belə.
Baqqal bazarlarda boynunu bükər,
Bəhməzə bulaşmış balı, bir belə.

Bağlara baxıram bərəli barı,
Budaqdan boylanır bəhəri, barı.
Belə bir bolluqda bənövşə barı,
Boylanıb baxaydı bizə bir belə.

Bostan becərilər bel bahasına,
Balta bahasına, bel bahasına.
Boranı, badımcan bil bahasına,
Biri bir batmandır, biri bir belə.

Buğdalar bozarıb, başaq baş-başa,
Bafanı bəndəmlə, bağla baş başa.
Bala bildirçinlər baxır başbaşa,
Biri balacadır, biri bir belə.

Bilənlər bilirlər, bunu birbəbir,
Bərələr bəyidir bircə bir bəbir.
Bizonlar boynunu bükər birbəbir,
Bədəni bir belə, başı bir belə.

## QARQARA QALDI

*-Q-*

*(hərfi qalın təcnis)*

Qışın qasırğası qalxdı qınından,
Qar qara qarışdı, qar qara qaldı.
Qışlaq qalaqlandı qar qalağına,
Quşqonmaz qayada qar, qara qaldı.

Qulunlar qırmızı, qatırlar qara,
Qurdlar qarşısında quylandı qara.
Qaçağın, quldurun qanları qara,
Qılınclar qınında, qarqara qaldı.

Qırıldı qartalın qalxan qanadı,
Qayadan-qayaya qalxan qanadı.
Qaldıran qanadı, qalxan qanadı,
Qan qara qarışdı, qar qara qaldı.

Qarğa qırıldadı, qarğa qarıdı,
Qışı qarğışladı, qarı qarıdı.
Qobudan qobuya qarı qarıdı,
Quzğun qoltuğunda "qarr-qarr"a qaldı.

Qamışdan, qarğıdan qor qala, qala,
Qarılar qızışsın qor qala-qala.
Qoşqarın qoynunda qar qala, qala,
Qıylı-qıjıltılı Qarqara qaldı.

## YAYDI, YAY
*-Y-*

Yaz yağışı yarmalanıb yağanda,
Yurdumuza yaxınlaşan yaydı, yay.
Yaqutlaşdı yamacların yaxası,
Yaylığını yaylaqlara yaydı yay.

Yamaclara yarğanlardır yaralar,
Yağan yağış yılğımlayıb, yaralar.
Yaz yetirib, yay yaramı yaralar,
Yaramdakı yayucudur, yaydı, yay.

Yaşıllıqlar yaraşıqlı yayladı,
Yar yeridi, yurd yerində yayladı.
Yayçı yayla yağıları yayladı,
Yalquzağı ,yerə yıxan yaydı yay.

Yar yetişə yetginliyin yaşına,
Yaylıqlana, yaşmaqlana yaşına.
Yel yalana, yanağında yaşına,
Yaxasında yasəmənli yaydı, yay.

# *HƏRFİ CIĞALI TƏCNİSLƏR*

## DÜZ DENƏN
*-D-*

Diyarlar dolaşan divanə dərviş,
Dərəyə dərə de, düzə düz denən.
Dədə dərviş, düz denən,
Dərə denən, düz denən.
Dağlansan da dilindən,
Dodağından düz denən.
Dəmir dabanların daşlara dəysə,
Dırnağa döz denən, dizə düz denən.

Dişlərimə daş dəydi,
Dilim dəfinə dərdi.
Dəmir daşı deşdi, dəfinə dərdi,
Dürrünü düymələt, döşə düz denən.

Düşünsən dərindir dünyanın dərdi,
Divanəlik dərdi, dahilik dərdi.
Dədə dərviş, de dərdi,
Düşün dərdi, de dərdi.

Dağlar dəmirdəndir, dağlar daşdandı,
Dərya dərinləşdi, dərya daşdandı.
Dədə dərviş, daşdandı,
Duz duzdaqda daşdandı.
Dama dirək dikəldi,
Dəmirdəndi, dasdandı.
Divanə döyüldü, dəli daşdandı,
Dərdə-düçarlılar, dərdə döz denən.

## GÜLDÜ GÜL
*-G-*

Gözəllikdə gözəllərin gözəli,
Göyərçin göz, gümüş gərdən güldü, gül.
Gülüstanda güldü gül,
Göyərdikcə güldü gül.

Gəl görüşək, gözəlim,
Gözlərimi güldü, gül.
Gədiklərdə gövdələndi, gərildi,
Güneylərdə günəşləndi, güldü, gül.

Gəncliyimin güzgüsüdür göy gilə,
Gilas gilə, göycə gilə, göy gilə,
Gördüyümdü göy gilə,
Gümüş gilə, göy gilə.
Gərəyimsən gecikmə,
Girdələnən, göy gilə.
Girdə-girdə gülablanan göy gilə,
Gövhərimsən gizli-gizli güldü, gül.

Göyçək gəlin, gərdəyində gül, görüm,
Gecə-gündüz güldanında gül görüm.
Gəncliyində gül görüm,
Günəş görüm, gül görüm.
Gündüzləri gülmürsən,
Gecələri gül, görüm.
Gələn-gedən gül gətirsin, gül görüm,
Gül geyimli gərdənindir, güldü, gül.

## SARI, SAPSARI
*-S-*

Susuzluqdan səhra sənin sinəndə,
Sərvlərin saralıb, sarı, sapsarı.
Sonam, sarı, sapsarı,
Saçın sarı, sapsarı.
Sinəndəki silsilə,
Seyrəlibdir, sap sarı.
Salxımlı söyüdlər sayəsizləşib,
Sarılıq sarıbdır sarı, sapsarı.

Sarıyıb saçını sünbül süsənə,
Sənəmlər sənəklə səpsin su sənə.
Sonam, söylə süsənə:
- Sirri saxla, suss sənə,
Sərin saxsı sərnicdə,
Saxlamışam su sənə.
Səmumlar səslənir səssiz, sussənə,
Sovurar sahilə carı, sapsarı.

Sağında, solunda sel silə-silə,
Sütunlu sədləri sanma sel silə.
Sonam, sakit, sel silə,
Sarınıbdır sel-selə.
Sərhədləri sədləri,
Sanmaginən, sel silə.
Sarmaşıq saralıb seçmə silsilə,
Sapını saplağa sarı, sap sarı..

## *BAYATILAR*

Mən aşiq, yandı ürək,
Su deyib, yandı ürək.
Sinəmə nəzər yetir,
Çırpınır yandı ürək.

Mən aşiq, amanatda,
Malım var amanatda.
Məzara qoysan məni,
Ağa tut, amanatda.

Mən aşiq, qönçə güləm,
Açmamış qönçə güləm;
Qoy bülbül gəlsin bağa,
Üzünə qönçə güləm.

Əzizim, saldı, saldı,
Yastıdı, saldı, saldı,
Məzarımın üstündə
Məqbərə saldı, saldı.

Əzizinəm, kimsənə,
Tanımıram kimsənə;
Aç qəlbini de, danış,
Toxunubdur kim sənə.

Əzizinəm, dağdı, dağ,
Zirvəlidi, dağdı, dağ.
Heç yadımdan çıxmayır
Sinəmə çəkdiyin dağ.

Əzizinəm, yad dərə,
Bənövşəli, yad dərə.
Güllər qoşalaşıbdır,
Qorxuram ki, yad dərə.

Aşıq, qar, tala qaldı,
Yazda qar tala qaldı.
El yığılıb köçəndə,
Dağlar qartala qaldı.

Əzizim, yazdı, yazdı,
Havalı yazdı, yazdı.
Dərdimi bir mirzəyə,
Ətraflı yazdı, yazdı.

Əziziyəm, bir aya,
Günlər dönər bir aya.
Gecə yolum qaranlıq,
Ümidim var bir aya.

Aşıq, bura Muğandı,
Həm dağdı, həm arandı.
Vətənimi soruşsan,
Böyük Azərbaycandı.

Mən aşiq, ulduzu say,
Çörəyi say, duzu say.
Gedirəm tez gələcəm,
Bir ayı, otuzu say.

Aşiqəm, haray sallam,
Qıy vurub, haray sallam,
Vətənin qucağında,
Gündə bir saray sallam.

Mən aşiq, ildən-ilə,
Yaş keçər ildən-ilə.
Ev tikib, saray qurdum,
Düşübdür dildən-dilə.

Əzizinəm bağda nar,
Bağda alma, bağda nar.
Xəzan vurar, gül solar,
Meyvəsini bağ danar.

Bu dərə, şehli dərə,
Gecəsi şehli dərə.
Bənövşəni sevgilim.
İstərəm şehli dərə.

Yanağında xal qara,
Girdə düşüb, xal qara.
Bir dostu seçmək üçün
Gəzib-dolaş, xalq ara.

Baxışların aydı, ay,
Sinən parlaq aydı, ay.
Söylədin tez gələcəm,
Sən getdiyin aydı, ay.

Yaşıllıqdır, çəməndir,
Çiçəklikdir, çəməndir.
Gecələrin qoynunda
Ay buludda çiməndir.

Mən aşiqəm, kənd, şəhər,
Hara baxdım kənd, səhər.
Bakıya nəzər yetir
Dörd tərəfi bənd, şəhər.

## *GƏRAYLI BAYATILAR*

Odlar yurdu daşdı qala,
Sərhəddində daşdı, qala.
Babam tikdi kərpicinən,
Atam qurdu daşdı, qala.

Bizim dağlar sinə-sinə,
Kəklik səkər sinə, sinə.
Qurban olum o yara mən,
Gümüş taxıb sinəsinə.

Yağış yağdı, inci: - dedim,
Gül göyərtdim, inci: - dedim.
Vətəninə kor baxana,
Çıx yurdumdan, inci: - dedim.

Aran yazın, dağ yayındı,
Kəmənd atın, ox yayındı.
Tətik çəkdim, əlim əsdi,
Gözlərimdən ov yayındı.

Ay qız, telin sarı-sarı,
Açıq qoyma, sarı, sarı.
Neyləyirsən qırmızını,
Yaraşmağa sarı, sarı.

Yaylaqların qarı gözəl,
Obasında qarı gözəl.
Çadır quraq, məskən salaq,
Gəl mənimlə qarı, gözəl.

Gözlərinin ağı qara,
Çox oxşayır, ağı qara
Boyaları qarışdırma,
Basacaqdır ağı qara.

Dil şəkərdi, dodaq daddı,
Yanağından dodaq daddı.
Şirinlikdən bilmədim ki,
Damaq daddı, dodaq daddı.

Ürəyimdə yaram yandı,
Dərmanı yox, yaram yandı.
Yarı mənə tez yetirin,
Özü desin, yaram, yandı.

Bənövşələr dərənindi,
Şeh üstündə, dərənindi.
Al səhərin sinəsində
Yanılarmı, dərən indi.

## QOŞA YARPAQ TƏCNİSLƏR

Gözəl güləm,
İnci mənəm.
Bir əl dəysə,
İncimənəm.

Bənövşəyəm,
Yerim dərə.
Qızlar gəlib,
Məni dərə.

Adım nərgiz,
Rəngim Sarı;
Dəstə tutub,
Məni sarı.

İsti vurub,
Yanır içim.
Öz əlinlə
Su ver içim.

Nə deyirsən
Sözün düzdür.
Bir cümləyə
Onu düzdür.

Sözüm çoxdur,
Danış dilim.
Anam verib,
Bircə dilim.

Müsəlmanam,
Dinim dindir.
Yaxşılığa
Məni dindir.

Yaxşını gey,
Ağa dəymə.
Ürəyimə,
Ağa, dəymə.

Külək qalxar,
Əsər dedim.
Qalmaz güldən,
Əsər dedim.

Hər nə dedim,
Tərsinədi.
Bilmədim ki,
Tər sinədi.

Bülbül uçdu,
Gülə baxdım.
Bir demədim,
Gülə baxtım.

Yağış yağar
Sakit, narın.
Dənə tutar,
İçi narın.

Ay qız, dedim:
Al, almadı.
Əlin çəkdi,
O almadı.

Sellər gəldi,
Yolun azdı.
Çaya baxdım,
Suyu azdı.

Ömür keçdi,
Yarı, dedim.
Gəl mənimlə,
Yarı, dedim.

Qar əridi,
A, yaz gəldi.
Sərinləndim,
Ayaz gəldi.

Daş, qayadı,
Bu dağ saldı.

Quşlar uçdu,
Qanad saldı.

Mənzil uzaq,
Yol yarıdı.
Sevən ürək
Öz yarıdı.
Dağlar uca,
Təpə alçaq.
Satqın olar,
Hər vaxt alçaq.

Çiçək açar
Yaşıl, sarı,
Gəl yaramı
Bağla, sarı.

Oddan nərə,
Çəkər kürə.
Kül qalansa
Onu kürə.

Nə gözəldir,
Dilin şirin.
Qol pələngin,
Pəncə şirin.

Aşiq nədi,
Dərdi nədi.
Özgə gülü,
Dərdi nədi.
Girdə xalın,
Yanaqdadı.
Şirin olar
Yanaq dadı.

Uca dağlar
Qara qaldı.
Xəzan vurdu
Qara qaldı.

## *KLASSİKLƏRİN DİLİ İLƏ*

*Aşıq Qurbani*

### PƏRİNİN

Yerli yerindədir boyu, buxunu,
Azacıq nazikdir beli Pərinin.
Onu gözaltı et qızlar içində,
Qoy çatsın əlinə əli Pərinin.

Kaman qaşları var, ala gözlüdür,
O, xoş camallıdır, o, xoş üzlüdür.
Şəkər dodaqlıdır, şirin sözlüdür,
Nə desən can deyir, dili Pərinin.

İstər ölkələr gəz, istər dünyanı,
Dəmir çarıx geyib, dolan hər yanı.
Belə günəşüzlü gözəl, de, hanı,
Canan yetişdirib, eli Pərinin.

Öyrənib ustaddan oxuyub, yazmaq,
Hər sözü tərsinə, dolayı yazmaq.
Məhəbbət yolunda olarmı azmaq,
Qabağı kəsməsə seli Pərinin.

Qurbani der:- Yardan şikayət etmə,
Sevgi məhəbbətin əksinə getmə.
Vətən qızlarının gözündən itmə,
Dolansın boynuna, teli Pərinin.

*Aşıq Abbas*
## GÜLGƏZİNDİ

Ürəyimdə sirr-sözüm var,
Gülgəzindi, Gülgəzindi.
Onu yaxşı başa düşür,
Gülgəz indi, Gülgəz indi.

Yar qaşların qara qalar,
Sürmə çəksən, qara qalar.
Solar çəmən, qara qalar,
Gül gəz indi, gül gəz indi.

Zaman keçər nəhs il, nəhs il,
İnsan köçər nəsil-nəsil.
Yazılanı nə poz, nə sil,
Gül, gəz indi, gül, gəz indi.

Ay qız, xalın ağ üzdəydi,
Yetkinləşdi, ağ üz dəydi.
Dodaq açdım, ağ üz dəydi,
Gül gəzindi, gül gəzindi.

*Xəstə Qasım*
## DƏYMƏ

Qolların qurusun, ay kamil ovçu,
Nişana gəl qoyub, qanana dəymə.
Aylarla dərdindən xəstə düşmüşəm,
O, yorğun marala, canana dəymə.

Məsəldir, deyərlər: - «Yarı yar istər»,
Almanı iki böl yarı, yar istər.
Dağıstanda axtar yarı, yar istər,
Dərdinə, oduna yanana dəymə.

Namərdə mərd deyib, adını anma,
Zatını, kökünü yaxşıya sanma.
Söyüddən göz olmaz, gəl bunu danma,
Armud bizimkidir, banana dəymə.

Bazara girəndə yaxşı mal axtar,
Bəzzaddan gözləmə namus, qeyrət, ar.
Qızılgül olarmı, gəlməsə bahar,
Qönçəsi açmamış, koluna dəymə.

Xəstə Qasım, qocalırsan, ilə bax,
Qədd-qamətin əyilibdir, belə bax.
Üzün qırış, saç ağarıb, telə bax,
Təzdən əl gəzdirib sonana dəymə.

*Molla Pənah Vaqif*
## BİR DAHA

*Dodaqların nar ağzı tək açılır,*
*Bir öpüş ver qoy düşməyim tamaha.*
*Belə gizli, belə xəlvət yer olmaz,*
*İnsaf elə, gəl saxlama sabaha.*

*Gülüşündə tərpəniş var şirindir,*
*Buxağında məna gördüm dərindir.*
*Qoynun cənnət, sinən üstü sərindir,*
*Bir yaxın dur, and verirəm Allaha.*

*Eşq əhliyəm, dərdim çoxdur nə deyim,*
*Söz deməyə dilim yoxdur, nə deyim.*
*Gözün cəllad, kirpik oxdur, nə deyim,*
*Gəl öldürmə, sən batarsan günaha.*

*Üz döndərmə o xudadan cavan qız,*
*Gəl əl götür bu inaddan cavan qız.*
*Endirərəm uca taxdan cavan qız,*
*Yesəm də doymaram, inan, vallaha.*

*Şükür olsun, bayram düşdü araya,*
*Ət də gəldi, yağ da gəldi saraya.*
*Vaqif hələ möhtac deyil paraya,*
*Gözəl günlər görəcəkdir bir daha.*

*Səməd Vurğun*

İSTƏRƏM

Dünyada heç nədən yoxdur təmənnam,
Yalnız dərdim üçün Loğman istərəm.
Bir əlində neştər sinəmi yara,
O biri əlindən dərman istərəm.

Şerim, qanadlanıb gəz qitələri,
Dolan şiş dağları, gen dərələri.
Dərdimə əlac tap, tez qayıt geri,
Səndən sağlığıma güman istərəm.

Bir yola düşmüşəm mənzili uzaq,
Gedənlər qayıtmır, yoxdur bir soraq.
Çaparlar göndərin bir də yoxlayaq,
Dağlardan tez aşan karvan istərəm.

Deyirlər orada haqq, ədalət var,
Nə bir fitnə-fəsad, nə rüşvət var.
Ancaq cəhənnəm var, bir də cənnət var,
Cənnətdə özümə məkan istərəm.

Əlli bahar gördüm, əlli qış gördüm,
Aranda at sürdüm, dağda at sürdüm.
Çox vaxtsız başımı ağarmış gördüm,
O keçən günlərdən bir an istərəm.

## ALIYEV ALI ABDULLA OĞLU (ALI SƏFOLU)

Alıyev Alı 1948-ci ildə doğma yurdu Dərələyəzdən Azərbaycana deportasiya olunmuş ailədə doğulmuşdur. Alının valideynləri Bərdənin Qaradəmirçi kəndində iqlim şəraitinə və Vətən ayrılığına dözmədiklərindən 1956-cı ildə öz yurdlarına qayıtmışlar.

Alı Səfolu 1956-cı ildə Cermuk (keçmiş Səfolar İstisuyu) şəhər bir saylı məktəbin birinci sinfinə daxil olmuş, 1967-ci ildə həmin məktəbin səkkizinci sinfini bitirmişdir. Həmin dövrdə burada Azərbaycan dilində orta məktəb olmadığından o, qonşu Yeğeqnadzor rayonunun Qovuşuq kənd orta məktəbində təhsilini davam etdirmiş, 1969-cu ildə həmin məktəbi başa vurmuşdur. 1970-ci ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin filologiya fakültəsinə daxil olmuş, 1974-cü ildə institutu bitirmiş, İstisuda (Cermukda) ixtisası üzrə fəaliyyətə başlamışdır.

1981-ci ildən Cermuk şəhər qiyabi-axşam məktəbinə direktor təyin edilmiş, 1988-ci ilə kimi (zorla yurdundan qovulana qədər) həmin vəzifədə çalışmışdır.

1988-ci ildən taleyini Sumqayıta bağlamış, 25 saylı pilot məktəbində bu günə kimi ixtisası üzrə fəaliyyət göstərir. Respublikanın mətbuat orqanlarında onun müxtəlif səpgidə çoxlu məqalələri çap olunmuşdur. Alı müəllim həm də el şairidir. El-oba, dədə-baba yurdu ilə bağlı gözəl şeirlərin müəllifidir.

Alı Səfolunun 3 kitabı – "Qərbi Azərbaycanda (indiki Ermənistanda) yaşamış azərbaycanlıların tarixi faciəsi" (Dərələyəz dəhşətləri), "Qaçaq (Səfəralı) Səfo", "Sazlı-sözlü Dərələyəz" adlı kitabları vardır. Gəraylı, qoşma və bayatılarından bəzi nümunələri veririk. O, "Qaçaq Səfəralı" dastanının yaradıcılarından biridir.

## BİLMİRƏM

Küsmə, ay bimürvət gözəl,
Mən sənsiz dözə bilmirəm,
Güllər çəməni bəzəyib,
Çiçəyi əzə bilmirəm.

Canımı alır gözlərin,
Şəkərdən şirin sözlərin,
Taqətdən düşüb dizlərim,
Bu dərdə dözə bilmirəm.

Yeriyəndə narın-narın,
Gəl pozma əhdi-ilqarın,
Qar sinəndə qoşa narın,
Dəyibdi, üzə bilmirəm.

Axşam üstü məni səsdə,
Gözü almaz, boyu bəstə
Yazıq Alı oldu xəstə,
Gəlsinmi sizə, bilmirəm.

## CEYRANIM

Nə süzürsən solu-sağı,
Ay qaşı qara ceyranım.
Ürəyimə basma dağı,
Ay qaşı qara ceyranım.

Sən o yandan, mən bu yandan,
Baxa-baxa olduq candan,
Gəl qovuşaq bu axşamdan,
Ay qaşı qara ceyranım.

Alıdan qaçma uzağa,
Bir gün düşərsən tuzağa,
Vurulmuşam al yanağa,
Ay qaşı qara ceyranım.

## GÖRÜNÜR

Görürsən oğrun baxanı?
Sinəsində nar görünür.
Kölgə düşüb yanağına,
Buxağında xal görünür.

Əl atdım tutam narını,
Götürəm xeyir varını,
Ağ sinə güzey qarını,
Köynək sıxır, dar görünür.

Ləblərinin qaymağından,
Əmən qanar doymağından,
Alı deyir: yanağından,
Zənbur çalır yer görünür.

## MƏN DƏ

Göyrü cəfasını çəkdim,
Yetişmədim yara mən də.
Qara saçları ağ əkdim,
Yoldaş oldum sara mən də.

Çox bəlalar çəkdi başım,
İtkin düşdü qonum-qonşum,
Qalmadı ürək sirdaşım,
Sağalmaz bu yara məndə.

Hanı ərənlər ərəni?
İndi olmuşam pirani.
Bəsləmişdim şirin canı,
Oldum baxtı qara mən də.

Qocalıq əydi belimi,
Dördəlli tutdu əlimi
Düşmən dağıtdı elimi,
Tapammadım çara mən də.

Alı deyər yandı canım,
Öz dərdimə özüm yanım,
Əldən getdi xanimanım,
Bölündüm səd para mən də.

## GÖRDÜM

Oturmuşdum bulaq üstə,
Bir dəstə qız-gəlin gördüm.
Al yaşıla bələnmişdi,
Xına yaxmış əlin gördüm.

Su istədim birisindən,
Hürkdü işin gerisindən,
Maral, ceyran sürüsündən,
Ürküb qaçdı, xalın gördüm.

Biri quzu, biri şişək,
Biri gözəl, biri göyçək,
Alı dedi: söhbətləşək,
Uzaqlaşdı, yolun gördüm.

## *QOŞMALAR*

## GÖZƏLDİ

Dağları, düzləri cənnətə bənzər,
Dərələyəzin qışı, yazı gözəldi.
Lalə zənaxdanlı gözəl qızların,
Qəmzəsi gözəldi, nazı gözəldi.

Gözəlləri oxşayır gülü-nərgizi,
Dillərdə dastandı söhbəti, sözü,
Yaşılbaş sonadı gəlini, qızı,
Ay yaşıl geyinib, özü gözəldi.

Hanı Ağsaqqalı, İbrahim hanı?
Dillərdə əzbərdi «Səfo» dastanı,
Muradtəpəsidi dağların xanı,
Dərəsi gözəldi, düzü gözəldi.

Dumana bürünən versin dağıdı,
Meşələri sanki Cənnət bağıdı,
Yaylaqları igid, ər oylağıdı,
Alı deyər ana yurdu gözəldi.

## DƏRƏLƏYƏZDİ

Gəzdim hər diyarı tapa bilmədim,
Dünyanın gözəli Dərələyəzdi,
Havası məlhəmdi, suyu dərmandı,
Loğmanın əzəli Dərələyəzdi.

İstisu xəstəni cana gətirir,
Cansıza can verir qana gətirir,
Çöllərində lalə, nərgiz bitirir,
Cənnətin təməli Dərələyəzdi.

Doğma İstisuyu Cermuk yazdılar,
Babaların qəbrin oyub qazdılar,
Türk adların xəritədən pozdular,
Nəsilləri bəlli Dərələyəzdi.

Məğrur duran qayalar baş-başadı,
Zümrüd Arpaçayı bir tamaşadı,
İgidlərin səndə məğrur yaşadı,
Qədim, ağır elli Dərələyəzdi.

Nəsilləri dəmdən-dəmə yetirən,
Gah sevincə, gah da qəmə yetirən,
Alını ilhama, ruha gətirən,
Telli sazın zili Dərələyəzdi.

## NİYƏ GƏLMƏDİ
*(Dağların dili ilə)*

Neçə ildi göz dikirəm yollara,
Aman Allah, ellər niyə gəlmədi?
Artdı dərdim düşdü dildən-dillərə
Aman Allah, ellər niyə gəlmədi?

Köhlənim yox, gedəm köçüm gətirəm,
Gül-çiçəkli yaylaqlara yetirəm,
Dost-tanışı qarşılayam, ötürəm,
Aman Allah, ellər niyə gəlmədi?

«Soyuq bulaq» bulaqların xasıdı,
«Layla bulaq» nənələrin səsidi,
El dönəndə yaylaqların yasıdı,
Aman Allah, ellər niyə gəlmədi?

Qarı düşmən yaman kəsib yolumu,
Bir də görəcəmmi doğma elimi?
Yurd dərdi Alının əyib belini,
Aman Allah, ellər niyə gəlmədi?

## İSTİSU

Bilmək olmur igidlərin sayını,
Ərənlərin çatdı minə İstisu.
Unutmaram baharını, yayını,
Əhsən deyim bu məkana, İstisu.

Bir yanın meşədi, bir yanın qaya,
Sızır bulaqların yönü Arpaya,
Qayaların çatır ulduza, Aya,
Bürünübdü duman-çənə, İstisu.

Yal-yamacda bulaqların burulur,
Meşələr qoynunda məclis qurulur,
Gələn qonaqların halı sorulur,
Mehribansan hər insana, İstisu.

Min hikmət var çiçəyində, gülündə,
Xəstə şəfa tapar çimsə gölündə,
Sən incisən Dərələyəz elində,
Gah dönürsən bir ümmana, İstisu.

Saysız xəstələrin dərmanı səndə,
Yüz il yaşamağın fərmanı səndə,
Alının sağlığa gümanı səndə,
Bir də qayıdarmı sana, İstisu.

## DAĞLAR

Nə müddətdi sizdən ayrı düşmüşəm,
Sinəm çalın-çarpaz yaralı, dağlar.
Payız gəlib, el qoynundan köç edib,
Bahar fəsli qonaq-qaralı dağlar.

Cənnət çiçəyidi gülün, nərgizin,
Dillərdə söylənir söhbətin, sözün.
Qədim tarixlərə şahidsən özün,
Neçə tacü-taxtlar qaralı, dağlar.

Qız-gəlinlər oylağından ötərdi,
Qovalayıb qoyun-quzu tutardı,
Bu ayrılıq lap ölümdən betərdi,
Alı həsrət çəkib saralı dağlar.

## DEYİR

Məndən salam olsun, Dədə Həsənə,
Könül intizarda, ürək döz, deyir,
Əhvalımı sizə bəyan etməyə,
Dilim qabar olub, qələm yaz deyir.

Dərələyəzdə boldur bağların barı,
Biz ki, pozmamışıq əhdi, ilqarı,
Dərdimə dərmandı dağların qarı,
Qəlbim sənə çeşmim üstə gəz deyir.

Ay Dədə, haçandı bağlıdı yollar,
Dağları qar basıb görünmür ellər,
Açanda nərgizlər, bənövşə güllər,
Alı ətrin iylə, gülün üz, deyir.

## BAYATILAR

Ay bulaq, Xırrı bulaq,
Ətrafı nurru bulaq,
Sənin suyun içənnər
Söyləyir dürrü bulaq.

Dərə yurdun alçası
Cırrannının toxçası
Kotan yurddan gün çıxdı
İşıqlandı Novçası.

İstisuyun havası,
Suyu canlar davası,
Qayaların mamırı,
Qızlara əl xınası.

Kotanlının yoluyam,
«Dəliy təpə» qumuyam,
Məni Pirə yetirin
Qolu bağlı quluyam.

Arpa axar Araza,
Araz yanı yar aza,
Xudadan arzum budu,
Qızlar yetsin muraza.

Araza Arpa gəldi,
Erməni Qaqra gəldi,
Cavanlar qaçaq düşdü,
Qocalar «zalpa» gəldi.

Əzizim ala göllər
Çən üstün ala, göllər
Zalxadan, Qurbağalıdan,
Böyükdü Ala göllər.

Tarpın yolu döngədi,
Yoxuşdu, həm döngədi,
Sənə qurban dediyim,
İkillik bir cöngədi.

Çaykənd üstü Marağa,
Balıq gələr mağağa
Şeytan elə qarğadı
Telim gəlmir darağa.

Dağ başını qar alar,
Qar əriyər qaralar.
18-də iltin düşdü,
Dəmirçilər, Qaralar.

Qolları zor biləkdi,
Bu toxmaq, o dibəkdi.
Daşnaklara yol verən,
Gindivas, Quşbiləkdi.

Yazda axar bol bulaq,
Axdıqca ha bol bulaq,
Bulaqların tacıdı,
Soyuq bulaq, Bal bulaq.

Ay bulaq, Səfo bulaq,
Xoş gördük, Səfa bulaq.
Səni abad edənnər
Çəkiblər cəfa bulaq.

Bağlı yolu Zeytənin,
Pisdi halı Zeytənin
Kafirlərə yurd oldu,
Sağı-solu Zeytənin.

Ay bulaq, Şora bulaq,
Məni saldı tora bulaq,
Yayda suyun quruyur,
Mən gedim hara, bulaq.

Dərələyəz dərədi,
Dağdı, bənddi, bərədi,
Ellər köçdü, yurd qaldı,
Xata hardan törədi?

Mən aşiqəm Sallıya,
Yarım zülfün sallıya,
Anama qurban olum,
Adaxladı Ballıya.

Yol gedir Qabaxlıya,
Canıya, Qabaxlıya
Namərddə qeyrət olmaz,
Mərd dostu qabaxlıya.

Bizi gətdilər Salyana,
Muğan, Milə, Salyana,
Yayı elə gəldi ki,
El dağıldı hər yana.

Əzizim Qala daşı,
Get gətir qala daşı,
Gavur elə etdi ki,
Türklərin itdi başı.

Əziziyəm Bağdasər,
Gül yaylığı bağda sər,
Haqqımızı ha yeyir,
Çərkəz, Qrikor, Bağdasər.

Qulunca bax, Qulunca,
Qalxıb dam boyunca,
«Könüllü» köçkün düşdü,
Qozluca, həm Qulunca.

Göydağın qarı var,
Dərəsinin darı var,
Mənə bivəfa demə,
Ürəkdə qubarı var.

Bu yol gedir Çalxana,
Çalxan yolu qəmxana,
Erməni hücum etdi
Dağıldı Gümüşxana.

Əziziyəm Qannı göl,
Qannı dərə, Qannı göl.
Gavur elə etdi ki,
Qan ağladı Qannı göl.

Mən aşiq Arxaşana,
Yol Arxaşana
Yüküm yolda töküldü,
Çatmadım Arxaşana.

Dərələyəz elimdi,
Bülbülüm, həm gülümdü,
Məni bu hala salan,
Yurdsuz keçən günümdü.

Əzizim Qala daşır,
Evdaşı, qala daşı,
İldə yüz qan edərdi,
Arpa çay, Qala daşı.

Elləri köçürdülər,
Arazdan keçirdilər.
Çay suyunu içməzdik,
Zorunan içirdilər.

Dəliy daşın qoşadı,
Dörd yanı meşədi,
Ətəyindən çay axır,
Sanki büllur şüşədi.

Ay bulaq Ayı bulaq,
Yoxdur heç tayı bulaq,
Abı-kövsər suyusan,
Cənnətin payı bulaq.

Səfo gölü dərindi,
Dərindi, həm sərindi,
Keçən il burda batan,
Mənim Xasay əmimdi.

Qovuşuq yolu haçadı,
Üstü bir qalaçadı.
Qaraserdən səs gəldi,
Əhvalınız necədi?

Əzizim, yastı bulaq,
Çən gəldi basdı, bulaq,
Haylara pay vermə sən,
Axma, ta bəsdi, bulaq.

## BAYRAMOV MƏHƏMMƏDƏLI

Bayramov Məhəmmədəli Qulu oğlu 1925-ci ildə Dərələyəzin Sallı kəndində anadan olmuş. 1944-cü ildə orta məktəbi bitirmişdir.

Riyaziyyat fənnini yaxşı bildiyi və müharibə dövründə müəllimə böyük ehtiyac olduğu üçün o Qovuşuq kənd orta məktəbinə müəllim təyin edilmiş və 1944-1948-ci tədris illərində həmin məktəbdə riyaziyyat müəllimi işləmişdir.

1948-ci ildə Ermənistan höküməti tərəfindən doğma Sallı kəndindən deportasiya olunmuş, Səlyanda məskunlaşmış, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakultəsini qiyabi yolla bitirmişdir. Səlyanda ağır xəstəliyə tutulduğu üçün 1961-ci ildə öz doğma kəndinə qayıtmış, 1966-cı ildə dünyasını dəyişmişdir.

Şair və aşıq ocağında boya-başa yetmiş Məhəmmədəli el içində gözəl bir şair kimi də tanınmışdır. Onun çoxlu qoşma, bağlama, müxəmməsləri vardır. Onlardan az bir qismini burada veririk.

Mən (Həsən Mirzəyev) Məhəmmədli müəllimi şəxsən tanıyırdım. Mən 9-cu sinifdə oxuyanda o riyaziyyat müəllimi idi. Bütün günü şahmat oynayar, şeir yazar və riyaziyyatdan misal həll edərdi.

### *QOŞMA*

### BƏNÖVŞƏ

Gözəl vətənimdə, bahar fəslində,
Nə gözəl yaraşır çölə bənövşə.
Sevən-sevilənə hədiyyə verər,
Qızlar düzür səni telə bənövşə.

Zərifsən, incəsən, gözəlsən mənə,
Bacarsam bir dastan deyərdim sənə,
Heyifsən sən düşmə qürbət vətənə,
Rəngin mən tək dönər külə bənövşə.

Bakıda yatıram tamam beş ayı,
Qışı yola verdim gəldi may ayı,
Yarım göndərsəydi bənövşə payı,
Saxlardım qalsaydı ilə bənövşə.

Sevdiyin qızlara gözaltı bir bax,
Göz-gözə sataşsa qızarar yanax,
Xəstə şəfa tapar, eyləsən qonax,
Miskin istər sizə gələ bənövşə.

*Bakı 14 aprel – 05*

## AĞLASIN

Bir namə yazaram Səlyan elinə,
Qohum, qardaş, ata, anam ağlasın,
Daha gözləməsin yollarım mənim,
Yoxdur sağlığıma guman ağlasın.

Ta yoxdur yanıma gedib gələnim,
Düşübdür əlimnən dəftər qələmim,
Sərçəyə dönübdü aslan bədənim,
Əzəlki cəsədim görən ağlasın.

Beş ildir bu dərdə mənəm dözmüşəm,
Dərd əlindən Bakı-Səlyan gəzmişəm,
Qohumdan-qardaşdan əlim üzmüşəm,
Ta yoxdur bir kəsdən güman ağlasın.

Zalım həkim çəngəl vurdu sinəmə,
Axdı qızıl qanım doldu bədənə,
Əcəl dərk elədi gəldim Vətənə,
Vətəndə qoy məni cahan ağlasın.

Kəsilmiş baş kimi axanda qanım,
İstədi bədəndən tez çıxsın canım,
Kor olsun gözləri ata-anamın,
Az qaldı halıma düşmən ağlasın.

Mənim dərdim oldu hamıdan çətin
Quruyub bədənim tökülüb ətim,
Humayım, Eldarım qaldılar yetim,
Onların qayğına qalan ağlasın.

Heç ata görməsin oğul yasını,
Geyər illər boyu qəm libasını,
Aşıqlar əlinə alsın sazın,
Yanıq Kərəmi ilə yanan ağlasın.

Məmmədəli kimə etsin iltimas
Tüfəngim divarda bağlayıbdır pas,
Xərcimi qoy çəksin əmoğlum Qiyas,
Saxlasın yasımı, dövran ağlasın.

## QARANQUŞ

Bahar müjdəsini ellərə yayan,
Uç, xəbər ver hər diyara qaranquş.
Bayram da qız-gəlin qırmızı geyər,
Neçün sən geymisən qarə, qaranquş.

Mənimtək olmaya sən də qəmlisən,
Qəlbi pərişansan, gözü nəmlisən,
Mən çoxdan burdayam sən xoş gəlmisən,
Get xəbər ver, söylə yarə qaranquş.

Əzəldən bağlıyam əhli-peymanə,
Dedim qurtararam gedim Salyana,
Dərdim çətin oldu həkim loğmana,
Olmadı dərdimə çarə qaranquş.

Bizim yerlər indi cənnətə bənzər,
Çıxıb bənövşələr, sarı nərgizlər,
Müşkü ənbər qoxur güllü çəmənlər,
Həsrət qaldım o diyarə qaranquş.

Gül-gülü çağırır, çiçək çiçəyi,
Gözəllər bağlayır ipək ləçəyi,
Cavanı, qocası, hər ağ birçəyi,
Olmasınlar ciyər parə qaranquş.

Yadıma düşəndə qilbə bulağı,
Gözəllər yığnağı, ceyran oylağı.
Gəzdiyim o yerlər cavanlıq çağı,
Yandırır qəlbimi parə qaranquş.

Qoy xoşbəxt yaşasın vətəndə ellər,
Aləzar geyinsin o geniş çöllər,
Bülbül cəh-cəh vurar açanda güllər,
Neçün qismət olur xarə qaranquş.

Günahkaram bu cahanda dinmirəm,
Gecə-gündüz ağlayıram, gülmürəm,
Bu diyarda mən öləndə bilmirəm,
Kim qoyacəq dar məzarə qaranquş.

Məmmədəli çək həsrətin vətənin,
Bu qürbətdə kim olacaq həmdəmin,
Uç vətənə unutmaram xidmətin,
And içirəm düz ilqarə qaranquş.

## ƏLƏYƏZ

Yatmışdım dağların soyuq qoynunda,
Bənzəyirdin zimistana Ələyəz.
Baharın ilk günü gələndən bəri,
Çevrilmisən gülüstana Ələyəz.

Köhnə daxmalardan qalmayıb əsər,
Səhv etməzlər sənə şəhər desələr.
Salsalın qalası, Əyyam kilsələr
Qalıb səndə bir nişana Ələyəz.

Miskinin[1] vətəni o Sallı kəndi,
Günbəgün dağıldı hasarı, bəndi
Köçüm gəlim sənə Ələyəz kəndi
Hörmət elə bu mehmana Ələyəz.

## VƏTƏNİN

Tərki-vətən olub gəzdim hər yanı,
Yoxdur bərabəri tayı vətənin.
Hər daşı, torpağı şirindir mənə,
Qüdrətdən verilib payı vətənin.

Mənim üçün bir anadır vətənim,
Ayrı düşdüm, xəstə oldu bədənim,
Xəstəxana oldu əsil məskənim,
Çatmaz mənə bir harayı vətənin.

O uca dağları, yaşıl çölləri,
Bəxtəvər yaşadır bizim elləri.
Oxuyan bülbülün şirin dilləri,
Gümüşdən parlaqdır çayı vətənin.

İstidən qızarır bu yerdə daşlar,
Qaynayır beyinlər, işləmir başlar,
Miskin tək vətəni sevib qardaşlar,
Sərin keçir hər yayı vətənin.

## BƏNÖVŞƏ

Gözəl vətənimdə, bahar fəslində,
Nə gözəl yaraşır çölə bənövşə.
Sevən-sevilənə hədiyyə verər,
Qızlar düzür səni telə bənövşə.

Bakıda yatıram tamam beş ayı,
Qışı yola verdim gəldi may ayı,
Yarım göndərsəydi bənövşə payı,
Saxlardım qalsaydı ilə bənövşə.

Zərifsən, incəsən, gözəlsən mənə,
Bacarsam bir dastan deyərdim sənə.
Heyifsən sən düşmə qürbət vətənə,
Rəngin mən tək dönər külə bənövşə.

Sevdiyin qızlara gözaltı bir bax,
Göz-gözə sataşsa qızarar yanax,
Xəstə şəfa tapar, eyləsən qanax,
Miskin istər sizə gələ bənövşə.

*Bakı 14 aprel - 05*

---

1. Məmmədəlinin götürdüyü ləqəb.

## GEDİRƏM

Ay ellər, obalar gəlin görüşək
Dərd əlindən mən Salyana gedirəm.
Ya qismət ki birdə geri qayıdam,
Quzu kimi mən qurbana gedirəm.

Yenə ayrı düşdü yarı-yoldaşım,
Üzümü qurudub axan göz yaşım,
Yəqin sizdən uzaq düşəcək daşım,
Ümid ilə bu meydana gedirəm.

Əcəl cəhd edirsə yuvanmaq olmaz,
Əzrayıl cəngindən qurtarmaq olmaz,
Yüz min həkim gəlsə yaram sağalmaz,
Pərvanə tək yana-yana gedirəm.

Xəstə Məmmədəli bu nə səfərdir?
Bu nə qəmli hicran, bu nə kədərdi?
Hər zülmət gecənin sonu səhərdir,
Sığınmışam bir sübhana gedirəm.

## DÜŞƏRSƏN
*(məktuba cavab)*

Ey mənə bədbəxtlik arzulayan qız,
Zaman gələr sən də dara düşərsən.
Maral tək qaçsan da uca dağlara,
Bəxtin əysə boran-qara düşərsən.

Qoy bəxtin dəyməsin heç qara daşa,
Gözəl ol yarına, mehriban yaşa,
Xoşbəxt ol dünyada, ömür vur başa,
Rəhmin olsa, dövlət vara düşərsən.

Mən sənə nə dedim ey zalım cəllad,
Mən burda can verim sən orda ol şad,
Şirinin yolunda can verdi Fərhad,
Məcnun kimi sən dağlara düşərsən.

Sənin tək gözəllər azmı soldular,
Gəldilər dünyaya bəs neç oldular,
Fələk cəngəlinə vurub qaldırar,
Göydən yerə para-para düşərsən.

Bağışla sən məni, keç günahımdan,
Xəzana dönərsən ahu-zarımdan,
Durna tək ayrılıb öz qatarından,
Tərlan oylağında sara düşərsən.

Günəş tək qalxsan da ərşi-əlaya,
Ya ki hakim olsan bütün dünyaya,
Qəvvas tək cumsan da dərin dəryaya,
Həbibra tək burulğana düşərsən.

Sən mənə bacı ol, mən sənə qardaş,
Daha nə lazımdır çox dava, dalaş,
İnsafa mürvətə gəl yavaş-yavaş
Qorxmakı bir daha tora düşərsən.

Sən Məmmədəlini salginən yada,
Gör ondan bədbəxti varmı dünyada,
Mən ölsəm də təki sən çat murada,
Unutmakı dar məzara düşərsən.

*Bakı, 1965.*

## AY QIZ

Bakıdan yazıram sənə naməni,
Oxuyub dərdimi biləsən, ay qız.
Arzum budur bu dünyanı başacan,
Şad günlər keçirib güləsən, ay qız.

Bir dərdə düşmüşəm bilənim yoxdur,
Axan göz yaşımı silənim yoxdur,
Qəribəm yanıma gələnim yoxdur,
Sağallam yanıma gələsən, ay qız.

Xəstə Məmmədəli unutmaz səni,
Bülbül unudarmı gül çəmənini,
A zalım oxladın dərdli sinəmi,
Dərd üçün dərmanım olasan, ay qız.

## MAMOĞLU

Qara günlərimin vəfalı dostu,
Qəbul eylə bu salamı, Mamoğlu.
Arzum budur xoşbəxt olub gəzəsən,
Sağ can ilə dünyanı, Mamoğlu.

Adamı sayırlar indi var ilə,
Dostu sınayırlar düz ilqar ilə,
Xoşbəxt odur bəxtəvərdi yar ilə,
Şal keçirir hər axşamın, Mamoğlu.

Mənimlə oturub, mənimlə durdun,
Mənimlə hər gecə bir məclis qurdun,
Sən dostluq yolunda özünü yordun,
Əla verdin imtahanı, Mamoğlu.

Xəstə düşdüm malım, mülküm talandı,
Yaxın dostlar məndən tez daldalandı,
Həyat mənim üçün bağlı zindandı,
Bəxtim seçib bu zindanı, Mamoğlu.

Sağlıq olsa yenə biz görüşərik,
Öpüşüb, görüşüb, həm güləşərik,
Dar günü, gen günü birgə bölərik,
Keçirərik bu dövranı Mamoğlu.

Məsəl var deyərlər ağlama naçar,
O bağlı qapılar bir gün açılar,
Mənim də bəxtimə bir günəş saçar,
Unudarıq zimistanı, Mamoğlu.

Dar gündən çıxmamış dar günə düşdüm,
Dostların yolunda canımdan keçdim,
Bütün qohumları sınayıb seçdim,
Yaxşı seçdim hər insanı, Mamoğlu.

Mən şair deyiləm, mən qəm əhliyəm,
Fələyin əlindən mən gileyliyəm,
Arif məclisində söhbət eyliyəm,
Sərraf seçər pür kamalı, Mamoğlu.

Qohum var pul üstə yığır qəpiyi,
Astanaya bağlar qıllı köpəyi,
Çörək əvəzinə yeyir kəpəyi,
Eləcə çıxarır canı, mamoğlu.

Dərdli danışandı, dərdsiz güləyən,
Məndən başqa varmı deyib gülməyən?
Sağ can ilə beş gün ömür sürməyən,
O Məmmədəlidir tanı, Mamoğlu.

## SESTRA

Vətən həsrətiylə ölən xəstəyə,
Nə baxırsan yanı-yanı Sestra.
Vaxt var idi mən də sən tək gözələ
Yandırardım sönən şamı Sestra.

Ey fələk yaxşı bax, nə günə qaldım,
Görmədim cavanlıq, əfsus, qocaldım,
Davasız, dərmansız odlara yandım,
Ya öldür, ya qurtar canı Sestra.

Baxışın, duruşun bir dəli Ceyran,
Nə yaman atırsan sən mənə eyham,
Bu sirri saxlayaq hələlik pünhan,
Aşkara tökmə sən qanı Sestra.

Heyifki rast gəldin xəstə vaxtıma,
Sataşdın qəlbimə, qara baxtıma,
Layiqsən sən şahzadələr taxtına,
Gözəllər sultanı, xanı Sestra.

Məndən ayrılanda yaşardı gözün,
Çırpındı ürəyin, kəsildi sözün,
Açmadın qəlbini, demədin düzün,
Tora saldın bir tərlanı Sestra.

Nə edim, olsaydı sağlam bədənim,
Mehmanı olardım nazlı sənəmin,
Gözəl Dərələyəz, ana Vətənim,
Məndən ayrı düşüb, hanı Sestra?

Oyatma qəlbimdə gizli ilhamı,
Bu dərdə dözərmi, xəstənin canı,
Sən Məmmədəlini dərindən tanı,
Kərəm tək alışıb, yanı Sestra.

## YAXŞIDIR

Həyasız adamla qonşu olunca,
Xaraba, biyaban çöllər yaxşıdır.
Bədəsil arvadla ülfət qılınca,
O arvadsız qalan dullar yaxşıdır.

Çalış el içində üzün ağ olsun,
Nəyinə lazımdır güllü bağ olsun,
Kasıb ol daş daşı canın sağ olsun,
İnsan üçün can sağlığı yaxşıdır.

Özünə dost tutma sən var günündə,
Dostunu bərk sına sən dar günündə,
Nadan məclisində, nadan yanında,
Lal ola danışan dillər yaxşıdır.

Dağıldı kəndimiz köçdü Səlyana,
Baş götürüb getdi hərə bir yana,
Məmmədəli sözün deyər qanana,
Qədir bilən bizim ellər yaxşıdır.

## BAĞLAMA
*(hesab çötkəsinə)*

## PƏHLƏVAN

O nədir haqq-hesab çəkir adamla
Yüz quşu on milə düzən pəhləvan
Yüzü də bir boyda, bir çəkidədir,
Onu bir mil üstə süzən pəhləvan.

Sümüyü taxdadır, iliyi dəmir,
Şaqha-şaq işləyir yoruldum demir.
Nə çörək, nə benzin, nə də neft yemir,
İllərlə aclığa dözən pəhləvan.

Biri o birindən böyükdür on yaş,
Bənzəyir bir-birə sanki bir qardaş,
Bir alim, bir kağız, bir də qələmdaş,
Olmasa lal olur bəzən pəhləvan.

Savadsız bəndələr bilməz dilini,
Sənətkar işlədər tək bir əlini.
Məmmədəli bilir dörd əməlini,
Bi ramka içində gəzən pəhləvan.

## BAĞLAMA
*(şahmata aiddir)*

Bir qutu içində 32 dustaq,
Qarışıb bir-birə olubdur mehman,
Yarısı ağ geyib, yarısı qara,
Neçəsi heyvandı, neçəsi insan?

İki cəllad düzür Nizam Sıranı,
Biri ağı qırır, biri qaranı,
Vezir çox güclüdür gəzir hər yanı,
Şahi acızdı mat qalır heyran.

Neçə cəllad düzür nizam sıranı,
Biri ağı qırır, biri qaranı,
Biri çox güclüdür gəzir hər yanı,
Əlası acizdir mat qalır heyran.

De hansı düz vurur, hansıları yan,
Bəzən əsir düşür güclü pəhləvan,
Nə xələt istədi onu yaradan,
Kim dedi verərəm, söylədi yalan?

Təkbətək hücuma keçəndə onlar,
Qırılar arxada neçə min can var,
Bu sirri qoy tapsın arif olanlar,
Məmmədəli qoşar şanına dastan.

## ALİM DƏRƏLƏYƏZLİ

Gülmalıyev Alim Cəfər oğlu (Dərələyəzli) 1953-cü ildə Dərələyəz mahalının Qabaxlı kəndində anadan olmuşdur. Ali təhsillidir. 1980-ci ildə jurnalistika fakültəsini bitirmiş, uzun illər mətbuatda jurnalist kimi fəaliyyət göstərmişdir. Şairdir, altı şer kitabının müəllifidir. Hal-hazırda Abşeron rayonunun Mehdiabad qəsəbəsində yaşayır.

### *GƏRAYLI*

### DƏRƏLƏYƏZ MAHALINDA

Şimşək çaxdı, qopdu tufan,
Qara geydi yer, asiman.
Arpa çayı ağladı qan,
Dərələyəz mahalında.

Çalan çaldı bu oyunu,
Salan saldı bu oyunu,
Çalmır Azay el toyunu,
Dərələyəz mahalında.

Fəryad oldu, fəğan oldu,
Ürəyimiz al-qan oldu.
Göz yaşları ümman oldu,
Dərələyəz mahalında.

Başı qarlı uca dağlar,
Qocalardan qoca dağlar.
Neçə-neçə abidə var,
Dərələyəz mahalında.

Qəlbimdə kin, gözümdə nəm,
Ömür sürrəm mən bəxti kəm,
At oynadır qarı düşmən,
Dərələyəz mahalında.

Torpaq idi varım-yoxum,
Haram olub indi yuxum.
Hey dolaşır qəlbim, ruhum,
Dərələyəz mahalında.

Bizim ellər qərib durna,
Necə düşdük qəm toruna?
Dilə gəlmir qara zurna,
Dərələyəz mahalında.

Keçidlərdə izim qaldı,
Dünya söhbət-sözüm qaldı.
Can getsə də, gözüm qaldı,
Dərələyəz mahalında.

Bir qanadlı quş olaydım,
Qəfil oxa tuş olaydım,
Gərək torpaq, daş olaydım,
Dərələyəz mahalında.

## ANAMA QURBAN OLUM

Bal dilində şan deyim,
Hər nə desə can deyim.
Döşündən süd əmdiyim
Anama qurban olum.

Hər dərdimə yarıyan,
Şər-xətadan qoruyan,
Günü-gündən qarıyan,
Anama qurban olum.

Özü aslan ürəkli,
Xoş arzulu diləkli,
Gen süfrəli çörəkli,
Anama qurban olum.

Bəxtimə ağ at verən,
Bir ömür həyat verən,
Mənə qol-qanad verən
Anama qurban olum.

Hər gün mənə can deyən,
İgid, pəhləvan deyən,
Boyuna qurban deyən,
Anama qurban olum.

## NƏYƏ LAZIM

Pisləməyin qış fəslini,
Dağlar qarsız nəyə lazım.
Etibarlı dost axtarın,
Etibarsız nəyə lazım.

El-oba gözəl-göyçəksiz,
Ana təbiət bəzəksiz,
Bağçalar gülsüz-çiçəksiz,
Bağlar barsız nəyə lazım.

Əyri düzü kəsər çətin,
Yolçusuyam həqiqətin,
Alim, olsa var-dövlətin,
Sadiq yarsız nəyə lazım.

## *QOŞMALAR*

## DƏRƏLƏYƏZDƏ

Ey Təbrizdən bəri uçan durnalar,
Nə gördünüz, bizim Dərələyəzdə?
Çoban bayatısı çalan vardımı?
Sizə həzin-həzin Dərələyəzdə?

Tamam dəyişibdir axar-baxarı,
Quruyub ağaclar, gətirməz barı.
İnləmir kamanı, oxumur tarı,
Susub telli sazım Dərələyəzdə.

Çatılıbdır el-obanın qaşları,
Çətin quruyacaq bu göz yaşları.
Yerlə yeksan oldu qəbir daşları,
Qalmadı bir izim Dərələyəzdə.

Ürəyim partlayır, sıxılır beynim,
Bircə gündə olsun açılmır eynim.
Mən dəli olmayım, siz deyin, neynim?
Yenə qalıb gözüm Dərələyəzdə.

O gün ələ misri qılınc alaydım,
Pis niyyət düşmənə zərbə çalaydım.
Vətənin uğrunda şəhid olaydım,
Gərək mənim özüm Dərələyəzdə.

## YAXŞI KİŞİLƏRİN MƏRD ÖVLADLARI

Tülkü meydanından qaçmaz ər dədə,
Kürəyində taralanmaz nər dədə,
Tez seçilir xeyirdə də, şərdə də,
Yaxşı kişilərin mərd övladları.

Cılızlaşıb, fitnə-fələ uyarmı?
Xoş sevdadan usanarmı, doyarmı?
Bir kimsəni dar ayaqda qoyarmı?
Yaxşı kişilərin mərd övladları.

Asılmaya ürəklərdən daş, Alim,
Çay olmayan gözlərdəki yaş, Alim,
Gündən-günə çoxalaydı kaş, Alim,
Yaxşı kişilərin mərd övladları.

## BAYATILAR

Yuvam Dərələyəzdə,
Obam Dərələyəzdə,
Mən köçdüm, daşa döndü,
Babam Dərələyəzdə.

Varım Dərələyəzdə,
Yarım Dərələyəzdə,
Gün olsun, oğul toyu,
Görüm Dərələyəzdə.

Dərələyəz, qalam oyy,
Səngərim oyy, qalam oyy,
Qoymur düşmən can verəm,
Yurd yerimdə qalam, oyy.

Gözümdə yaşım ağlar,
Qohum-qardaşım ağlar,
Viranə qalıb yurdum,
Torpağım, daşım ağlar.

Obası talan canım,
Min yara alan canım,
Yurdsuza yurd verərdim,
Yuvasız qalan canım.

Bülbüllər bağda qalıb,
Şamama tağda qalıb,
Didərgin uşaq ölüb,
Cəsədi dağda qalıb.

Bir kəsə əl açmadıq,
Dəymədik, dolaşmadıq,
Yurd xaraba qalanda
Bayquş tək ulaşmadıq.

Yanağımda yaş yandı,
Kirpik yandı, qaş yandı,
Odu sönən ürəyim,
Dəmirdəndi, daşdandı.

Gor qonşum Aram oldu,
Canımda yaram oldu,
Murdar əli dəyəndən
Çörəyim haram oldu.

Dağlar didərginlərə,
Bağlar didərginlərə,
Kimsə hesab verəcək,
Ağlar didərginlərə.

Qəmli könül, dağa bax,
Zirvəsində qara bax,
Kafirlə dost olandan,
Sinəm üstdə dağa bax.

Xaliqim, yalan deyil.
Şər zəfər çalan deyil,
Min il keçsə də, Zori!
Qan yerdə qalan deyil.

Mən aşiq dağlar ağlar,
Göy gülər, dağlar ağlar,
Köçdüm, yurdum boş qaldı,
Sinəmdə dağlar ağlar.

Varım Dərələyəzdə,
Yarım Dərələyəzdə,
Tapdalandı namusum,
Arım, Dərələyəzdə.

## *QARĞIŞ BAYATILARI*
### *(Zori Balayana)*

Mən aşiq, üstün gələ,
Dost yada üstün gələ,
Səni elə yanasan,
Təpəndən tüstün gələ.

Əzizim qala başın,
Ucadır, Qala başın,
Getdiyin maşın aşa,
Altında qala başın.

Yığıldı millət cana,
Döndü bağrımız qana,
Kaş bir atom bombası,
Düşəydi İrəvana.

Qurduğun plan deyil?
El-oba talan deyil?
Min il keçsə də, Zori
Qan yerdə qalan deyil.

Dağlar didərginlərə,
Bağlar didərginlərə,
Kimsə hesab verəcək,
Ağlar didərginlərə.

Dövran bir şaha qalıb,
Dartmaqdan yaxa qalıb?
Heç bir yerdən kömək yox,
Ümid allaha qalıb.

Tanıdım əla səni
Tutubdur bəla səni,
Ocaqdan tonqal çatam
Atam tonqala səni.

Əzizinəm bağda sər,
Yu dəsmalı bağda sər,
Sənə üç kişi qurban,
Sərkis, Suren, Bağdasar.

Eldə igid yaxşıdır.
Geyməyə çit yaxşıdır,
Yüz ermənidənsə,
Bir dənə it yaxşıdır.

## UMUD İSMAYILOV

İsmayılov Umud 1924-cü ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, 1941-ci ildə Qovuşuq kənd orta məktəbini bitirmişdir. 1942-ci ildə müəllimlik fəaliyyətinə başlamış, 1942-1944-cü illərdə Gədikvəng kəndində ibtidai məktəbdə müdir vəzifəsində işləmişdir.

1961-ci ildə V.İ.Lenin adına APİ-nin (indiki ADPU) qiyabi şöbəsinə daxil olmuş, 1967-ci ildə həmin ali məktəbin ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsini bitirmişdir.

1967-1985-ci illərdə doğulduğu Gülüdüz kəndində məktəb direktoru vəzifəsində, 1985-1988-ci illərdə isə müəllim işləmişdir. 1988-ci ilin noyabrın 30-da Ermənistan dövləti tərəfindən zorla ata-baba yurdundan qovulmuşdur. Umud müəllim Dərələyəz mahalında yaxşı qoşma və gəraylı yazan el şairi kimi də tanınmışdır. Onlardan bir neçə nümunə göstəririk.

### *GƏRAYLILAR*

### DAĞLAR

Ayırdılar məni sizdən,
Siz salamat qalın dağlar.
Bir qaldırın başınızı,
Məni yola salın, dağlar.

Şirinsiniz ömrüm təhər,
Həmdəmimsiz axşam-səhər,
Ayrılıram boğur qəhər,
Mən gedirəm qalın, dağlar.

Vətən dərdi məni sökür,
Gözlərimdən qan-yaş tökür,
Yağı qovur, elim köçür,
Sağ-salamat qalın, dağlar.

İstəyirdim yaşın olam,
Zirvəndəki daşın olam,
Öləndə yoldaşın olam,
Mənsiz tənha qalın, dağlar.

Mərd tapılmır bu dünyada,
Çağıranda çata dada,
Dərələyəz qaldı yada,
İndi elsiz qalın, dağlar.

Dərələyəz yaylaqlıdır,
Sərin-sulu bulaqlıdır,
Gül-çiçəkli oylaqlıdır,
Hər vaxt belə qalın, dağlar.

Qovulmuşuq evimizdən,
Didərginik elimizdən,
Vətən getdi əlimizdən,
Qəm surunu çalın, dağlar.

Məlul-məlul baxır gözlər,
Cığırlarda qalır izlər,
Atam, babam gəzən yerlər,
Yadda qalır bilin, dağlar.

Gözüm baxır uzaqlara,
Zirvələrdə qalan qara,
Qız-gəlinlər geyib qara,
Köməyimə gəlin, dağlar.

Axarlısan, baxarlısan,
Qürurlusan, vüqarlısan,
Elin köçür tək qalırsan,
Pozulurmu halın, dağlar?

Ömür doymur baxışından,
Nə yazından, nə qışından,
Güllərinin naxışından,
Aparmıram, qalın, dağlar.

Bilirsənmi, "Vətən baldı",
Düşmən məni oda saldı,
Torpağımda babam qaldı,
Ona nəzər salın, dağlar.

Qəm sazını çala-çala,
Civizlidən qalxdım yola,
Boylandım el köçən yola,
Qəlbim oldu talan dağlar.

Dərələyəz dərəlidi,
Ovçu keçməz bəzəlidi,
Dövran burda gözəl idi,
Niyə oldu viran dağlar.

Dərələyəz səfalıdır,
İnsanları vəfalıdır,
Oğuzların mahalıdır,
Qisasımı alın dağlar.

Naçar qaldıq hiylələrə,
Qurban olduq güllələrə,
Üz tutmuşuq ölkələrə,
Göz yaşını silin dağlar.

Qəm yükünü çəkə-çəkə,
Göz yaşını tökə-tökə,
Gədikləri keçə-keçə,
Elin gedir bilin dağlar.

Sən yaşadın əsirləri,
İsti soyuq fəsilləri,
Yola saldın nəsilləri,
Mən gedirəm qalın dağlar.

Çaylarımın züm-züməsi,
Qayalardan kəklik səsi,
Torağaylar şikəstəsi,
Necə dözsün elin dağlar.

Gəzməlidir hər bucağın,
Yazda-yayda güllü çağın,
Qışda boran qar qucağın,
Qəm sazını çalın dağlar.

El sinənə ələnmişdi,
Güllərinə bələnmişdi,
Arxan sənə söykənmişdi,
Niyə susub dilin dağlar.

Sinə dolu ürək yara,
Millət oldu bəxti qara,
Hərə gedir bir diyara,
Durun yola salın dağlar.

Əlim sizdən üzülübdü,
Karvan yola düzülübdü,
Yaş yanağa süzülübdü,
İnsaf edin silin dağlar.

Bulaqların lüləpərdi,
Baldırğandı qəntəpərdi,
Elsiz vətən bir təhərdi,
Haydan qisas alın dağlar.

Qayaların qatar-qatar,
Sinəsində qartal yatar,
Zirvələrin göyə çatar,
Mən gedirəm qalın dağlar.

Sən sevən tək duman çəni,
Elə sevdim mən də səni,
Gözləməynən daha məni,
İndi mənsiz qalın dağlar.

Başın üstə Göyçə yurdu,
Bir tərəfi Zəngə-zurdu,
Ermənilər hiylə qurdu,
Biz gedirik qalın dağlar.

Gül-çiçəklər solan vaxtı,
Buz bulaqlar donan vaxtı,
Yaş zirvədə olan vaxtı,
Umud gedir, qalın, dağlar.

## AXTARIRAM

Enib gəldim çay qırağı,
Gəncliyimi axtarıram,
Didərginəm bu yerlərdə,
Ellərimi axtarıram.

Qurban olum Gülüdüzə,
Hünər gərək onsuz dözə,
Getmən ömrüm yetər yüzə,
Gülüdüzü axtarıram.

Qaraqayadı yaylaqlı,
Güllü çiçəkli oylaqlı,
Sərin sulu buz bulaqlı,
Pır-pır bulaq axtarıram.

Allı güllü bağ-bağatlı,
Yaşıl geymiş xoş xalatlı,
Axşam səhər şən qonaqlı,
Qabaxlını axtarıram.

Dağıtdılar binaları,
Elsiz qaldı bulaqları,
Daha gəlmir soraqları,
Qalaseri axtarıram.

Güllə borana tutulan,
Evləri zorla talanan,
Oda-alova qalanan,
Ələyəzi axtarıram.

Dərələyəz adınandı,
Nahax yerə oda yandı,
Düşmən bizdən zorla aldı,
Ona çarə axtarıram.

Qaydına qalsın qonağın,
Bilsən ver mənə sorağın,
Yağıların zülümkarın,
Dilin kəsən axtarıram.

Sığınacaq verdin bizə,
Minnətdarıq biz də sizə,
Umud deyər elimizə,
Arxa duran axtarıram.

## *QOŞMALAR*

### GÖRMÜŞƏM

Eşidin ay ellər, bilin ay ellər.
Dərələyəzin xoş növrağın görmüşəm.
Xalqının yolunda canından keçən
Ərənləri, igidləri görmüşəm.

Şeri, şəriəti dərindən bilən,
Yolun azanları yola gətirən,
Natiqlər natiqi, eldə sevilən
Mirzəlioğlu İbrahimi görmüşəm.

Nijdenin, Yaponun atını vuran,
Hayları vahimə, qorxuya salan,
Xalq içində pak oturan, pak duran,
Mən Qabaxlı Qəhrəmanı görmüşəm.

Döyüş vaxtı atın belinə yatan,
Əmoğlunun harayına tez çatan,
Qırx beş hay əsgərin qol-qola çatan,
Şabaz oğlu nər Calalı görmüşəm.

## GÖYNƏDİR

Səksən səkkizinci ilin noyabr ayı,
Vətənin harayı məni göynədir.
Ayaqyalın qız-gəlinin naləsi,
Yaddan çıxmır, ürəkləri göynədir.

Kənd əhlinin var-dövlətin aldılar,
Sürükləyib samasfalta saldılar,
Körpələr küçədə üryan qaldılar,
Bu hadisə görənləri göynədir.

Namusu, qeyrəti olan millətim,
Qovrulan, inləyən, yanan millətim,
Bu qisası yerdə qoyma, millətim,
Çünki bu dərd millətimi göynədir.

## ALIQULİYEV ALI MEHBALI OĞLU

Alıquliyev Alı Mehbalı oğlu Dərələyəzin Ələyəz kəndində doğulmuşdur. O, ibtidai məktəbi Ələyəzdə, orta məktəbi isə Qovuşuq kənd orta məktəbində bitirmişdir. Bundan sonra o, Azərbaycan Dövlət Pedaqoji Universitetində filologiya fakültəsinə daxil olmuş və oranı bitirdikdən sonra 1988-ci ilə qədər öz kəndində dil-ədəbiyyat müəllimi işləmişdir.

Ermənilərlə mübarizə aparmağı bacaran Alı müəllim 1988-ci ildə zorla öz doğma kəndindən çıxarılmış və Bakıda məskunlaşmışdır. Savadlı, şair təbiətli bu adam xəstəliyə görə təqaüdə çıxmışdır. Hamı onu el şairi kimi tanıyır. Qoşmalarından bir neçə nümunə verməklə kifayətlənirik.

### *QOŞMALAR*

### DAĞLARIN

Bir yanı Əyricə, bir yanı Göyçə,
Yolun düşə binəsinə dağların,
Çiskin gələ alaçıqlar nəm çəkə,
Baş qoyasan gecəsinə dağların.

Ayaqda qaynaşır arı pətəyi,
Yamacda səslənir çoban tütəyi,
Nərgiz-bənövşəsi, qaymaq çiçəyi,
Çox yaraşır sinəsinə dağların.

Heç kəs bilməz bu dağların yaşını,
Bir gab kəsir yüz dərənin başını,
Buludlar tökəndə gözün yaşını,
Sən baxasan didəsinə dağların.

Bizim dağdan Göyçə gölü görünür,
Duman qalxır, dağ döşündə sürünür,
Dan sökülür güllər şehə bürünür,
Alı qurban cadasına dağların.

## MƏNİM

Anar bulud anar məni vətənə,
Yardıma düşübdü, o çağlar mənim.
Bürünüm dumana, bürünüm çənə,
Mehvəli ,meyvəsiz o çağlar mənim.

Nərgizli Güneydə bir azca dayan,
Zirvədən qoy baxım, görünsün hər yan,
Təzəkli yaylağı, Dikcə pilləkan,
Görünsün gözümə o dağlar mənim.

Ünüm çatmır obalara, ellərə,
El dağıldı hərə düşdü bir yerə,
Daşa girən, Dəmirtəpə, Gen dərə,
Görünsün gözümə bulaqlar mənim.

Təsəllimi o dağlardan alaram,
Yurd yerində birgə gecə qalaram,
Dağılmış məzara layla çalaram,
Yadıma düşübdü məzarlar mənim.

Bu da bir qəzadı, çarxı gərdişdi,
Əzizlərim dünyasını dəyişdi,
Dərdli Alı növbə sənə yetişdi,
Məzarım olaydı Əyritar mənim.

## GÖRƏYDİM

Bir humay quş olub havaya qalxıb,
Gedib bir də o dağları görəydim.
Nərgizli Güneyə bir lələk taxıb,
Suyu şərbət bulaqları görəydim.

Göreydim necədir dağların halı,
Sürfəyə gəlirmi beçənin balı,
Div yurdun üstündən o Uzunyalı
Ordan baxıb Əyri tarı görəydim.

Yenə də boldurmu dağların qarı,
Bulaqlar axırmı çaylara sarı,
Həvəslə tikdiyim ağ otaqları,
O bağları, bağçaları görəydim.

Qırxbulağın qatarına çıxaydım,
Şımşək olub buludlara çıxaydım,
Çınqıllıdan Soğannıya baxaydım,
Obaların, oylaqların görəydim.

Alının dərdləri hesaba gəlməz,
Axan göz yaşını bir kimsə silməz,
Ov keçdi bərədən bir daha gəlməz,
Bircə dəfə o diyarı görəydim.

## BİZDƏN ÖTƏRİ

Könlüm çox istəyir uca dağları,
Sinəsi lilparlı buz bulaqları,
Yuxumda görürəm göy yaylaqları,
Yaman qəribsəyib bizdən ötəri.

Ellərdə məhşurdu Ələyəz dağı,
O qızlar yığnağı, sərin bulağı,
Qorqud yadigarı, Qazan yaylağı,
Yaman qəribsəyib bizdən ötəri.

Yadıma düşdükcə ata babalar,
Ağ sürülər, ağ alaçıq obalar,
Qartallar qıy vuran yalçın qayalar,
Yaman qəribsəyib bizdən ötəri.

Ağkənd dərəsində Sallı yaylağı,
Xəstəyə dərmandı İman bulağı,
Salsalın qalası, Qalaser dağı,
Yaman qəribsəyib bizdən ötəri.

Ərimәz dağlarda quzeyin qarı
Ölüncә baxacam Vәtәnә sarı
Əyricә yaylağı, Selim baxarı
Yaman qәribsәyib bizdәn ötәri

Soğanlı yaylağı zümrüdә bәnzәr,
Güngörmәz bulağı dillәrdә әzbәr,
Qovuşuq üstündә gözәl Nәbilәr,
Yaman qәribsәyib bizdәn ötәri.

Necә haqsızlığı gözümlә gördüm,
Dәrddәn hasar çәkdim, qәmdәn ev hördüm,
Alıyam yuxumda atamı gördüm,
Mәzar qәribsәyib bizdәn ötәri.

Son köçümüz bu diyarda dayandı,
Külü qәbri Bәrkdәrdә mehmandı,
Aman Allah qәribçilik yamandı,
Vәtәn qәribsәyib bizdәn ötrü
Alı qәribsәyib sizdәn ötәri.

## YADIMA DÜŞÜB

Sallıdan başlayan Karvan yolları,
Üz tutub dağlardan Göyçәyә sarı,
Misir bulağından bir az yuxarı,
Əlәyәz obası yadıma düşüb.

Gözәldir dağların hәr şәlalәsi,
Lalәsi, nәrgizi, tәr bәnövşәsi,
Qoyun mәlәşmәsi, at kişnәmәsi,
Anamın laylası yadıma düşüb

Zirvәdә qıy vuran qartalın sәsi,
Bir isti od-ocaq ana nәfәsi,
Salxım söyüdlәrin sәrin kölgәsi,
Meşәnin talası yadıma düşüb.

Əlәyәz elinin o gen dәrәsi,
Nәrgizli güneydә quşların sәsi,
Həzin bir bayatı, çoban nәğmәsi,
Salsalın qalası yadıma düşüb.

Əsәrdi ağrıdan sәrin külәklәr,
Ətrafı bәzәrdi, güllәr çiçәklәr,
Çeşmә gәlib sağılardı inәklәr,
Nehrәnin kәrәsi yadıma düşüb.

Müddәtdi bağlanıb bizim o yollar,
Ürәyimdә bir dözülmәz ağrı var,
Alının ürәyi bağlayıb qubar,
Ruhanı havası yadıma düşüb.

## QARA HƏSƏN DƏRƏLƏYƏZLİ

Hәsәnov Hәsәn Əbdülkәrim oğlu 1929-cu ildә Yeğeqnadzor rayonunun Qovuşuq kәndindә anadan olmuşdur. 1955-1988-ci illәr әrzindә Qovuşuq sovxozunun baş mühasibi vәzifәsindә çalışmış, 1988-ci ildә ermәnilәr tәrәfindәn deportasiya olunmuş, Sumqayıt şәhәrindә mәskunlaşmış vә 2003-cü ildә burada dünyasını dәyişmişdir. Öz elindә-obasında sinәdәftәr bir şair kimi tanınırdı.

### *GƏRAYLI*

### GƏL

Vәtәnimi görmәk üçün
Bahar çağı çatanda gәl.
Meşәlәrdә lalә, nәrgiz
Bәnövşәlәr açanda gәl.

Çatdın Qoytul körpüsünә,
Sәrin meh dәyәr üzünә.
Çıxsan sәn Gülüdüzünә,
Canı çayı daşanda gәl.

Hostundan çıx gəzə-gəzə,
Salsaldan keç Ələyəzə,
Aşıq Hüseyn süzə-süzə,
Sədəfli saz çalanda gəl.

Yastıbulaqda qonaq qal,
Qızıl balıqdan közə sal.
Əgər istəsən beçə bal,
Yay gözünü açanda gəl.

Qovuşuqdan gəzə-gəzə
Çıx yuxarı Gülüdüzə,
Taxta yurdda dağa, düzə,
İldırımlar çaxanda gəl.

Ortayurddan Gurbulağa,
Mahudludan Cacuqluya,
Göyçə göldən Soğanlıya,
Səhər mehi axanda, gəl.

Unutma gəl, Qırxbulağı,
Gözəl, səfalı yaylağı,
Aləmə düşüb sorağı,
Sular layla çalanda gəl.

Qarşılarlar gülə-gülə
Əgər getsən Qızılgülə
Ova gedib atsan güllə
Təkə daşa çıxanda gəl.

Qabaxlılar xoş sifətli,
Dost-dostuna sədaqətli,
Bol yeməkli, bol nemətli,
Süfrəyə nan düzəndə gəl.

Çox keçirmə sən həyəcan,
Kotanlılar deyərlər can
Azay çalsın "Azərbaycan"
Elim toyda süzəndə gəl.

Nə coşmusan Qara Həsən
Yaz, el-günün desin əhsən,
Sən məni görmək istəsən,
Kabab şişə düzəndə gəl.

### *QOŞMA*

## GƏZ, ONDA DANIŞ

Belə gileylənmə, naxçıvanlı qız,
Dərələz ellərin gəz, onda danış.
Nərgiz, bənövşədən dər, dəstə bağla,
Siyah tellərinə düz, onda danış.

Ələyəzdən bax bir Təkəli dağa
Özünü tez yetir Yastı bulağa
Dambulağa çatıb dönginən sağa,
Meyvəli bağları gəz, onda danış.

Qovuşuğa yetcək eyləməynən naz,
Orda çox sevilir söhbətinən saz,
Qələm götür, bu adətə dastan yaz,
Əgər çala bilsən saz, onda danış.

Qabaxlı kəndidir kəndlərin gözü,
Gözləri oxşayır, çəməni, düzü,
Lalə, nərgizlidir Gendərə üzü,
Beçənin balından süz, onda danış.

Əgər gedə bilsən o Qızılgülə,
Özün də dönərsən şeyda bülbülə.
Qonaq qarşılanır üz gülə-gülə,
Bu halı gözünlə süz, onda danış.

İstəsən Qalaser, Gülüdüzə bax,
Hər tərəf şəlalə, hər tərəf bulaq,
Koroğlu, Həcərdən, Nəbidən soraq
Tapmasan burada iz, onda danış.

Qaraqaya elin yay oylağıdır,
Ağyarğana bax sən, cənnət bağıdır.
İndi yay ayının oğlan çağıdır,
Əli bulağında üz, onda danış.

Görənlər bəyənir Kədikvəngini,
Hamı sapa düzür söz çələngini
Turş suyun üstündə əmlik ətini
Kabab şişlərinə düz, onda danış.

Gəl Qara Həsəni sən qoca sanma,
Pərvanətək eşqin oduna yanma,
Dərələz cənnətdir fikrini danma,
Mənim ümmanımda üz, onda danış.

## ŞAHQULİYEV VALEH

Şahquliyev Valeh 1957-ci ildə Dərələyəz mahalının Gabud kəndində anadan olmuşdur. O, 1972-ci ildə Gabud kənd səkkizillik məktəbini, 1974-cü ildə Gomur kənd orta məktəbini, 1980-ci ildə isə Naxçıvan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1980-ci ildən indiyədək Sabirabad rayonundakı Polad-Toğay kənd orta məktəbində riyaziyyat müəllimi işləyir.

Gənc yaşlarından yaradıcılığa başlayan Valeh Savalanın şerləri "Sovet Naxçıvanı" və bir sıra digər dövri mətbuat səhifələrində çap olunmuşdur. O, "Bağışla yurd yeri" (Bakı, "Gənclik", 1998) şerlər kitabının müəllifidir.

### *QOŞMALAR*

### YURD HƏSRƏTİ

Gəldik, dağlar arxamızca baxışdı,
Qəm karvanı ürəklərə axışdı.
Nənələrin göz yaşları yağışdı
A yurd yerim, həsrətin nə yamandır?
Yəqin bizsiz işin ahdır, amandır.

Qayaların yaddaşında nə qalıb?
Nə itirib, əvəzində nə alıb
Xəzan vurub bağın, bağçan saralıb.
Gəl qınama saçımızda dən nədi,
Zaman bizi bircə-bircə dənnədi.

Babalarım əzəmətli, gözü tox,
Səbri böyük, nəsihətli sözü çox,
Nənələrin adı qalıb, özü yox.
Sinən üstə çiçək olub bitdilər,
Torpağına qarışdılar, itdilər.

İz qoymuşuq zirvələrin qaşında,
Yaddaşı var torpağın da, daşın da.
Nələr gördük buz bulaqlar başında,
O günlərdən qəlbimizdə iz qalıb,
Neçə kövrək, neçə şirin söz qalıb.

Tükənməzdir kəramətin, kərəmin,
Çox olmuşuq həmsöhbətin, həmdəmin,
Yadındamı o çağların, o dəmin?
A Bolbulaq, gözüm qalıb gözündə,
Həsrətini yaşadıram özümdə.

Vaxt oldu ki, üz çevirdik yada biz,
Uyduq ucuz şöhrətə biz, ada biz,
Xətaini gətirmədik yada biz.
Ruhu bizdən gileyləndi, incidi,
Çox gec bildik o gövhərdi, incidi.

Göynərtisi yaman olur sözün də,
Oda yandım misraların közündə,
Ləpirimi barı yaşat özündə,
Xəbərin yox, saçlarıma düşüb dən,
A yurd yerim, nigaranam ömürdən.

Yandım daha, külə dönüb közüm də,
Ha çalışdım, dağ olmadım dözümdə,
Qayğılar çox, yorulmuşam özüm də.
A yurd yerim, söz-söhbətim uzandı,
Salamat qal, görüşümüz gümandı.

### DAĞLARIN

Dağılıb üstündən obası, eli,
Hicrandan bənizi solub dağların.
Tənhalıq sinsidib, əyilib beli,
Gözləri gör necə dolub dağların.

Cığırı qar tutub, gədiyi duman,
Yoxdu daha ondan yaxşılıq uman.
Kimsəsiz qalıbdır, qocalıb yaman,
Həmdəmi lal sükut olub dağların.

Sanki bir qaladır bəyaz hörgülü,
Dərə yuxudadır, zirvə mürgülü,
Haçan yığacağam çiçəyi, gülü?
Gözləri yollarda qalıb dağların.

### SORUŞ

Mən kiməm, nəçiyəm bilmək istəsən,
Halal çörəyimdən, duzumdan soruş.
İndi yurd yeriyəm ləlsi köçmüş,
Bulaqlar göz yaşım, özündən soruş.

Gün var ki, dərdini il çəkə bilməz,
Yükləsən, bəlkə də fil çəkə bilməz.
Hər şeyin günahın dil çəkə bilməz,
Gözüm görənləri gözümdən soruş.

Bağın nə qorxusu, bağbanı sağsa?
Yağış nura dönər vaxtında yağsa.
Dağa tufan neylər arxası dağsa?
Zirvənin dözümün buzundan soruş.

Valeh, həqiqətə demə yalandı,
Biz başsız qalandan bu yurd talandı.
Sözdən ürəyimdə ocaq qalandı
Yandım, necə yandım, özümdən soruş.

## *GƏRAYLILAR*

### QALDI

Güman yoxdur qovuşmağa –
Yurd yerində izim qaldı.
Bu həsrətin soyuğunda
Odum söndü, közüm qaldı.

Mərdliyimiz ovxalandı,
Belimizdə od qalandı.
El basıldı, yurd talandı,
Yaşamağa lüzum qaldı?

Çulğalaşıb yaxşı-yaman,
Bir-birinə vermir aman,
Ögey oldu bizə zaman,
Yada dağım-düzüm qaldı.

El dərdini el çəkəndi,
Yad yıxdığın el tikəndi,
Nəyim var bitdi, tükəndi,
Mənə ancaq dözüm qaldı.

Valehəm, kaş bu yaşımda,
Mamır olam yurd daşımda.
Səndə axan göz yaşımda,
Vətən, söhbət-sözüm qaldı.

## QALDI DAĞLARDA

Biz dağlara güvənirdik –
Qardı dağlar da, dağlar da.
Qartalları uçub getdi –
Sardı dağlarda, dağlarda.

Bağışlamaz xəyanəti,
Əziz saxlar əmanəti.
Babaların dəyanəti
Vardı dağlarda, dağlarda.

Anar onu ananları,
Yamanlayar yamanları.
Valeh, ömrün xoş anları
Qaldı dağlarda, dağlarda.

## SƏYYAH MƏHƏMMƏD

Həsənov Məhəmməd İbiş oğlu 1925-ci ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, 1942-ci ildə Qovuşuq kənd orta məktəbini bitirmiş, 1943-cü ildə Böyük Vətən müharibəsinə getmiş, 1943-cü ildə yaralanıb qayıtmış, Gülüdüz kəndində məktəb direktoru işləmiş, 1946-cı ildə həyat yoldaşını öldürdüyü üçün 10 il dustaq olmuş, 1956-1960-cı illərdə kənddə, bundan sonra Laçında yaşamışdır. Bu müddətdə BDU-nun filologiya fakültəsini bitirmiş, 1978-ci ildə dünyasını dəyişmişdir. Çoxlu şerləri vardır.

### *QOŞMALAR*

### MƏN

Yarıla hasarlar, açıla yollar,
Qonşu eldə Şəhriyara çatam mən.
Söyləyəm sözümü o, dərd əhlinə,
Sinəmi boşaldıb rahat yatam mən.

Şeir nə olduğun bilməyənləri,
Haqq yoluna doğru gəlməyənləri,
Yaltaqlıq izini silməyənləri,
Qoyun əvəzinə mərdə satam mən.

Şeriyyat durulub ola göz yaşı,
Uzağa çəkilə ondan hər naşı,
Öpə biləm o, Şəhriyar qardaşı
Xəyalımdan qəm-qüssəni atam mən.

Sənəd yurdu, xali deyil bu diyar,
Cüt qardaşdır Şəhriyarla-Bəxtiyar,
Səyyah Məhəmmədən ola ixtiyar,
Ya sevilən olam, ya da batam mən.

## MARAL

İldırım şığıyıb, tökəndə dolu,
Tək, ala göz olan çobanam, maral!
Sel-su süpürəndə meşəni, kolu,
Min xəyala dalan çobanam, maral!

Çarpayım arxacdı, yasdığım daşdı,
Yorğanım bürküdü, çox zaman yaşdı,
Çölün bülbülləri mənə yoldaşdı,
Şirin tütək çalan çobanam, maral!

Beş yüz quzu bir sürüyə dolanda,
Gözəl mənzərədə səs-küy salanda,
Anasın tapmayıb yalqız qalanda,
Onu yada salan çobanam, maral!

Yağı düşmən qovdu, yurdu itirdim,
Dərələztək doğma yurdu itirdim,
Qərib yerdə şan-şöhrəti itirdim,
Səyyadam, Məmmədəm, çobanam, maral!

## NƏNƏN ÖLSÜN

Yəqin çoxlarına candan əzizsən,
Dünyanın şöhrəti pul, nənən ölsün.
Ağırlıq edirsən çıxmırlar altdan,
Çoxuna olmusan qul, nənən ölsün.

Alçaq nadanları mindirmə ata,
Nakəsi qudurdub etdirmə xata,
Bəzən üz döndərir oğuldan, ata,
Qız yerinə gedir dul, nənən ölsün.

Səyyahı çox yerdə get-gələ salma,
Nakəs qılıncını boynuma çalma,
Qisasın varsa da əlildən alma,
Mən sənə olmaram qul, nənən ölsün.

## KƏRİMOV ƏLİ MƏHƏMMƏD OĞLU

Soyu, kökü, atası, babası Dərələyəzdən olan Kərimov Əli 1933-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğlanqala kəndində anadan olmuş, 1936-cı ildə valideynləri ilə birlikdə doğma yurduna Qozulca kəndinə qayıtmış və ilk təhsilini bu kənddə almışdır. 1949-cu ildə ailələri doğma yurdundan zorla deportasiya olunmuş və Şərur rayonunun Oğlanqala kəndində məskunlaşmışlar. O, təhsilini burada davam etdirərək 1951-ci ildə Cəlil kənd orta məktəbini bitirmişdir.

1952-1956-cı illərdə o, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Sənaye-İqtisadiyyat fakültəsində təhsil almış və buranı bitirmişdir.

İnstitutu qurtaran kimi, 1956-cı ildə Sumqayıt şəhəri milis şöbəsinə təyinat almış, 16 il burda işləmiş, 13 ilə yaxın isə "1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyə görə", Azərbaycan Daxili İşlər Nazirliyində "Qüsursuz xidmətə görə" I-II-III dərəcəli medallarla, Böyük Vətən müharibəsinin 30-40-cı ildönümü medalları ilə, Daxili İşlər Nazirliyinin əlaçı döş nişanı ilə təltif olunmuş, I dərəcəli əməliyyatçı adına layiq görülmüşdür.

Milis mayorudur, Daxili İşlər Nazirliyinin təqaüdçüsüdür.

## YERİNDƏMİ

Göy üzündə gəzən bulud!
Söylə vətən yerindəmi?
Bağ-bağatlı, yasəmənli,
Qozulcamız yerindəmi?

Yalyurdun zirvəsi qardı,
Gen dünya başıma dardı,
Doğma kəndim yada qaldı,
Göl yerimiz yerindəmi?

Ayrılığa dözmək çətin,
Çəkirəm vətən həsrətin,
Düşmənə artıb nifrətim,
Sərin sular yerindəmi?

Həsrətini çəkər Əli,
Olubdu dərdindən dəli,
Köməyimə çatsın Əli,
Ləpirlərim yerindəmi?

*15.XI.1998*

## HÖRMƏTLİ ƏMİM OĞLU ƏSRAFİLƏ

Əmim oğlu deyim sənə ürəkdən,
Qozulca kəndimiz yadıma düşdü.
Top dağı, yal yurdu, dirəkli kaha,
Gözəl güllü Gədik yadıma düşdü.

Yaz gələndə torpağa dən əkərdik,
Yetişəndə onu əllə biçərdik,
Vaxt çatanda yaylaqlara köçərdik,
Köçdüyümüz yaylaq yadıma düşdü.

Allah bizə ömür versin günbə-gün,
Ömür yoxsa möhlət versin günbə-gün,
Bala, nəvə biz böyüdək günbə-gün,
Cavan günlərimiz yadıma düşdü.

Toy eləyək nəvələrə ilbə-il,
Gəlin gəlsin ev bəzənsin ilbə-il,
Günlər keçir, qocalmayaq ilbə-il,
Yaş ötdükcə gənclik yadıma düşdü.

Əli arzu edir vətənə gedək,
Ana torpağından doyunca öpək,
Seydəli ağanı ziyarət edək,
Ziyarət günləri yadıma düşdü.

***01.12.2005 Sumqayıt şəhəri***
***Əli Qozulcalı-Dərələyəzli (Əli Kərimov)***

## *QOŞMALAR*

## KƏNDİMİN

Bulaqları şaqqıldayıb axardı,
Qarlı dağlar həsrət ilə baxardı,
Qızlar əllərinə xına yaxardı,
Bax beləydi hal əhvalı kəndimin.

Odun qırıb şələmizə düzərdik,
Ayaqyalın qayalıqda gəzərdik,
Gün qızanda çay gölündə üzərdik,
Gözəl idi təbiəti kəndimin.

Yal yurd dağı ağ buludlar qucardı,
Ətrafından qu kəkliyi uçardı,
Dağ keçisi ovçu görcək qaçardı,
Gül-çiçəkdi yaylaq yeri kəndimin.

Əli, həsrət çəkib ümidin üzmə,
Keçmişi ümidsiz sətirə düzmə,
Qozulcan tarixdir, sən ondan bezmə,
Yəqin açılacaq yolu kəndimin.

*4 noyabr 1999*

### *BAYATILAR*

Əzizinəm dərdim nə?
Soruş bağdan dərdim nə?
Vətən darda qalanda
Təbib bilməz, dərdim nə?

Əzizinəm dağ yei,
Sərin olar dağ yeri.
Vətən gavurda qalsa,
Hey ağrıyar dağ yeri.

Ağla Qozulcam, ağla
Düşmənin gözün dağla
Hələ müşgüldü görüş
Başına qara bağla.

Əzizinəm dağ qaldı,
Yaylaq qaldı, dağ qaldı.
Qozulca köç eylədi,
Sinəmizdə dağ qaldı.

Mən aşiq gözüm qaldı,
Alovum, közüm qaldı.
Vətəndən erkən getdim,
Deməmiş sözüm qaldı.

Kəndim uca dağlıdır,
Qəlbim ona bağlıdır.
Gedib-gələ bilmirəm,
Yollar yenə bağlıdır.

Çəkin haray, hay, ellər,
Göz yaşlarım çay, ellər.
Gözüyaşlı Qozulcam,
Amanatdı ay ellər.

*25.VII.1999*
*Bilgəh sanatoriyası*

## MƏMMƏDOV ƏLİ

Məmmədov Əli Ağa oğlu 1921-ci ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuşdur. O, 1928-ci ildə öz doğma kəndində birinci sinfə getmiş, ibtidai təhsilini burada almış, orta təhsilini isə Qovuşuq kənd orta məktəbində başa vurmuşdur. 1942-ci ildə Gülüdüz kənd səkkizillik məktəbində müəllimlik fəaliyyətinə başlamış, 1944-1958-ci illərdə Qovuşuq, Ələyəz, Zeytə, Gədikvəng, Qaraqaya kəndlərində, 1959-1988-ci illərdə Gülüdüz kənd səkkizillik məktəbində riyaziyyat müəllimi işləmişdir. 1947-ci ildə SSRİ Ali Sovetinin fərmanına əsasən Böyük Vətən müharibəsində əməkdən fərqləndiyinə görə medalı mükafatlandırılmışdır.

1960-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat fakültəsinə daxil olmuş, 1967-ci ildə həmin fakültəni qiyabi yolla başa vurmuşdur.

2 noyabr 1967-ci ildə Ermənistan SSR-nin Əməkdar müəllimi adına layiq görülmüşdür. 1988-ci ildə erməni şovinistləri tərəfindən öz doğma yurdundan qovulmuş, Bakıda məskunlaşmış və 2000-ci ildə dünyasını dəyişmişdir.

## *QOŞMALAR*

### GƏL

Çox öymə elini, öz vətənini,
Sən bizim ellərə şeh düşəndə gəl.
Quzular mələşib ana gəzəndə
Arılar pətəyə bal süzəndə gəl.

İç sərin suyundan, gəz çöl, çəməni,
Kolların dibindən üz bənövşəni,
Bir-bir dindir lalə, nərgiz, süsəni.
Kəklik cərgəyə düzüləndə gəl.

Qonağa hörmət var bizim bu eldə,
Ağaşıqla Alı əzbərdi dildə,
Oturmaq istəsən çəməndə, çöldə,
Düzlərdən qar izi üzüləndə gəl.

Elin sərvətini gör öz gözünlə,
Onu təsvir elə sən öz sözünlə,
Yadigar qoy ləpirinlə, izinlə
Cavanlar yallıya düzüləndə gəl.

Əlinin özünü, sözünü yoxla,
Yaxşıya yaxşı de, yamanı oxla.
Elimin sərvətin özün gör, yoxla,
Durnalar qatara düzüləndə gəl.

## *BAYATILAR*

Əzizim tikən ağlar,
Sökən yox, tikən ağlar.
Qürbət eldə ölənin,
Kəfənin biçən ağlar.

Əzizinəm gülə bax,
Tikana bax, gülə bax.
Tikan şüvərək durub,
Boynu bükük gülə bax.

Əzizim üzə çıxar,
Əyri yol düzə çıxar.
Əyri işə əl atma,
Pis iş evini yıxar.

Əzizinəm bu dağa,
Duman gəlif bu dağa.
Mən, bu dağa dözürəm,
Dağlar dözməz bu dağa.

Əzizinəm o bağa,
O baxçaya, o bağa.
Kimdən ixtiyar alıb,
Ayaq basdın o bağa.

Əzizinəm güləsən,
Ağlamayıb güləsən.
İlahidən arzum budur
Yetişəsən gülə sən.

Əzizinəm nə qaldı,
Nə qovğadı, nə qaldı.
Elim yurddan qovuldu,
Yurdum yağıya qaldı.

Əzizinəm, dağdadı
Arandadı, dağdadı.
Elimdən ayrı düşdüm,
Heç kəs bilmir hardadı.

Əzizim kimə deyim,
Mən kiməm? Kimə deyim.
Elimdən ayrı düşdüm,
Dərdimi kimə deyim.

Əzizinəm yaxşıya,
Hörmət elə yaxşıya.
Namərd sənə tor qurar,
Mərd aparar yaxşıya.

*Əli Məmmədov 15/X-1989.*
*Qarabulax kəndi*

## BABAYEV KAMRAN ƏBDÜLƏLİ OĞLU

Babayev Kamran 1932-ci ildə Dərələyəz mahalının Gədikvəng kəndində anadan olmuşdur. O, İrəvan Kənd Təsərrüfatı texnikumunun aqronomiya fakültəsini bitirdikdən sonra kənd təsərrüfatı sahəsində bir çox vəzifələrdə çalışmış və eyni zamanda Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsilini qiyabi yolla davam etdirmişdir. Universiteti bitirdikdən sonra orta məktəbdə müəllim işləmiş, 1988-ci il iyunun 8-də isə Bakı şəhərində vəfat etmişdir.

### *QOŞMALAR*

### DAĞLARI

Desələr Gədikvəng köçdü nə qaldı?
Göstərin zirvəsi qarlı dağları.
Desələr dərdlərə hanı dərmanı?
Göstərin döşündə buz bulaqları.

Köksündə yaylayır obalar, ellər,
Baxdıqca uzanır ormanlar, çöllər,
Çox dastan yazıbdı adına ellər,
Şairlər unutmur belə dağları.

Qoşa Turşbulağı, Yeddibulağı,
Qız-gəlin yığnağı, mərdlər oylağı,
Uzaq ölkələrdən gəlir sorağı,
Dünya tərif edir bizim dağları.

Kamran deyər mehribandı elimiz
Səxavətdə Hatəm olub elimiz.
Haqq söyləyib, düz danışıb dilimiz
Xalqım əldən verməz bizim dağları.

### BU GÜN

Atamız-babamız yaşayan yurdun,
Gözəl xanələri söküldü bu gün.
Doğma yurd dəyişmək asan iş deyil,
Nurlu göz yaşları töküldü bu gün.

Qaldı yad ellərə çəmənlər, çöllər,
Araz-Kür boyunca dağıldı ellər.
Çətinki bir-birin dərdini bilər,
Hicran toxumları səpildi bu gün.

Qohumluq-qonşuluq yad oldu, getdi,
Ünsiyyət, məhəbbət aradan itdi.
Kamran da əlacsız kənddən köç etdi,
Çoxlarının beli büküldü bu gün.

*3 iyun 1987-ci il*

## HARDA VAR

Çıxırıq Vətəndən, bu ana yurddan,
Geniş torpaq, belə çöllər, harda var?
Xeyir-şərdə toplaşırdıq bir yerə,
Kömək verən belə əllər harda var?

Qışımız xoş, səfalıdır yayımız,
İlahidən mal-heyvandı payımız,
Səxavətdə az tapılar tayımız,
Açıq ürək, vuran əllər harda var?

Soğanlı, Taxtayurd, yurd Soyuqbulaq,
Şəkidən, Şirvandan hey istər qonaq.
Kasıba, yoxsula el durur dayaq,
Söylə elim Dərələzdən harda var.

Mən Kamranam, el-obalar gəzmişəm,
Yad diyarda bir gün qalıb bezmişəm.
Yurda çatcaq tər bənövşə üzmüşəm,
Söylə görüm belə güllər harda var?

***11 iyul 1987-ci il.***

## ŞƏKİL DƏRƏLƏYƏZLİ

Paşayev Şəkil Təvəkkül oğlu 22 iyul 1938-ci ildə Dərələyəzin Qabaxlı kəndində anadan olmuşdur. 1958-ci ildə orta məktəbi, 1975-ci ildə isə Gəncə Dövlət Pedaqoji İnstitutunun filalogiya fakültəsini bitirmişdir. 1964-cü ildən şerləri dövrü mətbuatda çap olunur. Hal-hazırda Abşeron rayonunun Masazır kəndində yaşayır.

### *GƏRAYLI*

### QALDI

Üzü bəri duran dağlar,
Dağlar sizdə nəyim qaldı?
Yaylaqlarda sürülərim,
Bağçalarda gülüm qaldı.

Talandı dövlətim, varım,
Bağlı qaldı qapılarım,
Qəbirlərdə ulularım,
Təndirdə çörəyim qaldı.

Gör bizə güc gəldi kimlər,
Vətəni yox, vətənsizlər
Gözü yolda axşam, səhər,
Doğma əzizlərim qaldı.

Yurdum qalıb ermənıyə,
Gəl xəbər al deyim niyə
Eli çağırdım birliyə
Olmadı, köməyim qaldı.

Köçdü getdi ağır ellər,
Soldu bağçalarda güllər,
Ay Şəkil başına küllər
Arsızca gülməyim qaldı.

## AY DƏRƏLƏYƏZ

Çəmənim, çiçəyim, gülüm, nərgizim,
Pozulmaz ilqarım, silinməz izim.
Sən mənim taleyim, gecəm-gündüzüm,
Şöhrətim, şanımsan, ay Dərələyəz,
Doğma vətənimsən, ay Dərələyəz.

Meyvəli bağlarım, uca dağlarım,
Güneydə çiçəyim, qüzeydə qarım,
Tükənməz sərvətim, dövlətim, varım,
Elim, məskənimsən, ay Dərələyəz,
Doğma vətənimsən, ay Dərələyəz.

Cənnətə bənzəyir hər qarış yerin,
Qaynar bulaqların, suların sərin,
Qıyqacı baxışlı şux gözəllərin,
Yoxdu bunlara tay, ay Dərələyəz
Doğma vətənimsən, ay Dərələyəz.

Ay Şəkil sözünü söylə ellərə
Tərifin eylərəm düşsün dillərə
Gəzdim qarış-qarış baxdım hər yerə,
İnan yoxdur sənə tay, Dərələyəz
Doğma vətənimsən, ay Dərələyəz.

## DƏRƏLƏYƏZ

Zalım fələk bizlə qol-qola durdu,
Köçdü ağır ellər boş qaldı yurdu.
Sormayın a dostlar, dərdim ağırdı,
Tökər gözlərimdən yaş Dərələyəz!
Sən qalandan bəri boş Dərələyəz!

Baxır məğrur-məğrur Salsal qalası,
Qayada qıy vurur qartal balası,
Bulaq zümzüməsi, dağın havası,
Gör necə xoş gəlir, xoş Dərələyəz!
Heyif ki, qalmısan boş, Dərələyəz!

Arpadan ötəndə dərə yoxuşa,
Xınalı kəkliyə eylə tamaşa,
Bərədə marallar verib başbaşa,
Tökər gözlərindən yaş Dərələyəz,
Sən qalandan bəri boş Dərələyəz!

O yerin gözüydü Sallı dərəsi,
İnanın, cənnətdir Hava meşəsi,
Qırx bulaq yaylağı, Murad təpəsi,
Heyif qaldı bizsiz boş, Dərələyəz!
Eylərəm tərifin xoş Dərələyəz.

Baharda bol olar gülü, nərgizi,
Əhdə vəfalıdı oğul, qızı,
Ormanında qalıb Şəkilin izi,
El köçüb qalmısan boş, Dərələyəz.
Tökürəm gözümdən yaş, Dərələyəz!

## ƏLİ QƏMGİN DƏRƏLƏYƏZLİ

Abbasov Əli Abbas oğlu (Əli Qəmgin Dərələyəzli) 1965-ci il mayın 1-də Dərələyəz mahalının Qalaser kəndində anadan olmuşdur. 1981-ci ildə Qovuşuq kənd orta məktəbini bitirmiş, həmin il Azərbaycan Dövlət Tibb Universitetinin stomotologiya fakültəsinə daxil olmuş, 1986-cı ildə universiteti bitirmişdir. Hal-hazırda Bakı şəhəri Nəsimi rayonu 1№-li uşaq poliklinikasında həkim stomatoloq işləyir.

## DƏRƏLƏYƏZDƏ

Gül üstündə cəh-cəh vurur bülbüllər,
Cənnətin izi var Dərələyəzdə.
Ormanında açır süsən, sünbüllər,
Öləsən, qalasan Dərələyəzdə.

Qartallar qıy vurur uca dağlarda,
Cənnətin ətri var, sərin bağlarda,
Behiştin yeri var, buz bulaqlarda,
Qalanıb yanasan, Dərələyəzdə.

Qonağı, qaranı sevir bu yerlər,
Dostlu, aşinalı olub bu yerlər.
Mərd igidlər oylağıdır bu yerlər,
Canıma canansan, Dərələyəzdə.

Cənnət diyarında, cənnət bağında,
Kəklik qaqqıldaşır uca dağında,
Ömrümün niskilli cavan çağında,
Ölsəm basdırarsan Dərələyəzdə.

## AY DƏDƏ HƏSƏN!

Yurd dərdi qəlbimi yaman göynədir,
Dərdimə dərman tap, ay Dədə Həsən!
Didərgin elimi zaman göynədir,
Yarama məlhəm tap, ay Dədə Həsən!

Təkədondurandan baxmıram Aya,
Təkə, arğalısın tökmürəm çaya,
İndi yad əldədir kəklikli qaya,
Hiddətdən ölürəm, ay Dədə Həsən!

Ata-babamızın qəbri o yerdə,
Ruhları gözləyir bizi o yerdə.
Gərək biz də gedək, ölək o yerdə,
Vətən müqəddəsdir, ay Dədə Həsən!

Kamil ağsaqqalsan, aqil insansan,
Elin dəhanında şəkərsən, balsan,
Yaşın çox olsa da hələ cavansan,
Çək qatarı yurda, ay Dədə Həsən!

Ermənilər tutub doğma torpağı,
Bağ-bağçamın solub yaşıl yarpağı,
Əli Qəmli necə çəksin bu dağı,
Yurdu onsuz qalıb, ay Dədə Həsən!

***Bakı, 10 oktyabr 2001***

## ƏHMƏDOV OKTAY

Əhmədov Oktay 1941-ci ildə Dərələyəzin İstisu kəndində anadan olmuş, Aşıq Nəbinin nəvəsidir. Nənəsi Fatma arvad sinədəftər bir qadın olmuşdur. Oktay energetika texnikomunu bitirdikdən sonra İstisu qəsəbəsində olan su zavodunda energetik vəzifəsində işləmiş, 1976-cı ildə elektrik qəzası nəticəsində İstisu qəsəbəsində dünyasını dəyişmişdir. Onun çoxlu qoşmaları vardır. Onlardan bir neçəsini nümunə verməklə kifayətlənirik.

## AZƏRBAYCANDI

İgidlər oylağı bir gözəl diyar,
A dostlar, bu ölkə Azərbaycandı.
Hər daşı Qorquddan qalıb yadigar,
Süfrəsi nemətli Azərbaycandı.

Mən vətən evladı, bir azəriyəm,
O, gözəl ölkənin gur Xəzəriyəm.
Cabbar çahargahı, Qurban tarıyam.
Musiqi sərvətli Azərbaycandı.

Arif oxuyanda ilhamım artır,
Əbdülfətin "Şur"u, qəlbimə yatır.
Zeynəbin "Segah"ı xalqı ağladır,
Hər daşı qiymətli Azərbaycandı.

Oktay, sən şerini asta yaz, bir-bir,
Qoy oxusun "Rast"ı bizim gənc Sabir,
Səhnədə görünsün o kaman Habil,
Dünyada şöhrətli Azərbaycandı.

## KƏLBƏCƏR

Yüksək dağlarını örtür qar-boran,
Ağır ellər yığnağısan, Kəlbəcər.
Yaşıl yamaclarda alaçıq quran,
Mərd igidlər məskənisən, Kəlbəcər.

Kimi məşğul olur kefə-damağa,
Kimi qonaq olur südə, qaymağa.
Beçənin balını qatanda yağa,
Dad verirsən sən damağa, Kəlbəcər.

Oktay kədərlidir, yazır kədərsiz,
Bu dünyada kimsə olarmı dərdsiz.
Dünya məqbərsi daşsız, divansız,
İgidlərin səngərisən, Kəlbəcər.

## DAĞLAR

Yüksək zirvələrin, gen dərələrin.
Nə gözəl görünür sənin, a dağlar.
Bahar fəsli gəlib, güllər açanda,
Çəkilir dumanın, çənin a dağlar.

El-oba yığılır sənin başına,
Mən heyranam torpağına, daşına,
Mat qalmışam sənin bircə işinə,
De niyə tez gəlir qışın, a dağlar.

Qar yağır örtülür daşın, torpağın,
Ağappağ geyinir hər bir budağın.
Oktayın istəyi, arzularının
Ümid, pənah yeri sənsən, a dağlar.

# AYDIN DƏRƏLƏYƏZLİ

Aydın Ağəli oğlu 1955-ci ildə anadan olmuş, 1961-1971-ci illərdə Dərələyəz mahalının Terp kəndində orta məktəbi bitirmiş, 1973-cü ildə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunun "Mühasibat uçotu" fakültəsinə daxil olmuş və 1979-cu ildə institutu iqtisadçı mühasib ixtisası üzrə bitirmişdir.

1988-ci ildə Erməni qəsbkarları tərəfindən öz doğma ata-baba yurdlarından zorla qovularaq, Xanlar rayonunun Əzizbəyov kəndində məskunlaşmışdır. Kiçik yaşlarından şerə xüsusi maraq göstərmişdir. Onun yazdığı qoşma və digər şerlərindən bir neçəsini verməyi lazım bildik.

## SARI BÜLBÜL

Uçub uzaqlaşma isti yuvandan,
Qanad saxla bir an, ay sarı bülbül.
Mənim bu sinəmdə xeyli dərdim var,
Təxavül et, deyim qoy, sarı bülbül.

Təzələmə mənim köhnə dərdimi,
Qərib ellə doğma vətən birdimi?!
Yağı-düşmən talan etdi yurdumu,
Tutdu mənə divan, toy, sarı bülbül.

Yurd yeri, binələr, vətən həsrəti,
Tanı aldı bəxş etdiyi qisməti.
Ürəyimin başındakı göynərti,
Salıbdır köksümə vay, sarı bülbül.

Amandır, tək etmə vətən bağını,
Çəkməək olmur vallah, onun dağını,
Verim sol gözümü, ya da sağını,
Olarmı vətəndən pay, sarı bülbül?

Aydına qulaq as, eşit sözlərin,
O şirin nəğmənlə şad et bizləri,
Vətənə kəc baxan xain gözləri,
Dimdiyinlə çıxart, oy, sarı bülbül.

## AY VƏTƏN

Bir quş olub gecə-gündüz uçaydım,
Sənə çatıb bu dünyadan köçəydim.
Bir arzum var, son nəfəsdə içəydim,
Baba bulağının suyun, ay Vətən.

At oynadan igidlərin nərəsi,
Yalçın qayalara düşərdi səsi,
Gümüşxana, Öküzölən dərəsi,
Niyə yada qaldı, deyin, ay Vətən?

Qısır yurdu, Hacıfərhad, Sarcalı,
Əyrisuyun başı daima qarlı.
Qonaqgörməz, Kəlləqayan səfalı,
Hansın deyim, hansın deyim, ay Vətən.

Gedikdən görünür büsbütün hər yer,
Mehdinin vətəni o gözəl Herher,
O doğma vətənin hər qarışı dürr,
Nəqşisən bu yerin, göyün, ay Vətən.

Göydağdan baxanda görünür Köçbək,
Yaşıl çəmənləri al, qumaş, ipək,
Yoxdur yer üzündə sənintək göyçək,
Sən bu gözəlliklə öyün, ay Vətən.

Anam İstisudur, atamdır Ağkənd,
Çoxları səninçün aparır həsəd,
İndi aramıza çəkilibdir sədd,
Mən sənə hösrətəm bugün, ay Vətən.

## DUR GEDƏK

Başına döndüyüm gülüzlü pəri,
Gəlmişəm aparam, tez ol, dur gedək.
Sənsizliyin məni edib sər-səri,
Könlümə bir həmdəm –saz ol, dur gedək.

Səbrim tükənibdir, qalmayıb dözüm,
Sən bir bəxt ulduzum, sən alın yazım,
Budur iltimasım, budur son sözüm,
Əhdi-peymanına düz ol, dur gedək.

Məcnun təki məni saldın çöllərə,
Xar eləyib, saldın dildən dillərə,
Gözüm yaşı axıb döndü sellərə,
O sellərdə üzən qaz ol, dur gedək.

Bilirəm küsmüsən xeyli vaxt məndən,
İndi gəl barışaq, ol mənə həmdəm,
Sən ol Əsli, mən də olum Xan Kərəm,
Mən kül olum, sən də köz ol, dur gedək.

Ay canım, ciyərim, gözümün nuru,
Könlümün rübübı, ömrümün tarı,
Bir yaxın gəl, yaxın otur, gül barı,
Dəhanımda şirin söz ol, dur gedək.

Yaman alıb başım üstün fəlakət,
Umu-küsü, xoşagəlməz hərəkət,
Gətir bizim ev-eşiyə bərəkət,
Bol süfrəmə çörək-duz ol, dur gedək.

## BU ANAM

Bir oğul ərsə yetirdi,
Kipriyilə od götürdü.
Gözünün nurun itirdi,
Bala yolunda bu anam.

Bu həqiqət, bir gerçəkdi,
Gecə-gündüz keşik çəkdi.
Bu dünyada nələr çəkdi,
Bala yolunda bu anam.

Oğul getdi, tənha qaldı,
Ürəyinə dərdi saldı.
Saç ağardıb, tez qocaldı,
Bala yolunda bu anam.

Gözünü yollara dikdi,
Ömrünün sarayın sökdü.
əyilməz qamətin bükdü,
Bala yolunda bu anam.

## QARDAŞ

*Əziz dostum Köçəri müəllimə*

Ürəyim hər zaman döyünür sizlə,
Gözümün işığı, Köçəri qardaş.
Ariflərə çatdır "mətləbi" sözlə,
Ələsgər elminin açarı qardaş

Ayağa qalx, sevindir bu məclisi,
Alıdan, Nəcəfdən söylə təcnisi,
Beşgünlük ömürdür vallah, cəmisi,
Çəkib, aparacaq içəri, qardaş.

Demə ki, bu həyat şirindir, şirin,
Vüsala yetmədi Fərhadla Şirin,
Dağ çeşməsi ulu Dədə Şəmşirin,
Döndü zəhrimarə şəkəri, qardaş.

Bilirəm aşiqsən şerə, qəzələ,
Həm şirin söhbətə, həm də gözələ,
Vurğundan bir söz aç, ruhu təzələ,
Cahan daim, ömür köçəri, qardaş.

Billur qədəhlərdən bir nuş eyləyək,
Ləziz xörəklərdən iştahla yeyək,
Əlağa Vahiddən qəzəllər deyək,
Verək sələflərdən xəbəri, qardaş.

Dolandım Sibiri mən bekar-beytin,
Bu qərib ölkədə yaşamaq çətin,
Yada salaq Azaflının "Dübeyti"n,
Bir də, o Borsunlu Səfəri, qardaş.

Nə zamandır bəxti yatıb Aydının,
Çərxi-fələk başın qatıb Aydının,
Elə billəm vaxtı çatıb Aydının,
Tərsinə dövr edir təkəri, qardaş.

*Novokuznetsk şəhəri*
*5 aprel 1988-ci il.*

* * *

Nə gecəm var, nə gündüzüm,
Ağlayıram zülüm-zülüm,
Həsrətinə necə dözüm?
Yalvarıram getmə, dayan!
Oyan, əziz atam, oyan!

Yanıb anamın halına,
Baxıram qara şalına,
Altı qızın sualına,
Cavab verəmmirəm, inan!
Oyan, əziz atam, oyan!

Baxıram mən dörd bir yana,
Axtarıram yana-yana,
Soraqlayıb, xiyabana,
Gətirmişəm əldə Quran!
Oyan, əziz atam, oyan!

Lalıdıq sərа-sər bir il,
Kabab oldu ağızda dil,
Qara torpaq yerin deyil,
Saralan çöhrənə qurban!
Oyan, əziz atam, oyan!

Bir el bizə qonaq gəlib,
Anam yenə süfrə sərib,
Yoxluğunu hamı duyub,
Soruşurlar: Hanı Qağan!
Oyan, əziz atam, oyan!

Bu dünyaya çox aldandım,
Qəribliyə hey yollandım,
Axır odlara qalandım,
İndi, ürək edir tüğyan!
Oyan, əziz atam, oyan!

Bu nə qurğu, bu nə kələk,
Gözdə qaldı arzu, dilək,
Baş açmadım səndən, fələk,
Bu nə hökün, bu nə fərman!
Oyan, əziz atam, oyan!

Sən idin mənim gümanım,
A mənim dinim, imanım,
Səndən sonra bil, anamın,
Dəyişibdir halı yaman!
Oyan, əziz atam, oyan!

Xeyli vaxtdır gəlmir səsin,
Evdə yoxdur gül nəfəsin.
Oğul, uşaq, nəvə, gəlin,
Arzulayır səni hər an!
Oyan, əziz atam, oyan!

El yığılıb, bizə gəlsin,
Dərdimə əlac eyləsin,
De görüm, indi neyləsin,
Suyu qurumuş dəyirman?!
Oyan, əziz atam, oyan!

Layla deyil, bu ağıdır,
Əriyən gözüm yağıdır,
Sinəmi söküb dağıdır,
İçimdəki odlu vulkan!
Oyan, əziz atam, oyan!

Bu nə tale, bu nə yazı,
Fələk apardı Pürüzü,
Gecə-gündüz əmin qızı
Nalə çəkib, edir fəğan!
Oyan, əziz atam, oyan!
Oyan, əziz atam, oyan!

## GEDİR

*Ağır xəstə yatan həkim, əmim
oğlu İbrahimə ithaf edirəm.*

Ay ellər, acizəm, köməyim yoxdur,
Alimim, loğmanım əlimdən gedir!
İnsanlar sərrafı, o böyük insan,
Tək məndən demirəm, elimdən gedir!

Vaxtsız bağışlayır öz həyatını,
Xalqını qızdıran köz həyatını,
Gülüşlü, qəh-qəhli söz həyatını,
Ömrümü gödəldir, ilimdən gedir!

Çəkir ürəyimə çalın-çarpaz dağ,
Ondan sonra çox gəzmərəm mən də sağ,
Saralıb solubdur, viran qalıb bağ,
O igid arxam da belimdən gedir!

Nəzərə almayır cavan yarını,
Toyun etmədiyi balalarını,
Gizlədir hamıdan ağrılarını,
Dilimin ləzzəti dilimdən gedir!

Onu cəlb etmədi dünyanın varı,
Əzabdan qurtardı çox insanları,
Qəmlərə qərq etdi qəmli Şahmarı,
Uçub şeyda bülbül gülümdən gedir.

*14 oktyabr 2001, Ceyranbatan.*

## SAMƏDDİN HÜSEYNOV

Hüseynov Saməddin Musa oğlu 1959-cu ildə Dərələyəzin Qabaxlı kəndində doğulmuş, 1976-cı ildə orta məktəbi, 1988-ci ildə ali məktəbi bitirmişdir. 1988-ci ildə ailəsi Dərələyəzdən deportasiya olunmuş, Bakı şəhərində məskunlaşmış və hal-hazırda Bakı şəhərində yaşayır. İki oğlu, bir qızı var. O, uşaq yaşlarından saza-sözə meyl göstərmiş və sonralar qoşma, gəraylı yazmağa başlamışdır. Onlardan bir neçəsini verməklə kifayətlənirik.

## EY FƏLƏK

Sağalmamış ürəyimin yarası,
Qəfil bir yara da vurdun, ey fələk.
Nə günahın sahibiyəm, bilmirəm,
Sən mənim qəsdimə durdun, ey fələk.

Gələndə qapına ələm də, dərd də
Təskinlik verərdi oba da, kənd də,
Yas libasın soyunmamış həyətdə,
Bir yas məclisi də qurdun, ey fələk.

Bağışla Allahım, əhv et bəndəni,
Çox da ki, eynimin qurumur nəmi,
Görmək istəyirəm, atıb dərd, qəmi,
Bir də ata-baba yurdun, ey fələk.

## ANA ƏTRİ

Elə bilmə səni unudub oğlun,
Hər an səni yada salıram, ana.
O keçən günləri xatırladıqca
Dərindən xəyala dalıram, ana.

Sızlayır ürəyim kaman, tar kimi,
Sinəmin dağı var o dağlar kimi,
Məzarın önündə buludlar kimi,
Tez-tez boşalıram, doluram ana.

Həyatdan dörd oğul payı almısan,
Beşiyi başında oyaq qalmısan,
Sübhətək yatmayıb layla çalmısan,
İndi sənə layla çalıram, ana.

## MƏN SƏN OLSAM

Böyük arzularla yaşayan insan,
Bəzən kiçiyinə nail olmayır.
Bütün bu arzular onda var ikən,
Dönüb bu arzudan biri olmayır.

Ayrılıq qəlbimi kövrəltsə bir gün,
Mənsiz sən yaşasan illər, aylar, gün,
Gözündən yaş axsa, sən baxsan üzgün,
O göz olsam, bir arzuma çatardım.

Dedim gülüm, birdən külək əsəndə,
Qara tellər əsmər zülfə tökəndə,
İncə əllər ona tumar çəkəndə,
Əl mən olsam, bir arzuma çatardım.

Həsrətlə baxassan yollara bəlkə,
Zülfün gözlərinə salacaq kölgə,
Darıxmışam, gəl sevgilim, deyincə,
O dil olsam, bir arzuma çatardım.

Ürək sevib, sən özün də bilmədən,
Bu eşqi sevmədən, əzizləmədən,
Ürəyin hökmünə dözməyir bədən,
Ürək olsam, bir arzuma çatardım,
Mən sən olsam, arzulara çatardım.

## XALLI QIZ

Deyirlər həyatda təsadüf çoxdur.
Vallah sən inanma buna, xallı qız.
Mən necə deyim ki, məhəbbət yoxdur.
Bəs səni sevməyim nədir, xallı qız?

Hələ çox uşaqkən sevmişdim səni,
Sən o zaman heyran etmişdin məni,
Gəl inan gözəlim, sevirəm səni,
Dediyim tarixdən bəri, xallı qız.

Artıq sən anasan, yaşa dolmusan,
Necə var idinsə, elə qalmısan,
Küsməyi dostlardan unutmamısan,
Qoymaram küsəsən məndən, xallı qız.

Sənə deyiləsi bir kəlmə söz var,
Ürəkdə məhəbbət, gözdə intizar,
Gəl görüşə gülüm, sənə sözüm var.
Gəl deyim sevirəm səni, xallı qız.

Məhəbbət şahımsan, mən sənə kölə,
Ya boynumu vurdur, ya azad elə,
Göyləri yandırar çəkdiyim nalə,
Vallah, ahım səni tutar, xallı qız.

Bir səfa görmədim sənin eşqindən,
Ürəyim bağlayıb vərəm eşqindən,
Yanıban kül oldu Kərəm eşqindən,
Olmuşam mən ondan betər, xallı qız.

Yer birləşir, gəl əlləşmə göylə sən,
Kim qarğayıb sevdamızı, söylə sən,
Məni o sevdadan məhrum eyləsən,
Qəfil çovğun, tufan qopar, xallı qız.

Çoxdan o göylərdən enib Saməddin,
Fikir aləmində donub Saməddin,
Qara gözlərindən öpüb Saməddin,
O al yanağından öpər, xallı qız.

## NƏ ÜÇÜN

Şəklini həkk etdim mən gözlərimə
Səndən başqasını görməmək üçün,
Bütün varlığımla səni sevdim ki,
Səndən başqasını sevməmək üçün.

Gülüm, necə sevdim səni, biləydin,
Bu sevgiyə dəli deyib, güləydin,
Sevgimi mənimlə sən kaş böləydin,
Sevməyin mənasın öyrənmək üçün.

Ömrümü, günümü bağladım sənə,
Bilmədim zillətlər verəssən mənə,
Mən yenə sevirəm, sevəcəm yenə,
Sevəcəm, sevgimlə ölməyim üçün.

Sən mənim dünyamı tarımar etdin,
Sağlam canım vardı, sən bimar etdin,
Dost-düşmən içində məni xar etdin,
Axan göz yaşımı silmə, nə üçün?
Səni bağışlayım? Niyə? Nə üçün?

## HƏSƏN MÜƏLLİMƏ

*Xəstəxanada cərrahiyyə əməliyyatını keçirmiş el ağsaqqalı Həsən müəllimə cansağlığı diləyirəm.*

Sən tanrı, tez sağal, intizardayıq,
Sənə ümidini bağlayıb elim.
Hər hörmət, izzətə layiqsən, layiq,
Sənin ağrın alım, Həsən müəllim.

Könül bağçasının sənsən baharı,
Calansın ömrünə bu ömrüm, günüm,
Buraxma yaxına azar-bezarı,
Bizi yetim qoyma, başına dönüm.

Quş da yuvasından perik düşməsin,
Qürbət kaman kimi qəddimi əyir.
Vətən torpağının ətrindən ötrü,
Lap elə burnumun ucu göynəyir.

Sinədəftər idi mərhum atanız,
Obanın gözüydü Mirzəli oğlu,
Arxası, dayağı kasıb-kusubun,
Şöhrəti, sözüydü Mirzəli oğlu.

Görmədim səndəki olan hünəri,
Ağsaqqal deyilən başqa bir kəsdə.
Ulu babaların bir məsəli var: -
«Bitibtir, bitəcək ot kökü üstə»

Vaxtında yağıdan qisas almasan,
O murdar erməni bizə nə deyər?
O cənnət məkana biz qayıtmasaq,
İşıqlı dünyamız qara don geyər.

Doğma Dərələyəz, o gözəl diyar,
Yadıma düşəndə, səsim titrəyir.
Əmrini gözləyir bizim ərənlər,
Doğma yurd yerləri bizi gözləyir.

## ÇƏTİNDİR

Ay Zəlimxan, oturmuşam istidə,
Vallah, billah nəfəs almaq çətindir.
Sənin söhbətinə, sənin sözünə,
Qıraqdan biganə qalmaq çətindir.

Eli, obaları salırsan yada,
Heyif ki, onları biz verdik bada,
Vətən torpağında düşmənə, yada,
Səfa sürmələri mənə çətindir.

Başımız üstündən əskilməz duman,
İnsanı yaşadır sabaha inam,
Bizi qucağında yelləyir zaman,
Fələyə arxayın olmaq çətindir.

Vurğunu olduğum məni bəyənmir,
Hər kəs əkdiyini özü yeyəmmir,
Ürəyim deyəni dilim deyəmmir.
Çərxin gərdişinə gülmək çətindir.

Bir yandan yurd-yuva, oba, el yükü,
Şeytanın fitvası, fitnə-fel yükü,
Bir Allah şahiddir, yüküm fil yükü,
Hər şeyi ürəyə salmaq çətindir.

## XƏYAL ALƏMİNDƏ, XƏYAL İÇİNDƏ

Yurdum Dərələyəz, arxam el idi,
Sərvətim, zinətim çəmən, çöl idi,
Nisgilli gözlərim çəkir yol indi,
Xəyal aləmində, xəyal içində.

Qurban təpəsinin çıxam başına,
Üz sürtəm vətənin torpaq, daşına,
Qərq olub gözlərim axan yaşına,
Xəyal aləmində, xəyal içində.

İndi yasa batıb yamyaşıl çöllər,
Qartallı qayalar, sonalı göllər,
Öləydim vətəndə, anaydı ellər,
Xəyal aləmində, xəyal içində.

Hər dərdi qəlbinə sal, ay Saməddin,
Düşüb ürəyinə xal, ay Saməddin,
Nə vaxtdan olmusan lal, ay Saməddin?
Xəyal aləmində, xəyal içində.

## BİZİM DAĞLARA

Gözü yaşlı qalıb ulusum, elim,
Vətən, vətən deyir dodağım, dilim,
Haçan dönəcəyik, ay şair Alim,
Bizim el-obaya, bizim dağlara.

Orda yal-yamaclar laləzar idi,
Bağından, bəhrindən hər gələn yedi.
Müdrik filosoflar Venetsiya dedi.
Bizim el-obaya, bizim dağlara.

Qırxbulaq, Almalı, Qızyetər qaçan,
Sərin bulaqların suların mərcan,
Biçarə ellərim dönəcək haçan?
Bizim el-obaya, bizim dağlara.

Cihada çağıraq ərəni, əri,
Silaha qurşanıb kəsəyin şəri,
Kəfən boynumuzda qayıdaq geri,
Bizim el-obaya, bizim dağlara.

## ŞƏHİDLƏRİN YATAN YERİ

Zirvəsində məşəl yanır,
Başıma yer, göy fırlanır,
Elim, obam qiblə sanır,
Şəhidlərin yatan yeri.

Naləm göyləri titrədir,
Yaralarım hey göynəyir.
Dünya ziyarət eyləyir,
Şəhidlərin yatan yeri.

Şahənşahlar, sərkərdələr,
Ziyarətə bura gələr,
Qoy bəzənsin abidələr,
Şəhidlərin yatan yeri.

Tarixçilər və yazarlar,
Salnamə tarix yazarlar,
Kəşf eylədi şah məzarlar,
Şəhidlərin yatan yeri.

Qurulacaq haqq divanım,
Ara yerdə batmaz qanım,
Özü seçib yaradanım,
Şəhidlərin yatan yeri.

Ay Saməddin, hey durma yaz,
Düşmənindən gəl al qisas,
Hər gün gəlib bağrına bas,
Şəhidlərin yatan yeri.

## AĞ BULAQ

Bu dərdli ürəyim sirr sarayıdır,
Hər yetənə açammıram, Ağ bulaq,
Gözüm görə-görə ağı qaradan,
Vallah, billah seçəmmirəm, Ağ bulaq.

Gözlərimə kül üfürüb töküblər,
Çalın-çarpaz dağ sinəmə çəkiblər.
Torpağıma şər toxumu əkiblər,
Səy etsəm də biçəmmirəm, Ağ bulaq.

Baharda çöl, çəmən yaşıl don geyir,
Çırpınan ürəyim hey vətən deyir,
İnanın, burnumun ucu göynəyir,
Elə sədd var keçəmmirəm, Ağ bulaq.

Səbrim çatmır dözüm umam dözümdən,
Bu Saməddin öpmək istər üzündən.
Dizlərimi yerə qoyub gözündən,
Oxqay deyib içəmmirəm, Ağ bulaq.

## ƏŞRƏF

Əşrəf Dərələyəzin Daylaxlı kəndində doğulmuşdur.

### *BAYATILAR*

Uçubdu bürcüm, qalam,
Köç edib bircə balam.
İnsafdırmı, ay Allah,
Oğul gedə, mən qalam.

El obamı itirdim,
Şən sözümü itirdim.

Oğul iki gözümdü,
Bir gözümü itirdim.

Elimiz Daylaxlıdı,
Bir sərin yaylaxlıdı,
İgidləri nər kimi,
Qolludu, budaxlıdı.

Əzizim kürsündə mən,
Oturram kürsündə mən.
Atası bədov olsa,
Çətindi kür süd əmən.

Dedim gələn bahardı,
Dünya axar-baxardı.
Oğul köçdü, od aldım,
Dərd gözümü çıxardı.

## KAMİL MƏMMƏDOV

### GÖRMƏDİM

Heç namərdin, nanəcibin işini,
Əyilən görmədim, enən görmədim.
Yaxşıya yazılıb dərdlər, ələmlər,
Pislik çırağını sönən görmədim.

Fırıldağın, yaltağındır bu dövran,
Özün kişi sayır vicdansız, nadan,
Yaxşılar yamana yazılıb qurban,
Düzü qibləsinə ölən görmədim.

Əyri bilməz nə olduğun ayrının,
Barmağın gözünə soxar doğrunun.
Cib kəsənin, ev yıxanın, oğrunun
Çarxın tənəzülü dönən görmədim.

Özüm də bilmirəm niyə insanlar
Qara iblis olub dəyişib qanlar?
Aman əlinizdən cinlər, şeytanlar,
Mən heç sirrinizi bilən görmədim.

Kamil müəllim desin dərdin hansını?
Gədalar dəyişib çul-çuxasını,
Hansından qurtarsın öz yaxasını,
Çaşıb bir karıma gələn görmədim.

## FƏRZƏLİYEV SƏMƏNDƏR YUNİS OĞLU

Fərzəliyev Səməndər Yunis oğlu 1941-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, doğulduğu kənddə orta məktəbi, Səlyanda Tibb texnikumunu bitirmiş, 39 il Dərələyəzin Ələyəz, Qovuşuq, Sallı kəndində və Mərdəkan qəsəbəsinin Abşeron sanatoriyasında feldşer işləmiş və buradan da təqaüdə çıxmışdır. Saz-söz vurğunudur.

### SƏNİN HƏSRƏTİNLƏ

Dərələyəz, doğma diyar!
Ölürəm mən həsrətinlə.
Qovruluram axşam-sabah,
Vətən, sənin həsrətinlə.

Uzaqdasan əlim çatmır,
Hay salıram ünüm yetmir.
Dərd-qəmim, kədərim bitmir,
Vətən, sənin həsrətinlə.

Qürbətdəyəm, Vətənsizəm,
İnləyirəm, sarı siməm.
Alışıram, yanır sinəm,
Vətən, sənin həsrətinlə.

Ormanların düşür yada,
Torpağına can sadağa,
Sağ canım düşüb yatağa
Vətən, sənin həsrətinlə.

Səməndərəm yana-yana,
Gözümdə yaş dönür qana,
Ahım, naləm gəlmir sana,
Vətən, sənin həsrətinlə.

## OVÇU QƏHRƏMAN

### DƏRƏLƏYƏZ

Səndən ayrılalı işıqlı dünya,
Olubdur başıma dar, Dərələyəz.
Aralı düşəndə doğma ocaqdan,
Olmuşam aləmdə xar, Dərələyəz.

Əyricədə qız-gəlinlər, hənəklər,
İncə belə minər qızıl sənəklər.
Yaylaqlarda qoyun, quzu, inəklər,
Yamacında olur tar, Dərələyəz.

Özüm dağ adamı, saxlasa aran,
Döyməzmi ömrümü ayaz, qar,boran?
Bu abad könlümü eyləyib viran,
Yağdırma başıma qar, Dərələyəz.

Zarınca düşübdür didərgin ellər,
Sonasız qalıbdır sonalı göllər.
Tərk edib yuvasın şeydə bülbüllər,
Qonub budağına sar, Dərələyəz.

Xoş havası, güllü-çiçəkli yazı,
Tükənməz pendiri, dövləti, malı.
Gözəl sərin suyu, soyuq bulağı
Çeşməsinə yoxdur san, Dərələyəz.

Anam Arpa çayı, Çınqıllı dərə,
Dolannam başına gündə min kərə.
Ovçu Qəhrəmanam, doğma yerlərə,
Dönməyə ümidim var, Dərələyəz.

*1920*

## XIRDA XANIM DƏRƏLƏYƏZLİ

Süleymanova (Əliyeva) Xırda Musa qızı 1926-cı il mayın 10-da Qərbi Azərbaycanın Dərələyəz mahalında Horbadıq kəndində anadan olmuşdur. 1948-ci ildə Ermənistan hökuməti tərəfindən o, Səlyan rayonunun Parçaxalac kəndinə deportasiya edilmişdir.

O, 2000-ci ildə vəfat etmişdir.

## *GƏRAYLI*

### QALDI

Ağ camallı bizim dağlar
Dağlar sizdə nəyim qaldı.
Tər çiçəkli quzeylərim
Kəklikli güneyim qaldı.

Ballı, Kəmər qayalarım
Baldırğanlı dərələrim
Salsal kimi qalalarım
Bir də uşaq çağım qaldı.

Dəmirtəpə yaylaqlarım
Mahmuddu da oylaqlarım
Neçə gümüş bulaqlarım
Bir də Arpa çayım qaldı.

Hanı mənim, Toplu meşəm
Lalə, nərgiz, tər bənövşəm,
Neçə məzar itirmişəm
Ululardan ulum qaldı.

Vətəndə, cənnət bağında,
Dədə-baba ocağında
Kəndimizin qucağında
Bircə məzar payım qaldı.

## *QOŞMALAR*

### DƏRƏLƏYƏZDƏ

Öyrənsən yerini Arpa çayının,
Əsli, bünövrəsi Dərələyəzdə.
Neçə qanadının, neçə qolunun,
Həzin zümzüməsi Dərələyəzdə.

Gözümü açanda gördüyüm güllər,
Göy təpədə bitən süsən-sünbüllər,
Bağlarda oxuyan şeyda bülbüllər,
Anamın tayfası Dərələyəzdə.

Hər dərədə neçə çeşmə çağlayır,
Hər qolunda neçə ellər yaylayır,
Güneyində kəklik yuva bağlayır,
Göllərin sonası Dərələyəzdə.

Çiçəkli dağların təmiz havası,
Bulağın başında kəsilir quzu,
Yurddan ayrı düşüb bu dağlar qızı,
Məskəni, ulusu Dərələyəzdə.

Göz oxşayan bağı, yamacı, düzü,
Gözəl meyvələri cəviz təpəsi,
Təzə beçə balı, inək kərəsi,
Xəstənin davası Dərələyəzdə.

### İNDİ

Dəmir təpə, səndə şimşək çaxardı,
Kəkliklərin daşdan-daşa uçardı,
Qız-gəlinlər Mahmudduya çıxardı,
Bizsiz qalıb süsən-sünbül, gül indi,
Qız gəlinin küsüb səndən, bil indi.

Ellər gəlib alaçığı qurardı,
Sürüləri otduyardı, durardı,
İyitləri göhlən çapıb yorardı,
Daha getmir yaylaqlara el indi,
Kəsilibdi bulaqlardan yol indi.

Çatma qurub nehrləri çalxardıq,
Başımıza tirmə şallar bağlardıq,
At belində yayalaqlara çıxardıq,
Nə at yoxdu, nə yaylağa yol indi,
Dağlar qızı bu Şirvanda qal indi.

Tükəz nənəm farmaca yük vurardı,
Sona xalam cəhrəsini qurardı,
Ər igidlər köhlənini yorardı,
Elsiz qalıb yaylaq, çiçək, çöl indi,
Xırda xanım bu aranda öl indi.

## OĞLUM

Bir gözəl mahaldır Dərələyəzim,
Sən qayıt o yurda bir də bax oğlum!
Onunla başlayır söhbətim, sözüm,
Sal-sala çıx, yeddi yola bax, oğlum!

Dərəsi səngərdir, daşı bir qala,
Yay vaxtı dağlarda qar tala-tala,
Şah Abbas tikdirib bir karvansara,
Ağkəndin başında yola bax, oğlum!

Təkədonduranım bir sirli dağdı,
Hər yanı meşədi, çınqıldı, saldı,
Bir çox qaçaqları qoynuna aldı,
Nəbi bərəsinə orda bax, oğlum!

Həsənkənddə yolayrıcı keçəndə,
Horbadıqda bulaqlardan içəndə,
Qırx bulaqda lilpar, yarpız biçəndə,
Əyriqardan Göyçə gölə bax, oğlum!

Kəhər atın yalmanına yatanda,
Yal-yamacda fərə kəklik tutanda,
Mahudduda gül-çiçəyə batanda,
Geriyə dön, Vers dağına bax, oğlum!

Ağlama gözündən car olar sellər,
Vədəsiz ağarar başında tellər,
Hanı o nəsillər, hanı o ellər,
Bir də elsiz yurda qayıt, bax, oğlum!

## MƏNİ

Yağı düşmən məkir, fitnə işlədi,
Ellərdə eylədi divanə məni.
Atamın, babamın yurdun istədi,
Qırx səkkizdə yazdı fərmana məni.

Taladılar neçə kəndi, soydular,
Dağıtdılar yurdu viran qoydular,
Neçə ər igidin gözün oydular,
Sürgün eylədilər arana məni.

Əldən aldı vətənimi, elimi,
Ümman etdi gözdən axan selimi,
Aran yerdə əydi əlif qəddimi,
Tez saldı çiskinə, dumana məni.

Qonşu olub bizə qardaş dedilər,
Evimizin sir-sözünü bildilər,
Süfrəmizin duz-çörəyin yedilər,
Tutdular gülləyə-borana məni.

Koroğlu gərəkdir minə atına,
Nəhlət olsun ermənінin zatına,
Millətimi verdi tankın altına,
Əzib döndərdilər samana məni.

## BAYATILAR

Çiçəyi sarı dağlar,
Əriməz qarı dağlar.
Düşmənimə yol verib,
Pozub ilqarı dağlar.

Axan çayındır dağlar,
Sərin suyundur dağlar.
Elsiz yasa batarsan,
Elnən toyundur, dağlar

Hey baxıram yollara,
Əlim yetmir ellərə,
Döndü ötən yellərə,
Keçən günlərin, dağlar.

Başını qar alıbdı
Tər gülün saralıbdı,
Nə zamandan bulanıb?
Söylə, suların dağlar.

Səndə haylar yaylayır,
Dərd sinəmi dağlayır,
Gecə-gündüz ağlayır,
Bağlı yolların dağlar.

## HÜSEYNOVA NÖVRƏSTƏ

Hüseynova Növrəstə İrzaqulu qızı 1930-cu illərdə Dərələyəzin Sallı kəndində anadan olmuş, 1948-ci ildə Səlyana departasiya olmuş, 1953-cü ildən sonra yenidən Sallıya qayıtmış, 1988-ci ildə yenidən zorla ermənilər tərəfindən doğma yurdundan qovulmuş, Azərbaycana gəlib Bakının Böyükşor qəsəbəsində məskunlaşmış, 2004-cü ildə burada dünyasını dəyişmişdir. Orta təhsili olan Növrəstənin atası şair Rzaqulu kimi çoxlu gəraylı və qoşmaları vardır.

### *GƏRAYLILAR*

### DAĞLAR

Unutmayın dağlar məni,
Mənki siznən cilovluyam.
Sanmayın ki ilər keçir,
Əvvəlki tək alovluyam.
Həmişə siznən qalardım,
Gəlməsəydim darıxardım,
Üç ay qışı ayrılardım,
Unutmayın dağlar məni.
Hər il gələrdim qoynuna,
Dözər idim hər oynuna,
Boranına, çovğununa,
Unutmayın dağlar məni.
Yayda dönürsən bostana,
Açılan bir gülüstana,
Qonaqların gəlmir sana,
Unutmayın dağlar məni.

Ala qarkən mən gələrdim,
Novruz gülünü dərərdim,
Duman-çənə bələnərdim,
Unutmayın dağlar məni.
Uşaqlıqdan siznən xoşam,
Siz yoxsunuz əli boşam,
Çoxlu çələng toxumuşam,
Unutmayın dağlar məni.

Zirvələri tamam qardı,
Döşündə min gül açardı,
Səndə gəzən bəxtiyardı,
Unutmayın dağlar məni.

Növrəstəyəm qurban sizə,
Qarın yağıb çıxıb dizə,
Sən də həsrət qaldın bizə,
Unutmayın dağlar məni.

## QAN AĞLARAM

Barlı bağlarımız qaldı,
Güllü tağlarımız qaldı,
Elsiz dağlarımız qaldı,
Onlar üçün qan ağlaram.

İsti ocağımız qaldı,
Buz tək bulağımız qaldı,
Gavır bizdən qisas aldı,
Onlar üçün qan ağlaram.

Hərə düşdü bir diyara,
Oldu sağalmaz bir yara,
Həsrət qaldıq qonşulara,
Onlar üçün qan ağlaram.

Dövranımız döndü belə,
Keçən günlər gəlməz ələ,
Ölkəyə düşdü vəlvələ,
Onlar üçün qan ağlaram.

Üstümüzü kəsdi yağı,
Qaldı Bəyalı bulağı,
Vətənin daşı, torpağı,
Onlar üçün qan ağlaram.

Qan ağlama a gözlərim,
Kimsəyə yetmir sözlərim,
Dağlarda qalan izlərim,
Onlar üçün qan ağlaram.

Dağlarımız qaldı viran,
Kəndlərimiz oldu talan,
Ayrıldım eldən, obadan,
Onlar üçün qan ağlaram.

Gecə-gündüz intizaram,
Ölmədim qəmdən qurtaram,
Burda yoxam, orda varam,
Onlar üçün qan ağlaram.

Növrəstəyəm, didərginəm,
Yurda piyada gedərəm,
İnanmıram bir də görəm,
Onlar üçün qan ağlaram.

## KAŞ DİDƏRGİN OLMAYAYDIM

Vətəndə bir daş olaydım
Həmişə orda qalaydım.
Kasıb, yalavac olaydım,
Kaş didərgin olmayaydım.

Dərələrdə sel olaydım,
Küçələrdə yol olaydım,
Bir faydasız kol olaydım,
Kaş didərgin olmayaydım.

Ağır yüklər götürəydim,
Elə baxıb öyünəydim,
Sağ gözümü itirəydim,
Kaş didərgin olmayaydım.

Dağın döşünə çıxaydım,
Bulaqdan yarpız yığaydım,
Hər dərdimi unudaydım,
Kaş didərgin olmayaydım.

Yaman qocaldım üç ildə,
Hər dərdi çəkdim içimdə,
Qoy öləydim el içində,
Kaş didərgin olmayaydım.

Dağ başında qar olaydım,
Xəzan vurmuş bağ olaydım,
Qoy ürəyi sağ olaydım,
Kaş didərgin olmayaydım.

Vətən özümün olaydı,
Ömrümə beş gün qalaydı,
Qəbirim vətəndə olaydı,
Kaş didərgin olmayaydım.

Gecə-gündüz yatmayaydım,
Var-dövlət də yığmayaydım,
Bazarlara çıxmayaydım,
Kaş didərgin olmayaydım.

Pirani qoca olaydım,
Külüng ilə yer qazaydım,
Əsaynan yerdən duraydım,
Kaş didərgin olmayaydım.

Ən pis günlərə düşəydim,
Əl açaydım, diləndəydim,
Pəncəri duzsuz yeyəydim,
Kaş didərgin olmayaydım.

Sallıda güllər əkəydim,
Ömrü başa yetirəydim,
Öz yurdumda Növrəstəydim,
Kaş didərgin olmayaydım.

## *QOŞMALAR*

### ARZULAR

Bahar gəlir könlüm uçur ellərə,
Çiçəkli dağları könlüm arzular.
Qar əriyib qarışanda sellərə,
O buz bulaqları könlüm arzular.

Duman gəlib dərələrdə sürünər,
Ağ sürülər təpələrdə görünər,
Çobanlar da sənin ilə öyünər
Körpə quzuları könlüm arzular.

Taplarında bir doyunca gəzəsən,
Can dərmanı güllərdən üzəsən,
Obalarda can verəsən, öləsən,
Oba yerlərini könlüm arzular.

Gabda durub üz aşağı baxasan,
Bənövşəni dəstə tutub qoxasan,
Birdəfəlik dərdi qəmi atasan,
O qəmsiz günləri könlüm arzular.

Qiblə bulaq bulaqların başıdı,
Qarı bulaq onun tayı-tuşudu,
Xan bulağı onlardan da yaxşıdı,
Oba bulağını könlüm arzular.

Gözəl Bəyalının geniş düzünü,
Çoluq kahasını, dərə yurdunu,
Götürgə suyunu, Kabın yolunu,
Dəhnə dərəsini könlüm arzular.

Ağ qoyun öləni, su töküləni,
Qayanın altını, inək itəni,
Ordan üz aşağı Xəlil əkəni,
Söyüdlü dərəni könlüm arzular.

O tayın düzünü, üç qardaşları,
Əzizin yerini, çay qovuşanı,
Qulunun bağçasın, Qızbəs şamını,
Çərəli məhləsin könlüm arzular.

Çayın şırıltısı, kəklik bəshini,
Qazax dərəsilə, Qurd təpəsini,
Mərdan bulağını, kəndin səsini,
Köhnə qonşuları könlüm arzular.

Növrəstə gəl çəkmə bu dərdi, qəmi,
Bir təbib gətirin yarsın sinəmi,
Zeynal kahasını, Məmməd gedəni,
Böyük biçənəyi könlüm arzular.

## BULUD

Bizim eldən gələn tala buludlar,
Bulud sən Allahın Sallı necədi?
Mən ordan çıxannan Günəş görmürəm,
Elə bilirəm ki, hər yan gecədi?

Bizim elin vardı əhdi-vəfası,
Səfalı yurdumun abı-havası,
Hər zaman olardı qonaq-qarası,
Bulud sən Allahın Sallı necədi?

Bir xəbər verginən Göyçə gölündən,
Aşıq Ələsgərin sarı telindən,
Əyrincənin, Sarı yalın gülündən,
Bulud sən Allahın Sallı necədi?

Bizim Bəyalıdan xəbərin varmı?
Sürüsüz, çobansız dağlar olarmı?
Bulaqlar çağlayır, güllər açırmı?
Bulud sən Allahın Sallı necədi?

Obalarda çadır yeri qalıbmı?
Tərlan oylağını Sarlar alıbmı?
Elsiz dağlar bizi səndən sorubmu?
Bulud sən Allahın Sallı necədi?

Məndən salam apar bizim ellərə,
Yağı qəsd eylədi şad könüllərə!
Növrəstə də düşdü qürbət ellərə
Bulud sən Allahın Sallı necədi?

## BALLI DƏRƏLƏYƏZLİ

Ballı Dərələyəzli (Məmmədova Ballı Şaməmməd qızı) 1949-cu il may ayının 1-də Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, orta təhsilini Gülüdüz kəndində almışdır. Kəndin kolxoz və sovxozunda müxtəlif sahələrdə işləmişdir. Gənc yaşlarından vətən və vətənin təbiəti haqqında şerlər yazmışdır. 10 uşaq anasıdır.

1988-ci ildə ermənilər tərəfindən zorla Vətənindən qovulmuş, hal-hazırda Xanlar rayonunda yaşayır.

### *GƏRAYLI*

### DİDƏRGİNƏM

Qaysaqlamaz dərin yaram,
Bacı, mən də didərginəm.
Parçalandıq para-para,
Bacı, mən də didərginəm.

Qürbət eldə bir calağam,
Çəmənlikdə bir alağam,
Qəm yığmışam, qəm yığnağam,
Bacı, mən də didərginəm.

Yüz il keçsə, dərdim dərddi,
Düşmənimiz çox namərddi,
Yol-izimiz yaman sərtdi,
Bacı, mən də didərginəm.

Hara köçdük qol-qanadsız,
El dağılıb hey haraysız,
Dərd çəkirəm mən aramsız,
Bacı, mən də didərginəm.

Ballıyam yanmış bir küləm,
Dərya dibində bir liləm,
İstərəm Vətənə gedəm,
Bacı, mən də didərginəm.

## *QOŞMALAR*

## DƏRƏLƏYƏZ

Yaman kövrəlmişəm səndən ötəri,
Axır gözlərimdən sel, Dərələyəz!
Hayana baxıram, tapmıram səni,
Necoldu,səndəki el, Dərələyəz!

Görsənmir Nəbilər, yad olub Canı,
Soğanlı yaylağı, dağların xanı.
Əyri yol, Bərk dərə, Taxta yurd hanı?
Ətrini gətirmir yel, Dərələyəz!

Murtuza yurdunun abı-havası,
Özü loğman, dərdə min-bir davası,
Xəstəyə can verir gözəl səfası,
Salaydım boynuna qol, Dərələyəz!

Heç demirsən qürbət eldə var xəstə,
Göndər çiçəyindən göndər bir dəstə,
Göndərsən dirilər didərgin xəstə,
Göndər süsən-sünbül, gül, Dərələyəz!

Aşıq Mehdi, köklə sazı, amandı,
Yurdum əldən gedir, halım yamandı,
Üzünə həsrətəm xeyli zamandı,
Ballı gələcəkdi, bil, Dərələyəz!

## *BAYATILAR*

Dağlar necə dağlarsan?
Qardan zirvə bağlarsan.
Ellər didərgin düşüb,
Tək-tənhamı ağlarsan.

Dağları aşan ağlar,
Qəmlənib coşan ağlar,
Yurd qurub, yuva qurub
Didərgin düşən ağlar.

A dağlar, oyan dağlar
Qəlbi qan olan dağlar.
Bizdən aralı düşüb,
Qəm sazı çalan dağlar.

Dağların yaz çağında,
El yaylar yaylağında
Fələk bir dərd veribdi
Bülbül ötmür bağında.

## MƏNSURƏ DƏRƏLƏYƏZLİ

Həsənova Mənsurə Həsən qızı 1957-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur. Orta təhsilini doğma kəndində aldıqdan sonra Gəncə Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuş və oranı bitirdikdən sonra müəllimliklə məşğul olmuşdur.

1988-ci ildə doğma yurdundan deportasiya olunmuş, hal-hazırda isə Sumqayıt şəhərində məskunlaşmışdır.

## AMANDI

Döyüşün, yağılar məskən salmasın,
Dağılmayın ellərimiz, amandı!
Yurd yerimiz nankor haya qalmasın,
Dağılmayın ellərimiz, amandı!

Koroğlu eşitsə davaya gələr,
Qırat cövlan edər halaya gələr.
Nəbi haya gələr, haraya gələr
Dağılmayın ellərimiz, amandı!

Cəlilim oyanar qiyamət eylər,
Qəhrəman, Fətulla şikayət eylər.
Vətəni tərk edən cinayət eylər,
Dağılmayın ellərimiz, amandı!

Burda Qorqudumun qopuzu qalır,
Yağıçün saxlanan toppuzu qalır,
Təkədonduranın qar-buzu qalır,
Dağılmayın ellərimiz, amandı!

Vətən yanar gözdü, bizi yandırar,
Bu dərd zaman-zaman bizi yandırar,
"El bir olsa, zərbi kəran sındırar"
Dağılmayın ellərimiz, amandı!

Halay-halay olsun yallı dəstəsi,
Hər yeri bürüsün igid nərəsi,
Mənsurə olmasın vətən xəstəsi,
Dağılmayın ellərimiz, amandı!

## SALAM YETİR

Aşıq Mehdi var get bizim ellərə,
Sonalı göllərə bir salam yetir.
O bizsiz ötüşən, o bizsiz keçən
Aylara, illərə bir salam yetir.

Ələyəzdə dolan, Qovuşuğu gör,
Hava meşəsində güldən çələng hör.
Əylən Güneyvəngdə, Vəngdən məni sor,
O keçən günlərə bir salam yetir.

Gülüdüzü, Gədikvəngi gəz, dolan,
Canıdan yen, Qaraxlını tək dolan.
Nəbilərdə bizsiz qalan, tək qalan
Bülbülsüz güllərə bir salam yetir.

Əyriqarda yayla, keçir illəri,
Qaçaq qayasından hayla elləri.
Qızyetərqaçanda qoxla gülləri,
Laləli çöllərə bir salam yetir.

Sərin bulaqlardan dolçada gətir,
Yurdun sovqatından boxçada gətir.
Ayı meşəsindən alça da gətir,
Kəklikli çöllərə bir salam yetir.

El didərgin olub, köçkün düşübdü,
Qıy vuran qartallar küskün düşübdü
Dərələyəz köçüb qaçqın düşübdü
Sahibsiz ellərə bir salam yetir.

Gözümə tökməyə bir ovuc torpaq
Gətirməsən sənə haramdı papaq,
Səni qarşılaram hamıdan qabaq
Çaylara, sellərə bir salam yetir.

Dərələyəzdən gətir, sözün kəsəsi
Ya yarpız, ya yemlik, ya gül dəstəsi,
Olubdu Mənsurə vətən xəstəsi
O mənsiz yerlərə bir salam yetir.

## MƏN

Nə yaxşı dözmüşəm ay Həsən məllim,
Bu vətən dərdinə, bəlkə dağam mən,
Yadıma düşəndə ellər, az qalır,
Qara bulud olam, leysan yağam mən.

Həsən məllim, necə gedim yurda mən,
O yerlərdə saralıbdı göy çəmən,
Sahibsiz qalıbdı nərgiz, yasəmən,
Gərək şimşək olub ora çaxam mən.

Dağılıbdı yurdum yanıram, küləm,
Dərələzsiz bir də çətin ki, güləm,
Mənsurəyəm solmuş saplaqsız güləm,
Kamanı qırılmış yaysız oxam mən.

## NARINGÜL DƏRƏLƏYƏZLİ

Məhərrəmova Narıngül Həsən qızı 1949-cu ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur. 1988-ci ildə şovinist ermənilər tərəfindən deportasiya olunmuş və hal-hazırda Sumqayıt şəhərində yaşayır.

### *QOŞMALAR*

### DƏRƏLƏYƏZ

Dağların qoynunda bir dağ da mənəm,
Sən daha ucasan, ay Dərələyəz!
Qiblə bulağının suyundan içsəm,
Dirilləm, cənnətsən, ay Dərələyəz!

Uca dağlarının başı dumandı,
Dədəm Qorqud gedən yollar borandı,
Dədəli körpüsü uçub virandı,
Oğuzlar məskəni, ay Dərələyəz!

Qara Hüseyn çuxasını yelləyib ,
Fatan qarı xurcununu külləyib,
Aşıq Nəsib dilqəmini kökləyib,
Ozan məskənisən, ay Dərələyəz!

Sonalı göllərin sonasız qaldı
Yağı düşmən bizi didərgin saldı,
Yurdumuz-yuvamız xaçoya qaldı,
Ölsəm də gələcəm, ay Dərələyəz!

### VƏTƏN, AĞLARAM

5 ildir üzünə həsrət qalmışam
Yadıma düşəndə vətən, ağlaram.
Səndən ötrü qovrulmuşam, yanmışam,
Yadıma düşəndə, vətən ağlaram!

Soğanlı yaylağı, Göy təpə dağı,
Murtuza yurdunun soyuq bulağı,
Müşkünaz nənəmin qatıq, qaymağı,
Yadıma düşəndə, vətən ağlaram!

Gədikvəngin sinəsinə düşən el,
Bərkdərədən sərin-sərin əsən yel.
Canı çaydan bahar çağı gələn sel,
Yadıma düşəndə, vətən ağlaram!

Gülüdüzün lalə, nərgiz düzləri,
Xınalı kəkliyin ala gözləri,
Həcərin, Nəbinin ayaq izləri,
Yadıma düşəndə, vətən ağlaram!

Qovuşuq, Qabaxlı, Kotanlı, Canı,
Çox igidin burda tökülmüş qanı.
Yurdundan qovulan oğuzlar hanı?
Yadıma düşəndə, vətən ağlaram!

Ələyəz, Hosdunda igid nərəsi,
Əsrlərdən gəlir onların səsi,
Yazılmış tarixə daş salnaməsi,
Yadıma düşəndə, vətən ağlaram!

Sallının, Ağkəndin meyvə bağları,
Horsun, Horbadağın buz bulaqları,
Aşıq Mirzalının saz havaları,
Yadıma düşəndə, vətən ağlaram!

Dəmirtəpə yurdu, Qalaser dağı,
İndi bu yerlərdə kef çəkir yağı,
Dərələyəz oldu düşmən oylağı,
Yadıma düşəndə, vətən ağlaram!

Salsalın qalası, Əlinin daşı,
Sinəmə tökülür gözümün yaşı.
Atamın, anamın o, məzar daşı,
Yadıma düşəndə, vətən ağlaram!

## ANAXANIM

Anaxanım Dərələyəzin Məmərza kəndində dünyaya göz açmışdır. Anaxanım Aşıq Əlinin anasıdır. Aşıq Əlinin anası Anaxanım da şer yazan imiş. Əri Fərmanı "kulak" eliyəndən sonra ona siyasi dustaq adı verib 10 il iş kəsmiş və onu Orta Asiyaya-Daşkəndə göndəriblər, Fərman oradan bir də geri qayıtmayıb. Anaxanım Dərələyəzin Məmərza kəndindən olan Ələkbər kişinin qızıdır. Ərinə iş kəsiləndən sonra yüzdən çox erkəyi, səkkiz baş öküzü, beş atı, iki marfaş pal-paltar parçanı, iyirmidən çox gəbəni əllərindən alıb, ailə üzvlərini də səs vermədən məhrum ediblər.

*GƏRAYLI*

### HANI

Yönü bəri duran dağlar,
Səndə dövran sürən hanı?
Çiynində qatar, tüfəngi,
Maral, buğa qıran hanı?

Bu dərədən axan çaylar,
Ondan içən uzun boylar,
Köhlən atlar, bədoy daylar,
İlxı-ilxı yoran hanı?

Dağlarda mənəm deyənlər,
Nazü-neməti yeyənlər,
Zübeyi-zərbab geyənlər,
Çadır, muxru quran hanı?

"Zəbər" üstə "yey"deyənlər,
Yaxşı, kamil oxuyanlar,
Qoltuğunda "Quran" hanı?

Anaxanım, işin nəsdi,
Üstümüzdən külək əsdi.
Qohum-qardaş ayaq kəsdi,
Məntək qəlbi viran hanı?

## HƏSƏNLİ SONA

Həsənova Sona Əli qızı 1983-cü ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuşdur. 1988-ci ildə erməni şovinistləri tərəfindən öz doğma yurdundan zorla qovulmuş, Sumqayıt şəhərində məskunlaşmış, hal-hazıda orada yaşayır.

2001-ci ildə orta məktəbi, 2006-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunu bitirmişdir.

VIII sinifdə oxuyan zaman şeir yazmağa başlamışdır. Xeyli miqdarda gəraylı və qoşmaları vardır. Bunlardan bəzilərini veririk.

### ATA

Gözlərin kədərli, ürəyin dərdli,
O dərdə, kədərə qurbanam, ata!
Qəlbinə yüz yerdən dağlar çəkilib,
Sinəndə qubara qurbanam, ata!

Niyə hərdən belə məlul baxırsan,
Mənim ürəyimi oda yaxırsan.
Sən nahaq qəlbini belə sıxırsan,
Gözündə yaşlara qurbanam, ata!

Belə gizli-gizli odlandıqca sən,
Sonanın dərdini təzələyirsən.
Sən mənim yoluma nur ələyirsən,
Əlində qabara qurbanam, ata!

### HƏSRƏT

Səhər-səhər şeh düşəndə dağlara,
Bülbül kimi çıxıb cəh-cəh vuraydım.
Gülləri astaca meh tərpədəndə,
Şirin-şirin tamaşaya duraydım.

Hər yeni ətirdən bihuş olanda,
Hər yeni nəğmədən ləzzət alanda.
Arzular gözümdə yuva salanda,
Çiçəklərin əhvalını soraydım.

Həsrəti gözümə, könlümə köçən,
O gözəl yerləri görəcəm haçan.
Başımın üstündən o yurda uçan,
Durnadan soruşub rahat olaydım.

### DƏRƏLƏYƏZ

Hələ yaşayırsan xəyallarımda,
Düşsəm də qoynundan gen, Dərələyəz.
Hər gecə yuxuda qonaq oluram
Dağına, düzünə mən, Dərələyəz.

«Qovuşuq» deyəndə gözlərim dolur,
«Qabaxlıda» söyüd saçını yolur.
«Ələyəzdə» güllər açmamış solur,
Alıbdır üstünü çən, Dərələyəz.

Sinəndə yurd salan bu qəm, bu möhnət,
Sənlə qovuşmağa verərmi möhlət.
Bir az da uzansa bu dəli həsrət,
Düşəcək saçıma dən, Dərələyəz.

Sönən ocaqların, köçən ellərin,
Köksündə yaradır, dərindən dərin.
Sonayam, dözmürəm, göynəyir yerin,
Bəs necə dözürsən, sən Dərələyəz?

## BİLƏRSƏNMİ, SƏN?

Gülüm, həsrətindən ürək yaradı,
Gözlərim hər yerdə səni aradı.
Könlüm ayrılıqdan dərin yaradı,
Yaramı sağalda bilərsənmi sən?

Sənin xəyalların ürək dağlayır,
Qəlbimdə tufanlar coşub çağlayır.
Yarın sənsiz qalıb, yaman ağlayır,
Gözünün yaşını silərsənmi sən?

Səndən başqasına heç baxmamışam,
Yenə yaşayıram, bil, ölməmişəm.
Mən sənsiz ürəkdən heç gülməmişəm,
De, mənsiz ürəkdən gülərsənmi sən?

Ayrılacaqmışıq, biləmməmişəm,
Qəlbimdən adını siləmməmişəm.
Mən sənə bədbəxtlik diləməmişəm,
De, mənə bədbəxtlik dilərsənmi sən?

## KÖNLÜM

Vətənim qalıbdı dığa əlində,
O vaxtdan sızlayır yaralı könlüm.
İndi fəğan edir qız da, gəlin də,
Vətəndən qalıbdı aralı könlüm.

Güllü yaylaqların gəzə bilmirəm,
Buz bulaq suyundan içə bilmirəm,
Sonayam, yurdumda dözə bilmirəm,
Qəm əlindən olub yaralı könlüm.

İndi haya qalıb tərlan oylağım,
Soğanlı yaylağım, buzdu bulağım.
Dərd-qəmsiz keçirdi uşaqlıq çağım,
Bu dərddən vədəsiz saralı könlüm.

## İNFORMATORLAR

Abbasov Qafar – *1932-ci ildə Dərələyəz mahalının Püsyan kəndində anadan olmuşdur. Orada boya-başa çatmışdır. 62 yaşındadır. 1988-ci ildə repressiyaya məruz qalmış, hal-hazırda Bakıda yaşayır.*

Abbasov Əli Abbas oğlu – *1965-ci ildə Dərələyəzin Qalaser kəndində doğulub, orada boya başa çatmış, 1988-ci ildə ermənilər tərəfindən zorla yurdundan qovulmuş, Bakıda məskunlaşmış və hal hazırda yaşayır. Sinədəftər həkimdir.*

Alıyev Abdulla Bəşir oğlu – *Dərələyəzin İstisu (Cermuq) kəndində anadan olmuş, orada boya-başa çatmış, 92 il yaşamışdır. 1988-ci ildə repressiyaya məruz qalmış, 1994-cü ildə Sumqayıtda vəfat etmişdir.*

Alıyev Cəmil Bəşir oğlu – *1926-cı ildə Dərələyəzin İstisu (Cermuq) kəndində anadan olmuş, orada boya-başa çatmış, 75 il yaşamışdır. 1988-ci ildə repressiyaya məruz qalmış, 2001-ci ildə Sumqayıtda dünyasını dəyişmişdir.*

Alıyev Mahmud Nəsir oğlu – *1900-cu ildə Dərələyəzin İstisu (Cermuq) kəndində anadan olmuş, orada boya-başa çatmışdır. 77 il yaşamışdır. 1977-ci ildə İstisu qəsəbəsində rəhmətə getmişdir.*

Alıyeva Gülcənnət Nəsir qızı – *1912-ci ildə Dərələyəzin İstisu (Cermuq) kəndində anadan olmuş, orada boya-başa çatmışdır. 1988-ci ildə repressiyaya məruz qalmış, 87 il yaşamış, 2004-cü ildə Sumqayıtda rəhmətə getmişdir.*

Alquluyev Alı Mehbalı oğlu – *1953-cü ildə Dərələyəzin Ələyəz kəndində doğulmuş, orada yaşamış, 1988-ci ildə ermənilər tərəfindən doğma yurdundan qovulmuş, Bakıda məskunlaşmış və hal-hazırda burada yaşayır. Ali təhsilli dil-ədəbiyyat müəllimi və el şairidir.*

Alhüseynov Səmənd Alı oğlu – *Dərələyəzin Püsyan kəndində anadan olmuş, orada boya-başa çatmışdır. 102 il yaşamışdır.*

Aşıq Behbud – *Dərələyəzin İstisu (Cermuq) kəndində anadan olmuş, orada boya-başa çatmış, 67 il yaşamış, 1975-ci ildə orada da dünyasını dəyişmişdir.*

Aşıq Mehdi Ataş oğlu – *1923-cü ildə Dərələyəzin Herher kəndində anadan olmuş, orada boya-başa çatmış, 1948-ci ildə yurdundan deportasiya olunmuş, Tərtərdə məskunlaşmış, 2003-cü ildə 80 yaşında Tərtərdə dünyasını dəyişmişdir.*

Aşıq Baloş Nəbi oğlu – *1920-ci ildə Dərələyəzin İstisu (Cermuq) kəndində anadan olmuş, orada boya-başa çatmış, 1948-ci ildə vətənindən deportasiya olunmuş. 1957-ci ildə yurduna qayıtmış, 1986-cı ildə Yevlaxda dünyasını dəyişmişdir.*

Alıyev İsa Hüseyn oğlu – *1953-cü ildə Dərələyəzin Qalaser kəndində anadan olmuş, orada boya-başa çatmışdır. Elmlər doktorudur. Hal-hazırda Bakıda yaşayır.*

Abbasov Həsən Əli oğlu – *Dərələyəzin Qalaser kəndində 1927-ci ildə anadan olmuş, orada boya-başa çatmış, 1988-ci ildə zorla yurdundan qovulmuş, Bakıda məskunlaşmış, 2005-ci ildə Bakıda rəhmətə getmişdir.*

Ağahəsənov Vahid Əbdülhüseyn oğlu – *1950-ci ildə Dərələyəzin Gülüstan (İtqıran) kəndində anadan olmuş, orada boya-başa çatmışdır. Ali təhsillidir, hal-hazırda Naxçıvanda yaşayır.*

Alıyev Alı Abdulla oğlu – *1948-ci ildə Dərələyəzin İstisu (Cermuq) kəndində anadan olub, orada boya-başa çatmışdır. 1948-ci ildə ailəsi deportasiya olunmuş, 1956-cı ildə vətənə qayıtmış, 1988-ci ildə zorla vətəndən çıxarılmış, ali təhsillidir, hal-hazırda Sumqayıt şəhərində yaşayır.*

Alıyev Abdulla Bəşir oğlu – *Dərələyəzdə anadan olmuş, orada boya-başa çatmışdır. 92 il yaşamış və yurdunda dünyasını dəyişmişdir.*

Ağayarov Oktay Hüseyqulu oğlu – *19 -ci ildə Dərələyəzin Qabaxlı kəndində anadan olmuş, 1988-ci ildə ermənilər tərəfindən yurdundan zorla qovulmuş, ali təhsillidir, hal-hazırda Sumqayıtda yaşayır.*

Ağayarov Mətləb Hüseynqulu oğlu – *1956-cı ildə Dərələyəzin Qabaxlı kəndində doğulmuş, orada boya-başa çatmış, 1988-ci ildə zorla yurdundan qovulmuş, riyaziyyat elmləri namizədidir. Hal-hazırda Sumqayıt şəhərində yaşayır.*

Abbasov Əhməd Hacıabbas oğlu – *1923-cü ildə Dərələyəzin Civə kəndində anadan olmuş, orada boya-başa çatmış, ali təhsilli müəllimdir. 1948-ci ildə yurdundan deportasiya olunmuş, Bakıda məskunlaşmışdır.*

Ağaverdiyev Ağaverdi Nəbi oğlu – *1928-ci ildə Dərələyəzin Gomur kəndində anadan olmuş, orada boya-başa çatmış, 1948-ci ildə deportasiya olunmuş, sonra vətəninə qayıtmış, 1988-ci ildə ermənilər tərəfindən yurdundan zorla qovulmuş, Bakıda məskunlaşmışdır.*

Ağaverdiyev Kərəm Ağaverdi oğlu – *1957-ci ildə Dərələyəzin Gomur kəndində doğulub, orada boya-başa çatmış, 1988-ci ildə yurdundan zorla qovulmuşdur. Hal-hazırda Bakıda yaşayır.*

Allahverdiyev Çərkəz Xanlar oğlu – *1933-cü ildə Dərələyəzin Gomur kəndində anadan olmuş, orada boya-başa çatmışdır. 1948-ci ildə deportasiya olunmuş, sonra vətəninə qayıtmış, 1988-ci ildə zorla yurdundan qovulmuş, hal-hazırda İsmayıllıda yaşayır.*

Abdullayeva Zəroş – *Şərur rayonu. Qarahəsənli kəndi (Şərur ilə Dərələyəz əvvəllər bir qəzada olmuşlar). 83 yaşında, təqaüdçü.*

Allahverdiyeva Ləlminaz Mirzə qızı – *Göyçənin Əmirxeyir kəndində anadan olub. 92 il yaşayıb.*

Alim Dərələyəzli – *1953-cü ildə Dərələyəzin Qabaxlı kəndində doğulub. Orada boya-başa çatıb, bir müddət Goranboy rayonunun Xoylu kəndində yaşayıb, hal-hazırda Bakıdadır, el şairidir.*

Ballı Dərələyəzli – *Məmmədova Ballı Şamməd qızı 1949-cu ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, orada boya-başa çatmış, 1988-ci ildə ermənilər tərəfindən doğma yurdundan qovulmuş, Bakıda məskunlaşmış, sonra da Xanlar rayonuna getmişdir, hal-hazırda orada yaşayır. Orta təhsilli el şairəsidir.*

Bəxşəliyev Məmiş Hüseynalı oğlu – *1903-cü ildə Dərələyəzin İstisu kəndində anadan olmuş, orada boya-başa çatmış, 1984-cü ildə 81 yaşında rəhmətə getmişdir.*

Bəşirov Sevindik Abdulla oğlu – *1933-cü ildə Dərələyəzin İstisu kəndində anadan olub, orada boya-başa çatmışdır. 1948-ci ildə deportasiya olunmuş, sonra yurduna qayıtmış, 1988-ci ildə yurdundan zorla qovulmuş, hal-hazırda Sumqayıtda yaşayır.*

Bağırov Əli Ağamir oğlu – *Dərələyəzin Ayısəsi kəndində anadan olub, orada boya-başa çatmış 72 il yaşamış, orada da dünyasını dəyişmişdir.*

Babayev Yunis Abbas oğlu – *Dərələyəzin Qalasır kəndində anadan olmuş, orada boya-başa çatmışdır. 68 yaşdadır.*

Baxşəliyev Bəhman Hüseynalı oğlu – *1887-ci ildə Dərələyəzin İstisu kəndində doğulmuş, 1905, 1918-ci ildə yurdundan qaçqın düşmüş, 1948-ci ildə deportasiya olunmuş, 1956-cı ildə vətəninə qayıtmış, 1979-cu ildə Terp kəndində dünyasını dəyişmişdir.*

Bağırov Fərman Camal oğlu – *Dərələyəzin Heşin kəndində anadan olub, boya-başa çatıb. Hal-hazırda Şəki rayonu Üzümçülük sovxozunda yaşayır, 60 yaşlı ali təhsilli müəllimdir.*

Bəkilov Sevindik Abdulla oğlu – *Dərələyəz mahalında anadan olub, orada boya-başa çatmışdır. 69 yaşlıdır.*

Ballı qarı (nənəm) – *Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, orada böyüyüb, boya-başa çatmış, 109 il yaşamışdır. 1957-ci ildə öz kəndində dünyasını dəyişmişdir.*

Bülbül Cəfər qızı Kərimova – *1936-cı ildə Dərələyəzin Qaraqaya kəndində doğulub, orada boya-başa çatıb. Hal-hazırda Xanlar rayonunun Əbhəl kəndində yaşayır.*

Bəxtiyarova Gülnisə Şahsuvar qızı – *Dərələyəzin Gülüdüz kəndində anadan olub. 80 il yaşayıbdır.*

Cəfərov Vəli Almərdan oğlu – *1925-ci ildə Dərələyəzin Ələyəz kəndində doğulmuş, orada yaşamış, 1988-ci ildə zorla yurdundan qovulmuş, Bakıda məskunlaşmış, hal-hazırda Bakıda yaşayır.*

Cəfərquluyev Əhməd – *Dərələyəzin Alxanpəyəsi kəndində doğulmuş, 1923-cü ildən sonra Ələyəz kəndində yaşamışdır. 102 il ömür sürmüş, 1968-ci ildə Ələyəz kəndində dünyasını dəyişmişdir.*

Dünyamalıyev Məhəmməd Baba Mirzə oğlu – *1938-ci ildə Dərələyəzin Qurdqulaq kəndində anadan olmuş, orada boya-başa çatmış, sonra Zeytə kəndinə köçmüşdür, professordur. Hal-hazırda Bakıda yaşayır.*

Dünyamalıyev Novruz Əsgər oğlu – *1927-ci ildə Dərələyəzin Amağu kəndində doğulub, orada yaşayıb və işləyib, sonra Abşeronun Mehdiabad qəsəbəsində məskunlaşıb, hal-hazırda orada yaşayır. Ali təhsilli el ağsaqqalıdır.*

Dünyamalıyeva Fizzə Heydər qızı – *1924-cü ildə Dərələyəzin Amağu kəndində doğulub, orada yaşamış, 1987-ci ildə ermənilər tərəfindən yurdundan deportasiya olunmuş, Abşeronun Mehdiabad qəsəbəsində məskunlaşmış, hal-hazırda orada yaşayır. Sinədəftər, şairtəbiətli, çox məlumatlı bir qadındır.*

Dünyamalıyev Məmməd Əziz oğlu – *1946-cı ildə Dərələyəzin Amağu kəndində anadan olmuş, orada boya-başa çatmış, ali təhsilli hüquqşünasdır, generaldır. Hal-hazırda Bakıda yaşayır. Çox məlumatlı ziyalıdır.*

Dünyamalıyev Natiq Əziz oğlu – *19.. –c.. ildə Dərələyəzin Amağu kəndində anadan olmuş, yaşamış, sonra da Abşeronun Mehdiabad qəsəbəsində məskunlaşmış, hal-hazırda orada yaşayır. Ali təhsilli ziyalıdır.*

Ələsgərov Namaz Hüseyn oğlu – *1924-cü ildə Dərələyəzdə anadan olub, Böyük Vətən Müharibəsi iştirakçısıdır, hal-hazırda Bakıda yaşayır.*

Əmirov Əli Nabatalı oğlu – *1926-cı ildə Dərələyəzin Kotanlı kəndində anadan olub, orada boya-başa çatmışdır. Hal-hazırda Novxanı kəndində yaşayır.*

Əliyeva Sadat Orucəli qızı – *Dərələyəzin Gədikvəng (Qoduxvəng) kəndində anadan olmuş, orada boya-başa çatmış və 77 yaşda orada dünyasını dəyişmişdir.*

Əhmədov Səməd Nəbi oğlu – *1900-cu ildə Dərələyəzin Cırrannı kəndində anadan olmuş, 1948-ci ildə Yevlax şəhərinə deportasiya olunmuş, 2001-ci ildə orada vəfat etmişdir. Sinədəftər adam olmuşdur.*

Əhmədov Həsən Mamoş (Mamed) oğlu –*Dərələyəzdə anadan olub, orada boya-başa çatmışdır, 1940-cı ildə Heşinə köçmüş, 1948-ci ildə Saatlı rayonuna deportasiya olunmuş. Hal-hazırda Saatlıda yaşayır. 78 yaşdadır.*

Ələkbərov Əli Hüseyn oğlu – *1927-ci ildə Dərələyəzin Qovuşuq kəndində doğulmuş, orada boya-başa çatmış, 1988-ci ildə yurdundan zorla qovulmuş, Abşeronun Ceyranbatan qəsəbəsində məskunlaşmış, hal-hazırda orada yaşayır, ali təhsilli dil-ədəbiyyat müəllimi və el şairidir.*

Əliyev Əziz Hüseyn oğlu – *1962-ci ildə Dərələyəzin Qabaxlı kəndində doğulmuş, 1988-ci ildə ermənilər tərəfindən deportasiyaya məruz qalmış, hal-hazırda Abşeronun Xırdalan qəsəbəsində yaşayır, ali təhsillidir.*

Əliyev Qəzənfər Müzəffər oğlu – *1950-ci ildə Dərələyəzin Qabaxlı kəndində doğulmuş, orada boya-başa çatmış, hal-hazırda Abşeronun Masazır kəndində yaşayır. Ali təhsillidir.*

Ələsgərov Nazim Vəli oğlu – *1956-cı ildə Dərələyəzin Civə kəndində anadan olub, orada boya-başa çatmışdır. 1948-ci ildə Azərbaycana, Saatlı rayonuna deportasiya olunmuş. Hal-hazırda Bərdə rayonunun İmirli kəndində yaşayır.*

Əmirov Əli Nabatalı oğlu – *1926-cı ildə Dərələyəzin Kotanlı kəndində anadan olub, orada boya-başa çatıb. Hal-hazırda Novxanı kəndində yaşayır.*

Əhmədov Əli – *63 yaşlı, Dərələyəzin Qaraqaya kəndində doğulub, orada boya-başa çatmışdır,63 yaşındadır. Yer-yurdundan didərgin düşmüşdür.*

Əliyev İsmayıl Hüseyn oğlu – *1924-cü ildə Dərələyəzin Gədikvəng kəndində doğulub, orada boya-başa çatmışdır. 1988-ci ildə zorla yurdundan qovulmuş, hal-hazırda Xızı rayonunun Fındığan kəndində yaşayır.*

Əliyev Məhəmmədəli Bəhlul oğlu – *1942-ci ildə Dərələyəzin Gədikvəng kəndində anadan olmuş, həmin kənddə boya-başa çatmış. Hal-hazırda Abşeron rayonunun Mehdiabad qəsəbəsində yaşayır.*

Ələsov Nəbi Əli oğlu – *1940-cı ildə Dərələyəzin Ayısəsi kəndində doğulub, orada boya-başa çatıb, sonra Bakıya köçüb, ali təhsilli və çox məlumatlı ziyalıdır.*

Əliyev Mehman Vəli oğlu – *1948-ci ildə Dərələyəzin Ələyəz kəndində doğulmuş, orada boya-başa çatmış, sonra Bakıda məskunlaşmış, ali təhsilli həkimdir.*

Əsədov Nazir Nəbi oğlu – *1950-ci ildə Dərələyəzin Qovuşuq kəndində doğulmuşdur, tarixçi alimdir, hal-hazırda Bakıda yaşayır.*

Fatma Nəbiqızı – *Dərələyəzin İstisu kəndində anadan olub. 97 il yaşamış.*

Fərəcov Əziz Ağarza oğlu – *1927-ci il Dərələyəzin Ağkənd kəndində doğulub, orada boya-başa çatmış,1949-cu ildə yurdundan deportasiya olunmuş, sonra vətənə qayıtmış, ali təhsillidir, hal-hazırda Bakıda yaşayır.*

Fatma Nəbi qızı – *1887-ci ildə Dərələyəzin Cırrannı kəndində anadan olub, orada böyüyüb, 1918, 1948-ci illərdə zorla vətənindən qovulub, sonra vətəninə qayıdıb, 1985-ci ildə 98 yaşında vətənində, İstisu qəsəbəsində dünyasını dəyişibdir.*

Fərəcov Əziz Ağarza oğlu – *1927-ci ildə Dərələyəzin Ağkənd adlanan kəndində doğulmuş, 1949-cu ildə doğma kəndindən deportasiya olunmuş, Tərtər rayonunda məskunlaşmış, sonra vətənə qayıtmış və təkrarən Tərtər rayonunun İrəvanlı kəndində yaşamışdır. Hal-hazırda Bakıda yaşayır. Ali təhsilli müəllimdir.*

Fərzəliyev Səməndər Yunis oğlu – *1941-ci ildə Dərələyəzin Qovuşuq kəndində doğulmuş, orada yaşamış, 1988-ci ildə ermənilər tərəfindən zorla doğma yurdundan qovulmuş, Bakının Buzovna qəsəbəsində məskunlaşmış, hal-hazırda orada yaşayır. Sinədəftər ferdşeldir.*

Gülmalıyev Qafar Usub oğlu – *1927-ci ildə Dərələyəzin Canı kəndində anadan olmuş, Qabaqlı kəndində yaşamış, sonra Abşerona köçmüş, Abşeronun Mehdiabad kəndində məskunlaşmış. 2006-cı ildə dünyasını dəyişmişdir.*

Göyüşova Dursun Sadıq qızı – *Dərələyəzdə doğulub, boya-başa çatıb. Hal-hazırda Xanlar rayonunda yaşayır.*

Gülnisə Şahsuvar qızı Bəxtiyarova – *Dərələyəzin Gülüdüz kəndində anadan olub, orada boya-başa çatmış, sonradan Dərələyəzin başqa bir kəndinə ərə gedib orada yaşamışdır.*

Hüseynov Əhməd Həsən oğlu – *1947-ci ildə Dərələyəzin Amağu kəndində doğulub, orada boya-başa çatıb. Sonra Bakıya köçüb orada məskunlaşıbdır. Həm ali təhsilli dil-ədəbiyyat müəllimi, həm də hüquqşünasdır. Çox məlumatlı sinədəftər ziyalıdır.*

Hüseynov Fərhad Mehralı oğlu – *1927-ci ildə Dərələyəzin Gədikvəng (Qoduxvəng) kəndində anadan olmuş, orada boya-başa çatmış, Abşerona köçmüş, Ramana, Mehdiabad kəndlərində yaşamış. 2001-ci ildə vəfat etmişdir.*

Hacsamova Zabıta Ağa qızı – *1914-cü ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, orada və Qovuşuq kəndində yaşamış. 1974-cü ildə Bakıya köçmüş, 1997-ci ildə dünyasını dəyişmişdir.*

Həziyev İman – *1906-cı ildə Dərələyəzin Sallı kəndində anadan olmuş, orada boya-başa çatmış, 62 il yaşamışdır.*

Həmzəyev Elxan Həmzə oğlu – *1955-ci ildə Dərələyəzin Qovuşuq kəndində doğulmuş, ali təhsillidir, 1988-ci ildə yurdundan deportasiya olunmuş, hal-hazırda Abşeron rayonunun Novxanı kəndində yaşayır.*

Həmzəyev Akif Abbas oğlu – *1952-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, orada boya-başa çatmış, ali təhsillidir. 1976-cı ildə Abşeronun Novxanı kəndinə köçmüş, hal-hazırda orada yaşayır.*

Həmzəyeva Sabirə Məhəmməd qızı – *1954-cü ildə Dərələyəzin Qovuşuq kəndində doğulub, orada boya-başa çatıb, 1975-ci ildə Abşeron rayonunun Novxanı kəndinə köçüb, hal-hazırda orada yaşayır. Ali təhsilli dil-ədəbiyyat müəllimidir.*

Hüseynov Şamdan Hüseynalı oğlu – *1901-ci ildə Dərələyəzin İstisu kəndində anadan olmuş, orada boya-başa çatmış, 1971-ci ildə elə burada da rəhmətə getmişdir.*

Hətəmov Hətəm Hətəm oğlu – *1886-cı ildə Dərələyəzin Köçbək kəndində doğulub boya-başa çatmış, dəfələrlə qaçqın düş-*

*müş, 97 il yaşamış, 1983-cü ildə doğulduğu kənddə dünyasını dəyişmişdir.*

Hüseynov Hüseyn Ağamirzə oğlu – *1918-ci ildə Dərələyəzin Məmərza kəndində doğulub, 1948-ci ildə deportasiya olunub, 1956-cı ildə doğma yurda qayıdıb, 1988-ci ildə doğma yurdundan qaçqın düşüb, 2001-ci ildə Sumqayıtda ölüb.*

Hüseynov Kamil Məmiş oğlu – *1926-cı ildə Dərələyəzin İstisu kəndində doğulub, orada boya-başa çatmış, 1948-ci ildə deportasiya olunmuş, 1955-ci ildə vətənə qayıtmış, 1988-ci ildə zorla yurdundan qovulmuş, hal-hazırda Sumqayıtda yaşayır.*

Hüseynov Knyaz Şamdan oğlu – *1939-cu ildə Dərələyəzin İstisu kəndində doğulub, orada boya-başa çatmış, 1948-ci ildə deportasiya olunmuş, 1956-cı ildə vətənə qayıtmış, 1988-ci ildə zorla yurdundan qovulmuş, 1994-cü ildə Sumqayıtda vəfat etmişdir.*

Hüseynov Əmiraslan Həsən oğlu – *1924-cü ildə Dərələyəzdə doğulub boya-başa çatmış. 77 il ömür sürmüşdür.*

Hüseynov Aydın Məmmədhüseyn oğlu – *1937-ci ildə Dərələyəzin Köçbək kəndində doğulub, orada boya-başa çatmışdır. Ali təhsillidir, hal-hazırda Bakıda yaşayır.*

Hüseynov Həsən Hüseyn oğlu – *Dərələyəzin Terp kəndində doğulub, orada boya-başa çatmış, Ali təhsillidir. Hal-hazırda Abşeronun Mehdiabad qəsəbəsində yaşayır.*

Həsənova Pəri (Sərçə) – *Dərələyəzin Qovuşuq kəndində doğulmuş, orada boya-başa çatmış, Hosdun və Ələyəz kəndində yaşamış, 1988-ci ildə doğma yurdundan zorla qovulmuş, Bakıda məskunlaşmış, 90 il ömür sürmüş, 2003-cü ildə dünyasını dəyişmişdir.*

Həsənalıyev Zeynal Mədət oğlu – *1953-cü ildə Dərələyəzin Ələyəz kəndində doğulub boya-başa çatmış, hal-hazırda Bakıda yaşayır, tarixçidir, professordur.*

Həsənov Vahid Əhəd oğlu – *19..-c ildə Dərələyəzin Ələyəz kəndində doğulub, orada boya-başa çatmış, 1988-ci ildə ermənilər tərəfindən yurdundan qovulmuş, hal-hazırda Bakıda yaşayır.*

İbrahim Mirzəli oğlu – *1889-cu ildə Dərələyəzin Qovuşuq kəndində doğulmuş, orada yaşamış, sonra Bakıya köçmüş, 1982-ci ildə Bakıda dünyasını dəyişmişdir. Sinədəftər, folklorun, klassik ədəbiyyatın bilicisi olmuşdur.*

İmanov İman Ağamalı oğlu – *1914-cü ildə Dərələyəzin Püsyan kəndində anadan olmuş, orada boya-başa çatmış, 1948-ci ildə repressiya olunmuş, 1987-ci ildə 73 yaşında İstisuda rəhmətə getmişdir.*

İmanov Səlim Ağamalı oğlu – *1912-ci ildə Dərələyəzin Püsyan kəndində anadan olmuş, orada boya-başa çatmış. Dəfələrlə repressiyaya məruz qalmış, 2005-ci ildə 93 yaşında Bakıda rəhmətə getmişdir.*

İsaxanov Pərvan Usub oğlu – *1902-ci ildə Dərələyəzin İstisu (Cermuq) kəndində anadan olmuş, orada boya-başa çatmışdır. 1948-ci ildə repressiyaya məruz qalmış, sonra vətənə qayıtmış, 1983-cü ildə 81yaşında İstisuda rəhmətə getmişdir.*

İsmayılova Səmayə Hacıbaba qızı – *1926-cı ildə Dərələyəzin İstisu kəndində anadan olub, orada boya-başa çatmış. 1948-ci ildə vətənindən deportasiya olunmuş, 1956-cı ildə vətənə qayıtmış, 1988-ci ildə yenidən zorla yurdundan qovulmuş, hal-hazırda Sumqayıtda yaşayır.*

İlyasov Musa Xanlar oğlu – *1949-cu ildə Dərələyəzin Zeytə kəndində doğulmuş, elə həmin il deportasiya olunmuş. Əli Bayramlıda məskunlaşmış, hal-hazırda Bakıda yaşayır, professordur.*

İmaməliyev Kərəm Baxış oğlu – *1931-ci ildə Dərələyəzin Nəbilər kəndində anadan olmuş, ali təhsilli dil-ədəbiyyat müəllimidir. 1988-ci ildə ermənilər tərəfindən yurdundan zorla qovulmuş, hal-hazırda Bakıda yaşayır.*

İsmayılov Umud – *1924-cü ildə Dərələyəzin Gülüdüz kəndində anadan olmuş, orada yaşamış, 1988-ci ildə ermənilər tərəfindən zorla yurdundan qovulmuş, Xızı rayonunun Fındığan kəndində məskunlaşmış, hal-hazırda orada yaşayır. Ali təhsillidir, el şairidir.*

İsayev Vidadi – *1959-cu ildə Dərələyəzin Cul kəndində anadan olub, orada boya-başa çatmışdır. Ali təhsilli tarixçidir. 1949-cu ildə yurdundan deportasiya olunmuş, Yevlaxda məskunlaşmış, hal-hazırda orada yaşayır.*

İbrahimov Tofiq Həsən oğlu – *1927-ci ildə Dərələyəzin Cul kəndində anadan olmuşdur. Ali təhsillidir, hal-hazırda Bərdə rayonunun İmirli kəndində yaşayır.*

İsmayılova Gülnisə Musa qızı – *Dərələyəzin Horbadığ kəndində doğulub boya-başa çatmışdır. 1949-cu ildə Salyana deportasiya olunub. Hal-hazırda Bakı şəhərinin M.Rəsulzadə qəsəbəsində yaşayır.*

İsgəndərov Cahangir Davud oğlu – *1950-ci ildə Dərələyəzin Hors kəndində anadan olub, orada boya-başa çatmışdır. 60 yaşındadır, hal-hazırda Bakıda yaşayır.*

İmanquliyev Şükür Məmməd oğlu – *Dərələyəzin Gomur kəndində anadan olmuş, orada boya-başa çatmış, BDU-da tələbə olmuşdur.*

Kərimova Bülbül Cəfər qızı – *Dərələyəzin Qaraqaya kəndində anadan olub, boya-başa çatmışdır. Xanlar rayonunun Əbələh kəndində yaşayır.*

Kərimov Kərim Rəhim oğlu – *1938-ci ildə Dərələyəzin Gabut kəndində doğulub, 1949-cu ildə yurdundan deportasiya olunub, sonra Bakıya gəlib, hal-hazırda orada yaşayır. Riyaziyyatçıdır, alimdir.*

Kərimov Əli Məhəmməd oğlu – *1933-cü ildə Dərələyəzin Qozulca kəndində anadan olmuş, orada boya-başa çatmışdır. Ali təhsilli hüquqşünasdır, hal-hazırda Sumqayıtda yaşayır.*

Kərimov Azay Məhəmməd oğlu – *1933-cü ildə Dərələyəzin Kotanlı kəndində doğulmuş, orada boya-başa çatmış, 1988-ci ildə ermənilər tərəfindən zorla doğma yurdundan qovulmuş, Sumqayıt şəhərində məskunlaşmış, hal-hazırda orada yaşayır. Professional musiqiçidir.*

Mənsurə Dərələyəzli – *Həsənova Mənsurə Həsən qızı 1957-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olub, orada boya-başa çatıb, 1988-ci ildə yurdundan zorla qovulub,*

*Sumqayıtda məskunlaşıb, hal-hazırda orada yaşayır. Ali təhsilli dil-ədəbiyyat müəllimi və el şairəsidir.*

Məmmədova Balaxanım Əmir qızı – *Dərələyəzin Heşin kəndində anadan olmuş, orada böyüyüb boya başa çatmış, 96 il yaşamışdır.*

Murtuzayev Nəriman Əlbdüləzim oğlu – *Dərələyəzin Axta kəndində anadan olub. Orada boya başa çatıbdır. BDU-nun tələbəsi olmuşdur.*

Mustafayev Rəhman Bəhman oğlu – *1937-ci ildə Dərələyəzin Sallı kəndində doğulub, orada boya-başa çatıb, 1948-ci ildə Azərbaycanın Səlyan rayonuna deportasiya olunub, sonra vətəninə qayıdıbdır. Həm ali təhsilli dil-ədəbiyyat müəllimi, həm də hüquqşünasdır. Hal-hazırda Bakıda yaşayır.*

Məmmədov Kamil Qəhrəman oğlu – *1947-ci ildə Dərələyəzin Qabaxlı kəndində anadan olmuş, orada böyüyüb boya-başa çatmış, 1988-ci ildə ailələri zorla öz yurdundan qovulmuş və Bakıda məskunlaşmışdır. Ali təhsilli hərbiçi, gözəl jurnalist və Dərələyəz mahalının ilk və əsas tədqiqatçılarından biridir. "Dərələyəz od içində" adlı irihəcmli monoqrafiyanın müəllifidir.*

Mehdiyev Mehdi Ataş oğlu (Aşıq Mehdi) – *1923-cü ildə Dərələyəzin Herher kəndində doğulub, orada boya başa çatmış, 1949-cu ildə Herherdən deportasiya olunmuş, Tərtər rayonunun Səhləbad kəndində məskunlaşmış, orada yaşamış, 2004-cü ildə dünyasını dəyişmişdir.*

Mehdiyev Mehdi Fərhad oğlu – *1938-ci ildə Dərələyəzdə doğulub, boya-başa çatmış, Ali təhsillidir. 1987-ci ildə yurdundan deportasiya olunmuş, Naxçıvanın Babək rayonunun Çalxanqala kəndində məskunlaşmış, sonra Bakıya köçüb Qaradağ rayonunda məskunlaşmış və 2004-cü ildə dünyasını dəyişmişdir.*

Məmmədov Heydər Eylas oğlu – *1923-cü ildə Dərələyəzin Gomur kəndində doğulub orada boya başa çatmış, hal-hazırda Naxçıvanda yaşayır.*

Məmmədov Əli Həsən oğlu – *Dərələyəzin Çivə kəndində doğulub, boya başa çatmış, 1949-cu ildə kəndindən deportasiya olunmuş, Bərdə rayonunun İmirli kəndində məskunlaşmış, hal-hazırda orada yaşayır.*

Məmmədov Vurğun Rəhim oğlu – *1971-ci ildə anadan olmuşdur, ailələri 1949-cu ildə Dərələyəzin Çivə kəndindən deportasiya olunmuş, Bərdə rayonunun İmirli kəndində məskunlaşmış, hal-hazırda orada yaşayırlar.*

Mehdiyev Babacan Süleyman oğlu – *1933-cü ildə Dərələyəzin Ayısəsi kəndində doğulmuş, orada böyüyüb boya-başa çatmış, ali təhsil aldıqdan sonra Əlibayramlıda işləmiş, hal-hazırda Bakıda yaşayır, ali təhsilli ziyalıdır.*

Məmmədov Paşa Kazım oğlu – *1949-cu ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, orada yaşamış, 1988-ci ildə ermənilər tərəfindən zorla yurdundan qovulmuş, Bakı şəhərində məskunlaşmış, ali təhsilli ziyalıdır.*

Məmmədov Məmmədəli Məhəmməd oğlu – *1942-ci ildə Dərələyəzin Gədikvəng kəndində doğulub, orada boya başa çatmış, 1987-ci ilə qədər orada yaşamış, hal-hazırda Bakının Rəsulzadə qəsəbəsində yaşayır.*

Məhərrəmov Yusif Qurban oğlu – *1928-ci ildə Dərələyəzin Qurbankəsilən kəndində doğulub, orada və Zeytə kəndində boya-başa çatmış, 1949-cu ildə vətəndən deportasiya olunub, hal-hazırda Sabirabadın Şıxhacılı kəndində yaşayır.*

Məmmədov Maşallah Əli oğlu – *1967-ci ildə Dərələyəzin Gədikvəng kəndində anadan olmuş, orada böyüyüb başa çatmış, 1987-ci ildə deportasiyaya məruz qalmış, Bakıda məskunlaşmış və hal-hazırda Bakıda yaşayır. Ali təhsilli ziyalıdır.*

Məmmədov Məmməd İsa oğlu (Tapança Mamed) – *1923-cü ildə Dərələyəzin Ardaraz kəndində doğulub, orada boya-başa çatmış, 1949-cu ildə Azərbaycanın Saatlı rayonunun Məmmədabad kəndinə deportasiya olunmuşdur, polkovnik-leytenant, hal-hazırda Saatlı rayonunda yaşayır.*

Məmmədov Namət Bahadur oğlu – *1928-ci ildə Dərələyəzin Gədikbəng (Qoduxbəng) kəndində doğulub, orada boya-başa çat-*

*mış, 1987-ci ilə qədər orada yaşamış, hal-hazırda Abşeron rayonunun Mehdiabad qəsəbəsində yaşayır.*

Muradov Ağamirzə Hüseyn oğlu – *1895-ci ildə Dərələyəzin Məmərzə kəndində anadan olmuş, orada böyümüş, yaşamış, 4 dəfə yurdundan qovulmuş, deportasiya olunmuş, axırda öz doğma yurduna qayıtmış, 1985-ci ildə, 90 yaşında Terp kəndində rəhmətə getmişdir.*

Muradov Vurğun Xanmurad oğlu – *1954-cü ildə Dərələyəzin Qabaxlı kəndində anadan olmuş, orada böyümüş, sonra Abşeron rayonuna köçmüşdür. Hal-hazırda Bakıda yaşayır. Ali təhsilli həkimdir.*

Musayev Cəmil Şıxalı oğlu – *1879-cu ildə Vedibasar rayonunun Hanol kəndində doğulub, 1905, 1918-ci illərdə qaçqın düşmüş, 1948-ci ildə yurdundan deportasiya olunmuş, 1984-cü ildə Şəmkirdə rəhmətə getmişdir.*

Mirzəyev Həsən İbrahim oğlu – *1927-ci ildə Dərələyəzin Qovuşuq kəndində doğulmuş, orada boya-başa çatmış, sonra Bakıya köçmüş, filoloqdur, professordur. Hal-hazırda Bakıda yaşayır.*

Mirzəyev Əli İbrahim oğlu – *1953-cü ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, orada boya-başa çatmış, tarixçidir, alimdir, 1975-ci ildə Bakıya köçmüş, hal-hazırda Bakı şəhərində yaşayır.*

Mirzəyev Musa İbrahim oğlu – *1957-ci ildə Dərələyəzin Qovuşuq kəndində doğulub, orada boya-başa çatıb, ali təhsilli dil-ədəbiyyat müəllimidir, 1975-ci ildə Bakıya köçmüş, hal-hazırda Bakı şəhərində yaşayır.*

Namazov Baxış İmamalı oğlu – *1891-ci ildə Dərələyəzin Qovuşuq kəndində doğulub, sonra Gülüdüz kəndinə köçüb, 79 il yaşayıb və doğma kəndində dünyasını dəyişibdir.*

Namazov Qədir Bəbir oğlu – *1958-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, orada boya-başa çatmış, sonra Bakıda məskunlaşmışdır. Ali təhsilli iqtisadçıdır.*

Narıngül Dərələyəzli – *Məhərrəmova Narıngül Həsən qızı 1949-cu ildə Dərələyəzin Qovuşuq kəndində anadan olub, orada*

*boya-başa çatıb, 1988-ci ildə ermənilər tərəfindən zorla yurdundan qovulub, Sumqayıtda məskunlaşıb, hal-hazırda orada yaşayır. El şairəsidir.*

Novruzov Abbasəli Ramazan oğlu – *1937-ci ildə Dərələyəzin Zeytə kəndində anadan olmuş, 1949-cu ildə ermənilər tərəfindən doğma yurdundan deportasiya olunmuş, Azərbaycanın Əli Bayramlı rayonunda məskunlaşmış. Ali təhsillidir, generaldır. Çox məlumatlı adamdır.*

Nəsibov Fərrux Səlim oğlu – *1922-ci ildə Dərələyəzin İstisu kəndində anadan olub, orada boya-başa çatıb, 1948 və 1988-ci illərdə repressiyaya məruz qalmış, hal-hazırda Bakı şəhərində yaşayır.*

Nağıyeva Nazlı İbrahim qızı – *1931-ci ildə Dərələyəzin Qovuşuq kəndində doğulmuş, uzun müddət Naxçıvanda yaşamış, hal-hazırda Abşeron rayonunun Novxanı kəndində yaşayır.*

Qocayev Vəli Balay oğlu – *Dərələyəzdə anadan olub. Orada boya-başa çatıb. 86 il yaşayıb.*

Qasımov Şirxan Behbud oğlu– *1934-cü ildə Dərələyəzin Gomur kəndində anadan olub, orada boya-başa çatmışdır. Hal-hazırda Şahbuz rayonu Sələsüs kəndində yaşayır.*

Qasımov Əli Şirxan oğlu – *1960-cı ildə Dərələyəzdə anadan olub, orada boya-başa çatıb, hal-hazırda Bakıda yaşayır.*

Quliyev Cəfər – *Dərələyəzin Gülüdüz kəndində anadan olub, orada boya-başa çatmışdır. Ali təhsillidir. 1988-ci ildə yurdundan zorla qovulmuş, Sumqayıtda məskunlaşmış və 72 yaşında orada vəfat etmişdir.*

Qənbərov Azad Əziz oğlu – *1938-ci ildə Dərələyəzin Ayısəsi kəndində doğulmuş, orada yaşamış, 1988-ci ildə ermənilər tərəfindən yurdundan qovulmuş, Bakıda məskunlaşmış və burada da dünyasını dəyişmişdir. Ali təhsilli dil-ədəbiyyat müəllimidir.*

Qənbərov Akif Azad oğlu – *1964-cü ildə Dərələyəzin Ayısəsi kəndində anadan olub, Bakıya köçüb, orada yaşayır. Alimdir.*

Quliyev Müseyib Əli oğlu – *Dərələyəzin Gülüdüz kəndində anadan olub, orada boya-başa çatmış. 70 yaş yaşamış və doğma kəndində də dünyasını dəyişmişdir.*

Quliyev İsgəndər Nərrəddin oğlu – *1949-cu ildə Dərələyəzin Zeytə kəndindən Əlibayramlıya deportasiya olunmuş ailədə (1951-ci ildə) dünyaya göz açmış, sonra ailəsi vətənə qayıtmış. İsgəndər Dərələyəzdə orta məktəbi qızıl medalla bitirmiş, Bakıda ali təhsil almış və hal-hazırda Bakının Qaradağ rayonunda yaşayır. Ali təhsillidir, milis polkovnikidir. Sinədəftər ziyalıdır.*

Qara Həsən Dərələyəzli – *Həsənov Həsən Əbdülkərim oğlu 1929-cu ildə Dərələyəzin Qovuşuq kəndində doğulub, orada yaşayıb, 1988-ci ildə yurdundan zorla qovulub, Sumqayıtda məskunlaşıb, 2003-cü ildə dünyasını dəyişib. El şairidir.*

Qurbanov Nizami İbrahim oğlu – *Nizami 1949-cu ildə Dərələyəzin Terp kəndindən Səlyan rayonunun Qarabağlar kəndinə deportasiya olunmuş, İbrahimin ailəsində dünyaya göz açmışdır. 1967-ci ildə doğulan, hüquq podpolkovnikinə qədər yüksələn Nizami folklorun toplanmasında çox iş görmüşdür.*

Qasımov Bayram Şahbaz oğlu – *1917-ci ildə Dərələyəzin Püsyan kəndində anadan olmuş, orada boya-başa çatmış. 1948-ci ildə deportasiya olunmuş, 1957-ci ildə vətənə qayıtmış. 1988-ci ildə vətəndən zorla qovulmuş və həmin il də 81 yaşında Bakıda vəfat etmişdir.*

Qənbərov Bəhmən Süleyman oğlu – *Dərələyəzin Gədikvəng kəndində anadan olmuş, orada boya-başa çatmış, 80 ildən çox ömür sürmüşdür.*

Qarayev Xudaməded Aməded oğlu – *Dərələyəzin Qaraqaya kəndində anadan olub, orada boya-başa çatmışdır, 1988-ci ildə zorla yurdundan qovulmuş, Azərbaycanda məskunlaşmış, 90-a yaxın yaşı vardır.*

Qafar Gülmalıyev Usub oğlu – *1927-ci ildə Dərələyəzin Canı kəndində anadan olmuş, orada və Qabaxlı kəndində boya-başa çatmış, bir çox vəzifələrdə işləmiş, Azərbaycana köçmüş, Abşeronun Mehdiabad qəsəbəsində məskunlaşmış, 2006-cı ildə dünyasını dəyişmişdir.*

Quliyev İdris Şahgəldi oğlu – *1925-ci ildə Dərələyəzin Ağkənd adlı kəndində anadan olmuş, orada boya-başa çatmışdır. Ali təhsillidir. 1960-cı illərdə Abşerona köçmüş, Mehdiabad qəsəbəsində məskunlaşmış. Hal-hazırda orada yaşayır.*

Quliyev Ənvər Məhəmmədəli oğlu – *1950-ci ildə Dərələyəzin Qozulca kəndindən deportasiya olunmuş ailədə 1953-cü ildə doğulan Ənvər Bərdə rayonunun İmirli kəndində məskunlaşmış, polis polkovnikidir.*

Quliyev Şəyildi Kərbəlayı Cəfər oğlu – *Dərələyəzin Ağkənd kəndində anadan olub. Orada boya-başa çatıb. 75 il yaşayıb. 1968-ci ildə öz doğma yurdunda dünyasını dəyişmişdir.*

Qənbərov Müseyib – *Dərələyəzdə anadan olub. Orada boya-başa çatıb. 70 ildən çox yaşayıbdır.*

Rüstəmov Rüstəm – *1883-cü ildə Dərələyəzin Terp kəndində anadan olmuş, orada boya-başa çatmış, dəfələrlə yurdundan deportasiya olunmuş, qovulmuş, 1956-cı ildə yenidən vətənə qayıtmış, 1986-cı ildə 103 yaşında Terp kəndində dünyasını dəyişmişdir.*

Sadıqov Bəykişi Hidayət oğlu – *Dərələyəz mahalının Qabaxlı kəndində anadan olub, orada boya-başa çatmışdır. 1988-ci ildə ermənilər onu vətənindən zorla qovmuş, Sumqayıtda məskunlaşmış, 77 yaşında dünyasını dəyişmişdir.*

Sadıqov Çərkəz Hidayət oğlu – *Dərələyəz mahalının Qabaxlı kəndində anadan olub, orada boya-başa çatmış. 1988-ci ildə ermənilər tərəfindən doğma yurdundan qovulmuş, Sumqayıt şəhərində məskunlaşmış və 74 yaşında orada vəfat etmişdir.*

Səfərov Mustafa Molla Həsən oğlu – *1925-ci ildə Dərələyəzin Gülüdüz kəndində anadan olub, orada boya-başa çatıb, 1988-ci ildə yurdundan zorla qovulub. Bakıda məskunlaşıb, 2002-ci ildə 77 yaşında vəfat etmişdir.*

Səfəralıyev Qoşmalı (Aşıq Qoşmalı) – *1906-cı ildə Dərələyəzin İstisu kəndində anadan olmuş, 1948-ci ildə yurdundan deportasiya olunmuş, 1956-cı ildə vətənə qayıtmış, 1983-cü ildə İstisuda rəhmətə getmişdir.*

Səlimova Gülnisə Abbas qızı – *1893-cü ildə Dərələyəzin İstisu kəndində anadan olub, orada boya-başa çatmış, 4 dəfə yurdundan qaçqın düşmüş, 1995-ci ildə 102 yaşında Sumqayıtda dünyasını dəyişmişdir.*

Səfəralıyeva Qumru İbrahim qızı – *Dərələyəzdə anadan olub, orada boya-başa çatmışdır. Laçına köçüb, oradan qaçqın düşüb, 98 il yaşayıb.*

Səfiyev Gəray Əli oğlu – *1911-ci ildə Dərələyəzin Terp kəndində anadan olmuş, orada boya-başa çatmış, 1948-ci ildə vətənindən deportasiya olunmuş, 1955-ci ildə doğma yurda qayıtmış, 1981-ci ildə dünyasını dəyişmişdir.*

Şahhüseynov Sabir Allahqulu oğlu – *1951-ci ildə Dərələyəzin Axta kəndində doğulub, orada boya-başa çatmışdır. Ali təhsillidir, 1988-ci ildə yurdundan zorla çıxarılıb, hal-hazırda Bakıda yaşayır.*

Şahverdiyev Əmrah Şahverdi oğlu – *1909-cu ildə Dərələyəzdə, İstisu kəndində anadan olub, orada boya-başa çatıb. 1988-ci ildə represiyaya məruz qalıb, 1990-cı ildə 81 yaşında Sumqayıtda rəhmətə gedib.*

Şəkil Dərələyəzli – *Paşayev Şəkil Təvəkkül oğlu 1938-ci ildə Dərələyəzin Qabaxlı kəndində doğulub, orada boya-başa çatıb, 1988-ci ildə zorla yurdundan qovulub, Sumqayıtda məskunlaşıb və hal-hazırda orada yaşayır. Ali təhsilli dil-ədəbiyyat müəllimi və sinədəftər şairdir.*

Şıxəliyev Gəray Fərman oğlu – *1934-cü ildə Dərələyəzin Gindivaz kəndində anadan olub, Dərələyəzdə boya-başa çatmış, hal-hazırda Bakıda yaşayır.*

Talıbov Rəhim Xudaverdi oğlu – *Dərələyəzin Çaykənd kəndində anadan olmuş, orada boya-başa çatmışdır. 86 il yaşayıbdır.*

Urusdamov Hüseyn Ağamirzə oğlu (Nərgiz oğlu Hüseyn) – *Dərələyəzin Qalaser kəndində anadan olub, orada boya-başa çatıb, 1988-ci ildə doğma yurdundan zorla qovulub, Bakıda məskunlaşıb 114 yaşında Bakıda dünyasını dəyişibdir.*

Xudaverdiyev Süleyman Kərim oğlu – *Dərələyəzin Qovuşuq kəndində anadan olub, orada boya-başa çatmışdır. 74 il yaşayıb və öz kəndində dünyasını dəyişibdir.*

Yadigar Məhəmmədəli oğlu – *Dərələyəzin Sallı kəndindəndir, ali təhsilli ziyalıdır, Aşıq Qulunun nəvəsi, el şairi Məhəmmədəlinin oğludur. Hal-hazırda Bakıda yaşayır.*

Zülfüqarova Züleyxa – *1935-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olub. Orada boya-başa çatıb. Hal-hazırda Abşeron rayonunun Novxanı kəndində yaşayır.*

Zülfüqarov Kazım Şavo oğlu – *1933-cü ildə Dərələyəzin Qovuşuq kəndində anadan olub. Orada boya-başa çatıb. Ali təhsillidir. 1988-ci ildə ermənilər tərəfindən zorla vətənindən qovulub, hal-hazırda Sumqayıtda yaşayır.*

Zülfüqarov Əli Şavo oğlu – *1917-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, orada ömür sürmüş, 1988-ci ildə ermənilər tərəfindən yurdundan qovulmuş, hal-hazırda Bakıda yaşayır.*

Zülfüqarova Rəfiqə Məmməd qızı – *1952-ci ildə Dərələyəzin Qovuşuq kəndində anadan olmuş, 1975-ci ildə Abşeronun Novxanı kəndinə köçmüş, hal-hazırda orada yaşayır.*

Zülfüqarov Paşa Məhəmməd oğlu – *1951-ci ildə Dərələyəzin Qovuşuq kəndində doğulmuş, orada böyümüş, sonra Bakıda məskunlaşmışdır. Ali təhsilli həkimdir.*

# MÜNDƏRİCAT

*Müəllifdən* ........ 3
Dərələyəz mahalı haqqında qısa məlumat ........ 4

**DƏRƏLƏYƏZ BAŞQA BÖLGƏ ŞAİRLƏRİNİN GÖZÜNDƏ**

Dərələyəzdə *(Səadət Buta)* ........ 10
Dərələyəzdədi *(Xarac Salahov)* ........ 11
Dərələyəz *(Ələmdar Keştəkli)* ........ 16

Holavarlar ........ 17
Ev heyvanlarının deyişməsi ........ 18
Sayaçı sözlər ........ 18
Qoyunların cütlənib yoxlanması ........ 21
Eydirmələr ........ 21
Ala dana ........ 21

**MÖVSÜM VƏ MƏRASİM NƏĞMƏLƏRİ**

Qodu-qodu nəğməsi ........ 22
Kos-kosa nəğməsi ........ 22
Hamam hamam içində ........ 23
Yel Baba mərasimi ........ 23
Çillələrin bəhsi ........ 24
Çillə ........ 25
Boz ay ........ 25
Xıdır Nəbi ........ 26
Xıdır Nəbi ........ 26
Xıdır Nəbi ........ 26
Novruz bayramında oxuyardılar ........ 26
Yaz mövsümü, Novruz bayramı, bənövşə ........ 27
**Mövsüm-mərasim nəğmələri və onlarla bağlı inamlar**
Üzərlik yandırma ........ 27
Yağışı kəsmək ........ 28
Düzgülər ........ 28
Dənbələn göz ........ 29
Üşüdüm, ha üşüdüm ........ 29

**DƏRƏLƏYƏZDƏ ƏN ÇOX SÖYLƏNİLƏN MİFLƏR, RƏVAYƏTLƏR, ƏFSANƏLƏR VƏ İNAMLAR**

Deyirlər Ay Günəşin oğludur ........ 31
Gözə görünməz ........ 31
Əjdaha ........ 31
Bir kişi atınan gedirmiş ........ 32

Cinni dərə ... 32
Cin toyu ... 33
Cin toyu ... 33
Cinin mamaçası ... 34
Cinin qaravaşlıxdan qaşması ... 35
Hal arvad ... 35
Hal anası ... 36
Hal vahıməsı ... 36
Şəfa ağacı ... 37
Nuhun gəmisi ... 38
Alagöllər əfsanəsi ... 38
Zülmət daşı ... 39

## AZƏRBAYCAN XALQ ƏFSANƏLƏRİ

Gəlin atılan qaya ... 41
Gəlin qaya ... 41
Gəlin qayası ... 42
Ləlvar dağı ... 42
Qısır dağ ... 43
Abduləsər dağı ... 43
Səhənguçan təpə ... 44
Ərgəz pırı ... 44
Ertış piri ... 45
Sal-Sal qalası ... 45
Şah Abbas ... 46
Bəhlülü danəndə ... 46
Daha yaza nə qaldı ... 47

## ƏHVALATLAR VƏ RƏVAYƏTLƏR

Məmmədölən yurd ... 48
Əsədullanın əhvalatı ... 48
Oğru Vəlinin kələyi ... 50
Aşıq və gəlin ... 51
Aşıq Nəbinin Ağaverdiyə sataşması ... 51
Heyvanlarla bağlı olan əhvalatlar
- Dəvə uşaqdı? ... 52
- Pələngin ayağını tülkü bağlayır, siçan açır ... 53

**İNAMLAR, ETİQADLAR, İNANCLAR, SINAMALAR ... 54**
**YASAQLAR ... 58**
**SINAMALAR ... 59**
**İNAMLAR**
- Qurd ağzı bağlamaq ... 59

YUXUYOZMALAR .......... 60
ANDLAR .......... 60
ALQIŞLAR .......... 61
QARĞIŞLAR .......... 67
HƏDƏ-QORXULAR .......... 72
YALVARIŞLAR .......... 73
SÖYÜŞLƏR .......... 73
LAĞLAR, ATMACALAR .......... 73
VƏSFLƏR, BƏNZƏTMƏLƏR, DEYIMLƏR .......... 75
DEYİMLƏR .......... 78
ÖYÜD-NƏSİHƏTLƏR, MƏSLƏHƏTLƏR .......... 79
VƏSFİ HALLAR .......... 79
İMAMLARIN VƏSFİ
Xəbər al deyim .......... 80

## OYUNLAR

Dırədöymə .......... 81
Aşıx-aşıx .......... 81
Gizlənpaç .......... 82
Eşşək beli .......... 83
Çiling-ağac .......... 83
Çiling-ağac .......... 84
Üzük-üzük .......... 84
Beşdaş .......... 84

BAYATILAR .......... 86
MÜXTƏLİF BAYATILAR .......... 110
AĞILAR .......... 111
SIZLAMALAR .......... 116

## XALQ MAHNILARI, TOY MƏRASİMLƏRİNDƏ OXUNAN MAHNILAR

Arpaçay gözəli .......... 117
Saranı .......... 117
Xalq mahnıları .......... 118
Ay bəri bax, bəri bax .......... 118
Deyişmələr .......... 119
Mahnı .......... 120
Toy mərasimi .......... 120
Gəlinə xitabən .......... 120
Qız seçilməsi .......... 120
Bəyin tərifi .......... 120

**Toy mərasimində oxunan mahnı**
Araz gəlir ... 121

**ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR** ... **122**
**TAPMACALAR** ... **157**

## GÜLMƏCƏLƏR

Oranın yiyəsi var ... 165
Sənin nəyinə gərəkdir onun küçüyü var, ya yoxdur ... 165
Eşq olsun sənə bülbül, doğduğun bülbül kımı oxuyacaq ... 166
Molla da keçməz ... 166
Kokaz nə qanır ... 166
Nə dedimki?! ... 166

## TƏMSİLLƏR

Xoruzların hamısı sənın tayındır əmi! ... 167
Valı dəyiş ... 167
Xoruz ilhamı ... 168
Bərəkallah Fərəculla ... 168
Ağa pristav, biz dağ adamıyıx ... 169
Ya Həzrət Abbas qaç, öküz gəldi! ... 169
Qonaxsan qonax yerində otur! ... 170
Quleybanı əhvalatı ... 170
Molla gəlmişkən ölən ölsün, qalan qalsın ... 171
Mollanın duvası yağı çoxaltdı ... 171
Görmürsən Allah veribdir?! ... 171
Yandı bizim çırağımız, söndü sizin çırağınız ... 172
Əlim dəyib ... 172
Tarp və Terp hadisəsi ... 173
Nə vecinə ... 173
Qara ılə ağ qarışanda sortu yaxşı olur ... 173
Çapbağa nə var ... 174
Yox balam, o boyda olmazdı ... 174
Buğa əhvalatı ... 175
Cəvizı soyuq aparacaq ... 175
«Qlazok» göstərmir ... 176
Mənə Ayıboğan Oruc deyərlər ... 176
Alının böyük toyuna gələk ... 177
İmoş məni yeyəcək ... 177
Bu papaq mənə haram olsun ... 178
İman çayı keçsəydi ... 178
Arazı keçənnən günüm budu ... 178
Qatırçıynan nalbənd ... 179

Çalın, zurnaçılarım, çalın ........ 180
Mülkü bəy ........ 180
Ay Mülkü bəy, Mülkü bəy ........ 181

**TÜRKƏÇARƏLƏR ........ 182**
**ŞƏFALI BİTKİLƏR VƏ ONLARDAN HAZIRLANAN MƏHSULLAR... 186**
**OVSUNLAR ........ 187**
**DƏRƏLƏYƏZDƏ XALQ TƏBABƏTİNİ YAŞADANLARDAN BƏZİ NÜMUNƏLƏR ........ 188**

## UŞAQ FOLKLORU

Laylalar ........ 190
Oxşamalar ........ 191
Nazlamalar, əzizləmələr ........ 191
Oxşamalar ........ 192
Bənzətmələr ........ 192
Alqış-laylalar ........ 192
Qurbanlar ........ 193
Oxşama ........ 193
Cırnatmalar ........ 194
**Oyun-nəğmələr**
O qara qazan doldumu? ........ 194
Bir-iki ........ 194
Əkil-bəkil ........ 194
**Sanamalar**
İynə, iynə ........ 195
Barmaqlar ........ 195
Dolamalar ........ 195
**Yanıltmaclar ........ 196**
Bənövşə ........ 196
**Laylalar ........ 197**
**Heyvanlara və quşlara dair**
Tülkü, tülkü ........ 197

## DƏRƏLƏYƏZLƏ BAĞLI BƏZİ HADİSƏ VƏ ƏHVALATLAR

Qaçaq Nəbinin Dərələyəzdə goburnatla döyüşü ........ 198
Canılı Cəlal bəylə Qaçaq Nəbinin döyüşü ........ 200
Qanlı dərənin qisası Bərk dərədə alındı ........ 201
Aşıq Bəhmanın marşal İ.X.Bağramyana cavabı ........ 202
Hürü qarının hikməti, Aşıq Paşanın zilləti ........ 203
***Dərələyəz ağsaqqallarının Nəriman Nərimanovla görüşü.*** Qabar onun əlində yox, dilindədir ........ 204
İmanın sazı, axundun sözü ........ 205
Molla Şahverdinin Paşa bəyə ərzi-halı ........ 209

DƏRƏLƏYƏZ AYAMALARI ........ 212
DƏRƏLƏYƏZİN ŞİVƏ SÖZLƏRİ
1. Arxaikləşən və arxaikləşmə ərəfəsində olan sözlər ........ 213
2. Qohumluq bildirən sözlər ........ 213
3. Çəki, ölçü və pul vahidlərinin adlarını bildirən sözlər ........ 213
4. Vəzifə, rütbə bildirən sözlər ........ 214
5. Köhnə vergi adları bildirən sözlər ........ 214
6. Bitki adları bildirən sözlər ........ 214
7. Termin səcyyəli sözlər ........ 214
8. Dərələyəzdəki şivə sözlərinin lüğəti ........ 221

## AŞIQLAR

**Aşıq Cəlil** ........ **240**
*Qoşmalar*
Hardasan ........ 241
Olar ........ 241
Bilmərəm ........ 242
Üz ola ........ 242
Gözə görünməz ........ 242

**Aşıq Qəhrəman** ........ **243**
*Gəraylılar*
Ellər ........ 244
Tərlanım ........ 244
*Qoşmalar*
Yerindədir ........ 245
Sevdiyim ........ 245
Düşübdü ........ 246
Bilmədim ........ 246

**Aşıq Fətulla** ........ **247**
*Gəraylılar*
Gəlin ........ 248
*Qoşmalar*
Meydanı ........ 249
Gözəl ........ 249
Zülflərin ........ 249
Bənzər ........ 250
İstər könlüm ........ 250
Yan barı ........ 250
Allı qız ........ 251
Əsmərim ........ 251
Dodaq-dodağa ........ 251

Daş-daşa ........ 252
Kürdün ceyranı ........ 252
Qız ........ 252
Dağ-dağa ........ 253

**Aşıq Behbud ........ 253**
*Gəraylılar*
Ağsu ........ 253
Getdı ........ 254
*Qoşmalar*
Necoldu ........ 254
Sazımdı ........ 255
Dözəsən gərək ........ 255
Göyçə mahalı ........ 255
Cermuk ........ 256
Hara hey ........ 256
Bızım arvad ........ 256
*Bağlama*
Var ........ 257
Aşıq Behbud və Saçlı ........ 257
Aşıq Behbudun Qara Kilsə səfəri ........ 260

**Aşıq Qulu ........ 262**
*Gəraylılar*
Kimi ........ 263
Məni ........ 263
Dağlar ........ 263
Xoş gəldin ........ 264
Gördüm ........ 264
*Qoşmalar*
Danışaq ........ 264
Oldu ........ 265
Samovar ........ 265
Gəzirəm ........ 266
Hərbnamə ........ 266
Düşübdü ........ 266
Dağlarım ........ 267
*Bağlamalar*
Var ........ 267
Arasında ........ 268

**Aşıq Bəhman (Sallılı) ........ 268**
*Gəraylı*

Mənim ........ 268
Hanı? ........ 269
*Qoşma*
Hayıf oldu ........ 269
Vəsiyyət ........ 270

**Aşıq Mehdi ........ 270**
*Gəraylılar*
Dağlar ........ 271
Dağlar ........ 271
Bızım dağlar, bızım dağlar ........ 272
O dağların ........ 272
Dağlar ........ 272
Dağlar ........ 273
Dağlar ........ 273
Qoynunda-qoynunda ........ 273
Düşdü ........ 274
Ağarma, saçım, ağarma ........ 274
Kimidır ........ 275
Süzə-süzə ........ 275
Kəklik ........ 275
Nərgiz ........ 275
Bənövşə ........ 276
Bulaq ........ 276
Gəldi ........ 276
Gəlir ........ 277
Gələndə ........ 277
Azərbaycan ........ 277
Azərbaycan ........ 278
Millətimiz xoş gəlibdi ........ 278
Bayrağıdır ........ 278
Qaldı ........ 279
Vallah-vallah ........ 279
Qurban olum ........ 279
Deyim, deməyim ........ 280
Sənsən ........ 280
Dayna ........ 280
Gülə-gülə ........ 281
Nədəndi ........ 281
Nazlana-nazlana ........ 281
Ziyarətdir ........ 282
Yaraşır ........ 282
Qucağında ........ 282

Belə sinə ............ 283
Dağlar oğlu Məmməd Araz ............ 283
Gəzə-gəzə ............ 283
Bağışlayıb ............ 284
Yaradıb ............ 284
Qardaş ............ 285
Balasını ............ 285
O dağların çobanları ............ 285
Danışır ............ 286
*Qoşmalar*
Saxla ............ 286
Olmaz ............ 287
Olmaz ............ 287
Olmaz ............ 287
Olmaz ............ 288
İstəmə ............ 288
Gedəcək ............ 288
Dəymə ............ 289
Gülərmiş ............ 289
Gedər ............ 289
Qalarmış ............ 289
Yaxşıdı ............ 290
Manat ............ 290
Çələbı Fatmanı ziyarət eylə ............ 290
Dağlar ............ 291
O dağlar ............ 291
Dağların ............ 291
Gəlir ............ 292
Yadıma düşdü ............ 292
Qalıb ............ 292
Olmuşam ............ 293
Solubdu ............ 293
Göyçə sizindir ............ 294
Göyçə ............ 294
Dağında ............ 295
İstisu ............ 295
Düşüb ............ 295
Yavaş-yavaş ............ 296
Olmaz ............ 296
Xoşum gəlir ............ 296
Deyiləm ............ 296
Gördüm ............ 297
Ay baba ............ 297

Yavaş-yavaş ... 297
Vurğun ... 298
Xoş gəldin ... 298
Ayrıldı ... 299
Səndədi ... 299
Xoş gəlmişsiniz ... 299
Nəvən olub ... 300
Mənim ... 300
Sevinir ... 300
Gəzəydik qoşa ... 301
Olma ... 301
Dığa ... 302
Köpəkoğlu ... 302
Salım ... 303
Dönərsən ... 303
Arvadım ... 303
Səni ... 304
Mehdiyəm ... 304
416-nın əsgəriyəm mən ... 304
Utanmır ... 305
Məni ... 305
Ləkələnməsin ... 305
*Təcnislər*
Dər indi ... 306
Almasın ... 306
Bax-bax ... 307
Çataçat ... 307
***Bayatlılar* ... 308**

**Aşıq Mirzalı ... 311**
*Gəraylı*
Var ... 311
*Qoşmalar*
Qalmadı ... 311
Bağışla ... 312
Arasında ... 312
Həsrət ... 313
Aşıq ... 313
Oğul ... 313
Yaxşıdır ... 314
Əli ... 314
Dilindədir ... 314
Sazdadır ... 315

Yerevandadır ........ 315
Eylər ........ 316
Etdim ........ 316
Yatır ........ 316
Türmədə ........ 317
Məni ........ 318
Eylədin ........ 318
Görmüşəm ........ 318
Unutma ........ 319
Cəbrayılov ........ 319
Anamın ........ 320
Ağladım ........ 320
Şamo dayı ........ 320
Ağlasın ........ 321
Allah kərimdir ........ 321
Ağlama ........ 322
Sevinsin ........ 322
Bacanax ........ 323
Məni ........ 323
Salam de ........ 323
Var ........ 324
Bağışla məni ........ 324
Aşıx Murad ........ 325
İslam ........ 325
Dəmirçi ........ 326
Danış ........ 326
Sazla Aşıq Mirzəlinin deyişməsi ........ 327
Bayatılar ........ 327
Mirzəli və Kətan dastanı ........ 328
Cəfər və Fətullah dastanı ........ 331
Sərraf Qasım və Molla Hüseyn dastanı ........ 339
Sərraf Qasım və Dəli Kür dastanı ........ 343

**Aşıq Həşim ........ 346**
**Aşıq Paşa ........ 346**
**Aşıq Nəbi ........ 346**
Dağlar ........ 347
Can Səfəralı ........ 348
İgid Səfəralı, qoç Məmmədalı ........ 348

**Aşıq Xanlar ........ 349**
Qaldı ........ 349
Məni ........ 349

**Aşıq Məhəmməd (Füqarə Məmməd)** ........ **350**
Hey ........ 350
Füqaralıqdır ........ 350
Gör kimə qaldı ........ 351
Terpli aşıq Əli ........ 351
*Gəraylılar*
Hanı ........ 352
*Qoşmalar*
Naxçıvan ........ 352

**Aşıq Həmid** ........ **353**
*Gəraylı*
Dağlar ........ 353
Vətən dardadı, dardadı ........ 354
*Qoşmalar*
Bilərs ........ 354
Olmus ........ 354
Səni ........ 355
Vətən, bizə sən əmr elə, ........ 355
Deyişmə ........ 355
*Müxəmməs*
Şərura ........ 356

**Aşıq Hüseyn Arpaçaylı** ........ **357**
Ağ Aşıqla Alının deyişməsi ........ 357

**Aşıq Qafar** ........ **358**
*Qoşma*
Puldur ........ 358
Unutma ........ 359
Qardaş ........ 359

**Aşıq Firidun** ........ **360**
Gülə-gülə ........ 360

**Aşıq Nəsib** ........ **360**
Bizə doğru ........ 360

**Aşıq Şükür** ........ **361**
*Qoşmalar*
Olmasa ........ 361
Dünya ........ 362
Bayatılar ........ 362

**Aşıq və xanəndə Qardaşxan** ........ **362**
Məni qaytardılar həyata bir də ........ 363

**Aşıq Talıb**
Gedir ........ 363
Oldu ........ 363

**Aşıq Abdulla** ........ **364**
*Qoşmalar*
Afərin ........ 364
Yavaş-yavaş ........ 364
Aşıq ........ 365
Kimi ........ 365
Xaloğlu ........ 366

**Aşıq Aypara Dərələyəzli** ........ **366**
Balasıyam ........ 367
Kimiyəm ........ 367
Sənin ........ 367

**Aşıq Məmmədtağı** ........ **367**
*Qoşmalar*
Var mənim ........ 368
*Gəraylı*
Qaldı ........ 368
Yoxdu ........ 368

**Aşıq Nəbi** ........ **368**
**Aşıq Əhməd** ........ **369**
**Aşıq Baloş** ........ **369**
**Aşıq Bəylər** ........ **370**
**Aşıq Kirman** ........ **370**
**Aşıq Səyyub** ........ **371**
**Qərib Mamedov** ........ **371**
**Cırranlı aşıq Məhəmməd** ........ **371**
**Aşıq Məhəmməd** ........ **372**
**Aşıq Müzəffər Cəfərli** ........ **372**
**Çivəli Aşıq Əli** ........ **372**
**Aşıq Bərxudar** ........ **373**
**Aşıq Kərəm** ........ **373**
**Aşıq Bilal** ........ **373**

## SAZ, BALABAN, ZURNA, TÜTƏK, NAĞARA, KLARNET, QARMON ÇALANLAR

**Balaban Vəli** ............ 374
**Kərimov Xudakərim** ............ 374
**Kərimov Məhəmməd** ............ 374
**Kərimov Əhməd** ............ 375
**Qaçay Kərimov** ............ 375
**Kərimov Surxay** ............ 375
**Balay Kərimov** ............ 376
**Kərimov Azay Məhəmməd oğlu** ............ 376
**Kərimov Məmməd** ............ 376
**Səfiyev Qoşunəli Ataş oğlu** ............ 377
**Ağayarov Hüseynqulu** ............ 377
**Çərkəz Cabbarov** ............ 378
**Qurbanov Yusif** ............ 378
**Mamed Hümmətalı oğlu** ............ 378
**Şabanov Hacıməmməd** ............ 379
**Səfiyev Sahib** ............ 379
**Xasay Cabbarov** ............ 379
**Mehrəliyev Məhəmməd** ............ 379
**İlayət İsmayilov** ............ 380
**Nəcəfov Cümşüd** ............ 380

## MUĞAM, XALQ MAHNISI VƏ AŞIQ HAVALARINDA OXUYANLAR

**Nəbiyev İdris** ............ 380
**Şahmali Kürdoğlu** ............ 381
**Ağayarov Səlim** ............ 381
Qeydlərim ............ 382
Ağ Aşıq və Süsənbər dastanı ............ 383
Ağ Aşıq haqqında qeydlərim ............ 400
Aşıq Alının Türkiyə səfəri ............ 404
Aşiq Alı haqqinda eşidib bildiklərim ............ 441

*Qaçaq Səfəralı.* Vəli kişi ............ 445
Səfəralı ilə Murovun əhvalatı ............ 449
Qaçaq Səfəralının Zəngəzur səfəri ............ 452
Qaçaq Səfəralının Qaraarxac səfəri ............ 461
Qaçaq Səfəralının Gindivas səfəri ............ 469
Qaçaq Səfəralının Türkiyə səfəri ............ 473
Qoçu Həşimin Qaçaq Safəralıya güllə atması ............ 476
Məmmədalının Cul səfəri ............ 481
Qaçaq Səfəralının Naxçıvan səfəri ............ 483

Qoçu Həşimin üzrxahlığı ........ 492
Səfəralının pristavı qonaq çağırması ........ 493

*Qaçaq Süleyman.* Qaçaq Süleyman haqqında olan şeir və rəvayyətlərdən parçalar ........ 495

## EL ŞAİRLƏRİ

**Folklorun allahı, Dərələyəzin ağsaqqalı İbrahim Mirzəlioğlu ........ 503**
Ay Həsən ........ 505
Bənövşə ........ 506
Qonaq gəl, İlyas ........ 506
Anam Nahadın (Nahidin) atam siyası məhbus olarkən Sibirə göndərdiyi bayatılar .. 507
El ağsaqqalına Aşıq Ələsgərın oğlu Talıbın göndərtdiyi məktub ........ 507
30-u 9 rəqəmı ılə yarıla ........ 508
Borçalı aşıqlarının Dərələyəz səfəri və Mirzəloğlu İbrahimlə söhbətləri... 510
«Hamısı sinədəftərdir. Adamın pişiyini ağaca dırmaşdırırlar» ........ 513
İbrahim Mirzəlioğlunun Bakı səfəri ........ 515

**Şair Alhüseyn ........ 517**
*Qoşmalar*
Amandı ........ 517
Ölsün ........ 517
Kimidir ........ 517

**Şair Rzaqulu ........ 518**
*Gəraylılar*
Dağlar ........ 519
*Qoşmalar*
Olsun ........ 519
Dağların ........ 520
Dağlar ........ 520
Zeynəb ........ 520
Eyləsin ........ 521
Gedirsən ........ 521
Gedirəm ........ 522
Məzar sandıq ........ 522
Əmoğlu ........ 523
*Deyişmə*
Arpa ilə buğdanın deyişməsi ........ 523
*Qıfılbənd*
Neçədir ........ 524
Var ........ 525
Dolanmaz ........ 526

*Müxəmməs*
Haray ... 526
*Qıfılbənd müxəmməs*
Maşın ... 527

**Vahid Əziz ... 527**
*Gəraylı*
Vətən sevgisi ... 528
Bilmirəm ... 528
*Qoşmalar*
Çalın ... 528
Biləsən ... 529
Üstünə ... 529

**Həsən Mirzə ... 530**
*Gəraylı*
Dağlar ... 530
Dərələyəz ... 531
Bu gözələ ... 531
A ceyranım ... 531
Nəvələrim ... 532
*Qoşmalar*
Dərələyəz ... 533
Dərdimi ... 534
Dağlar ... 534
Dərələyəz ... 535
Olarmı? ... 535
Ay Narınc xatın ... 536
Azəri qızı ... 536
Tapın gətirin ... 537
Gözəldir ... 537
Təbriz ... 538
*Deyişmə*
Dərələyəzdə ... 538
"Qaldı" - "Qalmaz" ... 541
"Ay Həsən Mirzə – «Buta» ... 542
***Vətən bayatıları* ... 543**

**Əli Əkbər ... 544**
Sarıtel ... 544
Sona ... 544
Vurulmuşam ... 545
Dəli könül ... 545

Qurban olum ........ 546
Dönmərəm ........ 546
Nazpəri ........ 546
Gözəl ........ 547
Gözəlin iztirabı ........ 547
Görmədim ........ 548
Gülər ........ 548
*Ustadnamə-nəsihətnamə*
Dünyadı ........ 548
Getdi ........ 549
*Vətən həsrəti və vətənin tərənnümü*
Vurğunam ........ 549
Azərbaycanım ........ 550
İtirmişəm ........ 550
Sultan Dərələyəz, xan Dərələyəz ........ 551
Dərələyəz ........ 553
Öp ........ 553
Olaydım ........ 554
Allah ........ 554
Vətən hey! ........ 555
Mənim ........ 556
Həsən müəllimə ........ 556
Görə bilmirəm ........ 557
Neyləyim ........ 557
Dağların ........ 558
Ayrılıq ........ 558
Əmoğlu ........ 559
Gəlmişəm ........ 559
Ağlaram ........ 560
*Məhəbbət qoşmaları*
Sən allah ........ 560
Neynirəm ........ 560
İnciməsin ........ 561
Gül sənə vurğundur, yoxsa sən gülə ........ 561
Sən olmadınmı? ........ 562
Sən olmasaydın ........ 562
Görməmişəm ........ 562
Hardan biləydim ........ 563
Nədəndir ........ 563
Göz dəyər sənə ........ 564
Bənzəyir ........ 564
Gül sənə qurban ........ 564
İncimərəm ........ 565

Özünə qurban ... 565
Bənövşə ... 565
Pərvanə ... 566
*Qoşmalar*
Ay Pəri ... 566
Xəzəngül ... 567
Gülşən ... 567
Elnarə ... 568
Fatma ... 568
Gülpəri ... 568
Güləndam ... 569
Pəri ... 569
*Deyişmələr*
«Əmoğlu» «əmiqızı» ... 570
«Oğlan» - «Ay qız» ... 570
*Mahnılar*
Duet ... 571
Ay oğlan ... 571
*Bayatılar*
Vətənə aid bayatılar ... 572
Qarabağa aid bayatılar ... 575
Məhəbbət bayatıları ... 576
Bayatılar ... 577
Məhəbbət bayatıları ... 578

**Rəhman Mustafayev ... 579**
*Gəraylılar*
Haray vətənim! ... 579
Şuşa həsrəti ... 580
Millətimin qeyrəti ... 580
Dərdim var ... 580
Gəlsin ... 581
Təəssüf ... 581
İstərəm ... 581
Dəyərmi ... 581
Əzizim ... 582
Gözlərin ... 582
Pünhanım ... 582
Olaydın ... 583
Gözəl ... 583
Beləsini ... 583
Həqiqət ... 583

*Qoşmalar*
Amandır ........ 584
Dağlar ........ 584
Vətənim ........ 585
Dağ boyda dağ həsrəti ........ 586
Qardaş ........ 586
Dağlar ........ 587
Bulaq ........ 587
Dünyada ........ 587
Bir imiş ........ 588
Lələ ........ 588
Düşübdür ........ 588
Sual ........ 589
Bilmədim ........ 589
Pünhanım ........ 589
Novruz mərasimi ........ 589
Həftə bayatılarım ........ 590
Dünya bayatılarda ........ 591

**Zakir Şəhriyaz ........ 591**
*Ustadnamələr*
Korlanmasa ........ 591
Paralanmasın ........ 592
Nə var ........ 592
Hayıf olar ........ 592
***Cinaslı bayatılar ........ 593***
*Gəraylılar*
Yazmamışam ........ 595
Dağlar yenə mənsiz qaldı ........ 595
Gətirər ........ 595
Duman getmir bu dağlardan ........ 595
Deyil ........ 596
Yarıyar ........ 596
Bağlana-bağlana ........ 596
Dağlar, məndən inciməyin ........ 597
Qərib eldə ........ 597
Kimi ........ 597
Olmaz ........ 597
Demədin ........ 598
Biləm ........ 598
Doymamışam ........ 598
Sənin qucağında ........ 598
Dağlara-dağlara ........ 599

Yuxuda-yuxuda ... 599
Dərələyəz deyə-deyə ... 599
Yerinə ... 599
O dağlarda ... 600
Ağlar qaldı ... 600
Bir görəydim ... 600
*Cinaslı gəraylılar*
Lala xanım ... 600
*Qoşmalar*
Yerdə ... 601
Ləzzət verər ... 601
Hərdən ... 601
Qaldım ... 602
Yandırır ... 602
Sən də mənə dayı de ... 602
Gəlmir ... 602
Oldu ... 603
Gülür ... 603
Bilir ... 603
Qorxudur ... 603
Qocalanda ... 604
Çoxalıb ... 604
Yoxdur ... 604
Yalanıymış ... 605
Tullamamışam ... 605
Çıxmıram ... 605
Axtarırsan ... 605
Saxlamışam ... 606
Beləsinə ... 606
Ustad ... 606
Qabağında ... 607
*Cığalı qoşmalar*
Ləzzət verər ... 607
Dolanır ... 607
Ha gələ-gələ ... 608
Verə-verə ... 608
Deyə-deyə ... 609
*Dodaqdəyməz cığalı qoşma*
Yetər ... 609
*Təcnislər*
Ay belə qala ... 610
Ayağa sarı ... 610
Yaxana ... 610

Qaralar ........ 611
Az aya ........ 611
Düz keçir ........ 611
Ay ağa bağlar ........ 611
Hayana ........ 612
Atana ........ 612
A sarı telə ........ 612
*Dodaqdəyməz təcnislər*
Ay ağa tək-tək ........ 613
*Təcnis divanilər*
Çalhaçal ........ 613
Cızhacız ........ 613
*Cığalı təcnislər*
Ay yavaş-yavaş ........ 614
Ay süzə-süzə ........ 614
Salhasal ........ 615
Üzə-üzə ........ 615
Gəlincə ........ 616
*Dodaqdəyməz cığalı təcnislər*
A dala-dala ........ 616
Ay elə «sin»ə ........ 617
*Divanilər*
Verər ........ 617
Deyim ........ 618
İşin olmasın ........ 618
Əldən gedir ........ 619
Baş əyər ........ 619
Çıxır ........ 620
Gözləsən ........ 620
*Müxəmməslər*
Kimidi ........ 621
Səni ........ 621
Deyəsən ........ 622
*Başqa səpgidə şeirlər*
Ay Aşıq Mahmud ........ 622
Eloğlu ilə deyişmə ........ 623
Əhliyyət Məmmədli ilə deyişmə ........ 623
Deyişmə ........ 624
Mən belə dünyanın nəyindən yazım ........ 625
Ürəyimdi ........ 626
Səndən ayrı gəzəndə ........ 626
Biz niyə birləşə bilmirik axı ........ 626
Kimi ........ 627

Sən olmadınmı ........ 627
Yurd yerimiz ........ 627
Vətən həsrətini çəkən ürəyim ........ 627
Ulu tanrı, özün qoru bu xalqı ........ 628
Özümə bəsdi ........ 628
Dərələyəz ........ 629
**İsa Əsədov ........ 633**
*Gəraylılar*
Yaz ........ 633
Mən ........ 633
Dağlar ........ 634
Dilə düşür ........ 634
Olsun ........ 634
Masabəyi ........ 635
Yazda olsun ........ 635
Sorağına ........ 635
Molla əmi ........ 636
*Gəraylı təcnislər*
Sarı-sarı ........ 636
Yar, yarandı ........ 636
Yarı-yarı ........ 637
Yara-yara ........ 637
*Qoşmalar*
Can deyir ........ 637
Qoşa-qoşa ........ 638
Yerindədir ........ 638
Görürəm ........ 639
Bu gecə ........ 639
Nə deyim ........ 639
Bir bax ........ 640
Dərələyəzim ........ 640
Düşür ........ 640
Qalır ........ 641
Dilicandadır ........ 641
Kəklik ........ 641
Oldu ........ 642
Qaldı ........ 643
İndi cənnətdədir Heydər Əliyev ........ 643
*Təcnislər*
Üzdü, üz ........ 643
Oxatan ........ 644
Yada nar ........ 644
Silsilə gərək ........ 644

Qaralar ... 645
Şirindi ... 645
Oy, ana ... 645
Ay ata, ata ... 645
Çalmadı ... 646
Gülbaharındır ... 646
A layla ... 646
Nə qoşma ... 647
Dadandı ... 647
Ay azdır, nazir ... 647
Yaranar ... 648
Dağlar ... 648
Qarala ... 648
Ad ara ... 649
A yalan ... 649
Gül incisinə ... 649
Bir ağa ... 650
Yaralar ... 650
Saldı, sal ... 650
Ay ara, ara ... 650
Gül dərdim ... 651
Nədi, nə ... 651
Düz, əyri ... 651
Yarandı, bulaq ... 652
Nədi, nə ... 652
Bir kəsə ... 652
Ala sən ... 653
Düz dərə ... 653
O dilə ... 653
Aldı, al ... 653
A dilə ... 654
Əksilə ... 654
Çaldı, çal ... 654
Üzdə, üz ... 655
Ay Sənəm ... 655
*Cığalı təcnis*
Üz-üzə ... 655
*Hərfi təcnislər*
Ay ana, ana! ... 656
Bir belə ... 656
Qarqara qaldı ... 656
Yaydı, yay ... 657

*Hərfi cığalı təcnislər*
Düz denən ........ 657
Güldü gül ........ 657
Sarı, sapsarı ........ 658
***Bayatılar*** ........ 658
***Gəraylı bayatılar*** ........ 659
***Qoşayarpaq təcnislər*** ........ 660
***Klassiklərin dili ilə*** ........ 661

**Alıyev Alı Abdulla oğlu (Alı Səfolu)** ........ 663
*Gəraylı*
Bilmirəm ........ 664
Ceyranım ........ 664
Görünür ........ 664
Mən də ........ 664
Gördüm ........ 665
*Qoşmalar*
Gözəldi ........ 665
Dərələyəzdi ........ 665
Niyə gəlmədi ........ 666
İstisu ........ 666
Dağlar ........ 666
Deyir ........ 667
***Bayatılar*** ........ 667

**Bayramov Məhəmmədəlı** ........ 669
*Qoşma*
Bənövşə ........ 669
Ağlasın ........ 670
Qaranquş ........ 670
Ələyəz ........ 671
Vətənin ........ 671
Bənövşə ........ 671
Gedirəm ........ 672
Düşərsən ........ 672
Ay qız ........ 672
Mamoğlu ........ 673
Sestra ........ 673
Yaxşıdır ........ 674
***Bağlama***
Pəhləvan ........ 674
Bağlama ........ 674

**Alim Dərələyəzli** ........ 675
*Gəraylı*
Dərələyəz mahalında ........ 675
Anama qurban olum ........ 676
Nəyə lazım ........ 676
*Qoşmalar*
Dərələyəzdə ........ 676
Yaxşı kişilərin mərd övladları ........ 677
Bayatılar ........ 677
Qarğış bayatıları ........ 678
Umud İsmayılov ........ 679
*Gəraylılar*
Dağlar ........ 679
Axtarıram ........ 681
*Qoşmalar*
Görmüşəm ........ 681
Göynədir ........ 682

**Alıquliyev Alı Mehbalı oğlu** ........ 682
*Qoşmalar*
Dağların ........ 682
Mənim ........ 683
Görəydim ........ 683
Bizdən ötəri ........ 683
Yadıma düşüb ........ 684

**Qara Həsən Dərələyəzli** ........ 684
*Gəraylı*
Gəl ........ 684
*Qoşma*
Gəz, onda danış ........ 685

**Şahquliyev Valeh** ........ 686
*Qoşmalar*
Yurd həsrəti ........ 686
Dağların ........ 687
Soruş ........ 687
*Gəraylılar*
Qaldı ........ 687
Qaldı dağlarda ........ 688

**Səyyah Məhəmməd** ........ **688**
*Qoşmalar*
Mən ........ 688
Maral ........ 689
Nənən ölsün ........ 689

**Kərimov Əli Məhəmməd oğlu** ........ **689**
*Gəraylı*
Yerindəmi ........ 690
Hörmətli əmim oğlu Əsrafilə ........ 690
*Qoşmalar*
Kəndimin ........ 690
***Bayatılar*** ........ **691**

**Məmmədov Əli** ........ **691**
*Qoşmalar*
Gəl ........ 692
***Bayatılar*** ........ **692**

**Babayev Kamran Əbdüləli oğlu** ........ **693**
*Qoşmalar*
Dağları ........ 693
Bu gün ........ 693
Harda var ........ 694

**Şəkil Dərələyəzli** ........ **694**
*Gəraylı*
Qaldı ........ 694
*Qoşmalar*
Ay Dərələyəz ........ 695
Dərələyəz ........ 695

**Əli Qəmgin Dərələyəzli** ........ **695**
*Qoşmalar*
Dərələyəzdə ........ 696
Ay Dədə Həsən! ........ 696

**Əhmədov Oktay** ........ **696**
Azərbaycandı ........ 697
Kəlbəcər ........ 697
Dağlar ........ 697

**Aydın Dərələyəzli** .................... **697**
Sarı Bülbül .................... 698
Ay vətən .................... 698
Dur gedək .................... 699
Bu anam .................... 699
Qardaş .................... 699
Nə gecəm var, nə gündüzüm .................... 700
Gedir .................... 701

**Saməddin Hüseynov** .................... **701**
Ey fələk .................... 701
Ana ətri .................... 702
Mən sən olsam .................... 702
Xallı qız .................... 702
Nə üçün .................... 703
Həsən müəllimə .................... 703
Çətindir .................... 704
Xəyal aləmində, xəyal içində .................... 704
Bizim dağlara .................... 704
Şəhidlərin yatan yeri .................... 705
Ağ bulaq .................... 705

**Əşrəf** .................... **705**
***Bayatılar*** .................... **705**

**Kamil Məmmədov** .................... **706**
Görmədim .................... 706

**Fərzəliyev Səməndər Yunis oğlu** .................... **706**
Sənin Həsrətinlə .................... 706

**Ovçu Qəhrəman.** Dərələyəz .................... 707

**Xırda xanım Dərələyəzli** .................... **707**
***Gəraylı***
Qaldı .................... 708
***Qoşmalar***
Dərələyəzdə .................... 708
İndi .................... 708
Oğlum .................... 709
Məni .................... 709
Bayatılar .................... 710

**Höseynova Növrəstə** ............ 710
*Gəraylılar*
Dağlar ............ 710
Qan ağlaram ............ 711
Kaş didərgin olmayaydım ............ 711
*Qoşmalar*
Arzular ............ 712
Bulud ............ 713

**Ballı Dərələyəzli** ............ 713
*Gəraylı*
Didərginəm ............ 713
*Qoşmalar*
Dərələyəz ............ 714
*Bayatılar* ............ 714

**Mənsurə Dərələyəzli** ............ 714
Amandı ............ 715
Salam cetir ............ 715
Mən ............ 716

**Narıngül Dərələyəzli** ............ 716
Dərələyəz ............ 716
Vətən, ağlaram ............ 716

**Anaxanım** ............ 717
*Gəraylı*
Hanı ............ 717

**Həsənli Sona** ............ 718
Ata ............ 718
Həsrət ............ 718
Dərələyəz ............ 718
Bilərsənmi sən ............ 719
Könlüm ............ 719

**İnformatorlar** ............ 720

**Həsən İbrahim oğlu Mirzəyev.**
*8-ci cild.*
**Dərələyəz folkloru,**
Bakı, «Elm», 2006.

| | |
|---|---|
| **Nəşriyyatın direktoru:** | ***Şirindil Alışanov*** |
| **Nəşriyyat redaktoru:** | ***Musa Mirzəyev*** |
| **Kompüterdə yığdılar:** | ***Aliyə Ağakişiyeva*** |
| | ***Aysel Əsgərova*** |
| | ***Ruhəngiz Əfəndiyeva*** |
| **Korrektorları:** | ***Sevinc Sadıqova*** |
| | ***Mahirə Nağıyeva*** |
| **Kompüter tərtibçisi və texniki redaktoru:** | ***Baxşəli Süleymanov*** *fizika-riyaziyyat elmləri namizədi* |

Yığılmağa verilmiş: 02.07.2006.
Çapa imzalanmış: 12.08.2006.
Kağız formatı: 70/100 1/16.
Mətbəə kağızı: №1.
Şərti ç/v: 64.
Tirajı: 1000.
Qiymәti müqavilə ilə.

Kitab "Nurlan" NPM-də səhifələnmiş
və hazır diapozitivlərdən ofset üsulu ilə
çap olunmuşdur.

# AUTOBIOGRAPHY



**Mirzayev Hasan Ibrahim (Hasan Mirza)** *was born in 1927 in Western Azerbaijan in the village of Qovushuq of Daralayaz region.*

*In 1948 he finished the secondary school, in 1950 he graduated from the Nackchivan State Pedagogical University, in 1977 Marksizm- Leninizm University and got a high honour diplomas from these Universities. In 1965 he defended his candidate dissertation and in 1987 his doctor dissertation, at present he is a doctor of Philology, a linguist, a professor and the head of the chair. He is the author of more than 200 scientific works and 11 books (10 of them are monographies) and 8 curricula. He has got more than 60 articles about politics and publicity. He is the scientific editor of 42 works as monographies, manuals, methodological instruction and curricula. He had also been the editor of 5 literary works. He reviewer of 9 manuals and textbooks and the opponent for about 14 candidates and the doctors of sciences.* At the present time there are 12 volumes beinq publişhed of the complete works about his life and activities.

*More than 160 mass media sources highly praised his Social and Public works. More than 40 specialist's positive references were published about his books. 70 poets and writers have written more than 100 verses and 2 poems about his personality and his creative activity. Total volume of these works is more than 3300 lines.*

*He had been the member of the specialized Defence Board at the Linguistic Institute of National Academy of Sciences, Baku State University for a long year. 45 years of his life he had been delivering lectures in auditoriums and more than 55 years of his labour activity professor Hasan Mirzayev occupied different positions. He was elected as a delegate to many sessions conferences and participated in many conferences and symposiums.*

*He has high school honoured specialist. He is the member of political board of New Azerbaijan Party, the member of "the Association of Writers and Journalists" and the Veteran of "Labour". He is also one of the "91- s " leaders and was reward with Order of "Honour". For a long time he had been working as vise- chairman of Republic Head Organization of The Agsaqqallar Board (Aged People Board). He had been elected as a member of Village Soviet in 1959, of Baku City Soviet in 1990, of the first session of Milli Majlis in 1998, of the second session of Milli Majlis in 2000. And he had also been the member of the committee of education, ethics and toponomy in Milli Majlis. He was the chairman of the first session of Milli Majlis (Which elected the chairman Milli Majlis). Being the experienced politician, outstanding public and statesman Mirzayev Hasan (Hasan Mirza) went Mashad in 1998 and Makka in 2000 on pilgrimage. Hse is married and has got 4 children and 10 grandchildren.*

# QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏY



Bu xəritə tarixi mənbə və xəritələrin əsasında

# ƏZ MAHALI (1828-ci il və sonraki dövrlər)

